AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**TARİX İNSTİTUTU**

# ELMİ ƏSƏRLƏR

## «XX ƏSRDƏ TÜRK-MÜSƏLMAN XALQLARINA QARŞI SOYQIRIMLARI»

***mövzusuna həsr olunmuş***
***IV beynəlxalq elmi konfransın materialları***

**XÜSUSİ BURAXILIŞ**

# SCIENTIFIC WORKS

## OF THE INSTITUTE OF HISTORY NAS OF AZERBAIJAN

***IV International Scientific Conference***

## «GENOCIDE OF TURKIC-MUSLIM PEOPLES IN THE TWENTIETH CENTURY»

**SPECIAL ISSUE**

# ТРУДЫ

## ИНСТИТУТА ИСТОРИИ НАН АЗЕРБАЙДЖАНА

***Материалы IV международной научной конференции***

## «ГЕНОЦИД ТЮРКО - МУСУЛЬМАНСКИХ НАРОДОВ В XX ВЕКЕ»

**СПЕЦИАЛЬНЫЙ ВЫПУСК**

**1947-ci ildən**
**nəşr olunur**

**64, 65, 66 / 2017**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**A.A.Bakıxanov adına Tarix İnstitutu**
**Elmi Şurasının qərarı ilə çap olunur**

**Baş elmi məsləhətçi**: *Akademik* **Akif ƏLİZADƏ**
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*

**Baş redaktor**: **Yaqub MAHMUDOV**
*Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, AMEA-nın müxbir üzvü*

**Xüsusi buraxılışın redaksiya heyəti:**

Akad. İsa **HƏBİBBƏYLİ**, AMEA-nın müxbir üzvü Nərgiz **AXUNDOVA,**
Akad. Nailə **VƏLİXANLI**, akad. Teymur **BÜNYADOV**, akad. İsmayıl **HACIYEV**,
fil.ü.f.d. Səbinə **ALMƏMMƏDOVA,** Ədilə **AĞABƏYOVA,**
t.ü.f.d. Nərgiz **AXUNDOVA,** t.ü.e.d. İradə **BAĞIROVA**,
t.ü.f.d. Cəbi **BƏHRAMOV** (baş redaktor müavini),
t.ü.e.d., prof. Həsən **ƏLİBƏYLİ,** t.ü.f.d. İradə **ƏLİYEVA** (məsul katib),
t.ü.f.d. Sevinc **ƏLİYEVA,** t.ü.f.d. Allahverdi **ƏLİMİRZƏYEV,**
t.ü.e.d Şahin **FƏRZƏLİYEV**, t.ü.e.d. Qasım **HACIYEV**,
t.ü.f.d. Hacı **HƏSƏNOV**, r.ü.f.d. Mehri **XANBABAYEVA**,
t.ü.e.d. Ədalət **QASIMOV,** t.ü.f.d. Nigar **MAKSVELL,**
t.ü.f.d. Elmar **MƏHƏRRƏMOV**, t.ü.e.d. Tamilla **MUSAYEVA**,
t.ü.e.d. Tofiq **MUSTAFAZADƏ**, t.ü.e.d. Natiq **MƏMMƏDZADƏ**
t.ü.f.d. Tofiq **NƏCƏFLİ** (baş redaktor müavini)**,** t.ü.f.d. İlqar **NİFTƏLİYEV**,
t.ü.e.d. Məryəm **SEYİDBƏYLİ**, t.ü.e.d. Kərim **ŞÜKÜROV**

ISBN 978-9952-479-02-7

© AMEA, Tarix İnstitutu, 2017

# AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

**1813-cü və 1828-ci** illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları **1905-1907**-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş **1917**-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası **1918**-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr **1947**–ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və **1948-1953-**cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə

deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırınaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırıldırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq **1990**-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**HEYDƏR ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti.
**Bakı şəhəri, 26 mart 1998-ci il**

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

**«AZƏRBAYCAN və ŞƏRQİ ANADOLUNUN TÜRK-MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI» mövzusunda keçirilən II beynəlxalq elmi konfransın iştirakçılarına**

Sizi səmimi qəlbdən salamlayır və mötəbər elmi toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

İnsanlığa qarşı törədilən cinayətlərin ən ağırı sayılan soyqırım probleminin dərindən və hərtərəfli öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Hər bir humanitar faciənin elmi cəhətdən araşdırılması və tarixi faktların dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılması həmin hadisəyə obyektiv siyasi-hüquqi qiymətin verilməsinə, günahkarların layiqli cəzasına çatmasına və gələcəkdə belə halların qarşısının alınmasına həlledici təsir göstərə bilər.

Azərbaycan xalqı da son yüz ildə dəfələrlə amansız təcavüzün qurbanı olmuş, qırğınlara, deportasiya və etnik təmizləmələrə məruz qalmışdır. Konfransın keçirildiyi Quba şəhərində 8 il əvvəl aşkar edilmiş kütləvi insan məzarlığı erməni millətçilərinin XX əsrin əvvəllərində Azərbaycan və Şərqi Anadolunun türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi sistemli və məqsədyönlü qətllərin yalnız bir fraqmentidir. Sovet hakimiyyəti dövründə bu cinayətlərin ört-basdır olunması, tarixçilərin öz elmi-tədqiqat işlərini məhdud ideoloji çərçivələr və yanlış metodologiya əsasında aparmağa məcbur edilməsi erməni ekspansionist şovinizminin daha da güclənməsinə rəvac vermiş, 23 il əvvəl dünya ictimaiyyətinin gözü qarşısında Xocalı soyqırımı kimi ağır faciənin baş verməsinə zəmin yaratmışdır. Etnik mənsubiyyətə görə törədilmiş bu kütləvi qırğına beynəlxalq birliyin vaxtında adekvat münasibət bildirməməsi sonralar planetin başqa yerlərində, o cümlədən Avropanın mərkəzində soyqırım cinayətlərinin təkrarlanmasına yol açmışdır.

Qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə xalqlar arasında əlaqələrin güclənməsi universal bəşəri dəyərlərə hörmətlə yanaşmağı tələb edir. Belə şəraitdə, Azərbaycanda olduğu kimi, humanitar əməkdaşlığın, sivilizasiyalararası dialoqun və multikulturalizm ənənələrinin təşviq edilməsi, milli və dini tolerantlıq mühitinin möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlərin görülməsi zəruridir. Ona görə də dünyanın mütərəqqi qüvvələri, ictimai, siyasi, elm və mədəniyyət xadimləri soyqırım cinayətlərinə yol açan etnik, irqi və dini dözümsüzlüyə, düşmənçilik yaradan bütün hallara qarşı qətiyyətlə mübarizə aparmalıdırlar. Bu sahədə atılmalı olan ən mühüm addımlardan biri də tarixi yaddaşın təzələnməsi, uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlərin açılması, təhrif edilmiş tarixi hadisələrə obyektiv elmi qiymətin verilməsi ola bilər.

Şübhə yoxdur ki, dünyanın müxtəlif ölkələrindən tədqiqatçıların qatıldığı bu beynəlxalq elmi konfrans maraqlı məruzə və çıxışlarla, problemin ayrı-ayrı aspektlərinə dair qiymətli faktların təqdimatı ilə yadda qalacaqdır. Əminəm ki, gələcək araşdırmalarınız da türk-müsəlman xalqlarının şanlı keçmişinin faciəli məqamlarına işıq salmağa və tarixdən ibrət dərsi götürməyə xidmət edəcəkdir. Bu nəcib fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

İlham Əliyev

Bakı şəhəri, "08" aprel 2015-ci il

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**

**«AZƏRBAYCAN və ŞƏRQİ ANADOLUNUN TÜRK-MÜSƏLMAN ƏHALİSİNİN SOYQIRIMI»**
**mövzusunda keçirilən III beynəlxalq elmi konfransın iştirakçılarına**

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi qəlbdən salamlayır və mötəbər elmi toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Müasir dövrdə dinc birgəyaşayış normalarının təmin edilməsi, multikulturalizm ideyalarının bərqərar olması bütün bəşəriyyət üçün öz aktuallığını saxlayır. Təəssüf ki, hələ də dünyada milli, irqi, dini və digər əlamətlərinə görə insanların terrora məruz qalması, kütləvi şəkildə qırılması və deportasiya edilməsi kimi hadisələr baş verir. Yalnız zorakılığa, qanlı cinayətlərə və soyqırımlarına yol açan bütün hallara qarşı hamılıqla mübarizə aparılacağı təqdirdə, indiki və gələcək nəsilləri ağır bəlalardan qorumaq mümkündür.

Tarixin müxtəlif mərhələlərində çətin sınaqlardan keçmiş Azərbaycan və digər türk-müsəlman xalqlarının üzləşdikləri soyqırım hadisələrinə də obyektiv hüquqi-siyasi qiymətin verilməsi mühüm vəzifə kimi qarşımızda durur. Soyqırım aktı təkcə onun qurbanlarına qarşı deyil, həm də bütün bəşəriyyət əleyhinə törədilmiş ağır cinayət hesab edilir. Cinayətkarların beynəlxalq hüquq normalarına uyğun olaraq layiqli cəzalarına çatması və gələcəkdə belə halların qarşısının alınması üçün ilk növbədə tarixin qanlı səhifələrinin dərindən öyrənilməsi, proseslərin adekvat elmi dəyərləndirilməsi zəruridir. Ona görə də müxtəlif ölkələrin elm adamlarının səylərinin bu istiqamətdə birləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, Azərbaycan xalqının başına gətirilən amansız soyqırımların izlərinin hələ də itmədiyi Şamaxı şəhərində keçirilən III beynəlxalq elmi konfrans da əvvəlki toplantılar kimi faydalı olacaq, tarixi gerçəkliyin üzə çıxarılmasına, haqq və ədalətin zəfər çalmasına xidmət edəcəkdir. Sizə bu şərəfli işinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

İlham Əliyev

Bakı şəhəri, "07" aprel 2016-cı il

# ÖN SÖZ

## BÖYÜK DÖVLƏTLƏRİN SİYASƏTİ TARİXİ HƏQİQƏTLƏRƏ ƏSASLANARSA DÜNYA RAHAT NƏFƏS ALAR...

Dünya bu gün son dərəcə mürəkkəb və olduqca təhlükəli qarşıdurmalarla üz-üzədir. Qafqaz da daxil olmaqla bütün Yaxın və Orta Şərq regionu soyqırımları, kütləvi qırğınlar, terror və silahlı qarşıdurmalar içərisində çapalayır. Milyonlarla insan itkisinə, misli görünməmiş dağıntılara və fəlakətlərə səbəb olmuş Birinci və İkinci Dünya müharibələrinin başlandığı Avropada faşizm, irqçilik, islamofobiya yenidən baş qaldırmışdır. Böyük güc mərkəzləri "insan haqları", "demokratiya", "beynəlxalq hüququn müdafiəsi", "terrora qarşı mübarizə" pərdələri altında, əslində, soyqırımlarına və terrora rəvac verir, dünyanı yenidən nüfuz dairələrinə bölmək uğrunda ölüm-dirim mübarizəsi aparırlar. Bir sözlə, Xaç yürüşləri, Böyük coğrafi kəşflərlə başlanmış özgə torpaqlarını ələ keçirmək, bu torpaqların aborigen xalqlarını və onların yaratdığı qədim mədəniyyətləri məhv etmək siyasəti yeni forma və metodlarla davam etdirilir. Əsas hədəf yenə Şərq ölkələri, o cümlədən türk-islam dünyasıdır.

Dünya birliyi tərəfindən tanınan öz ərazisində - doğma torpaqlarında milyondan çox qaçqını olan və ərazisinin 20 faizindən çoxu erməni işğalçılarının tapdağı altında olan Azərbaycan xalqı 25 ildir ki, bütün bu acı həqiqətləri – ikili standartlar siyasətinin fəlakətli nəticələrini öz üzərində yaxından hiss edir. Bizim xalqımız çox aydın görür ki, ikili standartlar dünyası haqqı tapdalanan, torpağı işğal olunan, ədalətli mübarizə aparan Azərbaycanı deyil, işğalçı, Xocalı soyqırımını törədən, milyondan çox insanı doğma yurd-yuvasından məhrum edən erməni faşizmini, terrorçu Ermənistan rejimini müdafiə edir.

Yaşadığımız dünyanın bütün bu haqsızlıqlarına rəğmən Azərbaycan Respublikası bütün ölkələrlə sülh və dostluq siyasəti yeridir, ölkəmizin başçısı İlham Əliyev regionda və dünyada sülhün və sabitliyin qorunub saxlanılması naminə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı süni surətdə yaradılmış problemin sülh yolu ilə həll olunması üçün yorulmadan mübarizə aparır. Bizim Prezidentimiz ölkəmizin ərazisində yaşayan digər xalqların nümayəndələri ilə bağlı multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla Azərbaycan reallığını bütün dünyaya nümunə kimi təqdim edir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və himayəsi altında hər il Azərbaycanda keçirilən dünya tarixçilərinin Beynəlxalq soyqırımı konfransları real tarixi həqiqətlərin aşkara çıxarıl-

masında, tarix elminin yeni faktlar və elmi ümumiləşdirmələrlə zənginləşməsində mühüm rol oynayır.

Azərbaycan dövlətinin başçısı Milli Elmlər Akademiyası Tarix İnstitutunun keçirdiyi bu beynəlxalq elmi konfransların fəaliyyətini həmişə diqqət mərkəzində saxlayır və konfrans iştirakçılarına ənənəvi Müraciət məktubları ünvanlayır.

Bundan əvvəl Bakıda, Qubada və Şamaxıda keçirilmiş Beynəlxalq soyqırım konfranslarında Azərbaycan, Rusiya, Türkiyə, Almaniya, Polşa, Albaniya, Ukrayna, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, İran, Hindistan və digər ölkələrin görkəmli tarixçiləri XIX-XX əsrlərdə, Azərbaycan, Şərqi Anadolu, müasir İran İslam Respublikasının azərbaycanlılar yaşayan şimal-qərb bölgələri, Qafqaz, Mərkəzi Asiya və Volqaboyunda həyata keçirilmiş soyqırımları, deportasiyalar və repressiyalarla bağlı maraqlı məruzələrlə çıxış etmişlər. Hər üç elmi konfrans materialları nəşr olunmuş, iştirakçılara paylanmışdır.

Dünya tarixçilərinin növbəti **IV** Beynəlxalq konfransı Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan və 1918-1919-cu illərdə erməni-daşnak quldurlarının dəhşətli soyqırımlarına məruz qalmış Lənkəran şəhərində keçirilir.

"**XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları**" probleminə həsr olunmuş IV Beynəlxalq Lənkəran konfransında son **200** il ərzində böyük bir coğrafiyada türk-müsəlman xalqlarına qarşı sistemli surətdə yeridilmiş olan soyqırımları, deportasiyalar, repressiyalar siyasəti və bunun fəlakətli nəticələri müzakirə olunacaqdır. Konfransda xarici ölkələrin 50-dən çox aliminin, o cümlədən Rusiya Federasiyası, Almaniya, Türkiyə, Albaniya, Polşa, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Ukrayna, Moldova və başqa ölkələrdən gəlmiş tədqiqatçıların son 200 il ərzində türk-islam ölkələrində baş vermiş soyqırımlarına həsr olunmuş məruzələri dinləniləcəkdir.

İnanırıq ki, dünyanın çox görkəmli alimlərinin, tanınmış elm təşkilatçılarının iştirakı ilə Azərbaycanın 1918-1919-cu illərdə dəhşətli soyqırımlarına məruz qalmış Lənkəran şəhərində keçirilən IV Beynəlxalq soyqırımı konfransı real tarixi keçmişin dünya tarixçiləri tərəfindən birgə araşdırılması və tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaqdır.

**Yaqub MAHMUDOV**

*AMEA-nın müxbir üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı Laureatı*

# FOREWORD

## THE WORLD WILL BE STABLE AND SAFELY IF THE GREAT STATES' POLICY IS BASED ON HISTORICAL FACTS...

Today the world is facing extremely complex and dangerous conflicts. The entire Near and Middle East region, including the Caucasus is engulfed in acts of massacres, genocide, terror and armed conflicts. In Europe, where the First and Second World Wars began and caused loss of millions of people, unprecedented destruction and disasters, fascism, racism, and Islamophobia are once again raising their heads. Under the veil of "Human Rights Watch", "democracy", "protection of international law","fight against terrorism", the great powers in fact, fighting the life and death for a new division of the world into spheres of influence only contribute to genocide and terror. In other words, the policy of seizure of alien territories, annihilation of aboriginal peoples and their ancient cultures, that began from the time of the Crusades and Great geographical discoveries, continues today with new methods and new forms. And the main target again is Eastern countries, including the Turkish-Islamic world.

Azerbaijan - an independent state recognized by the world community for 25 years has been experiencing these sad realities, the consequences of the policy of double standards that carries a calamity. More than 20 percent of its lands are under Armenian occupation, over one million Azerbaijanis are refugees and internally displaced persons. Our people clearly see that not the fair fight of Azerbaijan, whose rights are violated, the lands are occupied, but the terrorist Armenian regime which occupied the Azerbaijani lands, committed the Khojaly genocide, deprived more than a million people of its native hearths are supported by double standards of the world.

Contrary to this injustice prevailing in the world, the Republic of Azerbaijan implements a policy of peace and friendship with all countries. The head of our state Ilham Aliyev, in the name of ensuring peace and stability in the region and throughout the world, is working tirelessly for a peaceful solution to the artificially created problem of Daghlig Qarabagh (Nagorno-Karabakh), which is an integral part of Azerbaijan. Our President raised multiculturalism, which is connected with the representatives of different peoples living in our country, to the level of state policy and, thus, presented to the whole world the Azerbaijani reality as an example of inter-ethnic and inter-religious harmony.

In this regard, the International Genocide Conference of the world historians that is held every year on the initiative and under the auspices of Azerbaijani President Ilham Aliyev, plays a significant role in facilitating the disclosure of the

real historical facts, enriching historical science with new facts and scientific conclusions.

The head of the Azerbaijani state always keeps in the spotlight the activities of these international forums held by the Institute of History of the National Academy of Sciences, and sends traditional welcoming addresses to the participants of the conferences.

In the previous international genocide conferences held in Baku, Guba, Shamakhy the prominent historians of Azerbaijan, Russia, Turkey, Germany, Poland, Albania, Ukraine, Georgia, Uzbekistan, Kazakhstan, Kyrgyzstan, Iran, India and other countries made interesting speeches on the massacres, deportations and repression implemented in the 19th and 20th centuries in Azerbaijan, Eastern Anatolia, the Azerbaijani-populated north-western regions of modern Islamic Republic of Iran, in the Caucasus, Central Asia and Volga region.

Materials of all the three conferences have been published, and distributed to the participants.

The next, **IV** conference of world historians is held in one of the ancient cultural centers of Azerbaijan - the city of Lankaran, whose population in 1918-1919 was subjected to genocide by the Armenian-Dashnak armed formations. The genocide, deportation and repression policy systematically pursued against the Turkic-Muslim peoples implemented in a large area over the last 200 years and their grave consequences will be discussed in the IV International Conference in Lenkoran dedicated to the **"Genocide in the 20th century against the Turkish-Muslim peoples"**.

Speeches of more than 50 scholars and the researchers from foreign countries, including the Russian Federation, Germany, Turkey, Albania, Poland, Uzbekistan, Kazakhstan, Georgia, Kyrgyzstan, Ukraine, Moldova and other countries, on the massacres created in Turkish-Islamic countries over the past 200 years, will be heard in the conference.

We believe that the IV International Conference on the history of Genocides, taking place with the participation of prominent world scientists, well-known scientific organizers in the Azerbaijani city of Lankaran, which was exposed to terrible genocide in 1918-1919, will play a significant role in the investigation of real historical past by world historians and in bringing the historical truth to the international community's attention.

**Yagub MAHMUDOV**

*Corresponding member of ANAS,*
*Honored man of science,*
*State Prize-winner*

# ПРЕДИСЛОВИЕ

## МИР СТАНЕТ СТАБИЛЬНЕЕ И БЕЗОПАСНЕЕ, ЕСЛИ ПОЛИТИКА ВЕЛИКИХ ДЕРЖАВ БУДЕТ ОСНОВЫВАТЬСЯ НА ПРАВДЕ ИСТОРИИ

Современный мир сталкивается с чрезвычайно сложными и опасными угрозами. Весь регион Ближнего и Среднего Востока, включая Кавказ, охвачен актами массового истребления, геноцида, террором и вооруженными противостояниями. В Европе, где начались Первая и Вторая мировые войны, повлекшие за собой жертвы миллионов людей, невиданные разрушения и бедствия, вновь поднимают голову фашизм, расизм, исламофобия. Под ширмой «прав человека», «демократии», «защиты международного права», «борьбы с терроризмом» великие державы на деле лишь содействуют геноциду и террору, ведут борьбу не на жизнь, а на смерть с целью нового раздела мира на сферы влияния. Иными словами, берущая начало со времен Крестовых походов и Великих географических открытий политика завоеваний чужих земель, уничтожения аборигенных народов и созданных ими древних культур продолжается ныне новыми методами и в новых формах. В качестве же основной мишени вновь выступают страны Востока, включая тюркский и исламский мир.

Азербайджан – признанное мировым сообществом независимое государство уже 25 лет ощущает на себе эти печальные реалии, последствия несущей бедствия политики двойных стандартов. Более 20 процентов его территории находятся под армянской оккупацией, свыше миллиона азербайджанцев являются беженцами и вынужденными переселенцами. Наш народ ясно видит, что мир двойных стандартов защищает не ведущий справедливую борьбу Азербайджан, чьи права попраны, земли оккупированы, а террористический армянский режим, осуществляющий оккупацию азербайджанских земель, учинивший Ходжалинский геноцид, лишивший свыше миллиона людей своих родных очагов.

Вопреки этой царящей в мире несправедливости, Азербайджанская Республика реализует политику мира и дружбы со всеми странами. Глава нашего государства Ильхам Алиев, во имя обеспечения мира и стабильности в регионе и во всем мире, ведет неустанную борьбу за мирное решение искусственно созданной проблемы Нагорного Карабаха, являющегося неотъемлемой частью Азербайджана. Наш Президент поднял мультикультурализм, связанный с положением проживающих на территории нашей страны представителей разных народов, на уровень государственной политики и, тем самым, представил всему миру азербайджанскую реальность как пример межнационального и межконфессионального согласия. В данном контексте значительную роль играют ежегодно проводимые в Азербайджане по инициативе и при поддержке Президента Азербайджанской Республики Ильхама Алиева

международные конференции по исследованию истории геноцидов с участием мировых историков, способствующие раскрытию подлинной истории, обогащению исторической науки новыми фактами и научными выводами.

Глава азербайджанского государства держит в центре своего внимания эти международные форумы, организуемые Институтом истории Национальной Академии наук, и адресует участникам конференций традиционные приветственные обращения.

Участники состоявшихся в городах Баку, Губа, Шамахы международных конференций по исследованию истории геноцидов – видные историки из Азербайджана, России, Турции, Германии, Польши, Албании, Украины, Грузии, Узбекистана, Казахстана, Кыргызстана, Ирана, Индии и других стран – представили интересные доклады, посвященные вопросам геноцида, депортаций, репрессий, осуществленных в XIX-XX веках в Азербайджане, Восточной Анатолии, в населенных азербайджанцами северо-западных областях современной Исламской Республики Иран, на Кавказе, в Центральной Азии, Поволжье. Материалы предыдущих конференций опубликованы и розданы их участникам.

Очередная, IV конференция мировых историков проводится в одном из древних культурных центров Азербайджана – городе Лянкяран, население которого в 1918-1919 годах подверглось геноциду со стороны армяно-дашнакских вооруженных формирований.

На проходящей в Лянкяране IV Международной конференции по проблеме **«Геноцид тюрко-мусульманских народов в XX веке»** будут обсуждены вопросы осуществляемой в течение последних **200** лет на огромном географическом пространстве систематической политики геноцида, депортаций, репрессий против тюрко-мусульманских народов и ее трагических последствий. В ходе конференции будут заслушаны доклады с выше 50 зарубежных ученых, представляющих различные страны, в частности Российскую Федерацию, Германию, Турцию, Албанию, Польшу, Узбекистан, Казахстан, Грузию, Кыргызстан, Украину, Молдову. Их доклады посвящены вопросам истории геноцидов, имевших место в тюрко-мусульманских странах в течение последних 200 лет.

Мы уверены в том, что IV Международная конференция по исследованию истории геноцидов, проходящая с участием видных мировых ученых, известных организаторов науки в азербайджанском городе Лянкяран, пережившем в 1918-1919 годы страшные события геноцида, сыграет значительную роль в совместном изучении мировыми историками прошлого наших стран, в доведении до международной общественности правды истории.

**Ягуб МАХМУДОВ**

*Член-корреспондент НАНА,*
*Заслуженный деятель науки,*
*лауреат Государственной премии*

# Birinci bölmə

## XX ƏSRDƏ AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIMLARI

*T.e.d., prof.* **İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri*

# AZƏRBAYCANIN İTİRİLMİŞ TARİXİ TORPAQLARI

**Açar sözlər**: itirilmiş torpaqlar, Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağ, Dilican, Zaqatala, İrəvan
**Keywords**: lost lands, Zangazur, Nakhchivan, Upper Garabagh, Dilijan, Zagatala, Iravan
**Ключевые слова**: потерянные земли, Зангезур, Нахчыван, Нагорный Карабах, Дилиджан, Закатала, Иреван

XV əsrə kimi Azərbaycanda ermənilər bir etnos kimi yaşamamışlar. Onların yaşadıqları ərazi Balkan yarımadası olmuş, sonra Mesopotamiya ərazisinin yuxarılarına köçmüşlər. Van gölü sahillərinə irəliləyən ermənilər Qaraqoyunlu dövlətindən torpaq sahələri almışlar. Onların Cənubi Qafqazda məskunlaşdırılması Rusiya imperiyasının köməyi sayəsində baş tutmuş və bu Rusiya dövlətinin siyasi maraqlarına uyğun idi.

XIX əsrin əvvəllərində Azərbaycanı işğal edən çar Rusiyası bu prosesdə erməni amilindən bir vasitə kimi istifadə etmişdi. Rusiya müstəmləkəçiləri Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian-istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan erməniləri mütləq surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən, İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə köçürdü [17, s. 22].

Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: «Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz (yəni ruslar – İ.H.) köçürüb gətirmişik» [32, s.63]. Şavrova görə, ermənilərə məskən salmaq üçün hökumət tərəfindən 200 min desyatin xəzinə torpağı ayrılmış və müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı alınmışdı.

Ermənilərin xidməti müqabilində Rusiya imperiyası Cənubi Qafqazda onlar üçün dövlət yaratmağa cəhdlər etdi. Belə cəhdlər hələ üç əsr bundan əvvəl – I Pyotrun dövründən başlamışdı. «Erməni dövləti» yaratmaq üçün erməni «başbilənləri» I və II Yekaterinanın dəstəyini qazansalar da, müxtəlif səbəblərdən Azərbaycan ərazisində belə dövləti yaratmaq mümkün olmadı.

Ermənilər öz məkrli niyyətlərindən əl çəkməmiş və XIX əsr boyu öz xidmətlərini çar Rusiyasına təqdim etmişlər. Onlar Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsində fəal rol oynamışlar. Ermənilərin bu xidmətləri müqabilində Rusiya imperatoru I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində «erməni vilayəti» yaratdı. Bu, müstəqil dövlət qurumu olmasa da, ermənilərin gələcəkdə səfərbər olmalarına, təşkilatlanmalarına, iqtisadi-mədəni tərəqqiyə yetişmələrinə ciddi təsir etdi [15, s.42]. İkinci bir tərəfdən, çar Rusiyası işğal etdiyi Şimali Azərbaycanın strateji bölgələrində (Qarabağ, İrəvan, Naxçıvan, Zəngəzur və b.) erməniləri yerləşdirdi. Rusiya Cənubi Qafqazda Ermənistan və Gürcüstanın daha çox ərazilərə nəzarət etməsində maraqlı idi. XIX əsr boyu və XX əsrin əvvəllərində çar Rusiyası bu istiqamətdə tədbirlər görür, nəticədə Azərbaycan ərazilərini itirirdi. Birinci mərhələdə Rusiya imperiyası Azərbaycan ərazilərində ermənilərin daha çox yerləşdirilməsinə, bəzi ərazilərdə sayca çoxluğuna nail olmağa çalışırdı. Bundan sonra həmin ərazilərdə azərbaycanlıların sıxışdırılması, bu yerlərdən qaçqın və köçkün vəziyyətə salınması siyasəti aparılırdı. Ermənilər çar Rusiyasının köməyi ilə bu ərazilərdə Ermənistan dövləti yaratmaq istəyirdilər. İlk növbədə, belə bir ərazi İrəvan xanlığının əhatə etdiyi Azərbaycan torpaqları idi. Artıq ermənilər bu ərazidə əhalinin tərkibində üstünlük qazanmağa nail olmuşdular. Elə bunun nəticəsi idi ki, 1828-ci ildə «erməni vilayəti», 1849-cu ildə isə İrəvan quberniyası yaradıldı. XIX əsrin sonu - XX əsrin əvvəllərində erməni daşnakları mövqelərini möhkəmləndirir və müstəqil dövlət yaratmağa səy göstərirdilər.

XX əsrin əvvəllərində Cənubi Qafqazda yaranmış şərait ermənilərin dövlət yaratmaq arzularını gerçəkləşdirdi. 1917-ci ilin martında yaradılmış Xüsusi Cənubi Qafqaz Komitəsində, bir neçə ay sonra yaradılmış Cənubi Qafqaz Komissarlığında və Seymində ermənilər də iştirak edirdilər. Lakin Cənubi Qafqaz Seyminin dağılması ilə Cənubi Qafqaz xalqları öz müstəqilliklərini elan etdilər. Meydana gələn yeni dövlətlərdən biri də Ermənistan, yaxud Ararat Respublikası idi [18, s.205].

1918-ci il mayın 28-də Milli Şura Azərbaycanın dövlət müstəqilliyinin elan olunması barədə qərar qəbul edir və «İstiqlal bəyannaməsi» hazırlanaraq dünyanın böyük dövlətlərinə göndərilir. Bununla da, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətə başlayır. Lakin Bakı şəhəri daşnak-bolşevik qüvvələrin əlində olduğundan Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçür.

Məlum olduğu kimi, Cənubi Qafqazda Seym buraxıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxdı. İlk günlərdə erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı edilməsi barədə Azərbaycan hökumətinə müraciət etdi [25, s.119]. Gərgin müzakirələrdən sonra Azərbaycan Milli Şurası İrəvan şəhərini siyasi mərkəz etməkdən ötrü ermənilərə güzəştə getdi. Bu zaman Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında da sərhəd məsələləri ilə bağlı danışıqlar aparılırdı. Razılıq əldə edildi ki, Azərbaycan Aleksandropol quberniyası hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. İrəvan şəhəri də bu şərtlə ermənilərə güzəştə gedilir ki, ermənilər Yelizavetpol (Gəncə) quberniyasının bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina edirlər. Bu addım Azərbaycan Milli Şurasının və yeni yaranan Azərbaycan dövlətinin ilk səhvlərindən biri idi.

Ermənistan Cənubi Qafqazda çox kiçik – 9,0 min kv. km ərazisi olan bir dövlət idi. Türkiyə ilə imzalanmış Batum müqaviləsinə görə Brest sülhü Ermənistan tərəfindən tanınır, Eçmiədzin (Üçmüəzzin) və Gümrü Türkiyəyə keçirdi. Türk qoşunları Cənubi Qafqazda olan vaxtda ermənilər sülh şərtlərinə az-çox riayət edir, yerli müsəlman əhalisinə və Azərbaycana münasibətdə təmkinli olduğunu nümayiş etdirməyə cəhd göstərirdi. Müharibədə Türkiyənin məğlubiyyəti 1918-ci ilin axırlarında ermənilərin yenidən fəallaşması ilə nəticələndi. Artıq dövlət siyasəti səviyyəsinə qaldırılan «dənizdən-dənizə Ermənistan» iddiaları yerli azərbaycanlılara görünməmiş müsibətlər gətirdi.

Azərbaycan hökumətinin dəfələrlə müraciətinə baxmayaraq, Ermənistanın təcavüzkar siyasəti nəticəsində iki dövlət arasında normal münasibətlər yaratmaq mümkün olmadı. Əksinə, Ermənistan açıq və gizli yollarla qədim Azərbaycan torpaqları olan Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsini özünə ilhaq etmək xəyalına düşdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın sahəsi 113,9 min kv. km olmuşdur. Bunun təxminən 97,3 min kv.km-i mübahisəsiz ərazilər, təqribən 16,6 min kv.km-i isə mübahisəli ərazilər hesab olunurdu [25, s.122]. Mübahisəli ərazilərin 7,9 min kv.km-i İrəvan quberniyasına, 8,7 min kv.km-i isə Tiflis quberniyasına daxil idi. Ermənistanla mübahisəli ərazilər İrəvan quberniyasının qərb hissəsi – xüsusilə Göyçə gölünün bir az cənubundan, Naxçıvan və Şərur-Dərələyəzin qərbindən tutmuş Kasak çayına kimi Arazın hər iki sahili – Böyük Vedi, Eçmiədzin, İqdır və s. ərazilər idi. Həmin ərazilər tarixi ÇuxurSəd bəylərbəyliyinin və İrəvan xanlığının ərazilərinə uyğun gəlirdi. Gürcüstanla mübahisəli ərazilərə isə Qarayazı, Axalski və Siqnaq qəzasının cənub hissələri daxil idi. Qarayazı düzü Gəncə-Qazax düzənliyinin davamı olub, həm etnik, həm də iqtisadi cəhətdən onunla bağlı idi. Buranın sakinlərinin 90 faizi azərbaycanlı olmuşdur. Bu ərazi 1918-ci ildə Gürcüstan tərəfindən tutulmuş və onun Tiflis qəzasının tərkibində olması faktı əsas götürülmüşdür. Əhalisinin 73,5 faizini azərbaycanlılar təşkil edən Axalski qəzası da gürcülər tərəfindən zəbt edilmişdir. Siqnaq qəzasının qərbində gürcülər, şərqində isə azərbaycanlılar yaşayırdı [25, s.123].

XX əsrin ilk rübündə Azərbaycan torpaqlarının itirilməsi prosesi baş vermişdir. Bu proses müxtəlif mərhələlərdə həyata keçirilmişdir: 1.1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti vaxtında. 2.1920-ci ilin aprel-noyabr aylarında – Azərbaycan SSR elan olunduğu gündən Ermənistanda sovet hakimiyyəti qurulanadək. 3. 1920-ci ilin noyabrından 1921-ci ilin fevralınadək – Gürcüstanda Sovet hakimiyyəti qurulanadək. 4. ZSFSR-in təşkili və onun SSRİ tərkibinə daxil olmasına kimi – «müstəqil» Zaqafqaziya sovet respublikalarının fəaliyyət göstərdiyi dövrdə.

Cənubi Qafqazın gənc respublikaları arasında qeyd olunduğu kimi, ciddi ərazi mübahisələri mövcud idi. XIX əsrdə Azərbaycan ərazilərinə köçürülmüş və burada məskunlaşmış ermənilərin ərazi iddiaları daha fantastik və zorakı idi.

Ermənilərin ərazi iddialarının əsassız olduğunu belə bir fakt təsdiq edir ki, onların zorla qoparıb almaq istədikləri Şərur-Dərələyəz, Sürməli, Naxçıvan qəzalarında azərbaycanlılar əhalinin 2/3 hissəsini, Cəbrayıl, Zəngəzur, Cavanşir və Göyçə ilə birlikdə Qazax qəzalarında isə çoxunu təşkil edirdi [14, s.188]. Hətta İrəvan qəzasının özündə əhalinin 46 faizdən çoxu azərbaycanlılardan ibarət idi. Ona görə erməni ekstremistləri ərazi mübahisələrini zor gücünə və başqa dövlətlərin yardımına arxa-

lanmaqla həll etməyə çalışırdılar. Bütün hallarda regionda öz marağını güdən Rusiya ərazi məsələlərinin «həllinə» ciddi təsir göstərirdi.

1918-ci ilin yayından başlayaraq türk xalqının qəddar düşməni Andranik Ozanyan Naxçıvan və Zəngəzur bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı kütləvi qırğınlara başladı. Həmin ilin payızında Azərbaycan torpaqlarının müsəlman əhalisindən təmizlənməsi əməliyyatına Ermənistan hökuməti bilavasitə rəhbərlik etməyə başladı. A.Ozanyan Gorusu zəbt edərək, oranı Azərbaycan Respublikasına qarşı pozuculuq mərkəzinə çevirmişdi [18, s. 207]. Şuşanı üzdəniraq «kiçik Ermənistan» deyilən bir dövlətin mərkəzinə çevirmək istəyən ermənilər dəfələrlə Zabux dərəsindən Şuşaya girməyə cəhd göstərdilər. Azərbaycan hökuməti belə fitnəkarlığın qarşısını almaq üçün 1919-cu ilin yanvarın əvvəlində mərkəzi Şuşa şəhəri olan Qarabağ general-qubernatorluğunu yaratdı. General-qubernatorluğun tərkibinə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları daxil idi [14, s. 190]. Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Onun qəti mövqeyi sayəsində separatçılar qovuldu və Şuşa şəhərinin erməni əhalisinin bir hissəsi Azərbaycan hökumətini tanıdı.

1919-cu ilin iyun ayının axırında erməni silahlı qüvvələri Zəngəzura soxuldular. Azərbaycan ordusunun hissələri Zəngəzuru tutmuş erməni hərbi qüvvələrinə qarşı hücuma keçdi. Noyabrın 23-də Azərbaycanla Ermənistan arasında saziş bağlandı və erməni hərbi hissələri Zəngəzuru tərk etdilər. Azərbaycan öz qoşunlarını Zəngəzurdan çıxarıb apardı. Bundan istifadə edən Ermənistan sazişi pozaraq Zəngəzura nizami qoşun hissələri yolladı və yerli müsəlman əhaliyə qarşı talan və qırğınlar törətdilər. Dekabrın 30-da Azərbaycan hökuməti müttəfiq dövlətlərin Zaqafqaziyadakı baş komissarından xahiş etdi ki, erməni ekstremistlərinin özbaşınalığına son qoyulsun. 1920-ci il avqustun 5-9-da Qırmızı Ordu hissələri Zəngəzura soxularaq buradakı erməni generalları Dro və Nijdenin qoşunlarını bölgədən qovub çıxardı [25, s. 128]. Lakin 1920-ci ilin avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında müvəqqəti saziş bağlandı və onun şərtlərinə görə Şərur-Dərələyəz qeyd-şərtsiz Ermənistana verildi, Qarabağ, Zəngəzur və Naxçıvan isə yenə də «mübahisəli vilayətlər» elan olundu. Bununla, Rusiya Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü.

Ermənistan SSR yaradıldıqdan sonra Azərbaycan ərazisinə iddialar daha da artdı. N.Nərimanovun AK(b)P MK Siyasi və Təşkilat bürolarının 30 noyabr tarixli qərarını elan edərkən verdiyi bəyanat və ertəsi gün qəzetlərdə onun saxtalaşdırılmış şəkildə dərc olunması həmin iddiaların daha da çoxalmasına səbəb oldu. Bu bəyanat ermənilərin yeni addımlar atmasına təkan verdi və dekabrın 25-də onlar Zəngəzurda «Azad Sünik hökuməti» təşkil etdilər. Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın əlinə keçdi. Bununla da Azərbaycan ərazisinin 4505 kv.km-ni itirdi.

Ermənilər Zəngəzurdan sonra Naxçıvanı da ələ keçirəcəklərinə ümid edirdilər. Naxçıvanın da taleyi ciddi təhlükə qarşısında idi. Rusiya Naxçıvanın Ermənistana verilməsini təkidlə tələb edirdi. Türk qoşunları Mudros müqaviləsinə görə Cənubi Qafqazı tərk etdikdən sonra erməni ekstremistlərinin Naxçıvanı tutmaq iddiaları daha da artdı. Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən dərhal sonra bu respublikanın tərkibinə daxil olduğunu bildirdi.

Azərbaycan Respublikası ilə birləşməyin hələlik mümkün olmadığını nəzərə alan və hər tərəfdən erməni qüvvələri ilə əhatə olunmuş Naxçıvan, Şərur-Dərələyəz qəzaları və İrəvan qəzasının azərbaycanlılar yaşayan hissəsi birləşərək, 1918-ci ilin noyabrında müstəqil Araz-Türk Respublikasının yarandığını elan etdi. Bu respublika qısa müddət yaşasa da, Naxçıvanın qorunub saxlanılmasında əhəmiyyətli tədbirlər həyata keçirdi. 1918-ci ilin dekabrında Araz-Türk Respublikası yeni yaradılmış Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının tərkibinə daxil oldu. Bu əslində formal daxilolma idi, Araz-Türk Respublikası müstəqil olaraq öz fəaliyyətini davam etdirirdi. Yeni müsəlman respublikasının yaranması və güclənməsi Ermənistan, Gürcüstan hökumətlərini və ingilisləri də narahat edirdi. 1919-cu ilin aprelində ingilis komandanlığı Cənub-Qərbi Qafqaz Demokratik Respublikasını ləğv etdi. Bundan təqribən ay yarım əvvəl Azərbaycan hökuməti 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğu yaratdı. Bəhram xan Naxçıvanski general-qubernator təyin edildi. Bu dövrdə daşnak hökuməti Naxçıvan və Şərur-Dərələyəz, Eçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, bu ərazilərdə Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi [18, s. 207]. Naxçıvanlıların dəyanəti ilə Azərbaycan hökumətinin səyləri nəticə etibarilə Ermənistanın Naxçıvana yiyələnmək niyyətlərini puça çıxardı. Lakin ingilislər və amerikanlar Naxçıvanı Ermənistanın idarəçiliyinə vermək istəyirdilər. Naxçıvan bölgəsinin müsəlman əhalisi isə

özünü Azərbaycanın ayrılmaz hissəsi sayır və bu istiqamətdə mübarizə aparırdı [22, s.142]. Nazirlər Şurasının sədri N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında qeyd etmişdi ki, «...Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizmi saydığı Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi» (7, 1919, 10 sentyabr, rusca).

Ermənistan Zəngəzur məsələsi ətrafında hələ də mübahisələrin davam etdiyini nəzərə alaraq Naxçıvanla bağlı ilkin mərhələdə təkid etmədi və 1920-ci il dekabrın 28-də Naxçıvana heç bir iddiasının olmaması ilə əlaqədar rəsmi bəyanat verdi: «Naxçıvan müstəqil sovet respublikası kimi tanınır və ona qarşı ərazi iddialarından imtina edirik» [22, s. 301]. Prof İ.Musayev haqlı olaraq yazır ki, əslində bölgənin Azərbaycanın bir hissəsi deyil, müstəqil respublika kimi tanınması Ermənistanın gələcək planları üçün düşünülmüş məqsədyönlü bir addım idi. Sonrakı illərdə erməni hiyləsi özünü çox gözlətməmişdir. Lakin hələlik Ermənistanın Naxçıvana yiyələnmək niyyətləri baş tutmamışdı. Burada naxçıvanlıların dəyanətini, Azərbaycan hökumətinin səylərini, Türkiyənin obyektiv mövqe tutması və onu inadla müdafiə etməsini xüsusi ilə qeyd etməliyik.

1921-ci ilin yanvarında Naxçıvanda keçirilən rəy sorğusu erməni planlarını alt-üst elədi. Naxçıvan bölgəsi əhalisinin Azərbaycan və Ermənistan inqilab komitələrinin bəyanatlarına münasibəti ilə bağlı keçirdiyi rəy sorğusunda əhalinin 90 faizi mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi [24, s.79]. B.Şahtaxtinskinin RSFSR XKS-nin sədri V.Leninə göndərdiyi arayış və sənədlər də öz təsirini göstərdi. 1921-ci il martın 16-da isə RSFSR ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsi ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verdi, onun sərhədlərini dəqiqləşdirdi və Azərbaycanın onu üçüncü dövlətə güzəştə getməməsi göstərilirdi. Bununla da Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı. Moskva müqaviləsinin şərtləri 1921-ci il oktyabrın 13-də bağlanmış Qars müqaviləsi ilə daha da möhkəmləndirildi. Müqavilə müddətsiz imzalandı və bu Naxçıvanın gələcək taleyi üçün mühüm əhəmiyyət kəsb etdi. Bununla bərabər, Naxçıvan ilə bağlı mübahisələr, ərazi iddiaları sonrakı illərdə də səngimədi.

Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra Qarabağ məsələsinə olan iddialar yenidən artdı. Ermənistan hər bir vasitə ilə Qarabağın dağlıq hissəsini ələ keçirməyə can atırdı. 1920-ci ilin iyunun 19-da Ermənistan hökuməti Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olduğu barədə bəyanat verdi. 1920-ci ilin iyunun 27-də Azərbaycan K(b)P-nin Siyasi və Təşkilat büroları Ermənistanın Qarabağın yuxarı hissəsinə iddialarını rədd etmək barədə obyektiv qərar qəbul etdi. Təqribən bir il sonra Dağlıq Qarabağ məsələsi RK(b)P-nin Qafqaz bürosunun müzakirəsinə çıxarıldı. 1921-ci il iyulun 4-də RK(b)P-nin Qafqaz bürosu Dağlıq Qarabağın Ermənistan SSR tərkibinə qatılması və buradakı ermənilər arasında rəy sorğusu keçirilməsi barədə qərar çıxardı. N.Nərimanovun ciddi etirazını və əhalinin narazılığını nəzərə alan Qafqaz bürosu iyulun 5-də məsələni təkrar müzakirəyə qoydu və əvvəlki ədalətsiz qərar ləğv olundu [21, s.25]. Lakin bununla belə, Dağlıq Qarabağa muxtariyyət verildi, 1923-cü ilin iyulun 7-də Azərbaycan SSR tərkibində DQMV yaradıldı. Vilayət tərkibinə Şuşa, Cavanşir və Cəbrayıl qəzaları ərazilərinin dağlıq hissələri daxil oldu. Qarabağın qalan hissəsində Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradıldı və əraziləri müəyyənləşdirildi. 1924-cü ildə qəbul edilmiş «Əsasnamə»yə görə, Şuşa qəzasından Şuşa və Xankəndi, Cavanşir qəzasından 62 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi kəndi DQMV tərkibinə daxil edilmişdi [25, s. 130]. Bu addım ermənilərin gələcək planlarının həyata keçirilməsinə zəmin yaratmış oldu. 1929-1931-ci illərdə Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi və həmin ərazidə Mehri rayonunun yaradılması nəticəsində Naxçıvan bölgəsi Azərbaycanın digər torpaqlarından ayrı salındı [22, s. 315].

Eyni zamanda Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il fevralın 18-də keçirilən iclasında 1921-ci il Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozularaq Naxçıvan MSSR-in 10 kəndi – Qarçevan, Qurdqulaq, Xaçik, Horadiz, Oğbin, Ağxəç, Almalı, İtqıran və Sultanbəy kəndləri öz torpaqları ilə birlikdə, habelə Kilit kəndi torpaqlarının bir hissəsi Ermənistan SSR-ə verildi [2, v.2]. Bunların ümumi sahəsi 657 kv.km idi. Bu illərdə Qazax qəzasının dağlıq hissəsi – Dilican ərazisi də Azərbaycan xalqının iradəsinə əks olaraq Ermənistana verildi [25, s. 131]. Yenə Zaqafqaziya MİK Rəyasət Heyətinin 1938-ci il 5 mart tarixli iclasının qərarına əsasən Şərurun Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər Ermənistana keçdi [7, 2013, 10 yanvar].

Göründüyü kimi, ərazi məsələlərinin birtərəfli, daşnak-bolşevik sayağı «həlli» nəticəsində mübahisəli ərazilər bədnam qonşularımızın ixtiyarına keçdi və bundan əlavə 11 min kv.km ərazimiz Ermənistana verildi [25, s. 131]. Buraya əsasən Zəngəzur qəzası, Şərur-Dərələyəz qəzası və Göyçə dairələrinin torpaqları daxil idi. Beləliklə, həmin illərdə Azərbaycanın 27.599 kv.km ərazisi itirildi.

1918-ci ildə Azərbaycan və Gürcüstan dövlətlərinin təşəkkülü gedişində Zaqatala dairəsinin siyasi mənsubluğu problemi ikitərəfli münasibətlərin gərgin məsələlərindən biri idi. Zaqatala dairəsinin Müsəlman Milli Şurası özünün 1918-ci ilin iyunun 26-dakı iclasında Azərbaycana birləşmək haqqında qərar qəbul etdi [4, v. 28-29]. Zaqatala Milli Şurası Azərbaycan hökumətinə öz qərarı barədə iyunun 28-də teleqramla xəbər verdi. 1918-ci ilin iyunun 30-da hökumət Zaqatala dairəsinin Azərbaycan respublikasına birləşdirilməsi haqqında qərar qəbul etdi və mahala general Əliyar bəy Haşımbəyovu vali təyin etdi [3, v. 2].

1918-ci ilin yayında alman qoşunlarının Borçalı və Qarayazını, habelə Poylu və Ağstafa stansiyalarını tutması faktorundan yararlanaraq, gürcü hökuməti orada öz inzibati idarəçiliyini təşkil etmişdi [4, iş 227, v. 9 arx.]. Gürcü hökuməti gürcü etnik ünsürünə faktiki olaraq rast gəlinməyən Qarayazı, Çatma, Ceyrançöl və Eldar düzlərini, habelə Borçalı qəzasının azərbaycanlı əhalisi yaşayan hissəsini nəzarət altına almışdı [27, s.15].

Azərbaycanla Gürcüstan aralarındakı ərazi mübahisələrini həll etmək istəyirdi və bunun üçün sülh danışıqları aparılırdı. Sülh konfrasına gürcü nümayəndə heyətinin təqdim etdiyi memorandumda Gürcüstanın tərkibinə daxil olan ərazilər sırasında Zaqatala mahalı da göstərilirdi. 1921-ci il fevralın 21-də Gürcüstan Müəssislər Məclisinin təqdim etdiyi Konstitusiyada da Zaqatala mahalı Gürcüstan Respublikasının ayrılmaz hissəsi elan olunmuşdu.

Zaqatalada 1920-ci il iyun üsyanı gedişində Gürcüstan hökuməti hərbi hissələrini mahalın ərazisinə daxil etmişdi. Lakin onlar tezliklə geri çağırıldılar.

1921-ci ilin iyul ayının əvvəlində Tiflisdə Cənubi Qafqaz respublikalarının daxili sərhədlərinin nizama salınması üzrə konfrans çağırıldı. Konfrans F.Maxaradze və N.Nərimanovun imzası ilə Azərbaycan və Gürcüstan arasında sərhəd xəttinin müəyyənləşdirilməsinə dair qətnamə qəbul etdi [1, v. 6]. Bu sənədlə, habelə 15 noyabr 1921-ci il M.Hacıyev – B.Mdivani sazişi ilə Gürcüstan SSR Zaqatala dairəsinə olan bütün iddialarından əl çəkirdi. Lakin gürcü hakimiyyət orqanları zaqatalalıları Şirək çölündən sıxışdırıb çıxarma kursu yürüdürdü. 1924-cü ilin oktyabrından 1927-ci ilin əvvəlinədək Şirək çölündən qəzanın 17 kəndi tamamilə sıxışdırılıb çıxarılmışdı ki, nəticədə bu kəndlər 9,2 min hektar torpaq itkisinə məruz qalmışdı. Ümumiyyətlə, Azərbaycanla Gürcüstan arasında mövcud torpaq mübahisələri haqqında 20-ci illərin ortalarında və ikinci yarısında qəbul edilmiş qərarlar nəticəsində 63 min hektardan artıq ərazi Gürcüstana verilmişdi [27, s. 23].

XX əsr boyu ermənilər Azərbaycan torpaqlarını hiylə ilə ələ keçirir, «böyük Ermənistan»ı genişləndirirdilər. Bunlar müxtəlif bəhanələr adı altında edilirdi. Ya otlaq sahələrinin çatmaması, ya ərazilərinin azlıq etməsi, ya da sərhədlərin girintili-çıxıntılı olması ilə əlaqələndirirdilər. Bir sözlə onlar bütün mümkün vasitələrdən istifadə etməklə Azərbaycan torpaqlarına sahib çıxmağa çalışırdılar. L.Mirzoyan Azərbaycan KP MK-nın katibi işlədiyi dövrdə - 1929-cu ildə Qazax rayonundan 50 kv.km torpaq sahəsini, Cəbrayıl qəzasının Nüvədi, Elnəzir, Tüğud kəndlərini Ermənistana verdi. 1946-cı ildə daha 40 kv.km meşə sahəsi Ermənistana bağışlandı. V.Axundovun rəhbərliyi dövründə isə Gədəbəy rayonunun Şınıx zonasından 76 kv.km torpaq sahəsi olan Hacılar sovetliyinin Tağlar kəndi, Qaravəlilər və Göyəli kəndlərinin yaylaq və biçənək sahələri Ermənistana verildi. 1984-cü ildə Qazax rayonu ərazisindən müəyyən torpaq sahəsi Ermənistana verildi. Beləki, ermənilər Azərbaycan SSR rəhbərliyində yaranmış zəiflikdən istifadə edərək 1984-cü ildə Qazax rayonunun 5 min hektar torpaq sahəsinin Ermənistan SSR-ə verilməsi haqqında rayon əhalisinin qəti etirazına baxmayaraq, respublika rəhbərliyinin razılığını ala bilmişdilər. Xalq buna kəskin etirazını bildirsə də, sovet hərbçilərinin köməyi ilə xalqın etirazı yatırılmışdı [7, 2013, 11 yanvar].

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə qədər ermənilər Naxçıvanın Ermənistanla sərhəddində olan Sədərək rayonunun ərazisində bir qisim torpaqlara, Ordubad tərəfdən Mehri ilə sərhəddə olan torpaqlara, Gədəbəy rayonundakı Tağlar kəndinə, Qazax, Qubadlı və Laçın rayonlarından bir sıra torpaqlara iddia edirdilər. Təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərləri bununla razılaşmışdılar. Ulu Öndər Heydər Əliyev o hadisələri xatırlayaraq demişdi: «İndi mən o günləri xa-

tırlayıram. Bir neçə gün idi ki, işləyirdim, bu məsələləri gətirib qarşıma çıxardılar. Moskvadan da çox böyük təzyiq edirdilər ki, qərar qəbul olunub, tez edin, icrasına sərəncam verin. Dedim, bilirsiniz, bu qərar mayda qəbul olunub, əgər iyul ayına qədər icra edilməyibsə, imkan verin mən onu bir araşdırım. Şübhəsiz ki, mən araşdırandan sonra gördüm ki, buna razılıq verə bilmərəm. Mən razılıq vermədim. Nə qədər ki, mən Azərbaycanda işlədim, o qərar həyata keçmədi» [7, 1998, 17 yanvar].

Müxtəlif tarixi dövrlərdə erməni qəsbkarları Azərbaycan torpaqlarını işğal etmiş və özlərinə dövlət yarada bilmişlər. Prezident İlham Əliyev demişdir: «Biz heç kimin torpağını zəbt etməmişik. Halbuki indiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan şəhərini AXC rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdilər».

XX əsrdə ermənilər bir neçə dəfə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırmış, lakin məqsədlərinə nail ola bilməmişdilər. Onlar Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün müxtəlif bəhanələr ortaya atırdılar. Gah sosial-iqtisadi sahədə Dağlıq Qarabağın geriliyi, vilayətin keçmiş rəhbərliyi tərəfindən DQMV-nin problemlərinə, onun əhalisinə düzgün münasibət bəslənilməməsi ilə əlaqələndirirdilər.

XX əsrin 80-ci illərində meydana atılan «yenidənqurma» və «aşkarlıq» Azərbaycanın DQMV-də milli münaqişə ocağının yenidən alovlanmasına gətirib çıxardı. Rus hərbi hissələri ilə birləşmiş erməni dəstələri ilk vaxtlardan Azərbaycan torpaqlarını işğal etməyə başladılar. Dağlıq Qarabağ və ətraf ərazilər işğala məruz qaldı. Ploblemin «həlli» üçün görülmüş «tədbirlər» heç bir səmərə vermədi. Rus əsgərlərinin yaxından iştirakı ilə ermənilər yeni-yeni ərazilər zəbt etdilər. Kərkicahan, Malıbəyli, Quşçular, Xocalı kəndlərini zəbt edən ermənilər 1992-ci il mayın 8-də Şuşanı ələ keçirdilər. Daha sonra Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonları işğal olundu. İtirilmiş torpaqlarımız 13082 kv.km olmuş, bunun 4372 kv.km-i Dağlıq Qarabağa, qalanı isə ətraf rayonlara aiddir. Ümumiyyətlə götürüldükdə, XX əsrin 20-90-cı illərində 40681 kv.km-lik ərazilərimiz Ermənistan SSR və ya ermənilər tərəfindən işğal olunmuşdur [25, s. 134].

Dağlıq Qarabağ məsələsi ortaya atılandan sonra Azərbaycanın vəziyyəti daha da ağırlaşdı, ərazi bütövlüyü pozuldu. 1990-cı ilə kimi DQMV, keçmiş Şaumyan rayonu (kənd), Çaykənd kəndi Azərbaycanın tabeçiliyindən çıxmışdı, Şərur rayonunun Kərki kəndi Ermənistan tərəfindən tamamilə işğal olunmuşdu. Bütün bunları nəzərə alaraq 1991-ci ilin fevralında Azərbaycan SSR Ali Sovetinin sessiyasında Heydər Əliyev çıxışında erməni millətçilərinin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdini dar çərçivədə yox, daha geniş miqyasda, tarixilik baxımından, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsi kimi qoyulmasını irəli sürürdü: «Təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib?... Və biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram» [29, s. 108].

Ümummilli Lider 1991-ci ildə irəli sürdüyü tələbi sonrakı illərdə, 1998-ci ildə daha da inkişaf etdirir, xalqın gələcək proqramı kimi qarşıya qoyurdu: «Mən belə hesab edirəm ki, əldən gedən torpaqlar nə vaxtsa qaytarılmalıdır. Xalqımız da bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur, hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır [7, 1998, 17 yanvar].

Göründüyü kimi, Ermənistan dövləti tarixi Azərbaycan ərazisi olan İrəvan xanlığı torpaqlarında yaradılmış və sonrakı illərdə bir sıra ərazilərimizi də öz havadarlarının köməyi ilə «böyük Ermənistan»a qatmışdır. 80-ci illərin sonunda isə rus hərbçilərinin yardımı ilə Dağlıq Qarabağı və onun ətrafındakı 7 Azərbaycan rayonlarını işğal etmişdir. Əfsuslar olsun ki, bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır ki, erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ancaq Ermənistan buna məhəl qoymur. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatının da bu məsələ ilə bağlı qərar və qətnamələri vardır. Ancaq əfsuslar olsun ki, onlar icra edilmir.

Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyi və tarixi

torpaqlarımızda Azərbaycan vətəndaşlarının yaşayacaqlarından bəhs edərkən qətiyyətlə bildirmişdir ki, «Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variant ola bilməz. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpaqlarımızda ikinci süni erməni dövləti yaradılsın. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir və işğal edilmiş bütün torpaqlarda Azərbaycan vətəndaşları yaşayacaqlar. Gələcəkdə isə azərbaycanlılar bütün tarixi torpaqlara qayıdacaqlar. Mən buna əminəm, buna şübhə etmirəm. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq, daha da güclü orduya malik olmalıyıq və iqtisadi inkişafı təmin etməliyik» [7, 2014, 8 yanvar].

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28 c., siy. 1 c., iş 78,155.
2. ARDA, f. 379, siy. 3, iş 2035.
3. ARDA, f. 894, siy. 2, iş 102.
4. ARDA, f. 970, siy. 1, iş 18, 227.
5. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 894, siy. 10, iş 66.
6. ARDTA, f. 894, siy. 10, iş 88.
7. «Azərbaycan» qəzeti.
8. Azərbaycan tarixi. Yeddi cilddə. c. V-VII. Bakı, 2008.
9. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. İki cilddə, I c., Bakı: Azərbaycan, 2012, 444 s.; II c., Bakı: Azərbaycan, 2012, 422 s.
10. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 279 s.
11. Babayev L. Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd mühafizəsi tarixi (1918-1920-ci illər). Tarix üzrə fəlsəfə dokt. dis. Avtoreferatı. Bakı, 2007, 24 s.
12. Babayev S. İtirilmiş torpaqlarımız / Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, s. 190-196.
13. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika (1987-2011). Ensiklopedik nəşr, 2012, 912 s.
14. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.
15. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətlər. Naxçıvan: Əcəmi, 2012, 192 s.
16. Xudiyev Ş., Əmirova F. İtirilmiş torpaqlar, itirilmiş sərvətlər (Zəngəzur, Göyçə mahalı). Bakı: Elm, 1998, 104 s.
17. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Çaşıoğlu, 2009, 576 s.
18. XX əsr Azərbaycan tarixi. II cild. Bakı: Təhsil, 2009, 560 s.
19. Köçərli T. Naxçıvan: uydurmalar və tarixi həqiqətlər. Bakı: Təknur, 2005, 170 s.
20. Qətiyyətin təntənəsi (sənədli xronika. Müəllif-tərtibçi Şakir Yaqubov). Bakı: Səhər, 1995, 848 s.
21. Mirzəzadə A. Qarabağ düyünü. Bakı: Azərbaycan, 2012, 608 s.
22. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti, 1996, 328 s.
23. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 1, siy. 3, iş 13.
24. Paşayev A. XIX-XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 2011, 328 s.
25. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 s.
26. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar... Bakı: Azərnəşr, 1997, 260 s.
27. Rəhmanzadə Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (1917-1930-cu illərin əvvəlləri). Tarix üzrə fəlsəfə dokt. dis. Avtoreferatı, Bakı, 2012, 26 s.
28. Sadıqov H. Erməni məsələsi: xəyanəti, deportasiyanı, soyqırımını və işğalı pərdələyən yalan. Bakı: Adiloğlu, 2012, 576 s.
29. Şabanov M. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması sahəsində fəaliyyəti. Tarix üzrə fəlsəfə dokt. dis. Avtoreferatı, Bakı, 2012, 26 s.
30. Адрес-календарь Азербайджанской Республики на 1920-й год. Баку, типок. газ. «Азербайджан», 1920, 259 с.
31. Мустафаева С. Изменение границ и территорий на Южном Кавказе (1917-1922 гг). Автореферат дисс. докт. философии по истории. Баку, 2013, 28 с.
32. Шавров Н. Новая угроза русскому делу в Закавказье. СПб, 1911.

**THE LOST HISTORICAL LANDS OFAZERBAIJAN**
**SUMMARY**

The historical Azerbaijani lands lost in XIX-XX centuries are dealt in the research paper. Referencing to the archive and definite investigation materials, it is said that the attempts of creating a state of Armenians in the South Caucasus began from XVIII century. For that reason Armenians were migrated and settled in the Azerbaijani territories and the Armenian state was established for them. The territory of Iravan khanate was chosen for that state. So Iravan city was gifted as the capital city of the same state. From the begining of XX century the territory of Armenia was widened due to historical Azerbaijani lands and more than 40 thousand sq.km. of our historical territory were invaded. In these deeds various capitalist states, especially Tsar Russia and the The Soviet Union helped to Armenia. The conclusion that the author comes in the article is that everyway should be used for to gain back our lost historical lands.

**ПОТЕРЯННЫЕ ИСТОРИЧЕСКИЕ ЗЕМЛИ АЗЕРБАЙДЖАНА**
**РЕЗЮМЕ**

В статье говорится о потерянных в XIX-XX веках исторических землях Азербайджана. Основываясь на архивных материалах, используя соответствующие исследовательские работы, автор статьи указывает, что первые попытки создания на Южном Кавказе армянского государства совершались еще в VIII веке. Для начала армяне были переселены на Азербайджанские земли, а впоследствии было создано Армянское государство. Местом для этого государства была избрана территория Иреванского ханства, а город Иреван стал его столицей. С начала XIX века территория Армении была расширена за счет исторических азербайджанских земель, и захвачено более 40 тыс. кв. км наших исторических земель. Некоторые крупные капиталистические державы, особенно Россия, а впоследствии и Советский Союз оказывали Армении всяческую поддержку. Вывод автора состоит в том, что мы должны использовать все возможные средства для того, чтобы вернуть потерянные земли.

*T.e.d., prof.* **Hacı Fəxrəddin SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü.*

# ERMƏNİLƏRİN NAXÇIVANA KÖÇÜRÜLMƏSİ İLƏ XARABAYA ÇEVRİLMİŞ BƏZİ YAŞAYIŞ MƏSKƏNLƏRİ HAQQINDA

**Açar sözlər:** Azərbaycan, Naxçıvan, Köçəri, Haçaparaq, Cərəcür.
**Keywords:** Azerbaijan, Nakhchivan, Nomadize, Hachaparag, Jajacur.
**Ключевые слова:** Азербайджан, Нахчыван, Кочери, Хачапараг, Джараджур.

10 fevral 1828-ci ildə Rusiya ilə İran arasında imzalanan, Naxçıvan və İrəvan xanlıqlarının Rusiya tərəfindən işğalını rəsmiləşdirən Türkmənçay müqaviləsinin, həmçinin Rusiya ilə Osmanlı imperiyası arasında 1829-cu ildə bağlanan Ədirnə müqaviləsinin şərtlərinə əsasən İrandan və Türkiyədən köçürülən ermənilərin Azərbaycanın tarixi torpaqlarında yerləşdirilməsi ölkəmizin müstəmləkəyə çevrilməsi ilə barışmayan əhalinin narazılığını daha da artırdı. Həmin vaxt Rusiya hakimiyyətinə və onun yeritdiyi siyasətə qarşı əhalinin müxtəlif formalarda etiraz çıxışları başlandı. Belə etiraz formalarından biri də hökumət qüvvələrinə gücləri çatmadığı üçün əhalinin məcburiyyət ucbatından öz yaşayış yerlərini, ata-baba yurdlarını tərk edərək başqa yerlərə, o cümlədən İrana və Türkiyəyə köçmələri idi. Məhz həmin dövrdə Rusiya hökumətinin milli və dini zülmünə, xüsusilə öz din qardaşları olan erməniləri məqsədli şəkildə Azərbaycanın dilbər guşələrində, ən münbit torpaqlarında yerləşdirmələrinə etiraz olaraq çoxlu Azərbaycanlı ailəsi, hətta bəzi yaşayış məskənlərinin əhalisinin hamısı öz yurdlarını tərk edərək qonşu ölkələrə köçdülər. Nəticədə bölgədə müsəlman-türk əhalinin sayı azaldı, bir sıra yaşayış məskənləri isə boşaldı, tədricən dağıldı və xarabalığa çevrildi.

Həmin dövr tarixinə nəzər salarkən aydın olur ki, XIX yüzilliyin əvvəllərində Naxçıvan, Əlincəçay, Məvazixatun, Xoy, Dərələyəz mahallarından və Ordubad vilayətindən ibarət olan Naxçıvan xanlığı 1804-1813-cü illər birinci Rusiya-İran müharibəsinin gedişi zamanı, 1808-ci ildə rus qoşunları tərəfindən işğal olundu. General-mayor Nebolsinin 78 zabit, 3062 əsgər və 4 topdan ibarət 9 batalyonu (5, s. 215) 1808-ci ilin oktyabrında hücum edərək noyabrın 1-də Naxçıvanı zəbt etdi. Bundan sonra baş komandan Qudoviç bütün Naxçıvan ərazisinin əbədi olaraq Rusiyanın himayəsinə keçdiyini elan edərək bütün naxçıvanlıların öz yerlərinə qayıtması üçün müraciət etdi (4, sənəd 474). Çünki Rusiya ordusunun Naxçıvana hücumu zamanı əhalinin bir hissəsi yaşayış məskənlərini tərk edərək başqa yerlərə qaçmışdı. Bu proses sonralar, II Rusiya-İran müharibəsi zamanı da davam etmişdi. Ümumiyyətlə, I və II Rusiya-İran müharibələri zamanı Naxçıvanı 1400 ailə tərk etmişdi. Ancaq ruslar Naxçıvanda uzun müddət duruş gətirə bilmədilər. İrəvanda məğlub olan rus qoşunları ağır itki verərək geri çəkilməyə, bu zaman Naxçıvanı da tərk etməyə məcbur oldular. Ancaq II Rusiya-İran müharibəsi zamanı (1826-1828-ci illər) Naxçıvan rus qoşunları tərəfindən yenidən işğal olundu. General Paskeviçin ordusu 1827-ci il iyunun 26-da Naxçıvanı tutdu. İyulun 7-də Abbasabad qalası təslim oldu.

1828-ci il Türkmənçay müqaviləsindən sonra çarizm uzun müddətdən bəri həyata keçirmək istədiyi məqsədə nail olmaq, Cənubi Qafqazda xristian əhalinin, xüsusilə ermənilərin sayını artırmaq, ərazini xristianlaşdırmaq, erməni dövlətçiliyini yaratmaq sahəsində ilk addımlarını atmağa başladı. Belə ki, Türkmənçay müqaviləsinin şərtlərinə görə İrandan gətirilən 40000, Ədirnə müqaviləsinin şərtlərinə əsasən Türkiyədən gətirilən 84400 (cəmi 124400) nəfər ermənini tarixi Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində və Dağlıq Qarabağda (ümumilikdə təxminən 410 min hektar ərazidə) yerləşdirilmişdi. Həmin vaxt Naxçıvan bölgəsinə İrandan 2387 ailə, Osmanlı imperiyasından 8 ailə, bütövlükdə 6366 kişi, 5663 qadın köçürülmüşdü (7, s. 637-638). Bu zaman Rusiya çarı I Nikolayın 21 mart 1828-ci il tarixli, 1855-25 saylı xüsusi sərəncamı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisi əsasında qondurma «Erməni vilayəti» yaradıldı. Bu qondarma qurumun əhatə etdiyi ərazilərdə 85 min Azərbaycan türkü (76,24 %), 22 min köçmə erməni (23,45 %) yaşasa da, yeni yaradılan inzibati ərazi bölgüsünə heç bir əsas olmadan «Erməni vilayəti» adı verildi. Təxminən 5 il sonra imperator bu sahədə yeni bir addım atdı və 27 fevral 1833-cü ildə erməni dövlətçiliyinin gerbini də təsdiq etdi.

Ancaq bu inzibati bölgü özünü doğrultmadığından 10 aprel 1840-cı il qanunu ilə ləğv edilsə də, ermənilər keçən 12 il ərzində çar hökuməti tərəfindən onlara verilən böyük imtiyazlar (münbit torpaqlarda, hətta yay vaxtı yaylağa getmiş ailələrin boş qalmış evlərində yerləşdirilmələri, yerli əhali ilə müqayisədə güzəşt və üstünlüklərə malik olmaları, müəyyən müddətə vergi və mükəlləfiyyətlərdən azad olunmaları, güzəştli şərtlərlə kredit almaları, inzibati idarə aparatında müxtəlif vəzifələrdə təmsil olunmaları və s.) hesabına sakin olduqları yerlərdə möhkəmlənmiş, hətta rus hökuməti tərəfindən müdafiə olunduqları üçün yerli əhalini tədricən sıxışdırmağa başlamışdılar. Hökumət məmurlarına arxalanan ermənilər gəlmə olmalarına baxmayaraq, özlərini yerli sakin kimi aparaaraq etnik təmizləmə siyasəti yeridir və bu sahədə istədiklərinə nail olurdular. Təsadüfü deyildir ki, müharibədən sonrakı 1828-1874-cü illərdə tarixən Azərbaycan torpaqları olan Qərbi Azərbaycanda və Qarabağda, köçmə səbəbindən 571 kənd azərbaycanlılarsız qaldı. Bu kəndlərdən 208-nə erməni köçkünləri sahib çıxdı, zəbt edilmiş torpaqlarda ermənilərə məxsus 148 təzə kənd yaradıldı.

İlhaqdan sonra bütün Azərbaycan əhalisi kimi Naxçıvan əhalisinin də milli və dini zülmə məruz qalması, həmçinin vergi və mükəlləfiyyətlərin son dərəcə ağırlığı, ermənilərə qarşı şikayətlərin rus məmurları tərəfindən din qardaşları olan ermənilərin xeyrinə həll edilməsi və s. məsələlər xalqın səbir kasasını daşdırır, narazılığını artırırdı. Ona görə də ilhaqın ilk vaxtlarından etibarən çarizmin müstəmləkəçilik siyasətinə, milli və dini zülmə, ermənilərin ərazilərimizdə məskunlaşdırılmasına və s. Qarşı narazılıqlar başlayır.

Bu narazılıqlar özünü müxtəlif formalarda büruzə verirdi. Narazılıqlar hökumət orqanlarına şifahi və yazılı şikayətlərdən tutmuş, yaşayış məskənlərinin tərk edilməsi, əhalinin başqa ölkələrə köçməsi, dövlət məmurlarına qarşı açıq çıxışlar, adamların öldürülməsi, iğtişaşlar, üsyanlar, qaçaqçılıq və s. şəkildə özünü göstərirdi. Sovet hakimiyyəti illərində Azərbaycan tarixşünaslığında bu məsələyə demək olar ki, toxunulmamış, problemin üstündən sükutla keçilmiş, hətta Rusiya işğalı müsbət hadisə kimi qiymətləndirilmişdir.

Ancaq əslində Rusiya işğalı bütün Azərbaycanda olduğu kimi Naxçıvan bölgəsinə də fəlakətlər gətirmiş, əhali böyük məhrumiyyətlərə məruz qalmış, istər müharibələr dövründə, istərsə də işğaldan sonra yaranmış vəziyyətə, çarizmin müstəmləkəçilik siyasətinə, ermənilərin bu ərazilərdə yerləşdirilməsinə dözməyərək etiraz əlaməti olaraq öz doğma yurd-yuvalarını, ata-babalarının qədim zamanlardan yaşadığı yaşayış məskənlərini tərk edərək digər yerlərə pənah aparmışlar. Nəticədə bir sıra yaşayış məskənləri tərk edildikdən sonra unudularaq sıradan çıxmış, viranəyə, xarabalığa çevrilmişlər. Məhz buna görə də 1727-ci ilə aid «Naxçıvan sancağının müfəssəl dəftəri»ndə (1), İ.Şopenin 1852-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi kitabında (7) adları çəkilən və əhali yaşayan bir sıra kəndlər qeyd olunan səbəb ucbatından məhv olmuş və indiyədək qalmamışdır. Onların bəzilərinin heç izi də məlum deyildir.

Naxçıvanda Rusiya işğalı və ya işğaldan sonrakı dövrdə əhalisi yaşayış yerini tərk edərək Cənubi Azərbaycana köçən kəndlərdən biri Ordubad bölgəsində vaxtilə mövcud olmuş Köçəri kəndidir. Zəmanəmizədək bu kəndin xarabalıqları və kəndə məxsus möhtəşəm məzarlıq qalmışdır (2).

2001-ci ildə akademik Ziya Bünyadov və t.e.n. H.Məmmədov tərəfindən Azərbaycan oxucusuna çatdırılan «Naxçıvan sancağının müfəssəl dəftəri»ndə Köçəri kəndi haqqında dəyərli məlumatlar verilmişdir. Dəftərdə həmin vaxt Köçəri kəndində yaşayan 13 nəfər vergi verəcək kişinin adı və onlardan alınacaq vergilərin miqdarı (cəmi 2621 ağça) qeyd olunmuşdur. Həmçinin «Dəftər»in məlumatlarından aydın olur ki, Köçəri kəndinin əhalisi əkinçiliklə məşğul olmuş, buğda, arpa, darı əkmiş, qoyun saxlamışdır. «Müfəssəl dəftər»ə haqqında məlumatlar düşdüyü üçün aydın olur ki, yaşayış məskəni XVIII yüzillikdə mövcud imiş.

Təbii-coğrafi cəhətdən çox əlverişli olan bu ərazidə yaşayan adamlar yarımköçəri maldarlıqla məşğul olmuş, sonralar müəyyən tarixi şəraitlə, Rusiyaının bu əraziləri işğal etməsi və erməni köçünün başlanması ilə əlaqədar olaraq yaşayış məskənini tərk etmişdir. Qonşu kəndlərin əhalisinin fikrincə əhali buranı XIX əsrin əvvəllərində tərk edərək Arazın o tayına köçmüşdür.

Qeyd olunduğu kimi, Azərbaycan 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin şərtlərinə görə İran və Rusiya arasında iki yerə parçalandıqdan sonra Arazdan şimalda yaşayan əhalinin bir qismi etiraz əlaməti olaraq qaçıb cənubi Azərbaycan torpaqlarına getmişlər. Köçəri kəndinin əhalisi də həmin vaxt kəndi tərk etmiş və Arazın o tayına keçmişdir. Ona görə də Naxçıvan xanlığı-

nın Rusiyaya birləşdirilməsindən az sonra Naxçıvanda olmuş və bu haqda 1852-ci ildə Sankt Peterburqda kitab nəşr etdirmiş İ.Şopenin tərtib etdiyi cədvəllərdə Köçəri kəndinin adına rast gəlmirik.

Yaşayış məskənindən azca aralı kəndə məxsus qəbiristanlıq yerləşir. Təxminən 2 hektar sahəni tutan və el arasında «Köçəri» qəbiristanlığı adı ilə tanınan, gediş-gəliş çətin olan dağların qoynunda yerləşən, bu səbəbdən də tədqiqatçıların diqqətindən kənarda qalan qəbiristanlıqda orta əsrlər zamanı yaradılmış və üzərində ərəb əlifbası ilə kitabələr həkk edilmiş çoxlu sənduqə formalı, qoç və qoyun tipli qəbirüstü xatirə abidəsi qalmışdır. Bu abidələrin bir hissəsi zaman keçdikcə təbii qüvvələrin təsirindən aşınmış, üzərində olan kitabələr məhv olmuşdur. Abidələrin, xüsusilə orta əsr Azərbaycan heykəltaraşlığının gözəl nümunələri olan qoç və qoyun heykəllərinin bir neçəsi dəfinə hərisi olan məsuliyyətsiz adamlar tərəfindən dağıdılmışdır.

1978-ci ildə biz ilk dəfə qəbiristanlıqda olarkən orada bir neçə məzar kitabəsinin fotosunu, estampını və ölçülərini götürərək tədqiq etmişdik. Qəbiristanlığa ikinci səfərimiz zamanı (1984-cü il) orada daha acınacaqlı vəziyyətin şahidi olduq: sənduqələr daha çox dağıdılmış, qoç və qoyun heykəllərinin bəzisi yoxa çıxmışdı. Şahidlərin söylədiyinə görə Muxtar Respublika ərazisindəki bu qrup abidələrin çoxunu ermənilər oğurlayıb aparmışdılar. Ermənilər öz muzeylərini zənginləşdirmək, küçə və meydanlarını bəzəmək üçün həmin abidələrin aparılmasında nəinki maşınlardan, hətta vertolyotlardan da istifadə etdirdilər.

Qəbiristanlıqda tədqiq etdiyimiz hicri qəməri təqvimi ilə 1003-cü (miladi ilə 1594-1595-ci illər) və 1030-cu ilə (1620-1621-ci illər) aid sənduqə tipli qəbirüstü xatirə abidələrinin tarixlərini orta hədd kimi qəbul edərək məzarlığı və onun məxsus olduğu Köçəri kəndini təxminən XV-XVIII əsrlərə aid etmək olar (2).

Rusiya işğalı, ermənilərin Naxçıvana köçürülməsi ilə əlaqədar viranəyə çevrilmiş yurd yerlərimizdən biri də Cərəcür kəndidir. Qaynaqlar təsdiq edir ki, Culfa bölgəsinin Gal, Şurut, Paradaş, Dizə, Ordubad bölgəsinin Biləv, Behrud və Tivi kəndlərinin əhatəsində yerləşən Cərəcür kəndinin əhalisi ancaq Azərbaycan türklərindən ibarət olmuşdur. Orta əsrlər zamanı rahat və firavan həyat sürən Cərəcür əhalisi Türkmənçay müqaviləsindən sonra Gal, Şurut və Paradaş kəndlərində yerləşdirilən ermənilərin təzyiqinə məruz qalmışlar. Azərbaycanlı kəndlərindən uzaq düşmüş Cərəcür kəndinin əhalisi bu təzyiqlərə davam gətirə bilməmiş və XIX yüzilliyin ortalarında yaşayış məskənini kütləvi şəkildə tərk edərək bir gecə ərzində Cənubi Azərbaycan torpaqlarına pənah aparmışlar.

2004-cü ildə yaşayış məskəninin ərazisində olarkən keçən müddət ərzində yaşayış məskəninin tamamilə viranəyə çevrildiyinin şahidi olduq. Yaşayış məskəninin şərq tərəfində yerləşən qəbiristanlıqda olan və üzərində ərəb əlifbası ilə kitabələr həkk olunmuş başdaşı, sənduqə, daş qoç fiquru tipli qəbirüstü xatirə abidələri zaman keçdikcə məhv olaraq sıradan çıxmışdır. Qəbiristanlıqda qeydə alınan bəzi epiqrafik abidələr, xüsusilə boz daşdan hazırlanmış bir ədəd daş qoç fiquru üzərində həkk edilmiş kitabənin tarixinə əsasən deyə bilərik ki, Cərəcürdə XVIII əsrdə yaşayış olmuşdur. Arxeoloji və epiqrafik dəlillərə əsasən yaşayış məskənini və qəbiristanlığı XIV-XIX əsrin əvvəllərinə aid etmək olar.

«Naxçıvan sancağının müfəssəl dəftəri»nə görə osmanlılar 1727-ci ildə Cərəcür kəndində siyahıyaalma apararkən «Dəftər»ə vergi verəcək yaşında olan (20 yaşından yuxarı) kişi cinsindən olan 4 nəfərin adını daxil etmişlər. «Dəftər»in məlumatlarından aydın olur ki, Cərəcür əhalisi, əsasən, arpa, buğda, kəlül (gülül), mərciмək və noxud əkmiş, arıçılıqla məşğul olmuşlar. Kənd əhalisi ildə 3900 ağça vergi ödəmişdir (1, s. 83).

İkinci Rusiya-İran müharibəsi zamanı və müharibədən sonrakı illərdə Naxçıvan əhalisinin ölkəni tərk edib getmə prosesi başqa kəndlərdə də davam etmişdir. Bu da bəzi yerlərdə istehsal sahələrinin tənəzzülünə, işin dayanmasına və s. səbəb olmuşdur. Məsələn, xanlıqlar dövründə Ordubad dairəsini Əbdülfəth xan idarə etdiyi zaman bölgənin Vənənd kəndində şüşə zavodu inşa edilmişdi. Şüşə hazırlamaq üçün materialı zavoda Naxçıvan dairəsindəki Əbrəqunus kəndinin yaxınlığından gətirirdilər. Zavod 1826-1828-ci illərdə baş vermiş ikinci Rusiya-İran müharibəsinədək fəaliyyət göstərmişdir. Ancaq müharibə zamanı bütün ustalar İrana qaçdığından zavod işini dayandırmış və məhv olmuşdu (6, s. 225).

Rusiya işğalı və erməni köçü ilə əlaqədar viranəyə çevrilmiş yurd yerlərimizdən biri də Culfa bölgəsindəki Haçaparaq kəndidir. Əlincəçay nahiyyəsinə daxil olan Böyük Haçaparaq və Kiçik

Haçaparaq (Əshabi-Kəhf ziyarətgahının şərq tərəfində yerləşir) kəndlərində 1727-ci ildə 140 nəfər vergi verəcək 20 yaşdan yuxarı kişi olmuşdur (1, s. 63-68). Buraya qadınları və uşaqları da əlavə etsək 1727-ci ildə Haçaparaq kəndində təxminən 450-500 nəfər adamın yaşadığı aydın olur. Kəndin əhalisi buğda, arpa, darı, sumax, kərdiyar, pərinc, kəlül, mərcimək, noxud əkmiş, qoyun saxlamış, 19650 ağça vergi ödəmişdir (1, s. 67-68). Tamamilə müsəlman- türklərindən ibarət olan kənd əhalisinin çoxu rus ordusu gələrkən yaşayış məskənini tərk edərək Arazdan cənub torpaqlara köçmüşdür. Ona görə də müharibədən sonrakı illərdə Haçaparaq kəndində 18 ailədə birləşən 87 nəfər (46 kişi, 41 qadın) yaşamışdır (7, s. 603-606). Bu əhali isə ermənilərin XX yüzilliyin əvvəllərində xalqımıza qarşı törətdiyi soyqırımlar zamanı didərgin düşmüş, başqa yerlərə köçmüşlər.

V.Qriqoryevin məlumatına görə ikinci Rusiya-İran müharibəsi zamanı Naxçıvan mahalına daxil olan Təzəkənd kəndindən (hazırda Babək qəsəbəsi) 35 ailə (6, s. 132-133), Nehrəm kəndindən 81 ailə (6, s. 132-133), Əlincəçay mahalının Küznüt kəndindən 45 ailə (6, s. 152-153), Camaldın kəndindən 10 ailə (6, s. 154-155) Cənubi Azərbaycan torpaqlarına pənah aparmışlar. Bölgənin qədim sakinlərindən olan, Səfəvilər dövründən Naxçıvanın idarəçiliyini öz əllərinə alan, XVIII əsrin ortalarında Naxçıvan xanlığını yaradan Kəngərli tayfasına məxsus adamlar işğal zamanı və işğaldan sonra güclü təzyiqlərə və təqiblərə məruz qaldıqlarından 1270 ailə ərazini tərk edərək Rusiya hakimiyyətindən uzaq olan yerlərə, Arazdan cənuba köçmüşdülər.

Naxçıvan qəzasındakı Sust kəndində məskun olan 53 ailə onlardan tələb olunan 3362 manat 15 qəpik vergi qalığını ödəyə bilmədiklərindən sıxışdırıldıqları üçün 1875-ci ildə kütləvi surətdə Arazı keçib İrana köçmüşdülər. Bu məsələ hətta qubernator səviyyəsinə qədər qalxmış, onun hesabatında açıq etiraf edilmişdi ki, bu qədər vergi qalığını həmin kənddə yaşayan ailələr ödəmək imkanına malik olmadığı üçün onu toplamaq mümkün olmamışdır (3, s. 133-134).

Köçürülən ermənilər XIX əsr boyu bu ərazilərdə möhkəmləndikdən sonra Azərbaycana qarşı ərazi iddialarına başladılar. Bu istiqamətdə iş aparan ermənilər, hətta xalqımıza qarşı soyqırımlar törətməkdən belə çəkinmədilər. XX əsrin əvvəllərindən başlayan bu soyqırımlar zamanı da bir sıra yaşayış məskənlərimizin əhalisi ata-baba yurdlarından didərgin düşmüş, başqa yerlərə pənah aparmışdılar.

Əlbəttə, ilhaqdan sonra Naxçıvanda yaşayışa son qoyulmuş və xarabaya çevrilmiş yurd yerlərimiz bunlarla məhdudlaşmır. Belə yaşayış məskənləri onlarladır. Gələcəkdə həmin yaşayış məskənlərinin tədqiqi nəzərdə tutulmuşdur.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov. Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
2. Səfərli H., Səfərova S. Köçəri qəbiristanlığı // Ali məktəblər arasında elmi-praktik konfransın materialları. Bakı: Elm, 2002, s. 196-200
3. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
4. Акты Кавказской Археографической Комиссии. Тифлис, 1869.
5. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Т.В.,СПб, 1888
6. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 264 с.
7. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург // Типография Императорской АН, 1852, 1231 с.


## ABOUT SOME SETTLEMENTS WHICH RUINED RESULT OF RESETTLING OF ARMENIANS TO NAKHCVHIVAN
## SUMMARY


The article deals with the II Russia-Iran war, occupation of Nakhchivan region and unfavourable results of resettling of armenians to these territories. It is noted that occupation of the territory and settling of armenians in Nakhchivan met with the rift of the population. One of so form of complaint was the population of this region left their settlements and were moving to neighbour countries. During that period as the foreboding of rift the people of Nomadize Hachaparag, Jajacur and etc. left their villages, crossed the river of Aras and inhabeted in the lands of South Azerbaijan.

**О НЕКОТОРЫХ НАСЕЛЕННЫХ ПУНКТОВ, ПРЕВРАШЕННЫХ В РУИНЫ С ПЕРЕСЕЛЕНИЕМ АРМЯН В НАХЧЫВАН**

**РЕЗЮМЕ**

В статье говориться о II Русско-Иранской войне, оккупации Нахчывана и негативных последствиях переслeния армян на эти земли. Автор подчеркивает, что оккупация региона и размещение армян в Нахчыване привело к недовольству местного населения. Одной из форм такого недовольства было то, что местное население покидало свои поселения и было вынуждено переехать в соседние страны. В это время в знак протеста жители селений Кочери, Хачапараг, Джараджур покинули свои деревни, переправилис через реку Араз и поселился на территории Южного Азербайджана.

*Professor* **Ərtegin SALAMZADƏ**
*AMEA Memarlıq və İncəsənət İnstitutu, Bakı*
*AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru.*

# XOCALI FACİƏSİ TƏSVİRİ SƏNƏTDƏ

**Açar sözlər:** Xocalı faciəsi, soyqırım, təsviri sənət, qurbanlar, xatirə-memarlıq kompleksləri.
**Keywords:** Khojaly tragedy, fine arts, victims, memorial-architectural complexes
**Ключевые слова:** Ходжалинская трагедия, изобразительное искусство, жертвы, мемориально-архитектурные комплексы.

Xocalı faciəsindən keçən 25 il ərzində soyqırım mövzusu nə qədər dəhşətli təsir bağışlasa da müəyyən mədəni fenomenə çevrilmiş və Azərbaycan incəsənətinin əksər sahələrində öz emosional bədii ifadəsini tapmışdır. Ölkəmizin müxtəlif bölgələrində Azərbaycan xalqının məruz qaldığı faciələri əks etdirən xatirə-memarlıq kompleksləri inşa edilmiş, monumental heykəllər ucaldılmış, bu mövzuda kinofilmlər çəkilmiş, tamaşalar səhnəyə qoyulmuş, musiqi və ədəbi əsərlər yazılmışdır.

Söyləmək mümkündür ki, bu gün artıq təsviri sənətdə soyqırım mövzusu kifayət qədər strukturlaşdırılmış və işlənmişdir. Əvvəla, bu mövzu təsviri sənətin bütün sahələrində – rəngkarlıqda, qrafikada, heykəltəraşlıqda kifayət qədər geniş təcəssüm olunub. İkincisi, bu sözləri janr palitrası barədə də deyə bilərik – adı çəkilən mövzu portret, batal janrlarında, epik xarakterli müxtəlif çoxfiqurlu kompozisiyalarda, hətta mənzərə janrında belə öz dolğun təcəssümünü tapıb. Üçüncüsü, həmin mövzuya müraciət etmiş fırça və tişə ustalarının sayı heç də az deyil. Ən səthi hesablamalara görə bu müəlliflərin sayı 50-dən artıqdır. Üstəlik, rəssamların mövzu daxilinə nüfuz etmələrinin müxtəlif dərəcələrini aydın müşahidə etmək olar. Tanınmış rəssam Nazim Məmmədov (1934-2004) kimi elə sənətkarlarımız var ki, onlar soyqırım mövzusuna bütöv rəsmlər seriyası həsr etmişlər. Bəzi müəlliflər mövzu ilə bağlı birdəfəlik aksiya qismində ayrı-ayrı müsabiqələrdə, tematik sərgilərdə bir-iki əsərlə iştirak edib. Nəhayət, soyqırım mövzusu yaradıcılığının əsas xəttinin təbii davamı olan rəngkarları, heykəltəraşları və qrafikləri xatırlamaq lazımdır. Onların içərisində ən parlaq simalardan biri tanınmış rəssam Əşrəf Heybətovdur. Soyqırım mövzusu onun üçün «Türk süitası» obrazlarının davamına çevrilmişdir.

Lakin ən vacibi budur ki, rəssamlarımız tərəfindən 1990-2010-cu illərdə yaradılmış əsərlər Azərbaycan təsviri sənətinin müəyyən süjet-tematik ənənəsinə daxil olmuşdur. Bu ənənənin əsasını qoyan, şübhəsiz ki, Bəhruz Kəngərlidir. Hələ 1918-1920-ci illərdə o, özünün məşhur «Qaçqınlar» seriyasını yaratmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Bəhruz Kəngərlinin xatirəsinin əbədiləşdirilməsi haqqında imzaladığı sərəncamda deyilir: «Bəhruz Kəngərli dərin müşahidə qabiliyyətinə malik realist rəssam kimi öz fırçası ilə erməni zülmündən qaçmış soydaşlarımızı, erməni millətçiləri tərəfindən axıdılan qanları, bu gün Ermənistan adlandırılan əzəli Azərbaycan torpaqlarından didərgin düşmüş azərbaycanlıları təsvir etmişdir» [4].

Lakin təsviri sənətimizdəki bu ənənə təkcə azərbaycanlıların soyqırımını əks etdirən əsərlərdən təşəkkül tapmayıb. Maraqlıdır ki, hələ sovetlər dönəmində rəssamlarımız digər xalqların soyqırımı mövzusuna müraciət etmiş və çox təsirli, bütün dünyada şöhrət qazanmış tablolar yaratmışlar. Bu sırada ilk növbədə 1970-ci ildə Vyetnam müharibəsi qurbanlarına həsr olunmuş «Sonqmi kəndi sakinlərinin xatirəsinə» adlı əsər yaratmış Azərbaycanın Əməkdar incəsənət xadimi Sara Manafovanın (1932-2007) adını çəkmək yerinə düşər. Bu tablo sözün həqiqi mənasında beynəlxalq hitə çevrildi və dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə nümayiş etdirildi. Üstündən bir çox illər ötdükdən sonra öz xalqının faciəsinə biganə qala bilməyən rəssam 1993-cü ildə «Xocalı faciəsi. Fəryad» ümumi adı altında iki əsər işlədi.

Müasir Azərbaycan incəsənətində Xocalı faciəsi, ümumiyyətlə, soyqırım mövzusunun əsasını, ana xəttini təşkil edir. Xocalı mövzusunda ən təsirli, geniş təsviri-nəqledici mahiyyətə malik tablolar rəssam Nazim Məmmədov tərəfindən işlənmişdir. 1992-2004-cü illərdə Nazim Məmmədov Xocalı faciəsi mövzusunda 40-dan çox rəngkarlıq və qrafika əsərləri yaratmışdır. Müəyyən mənada bu yaradıcılıq nümunələrini Xocalı soyqırımının bədii müstəvidə sənədləşdirilmiş salnaməsi adlandırmaq

mümkündür. Bu seriyaya daxil olan əsərlərin 2002-ci ildə sərgidə nümayiş etdirilməsi bir çoxları üçün gözlənilməz oldu. Çünki Nazim Məmmədovun kolleqaları, tamaşaçılar onu multiplikator-rəssam, kitab tərtibatçısı və abstrakt rəngkarlıq tablolarının müəllifi kimi tanıyırdılar. Lakin bu, əsl «Xocalı harayı» idi [3] – sərgi belə adlanırdı və həmin susmayan haray rəssamın qəlbində, düşüncəsində səslənirdi.

N.Məmmədovun rəngkarlıq seriyası üslub, rəng və plastika vasitələrinə görə fərqlidir. Buraya məhv edilmiş şəhərin və onun sakinlərinin faciələrini böyük planda əks etdirən «Xocalının son günü», «Xocalı od içində», «Ata, oğul, ər! Bizi xilas edin!», «Köməksiz Xocalı» kimi əsasən iri formatlı çoxfiqurlu kompozisiyalar daxildir. Elə tablolar da var ki, onlarda bir ailənin, yaxud hətta bir insanın faciələri öz əksini tapır. Bu əsərlərin təkcə adları - «Ailə əsirlikdə», «Onu asıblar», «Mən yetim qaldım», «Qohumlarım həlak oldu, mənsə sağ qaldım», «Xocalı Qavroşu», «Körpənin ölümü» - onların süjetini çox dolğun ifadə edir. «26 fevral, gecə» tablosu üslubiyyatına görə abstrakt sənətə yaxındır, başqa birisi – «Bu qız üçün günəş Xocalıda batdı» - tablosu forma quruluşu baxımından kubizmi xatırladır. Bu əsərlər nə qədər faciəli, eyni zamanda dəyərli olsalar da, hər halda rəssamın «Xocalı seriyası»nın eriqrafı kimi «Xilaskarı gözləyən gözlər» kompozisiyasını seçmək olar. Vertikal formatlı bu əsərdə bir neçə ağlar qadın gözü, lap yuxarıda isə bir yerdə toplaşaraq sanki ağlayan buluda dönmüş gözlər təsvir olunub. Bütün seriya bədii sənətkarlığın və insan imkanlarının son həddində, dərin psixoloji sarsıntıların, tarıma çəkilmiş əsəblərin səbirlə, dözümlə çarpışdığı, kəllə-kəlləyə gəldiyi o mənəvi uçurumun lap qırağında yaradılıb. Sənətkar, belə hallarda deyildiyi kimi, ürək partlaması həddində işləyib, bu təsirli əsərləri çəkib.

Uzun müddət Almaniyada yaşayan, lakin öz xalqının faciələrinə biganə qala bilməyən soydaşımız Əşrəf Heybətovun «Xocalı» (2010) pannosunda da buna bənzər emosional gərginlik, ağrı və kədər hissləri özünü göstərir. Bu monumental pannonun kolorit həlli öz ifadəsini qan-qırmızı və göy rənglərin təzadlı kəsişməsində tapır və dünyanın sonu – apokalipsis görüntüsü ovqatı yaradır. İstər-istəməz yada düşür ki, ivrit dilində soyqırım «şoa» adlanır (xolokost yunan sözüdür) və bu qısa, kiçik söz böyük bəşəri kədərləri əks etdirən dəhşət, faciə anlamına gəlir. Ə.Heybətovun pannosu doğrudan da ölüm həddində olan, ətrafda ölüm və qandan savayı bir şey görməyən zavallı insanların dəhşət dolu hisslərini əks etdirir.

Xocalı faciəsi təkcə azərbaycanlı rəssamların deyil, bir insan kimi bu dəhşəti kənardan biganəliklə seyr edə bilməyən xarici rəssamların yaradıcılığında da yer alıb. Fransız rəssamı Reno Baltzinger bu mövzuya ağ fonda qırmızı və qara rənglərlə işlənmiş bir neçə əsər həsr etmişdir. Rəsmlərdəki qırmızı və qara rənglər kətan üzərində axaraq ölüm və qan assosiasiyası yaradır.

İncəsənətdə Xocalı faciəsi təkcə rənglər yox, həm də daş, plastik obrazlar vasitəsilə öz bədii təcəssümünü tapır. Bakıda, metronun «Xətai» stansiyası yaxınlığındakı o qədər də böyük olmayan sahədə T. və M.Rüstəmov qardaşları tərəfindən Xocalı faciəsi qurbanlarının xatirəsinə abidə ucaldılıb (2008). Heykəltəraşlar soyqırım ideyasını son dərəcə lakonik və sadə vasitələrlə ifadə etməyə müvəffəq olmuşlar. Qara mərmərlə üzlənmiş hündür, düzgün proporsiyalı postament üzərində üz-gözündə, duruşunda dərin kədər və hüzn əks olunan, irəliyə doğru uzatdığı əlləri üstündə öldürülmüş körpəsini saxlayan gənc ana fiquru ucalır. Postamentin aşağı hissəsində müəlliflər soyqırım qurbanlarının xatirəsinə tuncdan tökülmüş əbədi qəbirüstü əklil yerləşdirmişlər.

Hal-hazırda Heydər Əliyev Fondunun layihəsinə əsasən Xocalı qurbanları abidəsi yaxınlığında yerləşəcək Xocalı soyqırımı Memorial kompleksinin yaradılması üzrə iş aparılır. Layihənin əsasında simvolik konsepsiya dayanır. «Bu konsepsiyaya müvafiq olaraq kompleksin həyətində fevralın axırında çiçək açan ağaclar əkiləcək. Bu, 1992-ci ilin fevralında Xocalıda amansızlıqla qətlə yetirilmiş günahsız insanların yarımçıq kəsilmiş ömürlərini simvolizə edir. Kompleksi dörd bir yandan çevrələyən düzbucaqlı monolit sanki Xocalı sakinlərini soyqırımdan müdafiə etməyə çalışan simvolik əllər formasında həll edilmişdir [5]. 25 əsərdən ibarən olan, müxtəlif materiallardan düzəldilmiş heykəltəraşlıq seriyasının müəllifi Azərbaycanın xalq rəssamı Xanlar Əhmədovdur. Bu möhtəşəm heykəltəraşlıq əsərləri içərisində «Son ümid», «Xocalı şəhidi», «Xocalı faciəsi» öz plastik həlli ilə xüsusilə seçilir.

Xocalı mövzusu Azərbaycanın xalq rəssamı, istedadlı heykəltəraş Natiq Əliyevin də yaradıcılığında öz dolğun təcəssümünü tapmışdır. O, Mexikoda (2012), Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda (2012) və Ankara şəhərində (2014) Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış

monumental abidələrin müəllifidir. Bu heykəllər maraqlı kompozisiya həlli, plastik formaların mütənasib quruluşu, dramatik məzmunu ilə seçilir.

Vaqif Ucatayın bütün dünyanı dolaşmış «Xocalı» plakatında köksünə xəncər sancılmış körpə təsvir olunub. Şübhəsiz ki, bu kompozisiya öz emosional təsir gücünə görə soyqırım mövzusunda işlənmiş ən riqqətli, yaddaqalan əsərlərdən biridir. Rəssam həmçinin dinc azərbaycanlıların erməni quldurları tərəfindən törədilən soyqırıma həsr olunmuş «Bax! Gör! Xatırla!» adlı qrafik əsərlər seriyası yaratmışdır. Bu seriya seyrçini ruhən sarsıdır, onu şok vəziyyətinə salır. İnanmaq çətin olsa da, burada heç bir rəssam təxəyyülü, mücərrəd bədii ümumiləşdirmə yoxdur – rəsmlərdəki dəhşətlər məhz olmuş hadisələri əks etdirir. 49 qrafik vərəqədən ibarət olan seriyada əks edilmiş tükürpərdici görüntüləri V.Ucatay möcüzə nəticəsində sağ qalaraq əsirlikdən qurtulmuş Xocalı sakinlərinin dilindən eşitdikləri əsasında işləyib. Seriyanı yaradarkən rəssam bədii ifadə vasitələrindən minimum səviyyədə istifadə edib. Təsvirlər əsasən ağ kağız fonunda qara qrafik cizgilərdən və qırmızı qan ləkələrindən ibarətdir. Hamilə qadının qarnına soxulan bıçaq, diri-diri şaqqalanmış körpəsinin meyiti ilə döyülən, naləsi ərşə qalxan gənc ana, itiuclu armaturlara taxılmış kəsik başlar… əks olunan səhnələrdə qırmızı qan görüntüləri əsl dəhşət ab-havası yaradır. 2009-cu ildə Vaqif Ucatayın Xocalı faciəsinə həsr olunmuş qrafik əsərlərinin sərgisi keçirilərkən seyrçilər sözün həqiqi mənasında böyük ruhi sarsıntılar yaşadı.

Ümumiyyətlə, Xocalı, soyqırım, Qarabağ müharibəsi mövzusu müasir Azərbaycan qrafikasında mühüm yer tutur. Maraqlıdır ki, bu mövzu bəzən bütöv bir qrafik əsərlər seriyasının yaradılmasının əsasını təşkil edir. Vüqar Quliyev (təvəllüdü 1980) Xocalı mövzusuna gənc yaşlarından müraciət edir. Onun əsərləri sırasında "Xocalı qaçqını" (2012), "Qaçqın qadın" (2013), "Təcavüz" (2014), "Soyqırım" (2014) qravüraları, həmçinin "Faciə" triptixi (2015) xüsusilə qeyd edilməlidir. 1992-ci il fevral faciəsinə həsr olunmuş növbəti sərgidə gənc rəssam "Sönmüş ocaq" (2011) rəsminə görə mükafata layiq görülüb.

V.Quliyevin atası, tanınmış rəssam Oqtay Quliyev də (təvəllüdü 1948) soyqırım mövzusuna həsr olunmuş bütöv bir qrafik işlər seriyasının müəllifidir.

Bunlar əsasən 2013-2014-cü illərdə çəkilmiş vərəqlərdir. Seriyaya onlarla rəsm daxildir ki, bunların da az qala hər birində dərin kədərə qərq olmuş milli geyimli qadınlar təsvir edilib. Oqtay Quliyevin emosional təsir baxımından ən qüvvətli işlərindən biri 2013-cü ildə yaradılıb. Burada detalların sayı minimuma endirilmişdir, hər şey sadə və eyni zamanda son dərəcə gərginləşmiş görünüşə malikdir. Böyük planda qadın siması və uşaq siması. Qara yaylıq, qara gözlər, qara göz yaşları...

Biz soyqırım haqqında danışdıqda, hamımızın səyi yalnız bir məqsəd daşıyır: Bu, bir daha təkrar olmamalıdır. Bir daha yəhudi xolokostu baş verməməlidir, bir daha atom bombası Xirosima üzərinə düşməməlidir, bir daha ispan Gernikası, Vyetnam Sonqmisi, Belorus Xatını, Ukrayna, Qazaxıstan aclığı təkrarlanmamalıdır, bir daha Azərbaycanda Xocalı faciəsi təkrarlanmamalıdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Алиев З. Карабахская война в изобразительном искусстве. // Наследие, № 6, 2013.
2. Məmmədov D.N. Xocalı harayı. Bakı, 2010.
3. http://www.nakhchivan.az/portal-ru/serencam-8.htm
4. Gülnar Əliyeva. Xocalı Soyqırımı Memorial Kompleksi belə olacaq. http://www.anspress.com/index.php?a=2&lng=az&nid=201938
5. Губинский мемориальный комплекс геноцида http://www.heydar-aliyev-foundation.org/ru/content/view/93/2808


**INSTITUTE OF ARCHITECTURE AND ART OF THE ANAS**

## KHOJALY TRAGEDY IN FINE ARTS

## SUMMARY

During those 25 years which have passed since tragic events in Khojaly, the subject of genocide turned into a certain cultural phenomenon in Azerbaijan fine arts. The subject of Khojaly tragedy has found its reflection in painting, sculpture and drawing, almost all genres of fine arts. Picturesque works of N.Mammadov, S.Manafova, A.Heybatov, R.Baltzinger, graphic works of V.Ujatay, O.and V.Quliyevs, sculptural compositions of Kh.Ahmadov, N.Aliyev, T. and M.Rustamov brothers are considered in the article.

**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА НАНА ТРАГЕДИЯ ХОДЖАЛЫ В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ**
**РЕЗЮМЕ**

За те 25 лет, которые прошли со времени трагических событий в Ходжалы, тема геноцида в изобразительном искусстве Азербайджана превратилась в определенный культурный феномен. Тема Ходжалинской трагедии нашла отражение в живописи, скульптуре и графике, почти во всех жанрах изобразительного искусства. В статье рассматриваются живописные произведения Н.Мамедова, С.Манафовой, А.Гейбатова, Р.Балтзингера, графические работы В.Уджатая, О. и В.Гулиевых, скульптурные композиции Х.Ахмедова, Н.Алиева, братьев Т. и М.Рустамовых.

*T.e.d, prof.* **Anar İSGƏNDƏROV**
*BDU-nun kafedra müdiri*

## 1918-1919-CU İLLƏRDƏ LƏNKƏRAN QƏZASINDA AZƏRBAYCANLI ƏHALİYƏ QARŞI HƏYATA KEÇİRİLƏN SOYQIRIM

**Açar sözlər:** Lənkəran qəzası, daşnak-bolşevik, general Tomson, soyqırım
**Keywords:** Lankaran Uyezd, dashnak, bolshevik, General Thomson, genocide.
**Ключевые слова:** Ленкоранский уезд, дашнаки, большевики, Генерал Томсон, геноцид.

1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda və Qubada daşnak-bolşevik rəhbərliyinin fəal iştirakı ilə törədilmiş dəhşətli qırğın nəticəsində dilindən, dinindən, cinsindən, mənşəyindən asılı olmayaraq minlərlə dinc əhali öldürülmüş, təhqir və işgəncələrə məruz qalmışdı. Bu qanlı hadisə tezliklə Bakı hüdudlarından kənara çıxmış, bolşevik-daşnak hərbi dəstələri bir sıra Azərbaycan qəzalarında olduğu kimi, Lənkəran qəzasını da talan etmiş, dinc əhali qətlə yetirilmişdi.

Cənubi Qafqazda hakimiyyəti ələ almağa çalışan Şaumyan və onun quldur dəstəsi Lənkəranın mühüm strateji və ərzaq rayonu olmasını nəzərə alaraq, bu bölgəni ələ keçirməyi qarşıya məqsəd qoymuşdu Şaumyan milli qüvvələrin – Sultan bəy Qulubəyov, Aslan Talışinski və baron Osten-Sakerin 1917-ci ildə təşkil etdiyi milli alayı və Lənkəranda yerləşən "Dikaya diviziya"nı tərksilah etməklə bölgəni ələ keçirməyi planlaşdırırdı. Lənkəranda olan "Dikaya diviziya"nı tərk-silah etmək üçün Şaumyanın sərəncamı və Erməni Milli Şurasının göstərişi ilə Bakıdan 280 nəfər daşnak-bolşevik birləşməsi Lənkərana göndərildi. 1918-ci ilin aprelindən başlayaraq Lənkəran qəzasına basqın edən bu quldur dəstə yol boyu azğınlıq etməklə müsəlman kəndlərini yandırır və dinc əhaliyə divan tuturdu. Bu hadisələrin şahidləri olan yerli sakinlər qeyd edirlər ki, 1917-ci ilin oktyabrından 1918-ci ilin may ayına qədər daşnak dəstəsinə rəhbərlik edən Akopyan Lənkəran xanının evini özlərinə qərargah etmiş və törətdikləri vəhşiliklərə belə haqq qazandırırdılar ki, guya Lənkəran qəzasını qaçaq-quldurlardan qoruyurlar. Bu məqsədlə onlar dəfələrlə şəhər və kəndləri dənizdən top atəşinə tutmuş, sakinlər əliyalın olduğundan, atışma başlayan kimi meşələrə üz tutmuşdular. Bu qırğınların qarşısını almaq üçün danışığa gedən Sütəmurdov kəndinin 13 ağsaqqalı yaraqlı dəstənin başçıları ilə belə bir şərt kəsirlər ki, dinc əhaliyə toxunmayacaqları təqdirdə, əvəzində onlara lazım olan ərzağı verəcəklər. Lakin bu təklifə baxmayaraq, daşnak dəstəsi onları öldürərək qılıncla tikə-tikə doğrayıb və torpağa basdırırlar. Lənkəran qırğınları zamanı hərbçilər arasında olan erməni millətçiləri yerli müsəlman əhaliyə olmazın zülmlər verərək onlara müqavimət göstərən müsəlmanları qətlə yetirmiş, meyitlərini yandırmışlar. Hətta bir cavanın kürəyinə qaynar qazan bağlayaraq yeriməyə məcbur edib, sonra isə güllələmişlər. Daşnaklar Lənkəran qəzasının 40 kəndində eyni vəhşilikləri törətmiş, şəhərin mərkəzində qala meydanında yerli sakinlər kütləvi şəkildə qətlə yetirmişdilər.

Fövqəladə Təhqiqat Komissiyanın sədri Ələkbər bəy Xasməmmədov Xarici İşlər nazirinə yazırdı ki, "Avropa sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Şamaxı, Quba şəhərlərində, Şamaxı, Göyçay, Cavad, Lənkəran və Quba qəzalarında türk-müsəlman əhalisinə qarşı daşnak-bolşevik birləşmələri tərəfindən törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar kifayət qədərdir. Lənkəran qəzasında polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsində isə polkovnik İllarinoviç başda olmaqla başqa bir dəstə tərəfindən qəzada böyük dağıntı törədilərək azərbaycanlı əhali ucdantutma məhv edilmişdir. Astara bolşevik əsgərləri tərəfindən topa tutularaq xarabazara çevrilmiş, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur olmuşdu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndləri "Aleksandr Jandar" gəmisi tərəfindən top atəşinə tutulmuşdu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddət etmişdi" (4, 85-86; 2, 100, siy. 2, iş 791, vər. 2).

Lənkəran qəzasında ermənilərin müsəlmanlara qarşı soyqırımı 1918-ci ilin yanvarında başlamışdır. Belə ki, yanvar ayında İrandan qayıdan rus dəstələrinin tərkibindəki ermənilər Astarada yerli camaatı top atəşinə tutdu. Əliyalın əhali müqavimət göstərə bilməmiş və meşələrə çəkilmişdi. Erməni əsgərləri rus əsgərlərini də yerli əhaliyə qarşı zorakılıq törətməyə təhrik edirdilər. Ermənilərin Astarada törətdikləri Lənkəran camaatını bərk qorxuya saldı. Çünki Lənkəranda hər cür silah-sursata ma-

lik 2 mindən artıq qeyri-millətdən olan əsgər var idi. Rus əsgərləri həmin silah və sursatı Avetisovun erməni və ruslardan ibarət əsgərlərinə payladılar. Yerli camaat başa düşürdü ki, silah əldə etmədən bu hərbi birləşmələrin öhdəsindən gələ bilməz. Buna görə də İrandan qayıdan rus əsgərlərini gətirən “Milyutin” paraxodundakı silah-sursatı ələ keçirməkdən ötrü İbrahim bəy Şahtaxtinski silahlı dəstə ilə hücuma keçdi və qənimət olaraq 6 ədəd pulemyot, 800 tüfəng, 850 min patron və 10 yeşik bomba ələ keçirdi. Mircavad bəy Talışinskinin Ərkivandan göndərdiyi atlı dəstə də gəmidəki silahın ələ keçirilməsinə yardım göstərdi.

Daşnaklar evlərə girib bəzən bütün ailəni məhv edirdilər. Hamilə qadınlara, qocalara belə rəhm edilmirdi. Bir gün ərzində Gərmətük kəndində 70, Mamusta kəndində 30, Kərgəlan kəndində 30, Sütəmurdov kəndində 20-dən çox, Girdəni kəndində 20 günahsız insan faciənin qurbanı oldu. Lənkəran şəhəri və ətraf kəndlərin əhalisi Osakücə meşələrinə çəkilərək özlərini qorumaq üçün sığınacaq tapmışdılar. Ara sakitləşəndən sonra ev-eşiklərinə qayıtmış şəhər camaatı erməni vəhşiliyinin bir daha şahidi oldular. Evlər top mərmisi ilə dağıdılmış, dükanlar qarət və talan edilmişdi. Öldürülmüş və dənizə atılmış insan cəsədləri üzərində erməni vəhşiliyinin və qəddarlığının bütün əlamətlərini görmək mümkün idi. Avetisovun daşnak dəstəsi hərbi paroxoddan Lənkəran şəhərini top atəşinə tutmuş, nəticədə Kiçikbazar məscidinin divarının bir tərəfi mərmi ilə dağıdılmışdı (18).

Lənkəran qəzasında daşnakların vəhşilikləri haqqında Fövqəladə Təhqiqat Komissiyasına Xədicə İsmayıl qızı öz ifadəsində qeyd edir: "Mart hadisələrindən sonra mən Lənkərana getmişdim və oradan 2 həftə sonra Bakıya qayıtdım. Bakı alınmamışdan əvvəl 2 min erməni əsgəri Lənkərana gəldi və özbaşınalıq etməyə, müsəlman əhalisini ələ salmağa başladı. Onlar yeməkxanalara girir, yeyib-içir və pulunu ödəmədən çıxıb gedirdilər; çörək alır və onun pulunu vermirdilər. Sonra onlar türklərdən müdafiə olunmaq üçün müsəlmanları səngər qazmağa məcbur edirdilər. Hətta o həddə çatmışdı ki, ermənilər məhərrəmlik zamanı müsəlmanlara məscidlərə girməyi qadağan etmişdilər. Əhali məscidlərdə toplaşdıqda və orada öz dini mərasimlərini keçirdikdə erməni əsgərləri məscidlərə soxulur və onları qarət etdikdən sonra, məscidi yandırmağa cəhd göstərdilər. Lakin ordunun tərkibindəki gürcülər buna mane olaraq məscidi xilas edə bildilər (1, f. 277, s. 2, iş 13, v. 157. Sənəd № 375). Bu qırğınlar nəticəsində ermənilər bölgədə yüzlərlə ev dağıtmış və minlərlə günahsız insanın həyatına son qoymuşdur. Nəticədə 1919-cu ilin avqustuna, “Molokan qiyamı” yatırılana qədər qəzada erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu (4, s. 86; 7; 1, f. 277, siy. 2, iş 16, v. 18).

Erməni hərbi birləşmələri Lənkəran qəzasında müsəlman əhaliyə qarşı öz cinayətkar əməllərindən əl çəkməyərək törətdikləri qırğınların miqyasını günü-gündən genişləndirirdilər. Bu qırğınların qarşısını almaq üçün 1918-ci il noyabrın 1-də Müsəlman Cəmiyyətinin səlahiyyətli nümayəndəsi Teymur bəy Bayraməlibəyov Bakıda Qafqaz-İslam Ordusunun baş komandanı Nuru paşanın qəbulunda oldu. O, Avetisovun (Nuru paşanın hücumu qarşısında duruş gətirə bilməyərək ordunu başsız qoyub qaçan, türklərin qatı düşməni, Bakı cəbhəsinin keçmiş komandanı Avetisov sonralar Prişibdə öldürülmüşdü) quldur dəstəsinin özbaşınalığı haqqında ona məlumat vermiş və lənkəranlıların bu ağır vəziyyətdən qurtarmasını xahiş etmişdi. Görüşdə Nuru paşa lənkəranlıların səlahiyyətli nümayəndəsinə bildirmişdi ki, türklər sizə hərtərəfli köməklik göstəcək və adıçəkilən dəstənin bütün özbaşınalığının qarşısı alınacaqdır. Sonda Nuru paşa bildirmişdi ki, müsəlmanlara çatdırın ki, onlar çox da gözləməyəcəklər (17, s. 59; 8, s. 130).

Məlum olduğu kimi, 1918-ci ilin oktyabrında Mudros barışığına görə Osmanlı dövləti məğlub dövlət elan olundu. Müqaviləyə görə Osmanlı ordusu Cənubi Qafqazı tərk etməli müttəfiqlərin adından ingilis qoşunları bu əraziyə daxil olmalı idi. Osmanlı ordusu Azərbaycanı tərk etdikdən sonra ermənilərin qəzada özbaşınalığı və qırğınları daha da artdı.

Bu qırğınların qarşısının alınması üçün 1918-ci il noyabrın 14-də qəza nümayəndələri Teymur bəy Bayraməlibəyov, Axund Molla Əli Tağızadə və Yusif Qəribzadə İrandakı Böyük Britaniya konsulu Hevelke ilə görüşərək, Avetisovun başçılığı altında erməni silahlı dəstələrinin Muğanda və Lənkəranda dinc əhaliyə divan tutduğuna dair sənədləri ona təqdim etdilər. Nümayəndə heyəti ingilis konsulundan erməni silahlı dəstələrinin hərəkətlərinin qarşısını almağa yardımçı olmağı xahiş etdilər (4, s. 215-216).

Lakin bütün bunlara baxmayaraq, qəzada ermənilərin dinc əhaliyə qarşı qırğınları davam edirdi. Lənkəranda ermənilərin törətdikləri qarətlərin, qırğınların qarşısını almaq məqsədilə 1918-ci il dekabrın 28-də Teymur bəy Bayraməlibəyovun başçılıq etdiyi nümayəndə heyəti Bakıda general Tom-

sonla görüşərək ermənilərin müsəlmanlara divan tutmaları haqqında ona məlumat verərək, qəzanın bu qüvvələrdən təmizlənməsini və qəzanın Azərbaycanla yenidən birləşdirilməsi haqqında tədbirlər görülməsini xahiş etdi" (4, 73-74).

Lənkəran qəzasında erməni hərbi dəstələrinin dinc müsəlman əhaliyə qarşı törətdiyi soyqırım faktları ilə bağlı 1919-cu ilin yanvarında Məmməd Əmin Rəsulzadə parlamentdəki çıxışında qeyd edirdi: "...burada yenə imdad naləsi eşidiriz. Binaən-ileyh Azərbaycan hökuməti məsələnin sülh konfransı tərəfindən həllinə və Qafqaziya millətləri bir yerə yığışıb ixtilafi bitirməsinədək millətdaşımızın və irqdaşımızın düçar olduqları ələmlərini yüngülləşdirməlidir. Yalnız ora (İrəvanda) deyil, Lənkəran müsəlmanları da bu haldadırlar. Azərbaycan parlamenti bu dərəcə zülm və qəddarlara düçar olan qardaşlarımıza müavinətini əsirgəməz: Vətənin ayrılmaz bir cüzini təşkil edən və paytaxtımızın böyründə bulunan Lənkəran uyezdinin bir takım özübaşına şəbilər əlində hər növ zülm və cəbrlərə məruz qaldığı, bura müsəlman əhalisinin min dürlü təcavüzlərə, işgəncələrə, haqsızlıqlara giriftar olduqları, Muğan Cumhuriyyəti adı ilə tuğyan edən şəbilərin kəndlilərini Muğan hökumətini tanımağa icbar eylədikləri hökumətə məlum olmaya bilməz. Hökumətin bu zavallı uyezdi, bu qəddar şəbilər təsəllüətindən qurtarmaq üçün nə kimi tədbirlərə müraciət eylədiyini bilmək istəriz" (3, s. 121-122).

Parlamentin iclasında çıxış edən Lənkəran nümayəndəsi Hacı Mirzə Səlim Axundzadə Lənkəran qəzası ilə bağlı məruzəsində qeyd edirdi: "Lənkəranda xərabə və payimal olmayan bir ev mövcud deyil, Lənkəranın vəziyyətini mülahizə edən insanın ürəyi ya gərək erməni ürəyi və ya xaxol ürəyi, yainki gərək daş olsun.

Şəhərimizin ulu zənginlərindən Əsgər xan Talışinski İran guşələrində qalıb öldü. İmarətləri təmamən qarət edilib viran edildi. İmarəti də bilmərrə yanıb kül oldu. Buna da iktifa etməyib əvvəllərdə ermənilər, sonralar da xaxollar o gözəl imarətləri at və heyvan yatağı qərar verdilər. Habelə İsa bəy Əlibəyovun da evi bilmərrə zirü və zəbərdir. Əgər bu təriqlə adbaad Lənkəran şəhərinin xarabalarını siyahı eyləmək lazımdır ki, hamı əhalinin adların bir-bir zikr edəm. Lənkəran deməli ikinci Şirvandır. Amma bu qədər deyə bilərəm ki, qalada Tura xanımın imarətindən başqa cəmi erməni, rus evləri abad və avadanlıqları salamatdır."

Hacı Molla Səlim Axundzadə parlamentdəki digər bir nitqində qeyd edirdi: "Cənab məbuslar! Lənkəranda edilən zülmə dəxi əhalinin davamı yoxdur. Üstüörtülü ərz edirəm: bu saat Lənkəranda evlərə girib hər şey edirlər. İrzinamus əl-ayaq altında gedir. Gecələr birisinin evinə girirlər. Ev sahibi evində nələr olduğunu utandığından heç kəsə açıb söyləyə bilmir. Lənkəran buradan 12 saatlıq yoldur. Əgər istəyirsiniz hər firqədən bir nümayəndə olaraq bir komissiya göndəriniz, gedib bu işləri yerində təhqiq eləsin. Həqiqətdə irzinamus gedir". (f. 895, siy. 7 iş. 840, v. 1-6).

Lənkəran qəzasında ermənilərin törətdiyi vəhşiliklə bağlı Nəsib bəy Yusifbəyli parlamentdə çıxışında qeyd edirdi: Məlumunuzdur ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yabançılar əlindədir. 100 minə qədər vətəndaşımızın həyatı təhlükə qarşısındadır" (2, f. 895, siy. 7 iş. 840, v. 1-6).

Ermənilərin Lənkəran qəzasında törətdikləri vəhşiliklər haqqında məlumatlar 1918-1920-ci illərdə nəşr edilmiş "Azərbaycan" qəzetinin səhifələrində də öz əksini tapmışdır. Qəzet yazır: "Lənkəranda erməni silahlı dəstələri müsəlmanlar arasında səbəbsiz axtarışlar və həbsləri davam etdirməklə hər gecə neçə günahsız ailəni bədbəxt edirlər. Yalan xəbərlər və əsassız şübhələr ilə ermənilər müsəlmanların evlərini axtarır, onları hər cür təhqir edir və həbs etdirirdilər. Həbsxanaya aparарkən, yolda guya qaçmaq istədiklərini bəhanə edərək, onları güllələyirdilər. Onlar əsassız ittihamlarla arvadlı-uşaqlı bütün ailəni tutub həbs etdirirdilər. Adamları sorğu-sualsız öldürürdülər. Avetisovun əsgərləri müsəlmanlar haqqında etdikləri vəhşilik və zülmlər sayəsində çoxlu sayda şəhər sakini öldürülmüşdü. Qorxu və vahimə içərisində olan camaat küçəyə çıxmaqdan qorxaraq evlərdə gizlənirdilər" (5, 15 noyabr 1918-ci il, № 36).

Lənkəranda İlyaşeviçin kəşfiyyat dəstəsinin etdiyi biabırçılıqları qələmə alan T.Bayraməlibəyov "Azərbaycan" qəzetinin 10 noyabr 1918-ci il tarixli 31-ci sayında çap etdirdiyi məlumat xarakterli məqaləsində yazırdı: "Lənkəranda Avetisovun soyğunçu dəstəsini İlyaşeviçin rüsvayçılıqlar törədən kəşfiyyat dəstəsi əvəz etdi. Bu dəstə əhalinin asayişini qorumaq əvəzinə, evlərə basqın edir, müsəlmanları soyur, öldürür, qadınların ismətinə toxunur, onları özləri ilə aparırlar.

Müsəlman kəndlilərinin vəziyyəti dözülməzdir, çünki onların əlindən hər cür silahlar, hətta tü-

fəngləri də alınmışdır. Bütün silahlarını quldurbaşı İlyaşeviçə təhvil verən əhali yanıldığını sonradan anlamışdır. Gec də olsa, başa düşmüşdü ki, o, qəddar, zalım, rəhmsiz və tülkü cildinə girmiş adam olsa da, əslində canavar xislətli yırtıcıdır".

Yerli əhalinin vəziyyətinin günü-gündən ağırlaşdığını Teymur bəy «Azərbaycan» qəzetinin 15 noyabr 1918-ci il tarixli 36-cı sayında çap etdirdiyi məqaləsində təsvir edərək yazırdı: "Avetisovun dəstəsi hakimiyyətin ona hər cür imkan verməsindən istifadə edərək, bu günə qədər heç bir maneçiliyə rast gəlmədən evlərdə yoxlama aparmağı, mənzilləri qarət etməyi, köməksiz müsəlmanları tutmağı, lazım gələrsə, öldürməyi davam etdirir". Avetisovon qoşunu əvvəlki kimi xalqı soyub talamaqda və müsəlmanları qətl, qarət etməkdə davam edir, adamlar günahsız həbs olunurdu. Avetisovun erməni dəstəsinin dinc əhaliyə qarşı həyata keçitdiyi soyqırıma aşağıdakı hadisəni misal göstərmək olar. Noyabrın ilk günlərində beş silahlı erməni guya evlərdə gizlədilmiş silahları tapmaq bəhanəsi ilə gecə Əkbər Qəribov və Xəlil Nəcəfqulu oğlunun mənzillərinə basqın edərək heç bir günahı olmayan ev sahiblərini öldürmüş, qızıl və digər qiymətli əşyaları götürüb getmişlər. Bu hadisənin şahidi olan qonşular, silahlı soyğunçular tərəfindən öldürüləcəklərindən ehtiyat etdiklərinə görə qonşularına kömək edə bilməmişlər.

Avetisovun dəstəsi müsəlmanların əlindən taxıl zəmilərini almış, Xırmandalı, Əminli, Qədirli, Qarğalıq, Körəkli, Əlişanlı, Təklə, Hüseyn Hacılı, Həsənli, Yeddioymaq kəndləri ermənilər tərəfindən yandırılmışdır. Əlişanlı, Xıl və Yeddioymaq kəndlərində olan əkin yerləri də müsəlmanların əlindən alınmışdı. Alınmış əkin sahələri bu yerlərə köçürülmüş mühacir ruslara verilmiş, adı çəkilən kəndlərin əhalisi isə evsiz-eşiksiz, torpaqsız və müdafiəsiz qalmışlar. Ağır güzaran keçirən kəndlilər öz kəndlərinə, öz evlərinə qayıtmaq istəyirlər. Lakin onlara ciddi şəkildə xəbərdarlıq edilmişdi ki, bir daha öz yerlərinə qayıtmasınlar. Əlacsız və çətin vəziyyətdə qalan Lənkəran müsəlmanları nicat yolunu Azərbaycan ordusunun birliyində, gücündə, iradə möhkəmliyində görür və ümid edirlər ki, bu ordunun köməyi ilə onlar azadlığa çıxacaq və evlərinə qayıda biləcəklər" (5, 15 noyabr 1918-ci il, №36).

"Azərbaycan" qəzeti 18 noyabr 1918-ci il tarixli nömrəsində yazırdı: "Dəhşətlər, biabırçılıqlar törədən və cəzasız qalan Avetisovun hər gün qan tökən quldur dəstəsi buradan getməsə, yerli əhali, xüsusilə müsəlmanlar bundan sonra öz halal dədə-baba torpaqlarında rahat yaşaya bilməzlər (5, 18 noyabr 1918-ci il, №39). Noyabr ayında ingilis əsgərinin Lənkərana gələcəyi gözlənilir. Eyni zamanda ingilis əsgərlərinin Avetisovun dəstəsi ilə birləşəcəyi barədə şayiələr dolaşmaqdadı. Bu xəbəri eşidən yerli əhali böyük narahatçılıqlar bildirib yazırlar ki, biz ancaq bunu yəqin etmişik ki, Avetisovun əsgərləri Lənkərandan getməyincə müsəlmanlar öz evlərində rahat nəfəs ala bilməyəcəklər. Yerli əhalinin cürbəcür dəhşətlərdən, faciələrdən və hədsiz qanunsuzluqlardan xilas olması üçün Avetisovun dəstəsinin buranı tərk etməsi vacibdir. Yerli əhaliyə olan bu haqsızlıqları Xalq Cümhuriyyətinə çatdırmaq üçün Lənkəran müsəlmanlarının nümayəndə heyəti Bakıya gedərək, 1918-ci ilin noyabrın 19-da Xarici İşlər naziri ilə görüşərək, Lənkəran nahiyəsində müsəlman əhalisinin Avetisovun dəstəsi tərəfindən min cür təhqirlərə və əziyyətlərə məruz qalmaları barədə məlumat verərək, nazirdən Şimalı İran ordusunun baş komandanı general Tomsonun köməyilə Avetisovun dəstəsinin oradan çıxarılmasına təşəbbüs etməsini xahiş etmişlərdir" (5, 18 noyabr 1918-ci il, №39).

"Azərbaycan" qəzetinin 4 yanvar 1919-cu il tarixli 3-cü sayında çap olunan məqalədə deyilir ki, Lənkəran əyalətindəki müsəlmanlara vəkil edilmiş Teymur bəy Bayraməlibəyov yanvarın 2-də Azərbaycan Nazirlər Sovetinin sədrinə ərizə ilə müraciət etmişdir. Ərizədə deyilir: "Hər yerdə qəsbkarlıq, özbaşınalıq, zorakılıq baş alıb gedir. Bədbəxt müsəlmanlar həyatda yaşamaq üçün heç yerdə özlərinə sığınacaq tapa bilmirlər. Lənkəranlıların acınacaqlı vəziyyətini nəzərə alaraq Dövlətlər İttifaqının Qərargahı ərazidə qanun-qayda yaratmaq və Lənkəranın Azərbaycan hökumətinin tabeçiliyinə keçənədək buradakı vəziyyəti nəzarətdə saxlamaq üçün üç zabit və 30 ingilis əsgərindən ibarət kiçik bir dəstə ezam edilsə, qəzada ədalətsizliyə, yersiz təqiblərə son qoyular" (5, 4 yanvar 1919-cu il, №3; 7, 186).

"Azərbaycan" qəzetinin 14 mart 1919-cu il tarixli nömrəsində bu dövrdəki Lənkəran qəzasının ümumi vəziyyəti şərh edilərək qeyd olunur ki, "Mart hadisələrindən sonra Lənkərana bolşeviklərlə bərabər erməni daşnakları da gəldilər. Bundan sonra erməni Avetisovun başçılığı ilə daşnak hərbi hissələri müsəlman kəndlərinin axırına çıxdılar. Olmazın zülmlər, əziyyətlər verdilər. Yollar kəsildi. Əhali şikayət etməyə bir yer tapmadı. Türklər Bakıya gəldikləri zaman Muğan ətrafının bolşevikləri

ilə əlaqələri kəsildi. Buradakı sərsərilər "Muğan hökuməti" adı ilə dağıdıcı bir qurum düzəltməklə, müsəlmanları soymağa və qırmağa başladılar" (5, 14 mart 1919-cu il).

Beləliklə, iki ilə yaxın bir müddət ərzində Lənkəran qəzasında ermənilərin törətdikləri qırğınlara 1919-cu ilin yayında - Camal paşanın komandanlığı ilə türk ordusunun və Azərbaycan Milli Ordusunun Lənkəran qəzasına daxil olduğu vaxtdan son qoyuldu. Camal paşanın gəlişi ümidsizləşmiş silahsız qəza camaatının sevincinə səbəb oldu. Lənkəran qəzanın milli qüvvələrin əlinə keçməsi ilə əhali qırğından, talanlardan xilas olmuş və Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir.

### MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin yanında Siyasi Sənədlər Arxivi. F. 277, siy. 2, iş 16, v. 18.
2. Azərbaycan Respublikası Dövlət Arxivi. f.100, siy. 2, iş 791.
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı: Azərbaycan 1998.
4. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Baki: Nurlan, 2008, 696 s.
5. "Azərbaycan" qəzeti. 1918-1919-cu illər.
6. "Açıq söz" qəzeti, № 662, 23 yanvar 1918-ci il.
7. Anar İsgəndərov. Azərbaycan türk-müsəlman soyqırımı problemlərinin tarixşünaslığı: 1918-1920. Bakı: Adiloğlu, 2006, 396 s.
8. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan, 2007, 163 s.
9. Cavadova E. O, həm də görkəmli etnoqraf idi (Teymur bəy Bayraməlibəyovun həyat və yaradıcılığından səhifələr). Bakı: Nurlan, 2009, 204 s.
10. Əlizadə N. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən (Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizəsi). Bakı: Azərnəşr, 1974, 152 s.
11. Görüryılmaz Mustafa. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). Bakı: Qismət, 2009, 408 s.
12. Xatirələrimdə yaşayan Lənkəran. Bakı: İşıq, 1989, 108, s.
13. Miralayev T. Azərbaycanın qırmızı qvardiyaçıları və qırmızı partizanları. Bakı: Azərnəşr, 1970, 130 s.
14. Nəcəfov B. İ. Düşmənin iç üzü. XIX-əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. II hissə. Bakı: Çaşıoğlu, 2006, 436 s.
15. Халилов А.Х. Геноцид против мусульманского населения Закавказья в 1917 - 1920 гг. в исторических источниках. Баку: Азернешр, 2000, 120 с.
16. Раевский А. Английская интервенция и Мусаватское правительство (к истории ин-тервенции и контрреволюции в Азербайджане). Баку: Красный Восток, 1927, 191 с.
17. Привольный А.А. Над Муганью зарево Октября. Баку: Азернешр, 1967, 199 с.
18. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=8566

### THE GENOCIDE COMMITTED AGAINST AZERBAIJANIAN POPULATION OF LANKARAN UYEZD BY IN 1918-1919 YEARS
### SUMMARY

The slaughters intentionally commited against our nation by Armenians in the begin-ning of the last century, left in our memory an indelible mark as one of the most bloody events in the history of Azerbaijan.

As a result of this slaughter tens of thousands of our innocent compatriots underwent a genocide by the Armenian bands under the protection of Bolsheviks. The leader of Baku Bol-sheviks was Shaumian and the executors were Armenian Dashnak military detachments. In March-April, 1918 the terrible slaughter committed in Baku by active participation of Bolshevist's guidance soon transcended beyond the city. Lankaran, as well as other districts of Azerbaijan were completely plundered by the Armenian gangster detached forces, and the innocent civilians were ruthlessly killed. During this purposeful robbery and slaughter people were brutally killed, with no mercy for the old and children. From the beginning of 1918 till August, 1919, as a result of this slaughter, the Armenian and Russian formations killed more than 2000 people only in the territory of Lankaran.

## ГЕНОЦИД ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ ЛЕНКОРАНСКОГО УЕЗДА В 1918-1919 ГГ.
## РЕЗЮМЕ

Бедствия, причиненные нашему народу армянами в начале прошлого столетия, оставили у нас в памяти неизгладимый след, как одно из самых кровавых событий в истории Азербайджана. В результате этой резни десятки тысяч наших мирных соотечественников подверглись геноциду со стороны армянских бандформировании под покровительством большевиков.

Организаторами геноцида стали Бакинские большевики во главе с Шаумяном, а исполнителями – армянские дашнакские военные части. Ужасная резня, учиненная в Баку в марте-апреле 1918 г. при активном участии большевистского руководства, вскоре вышли за пределы города. Ленкорань, как и другие уезды Азербайджана, был полностью разграблен армянскими бандитскими отрядами, а мирное население беспощадно уничтожено. Во время этого целенаправленного грабежа и резни людей зверски убивали, не жалея ни стариков, ни молодых, ни детей.

В результате этой резни с начала 1918 года по август 1919-го только на территории Ленкоранского уезда армянские и русские формирования лишили жизни более 2 тыс. человек.

*Д.и.н., проф.* **Игорь ТУРИЦЫН**
*Президент «НИИ истории, экономики и права» (г. Москва)*

## ПРОБЛЕМА ГЕНОЦИДА АЗЕРБАЙДЖАНЦЕВ В КОНТЕКСТЕ ГЕОПОЛИТИКИ ЭПОХИ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**Açar sözlər:** I Dünya müharibəsi, azərbaycanlılar, böyük dövlətlər.
**Keywords:** First World War, Azerbaijanis, genocide, great powers
**Ключевые слова:** Первая мировая война, азербайджанцы, геноцид, великие державы

Обострение конкуренции мировых держав в связи с назревшим колониальным переделом мира стало основной причиной Первой мировой войны. Причем ввязавшись в эту войну, многие страны, грезившие об укреплении своих позиций в мире, в конечном счете, сами превратились в объект колониального грабежа. Парадоксально, но именно такая судьба ожидала и противостоявшие друг другу Российскую и Османскую империи.

Показательно, что изначально, играя на великодержавных амбициях России, маня ее «векселями» Босфора и Дарданелл, западные союзники одновременно попытались своими силами захватить Константинополь и создать в регионе широкий союз подконтрольных государств (Дарданелльская операция 1915-1916гг.). Увлеченный радужными перспективами, английский посол в Париже Фрэнсис Берти мечтал, что после овладения городом: «Болгария, Греция и Румыния, как голодные волки, бросятся на умирающего турка, чтобы отхватить себе клочок» [1, с.137]. Впрочем, в данном случае англичане заботились не об интересах этих незначительных в военно-политическом отношении стран, а о собственном проникновении в регион.

Это в полной мере продемонстрировал уже августовский 1918 года десант в Баку Денстервиля, впрочем, закончившийся провалом. Лишь после поражения Турции, 30 октября 1918 года подписавшей с державами Антанты Мудросское перемирие, англичане, наконец, сумели установить контроль над территорией и нефтяными богатствами Азербайджана.

Удивительно, но и сегодня, спустя столетие, историки зачастую не в состоянии разобраться с политическим пасьянсом, который был разложен в то непростое время опытными английскими колонизаторами. В частности, в целом ряде работ можно обнаружить совершенно несостоятельную концепцию, которая в общих чертах сводится к тому, что Великобритания, во-первых, сумела остановить межнациональную резню на Кавказе, а во-вторых, поддержала независимость Азербайджана. На наш взгляд, эти тезисы не соответствуют действительности и не выдерживают никакой критики.

Вопреки хвастливому заявлению У. Черчилля о том, что «что британская дивизия была единственным гарантом мира между грузинами, армянами, азербайджанцами, горцами и русскими на всей территории Кавказа от Черного до Каспийского морей» [2], на деле англичан вообще не волновали проблемы межнациональных конфликтов. Вернее, они интересовали их лишь в той мере, в которой позволяли контролировать региональные ресурсы, прежде всего, нефть. В данной связи, центр всей их кавказской политики закономерно сместился в Батумское генерал-губернаторство с его нефтяным портом. Что касается тех больших потерь, которое мирное население несло в связи с переходившей в акты геноцида межнациональной конфликтностью, то они практически совершенно не заботили колониальные власти. Именно этим и следует объяснить тот факт, что с их приходом акты геноцида продолжались, а число жертв среди местного населения продолжало расти. В итоге, столкновения на национальной почве в конце 1918-1919 гг. унесли многие тысячи жизней, привели к разрушению целых областей, существенно изменили этно-конфессиональную карту Южного Кавказа. На наш взгляд, в отличие от событий весны 1918 года, эта тема изучена явно недостаточно и еще ждет своих исследователей.

В целом, очевидно, что присутствие британских оккупационных сил не только не гарантировало межнационального мира но, по меньшей мере, было бесполезным. Более того, их самих было впору спасать. В отличие от тех регионов, где англичане прежде доминировали, Азербайджан представлял собой гораздо более просвещенное и политически продвинутое образование с

высокой общественно-политической активностью населения, стремящегося к независимости. В конечном счете, это с неизбежностью усиливало национально-освободительное движение, обуславливая растущую неопределенность, неустойчивость колониального режима.

Не случайно любые проявления самостоятельности, политической самодеятельности азербайджанцев неизменно вызывали настороженное отношение британских оккупационных властей. Достаточно вспомнить, к примеру, роспуск ими Юго-Западной Кавказской республики (1918-1919 гг.) [3], или фактический арест в Стамбуле делегации Азербайджанской Демократической Республики, направлявшейся на Парижскую мирную конференцию (январь-апрель1919 г.) [4].

Да и «признание» то АДР в январе 1920 года («де факто») - буквально накануне прихода большевиков - оказалось фальшиво-вынужденным. Заметим, что это было сделано только для того, чтобы хотя бы на некоторое время создать плацдарм для противодействия большевистской России и сохранения возможности эксплуатации богатств региона. Но вот держать здесь далее войска смысла для них явно не было. В основном победив на внутренних фронтах, большевики, остро нуждавшиеся в нефти, возвращались в регион. И прямой конфронтации с ними англичане не искали. Разграбив Азербайджан, в августе 1919 г. они просто сбежали, отчасти даже робко «признав» АДР.

Впрочем, нельзя не заматить, что этот маневр был вполне предсказуем. Ведь по-настоящему бороться за нефть Баку британцы (с французами) прекратили еще в предвоенный период. Характеризуя данную, казалось бы, загадочную нефтяную «рокировку», Б. Осбринк близка к мистике: «Российская нефть годами давала хороший доход и Ротшильдам. И все же они, возможно, предчувствовали развитие событий, когда глава «Ройял датч» Детердинг подступился к ним с предложением купить «Мазут» и БНИТО. Ротшильды еще в 1905 г. пытались продать их Нобелям и «Дойче банку». Теперь они получили взамен акции «Ройял датч» на 27,5 млн. рублей, а эту компанию ожидало блестящее будущее. **Так банкирский дом Ротшильдов избежал потерь, связанных с войной и русской революцией** (выделено И.Т.)» [5].

На наш взгляд, подойдя к вопросу более рационально, автор могла бы с большим основанием предположить, что речь в данном случае может идти не о мистическом «чувстве», а о точном расчете клана, который прямо влиял на политику Великобритании. Иными словами, Ротшильды не столько «предвидели», сколько конструировали будущее. И в этом будущем они еще до войны не считали для себя регион абсолютным приоритетом. Вполне понятно, что и в 1918-1919 гг. они откровенно грабили его как простые временщики.

Очевидно и то, что, в связи с ростом национально-освободительного движения в Турции, к концу 1919 года возникли очевидные угрозы гораздо более значимым интересам англичан. Таким образом, вовсе не английское «благородство», а освободительное движение в Турции, а также успехи большевиков на фронтах гражданской войны – вот что привело к выводу английских войск из Азербайджана. От этого лакомого куска колоний им пришлось отказаться под нажимом, вынужденно.

В данном контексте, для комплексного рассмотрения вопроса необходимо кратко охарактеризовать и узел российско-азербайджанских противоречий. Причем считаем важным подчеркнуть, что зачастую они существенно преувеличиваются. Между тем, здесь весьма показательны слова председателя азербайджанского парламента М.Э. Расулзаде, подчеркивавшего, что «наше отделение от России не является враждебным актом по отношению к России. Мы не чувствовали обиды от русского народа, который не меньше нас страдал под гнетом деспотизма. Мы желаем видеть в России государство, основанное на демократических началах. **Мы любим Россию, но любим и свою независимость** (выделено И.Т.) [6]. Собственно, это можно понять. Ведь, к примеру, население Бакинской губернии при «российских колонизаторах» росло неуклонно (причем, взрывным образом). С 496 тыс. в 1867 году оно к 1997г. выросло до 826,7 тыс., и в 1917 г. достигло почти 1 миллиона (991 тыс.). В Елисаветпольской губернии население выросло с 503 до 878,4 тыс. [7].

На наш взгляд, было бы заблуждением видеть главную причину последующей межнациональной вражды и актов геноцида и в «большевиках». В принципе, в России большевики с му-

сульманами вполне ладили. Более того, зачастую они прямо опирались на них в борьбе с белыми армиями. В частности, достаточно обратиться к протоколу 1 заседания 1 съезда коммунистов-большевиков мусульман от 4 ноября 1918 г., где среди почетных председателей съезда мы увидим Ленина, Троцкого, Свердлова, Зиновьева, Сталина, а также зарубежных коммунистов – Адлера, Либкнехта, Дебса [8]. И примеров такого рода можно привести сколько угодно.

Полагаем, что в основе масштабных катаклизмов рассматриваемого периода, прежде всего, лежали общая дезорганизация политической жизни и ослабление государственных начал. В ситуации развала Российской империи, фактического отсутствия налаженного аппарата государственного управления и вторжений оккупационных сил Германии, а затем Англии, «спящие» местные конфликты на Кавказе неизбежно обернулись колоссальной резней, которой, «по мере возможностей», попустительствовали временщики-колонизаторы. Подчеркнем определенно, межнациональные конфликты в полной мере устраивали англичан, позволяя им «разделять и властвовать». В частности: «Английским капиталистам был на руку кризис бакинской промышленности» [9]. Разоряя местных нефтепромышленников, они заблаговременно готовили почву для скупки их активов по дешевке.

В данной ситуации, как показывают документы, лидеры АДР были объективно заинтересованы в том, чтобы самостоятельно, в рамках внутрирегионального диалога восстановить политическую стабильность. Однако такой возможности, особенно учитывая дефицит сил и времени, они оказались лишены. Победившие на внутренних и внешних фронтах большевики представлялись Западу более надежным партнером. Как точно подметил в своем письме, адресованном М.Э. Расулзаде, А.М. Топчибаши (1923г.): западные партнеры сделали ставку «на необходимости использования «несметного» количества сырья Рос[сии] и ее «неисчерпаемых» природных богатств путем сближения с сов[етской] властью, держащей в руках почти всю прежнюю Росс[ийскую] имп[ерию] вот уже много лет и вопреки всем протестам, заверениям о народных возмущениях, о скором падении больш[евизма] и т.д.» [10].

В геополитическом плане не менее значимым для стабилизации в регионе стало также сближение советской России и Турции, фактически объединившихся в борьбе с колониальной Версальской системой. Целая серия конференций 1922 года (Каннская, Генуэзская, Муданская и пр.) показала, что в борьбе с колониальными планами Антанты в одиночку не выстоять. Требуется объединение всех заинтересованных сторон. Это убедительно доказали итоги Лозаннской конференции (ноябрь 1922 – июль 1923 гг.).

Официальная позиция РСФСР еще до Лозанны, в частности, была определена в ноте заместителя наркома иностранных дел Л.М. Карахана в МИД Великобритании Керзону от 13 сентября 1922 года. В ней четко фиксировался курс на решение региональных проблем, прежде всего, силами и в интересах находящихся здесь государств: «Россия не может согласиться с тем, что проливы открыты для военных судов всех наций, и особенно с тем, что Великобритания с союзниками берет на себя регулирование режима проливов вопреки желанию тех государств, чьи жизненные интересы связаны с Черным морем, и голос коих должен быть решающим при разрешении судьбы проливов». В следующей ноте Карахана от 24 сентября 1922 года предсовмину и МИД Франции Пуанкаре, МИД Великобритании Керзону, МИД Италии, Югославии, Болгарии, Румынии, Греции, Египта отмечалось: «Никакое решение о проливах, принятое без России, не будет окончательным и продолжительным. Оно создаст лишь почву для новых конфликтов» [11].

Непосредственно на Лозаннской конференции 8 декабря 1922г. в «Декларации Г.В. Чичерина» советская Россия вновь выдвинула требование закрыть проливы для военных флотов. Помимо этого, в Лозанне СССР (Чичерин) со всей определенностью «стал на сторону Турции и оказал ей колоссальную поддержку» [12, с.4].

Координируя свои усилия в рамках заключенного в 1921 г. в Москве договора, Россия и Турция сумели, с одной стороны, более успешно противостоять колониальным притязаниям, а с другой – более надежно гарантировать региональную стабильность.

В то же время, Англия, напротив, стремилась максимально ослабить своих оппонентов. В частности, организовав восстание шейха Сейида в Курдистане, она добилась осложнения политической ситуации в Турции и передачи спорной территории Мосульского вилайета

Ираку (на деле - Англии). Как точно подметил современник: «Ярым врагом, «жандармом Турции» все время выступает Англия, которая исподтишка организовала Курдистанские восстания и которая все время поддерживает оппозицию» [12, с.6].

На наш взгляд, эти события еще раз наглядно вскрывают весьма характерную черту британской политики, в первую очередь, основанной на философии последовательного колониализма. В данном контексте, нужно ясно понимать, что ничего нового здесь не было. Британская колониальная модель оставалась неизменной. И несколькими годами ранее – в Азербайджане она строилась именно на тех же принципах максимального использования внутренних противоречий в собственных интересах. Поэтому, полагаем, что роль британских колонизаторов в драматических событиях 1918-1920 гг. еще предстоит изучить и осмыслить.

### ИСТОЧНИКИ И ЛИТЕРАТУРА


1. Берти Ф. За кулисами Антанты: дневник британского посла в Париже, 1914-1919. М., 2014. С.137.
2. Цит. по: Гасанлы Дж. П. Русская революция и Азербайджан: трудный путь к независимости. 1917-1920. М.: ФЛИНТА, 2011. С.442.
3. См.: Гаджиев А.Н. Из истории образования и падения Юго-Западной Кавказской (Карсской) демократической Республики. Баку, 1992.
4. Гасанлы Дж. Азербайджанская делегация на Парижской мирной конференции // Азербайджанская Демократическая Республика. М.: Оверлей, 2008. С.26.
5. Осбринк Б. Империя Нобелей: история о знаменитых шведах, бакинской нефти и революции в России / Брита Осбринк. М.: Алгоритм, 2014. С.213
6. Балаев А. Мамед Эмин Расулзаде (1884-1955). М.: Флинта, 2009. С.152.
7. Худадов В.Н. Современный Азербайджан // Новый Восток. 1923. №3. С.186, 188.
8. ГАРФ. Ф. Р-1318. Оп.17. Д.230. Л.1.
1. 9 Худадов В.Н. Современный Азербайджан // Новый Восток. 1923. №4. С. 168.
9. А.М. Топчибаши и М.Э. Расулзаде: Переписка. 1923-1926 гг. / Сост., предисл. и прим. С.М. Исхаков. М.: Издательство «Социально-политическая мысль», 2012. С.27.
10. Павлович Мих. Лозаннская конференция // Новый Восток. 1923. №3. С.9.
11. Олін Л.П. Туреччина і СРСР // Бюллетень Всеукраинской научной ассоциации востоковедов. Харьков, 1926. №1. октябрь.


### AZƏRBAYCANLILARIN SOYQIRIMI I DÜNYA MÜHARİBƏSİNİN GEOSİYASİ KONTEKSTİNDƏ
### XÜLASƏ


Məqalədə azərbaycanlılarin soyqırımı I Dünya müharibəsinin geosiyasi kontekstində nəzərdən keçirilir. Müəllif belə bir nəticəyə gəlir ki, Böyük Britaniyanın işğalçı qüvvələrinin burada olması nəinki millətlərarası sülhə zəmanət vermədi, əksinə demək olar ki, heç nəyə yaramadı.


### THE PROBLEM OF THE GENOCIDE OF AZERBAIJANIS IN THE CONTEXT OF THE GEOPOLITICS OF THE FIRST WORLD WAR
### SUMMARY


The article examines the problem of the genocide of Azerbaijanis in the context of the geopolitics of the First World War. The author came to the conclusion that the presence of the British occupation forces not only did not guarantee the interethnic peace, but at least it was useless.

*Prof. Dr.,* **Mehmet Ali ÇAKMAK**
*G.Ü. Gazi Eğitim Fakültesi Öğretim Üyesi*

## STEPAN ŞAUMYAN VE ERMENİLERİN BAKÜ SOYKIRIMI

**Anahtar Kelimeler:** Bakü, soykırım, ermeniler, Stepan Şaumyan, Bakü soykırımı
**Keywords:** Baku, genocide, Armenians, Stepan Shaumian, Baku genocide

**Giriş.** Stepan Şaumyan, Rusya İmparatorluğu'na bağlı Gürcistan'daki Tiflis'te tacir bir ailenin çocuğu olarak 1878 yılında dünyaya gelmiştir. Riga Teknik Üniversitesi'ni bitirmiştir. 1900 yılında Rusya Sosyal Demokrat İşçi Partisi'ne girerek gençlik yıllarından itibaren siyasette aktif rol almaya başlamıştır. Rejim tarafından takibe alınınca Almanya'ya kaçmış ve orada Berlin Üniversitesi Felsefe Bölümü'nde okumuştur. İlk defa 1903'te Cenevre'de Lenin'le görüşerek onun direktifleriyle RSDİP MK'ye (Rusya Sosyal Demokrat İşçi Partisi Merkezi Komitesi) bağlı Ermenice ve Gürcüce sosyal-demokrat (Bolşevik) yayınları neşreden komisyona başkanlık yaptı. Yayın alanındaki çalışmalarını sonraki yıllarda Tiflis'de ve Bakü'de çıkardığı neşriyatla sürdürdü. O, gerek neşriyatında gerekse beyanatlarında daima Lenin taraftarı olduğunu beyan etmekten kaçınmadı [1, 3]. Rusya'da yaşanan 1905 inkılabının ardından Bakü'ye giderek petrol işçilerinin örgütlenmesinde ve 1914 yılındaki işçi grevinde aktif rol almış, yönetim tarafından tutuklanmıştır. Bolşevik inkılabının ardından (Kafkasya'da Gürcüler, Ermeniler ve Azerbaycanlıların Şubat 1918'de oluşturduğu ortak yönetim (Seym) inkılaba muhalefet ediyordu) Şaumyan, yeni Sovyet hükümeti Sovnarkom tarafından *Bakü Halk Komiserleri Konseyi Başkanı* ve *Kafkaslar Olağanüstü Komiseri* atanarak bölgeye gönderilmiştir. Bakü Sovyetinde yönetim; Bolşevikler, Sol SR'lar, Menşevikler ve Daşnakların ittifakından oluşuyordu. Şaumyan'a göre, devlet idaresinin merkezileşmesi, Güney Kafkasya proleterlerinin bütün Rusya proleterleri ile birleşmesi, milli meselelerde tehlikeyi ortadan kaldıracaktı. Çünkü Kafkasyaötesi merkeze bağlı olduğu için normal ve elverişli şartlar meydana gelecekti. Oysa halkı kahir ekseriyetle Türk ve Müslüman olan şehrin yönetiminde onların etkisi yok sayılıyordu.

Düz bakıldığında Daşnak-Bolşevik ittifakı akla ziyan gibi gözükse de (çünkü komünistler, bu bağlamda bir komünist olan Şaumyan'da söylem, ideoloji ve ifadelerine göre milliyetçiliğe şiddetle karşı, Daşnaklar ise milliyetçilikten öte ırkçı idiler) Müslüman Türklere karşı müttefik hareket etmekte zerre kadar sakınca görmediler. Zahirde milliyetçiliğe, dolayısıyla Daşnaklara karşı olması gereken Şaumyan, yazdıkları ve söyledikleriyle idealize ettiği evrensel sosyalist fikirlerini, uygulamada muhatap Müslüman Türkler olunca tamamen bir kenara bırakarak tam bir Ermeni ırkçısı gibi hareket etmekte bir sakınca görmedi [2, 3-4]. Bu meyanda Ermeni asıllı bir komünist olan Şaumyan'ın, 26 kişiden oluşan *Bakü Halk Komiserleri Konseyi Başkanı* olması da tesadüf eseri bir iş değildi. Nitekim onun idaresindeki şehirde giderek artan gerilimi çatışmaya dönüştürmek için şöyle bir kasıtlı haber yayılmıştır: 1918 Martında Lenkeran'da yaralanan ve sonra ölen Türk iş adamı Zeynelabidin Tagiyev'in oğlu Mehmet'in cenazesine iştirak eden Azerbaycanlı askerler oradaki Ruslara saldırarak katledecekler. Bu olay şehirde bardağı taşıran son damla gibi takdim olunarak çatışmaların başlamasına zemin teşkil etmiştir.

**Bakü Soykırımı.** Rusya'da Bolşevik ihtilalinin başlamasıyla birlikte, Birinci Dünya Savaşının sonuna doğru Kafkasya coğrafyası önemli olaylara sahne oldu. Ortaya çıkan karmaşayı Ermeniler, bu coğrafya için uzun zamandan beri tasarladıkları planlarını hayata geçirmek için bir fırsat telakki ettiler. İhtilalin ardından Rus ordularının işgal ettiği Anadolu topraklarından çekilmek zorunda kalması üzerine, bu topraklardan Azerbaycan'a çok miktarda Ermeni nüfus göç etmişti. Muhacirler arasında çok sayıda silahlı Ermeni kuvveti de vardı. Ermeniler, muhacir nüfusun yoğunlaştığı Karabağ, Zengezur, özellikle de İrevan'da hak iddia etmeye başladılar.

Burjuva inkılabının ardından Bakü'deki durum Türk-Müslümanlar için daha da tehlikeli bir hal almıştı. Çünkü burada Bolşeviklerle Daşnaklar ortak hareket ediyor ve yerli Azerbaycan halkının, çatısı altında siyaseten birleştiği Musavat Partisinin iktidar olmasını engellemeyi amaçlıyorlardı. Bolşeviklerle Daşnakların ortak hareket ediyor olmaları Azerbaycan halkı için çok büyük tehlikeler içeriyordu. Büyük Ermenistan hayalinin peşinde koşan Daşnaklar, başta Rusya olmak üzere uluslar

arası emperyal güçler tarafından, kendi amaçları istikametinde hem destekleniyor ve hem de Azerbaycan halkına karşı kışkırtılıyordu.

Aralık 1917'de imzalanan Erzincan Mütarekesi'nin ardından Rus kuvvetleri Erzurum ve Karsı terk ettikten az sonra, 19 Aralık'ta da Kafkasya'daki Rus askerlerinin çekilmesine ilişkin karar alınmıştı [3, 35]. Aynı ayın 26'sında ise Rus ordusu içinde Türklere karşı savaşan Ermeni kuvvetlerinin serbest bırakılması, Kafkasya Ermenilerini kendi amaçları doğrultusunda olağanüstü hareketlendirdi. Bu hareketlilik Ermeniler bakımından bir planlamaydı. Zira General Andronik'in idaresindeki Ermeni kuvvetleri Nahçivan-Zengezur-Karabağ arazisini, General Arişyan ve General Dro'nun kumandasındaki Ermeni kuvvetler İrevan-Üçkilise-Zengibar-Vedibazar arazilerini, Polkovnik Silikiya'nın idaresindeki kuvvetler ise Gökçegöl etrafındaki yerleşim bölgelerini işgal etmek üzere hazırlanıyorlardı. Bu Ermeni planlamasının üzerine bir de, 16 Aralık 1917'de RSFSC (Rusya Sovyet Federatif Sosyalist Cumhuriyeti) yönetimi tarafından Ermeni Stepan Şaumyan'ın bütün Kafkasya işleri üzerine genel komiser tayin edilmesi, yakın silah arkadaşlarından oluşan bir heyetle birlikte Bakü'nün idaresinin de ona verilmiş olması, bu şehirde kısa bir süre sonra yaşanacak olan katliamın adeta habercisiydi [4, 99-100].

Bu esnada Türkiye ve İran'dan dönen askerlerin bir kısmı Bakü'de kalmış, dolayısıyla şehirdeki Ermeni kuvvetlerinin sayısı oldukça artmıştı. Bu kuvvetlere Kafkas cephesinden çekilen Rus kuvvetlerinin bir kısmı da katılınca, soykırım arifesinde Bakü genelinde müttefik Bolşevik ve Ermeni (Daşnak) kuvvetlerinin sayısı 20 bine ulaşmıştı [5, 2].

Oysa Türk-Müslümanların teşkilatlı ve etkili bir silahlı gücü yoktu. Şehirdeki durum ise geçen zaman içinde hızla silahlı mücadeleye doğru evriliyordu. Gerçi "Musavat" çatısı altında oluşan birliktelik Azerbaycan halkı için mutlak surette sayısal çoğunluktu (nitekim Bakü Sovyeti'nde sayısal üstünlük elde edilmişti) ve bu çoğunluk Şaumyan'ı oldukça rahatsız ediyordu ama o da mutlak surette bir askeri üstünlüğe sahip olmanın özgüveni içindeydi.

Stepan Şaumyan, 3 Mart 1918'de Stalin'e bir mektup yazarak Kafkasya'nın siyaseten kaybedildiğini belirtirken, Bakü'nün askeri yönden süratle teçhiz edilmesi gerektiğini ifade ediyordu. Bunun için Taşnaksutyun ile Musavat Partileri arasındaki anlaşmazlıklardan istifade etmeye karar verdi. Taşnakların da katılmasıyla Musavat ve Sovyet arasında politik bir çekişme olarak başlayan mücadele, milli bir ayaklanma karakteri kazandı [6, 10-14]. Şaumyan, Güney Kafkasya'yı Ermenilerin çıkarına uygun bir şekilde bölmeyi tasarlarken, Azerbaycan Türklüğünün muhtariyet taleplerini Azerbaycan milliyetçilerinin Bakü'yü Azerbaycan hanlığının merkezine dönüştürme çabaları olarak takdim ediyordu.

Siyasi, askeri arka planı yukarıda belirtildiği şekilde adım adım hazırlanan soykırımın uygulamaya konması için bir sebep aranıyordu. Yukarıda bahsedilen Tagiyev'in oğlunun cenaze merasiminde Ruslara karşı gerçekleştirilecek katliam yalan haberinin yanında Şaumyan kuvvetlerini harekete geçiren şöyle bir gelişme de yaşanmıştı: Bakü'deki Türk-Müslüman kuvvetlerin Lenkeran'daki gönüllülere silah ve cephane gönderme girişimlerini, Şaumyan'ın engelleme emri vermesi üzerine Türk kuvvetleri bu emre uymayarak hazırladıkları malzemeyi gemilere yüklemiş, bu olay taraflar arasında çatışmaların yayılmasına sebep olmuştur [7, 326]. Başka bir ifadeyle olayların çatışmaya dönüşmesine, Bakü Sovyeti Yönetiminin yani kısaca Şaumyan'ın 24 Mart'ta "Bakü limanındaki Evelino gemisine binmekte olan "Vahşi Bölüğü" askerlerinin silahlarının zorla alınması" olayı gerekçe gösterilmiştir [8, 158-159].

30 Mart sabahı müttefik Rus-Ermeni kuvvetleri Bakü sahilindeki Rus gemilerinden şehrin Müslümanlarla meskün mahallerini top ateşine tuttular. Bu ateş sonucu Müslümanların en önemli ibadet yeri sayılan "Taze Pir" mescidinin minareleri ağır hasar aldı [9, 77]. Gemilerden açılan top ateşi ile stratejik noktalar etkisiz hale getirildikten sonra şehirdeki silahlı Daşnak katiller, Türk-Müslüman halkın evlerine girerek acımasız bir soykırım başlattılar. Bu soykırım Bakü'de üç gün devam etti. Bu kısa zaman dilimi içinde şehir merkezinde 12-15 bin Türk-Müslümanın katledildiği kaynaklardan anlaşılmaktadır. Katliamın tam manasıyla Türk-Müslüman katliamı olduğu görülmektedir. Zira katiller kişi Türk-Müslüman ise onun Bolşevik ya da Sosyalist olmasını göz önünde bulundurmaksızın öldürmüşlerdir.

Soykırımın başlamasıyla birlikte Türk-Müslümanlar için Bakü'de ölüm kol geziyordu. Ermeni katliam timleri ev ev insan avına çıkmıştı. Onlardan biri olan Stepan Lalayan, maiyetindeki kuvvetlerle Vorontsov Mahallesinde yaşayan Doktor Beybala Bey Sultanov'u kendi evinde katletmiştir.

Nikolayev Mahallesinde de işkenceyle öldürülmüş 67 Azerbaycanlının cesedine rastlanmıştır. Yine Volkan Cemiyetinin yakınındaki köprüde 6748 kadın, çocuk, yaşlı-genç Azerbaycanlı cesedinin olduğu kayıtlara geçmiştir. Başka bir köşede yine ağır işkencelerle katledilmiş 57 kadın ve kız cesedine rastlanmıştır. Ayrıca silahlı Ermeni çeteleri girdikleri Azerbaycanlı zenginlerin evlerinde buldukları tüm zenginlikleri gasp ederek tabiri caiz ise tam manasıyla bir soygunculuk faaliyeti de gerçekleştirmişlerdir. Mesela 30 kişilik bir çete Meşedi Ahmet Rahimoğlu'nun evine girerek değeri tam 34 bin manat olan kıymetli eşyasını talan etmişlerdir. Soykırım sürecinde yaşanan olaylar nazarı dikkate alındığında, Ermeni çetelerinin sadece Bakü'de Azerbaycan halkının yüzbinlerce manatlık zenginliğini talan ettiklerini tahmin etmek zor değildir. Bu Ermeni soygunculuğunun Azerbaycan genelindeki yansıması ise milyonlarca manatlık bir vurguna dönüşmüştür.

Ermeni vahşeti Bakü'de ve tüm Azerbaycan'da Azerbaycan halkının iktisadi, ictimai ve bediî merkezlerini de hedef almıştır. Bu cümleden olarak Müselman Hayriye Cemiyeti, Halk Evi, Bakü, Kaspi, Açıksöz gazetelerinin yayınevleri gibi yerler talan edilmiş, şehirlerin mabedleri yakılıp yıkılmıştır. 30 Mart'ta Komiser Tatevos Emiryan maiyetindeki kuvvetler, Hacı Zeynelabidin Tağıyev'in Tatarbinası'na girmiş, İsmailiyye'yi ateşe vermiştir. İsmailiyye, içinde Azerbaycan'ın bütün ictimai, iktisadi, siyasi, edebi, ilmi ve bediî kuruluşlarını barındıran büyük bir müctemilattı. Ermeniler burayı ateşe vermekle adeta Azerbaycan'ın bütün mevcudiyetini hedef almışlardır [4, 103-104].

Stepan Şaumyan, Bakü'de planladığı cinayeti tatbik ederken sevk ettiği kuvvetlerle Azerbaycan'ın diğer şehirlerini talan ettirmiş ve oralarda yaşayan insanları da katlettirmeyi ihmal etmemiştir. Bu cümleden olarak o Bakü'den sonra Gence'yi hedf almış, fakat burada Nesibbey Yusufbeyli'nin büyük gayretleri sayesinde amacına ulaşamamıştır.

Şaumyan'ın hedef aldığı diğer Azerbaycan şehirleri ne yazık ki Gence kadar şanslı olamamıştır. Şamahı ve Kuba şehirlerinde yaşayan Azerbaycanlı Türk-Müslümanlara Şaumyan tarfından sevk edilen Ermeni cellatları ağır acılar yaşattılar. Mesela Şamahı'da Azerbaycanlılara divan tutmuş Stepan Lalayan [10, 25] (Lalayev) ve Tetavos Emiryan (Emirov) doğrudan Şaumyan'ın emrini yerine getirmişlerdir. Kuba'da soykırımı gerçekleştiren Daşnak celladı Hamazaps da doğrudan Şaumyan'ın talimatıyla hareket etmiştir (10, 14-21).

**Sonuç.** Bakü'de 1918 yılı Mart sonu Nisan başında Türk-Müslümanlara karşı uygulanan soykırım görenler için adeta geliyorum demişti. Bolşeviklerin Daşnak katilleriyle sistematik bir ittifak içine girmeleri durumun habercisiydi. Zahirde milliyetçiliğe karşı gibi görünen Şaumyan, milliyetçilikten öte ırkçı olan Daşnak soydaşlarıyla işbirliği içinde olmakta bir sakınca görmüyordu. Şehir merkezinde orantısız bir şekilde silahlanan Bolşevik-Daşnak kuvvetleri karşısında Azerbaycan yerel kuvvetlerinin askeri gücü son derece zayıf kalmaktaydı. Bakü'nün Türk-Müslüman sakinleri, adeta geliyorum diyen katliama karşı korku içinde ve nüfus dengesini değiştirecek boyutlarda şehri terk etmeye başladıklarında yönetimde etkili olan Bolşevikler durumu sakinleştirmek için hiçbir tedbir alma gereği duymadılar. Bu davranışın onlar bakımından tek izahı, Ermenilerle Türkler arasında yaşanacak çatışmanın kendi çıkarlarına olacağı düşüncesiydi. Ayrıca Bolşevikler çıkacak çatışmanın Ermeniler lehine tarafı olmayı da tercih ettiler. Bolşeviklerle Ermenilerin bu tutumu Mart sonunda eyleme dönüşünce Bakü'de ve bütün Azerbaycan'da Türk-Müslüman ahaliye karşı korkunç bir soykırım gerçekleştirilmiştir. Azerbaycan genelinde 30 binin üzerinde insan katledilmiş, 100 binlerce insan yerinden yurdundan olmuştur. Umutların tükenmek üzere olduğu bu süreçte Azerbaycan Türkünün kömeğine kardeş Anadolu Türkü yetişmiştir. Enver paşa'nın emriyle Nuri Paşa'nın idaresinde sevk edilen Kafkasya İslam Ordusu kuvvetleri, Azerbaycan kuvvetlerinin de katkılarıyla katiller sürüsünün elinden vatan topraklarını kurtarmıştır. 15 Eylül 1918'de Bakü'nün kurtuluşu, 28 Mayıs'ta bağımsızlığını ilan eden Azerbaycan'ın öz ve daim başkentine kavuşmasını sağlamıştır.

Katiller sürüsünün başçısı olan Stepan Şaumyan ve Bakü Sovyeti'ni oluşturan (Çaparidze, Vezirov, Azizbekov, Leorganov…) 26 kişilik komiserler heyeti, önce şehirde kendilerinin yerine geçen Diktatörlük tarafından tutuklanmış, Türk kuvvetleri Bakü'ye girmeden serbest bırakılmışlardı. Bindikleri Türkmen adlı gemiyle açıldıkları Hazar denizinde İngilizler tarafından yakalanarak 20 Eylül 1918'de öldürtülmüşlerdir.

**Kaynaklar**

1. A. Karinyan*, Şaumyan ve Kafkasiya'da Milliyetçilik Cereyanları*, çev. Z. Gayıblı, Bakı 1929
2. Nesrin Sarıahmetoğlu, "Stephan Şaumyan'ın Taşnaksutyun ve Ermeni Milliyetçiliğine Bakışı", Yeni Türkiye, Ermeni Meselesi Özel Sayısı, c. II.
3. Selma Yel, Yakup Şevki Paşa ve Askeri Faaliyetleri, Ankara 2002.
4. Esger Abdullayev, Ermenistan'ın Azerbaycan'a Karşı Tecavüzü Tarihinden Bazı Makamlar, Bakı 2011
5. Hakani Memedov, Nuru Memedov, Bakı'da 1918-ci İlde Ermenilerin Töretdikleri Mart Soykırımı "Respublika" Gez. 31 Mart 2007
6. Nesrin Sarıahmetoğlu, "Mart Olaylarının Azerbaycan Tarihindeki Yeri", *Türk Dünyası Tarih Dergisi*, sayı 123 Mart 1997
7. Vagıf Abışov, "Bakı'da Türk-Müselman Ahaliye Karşı Ermenilerin Türetdikleri Soygırımlarının Bolşevik Nümayendelerinin Hatıralarında Aksi", Azerbaycan ve Şarki Anadolu'da Türk-Müselman Ahaliye Karşı Soykırımları (1914-1918-ci Yıllar), III. Beynelhalk İlmi Konferansın Materyalleri, 17-10 April 2016, Şamahı
8. Tadeusz Swıetochowskı, Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı (1905-1920), İstanbul 1988
9. Vagıf Abışov, Bakı Kazasında Türk-Müselman Soykırımı (1918-ci Yılın Mart-Aprıl), Azerbaycan Halkına Karşı 1918-ci Yıl Soykırımları, Bakı 2016
10. Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920), T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, Cumhuriyet Arşivi Daire Başkanlığı Yayın Nu: 28, Ankara 2001
11. Yakub Mahmudov, "Azerbaycan Halkına Karşı 1918-ci Yıl Mart Soykırımı", Azerbaycan ve Şarki Anadolu'da Türk-Müselman Ahaliye Karşı Soykırımları (1914-1918-ci Yıllar), III. Beynelhalk İlmi Konferansın Materyalleri, 17-10 April 2016, Şamahı


## STEPAN SHAUMIAN AND ARMENIANS' BAKU GENOCIDE
## SUMMARY


The First World War caused deep sorrows in Azerbaijan like many places in the world. Azerbaijan, engaged the war with administration of Czarism, witnessed a heavy pogrom during regime change in Russia after the Bolshevik Revolution. Armenians, who lived in the country, took the most important role in the reflection of this pogrom to the area. Armenians, who were provoked against Muslim Turks in line with the Great Powers' own political interests, attempted the big pogroms in Anatolia and Caucasian during the war and after Russia withdrew from the war. The pogroms, committed by Armenians in Baku and other cities in Azerbaijan in 1918, caused deep sorrows. In fact, Armenians wanted to give the Great Armenia in their dreams a ground by evacuating the real owners of Azerbaijan and Anatolia with this genocide rather than pogrom. However, they did not have enough population which would live in the relevant regions. Without taking this reality into consideration, they attacked Muslim Turks with the Great Powers' encouragement and support. An Armenian called Stepan Shaumian, with Bolshevists in the city, commanded the pogroms committed by Armenians in Baku and around Baku in March and April in 1918. As a result of this pogrom, over 30 thousands of Muslim Turks died, the cities fell into ruin, and people were systemically evacuated from their own land. In this study, the details of the event, which is called "Baku Pogrom" in history, will be touched upon.

*T.ü.e.d., prof.* **Kərim ŞÜKÜROV**
*AMEA Tarix İnstitutunun Azərbaycanın tarixi*
*Demoqrafiyası şöbəsinin müdiri.*

## AZƏRBAYCANLILAR XX ƏSRDƏ: TARİXİ DEMOQRAFİK VƏZİYYƏTİNƏ DAİR

**Açar sözlər:** Azərbaycanlılar, Şimali Azərbaycan, Cənubi Azərbaycan, XX əsr, tarixi-demoqrafik vəziyyət, əhali siyahıyaalması, şəhər əhalisi, əhalinin yaş strukturu, miqrasiya

**Keywords:** Azerbaijanis, Northern Azernaijan, Southern Azerbaijan, 20th century, historico-demographic situation, census, urban population, age structure of the population, migration.

**Ключевые слова:** Азербайджанцы, Северный Азербайджан, Южный Азербайджан, XX век, историко-демографическая ситуация, перепись населения, городское население, возрастная структура населения, миграция.

Azərbaycan, o cümlədən azərbaycanlılar bütün XIX əsr boyunca olduğu kimi XX əsrə də ərazi-coğrafi baxımından iki yerə bölünmüş şəkildə qədəm qoydu. Bu əsrdə də ölkənin həm şimal, həm də cənub hissəsindəki ümumi vəziyyət, xüsusilə burada baş verən sosial-siyasi proseslər tarixi-demoqrafik situasiayaya da təsir göstərdi.

Şimali Azərbaycan Birinci Dünya müharibəsinin sonlarında Rusiya imperiyasının tərkibindən çıxmağa və müstəqil Azərbaycan Xalq Cümhuriyyətini (1918-1920) qurmağa nail oldu. 1920-ci ilin aprelində Sovet Rusiyasının hərbi müdaxiləsi və yerli bolşeviklərin iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyəti devrildi, sovet hakimiyyəti quruldu. Azərbaycan sovet hakimiyyətinin (1920-1991) bütün dövrlərinin (1920-1930-cu illər, 1941-1945-ci illər müharibəsi, post-müharibə stalinizmi və s.) ən sərt sınaqlarını keçməli oldu və yalnız 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini elan etdi.

İranın tərkibində olan Cənubi Azərbaycanda da siyasi mübarizə genişləndi. 1905-1911-ci illər inqilabının əsas mərkəzi Təbriz oldu, 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə milli-azadlıq hərəkatı baş verdi. 1925-ci ildə Qacarlar sülaləsinin devrilməsi və Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi nəticəsində Cənubi Azərbaycana qarşı antimilli siyasət həyata keçirilməyə başladı. İkinci Dünya müharibəsinin başa çatmasından az sonra Cənubi Azərbaycanda Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə demokratik hakimiyyət quruldu, lakin bir il sonra süqut etdi. 1978-1979-cu illər İran inqilabının gedişində də Cənubi Azərbaycan əsas mərkəzlərdən biri oldu, buna baxmayaraq, gözlənilən milli hüquqlara nail ola bilmədi.

Bu dövrdə Azərbaycanın şimalı və cənubu arasındakı əlaqələr də siyasi proseslərin ciddi təsirinə məruz qaldı.

Şimali Azərbaycanda azərbaycanlıların XX əsrdəki tarixi-demoqrafik vəziyyətində Rusiya imperiyasının işğalları və burada XIX əsr boyunca həyata keçirilən müstəmləkə siyasəti dərin iz buraxmışdı. XIX əsrin sonlarındakı demoqrafik vəziyyət imperiyada keçirilən yeganə əhali siyahıyaalmasının-1897-ci il əhali siyahıyaalmasının [27] yekunlarında əks olunmuşdu. Bu əhali siyahıya almasında etnik tərkib ayrıca qeydə alınmamışdı. Ona görə də etnik tərkibi ana dili və konfessional mənsubiyyət əsasında müəyyən etmək mümkündür. Siyahıyaalmanın yekunlarına görə tatar kimi qeydə alınan əhalinin (3737, 6 min nəfər) 1474,57 min nəfəri azərbaycanlılara aiddir. [9,89] Azərbaycanlıların etnoqrafik qrupu olan qarapapaqların (29,9 min nəfər) və "bölgüsüz türk ləhcələri"nə ("тюркские наречия без распределения") daxil edilmiş azərbaycanlıları da nəzərə alsaq onların sayının daha çox olduğu məlum olar.

Birinci Dünya müharibəsi Rusiya imperiyasının demoqrafik vəziyyətinə ciddi təsir göstərdi. Azərbaycanlılara müsəlman kimi etimad göstərilib kütləvi şəkildə orduya səfərbər edilməsə də, onların nümayəndələri Rusiya ordusu tərkibində (Qafqaz Müsəlman korpusu və digər hərbi birliklər) müharibədə iştirak edirdi. Digər tərəfdən Azərbaycan cəbhəyanı bölgə olduğuna görə, Cənubi Qafqaza, o cümlədən buraya xeyli miqdarda müxtəlif millətdən olan qaçqınlar, xüsusilə ermənilər gəlirdi. Buna baxmayaraq, azərbaycanlıların sayı üstün olaraq qalırdı. 1914-1917-ci illərdə azərbaycanlıların sayı 1995,9 min nəfər qiymətləndirilir. [9,89] Əvvəlki qeyddə göstərildiyi kim qarapapaqlar (43,3 min) və bölgüsüz türk ləhcələrinə daxil edilmişlər də nəzərə alınsa azərbaycanlıların sayı daha çox idi.

Rusiya imperiyası dövründə Şimali Azərbaycan əhalisinin kənd və şəhərlər üzrə yerləşməsində də dəyişikliklər baş vermişdir. Bakı şəhərinin əhalisi 1886-cı ildəki 86,61 min nəfərdən 112,25 min nəfərə (+25642), müvafiq olaraq, Yelizavetpolun (Gəncə) əhalisi 20,29 min nəfərdən 33,09 min nəfərə (+12796), İrəvanın əhalisi 14,73 min nəfərdən 29,03 min nəfərə (+14295) yüksəlmişdi. Bəzi şəhərlərin, o cümlədən Şuşa, Nuxa və Şamaxı kimi şəhərlərin əhalisi isə 1886-cı illə müqayisədə 1897-ci ildə azalmışdı. [29,17-24] XX əsrin əvvəllərində şəhər əhalisinin say dinamikası yüksəlməyə başlayır. Bakının əhalisi (mədən-zavod rayonlarsız)1915-ci ildə 262,4 min nəfərə, müvafiq olaraq Gəncə 59,7, Nuxa 52,2, Şuşa 43,8, Quba 17,4, Şamaxı 27,3, Lənkəran 17,8, Naxçıvan 9, Ordubad əhalisi 6,5 min nəfərə çatmışdı. Nəticədə quberniyaların əhalisi işərisində şəhər əhalisinin payı yüksəlmişdi. 1910-cu ildə Yelizavetpol quberniyası əhalisinin 11,4, 1913-cü ildə Bakı quberniyası əhalisinin 27,1 faizini şəhər əhalisi təşkil edirdi. [1,87-88]

Çarlıq dövründə Şimali Azərbaycan əhalisinin əsas artım mənbəyini təbii artım təşkil edirdi. Qafqaz təqviminin materialları əsasında aparılan hesablamalara görə Bakı və Yelizavetpol quberniyalarında 1891-ci ildə təbii artım 6,6, 1898-ci ildə 7,8, 1908-ci ildə 7,5, 1913-cü ildə 7,9, 1915-ci ildə 8,5 promil təşkil edirdi. [21,18]

Rusiya imperiyasının dağılmasından Azərbaycanda Xalq Cümhuriyyətinin yaranmasına qədərki dövrdə (1917, oktyabr-1918, may) baş verən siyasi hadisələr, xüsusilə 1918-ci ilin martında ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı ciddi əhali itkisinə səbəb oldu. Bu dövrdə qətlə yetirilən azərbaycanlıların sayı 30 min və ya daha çox hesab edilir. [8,47] Mart qırğınları digər şərtlərlə birlikdə, Azərbaycanın müstəqilliyi ideyasını daha da möhkəmləndirdi.

1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də isə Azərbaycan və Ermənistan müstəqilliyini elan etdi. Beləliklə, bu dövrdən etibarən əhalinin milli dövlətlər üzrə hesablanması praktikası meydana gəldi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) imperiya dövrü inzibati-ərazi bölgüsünə əsasən Bakı və Gəncə (keçmiş Yelizavetpol) quberniyalarını, Zaqatala dairəsini, İrəvan və Tiflis quberniyasının bir hissəsini öz ərazisi elan etmişdir. Mübahisəsiz ərazi 97297,67 kv.km, mübahisəli ərazi 16598,30 kv.km (cəmi 113895,97 kv.km.) təşkil edirdi. Qafqaz təqviminin 1917-ci il sayının məlumatları üzrə mübahisəsiz ərazinin əhalisinin 2861,86 min nəfər olduğu müəyyən edilmişdi ki, onlardan 1952,25 min nəfəri müsəlmanlar, əsasən, azərbaycanlılar (AXC-nin elan edilməsindən sonra Rusiya imperiyası dövründəki tatar etnonimi əvəzinə türk etnik adı bərpa edildi və 1920-30-cu illərdə də qalmaqda davam etdi.) idi. Azərbaycanlılardan 939,64 min nəfəri Bakı quberniyasında, 797,88 min nəfəri Gəncə quberniyasında, 81,13 min nəfəri Zaqatala dairəsində, 129,58 min nəfəri İrəvan quberniyasının AXC-yə aid edilən hissəsində yaşayırdı. [5,51]

AXC 1920-ci ilin aprelində devrildikdən sonra Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) quruldu. AXC ilə müqayisədə Azərbaycan SSR-in ərazisi azalıb 86,6 min kv. km.-ə endirildi. Nəticədə azərbaycanlı əhalinin tarixi-etnik ərazisi parçalandı, azərbaycanlıların xeyli hissəsi onun siyasi sərhədlərindən kənarda qaldı. Azərbaycan SSR 1922-ci ildə Gürcüstan və Ermənistan SSR ilə birlikdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına (1922-1936) daxil oldu. 1923-cü il iyunun 7-də Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) təşkil edildi. Azərbaycanın tarixi-coğrafi ərazisi olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvan Azərbaycanın digər torpaqlarından ayrı salındı. 1924-cü il fevralın 9-da isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Naxçıvan MSSR) yaradıldı.

Sovet dövründə azərbaycanlıların say dinamikası haqqında Ümumittifaq əhali siyahıyaalmaları və bəzi yerli əhali qeydiyyatı məlumat verir. 1926-cı il Ümumittifaq siyahıyaalmasına görə Azərbaycan SSR-də 2314,57 min nəfər qeydə alınmışdı. Onlardan 1437,97 min nəfəri (62,13%) azərbaycanlılar idi. [11; 25, Таблица V,8] Beş il sonra, 1931-ci ildə aparılmış yerli əhali qeydiyyatına görə azərbaycanlıların sayı 149,72 min nəfər artaraq 1587,70 min nəfərə (60, 2%) çatmışdı. [28,8]

1936-cı ilin dekabrında SSRİ-nin yeni konstitusiyası qəbul edilərkən ZSFSR ləğv edilmiş, Azərbaycan və digər respublikalar SSRİ tərkibinə ayrıca daxil olmuşdur. Bu hadisədən qısa müddət sonra, 1937-ci il 5 yanvarda Ümumittifaq əhali siyahıyaalması keçirilmişdi. Sovet demoqrafiya tarixinə faciəli əhali siyahıyaalması kimi daxil olmuş 1937-ci il siyahıyaalmasının yekunlarına görə türklərin (azərbaycanlıların) sayı 1778,79 min nəfərə yüksəlmişdi. [13,107] 1937-ci il əhali siyahıyaalmasının yekunları defektli hesab olunaraq [12], ləğv edildikdən sonra 1939-cu ildə yeni əhali siyahı-

yaalması keçirilmişdi. Həmin siyahıyaalmanın nəticələrinə görə azərbaycanlıların sayı 91, 67 min nəfər artaraq 1870,47 min nəfərə çatmışdı. [15, ф.2511, оп.3, д.377, л.29]

1920-1930-cu illər azərbaycanlıların tarixi-demoqrafiyasında sarsıntılarla xarakterizə olunur. Rəsmi statistikaya görə, azərbaycanlıların sayı 1926-cı ildəki 1437,97 min nəfərdən 1939-cu ildə 1870, 47 min nəfərə (+432,5 min) çatmış, orta hesabla ildə 33,27 min nəfər artmışdır. Azərbaycanlı əhalinin orta illik artımına sovetləşməyə qarşı baş verən müqavimət hərəkatının yatırılması zamanı baş verən əhali itkisi, kollektivləşmənin ağır nəticələri, xüsusilə 1937-1938-ci illərdə daha da genişlənən repressiyalar mənfi təsir göstərmişdir. Bəzi hesablamalara görə 1920-1930-cu illərdə Azərbaycan SSR-də əhali itkisi 700 min nəfərədək təşkil etmişdir. [3,86] 1941-1945-ci illər müharibəsi də Azərbaycan əhalisinin say dinamikasına mənfi təsir göstərmişdir. Belə ki, 1941-ci ildə əhalinin sayı 3331,8 min nəfərdən 1945-ci ildə 2705,6 min nəfərə enmiş, yəni 626,2 min nəfər azalmışdı. [21,240] Əslində isə demoqrafik itki daha yüksək idi. Müharibədən sonra əhali siyahıyaalınmasının keçirilməməsi bu itkinin miqyasının müəyyən edilməsinə tam imkan vermir. Azərbaycan SSR əhalinin sayına görə müharibədən əvvəlki vəziyyəti on il sonra - 1955-ci ildə bərpa edə bilmişdi.

Müharibədən sonrakı dövrdə Azərbaycan SSR əhalisinin say dinamikası və etnik tərkibi haqqında 1959, 1970, 1979 və 1989-cu illər Ümumittifaq əhali siyahıya almaları [17;18;19;20] məlumat verir. Həmin siyahıyaalmaların yekunlarına görə azərbaycanlıların sayı müvafiq olaraq, 2494,4; 3776,6; 4708,8 və 5805,0 min nəfər olmuşdur. [23,38] Bu dövrdə əsas tendensiya ümumi əhali içərisində azərbaycanlıların sayının artması ilə bağlı olmuşdur. Belə bir vəziyyət bir tərəfdən 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası, digər tərəfdən təbii artım ilə izah olunur. Qeyd edilən siyahıyaalmalara uyğun olaraq Azərbaycan SSR əhalisi içərisində azərbaycanlıların payı müvafiq olaraq 67,5;73,8;78,1 və 82, 7 faiz olmuşdur.

Azərbaycan SSR-in Naxçıvan MSSR və DQMV-da da əhalinin say dinamikası müsbət meyillər daşımışdır. 1926, 1939, 1959, 1970, 1979 və 1989-cu illər Ümumittifaq əhali siyahıyaalmasının yekunlarına görə Naxçıvan MSSR-in əhalisi 104,9; 126,6;141,0;205,7; 240,0 və 295,0 min nəfər olmuşdur. Əhali içərisində azərbaycanlıların nisbəti də müvafiq olaraq artmış və 88,4 min (84,3%), 105,8 min (85,6%), 127,5 min (90,2%); 230,0 min (95,7%) və 281,9 min (95,9%) olmuşdur. [2-51,54] Naxçıvan MSSR əhalisinin təbii artımına dair rəqəmlər respublika üzrə göstəricilərdən yüksək olması ilə fərqlənmişdir. 1965-ci ildə respublika üzrə doğum əmsalı 36,4 promil olduğu halda, Naxçıvan MSSR-də bu rəqəm 48,6 promil idi. Ölüm əmsalları müvafiq olaraq 6,3 və 7,3; təbii artım əmsalları isə 30,1 və 41,3 olmuşdur. Doğum əmsalının 1970-ci illərdən başlayaraq azalması Naxçıvan MSSR-də özünü göstərmişdir. 1975-ci ildə burada doğum əmsalı 29,4-ə enmişdir. Naxçıvan əhalisinin təbii artımında maraqlı meyillərdən biri ölümün respublika üzrə göstəricidən aşağı olması idi. 1990-cı ildə respublika üzrə ölüm əmsalı 6,1 promil olduğu halda, Naxçıvanda bu 5,0 promil idi. Bu fakt Naxçıvanda təbii artımın geniş olmasını təmin edirdi. [2,53]

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində də sovet dövründə əhalinin say dinamikası artma ilə müşayət olunurdu. 1923-cü ildə DQMV yaradılarkən məqsədyönlü şəkildə ermənilərin üstünlük təşkil etdiyi kəndlər süni şəkildə eyni ərazidə birləşdirildiyi üçün onların sayı çox olmuşdur. Azərbaycanlı əhalinin təbii artımının yüksək olması, əksinə ermənilər içərisində təbii artımın aşağı səviyyəsi və onların miqrasiyaya meyilli olması nəticəsində DQMV-də azərbaycanlı əhalinin sayı müsbət dinamikaya malik olmuşdur. 1989-cu il Ümumittifaq əhali siyahıyaalmasının vilayətdə başlayan separatizm dövründə keçirilməsi, bu siyahıyaalmanın təşkili və keçirilməsinə ermənilərin rəhbərlik etməsi onun etnik tərkibə dair göstəricilərinə də təsir göstərmiş, azərbaycanlıların sayı azaldılmışdır. Buna baxmayaraq, mövcud yekunlara görə Azərbayacanın DQMV-də azərbaycanlıların sayı 40316 nəfər (21,5%) olmuşdur. [20,3-89, Таблица 9C] SSRİ-nin dağılması ərəfəsində burada azərbaycanlı əhalinin sayı 50 min nəfərdən çox idi.

Sovet dövründə Azərbaycan SSR-in şəhər həyatının inkişafı və yeni sənaye şəhərlərinin (Sumqayıt, Əli Bayramlı (hazırda Şirvan), Mingəçevir) yaranması ilə əlaqədar olaraq, kənd və şəhər əhalisinin nisbəti dəyişir. 1920-ci ildə şəhər əhalisinin payı 21, kənd əhalisinin payı 79% idi. 1940-cı ildə bu rəqəmlər 37 və 63% təşkil edirdi. [22,3] Bu tendensiya müharibədən sonra da davam edir. 1959-cu ildə şəhər əhalisi ümumi əhalinin 47,8 %-ni təşkil edir.1970-ci ildə isə şəhər əhalisi (50,1%) ilə kənd əhalisinin (49,9%) sayı bərabərləşir. Həmin vaxtdan başlayaraq ümumi əhali içərisində şəhər əhalisinin payı çoxalır, bu 1979-cu ildə 53,1, 1989-cu ildə isə 53,9% təşkil edir. [23,8]

Tarixən təbii artımın yüksək olması ilə fərqlənən Azərbaycanda bu vəziyyət sovet dövründə də davam edir. Səhiyyə sistemində baş verən yeniliklər nəticəsində ölüm əmsalının tədricən aşağı düşməsi, doğumun isə yüksək olmasına uyğun olaraq əhalinin təbii artımı yüksək olur. Sovet dövrünün mövcud olduğu dövrdə ən yüksək doğum əmsalı 1960-cı ildə qeydə alınmışdır. Həmin ildə doğum əmsalı 42,6, ölüm əmsalı 6,7, təbii artım 35,9 promil olmuşdur. 1970-ci illərin əvvəllərindən etibarən doğum da aşağı düşməyə başladığı üçün, təbii artım azalmağa başlamışdır. [4,88-89] Bunu Azərbaycan SSR əhalisinin növbəti milyona çatması üçün keçilən müddətin aşağı düşməsi də təsdiq edir. Belə ki, Azərbayca SSR əhalisi 1920-ci ildəki 2150,0 min nəfərdən 1936-cı ildə 3004,3 min nəfərə çatması üçün 16 il, 1962-ci ildəki 4118,2 min nəfərə çatması üçün 26 il, 1969-cu ildəki 5009,5 min nəfərə çatması üçün 7 il, 1979-cu ildəki 6028,3 min nəfərə və 1989-cu ildəki 7037,9 min nəfərə çatması üçün müvafiq olaraq 10 il vaxt keçmişdir. Beləliklə, Azərbaycanda əhalinin təkrar istehsalının müasir tipi formalaşmağa başlamışdır.

Azərbaycanlılar Azərbaycan SSR-in sərhədlərindən kənarda SSRİ üzrə əsas etibarı ilə Cənubi Qafqazda yaşayırdılar. 1921-1922-ci illərə aid məlumatlara görə Azərbaycan, Gürcüstan (Abxaziya ilə birgə) və Ermənistanda 5620 min nəfər əhali qeydə alınmışdı. [25, XVI] 1924-cü il məlumatına görə isə ZSFSR-in əhalisi 5406 min nəfər idi. [26,7] Azərbaycanlıların sayı 1350 min nəfər (23,1%) idi ki, onlardan 1129,15 min nəfəri Azərbaycan SSR-də, 220,85 min nəfəri (16,36%) Ermənistan və Gürcüstanda yaşayırdı. [26,7] 1926-cı il Ümumittifaq əhali siyahıyaalmasına görə ZSFSR-in əhalisi 5861,53 min nəfər idi. Azərbaycanlıların sayı (qarapapaqlarla birgə) 1656,08 nəfərə çatırdı. Onlardan 1437,977 min nəfər Azərbaycanda, 76,87 min nəfər Ermənistanda, 137,92 min nəfəri Gürcüstanda yaşayırdı. [24] Azərbaycanlılar içərisində yüksək təbii artım Ermənistan və Gürcüstan əhalisi içərisində azərbaycanlılaraın sayının artmasına səbəb olmuşdu. 1937-ci il əhali siyahıyaalmasına görə Gürcüstanda yaşayan azərbaycanlıların sayı 178,0 min nəfər, Ermənistanda isə 124,4 min nəfər olmuşdu. [13] 1939-cu il əhali siyahıyaalmasına görə bu rəqəmlər müvafiq olaraq 187,62 və 130,9 min nəfər təşkil edirdi. [14]

Ermənistan və Gürcüstanda azərbaycanlıların sayının kifayət qədər çox olması və kompakt şəkildə tarixi-coğrafi ərazilərində məskunlaşdığına baxmayaraq, onlara muxtar status verilmədi. Bu da tədricən azərbaycanlılar yaşayan bölgələrin toponomiyasının və inzibati-ərazi bölgüsünün dəyişdirilməsi yolu ilə demoqrafik sıxışdırılmaya məruz qalmasına səbəb oldu.

Bu özünü Ermənistanda daha kəskin şəkildə göstərdi. İş o yerə çatdı ki, SSRİ rəhbərliyinin yaxından iştirakı ilə Ermənistanda yaşayan azərbaycanlılar 1948-1953-cü illərdə deportasiyaya məruz qaldı. 150 mindən çox azərbaycanlı Ermənistandan deportasiya olundu. [16,69] Azərbaycanlıların deportasiya olunduğu yerlərdə xaricdən gətirilən ermənilər yerləşdirildi.

Deportasiya olunan azərbaycanlıların çoxu çətin təbii-coğrafi və məişət şəraitinə düşdüyünə görə öldü, müəyyən hissəsi isə Stalinin ölümü ilə deportasiyanın dayanması nəticəsində yenidən Ermənistana qayıtmalı oldu. Lakin onlar da Ermənistanda azərbaycanlılara qarşı başlanan yeni deportasiya dalğalarından xilas ola bilmədi. 1987-ci ilin sonlarında Qafan və Mehri rayonlarından azərbaycanlıların qovulması ilə başlanan son deportasiya nəticəsində Ermənistanda yaşayan bütün azərbaycanlılar tarixi-coğrafi ərazilərindən çıxarıldı. Ermənistandan deportasiya edilmiş 250 mindən çox azərbaycanlı Azərbaycana gəldi və burada məskunlaşdı. [16,64] Ermənistan monoetnik dövlətə çevrildi.

Gürcüstandakı bəzi çətinliklərə baxmayaraq, azərbaycanlılar tarix-coğrafi ərazilərində yaşamaqda davam etdilər. 1970, 1979 və 1989-cu illər Ümumittifaq əhali siyahıyaalmalarına görə Gürcüstanda yaşayan azərbaycanlıların sayı və ümumi əhali içərisində payı müvafiq olaraq 217, 75 min (4,6%), 255,67 min (5,1%) və 307,55 min (5,7%) olmuşdur. [18;19;20]

1980-ci illərin sonlarından Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının başlanması, istiqlaliyyət uğrunda mübarizə, SSRİ-nin dağılması ilə keçmiş müttəfiq respublikalar arasında əlaqələrin pozulması nəticəsində miqrasiyaların kəskinləşməsi Azərbaycanın müstəqillik dövrü demoqrafiyasına ciddi təsir göstərdi. Ermənistanın ərazi iddialarının Azərbayacana qarşı müharibəyə çevrilməsi nəticəsində 1991-1993-cü illərdə Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) işğalı, 1992-ci il fevralın 26-da Xocalıda törədilən soyqırım, 20 mindən çox azərbaycanlının müharibədə həlak olması demoqrafik faciəyə yol açdı. Ermənistandan olan azərbaycanlı qaçqınlar ilə eyni zamanda 700 mindən çox məcburi köçkün doğma tor-

pağından didərgin düşərək ölkənin digər regionlarında məskunlaşmağa məcbur oldu, Ermənistandan deportasiya olunanlarla birlikdə qaçqın və məcburi köçkünlərin sayı 1 milyon nəfəri keçdi.

1994-cü ildən başlayaraq Azərbaycan Respublikası əhalisinin illik artımı aşağı düşməyə başladı. Belə ki, 1993-cü ildə respublikanın ümumi əhalisi 7440,0 min nəfər idisə, 1994-cü ildə 7549,6 min nəfər olmuş, yəni illik artım 1993-cü ildəki 109,6 min nəfərdən 93,9 min nəfərə enmişdi. 1995-ci ildə bu rəqəm 82,7, 1996-cı ildə 73,6, 1997-ci ildə 76,9,1998-ci ildə 76,7, 1999-cu ildə 79,4, 2000-ci ildə 81,5, 2001-ci ildə 77,1, 2002-ci ildə 77,8, 2003-cü ildə 79,9, 2004-cü ildə 98,3 min nəfər olmuş, yalnız 2005-ci ildən stabillik bərpa olunmaqla, illik artım 100 mini keçməyə başlamışdır. [4,36] 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının həyata keçirilməsi bu sahədə problemlərin həllində mühüm rol oynamışdır.

Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra 1999- cu ildə, XX əsrin sonlarında beynəlxalq standartlara cavab verən əhali siyahıyaalması keçirilmişdir. 1999-cu il əhali siyahıyaalmasının yekunlarına görə respublikanın 7953,4 min əhalisindən 7205,5 min nəfərini (90,6%) azərbaycanlılar təşkil edirdi. [4,36]

XX əsrdə Azərbaycanın şimalının demoqrafik vəziyyətinin bəzi məsələlərinin nəzərdən keçirilməsi göstərir ki, bu sahə ənənə ilə birgə, dünya üzrə demoqrafik inkişafın əsas tendensiyalarını özündə göstərir. Doğum əmsalı getdikcə optimallaşır, müasir ölümlülük (ölüm səbəblərinə görə təsnifatda yeni törəmələr, qan-damar xəstəlikləri üstünlük təşkil edir və s.) formalaşır.

İranın tərkibində olan Cənubi Azərbaycan əhalisinə gəldikdə, İranda əhalinin sayının müəyyən edilməsinə ilk cəhd 1948-1950-ci illərdə İran Baş Qərargahının hazırladığı İran Coğrafiya lüğətində edilmişdir. 1956-cı ildə isə İranda əhalinin ilk siyahıya alması keçirilmişdir. Bu mənbələr bilavasitə etnik tərkibi qeydə almasa da, digər kriteriyalar əsasında Cənubi Azərbaycan əhalisinin 1940-cı illərin əvvəllərində 2,7 milyon (16,4%), 1940-cı illərin sonunda 3,1 milyon (19,1%), 1956-cı ildə isə 3,2 milyon (16,8%) olduğu bildirilir. [7,59] Azərbaycanlılar yalnız etnik tarixi-coğrafiyasında deyil, İranın digər bölgələrində, xüsusilə paytaxt Tehranda da yaşayırlar. Təxmini hesablamalara görə ölkə əhalisinin 30 milyona qədərini azərbaycanlılar təşkil edir. Beləliklə, azərbaycanlılar İranda etnik azlıq olmayıb, sayına və cəmiyyətdəki yerinə görə mühüm mövqeyə malikdir.

Azərbaycanın tarixən iki yerə parçalanmasına baxmayaraq, bəzi dövrləri istisna etməklə onların arasında əhali hərəkəti davam etmiş, bu canlı körpü vasitəsi ilə milli-mənəvi birlik daha da möhkəmlənmişdir. Çar Rusiyası dövründə Azərbaycanın cənub hissəsindən minlərlə kəsbkar şimala, Bakı neft rayonuna və digər bölgələrə kəsbkarlığa gəlmişdir. [30] 1920-1930-cu illərdə isə SSRİ rəhbərliyinin iştirakı ilə Azərbaycan SSR-də məskunlaşan cənublular deportasiyaya məruz qalmışdır. [10] SSRİ-nin dağılması ərəfəsində, əsasən də Azərbaycanın müstəqilliyinin elan edilməsindən sonra, Azərbaycan və İran arasında əhalinin hərəkəti yenidən genişlənməyə başladı.

Dünyanın müxtəlif ölkələrində olan Azərbaycan diasporasında xeyli azərbaycanlı vardır. Dünya azərbaycanlılarının 10 milyondan çoxu xarici ölkələrdə məskunlaşmışdır. Azərbaycanlılar Amerika qitəsində daha çox məskunlaşmışlar. Birləşmiş Ştatlarda 1 milyon, Kanadada 170 min, Braziliyada 75 min, Meksikada 27 min, Argentinada 12 min və digər ölkələrdə xeyli azərbaycanlı məskunlaşmışdır. Türkiyə və Rusiyada milyonlarla, Ukrayna, Belarus, Almaniya, Böyük Britaniya və digər Avropa ölkələrində də on minlərlə azərbaycanlı yaşayır. [6,16-18] Dünya azərbaycanlıları arasında əlaqənin əhəmiyyəti nəzərə alınaraq hər il dekabr ayının 31-i Dünya Azərbaycanlıların Həmrəylik günü kimi qeyd edilir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə. V cild. Bakı: 2001
2. Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik toplu. Bakı: 1999
3. Şükürov K.K. Azərbaycanda demoqrafik vəziyyət//Kitablar aləmində. 1991, №1-2
4. Demographic indicators of Azerbaijan. 2011. Baku: 2011
5. Адресь календарь Азербайджанской республики на 1920 г. Под ред. А.И.Ставровского. Баку: Изд: Минс-во пр-ния, 1920.
6. Азербайджанская диаспора. Баку, 2006.
7. Байрамзаде С. Южный Азербайджан: от «21 азер»а до «белой революции» в Иране (Экономическое и социально-политическое положение).Баку, 2016.

8. Балаев А. Февральская революция и национальные окраины. Мартовские события 1918 года в Азербайджане. М., 2008.
9. Брук С.И., Кабузан В.М. Динамика и этнический состав населения России в эпоху империализма (конец XIX в.-1917 г.)//История СССР, 1980, №3, С.74-93
10. Бугай Н. «Судьба иранцев граждан СССР» из досье «Обозреватель»//http://www/rau.su.
11. Всесоюзная перепись населения 1926 г. Отдел. I. Народность, родной язык, возраст, грамотность. т.XIV. Закавказская СФСР. М., Изд: ЦСУ СССР, 1929
12. Всесоюзная перепись населения 1937 г. Краткие итоги. М., Институт Истории СССР. 1991
13. Всесоюзная перепись населения 1937 года: Общие итоги. Сборник документов и материалов. М.: Российская политическая энциклопедия (РОССПЭН), 2007.
14. 14.Всесоюзная перепись населения 1939 г. Основные итоги. М.: Наука, 1992
15. Государственный Архив Азербайджанской Республики.
16. Депортация азербайджанцев из Армянской ССР (1948-1953). Сб.док. Баку, 2013.
17. Итоги Всесоюзной переписи населения 1959 г. Азербайджанская ССР. М.,1963.
18. Итоги Всесоюзной переписи населения 1970 г. Т. IV, М.,1973.
19. Итоги Всесоюзной переписи населения 1979 г. Т. IV, Ч.1, Кн.3. М.,1989.
20. Итоги Всесоюзной переписи населения 1989 г. Распределение населения по национальностям и родному языку. М.,1989.
21. Мамедов К. Демографическое развитие в Азербайджанской ССР. Баку, 1980.
22. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября. Баку, 1987.
23. Население Азербайджанской Республики. 1989. Стат. сб. Баку, 1991.
24. Население Закавказья. Всесоюзная перепись населения 1926 г. Краткие итоги. Тифлис: Зак. ЦСУ, 1928.
25. Обзор деятельности Совета Народных Комиссаров. Зак. Соц. Федер. Сов. Республики. 1923 г. Тифлис, 1924.
26. Обзор деятельности Совета Народных Комиссаров и Высшего Экономического Совета Закавказской Социалистической Федеративной Советской Республики за 1924 г. Тифлис: Типог. Военного комиссариата. 1925, 366 с.
27. Первая Всеобщая перепись населения Российской империи. Общий свод по империи результатов разработки данных первой Всероссийской переписи, произведенный 29 января 1897 г. тт.I-II. СПб., 1905.
28. Перепись населения Азербайджана 1931 г. Вып.2-й. Народность, пол, возраст, грамотность. Баку: Азернешр, 1932.
29. Сборник статистических сведений по Закавказскому краю. Ч. 1, Тифлис,1902.
30. Шукюрв К.К. Отходничество в Закавказье из Южного Ирана. АКД. Баку, 1984.


## AZERBAIJANIS IN THE 20TH CENTURY: A HISTORICO-DEMOGRAPHIC ANALYSIS SUMMARY


Azerbaijan and its people have entered the 20th century divided territorially in two parts. The northern part of Azerbaijan managed to leave the Russian Empire (October 1917). In 1918, the Azerbaijani Democratic Republic proclaimed its independence. Azerbaijan regained its independence upon the collapse of the Soviet Union, which had existed from 1920 to 1991. A number of political processes also took place in Southern Azerbaijan that is a part of Iran. The political processes and socio-economic changes that have occurred in both parts of the nation have had significant impacts on historical-demographic situation of the population, including Azerbaijanis. An examination of the dynamics of the size and structure of the Azerbaijani population in the north of Azerbaijan was based on population censuses taken under different political systems: the Russian Empire (1897), the Soviet Union (1926, 1937, 1939, 1959, 1970, 1989), independent Azerbaijan (1999). Although Iranian censuses did not record people's ethnicity, the numbers of Azerbaijanis were determined by calculations. The global Azerbaijani population was determined from sources of information about Azerbaijanis living in different countries.

## АЗЕРБАЙДЖАНЦЫ В XX ВЕКЕ: ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЙ АНАЛИЗ РЕЗЮМЕ

Азербайджан, и населяющие его азербайджанцы, исходя из территориально-географической точки зрения, вступили в XX век разделенными на две части. Северной части Азербайджана удалось выйти из состава Российской империи (Октябрь 1917). В 1918 году была провозглашена независимая Азербайджанская Демократическая Республика (1918-1920). С распадом советского государства, существовавшего с 1920 по 1991 год, Азербайджан получил свою независимость. Ряд политических процессов произошел и в Южном Азербайджане, входящим в состав Ирана. Политические процессы и социально-экономические изменения происходивщие в обеих частях страны оказывали существенное влияние на историко-демографическое положение населения, в том числе и азербайджанцев. Динамика численности и структура населения азербайджанцев на севере Азербайджана были рассмотрены на основе переписей населения проводимых в различных политических системах -в период Российской империи (1897), в советский период (1926, 1937, 1939, 1959, 1970, 1989) и в период независимости (1999). Несмотря на то, что в Иранской переписи населения не учитывался этнический состав населения, общая численность азербайджанцев в стране была определена на основе расчетов. Принимая во внимание сведения об азербайджанцах, живущих в разных странах, было определено их общее количество в мире.

*Док. истории,ассоциированный проф.* **Мамука ГОГИТИДЗЕ**
*Национальный Университет им.Руставели*

*Док. истории,ассоциированный проф.* **Георгий БЕЖИТАШВИЛИ**
*Национальный Университет им.Руставели*

## ТРАГИЧЕСКИЕ СОБЫТИЯ МАРТА 1918 ГОДА В АЗЕРБАЙДЖАНЕ

**Açar sözlər:** Müsəlman Milli Şurası, Müsavat, Daşnaksütyun, Sentrokaspi Diktaturası, silahlı qüvvələr,Bakı Soveti.
**Keywords:** Muslim National Council, "Musavat","Dashnaksutyun",Centrokaspi Dictatorship, armedforces, Baku Soviet.
**Ключевые слова:** Мусульманский национальный совет, «Мусават», «Дашнакцутюн», Диктатура Центрокаспия, вооруженные силы, Бакинский совет.

31 марта ежегодно отмечается в Азербайджанской Республике как «День геноцида азербайджанцев», посвященный событиям конца марта 1918 года, когда вооруженные формирования армянской националистической партии «Дашнакцутюн» при поддержке большевистского руководства Бакинского совета во главе со Степаном Шаумяном совершили геноцид мирного азербайджанского населения Бакинской губернии.

В 1917 году турецкие войска прорвали линию фронта и отбросили российские и армянские части бывшей Российской императорской армии на запад, в конечном счете до Баку.

В конце 1917 года власть в Баку фактически захватили большевики. Председателем Бакинского совета стал Степан Шаумян, которого Владимир Ленин назначил чрезвычайным комиссаром по делам Кавказа.

В марте 1918 года Баку был разделен на две части: мусульманскую и армяно-русскую. Первая контролировалась Мусульманским национальным советом , а вторая - большевистско-дашнакским Бакинским советом [1].

На сторону Бакинского совета, вооруженные силы которого насчитывали 6 тысяч штыков, перешел и городской гарнизон.

К концу марта на помощь Бакинскому совету прибыли отряды из Советской России. Также к этим силам примкнул и Бакинский армянский национальный совет, который имел собственные войска, насчитывающие четыре тысячи штыков. [2]

Мусульманское население поддерживало азербайджанскую национально-демократическую партию «Мусават», которая выступала за независимость Азербайджана.

Партия поддержала и приветствовала октябрьский переворот в Петрограде из-за того, что большевики провозгласили право наций на самоопределение, вплоть до отделения от России.

22 октября 1917 года на выборах в Бакинский совет «Мусават» значительно опередив все другие партии, набрал около 40% голосов избирателей в многонациональном Баку.

Правда результаты этих выборов были отменены и на перевыборах победу одержали большевики и дашнаки.

Тем не менее с осени 1917 года влияние «Мусават» усиливалось среди мусульманского населения.

В регионах Азербайджана авторитет мусаватистов был еще большим, и эта партия превращалась в серьезную угрозу для власти Бакинского совета.

В свою очередь, партия «Дашнакцутюн» выступала за создание на Кавказе армянского государства. Идеология дашнаков была популярна среди отступавших под напором турецких войск армянских полков бывшей императорской армии.

Целью армянских солдат, по мнению Смита, было защитить армянское население, оставшееся за линией фронта. (3)

Инструментом этого была борьба за создание независимой Армении. Дашнаки, движимые идеей о независимости и воинствующим национализмом, использовали все методы для

вытеснения из региона азербайджанского населения.

В этом смысле интересы большевиков, представляющих собой третью силу в местном политическом раскладе, и дашнаков к марту 1918 года совпали.

Наличие невдалеке от Баку турецких войск являлось общей угрозой и дополнительным поводом для временного совпадения интересов армянского населения и большевиков.

Кроме того, правительство Советской России, по мнению профессора Солмаз Рустамова-Тогиди, нуждалось в бакинской нефти.

Две отчасти противостоящие друг другу национальные политические партии «Дашнакцутюн» и «Мусават», желали государственной независимости для своих народов.

Большевики же, боролись за упрочение Советской власти в Закавказье и, не имея пока достаточных сил, соглашались на временные союзы с различными силами.

Шаумяну к марту 1918 года удалось сформировать хрупкую коалицию между большевиками и дашнаками.

Но «азербайджанцы опасались усиления армян, вооружаемых британской армией, и обратились к единоверцам за помощью», - писал британский исследователь Питер Хопкирк [4].

Шаткий баланс сил могла разрушить любая случайность или провокация.

В конце марта 1918 года противостояние между большевистским Бакинским советом, дашнаками и Мусульманским национальным советом во главе с партией «Мусават» достигло своего апогея**.**

29 марта 1918 года произошло разоружение небольшого отряда мусаватистов, который отбывал в Ленкорань, что вызвало негодование мусульманского населения.

30 марта азербайджанцы провели мирные митинги. В ответ начались карательные акции.

По версии Майкла Смита, 30 марта в различных частях города стали сооружаться баррикады и возникать стихийные митинги с требованием вернуть военным конфискованное у них оружие, или же разоружить и другие этнические формирования.

По другой версии, столкновения начались с прибытия 30 марта в порт Баку вооруженных подразделений мусульманской «Дикой дивизии». Подошедшие силы большевиков разоружили прибывшие подразделения.

30-31 марта центр Баку и все без исключения мусульманские части города подверглись вооруженной атаке большевистско-дашнакских формирований.

Выдвинутые к Бакинской бухте корабли Каспийской флотилии, вели по мусульманским кварталам прицельный огонь из орудий.

2 апреля массовые убийства и погромы мусульман прекратились по категорическому требованию Туркестанского 36-го полка и из-за угроз русских моряков-каспийцев, которые, разобравшись в истинных целях военной операции, грозились выйти из подчинения Бакинского Совета. Всего за несколько дней, в Баку было убито около 12 тысяч мусульман.

Сохранились свидетельства об этих событиях представителей иностранных дипломатических миссий.

В то время, в Баку и его окрестностях проживали около 70 тысяч персидских поданных.

В связи с этим, иранский консул Мохамед Саед-оль Везаря Марагаи (впоследствии он дважды становился премьер-министром Ирана) предпринимал отчаянные усилия с целью предотвратить убийства и погромы персидских поданных, а затем занимался захоронением их трупов, которыми были завалены улицы Баку.

Позже в своих воспоминаниях, Марагаи сообщал, что только его комиссией с улиц было собрано и захоронено более 5 тысяч убитых мусульман.

Жертв было бы еще больше, если бы представители немусульманского населения Баку не прятали в своих домах мусульман от бесчинствующих в городе отрядов.

«В мартовских событиях обвиняли «Мусават». Это было совершенно безосновательно, так как для объявления войны нужно было располагать хоть какой-нибудь физической силой, которой у «Мусавата» не было, - утверждал лидер «Мусавата» М.Э.Расулзаде, оценивая эти события.

Другие обвиняют «Мусават» в том, что он вызвал мартовские события путем защиты идеи автономии Азербайджана. Это может быть похоже отчасти на правду».

«Если бы мы покорно гнули головы перед врагами нашей свободы, не было бы, может быть, этих событий. Но мы этого сделать не смогли. Мы открыто в то время требовали автономию для Азербайджана. Этим мы увеличивали число наших врагов», - говорил Расулзаде [5]

По разным оценкам, высказанным упомянутыми в тексте исследователями и комиссиями, во время мартовских событий только в Баку погибло около 11 тысяч мусульман.

Геноцид, начатый 30 марта 1918 года в отношении азербайджанцев большевистско-дашнакскими силами под руководством Степана Шаумяна, продолжался до лета того же года.

За этот период на территории Азербайджана было убито более 50 тысяч человек.

28 мая 1918 года в Тифлисе была провозглашена Азербайджанская Демократическая Республика, после чего была создана Чрезвычайная следственная комиссия (ЧСК) для расследования мартовских событий.

В конце июля 1918 года власть в Баку перешла к Диктатуре Центрокаспия.

В сентябре 1918 года, накануне входа в Баку турецких и азербайджанских войск, большевистские бакинские комиссары бежали в Красноводск.

В ночь на 20 сентября 26 произвольно выбранных из 36 комиссаров и простых служащих были расстреляны местными эсерами и англичанами. 15 сентября 1918 года турецко-азербайджанская армия под командованием генерала Нури паши вошла в Баку.

11 января 1920 года Верховный Совет союзных держав признал независимость Азербайджанской Демократической Республики.

9 февраля 1920 года была объявлена амнистия, под которую попали деяния совершенные на почве «национальной вражды».

По этой амнистии, арестованные по мартовским событиям около 200 человек, были освобождены.

Таким образом, в марте 1918 года большевики во главе со Степаном Шаумяном и дашнаки, отбросив в сторону все межпартийные, политические и идеологические разногласия заключили в Баку военно-политический союз.

Он всей своей мощью был направлен против Азербайджанского национального движения во главе с партией «Мусават» и всего мусульманского населения.

Бакинский совет, участники которого известны как «26 бакинских комиссаров», был повинен в том, что допустил массовое уничтожение мирного азербайджанского населения Бакинской губернии.

Более того, он стимулировал эти убийства, прикрывая это классовой борьбой.

Этот геноцид стал результатом деятельности бакинских большевиков во главе со Степаном Шаумяном, который проводил исключительно антиазербайджанскую и антитюркскую политику.

Именно благодаря действиям Степана Шаумяна и руководимым им большевиков, которые ради достижения власти пошли на союз с дашнаками, стало возможным уничтожение 12 тысяч азербайджанцев во время мартовских событий в Баку.

Шаумян не только не принял никаких мер для предотвращения мартовской резни, но также являлся одним из организаторов этого геноцида.

Президент Азербайджана Гейдар Алиев своим указом от 26 марта 1998 года дал политико-правовую оценку событиям 1918 года, введя в политический оборот понятие «геноцид азербайджанцев». Как было отмечено в указе, события марта 1918 года стали очередным этапом «неоднократного геноцида» по отношению к азербайджанскому народу, не получившего «должной политико-правовой оценки».

Историческая ответственность за геноцид азербайджанцев была возложена на Российскую империю, Советский Союз, Армению и на армянский этнос.

При этом и императорская Россия, и Советский Союз рассматривались по большей части как инструменты «армянских шовинистов» в их многовековом плане по созданию «Великой Армении».(7]

Этот указ стал программным документом для формирования у нынешнего и будущего поколений крепкой национальной памяти о геноциде, учиненным над азербайджанским народом в XX столетии, достижения политической и правовой оценки этих трагедий во всем мире, устранения их тяжелых последствий и для предотвращения повторения подобного в будущем.[8]

Президент Азербайджана Ильхам Алиев подписал 30 декабря 2009 года распоряжение о создании в городе Губа «Мемориального комплекса геноцида». В распоряжение президента Азербайджана говорится, что в марте 1918 года «против нашего народа был учинён один из самых трагических актов геноцида XX столетия».

## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА


1. Рустамов Р. Хватит рыдать. Жертвы, которыми можно гордиться // Зеркало, №54, 31.03.2012.
2. Емельянов Ю.В. Сталин. Путь к власти. М.: Вече. 2003.
3. Смит М. Память об утратах и азербайджанское общество // Азербайджан и Россия: общества и государства. М.: Летний сад, 2001.
4. Hopkirk P. Like hidden fire. The plot to bring down the British Empire. N.Y., 1994. P. 282-283.
5. Газета "Азербайджан", 6.12.1919.
6. Геноцид населения Азербайджана глазами грузинского историка: на вопросы Echo.az отвечает доктор истории, профессор Национального университета им. Шота Руставели Мамука Гогитидзе/Л. Мустафаев // Эхо (нед). -Bakı, 2015.-25 апреля, № 73.-с.6
7. М.Гогитидзе -«Геноцид против азербайджанского народа в 1918-1920 гг.» стр.59-64.Труды Института истории НАН Азербайджана. Материалы международной научной конференции "Геноцид тюрко-мусульманского населения Азербайджана и восточной Анатолии (1914-1920) ". г.Губа, Азербайджанская Республика, 8-12 апреля 2015 г.Специальный выпуск 52,53,54,55/2015
8. Маркедонов С. Кавказский "плачущий мужчина"? // Агентство политических новостей, 31.03.2006.


## 1918-Cİ İLİN MARTINDA AZƏRBAYCANDA FACİƏLİ HADİSƏLƏR
## XÜLASƏ

Məqalədə 1918-ci ilin mart ayında Bakı quberniyasının Bakı, Quba və Şamaxı qəzalarında bolşevik-daşnak silahlı birləşmələri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş soyqırım haqqında məlumat verilir.

## THE TRAGIC EVENTS OF MARCH 1918
## SUMMARY

The article in March of 1918, the province of Baku, Guba, Shamakhi accidents by Bolshevik-Dashnak armed forces should be informed about the genocide committed against the Azerbaijani people.

*T.e.d.* **İradə BAĞIROVA**
*AMEA Tarix İnstitutunun*
*"Qafqaz tarixi" şöbəsinin müdiri*

## 1905-1906-cı İLLƏRDƏ BAKI, NAXÇIVAN VƏ QARABAĞDA AZƏRBAYCANLILARA QARŞI KÜTLƏVİ QIRĞINLAR

**Açar sözlər:** Çar Rusiyası, Cənubi Qafqaz, Şimali Azərbaycan, köçürülmə siyasəti, kütləvi qırğınlar
**Keywords:** Tsarist Russia, Sothern Caucasus, Northern Azerbaijan, immigration policy, massacres
**Ключевые слова:** Царская Россия, Южный Кавказ, Северный Азербайджан, переселенческая политика, массовая резня

Məlum olduğu kimi, ermənilər və azərbaycanlılar arasında milli zəmində münaqişələrə XX əsrin əvvəllərində, Rusiya imperiyasında inqilabi hadisələr başlanan zaman təkan verilmişdir. Sonralar bu münaqişə 1918-1920-ci illərdə yenidən qızışmış, millətimizə qarşı soyqırım formasını almışdır. Və nəhayət, 1991-ci ildə SSRİ dağılan zamanı açıq müharibəyə keçmişdir və atəşkəs müqaviləsinin imzalanmasına baxmayaraq, günümüzə qədər davam etməkdədir.

Çar Rusiyasının köçürülmə siyasəti amansız qırğınlarla nəticələnən millətlərarası münaqişələrin əsasını qoymuş oldu. Bu mənada ən böyük problemi XIX əsrin əvvəllərindən Türkiyə və İrandan Cənubi Qafqaza köçürülmüş ermənilər yaradırdılar. Tez bir zamanda inkişaf etməkdə olan kapitalist münasibətlərinə uyğunlaşa bilmiş ermənilər azərbaycanlıları ticarətdə, sənayedə və başqa sahələrdə tutduğu mövqedən sıxışdırıb çıxara bilmişdilər. Rus hakim dairələri müsəlmanları faktiki olaraq idarəetmə strukturlarından, təhsil sistemindən, hərbi qulluqdan kənarlaşdırmışdılar. Bütün Rusiyanın neft və senaye mərkəzi rolunu oynayan Bakıda azərbaycanlılar ən hüquqi tapdalanmış əhaliyə çevrildilər, ermənilər isə ən mühüm və gəlirli yerləri tutdular. Yaranmış vəziyyət və çar hökumətinin açıq-aşkar himayədarlığı erməniləri özlərinin "ən seçilmiş" millət kimi hiss etməyə və onların arasında aqressiv, radikal milliyətçiliyin artmasına gətirib çıxardı. Əgər azərbaycanlılar özlərini münaqişələrə qədər müsəlman dünyasının bir hissəsi kimi hiss edirdilərsə, erməni millətçiliyi Osmanlı imperiyasının Anadolu vilayətlərində və Qafqazda öz dövlətini yaratmaq məqsədi güdən açıq-aşkar revanşist xarakter daşıyırdı. Bu istəkdən irəli gələrək ermənilərin qonşu xalqlara ərazi iddiaları əlverişli şərait yaranan kimi özünü biruzə verməyə başlamışdır.

Erməni milliyətçiliyinin iki əsas mərkəzi mövcud idi – kilsə və siyasi məqsədlərini həyata keçirən partiyalar. Onlardan ən böyüyü və qatı millətçi mövqeyində duran Daşnaksütyun partiyası idi. Daşnaklar erməni cəmiyyətindəki müxtəlif sosial qüvvələrin mənafe birliyi və ahəngdar ideyasını təbliğ edirdilər. 1890-cı ildə Tiflisdə yaradılan və Türkiyə ərazisində Ermənistanın müstəqilliyi uğrunda mübarizəni özünün əsas vəzifəsi elan edən Daşnaksütyun tədricən bu mübarizənin meydanını Türkiyənin hüdudlarından kənara da keçirərək genişləndirir və kütlələrin beyninə dənizdən-dənizə uzanan, demək olar ki, bütün Zaqafqaziya ərazisini əhatə edən Böyük Ermənistan yaratmaq ideyasını yeridirdi. Azərbaycanda onun təşkilatları Bakı, Gəncə, Şuşa və b. şəhərlərdə fəaliyyət göstərirdi. [5, s.228]

Millətçi erməni xırda burjua partiyası olan Hnçak da ermənilər içərisində müəyyən nüfuza malik idi. Onlar da daşnaklar kimi, "Qərbi Ermənistan" problemlərinin həlli uğrunda mübarizəyə çağırışla çıxış edirdilər. [8, Siy.2, iş 27810, v. 52, 56]

Lakin bu ideyanın reallaşmasında o zaman onlar üçün daha məqbul ərazi Cənubi Qafqaz və əlalxüsus Şimali Azərbaycan ərazisi idi. Burada qanlı hadisələrin başlanması 1905-ci il fevralın 6-9-na təsadüf etdi.

1905-ci il fevralın 6-sı şəhərin mərkəzində erməni mauzerçilərinin Sabunçu kəndinin sakinini qətlə yetirməsi o çağadək görünməmiş qanlı erməni-azərbaycanlı qırğınlarına təkan verən detonator rolunu oynadı. 1905-ci ilin fevralın 6-dan 9-na kimi Bakıda qarşılıqlı atışmada senator Kuzminskinin məlumatlarına əsasən 262 nəfər həlak olmuşdu. [7,s.78] Hadisələrin şahidi M.S. Ordubadinin bilgilərinə görə isə minə yaxın insanın həyatına son qoyulmuşdu. [4, s.12] Onun yazdığına görə "həmən gün və gecəsi şəhərdə böyük gurultu-şaqqıltılar zahir olurdu. Gecə sübhə kimi şəhərdə atışma səsi var idi ki,

səhər tezdən küçələrdə öldürülmüş 13 nəfər azarxanaya aparıldı. Fevralın 7-də hər tərəfdə atışma başlanıb, ermənilər ümumi hərbi qiyama başladıqlarından müsəlmanlar da açıq-açığa tüfəng-tapança götürüb, hərbə girişməkdə idilər. Ermənilər bu halda müsəlmanların hücumuna davam gətirə bilməyərək qaçmaqda və evlərinə pənah aparmaqda idilər". Fevralın 8-də isə ermənilər yenə də müsəlmanları şiddətli surətdə bombardman edirdilər. "Bu halətə heç kəs davam gətirə bilmirdi. Necə ki, bütün qoşun dəstələri də atəşin şiddətindən davam gətirə bilməyib hamısı qaçmağa üz qoydu". [4, s.12,14]

Lakin bu hadisələrin bütün şahidləri azərbaycanlıların ermənilərə hər dəfə yardım etmələrindən, evlərində saxlayıb, qətllərdən xilas etməklərindən yazırdılar və bu barədə ermənilərin özləri məktub vasitəsilə razılıq etmişdilər. M.S.Ordubadinin sözlərinə görə "əlimizə çatan məlumatlara əsasən müsəlmanlar Bakıda erməniləri mühafizə etməsəydi, üç minə qədər erməninin qana qəltan olması yəqin idi". [4,s.15]

Çar hökumət orqanları milli ehtirasları qızışdırmaq üçün Azərbaycan və erməni burjuaziyası arasındakı müəyyən ziddiyyətlərdən bacarıqla istifadə edirdi. Polis və qoşunlar yüzlərlə adamın qurban getdikləri qanlı toqquşmalara qarışmırdı. Bu amansız təxribat cəmiyyətin mütərəqqi qüvvələrinin dərin hiddətinə səbəb oldu. Şəhərdə ruhanilərin, ziyalıların iştirakı ilə kütləvi nümayişlər, mitinqlər keçirilirdi. Demokratik mətbuat, sosial-demokrat təşkilatları, o cümlədən "Hümmət" bu işdə mühüm fəaliyyət göstərirdi. Bu hadisələri törədən səbəbləri araşdırmaq üçün sonralar yaradılan komissiyada çoxmillətli Bakı ziyalılarının nümayəndələri yerli hakimiyyət orqanlarının iç üzünü açır, çirkin əməllərini aşkarlayırdı.

Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri M.Ə.Sabir, H.Zərdabi, F.Köçərli, N.Vəzirov, Ə.Ağayev, Ü.Hacıbəyov, H.Minasazov, Ə.Topçubaşov, M.Şahtaxtinski, E.Sultanov və b. bu hadisələri böyük bir bəla kimi qiymətləndirir, mətbuatdakı çıxışları ilə onların təxribatçı xarakterini açıqlayır, hər vasitə ilə bu amansız və mənasız ədavətə son qoymağa çalışırdılar. Hökumətin milli ədavəti qızışdırmaq siyasətinin, mürtəce millətçi təbliğatın ifşası, tərəqqi və azadlıq uğrunda ideyalarının təbliği Molla Nəsrəddin jurnalı və onun redaktoru C. Məmmədquluzadənin fəaliyyətində ən aparıcı istiqamətlərdən biri idi.

Ə.Ağayev Azərbaycan xalqının ünvanına deyilən hər cür böhtançı fikirləri yerli və paytaxt mətbuatının səhifələrində hərarətlə ifşa edirdi. Fevral hadisələrindən dərhal sonra Əhməd bəy Ağayev Bakı şəhər qlavası (meri) K.A.İretskiyə müraciət edərək, baş verən faciəni dayandırmaq üçün təcili tədbirlər görülməsinin vacibliyi barədə tələb irəli sürmüş, qara qüvvələrin yeni toqquşmalar törətmək istəyinə aid xəbərdarlıq edərək, şəhər administrasiyasını biganəlik və fəaliyyətsizlikdə günahlandırırdı. Ə.Ağayev hər iki tərəfin iştirakı ilə fövqəladə iclas keçirməyin, görkəmli ziyalı nümayəndələri və din xadimlərinin də xalqa müraciətinin vacibliyini İretskinin diqqətinə çatdırıb vurğulamışdı. Gərgin fevral günlərində Ə.Ağayev qələm əhlinin bu hadisələrdə mühüm rolu haqqında Kaspi qəzetində məqalələr çap edərək mətbuatı ilk növbədə faciənin əsil səbəblərini üzə çıxarmağa, emosiyalara uymamağa və obyektivliyi saxlamağa borclu saydığını bildirirdi. [2, f. 389, siy. 7, iş 827, v. 93]

Millətlərarası münasibətlərin tənzimlənməsi məqsədilə ictimai təşkilatların yaradılmasında da Ə.Ağayevin rolu böyük idi. 1905-ci ilin iyun ayında şəhər duması "əhalinin barışdırılması üçün Bakı komitəsi" təşkil etdi. [2,v.95] Komitədə duma üzvləri ilə yanaşı həm də şəhər əhalisinin bir çox nümayəndəsi təmsil olunmuşdu. Toqquşmalar nəticəsində zərərçəkənlərə maddi yardım göstərilməsi ilə yanaşı yerli və ümumrusiya mətbuatı vasitəsilə baş vermiş insidentlərin mahiyyətini araşdırmaq komitənin vəzifələrinə daxil idi və onun sədri şəhər qlavası vəzifələrini icra edən K.Səfərəliyev təyin olunmuşdu. Azərbaycan ictimaiyyətini burada Ə.Topçubaşov, M.Hacınski, M.Muxtarov, İ.Hacıyev təmsil edirdilər. Ə.Ağayev isə bu komitənin redaksiya komissiyasına Həyat qəzetinin baş redaktoru kimi daxil idi. [9,1905 13-15 fevral]

Cənubi Qafqaz şeyxülislamı axund Əbdülsalam Axundzadə və diyarın müftisi Hüseyn Əfəndi Qayıbov əhali arasında böyük barışdırıcılıq işi görürdülər. H.Z.Tağıyevin təşəbbüsü və rəhbərliyi ilə yaradılmış yardım komissiyası zərərçəkənlərə kömək edirdi.

Lakin qanlı qırğınlar Bakı və Abşeronla məhdudlaşmadı, bütün Azərbaycan ərazisini bürüdü. Ermənilərə başçılıq edən Daşnaktsütyun və Hnçak partiyalarının rəhbərləri bu müharibəyə yaxşı hazırlaşmışdılar.

1905-ci il mayın 11-də Naxçıvanda ermənilər bütün şəhəri atəşə tutdular. İki saat yarım müddətində şəhəri beşatılan tüfənglərin sədası, alov və tüstü bürümüşdü. Azərbaycan əhalisi vitse-quberna-

tora şikayətə gəldikdə ondan "əgər onlar sizə atəş açır, siz də tutub onların tapançalarını alınız" cavabını aldılar. [4,s.17] Həmin il noyabrın 26-cı gecəsi Naxçıvanda müsibət gecəsi adlandırmışlar. Güllə səsi iki saat davam edib camaatı dəhşətə salmışdı. Bir saatdan sonra məlum oldu ki, kazaklar və ermənilər əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra od vurmuşlar. Ayın otuzunda isə Naxşıvanın Cəhri kəndi ermənilər və kazaklar tərəfindən yandırılmışdı. Həmin gün İrəvan general-qubernatoru Paskeviç şəhərə gəlib, yardım etməyə söz versə də, heç bir tədbir görməyib İrəvana yollandı. [4,s.19]

Lakin ermənilərin bu vəhşilikləri törətmələrinə baxmayaraq, Naxçıvan qırğınları onların xeyrinə qurtarmadı. Hadisələrin şahidi olmuş böyük Azərbaycan maarifpərvəri Mir Möhsün Nəvvabın yazdığına görə "müsəlmanlar tezliklə səfərbər olub tüfəngi olan tüfəngini, tapançası olan tapançasını, olmayanlar isə xəncər, külüng, balta, dəhrə və ağac götürüb, ermənilərin müqabilinə gəldilər və onların tüfəng və patrondaşlarını əllərindən alıb davaya başladılar. Hər tərəfdə ermənilər böyük tələfatə məruz qaldılar və vəziyyəti belə görüb üz qoydular qaçmağa". [3,s.16-17]

Şəhər erməniləri məğlub olandan sonra isə müsəlmanlar erməni kəndlərinə hücuma keçdilər. Sonra Naxçıvan qəzasındakı Böyük Badamlı kəndinə üz qoydular. Həmin kəndin bütün erməniləri öz külfətləri ilə müsəlmanların qarşısına çıxıb kəlmeyi-şəhadəti deyib müsəlmanlığı qəbul etdiklərini bildirdilər. Müsəlmanlar onları çox sevinclə sakitləşdirib, böyük ehtiramla oradan geri qayıtdılar. Bu xəbəri eşidən daşnaklar isə bütün qəzetlərə müsəlmanların zor və hədə-qorxu ilə erməniləri müsəlmanlığa döndərdiklərini yaydılar. Hətta İrəvan qubernatoru Əlixanov çoxlu kazak götürüb, qoşunla Badamlı kəndinə gəldi və erməniləri müsəlmanlardan qorumağa söz verdi. Lakin kənd sakinləri ona könüllü olaraq, öz razılıqları ilə islam dinini qəbul etdiklərini bildirdilər. Bu cavabı eşidən Əlixanov camaata heç bir söz demədən geri qayıdıb getdi. [3,s.17]

1905-ci il mayın sonunda İrəvanda qanlı toqquşmalar baş verdi, şəhərdə erməni quldurlarına qarşı azərbaycanlı əhalisi tərəfindən əməlli-başlı sipərlər düzəldilmişdi. Mir Möhsün Nəvvabın sözlərinə görə Daşnaksütyunun nümayəndələri "ən son zamankı hərbi silahla silahlanmışdılar". [3,s.15] Millətimizin igid oğulları böyük cəsarət göstərərək, ermənilərin silahlanmış dəstələrinə tab gətirib, müqavimət göstərə bildilər. Buna baxmayaraq, qüvvələr bərabər deyildi, təpədən dırnağacan silahlanmış erməni daşnak quldurları Yelizavetpol quberniyasında yerləşən 20-dən çox azərbaycan kəndlərini talan edə bildi, hökumət isə heç bir tədbir görmədi. [4,s.29]

1905-ci ilin iyununda Cəbrail və Qaryagin qəzalarında Veysəlli, Divanəli kəndlərini dağıtdılar. Divanəli kəndinə hücum edən ermənilər kəndi talan edib yandırdılar. Müsəlmanlar da, hərbi qüvvələrinin az olmasına baxmayaraq, onlara qarşı çıxdılar və döyüşdən sonra ermənilər 15 nəfər tələfat verib kənddən çıxmağa məcbur oldular. Qacar kəndində isə əməlli-başlı döyüşlər gedirdi. Bu kəndi mühasirəyə almaq Saqo adlı Zəngəzur komandanına daşnaklar tərəfindən tapşırılmışdı. Bu məqamda kənddə olan azərbaycanlı könüllülər kəndin üç tərəfində səngərlər qazıb ermənilərə müqavimət göstərdilər. Arvad-uşaqlar da evdə davam gətirə bilməyib səngərlərə pənah gətirmişdilər. Altı saat qızğın döyüşlərdən sonra kəndin müdafiə sədlərindən kənar olan 55 ev qarət edilib yandırıldı. Müsəlmanlara mal zərəri 90 minə qədər olub, can tələfatı isə 12 nəfər olmuşdur. Müsəlmanlar yaylağa köçdüklərinə görə iki qışlaq dağılmışdır. [4,s.42]

Bu zamanın qanlı hadisələri 1905-ci ilin avqust ayında yenidən başlandı. Çar məmurları nəhayət ki, vəziyətin nəzarət altından çıxmasını və bunun ciddi təhlükə yaratdığını dərk etməyə başladılar və fevralın 20-də Qafqaz canişini İ.İ.Voronsov-Daşkovun sədrliyi ilə Tiflisdə erməni-müsəlman barışdırıcı qurultayı çağırıldı. Bu qurultayda iştirak edən Azərbaycanın görkəmli ictimai hadimləri Ə.M.Topçubaşov, Ə.Ağayev, İ.Ziyadxanov, İ.Hacıyev, Q.Qarabəyov kütləvi qırğınların və iğtişaşların qızışdırılmasında ilk növbədə Daşnaksutyun başda olmaqla erməni təşkilatlarını günahlandırdılar. Əhməd bəy Ağayevin sözlərinə görə bu təşkilatların silahlandırılmasına hökumət orqanları barmağarası baxırdılar. [ 6, 23 fevral, 5-6 mart]

Ermənilər isə məşhur Xatisov qardaşları başda olmaqla, azərbaycanlılara qarşı ittiham irəli sürmədilər, lakin onlara dəyən maddi ziyanın ödənilməsini tələb etdilər. Hadisələrin əsas günahkarları isə çar hökumətini elan etdilər. Bununla yanaşı, A.Xatisov bəyan etdi ki, yaranmış özbaşnalıq və hakim orqanların qarətlərə və qətllərə yolvermə şəraitində hesab edir ki, ermənilərin təhlükəsizliyini təmin etmək üçün Daşnaksutyun partiyasına müraciət etmək daha məqsədəuyğundur. [6, 2 mart]

Buna cavab verən azərbaycanlı nümayyəndə Adil xan Ziyadxanov elan etdi ki, əgər Daşnaksütyun öz silahlı qüvvələrini buraxmayacaqsa, müsəlmanlar da öz hərbi dəstələrini yaratmağa məcbur olacaqlar, bu isə o deməkdir ki, gələcək qanlı toqquşmalar qaçılmazdır və çiçəklənən Qafqaz qanlı sellər altında qalacaq. [9,1906,28 fevral]

Qurultay Qafqaz canişini yanında hər iki milləti təmsil edən nüfuzlu və etibarlı nümayəndələrdən ibarət barışdırıcı komitələrin yaradılması barəsində qərar qəbul etdi. Lakin bu komitələrə öz nümayəndələrini göndərməkdən imtina edən Bakı və Yelizavetpol erməni icmalarının günahından onların fəaliyyəti başlamamış dayandırıldı.

1906-cı ilin qış, yaz və yay aylarında Şuşada və bütün Qarabağda da qanlı hadisələr baş verdi. Burada ən çox zərər çəkən silahlanmayan və ən az müdafiə olunan Azərbaycan əhalisi oldu. Daşnak silahlanmış dəstələrin – xumbaların başçılığı ilə ermənilər elə dəhşətli vəhşiliklər törədirdilər ki, bunu hətta erməni qəzetləri də təsdiq etməyə məcbur oldular. Belə ki, "Kaspi" qəzetində yerləşdirilmiş və ermənilərin "Nor-Xosk" qəzetindən götürülmüş məqalədə Zəngəzur qəzasından Ordubada minlərlə müsəlman qaçqınların gəlməsi haqqında məlumat yerləşdirilmişdir. "Bu bədbəxtlər olduqca zəifdirlər və cır-cındır paltarda soyuqdan əsirlər, bu səbəbdən onlarda artıq insan sifəti qalmayıb: onların dəhşətli görkəmi insana çox pis təsir edir və aydındır ki, müsəlmanların qara camaatını çox qıcıqlandırır". Yalnız Zəngəzurda 11 kənd qarət edilib, məhv olunmuşdu, onların üçünün – Karxana, Soldaş və Mehirli kəndlərinin əhalizi bütövlüklə qətlə yetirilmişdi. [9,1906,12 sent.]

Şuşa camaatının vəziyyəti də həddindən artıq ağır idi. Onların bir çoxunun qırğınlarda məhv olunmasından savayı, Şuşanın azərbaycanlı əhalisi başqa rayonlardan bütün yolları tutmuş erməni quldur dəstələri tərəfindən əlaqəsi kəsilmişdi. Şuşada aclıq başlandı, ölüm hadisələri var idi.[8,1906,3 yanvar] Şuşalıların köməyinə ərzaqla göndərilmiş kazak dəstələri ermənilər tərəfindən qarət olunmuşdu, kazak komandirləri isə buna göz yummuşdu. Malıbəyli kəndi dağıdılmışdı, kazakların gözü önündə qadın və uşaqlar qətlə yetirilmişdi. Doktor Kərim bəy Mehmandarovun və Azərbaycan silahlı dəstəsinə başçılıq edən Nəcəf Qulu Cavanşirin evləri yandırılmışdı. [5,s.172] Tərtər düzündə Şuşa qəza rəisi Pivovarovun köməkliyi ilə Umudlu kəndinin bütün əhalisi daşnaklar tərəfindən vəhşicəsinə qətlə yetirilmişdi. Bu cinayət də başqaları kimi cəzasız qalmışdı.

Vəziyyətin "sakitləşdirilməsi" üçün Şuşa və Zəngəzur qəzalarına general Qoloşapovun komandanlığı ilə böyük artilleriya dəstəsi göndərildi. 1906-cı ilin yanvarın 14-də Qoloşapov Şuşaya gəldi və sülhün bağlanması məqsədi ilə erməni-müsəlman nümayəndə heyətini qəbul etdi. Lakin Qoloşapovun "sülhməramlı" missiyasına baxmayaraq, azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı. 1906-cı ilin yazında erməni-müsəlman toqquşmaları yenidən başlandı. Rus əsgərləri ya ermənilərə kömək edir, ya da toqquşmalara heç qarışmırdılar. Kazakların belə davranışından istifadə edən erməni dəstələri çox zaman onların köməkliyi ilə Azərbaycan kəndlərinə hücum edib, mal-qaranı oğurlayıb, qarətçilik edirdilər. Şuşadan və Gəncədən demək olar ki, hər gün Bakıya və Tiflisə general Qoloşapovu vəzifəsindən çıxarıb, onun yerinə başqasını təyin etmək xahişi ilə teleqramlar gəlirdi. H.Z.Tağıyevin ünvanına gəlmiş teleqramdan birində deyilirdi ki,"Nə vaxta qədər ki, Qoloşapov Şuşadadır, burada sakitçiliyi gözləmək olmaz". [9,1906,18 uyin]

1906-cı ilin iyulunda Şuşada yenə də qırğınlar başladı. General Qoloşapovun, onun dəftərxanasının rəisi Kleşinski və kazak zabiti Qazarovun iştirakı ilə azərbaycanlılar kütləvi qətlə yetirildilər. Qazarovun köməkliyi ilə Daşnaksütyunun dəstələri azərbaycanlıların əlindən böyük ərzaq yüklərini aldılar. [2, f.231, siy.1, iş 59, v.155]

İyulun sonunda Tiflisə başda Şeyxül islam olmaqla Azərbaycan nümayəndə heyəti gəldi və canişin qabağında Qoloşapovun geriyə çağırılması barədə vəsatət qaldırdı. Bu xahişə cavab olaraq canişinin dəftərxana rəisi həyasızcasına bəyan etdi ki, Qoloşapov heç yerə çağırılmayacaq, cəzalanma isə "çəkişmələrin tamamilə başa çatmasına qədər davam edəcək". Hakim dairələrin onlara belə münasibəti azərbaycanlıların səbr kasasını doldurdu və artıq ziyalı təbəqə də başa düşdü ki, sülh yolu ilə öz xalqının həyatını və əmlakını qorumaq mümkün olmayacaq. Məhz bundan sonra başda Əhməd bəy Ağayev olmaqla Azərbaycan ictimai xadimləri döyüşə qadir olan "Difai" təşkilatının yaradılması barədə qərar qəbul etdilər.

Bütün bu hadisələrdə hakimiyyət özünün tamamilə bacarıqsızlığını, bəzi hallarda isə təxribatçı xarakter daşıyan təkəbbürlüyünü nümayiş etdirdi. Bakıda azərbaycanlılara qarşı "xeyirxahlıq" nüma-

yiş etdirən general-qubernator knyaz Nakaşidze daşnaklar tərəfindən öldürüldü. Şuşada isə özünün ermənipərəst hərəkətləri ilə özünə ölüm hökmü oxuyan general Qoloşapov oldu, Difai partiyasının fəalları onu Tiflisdə qətlə yetirdilər. Bu hadisədən sonra çar hakimiyyəti millətlərarası toqquşmalarda bilavasitə iştirak etməkdən boyun qaçırdırdılar.

Beləliklə, qısa şəkildə nəzər saldığımız bu qanlı illər ərzində Azərbaycan xalqı ağır sınaqlardan keçmişdir. Görkəmli ictimai hadim Q.Qarabəyovun sözləri ilə desək, "müsəlmanlar öz sadəlövhlüyü ilə əsl müharibə gözləmədən, hər yerdə qəflətən hərbi hücumlara məruz qaldılar və onların yaxşı təşkilatlanmış daşnak orduları tərəfindən tamamilə məhv olunmaması yalnız xalqımızın təbiətindən gələn hərbi əməliyyatlara bacarığından irəli gəlir". [2, f.276,siy.8, i.217, v.58] Bu sözlərin nə dərəcədə doğru olduğunu faktlar göstərir, harada ki, mümkün idi, bütün imkanlardan istifadə edərək, xalqımızın qəhrəman övladları quldur erməni dəstələrinə müqavimət göstərir, onları geri çəkilməyə məcbur edirdilər.

### MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. ARDTA (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi)
2. ARPİİSSA (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi)
3. Nəvvab Mir Möhsün. «1905—1906-cı illərdə erməni-müsəlman davası». Bakı: Azərbaycan, 1993
4. Ordubadi Məmməd Səid. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: Qafqaz, 2007
5. Багирова И.С.политические партии и организации Азербайджана в начале XX века. Баку: Элм, 1997
6. Баку, 1906
7. Всеподданейший отчет о произведенной в 1905 году по Высочайшему повелению Сенатором Кузминским ревизии г. Баку и Бакинской губернии. СПб, 1905
8. ГАРФ ДП ОО (Rusiya Federasiyası Dövlət Arxivi, Polis Departamentinin Xüsusi Şöbəsi)
9. Каспий, 1905, 1906

### MASSACRES AGAINST AZERBAIJANIS IN BAKU, NAKHCHIVAN AND KARABAKH IN 1905-1906
### SUMMARY

Start of the Armenian-Azerbaijani conflict on a national basis was laid during the revolutionary events that have unfolded in the Russian Empire in 1905. A bloody interethnic clashes had started with the immigration policy of tsarist Russia. The Armenian nationalism's centers were the church and political parties. The most suitable territories to implement the idea of "Great Armenia" for them was the South Caucasus and especially the Northern Azerbaijan. The bloody events began here in February 1905 and continued until the end of 1906. This massacres were not limited to Baku and Absheron peninsula and spread to the whole territory of Azerbaijan by taking the most terrible form in Nakhchivan, Zangezur, Karabakh and Ganja. These bloody events have been covered in this article.

### МАССОВАЯ РЕЗНЯ АЗЕРБАЙДЖАНЦЕВ В 1905-1906 ГОДАХ В БАКУ, НАХЧЫВАНЕ И КАРАБАХЕ
### РЕЗЮМЕ

Начало армяно-азербайджанскому конфликту на национальной почве было положено во время революционных событий, развернувшихся в Российской империи в 1905 году. Начало кровавым межнациональным столкновениям положила переселенческая политика царской России. Центрами армянского национализма являлись церковь и политические партии. Для реализации идеи «Великой Армении» для них тогда самыми подходящими территориями был Южный Кавказ и особенно Северный Азербайджан. Здесь кровавые события начались в феврале 1905 года и продолжились до конца 1906 года. Эта резня не ограничилась Баку и Апшероном, а распространилась на всю территорию Азербайджана, приняв наиболее страшные формы в Нахчыване, Зангезуре, Гяндже и Карабахе. Именно эти события получили освещение в данной статье.

*T.ü.e.d.* **Qasım HACIYEV**
*AMEA Tarix İnstitutu «Qarabağ tarixi» şöbəsinin müdiri.*

# ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASININ QARABAĞ REGiONUNDA TÖRƏTDİYİ SOYQIRIMLAR (1988-1994)

**Açar sözlər:** Azərbaycan Respublikası, Qarabağ regionu, Qaradağlı, Cəmilli, Meşəli, Xocalı, Ağdaban.
**Key words:** the Republic of Azerbaijan, Garabagh region, Garadaghli, Jamilli, Meshali, Khojaly, Aghdaban
**Ключевые слова:** Азербайджанская Республика, Карабахский регион, Гарадаглы, Джемилли, Мешели, Ходжали, Агдабан.

Dünyada, o cümlədən keçmiş SSRİ-də XX əsrin 80-ci illərinin sonunda baş verən siyasi-iqtisadi proseslər nəticəsində "sosializm sistemi" iflasa uğradı. SSRİ dünyada oynamaq istədiyi hegemon rolunu itirməyə başladı. Bir sıra amillərlə yanaşı, Sovet imperiyasına qarşı milli azadlıq hərəkatı Sovet İttifaqının dağılmasını sürətləndirdi. Azərbaycan xalqı çox ağır itkilər hesabına öz dövlət müstəqilliyini bərpa etdi. Lakin, müstəqil milli dövlət quruculuğu dövrünə qədəm qoyan Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qaldı. Belə ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı Dağlıq Qarabağla bağlı əsassız ərazi iddiaları yenidən baş qaldırdı.

Dövlət səviyyəsində terror və separatizm siyasəti yeridən mövqeyində dayanan Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin özünə işğal yolu ilə birləşdirmək münaqişənin kəskinləşməsinə səbəb oldu. Ermənistan Azərbaycan Respublikası ərazisinə RF-nın hərbi yardımı silahlı qüvvələrinin yeridərək açıq təcavüzə başladı. Keçmiş SSRİ-dən Rusiya Federasiyasına miras qalmış hərbi texnika və hərbçilərin Ermənistan Respublikası hərbi qüvvələri ilə birgə Azərbaycan Respublikasının əraziləri zəbt etməklə, daimi sakinlərini sıxışdırıb qovmaq, yaxud məhv etməklə Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirmək üçün konkret addımlar atmağa başladı.

1991-ci ilin payızında Rusiya Federasiyası və Ermənistan Respublikası arasında bağlanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqında" müqavilə onların bu istəklərini reallaşdırmağa şərait yaratdı. Bu müqavilə Rusiya Federasiyasına Dağlıq Qarabağda yaşayan erməniləri Azərbaycan Respublikasına qarşı açıq-aşkar silahlandırmaq imkanı verdi. 1991-ci ilin noyabr ayının 20-də içərisində Azərbaycan Respublikasının dövlət və hökumət rəhbərliyində olan şəxslərlə bərabər, SSRİ Müdafiə Nazirliyinin, Rusiya Federasiyası və Qazaxıstan Respublikası müşahidəçilərinin olduğu vertolyot, Xocavənd rayonu Qarakənd kəndi səmasında erməni terrorçularının açdığı atəşlə məhv edildi. Bu terror aktı nəticəsində 22 nəfər, o cümlədən Azərbaycan Respublikasının dövlət xadimləri faciəli şəkildə həlak oldu [4].

Ermənistan Respublikası ABŞ, RF və Avropa ölkələrinin, o cümlədən bu ölkələrdə yaşayan erməni diasporlarının hərtərəfli yardımına əsaslanaraq Azərbaycan Respublikasına qarşı hərtərəfli – ideoloji, siyasi və hərbi əməliyyatlara başladı. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kiçik məntəqələri rus-erməni birgə işğalına məruz qaldı. Onlar XIX-XX əsrlərdə bu ərazilərdə coğrafi şəraitinə görə hər tərəfdən erməni kəndləri ilə əhatə olunmuş azərbaycanlılar yaşayan kəndləri birinci növbədə işğal edirdilər. Təkcə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin başlandığı vaxtdan 1991-ci ilin noyabr ayına qədər ermənilərin azərbaycanlılara qarşı hücumu ilə 2559 toqquşma, 318 silahlı basqın, 1388 atəşə tutma halları baş vermiş, bu zaman 1318 nəfər yaralanmışdır.

Ermənistan Respublikasının işğalçı hücumları deportasiya və soyqırımları ilə müşahidə edildi. Ermənistan adlanan Respublika ərazisindən 150 min azərbaycanlı deportasiya olundu.

Ermənistan hərbi qüvvələri Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində 1991-ci ilin oktyabrından 1992-ci ilin yanvarınadək Cəmilli, Meşəli kəndlərini, Kərkicahan qəsəbəsini, Ağdərə rayonunun İmarət Qərvənd kəndini, Xocavənd rayonunun Axullu və Salakətin kəndlərini işğal etdi. Meşəli kəndinin könüllü döyüşçülərinin müqavimət göstərməsinə baxmayaraq, ermənilər kəndi yerlə yeksan etmiş, dinc sakinlərdən 27 nəfəri öldürmüş, 15 nəfərdən çox adamı isə ağır yaralamışdılar. Öldürülənlər arasında azyaşlı, məktəbli və 75 yaşlı qoca da var idi. Onların 11 nəfərinin meyidi yandırılmışdı.

1992-ci il yanvarın 21-də erməni hərbiçiləri Qaybalı kəndini zəbt edib yandırdılar. Onlar fevralın 12-də beş aya yaxın mühasirədə saxladıqları Quşçular və Malıbəyli kəndlərini işğal etdilər. Bu zaman 28 nəfər azərbaycanlı öldürülmüş, 39 nəfəri ağır yaralanmışdı. Fevralın 17-də isə erməni hərbiçiləri strateji əhəmiyyətli ərazidə yerləşən Xocavənd rayonunun Qaradağlı kəndini işğal etdilər. Erməni işğalçıları Qaradağlı kəndinin 92 nəfər müdafiəçisini, 54 nəfər dinc sakinini öldürdülər, 117 nəfərini girov götürdülər və onlardan 77 nəfərini qətlə yetirdilər, 6 nəfəri diri-diri yandırdılar.

Ermənilər azərbaycanlıların yaşayış məntəqələrini daim nəzarətdə saxlamaqla onların mövqeyini zəiflədib, zəbt etməklə işğal planlarını reallaşdırmağa çalışırdılar. Aran və dağlıq Qarabağ arasında strateji əhəmiyyətə malik, Azərbaycanın qədim insan yaşayış məskəni, tarixi abidələrlə zəngin Xocalı şəhərinə ermənilərin ilk irimiqyaslı hücumu 1988-ci il sentyabrın 18-də olmuşdu. Həmin gün Xankəndidəki nümayişdən çıxan 5 minə qədər erməni Xocalıya hücum etmişdilər. Xocalılar bu hücumun qarşısını mərdliklə almışdılar [8,96].

Xocalıların silahsız olduğunu bilən ermənilər rus ordusundan götürdükləri müxtəlif növ silahlarla tez-tez Xocalını atəşə tutur, evləri yandırır, dinc əhalini, qoca, qadın və uşaqları qətlə yetirirdilər. 1991-ci il sentyabrın 10-da erməni hərbiçiləri Daşbulaq kəndi istiqamətindən Xocalını avtomat və pulemyotlardan, "Alazan" tipli raketlərdən atəşə tutmuşdular. Bir saata yaxın çəkən aramsız atəş nəticəsində şəhər sakinlərindən biri ölmüş, ikisi uşaq olmaqla altısı ağır yaralanmışdı. Xeyli sayda ictimai binalar, yaşayış evləri dağıdılmışdı. Bu hücumdan şirniklənən ermənilər sentyabr ayının əvvəllərində 10 nəfər azərbaycanlını öldürmüş, 21 nəfəri isə ağır yaralamışdılar.

Həmin dövrdə Xocalını əhatə edən, ermənilər yaşayan kəndlərdə - Daşbulaq, Mehdikənd, Ballıca, Pirəməki, Noraguğ və Mirzəcanda ermənilərin 515 nəfər canlı qüvvəsi, 3 "Alazan" raket qurğusu, 10 ədəd zirehli transpartyoru, 3 ədəd PDM və bir neçə tankı var idi. Ermənistan hərbi qüvvələri isə Xankəndidə və Əsgəranda yerləşərək məqam gözləyirilər. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələrindən əlavə bütünlüklə Dağlıq Qarabağda 7 min nəfərlik erməni separatçı və muzdlu döyüşçülər var idi. O dövrdə Xocalının müdafiə qüvvələrinin ixtiyarında az sayda avtomat, bir ədəd top, iki ədəd "Alazan" tipli raket qurğusu olmuşdur [8,96].

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu ilə bütün nəqliyyat yollarını separatçılar iflic vəziyyətə salmışdılar. Erməni hərbiçiləri yanvar-fevral aylarında Xocalı və Şuşaya uçan 7 sərnişin vertolyotunu gülləyə tutması nəticəsində regionda hava əlaqələri də çətinləşmişdi. 1992-i il yanvarın 28-də Şuşa şəhəri səmasında içərisində 44 nəfər dinc azərbaycanlı əhalinin olduğu mülki vertolyotun vurulmasından sonra Xocalı ilə hava əlaqəsi də demək olar ki, tamamilə kəsildi. Bununla da, Xocalı şəhəri blokada şəraitinə düşdü. Beləliklə, işğalçı qüvvələrin hazırladığı planın həyata keçirilmə məqamı yetişdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan qoşunları Rusiya Federasiyasının silahlı qüvvələrinin 366-cı qvardiya motoatıcı alayının köməyi ilə Azərbaycan Respublikasının Xocalı şəhərini yerlə yeksan etdi. Həmin dəhşətli gecə ermənilər nə uşaqlara, nə qocalara, nə də qadınlara aman vermədi. Ermənilərin güllə yağışında yüzlərlə insan məhv oldu. Rəsmi məlumata görə 613 nəfərdən artıq Xocalı sakini məhv edilmiş, 1275-dən artıq dinc sakin girov götürülmüşdür. Soyqırımı zamanı 1000 nəfər dinc sakin müxtəlif dərəcəli yara aldı, 106 qadın, 63 uşaq, 70 qoca öldürüldü. Həddi-buluğa çatmamış 76 gənc oğlan və qız əlil oldu. Əsir düşənlər və meyitlər qeyri-insani hərəkətlərlə təhqir edildi. Onların başı və digər bədən üzvləri kəsildi, başlarının dərisi soyuldu, uşaqların gözləri çıxarıldı, hamilə qadınların qarınları yarıldı. Bütün beynəlxalq normalara zidd olaraq erməni silahlı qüvvələri əsirlərə qarşı qeyri-insani rəftar etdilər. Onlar Cenevrə konvensiyasının bütün maddələrinə, protokollara zidd olaraq dinc sakinlərin yollarını kəsərək işgəncələr verdilər [5,96; 2; 6].

Bu hərbi-siyasi cinayət zamanı 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi, 56 nəfər xüsusi amansızlıq və qəddarlıqla diri-diri yandırıldı.

Dəhşətli cəhətlərdən biri də odur ki, polkovnik Y.Zaviqarovun azərbaycanlılara qarşı amansız rəftarı üçün Rusiya Federasiyasının ordu və siyasi rəhbərliyi nəinki tədbir görmədi, Xocalı soyqırımından bir gün əvvəl gələcək soyqırımın ən fəal təşkilatçısı və əsas icraçısı olan polkovnik Zaviqarova 1992-ci il fevral ayının 24-də saat 21:15-də general rütbəsi verildi.

Xocalı soyqırımı zamanı 366-cı motoatıcı alayın xüsusi şöbəsinin (№ 02270) rəisi olmuş Rusiya Federasiyasının Baş Kəşfiyyat İdarəsinin polkovniki Vladimir Romanoviç Savelyevin məlumatları

daha dəhşətlidir. Xocalıda baş verən hadisələrin ən qaynar yerlərində proseslərin canlı şahidi olmuş polkovnik Xocalı soyqırımı ərəfəsində 366-cı alayda baş verənlər, erməni və rus əsgərlərinin hərəkətləri, Azərbaycandakı ictimai-siyasi vəziyyəti barədə Kremlə, müdafiə nazirliyinə, Baş Kəşfiyyat İdarəsinin (BKİ) generallarına 19 səhfəlik məxfi məlumat – arayış göndərməklə bildirmişdir. V.Savelyev bu alayın azərbaycanlılara qarşı döyüşlərdə iştirakı barədə yazır: ".... Polkovnik V.Zaviqarov və başqa vəzifəli şəxslər Xocalı istiqamətindəki döyüş nöqtələrini ləğv etmək haqqında ordu və dairə komandanlığının rəsmi icazəsilə Xocalı istiqamətində gedən əməliyyatlarda ermənilərlə birləşdi. Nəticədə bir gün ərzində 49 nəfər azərbaycanlı meydanlara yığılıb güllələndi...". [7]

Xocalı soyqırımından sonra ingilis Tomas De Vala verdiyi müsahibəsində Serj Sarkisyan bildirmişdi ki, "Azərbaycanlılar erməniləri yaxşı tanımırdılar. Onlar elə bilirdi ki, biz dinc əhaliyə əl qaldırmarıq, ancaq onlar yanılırdılar. Biz bu steriatipi aradan qaldırdıq... Məhz bu baş verdi" [9,38].

Ümummilli lider Heydər Əliyev bu dəhşətli soyqırımı haqqında demişdir: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir" [3]. Eləcə də Ulu öndər "Bu amansız və qəddar soyqırım aktı, insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu" fikri bu dəhşətli soyqırımının tarixi qiymətini müəyyənləşdirdi.

Xocalı soyqırımının şahidlərindən biri, milliyətcə erməni olan jurnalist Davud Xeyriyan "Xaç uğrunda" kitabında yazır: «Biz Daşbulaq kəndinin yaxınlığında olan bataqlıqlardan yan keçmək üçün meyitlərin üzəri ilə gedirdik. Mən meyitlərin üzəri ilə getmək istəmirdim. Polkovnik Ohanyan mənə işarə etdi ki, mən qorxmayım. «Bu müharibənin qanunlarından biridir», - dedi. Mən irəli addım atdım. Mənim ayaqlarım və fotoaparatım qan içində idi...

Sonuncu maşında mən təxminən 10 yaşında bir qız gördüm. O, alnından və əlindən yaralanmışdı. Qız göyərmişdi, soyuğa və aclığa tab gətirən bu qızcığaz hələ sağ idi. Güclə nəfəs alırdı. Mən bu qızın həyatla mübarizə apardığı gözlərini unuda bilmirəm. Müəyyən vaxtdan sonra bu qızı da «Qaflan»lıların peçində yandıracaqlar. Taqətsiz uzanmış bu qızın barmaqlarının arasından qan gəlirdi, Tiqranyan familiyalı bir əsgər onu qaldırıb meyitlərin içinə atdı» [7].

Ermənilərin bu soyqırım siyasəti yuxarıda şərh etdiklərimizlə bitmədi. 1992-ci il aprelin 7-də Kəlbəcər rayonunun Ağdaban kəndi Ermənistan hərbi qüvvələri tərəfindən dağıdıldı. Kəndin 67 nəfər dinc sakini vəhşicəsinə qətlə yetirildi, o cümlədən 90-100 yaşlı 8 qoca, 2 uşaq, 7 qadın diri-diri yandırıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu soyqırımların dəhşətlərini və mahiyyətini açıqlayaraq demişdir: "Ermənistan şəhər və kəndlərimizi, evlərimizi və müqəddəs yerlərimizi, ulu babalarımızın məzarlarını və məscidlərimizi dağıtmışdır. Onlar hərbi cinayətlər və Xocalıda soyqırımı törətmişlər və orada yüzlərlə mülki şəxs yalnız azərbaycanlı olduğuna görə Ermənistanın silahlı qüvvələri tərəfindən məhv edilmişdir" [1].

Xocalı soyqırımının törədilməsində əsas məqsəd xalqımızın müstəqillik əzmini qırmaq idi. Lakin xalqımız mübarizə əzmini daha da artıraraq düşmənin çirkin niyyətinin həyata keçməsinə imkan vermir. Azərbaycan xalqı, xüsusilə mərd xocalılar bu gün imperiya cəlladlarına, işğalçı Ermənistana, onları məhv edərək susdurmaq istəyən mənfurlara meydan oxuyur, mənfurların iç üzünü açıb ifşa edir. Həm də erməni siyasətbazları kimi "məzlum" donu geymədən, haykıraraq ittiham edirlər.

Beləliklə, qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı soyqırımı kimi faciələri pisləməsinə, bunun yolverilməz olduğunu bildirməsinə baxmayaraq Azərbaycan xalqı Respublikamızın 20% ərazisinin işğalına, 20 min azərbaycanlının ölümünə, 1 milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli - beynəlxalq hüquq müstəvisində, respublikamızın ərazi bütövlüyü çərçivəsində həllini gözləyir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. II c. Oktyabr, 2003 – Fevral, 2004 /Red.: Ramiz Mehdiyev. – Bakı: Azərnəşr. 2009. 432 s.
2. Əziz B. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı, 2008.
3. Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Azərbaycan xalqına müraciəti. 25 fevral 2002-ci il
4. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər (Azərbaycan, ingilis, fransız, ərəb, alman və rus dillərində). Bakı: Təhsil, 2005, 380 s.
5. Məmmədova H.İ. Xocalı: şəhidlər, şahidlər. Bakı, 2003
6. Müslümqızı S. Xocalı nisgili və ya faciəyə gedən yol. Bakı, 2006.
7. Novruzoğlu R. XXI əsr…Dünyanın sonu?.. Azərbaycandan baxış (Dövlətçiliyimiz üçün təhlükə mənbələri), 5 cilddə, II cild. -B., 2005
8. Şükürov M. Xocalı: daş yaddaşım, qan yaddaşım. Bakı: Təknur, 2011, s.96
9. Ваал Т. Черный Сад. Армения и Азербайджан между миром и войной. Москва, 2005. с. 38.


## MASSACRES COMMITTED IN GARABAGH REGION OF THE AZARBAIJAN REPUBLIC BY ARMENIA (1988-1994)
## SUMMARY


Armenia launched ideological, political and military operations against the Azerbaijan Republic. From October 1991 to January 1992, the Jamilli, Meshali villages, the Kerkijahan settlement, the Imarat Garvend village of Aghdere district, Akhullu and Salaketin villages of Khojavend district were occupied by Armenian military forces in Garabagh area.

On the night from February 25 to February 26, 1992, Armenian troops with the help of the 366th infantry regiment of the Russian Federation's armed forces razed the Khojaly town of Azerbaijan Republic to the ground. More than 613 Khojaly residents were killed, more than 1,275 civilians were taken hostages during the genocide. Of these, 106 were women, 63-children, 70- the olds. 8 families were completely annihilated.


## ГЕНОДСИДЫ, УЧИНЕННЫЕ АРМЕНИЕЙ В КАРАБАХСКОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1988-1994)
## РЕЗЮМЕ


Армения начала всестороннюю – идеологическую, политическую и военную операции против Азербайджанской Республики. Военные силы Армении на территории Нагорного Карабаха с октября 1991-го по январь 1992- года оккупировали села Джемилли, Мешели, Ходжали, Гарадаглы, поселок Керкиджахан, село Имарет Гервент Агдеринского района, села Ахуллу и Салакетин Хосавендского района

В ночь с 25-го по 26-е февраля 1992-го года военные силы Армении при помощи 366-го гвардейского мотострелкового полка вооруженных сил Российской Федерации стерли с лица земли город Ходжалы Азербайджанской Республики.

Во время этого геноцида уничтожено более 613-и жителей Ходжалы, взято в заложники более 1275 мирных жителей. Из них 106 – было женшин, 63-детей, 70-стариков. 8 семей было полностью уничтожено.

*Д.и.н.* **Икрам АГАСИЕВ**
*Заведующий сектором «История Дербенда» при отделе «История Кавказа» Института Истории НАН Азербайджана.*

# ПОЗИЦИЯ НЕМЕЦКОГО НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА ВО ВРЕМЯ МАССОВОГО УНИЧТОЖЕНИЯ ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ ДАШНАКАМИ – АРМЯНАМИ 1905 -1918 ГОДАХ

**Açar sözlər:** soyqırım, kolonistlər, Azərbaycanın alman əhalisi, məskunlaşma, Yelenendorf.
**Keywords:** genoside, colonists,German population of Azerbaijan, colonization, Helenendorf.
**Ключевые слова:** геноцид, колонисты, немецкое население Азербайджана, колонизация, Еленендорф.

После подписания Туркменчайского мирного договора в 1828 году, на протяжении всего X1X века российские правители вели целенаправленную политику по переселению армян из Персии и других государств на исконные Азербайджанские территории. Такая политика привела к увеличению численности армян на Южном Кавказ, которых в начале XX века насчитывалось уже 1млн. 300 тысяч : из них 1 млн. составляли мигранты или потомки мигрантов (15,с.61). Искусственное увеличение численности армян создало проблемы для всех народов региона и в первую очередь для азербайджанцев, на землях которых армянские националисты мечтали создать армянское государство. Для осуществления этой сумасбродной идеи, так называемое «армянское национальное движение» не брезговало никакими средствами. Армяне своими врагами считали всех тех, кто выступал против их кровавой политики «высвобождения мест» для будущей «Великой Армении».

Анализ архивных документов периода 1905-1918 гг. дает основание сделать такой вывод, что в рассматриваемый исторический период жертвами армянских националистов наряду с азербайджанцами стали также и другие этнические группы, в том числе и немецкие колонисты. Для справки отметим, что немецкие колонисты поселились в западных районах Азербайджана еще в 1819-ом году и образовали тут 2 колонии – Еленендорф (ныне г.Гёйгёль) и Анненфельд (ныне г. Шамкир). В последующие годы число немецких колоний увеличилось и в начале XX века в Азербайджане насчитывалось 8 немецких колоний, в которых проживало приблизительно 6 тыс. человек.

Начиная с 70-х годов XIX века царское правительство стало проводить политику ограничения «немецкого элемента» в России, и в особенности в приграничных губерниях. Поэтому немецкое население держалось на стороне от действий, которые могли быть расценены как антиправительственные. Неслучайно, в годы армяно–азербайджанского конфликта 1905-1907 гг. немецкие колонисты Кавказа старались занять нейтральную позицию, вели ещё более замкнутый образ жизни, устраняясь по возможности от всякого соприкосновения с окружающим их местным населением. Однако, и такая позиция не спасла немцев от террористических актов армянских националистов, о чем свидетельствуют многочисленные документы относительно 1904-1907 годов (2,8).

В июне, июле, сентябре, декабре 1905 года, когда армянские вооруженные бандформирования совершали нападения на азербайджанские деревни, это настораживало и немецких колонистов, и они неоднократно обращались с просьбой к официальным государственным органам, чтобы те « предприняли нужные меры против армянских преступников» (2, с.35, 104, 150). Террористические акты армянских националистов были направлены не только против простого азербайджанского и немецкого населения, но и против тех представителей государственных властей, которые не только осуждали «армянский терроризм», но и предпринимали попытки искоренить это зло. Например, ярый враг армянских террористов, вице-губернатор Елизаветпольской губернии Андрей Филимонович Андреев был убит армянами в 04 июля 1904 года на своей даче в Гаджикенте. Покойник был похоронен в немецкой колонии Еленендорф, где обер-пастор колонии Маркус Миллер на траурной церемонии говорил о недопусти-

мости терроризма, который забирает жизнь невинных людей. Исполняющий должность Елизаветпольского губернатора генерал – майор Флейшер, тоже немец по национальности, объявил благодарность обер-пастору М.Миллеру и всем колонистам за искреннее сочувствие к трагическому событию, за осуждение действий армянских террористов (1, л.80). Этот жест человеколюбия дорого обошелся немцам-лютеранам: 26 сентября 1905 года обер-пастор всех немецких колоний Южного Кавказа Маркус Миллер был зверски убит в Тифлисе членами армянской партии «Дашнакцутюн» (3, л.15).

Партия «Дашнакцутюн» нуждалась в финансовых средствах для осуществления террористических актов, и члены партии решали эту задачу любыми методами - шантажом, запугиванием деловых людей и вымоганием у них денежных средств. Например, житель колонии Еленендорф Яков Гурр имел завод по производству минеральных вод. На этом заводе наряду с немцами трудились также армяне. Один из работников армянской национальности – агент по продаже Гукасов поддерживал отношения с членами Елизаветпольского филиала террористической партии «Дашнакцутюн» и в июле 1907 года от имени заводского руководства провёл финансовую операцию, по которой завод Я.Гурра оказался должником перед партией «Дашнакцутюн». «За лето 1907 года Я.Гурр получил два письма от Елизаветпольского армянского комитета, где требовалось возвращение, якобы полученного заводом долга» (4, л.45). Из-за отказа Я.Гурра сотрудничать с Дашнакцутюн», армянский комитет приговорил его к смертной казни . Колонист Я.Гурр не пошёл на поводу у вымогателей и 14 августа 1907 года он был застрелен армянскими террористами (4, л.45). Это дерзкое убийство вызвало волну недовольства у немецких колонистов (4, л.45).

Ещё в 1904 году коварно был убит армянином колонист Готлиб Дигель, в 1905 году армяне ранили сына колониста Якова Андриса, находившиеся в винограднике своего отца. В этом же 1905 году армяне открыли огонь по Христиану Имануилу и Генриху Майеру, которые проезжали по шоссе вдоль армянских виноградников: Генрих Майер, раненный, в голову умер. Армянские переселенцы из Персии и Османской империи, которые обосновались в азербайджанском селе Чайкент, 19 июня 1905 года совершили вооруженное нападение на колонию Еленендорф. Возглавляли банду Цатуров и Шакарянц. Как свидетельствуют документы, от выстрелов армян получили ранения жители колонии Роберт Фоттелер, Герман Сейдел и Генрих Гурр. По данному делу щульц колонии написал рапорт (2, л.86). В 1906 году армянином убит «по дороге из своего виноградника колонист Готлиб Фрик (4, л.54). Требованиями об ограждении немецкого населения от насилия армянских террористов колонисты неоднократно обращались к губернским властям (2, л.150).

Как уже отметили, в армяно-азербайджанском конфликте 1905-1907 гг. немцы не принимали участие в вооруженных отрядах ни одной конфликтующей стороны. Немцы как пришлое население, не могло открыто выражать свои истинные эмоции, но непорядочность армян, их скандальность вызывали недоброжелательное отношение к ним немецких колонистов. Ненависть армян к немецким колонистам была связана аполитичностью колонистов и их стремлением к стабильности, что сближало их с азербайджанцами. Кроме того, у армянских террористических организаций раздражение вызывала позиция Германии по так называемому «армянскому вопросу»: в Германии «армянский вопрос» был «непопулярным». Германские политики прекрасно понимали, что так называемое «армянское национальное движение» прокладывает путь для России к будущему захвату земель Османской империи. По этому, кайзер Вильгельм ещё 1902 году отказал армянскому лобби в поддержке, дипломатично сказав, что «ещё не пришло время ставить армянский вопрос на политическую почву»(14, л.51).

О доверительных отношениях между азербайджанцами и немецкими колонистами свидетельствуют попытки как-то помочь азербайджанцам, пострадавшим от рук армянских бандитских формирований. Во время армяно-азербайджанского конфликта 1905-1907 гг. азербайджанские села часто подвергались нападению армянских отрядов. Особенно в этом отношении тяжело было тем селам, которые находились вблизи армянских деревень. Для того, чтобы беречь хоть какую часть своего имущества азербайджанцы оставляли свои вещи на хранения у немецких колонистов. Например, перед очередным нападением армянских банди-

тов в 22 декабря 1905 года жители азербайджанского села Топал-Гасанлы доставляли колонистам, в Еленендорф «целый фургон вещей, ковров, медных котлов, три азиатских мешка, наполненных пшеницей, матрасов, печи и другой домашней утвари» на хранение (5, л.17).

31 декабря 1905 года смотритель над рабочими братьев Фореров – колонист Георг Леглер обратился к приставу 2-ого участка о нападении десяти вооруженных армян на рабочих азербайджанской национальности в количестве 4-х человек. По сведению Г.Леглера армяне отвезли азербайджанцев в сторону села Молла-Джалилли и попытки немцев отбить их у армянских бандитов не дали нужных результатов. По рапорту Г.Леглера видно, что о дальнейшей судьбе этих азербайджанцев – выходцев из Южного Азербайджана ничего неизвестно. Немцы просили представителей официальных властей «найти и наказать бесчинствующих армян» (2, л.150).

В период после 1907 года в России усилилась внутренняя реакция и на этом фоне наблюдалось сравнительное ослабление преступной деятельности армянских дашнакских организаций. Февральская буржуазная революция 1917 года, после которой в России установилась двоевластие, принесла народам империи не только демократические новшества, но и социально-экономический, политический хаос. Армянский террор начался с новой силой. Положение становилось все угрожающим. Зачастили случаи грабежа, убийства немецких колонистов. 11 апреля 1917 года Еленендорфский сельский комиссар получил информацию о возможном нападении армян на колонию (6, л.41). Обстановка как вокруг, так внутри колонии, была очень сложной. В окрестностях Еленендорфа поселились армянские беженцы из Ирана и Турции в количестве около 3000 человек. Кроме того, при населении 2200 человек, в колонии были размешены также 800 беженцев-айсоров и некоторые воинские части, возвращающиеся с Кавказского фронта.

Армяне развернули пропагандистскую работу среди солдат Стрелького полка Кавказской Кавалерийской Дивизии. Из акта, составленного 07 июня 1917 года Еленендорфским сельским комиссаром Христианом Цайзером видно, что «житель г. Баку Агбель Огандоронянц, его жена и солдат Стрелкового полка Рыбалко зашли к сельскому Комиссару и жаловались на татар (азербайджанцев - И.А.), которые будь-то бы нападают на солдат. Когда за ложные сведения их выдворили из здания сельского исполкома, жена Огандоранянца призвала собравшихся солдат «разгромить подвалы немцев, и разбит бочки с вином». Алберт Цайзер и Теодор Гуммель старались успокоить жену Огандоранянца, но она продолжала призывать к погрому немцев»(7, л.13). В акте, составленном Еленендорфским Сельским Комиссаром в 27 июня 1917 года говориться о том, что «какой то персидско-поданный Аршак Арутюнов на улице громогласно кричал, что немцы-колонисты, соединившись с татарами (азербайджанцы-И.А.), действуют против русских и армян» и таким образом натравливал солдат на немецких колонистов (7, л.11).

Несмотря на то, что местные жители с уважением относились к военным, «солдаты этой дивизии в колонии Еленендорф вели себя очень непристойно. В результате немецкие колонисты написали жалобу и на ответ решено отправить дивизию в Персию. Недовольные солдаты пригрозили перед отъездом произвести погром всей колонии Еленендорф, «дабы у местных жителей оставить о себе вечную память» (6, л.41,53)

Летом 1917 года численность незаконных армянских отрядов на Южном Кавказе увеличивалась. В обеспечении этих отрядов огнестрельным оружием немалую роль играли разного ранга чиновники армяне из государственных структур. Как видно из архивных документов только в колонии Еленендорф в течение 1914 – 1916 гг. было отобрано оружие у 50 колонистов и это мероприятие осуществлялось под руководством правительственного старшины В.Мелик-Осипяна (9, л.42-48). Анализ наличных документов по данному вопросу показывает, что только часть оружия передана в архив Елизаветпольского уездного управления, а судьба остальной части охотничьего оружия неизвестна (9, л.49.б).

В дни августовского кризиса в России 1917 года, когда генерал Корнилов пытался с помощью армии разогнать Временное правительство и взять власть в свои руки, бесчинство армянских отрядов особенно усилилось. Они совершали разбойные нападения на хозяйства колонистов, пытались прибрать к своим рукам их земли и другое имущество (11, л.21). В

Qarabağ, Naxçıvan, İrəvan və digər Azərbaycan torpaqları kimi 1828-1829-cu illərdə Zəngəzur ərazisinə çar Rusiyasının məqsədli siyasəti nəticəsində Qacarlar İranı və Osmanlı dövlətindən kütləvi şəkildə ermənilər köçürülmüşdü. 1861-ci ildə Zəngəzur qəzası təşkil olunmuşdu. Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda (1867, dekabr) Zəngəzur qəzası (mərkəzi, Gorus) onun tərkibinə daxil edilmişdi. 1917-ci il Qafqaz təqviminin məlumatına görə Zəngəzur qəzasının ərazisi 6742,92 kv. verst idi. Gorusda 2201 nəfər (1193 kişi, 1008 qadın) əhali yaşayırdı. Qəzada 224197 nəfər (112780 kişi, 111417 qadın) qeydə alınmışdı. Onlardan 120 min nəfərini (53, 2%) azərbaycanlılar, 3638 nəfərini kürd müsəlmanlar (1,62% ) təşkil edirdi. Çar Rusiyasının köçürmə siyasəti nəticəsində qəza ərazisində ermənilərin sayı süni şəkildə artırılmışdı. Onlar qəza əhalisinin 44,3%-ni (99,3 min nəfər) təşkil edirdi. Fevral inqilabı (1917) nəticəsində çar hökumətinin devrilməsindən sonra Zəngəzurda məskunlaşmış ermənilər azərbaycanlılara qarşı qırğınlar törətməyə, qəzada say baxımından üstünlüyə nail olmaqla bu torpaqlara yiyələnməyə cəhd etdilər [13, 460].

Erməni-daşnak quldur dəstələrinin 1918-ci ilin mayından 1920-ci ilin aprelinə qədər Zəngəzurda azərbaycanlılara qarşı törətdiyi soyqırımlar daha ağır olmuşdu. Dağlıq bölgədə yerləşən Zəngəzur qəzasının əlaqələri Şuşa qəzası ilə tamamilə, Cəbrayıl qəzası ilə isə qismən kəsilmişdi. Azərbaycan kəndləri erməni kəndlərinin arasında qaldığından bir-birləri ilə yalnız həmin kəndlər vasitəsilə əlaqə saxlaya bilirdilər. Qəzanın müsəlman əhalisinin vəziyyəti Azərbaycanın başqa əyalətlərinə nisbətən bir də ona görə ağır idi ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada Andranikin mütəşəkkil erməni əsgər və zabitlərindən ibarət nizami qoşunları da var idi. Nizami qoşunu və erməni quldur dəstələrini ətrafında cəmləşdirmiş Andranik Ermənistan Respublikası hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxulub, müsəlman əhalidən ya Ermənistan hökumətinə tabe olmağı, ya da guya "Ermənistan Respublikasına daxil olan" bu qəzanın ərazisindən çıxmağı tələb edirdi. Qəzanın, demək olar ki, xarici aləmdən təcrid olunmuş və çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdikdə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətmiş, kütləvi soyqırımlar həyata keçirmişdilər [13, 460].

Cənubi Qafqazda müstəqil respublikalar yaradılandan sonra ermənilərin Zəngəzura qarşı ərazi iddiaları soyqırımlar ilə müşahidə olunmağa başladı. 1918-ci ilin may-avqust aylarında Zəngəzurda Ermənistan Respublikasının azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da genişləndi. An-

dranik və digər erməni-daşnak quldur başçılarının vəhşiliyi nəticəsində Zəngəzur qəzasının azərbaycanlı kəndlərində 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, Zəngəzur qəzasında hər iki cinsdən olan 10068 nəfər öldürülmüş və ya şikəst edilmişdi [13, 460]. ATASE arxiv sənədlərinə görə Qafqaz cəbhəsinin komandanı Mehmet Vehip paşa 1918-ci il mayın 15-də qoşuna Arpaçayı sərhəddinə qədər irəliləmək əmrini vermişdi. Yaqub Şevki paşa*Gümrü-Culfa dəmiryolunun ələ keçirilməsinin mümkün olduğunu və eyni zamanda da Gürcüstanı dəmiryoluna hakimiyyəti Osmanlı dövlətinə verilməsi məsələsinə razı salmaq üçün Gümrünün də işğal edilməsinin lazım olduğunu düşünürdü. Osmanlı qüvvələrinin 1918-ci il mayın 15-də başlayan yürüşünün nəticəsi olaraq Gümrü qalasının komendantı polkovnik Kikoyeviç ağ bayraq qaldıraraq görüş istəmiş, şəhəri təslim etmələrinin qarşılığında şəhəri boşaltmaq üçün zaman istəmişdi. Mayın 16-da şəhər təslim edilmiş, Nazarbəyovun başçılığı ilə 6 minə yaxın erməni və rus əsgəri şərq və cənub istiqamətində qaçmışdılar [bax: 19, 53-54].

İrəvan, Gəncə, Tiflis və Qarsa gedən stratejik yolların qovuşuğunda yerləşən **Qarakilsənin** ələ keçirilməsi Osmanlı ordusu üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki Gümrüdən geri çəkilən erməni hərbi qüvvələrinin böyük bir qismi 60 km şərqdə yerləşən Qarakilsəyə cəmləşmişdi. Buna görə də, onların öz müdafiəsini möhkəmləndirməsinə fürsət vermədən onların dağıdılması, mümkün olduğu təqdirdə məhv edilməsi III Ordu Komandanlığı tərəfindən qrup komandiri Yaqub Şevki Paşaya əmr edilmişdir [2]. Bu əmrə əsasən 1918-ci il mayın 20-dən etibarən I və II Qafqaz Nizami Orduları Qarakilsə, Sərdarabad, Tiflis və İrəvan istiqamətində hücuma başladı.

1918-ci il mayın 26-da XI Qafqaz bölüyünə bütün qüvvələri cəmləşdirib Qarakilsəni ələ keçirmək əmri verildi. Lakin Qarakilsəni ermənilərdən azad etmək mümkün olmadı. Buna görə də Yaqub Şevki paşa Kazım Qarabəkir paşanı Qarakilsəni erməni dəstələrindən azad etmək üçün köməyə göndərdi. Kazım Qarabəkir paşa köməyə gəldikdən sonra Osmanlı qüvvələri mayın 28-də təkrar hücuma keçdilər və Qarakilsəni ələ keçirdilər. ATASE arxiv sənədlərinin məlumatına görə Qarakilsədə olan 4000 nəfərə qədər erməni ordusu geri çəkilməyə məcbur oldu....Qarakilsədən qaçan Andranik və onun dəstəsi Sərdarabad və Zəngəzur bölgəsində müsəlman əhalini qətl etməyə başladı [Bax: 19, 55].

Beləliklə, 1918-ci ilin yayında Zəngəzurda türk-müsəlman əhalisinin soyqırımı quldur Andranikin bölgəyə gəlməsi ilə pik nöqtəyə çatdı. Cənubi Azərbaycanda, Naxçıvanda və Ordubadda kütləvi qırğınların bilavasitə təşkilatçısı olan bu quldurun dəstələri öz qara əməllərini bu dəfə Zəngəzurda, silahsız Azərbaycan kəndlilərinə qarşı davam etdirməyə başladılar [15, 16]. 1918-ci ilin yayında Zəngəzurun hüdudlarına soxulan erməni quldurу dinc türk-müsəlman əhaliyə qarşı amansız tədbirlər həyata keçirilməyə başladı. Andranik və onun quldur dəstəsinin buradakı vəhşilikləri haqqında ATASE arxivinin Birinci Dünya Harbi (BDH) və İstiklal Savaş Harbi (İSH) fondlarına məxsus sənədlərdə çoxsayda materiallar mövcuddur. Andranik və onun hərbi dəstəsi Qarakilsədən qaçdıqdan sonra Sərdarabad və Zəngəzur bölgəsində müsəlman əhalini qətl etdiyi haqqında Yaqub Şevki paşa da məlumat vermişdir [19, 55]. Andronik Osmanlı ordusunun 12-ci piyada tüməninə məğlub olaraq 1918-ci il iyulun 22-də Naxçıvan və Culfa ətrafına çəkilmişdir[3]. Andranikin burada güclü hücuma hazırlaşdığı və Naxçıvanın türk kəndlərində əhalini məhv etməsi haqqında xəbərlər alındığı üçün onu Naxçıvandan çıxarmaq və bu bölgədə həyata keçirdiyi soyqırımların qarşısını almaq üçün IV Nizami orduya bağlı XI Qafqaz Bölüyü göndərilmişdir. XI Qafqaz Bölüyü 1918-ci il iyulun 19-da Naxçıvan istiqamətində yürüşə başlayaraq 3 min piyada və 6 yüz süvaridən ibarət erməni qüvvələrini məğlub etdi və iyulun 20-də Naxçıvanı ələ keçirdi. Artıq bu bölgədə fəaliyyət göstərməsi imkansız olan Andranik öz qüvvələri ilə şərqə doğru Qarabağ istiqamətinə çəkilmişdir[4].

ATASE arxivinin BDH fonduna məxsus bir sənəddə qeyd olunur ki, *Qarabağ bölgəsinə gələn Andranik buradakı erməniləri türklərə (Azərbaycanlı əhali – red.) qarşı təşkilatlandırmaq üçün fəaliyyətə başlamışdı. O, burada yaşayan erməniləri türk düşmənliyinə qızışdıraraq onları bütünlüklə türklərin üzərinə hücuma keçməyə məcbur edir. Məqsədi bu yolla Qarabağdakı türk əhalini məhv etmək, bu bölgənin tamamilə ermənilərin idarəçiliyinə girməsini reallaşdırmaqdan ibarətdir. Naxçıvandan geri çəkilmək məcburiyyətində qalan Andranik yolu üzərindəki erməniləri də öz bandasına*

*Osmanlı dövlət tərəfindən Cənubi Qafqaza göndərilən XI Ordu Komandanı.

*qoşaraq Qarabağ bölgəsinə böyük bir güc cəmləşdirmək məqsədini güdürdü. Köçməyə tərəddüd edən erməniləri "Osmanlı süngüsü altında məhv olacaqsınız" deyə qorxudaraq təsir etməyə çalışırdı. Andranik Ağdaşın şərq və qərbindəki bütün erməniləri Şuşanın qərbindəki Xankəndinə toplamağa çalışırdı. ... Qarabağ Məntəqəsi Komutanlığından verilən xəbərə görə Andranik eyni zamanda Şuşa və Zəngəzur bölgəsində də erməni əhalini türklərə qarşı hücum etmək üçün qızışdırırdı. Bölgəyə nəzarəti ələ keçirən və Şuşa yolunu nəzarət altında saxlamağa çalışan Andranikin silahlı dəstələri burada yaşayan türkləri bütünlüklə məhv etməyə başlamışdı.....Qarabağ Məntəqəsi Komutanı yarbay (polkovnik-leytnant – red.) İsmayıl Hakkı paşa*[*]*bölgədəki müsəlman əhalinin hərbi qüvvəsinin yetərli olmadığını, əhali arasında ruh düşkünlüyünün olduğunu, ...Qafqaz İslam Ordusu komandanı Nuru paşaya bildirmişdi. Ayrıca buradakı türklərin mənəviyyatını yüksəltmək ...üçün kiçik də olsa bir birliyin Qarabağa göndərilməsini 9 avqust tarixində Ağdamdan yazdığı raporla Nuru paşadan tələb etmişdi*[8].

ATASE arxivinin BDH fonduna məxsus digər bir sənəddə həmin hadisələr daha ətraflı təsvir edilmişdir. Sənəddə qeyd olunur ki, *Osmanlı hərbi hissələri Abdallar kəndini işğalçı ermənilərdən geri almaq üçün hücuma başlasa da düşmənin burada çox güclü olması səbəbindən bu hücum uğursuz olmuşdur. Ermənilərin Sisyan nahiyəsi və Ağudi kəndində heç bir insanlığın qəbul edə bilməyəcəyi vəhşiliklər və qətliamlar həyata keçirdiyi xəbəri alınmışdır. Şərqi Anadolu və Naxçıvanda ermənilər məsum insanlara qarşı həyata keçirdiyi qeyri-insani hərəkət və vəhşiliklərinin yeni səhnələrini burada göstərmişdilər. İxtiyar qocalar saqqalları yolunaraq öldürülmüş, qadınların döşləri kəsilərək körpələrin ağzına soxulmuş və onlar da insanı dəhşətə gətirəcək bir şəkildə öldürülmüşlər. Qarabağ bölgəsi komandiri polkovnik-leytenant İsmail Hakkı bəy Qafqaz İslam ordusu komandiri Nuru paşadan Qarabağ hərəkatına bir an vaxt itirmədən başlanılmasını, əks təqdirdə ermənilərin bu bölgədəki türk əhalinin hamısını bütünlüklə məhv edəcəyini bildirmişdir* [7].

XI Qafqaz bölüyünün komandiri general-mayor Şevki paşanın Şərq Orduları Qrupu komandanlığına Qarsdan verdiyi 29 avqust 1918-ci il tarixli məlumatında isə Ermənistandan qaçaraq IX bölük qərargahına pənah gətirən iki müsəlmanın ifadəsi əsasında məlumat verilmişdir. Məlumatda Andranikin Zəngəzur ətrafında olan qüvvələri 15 gün əvvəl Arpaçaydan şimalda yerləşən Şərur və Dərələyəz bölgəsinə gəlmiş, oradan isə Keşişkənd, Həsənkənd və Məlikli kəndlərinə keçmişdir. Məlumatın verildiyi zaman Andranikin Həsənkənd kəndində olduğu və bu bölgələrdə yaşayan...erməniləri öz hərbi dəstəsinə qoşması, göstərilən kəndlərdəki müsəlmanlara hər cür zülm və əzab verdikləri bildirilirdi. Şahidlərin ifadəsindən məlum olmuşdur ki, ermənilər müsəlman əhalini evlərindən çıxarıb aclığa məhkum edir, köçmələrinə icazə vermirlər, hətta onlar 30-a qədər kişi yoldaşlarıyla birlikdə Osmanlı dövləti tərəfə qaçarkən Andronikin qüvvələri onların yollarını kəsərək onlara atəş açsalar da onlar xilas olmuşdur. Həmin şahidlər qalan 30 nəfərin başına nə iş gətirildiyindən bixəbərdirlər. Bu şahidlər hətta kəndlərindən çıxmayan və toplu halında olan müsəlmanlara qarşı topdan istifadə edildiyini də söyləmişdilər. Şevki paşa Şərq Orduları Qrupu komandanlığına göndərdiyi teleqramında Zəngəzur bölgəsi ilə bağlı məlumatlarından əlavə Ermənistan dövləti daxilindəki müsəlmanların vəziyyətinin son dərəcə açnacaqlı və qorxunc bir hal aldığını bildirmişdir. O, komandanlığın diqqətinə çatdırırdı ki, ermənilərin bu cür fəaliyyəti nəticəsində bir aydan sonra məmləkətlərində tək bir müsəlmanın sağ buraxılmayacağı, daxildə rahatladıqdan sonra fəaliyyətlərini sərhəddən kənarda davam etdirəcəkləri və bu yolla öz ərazilərini genişləndirmək məqsədi güddükləri aydın olmuşdur [12, 288, 641-642; 16, 296-297].

Həmin dövrə aid digər bir məlumatda Zəngəzurun şimal-qərbində sərhədində yerləşən 12 kəndin ermənilər tərəfindən xarabaya çevrildiyi və əhalisinin məhv edildiyi haqqında məlumat verilmişdir. O cümlədən Qubadlının 9 km-də yerləşən Qurban kəndində erməni əsgərləri tərəfindən 200-dən çox müsəlman əhalinin məhv edilmişdir. Canını qurtara bilənlər isə Dərələyəz tərəflərə üz tutmuşdur[11].

Digər bir sənəddə verilmiş məlumatda qeyd edilir ki, *avqustun sonlarında Andranikin dəstələri və onların qızışdırdığı Qarabağ erməniləri türklərə qarşı hücum və basqınlarını daha da artırmağa başladılar. Avqustun 20-də 60 nəfərlik bir erməni dəstəsi Dantravir (?) ətrafına hücuma keçərək*

---

[*]Osmanlı dövlət hərbi dəmir yolları və limanları baş idarəsinin rəisi

*türklərə aid bütün sürüləri qəsb etmişlər. 18 nəfər jandarma ilə Dantravirin qərbindəki yerli qüvvələrin köməyinə yetişən İzzət Əfəndi burada erməni dəstələri ilə 20 dəqiqəlik vuruşmadan sonra qəsb edilən heyvanları və əşyaları geri qaytarmışdı. Bu döyüşdə beş nəfər itki verən ermənilər Tanif (?) tərəfə çəkilməyə məcbur olmuşdular. 13 sentyabrda 2 pulemyot və 300 nəfərlik piyadadan ibarət başqa bir erməni dəstəsi Zabux cəbhəsindən Abdallar kəndinə hücuma keçmişdir. Bu kəndi müdafiə edən bir bölük əsgər və möhkəmləndirilmiş milis qüvvəsinin iki saatdan artıq sürən döyüşdən sonra iki yaralı verərək Abdallar kəndinin olduğu bölgəni ermənilərə vermək zorunda qalmışdılar. Abdallar kəndini işğal edən ermənilər kənddə olan bütün evləri yandırmışdılar. Ermənilər bundan sonra milislərin çəkildiyi Kərəviz kəndinə hücum etsələr də, milislər tərəfindən geri oturdulmuşlar.. Digər bir erməni dəstəsi isə sentyabrın 14-də gecə yarısı, Kəndlilərin xəbərsiz olmasından istifadə edərək Ağudi adlı iki türk kəndinə hücum etmişdir. Erməni dəstələri adı keçən kəndlərdən 21 kişi, 10 qadın və 6 uşağı vəhşicəsinə öldürmüş, digər kəndliləri isə məcbur şəkildə özləri ilə dağlara götürmüşdülər. Mədət və Sisyan bölgələrinə də hücum edən ermənilər burada yerləşən 5 kəndi viran etmişdilər. Əhalinin çoxunu faciəli şəkildə, görünməmiş işkəncələrlə qətl etmişlər. Ermənilərin bu bölgədə həyata keçirdiyi hücumları nəticəsində Sisyan və Yaylaq bölgəsində yaşayan türklər dəhşət və qorxu içərisində Cəbrayıl və Ağdam istiqamətinə doğru köçməyə başlamışlar*[6].

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycanın yerli qüvvələri tərəfindən Bakı düşmənlərdən azad edildi. Bakı azad edildikdən sonra Nuru paşa təcili olaraq Qarabağ və Zəngəzur bölgəsini erməni silahlılarından qurtarmaq üçün bölgəyə hərbi kömək göndərmişdir. ATASE arxivindən əldə etdiyimiz sənədin məlumatına görə *Qarabağ və Zəngəzur bölgəsində ermənilərin böyük bir qətliama hazırlaşdıqları bəlli olduğundan bu çətin günlərdə Nuru paşa Qarabağa vaxt itirmədən hərbi qüvvə göndərilməsini əmr etdi. Bakı qarnizonunda olan polkovnik-leytenant Cəmil Cahit bəy Qarabağ hərəkatını gerçəkləşdirmək üçün I Azərbaycan bölüyü komandanlığına təyin edildi. Bu qüvvələr sentyabrın 23-də artıq Ağdamda toplanmağa başladılar* [5].

*Bu qüvvələr oktyabrın 7-də Qarabağ bölgəsini erməni zülmündən qurtarmaq üçün irəli hərakata başlamışdılar. ...Cəsarətli bir kişi olan Sultanbəy Sultanov təşkil etdiyi milis qüvvələri ilə Gorus istiqamətində hücuma başlamış və nəticədə oktyabrın 18-də erməniləri Gorusun cənubuna qova bilmişdi* [1].

Lakin ermənilərin Zəngəzur bölgəsində həyata keçirdiyi soyqırımlar yenə də davam etmişdir. Bunu arxiv sənədləri bir daha təsdiqləyir. Almaniya Xarici İşlər Nazirliyinə alman nümayəndələri tərəfindən göndərilən fransız dilində olan bir sənəd 30 iyul 1918-ci il tarixində Andranik tərəfindən Gorusda öz hərbi dəstələrinə verdiyi təlimatlardan ibarətdir [17].

Almaniya Xarici İşlər Nazirliyinə almanların Tiflisdəki nümayəndəliyindən göndərilən 23 sentyabr 1918 il tarixli teleqramda isə erməni quldur dəstəsinin başçısı Andranikin öz bandasına müraciəti, çağırışı haqqında məlumat verilmiş və həmçinin bu məlumatın Əlahəzrət reyxkansler cənab Hertlingin diqqətinə çatdırılması xahiş olunurdu. Burada, həmçinin erməni quldur dəstəsinin başçısı Andranikin Qarabağ və Gorusun Azərbaycan hökumətinə aid olduğunu qəbul etmədiyi üçün dinc türk-müsəlman əhalini məhv etməsi haqqında məlumat verilmişdir [18].

30 noyabr 1918-ci il tarixli rəsmi bir sənədin - Doqquzuncu Ordu komandanlığı tərəfindən göndərilən iki ədəd şifrəli teleqramın məzmunundan bəlli olur ki, ermənilər Zəngəzur və ətrafında türk əhaliyə qarşı yenə də çox qanlı zülm və faciələr həyata keçirmişlər[9].11 dekabr 1918-ci il tarixli digər rəsmi bir sənədin - XV Nizami Ordu Komandanlığından göndərilən şifrəli teleqramın məzmunundan bəlli olur ki, Zəngəzur bölgəsindəki ermənilər Azərbaycan hökumətinə qarşı müharibəyə başlayaraq Naxçıvan ilə Azərbaycan arasındakı yolu ələ keçirməyə çalışırlar [10].

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Zəngəzur qəzasında vəziyyəti sabitləşdirmək, əhalinin müdafiəsini təşkil etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. 1919-cu il yanvarın 13-də Cavanşir, Şuşa və Cəbrayıl qəzaları ilə birgə Zəngəzur qəzasının da daxil olduğu Qarabağ general-qubernatorluğu yaradılmışdı [bax: 13, 460]. Lakin ermənilərin Zəngəzur qəzasının azərbaycanlı əhalisinə qarşı soyqırımları 1919-1920-ci illərdə də davam etdirilmişdir

Bunu ATASE və BOA arxivindən əldə edilən sənədlərdə də izləmək mümkündür. 07 iyul 1919-cu il tarixli məlumatda, "*Azərbaycan ordusunun təqribən 10 gün əvvəl Şuşadakı erməni hərbi birləşmələrini məğlub etdiyi və Gorus istiqamətində öz hücumunu davam etdirdiyi*" xəbəri verilmişdir. 07 iyul 1919-cu il tarixli digər bir məlumatda isə, "*ermənilərin daha çox Zəngəzur, Naxçıvan və Dərələ-*

*yəz bölgəsindəki dinc müsəlman əhalinin silahlarını toplamaq bəhanəsi ilə onlara həddindən ziyadə əzab və işgəncə verdikləri; türk-müsəlmanlara qarşı görünməmiş zülm və hərəkətlər tətbiq edərək onları qətliam etdikləri haqda gizli xəbərlərin alındığı"* qeyd edilmişdir[14].

1919-cu ilin yayına aid digər bir sənəddə *"Azərbaycan Xalq Cümhuriyyətinin hərbi hissələrinin Qarabağ bölgəsinin bir çox yerlərində möhkəmlənməsi, lakin Andranikin 700 piyada, 200 süvaridən ibarət silahlı dəstəsinin Gorus bölgəsində türk-müsəlman əhaliyə qarşı qanlı cinayətlərini davam etdirdiyi; Şahnəzərov adlı digər bir erməni banda başçısının 600 nəfərlik Gəncə alayı, 400 nəfərlik Şuşa alayı, 200 nəfərlik Samsun alayı adlandırdığı silahlı quldur erməni dəstələrinin də Qarabağın müxtəlif yerlərində türk-müsəlman əhaliyə qətliamlar həyata keçirdiyi; Zəngəzur bölgəsində erməni bandalarının fəaliyyətlərini artırdığı, silahsız türk xalqına qarşı amansız qanlı qətliamlar törətdiyi; təkcə Sisyan bölgəsində 500-dən çox dinc sakin – türk-müsəlman əhalinin məhv edildiyi"* haqqında məlumat verilmişdir [1].

Məlum hadisələrin təsiri altında Zəngəzurdan qaçqın düşmüş 50 min nəfər azərbaycanlı Azərbaycanın Cəbrayıl, Şuşa, Cavanşir qəzalarında sığınacaq tapmışdı. Azərbaycan Himayəçilik Nazirliyi tərəfindən Klenevskinin rəhbərliyi altında yaradılmış komissiya yerlərdə qaçqınların vəziyyətini ararşdıraraq geniş məruzə hazırlamışdı. Qeyd etmək lazımdır ki, komissiya üzvləri buna qədər qaçqınların məskunlaşdığı digər bölgələrdə də olmuşdular. Lakin onları Zəngəzur qaçqınlarının vəziyyəti dəhşətə gətirmişdi [15, 40].

Bu sənədlər və faktlar göstərir ki, ***Zəngəzur bölgəsinin*** türk-müsəlman əhalisinə qarşı törədilmiş soyqırımlar, əsasən, erməni-daşnak qulduru Andranikin və Ermənistan rəhbərliyinin bilavasitə göstərişi ilə, bu dövlətin nizami ordu hissələrinin iştirakı ilə həyata keçirilmişdir. ***Zəngəzur bölgəsində*** türk-müsəlman əhaliyə qarşı ermənilərin həyata keçirdiyi soyqırım öz miqyasına, forma və metodlarına görə tarix boyu insanlığa qarşı törədilmiş, yaddan çıxarılması və bağışlanması mümkün olmayan ən qəddar cinayətlərdən biridir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. ATASE, BAF (Barış Antlaşması) Koll, Kutu 1141, D.582. F.1-8.
2. ATASE, BDH (Birinci Dünya Harbi) Koll,Kutu 2919. D.499, F. 3-10.
3. ATASE, BDH Koll, Kutu 3187, H-7. F.3-18, 3-19.
4. ATASE, BDH Koll, Kutu 3789, H-25. F.1-11, 1-12.
5. ATASE, BDH Koll, Kutu 3820, D.12.F.67.
6. ATASE, BDH Koll, Kutu 3822, D.18. F.76.
7. ATASE, BDH Koll, Kutu 3822, D.18. F.77.
8. ATASE, BDH Koll, Kutu 3822, D.25. F.25
9. ATASE, İSH Koll, (İstiklal Savaşı), A.1-2. D.120. F.9.
10. ATASE, İSH Koll, A.1-2. D.142. F.66.
11. ATASE, İSH Koll, A.111. D.126. F.95.
12. Arşiv Belgeleri Ermeni Faaliyyetleri 1914-1918, cilt II, Genelkurmay ATASE ve Genelkurmay Denetleme Başkanlığı Yayınları. Ankara, 2005.
13. Azərbaycan Xalq Cümhuriyyəti Ensklipediyası. II cild. Bakı, 2005.
14. BOA, HR. SYS 2877/23.
15. İsmayılov K. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı, 2014.
16. Məmmədova İ. İrəvan bölgəsində ermənilərin 1918-1920-ci illərdə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı (Türkiyə Cümhuriyyəti ATASE arxivinin sənədləri əsasında) //AMEA Tarix İnstitutunun Elmi Əsərləri, "Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər) mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları, 07-10 2016, Şamaxı şəhəri, xüsusi buraxılış, Bakı 2016, cild 56,57,58, s. 294-302.
17. PAAA, Rußland №97a, R11064, Telegramm. Tiflis, den 23. September 1918.
18. PAAA, Rußland №97a, R11064, Telegramm. Goris, den 30. Juli 1918.
19. Selma Yel. Yakup Şevki Paşa ve Askeri faaliyetleri. Ankara, 2002.

## GENOCIDE COMMITTED BY ARMENIANS AGAINST THE TURKISH-MUSLIM POPULATION OF ZANGEZUR COUNTYIN THE NEW ARCHIVAL DOCUMENTS (1918-1920)

## SUMMARY

The article deals with archival documents proving genocide committed in 1918-1920 by Armenians against the Turkish-Muslim population in Zangezurcounty. It is about a new. These valuable documents are being preserved today in Istanbul, Republic of Turkey in "Bashbakanlig Ottoman Archive" (BOA) and "Genelkurmay Askeri Tarih ve Stratejik Etüt BaşkanlığıArşivi in the city of Ankara. In addition, this kind of information can be observed among the documents which are preserved in "Politischen Archiv den AuswätrigenAmt" (Political Archive of the Ministry of Foreign Affairs) in Berlin, Federative Republic of Germany.

Actual materials gained from the archive prove that as a result of the genocide carried out by the Armenians in 1918-1920 in Azerbaijan, Iran and Eastern Anatolia the tens of thousands of civilians, unarmed Turkish-Muslim population, including children, women, the elderly people were killed mercilessly, with unprecedented cruelty for their ethnic identity.

## ГЕНОЦИД СОВЕРШЕННЫЙ АРМЯНАМИ ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ ЗАНГЕЗУРСКОЕ УЕЗДЪАВ НОВЫХ АРХИВНЫХ ДОКУМЕНТАХ (1918-1920)

## РЕЗЮМЕ

В статье рассказывается о новых архивных документах, доказывающих осуществление армянами в 1918-1920 годах акций геноцида тюрко-мусульманского населения **Зангезурское уездъа.** Эти ценные документы хранятся ныне в архивах Турецкой Республики – ***Başbakanlıq Osmanlı Arşivi*** (BOA) в городе Стамбуле и ***Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı Arşivi***, расположенном в городе Анкаре. Кроме того, соответствующие сведения можно обнаружить и в ***Politischen Archiv den Auswätrigen Amt*** - располагающемся в Берлине Политическом архиве Министерства иностранных дел Федеративной Республики Германия.

Фактический материал, содержащийся в документах вышеуказанных архивов, подтверждает, что в результате учиненного армянами в 1918-1920 годах геноцида были самыми жестокими, бесчеловечными, невиданными в истории методами уничтожены десятки тысяч представителей мирного тюрко-мусульманского населения, включая детей, женщин, стариков.

*A.e.i., t.ü.f.d.* **Kamran İSMAYILOV**
*AMEA Tarix İnstitutunun*
*"Azərbaycanın Xalq Cümhuriyyəti" şöbəsi.*

# 1918-ci İLDƏ LƏNKƏRAN BÖLGƏSİNDƏ ERMƏNİ SİLAHLI BİRLƏŞMƏLƏRİNİN CİNAYƏTLƏRİ AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**Açar sözlər:** Azərbaycanlıların soyqırımı, Lənkəran bölgəsi, erməni cinayətləri, bolşevik-daşnak tandemi, separatizm, ərazi bütövlüyü, etno-siyasi proseslər
**Keyswords:** Genocide of Azerbaijanis, Lankaran region, crimes of Armenians, Bolshevik-Dashnak tandem, independence, separatism, territorial integrity, the etnopolitical processes
**Ключевые слова:** Геноцид азербайджанцев, Ленкоранский регион, преступления армян, большевистско-дашнакский тандем, сепаратизм, территориальная целостность, этнополитические процессы

I Dünya müharibəsi və Rusiyada 1917-ci ilin təlatümlü hadisələri Cənubi Qafqazda tamamilə yeni şəraitin yaranmasına gətirib çıxardı. Mövcud şəraiti özlərinin millətçi ideyalarının reallaşdırılması üçün əlverişli hesab edən ermənilər əvvəlcə çarizmin, sonra isə Müvəqqəti hökumətin və bolşeviklərin himayəsindən istifadə edərək sürətlə silahlanmağa başlamış, iri hərbi birləşmələr yaradaraq "Böyük Ermənistan" yaratmaq məqsədilə yerli türk-müsəlman əhalisinə qarşı kütləvi zorakılıqlar və cinayətlər törətmişdilər. Qafqaz cəbhəsinin dağılmasından sonra cəbhəni tərk edən qoşun hissələri Bakıda cəmləşərək buradakı siyasi qüvvələrin məqsədlərinin həyata keçirilməsində əsas vasitəyə çevrilirdilər. Bakıda cəmləşən hərbi hissələrin mütləq əksəriyyətini ermənilər təşkil edirdilər. Erməni əsgər və zabitlərinin çoxu daşnak təbliğatının təsiri altında idi. Beləliklə, 1917-ci ilin sonlarından başlayaraq Bakıda bolşeviklərlə daşnakların siyasi iş birliyi yaranırdı. Eyni zamanda Azərbaycanda milli hərəkatın yüksəlməsi və təşkilatlanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Məhz Azərbaycan milli hərəkatını məhv etmək üçün 1918-ci ilin martında S.Şaumyanın başçılığı və əsasən ermənilərin rəhbərlik etdiyi Bakı Sovetinin və daşnak qoşunlarının iştirakı ilə Bakıda türk-müsəlman əhalisinin soyqırımı təşkil edilmiş, on minlərlə insan yalnız milli və dini mənsubluğuna görə bolşevik və daşnak cinayətinin qurbanı olmuşdu. Azərbaycanlıların soyqırımı Bakıdan başqa Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Erməni-bolşevik vəhşiliklərinin meydanı olmuş bölgələrimiz sırasında Lənkəran-Muğan bölgəsi də var idi. Təəssüf ki, 1918-1919-cu illərdə Lənkəranda baş vermiş prosesləri hərtərəfli və obyektiv öyrənmək üçün həmin dövrə aid nə yerli materiallar, nə də arxiv sənədləri demək olar ki, qalmamışdır. Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının materiallarında da bir epizod istisna olmaqla Lənkəranda müsəlman əhaliyə qarşı kütləvi zorakılıqlar obyektiv səbəblərdən öz əksini tapmamışdır. Çünki komissiyanın fəaliyyət göstərdiyi dövrdə Lənkəran qəzası demək olar ki, Azərbaycan hökumətinin nəzarətindən kənarda olduğundan komissiya üzvlərinin orada materiallar toplamağı mümkün olmamışdır. Ona görə də bölgədə baş vermiş proseslər təhlil edilərkən, əsasən, yardımçı mənbələrdən (dövri mətbuat materiallarından və ARPİİSSA 276 və 456 fondlarında saxlanılan Lənkəran qəzasında hadisələrin iştirakçıları olan insanların xatirələrindən (özü də subyektiv və qələmə alındığı siyasi şəraitin təsiri altında yazılmış xatirələrdən –K.İ.) istifadə etmək lazım gəlir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər indiki Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının ərazisi Lənkəran qəzasına daxil idi. Qəza 5 polis dairəsinə - mərkəzi Lənkəran şəhəri olan Lənkəran, mərkəzi Astara kəndi olan Astara, mərkəzi Lerik kəndi olan Zuvand, mərkəzi Nikolayevka kəndi olan Ərkivan və Mərkəzi Prişib kəndi olan Sebican polis dairələrinə bölünürdü. Polis dairələri bir neçə kənd cəmiyyətini əhatə edirdi. Lənkəran şəhəri Muğanın inzibati mərkəzi olmaqla yanaşı həm də mühüm iqtisadi mərkəzi idi. İranla ticarət əlaqələrində mühüm rol oynayan şəhərin əhalisi getdikcə artmaqda idi. Əsas təsərrüfat sahələri çəltikçilik, pambıqçılıq, bostançılıq, maldarçılıq, meşəçilik və balıqçılıq olan qəza əkinçilik və balıqçılığa görə bütün

Cənubi Qafqazda birinci yeri tuturdu. Qəzada iri sənaye müəssisələri olmasa da, burada sənətkarlığın müxtəlif sahələri inkişaf edir, qəza getdikcə daha geniş şəkildə əmtəə-pul münasibətlərinə cəlb olunurdu (9, s.9-10).

1917-ci il Qafqaz təqviminə görə, qəzanın ərazisi 4726,88 kv. verst idi. Burada yaşayan 185518 nəfər əhalinin 183583 nəfərini yerli sakinlər, 1955 nəfərini müvəqqəti yaşayanlar təşkil edirdi. Qəza əhalisinin 170 min nəfərə yaxını müsəlman idi. Çarizmin köçürmə siyasəti nəticəsində qəza əhalisinin tərkibində rusların sayı artaraq 16206 nəfərə çatmışdı ki, onların da 6974 nəfəri pravoslav, 9232 nəfəri sektant idi. Lənkəran şəhərində 17801 nəfər əhali yaşayırdı (20, c.178-179). Lənkəran qəzası Azərbaycan qəzaları arasında ermənilərin ən az məskunlaşdığı qəzalardan biri idi. 1897-ci ilin məlumatına görə burada cəmi 483 erməni var idi ki, onun da 299-u Lənkəran şəhərində yaşayırdı (27). 1917-ci il Qafqaz təqviminə görə bütün qəzada ermənilərin sayı cəmi 550 nəfər təşkil etmişdi (20, c.178-179). Qəzada erməni əhalisinin azlığı daşnaklara bu bölgə ilə planlarında müəyyən dəyişikliklər etməyə, daha çox qəzada yaşayan rusların separatçı qüvvələri ilə əməkdaşlıq etməyə vadar edirdi.

1917-ci il Fevral inqilabı bütün Azərbaycanda olduğu kimi Lənkəran qəzasında da ictimai-siyasi proseslərin sürətlənməsinə, geniş xalq kütlələrinin siyasi fəallığının artmasına gətirib çıxardı. Yeni hakimiyyət orqanlarının formalaşdırılması istiqamətində mühüm addım 1917-ci il martın 10-da Lənkəran ictimai idarəsinin (bələdiyyəsinin) özünü Lənkəran Müvəqqəti İcraiyyə Komitəsi elan etməsi oldu. Bakı İcraiyyə Komitəsinin qərarı ilə onun iki nümayəndəsi - M.Ə. Rəsulzadə və Kuznetsov Lənkərana gələrək yerli əhali arasında Fevral inqilabından sonra yaranmış vəziyyət haqqında söhbətlər aparmış və qəzada İcraiyyə Komitəsinə seçkiləri təşkil etmişdilər. Sultan bəy Qulubəyov komitənin sədri, Daşdəmirov isə onun müavini seçilmişdi. Lənkəran diyarının bir sıra tanınmış simaları – mülkədar Əsgərxan Talışinski, müəllim Tağıbəy Bayrambəyov, mülkədar Əsədxan Talışinski, molla Həmid Məmmədəli oğlu, çar məmuru Boqoyavlenski və şəhər başçısı Tsaturov, Əliheydər Cavadov, Mirzəli Məmmədov, Cəbrayıl Abbasəliyev, notarius Qantsev, mülkədar Yusifbəy Mehmandarov, tacir Mirzəisabəy Tağıyev, zabit Batalov, Y.İ.Kreyskon İcraiyyə Komitəsinin tərkibinə seçilmişdilər (14, 1917, 28 марта).

Azərbaycan ziyalıları yeni şəraitdə siyasi fəallığını artıraraq müxtəlif ictimai və siyasi təşkilatlar yaratmağa başlamışdılar. Martın 31-də Lənkəran şəhərində keçirilən iclasda ziyalıların "Ümid" adlı cəmiyyəti yaradıldı. Cəmiyyət Lənkəranın hörmətli adamlarından Hacı Tağının evində fəaliyyət göstərirdi. Xeyriyyə cəmiyyətinin sədri Ağa Məmmədəli idi (21, 1917, 30 апреля). Lənkəran şəhərində "Təvəkkür" adlı cəmiyyət də təsis edilmişdi (11, 1917, 30 aprel). 1917-ci ilin aprelində Lənkəran qəzası müəllimlərinin qurultayında "Lənkəran peşəkar müəllimlərinin ittifaqı" yaradıldı. Qurultayda qəzada maarif işini canlandırmaq üçün bir sıra mütərəqqi tələblər irəli sürüldü (9, s.31-32).

Müsəlman əhalisinin mütəşəkkilliyinə nail olmaq, maraqlarını və mənafeyini qorumaq və ona siyasi rəhbərliyi təmin etmək məqsədilə qəzada Müsəlman Milli Şurası da yaradılmışdı. Lənkəran qəzasında Azərbaycan siyasi partiyalarının özəklərinin yaradılması da məhz bu dövrə təsadüf edir. 1917-ci ilin martında Müsavat partiyasının lideri M.Ə.Rəsulzadənin Lənkərana gəlməsi burada həmin partiyanın yerli şöbəsinin yaradılmasında mühüm rol oynadı. Görkəmli Azərbaycan maarifçisi Teymur bəy Bayraməlibəyov Müsavatın Lənkəran şöbəsinin ilk sədri seçilmişdi. Qəzada 1917-ci ilin aprelində Hümmət qrupunun da özəyi yaradılmışdı. Lənkəran gənclərinin siyasi-ictimai fəallığının artması müşahidə olunurdu. "Ümid" təşkilatının işində onlar yaxından iştirak edirdilər ( 9, s.31). Yerli gənclərin iştirakı ilə 1917-ci ilin mayında Lənkəranda "Yeni cavanlar məclisi", iyunda isə "Məzlumlara kömək" adlı xeyriyyə cəmiyyəti yaradıldı. Cəmiyyətin əsas məramı məzlumlara, dul arvadlara, yetimlərə və ehtiyacı olan insanlara maddi və mənəvi yardım göstərmək idi (21, 1917, 24 июня). Gənclərin təşəbbüsü ilə Lənkəran şəhərində bu cəmiyyətlərin nəfinə bir neçə gecə təşkil edilmişdi.

1917-ci il oktyabr-noyabr aylarında 21 nəfərlik Lənkəran şəhər dumasına seçkilər keçirildi. Köhnə seçki sistemi isə keçirilən səslərdə ilk dəfə olaraq azərbaycanlılar siyasi fəallıq göstərərək öz nümayəndələrini yerli özünü idarə orqanına seçdilər.

Fevral inqilabından sonrakı siyasi coşqunluq şəraitində Azərbaycanda yerləşən hərbi hissələrdə əsgər deputatları sovetləri və əsgər komitələri yaranmağa başlanmışdı. Lakin başqa yerlərdən fərqli olaraq 1917-ci ilin martında Lənkəranda yerləşən sərhəd dəstələrində və qarnizon hissələrində sərhədçilər

və əsgərlərin təşkil etdiyi sovetdə rəhbərliyi bolşeviklər deyil, Müvəqqəti hökumətin tərəfdarları olan çar ordusu zabitləri ələ almışdılar. Məsələn, sovetin sədri vəzifəsinə sərhəd qoşunlarının komandiri baron Ostan-Sakenin yavəri kornet Q.Apresov seçilmişdi (21, 1917, 25 марта). Məhz onun razılığı nəticəsində köhnə qəza rəisi Sultanbəy Qulubəyov qəza komissarı təyin edilmişdi (24, c.21).

Sosial-iqtisadi ziddiyyətin kəskinləşməsi, ərzaq böhranı, torpaq məsələsinin həll edilməməsi 1917-ci ilin ikinci yarısından Lənkəran qəzasında sosial hərəkatın, xüsusən kəndlilərin torpaq uğrunda mübarizəsinin güclənməsinə gətirib çıxardı. Kəndli hərəkatının ən radikal forması mülkədar və xəzinə torpaqlarının kəndlilər tərəfindən zəbt edilməsi idi. Qəzanın Ərkivan, Səybatın, Səmədxanlı, Boradigah, Xolmilli, Sebican, Perembel və başqa kəndlərin əhalisi Mehmandarovların, Talışinskilərin və digər mülkədarların torpaqlarını, xəzinə torpaqlarını zorla ələ keçirmiş və əkməyə başlamışdılar. Kəndlilərə qarşı yerli hakimiyyət orqanlarının tətbiq etdiyi tədbirlər bir nəticə vermədiyindən qəza komissarı Bakı qubernatorundan hərbi qüvvə göndərməyi xahiş etmişdi (9, s.34).

Qəzada siyasi münasibətlər mürəkkəb olaraq qalırdı. Vəziyyəti mürəkkəbləşdirən amillərdən biri də rus əhalisinin sürətlə silahlanması idi. Köhnə rejimin ruslaşdırma siyasətinin daşıyıcıları olan bəzi qüvvələr guya müsəlmanların dövlət əleyhinə, xristianlara hücum məqsədilə silahlandıqları haqqında şayiələr yayırdılar. Xüsusən Prişibdə yerləşmiş rus əsgərlərinin yerli müsəlman əhaliyə qarşı azğınlığı daha qanlı xarakter almışdı. Burada 14 müsəlman əsgərlər tərəfindən vəhşicəsinə, tikə-tikə doğranmışdı. Vəziyyət o yerə çatmışdı ki, quberniya komissarı Bakı quberniyasının qoşun rəisindən əhalini sakitləşdirmək üçün tədbirlər görməsini tələb etmiş (21, 1917, 3 сентября), Prişib hadisələrini təhqiq etmək üçün xüsusi komissiya yaradılmışdı (21,1917, 4 октября).

1917-ci ilin Oktyabr çevrilişi Lənkəran qəzasında da yeni siyasi situasiyanın yaranmasına gətirib çıxardı. İnqilabi hadisələrin təsiri altında 1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində burada bolşevik qüvvələri tərəfindən qırmızı qvardiya, milis, partizan dəstələri, nəhayət hərbi-inqilab komitəsi yaradıldı. Qəzada inqilabi hərəkat yerli hökumət idarələrinə qarşı silahlı mübarizəyə çevrildi. Oktyabr çevrilişindən sonra Bakıda fəaliyyət göstərən müxtəlif siyasi qüvvələrin Lənkəran qəzasına diqqəti daha da artmağa başladı. Xüsusən bolşeviklər partiyası qəzanın etnososial tərkibinin geosiyasi əhəmiyyətini nəzərə alaraq buraya öz emissarlarını yollayır, qəzanın rus əhalisi, əsgərlər arasında in-qilabi ideyalar yaymaq üçün xüsusi təbliğat vasitələri, qəzetlər göndərirdilər.

1917-ci liin sonlarında bölgədə vəziyyət xeyli kəskinləşmişdi. Burada sərhədin mühafizəsi ilə məşğul olan dəstələrin və digər hərbi hissələrin təchizat sistemi tamamilə dağıldığından onlar özlərini dolandırmaq üçün müsəlman kəndlərinə hücum etməyə başlamışdılar. Biləsuvar rayonunda poruçik B.Xoşevin komandanlığı altında olan dəstə ətrafında rus kəndlilərinin partizanları cəmləşirdi. Polkovnik İlyaşeviçin dəstəsi bir qədər cənubda sərhədi mühafizə edirdi. Bolşevik mənbələrinin qeyd etdiyi kimi, o təkcə maldar tayfaların (şahsevənlərin – K.İ.) sərhədi keçməsi ilə mübarizə aparmırdı, həm də türk kəndlərini dağıtmaqla məşğul olurdu (17, c.175). Əslində qəzada milli zəmində ilk toqquşmaların məhz bu qüvvələr tərəfindən başlandığını elə xatirə müəllifləri də etiraf edirdilər. Privolnı kənd sakini Donskoy deyirdi ki, ilk döyüş zamanı türk kəndlərini dağıdırdılar və qarət edirdilər. Qarətçilik (rus qoşunları arasında - K.İ.) geniş inkişaf etmişdi, kəndləri yandırır, sonra da hər şeyi yağmalayır, daşıyıb aparırdılar (7, v. 35, 31). Zorakılıqlara və özbaşınalıqlara təkcə Lənkəran qəzasının müsəlmanları məruz qalmırdı. Qonşu Cavad qəzasının əhalisi də ciddi təhlükə altında yaşayırdı. Ona görə də rus birliklərinin (istər nizami qoşun və sərhəd hissələrinin, istərsə də partizan dəstələrinin) hücumlarından qorunmaq üçün azərbaycanlılar özünümüdafiə dəstələri yaratmağa başlamışdılar. Təkcə Salyan rayonunda 2 min nəfərdən ibarət dəstənin yaradıldığı bildirilirdi.

Bolşeviklərin, digər qeyri-müsəlman qüvvələrin fəallaşması, bölgədə rus əsgərlərinin çoxluğu, yerli rus əhalisinin silahlanması Azərbaycan milli qüvvələrini ciddi narahat edirdi. Hakimiyyətin antimilli qüvvələrin əlinə keçməsinin qarşısını almaq üçün onlar 1917-ci ilin sentyabrında "Dikaya Diviziya"nı Lənkəran qəzasına dəvət etməyi vacib bildilər. Bu milli qoşun hissələrinə Əli Əsədullayev və Məhəmməd Tağıyev başçılıq edirdilər. Bundan əlavə qəzanın milli - demokratik qüvvələri yerli könüllülərdən hərbi dəstə - "milli alay" da təşkil etmişdilər. 1917-ci ilin sonlarında yaradılmış bu dəstəyə Sultanbəy Qalabəyov, Aslan bəy Talışinski başçılıq edirdilər. Nəzərə almaq lazımdır ki, həmin dövrdə Zaqafqaziya hakimiyyət orqanlarının qərarına əsasən bütün Cənubi Qafqazda milli hərbi qüvvələrini yaradılması prosesi gedirdi. Bu proses isə bölgədəki rus ordusu hissələrinin və on-

ların silah-sursatı hesabına həyata keçirilə bilərdi. Bunu nəzərə alaraq Lənkəranın milli qüvvələrinin öncüllərindən olan Xanoğlan Talışinski Bakı Komissarından Lənkəranda yerləşən 4-cü və 7-ci sərhəd alaylarının tərk-silah edilməsini və onların silahlarını burada formalaşan milli hərbi dəstələrə verilməsini tələb etmiş, Xüsusi Zaqafqaziya Komitəsi bu tələbi müdafiə etmişdi (24, c.30). "Каспий" qəzetinin yazdığına görə general Fidarov Biləsuvar sahəsinin əhalisinə silah paylanmasına göstəriş vermişdi (21, 1917, 6 декабря).

Lənkəran bölgəsində milli hərbi qüvvələrin yaradılmasında, rus hissələrinin tərk-silah edilməsində Qəza İcraiyyə Komitəsinin sədri S. Qulubəyov böyük rol oynamışdı. Məhz onun təşəbbüsü və milli qoşun hissələrinin iştirakı ilə Astaradakı artilleriya, sərhədçilərə silah daşıyan gəmilər ələ keçirilmişdi. 1918-ci ilin yanvarında "Milyutin" gəmisi (gəmi İranın Ənzəli limanından general N.Baratovun korpusunu evakuasiya edirdi – K.İ. ) ələ keçirilərək 6 pulemyot, 3 min tüfəng, 85 min patron, 10 yeşik bomba müsadirə edilmişdi. (H.Əzimov bu hadisənin 1918-ci ilin yanvarın 19-da, O.Morozova isə gah fevralda, gah da martın əvvəllərində baş verdiyini göstərirlər (10, s.78; 22, c.48, 56). Lənkəran şəhərində Osten-Sakenin "paralel rotası" da tərk-silah edilmişdi. Bütün bu əməliyyatlara Kərimbəy Şahtaxtinski və Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyev başçılıq edirdi (5, v.154). Hərbi üstünlüyü ələ alan milli qüvvələr bir müddət hətta bölgədə əsas siyasi qüvvəyə çevrilmiş, silahlı dəstələrin köməyi ilə Lənkəran hərbi-inqilab komitəsi, Lənkəran və Astara fəhlə və əsgər deputatları soveti ləğv edilmiş, onların yaratdıqları milis dəstələri isə tərk-silah edilmişdi (19, 1918, 28 мая; 18, 1919, 11 февраля). Azərbaycan dəstələri 4-cü və 7-i sərhəd dəstələrini də qan tökmədən tərk-silah etmişdilər (6, v. 101). Lakin milli qüvvələrin Cənubi Muğandakı rus kəndlərində mövcud olan silahlı dəstələri tərk-silah etmək cəhdləri uğursuz alındı. Bolşevik mənbələri Kalininovka kəndi yaxınlığında M.Tağıyevin dəstəsi ilə polkovnik İlyaşeviçin sərhəd dəstəsi arasında döyüşün olması, İlyaşeviçin dəstəsinin qalib gəldiyi haqqında məlumat verirlər (7, v.50-52). 1918-ci ilin qışında İlyaşeviçin dəstəsi guya rus kəndlərinin dağıdılmasını bəhanə gətirərək Bulqar çayı rayonunda hücuma keçmiş və "rus kəndləri ətrafındakı 25km ərazidə onlarla müsəlman kəndini yer üzündən silmişdi" (17, c.194). Baxmayaraq ki, rus kəndlərinə hücum edənlər yerli əhali deyil, İrandan gəlmiş şahsevənlər idi (5, v. 194, 199-202; 7, v. 39; 202, 203, 219- 220; 22, . c.54). İlk vaxtlar onun dəstəsində 500 süngülü və 200-300 qılınclı əsgər var idi.

Antiazərbaycan qüvvələrinin üstünlük qazanmasının əsas səbəblərindən biri bolşevik - daşnak Bakı Sovetinin və Qafqaz Hərbi İnqilab komitəsinin "muğanlılar"a (bu ad altında Muğanın və Lənkəranın rus kəndliləri başa düşülməlidir -K.İ.) silah-sursat və canlı qüvvə ilə kömək göstərmələri oldu (13, 1917, 2 марта). Düzdür, «Vəhşi Diviziya» nın hissələri Cavad qəzasının mərkəzi Salyana qədər gəlib çatsa da, Muğan bölgəsini nəzarətə almaq, xüsusən Qafqazda bolşevizmin əsas yuvası olan Bakını azad etmək planları həyata keçirilmədi. Nəticədə Bakıda və Bakı quberniyasının qəzalarında strateji təşəbbüsü və hərbi üstünlüyü ələ alan erməni - bolşevik qüvvələri Azərbaycan əhalisini soyqırıma məruz qoyaraq hakimiyyətə yiyələndilər.

Bakıda hakimiyyəti ələ keçirmiş Şaumyan və K$^{o}$ üçün Lənkəran qəzası mühüm əhəmiyyət kəsb edirdi. O Azərbaycanın ən mühüm ərzaq rayonlarından biri, Bakının arxası və İranla həmsərhəd rayon idi. Lənkəran vasitəsi ilə Orta Asiya ilə əlaqə yaratmaq mümkün idi, dəniz yolu ilə Sovet Rusiyasından - Həştərxandan buraya mütəmadi hərbi yardım göstərilir, emissarlar, təbliğat vasitələri göndərilirdi. Buna görə də Lənkəranda Sovet hakimiyyətinin qurulması bolşeviklər üçün mühüm siyasi və hərbi vəzifə idi (9, s.45). Hələ Bakıdakı mart soyqırımından əvvəl bolşeviklər qəzanı nəzarətə götürmək üçün müəyyən addımlar atmışdılar. Bakı Sovetinin, əsasən, ermənilərdən ibarət silahlı qüvvələri gəmi ilə 1918-ci ilin martın 2-də (15-də) sahilə yaxınlaşaraq Qızılağac və Nikolayevka kəndləri ilə üzbəüz dənizdə mövqe tutmuşdular. Martın 17, 20-21-də Sovetin silahlı dəstələri, polkovnik İlyaşeviçin hərbi hissəsi və digər yadelli qoşunlarla müsəlman "Vəhşi Diviziya"nın hissələri arasında qızğın döyüşlər olmuş, qüvvələrin qeyri-bərabərliyi milli qüvvələri geriyə - Lənkərana çəkilməyə məcbur etmişdi. Buna baxmayaraq, yadelli qüvvələrin başçıları silah-sursat cəhətdən böyük korluq çəkirdilər. Silah almağın yeganə mənbəyi isə Bakı idi. Buna görə də separatçı qüvvələrin liderləri – Suxorukov, Kropotov, Şevkunov (onların heç biri bolşevik deyildi –K.İ.) Bakı Sovetinin bolşevik lideri Şaumyana müraciət edərək ondan hərbi yardım istəmişdilər. D.Çirkin, Y.Qrankin və Y.İlyindən ibarət başqa bir nümayəndə heyəti də Bakı Soveti rəhbərləri - S.Şaumyan

və A.Caparidze ilə görüşərək onlardan Lənkərana əlavə hərbi qüvvə göndərməyi tezləşdirməyi təklif etmişdilər (2, v.9). Beləliklə, Bakıda olduğu kimi, Azərbaycanın cənubunda da milli-demokratik hərəkata qarşı bütün qeyri-müsəlman siyasi və hərbi qüvvələrin ittifaqı yaranmışdı. Daşnaklar isə bundan çox məharətlə yararlandılar.

1918-ci ilin martın sonunda Bakıdan "Evelina" gəmisində Lənkərana yola düşən "Dikaya diviziya"nın heyətinin tərk-silah edilməsi ilə başladıqları soyqırımı erməni-bolşevik qüvvələri digər bölgələrdə olduğu kimi, Lənkəran-Muğan bölgəsində də davam etdirmiş, yerli müsəlman əhaliyə amansız divan tutmuşdular.

Çox təəssüf ki, Azərbaycan tarixçiləri indiyə qədər Bakıda 1918-ci ilin martında baş vermiş soyqırım hadisələri ilə Azərbaycanın cənubunda cərəyan etmiş proseslər arasında birbaşa əlaqənin olduğunun fərqinə varmayıblar. Tarixçilər "Evelina" gəmisində Lənkərana getməyə hazırlaşan bir qrup müsəlman zabitinin tərk-silah edilməsini azərbaycanlıların soyqırımına başlamaq üçün bəhanə olduğunu göstərirlər. Lakin bu bəhanənin nə üçün məhz martın sonunda, özü də Lənkərana gedən bir qrup müsəlman zabitinə qarşı törədildiyinin (əslində bu bəhanə deyil, planlaşdırılmış hərbi aksiya idi – K.İ.) səbəbini göstərmirlər. 7 cildlik Azərbaycan tarixinin V cildində qeyd olunur ki, "bu cinayəti həyata keçirmək üçün bəhanə lazım idi. Bu məqsədlə "Evelina" münaqişəsi törədildi. Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuşdu, müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər Evelina gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya Evelina ilə gedən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv etsinlər. Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi. Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr Evelina gəmisinin tərk-silah edilməsinə tərəfdar oldu" (8, s.247). Təbii ki, mart soyqırımını törətməklə daşnak-bolşevik birliyi Azərbaycan milli hərəkatını və onun aparıcı qüvvələrini məhv etmək məqsədi güdürdü. Bunu həmin hadisələrdən sonra S.Şaumyanın mərkəzə göndərdiyi məktub və teleqramlar da təsdiq edir. Bununla yanaşı, Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyinin "Evelina" gəmisinin tərk-silah edilməsi haqqında qərarının qəbul edilməsinə Lənkəran-Muğan bölgəsində baş verən hərbi proseslər haqqında məlumatlar və oradan antiazərbaycan qüvvələrin müraciətləri də əsas rol oynamışdı. Şaumyan və onun ətrafı üçün Lənkəran bölgəsi mühüm strateji əhəmiyyət kəsb edən bölgə idi və bu bölgənin əldə saxlanılması Bakıdakı hakimiyyət üçün ölüm-dirim məsələsi idi. Ona görə də Şaumyan Lənkəran bölgəsində siyasi-ideoloji baxımdan bolşevizmə yad olan istənilən antiazərbaycan qüvvəni (onlar arasında sağ eserlər, ağqvardiyaçılara rəğbət bəsləyənlər, hətta monarxistlər belə var idi – K.İ.) müdafiə etməyi və ona yardım göstərməyi təmsil etdiyi qüvvələrin maraqları üçün yolverilən, məqbul hesab edirdi. Ona görə də Bakıdan azərbaycanlıların kifayət qədər böyük bir silahlı dəstəsinin bolşevik-daşnak hakimiyyətinin də taleyinin həll olunduğu müharibə zonasına (qeyd edildiyi kimi, Lənkəran qəzasının şimalında Bakıya yol açmağa çalışan milli qüvvələrlə "rus maraqlarınının" ifadəçiləri olan qüvvələr arasında əsil müharibə gedirdi – K.İ.) buraxılması Şaumyan üçün bağışlanılmaz səhv olardı. "Evelina" gəmisini saxlamaqla Bakı Sovetinin rəhbərliyi cənubda gedən mübarizənin də taleyini həll etmiş oldu. Əlbəttə, başqa məsələdir ki, Lənkərandakı müsəlman diviziyasının 50-yə yaxın zabiti tamamilə məsuliyyətsiz hərəkət edərək öz komandirlərinin dəfnində iştirak etmək üçün kollektiv şəkildə döyüş bölgəsini tərk etmiş və faktik olaraq cinayət törətmişdilər. Bu məsuliyyətsizlik isə ağır nəticələrə gətirib çıxarmışdı. Bəzi məlumatlara görə hətta "Evelina" gəmisi ilə eyni vaxtda onun durduğu bərədən erməni əsgərlərlə dolu başqa bir gəmi Lənkərana getməyə hazırlaşırdı. Lənkəran sakini Pominov öz xatirələrində göstərir ki, limanda Lənkərana yollanmaq üçün "Aleksandr Jandr" gəmisinə sovet batalyonu, "Evelina" gəmisinə isə "Dikaya diviziya" yüklənirdi. Onların arasında kiçik atışma oldu, 1 saatdan sonra, axşam saat 6-da şəhərdə güclü döyüş başlandı (4, v.163-165; 22, c.48).

Bakıda Azərbaycanın milli qüvvələrinə divan tutulması ilə nəticələnən hadisələr Bakı XKS-nin əl-qolunu açdı. Şaumyan Lənkəranda "Müsavatın yuvasını" dağıtmaq üçün oraya əlavə hərbi qüvvə göndərmək qərarına gəldi. 1918-ci il aprelin 15-16-də (yeni stillə) Lənkərana gələn "Aleksandr

Jandr" gəmisində cəmi 40 nəfər olsa da, onların sərəncamında külli miqdarda silah (12 berdanka, 3 pulemyot, 2 top, və 75 №li hidroplan) var idi. Dəstənin rəisi Bakıda azərbaycanlıların qətlində fəal iştirak etmiş erməni Qrişa Arustamov, komissarı isə yenə erməni əsilli Saratikov idi. Dəstənin tərkibi də bəzi muğanlı rusları çıxmaqla, əsasən, ermənilərdən ibarət idi. Qeyd edildiyi kimi, bu zaman İlyaşeviçin dəstəsi Nikolayevka kəndi yaxınlığında milli qüvvələrlə döyüşürdü və döyüş sursatına kəskin ehtiyac hiss edirdi (17, c.177-178). Bakıdan gələn ermənilər onlara patronlarla kömək göstərdilər. Gəminin gəlməsi Lənkəran şəhərində və qəzada qüvvələr nisbətini dəyişdirdi. Gəmi şəhərə yaxınlaşan kimi onu atəşə tutmuşdu (14, 1919, 19 апреля). "Aleksandr Jandr" gəmisində ermənilərlə birgə gələn Şevkunov yerli əhaliyə qarşı xüsusi qəddarlıq göstərirdi. Şahidlərin dediyinə görə o türk qızlarının qulaqlarından sırğalarını dartıb çıxarır, hətta küçənin ortasında onları soyunduraraq ipək paltarlarını tutub alırdı. Bir müddətdən sonra Lənkəran şəhərinə komendant təyin edilmiş Şevkunov səddçəkici dəstə (заградительный отряд) yaradaraq şəhərə gələnləri yoxlayır və onların əllərindən çörəyini alırdı (22, c.56). "Aleksandr Jandr" gəmisindən desant çıxaran bolşevik daşnak qüvvələri Lənkəran şəhərini ələ keçirərək şəhəri yandırmış, kütləvi həbslər aparmışdı. Qan tökülməməsi üçün sülh təklif edən və bütün silahları təhvil verməyə razı olan azərbaycanlıların nümayəndə heyətinə atəş açılmışdı. Şəhərə hücumda Lənkəran bölgəsinin rus əhalisinin silahlı bandaları da fəal iştirak etmişlər. Məhz onların köməyi ilə Sultanbəy Qulubəyov həbs edilərək Bakıya gətirilmişdi (18, 1918, 30 мая). Gəlmələr dərhal xəzinəni ələ keçirmişdilər. Növbəti gün 40 yaşınadək bütün kişiləri bir yerə toplayan gəlmələr müsəlmanlardan silahları təhvil verməyi tələb etdilər. Nəticədə əsas qüvvələri Bakıda qalan müsəlman diviziyası bütün silahlarını Bakıdan gələn dəstəyə təhvil verməli oldu. Ermənilərə 300-dən çox yerli rus da qoşuldu. Onların hamısı rəsmən Bakı XKS-nin Lənkərandakı hərbi qoşunu statusu aldılar. Lənkəran Müsəlman Milli Şurası qan tökülməməsi üçün Bakı XKS-nin hakimiyyətini tanımaq qərarına gəldi. Bir neçə gündən sonra "Qars" və "Ərdahan" gəmiləri ilə Bakıdan yeni qüvvələr gətirildi. Gəmilərdən şəhərin müsəlmanlar yaşayan hissələri yenidən atəşə tutuldu. Əslində bu, hərbi zərurətdən irəli gəlmirdi və açıq-aşkar güc nümayişi idi. Bu hadisədən sonra Müsəlman Milli Şurası faktik olaraq dağıldı. Bir neçə fəal müsəlman lideri ermənilər tərəfindən həbs edildi. Bir neçə gündən sonra Bakıdan daha bir neçə batalyon gəldi. Piyada batalyonuna Kaqramanov, pulemyot komandasına Qrişa Arustamov, kavaleriyaya poruçik Lazavoy rəhbərlik edirdi.

Dünya ictimaiyyətinin münaqişəni dinc yolla həll etmək cəhdlərinin gücləndiyi və Azərbaycan Respublikasında da bu prosesə qoşulduğu bir vaxtda, erməni işğalçılarının Azərbaycan Respublikasına qarşı təcavüzü davam etməkdə idi. Martın 31-də Dağlıq Qarabağ ətrafında işğalçı hücumlarını genişləndirən Ermənistan silahlı qüvvələri Füzuli rayonunun Hoğa kəndini işğal etdilər, mayın 7-8-də ermənilərin Şuşaya hücumu başladı. Mayın 8-də Azərbaycanın Dağlıq Qarabağdakı ən böyük yaşayış məntəqəsi olan Şuşa şəhəri ermənilər tərəfindən işğal edildi. Şuşanın işğalı həmin dövrdə respublikadakı faktiki hakimiyyətsizliyin, ordu hissələrinin siyasi oyunlara cəlb edilməsinin nəticəsi idi. Ermənilər Şuşanın işğalı ilə Dağlıq Qarabağa nəzarəti tamamilə ələ keçirdilər, rayonun 20 minə yaxın əhalisi didərgin düşdü. Mayın 18-də isə Ermənistan silahlı qüvvələri Laçın rayonunu işğal etdilər. İşğal zamanı 300-dən çox azərbaycanlı həlak oldu və ya itkin düşdü, rayon ərazisində 9 minə yaxın tikili, yüzlərlə tarix-mədəniyyət abidəsi talan edildi (1, s.470).

Həmin il oktyabrın 2-də isə Xocavənd rayonu tamamilə ermənilərin əlinə keçdi. Dekabrın 9-da Ermənistan silahlı qüvvələri Zəngilan rayonunun sərhəd kəndlərinə hücuma başladılar və rayonun 8 kəndini işğal etdilər (1, s.471-473).

1993-cü ilin əvvəllərindən başlayaraq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü intensiv xarakter aldı. Aprelin 2-də Kəlbəcər rayonu ermənilər tərəfindən işğal edildi, 150-ə yaxın kənd erməni hərbi qüvvələri tərəfindən dağıdıldı. İşğal nəticəsində 458 nəfər azərbaycanlı həlak oldu, rayonun yüzlərlə sakini əsir götürüldü. İyunun 27-də isə Ağdərə rayon mərkəzi də ermənilərin əlinə keçdi. İyulun 23-də Ermənistan silahlı qüvvələri Ağdam istiqamətində genişmiqyaslı hücuma keçdi və rayonun bir neçə kəndini ələ keçirərək şəhərə daxil oldu. Onun işğalı Azərbaycanın Dağlıq Qarabağın ətrafında Laçın və Kəlbəcərdən sonra üçüncü böyük itkisi oldu (1, s.474-476).

1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələrinin Füzuli rayonu istiqamətində geniş hücumu başladı. Avqustun 13-də Cəbrayıl istiqamətində də hücumlar başladı və nəticədə hər iki rayonun Dağlıq Qarabağın inzibati sərhədləri boyunca yerləşən kəndləri işğal olundu. Avqustun 23-də Füzuli və Cəbrayıl rayonlarının böyük hissəsi, o cümlədən hər iki rayon mərkəzi ermənilər tərəfindən işğal edildi. İşğalı davam etdirən erməni hərbi qüvvələri avqustun 31-də Qubadlı rayonunu da ələ keçirdilər. Həmin ilin oktyabrında erməni hərbi qüvvələrinin hücumu ayın 29-da Zəngilan rayonunun, habelə Cəbrayıl və Füzuli rayonlarının Arazboyu yaşayış məntəqələrinin işğalı ilə başa çatıb.

Beləliklə, 1988-ci ildə başlayan hərbi münaqişə 1993-cü ilin sonuna doğru Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalı ilə nəticələndi. Müharibə nəticəsində 20 min azərbaycanlı həlak oldu, 100 min nəfər yaralandı, 5 min nəfər əlil oldu, 4861 nəfər əsir və girov götürüldü. (2, s.204).

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün doğurduğu sosial problemlər təkcə Dağlıq Qarabağ və ətraf bölgələrdəki hadisələrlə bağlı deyil; Ermənistanın azərbaycanlılar yaşayan rayonlarında ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi terror, zorla köçürülmə, talan və qətllər də həmin problemləri ağırlaşdıran məqamlardır. Təkcə 1988-1989-cu illərdə Ermənistan Respublikasının 22 rayonundan 250 min nəfər azərbaycanlı zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. Həmin illərdə ermənilərin işgəncələrinə məruz qalmış 410 azərbaycanlı, o cümlədən, 57 qadın, 23 uşaq vəhşicəsinə qətlə yetirilmiş, müxtəlif bədən xəsarəti almış, onların yaşayış evləri və əmlakları qarət olunmuşdur (10, s.135).

İstər Dağlıq Qarabağ və ətraf bölgələrdə, istərsə də Ermənistanın azərbaycanlılar yaşayan rayonlarında baş verən bu proseslər Azərbaycan Respublikasının demoqrafik durumuna da ciddi neqativ təsir göstərmişdir. Ermənistanın işğal etdiyi rayonlardan olan əhalinin yaşayış şəraiti pisləşdiyinə görə onların arasında təbii artım kəskin surətdə aşağı düşmüş, uşaq ölümü artmışdır. Belə ki, işğal olunmuş rayonlarda 1989-1998-ci illər arasındakı dövrdə doğum kəskin surətdə aşağı düşmüş, ölüm qismən artmış və təbii artım hər 1000 nəfərə görə həddən çox azalmışdır. Bu azalma (hər 1000 nəfərə görə) rayonların hamısında 11, 2 - 22,6 nəfər arasında olmuşdur. Göstərilən illərdə Cəbrayıl, Qubadlı, Zəngilan və Ağdam rayonları əhalisinin məskunlaşdıqları yeni yerlərdə təbii artım daha çox aşağı düşmüşdür (16,9 - 22,6 nəfər arasında). İşğal olunmuş rayonların hamısında demoqrafik göstəricilər orta respublika səviyyəsindən aşağı olmuşdur (10, s.135).

İşğalın Azərbaycan Respublikası əhalisi üçün, ələlxüsus Dağlıq Qarabağ və ətraf rayonların azərbaycanlı əhalisi üçün ən ağır nəticələri sosial-psixoloji məqamlar və onların doğurduğu humanitar fəlakətlə bağlı idi.

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının "Ermənistanın Azərbaycan Respublikasına Təcavüzünün qurbanı olmuş qadınlar və uşaqlar barədə Arayış"ında verilən məlumatlar münaqişənin və Ermənistanın təcavüzünün doğurduğu humanitar fəlakətin ən faciəli tərəfini əks etdirir: "... 1992-ci ildə Xocavənd rayonunun işğalı zamanı ermənilər Qarabağlı kəndindən girov götürdükləri 117 nəfər dinc sakini Xankəndinə apararkən yolda onların 76 nəfərini güllələmiş, onlardan 20 nəfəri 10-12 yaşına qədər uşaq, yarıya qədəri isə qadınlar olmuşdur.

Bu günahsız soyqırım qurbanlarının az qala yarısı qadınlar və uşaqlar idi. Erməni vandalizminin ən bariz nümunələrindən olan və təəssüf ki, bütün dünyanın göz yumduğu Xocalı soyqırımı zamanı erməni və rus yaraqlılarının qətlə yetirdikləri 613 nəfər Xocalı sakininin 63 nəfərini azyaşlı uşaqlar, 106 nəfərini isə müxtəlif yaş həddində olan qadınlar təşkil edirdi.

Ermənistanın Azərbaycan Respublikasına qarşı ərazi iddialı təcavüzü nəticəsində yüzlərlə qadın və uşaq girov götürülmüş, qətlə yetirilmiş, işgəncələrə məruz qalmışdır. Təcavüz nəticəsində əsir və itkin düşmüş, girov götürülmüş 4844 nəfər (01.03.2005-ci il tarixə olan məlumat) Azərbaycan vətən-

daşından 321 nəfərini qadınlar, 54 nəfərini uşaqlar, əsir götürülməsi faktı ermənilər tərəfindən danılan 783 nəfər (Dövlət Komissiyasında onların ermənilər tərəfindən əsir və girov götürülməsi və saxlanma yerlərini təsdiq edən məlumatlar var) Azərbaycan vətəndaşından 46 nəfərini qadınlar, 18 nəfərini isə uşaqlar təşkil edir. Bu günə qədər erməni əsirliyindən azad edilmiş 1368 nəfərdən (01.03.2005-ci il tarixə olan məlumat) 338 nəfəri qadın, 169 nəfəri uşaqlardır.

Yuxarıda qeyd olunanlar ermənilər tərəfindən törədilmiş cinayət faktlarının az bir hissəsidir.

Azərbaycan milli dövlətçiliyinin mövcudluğu sual altında idi. Belə bir məqamda Azərbaycan Respublikasında hakimiyyətə azərbaycançılıq məfkurəsinin təcəssümü, bütün həyatını Azərbaycan naminə yaşayan və Vətəninə xidmət edən Ulu Öndər Heydər Əliyevin qayıtması istər ölkənin daxilində, istərsə də bölgədə hərbi-siyasi, iqtisadi və beynəlxalq vəziyyəti kardinal şəkildə Azərbaycanın xeyrinə dəyişmiş oldu. 1993-cü ilin iyunundan etibarən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda Heydər Əliyevin mübarizəsi başladı.

Azərbaycan Respublikasının ciddi əsaslarda sosial-iqtisadi inkişafı üçün imkan yaradılması, Ermənistana qarşı beynəlxalq aləmdə ideoloji mübarizənin xüsusi dövlət strategiyasına tabe etdirilməsi Heydər Əliyevin siyasi dühasının qələbəsi oldu. Uzaqgörən siyasət nəticəsində Ermənistanla münaqişənin bu strategiyanın həyata keçirilməsinə neqativ təsiri minimuma endirildi.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Mirzəzadə A. Qarabağ düyünü. Bakı: Azərbaycan" , 2012 – 608 s.
2. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, Təhsil, 2009, 272 s.
3. Черный январь. Баку, 1990.
4. Süleymanov M. Azərbaycan ordusu: 1991-1993. Bakı, 1994
5. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005
6. AR Pİİ SSA, fond 609, siyahı 21
7. ARDA, fond 970, siyahı 4
8. "Azərbaycan" qəzeti, 25 fevral 1999-cu il
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti // "Azərbaycan" qəzeti, 23 fevral 2012-ci il
10. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi //files. preslib. az/ projects/azerbaijan/gl8.pdf

## POLITICAL AND SOCIO-PSYCHOLOGICAL CONSEQUENCES OF THE GENOCIDE COMMITTED BY THE ARMED FORCES OF ARMENIA, ON THE TERRITORY OF AZERBAIJAN
## SUMMARY

The creation of the conditions of the country's leadership for the territorial claims of Armenia to Nagorno-Karabakh region of Azerbaijan in the last years of the Soviet Union led to Armenia's illegal activity, terror and genocide against the civilian population of Azerbaijan.

Going through the last months of the USSR in 1990, Moscow frankly turned a blind eye to what is happening in Nagorno - Karabakh lawlessness and terror and genocide carried out against Azerbaijanis.

Beginning in 1988, the military conflict by the end of 1993 led to the occupation of 20 percent of Azerbaijan's lands by Armenia. Azerbaijan's human resources, material and spiritual life were damaged as a result of the war. In this war, 20 Azerbaijanis were killed, 100 people were injured, 5 people became disabled and 4861 people were taken prisoner and hostage.

## ПОЛИТИЧЕСКИЕ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ ГЕНОЦИДА, СОВЕРШЕННОГО СО СТОРОНЫ ВООРУЖЁННЫХ СИЛ АРМЕНИИ, НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА
## РЕЗЮМЕ

Создание условий со стороны руководства страны для притязаний Армении на Нагорно-Карабахский регион Азербайджана в последние годы существования СССР привело к незаконным действиям Еревана, террору и геноциду против мирного населения Азербайджана.

Переживавший последние месяцы СССР в 1990 году, Москва откровенно закрывала глаза на происходящие в Нагорном - Карабахе беззаконие и террор, а так же геноцид, осуществляемый против азербайджанцев.

Начавшийся в 1988 году военный конфликт к концу 1993 года привёл к оккупации 20 процентов земель Азербайджана со стороны Армении. В результате войны человеческим ресурсам, материальной и моральной жизни Азербайджана был нанесён существенный удар. В этой войне погибло 20 тысяч азербайджанцев, 100 тысяч человек было ранено, 5 тысяч стали инвалидами и 4861 человек были взяты в плен и заложники.

*T.ü.f.d.* **Cəbi BƏHRAMOV**
*AMEA Tarix İnstitutunun elmi işlər üzrə direktor müvaini*
*T.ü.f.d.* **Solmaz GÖZƏLOVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti*

# ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ CƏNUBİ QAFQAZ REGİONUNDA HƏYATA KEÇİRİLƏN BEYNƏLXALQ ENERJİ LAYİHƏLƏRİ ÜÇÜN TƏHLÜKƏDİR (1991-2016)

**Açar sözlər:** Azərbaycan Respublikasına qarşı, Cənubi Qafqaz regionu, enerji layihələri.
**Ключевые слова:** Против Азербайджанской Республики, Южно Кавказский регион, энергические проекты.
**Keywords**: Against Azerbaijan Republic, the region of Southern Caucasus, construction of energy

Sovet imperiyasının süqutu və keçmiş müttəfiq respublikaların müstəqillik əldə etməsi prosesi ilk baxışda asan görünsə də, həlli çox ağır olan siyasi və sosial-iqtisadi problemlər yaratdı. Siyasi münasibətlərin qırılması iqtisadi əlaqələrin pozulmasına və keçmiş postsovet məkanında ağır siyasi və iqtisadi böhranın yaranmasına səbəb oldu.

1941-1945-ci illər müharibəsi dövründə alman faşizmi üzərində qələbədə və XX əsrin ikinci yarısında keçmiş SSRİ-nin bütün respublikalarında, habelə dünyanın bir çox ölkələrində milli neft sənayesinin yaradılmasında müstəsna rol oynamış Azərbaycan SSR-in özünün neft sənayesi 1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində respublikada yaranmış siyasi-iqtisadi böhran, bunun nəticəsində Mərkəzi hökumətin təhriki ilə başlanmış erməni separatizminin törətdiyi Dağlıq Qarabağ münaqişəsinin ağır fəsadları və ölkə rəhbərliyinin bu sahəyə diqqətinin azalması nəticəsində ağır vəziyyətə düşmüşdü.

Dövlət müstəqilliyin ilk illərində (1992-1993-cü illər) respublikada neft hasilatı 12,5 milyon tondan 9,6 milyon tona, qaz hasilatı isə 9,9 milyard kubmetrdən 6,5 milyard kubmetrə enmişdi, yəni neft hasilatı 3 milyon tonadək, qaz hasilatı isə 3,4 milyard kubmetr aşağı düşmüşdü [1, 367]. Müstəqilik əldə etmiş keçmiş müttəfiq respublikalardan fərqli olaraq, 1991-1993-cü illərdə Azərbaycan Respublikası daha da dərinləşmiş iqtisadi böhranla bərabər, siyasi böhranla da üzləşmişdi. Bir tərəfdən, Rusiya Federasiyasının təcavüzkar dairələrinin hərbi-siyasi yardımına arxalanan Ermənistanın hərbi təcavüzü, digər tərəfdən isə ölkə daxilində hakimiyyət uğrunda gedən amansız mübarizə Azərbaycan xalqını vətəndaş müharibəsi və parçalanma həddinə gətirib çıxarmışdı. Digər tərəfdən özünün geosiyasi vəziyyətinə görə Azərbaycan Respublikası keçmiş SSRİ-nin süqutundan sonra dünya dövlətləri üçün kəskin mübarizə və maraq obyektinə çevrilmişdi. Belə bir ağır hərbi-siyasi vəziyyətin yaranmasının əsas səbəblərindən biri isə Azərbaycan Respublikasının zəngin enerji ehtiyatlarına malik olması idi. Hələ XIX əsrin ikinci yarısından 1920-ci ilədək Azərbaycanın "qara qizılı"nın əsl qiymətini bilən Avropanın böyük neft şirkətləri artıq 1989-cu ildən respublika hökuməti ilə Xəzər dənizindəki zəngin neft yataqlarının birgə işlənilməsi haqqında danışıqlara başlamışdılar. Azərbaycan neftinə olan bu marağın artmasında 1989-cu ildə Şotlandiyanın "Remko" şirkətinin Bakıya səfər edən prezidenti S.Rempin Böyük Britaniyaya qayıtdıqdan sonra «BP» şirkəti ilə apardığı danışıqların böyük rolu olmuşdu.

Qeyd etmək lazımdır ki, 1991-ci ilin əvvəlində Abşeron yarımadasında neft istehsalında əlverişli şəraitin yaradılması üçün konkret işlər görülmüşdü. 1991-ci il yanvarın 18-də SSRİ hökumətinin və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri" yatağının birgə kəşfiyyatı və işlənilməsinə dair "Xəzərdənizneftqaz" Birliyinin və xarici neft şirkətlərinin iştirakı ilə birgə müəssisənin yaradılması üçün müsabiqə keçirilməsi qərara almışdı. 1991-ci ilin iyununda keçirilən müsabiqənin qalibi ABŞ-ın "Amoko" şirkəti elan edilmişdi. Bundan sonra layihəyə "BP-Statoyl" alyansı, "Yunokal", "MakDermot" və "Remko" şirkətləri də cəlb olundular. Ancaq layihədə 45 faiz iştirak payına malik olan "Amoko" öz liderliyini saxlayırdı [2, 7]. Lakin 1992-ci ilin birinci yarısında Azərbaycan Respublikasında hakimiyyət uğrunda başlanan mübarizə və Xalq Cəbhəsi-Müsavat siyasi blokunun hakimiyyətə gəlməsi xarici şirkətlərlə nəzərdə tutulan müqavilənin imzalanmasını təxirə saldı. Lakin demək lazımdır ki, AXC-Müsavat hökumətinin də iqtisadi planında neft məsələsi ön planda idi. 1992-ci ilin sentyabrın 9-da Azərbaycan Respublikası Prezidentinin Fərmanı

ilə Dövlət Neft Şirkəti (ARDNŞ) yaradıldı və o, xarici şirkətlərlə danışıqları davam etdirməyə başladı. 1992-ci ilin sonuna yaxın Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı dörd ən böyük neft yatağı – "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında və "Şahdəniz" perspektiv strukturunda kəşfiyyat və başqa işlərin birgə aparılmasına dair beş niyyət protokolu imzalandı. "Amoko", "Penzoyl" və BP şirkətləri ilə yanaşı, layihəyə Türkiyə Cümhurriyyətinin "TPAO" şirkəti də cəlb edildi. Rusiya Federasiyasının "Lukoyl" şirkətinə və İran İslam Respublikasının neft şirkətlərinə isə layihədə iştirakda imtina olundu [3, 255]. Bu isə o dövrdə onsuz da çox ağır siyasi vəziyyətdə olan Azərbaycan Respublikasına qonşu olan dövlətlər – Rusiya Federasiyası və İran İslam Respublikası tərəfindən göstərilən təzyiqlərin artmasına səbəb oldu. Rusiya Federasiyasının əlində oyuncaq «dövlət» olan Ermənistan RF MN-nə məxsus 366-cı alayın birbaşa iştirakı ilə1992-ci ilin fevralında Xocalı şəhərində Azərbaycan xalqına qarşı soyqırımı cinayəti törətdikdən sonra,həmin ilin mayında təcavüzü genişləndirərək öz ərazisində yerləşdirilmiş RF-nın hərbi kontingentinin yardımı ilə Azərbaycan Respublikasının böyük hərbi-strateji əhəmiyyət kəsb edən Şuşa , Laçın, 1993-cü ilin aprelində isə Kəlbəcər rayonlarını işğal etdi [4, 316]. Lakin burada belə bir fakta diqqət yetirmək lazımdır ki, 1991-ci ilin dekabrın 8-də SSRİ dövlətinin rəsmən süqut etdiyi elan edilsə də, Rusiya Federasiyasının təcavüzkar dairələri də Azərbaycan Respublikasının müstəqillik faktı ilə barışmaq istəmirdilər. Əslində,bu dairələr keçmiş SSRİ rəhbərliyində təmsil olunduqları üçün onların böyük əksəriyyəti qondarma Dağlıq Qarabağ münaqişəsinin yaradılmasının təşəbbüskarı idi. 1988-ci ilin fevralında Azərbaycan SSR-nin Dağlıq Qarabağ bölgəsində SSRİ hökumətinin təhriki ilə başlanan erməni separatizmi 1991-ci ilin sonunda SSRİ-nin süqutundan sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünə çevrildi. Özünü SSRİ-nin hüquqi varisi elan edən Rusiya Federasiyasının təcavüzkar dairələrinin birbaşa əmri ilə 1991-ci ilin dekabrın sonundan 1993-cü ilin oktyabrın 28-dək onların hərbi-siyasi yardımı və bilavasitə iştirakı ilə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı işğalçılıq müharibəsinə başladı. Bu fikri təsdiq edən ən mühüm faktlardan biri odur ki, 1992-ci ilin aprel ayında Rusiya Federasiyası MN BQ yanında Müdafiə Tədqiqatları İnstitutu təsis edildikdən sonra, həmin institut tərəfindən RF Nazirlər Kabinetinə təqdim olunan «Rusiya Federasiyasının milli təhlükəsizliyi üçün yaranan əsas təhlükələrə qarşı müqavimət strategiyasının konseptual qaydaları» adlı sənəd də təsdiq edir (5, 322). Bu təcavüzkar ruhlu sənəd Azərbaycan Respublikası ilə bağlı dörd maddə diqqəti xüsusilə cəlb edir. Həmin bu maddələrin hər birində Azərbaycan xalqına özünün ən qiymətli təbii sərvətlərindən biri olan neftdən müstəqil dövlət olaraq istifadə etdiyi təqdirdə RF-nın hansı hərbi-siyasi vasitələrə əl atdığı açıq şəkildə göstərilir (6, 8). Bu sənəddə açıq-aydın şəkildə elan olunur ki, «...Mühüm vəzifə «Xəzər neft müharibəsi»nin istənilən şəkildə reallaşmasına yol verməməkdir. Bu sənədin Azərbaycana aid 4-cü maddəsində RF tərəfindən bütün tətbiq edilən vasitələr nəticə verməyəcəyi təqdirdə, «Bakıdakı rejimi» məcbur etmək üçün erməni hərbi qüvvələrinin Azərbaycan Respublikasının Gəncə və Yevlax şəhərləri istiqamətlərində hücumunun gücləndirilməsi göstərilmişdi. Heç şübhəsiz RF-nın yüksək hərbi-siyasi dairələrində belə bir ciddi sənədin hazırlanması onu deməyə əsas verir ki, özünü keçmiş SSRİ-nin varisi elan edən Rusiya Federasiyasının hərbi-siyasi dairələri də öz siyasi taleyinin, o cümlədən təbii sərvətlərinin sahibi olan Azərbaycan xalqının müstəqil, azad və suveren milli dövlət quruculuq istəyi ilə barışmaq istəmirdilər.Ona görə də buna hər vasitəilə yol verməməyə çalışırdılar. Qeyd etmək lazımdır ki,ənənəvi olaraq respublika iqtisadiyyatının əsasını neft sənayesi təşkil etdiyi üçün ,1991-1993-cü illərdə də Azərbaycan Respublikasına rəhbərlik edən hakimiyyət sahiblərinin də hamısının iqtisadi planlarında neft əsas yer tuturdu. 1993-cü ilin iyununda imzalanması nəzərdə tutulan AXC-Musavat hakimiyyətinin də hazırladığı müqavilənin sərtləri Azərbaycan Respublikasının bütün maraqlarına heç də tam səkildə cavab vermirdi. Müqavilənin sərtlərinə görə, ARDNŞ-in gəlir payı 70 faiz, xarici şirkətlərin gəlir payı isə 30 faiz təşkil edirdi.(4, 316) 1993-cü ilin mayında ARDNŞ ilə xarici şirkətlər arasında "Azəri", "Günəşli" və "Çıraq" yataqları üzrə birgə fəaliyyət haqqında 6-cı memorandum imzalandı və həmin il iyunun 4-də ARDNŞ-in Direktorlar Şurası birgə fəaliyyət haqqında bəyannamə qəbul etdi.Demək lazımdır ki, hazırlanmış bu müqavilədə XX əsrdə Bakı nefti hesabına super dövlətə çevrilən RF təmsil olunmamışdı. Ona görə də AXC-Musavat rəhbərliyinin bu səhvindən məharətlə istifadə edən RF-nın təcavüzkar dairələri ölkədə hərbi-siyasi böhranın baş verməsi üçün Ermənistanın hərbi təcavüzünü genişləndirdilər. AXC-Müsavat rəhbərliyinin daxili və xarici siyasətdəki buraxdığı kobud səhvlər,

səriştəsizlik və təcrübəsizlik 1993-cü ilin iyununda ölkədə çox ağır siyasi-ictimai və hərbi böhranın yaranmasına səbəb oldu. Ölkə daxilində vətəndaş müharibəsinin başlanması təhlükəsinin artmasını görən xalqın görkəmli ziyalıları Azərbaycan xalqı adından təcrübəli dövlət xadimi ,Naxcıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevi Bakıya dəvət etdilər. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyev elə ilk günlərdən çox ağır və həlli çətin olan məsələləri öz üzərinə götürdü, ölkə tədricən siyasi və hərbi böhrandan çıxmağa başladı. Heydər Əliyev 1993-cü ilin ikinci yarısında respublikada yaranmış siyasi-iqtisadi və hərbi böhran şəraitində AXC-Müsavat hakimiyyətinin hazırladığı neft müqaviləsinin imzalanmasını təxirə saldı. Bir il ərziində gedən danışıqlar zamanı Prezident Heydər Əliyev edilən bütün təzyiqlərə baxmayaraq, Azərbaycan xalqının mənafeyinə xələl gətirə biləcək hər hansı müqaviləyə imza atmadı.O, yeni müqavilənin hazırlanması ilə bağlı nəzarəti öz əlində saxladı və hazırlanmış yeni müqavilənin çox böyük dəqiqliklə yoxlanılması üçün xarici ölkələrdən də ekspertlərin daxil olduğu komissiya yaratdı. Prezident Heydər Əliyevin göstərişi ilə ARDNŞ-in rəhbərliyinə də təcrübəli mütəxəssislər cəlb olundu. Aparılan danışıqlarda əvvəlkindən fərqli olaraq, üç deyil, iki neft yatağından – "Azəri" və "Çıraq" yataqlarından söhbət gedir və pay bölgüsündə Azərbaycan Respublikasının payı 80 faiz təşkil edəcəyi nəzərdə tutulmuşdu. Xarici neft şirkətləri tərəfindən ödəniləcək bonusun həcmi 500 milyon dollar müəyyən olundu ki, bu məbləğin də yarısı müqaviləni imzalayan şirkətlərin ölkələrinin parlamentlərində ratifikasiya edildikdən sonra dərhal ödənilməli idi.(6, ) Digər tərəfdən, o vaxt Türkiyə Cümhuriyyəti Bosfor və Dardanel boğazlarından keçən neftdaşıyan tankerlərin sayının azaldılması tələbi ilə çıxış edərək tez-tez bas verən qəzalar nəticəsində İstanbul səhəri və digər yaşayış məntəqələri üçün təhlükə törəndiyini bəyan etmişdi. Türkiyə hökuməti 1994-cü ilin martında boğazlardan gəmilərin keçməsi üçün yeni cədvəl tərtib edərək Beynəlxalq Dəniz Təşkilatına təqdim etdi və onun qəbuluna nail oldu. Bu isə Orta Asiya və Azərbaycan neftinin Novorossiysk vasitəsilə ixrac olunması ehtimalını heçə endirirdi.

Qərb ölkələrinin neft şirkətləri ilə ARDNŞ arasında 1994-cü ilin mayında Türkiyənin İstanbul şəhərində aparılan danışıqlar çox ağır gedirdi. Aparılan danışıqların daha səmərəli olması üçün Prezident Heydər Əliyevin fərmanı ilə 1994-cü il martın 1-də İlham Əliyev ARDNS-in birinci vitse-prezidenti təyin edildi.(7, 246)Prezdent İlham Əliyev sonralar "Caspian Energy" jurnalına verdiyi müsahibəsində deyirdi: "Bu zaman bizim qarşımızda bir necə əsas vəzifə dayanmışdı: birincisi, müqavilənin imzalanmasına nail olmaq. İkincisi, müqavilədə Azərbaycan üçün ən əlverişli sərtlər – həm hüquqi, həm də iqtisadı – yaratmaq. Üçüncüsü isə, müqavilənin işləməsinə nail olmaq".(8, 246). Danışıqların son mərhələsində xarici şirkətlərin nümayəndələri müqavilənin qüvvəyə minməsini onun imzalanmasından və iştirakçı ölkələrin parlamentlərində ratifikasiyasından sonra deyil, yalnız Xəzər dənizinin hüquqi statusunun həll olunmasından sonra qəbul edəcəklərini söylədilər.Müqavilə ətrafında belə bir vəziyyətin yaranmasının əsas səbəbkarı isə 1994-cü il sentyabrın 21-də RF XİN-nin "Əsrin müqaviləsi"-nin imzalanmasından sonra onu tanımadığı barədə verdiyi bəyanat oldu.(8, 246) Təbii ki, Azərbaycan hökuməti buna razı ola bilməzdi. Çünki, bu şərtin qəbul edilməsi müqavilənin kağız üzərində qalacağı demək idi. Buna görə də, Prezident Heydər Əliyevin tapşırığı ilə ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ABŞ-ın hökumət nümayəndələri ilə danışıqlar aparmaq üçün Vaşinqtona yollandı və danışıqlar öz müsbət nəticəsini verdi.(9, 247)

Lakin,yuxarıda deyildiyi kimi, Rusiya Federasiyasının təcavüzkar dairələri Azərbaycan Respublikasının Xəzər dənizində xarici şirkətlərlə neft hasilatına dair müqavilə imzalamasına yol vermək istəmirdilər. 1993-cü ilin yazında Xəzərin Azərbaycan Respublikası sektorunda neft yataqlarının xarici ölkələrin neft şirkətləri ilə birgə işlənməsinə dair müqavilənin imzalanması mərasiminin yaxınlaşdığını görən həmin dairələr,Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan Respublikasının dövlət müstəqilliyinə zərbə vura biləcək təkliflər irəli sürərək, onun iqtisadi maraqlarının dənizin yalnız 12 millik zona çərçivəsində məhdudlaşacağını bildirdilər. Bu isə Azərbaycan Respublikasının öz sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" neft yataqları üzərində nəzarətini itirməsi demək idi. Rusiya Federasiyası hökuməti Xəzər dənizinin hüquqi statusu məsələsini ortaya ataraq, Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında 1994-cü ildə imzalanmış "Energetika sahəsində əməkdaşlıq haqqında" memorandumda "Xəzər dənizinin Azərbaycan sektoru" ifadəsinin işlədilməsinə qarşı öz etirazını bildirmişdi.Artıq Azərbaycan Respublikasının müstəqil xarici və

daxili siyasət yeridəcəyini yəqin edən Rusiya Federasiyasının imperiyapərəst militarist qüvvələri Ermənistana hərbi yardımı gücləndirərək 1993-cü ilin iyul-oktyabr aylarında ölkənin Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğal olunmasına şərait yaratdılar .Bundan əlavə RF Prezidenti B.Yelçin 1994-cü il iyulun 21-də "Rusiya Federasiyasının Xəzər dənizində maraqlarının təmin olunması haqqında" 395-RPS saylı sərancam imzaladı.Bu isə əslində Xəzər dənizində Azərbaycan Respublikasına qarşı "soyuq müharibənin" elan edilməsi demək idi(10,611)."Əsrin müqaviləsi" imzalandıqdan sonra 1994-cü il oktyabrın 12-də RF XİN A.Kozırev Prezident Heydər Əliyevə zəng edərək hədə-qorxu gəlməklə bərabər, RF Baş Naziri V.S.Cernomırdinə təqdimat yazaraq Azərbaycana qarşı siyasi və iqtqsadi sanksiyalar tətbiq etməyi tələb etmişdi.RF Mudafiə Naziri P.S.Qraçov isə Prezident Heydər Əliyevlə görüşü zamanı "...əgər Azərbaycan Respublikası planlaşdırdığı imtina etməsə,bu zaman erməni tankları Bakı şəhərinon küçələrində görünə bilər"- deyə hədələsə də çox sərt cavab almışdı.(11, 612) Yalnız, Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı diplomatik səylər nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla müharibədə atəşkəs əldə edilməsinə dair saziş imzalandı.Lakin,bütün bunlara baxmayaraq RF-nın hərbi-siyasi dairələri Ermənistanı ən müasir silah və hərbi texnika ilə təmin etmək işini bu gün də davam etdirirlər.Təkcə bu faktı göstərmək kifayətdir ki,RF-sı tərəfindən Ermənistana 1997-2017-ci illərdə dəyəri 4 milyard dollardan çox olan silah pulu ödənilmədən verilmişdir.(12, 612)

1997-ci il yanvarm 13-də Parisdə "Lənkərandəniz" və "Talısdəniz" yataqlarmın birgə İstismarına dair "Elf-Akitien" və "Total" şirkətləri ilə ARDNŞ arasında müqavilələr imzalandı. Avqustun 1-də isə Vasinqtonda - AğevdəABŞ-ın "Şevron", "Ekson", "Mobil" və"Amoko"sirkətləri ilə ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Abseron", "Nəxgvan", "Oğuz" və "İnam" neft yataqlrında birgə isiənilməsi haqqında 8 milyard dollar dəyərində 3 yeni müqavilə imzalandı, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri zamanı imzalanan bu müqavilələr ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin daha da möhkəmlənməsi üçün mühüm bir əsas yaratdı.(13, 376)

"Əsrin müqaviləsi" imzaiandıqdən sonra Azərbaycan Respublikası qarşısında duran ən mühüm problemlərdən biri hasil edilən neftin dünya bazarlarına cıxartlması məsələsi idi. İlk növbədə milli mənafeləri ön plana cəkən ümurnmilli lider Heydər Əliyev Azərbaycan neftinin xarici bazarlara cı-xarılmasi işində coxşaxəli neft kəmərlərinin cəkilişinə üstünlük verdi. Bu əslində Azərbaycan Respublikasının təkcə Qafqəz regionunda deyil, o cümlədən Avropada strateji maraqlarının uzun müddət ərzində təmin edilməsi idi. Buna görə də Azərbaycan Respublikası hökuməti Rusiya Federasiyası və Gürcüstan dövləti ilə danısıqlar aparmağa başladı. "Azəri", "Çıraq" və "Günəsli" yataqlarından hasil olunacaq ilkin neftin Qara dəniz limanlanna "Simal" və "Qərb" neft kəməriəri ilə nəqli barədə müqavilələr bağlandı. Bakı-Novorossiysk "Simal" kəmərinin Azərbaycan Respublikasına aid hissəsi 1996-cı ilin sonuna qədər hazır oldu və 1997-ci il oktyabrın 25-də istifadəyə verildi. "Qərb" marsrutu üzrə Bakı-Supsa neft kəmərinin tikintisi 1998-ci ilin axırlarında basə çatdırıldı. 1999-cu il aprein 17-də bu kəmər və"Supsa" terminalı istifadəyə verildi.(14, 377)

1996-cı ildən dənizdə ABƏŞ-in ( İndi "BPAzərbaycan" Beynəlxalq Əməliyyat Şirkəti-C.B,S.G) qəzdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatiarı bir daha təsdiq olundu. 1997-ci il noyabrın 12-də Azərbaycanın tarixində mühüm hadisə bas verdi - "Əsrin müqaviləsi" üzrə i kin neftin hasilatına baslandı. Bununla əlaqədar təşkil olunmus mərasimdə çıxıs edən Prezident Heydər Əliyev Azərbaycan xalqını, bütün Azərbaycan Respublikası vətəndaslarım bu tarixi və əlamətdar hadisə münasibəti ilə təbrik edərək demişdi: "1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük. Bizim bu gün gördüyümüz işlər XXI əsrdə gələcək nəsillər ücün görülən islərdir"(15, 150)

"Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci fazəsının baslanması üçün Xəzər dənizindən Aralıq dənizınə qədər uzanan, ildə 50-60 milyon ton neft nəql edə biləcək, uzunluğu 1768 km olacaq iridiametrli Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi haqqmda saziş əldə olunması vacib idi. 1998-ci i in mayında müqavilə hazırlanması üçün isçi qrupu yaradılmışdı. Həmin il oktyabnn 29-da Azərbay-

can, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentlərinin və ABS energetika nazirinin imzaladıqiarı bəyanat bu kəmərə dair danışıqiara təkan verdi.

1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrəc boru kəməri vasitəsile nəql edi məsinə dəir" saziş itnzalandı. Bu zəman Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və ABS-ın dövlət bascılan tərəfindən imzalanan "İstanbul Bəyannaməsi" layihənin yüksək səviyyədə dəstəkləndiyinə sübut oldu.Qeyd etmək lazımdır ki, bu sazişin hazırlanmasına da ciddi maneələr törədilirdi. Şirkətlərin bəziləri kənardan təsirlər nəticəsində belə bir kəmərə ehtiyacm olmasma bədbinliklə yanasırdılar. Qoyulacaq sərmayələr haqqında da müxtəlif fikirlər vardı. Lakin yaradılan bütün maneələrə və çətinliklərə baxmayaraq, Prezident Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü neft strategiyası uğurla nəticələndi. İstanbulda imzalanma mərasimindən sonra cıxıs edən Prezident Heydər Əliyev demişdi ki, "Əsrin müqaviləsinin imzalanmasından Bakı-Tbilisi-Ceyhan strateji neft kəmərinə daır müqavilələr paketinin imzalanmasına qədər olan beş il ərzində görülən islərdən qürur hissi duyur"(16, 153).

2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilmesi ücün sirkət təsis ediidi. Sentyabrın 18-də kəmərin təməli qoyuldu. Bu münəsibətlə tədbirlərdə istirak etmək üçün Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Eduard Şevardnadze, ABS-ın energetika naziri Spenser Abraham Bakıya gəlmişdilər. 3 mlrd, dollara qədər dəyəri olan bu kəmərin sahibi Azərbaycan Res-pubükası Dövlət Neft Şirkəti (25 faiz), Böyük Britaniyanın BP (30,1 faız), ABS-ın "Yunokal" (8,9 faiz), KonokoFilips (2,5 faız), Norveçin "Statoyl" (8,72 faiz), Türkiyənin "Türkiyə Petrolleri AO" (6,53 faiz), Yaponiyanın "İtocu" (3,4 faiz) və "İnpeks" (2,5 faiz), Səudiyyə Ərəbistanının "Delta Hess" (2,36 faiz), İtaliyanın "Eni" (5 faiz) və Fransanın "Total Fina Elf' (5 faiz) şirkətləri idi.(17, 497)

Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdısı Azərbaycan Respublikasının siyasi və iqtisadi həyatında taleyüklü dəyisikliklərin baslanğıcını qoydu. O zaman ARDNŞ-in birinci vitse-prezidentı, Milli Məclisin deputatı İiham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata kecirilməsinin ən fəai istirakçlarından biri idi. Onun bütün fəafiyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi belə bir möhkəm ideya dururdu: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əidə etməkdən ibarət deyil. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri - həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir. Onun iştirakçısı olduğum saysız-hesabsız görüsiər və danısıqlar məhz bu deviz altında keçirilirdi. Əlbəttə, çətinliklər və maneələr də olurdu, bəzən müəyyən sərtlərin qəbuledilməzliyi ucbatından danışıqları dayandırmaq məqamına çatırdı".Prezident İlham Əliyev həmin anları sonra belə xatırılayır: "Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı sirkətlərin maraqlannı müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Basqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik".(18, 10)

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalananda Azərbaycan Respublikası kasıb bir ölkə idi, onun valyuta ehtiyatları yox dərəcəsində idi. Həyata kegrilən tədbirlər sayəsində respublikanın neft sənayesi dirçəldi, sürətlə inkişaf etməyə basladı. Artıq 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi (2009-cu ifdə 51,4 milyon ton neft hasil edilmisdir). Neft müqaviləsi gəlir gətirməyə basladı. Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis olundu, 2001-ci ilin dekabrında onu Müsahidə Şurası təşkil edildi. Azərbaycan Respublikasnın yeni neft strategiyasmın banisi Heydər Əliyev bu Fondu güclü iqtisadiyyat yaratmaq vasitəsi kimi qiymətləndirdi. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz 1994-cü il mayın 12-də ölkə ərazisinin 17,4 min km$^2$ ərazisinin işğalı ilə nəticələndi. Azərbaycan xalqına dəyən zərərin ümumi həcmi Azərbaycan hökumətinin beynəlxalq təşkilatların nümayəndələri ilə birlikdə yaratdığı Beynəlxalq Komissiyanın gəldiyi nəticəyə görə 819 milyard. 15 mln. ABŞ dolları təşkil edir. (19)

Hazırda beynəlxaİq layihələrdə istirak etməklə yanası ARDNŞ Azərbaycan Respublikasının quru və dəniz ərazilərində yerləşən 30-dan artıq yataqdə müstəqil fəaliyyət gösstərir.Ölkə iqtisadiy-

yatının inkisafında önəmli rol oynayan ARDNŞ Gürcüstan, Türkiyə, Ukrayna, İsveçrə və digər ölkələrə də böyük sərmayələr yatırmaqla və bu istiqəmətdə uğurlu fəaliyyət göstərməklə dünyada Azərbəycan Respublikası iqtisadiyyatınm layiqlİ təmsilçisinə çevrilmişdir. Ümumiyyətlə, bu gün Azərbaycan nefti, qazı və neft məhsuüarı müxtəlif marsrutlarla dünyanın 30 ölkəsinə ixrac edilir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi.VII cild .Bakı,2008,səh.367.
2. Caspian energy.Bakı ,1997,səh.7
3. Azərbaycan nefti. Bakı ,2010,səh.255
4. Azərbaycan tarixi.VII cild.Bakı,2008,səh.316
5. Yenə orada,səh.322
6. Caspian energy. Bakı , 1999, N 2(1), səh.8
7. Azərbaycan nefti.Bakı,2010,səh.246
8. Yenə orada
9. Yenə orada
10. Чапай Султанов.Исторические расследования.Баку .2016,стр.611
11. Там же.стр.612
12. Там же
13. Azərbaycan tarixi.VII cild,səh.376
14. Yenə orada,səh.377
15. Heydər Əliyev.Azərbaycan nefti dünya siyasətində.Bakı ,1997,səh.150
16. Ильхам Алиев. Каспийская нефть Азербайджана.Москва,2003.стр.153
17. Там же,стр.497.
18. Caspian energy.Bakı,1999, N 2(1), səh.10
19. Азярбайъан гязети. 2017, 23 феврал.

## АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ЯВЛЯЕТСЯ УГРОЗОЙ ДЛЯ РЕАЛИЗАЦИИ ЭНЕРГЕТИЧЕСКИХ ПРОЕКТОВ НА ЮЖНО-КАВКАЗСКОМ РЕГИОНЕ

## РЕЗЮМЕ

Статья посвящена истории исследования причин агрессии Армении и ее союзников против Азербайджанской Республики после приобретения государственной независимости когда она стала самостоятельно использовать свои энергоресурсы для социально-экономического развития. На основании богатого фактического материала автор сумел в хронологической последовательности историю труднейшей пути пройденной Азербайджаном под руководством Гейдара Алиева и реализация нефтяной стратегии а так же сумел показать основные источники угроз для международных энергетических проектов реализуемых на Южно-Кавказском регионе в современный период.

## THE AGGRESSION OF ARMENIA AGAINST THE REPUBLIC OF AZERBAIJAN IS A THREAT TO THE IMPLEMENTATION OF ENERGY PROJECTS IN THE SOUTH CAUCASUS REGION

## SUMMARY

The article is devoted to the history of the investigation on the causes of Armenia's and its allies' aggression against the Republic of Azerbaijan after the acquisition of state independence when she began to use its own energy resources for socio-economic development. Based on the rich factual material, the author managed to trace in a chronological sequence the history of the hardest path passed by Azerbaijan under the leadership of Heydar Aliyev and the implementation of the oil strategy, also managed to show the main sources of threats to international energy projects implemented in the South Caucasus region in the modern period.

*Д.ф.п.и.* **Фархад ДЖАББАРОВ**
*учёный секретарь Национального музея истории Азербайджана,*

# ЗАНГЕЗУРСКАЯ РЕЗНЯ 1906 Г. – ОЧЕРЕДНАЯ ФАЗА АРМЯНСКОГО ТЕРРОРА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ

**Açar sözlər**: ermәni-azәrbaycanlı qırğınları, ermәni terroru, Zәngәzur, Qatar, Oxçu
**Keywords**: armenian-azerbaijani massacres, armenian terror, Zangazur, Qatar, Okhchu
**Ключевые слова**: армяно-азербайджанская резня, армянский террор, Зангезур, Катар, Охчу

Конец XIX-начало XX вв. отмечены всплеском армянского шовинизма на Южном Кавказе, выразившегося, с одной стороны, в массовых протестных и террористических акциях, вызванных мероприятиями правительства Российской империи против антигосударственной деятельности армянского духовенства и партий «Гнчак» и «Дашнакцутюн», а с другой, – в различных провокационных действиях армян в отношении мусульманского населения края. В совокупности эти факторы обусловили первую волну масштабного армяно-азербайджанского межэтнического конфликта, вспыхнувшего на Южном Кавказе в 1905-1906 гг. Начавшись в феврале 1905 г. в Баку, кровавые столкновения между двумя нациями вскоре перекинулись и в другие местности края, обернувшись целой чередой вооружённых нападений, убийств, грабежей, поджогов, уничтожением отдельных населённых пунктов. Одним из тех регионов, где дашнаки намеревались за счёт террора против мусульман образовать «сплошную территорию для армянского народа» (3, с. 205), являлся Зангезурский уезд Елизаветпольской губернии. Архивные документы свидетельствуют, что накануне армяно-азербайджанского конфликта 1905 г. дашнаки развернули в Зангезуре обширную работу по подготовке вооружённых беспорядков. В ноябре 1904 г. в селении Хинзирак Зангезурского уезда возник армянский революционный комитет, состоявший из 80-100 человек. Возглавляли его священник Тер-Мосесов и сельский старшина Саркис Каракозов. Члены комитета платили ежегодный взнос с размере от 80 коп. до 2 руб., на которые покупались ружья и патроны. Другой член комитета – М.Шазадов, медник по профессии, под предлогом покупки ковров разъезжал по селениям для пропаганды революционных идей, собирал деньги для преступных целей и покупал патроны. Кроме того, комитетчики разъезжали по селениям, объявляли всем запасным нижним чинам, чтобы они не повиновались властям в случае мобилизации.

В комитете была налажена чёткая система оплаты «труда» каждого члена. К примеру, пропагандисты получали ежемесячно 120 руб., сборщики денег – 25-30 руб. Наряду с этим, комитет имел в своём распоряжении и террористов, которые получали плату не ежемесячно, а за каждое убийство, поэтому голова каждого приговорённого к смерти оценивалась в определённую сумму.

Комитет успел осуществить ряд терактов в уезде: жители-армяне сел. Хинзирак А.Гулказаров, А.Камандатов, О.Петросов и др. были убиты за неповиновение требованиям комитета. Группа террористов комитета готовила покушение и на джебраильского уездного начальника, однако они были обезвревжены. Эта успешная операция полиции и жандармерии и помогла выявить деятельность армянского комитета. Во время обыска у Тер-Мосесова и С.Каракозова был обнаружен склад оружия и динамит. Кроме того, благодаря проведённым мероприятиям, удалось выяснить, что упомянутый комитет распространял свою деятельность в пределах всего Зангезурского уезда и подчинялся вышестоящему Шушинскому комитету. Более того, оказалось, что о существовании Хинзиракского комитета было известно и некоторым местным чиновникам в Гёрусе – административном центре Зангезурского уезда, но они из-за боязни перед дашнаками не принимали никаких мер к раскрытию комитета (6, лл. 1-27).

Под влиянием массовой резни, произошедшей в Шуше в августе 1905 г., межнациональные столкновения охватили и другие уезды Елизаветпольской губернии, где компактно проживали армяне и азербайджанцы. Во второй половине 1905 г. армяно-азербайджанская резня в Зангезуре проявлялась в локальных и несистематических взаимных нападениях на сёла, грабе-

жах, обстрелах дорог. В рассматриваемый период основными аренами столкновений были Шуша и Елизаветполь. Однако с начала 1906 г. Зангезурский уезд превращается в один из очагов широкомасштабного армянского террора против азербайджанского населения. В марте 1906 г. пристав 4 участка Зангезурского уезда Мелик Аббасов сообщал в секретном рапорте зангезурскому уездному начальнику Миткевичу, что в участке наблюдается тревожное состояние и взаимное недоверие между армянами и мусульманами. Прекращено сообщение от Зангелана и Шихауза до Катарских заводов, причиной чему служили разбойничьи действия вооружённых шаек армян (5, л. 62-62 об.). По сообщению елизаветпольского уездного начальника в Департамент полиции, в Зангезурском уезде собралось до 2 тыс. вооружённых армян, которые сожгли 10 азербайджанских деревень. Жители вынуждены были скрыться в окрестных деревнях (1, л. 45).

Как отмечалось в официальных документах того времени, в начале резни в Зангезуре перевес был на стороне азербайджанцев, однако впоследствии инициатива перешла к армянам. В связи с этим, прокурор Тифлисской судебной палаты Кукуранов отмечал в своём рапорте: «…Многие селения превращены в развалины, жители частью разбежались, а частью перебиты, и тела их предаются земле войсками, причём на трупах сплошь и рядом видны следы изуверства армян» (8, л. 65). Прокурор констатировал также бессилие местной администрации и фактическое хозяйничанье в уезде дашнаков: «Пока русская власть совершенно подавлена и весь уезд подчинён армянам, на стороне которых сильно терроризированная администрация и даже отчасти войско, которого к тому же недостаточно» (8, л. 65 об.).

Параллельно с массовыми убийствами азербайджанского населения, армяне в лице партии «Дашнакцутюн» развернули террор против влиятельных представителей азербайджанской общины Зангезура. В частности, при расследовании полицией дела об убийстве выборных от общества членов примирительной комиссии Гаджи бека Мелик-Шафиева и Моллы Гаджи Мир Абдулазим оглы, выяснилось, что оно совершено у армянского селения Бых членом местного комитета «Дашнакцутюн»а по кличке «Пето» в соучастии с 3 армянами, приютившимися и укрываемыми в названном селении. Сочувствие и участие селения Бых подтвердилось также тем, что некоторые жители его имели старые земельные счёты с Гаджи беком, а Молла Гаджи был убит, как свидетель. 12 марта 1906 г. дашнаки вынесли им смертный приговор, назвав в выпущенной по этому поводу прокламации Гаджи бека и Молла Гаджи «предводителями разбойников Охчинского ущелья», организаторами «всех убийств, разбоев, грабежей по Охчинской дороге». В прокламации звучала угроза всем азербайджанцам, что в случае продолжения блокады Охчинской дороги и продолжения деятельности там вооружённых отрядов самообороны (в прокламации они названы «разбойниками»), армяне закроют эту дорогу со своей стороны (5, лл. 67-69).

Летом 1906 г. зангезурская резня приняла громадные масштабы. Разворачивая террор в Зангезуре, дашнаки преследовали цель уничтожить мусульманские сёла, расположенные между Зангезуром и Нахчываном, чтобы объединить свои вооружённые отряды, действовавшие в этих двух регионах. После поражения в Шуше дашнаки собрали рассеянные по Джеваннширскому и Джебрильскому уездам силы и сконцентрировали их в армянских сёлах Зангезурского уезда – Барабатум и Чекедек. Целью этого плана был захват стратегически важного пункта – селения Катар, в котором добывалась медь и были устроены медные рудники (7, с. 164). Трагические события в Катаре начались, как и во всех предыдущих эпизодах межнациональных столкновений, с армянской провокации. 29 июля 1906 г. в Катаре армянами был убит Сафияр бек – доверенное лицо одного из зангезурских беков. Это убийство вызвало естественную в условиях многолетней взаимной вражды реакцию азербайджанцев: они атаковали рынок, убили одного армянина и подожгли один опустевший рудник. Воспользовавшись ожидаемой реакцией, дашнакские отряды напали на торговые лавки мусульман, уничтожив их, а затем начали преследовать спасавшихся бегством. Армянами были убиты шестеро мусульман (7, с. 165).

Описываемые события показали, что армяне были заранее подготовлены к боям, хорошо организованы и вооружены. Подтверждением этому служит следующий факт. В тот же день,

когда армяне разрушили рынок в Катаре – 29 июля – они напали ещё на 6 селений азербайджанцев и захватили их. Сёла Кархана, Лов, Халадж, Салдашлы, Инджевар, Дашнов были разрушены дашнакскими боевиками, а жители-мусульмане вынуждены были искать укрытия в соседнем селе Катар, либо в горах и лесах (7, с. 165-166).

Действия дашнаков в Зангезуре, так же как и в других уездах Елизаветпольской губернии, были чётко слаженными как с военной, так и с организационной точки зрения, что полностью отрицает тезис о неподготовленности и беззащитности армян во время межнациональных столкновений. Как отмечалось в одном официальном документе, пешие и конные отряды дашнакских «хумбов», «зинворов», вооружённые главным образом ружьями и револьверами системы Маузер, по предписаниям дашнакских комитетов направлялись в пункты, требовавшие сосредоточения сил. Эти отряды перебрасывались из одной местности в другую с невероятной быстротой, благодаря поставке населением сменных верховых лошадей. На эти отряды возлагалась не только защита армянских селений, но, главным образом, разгром азербайджанских населённых пунктов вдали от арены борьбы армян с мусульманами. Эти отряды обрушивались на беззащитные мусульманские сёла и громили их дотла. В качестве примера приводился ряд сёл Охчинского ущелья, с. Горс Зангезурского уезда (2, л. 47).

Наиболее драматические события в истории зангезурской резни произошли в селе Катар. 1 августа 1906 г. армяне окружили село и начали обстрел. Положение жителей-азербайджанцев усугублялось тем, что Катар был со всех сторон окружён армянскими сёлами, что, фактически, делало невозможным спасение. В таких условиях единственным способом остановить натиск армян были решительные действия против них полиции и казаков. Однако события в Катаре наглядно и уже в очередной раз подтвердили не только их бездействие, но и открытую поддержку армянам. В частности, когда один из полицейских чинов обратился к приставу Сахарову со словами: «Вы же видите, что мусульман обстреливают. Нельзя ли вызвать находящихся на окраине села казаков, чтобы они защитили их?», тот ответил: «Я не могу защищать мусульман, не видишь разве, какой огонь ведут армяне?» (7, с. 166). Цинизм Сахарова проявился и тогда, когда он отказал старейшинам кочевых племён, переселившихся в Катар, в просьбе дать возможность уйти из села под защитой войск. Позднее же пристав, мировой посредник и казаки перешли в армянское село Барабатум, оставив, фактически, катарцев один на один с дашнаками (7, с. 167).

Осада и обстрел армянами Катара продолжались до 9 августа. Благодаря стойкости защитников села, дашнакам в течение более 10 дней не удавалось захватить его. Село было захвачено армянами 9 августа в результате наступления, поддерживаемого казачьими частями. Местное мусульманское население было вырезано, а выжившие спаслись бегством и укрылись в соседнем селе Келледаг (7, с. 170). М.С.Ордубади в своём описании последнего дня селения Катар приводил рассказ очевидца, который 9 августа тайком пробрался туда из села Халадж: «Когда я, пройдя рудничный рынок, приблизился к Катару, мне открылась странная картина. Над селом клубился дым, Катар был окутан туманом. Нигде не было видно ни огонька, даже вспышки спички. Не слышны были голоса ни животных, ни людей, окутанное мраком село было погружено в кошмарное безмолвие. Изредка оттуда доносились какие-то звуки, похожие на плач грудных детей, что говорило о том, что жители Катара не спят. Иногда до меня доносились причитания, сводившие меня с ума. Печальные звуки плача в кромешной тьме растворялись в этом безмолвии природы, и эхо их разносилось вокруг. Казалось, горы, окружающие село, как коленопреклонённые родители, стонали, оплакивая погибших сыновей. Я долго слушал в темноте наступающего утра страшные, душераздирающие причитания матерей, я был удивлён и подавлен, но ещё более – охвачен страхом и ужасом, хотя против своей воли продолжал идти. Может быть, на звуки причитаний? Не знаю! Но хоть я и шёл, страх всё сильней овладевал мною. Наконец, я дошёл до оставленных без защиты укреплений мусульман. Здесь всё ещё валялись вперемешку пустая посуда от воды, пустые ящики для патронов. Я чувствовал сильный запах пороха, впитавшийся в камни. Увидев вдалеке армян, готовых захватить село, я побежал через горы в деревню Келледаг» (7, с. 169).

После разгрома Катара дашнакские отряды перешли в наступление в направлении сёл Охчу и Шабадин. Бои, продолжавшиеся с 9 по 12 августа, завершились для армян неудачно:

жителям Охчу не только удалось отстоять село, но и обратить противника в бегство. Отступив в село Гиджалан, армяне стали строить там укрепления и готовиться к обороне. Однако Гиджалан был захвачен отрядами азербайджанской самообороны (7, с. 176).

1905-ci ilin yanvarında erməni millətçilərinin ilk hədəfi İran və Türkiyə ilə sərhədboyunda yerləşən Azərbaycan kəndləri oldu.Tez-tez sərhədləri adlayaraq yerlərini dəyişən və sərhədin digər tərəflərindəki silahdaşları ilə birləşən erməni quldur dəstələri burada yaşayan azərbaycanlıları qətlə yetirməyə başladılar. Osmanlı hökuməti "yolunu azan bu erməni quldur dəstələrini cəzalandırmaq" [7,226/56], eləcədə daşnak rəhbərlərindən Rusiyalı Nikolay Perilanet, Trabzonlu Artaşes və bir neçə fədainin Bakıdan Salmasın Kaleşər qəryəsinə gəlmələri ilə bağlı toplanan erməni fəsadçılarının təcavüzlərinin qarşısının alınması üçün tədbirlər görməyi nəzərdə tuturdu [1,185/44].

1905-ci ilin fevralında erməni-azərbaycanlılar arasında gərginlik son həddə çatdı və şəhərdə atəş səsləri eşidilməyə başladı. Tədricən Bakı şəhəri və onun ətraf rayonları erməni millətçilərinin təhriki ilə iki millət arasında döyüş meydanına çevrildi.Məlumdur ki, erməni millətçiləri bu döyüşlərə XIX əsrin 90-cı illərində qurulan terror təşkilatlarının köməyi ilə daha hazırlıqlı və təşkilatlı şəkildə başladılar. Pərakəndə halda döyüşlərə başlayan azərbaycanlılar az vaxt içərisində müdafiəni təşkil etməyə və güclərini birləşdirməyə nail oldular.

Bakıda qanlı hadisələr bir müsəlmanın erməni əsgəri tərəfindən qəddarcasına öldürülməsindən sonra başlanmışdır. Fevralın 7-də daha otuz beş nəfər qətl olunmuşdur.Sonrakı gün ermənilərlə mü-

səlmanlar[1] arasındakı gərginlik son həddə çatmış, meyitlər belə küçələrdə qalmışdır. Bütün gün silah səsləri kəsməmiş, yüz nəfərin qətlə yetirildiyi təsbit olunmuşdur [9, s.120-129]. Balaxanıda da iğtişaşlar bütün günü davam etdiyindən qubernator ruhanilərin də daxil olduğu erməni və azərbaycanlılardan ibarət nümayəndə heyətini oraya ezam etmişdir. Hadisələr qarşısında "aciz qalan Balaxanı polisi istefa etmək məcburiyyətində qalmışdır" [9,s.120-129]. Yalnız bəzi məmurların tələbi ilə şəhərə qüvvə yeridilmiş və fevralın 12-də şəhərdə asayiş bərpa olunmuşdur. Həmin gün xalqı sakitləşdirmək üçün axşama kimi şəhəri gəzən qubernator əhaliyə xitabən bir bəyannamə nəşr edərək "şayiələrə etimad edilməməsini tövsiyyə etmiş və əhalinin axşam saat səkkizdən sonra küçələrə çıxmasını qadağan etmişdir" [9,s.120-129]. Fevralın 13-də Qafqazın Şeyxülislamı da Tiflisdən gələrək xalqa müraciət etmiş, öyüd-nəsihətlərini söyləmiş, ermənilərin baş kilsəsini ziyarət etmiş ve digər tərəfdən də erməni yepiskopu camii-şərifi ziyarət etmişdir. Qubernatorun rəhbərliyində bir ianə cəmiyyəti təşkil edilmişdi [9,s.120-129]. "Novel dö Bakü" qəzetinin təxmininə görə iğtişaşlarda on beşi rus, yəhudi, gürcü və bir nəfəri alman olmaqla ölənlərin sayı beş yüz nəfərə çatmışdır [9,s.120-129].

1905-ci ilin sentyabrında Bakıda qırğınların davam etdiyi, döyüşlərdə ermənilərlə bərabər rus əsgərlərinin də iştirak etdiyi, silahsız xalqa qarşı topdan istifadə edildiyi haqqında məlumatlar öz əksini tapmışdır. Eyni zamanda döyüşlərdə çox böyük dağıntının olduğu və neft quyularının tamamilə yararsız vəziyyətə düşdüyü də Osmanlı sultanına təqdim olunan hesabatdan aydın görünməkdədir [8,s.245-247]. "Tayms" qəzetinin öz səhifəsində Bakıda baş verən sentyabr qırğınlarına yer ayırması hadisələrin geniş miqyas aldığını göstərməkdədir. Sənədlər həmçinin qəzetin Bakı hadisələri ilə bağlı verdiyi yazının sonuna təxribati xarakter daşıyan bir bölümün əlavə etdiyini qeyd edir [2,492/108]. Sentyabr qırğınlarından sonra Bakı şəhərini ziyarət edən Qafqaz canişini müsəlman və erməni din xadimlərindən ibarət heyətlə şəhər rəhbərliyini qəbul edərək "asayişin təmin edilməsi üçün məsləhətlər vermiş, günahkarların cəzalandırılacağını vəd etmişdir". Daha sonra Gəncəyə gedən canişin oradakı məscid və kilsəni ziyarət etdikdən sonra Tiflisə geri qayıtmışdır [10, s.166-167]. Qafqaz canişininin Bakı ziyarəti əsnasında şəhər xəstəxanasının həyətində toplanan dörd min nəfərə qədər erməni yoldan keçən müsəlmanlara, piyada əsgərlərə və kazaklara atəş açmış, buna cavab olaraq əsgərlər də xəstəxananı topa tutmuşdular [ 9,s.178-183]. Məlumdur ki, 1905-ci il fevralın 26-da isə Qafqazda canişinlik sistemi bərpa olundu. Rusiyanın Cənubi Qafqaza təyin etdiyi canişin Voronsov-Daşkovun ikiüzlülüyü, ermənipərəst siyasət yürütdüyü heç kəsə sirr deyil.

Erməni terrorçularının silah əldə etmək üçün müxtəlif vasitələrdən istifadə etdikləri və əldə edilən silahları müsəlman əhaliyə qarşı çevirdikləri göz önündədir. Arxiv sənədləri Tiflis və Bakıdakı erməni komitəsi üzvlərinin 1905-ci ilin aprel ayında İsveçrədəki erməni mərkəzinin əmri ilə Osmanlıda olan komitələrə yardım etdiyi və Qafqazdakı fədailərə silah almaq məqsədilə pul topladığını təsdiq edir. Bununla bağlı Osmanlı hökuməti erməni komitələri haqqında təhqiqat aparılmasını lazım bilmişdir [1,196/23].

Döyüşlərin davam etdiyi bir vaxtda Bakıdakı Salyan Alayının silah-sursat anbarının altında ermənilərin silah oğurlamaq məqsədi ilə istifadə etdikləri tunelin aşkarlanması geniş əks-səda doğurmuş və bu Qafqazın rəsmi qəzetlərində öz əksini tapmışdır [9,s.196-198]. Erməni terrorçularının nəinki cəzasız qalması və hətta çar hakim dairələri tərəfindən himayə olunması da şübhəsizdir. Günahkarların cəzalandırılmaması isə yeni qanlı hadisələrin baş verməsinə səbəb olurdu. Elə 1905-ci il mayın 30-da Osmanlı padşahına sui-qəsd cəhdində adı keçən Levon Paşaliyanın Bakıda gizlənməsi[4,2674/200497] də şəhərdə kriminal vəziyyətin ağırlığından xəbər verməkdədir. Qanlı qırğınlar hətta Bakıdakı Bayıl həbsxanasına da sıçramış və orada ermənilərlə müsəlmanlar arasında qanlı toqquşmalar baş vermişdi [9,s.148-152].

Bakıda qanlı hadisələrin qarşısını almamış, döyüşlər 1905-ci ilin sonuna kimi davam etmişdir. Hətta hadisə yerinə gələn qubernator Baranovskinin də ermənilər tərəfindən yaralandığı, əsgərlərə atəş açıldığı qeyd olunmaqdadır. Müasirlər Bakının hər yerini alov bürüdüyünün, üç yüzdən çox neft quyusu və hovuzunun yanmaqda davam etdiyinin , əsgərlərin Balaxanıda toplardan istifadə etdiyinin şahidi olmuşlar [8,s.169-173].

[1] Müsəlmanlar dedikdə azərbaycanlılar nəzərdə tutulur

Erməni millətçilərinin törətdiyi qırğınlar Bakı ilə yanaşı Azərbaycanın bir çox bölgələrini, həmçinin azərbaycanlıların yaşadığı Tiflis, Batum, Borçalı,Qars və digər əraziləri də əhatə etmişdir. İrəvan, Naxçıvan, Gəncə, Şuşa erməni terrorçularının vəhşiliklərindən daha çox ziyan çəkən bölgələr olmuşdur. 1905-ci ildə başlayan qanlı hadisələr 1906-cı ildə də davam etmişdir.

Bakı hadisələrindən sonra İrəvan və Naxçıvanda ermənilərlə azərbaycanlılar arasında münasibətlər həddindən artıq kəskinləşmiş və artıq mübarizənin hansı formada aparılacağından bəhs olunmaqda idi [11,s.243-251]. Artıq 1905-ci ilin martından İrəvan vilayətində yerləşən kəndlərin ermənilər tərəfindən yandırılması kütləvi hal aldı [2,500/6]. Ermənilərin İrəvan ətrafındakı müsəlman kəndlərinə qarşı hücumları Tiflisdə çıxan iki rus dilli qəzetdə də öz əksini tapmışdır [3,1331/5].

İrəvan və Naxçıvanda meydana gələn qarışıqlıqlar nəticəsində müsəlmanların öldürüldükləri və ağır vəziyyətə düşdükləri haqqında xeyli arxiv materialları vardır. 1905-ci il iyulun 7-də İrəvan və Naxçıvanda erməni millətçilərinin törətdikləri qırğınlar nəticəsində xeyli azərbaycanlı ölmüş, yaralanmış və kəndlər talan edilərək yandırılmışdı. Təbrizdə bu hadisələr haqqında yayılan xəbərlər şəhər əhalisinin hiddətinə və ermənilər üzərinə hücumuna səbəb olmuşdur [9,s.140-142]. Təbrizdə İrəvan və Naxçıvanda baş verən qırğınlara etirazlarını nümayiş etdirən şəhər əhalisinin bir qismi ermənilər üzərinə hücum etmiş və nəticədə ermənilər dükanlarını bağlayaraq evlərinə çəkilməyə məcbur olmuşlar [11,s.238-242]. İrəvan və Naxçıvan qəzalarında "ermənilərlə müsəlmanlar arasında meydana gələn çoxsaylı qətl, yaralanma və yanğınlarla müşayiət olunan silahlı toqquşmalar Batum və Tiflisdə də ermənilərlə müsəlmanlar arasında gərginliyə gətirib çıxardı" [9,s.142-148]. 1905-ci ilin sentyabrında "ittihadi-islam"ın təbliğinin keşiyində dayanan və ona çoxsaylı əsərlərini həsr edən dövrün tanınmış vəkili Məhəmmədqulu bəy İrəvanda ermənilər tərəfindən qətl olunmuşdur" [3,1378/23].

1905-ci ilin payızında İrəvanda qəzasında azərbaycanlı əhali ilə ermənilər arasında toqquşmaların coğrafiyası daha da genişlənmiş, hətta ermənilərin Osmanlı dövlət sərhədlərini keçmək ehtimalı nəzərə alınaraq yerli əhalinin qorunması üçün sərhəddə zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuşdu. [1,200/48]. Naxçıvan qəzasında isə "ermənilərlə kazaklar birləşərək şəhər və sərhədə yaxın ərazilərdə 300 nəfəri qətlə yetirmiş, evlərin hamısını talan edib yandırmışdılar" [3,1378, 104]. Hadisələr zamanı erməni millətçiləri casusların xidmətindən istifadə etmiş və çar məmurlarının himayə etdiyi həmin casusların yaxalanması isə müşkül məsələyə çevrilmişdi. Belə ki, 1905-ci ilin yayında "Rus həkimi kimi Naxçıvandakı sərhəd komandanlığına gələn Lazar adlı şəxsin sonradan casusluq etdiyi ortaya çıxmış, Osmanlı hökuməti onun haqqında təhqiqat aparılmasını uyğun görmüşdür" [6, 55/15]. Naxçıvanda bir erməninin evində dörd ədəd qumbaranın partlaması çar hakim dairələrinə məlum olsa da, cinayətkarların cəzalandırılması ilə bağlı vaxtında lazımi tədbir görülməmişdi [9,s.148-152].

1906-cı ilin əvvəllərində də İrəvan və Naxçıvan qəzalarında erməni millətçilərinin qanlı qırğınları davam etmişdir. Erməni terrorçuları azərbaycanlılara məxsus doqquz kəndi yandıraraq xeyli əhalini məhv etmiş və bir çoxlarını əsir götürmüşdülər. Ölənlər arasında yerli əhali ilə yanaşı çoxlu Osmanlı vətəndaşı da olmuşdur. Arxiv sənədləri Naxçıvanda ölənlər arasında on nəfər, Uluxanlıda isə iyirmi doqquz nəfər Osmanlı təbəəsinin olduğunu təsbit etmişdir. Qırğınlar zamanı erməni millətçiləri qırx nəfəri əsir götürmüş, əhaliyə bir milyon dəyərində maddi zərər vurmuşdular [11, s.268-272]. Osmanlı dövləti baş verən bu hadisələrin araşdırılması üçün Rusiya hökuməti qarşısında məsələ qaldırmışdır [9, s.183-186]. 1906-cı ilin yayında İrəvan əyalətinin bəzi yerlərində "erməni-müsəlman döyüşlərinin yenidən başladığı" da qeyd olunmaqdadır [9, s.198-201].

Yüzlərlə kəndin talan edilərək yandırılmasına və çoxsaylı insanın məhv olmasına baxmayaraq, çar hökuməti erməni millətçilərini cilovlamaq üçün təsirli tədbirlər görməmiş, qanlı qırğınlar aylarla davam etmişdir.Təhlükəsizlik qüvvələrinin acizliyi hər yerdə özünü göstərmişdir.

Rusiyanın Batum, İrəvan və Qars bölgələrində erməni quldur dəstələrinin tez-tez Osmanlı ölkəsinə hücum etməsini və ermənilərin yenidən sərhəddi keçməyə hazırlaşdıqları haqda xəbər alan Osmanlı dövləti bunun qarşısının alınması üçün Rusiyanın da bu məsələdə onlara kömək olmasını tələb edirdi [9,s.129-132]. Lakin bütün bu yazışmalara baxmayaraq, erməni millətçilərinin Osmanlı dövlətinə təcavüzü baş verməkdə davam edirdi [2,505/30;7,236/3]. Göründüyü kimi, erməni quldur dəstələri çarizmin laqeyd siyasəti nəticəsində sərhədləri çox asanlıqla aşaraq qanlı hadisələrə fəal müdaxilə edə bilirdilər.

1905-1906-cı il qırğınları zamanı ən çox zərər görən ərazilərimizdən biri də Gəncə bölgəsidir. Başbakanlıq Osmanlı Arxivlərində Gəncə qəzasında törədilən qanlı cinayətlərlə bağlı xeyli sənəd mühafizə olunmaqdadır. Bu sənədlər erməni millətçilərinin vəhşiliklərini bir daha ortaya qoyur. 1905-ci ilin iyununda erməni millətçilərinin Gəncə ətrafında yerləşən bir çox müsəlman evlərini talan edərək yandırmaları qanlı qırğınların bir nümunəsidir. Osmanlı hökumətinin bu hadisələrin qarşının alınması üçün lazımi tədbirlərin görülməsi ilə bağlı dəfələrlə Rusiyaya müraciət etməsinə [5,550/7] baxmayaraq, elə bir nəticə əldə edilməmişdi

Erməni millətçilərinin qəddarlığı və hadisələrin getdikcə daha geniş miqyas alması azərbaycanlı ziyalılarını bir sıra zəruri addımlar atmağa məcbur etdi. Belə tədbirlərdən biri də müsəlman xalqı təmsil etmək üçün "Gəncə, Bakı, Tiflis, Borçalı, Dağıstan ve Batum vilayətlərindən toplanan geniş bir heyətin bir sıra təkliflərlə Qafqaz canişini ilə görüşməsi oldu" [9,s.152-160]. Belə ki, 1905-ci ilin aprelində "Tiflis, İrəvan, Yelizavetpol (Gəncə-V.U.), Bakı və Şamaxı kimi əyalətlərin müsəlmanları öz istəklərini Rusiya hökumətinə çatdırmaq üçün nümayəndə heyətinin seçilməsini" həyata keçirmişdilər [3,1377,67]. 1905-ci il avqustunda canişin Voronsov-Daşkovla baş tutan bu görüşdə, canişin "qarışıqlıqları çıxaranların və hadisələri törədənlərin müsəlmanların olmadığını bildiyini söylədi. Ermənilər isə bunun əksinə, müsəlmanları hökumət, ictimaiyyət və mətbuat qarşısında gözdən salmağa çalışaraq canişinə verilən məlumatların uydurma olduğunu irəli sürdülər. Müsəlman heyəti canişinə müsəlman xalqa təhsil xidmətlərindən istifadə etmə, ana dilində mətbuat, torpaq islahatının sürətləndirilməsi, vergilərin yüngülləşdirilməsi, müsəlmanların da təmsil olunduğu məclisin qurulması, zadəganlıq hüququnun tanınması və s. kimi bəzi hüquqların verilməsini nəzərdə tutan ərizə təqdim etdilər". Azərbaycanlı, erməni və gürcü heyətlərinin bir araya gəldikləri bu görüşdə belə ermənilərin "müsəlmanlara qarşı təhdid və həqarətli sözlər söylədikləri" diqqətdən yayınmadı. [9,s.152-160].

1905-ci il sentyabrın 24-də "Gəncə əyalətinin Cavanşir qəzasında ermənilərlə müsəlmanlar arasında meydana gələn döyüşlərdə doqquz nəfər qətlə yetirildi" [9,s.167-169]. Qeyd edək ki, bu qəzada kazak dəstələri bəzi şəxsləri at nalları altında qətlə yetirmiş və bu dəhşətli xəbəri Bakıda nəşr olunan "İrşad" qəzeti xalqa çatdırmağı lazım bilmişdir [9,s.190-192].

Gəncə qəzasında azərbaycanlıların yaşadıqları kəndlərə hücum edən erməni quldur dəstəsi daha səkkiz nəfərin ölümünə səbəb oldu. Erməni quldur dəstəsinin "Osmanlı ölkəsinə girişinə mane olunması və həmin səkkiz nəfəri öldürən quldur dəstəsinin yaxalanaraq cəzalandırılmasının Rusiya hökumətinin vəzifəsi olduğu" Osmanlı dövləti tərəfindən rəsmən onlara çatdırılmışdır. Habelə qeyd olunan sənəddə iki kənddə səkkiz nəfəri qətl edən həmin quldur dəstəsinin İrəvan əyalətində olan digər bir erməni quldur dəstəsi ilə birləşərək Osmanlı sərhədlərini keçmə ehtimalına qarşı tədbirlərin görülməsi də nəzərdə tutulurdu [10,s.169-170].

Çar hökumətinin hadisələrə laqeyd yanaşması və qanlı qırğınların qarşısının alınmaması erməni millətçilərini yeni cinayətlərə sövq etməkdə idi. Belə ki, 1905-ci ilin sonlarında Gəncədə ermənilərin daha "300 müsəlman evini yandırdıqları, erməni məhəllələrindəki müsəlman evlərini talan etdikləri və müdafiə olunan müsəlmanların üzərinə əsgərlərin atəş açdığı" Tiflisdən daxil olan xəbərlər arasındadır [3,1378/92]. Müsəlman əhalinin müdafiə olunmaq istəməsi isə "topçu və süvari ordunun xalqa atəş açmasına" səbəb olmuşdur [8,s.249-250]. Bu hadisələrdən sonra "Gəncədəki müsəlman xalqın can və mallarının qorunması üçün Rusiya hökuməti ilə əlaqə saxlanılması barədə Osmanlı padşahının əmri" Xarici İşlər Nazirliyinə təqdim olunmuşdur [12,s.220-222].

1906-cı ilin əvvəlində erməni quldur dəstələrinə aid dinamit anbarları aşkar edildi və bu anbarların tək-tək bütün ünvanları Türkiyənin Sankt-Peterburq səfiri Hüsnü Bəy tərəfindən Rusiya Xarici İşlər Naziri Lamsdorfa bildirildi və o isə bundan son dərəcə razı qaldığını bildirərək bu işə məsul şəxsləri xəbərdar edəcəyini söylədi [10,s.174]. Həmin ilin martında "Qafqaz müsəlmanlarının faciəsində iştirak etmək üçün Ərzurum vilayətindən səkkiz yüz erməni fədaisinin Gəncə şəhərinə daxil olması" yenidən gərginliyin meydana çıxmasına səbəb oldu[12, s.222-224]. 1906-cı ilin iyulunda "Gəncə əyalətinin bəzi yerlərində erməni-müsəlman döyüşlərinin yenidən başladığı" da Tiflis səfirliyindən alınan xəbərlər içərisində yer almaqdadır [9,s.198-201].

Qanlı hadisələr Bakı, İrəvan, Naxçıvan, Gəncə ilə yanaşı Qarabağda da geniş vüsət almışdır. Erməni quldur dəstələri Şuşa bölgəsində xüsusi fəallıq göstərmişlər. Sənədlərdə Şuşa kəndlərində də

mübarizənin davam etdiyi, öldürülənlərin sayı ilə bağlı məlumatlar öz əksini tapmışdır [3,1378/18]. Eyni zamanda Şuşada müsəlmanlarla ermənilər arasındakı münasibətlərin getdikcə gərginləşdiyi bir vaxtda, qarışıqlığın çıxmaması üçün yerli azərbaycanlı ziyalıları tərəfindən bəzi tədbirlərin görülməsi [9,s.167-169] təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Lakin görülən tədbirlərin birtərəfli olması nəticəsində qanlı hadisələrin qarşısını almaq mümkün olmamış, bir çox günahsız insan məhvə düçar olmuşdur. 1905-ci il avqustun 31-də "ermənilər Şuşada səksən bir nəfər müsəlmanı qətlə yetirmişlər" [3,1378/13]. Bu qətliam sonrakı günlərdə də davam etmişdir [5,1378/14]. 1905-ci il oktyabrın 4-nə aid arxiv sənədində deyilir: Yelizavetpol (Gəncə) əyalətinin Şuşa qəsəbəsində ermənilərin müsəlmanlar üzərinə hücumu nəticəsində bir çox müsəlman qətlə yetirilmiş, hökumət asayişi təmin etmək üçün ora əsgər göndərmiş, Şuşada baş verən yanğın böyük zərərə yol açmışdır" [8,s.247-248]. Ağdam və Şuşa arasındakı qırx kilometrlik teleqraf xətti sıradan çıxarılmışdı [9,s.169-173].

Şuşa qəzasında da baş verən qanlı hadisələrin qarşısının alınması üçün çarizmin ciddi tədbirlər görməməsi heç də təəccüblü deyildir. Digər bölgələrdə olduğu kimi burada da lazımi tədbirlərin görüləcəyi barədə vədlər verilir, hər iki xalqın nümayəndələri ilə görüşlər keçirilir, amma ciddi addımlar atılmırdı. 1906-cı ilin fevralın 29-da da ermənilərin Gumlu, Söyüdlü və Ərikdamı kəndlərindəki müsəlmanlara edilən hücumların qarşısının alınması üçün rus hökuməti tərəfindən lazımi tədbirlərin görülməsi haqqında verdiyi vədin də heç bir nəticəsi olmamışdır. Çünki belə bir şey olsaydı, bundan az sonra ermənilər Şuşada daha on doqquz kəndi yandırmağa cürət etməzlərdi [9,s.186-190]. Belə ki, 1906-cı il fevralın 5-də Şuşada ermənilərin azərbaycanlı kəndlərini mühasirəyə alaraq ərzağın giriş-çıxışına mane olmuş, bu səbəbdən aclıq çəkən müsəlmanların itki verdikləri, iki erməni, on doqquz müsəlman kəndinin yandırıldığı qeyd olunur [3,1378/34]. Cinayətkar erməni quldurlarının yaxalanması ilə bağlı Osmanlı polisinin bir sıra tədbirlər həyata keçirdiyi və bu tədbirlərdən biri də Şuşadan olan cinayətkar Vartan Varşak adlı şəxsin kimliyi və olduğu yerin təsbiti ilə bağlıdır. Qeyd edək ki, Osmanlı polisinin cinayəkarların axtarışı ilə bağlı tərtib etdiyi siyahıda Matosyan, Mkrtıç Apermiyan, Agaton və Sitrak Terbiyanlar, Çırak Bərbəryan, Martiros Manukyan, Simon və başqa quldurların da adları vardır [6,592/137].

1906-cı ilin mayında erməni millətçilərinin Daşnaksütyun adlı terrorçu təşkilatının müsəlmanları hədəfə aldığı, hökumətin ya bu təşkilatı dağıtması və ya müsəlmanların da silahlanmasına icazə verilməsi ilə bağlı müzakirə açmasına cavab olaraq bir qrup erməni "Yal qışlağına" hücum etmişdi. Bu hadisə, eləcədə "müsəlman xalqın belə hücumlardan qorunması üçün rus hökumətinə müraciət edilməsi" nəzərdə tutulurdu [9,s.192-196].

Qanlı hadisələr tezliklə Tiflis və Batuma sıçramış, Tiflisdə işçilər tərəfindən üsyan məqsədi ilə törədilən tətil, nümayiş və qarışıqlardan sonra vəziyyət xeyli gərginləmişdi [9,s.120-129]. Nəticədə, Tiflis şəhərində asayiş ortadan qalxmış, talan, hücum, cinayət və soyğunçuluq hadisələri insanların gözü qarşısında baş verməsinə baxmayaraq, təhlükəsizlik qüvvələri buna mane olmamışdır [9,s.198-201]. Tiflisin Borçalı qəzasındakı müsəlmanların müdafiəsiz qalmalarına baxmayaraq, hər növ silah əldə edən ermənilər kəndlərdə hərbi hazırlıq təlimləri həyata keçirirdilər [9,s.186-190]. Müdafiəsiz qalan və hüquqları qorunmayan azərbaycanlı əhali Tiflisdə toplantı keçirərək, əgər "hüquqları Rusiya hökuməti tərəfindən qorunmazsa İran şahı və Padşahdan himayə istəmələri ilə bağlı qərar qəbul etmişdilər" [3,1378/17].

Göründüyü kimi, Başbakanlıq Osmanlı Arxivlərində olan sənədlər 1905-1906-cı illərdə Azərbaycanda baş verən qanlı hadisələri çox yaxından izləməyə imkan verirr. Məlum olduğu kimi, bu qırğınlarlın nəticəsi çox ağır olmuş, yüzlərlə kənd dağıdılmış, minlərlə insan məhv olmuş və on minlərlə soydaşımız öz yurd-yuvasından didərgin düşmək məcburiyyətində qalmışdır. Baş verən qırğınların əsas səbəbkarı şovinist erməni millətçiləri, onların təmsil olunduqları terrorçu Daşnaksütyun və digər erməni millətçi partiya və təşkilatları, habelə onlara yetərincə maddi-mənəvi dəstək verən çar Rusiyası olmuşdur. Çar hakim dairələri hər iki xalqı yeni başlayan birinci rus inqilabından kənarda saxlamaq üçün onların arasına qanlı nifaq salmaqdan çəkinməmiş və demək olar ki, bu qırğınların gedişini çox laqeydcəsinə kənardan müşahidə etməklə kifayətlənmişdir. Bununla da çarizm Cənubi Qafqazda demək olar ki, özünün əsas istəyinə nail olmuş və inqilab, necə deyərlər, başlamadan sona çatmışdır.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Başbakanlıq Osmanlı Arşivleri (BOA), fond DH.TMİK.M.
2. BOA,fond Y.A.HUS
3. BOA, fond HR.SYS
4. BOA,fond BEO
5. BOA,fond A.MKT.MHM
6. BOA,fond ZB
7. BOA,fond Y.PRK ASK
8. Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) I (1578-1914) Ankara 1992
9. Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy), II (1575-1918) Ankara 1993
10. Osmanlı Belgelerinde Ermeni-Rus İlişkileri (1899-1906), II, A nk a r a 2 0 0 6, 232 s.
11. Osmanlı Arşiv Belgelerinde Nahçivan, İstanbul 2011, 568 s.
12. Osmanlı Belgelerinde Karabağ, İstanbul 2009, 682 s.


## ACTIVITIES OF ARMENIAN TERRORISTS IN AZERBAIJAN IN 1905-1906 IN THE OTTOMAN ARCHIVE DOKUMENTS
## SUMMARY


In the article written on the basis of the Prime Ministry Ottoman Archives materials are reflected the massacres committed by Armenian nationalists in Azerbaijan in 1905-1906. Indifference of Tsarist Russia to the events led to the large-scale massacres. Those years Baku, Yerevan, Nakhchivan, Ganja were the most affected regions by terrorist massacres. Hundreds of villages were destroyed, thousands of people were killed, tens of thousands of people were driven from their native lands.

Documents relating to the massacres committed by Armenian nationalists are protected in the Funds of Ottoman Archives.


## ДЕЯТЕЛЬНОСТЬ АРМЯНСКИХ ТЕРРОРИСТОВ В АЗЕРБАЙДЖАНЕ В 1905-1906 ГОДАХ В ОСМАНСКИХ АРХИВНЫХ ДОКУМЕНТАХ
## РЕЗЮМЕ


В статье, написанной на основе материалов Османского архива при Кабинете министров Турецкой Республики освещается массовая резня мусульманского населения, совершенная армянскими националистами в Азербайджане в 1905-1906 гг. Равнодушие царской России к происходящим событиям привело к более широкомасштабным погромам. В те годы Баку, Иреван, Нахчыван, Гянджа были регионами, наиболее подверженными террористическим погромам и грабежам. Сотни сел были разрушены, тысячи людей были уничтожены, десятки тысяч людей были изгнаны из своих родных очагов.

В фондах архивов Османской Империи содержатся документы о резне и погромах, учиненных армянскими националистами.

*T.ü.f.d.* **İradə MƏMMƏDOVA**
*AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi*

# ERMƏNİLƏRİN TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI TÖRƏTDİYİ SOYQIRIMLAR ŞAHİDLƏRİN İFADƏSİNDƏ

**Açar sözlər**: Türk-müsəlman əhali, soyqırım, şahidlərin ifadələri, Leonadr Hartill, daşnaklar
**Keywords:** Turkish-Muslim population, genocide, witnesses, Leonard Hartill, dashnak
**Ключевые слова**: Тюрко-мусульманское население, геноцид, свидетельские показания, Леонард Хартилл, дашнаки

Ermənilərin XX əsrin əvvəllərində türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar öz dəhşəti, miqyası, qəddarlığı ilə seçilmişdir. Bu soyqırımı şahidlərin ifadələri də təsdiq etməkdədir. Əgər bu soyqırımı ermənilər özləri öz dilləri ilə etiraf edirlərsə, bir fakt olaraq onların ifadələri beynəlxalq aləmdə daha tutarlı olur. Amerikalı Leonard Ramsden Hartillin 1928-ci ildə Amerikada "The Bobbs – Mereill Company" nəşr evində çap etdirdiyi "**Men Are Like That**" (İnsanlar belədir[1]) əsəri ermənilərin dili ilə onların türk-müsəlman əhaliyə qarşı soyqırım törətdiklərinin ifadə edildiyi bir kitabdır (2; 3). Leonard Hartill uzun müddət Qafqazda xidmət etmişdir. 1922-ci ilin fevral ayından 1924-cü ilin mart ayına qədər Qafqazda kənd təsərrüfatının inkişafı üçün vəzifəyə təyin edilən Leonard Hartill erməni Ohanes Apresyanla tanış olur və bu kitabda onun yazmış olduğu xatirələrini təqdim edir. Kitabın sonuna ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımını sübut edən bir neçə sənəd də əlavə edilmişdir: "**tarixi və hüquqi dəyəri sıfır olan rəvayət və dedi-qoduları, siyasi məqsədli erməni qəzet məqalələrini insanlıq və mədəniyyət uğrunda sənəd deyə nəşr edən İngiltərə hökuməti, bir neçə il sonra əlində ermənilərin törətdiyi və dünya tarixində bir misli olmayan soyqırıma aid kitabın sonuna əlavə etdiyim açıqlamada oxuyacağınız birbaşa ingilis zabit və komandirləri tərəfindən hazırlanmış rəsmi raportlar olduğu halda, niyə susmuş və bu raportları gizləmişdir**?" (3, s. VII).

Kitabda erməninin şahidliyi ilə baş verən hadisələrin təsvirində soyqırım törədən erməni quldur dəstələrinin fəaliyyəti, onların türk-müsəlman əhaliyə qarşı vəhşiliyi, qəddarlığı və cinayətləri açıq şəkildə ortaya qoyulmuş olur. Kitabın ən qiymətli cəhəti isə məhz Leonard Hartillin ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi cinayət, vəhşilik və qətliamı ***soyqırım (genosid)*** olaraq dəyərləndirməsidir. Bu da genosid sözünün sonralar meydana gəlməsi ilə bağlı fikirlərə tutarlı cavabdır. Bəli, 1928-ci ildə nəşr edilən bu kitabda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri məhz ***soyqırım*** adlandırılır.

Leonard Hartill yazırdı: "*İnsanlar belədir* kəlməsini sadəcə bu kitabda bir çox misallarını görəcəyiniz insanların öz həmcinslərinə qarşı törətdikləri canavarlıqların bildirilməsi cəhətdən deyil, eyni zamanda dini inancların, dini təbliğatların, siyasi oyunların və siyasi intriqaların, imperialist məqsədlərin insanları bir-bir və ya kütlə halında nə dərəcədə kor edə biləcəyi, nə qədər məqsədli və birtərəfli düşündürə biləcəyini, bilərəkdən və ya bilməyərəkdən dini və siyasi təbliğata uya biləcəyini göstərməsi cəhətdən də çox uyğun bir başlıq ola biləcəyinə inandım" (3, s. III).

Leonard yazırdı ki, yenə eyni məzmunda missionerlərin, dini təbliğatçıların və Birinci Dünya müharibəsi zamanı ilk olaraq "Armenian Relief" Erməni Yardımı adı ilə qurulmuş və sonra adı Yaxın Şərq Yardımı "Near East Relief" adını almış xeyriyyəçi dərnəyin nəşrləri və türk düşmənliyi təbliğatı da yaxşı bilinir. Leonarda görə bu din və Allah adamları (erməniləri nəzərdə tutur – İ.M.), xeyriyyəçi gizli dərnək üzvləri və səlahiyyətlilərinin yunan və ermənilərin özlərinə çatdırdıqları hər zülm və qətliam hekayəsini həqiqət olub olmadığına, təhrif edilib edilmədiyinə, şişirdilib şişirdilmədiyinə heç baxmadan bunları Qərb və xristian aləminə çatdırmağı dini və insanlıq vəzifələri sayırdılar. "Qərb mətbuat orqanları bu xəbərlərə comərdcə öz səhifələrini açmışlar. Qərb kilsələrinin kürsülərinin bu gələn təhrif edilmiş və şişirdilmiş xəbərləri təkrar şişirdilmiş və təhrif edilmiş moizələrlə çığır-bağır salmışlar. Və bütün bunlar dinə, Allaha və insanlığa xidmət sayılmışdır". Leonard sonra

[1]Şəxsi ktabxanasındakı kitabın surətini mənə verdiyi üçün Celal Yalvaca dərin təşəkkürümü bildirirəm.

davam edərək yazırdı ki, **Ermənistanın bir ucundan o biri ucuna, kəndindən şəhərinədək bütün türk və müsəlman əhalisi dünyada tayı-bərabəri görülməmiş qorxunc bir soyqırımla (genosidlə) yox edilir, kənd və məhəllələr yerləyeksan edilirkən**, bu din və xeyriyyəçi adlanan yüzlərlə insan Ermənistanda vəzifədə idi. "**Bu kitabı nəşr edən kənd təsərrüfatı mütəxəssisi istisna olmaqla, bunların gözləri kordurmu? Qulaqları kardırmı? Yoxsa dilləri və ayaqları tutulmuşdur?** Xeyr, bunların heç biri olmamışdır. Hamısı maşallah sağ və salamat idi. Ermənilər acından ölərkən, bunların bol-bol qidaları da var idi. Sadəcə bu adamların din, xeyriyyə və insanlıq anlayışları özlərinə görə idi. Bunlar üçün zülm, qətliam, soyqırım demək sadəcə müsəlmanın xristiana bunu etməsi, daha doğrusu xristianın onlara bunu bizə müsəlman etdi deməsidir. Təbii ki, onlar üçün xristian yalan deyəcək deyildi. Doğru və ya səhv, belə xəbər onlara çatanda qaraqışqırıq salmaq lazım idi. **Bunun əski olanda, yəni xristian müsəlmanı ən vəhşi və qəddar şəkildə yox edəndə bu din və Allah adamları üçün bunun çox da əhəmiyyəti yox idi. Bu onların lüğətində zülm, qətliam, soyqırım sayılmazdı... Xristianın türkü və müsəlmanı yox etməsi köpəyin insanı dişləməsi kimi dəyəri olmayan bir xəbərdir**". Leonard erməni kilsələri və rahibləri sadəcə ianə toplamaq üçün ermənilərə qətliam edilməsi kimi məlumatları şişirdiklərini, bu zaman onların xeyriyyəçilərinin kisələrinin ağzını səxavətlə açdıqlarını, türk və müsəlmanların soyqırım edilməsi kimi xəbərlərin onlara heç kimdən 10 para toplamağa imkan yaratmadığı üçün əhəmiyyətsiz olduğunu vurğulayırdı (3, s. IV-VI.).

Leonard Hartill ermənilərin türk-müsəlmanlara olan nifrətini belə bir səhnə ilə də təsvir edirdi. O, erməni Ohanes ilə birlikdə Rusiya Ermənistanın İran sərhədinə yaxın hər tərəfi xaraba qalmış, içinə sığına bilinəcək tək bir tikilinin yarıuçuq məscidi olan tatar (Azərbaycan) kəndində gecələməyə məcbur olur. Leonard Ohanesdən bu kənd haqqında, onun niyə xaraba qalması haqqında bir şey bildiyini soruşur. Ohanesin soyuqqanlı və əhəmiyyətsiz bir şey haqqında danışırmış kimi "bəli" deməsi Leonardı təəcübləndirir. Ohanes Apresyan ona "bu kəndin dağıdılmasına və talan edilməsinə mən də yardım etdim. Xarabalıqlar arasında orada burada gördüyün insan sümüklərinin sahiblərinin öldürülməsini öz gözlərimlə gördüm. Bu kənddə bir tatar (Azərbaycan türkü - İ.M.) vardı. Ahıl adamdı. Bu tatar kimi cəsur və qəhrəman bir insanı ömrümdə görmədim. Hətta rus ordusundakı köhnə alayımda belə (3, s. III-IV)".

Ohanes Apresyanın yazdıqlarından açıq görünür ki, Rusiyanın əsas məqsədi İstanbulu ələ keçirmək olmuş və bu istiqamətdə ermənilərdən bir vasitə kimi istifadə etmişlər. Apresyana görə Rusiya imperiyasındakı ermənilər çarın siyasətinin qurbanları idilər. Türkiyədəki ermənilər isə amerikalılar, fransızlar və almanların yardımı ilə təhsil və mədəniyyət baxımından daha irəlidə idilər, adı çəkilən ölkələr ermənilərin faydalanması üçün Türkiyənin bölgələrində məktəblər, kolleclər açmış və məhz bu səbəbdən də Türkiyədə daşnak təşkilatı daha tez inkişaf etmişdi. Apresyan bunu Türkiyədə ermənilər tərəfindən qurulmuş və Türk hökumətinə qarşı silahlı müqavimətə hazır olan gizli bir hökumət kimi dəyərləndirir: "**Bu gizli hökumətin özünün məhkəmə orqanları, qanunları və bu məhkəmə qərarlarını yerinə yetirən "Mauseritlər" adı verilən sui-qəsdçilər ordusu (professional qatillər) var idi** (3, s. 79-80)". Bu məlumatdan bu qatillər ordusunun yaradılmasında Amerika, Fransa və Almaniyanın əlinin olması açıq-aşkar görünür.

Apresyan 28 may 1918-ci ildə yaranmış Ermənistan hökumətini idarə edən daşnakların terror taktikasından, hətta onlarla eyni fikirdə olmayan ermənilərə qarşı belə geniş istifadə etdiklərini yazırdı (3, s. 89).

Apresyan Aleksandropolda (Gümrü) yaşayan tatarların hökumətdən Türkiyəyə köçmələri üçün razılıq aldıqdan sonra Türkiyəyə köçləri zamanı Ermənistanı idarə edən daşnakların silahlı dəstələrinin yolda onlara pusqu quraraq qadın, uşaq və qocalar da daxil olmaqla onların necə soyqırıma məruz qoyduqlarını da təsvir etmişdir. Apresyan onu da qeyd edir ki, Ermənistanı idarə edən daşnaklar erməni əsgərlərinin bunu etməyəcəyini yaxşı bildiklərindən ərazini tərk edən tatar ailələrinin köçlərinin məhv edilməsi üçün məhz öz silahlılarını göndərmişdilər. Apresyana görə Gümrüdə olan tatarların kütləvi köç etməsi və Türkiyə sərhədinə gedən ən yaxın yolun onun alayının yerləşdiyi Severski qışlağından keçməsi türk-müsəlman olanlara qarşı həmişə kin bəsləyən daşnaklara onları qırmaq üçün bir fürsət kimi görünmüşdü. Tatar köçlərinin yolu üzərindəki pusquda daşnak silahlıları bütün ailələri qanına qəltan etmiş, Apresyanın olduğu kazarmadakı erməni əsgərləri işə müdaxilə edəndə

"**yalnız bir neçə tatarı qurtara bilərək, qatilləri oradan uzaqlaşdırdılar. Eyni gün Aleksandropolun tərk edilmiş olan tatar bölgəsi də talan edilib, yerləyeksan olacaq şəkildə viran edildi** (3, s. 96-97)".

Apresyanın guya erməni əsgərlərin bu soyqırımı gerçəkləşdirilməsinə razı olmamalarını yazmasına baxmayaraq, arxiv sənədləri bunun əksini sübut edir. Yaqub Şevki paşa erməni quldur dəstələrinin hücumlarının arxasında Ermənistan dövlətinin olduğunu və erməni əsgərlərin də bu quldur dəstələri ilə birlikdə hərəkət etdiyini bilirdi. Onu da demək lazımdır ki, türklərin Ermənistan dövlətinə verdiyi ultimatuma baxmayaraq, ermənilər hücumları davam etdirmişdi. Yaqub Şevki paşanın Mehmet Ali paşaya göndərdiyi teleqramdan məlum olur ki, ermənilər türk əhalini köçməyə məcbur etmək üçün türk kəndlərini top atəşi altında saxlayır, köçməyənləri qətl edirdilər. Andranik və qüvvələrinin Sərdarabad, Uluxanlı, Qars və ətrafında soyqırım törətmələrinə Mehmet Ali paşanın vaxtında xəbər verilməsi ilə qarşısı alınmışdı. Lakin bunlara baxmayaraq, 1918-ci ilin noyabrına qədər müxtəlif səmtlərdə 130 kəndin əhalisi təzyiq və təhdidlə köçməyə məcbur edilmiş, ermənilər İğdır, Sərdarabad və Naxçıvan məntəqələrində türkləri mənfi 30-40 dərəcədə şaxtada küçələrə atmışdılar. Soyqırım o qədər dəhşətli idi ki, İğdırda əhali uşaqlarını mənfi 10-15 dərəcədə şaxtada qarlar içində qoyaraq Osmanlı dövlətinə qaçmaq məcburiyyətində qalmışdı (5, s. 116-117).

Apresyan ermənilərin hər nə qədər məqsəd və çalışmalarında birləşmiş bir kütlə olmaqlarına baxmayaraq, Rusiyanın yardımı olmadan türklərə qarşı müdafiə oluna biləcəklərinin imkansız olduğunu vurğulayırdı. O, türklərin adı gələndə ermənilərdə bir qorxu və nifrət yaranması ənənəsinə malik olan ermənilərin bu səbəbdən türk əsgərləri ilə döyüş meydanında qarşılaşdıqları zaman cəsarətlərini itirib qorxuya düşdüklərini, türk və tatarlar üzərində qələbə çaldıqda isə amansız və vicdansız hərəkət etdiklərini yazırdı (3, s. 106-107).

Apresyan yazırdı ki, fanatik daşnaklar daha çox türklərlə düşmən idilər, ikinci sırada tatarlar, sonra isə ruslar gəlirdi (3, s. 162).

Apresyan Kağızmandakı birliyə göndərildikdən sonra onun bölgəsinin kənarında olan bir tatar kəndinin guya ətraf erməni kəndlərinə təhdid etdiyi üçün yola gətirməli olduğunu yazır. Erməni özü də etiraf edir ki, ətraf erməni kəndlərindən daha çox bu tatar kəndinin müdafiəyə ehtiyacı vardı. Erməni bu tatar kəndinin əhalisinin Türkiyəyə köçmək üçün icazə istədiklərini, Apresyanın əlində isə bu icazənin verilməsi üçün hüququnun olmamasını əsas gətirərək Qarsdakı konsulluğa müraciət edir. Səhəri gün isə həmin tatar kəndində əhalinin Türkiyəyə qaçaraq iki ermənini öldürməsi Ermənistanı idarə edən daşnak hökumətinə tatarlara qarşı soyqırıma başlamaq üçün bəhanə vermiş oldu: "**Tatarlara qarşı başlayan bu müharibə qısa zaman içində tam bir məhvetmə döyüşünə çevrildi. İnsanın ağlına sığmayan və sözlə ifadəsi mümkün olmayan şeylər oldu. Mənim də iştirak etdiyim bu hərəkətlərdə mənim gördüyüm səhnələr və şahidi olduğum hadisələr məni xəstə etdi**" (3, s. 166-167). Burada diqqəti cəlb edən əsas məqam odur ki, ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırım o qədər dəhşətli olmuş ki, bunlar hətta erməni olan birini belə dəhşətə gətirmişdi.

Apresyan ermənilərin azərbaycanlılara qarşı soyqırıma başlamazdan əvvəl tatarların qaça biləcəkləri bütün yolları və dağ keçidlərini tutduqlarını, tatarların yaşadıqları kəndləri mühasirəyə alaraq əhalini məhv etdiklərini yazırdı. Apresyan top atəşləri ilə kənddəki evləri daş və torpaq yığınına döndərdiklərini, kəndlilərin kənddə gizlənmələri mümkün olmadıqda, kənddən qaçaraq çöllərə sığınanların da tüfəng gülləsi və süngü ilə işlərini bitirdiklərini yazırdı. Onun yazdığına görə bəzi tatarlar qaçaraq dağlarda gizlənməyi və ya Türkiyə sərhədini keçməyi bacarsa da, qalanların hamısı öldürülmüşdü. "**Beləliklə, Rusiya Ermənistanının Naxçıvandan Axalkələkə qədər olan bütün sərhəd bölgəsi, Ağrı dağının ətəyindəki isti ovalıqlardan tutmuş, şimaldakı soyuq yaylalara qədər hər yer, yerləyeksan edilmiş tatar kəndlərinin dilsiz qalmış xarabalıqları ilə doldu. İndi bu kəndlərdə, buralarda qalmış ölü insanların sümüklərini axtaran canavar və çaqqalların ulamalarından başqa bir səs duyulmaz**" (3, 167-168).

Apresyan sonra baş verən dəhşətləri də təsvir edir. O, **çox gözəl döyüşən bir nəhəng cüssəli tatarın kənd evindən bir tüfəng ilə bir dəstə erməni əsgərinin ortasına atılaraq, tüfənginin dibçəyi ilə onları sağa sola dağıtdığını, hər tərəfdən üstünə atəş açılmasına baxmayaraq "Allah, Allah" deyə hayqıraraq tüfəngini yellətdiyini və ətrafını dolduran çoxlu erməni əsgəri ilə**

**döyüşdüyünü yazırdı**. Ohanes erməni əsgərlərdən birinin bu tatarın köksünə sapladığı süngünün onun kürəyindən çıxmasına baxmayaraq, tatarın sinəsinə girmiş süngünün tüfənginin dəstəyindən tutaraq, onun bədənindən süngüsünü qurtarmaq istəyən erməni əsgərinin boğazından yapışdığını yazırdı. Apresyan bu döyüşdə hər ikisi yerə yıxıldığı üçün başqa bir erməni yerdən götürdüyü iri qaya parçasını tatarın başına vurduğunu, bu zərbədən sonra yerdə səssiz və hərəkətsiz yatan tatarın köksündən süngüsünü çıxaran erməninin süngüsünü dodaqlarına apararaq tatarın isti qanını yalayaraq "Rus dilində sladkiy, sladkiy (şirindir, şirin)" deyə hayqırdığını təsvir edir (3, s. 168-169). Bu səhnə ermənilərin azərbaycanlılara nə qədər nifrət bəslədiklərinin sübutudur.

Apresyan yenə də **xarabaya qalmış, hər tərəfi ermənilər tərəfindən vəhşicə öldürülmüş tatarların cəsədləri ilə dolu olan tatar kəndində ermənilər tərəfindən təcavüzə uğramış, qorxu və dəhşət içində iki azyaşlı qızı onların əlindən alaraq özü ilə götürdüyünü, gecə qalmaq üçün seçdikləri viran edilmiş tatar kəndində ağlamaq səsi eşidərək getdiyi dağıdılmış tatar evində boğazı kəsilərək öldürülmüş anasının döşündən süd əmməyə çalışan 1 yaşına qədər qız uşağını** xilas etməsini təsvir edir. "**Ay işığı mənə ətrafı görməyimə imkan yaratdı və mənə burada cərəyan etmiş olan digər bir faciəni bütün aydınlığı ilə göstərdi**". Ohanes bu balaca qız uşağını baxmaq üçün xilas etdiyi iki tatar qıza verdiyini və imkan düşən kimi onları Qarsda yerləşən Amerika yetimxanasında yerləşmələri üçün ora göndərdiyini yazırdı (3, s. 169-170).

Apresyan Qarsın türklər tərəfindən geri alınmasından sonra baş verənləri belə təsvir edirdi: "**Rus birlikləri türk kəndlərində qorxunc şeylər etmişdilər...** ***Biz ermənilər də tatarların kökünü qazdıq.*** **Bu elə bil sonsuz intiqam və kin zənciridir ki, get-gedə daha dərin bir şəkildə insanın içinə işlər və insan təbiətinin ən pis və qorxunc tərəfini ortaya çıxarar. Bu davam etdikcə əsirlərin öldürülməsi, müdafiəsiz insanların qətliamı, təcavüz edilməsi, mallarının talan edilməsi kimi şeylər müharibənin olan və edilməsi normal sayılan bir iş halına gəlir. İnsanlar belədir (**3, s. 179)".

Ohanes Apresyan ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı etiraf edərək belə yazırdı: "**Mən elə qırğın səhnələrinə şahid oldum ki, buralarda öldürülmüş, yerdə yatan insanların sayı payızda meşədə yerə düşən yarpaqların sayı kimi idi. Bunlar qoyunlar kimi biçarə və müdafiəsiz insanlar idi. Bunlar müharibədə olan əsgərlər kimi silahları əllərində, atəşə atəşlə cavab verərək və cəsarətlə döyüşərək ölməmişdilər. Bu zavallı və çarəsiz insanlar daha qorxunc ...dəhşətli bir şəkildə öldürülmüşdürlər. Belə bir qətliamın törədildiyi yerdəki torpaq çürüməli və bu torpağın üstündəki kənd büsbütün qaralmalıdır**...(3, s. 180)".

Apresyan Ermənistanda bolşevik hökuməti qurulandan sonra İrana qaçmağa məcbur olmuşdu. O, Təbrizə gedərkən yolda 1905-ci ildəki erməni qırğınlarından qaçaraq Təbriz ətrafında yaşayan tatarlara rast gəldiyini yazırdı. Eyni zamanda Təbrizdə erməni qaçqınlara yardım edən daşnak komitəsinin olduğunu da bildirirdi (3, s. 242-243). Sonradan Təbrizdə bolşeviklər tərəfindən sorğu sual edilərək geri dönməyə izn alan Apresyan Şuşaya atasını görməyə gəlir və burada qardaşının öldürülməsindən bəhs edilərkən, onların daxil olduğu erməni dəstəsinin Şuşada 500-dən çox azərbaycanlını öldürdüyü və yaraladığı məlum olur (3, s. 246).

Leonard Hartill kitabın ön sözündə əsərdə təsvir olunan türk və tatarlara qarşı törədilən soyqırımın həqiqət olduğunu və burada baş verənləri digər şahidlərdən də soruşub təsdiq olunduğunu yazmışdır. Kitabı türk dilinə çevirən Kerim Cengiz Kevenk bunlarla kifayətlənməyərək, 1919-1920-ci illərdə ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımın bütün mahiyyət və genişlik dərəcəsini, nə dərəcədə vəhşət və qəddarlıqla törədildiyinə heç kimsənin az da olsa şübhəsi qalmasın deyə digər səlahiyyətli şahidlərin ifadələri (daha doğrusu nəşrləri) ilə sübut edir (3, s. 258).

Amerikalı yazıçı Robert Dunn 1952-ci ildə Nyu-Yorkda nəşr etdiyi "World Alive" kitabında ermənilərin törətdiklərini vəhşilikləri təsvir etmişdir. Robert Dunn Ermənistana etdiyi səfərlərin birində əvvəllər quldur dəstəsinin rəisi, sonra Ermənistan ordu komandiri və hökumətin hərbi naziri olmuş Dro (Drastamar Kanayan) tərəfindən ermənilərin hərbi yürüş şəklində həyata keçirdikləri türk kəndlərini bir-bir yox etmək işində müttəfiq dövlətin qonaq bir zabiti olaraq iştirak etmişdi. O, kitabının XXI fəslində yazırdı: "**Ermənilərin qətliama məruz qalmalarının qarşısını almağımız üçün davamlı tələblərlə qarşılaşdığımız halda, ermənilər siyasi nəzarəti genişləndirirkən əllərinə keçən yerlərdəki müsəlmanları sürgün etdikləri və onların kəndlərini viran qoyduqları Amerika millətinə açıqlanmamış olan həqiqətlərdir. Bunu öz gördüyümüzə əsaslanaraq**

**bilməkdəyik. Erməni general Dronun həyata keçirdiyi bu kampaniyada iştirak etdiyimdə bunlara birbaşa özüm şahid olmuşam** (4, s. 347; 3, s. 259).

Robert Dunn Dronun Qarabağın xəritəsini masanın üstünə sərərək müsəlman kəndlərinə ediləcək hücumu planladığını, Çul adlanan bir kəndi 3 tərəfdən mühasirəyə alacaqlarını, müsəlmanları dəhşətə gətirmək üçün piyadaların atəş açmayaraq süngü ilə iş görəcəklərini yazırdı. Robert Dunnun "bu əsgərlərəmi, yoxsa mülkü şəxslərəmi tətbiq ediləcək?" sualına, Dro "ikisinin arasında bir fərq yoxdur, hərbi forma geysin və ya geyməsin hamısı silahlı" cavabını vermişdi. Robertin "qadınlar və uşaqlar nə olacaq" sualına Dro "qaça bilən qaçsın" demişdi. Robert Dunn erməniləri əvvəlcə Çul kəndini mühasirəyə alaraq top atəşinə tutduqlarını, sonra isə kəndin əhalisini öldürməyə başladıqlarını yazırdı. Top atəşləri dayandıqdan sonra kəndə girən Robert qəsəbənin hələ də yandığını, ermənilərin evlərdən cəsədləri çıxardıqlarını, xırman yerində qarşısına çıxan ilk cəsədin **düz qara saçlı, iri gözlü 12 yaşında qız** olduğunu yazırdı. Xırman yerində samanın üstündə arxası üstə uzanan qızın öldürüldüyü zaman yemək yediyindən qabdakı yeməklər ətrafa sıçramışdı, onu süngü ilə öldürmüşdülər. Robert daha sonra **qaba qumaşdan tikilmiş bir jaket və qısa şalvar geyinmiş 10 yaşında və ya daha az yaşı olan bir oğlan uşağının cəsədi** gördüyünü, onun qabda xəmir daşıyarkən boyunun altından vurulan süngünün bel sümüyünə sancıldığını yazırdı. "**Ətrafa baxdığımda həddən ziyadə yetişkin insan cəsədlərinin sağa sola səpələnmiş olduqlarını görürdüm. Cinayət xristiana edilsin, yaxud da kafirlərə edilsin yenə də cinayətdir** (4, s. 359-361; 3, s. 261-263)".

Robert Dunn Çulda canlı heç bir varlıq buraxılmadığını, qaçıb canını qurtara bilməyən bütün tatarların öldürüldüyünü, öldürülənlərin içərisində də bir türk zabitinin olduğunu bildirirdi. **Paltarı çıxarılan, bir gözü zərbədən içəriyə çökmüş, türkdən çox tatara bənzəyən 50 yaşlı zabitin üzü eybəcər hala salındığı kimi bədəninin digər üzvlərinin də parça-parça edildiyini görən Robert Dunn qışqırmamaq üçün özünü zorla saxlayaraq çölə atıldığını dəhşətlə təsvir edir**. O, gecə yanında oturan və Dronun dəstəsinə məcburən qatılan rus leytenantdan soyqırım törədilmədən əvvəl Çul qəsəbəsində 800 nəfərin yaşadığını və hamısının da kəndli geyimində olan tatarlar olduğunu öyrənir. Robertin "onların içində türk zabiti gördünmü?" sualına rus görmədiyini bildirir (4, s. 361-362; 3, s. 263-265). Bu da cəllad Dronun başçılıq etdiyi erməni quldurlarının onların içində türk zabiti olduğunu demələrinin yalandan başqa bir şey olmadığını və bir gecədə uşaq və qadınlar da daxil olmaqla 800 azərbaycanlını qəddarcasına soyqırıma məruz qoyduqlarını sübut edir.

Robert gün çıxdığında kilometrlərlə uzaqda olan kəndlərdən erməni kəndlilərinin gələrək Çul qəsəbəsini istila edərək burada olan hər şeyi talan edərək özləri ilə götürdüklərini yazırdı. "**Xaraba qalan evlərdə nə tapırdılarsa yağmalayırdılar. Hər daxmanın daşına bilən bütün əşyasını, son damla və qırıntısına qədər bütün ərzaq və geyim əşyalarını toplayıb heybələrə və güyümlərə doldurub götürürdülər. İp və toxuma dəzgahları da təbii ki, geridə buraxılmamışdı** (4, s.362-363; 3, s. 265-266)".

Podpolkovnik A. Ravlinsonun 1924-cü ildə nəşr etdiyi "Adventures in the Near East, 1918-1922" adlı kitabında şahidi olduğu soyqırımlardan bəhs edir. A. Ravlinson Hindistanın baş valisi marşal Ravlinsonun qardaşı və o dövrdə İngiltərə Xarici İşlər naziri Lord Gürzonun yaxın qohumu idi. O, birinci dünya müharibəsi zamanı ingilis heyətinin tərkibində Bakıda ermənilərlə birlikdə Qafqaz İslam ordusuna qarşı vuruşmuşdu. Ravlinson kitabının "Transqafqazda kəşfiyyat" başlıqlı üçüncü fəslində ermənilərin sərhəd boyundakı müsəlman kəndlərinə davamlı hücumlar həyata keçirdiklərinə dair Kazım Qarabəkir paşadan tez-tez şikayətlər aldığı üçün özü sərhəddəki xalqa nələr edildiyini şəxsən gedib görmək və bunu bir məruzə halında İngilis hökumətinə bildirməyin gərəkli olduğunu yazırdı (1, s. 181; 3,s. 267-268).

Erməni ordu komandiri ilə Qarsda təşkil edilən Ravlinsonun görüşündə sərhəd boyundakı erməni bölüklərinin komandiri olan 3 erməni generalı da iştirak etmişdi. Erməni əsgərləri tərəfindən müsəlman əhaliyə qarşı edilənlər barədə türklərin şikayətini ermənilərə çatdıran Ravlinson onların bir çox həqiqətləri inkar etmədiklərini, ancaq onlara qarşı sürülən ittihamlardan özlərini müdafiə etmək üçün guya məmləkətin idarəsi onların nəzarətinə verildiyi üçün türk-müsəlman əhalisinin silahsızlaşdırılmasının əsas şərt olduğundan və onlara güc tətbiq etmədən bunun mümkün olmadığını bəhanə gətirərək zor və güc tətbiq etdiklərini, bunun da çarpışmalarda qəddarlığa yol açdığını bildirdilər (1, s. 188-189; 3, s. 260-268).

Ravlinson Qarsda olan Amerikan yardım təşkilatlarından faydalanmasaydılar erməni xalqının bu bölgəni işğal etməsinin çox şübhəli olması qənaətində idi. Ravlinson görüşün ertəsi günü Zivinə çatdığında sərhədin cənub bölgəsində müsəlman xalqı ilə ermənilərin müharibə vəziyyətində olduğunu, eyni zamanda da Qars əyalətinin şimal bölgələrindəki müsəlman əhalinin ermənilər tərəfindən qətliama məruz qalmaları haqqında Kazım Qarabəkir paşadan şikayətlər gəlməyə başlayır. Ravlinson Qars əyalətinin Oltu bölgəsinin əhalisinin hamısının müsəlman tatarlardan ibarət olduğunu bildirir. Ravlinsona görə ingilislərin Qarsa gəlişindən sonra Müttəfiqlərin Ali Şurasının Qarsı ermənilərə verəcəklərini açıqlayandan sonra ingilislər Qarsdan çəkilmiş və buranın ermənilər tərəfindən işğalı başlanmış, bütün əziyyət və iztirabların başlanğıcı da bu olmuşdur. "Ermənilər bütün əhalidən güclə silahlarını yığmaq bəhanəsi ilə dərhal kütləvi şəkildə quldurluğa və qorxutmağa başlamışlar". Ravlinsona görə bu üsul əyalətin ovalıq hissəsində ermənilərin məqsədlərinə çatmasına kömək etsə də, dağlıq olan Oltu bölgəsində aşirət rəisi olan Əyyub paşanın başçılığı ilə müsəlmanlarla qarşı-qarşıya gəlmələrinə səbəb olmuşdu. Əyyub paşa öz aşirətinə aid olan ərazilərdə silahlı bir müdafiəyə keçərək adları sadəcə əsgər olan bu silahlı erməni güruhunun qarşısını kəsmiş və bir addım da irəliləməyə qoymamışdı (1, s. 200, 206-207; 3, s. 269-271).

Ravlinson gördükləri arasında ən üstün olaraq qiymətləndirdiyi Əyyub paşanın 2 min silahlı adamının olduğunu və öz məmləkətlərini və torpaqlarını həyatları bahasına olsun belə ermənilərdən qoruyacaqlarını, erməni soyqırımına məruz qalmış kəndlərdən qaçanların da Əyyub paşaya qoşulduqlarını, hər gün talan edilən və dağıdılan kəndlərdən köç karvanlarının Əyyub paşaya sığındıqlarını yazırdı. Ravlinson yazırdı: "**Əyyub eyni zamanda mənə aşağıdakı ovalıqlarda yeləşən kəndlərdə silah araşdırmaq bəhanəsi altında hər şeylərini əllərindən aldıqlarını, bu müsəlman əhalini sadəcə öldürməklə kifayətlənməyib, öldürmədən əvvəl gizlətdiklərini zənn etdikləri mallarını ortaya çıxartmaq üçün qorxunc işgəncələr verdiklərini, qısa zamanda bu cür hücumlara məruz qalmış kəndlərin adlarını verəcəyini dedi. Söylədiklərinin doğru olduğunu başa düşməyim və törədilən qorxunc şeyləri şəxsən görməyim üçün bu kəndlərə getməyimi israrla istədi. Bu danışıq həqiqətən dürüst və mərdcə bir söhbətdir və Kazım Qarabəkir paşadan aldığım raportların doğru olduğunu göstərirdi**". Ravlinson orada olarkən əksəriyyətin yaşlı, qadın və uşaq təşkil edən, bütün var dövlətlərini bir neçə öküz arabası, at və eşşəyə yükləyən, bir neçə qoyunu da yanında gətirən pərişan müsəlman köçlərinin gəldiyini də bildirirdi (1, s. 210-212; 3, s. 271-273).

Ravlinsonun bundan sonra təsvir etdikləri ermənilərin bu dövrdəki özbaşınalıqlarını göstərir. Ravlinson Əyyub paşanın yanında olarkən ermənilərin böyük qüvvə ilə top atəşlərinin köməyi ilə Əyub paşanın üzərinə hücum etdiklərini görüb döyüşü seyr etməkdənsə, qərargaha qayıtmağa üstünlük verdiyini, lakin qərargaha gələrkən onun avtomobilinin erməni əsgərlərinin hücumuna məruz qalaraq onbaşısının vurulduğunu, avtomobilinin də qarət edildiyini öyrənincə dəliyə döndüyünü yazır. Ravlinson erməni baş komandirinə teleqram göndərərək erməni birliklərinin nizam-intizamsız və qəddarcasına rəftarlarında onun məsuliyyət daşıdığını bildirir (1 , s. 206-215; 3, s. 273-274).

Qarsda erməni əsgərlərinin törətdikləri zülmlərlə bağlı yeni və çox qəti məlumatlar alan Ravlinson Tiflisdəki ingilis qərargahına bir teleqram göndərir: "**Erməni birliklərinin kifayət qədər nəzarət altında olmayan, nizam-intizamdan məhrum birliklər olduğunu, bunların müsəlman əhaliyə davamlı bir şəkildə qəddarca rəftar etdiklərini, ermənilərin müsəlman əhali üzərində müstəqil idarə və rəhbər vəzifələrinin qaldırılmasının insanlıq adına gərəkli bir şey olduğunu və bunun edilməməsi halında bunların törətdiklərinin bu zülmdən bizim də mənəvi yöndən məsuliyyət daşıdığımızı bildirdim**"(1, s. 218; 3, s. 274-275).

Ravlinsonun bu teleqramının nəticəsində kiçik bir Araşdırma Komissiyası yaradılmış, bu komissiyanın üzvləri ilə görüşən Ravlinsonun onların ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımlar haqqında verdiyi məlumatlar komissiyanın işinə çox kömək göstərmişdi.

8 aprel 1920-ci ildə Lord Gürzon Boqos Paşa və Patrik Zavenlə görüşündə demişdi: "**Sizin xalqınızın və əsasən daşnak partiyasının ki, cənab Arahonyan sizin də bu partiyanın mənsubu olduğunu zənn edirəm, sülh və rifahın pozulmasına dəfələrcə səbəb olduğunuzu açıqlamaq məcburiyyətindəyəm. 3 hərbi lideriniz Dro, Hamazazp və Külhandanyan Zəngəzur, Sürməli, Eçmiədzin və Zəngibasar bölgələrindəki tatar kəndlərini yox edib qətliamlar tərtib edən quldur**

**dəstələrinin başçılarıdır. Bu dözülməz bir şeydir. Bu rəsmi sənədə baxın. Buraya baxın: Burada nümayəndəmiz Vardropun dekabr ayında mənə göndərdiyi son bir neçə ay içərisində yox edilmiş kəndlər haqqında bir raportu var. Rəsmi tatar məruzəsi 300 kəndin yox edildiyini bildirir. Bu sizin məqsədlərinizə böyük bir zərər gətirir** (3, s. 276-279)".

Erməni nümayəndələrinin özlərini müdafiə etmək üçün gətirdikləri bəhanələrə cavab olaraq təkrar qarşısındakı siyahıya işarət edərək "**buraya bax. Burada həm ermənilərin və həm də tatarların törətdikləri hücumların siyahısı var. Dekabr ayının sonu gəlməz erməni hücumları oldu (uzun bir siyahı oxudu) və budur burada da rəsmi tatar raportu dedi. 300-ə qədər tatar kəndi məhv edildi**". Lord 5 aydan bəri bütün hücumların ermənilər tərəfindən edildiyinə diqqət yönəldərək ermənilərin özlərini təmizə çıxarmaq üçün gətirdikləri bütün fikirlərə sonda bu cavabı ilə son qoymuşdu: "Tatarlara edilən bu qətliamlar dayandırılmadıqca və bu 3 nəfər hərbi komandir məqamlarında alınmadıqca sizə silah və cəbbəxana göndərməyi çətin ki düşünəm (3, s.281-283 )".

Beləliklə, erməni Ahones Apresyan da daxil olmaqla şahidlərin yazdıqları ermənilərin 1918-1920-ci illərdə türk-müsəlman əhaliyə qarşı amansız və insanlığa sığmayan şəkildə törətdikləri soyqırımı təsdiqləyir. Dünyanın aparıcı dövlətləri isə azərbaycanlılara qarşı törədilən bu və digər soyqırımlarını hələ də görməzdən gəlir.

**MƏNBƏ VƏ ƏDƏBİYYAT:**


1. A. Rawlinson. Adventures in the Near East, 1918-1922. Dodd, Mead and Company, New York, 1924
2. Leonard Ramsden Hartill. Men Are Like That. The Bobbs – Mereill Company, 1928.
3. Leonard Ramsden Hartill. İnsanlar böyledir (çeviri Kerim Cengiz Kevenk). Ankara, 1978.
4. Robert Dunn. World Alive, Crown Publishers Inc., New York, 1952.
5. Selma YEL.Yakup Şevki Paşa ve askeri faaliyetleri, Ankara, 2002.


## THE GENOCIDE COMMITTED BY ARMENIANS AGAINST THE MUSLIM POPULATION IN THE TESTIMONY OF WITNESSES
## SUMMARY

The genocide committed by Armenians against the Muslim population in early XX century is described with its scale and brutality by the testimony of witnesses in the article. In Leonard Ramsden Hartill's book "Men Are Like That" published in 1928 in America, while describing the events in the testimony of an Armenian the activities of Armenian gangs that committed genocide, their barbarity and cruelty against the Turkic-Muslim population and crimes had revealed publicly. The savagery committed by Armenians against in the Turkish-Muslim population Leonard Hartill called as genocide. Ohanes Apresyan noted that all the Azerbaijani villages in the entire border region of Armenia from Nakhchivan to Akhalkalak, beginning from the hot lowlands at the foot of Aghridagh to the cold high plateaus in the north was destroyed and the population were killed brutally. In the article, some papers proving the genocide committed against the Turkish-Muslim population by Armenians have also been addressed.

## ГЕНОЦИДСОВЕРШЕННЫЙ АРМЯНАМИ ПРОТИВ ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ В СВИДЕТЕЛЬСКИХПОКАЗАНИЯХ
## РЕЗЮМЕ

В статье на основе свидетельских показаний описывается весь ужас, масштаби жестокость геноцида совершённого армянами против тюрко-мусульманского населения в начале XXвека. В книге "Men Are Like That"(Таковы люди) Леонарда Рамсден Хартилля, опубликованной в Америке в 1928 году,в описаниях событий свидетеля армянина, внимание акцентрируется на деятельность армянских бандформирований, совершающих геноцид, явноописывается их варварская, жестокая и приступная деятельность по отношению к тюрко-мусульманскому населению. Варварское отношение и деяния совершенные армянами против тюрко-мусульманского населения Леонард Хартилл называет именно геноцидом. Оганес Апресян сообщает, что в Армении везде: во всех приграничных районах начиная от Нахичевани до Ахалкалаки, от горячих низменностей у подножия Аградага до холодных северных высот азербайджанские села были полностью разрушены, а население было жестоко убито. В статье также приводится несколько документов, подтверждающие геноцид армян против тюрко-мусульманского населения.

*T.ü.f.d.* **Əsəd QURBANLI**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

# AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-dən DEPORTASİYASI ƏRƏFƏSİNDƏ DİNLƏMƏLƏR VƏ KÖÇÜRÜLMƏYƏ QARŞI ETİRAZ FORMALARI (1948-1953-cü İLLƏR)

**Açar sözlər:** Arxiv,deportasiya, azərbaycanlı,erməni
**Keywords:** Archives, deportation, azerbaijanian, armenian
**Ключевые слова:** Архив, депортация, азербайджанец, армянин

XX əsrin 40-cı illərin axırları, 50-ci illərin əvvəllərində Ermənistan SSR-də azərbaycanlılara qarşı həyata keçirilmiş deportasiya siyasətinin araşdırılması öz aktuallığı ilə diqqəti cəlb edir. Ermənilərin xalqımıza qarşı yeritdikləri etnik təmizləmə siyasəti ilə bağlı yeni-yeni arxiv sənədləri tariximizin bu dövrünün baş vermiş hadisəsinin yenidən qiymətləndirməyin vacibliyini doğurmuşdur.

Azərbaycanlıların deportasiya tarixində 1948-1953-cü illər deportasiyası mühüm yer tutur. Bu tarix, öz miqyasına və kütləviliyinə, həyata keçirilmə üsullarına görə sonrakı illərdə azərbaycanlıların deportasiyasında mühüm rol oynamış, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanmasından sonra diqqət mərkəzinə çıxmışdır.

Lakin bu sahədə əsaslı dönüş Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin " 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanından sonra başlanmış, bununla bağlı elmi konfranslar keçirilmiş, bir sıra nəşrlər işıq üzü görmüşdür.

Bu istiqamətdə görülən işlərin tədqiqi əhəmiyyəti böyük olsa da , həmin illərdə azərbaycanlıların deportasiyası ilə bağlı hələ də bir çox məqamlar aydınlaşdırılmamışdır.Belə qaranlıq məsələlərdən biri də köçürüləcək azərbaycanlı əhalinin deportasiyaya olan münasibəti məsələsidir.

Göründüyü kimi, problemə münasibətdə tarixşünaslığımızda bəzi boşluqlar mövcuddur və buna görə də problemə münasibət bildirilməsi zərurəti ortaya çıxır. 1947-ci il 23 dekabrda SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin və İşlər İdarəsinin rəisi J. Çaadayevin imzası ilə "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edilir[1,v 13 ]. 11 maddədən ibarət olan qərarda 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhalinin, 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin və 1950-ci ildə isə 50 min nəfərin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi nəzərdə tutulurdu [1,v.13].

1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin sədri İ.V. Stalinin imzası ilə "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi ikinci qərarda isə göstərilirdi ki, bu qərar "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir" [1,v.20].

Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilirdi ki, Ermənistan SSR-dən kolxozçular və başqa əhalinin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə İrəvan şəhərində öz xüsusi nümayəndəliyini açsın. SSRİ Nazirlər Sovetinin məlum qərarından irəli gələn vəzifələri yerindəcə tez və operativ həll etmək məqsədilə Azərbaycan SSR K(b) P MK 13 mart 1948-ci il tarixli qərarı ilə Azərbaycan SSR Nazirlər Sovetinin xüsusi nümayəndəliyini açmış, həmin vəzifəyə M.Məmmədov təyin edilmişdi [3,v.19-20].

Azərbaycan SSR Nazirlər Soveti yanında İrəvandakı xüsusi nümayəndəsi M. Məmmədovun Azərbaycan SSR K (b) P MK-nın I-katibi M.C.Bağırova və Nazirlər Sovetinin sədri Teymur Quliyevə göndərdiyi sənəd köçürmə ilə bağlı bir çox həqiqətlərin üzə çıxarılmasında xüsusi əhəmiyyət daşıyır.

Sənəddən aydın olur ki, respublikanın 1948-ci il üçün 53 yaşayış məntəqəsindən 11244 nəfərin köçürülməsi nəzərdə tutulur, ermənilər ilkin olaraq azərbaycanlılarla ermənilərin birgə yaşadıqları qarışıq kəndləri, əsasən də iri azərbaycanlı kəndlərini köçürmək istəyirdilər. Bunlardan biri 245 təsərrüfatı olan (1179 nəfər) Noyeberyan rayonunun Ləmbəli kəndi, 238 təsərrüfatı olan (1410 nəfər) Zəngibasar rayonunun Mehmandar kəndləri idi. Aydın olur ki, belə bir böyük köçürülmə tədbirləri köçürüləcək azərbaycanlı əhali arasında həddən çox suallar doğurmuş, bu məqsədlə Ermənistanın

müxtəlif rayon və kəndlərindən azərbaycanlı əhalinin müxtəlif təbəqələrindən olan şəxslər İrəvana-Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəliyinə üz tutur, bir çox suallara cavab axtarırlar.

M.Məmmədovun Azərbaycan SSR rəhbərliyinə ünvanlanmış ilkin köçürmə planından aydın olur ki, ona çoxlu azərbaycanlılar müraciət edərək bildirmişlər ki, onları mümkün qədər tez bir müddətdə Azərbaycan SSR-ə köçürsünlər. Aydın olur ki, nümayəndəliyə müraciət edənlərin əksəriyyəti işsiz insanlardır. Belə ki, Ermənistanın vəzifəli şəxsləri erməni-repatriantları yerləşdirmək adı altında azərbaycanlıları kütləvi surətdə işdən azad etmişlər [1, v.20].

Köçürüləcək əhali iqlim şəraiti ilə bağlı narahatlıqlarını gizlətmir, onların əsasən dağlıq və dağətəyi rayonlarda yerləşdirilməsini hökumətdən xahiş edirdilər. M.Məmmədovun məlumatında göstərilirdi ki, köçkünlər Kirovabad (indiki Gəncə) Şamxor (indiki Şəmkir), Tovuz, Ağstafa, Qazax və Kirovabad (indiki Gəncə) ətrafında məskunlaşmaq istəyirdilər [1,v. 20-27].

Arxivdə saxlanılan rəsmi sənədlərdə köçürülmənin guya könüllü qaydada aparıldığı qeyd olunur. Doğrudanmı köçürülmə könüllü idi? Köçürüləcək azərbaycanlı əhalinin köçürmə siyasətinə qarşı münasibəti necə idi və onlar bu siyasi tədbiri necə qarşılayırdılar?

Tədqiqat işimizlə bağlı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində işləyərkən rast gəldiyimiz bir arxiv sənədi tarixi həqiqətlərin üzə çıxarılmasında xüsusən də, türk əhalisinin bu amansız və dəhşətli siyasətə münasibətinə aydınlıq gətirilməsi baxımından qiymətli mənbədir.

Bu həm də, İ.V.Stalin başda olmaqla o vaxtkı SSRİ rəhbərliyinin və Ermənistanın kommunist, əslində isə daşnak rəhbərləri tərəfindən soydaşlarımıza qarşı yönədilmiş və həyata keçirilmiş cinayətkar hərəkətlərini ifşa etmək üçün kifayət qədər tutarlı faktdır.

Arxiv sənədindən məlum olur ki, SSRİ Nazirlər Sovetinin “Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarında nəzərdə tutulduğu kimi köçürülmə heç də xoşluqla olmayıb və məcburi xarakter daşıyıb. Əvvəllər Azərbaycan SSR Daxili İşlər nazirinin müavini olmuş, azərbaycanlıların repressiyasında xeyli dərəcədə aktiv, cinayətkar rol oynamış, köçürmə illərində Ermənistan SSR Daxili İşlər naziri işləmiş X.Qriqoryanın Azərbaycan K (b) P MK-nın birinci katibi M.C.Bağırova ünvanladığı, üzərində “tamamilə məxfidir” qrifli, 3 may 1948-ci il tarixli “ Ermənistan SSR-in azərbaycanın əhalisi arasında köçürülməyə dair əhval-ruhiyyə haqqında” arayışı diqqəti çəkəndir. X.Qriqoryan arayışda bildirirdi: “Xarakterik haldır ki, gələcək köçürmə ilə bağlı əhaliyə xəbər verilən kimi və bu tədbirin məqsədləri kolxozçuların ümumi yığıncağında açıqlandığı zaman iştirakçılar öz tərəfindən höküumətin bu qərarını yekdilliklə müsbət qarşılasalar da, öz aralarında olan təkbətək söhbətlərində əhalinin çoxu bu tədbirə qarşı öz etirazlarını bildirirlər” [2,v.27].

Köçürmə ərəfəsində Ermənistan xüsusi xidmət orqanları və onların yerlərdəki çoxsaylı agentləri vasitəsi ilə azərbaycanlı əhalinin köçürmə siyasətinə olan münasibəti öyrənilir və lazımi dövlət instansiyalarına çatdırılırdı. Azərbaycanlı əhali arasında aparılan dinləmələr və ictimai rəyin öyrənilməsi zamanı məlum olur ki, əhali tərəfindən köçürülməyə olan münasibət heç də rəsmi orqanların bildirdiyi kimi bir mənalı deyildi. Ermənistan SSR Daxili İşlər naziri X.Qriqoryan azərbaycanlı əhali arasında yaranmış mənfi əhval-ruhiyyəni onlar arasında aparılmış zəif izahat işləri ilə bağlasa da, əsl həqiqətdə Azərbaycan türkləri minillər boyu yaşadıqları, tarixi-etnik torpaqlarını heç də asanlıqla tərk etmək istəmirdilər. Bu faktı təsdiq edən X. Qriqoryan Azərbaycan rəhbərinə ünvanladığı arayışda bildirirdi: «Bizim tərəfimizdən çoxlu faktlar əldə olunmuşdur ki, azərbaycanlılar yaşayış yerlərindən köçmək istəmirlər...» [2,v.20-21].

Köçürməyə qarşı qeyri və yarımleqal formalarda gizli də olsa mənfi münasibət davam edir, demək olar ki, Ermənistanın azərbaycanlılar yaşayan bütün rayonlarını əhatə etmişdi.

Köçürməyə qarşı mənfi münasibət Zəngibasar, Amasya, Noyemberyan, Basarkeçər, Sisyan, Vedi, Qarabağlar, Artaşat (Qəmərli), Oktomberyan, Qafan, Meğri və s. başqa rayonun azərbaycanlıları arasında kəskin şəkildə nəzərə çarpırdı [2, v.20].

Amasya rayonunun Çivinli, Basarkeçər rayonunun Şişqaya kəndlərinin böyük bir hissəsi qəti surətdə Azərbaycana köçməkdən imtina etmiş, Artaşat rayonunun Axund Bozavənd, Darğalı kəndinin 20 nəfərlik azərbaycanlı əhalisi isə bildirirdilər ki, bizimlə nə edirlər etsinlər, heç bir halda biz buradan köçən deyilik. Qoy bizi elə yerimizdəcə öldürsünlər. Qafan rayonunun Siznak kənd kolxozunun sədri Bəşir Tağıyev isə bütün həmkəndlilərinin köçürməyə olan münasibətini ifadə edərək deyirdi: “Doğma kənddə ölmək, təzə yerə köçməkdən yaxşıdır [2, v.25].

Zəngibasar rayonunun Zəngilər, Xırda Dəmirçi, Oktomberyan rayonunun Baxçalar kəndlərinin bir qrup sakinləri isə köçürülmənin səbəbini erməni repatriantlarının gəlişi ilə əlaqələndirirdilər. Onlar bu qənaətdə idilər ki, onların təsərrüfatlarında erməni-repatriantlar yerləşdiriləcək. Amasya rayon MTC-nın bir qrup traktorçusu isə bu fikrə gəlmişdilər ki, bu il onlar yaz əkinini keyfiyyətsiz keçirəcəklər. Çünki bu məhsulu ermənilər yığacaq və bizə heç nə çatmayacaq.

Amasya rayonunun Çivinli, İbiş, Daşkörpü, Zəngibasar rayonunun Şurakənd, Zəngilər, Kolanlı, Ağahəmzəli, Vedi rayonunun Böyük Vedi, Taytan, Şirazlı kəndlərinin bir qrup sakinləri isə öz evlərini sökür, tikinti materiallarını satır və həyətyanı meyvə ağaclarını kəsib doğrayırdılar ki, onlara qismət olmayan fərdi təsərrüfatlar və tikililər ermənilərə qalmasın.

Kolxoz təsərrüfatlarında çalışan azərbaycanlı əhali köçürmə siyasətinə etiraz əlaməti olaraq tarlalara çıxmır, vergi ödəməkdən imtina edirdilər. Oktomberyan rayonunun Bağçalar kəndinin kolxozçuları Zəngibasar rayonunun Zəngilər, Kolanlı, Ağahəmzəli, Basarkeçər rayonunun Çaxırlı, Amasya rayonunun Çivinli kəndlərinin kolxozçuları kütləvi sürətdə işə çıxmaqdan imtina etmişlər. Onlardan işə çıxmamalarının səbəbini soruşduqda onlar cavab verirdilər ki, bir halda ermənilər bizi Ermənistandan köçürürlər, kim üçün və nə üçün biz işləməliyik [1,v.20 ].

Vergi ödəməkdən imtina edən Zəngibasar rayonunun Sarıcalar kəndinin kolxozçuları isə bunu onunla izah edirdilər ki, onsuzda hamımızı köçürəcəklər, nahaq yerə bizim kolxozçular vergi ödəyirlər. Göygümbəz kəndinin kolxozçuları isə söhbətdə bildirirdilər ki, nahaq yerə biz kolxozda işləyirik, bizim bütün əməyimiz ermənilərə qalacaq. Ümumiyyətlə, ermənilərlə yaşamaq çətindir. Çünki onlar bizi sıxışdırırlar, hətta kolxozlarda belə bizə münasib iş vermirlər [2,v.21].

Dinləmələrdən aydın olur ki, azərbaycanlı əhalinin əksər hissəsi köçürülmənin əsas səbəbini ermənilərin türklərə qarşı olan tarixi etnik düşmənçiliklərində görürdülər. Bütün bunlar təsadüf deyildi. Bu insanların yaşlı və cavan nəsli bu ərazidə ermənilərin zaman-zaman onların başına gətirdikləri qanlı faciələrin şahidi idilər. 1905-1907-ci illərin məşəqqətli hadisələrini, 1918-1920-ci illərin qaçqınlıq illərini yaşamış əhalinin qan yaddaşı ermənilərin törədikləri dəhşətli faciələri hələ də unuda bilməmişdi.

Azərbaycan türklərinin köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin məlum qərarının kütləvi məlumat vasitələri ilə əhaliyə çatdırılmaması, qərarın onlardan gizli saxlanılması azərbaycanlı əhalidə onların köçürüləcəyi ərazi, onun istiqaməti ilə bağlı şübhələrin meydana çıxmasında və bəzən şayiə xarakteri daşımasında həlledici sözünü deyirdi. Köçürüləcək azərbaycanlı əhali köçürülmənin nə dərəcədə dəhşətli olduğunu bilirdilər. Onlar Krımdan Krım türklərinin, Ahıskadan Ahıska türklərinin hansı şəraitdə köçürülmələrindən xəbərdar idilər. Köçürüləcək ərazi və onun istiqaməti ilə bağlı şübhələrin yaranması onlarda sovet dövlətinə olan inamsızlıqlarından irəli gəlirdi. Amasya rayonunun Quzukənd, Təpəköy, Zəngibasar rayonunun Sarıcalar kəndlərinin türk əhalisi isə belə hesab edirdilər ki, köçürülmə heç də könüllü olmayacaq və onlar Axalkələkdə olduğu kimi dəmiryol vaqonlarına doldurulub Qazaxıstana aparılacaqlar.

Ən cəsarətli etiraz forması isə Arpaçay (Axuryan) və Araz boyunca yaşayan azərbaycanlı əhalinin müəyyən qrupu tərəfindən irəli sürülürdü. Onlar köçürülmə tədbirlərinə qoşulmaqdansa Türkiyəyə və İrana keçmək haqqında götür-qoy edir, bəziləri isə vaxtında bu ölkədən çıxıb getməməkdə öz təəssüflərini gizlətmirdilər.

Sənəddən görünür ki, istər azərbaycanlı əhalinin, istərsə də erməni əhalisinin fikir və mülahizələrində Sovet hökumətinin türk əhalisinə olan etimadsızlığı da öz əksini tapmışdı. Zəngibasar rayonunun Xırda Dəmirçi, Rəncbər və başqa kəndlərin sakinləri belə hesab edirlər ki, onları ona görə köçürürlər ki, Sovet hökuməti azərbaycanlıların Türkiyə ilə sərhəd zolağında yaşamasına inanmır. Çünki SSRİ ilə Türkiyə arasında müharibə olarsa, sərhəd rayonlarında yaşayan azərbaycanlılar Türkiyəyə keçə bilərlər. Budur bizim köçürülməyimizin əsas səbəbi.

Respublikanın erməni əhalisi arasında aparılan dinləmələrdə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ermənilər tərəfindən sevinclə qarşılanır, onlar bunu "tarixi hadisə" kimi qarşılayırdılar. Ermənistan SSR Daxili İşlər naziri general-mayor Xoren Qriqoryanın məlumatına görə azərbaycanlıların köçürülməsi ilə bağlı Yerevan, Leninakan və eləcə də respublikanın başqa şəhər, rayon və kəndlərinin erməni əhalisi tərəfindən də müxtəlif mülahizələr səslənir ki, bunlar da millətçi xarakter daşıyır [2, v.22].

Ermənistanın erməni əhalisi arasında da Azərbaycan türklərinin məcburi köçürülməsini Sovet İttifaqı ilə Türkiyə Respublikası arasında ola biləcək müharibə ehtimalı ilə əlaqələndirənlər vardı.

Sovet Türkiyə münasibətlərində yaranmış gərgin vəziyyət ermənilərdə mənfi əhval-ruhiyyənin yaranmasında özünü göstərirdi. Bu əhval-ruhiyyə daha çox yerli və xaricdən gəlmiş erməni-repatriantlar arasında kəskin şəkildə müşahidə olunurdu. Yerevan şəhər sakini Şura Arutyunovna Orduyanın erməni-repatriant qonşularına dedikləri də bu faktı sübut edir. O, xaricdən gəlmiş erməni-repatriant qonşularına məsləhət görürdü: "Siz xaricdə yaşayan və Sovet Ermənistanına gəlmək istəyən öz qohumlarına məktub yazaraq bildirin ki, tələsib gəlməsinlər, tezliklə SSRİ ilə Türkiyə Respublikası arasında müharibə olacaq [2,v.22].

Azərbaycan türklərinin Ermənistan SSR-dən köçürülməsinin səbəblərinin respublikanın istər azərbaycanlı, istərsə də erməni əhalisi tərəfindən bu şəkildə qiymətləndirilməsi heç də təsadüf deyildi. Bu dövrdə Sovet İttifaqının təqsiri üzündən SSRİ ilə Türkiyə Respublikası arasında münasibətlər müharibə həddinə qədər gərginləşmiş, bunun da səbəbi, Sovet İttifaqının Türkiyə Respublikasına qarşı irəli sürdüyü əsassız ərazi tələbləri idi. Köçürülmənin səbəbləri barədə ermənilər və azərbaycanlılar tərəfindən irəli sürülən mülahizələr regionda yaranmış hərbi gərginliklə bağlı idi və azərbaycanlıların köçürülməsini sürətləndirən amillərdən biri idi.

Arxivdə qorunub saxlanılan sənədlərdən biri də Vedi rayonun İcraiyyə Komitəsinin sədri Ə. Məmmədovun Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Çarqoğluyana məktublarıdır. Bu məktublar Vedidə, Qarabağlar da azərbaycanlı əhalinin necə və hansı şəraitdə köçürülməsinə aydınlıq gətirir.

Ermənistan rəhbərləri Vedi rayonundan türk əhalini köçürmək üçün daha sərt üsuldan istifadə edirdi. Köçürmənin ilk ilində planda nəzərdə tutulduğu kimi Vedi rayonundan 500 adamın köçürülməsi nəzərdə tutulsa da, 1948-ci il aprelin 28-nə kimi 9915 min adamın köçmək üçün ərizəsi alınmışdı. Rayondan daha çox azərbaycanlı əhalini köçürmək məqsədilə Ermənistan K(b)P MK-nın xüsusi tapşırığı ilə rayonun əlaqədar təşkilatları bir neçə kəndlərdən 628 təsərrüfatın köçürülməsi haqqında ərizələri alınmışdı [2, v.296 ]. Bu, həm də inzibati qaydada həyata keçirilirdi.

Vedi rayonu İcraiyyə Komitəsinin sədri Ə.Məmmədov 1949-cu il noyabr ayının 3-də Çarqoğluyana vurduğu teleqramdan aydın olur ki, rayonun Kölcığ, Məngük, Ərmik, Qaraqoyun, Sünbül kəndlərinin əhalisi evlərini, mal-qaralarını satmış və onlar arasında daha çox gündəlik ərzaq, çörək ehtiyatları tükənmiş adamlar var. RİK sədrinin " Bir azdan qar yolları örtəcək və onların köçürülməsi mümkün olmayacaq" barədə xəbərdarlığına baxmayaraq Ermənistan rəhbərləri bu vəziyyətdən faydalanmağa çalışır, zavallı insanların taleyinə qarşı dözümlülük və biganəlik nümayiş etdirir. Ermənistan hökumətindən heç bir kömək görməyən və ac qalmaq qarşısındakı vahimə həmin təssərüfatların köçməsinə gətirib çıxartmışdı.

Göründüyi kimi, belə faktlar köçkünlər arasında narazılığa səbəb olur, minlərlə azərbaycanlı köçürmə qanunlarına məhəl qoymadan özbaşına öz yurdlarını tərk edirdilər. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin tam olmayan məlumatına görə 1949-cu ildə özbaşına olaraq 4.396 nəfəri özündə birləşdirən 856 ailə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçüb gəlmişdi [2. v. 22 ].

Köçürülmə tədbirlərinə qarşı etiraz edən azərbaycanlı əhali onların köçürülməsi ilə bağlı Sovet hökumətinə, Azərbaycan rəhbərliyinə teleqramlar vurur, teleqramlarda onların narazılığı açıq-aşkar ifadə olunurdu. Mərkəzi hökumətə vurulan teleqramlar Ermənistanın poçt idarələrində ciddi nəzarətə götürülür, onun mətni yoxlandıqdan sonra teleqramların vurulmasına icazə verilirdi. Bəzi hallarda isə onlara göndərilmiş cavab teleqramları sahiblərinə bilərəkdən çatdırılmırdı.

Mingəçevirə köçürülməsi nəzərdə tutulan Meğri rayonunun Nüvədi kəndinin əhalisi isə öz yerlərini tərk etmirdilər.Vaxtı ilə Zəngilan rayonunun tərkibində olan, 1929-cu ildə Ermənistana verilən bu kəndin əhalisi tərəfindən kolxozçuların ümumi yığıncağında qəbul edilmiş qərarda onların narazılığı ifadə olunurdu. İ.V.Stalinə göndərilmiş teleqramda deyilirdi ki, onları öz yerlərindən köçürməkdənsə, kəndinin əvvəlki sərhədlərinin bərpa olunması və Zəngilanın inzibati bölgüsünə daxil edilməsi xahiş edilirdi [1, v.24].

Köçürülmə tədbirlərinə qoşulmayan və bütün əhalisi ilə birlikdə bu siyasi tədbirə etiraz edən Noyanberyan rayonunun Ləmbəli kəndinin əhalisi hələ 1948-ci ildə köçürülməsi nəzərdə tutulan kəndlərin siyahısında idi. Onlar Azərbaycanın Salyan rayonuna köçməkdən qəti imtina edir, açıqdan-açığa hökumətin qərarına itaətsizlik nümayiş etdirirdilər. Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi A. Gözəlovun, Azərbaycan SSRNS-nin sədri Q. Quliyevin adına göndərilmiş 26 oktyabr 1948-ci il tarixli məktubunda bildirirdi ki, 245 təsərrüfatdan (1192 nəfər) ibarət olan Ləmbəli kəndinin əhalisi Azərbaycana köçmək istəmirlər [ 5, s.38].

Ləmbəli kənd sakini Seyidov Əlinin Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun ünvanına göndərdiyi məktub təkcə Ləmbəlidə deyil, butün Ermənistanda Azərbaycan türklərinin necə və hansı şəraitdə köçürülməsinə aydınlıq gətirir. Seyidov Əli Məhəmməd oğlunun Azərbaycan K(b)P MK-nın I katibi M.C.Bağırovun adına göndərdiyi məktubunda Ləmbəli camaatının köçürmə qanununa itaətsizliyi öz əksini tapmışdır.

Ləmbəlilərin düçar olduğu bu vəziyyətlə bağlı Azərbaycan SSR Kənd Təsərrüfatı nazirinin müavini M. Poladovun 1950-ci ildə Ermənistan SSR-də olarkən hazırladığı arayışda göstərilirdi ki, Ləmbəli əhalisinin evləri köçürülən erməni ailələri arasında paylanmış, azərbaycanlıların qəbiristanlığı dağıdılaraq, məzar daşlarından yeni binaların tikintisinə istifadə edildiyi bildirilir[5,s.38].

Yerli əhalinin Mərkəzi hökumətə ardı-arası kəsilməyən şikayəti nəticəsində 1950-ci ilin ortalarında Ermənistan KP MK-si "Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə" qərar qəbul edir[5,s.40].

Köçürülmə siyasətinə sadə əhali etiraz etmir, bu siyasi tədbirə eyni zamanda, Azərbaycan türkləri yaşayan rayonlarda yüksək vəzifə tutmuş partiya, sovet, təssərüfat rəhbərləri də qoşulmuşdu. Mirzə Bəşirov, Qəşəm Şahbazov, İbiş Abbasov, Yaqub Qəribov, Rəhim Allahverdiyev, Yusif Abbasov, Talıb Musayev, C.Vəlibəyov kütləvi köçürülməyə qarşı olduqları üçün Ermənistan K(b)P MK-nin bürosunun xüsusi göstərişi əsasında tutduqları vəzifələrindən azad edilmişlər.Vəzifələrindən azad edilmiş və Ermənistanda təqiblərə məruz qalan bu şəxslər sonralar Azərbaycana köçmüşlər [6, s.174].

Ermənistanın kommunist rəhbərləri və hüquq mühafizə orqanları azərbaycanlıların köçürülməsini sürətləndirmək məqsədilə yerli partiya, sovet təsərrüfat rəhbərlərinə təzyiq edir, onları əhali ilə birlikdə köçməyə məcbur edirdilər. Köçkün əhali kütləvi surətdə Kür-Araz ovalığındakı Ucar, Zərdab, Əlibayramlı (Şirvan), Saatlı, Sabirabad, Kürdəmir, Tərtər və b. rayonlara köçürülürdü.

Bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, Azərbaycanlı əhalinin deportasiyaya qarşı etirazı aşağıdakı formalarda təzahür etmişdir; **1)** Köçürülmənin könüllü olduğuna isnad edilməklə, öz tarixi torpaqlarını tərk etməkdən boyun qaşırılması; **2)** İctimai təsərrüfatlarda çalışmaqdan imtina edilməsi; **3)** Şəxsi əmlakın dağıdılması və məhv edilməsi; **4)** Köçürməyə qarşı açıq müqavimət göstərilməsi (Ləmbəlilərin timsalında); **5)** Köçkünlərin Kür-Araz ovalığında deyil, dağətəyi rayonlarda məskunlaşmaq cəhdləri; **6)** On minlərlə azərbaycanlının köçürmə qanunları ilə deyil, kütləvi köçməsi; **7)** Azərbaycanlı rəhbər işçilərin açıq müqaviməti ilə müşayiət olmuşdur.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. ARPİİSSA f.1,siy. 222, iş 48
2. ARPİİSSA f.1,siy. 221, iş 5
3. ARDA f.411, siy. 9, iş 734
4. ARPİİSSA f.1, siy. 206, iş 29
5. Paşayev A. Köçürülmə. Bakı,1995, s.40
6. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı,1995, 260 s.


## СЛУШАНИЯ И ФОРМЫ ПРОТЕСТА АЗЕРБАЙДЖАНСКИХ ТЮРКОВ НАКАНУНЕ ИХ ДЕПОРТАЦИИ ИЗ АРМЯНСКОЙ ССР (1948-1953 ГГ.)
## РЕЗЮМЕ


Статья посвящена проблеме депортации азербайджанских тюрок в 1948-1953 гг. из своих родных очагов, ныне входивших в состав Армения. Автор статьи на основании архивных материалов представил глубокий анализ переселение азербайджанского население на равнину Кур-Аракс. В статье нашли также отражение формы недовольства депортированного населения мероприятием, реализуемым советскими органами власти.


## HEARINGS AND FORMS OF PROTEST AGAINST THE MOVING OF AZERBAIJANI TURKS ON THE EVE OF THEIR DEPORTATIONS FROM ARMENIA SSR (1948-1953)
## SUMMARY


The article deals with deportation of Azerbaijani turks from historical-ethnic lands Armenian SSR in the years 1948-1953. Based on archival materials was given detailed analyses of Azerbaijani population's relocation to Kura-Araxes lowland. Azerbaijani populations protests against the deportation has been reflected in the article.

**Nazim MUSTAFA**
*AMEA Tarix İnstitutunun böyük elmi işçisi*

# 1905-1906-cı İLLƏRDƏ ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZDA TÖRƏTDİKLƏRİ TERROR VƏ QIRĞINLAR

**Açar sözlər:** Daşnaqsütyun, Hnçak, Qafqaz, türk, müsəlman, ermənilər, terror, 1905-1906
**Keywords:** Dashnaksutyun, Hnchak, Caucasus, Turk, Muslim, Armenian, massacres, terror, 1905-1906.
**Ключевые слова:** «Дашнакцутюн», «Гнчак», Кавказ, тюрк, мусульмане, армяне, резня, террор, 1905-1906.

XX əsrin əvvəllərində Cənubi Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan «Erməni məsələsi» sonralar Şərqi Anadoluda ermənilər üçün muxtariyyət əldə etmək və müstəqil Ermənistan dövləti qurmaq üçün bir vasitəyə çevrilmişdi. Bu muxtariyyətin əldə edilməsi üçün əvvəlcə Şərqi Anadolu vilayətlərində, yəni ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları vilayətlərdə ermənilərin say üstünlüyünə nail olmaq lazım gəlirdi. Lakin Şərqi Anadolu vilayətlərinin heç birində ermənilər say etibarı ilə üstünlük təşkil etmirdilər (14, c.96).

Həmin illərdə İngiltərə və Fransanın yardımı ilə Türkiyədə erməni üsyanı təbliğatı aparılırdı. Bu işə rəhbərliyi Armenakan, Hnçak və Daşnaksütyun partiyaları öz üzərlərinə götürmüşdülər. Ermənilər kütləvi iğtişaşlar törətmək məqsədilə türklərə və kürdlərə hücumlar edirdilər ki, qırğınlar baş versin və sonradan da Avropanın kütləvi informasiya vasitələri ilə türklərin erməniləri qırğınlara məruz qoyduqlarını dünyaya car çəkə bilsinlər.

Ermənilərin Türkiyədə 1894-1896-cı illərdə törətdikləri iğtişaşlar yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və iştirakçılarının əksəriyyəti Cənubi Qafqaza axışmışdı (12, c. 204; 4, s. 119-120). Rus müəllifi N.Şavrovun yazdığına görə 1896-cı ildə Cənubi Qafqazda 900000, 1908-ci ildə 1301000 erməni yaşamışdır. Deməli, təkcə bu dövrdə Cənubi Qafqaza 400000 erməni gəlib yerləşmişdi (20, s. 64). Həmin dövrdə Cənubi Qafqazda törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin və muzdlu qatillərin payına düşürdü (14, c. 137).

XX əsrin əvvəllərində Qafqazda mövcud olan 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər. İrəvan quberniyasındakı 7 qəzadan 3-də, Yelizavetpol quberniyasındakı 8 qəzadan yalnız 1-də ermənilər çoxluq təşkil edirdilər. 1905-1906-cı illər qırğınları ərəfəsində İrəvan quberniyasında mövcud olan 1301 yaşayış məntəqəsindən 959-da azərbaycanlılar, 342-də ermənilər məskunlaşmışdılar (2, s. 43). Yelizavetpol quberniyasında isə 1613 kənddən 390-da ermənilər yaşayırdılar (2, s. 143).

XX əsrin əvvəllərində erməni şovinizminin, millətçi erməni partiyalarının maddi və mənəvi qida mənbəyi rolunu əsasən erməni kilsələri oynayırdı. 1903-cü ildə kilsə torpaqlarının Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi haqqında çıxarılan qanun kilsənin maliyyələşdirdiyi siyasi partiyaların və onların terrorçu dəstələrinin maddi vəziyyətinə zərbə vurmuşdu. Həmin qanunun icrasının qarşısını almaq məqsədilə erməni siyasi partiyalarının terrorçu dəstələri hakimiyyət mənsublarına qarşı terror aktları həyata keçirməyə başlamışdılar. Eyni zamanda erməni siyasi partiyaları Cənubi Qafqazda antitürk, antimüsəlman kampaniyasını genişləndirməyə başlamışdılar. Erməni kilsəsi bu qanun əleyhinə qiyamlar təşkil etmişdi. Ermənilər həmin il avqustun 29-da Gəncədə, sentyabrın 2-də Qarsda və Bakıda, sentyabrın 12-də Şuşada, oktyabrın 14-də Tiflisdə iğtişaşlar törətmiş və terror aktları həyata keçirmişdilər (3, s. 47).

1905-ci ildə Rusiyada iğtişaşların baş verməsi, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Cənubi Qafqazda da güclü əks-səda doğururdu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə etmişdirlər. Qafqaz Canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Cənubi Qafqazda azərbaycanlıların kompakt yaşadıqları ərazilərə silahlı hücumlar edib etnik təmizləmə həyata keçirməklə, həmin ərazilərdə Türkiyədən qaçıb gələn erməniləri məskunlaşdırmaqla özlərinin say üstünlüyünə nail olmaq, sonra isə yeni yaranan erməni anklav-

larını birləşdirməklə, erməni dövlətinin əsasını qoymaq istəyirdilər. "Hnçak" partiyasının proqramına əsasən yaradılması nəzərdə tutulan erməni dövləti Cənubi Qafqaz, Şərqi Anadolunu və Cənubi Azərbaycanın bir hissəsini əhatə etməli idi (9, s. 50-51).

Erməni siyasi partiyaları özlərinin həyata keçirmək istədikləri planlara mane olan çar məmurlarına qarşı terror tətbiq edirdilər. Nəticədə bir çox rus məmurları və ayrı-ayrı şəxslər terror qurbanı oldular. General Maqsud Əlixanov-Avarski, Bakının qubernatoru Nakaşidze, Yelizavetpol (Gəncə) quberniyasının qubernatoru Andreyev, polkovniklər Bıkov, Saxarov və başqa dövlət məmurları və yüksəkrütbəli zabitlər ermənilərin həyata keçirdikləri terror aktlarının qurbanı olmuşdular (16, c. 8).

Bəzi çar məmurları isə Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə istiqamətlənəcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadığı ərazilərdə törətdikləri qırğınlara biganə qalmış, bəzi hallarda isə onların tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə səbəb olmuşdular.

1905-ci il fevralın 6-da Sabunçu qəsəbəsinin sakini Ağarza Babayevin Bakının mərkəzində öldürülməsi ilə şəhərdə və ətraf qəsəbələrdə ilk qırğınlar başlamışdır. Ermənilərin evlərinin damından, pəncərələrindən küçədən keçən azərbaycanlılar güllələbaran edilirdi. Evlər, mağazalar qarət edilir və yandırılırdı. Bakıdakı bir çox fabriklər və müəssisələr yandırılıb dağıdıldı. Hakimiyyət orqanları qırğınların dayandırılmasında acizliyini göstərdi. Bakı qırğınlarının səbəb və nəticələrini araşdıran Senator Kuzminski 6-9 fevral tarixlərində baş vermiş birinci Bakı qırğınları zamanı 232 nəfərin qətlə yetirildiyini, onların da yarıdan çoxunu ermənilərin təşkil etdiyini yazır (7, c. 105). Hər iki tərəfdən yüzlərlə insanın ölməsi və yaralanması ilə nəticələnən qırğınlar fevralın 9-da dayandırılmışdı.

Terror aktları zamanı istifadə etmək üçün Bakıda ermənilərə məxsus zavod və fabriklərdə partlayıcı maddələr və bomba istehsal edilirdi. 11 may 1905-ci ildə Bakının qubernatoru knyaz Nakaşidzenin terror aktı nəticəsində öldürülməsindən sonra polis şəhərdə ermənilərə məxsus idarə-müəssisələrdə axtarışlar aparmışdı. Polis 19 may 1905-ci ildə Bakıdakı Telefonnaya küçəsindəki Sarkis Poğosbekovun metaləritmə emalatxanasında partlayıcı mərmilər və 80 hazır bomba aşkar etmişdi. Həmçinin həmin emalatxananın həyətində qazılmış xəndəkdə daha üç partladılmaya hazır bomba tapılmışdı (15, c. 35).

Ermənilər həmin il avqustun 20-də Bakıda ikinci dəfə qırğınlar törətmişdilər. İndi "Fəvvarələr bağı" adlanan ərazidə yerləşən erməni kilsəsinin zənginin çalınmasından bir neçə dəqiqə sonra ermənilərin evlərindən, onlara məxsus mağazalardan azərbaycanlıların üzərinə sel kimi atəş açılır. Qısa zamanda iğtişaşlar Bakı ətrafındakı qəsəbələri və neft mədənlərini də bürüyür. Hakimiyyət qüvvələrinin ələ aldığı ciddi tədbirlər sayəsində qırğınlara avqustun 30-da son qoyulur. İkinci qırğınlar zamanı hər iki tərəfdən 500-ə yaxın insan tələf olmuşdu ki, onların da üçdə ikisini müsəlman-türk əhali təşkil edirdi. Bakıda üçüncü qırğınlar 1905-ci il 20-25 oktyabr tarixində baş vermişdir. 17 oktyabr Manifestinin imzalanmasından iki gün sonra, 1905-cil mayın 11-də Nakaşidzeni öldürən 5 erməni məhbusunun azadlığa buraxılması üçün Daşnaksütyun partiyasının təşkilatçılığı ilə oktyabrın 19-da Bakının mərkəzində mitinqlər keçirilir. İndiki Nizami (*keçmiş Torqovaya*) küçəsində ermənilərlə müsəlmanlar arasında yenidən silahlı toqquşma baş verir. Yenə də erməni evlərindən və mağazalarından azərbaycanlılar atəşə tutulur. Qəzəblənmiş müsəlmanlar əks-hücuma keçir. Erməni terrorçularının cəbbəxanaya çevirdikləri 20-dən artıq erməni evi yandırılır. Sonrakı günlərdə iğtişaşlar Bayıl qəsəbəsində davam edir. Güc strukturlarının kəskin müdaxiləsi ilə qırğınlar dayandırılır. Bu zaman şəhərdə 60-dan artıq, Bayıl qəsəbəsində isə 35 nəfər qətlə yetirilir (2, s. 41).

Bakının qubernatoru yazırdı ki, öldürülən müsəlmanların sayı çox olsa da, onlar bunu demir, meyitlərini ortadan götürərək sakitcə basdırırdılar. Tiflis Məhkəmə Palatasının prokuroru Ədliyyə Nazirliyinin işlər müdirinə 1905-ci il 20 fevral tarixli tamamilə məxfi məktubunda yazırdı ki, azərbaycanlılar meyitlərini tez aradan götürdüklərindən öldürülənlərin sayını dəqiq müəyyənləşdirmək mümkün deyildir (6, s. 67). Bu, onunla bağlı idi ki, azərbaycanlılar ölülərinin xəstəxanalara aparılıb yarılmasını istəmədiklərindən onları götürüb tezcə dəfn edirdilər.

Bakıda baş verən erməni-müsəlman qırğınları bəzi müəlliflərin iddia etdikləri kimi, bir təsadüf nəticəsində deyil, məhz bütün Cənubi Qafqazın varlı ermənilərinin zaman-zaman cəm olduqları bir şəhərdə planlı şəkildə baş vermişdi. Ermənilər Bakıda erməni milyonerlərinin köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Cənubi

Qafqazdan müsəlmanları silah gücünə qovub erməni dövləti yaradacaqlarına əmin idilər (10, s. 7). Lakin ermənilərin niyyətləri baş tutmamış və nəticədə məğlub olaraq qırğınları dayandırmışdılar.

Bakıda baş verən ilk qırğınlardan sonra ermənilər qanlı əməllərini İrəvan qəzasında etdirmişdilər. Həmin dövrdə İrəvan qəzasında mövcud olan 221 kənddən yalnız 55-ində sırf ermənilər yaşayır, 15 kənddə isə hər iki millətin nümayəndələri qarışıq şəkildə yaşayırdılar (2, 122). Erməni siyasi partiyalarının əsas məqsədi 1905-1906-cı illərdə kütləvi qırğınlar törətmək yolu ilə əvvəlcə İrəvan quberniyasına yiyələnmək, sona isə Zəngəzur-Qarabağ və Qazax-Tovuz istiqamətlərindən hücum edərək bu iki istiqamət arasında qalan azərbaycanlı kəndlərini ələ keçirərək Gəncədə birləşməkdən ibarət idi.

Erməni tarixçisi Hraçik Simonyan yazır ki, Bakıda fevral qırğınlarının yatırılmasından sonra Daşnaksütyun partiyasının Tiflisdəki Şərq bürosunun iclası keçirilmiş, "Voskanapat" (Bakı), "Aparaj" (Şuşa), "Mrkastan" (İrəvan) və "Meç Kağak" (Tiflis) komitələrində "özünümüdafiə" məsələləri müzakirə edilmişdi. Türk kəndlərinin əhatəsində olan erməni yaşayış məntəqələrini "təhlükədən xilas etmək üçün" Daşnaksütyun partiyasının silahlı dəstələrini yerlərə göndərmək qərara alınmışdı. Yelizavetpol və İrəvan quberniyasında "özünümüdafiə" dəstələrinin hərbi əməliyyatlarına başlamaq üçün təcili olaraq Nikol Duman (Nikol Ter-Hovannissyan) İrəvana, Xanasori Vardan (Sarkis Mehrabyan) isə Şuşaya ezam edilmişdilər. Tadevos Amiryan ("Gic Tatos", yaxud "Dəli Taos") da Nilol Dumana kömək üçün Bakıdan İrəvana göndərilmişdi (11, s. 162). Erməni silahlı dəstələrinə bir qığılcım lazım idi ki, bunu bəhanə edib qırğınlara başlasınlar. 1905-ci il fevralın 19-da İrəvan şəhərində daşnaklar azərbaycanlılara rəğbəti olan və eyni zamanda ermənilərə nifrət edən Urazov soyadlı rus millətindən olan quberniya hakimini axşam saatlarında qubernatorun dəftərxanasının yaxınlığında xəncərlə qətlə yetirmişdilər ki, azərbaycanlılar ayağa qalxsınlar və bununla da qırğınlara start verilmiş olsun. Fevralın 20-də səhər ermənilər şayiə yayırlar ki, guya Bazar meydanında azərbaycanlılar erməniləri doğrayırlar. Şəhərdə böyük çaxnaşma yaranır. Erməni tarixçisi Hraçik Simonyan yazır ki, Daşnaksütyun partiyası öz gənc üzvlərinə 20 tüfəng və 10 tapança verərək tapşırır ki, digər erməni silahlıları ilə birgə küçələrdən keçən türklərin üzərinə atəş açsınlar (11 s. 159). İğtişaşlar iki gün davam edir. Qırğınlar hər iki tərəfdən 100-ə yaxın ölü və yaralının olması ilə nəticələnir (2, 48-51).

Daşnaksütyun partiyasının növbəti hədəfi Naxçıvan qəzası idi. Naxçıvan qəzasında mövcud olan 170 kənddən 110-da azərbaycanlılar, 40-da ermənilər, 20 kənddə isə türklərlə ermənilər qarışıq şəkildə yaşayırdılar (2, 64). 1905-ci il mayın 5-də Naxçıvan qəzasının Cəhri kəndində üç nəfər müsəlmanın ağır yaralanması və mayın 7-də bir nəfər müsəlmanın Tumbul kəndində öldürülməsi ilə milli zəmində yenidən qızışmışdı. Mayın 8-də İrəvan vitse-qubernatoru Baranovski, İrəvan şəhər qlavası Ağamolov, Peterburqdan qayıdan Naxçıvan şəhər qlavası Cəfərqulu xan Naxçıvanski birlikdə Naxçıvana gəlirlər. Qırğınların yatırılması üçün Tiflisdən general Əlixanov-Avarski də Naxçıvana göndərilir. Ermənilər mayın 10-12-də Naxçıvan şəhərində iğtişaşlar törədirlər. Erməni silahlıları Naxçıvan bazarında müsəlmanları güllələbaran etməyə başlayırlar. Şəhərin bütün küçələrində tüfəng və tapançalardan atəş açılır. Öldürülən, yandırılan və yaralananların sayı 100-ü ötür. İğtişaşlar ətraf kəndlərə də yayılır. Lakin ermənilər Naxçıvanda məqsədlərinə çata bilmirlər. M.S.Ordubadi yazır ki, ermənilərin məqsədi İrəvandan Naxçıvana qədər yol üstə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb, Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvələri birləşdirməkdən, daha sonra isə Qarabağ erməniləri ilə əlaqə yaratmaqdan ibarət olmuşdur (10, s. 17).

Ermənilər Naxçıvan məğlubiyyətindən sonra iğtişaşları yenidən İrəvanda davam etdirmişdilər. Qubernator Tizenhauzen göstəriş verir ki, qayda-qanun yaradılması üçün şəhər ətrafındakı Kənəker qəsəbəsindən qoşun gətirilsin. Bundan xəbər tutan Nikol Duman Daşnaksütyun partiyasının möhürü ilə Tizenhauzenə xəbərdarlıq məktubu göndərərək yazır ki, əmrini geri götürsün, əks təqdirdə, onun silahlı dəstələri əsgər kazarmalarına hücum edib bütün əsgərləri öldürəcəklər. Tizenhauzen qorxusundan verdiyi əmri geri götürmüşdü (11, s. 167). Mayın 23-də ermənilərin Qarsaçay bağçasında müsəlman gənclərinə hücumu ilə İrəvanda növbəti qırğınlar başlanır. Mayın 31-də İrəvanda qırğınlar dayandırılsa da, ermənilər ətraf müsəlman kəndlərinə hücum etməyi qərara alırlar. Elə həmin axşam ermənilər İrəvan qəzasının Qırxbulaq mahalının Gözəcik kəndinə hücum edirlər. İyunun 2-də 10 min

nəfərlik erməni alayı Məngüs kəndinə hücum edir. Dağıdılmış 12 müsəlman kəndinin əhalisi Təzəkəndə qaçır. Ermənilər iyunun 3-də Güllücə kəndinə hücum edirlər. Silahsız əhali Tutiyə, Damagirməz, Kamal kəndlərinə qaçır. Qırğınlar 18 gün davam edir. Nəhayət, ermənilər Gözəcik, Güllücə, Məngüs, Damagirməz, Tutiyə, Kamal və Məsimli kəndlərini darmadağın edir, əmlaklarını talan edirlər ki, bir də azərbaycanlılar geri qayıda bilməsinlər (18; 2, 129).

İyunun 3-də Abaran, Şörəyel, Pəmbək və Aleksandropoldan gələn silahlı dəstələrin köməyi ilə ermənilər Eçmiədzin (Üçkilsə) qəzasının Üşü kəndinə hücum edir, iyunun 8-də müsəlmanlar kəndi tərk edirlər. İyunun 9-da ermənilər Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrku, Əngirsək, Təkiyə kəndlərini dağıdırlar. İyunun 10-da ermənilər Eçmiədzində 10 kəndi dağıdırlar. M.S.Ordubadi 1905-ci ildə indiki Ermənistan ərazisində ermənilərin törətdikləri soyqırımı belə səciyyələndirmişdi: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi"( 10, 33-34).

Şərur-Dərələyəz qəzasında 163 kənd mövcud idi ki, onlardan 109-u Dərələyəz nahiyəsində, 54-ü isə Şərur nahiyəsində idi. Şərur nahiyəsində 6 erməni kəndi və 2 qarışıq kənd, Dərələyəz nahiyəsində isə 23 erməni kəndi və 2 qarışıq kənd mövcud idi. 1905-ci ilin oktyabr ayının sonlarında Dərələyəzin azərbaycanlılar yaşayan kəndləri ermənilər tərəfindən yandırılıb talan olunmuş dinc əhali isə kütləvi şəkildə qətl edilmişdi. 1905-ci il oktyabrın 27-də Şərur-Dərələyəz qəzasının 6 erməni kəndindən 700-ə yaxın silahlı ermənilər Hors kəndinə hücum etmiş, 40 azərbaycanlını öldürmüş və 255 evi yandırmış, kəndin mal-qarasını oğurlanıb aparmışdılar. Oktyabrın 30-da həmin kəndə yenidən hücum etmiş, 53 azərbaycanlını öldürmüş, 27 nəfəri isə yaralamışdılar (7, s. 130).

Zəngəzur qəzasında mövcud olan 406 kənddən 314-də müsəlmanlar, yerdə qalan 92 kənddə ermənilər yaşayırdılar (2, s. 244). Zəngəzur qəzasında ilk qırğınları ermənilər 1905-ci ilin iyun ayında Naxçıvan qəzası ilə həmsərhəd olan iki kənddə törətmişdilər. Ermənilər 1905-ci il avqustun 16-da Gorusadan Qarakilsəyə qayıdan dörd ermənini Ağudi və Vağudi kəndlərinin sərhədində qətlə yetirmiş, təqsiri azərbaycanlıların üzərinə yıxmışdılar (2, s. 251).

1905-ci il sentyabrın 22-də Xoznavar və Xnaçax erməniləri ətraf kəndlərdən gələn silahlı dəstələrin köməyi ilə azərbaycanlı kəndlərinə hücum edərək Bayandur, Hələk, Kosalar, Malıbəyli, Cağacur, Çaylı, Kalavalax, Novruzlu kəndlərini dağırtdılar. Birinci üç kənd isə tamamilə qarət edilir (2, s. 226).

1905-ci ilin oktyabrında Zəngəzur qəzasının 10 erməni kəndinin silahlıları qəzanın azərbaycanlılar yaşayan Sisyan kəndinə hücum etmiş, 75 nəfər öldürülmüş və yaralanmışdılar.

1905-ci il dekabrın 17-də erməni silahlı dəstələri Böyük Cicimli və Kiçik Cicimli kəndlərinə hücum etmiş, Kiçik Cicimli tamamilə darmadağın edilmiş, Böyük Cicimli kəndinin əhalisi qaçmağa müvəffəq olsa da, evləri qarət edilmişdi. Erməni müəllifi A-Do ermənilərin bu hərəkətini vəhşilik adlandırır və acı olsa da bunu qeyd etməyə bilmədiyini yazır (2, s. 267).

1905-ci il dekabrın 29-da Tatev erməniləri azərbaycanlıların yaşadıqları Kürdlər adlanan kəndə hücum etmiş, lakin azərbaycanlılar müqavimət göstərə bilməmiş, çoxsaylı itki verərək kəndi tərk etmək məcburiyyətində qalmışdılar. Kənd talan edilmiş, sonra isə yandırılaraq xarabalığa çevrilmişdi. A-Do ermənilərin bu hərəkətinə heç bir əsas tapa bilmədiyini, bu hücumu barbarlıq və məhkum olunası əməl kimi xarakterizə etmişdir (2, s. 274).

Erməni siyasi partiyalarının silahlı dəstələri Şuşa qəzasını azərbaycanlılardan təmizləmək üçün uzun müddət hazırlıq görmüş, müasir silahlarla təchiz olunmuşdular. Həmin vaxt Şuşa qəzasında mövcud olan 242 kənddən yalnız 91-də ermənilər, 3 kənddə isə ermənilərlə azərbaycanlılar qarışıq şəkildə yaşayırdılar (2, s. 169). Daşnaksutyun partiyası Şuşanı ələ keçirmək üçün bütün hazırlıq işlərini əvvəlcədən görmüşdü. Erməni silahlı dəstələrinə Hamazasp Srvandzyan komandanlıq edirdi. Ermənilər bəhanə axtarırdılar ki, qırğınlara başlasınlar. 1905-ci il avqustun 16-da kazaklar Şuşada bir ermənini tərksilah etmək istəyərkən o, müqavimət göstərmiş və öldürülmüşdü. Bu fürsətdən istifadə edən ermənilər qətlin günahını azərbaycanlıların üstünə ataraq qırğınlara başlamışdılar. Qırğınların 4-cü günü ermənilər məğlub olduqlarını görüb ağ bayraq qaldırmışdılar. Avqustun 21-də tərəflər arasında sülh imzalanmışdı. Hökumət qüvvələri iğtişaşlar davam etdiyi müddətdə hadisələrə seyrçi qalmışdı. Erməni müəllifi A-Donun verdiyi məlumata görə Şuşadakı birinci qırğınlar zamanı ermənilər 100 nəfər, türklər isə bundan 2-3 dəfə çox itki vermişdilər (2, s. 156).

Ermənilər 12-22 iyul 1906-cı ildə Şuşa şəhərində ikinci dəfə qırğınlara başlamışdılar. Ermənilər bir neçə gün əvvəl ölmüş bir erməninin meyitini Şuşanın ermənipərəst general-qubernatoru Qoloşşapova göstərərək guya onun azərbaycanlılar tərəfindən yenicə qətlə yetirildiyini söyləmişdilər. Qoloşşapovun əmri ilə hökumət Qumluq və Köçərli məhəllələrini top atəşinə tutur. Beş gün ərzində Şuşanın ermənilər yaşayan hissəsində bütün azərbaycanlı evləri yandırılır və top zərbələri ilə dağıdılır. A-Do yazır ki, Şuşada baş verən ikinci qırğınlar zamanı 24 erməni öldürülmüş, 102 nəfər yaralanmışdı, türklərin isə itkiləri yenə də qat-qat çox olmuş, böyük əksəriyyəti türklərə məxsus olmaqla, 200-dən artıq ev yandırılmışdı (2, s. 167).

Əslən Şuşa ermənisi olan əsərlərini "Leo" imzası çap etdirən Arakel Babaxanyan yazır ki, Daşnaksütyunun Tiflisdə keçirilən yığıncağının sənədlərindən aydın olur ki, daşnaklar Qarabağda "ermənistanlılar" yaratmaqla məşğul idilər və bunun üçün türklərə qarşı "sil-süpür" siyasəti həyata keçirirdilər ( 5, s. 157).

1905-ci il avqustun 23-də erməni silahlı dəstələri Xocalıya hücum edirlər. Kənd əhalisinin bir qismi qaçaraq canlarını qurtarmış, bir qismini də ermənilər öldürmüşdülər. A-Do yazır ki, kəndi ələ keçirən ermənilər əvvəlcə evləri talamış, sonra isə od vurub yandırmışdılar ki, bir də əhali geri qayıda bilməsin (2, s. 169).

Ümumiyyətlə, Şuşa qəzasının 12 kəndi – Quşçular, Xankəndi, Xocalı, Qacar, Qaradağlı, Vərəndəli, Hacuğ, Divanallar, Veysəlli, Ağbaş, Avdal, Gülablı kəndlərinin azərbaycanlı əhalisi erməni silahlı dəstələri tərəfindən qırğınlara məruz qoyulmuşdu ( 2, 156)

Azərbaycanlı kəndlərinin güllələbaran edilməsində, dinc əhalinin məhv edilməsində təqsirkar bilinən Şuşa qəzasının 15 erməni kəndinə qarşı hakimiyyət orqanları ekzekusiya (cərimə) tətbiq etmişdi (2, s. 404).

Erməni silahlı dəstələri 1905-ci ilin avqust ayından 1906-cı ilin iyun ayınadək müəyyən fasilələrlə Cavanşir qəzasının Xaçın və Tərtər çayları hövzəsində, habelə Ağdərə bölgəsində kütləvi qırğınlar törətmişlər. Həmin dövrdə Cavanşir qəzasındakı 227 kənddən yalnız 39-da ermənilər yaşayırdılar (2, s. 209). Cavanşir qəzasındakı azərbaycanlı kəndlərini aradan götürməklə, ermənilər İrəvan, Zəngəzur, Şuşa və Gəncə ermənilərinin birbaşa əlaqəsinə nail olmaq istəyirdiliər. Həmin dövrdə Cavanşir qəzasında mövcud olan 227 kənddən yalnız 39-da ermənilər yaşayırdılar. Erməni kəndlərindəki silahlı dəstələr bütün Cavanşir qəzasını azərbaycanlılardan təmizləmək üçün Hamazaspın komandanlığı altında hərbi əməliyyatlar həyata keçirmişdilər. 1905-ci il oktyabrın 3-də erməni silahlıları Sırxavənd və Əliağalı kəndlərini darmadağın edirlər. M.S.Ordubadi bu iki kənddə ermənilərin törərətdikləri qırğınları belə təsvir edir: "Vəhşi yırtıcılar südəmər körpələri beşiyi ilə odlayıb, bəzən də anasının qucağından alıb divarlara vurmaqla para-para edir, süngülərə keçirirdilər" (10, s. 81).

Erməni quldurları 27-31 noyabr tarixlərində Dəmirli, Çıraqlı, Hacıqərvənd və Pürxud kəndlərini işğal etdikdən sonra talamış və yandırmışdılar. Tərtər dərəsində salamat qalan yeganə azərbaycanlı kəndi Umudlu kəndi idi ki, orada da müasir ermənilərin 1992-ci ildə Xocalıda törətdikləri soyqırımına bənzər qırğınlar törədilmişdi. Erməni müəllifi A-Do yazır: "Dekabrın 23-də ermənilər Umudlu və İmarət Qərvənd kəndlərinin üzərinə hücuma keçdilər. Bir neçə saatlıq müqavimət türkləri qırğınlardan qurtarmadı. Ermənilər bu iki kəndə daxil olub barbarlıqlar törətdilər...Umudluda heç kimə aman vermədən qarşılarına çıxanı öldürdülər. Burada bir türk qadını qəhrəmanlıq nümunəsi göstərdiyi söylənir. Onlardan biri odur ki, bir qadın ərini öldürən erməninin qılıncını əlindən alıb, öz sinəsinə soxmuşdu. Bu iki kənddən onlarla qadın və kişi öldürüldü. Lakin bu qırğınlardan sonra daha dəhşətli hadisələr baş verdi. Şahidlərin söylədiklərinə görə sağ qalanlardan bəziləri uzun yol gedə bilməyib, meşələrdə qalmış və donmuşdular..."(2, s 227-228).

Deməli, 1992-ci ildə Xocalıda törədilən soyqırımın analoqunu ermənilər hələ 1905-ci ilin dekabrında Umudluda törətmişdilər. Ermənilər 1906-cı ilin yanvarında Papravənd kəndinə hücum etmiş, lakin Ağdam tərəfdən azərbaycanlıların köməyə gəlməsindən sonra daha çox itki verərək məğlub olmuşdular. Erməni qaniçənləri 1905-1906-cı illərdə Cavanşir qəzasının Sırxavənd, Yeddi Qışlaqlar, Çıraqlı, Hacı Qərvənd, Məmərzalar, Arpatala, Buruz, Dəmirli, Güney Pəyələr, Manikli, Süleymanbəyli, Əliqağalı, Kəngərli, Papravənd, Qarapirim, Umudlu, İmarət Qərvənd, Çobansu, Şəxavənd və Pürxud kənlərində kütləvi qırğınlar törətmiş və əhalini yer-yurdlarından didərgin salmşdılar ( 2, s. 228-229).

1905-ci ilin əvvəllərində Cəbrayıl qəzasındakı 171 kənddən 32-də ermənilər yaşayırdılar (2, s. 231). 1905-ci il avqust və 1906-cı ilin avqust aylarında erməni silahlı dəstələrinin hücumları nəticəsində Cəbrayıl-Qaryagin qəzasında Qaradağlı, Divanallar, Aşıq Məlikli, Veysəlli, Qacar, Çəmənli, Arış, Qışlaq, Qüzlək, Məzrə kəndləri darmadağın edilmişdi. Azərbaycanlıların əks həmləsindən sonra ermənilər qırğınları dayandırmaq məcburiyyətində qalmışdılar (10, s. 42; 2, s. 243).

Gəncə şəhərində qırğınlar törətmək üçün ermənilər yenə də təxribata əl atmışdılar. Belə ki, ermənilər 1905-ci il noyabr ayının 18-də Gəncənin ermənilər yaşayan Dik küçə adlanan məhəlləsində bir erməninin bağının önündən keçən Togana kəndindən olan iki azərbaycanlını güllə ilə qətlə yetirirlər. Bu hadisə şəhərdə qırğınların başlaması üçün qığılcım rolunu oynamışdı. Kamsakaran soyadlı erməni Gəncənin pristavı idi və erməni silahlı dəstələrinə himayədarlıq edirdi. Yaranmış gərgin vəziyyətdən istifadə edən ermənilər noyabrın 18-dən etibarən Gəncə şəhərində kütləvi qırğınlar törətmişdilər. Noyabrın 22-dən 23-nə keçən gecə qaçaq Dəli Alının dəstəsinin köməyə gəlməsi xəbərini eşidən ermənilər qırğınları dayandırırlar. Qafqaz canişininin köməkçisi general Malamanın başçılığı ilə Gəncəyə gələn komissiya qırğınların törədilməsində ermənilərin təqsirkar olmaları barədə canişinə hesabat təqdim etmişdi. Həmin dövrdə Gəncə qəzasındakı 171 kənddən 38-də ermənilər yaşayırdılar (2, 325). Ermənilər Gəncə qəzasının Mollavələd, Çaylılar, Dardərə, Sarısu, Dazılar, Abbasdərə, Pənahlar, Ağyoxuş, Axırca, Topalhəsənli, Dərəbəyli, Qarayataq, Məlikli və Söyüdlü kəndlərini dağıtmış, əhalisini yer-yurdlarından didərgin salmışdılar (2, s. 356).

Erməni silahlı dəstələri Qazax qəzasında 1905-ci ilin noyabrından 1906-cı ilin fevral ayınadək müəyyən fasilələrlə qırğınlar törətmişlər. Həmin dövrdə Qazax qəzasındakı 131 kənddən 48-də ermənilər yaşayırdılar (2, s. 357). Novo-Bəyazid qəzasındakı erməni silahlı dəstələrindən kömək alan ermənilər əvvəlcə Qazax şəhərində, sonra isə Tovuz, Tatlı və Ağstafa dəmiryol stansiyalarında iğtişaşlar törədilməsinə bais olmuşdular. Üç aydan artıq davam edən iğtişaşlar zamanı Qazax qəzasının Əlibəyli, Mülkülü, Hacalı, Köhnəqışlaq, Yaradulla, Hətəmağalı, Alatala, Safulu, Barxudarlı, Cəfərli, Çaxmaqlı, Polad Ayrım, Göyərçin, Mürteyil, Alaçıqqaya, Ağkilsə, Haqqıxlı, Qızılhacılı, Bağanis Ayrım, Xeyrimli, Məzəmli, Quşçu Ayrım, Aşağı Əskipara və Yuxarı Əskipara kəndləri erməni silahlı dəstələrinin hücumuna məruz qalmış, kəndlər dağıdılmış və əhalisi müəyyən müddət evlərindən qaçqın düşmüşdü (2, s. 379).

1906-cı ilin fevral ayında Tiflisdə Qafqazın canişini Voronsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman qırğınlarına son qoymaq məqsədilə sülh konfransı (məclisi) keçirilmişdir. Həmin konfransda müsəlman nümayəndələri Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Ədil xan Ziyadxanov və başqaları Daşnaksütyun partiyasının niyyətlərini ifşa etmiş, onun Cənubi Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olduğunu göstərmiş, rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetirmişdilər (13).

Lakin sülh konfransının keçirilməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başlamışdılar. Zəngəzur qəza rəisinin tapşırığı ilə yerlərdə barışıq komissiyaları yaradılsa da bu, Daşnaksütyun partiyasının məramına zidd idi. Ona görə də barışıq komissiyasının üzvlərinə qarşı terror aksiyaları həyata keçirirdilər. Yelizavetpol quberniyasının qubernatoru A.Kalaçovun 24 aprel 1906-cı ildə Qafqazın canişininə göndərdiyi raportda Daşnaksütyun partiyasının Bığ kəndindəki muzdlu qatili Peto adlı ermənininin üç naməlum ermənilərlə birlikdə barışıq komissiyasının üzvləri Hacı bəy Məlik Şəfiyevi və Molla Hacı Mir Əbdüləzim oğlunu qətlə yetirdikdən sonra həmin kənddə gizləndikləri qeyd edilmişdi (1, vərəq 70).

İrəvandan Zəngəzura, Zəngəzurdan Qarabağa qədər ərazidə erməni əhalisinin sayı olduqca az olduğu üçün erməni silahlı dəstələrinə yol üstündə yerləşən müsəlman kəndlərinə hücum etmək əmri verilmişdi. 1906-cı il iyulun 29-da Daşnaksütyun partiyasının göstərişi ilə ermənilər Zəngəzur qəzasının Mədən bazarında Səfyar bəyi qətlə yetirir, sonra isə Karxana kəndinə hücum edirlər. Ermənilər bu kənddə heç kəsə aman vermir, kəndin bütün əhalisini öldürür və ya əsir götürürlər. Elə həmin gün ermənilər Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini viran qoyurlar. Avqustun 1-də ermənilər Qatar kəndinə hücum edirlər. 9 gün qatarlılar kəndi müdafiə edirlər.

1906-cı ilin avqust-sentyabr aylarında erməni silahlı dəstələri qırğınların ağırlıq mərkəzini Zəngəzurun Oxçu-Şəbədək bölgəsinə keçirirlər. Ermənilər qırğınlardan canını qurtaran azərbaycanlıların cəmləşdiyi Saqqarsu kəndində əsl soyqırım törədirlər. Zəngəzurda ermənilərin törətdikləri qırğınlara

son qoyulması üçün Ordubad nahiyəsində yaradılan könüllü dəstələr hərəkətə keçirlər. 800 nəfərə yaxın Ordubadlı könüllülərin də köməyi və 1000 nəfərə yaxın Oxçu-Şəbədək silahlılarının iştirakı ilə sentyabrın 16-17-də Oxçu-Şəbədək kəndləri ermənilərin işğalından azad edilir (10, s. 138-140). Bundan sonra sağ qalan əhalinin yenidən öz kəndlərinə qaytarılması prosesi başlanır. Erməni müəllifi A-Do dağıntılara məruz qoyulan 43 azərbaycanlı kəndlərinin adlarını aşağıdakı kimi təsbit etmişdir: Bayandur, Hələk, Binəyeri, Kosalar, Malıbəyli, Cağazur, Çaylı, Kalavalax, Novruzlu, Cecimli, Hacılar, Bağırbəyli, Qarahunc, Unanav, Kürdlər, Ağvani, Danzaver (Armuldlu), Sisyan, Ağudi, Dərəbas, Pul, Ərikli, Şükar, Məliklər, Yeməzli, Xəştap, Almalı, Karxana, Qatar, Cıbıllı, Xələc, Keçi-Şabadin, İncəvar, Çullu, Oxçu, Atqız, Pirdavudan, Əclıli, Buğaçıq, Kollu-Qışlaq, Mtnadzor, Sanalı (2, s. 305-306)

Erməni müəllifi Stepan Zavaryanın verdiyi məlumata görə, həmin dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi, ümumilikdə isə həmin bölgələrdə 75 kənd dağıdılmışdır (17, s. 61).

Ermənilər 20-29 noyabr 1905-ci ildə Tiflis şəhərində azərbaycanlıların yaşadıqları məhəllələrdə kütləvi qırğınlar və terror aktları törətmişdilər. Borçalı qəzasında yaşayan azərbaycanlılardan ibarət silahlı dəstələrin köməyə gəlməsindən sonra Tiflisdə qırğınlar dayandırılmışdı.

Azərbaycanlıların təşkilatlanması, 1906-cı ilin payızında "Difai" partiyasının formalaşaraq ermənilərin terroruna terrorla cavab verməsi erməniləri qırğınlar törətməkdən əl çəkməyə məcbur etmişdi.

Ümumiyyətlə, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 14 qəzasında - İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Aleksandropol, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı qəzalarında və 8 şəhərində - Bakı, İrəvan, Naxçıvan, Gümrü, Gəncə, Şuşa, Qazax və Tiflis şəhərlərində qırğınlar törətmişlər.

1897-ci ildə İrəvan quberniyasında 313176 nəfər azərbaycanlı əhali qeydə alındığı halda, 1907-ci ildə bundan xeyli az - 302965 nəfər qeydə alınmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımı nəzərə alınmasa belə, 10 min nəfərdən artıq azərbaycanlı ya qətlə yetirilmiş, ya da İrəvan quberniyasından didərgin salınmışdı.

Qafqazın canişini İ.Voronsov-Daşkov milli münaqişələr nəticəsində meydana çıxan dağıntıların və əhaliyə dəyən ziyanın aradan qaldırılması, İrəvan və Yelizavetpol quberniyalarının zərər çəkmiş əhalisinə borc verilməsi üçün Daxili İşlər və Maliyyə nazirləri qarşısında dəfələrlə vəsatət qaldırmışdı. Rusiya imperiyasının Maliyyə Nazirliyi uzun müddət müxtəlif bəhanələrlə İrəvan və Yelizavetpol quberniyalarının fəlakət qarşısında qalan əhalisinə yardım göstərməkdən imtina etmişdi (5a, s. 27).

İrəvan qubernatoru qraf V.Tizenhauzenin 1905-ci ilə dair hesabatında quberniya ərazisində baş vermiş iğtişaşlar zamanı təkcə həmin ildə quberniya ərazisində 125 kəndin dağıntılara məruz qaldığı qeyd edilmişdir (19, vərəq 3).

Erməni müəllifi A-Do 1905-1906-cı illərdə 133 azərbaycanlı kəndinin dağıdıldığı, 24 azərbaycanlı kəndi isə tamamilə darmadağın edildiyindən və xarabazarlığa çevrildiyindən məlumat almaq üçün bir nəfər belə canlı şahid tapılmadığını yazır (2, s. 402). Həmin 24 kəndin adları kompensasiya ödənilməsi üçün tərtib edilən siyahılara daxil edilməmişdi.

Polyak əsilli Amerika tədqiqatçısı Tadeuş Svyatoxovski çar Rusiyasının rəsmi dairələrinin verdikləri məlumatlara əsaslanaraq 1905-1906-cı illərdə Cənubi Qafqazda 158 müsəlman, 128 erməni kəndinin dağıdıldığını və yaxud yandırıldığını, 10 minədək insan tələfatı olduğunu qeyd etmişdir ( 8, s. 152).

Ümumiyyətlə, 1905-1906-cı illərdə Cənubi Qafqazda 1,5 milyon əhalinin yaşadığı ərazini əhatə edən milli münaqişələr zonasında təqribən 100 min nəfər qəzalardakı, bir neçə min nəfər şəhərlərdəki ev-eşiklərindən didərgin düşmüş, insan itkisi 10 min nəfərdən artıq olmuşdu. Ümumiyyətlə, İrəvan və Yelizavetpol (Gəncə) quberniyaları ərazisində 200-dən artıq azərbaycanlı yaşayış məntəqəsi dağıntılara məruz qoyulmuş, əhalisi etnik təmizlənməyə və kütləvi qırğınlara məruz qoyulmuşdur.

Daşnaksutyun partiyasının Cənubi Qafqazda törətdiyi terror və kütləvi qırğınlar uzun müddət cəzasız qalmışdır. "Daşnaksütyunun işi" adlanan cinayət işinə, nəhayət, 1912-ci il yanvarın 17-də Peterburq məhkəməsində baxılmışdır. Məhkəmədə partiyanın 159 üzvünə ittiham irəli sürülmüş, 350 şahid dindirilmişdir ( 19, vərəq 17). 72 gün davam edən məhkəmə prosesindən sonra Daşnaksüt-

yunun üzvlərinə hökm oxundu. 21 nəfərə 4-6 il müddətində iş kəsildi, 4 nəfər katorqa işlərinə cəlb edildi, 26 nəfər sürgün edildi, 95 nəfərə bəraət verildi (19, vərəq 44). Məşhur erməni yazıçıları Hovanes Tumanyan və Avetik İsahakyan da bəraət alanlar içərisində idilər.

Ermənilərin 1905-1906-cı illərdə törətdikləri kütləvi qırğınlar XX əsrdə soydaşlarımızın məruz qoyulduqları soyqırım və deportasiyalar silsiləsinin ilk mərhələsi və ən qanlı səhifəsidir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT:


1. Azərbaycan Respublikası Dövlət Arxivi, F. 62, siy.1, iş.41.
2. A-Do. Hay-turkakan ındharumı Kovkasum. (1905-1906. Pastakan, vicaqakrakan, değagidakan lusabanut-yunnerov). (A-Do. Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). Sənədli, statistik, topoqrafik izahlarla). İrəvan: Ayvazyanlar və Nazaryanlar mətbəəsi, 1907, 535 s.
3. Arzumanlı V. M., Mustafa N.Y. Tarixin qara səhifələri. Bakı: Qartal, 1998, 279 s. Baykara H. Azərbaycan istiqlal mücadiləsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
4. Leo. Ançyaliç. Tifiis, 1925. ("Keçmişdən", ermənicə). 477 s.
5. 5a. Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Üç cilddə. İkinci cild. 1905-1906. Bakı: Elm, 2010, VIII+616 s.
6. Qasımlı M. C. Qasımlı M. C. Bakı qırğınları (fevral, 1905-ci il) // Milli Məclisin analitik-informasiya jurnalı, 2012, sentyabr-oktyabr, s. 62-69.
7. Qasımlı M. C. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı: Mürtəcim, 2014, 464 s.
8. Quliyev V. M. Azərbaycanda erməni zülmü. Bakı, 1999, 227 s.
9. Nəcəfov B. İ. Düşmənin iç üzü: XIX-əsrin sonu XX-əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. I hissə. Bakı: Çaşıoğlu, 2007, 440 s.
10. 10 Ordubadi M. S. Qanlı illər. (1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni-müsəlman davasının tarixi). Bakı: Qarabağa Xalq Yardımı, 1991, 144 s.
11. Simonyan Hraçik. Azataqrakan paykari uğinerum. (ermənicə) I kitab, Yerevan: Hayagitak, 2003, 818 s.
12. «Армянский геноцид». Миф и реальность справочник фактов и документов. Пер. с английского, Баку: Азернешр, 1992, 340 с.
13. Армяно-мусульманский съезд. Газ. "Каспий", Баку, 1906, 4 марта, № 50.
14. Величко В. Л. Кавказ. Русское дело и междуплеменные вопросы. С. Петербург: Типог. Печать дела, 1904, 220 с.
15. Всеподданнейший отчет о произведенной в 1905 году, по высочайшему повелению сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии. С.-Петербург: 1906, 686 с.
16. Дашнаки (из материалов департамента полиции). Баку: Коммунист, 1990, 39 с.
17. Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 г.. Перевод с армянского. С.Петербург, 1907, 87 с.
18. К событиям в Эриванской губернии. Газ. «Каспий», 5 июня 1905 г., № 105.
19. Российский Государственный Исторический Архив: Ф. 396, оп. 5, д. 116.
20. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С.Петербург, 1911, 82 с.


## MASSACRES AND TERROR PERPETRATED BY ARMENIANS IN SOUTH CAUCASUS IN 1905-1906 YEARS
## SUMMARY

The mass slaughters of 1905-1906 years are just the first link in the chain of genocides and deportations committed by Armenians against Azerbaijanis in the 20th century. Mass slaughters and terrorist acts committed in 1905-1906 years by Armenian armed groups formed as structural divisions of the Armenian political parties are represented in chronological sequence in the article. Also, the articles of Armenian authors concerning the above mentioned events were for the first time referred simultaneously with the articles of Azerbaijani authors. So a general picture of 1905-1906 years events was formed by means of comparative analysis in the article.

## МАССОВАЯ РЕЗНЯ И ТЕРРОР, СОВЕРШЕННАЯ АРМЯНАМИ В 1905-1906 ГГ. НА ЮЖНОМ КАВКАЗЕ

## РЕЗЮМЕ

Массовая резня 1905-1906-х годов является всего лишь одним звеном цепи геноцидов и депортаций, учиненных в XX веке армянами против азербайджанцев. В статье в хронологической последовательности отражаются акты массовой резни и терроризма, совершенные армянскими вооруженными отрядами, сформированными в качестве структурных подразделений армянских политических партий. Наряду с азербайджанскими авторами, впервые дается ссылка на произведения армянских авторов, посвященные этим событиям. В статье с применением метода сравнительного анализа отражается общая картина событий 1905-1906 гг.

*T.ü.f.d.* **Ənvər MƏMMƏDOV**
*Tarix İnstitutunun aparıcı elmi işçisi*

# 1930-cu İLDƏ NUXA-ZAQATALA QƏZASINDA BAŞ VERMİŞ ÜSYANIN YATIRILMASI AZƏRBAYCAN XALQININ SOYQIRIMININ TƏRKİB HİSSƏSİ KİMİ

**Açar sözlər:** Nuxa-Zaqatala qəzası, bolşevik hakimiyyəti, kollektivləşmə, Baş Göynük, üsyan
**Keywords:** Nukha-Zagatala district, bolshevik power, collectivization, Bash Geynuk, insurrection
**Ключевые слова:** Нуха-Загатальский уезд, большевистская власть, коллективизация, Баш Гейнук, восстание

Kolxoz quruculuğu, elliklə kollektivləşmə və qolçomaqların bir sinif kimi ləğvi siyasətinin həyata keçirilməsi zamanı əhaliyə qarşı edilmiş zorakılıq, onların şəxsi əmlakının müxtəlif vasitələrlə daha varlı kəndlilərin əllərindən alınaraq kolxozlara, məscidlərin ömürlük istifadəsində olmuş vəqf torpaqları və zəkatın toplanması səlahiyyətinin isə Kəndli Komitələrinin ixtiyarına verilməsi, əhalinin dini ayinlərinin yerinə yetirilməsinə qarşı törədilən maneçilik 1930-cu ilin aprelində Nuxa-Zaqatala qəzasında müqavimət hərəkatının mərkəzi olan Baş Göynük kəndinin adı ilə adlandırılmış kütləvi xalq hərəkatına səbəb olur.

Belə ki, dinə qarşı mübarizə adı ilə məscidlər bağlanır, müsəlmanların dini hissləri, ayinlərin yerinə yetirilməsi ələ salınır, məscidlərə gedənlərdən vergi alınırdı. Baş göynüklülərin sözlərinə görə onlara namaz qılmaq qadağan olunmuşdu. Ona görə də kənd əhalisi dini bayramlarda gecələr gizlincə meşəyə gedib üç növbədə bayram namazını qılmalı olurdu [12, 966]. Bu müddətdə Azərbaycanda olan 2800-dək məscid bağlanaraq onların bir çoxu dağıdılmışdı [8, 57-58].

Baş vermiş 1930-cu il üsyanının yatırılması zamanı hökumət qüvvələri kifayət qədər böyük itkilərə məruz qalmışdılar. Rəsmi məlumatlara görə Nuxa-Zaqatala üsyançılarına qarşı aparılmış hərbi əməliyyatlar zamanı səhra hissələrindən 13 nəfər öldürülmüş (1 rota komandiri), 12 nəfər yaralanmış, 2 nəfər üsyançılar tərəfindən əsir alınmışdı. Dövlət Siyasi İdarəsinin hissələrindən 21 nəfər öldürülmüş, 44 nəfər yaralanmış, 2 nəfər əsir götürülmüşdü. Kommunar - sovet işçilərindən 39 nəfər güllələnmiş, 14 nəfər yaralanmış, 14 nəfər üsyançılar tərəfindən əsir alınmışdı. Ümumilikdə isə hökumət qüvvələrindən 73 nəfər öldürülmüş, 70 nəfər yaralanmış, 18 nəfər əsir alınmışdı. Həmin məlumata görə bu müddət ərzində üsyançılardan 302 nəfər öldürülmüş, 162 nəfər yaralanmış, 680 nəfər əsir alınmışdı (əsir alınmış üsyançıların əksəriyyətinin silahsız olduğu bildirilir – Ə.M.) [11, 311-312, 343].

Sonuncu üsyan mərkəzinin tutulmasından sonra Nuxa-Zaqatala qəzasının kəndlərində hərbi hissələr cəlb olunmaqla təmizləmə əməliyyatı keçirilir. Üsyanın yatırılmasından dərhal sonra həm üsyan iştirakçıları, həm də üsyan zamanı səbatsızlıq göstərmiş partiya-sovet işçilərinin üzə çıxarılaraq cəzalandırılması üçün bu bölgəyə Azərbaycan SSR Ali Məhkəməsinin Fövqəladə Sessiyası göndərilir [12, 851].

Qafqaz ordusunun komandanı K.A.Avksentyevskinin verdiyi əmrə görə "banditizmin kütləvi xalq üsyanı şəklini aldığı Nuxa-Zaqatala rayonunda inqilabi qayda qanunun bərpa edilməsi" həmin rayondakı bütün qüvvələrin tabe edildiyi ikinci Qafqaz atıcı diviziyasının komandiri Q.A.Tuxareliyə həvalə olunmuşdu. Diviziya komandirinə qarşıya qoyulmuş siyasi tapşırığa uyğun olaraq tabeliyindəki hərbi qüvvələrdən müstəqil operativ istifadə etmək səlahiyyəti verilirdi [10, 39-41]. Üsyan mərkəzlərində yerləşdirilmiş hərbi hissələrdən əlavə Nuxa və Zaqatalada asayişi qorumaq üçün yerli kommunarlardan da dəstələr təşkil olunmuşdu [12, 733].

Nuxa-Zaqatala qəzasındakı vəziyyətlə bağlı Ümumrusiya Kommunist (bolşeviklər) Partiyası Cənubi Qafqaz Diyar Komitəsinin həmin gün keçirilən iclasında isə aşağıdakı zəruri tədbirlərin görülməsi qərara alınır: "1) Üsyançılardan təmizlənmiş rayonlarda siyasi-təşkilati işin aparılması məqsədilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə partiya işçilərindən ibarət xüsusi qrupun hərbi əməliyyat rayonuna göndərilməsini təşkil etmək tapşırılsın; 2) Cənubi Qafqaz Diyar Komitəsi tərəfindən Cənubi Qafqaz Xalq Komissarlığında çalışan türklərdən ibarət qrupun bu rayonlardakı partiya komitələrinin sərəncamına göndərilməsi barədə Azərbaycan

Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə məlumat verilsin; 3) Hərbi İnqilab Şurasının məlumatını dinləyən Cənubi Qafqaz Diyar Komitəsi hazırkı vəziyyətdə hərbi əməliyyat rayonu və onunla qonşu bölgələrdə siyasi, təşkilati, izahat işinin aparılmasının ən zəruri tədbir olduğunu hesab edərək bura əlavə hərbi qüvvələrin yeridilməsini lüzumsuz sayır; 4) Üsyançılar, silahlarını gizlədənlər, sovet hakimiyyətinə qarşı təbliğat aparanlar, banditlərlə əlaqədə olmuş, işlərində əyintiyə, özbaşınalığa yol vermiş partiya və sovet işçiləri, öz vəzifə yerlərini tərk etmiş kommunistlər üzərində açıq məhkəmənin təşkili və işlərin yubadılmadan həlli üçün Ali Məhkəmənin qətiyyətli türklərdən təşkil olunmuş sessiyasını bölgəyə göndərməyi Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsindən tələb etsin; 5) Üsyan zamanı Zaqataladan Dağıstana qaçmış məsul işçiləri yoxlayaraq məsuliyyətə cəlb etməyi Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsindən tələb etsin; 6) Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi və Xalq Komissarları Sovetinə Nuxa-Zaqatala rayonunun iqtisadi həyatının yaxşılaşdırılması məqsədilə təcili tədbirlər planı hazırlamaq və həyata keçirmək tapşırılsın; 7) Avksentyevin verdiyi məlumatda göstərilənlər - Axundov və Nevernovun məruzəsindəki bütün bəndlərin komandanlıq tərəfindən hərbi cəhətdən təmin olunduğu nəzərə alınsın; 8) Azərbaycan SSR-də yaranmış vəziyyətlə əlaqədar M.C. Bağırovun Bakı şəhərində olması zərurəti yarandığından Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Q. Musabəyovun rəhbərliyi altında Dövlət Siyasi İdarəsinin Nuxa-Zaqatala qəzasında nümayəndəliyini təşkil etsin; 9) İ. Vayneros Nuxa-Zaqatala beşliyinə daxil edilsin; 10) Cənubi Qafqaz və Azərbaycan Dövlət Siyasi İdarələrinə Azərbaycan SSR-in 10 illiyinin bayram edilməsi zamanı şəhər və qəzalarda baş verə biləcək çıxışların qarşısının alınması üçün lazımi tədbirlərin görülməsi tapşırılsın" [6, 116-117].

Ümumrusiya Kommunist (bolşeviklər) Partiyası Cənubi Qafqaz Diyar Komitəsinin 1930-cu il 21 aprel tarixli iclasının qərarını müzakirə etmək məqsədilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin aprelin 23-də keçirilmiş iclasında Nuxa-Zaqatala qəzasında baş vermiş üsyanın nəticələrinin ləğv edilməsi üçün aşağıdakı zəruri tədbirlərin görülməsi qərara alınır: "1) Nuxa qəzasının ayrıca inzibati vahidə ayrılmasını iki gün ərzində hüquqi cəhətdən təsbit etmək; 2) Zaqatala və Nuxadakı çekist dəstələri banditizmə qarşı mübarizəyə cəlb edildiyindən hər iki rayonda əlavə olaraq bir bölüyün yerləşdirilməsi barədə yenidən məsələ qaldırılsın; 3) Əks-inqilabi qrupların rəhbərləri və təşkilatçılarına qarşı ən yüksək cəza tətbiq etmək səlahiyyəti verilmiş fövqəladə üçlüyün təşkilinə icazə verilməsi barədə Cənubi Qafqaz Diyar Komitəsi qarşısında məsələ qaldırılsın; 4) Bu üçlük tərəfindən həbs olunaraq Nuxa və Zaqatala islah evlərində saxlanılan üsyan rəhbərləri və fəallarından ən yüksək cəzaya məhkum ediləcək qrup ayırmaq; 5) Bu bölgəyə ezam olunmuş bütün yoldaşlara Mərkəzi Komitənin icazəsi olmadan Bakıya qayıtmaq qadağan olunsun, əgər qayıdan olarsa, təcili şəkildə geri qaytarılsın" [3, 70].

Aprelin 22-dən etibarən ordu hissələrinin köməkliyi ilə üsyanda iştirak etmiş kəndlərin əhalisinin cəzalandırılması əməliyyatı başlayır. Əməliyyat zamanı müqavimət göstərənlər yerindəcə güllələnirdi [5, 172-173; 9, 14].

Üsyanın yatırılmasından dərhal sonra Nuxa qəzası üzrə üsyanın əsas təşkilatçıları olmuş qolçomaqların siyahısı tutulur. Baş Şabalıddan Molla Mustafa Şeyxzadə, Əhməd Mahmud Molla Sadullah Şeyxzadə, Aşağı Şabalıddan Hacı Məcid, Baş Göynükdən Musa Sultan oğlu, Məcid Əmrah oğlu, Mustafa Baba oğlu, Əbdülsalam Əbdülhüseyn, Şərif Hacı Mustafa oğlu, Hacıbəy Hacıəli oğlu, Şirin Hacı İbrahimov, Baş Layısqıdan Hacı Məmməd, Hacı Salah, Bakkaldan Hacı Həmid Yüzbaşı oğlu, Aşağı Göynükdən Hacı Əhməd Qarsax, Sadıx Cəfər oğlu, Rüstəm İbrahim oğlu, Qaradaşdan İsmayıl Yüzbaşı Əli oğlu, Babaratmadan İlyas Hacı Ömər, Baltalıdan Manaf Yüzbaşı Əli oğlu, Kiçik Dəhnədən Həbibulla Mustafa oğlu, Hacı Kuzi Molla Sadıx və onun oğlanları, Qaşı Yüzbaşı, Hacı Hümbət Hacı Qasım oğlu, Hacı Yusif Əfəndi, Sarı Əziz, Qaraqoyunludan Əbdülrəhim, Harun, Məmmədrəhim, Sadıx Nağdalı, Tanrıverdi oğlu, Aşağı Küngütdən Məmməd Nəsir oğlu, Bideyizdən Həşim, Mustafa Hacı Nəbi oğlu, Rəsul Hacı Nəbi oğlu, Zəyzitdən Səməd, Xudu İbrahim, Abdulla, Abbas Baba oğlu, Baş Küngütdən Qazıbəy Cəfərbəyov, Baş Daşağıldan İbrahim Xəlil Hacı Novruz, Muxasdan Tapdıq Üzeyir oğlu, Xaçmazdan Hacı Dadaş, Baba bəy, Səməd bəy, Armenatdən İsa Əbdülhəşim oğlu, Molla Əlidən Baba Hacı Eyyub, Tarkeşdən Mehralı Hacı Əhməd, Hacı Yusif Hacı Əhməd, Xalxaldan Hidayət, Molla Cari, Bayandan Molla Məmməd Əfəndi, Nuxa şəhəri üzrə Hüseyn İlyas

oğlu (Qəssab Hüseyn), Qara İsmayıl Mustafa oğlu, Mustafa Əlicanbəyov, Bəhram bəy Nəbibəyov, Hacı Əli Şirvanlı oğlu, Hacı Əli Rəhimov, Fəttah Əfəndiyev, Ömərbəy Cəfərbəyov və onun xıdılları, Məşədi Əli Hüseyn Abdullayev, Məşədi Cabbar Dadanov, Eyyub İsmayıl oğlundan ibarət 63 nəfər qolçomağın siyahısı tutulmuşdu [1, 14-15, 29-30].

Bu siyahıda olanların, eləcə də güllələnmiş üsyan iştirakçılarının əmlakının müsadirə olunması nəzərdə tutulmuşdu. Müsadirə işlərinin aparılması məqsədilə Nuxa qəzası ayrı-ayrı rayonlara ayrılmış, yerlərə Qəza İcraiyyə Komitəsinin nümayəndələri göndərilmişdi. Nuxa Qəza İcraiyyə Komitəsinin 1930-cu il iyulun 24-də keçirilmiş iclasında Baş Göynük, Aşağı Göynük, Layısqı, Qaradağlı, Baltalı və Oxud üsyanın əsas mərkəzi kimi birinci rayona daxil edilmişdi [1, 56-57]. Nuxa Qəza İcraiyyə Komitəsinin 1930-cu il 28 iyul tarixli iclasında bu siyahı üzrə Qəssab Hüseynin, İsmayıl bəy Əlicanbəyovun oğlanları Mustafa Əlicanbəyov və Bəhram Əlicanbəyovun, Məşədi Əli Hüseyn Abdullayevin, Abbas Əli Məmmədovun, Hacı Qəni Rəhimovun, Hacı Əli Şirvanlının, Ömərbəy Cəfərbəyovun, Fəttah Əfəndiyevin, Eyyub İsmayıl oğlunun, Rəsul Hacı Abdulla oğlunun, Kərim Qasımağayevin, Mustafa Əlicanbəyovun oğlanları Mustafa və İsmayılın evlərinin əllərindən alınaraq muzdurların, yoxsul kəndlilərin, kolxoz üzvlərinin istifadəsinə verilməsi, mədəniyyət müəssisələri üçün ayrılması, eləcə də onların torpaq sahələri və bağlarının müsadirə edilməsi barədə qərar qəbul edilməklə bu barədə Azərbaycan SSR Xalq Komissarları Soveti qarşısında məsələ qaldırmaq qərara alınır [1, 17; 2, 46].

Mayın sonunda "Nuxa-Zaqatala qəzasında banditizmin ləğv edilməsi və əhalidə olan silahların toplanması əməliyyatı"na rəhbərlik etmək məqsədilə Azərbaycan Dövlət Siyasi İdarəsinin rəis müavini Aqrbanın sədrliyi ilə diviziya komandiri Frinovski və Azərbaycan Dövlət Siyasi İdarəsi Nuxa-Zaqatala şöbəsinin rəisi Şabanbəyovdan ibarət siyasi üçlük təşkil olunur. Üçlüyə xüsusilə təhlükəli "bandit"lərin və qolçomaqların qohumlarına qarşı cəza tədbirləri görmək tapşırığı verilmişdi. Azərbaycan Dövlət Siyasi İdarəsinə Nuxa şəhərini əks-inqilabi elementlərdən təmizləmək və fəaliyyətdə olan "bandit" qruplarını parçalamaq işini sürətləndirmək tapşırılır. Azərbaycan Dövlət Siyasi İdarəsinin qəzadakı 8-ci və 24-cü alayları Dövlət Siyasi İdarəsinin Leninqrad və Belarusiya məktəblərinin hissələri ilə əvəz olunur [11, 304].

1930-cu il iyunun 10-a olan məlumata görə həbs olunmuş Baş Göynük üsyançılarından 9, Nuxa üsyançılarından isə 28 nəfər üsyan fəalı siyasi üçlüyün qərarı ilə güllələnmişdi [11, 268, 308-309].

Əhali arasındakı narazılıqlara baxmayaraq, hökumət geniş ordu hissələrinin cəlb olunmasıyla bölgədə qəfil təmizləmə (hərbi-çekist – Ə.M.) əməliyyatının aparılmasını planlaşdırmışdı. Bunun üçün 1930-cu il aprel üsyanının iştirakçılarının siyahısı tərtib edilmiş və bu siyahı üzrə üsyan zamanı xüsusilə fəallıq göstərmiş adamların tutulması məqsədilə hərbi-çekist əməliyyatının keçirilməsi nəzərdə tutulmuşdu.

Rəsmi sənədlərdə "banditizmə ən çox yoluxmuş rayon" kimi təqdim olunan, bölgədə baş vermiş üsyanın mərkəzi olmuş Göynük rayonu üzrə də aprel üsyanının fəallarından həbs olunacaq antisovet elementlərin 220 nəfərlik siyahısı tərtib olunmuşdu. 1931-ci il yanvarın 15-ə olan məlumata görə Göynük rayonunun 16 yaşayış məntəqəsindən "banditizmin daha çox tüğyan etdiyi" Baş Göynük, Aşağı Göynük, Şabalıd və Qaradağlı kəndlərində aparılmış əməliyyatın nəticəsi olaraq aprel üsyanı iştirakçılarından 81 nəfər güllələnmiş, 57 nəfər həbs olunmuşdu. Həbs olunanlardan 23-ü Baş Göynük, 21-i Şabalıd, 10-u Aşağı Göynük, 3-ü isə Qaradağlı kəndindən, güllələnənlərdən 37-si Baş Göynük, 19-u Şabalıd, 18-i Aşağı Göynük, 7-i Qaradağlı kəndindən idi [9, 14]. Üsyanın yatırılmasından sonra əsgəri hissələrin kəndlərdə əhaliyə qarşı həyata keçirdiyi tədbirlər barədə Azərbaycan MEA-nın müxbir üzvü Yaqub Mahmudovun fikirlərinə diqqət edək: **"...ÇK-ya (Fövqəladə Komissiya – Ə.M.) soxulmuş ermənilər bu qanlı qırğınlarda fəal rol oynadılar. Göynük üsyançılarına xüsusilə ağır divan tutuldu. Onlar heç bir istintaq və mühakimə aparılmadan əhalinin gözləri qarşısında güllələndi və əlləri ilə qazdırılmış quyulara dolduruldular. Bununla, ermənilər 1918-ci ildə Şəki ərazisində daşnaklara əl-qol açmağa imkan verməmiş göynüklülərdən qisas aldılar"** [7, 91].

Dairə fövqəladə üçlüyünün Zaqatala-Balakən bölgəsində aparılmış hərbi-çekist əməliyyatının nəticələri barədə fevralın 13-nə olan məlumatında həmin vaxta kimi bölgənin 142 kəndində əməliyyatın başa çatdığı və ümumi siyahı üzrə 361, siyahıdan əlavə 303 nəfərin tutulduğu, əməliyyat

zamanı müqavimət göstərən 79 nəfərin öldürüldüyü göstərilirdi. Məlumata görə tutulanlardan 50-si üsyan rəhbəri, 500-ü üsyan fəalı idi [4, 2-3].

Balakən rayonunun 4 məntəqəsində, o cümlədən, əsasən, Qabaqçöl kəndində 1931-ci ilin yanvarından martın 18-ə kimi ümumi siyahı üzrə həbs olunması nəzərdə tutulmuş 202 nəfərdən 114, siyahıdan əlavə 167 nəfərin tutulduğu, əməliyyatın sonuna kimi isə rayon üzrə üsyanda iştirak etmiş və üsyançılarla əlaqədə təqsirli bilinənlərdən 344 nəfərin tutulduğu göstərilirdi. Meşələrdə silahlı müqavimət göstərən dəstələrlə döyüşlərdə üsyançılardan 17 nəfərin öldürüldüyü, 121-nin tutulduğu, 15-nin könüllü təslim olduğu, əsgərlərdən isə bu döyüşlər zamanı yalnız 4 nəfərin öldüyü qeyd olunurdu. Fövqəladə üçlüyün qərarı ilə banditlərə yardım etməkdə və silahı könüllü təhvil verməməkdə təqsirli bilinənlərdən 30 nəfər güllələnmiş, 57 ailə 250 nəfər ailə üzvlərilə sürgünə məhkum olunmuşdu. Hərbi-çekist əməliyyatı nəticəsində Balakən rayonunda əhalidən 75 ev, 58 at damı, 66 desyatin fındıq bağı, 11 desyatin meyvə bağı, 133 hektar əkin sahəsi, 47 hektar qeyri-əkin sahəsi, 27 hektar otlaq, 8 dəyirman, 8 dükan, 255 baş qoşqu heyvanı, 188 baş inək və camış, 231 araba, 38 at, 327 baş xırdabuynuzlu mal müsadirə edilərək Rayon İcraiyyə Komitəsinin sərəncamına verilmişdi [4, 2-3].

Nuxa-Zaqatala qəzasında aprel üsyanı iştirakçılarının tutulması məqsədilə son dərəcə məxfilik şəraitində 1931-ci ilin əvvəllərində həyata keçirilmiş hərbi-çekist əməliyyatına həmin ilin martın ortalarında yekun vurularaq tutulanların işlərinə baxılmaq üçün Ali İnqilab Tribunalına verilir. Dövlət Siyasi İdarəsinin hərbi-çekist əməliyyatının nəticələrinə dair verdiyi rəydə göstərilirdi ki, partiya-sovet aparatının yabançı quldur elementlərlə zibillənməsi, yerli partiya işçilərinin savadsızlığı və səriştəsizliyi ucbatından kənddə partiyanın direktivlərinin kobudcasına pozulması nəticəsində bu, sovet hakimiyyətinin tədbirlərinə qarşı kəndin yoxsul təbəqəsində yaranan narazılıqdan ittihad-qolçomaq qruplaşmasının bacarıqla və vaxtında istifadə edə bilməsinə, əhalinin kasıb və ortabab hissəsini arxalarınca aparmasına səbəb olub. Bu əyintilərin düzəldilməsi, gələcəkdə yeni çıxışların baş verməməsi üçün aşağıdakı təxirəsalınmaz tədbirlərin görülməsi təklif olunur:

- Qəzanın rayonlarında nəinki bir sıra partiya-sovet işçilərinin, hətta ayrı-ayrı partiya özəklərinin bütövlükdə üsyançılara qarşı passiv mövqedə durması, bəzilərinin isə quldurlarla birlikdə üsyanda iştirak etməsi rəhbər partiya orqanlarında təmizləmə işlərinin aparılmasını tələb edir;
- Kənddə sovet quruculuğu işini gücləndirmək məqsədilə rayonlara etibarlı partiya işçilərinin göndərilməsi vacibdir;
- Banditlərin qalıqları, üsyançılara və onların himayədarlarına qarşı təcili fövqəladə tədbirlər görmək və cəza siyasətini gücləndirmək zəruridir;
- Dövlət Siyasi İdarəsi Nuxa - Zaqatala şöbəsinin aparatı bütövlükdə təmizlənməli, yeni əməkdaşlardan siyasi idarənin Zaqatala şöbəsinin yaradılması üçün təşkilati tədbirlər görülməlidir;
- Nuxa-Zaqatala qəzasının inzibati cəhətdən iki ayrı-ayrı qəzalara bölünməsi barədə məsələ qaldırılsın (1928-ci ildə o vaxta qədər ayrı olan Nuxa və Zaqatala qəzaları birləşdirilərək yeni inzibati iqtisadi rayon yaradılmışdı - Ə.M.) [5, 140; 4, 3].

Üsyanın məğlubiyyətinə baxmayaraq, onun Azərbaycanın istiqlal savaşı tarixində xüsusi yeri və önəmi var. Bu üsyan Azərbaycan xalqının istiqlal sevgisinin, mücadilə ruhunun, milli ləyaqət hissinin, azadlıq əzminin ən parlaq mücəssəməsi idi. Nuxa-Zaqatala qəzasında baş vermiş və haqlı olaraq müqavimət hərəkatının mərkəzi olan Baş Göynük kəndinin adı ilə adlandırılmış bu üsyan xalqımızın Azərbaycan Xalq Cümhuriyyətinin milli-siyasi ideallarına sadiqliyini nümayiş etdirdi.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivinin Şəki Filialı (ARDA ŞF), f. 12, siy. 1/1, iş 3
2. ARDA ŞF, f. 12, siy. 1/1, iş 9
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 74, iş 306
4. ARPİİSSA, f. 1, siy. 86, iş 24
5. ARPİİSSA, f. 1, siy. 231, iş 25
6. ARPİİSSA, f. 1, siy. 231, iş 53
7. Mahmudov Y.M. Seçilmiş əsərləri. 13 cilddə. IX cild. Bakı: Təhsil, 2011
8. Zülfüqarlı M. Din əleyhinə mübarizənin turizmin inkişafına mənfi təsiri (Sovet tarixşünaslığının təhlili). // "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalı, 2015, №3. səh. 56-64. Azərbaycan Turizm və Menecment Universiteti, 2015

9. Rusiya Dövlət Hərbi Arxivi (RDHA), f. 25873, siy. 1, iş 838
10. RDHA, f. 25873, siy. 1, iş 1204
11. RDHA, f. 25873, siy. 1, iş 1205
12. RDHA, f. 25873, siy. 1, iş 1206

**THE SUPPRESSION OF THE UPRISING IN NUKHA-ZAGATALA DISTRICT IN 1930 AS AN INTEGRAL PART OF THE AZERBAIJANI GENOCIDE**
**SUMMARY**

The present article, based on archival materials, in many respects the first time introduced into scientific circulation, examines the results of Nukha-Zagatala uprising of 1930, covering all segments of the population and the punitive measures carried out after its suppression, which were, in general, resulting from the policy of the Bolsheviks against the Azerbaijani people.

**ПОДАВЛЕНИЕ ВОССТАНИЯ В НУХА-ЗАГАТАЛЬСКОМ УЕЗДЕ В 1930 ГОДУ КАК СОСТАВНАЯ ЧАСТЬ ГЕНОЦИДА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА**
**РЕЗЮМЕ**

В представленной статье на основе архивных материалов, во многом впервые вводимых в научный оборот, исследуются результаты Нуха-Загатальского восстания 1930 года, охватившего все слои населения, и карательные меры, проводившиеся после его подавления, явившиеся, в целом, следствием политики большевиков в отношении азербайджанского народа.

*Dr.* **Entela MUÇO**
*"Dostluk, Bilimsel, Kültürel*
*Arnavutluk-Azerbaycan " Derneği Başkanı, Tiran*

# ARNAVUT ENTELEKTÜEL BAKIŞINA GÖRE AZERBAYCAN HALKINA KARŞI ERMENİLERİN YAPTIĞI SOYKIRIMI

Söz konusu tema ne kadar geniş olsa da o kadar hassas ve insan toplumunun uygarlık düzeyinin önemli belirleyicisi olan iki kavramla yakından bağlantılıdır; "soykırım"[1] ve "entelektüel"[2, s.724]. İki taban tabana zıt kavramlar; "Soykırım" teriminin, insan ırkının büyük ölçüde yıkılması ile ilgisi vardır, onun diğer terimine "entelektüel", toplumun "zekâ"[3, s. 724] zihinsel gelişimi ile bağlantılı ve daha geniş bir ülkenin entelektüel katmanında[4, s. 199] ifade ediyor. Bizim durumumuzda bu "zekâ" ve entelektüel toplum açıkça tanımlanmış bir ulusal kimlik, ARNAVUT ulusal kimliğini taşır.

Azerbaycan ve Arnavutluk geçmişi ve şimdiki tarihi hemen hemen aynı olan iki ülkedir. Azerbaycan tarihinin Arnavut halkının tarihine pek çok benzerlikleri var olan bir tarihtir. İki ülkemiz ve halklarımız, Azerbaycan ve Arnavutluk, Arnavut halkının ve Azerbaycan halkının tarihi Kafkas Albanya zamanından eskidir [5].

Arnavut entelektüel toplumu daima Azerbaycan'daki siyasi gelişmelere karşı çok duyarlı olmuştur. Azerbaycan ve onun kaderi için Arnavut entelektuel katmanın ilgisinin derin kökleri vardır. Ve bunun bir nedeni var. İki ülkemizin ve halkımızın tarihi. Tarihi bir olgunun parçası olan iki ülke ve halklar arası tarihi benzerliği.

**Antik tarihine ve jeo-politik ve sosyo-ekonomik doğal zenginliğe sahip olan yerli ülkeler ve devletler her zaman yerli halkların ve yerlileri zararına kötü amaçlı yazılımlara karşı planlarını gerçekleştirmek için kendilerine sahip olmayan içtenlikle arayan ülkelerine av oldu.**

Olayları ve tarihsel olaylar, aynı tarihsel dönemlerde, hatta aynı yıllarda neredeyse yer alan ve aynı zamanda çizgiyi takip edilmektedir, sanki onların arasında bir kardeşlik bağı vardır.

İki ülke ve halklarının tarihi ağrı ve acı, kanlı savaşların bir tarihidir.

İki ülkemiz ve halkları büyük güçlerin ve komşu devletlerin hırs kurbanı olmuştur. İki ülke ve halklarının tarihi olmuştur ve özgürlük, bağımsızlık ve ulusal bütünlüğü savaşların öyküsü devam ediyor. Bizim iki ülke ve halkları onların üzerinde iki ülkenin onur, özgürlük, bağımsızlık ve bütünlüğünü ihlal etme niyetinde devletler iğrenç katliamı soykırım nedeniyle görülmemiş eşsiz trajedileri geçmişti.

**Tarih, iki millet bu devletlerin düşmanca eylemleri ile karşı-karşıya getirerek, aynı yaralar açılarak, devletlerin vucutu parçalanmış ve haksız şekilde cezalandırılmıştır. İki ülkemizin, toprak bütünlüğün parçalanması ile ilgili, şovenist eylemleri ve soykırıma ilişkili acılı bir geçmişi var. Saldırgan komşu devletler her iki ülkenin topraklarının bir kısmını alarak sakatlandı.**

Azerbaycan 19 yy. ilk yarısında Rusya ile İran[6] arasında bölündüyse ve sonradan 20. yy. ilk yarısında Ermenistan arası ile parçalanmış olduğu gibi Arnavutluk da 19. yy. sonlarında 20. Yy. ilk yarısında onun tarihinde en büyük olan trajedisi dört devlet - Yunanistan, Karadağ, Serbistan, Makedonya arasında parçalandı.[7]

Arnavutluk tarihin belirli dönemlerinde Azerbaycan ile ilgili entelektüel katmanın entelektüel

---

1 ***Gjenocid***, https://sq.wikipedia.org/wiki/Gjenocidi ***(Soykırım)***

2 Androkli Kostallari, ***Fjalor i Gjuhes se Sotme Shqipe***, ***"Intelekt"***, Botime te Akademise se Shkencave te RPS te Shqiperise, Instituti I Gjuhesise dhe Letersise, Tiran 1980, s. 724 (***Bugünkü Arnavut Dilin Sözlüğü, "Intelektual"***, Arnavutluk Sosyalıste Halk Cumhuriyeti Bilim Akademisi, Dil ve Edebiyat Yayınları, 1980 Tiran, s. 724 )

3 Androkli Kostallari, ***age***, ***"Intelekt"***, s. 724

4 Botime Enciklopedike, ***Fjalor I Filozofise***, inteligjencie Shtepia Botuese "8 Nentori", Tirane 1981, s.199. (Ansiklopedik Yayınları, ***Felsefe Sözlüğü, "Inteligjencie"***, Yayın Evi "8 Nentorı", Tiran, 1981)

5 Albanya, https://www.turkcebilgi.com/albanya

6 İvan Paskeviç, A. Obrezkov, ***Azerbaycan Tarihi,*** "Azerbaycan" Yayın Evi, Baku 1996, s.618-624

7 Durmuş Yalçın, ***Türkiye Cumhuriyet Tarihi***, Atatürk Araştırma Merkezi, İstanbul, 2000, s.63

düşüncesi siyasi, ekonomik, kültürel ve tarihsel belirsizliği ile karşı karşıya geldi. Doğu Sosyalist Grubundan Arnavutluğun ayrılması, eski "Sovyet cumhuriyetlerde" genelde, özellikle Azerbaycan'da siyasi, ekonomik, eğitim ve kültürel gelişmeleri üzerinde bilgilendirici bir "karanlık" yarattı.

Azerbaycan'da siyasi ve tarihsel gelişmeleri ile ilgili bilgi eksikliği ve Arnavut halkın siyasi dezenformasyonu, özellikle ülkenin entelektüel katmanına diktatörlük sistemi tarafından yapılan bu dezenformasyonu, Arnavut entelektüel katmanı Azerbaycanın siyasi ve tarihsel gelişmeleri ile ilgili bilgisiz bulunmasını sonuçlandı

**O zaman, bilinen tek kesin şey, ders kitaplarında yer alan coğrafi konum sosyalist ekonomisinde başarıları ve sosyalist sisteminde "mutlu yaşam" ile ilişkili bilgileri oldu.**

Azerbaycan Devleti ve Azerbaycan Türk halkının tarihi için bilgiler 1960 yılına kadar sadece oradaki okuyan Arnavut öğrencilerden ve siyasallaşmış film kronikleri ulaşıyordu. İki ülkenin tarihinin geçmişi ve bugünün anınması için en iyi kanıtıdır. Benzer örneklerden söz edelim:

Ben konumun çalıştığım dönemde Azerbaycan halkına karşı Ermenilerin katliamları "Rus" oyununun perde arkasından başka bir şey değildi. Aynı zamanda kendi planlarının gerçekleşmesini "destekleyici" bir koridor oluşturmayı amaçlayan Rusya, Azerbaycan ve onun halkına karşı oyuncak olarak kullanıyordu.

İz bırakmış Azerbaycan halkına karşı Ermenilerin katliamları İnsanlık tarihi ve onların performansının boyutu ve biçimi için masum insan, özgürlük seven, sevgi dolu barış, insanlar, Azerbaycanlı halka karşı soykırım.

Biz sahip olacak bu olayların kronolojik sunumda veriyoruz:

**1905-1907- yıllarında** Azerbaycan'ın Zengezur, İrevan, Nahçıvan, Ordubad,

Gazah, Karabağ vilayetlerinde yüzlerce köy yakılmış, insanlar çoluk çocuk, genç, ihtiyar demeden katledilmiştir[1];

**1918-20'li yılı olayları, 31 mart soykırımı;**

**(1905-1907 yılları, 1918-1920 yılları) 2 milyona yakın Azerbaycanlı** Ermeniler tarafından katledilmiş;

**1948-1953-yıllarındaAzerbaycanlıların Ermenistan'dan göç ettirilmesi;**

**1988-1989-**yıılarında Azerbaycanlıların Ermenistan'dan göçettirilmesi;

**1989-1991-**Karabağ olayı;

**20.Ocak 1990-** Baku katliamı;

**1991-1994-** Ermenilerin işgalı;

**25.02.1992-** Hocalı Soykırımı;

Aynı dönemde, hemen hemen aynı yıllarda Arnavutluk parçalanma trajedisini ve komşularından Yunanistan, Makedonya, Sırbistan ve Karadağ'dan yerli halkın sınırdışı edilmesini kendisinde yaşadı.

Tarihsel benzerlikleri olarak, ülke ve Arnavut nüfusa karşı yapılan katliamlara gelince, "oyunu" Rusya İmparatorluğu yönetti. Aşağıdaki ifade edilen bu olayların kronolojik gelişimi vardır.

**Çamerya'da yunanları[2]**

**1913-** Cham liderleri katliam, Kutsal tabur Andartlar;

**1914-** Permet katliamları, "Kuzey Epir" Hükümeti; 1913-1914 yılında

halkımıza karşı işlenen Yunan hükümeti soykırımı küresel istatistiklerde kaydedilmiştir;

**Kosova'da Sırblar**

**1974-1981-** Kosova Kolonızasyonu[3];

**1998- Kosova** Savaşı- 800,000 arnavut kovuldu, 15,000 kişi öldürüldü, UÇK 2,400-savaşçı, Mart katliamından 5,000 kişi kaybolmuşdur;

---

[1] Yakup Mahmudov, Kerim Şukurov, Karabağ-Real tarih belgeler, Baku, 2005, http//www.azerbaıjan.az/portal/Karabakh/Tragedy/humanitarian Tragedy_a.html; Nazim Mustafa, ***Ermenilerin 1905-1906 Yıllarında Güney Kafkasya'da Yaptıkları Katlıamlarb*, s.4.**

[2]Shaqiri Nehat, ***"Keto Jane Masakrat Geke Ndaj Popullit Shqiptar te Çamerise",*** 10.07.2015 (Çameria Arnavut Halkını Yunan Katliamları), http://www.botasot.info/lajme/426750/keto-jane-masakrat-greke-ndaj-popullit-shqiptar-te-camerise/

[3] ***Kosova Kolonizasyonu***, https://sq.wikibooks.org/wiki/Kolonizimi_Serb_i_Kosov%C3%ABs/13

Demokrasinin zaferi ve iki ülke arasındaki iletişim yollarının açılması ile 35 yıl kesintiye dostluk dair objektif koşulları elde etmek için iki halk arasındaki ilişkileri sıfırlamak mümkün olmuştur.

Bu yıllarda, Azerbaycan ve Azerbaycan halkı tarihsel gerçeğin iletimi için Dostluk, Bilimsel, Kültürel, Arnavutluk-Azerbaycan Derneğinin yorulmadan çalışması sayesinde, malzemelerin ve çalışma yayınlar yoluyla elde edilen bilgiler, kültürel ve eğitimsel bağlar, ve Arnavutluk ve Azerbaycan liderlerinin görüşmeleri, Arnavutluk'ta Arnavut entelektüel katmanı ve siyaseti geneli özellikle akademisyenleri, Azerbaycan tarihinin bu önemli tarihi anları gerçek bir değerlendirme ve objektif bir bakış açısına ulaşması ile sonuçlandı.

Bu yaklaşım ve siyasi sınıfın entelektüel politik tutumu, Arnavut entelektüel katmanı ve sadece o değil, tüm Arnavut halkın tutumu Azerbaycan Millet Meclisinde yaptığı konuşmada Konuşmacı İlir Meta ifade edilmiştir.

Azerbaycan Cumhuriyeti Millet Meclisinde Ermenistan Cumhuriyeti tarafından Dağlık Karabag'da başlatılan savaş ve Azerbaycan Cumhuriyetinde kurulan ateşkesin yıkılması ile ilgili şunları söyledi: **"Ermenistan Azerbaycanın işgal altındaki topraklarını derhal terk etmelidir. Dağlık Karabağ Azerbaycan Cumhuriyeti'nin ayrılmaz bir parçasıdır"[1].**

Beğenilen bir çalışmayı "Dostluk, Bilimsel Kültürel Arnavutluk-Azerbaycan" Derneği yaptı. Derneğin adına bilimsel etkinliklere katılım mümkün oldu ve sunumları yoluyla özgürlük ve bağımsızlık Azerbaycan halkının savunması ve Ermenistanın Azerbaycan'a karşı yapılan haksız savaşına hüküm giymiş oldu. Bu yazılardan bazılarını sıralabilirim;

*Birinci Dünya Savaşı Ve Azerbaycan Toprak Bütünlüğünün Korunmasında Osmanlı Devleti'nin Dış Politikasının Rolu Üzerinde Bazı Bakışlar; 18.-19. yy. Geçiminde Güney Kafkasya'daki Gelişmeler Üzerinde Bazı Bakışlar (Azerbaycan); Yirminci Yüzyılın İkinci On Yılında Azerbaycan Ve Ermenistan;*

*20. yy Zorluklari, Zafer Ve Bir Kahraman İnsanların Acıları; Azerbaycan Türk Halkının Özgürlük İçin Savaşan Kahramanlarının Anısına; Eski Bir Halkın Kaderini Belirleyen Olay.*

Önemli ve aynı zamanda üzücü olan Ermenilerin bu çirkin eylemleri günümüzde mevcut olmasıdır. Ermenilerin yaptığı soykırımlarını Arnavut entlektuel katmanı kınadı ve şiddetle organizasyonların aracılığıyla Ermenistan devletinin Azerbaycan halkının aleyhine yaptığı barbarca eylemleri kınamıştır.

Arnavut entelektüel katmanın tutumu Ermeni devletinin Azerbaycan Halkına karşı yıllardır devam eden bu duruma son vermeli olduğudur.

Bu halkların özgürlüğü arasındaki barış ve dostluk zararına onların sinsi amaçları için süper güçler tarafından desteklenerek düşmüş oldukları bu tuzaktan kendisini çekilmesi Ermenistan'ın yaranına olurdu.

**KAYNAKLAR**

**KİTAPLAR**
YALÇIN Durmuş, ***Türkiye Cumhuriyet Tarihi***, Atatürk Araştırma Merkezi, İstanbul, 2000
**GAZETELER**
Bota Sot- online (Bugün Dünya)
Shaqiri Nehat, ***"Keto Jane Masakrat Geke Ndaj Popullit Shqiptar te Çamerise",*** 10.07.2015
http://www.botasot.info/lajme/426750/keto-jane-masakrat-greke-ndaj-popullit-shqiptar-te-camerise/
**MAKALELER**
MUSTAFA Nazim, "***Ermenilerin 1905-1906 Yıllarında Güney Kafkasya'da Yaptıkları Katlıamları"***

[1] Dostluk Bilimsel Kültürel Arnavutluk- Azerbaycan Derneğı, ***Arnavutluk Azerbaycan'ın toprak bütünlüğünü korumak için Azerbaycan halkının mücadele takdir eder***.https://www.facebook.com/permalink.php?story_fbid=482251858635270&id=140957869431339

**SÖZLÜKLER**

KOSTALLARI Androkli, ***Fjalor i Gjuhes se Sotme Shqipe*** (***Bugünkü Arnavut Dilin Sözlüğü,)*** Botime te Akademise se Shkencave te RPS te Shqiperise, Instituti I Gjuhesise dhe Letersise Yayınları Tiran 1980

Botime Enciklopedike, ***Fjalor I Filozofise,*** "8 Nentori" Yayın Evi, Tiran, 1981 (Ansiklopedik Yayınları, ***Felsefe Sözlüğü)***

**LINK**

Albanya, https://www.turkcebilgi.com/albanya

Dostluk Bilimsel Kültürel Arnavutluk- Azerbaycan Derneğı, ***Arnavutluk Azerbaycan'ın toprak bütünlüğünü korumak için Azerbaycan halkının mücadele takdir eder***.https://www.facebook.com/permalink.php?story_fbid=482251858635270&id=140957869431339

Mahmudov Yakup, Şukurov Kerim, ***Karabağ-Real tarıh*** belgeler, Baku, 2005, http//www.azerbaıjan.az/portal/Karabakh/Tragedy/humanitarian Tragedy_a.html

***Kosova Kolonizasyonu***, https://sq.wikibooks.org/wiki/Kolonizimi_Serb_i_Kosov%C3%ABs/13

## THE ARMENIAN GENOCIDE AGAINST AZERI PEOPLE UNDER THE VIEWPOINT OF ALBANIAN INTELLECTUALS
## SUMMARY

The theme in question is closely linked with two important concepts that are determinant of the level of civilization of human society: "Genocide" and "Intellectual". Two diametrically opposed concepts: The term "genocide" has to do with the destruction of the human race deep to its foundation, while the other term "intellectual" is connected with the mental development of society, the "intellect" which is widely expressed to the intellectual group of society, of a country. In our case this "intellect" and intellectual society has a clearly defined identity, the Albanian national identity.

The Albanian intellectual society has always been and continues to be very sensitive to political developments in Azerbaijan. The interest of Albanian intellectuals on Azerbaijan and its fate has deep roots since the beginning of the 20th century. And this has a reason. The history of our two countries is very similar. Both our countries have experienced the tragedy of fragmentation from predatory states. As Azerbaijan was divided in the first half of XIXth century between Russia and Iran and later with Armenia in the first half of the XXth century, Albania was divided between the four states during the first half of the XXth century. Our two countries have passed through inhumane slaughters during almost the same historical period. Albanian intelligence has condemned and condemns the barbaric acts of Armenians against Azerbaijani people. Its standing and firmed position is that Armenia needs to end this situation.

*Д.ф.п.и.* **Мехрибан АЛИЕВА**
*Институт Истории НАНА старший научный сотрудник*
*Отдела «История геноцидов против азербайджанского народа»*

# «АРМЯНСКИЙ ВОПРОС» И ДЕЯТЕЛЬНОСТЬ ПАРТИИ «ДАШНАКЦУТЮН» В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**Açar sözlər:** daşnaklar, siyasət,hakimiyyət,Bakı, Türkiyə
**Keywords:** dashnaks, policy, government, Baku, Turkey
**Ключевые слова**: дашнаки, политика, правительство, Баку, Турция

В начале Первой Мировой войны актуализировался «армянский вопрос». Образованные в конце XIX в – начале XX века армянские политические партии превратили «армянский вопрос» в основную цель революционной борьбы. Наиболее яростным проводником этой политики была партия «Дашнакцутюн». Дашнакская партия любой ценой пыталась заручиться поддержкой великих держав, чтобы достичь своей главной цели - добиться армянской автономии. В связи с этим особый интерес вызывают взаимоотношения и сотрудничество партии «Дашнакцутюн» с российскими кругами в 1914-1918 гг.

İ.F.Paskeviç bu sahədə kifayət qədər "böyük" təcrübəyə malik idi. Bundan bir qədər əvvəl məhz İ.F.Paskeviçin təşəbbüsü ilə çar Rusiyası hökumətinin Qacarlar İranı ilə sərhəd boyu ərazilərə 80 min kazakın köçürülməsi layihəsi irəli sürülmüşdü. Lakin çar Rusiyasının Qacarlar İranındakı səfiri A.S.Qriboyedovun təşəbbüsü ilə İran ermənilərinin işğal edilmiş yeni ərazilərə köçürülməsi məsələsi meydana çıxdığına görə bu layihə qüvvədən düşmüşdü. Bununla belə, 1827-ci ilin mayında ermənilərin köçürülməsi işinə hazırlıq işlərinə başlanmış və bilavasitə İ.F.Paskeviçin rəhbərliyi altında həyata keçirilmişdi [3a, 129].

Lakin 1830-cu ilin yayından Şimali Azərbaycanın Car-Balakən bölgəsində başlanan həyəcanlar Qafqaz komandanlığının bu bölgəylə bağlı bəzi tədbirlərinin – müstəmləkəçi köçürmə siyasətinin tamamilə aradan qalxmasına, əhalinin zorakı xristianlaşdırılması işinin isə bir müddət təxirə salınmasına səbəb oldu.

Bununla bərabər, bölgənin üsyançı əhalisinə qarşı münasibətdə bir sıra repressiv cəza tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Köhnə Zaqatala qalasının, Car və Göyəm kəndlərinin tutulmasından sonra hər üç məntəqə tamamilə dağıdılmış, evsiz qalmış əhali isə Katex, Matsex və Tala kəndlərinə sığınmışdı [7, c. IX, s. 24]. Üsyanda fəal iştirak etmiş kəndlərin əhalisinin bölgənin düzən hissəsinə köçürülməsi nəzərdə tutulmuşdu. Sonradan onlar, əsasən, Car vilayətinə məxsus binələrin olduğu Danaçıda və Göyəm kəndində yerləşdirilmişdir [9, s. 133].

Cəza tədbirləri sırasında klassik imperiyalara xas olan yerli əhalinin imperiyanın müxtəlif bölgələrinə köçürülməsi siyasəti də istisna edilmirdi. Bu arada Telavi və Sığnaq qəzalarında müvəqqəti yerləşmiş, əsasən, İmeretiyadan olan dövlət kəndliləri və gəlmələrdən (xizanlar) ibarət 200-dək ailənin Car vilayətinə köçürülməsi nəzərdə tutulmuşdu. İmeretiyalı köçkünlər 1830-cu ildə Qavaza köçürülmələri və orada onların ləzgilərin hücumlarından qorunmaları üçün hərbi dəstənin də ayrılması ilə bağlı müraciət etmişdilər. Bu və digər çətinliklər səbəbindən Gürcüstanın mülki qubernatoru onların Car vilayətinə köçürülməsini məqsədəuyğun hesab etmişdi. Telavi qəzası üzrə köçkün dövlət kəndlilərindən ibarət hazırlanmış siyahıya 181 nəfər imeretiyalı köçkün, 187 nəfər isə gəlmə xizan daxil edilmişdi. Qubernatorun özü isə Sığnaq qəzasındakı müxtəlif kəndlərdə yaşayan aztorpaqlı və

ev tikmək imkanına malik olmayan imeretiyalı köçkün və gəlmə xizanların siyahısını təqdim etmişdi [11,v. 46-48 arxa].

Car-Balakən vilayətinin rəisi general-mayor Reutt 1831-ci ilin aprelin 28-də baş komandan İ.F. Paskeviçə yazdığı raportunda qeyd edirdi ki, imeretiyalıları Car vilayətində Zaqatala kəndindən üç verst aralıda yerləşən dağıdılmış Carda yerləşdirmək olar. Köçkünlərin Carda normal yaşamaları üçün hər bir şəraitin olduğunu ətraflı təsvir edən vilayətin rəhbəri carlıların tərk etdiyin daş evlərin də asanlıqla təmir oluna biləcəyini vurğulayırdı [12, v. 5-5 arxa].

Bu tədbirin planlaşdırılması ilə yanaşı, komandanlıq eyni vaxtda üsyanda iştirak etmiş bölgə əhalisinin də Gürcüstanın içərilərinə sürgün edilməsini nəzərdə tutur və bu məqsədlə əlverişli yerin tapılması istiqamətində müəyyən işlər görülürdü. Bu məqsədlə baş komandan İ.F. Paskeviç 1831-ci ilin fevralında Gürcüstan mülki qubernatarundan Car vilayətinin ləzgiləri üçün münasib yerin tapılmasını tələb etdikdə o, Lori səhrasını təklif etmişdi. Baş komandan isə bu yerin əlverişsiz olduğunu əsas gətirərək ona Şəmşəddil distansiyası barədə əhatəli məlumat hazırlamağı tapşırmışdı. Qubernator da öz növbəsində bu məqsədlə Şəmşəddil və Borçalı baş pristavlarına məlumat hazırlamağı tələb etmişdi [13, v. 4, 7-8]. Lakin bölgədə növbəti illərdə baş verən həyəcanlar, bir qədər sonra isə Qafqaz komandanlığının üsyançı əhaliyə münasibətdə güzəştə gedərək siyasətini dəyişməsi planlaşdırılan köçürmə tədbirlərinin dayandırılmasına səbəb olmuşdur.

Əvəzində bu bölgəyə gürcü əhalinin köçürülməsi üçün növbəti dəfə cəhd edilir. Bununla bağlı 1839-cu ilin əvvəllərində Qafqaz ordularının baş komandanı general-leytenant Y.A. Qolovin Car-Balakən vilayətinin rəisi S.D. Bezobrazovun verdiyi məlumatlara istinad edərək Gürcüstanın mülki qubernatoruna müraciət etmişdi. Tiflisdəki Baş idarəyə ünvanlanmış müraciətdən məlum olur ki, Car-Balakən vilayətinin rəisi Balakən məntəqəsi ilə Kaxetiyanın Çekani və Qavazi kəndləri arasında yaşayış üçün münasib boş torpaqlardan ibarət böyük bir məkan aşkar etmişdir. Vilayəti rəisi polkovnik S.D. Bezobrazov arzu edənləri Car vilayətində Bejanyandan aşağı və yaxud Kartubani və Laqodexi yaxınlığına köçüb yerləşməyə dəvət edirdi. Bununla əlaqədar olaraq baş komandan Y.A. Qolovin qubernatordan əhalini məlumatlandırmağı və köçmək istəyənlərlə bağlı əlavə məlumatın verilməsini xahiş edirdi. Arxiv sənədlərindən (Pəmbək-Şörəyell pristavı, Aleksandropol (Gümrü – İ.Ə.) şəhəri komendantı və başqalarının raportlarından) məlum olur ki, qeyd olunan əraziyə köçmək üçün könüllülərin tapılmaması səbəbindən bu cəhd də nəticəsiz qalmışdı [14, v. 4-8].

Çarizm Cənubi Qafqazda həyata keçirmiş olduğu müstəmləkə köçürmə tədbirlərini Zaqatala dairəsində də reallaşdırmaq məqsədilə bu ərazidə malorusiya (Ukrayna) kazaklarının yerləşdirilməsini planlaşdırmışdı [6, s.838]. Lakin yerli əhalinin kütləvi həyəcanlarından çəkinən Qafqaz komandanlığı bu tədbirin həyata keçirilməsindən imtina etməli olmuşdur.

Zorakı köçürmələrin bir nəticə vermədiyini görən çar Rusiyası yerli əhalinin xristianlaşdırması məsələsi üzərində durur. Bunun üçün isə ilk başda bölgənin əhalisi və tarixi haqqında məlumat toplayan çarizmin ideoloqları Car-Balakən camaatlığının tarixi keçmişi ilə bağlı gürcü tarixi ədəbiyyatında kök salmış yanlış iddianı – "qədim gürcü torpaqları" olan bu bölgənin I Şah Abbasın köməyi ilə dağlılar tərəfindən işğal olunması, yerli gürcü əhalinin zorla müsəlmanlaşdırılması kimi yanlış konsepsiyanı qəbul etməklə Rusiyanın bu "tarixi ədalətsizliyi" aradan qaldırmaq, bölgəni işğal edərək Gürcüstana qatmaq zorunda olduğunu qeyd edirdilər [5, 19]. Tarixşünaslıqda geniş yayılmış bu konsepsiyaya görə ingiloylar "müsəlmanlaşdırılmış gürcülər" hesab olunur və Rusiya tarixşünaslığında konkret məqsədlə formalaşdırılmış olan bu konsepsiya gürcü tədqiqatçıları tərəfindən böyük dəstək alaraq daha da inkişaf etdirilmişdir.

Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin müxtəlif illərə dair hesabatları ilə yanaşı, bu cəmiyyətin yaranmasının 50 illiyinə həsr olunmuş və 1910-cu il nəşri olan yubiley buraxılışında cəmiyyətin 50 illik fəaliyyəti (1859-1909-cu illər) zamanı Qafqazın müsəlman əhalisi arasında xristianlığın yayılması sahəsində gördüyü işlərdən bəhs olunur. Burada cəmiyyətin Zaqatala dairəsindəki fəaliyyətindən, onun yerli əhali, xüsusilə ingiloylar arasında xristianlığın yayılması üçün gördüyü tədbirlərdən, kilsələrin, ibadət evlərinin tikilməsi üçün vəsaitin ayrılması, dini-ideoloji təbliğat sahəsindəki fəaliyyəti barədə məlumat verilir [8, 17].

Çar məmurları tərəfindən bölgə əhalisinin assimilyasiya olunması məqsədilə hazırlanmış digər bir layihəyə görə isə camaatlıqların qonşu müsəlman xalqlarla əlaqələrini mümkün qədər məhdudlaş-

dırmaq, əvəzində isə gürcü Kaxetiya ilə münasibətlərin qurulması məqsədilə hərtərəfli şəraitin yaradılması nəzərdə tutulmuşdu. Bütün bu tədbirlərdə məqsəd bölgədəki əsrlərin sınağından çıxmış güclü türk-islam ittifaqı amilini məhv etmək idi.

1850-1856-cı illərdə İlisu məntəqəsinin Qax, Əlibəyli, Qorağan, Kötüklü, Meşəbaş kəndlərinin əhalisinin, bütövlükdə, Şotavar və Yengiandan bir neçə ailənin, digər kəndlərdən isə tək-tük adamların zorla xristianlaşdırıldığı qeyd olunurdu [1, v. 10-11].

Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin fondlarında saxlanılan xristianlaşdırılmış ingiloyların adları, onlara verilən xristian adı, hansı gün xristianlaşdırılıblar o tarix və xristianlaşdırma işini aparan keşişin adı göstərilmiş sənədlər 1850 – 1869-cu illəri əhatə edir [1, v. 10-11].

Çarizmin yerlərdəki məmurlarının etiraf etdiyi kimi "ingiloyların məsələsinin qaydaya salınması və onlar arasında xristianlığın yayılması işinə kömək etmək məqsədilə 1859-cu il fərmanının tətbiqi ilə həyata keçirilən inzibati tədbirlər bir nəticə vermədiyindən bu işdə yeganə vasitə kimi zor tətbiqi üsulu seçilir [2, v.63]. Bu barədə dairədə işləmiş müstəntiq Purseladze yazırdı: "...xristianlığı qəbul etmək istəməyənlərin, buna etiraz edənlərin döyülərək işgəncə verilməsi, müsəlman din xadimlərinin cəzalandırılması və hətta Sibirə sürgün olunması, hədə-qorxu, şirnikləndirmələr və s. kimi onlarla faktlar qeydə alınmışdır" [4, s. 35].

Edilən bütün ciddi cəhdlərə baxmayaraq, ingiloylar arasında aparılan xristianlaşdırma işi istənilən nəticəni verməmişdi. Dəfələrlə zorla xristianlaşdırılmaları ilə bağlı hakim dairələrə müraciət edən ingiloyların şikayət və narazılıqları nəticəsiz qalırdı ki, bu da əhalidə çarizmə qarşı sonsuz nifrəti daha da dərinləşdirirdi [3, 210-212].

Zaqatala dairəsinin hakimiyyət orqanları və xristian missionerlərin Qafqaz komandanlığının himayəsi ilə bölgədə apardığı zorakı xristianlaşdırma – gürcüləşdirmə siyasəti yerli əhalinin ciddi narazılığına və XIX əsrin 60-cı illərinin əvvəllərində burada həyəcanlı vəziyyətin yaranmasına səbəb oldu.

1861-ci ildən etibarən Əliabad başda olmaqla bölgənin bütün kəndlərində zorakı xristianlaşdırmaya qarşı mübarizə başlayır. Əvvəlcə ingiloylar bütün mümkün olan vasitələrdən istifadə edərək bu siyasətə qarşı öz etirazını nümayiş etdirirlər. Onlar dəfələrlə zorakı xristianlaşdırma ilə bağlı hakimiyyət orqanlarına yazılı müraciətlər etsələr də, bu şikayət ərizələri nəticəsiz qalmışdı. Semyon Esadze yazır ki, "Hakimiyyət orqanlarının özbaşınalıqlarından Tiflisə dəfələrlə göndərilmiş şikayətlər, bir neçə dəfə aparılmış istintaqlar nəticəsiz qalmışdı. Hətta ali hakimiyyət administrasiyasının diqqətini özlərinə cəlb etmək məqsədilə əhalinin yekdilliklə Türkiyəyə köçürülmələri ilə bağlı xahişləri belə hakimiyyət orqanlarında heç bir reaksiya doğurmadı. Nəticədə 1862-ci ildə Əliabad kəndindən 40 araba ailə məcburi xristianlaşdırmaya etiraz əlaməti olaraq Türkiyəyə köçmüşdülər [17, 214-215].

Bütün dinc vasitələrlə istəklərinə nail ola bilməyən ingiloylar zorla xristianlaşdırılmaları ilə barışa bilməyib 1863-cü ilin əvvəllərindən etibarən silaha sarılırlar. Həmin vaxt məcburi xristianlaşmaya qarşı fəal mübarizə aparan Car kəndinin üsyançı dəstələrinin təşəbbüsü ilə ayağa qalxmış ən böyük ingiloy kəndi olan Əliabad kəndliləri də onlarla birləşərək həm dinc, həm də zorakı vasitələrdən istifadə etməklə əhalini xristianlığı qəbul etməkdən çəkinməyə çağırırlar. Məhz həmin silahlı dəstələrin hökumət qüvvələrinə qarşı müvəffəqiyyətli mübarizəsinin nəticəsində missionerlər tərəfindən zorla xristianlığı qəbul etməyə məcbur edilmiş adamlar yenidən müsəlmanlığa qayıdırdılar [16, 75].

Verilmiş bütün güzəşt və imtiyazlara baxmayaraq, ingiloyların böyük əksəriyyəti ata-babalarının, əcdadlarının dinindən dönmək istəmir, var gücləri ilə ona qarşı müqavimət göstərirdilər.

Yerli əhaliyə qarşı görülmüş repressiv tədbirlər XX əsrin əvvəllərində dairədə Türkiyəyə köçmə meyillərinin artmasına səbəb olmuşdur. İlk olaraq Türkiyəyə köçmək üçün icazə xahişiylə Əliabad məntəqəsinin sakinləri ərizə ilə dairə rəhbərliyinə müraciət edirlər. Zaqatala dairə rəisinin 1902-ci il 11 yanvar tarixli raportunda qeyd olunurdu ki, Əliabad kəndindən 60-a qədər, Mosuldan 30, Qandaxdan isə 25 ev Türkiyəyə köçmək arzusundadır [15, v. 3).

Şimali Azərbaycanın digər yerlərinə olduğu kimi onun şimal-qərb bölgəsinə də erməni əhalisinin köçürülməsi çarizmin müstəmləkəçilik siyasətinin tərkib hissəsini təşkil etmişdir. Bu barədə statistik məlumatlara diqqət etdikdə görürük ki, əgər 1886-cı ildə dairədə cəmi 521 erməni yaşayırdısa, bu rə-

qəm 1897-ci il imperiya üzrə aparılmış Ümumrusiya siyahıyaalınmasının nəticələrinə görə 2100-ə çatmışdı [10, s.2]. 1897-ci ilin məlumatlarına görə Zaqatala şəhərinin 3009 nəfərlik əhalisinin 46,5%-ni ermənilər, cəmi 30%-ni isə yerli müsəlmanlar təşkil edirdi. İndi onlar Zaqatala şəhəri ilə yanaşı dairənin Balakən, Qax kimi iri kəndlərində də yaşayırdılar [10, s. 69,83]

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi,(ARDTA) F. 579, s.1, iş 4
2. ARDTA F. 125, s.1, iş 142
3. ARDTA F. 579, s.1, iş 1
4. 3a. Arzumanli V. Nazim M. Tarixin qara səhifələri Deportasiya, Soyqırım, Qaçqınlıq. Bakı, Qartal, 1998
5. Əliyeva İ.H.1863-cü il Əliabad üsyanı. Azərbaycan Texniki Universiteti Elmi Əsərləri, 2009, №2,
6. Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007, 277 s.
7. Акты собранные Кавказской Археографической Комиссией. Т.VII, Тифлис, Типог. Главного Управления Наместника Кавказа, 1878.
8. Акты собранные Кавказской Археографической Комиссией. Т.IX, Тифлис, Типог. Главного Управления Наместника Кавказа, 1883.
9. Новая реч. 1886 (разные номера).
10. Петрушевский И.П. Джаро-белоканские вольные общества в первой половине XIX в., Махачкала, 1993, 133.
11. Первая всеобщая перепись населения Российской империи 1897 года / Изд. Центр. Стат. Комитетом Москва вн. дел; Под ред. Н. А.Тройницкого. - [СПб.], 1897 - 1905.
12. Центральный Государственный Исторический Архив Грузи, (ЦГИАГ) Ф. 2, оп.1, дел. 2670, с. 46-48 об.
13. ЦГИАГ, Ф. 2, оп. 1, дел. 2670, с. 5-5 об.
14. ЦГИАГ, Ф. 5, оп. 1, дел. 7486, с. 4, 7-8
15. ЦГИАГ, Ф. 16, оп. 1, дел. 4415, с. 4-8
16. ЦГИАГ, Ф. 229, оп. 2, дел. 2086, с. 3
17. ЦГИАГ Ф. 4, оп. 8, дел. 166
18. Эсадзе С. Историческая записка об управлении Кавказом, ч.1, Тифлис, типография Гуттенбергъ, 1907, 616 с.


## THE POLICY OF FORCED CHRISTIANIZATION AND RESETTLEMENT CONDUCTED BY TSARIST RUSSIA IN THE NORTH-WESTERN REGION OF AZERBAIJAN
## SUMMARY


The article, based on materials from the archives of the Central State Historical Archives of Georgia, dating from 1850-1869, contains detailed information about the Ingiloys: their names prior to adoption of Christianity and Christian names, which priest baptized them. The article provides with information about the armed resistance of the Ingiloy people against the policy of Christianization, in which peasants from the villages of Jar and Aliabad took an active part, where the largest community of Ingiloyans lived. It was as a result of this armed resistance that the population converted by the missionaries to Christianity returned to Islam again.


## ПОЛИТИКА НАСИЛЬСТВЕННОЙ ХРИСТИАНИЗАЦИИ И ПЕРЕСЕЛЕНИЯ, ПРОВОДИМАЯ ЦАРСКОЙ РОССИЕЙ В СЕВЕРО-ЗАПАДНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА
## РЕЗЮМЕ


В статье, на основе материалов из архивных фондов Центрального Государственного Исторического Архива Грузии, датируемых 1850-1869 гг., содержится подробная информация об ингилойцах: их именах, когда приняли христианство и христианские имена, какой священник их крестил. В статье даются сведения о вооруженном выступлении ингилойцев против политики христианизации, в котором активное участие принимали крестьяне селений Джар и Алиабад, где проживала самая крупная община ингилойцев. Именно в результате этого вооруженного сопротивления население, обращенное миссионерами в христианство, вновь вернулась в ислам.

*T.ü.f.d.* **Yaşar RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*

# ERMƏNİLƏRİN NAXÇIVANDA TÖRƏTDİKLƏRİ SOYQIRIMLAR ŞAHİD İFADƏLƏRİNDƏ VƏ ARXİV SƏNƏDLƏRİNDƏ (1917-1921-ci İLLƏR)

**Açar sözlər:** Naxçıvan, ermənilər, şahidlər, arxiv sənədləri, soyqırımlar.
**Keywords:** Nakhchivan, Armenian, witness, archive documents, genocide.
**Ключевые слова:** Нахичевань, армяне, свидетель, архивный документ, геноцид.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi 1918-1920-ci illərdə ağır vəziyyətə düşmüşdü. Sosial-iqtisadi cəhətdən çətin vəziyyətdə olan bölgə daha bir bəla ilə erməni quldurlarının əsassız ərazi iddiaları ilə üz-üzə qalmışdı. Naxçıvan, Şərur-Dərələyəz, Əlincəçay və Ordubad əraziləri üzərində "Böyük Ermənistan" yaratmaq xəyalı ilə yaşayan ermənilər həmin əraziləri işğal etmək niyyətlərindən bir anlıq da olsa əl çəkmək istəmirdilər və indi də bu xülyaları ilə yaşayırlar. İddia edilən "Böyük Ermənistan" "dövləti"nin gerçəkləşməsi üçün başlanğıc olaraq Naxçıvanı hədəf seçmişdilər.

Buna görə də o zaman bölgəni və əhalini xain düşmənlərdən müdafiə etmək üçün səfərbərlik elan edilmiş və gənclərdən ibarət Naxçıvanda bir ordu yaradılmışdı. Lakin bu ordunu silahlandırmaq, onu hərbi sursat və ərzaqla təmin etmək bir problem kimi qarşıya çıxmışdı. Xoş bir təsadüf bu problemin həlli üçün əlverişli şərait yaratmışdı. Həmin dövr hadisələrinin canlı şahidi olmuş, həmyerlimiz L.Hüseynzadə bu məsələ ilə bağlı öz xatirələrində aşağıdakıları yazırdı: "Yüksək hərbi təhsil almış Cəfərqulu xan Kəngərlinin oğlu Kalbalı xan Kəngərli bu orduya baş komandan təyin edildi. Bir xoş təsadüf nəticəsi olaraq ordunun silahla təchizi də təmin edildi. Belə ki, İrandan Rusiyaya qayıdan rus əsgərləri Naxçıvanın Culfa keçidindən keçərkən həmin orduda xidmət edən Böyük xan adlı (bu onun əsl adı deyildi) bir çeçen və ya avar müsəlman zabiti özünün komandan olduğu və digər hərbi hissələrin silahlarını alaraq (o cümlədən 12 top) müsəlman Milli Komitəsinin ixtiyarına verdi və özü də bir müddət Naxçıvanda qalaraq ordunun qüvvətlənməsinə yaxından kömək etdi. Müsəlmanlara qarşı kin, ədavət bəsləyən ermənilər "müsəlman Milli Komitəsi"nə tabe olmadılar və özləri "erməni Milli Komitəsi" yaratdılar. Bu erməni komitəsi öz imkanlarından istifadə edərək Ermənistandan hərbi ləvazimat və s. yardımçı qüvvələr almağa başladılar. İrəvandan gizli yollarla gələn daşnak könüllüləri müsəlman ailələrini kənddən çıxarıb evlərini taladılar, ya qətlə yetirdilər. Acı xəbərlər şəhərdə əhalini həyəcana gətirirdi. Ermənilər çox olan kəndlərdə (daha çox ermənilər köçürülən kəndlərdə-Y.R.) yaşayan müsəlmanlar evlərini tərk edərək müsəlman kəndlərinə köçməyə məcbur oldular. Şəhərdəki müsəlman məhəllələrində yaşayan ermənilər (köçürülmüş ermənilər nəzərdə tutulur-Y.R.) də köçüb erməni məhəllələrində yerləşdilər, vəziyyət get-gedə gərginləşməyə başlayırdı. Kəndlərdə başladıqları qanlı faciələri ermənilər şəhərdə də törətməyə başladılar. 1918-ci ilin əvvəllərində onlar Naxçıvan şəhərində qalmış bir qisim rus əsgərlərini öz tərəflərinə çəkərək müsəlmanlara qarşı atəş açmağa təhrik etdilər. Özləri də onlara yardım etmək məqsədilə şəhərin Şahab, Xoylu, Qala məhəllələrini atəşə tutdular. Naxçıvan əhalisi onlara qarşı ciddi müqavimət göstərdi. Ermənilər ağ bayraq qaldıraraq barış istədiklərini bildirdilər. Beləliklə, onların xahişinə görə atəş kəsilib barış bərpa edildi. Sonra məlum oldu ki, ermənilərin ağ bayraq qaldırmaları, barış istəmələri bir hiylə imiş" (3, s.16-17).

Bu dövrdə ən ağır döyüşlər Novruz bayramı ərəfəsi və günlərində olmuşdur. Bu arxiv sənədlərində, Lətif Hüseynzadə və Mirzə Bağır Əliyevin xatirələrində, H. Nərimanoğlunun məlumatlarında da təsdiqlənir. L. Hüseynzadə öz xatirələrində yazırdı: "1918-ci il mart ayının əvvəlləri idi. Eşitdik ki, yaşadığımız Sarvanlar məhəlləsinin yaxınlığında olan Edilağa gölünün ətrafında qoyun otaran çobanı ermənilər öldürmüş və qoyunları da aparmışlar. Bu xəbər məhəlləmizdə hamını bərk narahat etdi. Camaat erməni milli komitəsinə şikayət etdi, lakin şikayət nəticəsiz qaldı. Sonra məlum oldu ki, bu qanlı hadisəni Əliabad kəndinin erməniləri etmişlər. Öldürülən çobanın qohumları iki nəfər ermənini öldürməklə intiqam aldılar. Bu hadisələr Naxçıvan şəhərində erməni və müsəlmanlar arasında müharibənin yenidən başlanmasına səbəb oldu (3, s.17). O, digər bir xatirəsində bildirirdi: "Xatırlayıram ki, bütün şəhər əhalisi kimi, məhəlləmizin camaatı da Novruz bayramını keçirmək üçün sevinclə hazırlaşırdı. Mart ayının 15-16-sı idi. Sübh tezdən məhəlləmiz "böyük bağ" istiqamətindən ermənilər

tərəfindən atəşə tutuldu. Hamı qorxu və həyəcan içində səhərini açdı. Düşmən güclü silahlanmışdı. Ermənilərin gec-tez belə bir hərəkət edəcəkləri gözlənilməz deyildi. Camaatımız atəşə atəşlə cavab verməyə başladılar. Bu atışma fasilələrlə üç gün davam etdi. Çox itkilərimiz oldu, döyüşən adamlarımız tükənmişdi. Hər gün 10 - 15 adam öldürülürdü. Məhəlləmiz ermənilərin işğalı, insanlarımız isə ölüm təhlükəsində qalmışdı. Vəziyyət xeyli ağırlaşmışdı. Bir axşam məhəlləni tərk edib Araz çayı kənarındakı Qaraçuğ kəndinə yerləşməyə məcbur olduq. Xəstə bacımı güclə aparırdım. Ermənilər dərhal Sarvanlar məhəlləsini və ona yaxın olan Gomayi və Dizə məhəllələrini taladıqdan sonra evləri və evlərdə qalan xəstə və qocaları diri-diri yandırdılar. Araz kənarından durub yanan evlərimizi bir-birimizə göstərir və göz yaşları ilə bunu izləyirdik. Ermənilər daha başqa məhəllələrə də hücum etdi və şəhərin Xoşulu, Xoylu məhəllələrini də talayıb yandırdılar" (3, s.17-18).

1918-ci il martın 18-21-nə kimi ermənilər Əlincəçay boyunca müsəlman kəndlərinə: Bənəniyar, Qızılca, Saltax, Noraşen, Xoşkeşin və s. kəndlərə hücum edərək kəndləri yandırmış, qarət etmiş, əhalisini vəhşiliklə qətlə yetirmişlər. Canlarını qurtaranlar isə öz ocaqlarını tərk edərək qonşu kəndlərə, Naxçıvan şəhərinə qaçmışlar (4, v.753).

Bayram gecəsi 10000 nəfərdən çox erməni silahlı qüvvələri qəflətən hücuma keçib Ordubadın bəzi kəndlərini yandırmış və şəhərə böyük təhlükə yaratmışlar. Naxçıvandan türk zabiti Ədib bəyin (Lətif müəllim onun şəhərdə qalaraq ailə qurduğunu bildirir-Y.R.) başçılığı ilə köməyə gələn 500 nəfərlik hərbi hissə Aza kəndi yaxınlığında düşmənlə vuruşmağa başlamışdı. Ordubada kömək göstərilməsi üçün hətta Təbriz general-qubernatoru Sərdar İntizara müraciət edilmişdi. Arxiv sənədlərindən göründüyü kimi İran tərəfi müəyyən məqsədlər güddüyündən, nəinki heç bir yardım göstərməmiş, əksinə, başqa tədbirlərə əl atmışdı. Ordubadlıların güclü müqaviməti və Naxçıvandan gələn qüvvələrin köməyi nəticəsində ermənilərin Ordubad mahalını ələ keçirmək cəhdləri uğursuzluqla nəticələnmiş, onlar xeyli itki vermişlər. Ordubadlı döyüşçülərdən də yaralananlar olmuş və xeyli kəndlər dağıdılmışdı. Ədib bəyin hazırladığı xüsusi əməliyyatın uğurla qurtarması sayəsində şəhərin mühasirəsinə son qoyulmuş və təhlükə sovuşdurulmuşdu (17, s.29).

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyun ayına kimi başda Andranik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və b. başçılıq etdiyi erməni quldur dəstələri tərəfindən təkcə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzasında 50-dən artıq müsəlman kəndlərinə basqınlar edilmiş, dağıdılmış, yandırılmış, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşlər (5, v.103-105).

Osmanlı mənbələrində ordu qərargahının 28 avqust 1918-ci il tarixli məlumatında göstərilir ki, Naxçıvanın şimal-şərq bölgələrində Andranik səfərbərlik elan edərək 15 yaşdan 45 yaşa qədər ermənilərin hamısını silaha sarılmağa çağırmışdı. O, 5 min erməni ilə Gorusun 10 km cənub-qərbində məskən salıb, 700 piyada, 400 atlı zabit, 4 pulemyot, 2 dağ topu olan erməniləri də ixtilafa çağıraraq müsəlmanları qətlə yetirməyə təşviq edir. Osmanlı mənbələrində o da qeyd edilir ki, Andranik Qafan mis mədənlərində fransızlardan qalan zavodları yenidən işə salaraq partladıcı maddələr, hərbi sursat hazırlayır, bunlardan dinc əhalinin kütləvi məhvində istifadə edirdi (17, s.25-26).

Andranik hələ Naxçıvana ilk gəldiyi günlərdə erməni Milli Komitəsi vasitəsilə müsəlman milli komitəsinə nota göndərərək bildirmişdi ki, o, Rusiya hökuməti torpağı olan Naxçıvana Rusiya tərəfindən hakim göndərilmişdir. Naxçıvan camaatı ona tabe olmalıdır və silahları toplayıb ona təslim etməlidir. Andranikin notası milli komitədə müzakirə edildikdə onun dediklərinin yalan olduğu isbat edilmiş və onun tərk-silah tələbinə milli komitə sədrinin rədd cavab verməsi qərara alınmışdı. Lakin komitənin bu qərarının erməni milli komitəsinə verilməsi bir qədər təxirə salınmışdır. Andranikin Naxçıvana hücum edəcəyi və əhalidən tərk-silah tələbi haqqında məlumatları Xəlil bəy Kazım Qarabəkir paşaya və Ənvər paşaya raport yazıb bildirmişdi (3, s.29-30).

1918-ci il iyunun 14-də Naxçıvan qəzasına soxulan Andranik bu bölgənin kəndlərinə qarşı kütləvi qırğınlar törətməyə başladı. Onun quldur dəstələri Naxçıvandan başlayaraq Zəngəzur və Şuşayadək olan əraziləri zəbt etməyə can atırdı. Andranikin ilk təcavüzü qəzanın Araz çayı kənarında yerləşən Yaycı, Aşağı Aza və Kərimquludizə kəndləri olmuşdur. Ermənilər Yaycı kəndində 4000 nəfərdən çox müsəlman əhalisini qırmışlar. Yaycı hadisələri ilə bağlı T.Nağdəliyev 14 iyun 1918-ci ildə Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun adına göndərdiyi məktubda yazırdı: "Məlum edirəm ki, Andranikin dəstəsi İrandan Araz körpüsünü keçərək Yaycı kəndinə girmiş, həmin

kəndin əhalisini qılıncdan keçirərək kəndi tar-mar etmişlər. Camaldın və Ərəzin kövşəninə erməni qoşunları dolubdur. Lazımi sərəncam verməkdən ötrü xəbərdar edirəm ki, Nehrəm kəndi qorxu içərisindədir" (6, v.49).

Yaycı kəndindəki qanlı hadisələrin canlı şahidlərindən olan L.Hüseynzadə bu faciəni belə xatırlayır: "1918-ci ilin iyun ayının ilk günləri idi. Naxçıvanda nisbi sakitlik hökm sürməkdə idi. Hamı – ermənilər də, müsəlmanlar da bu sakitlikdən razı idi. Lakin bu sakitlik uzun sürmədi. Qaniçən daşnak Andranikin Cənubi Azərbaycanın Maku, Xoy, Salmas şəhərlərini və bu yerlərdə yol üstündə olan kəndləri talayıb qarşısına çıxan müsəlmanları vəhşicəsinə qətl edərək 15 mindən artıq müsəlləh bir quldur dəstəsilə Naxçıvana doğru gəlməsi xəbəri böyük təşviş yaratdı. Bu xəbərdən sonra məlum oldu ki, Andranik Culfa körpüsünü keçərək şəhər ətrafı ilə gəlib kazarmada əsgərlərini yerləşdirdikdən sonra bir quldur dəstəsilə yenə Culfaya qayıdıb. Culfa körpüsünü, Culfa-Naxçıvan dəmiryolunu dağıtdırmış və dəmiryolunu sökdürmüşdür. Onu təqib edən türk ordusunun qarşısını almaq niyyətilə və Andranikin bu cinayətkar hərəkətinə qarşı Culfa yaxınlığındakı Yaycı kəndi camaatının etirazına cavab olaraq daşnak quldur dəstələri 700 evlik Yaycı kəndinə hücum edərək kəndi işğal edib, kənd əhalisini vəhşicəsinə qılıncdan keçirib Araz çayına tökdükləri xəbəri bütün Naxçıvan camaatının qəzəbinə səbəb olmuşdu. Andranikin quldur dəstələri Ordubad, Əlincəçay və Şahbuz kəndi əhalisini tərk-silah edib amansızcasına onları qətl etmişdilər. Andranikin əsgərləri şəhər ətrafindakı bağları dağıdır, zəmiləri atlarına yedirirdilər. Bazardan aldıqları şeylərin pulunu vermirdilər, pul istəyəni dərhal öldürürdülər. Onların bu vəhşi hərəkətlərinin qarşısını almaq üçün müsəlman milli komitəsi erməni milli komitəsinə müraciət etdi. Lakin erməni milli komitəsi müsəlmanlanların bu tələbi qarşısında "bizim onların işinə qarışmağa ixtiyarımız yoxdur, siz özünüz nə bacarırsınız edin" – dedilər (3, s.28).

Naxçıvan MR MDA-da erməni qulduru A.Ozanyanın bu vəhşi təcavüzü haqqında arxiv sənədləri və şahid xatirələri vardır. Andranikin Nehrəmə hücumu haqqında döyüşlərin iştirakçısı Heydərqulu Həsənov öz xatirələrində yazırdı: "Andranikin qoşunları ilə əsas döyüş İmamzada tərəfdə gedirdi. Andranik cəhd edirdi ki, Nehrəm kəndinin kənarından keçib Təzəkəndə toplaşan 300 nəfərlik daşnak silahlı dəstəsi ilə birləşsin. Lakin nehrəmlilər buna imkan vermirdi. Yaxşı silahlanmış dəstələrimiz tabor komandanı Kərbəlayi Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzir, əhalini döyüşə qaldırır, atəş nöqtələrinə patron, çörək, su çatdırırdı" (7, v.205).

Lətif müəllim Nehrəm faciəsi ilə bağlı aşağıdakıları xatırlayırdı: "Andranikin quldur dəstələri şəhər yolunun kənarında bir istehkam kimi olan Nehrəm kəndini mühasirəyə alıb kəndi bütün gün amansız olaraq top atəşinə tutdular. İşin belə olacağını əvvəlcədən bilən nehrəmlilər kəndin kənarında səngərlər qazıb döyüşə hazır olmuşdular. Ermənilərin hücumu zamanı kəndin ağsaqqalları da, cavanları da səngərlərə gedib cəsarətlə kəndi müdafiə etmişdilər. Heç yerdə görmədiyi müqaviməti burada görən daşnak dəstələri Nehrəm ətrafındakı döyüşü dayandırıb qayıtmağa məcbur olmuşdu. 60 nəfər əsir və çoxlu tələfat verərək Nehrəmi tərk edən Andranikin əsgərləri kəndin obalarına hücum etdilər. Orada olan çobanları və sağıcı qadınları vəhşicəsinə qətl edib, mal qaralarını apardılar. Nehrəmlilərin Andranik qarşısında göstərdikləri şücaət və qəhrəmanlıqlar xalq tərəfindən böyük rəğbətlə qarşılandı və bu döyüşdə qəhrəmanlıq göstərən gənclər haqqında nəğmələr qoşulmuş, şerlər yazılmışdır.

Bu hadisələrin şahidi olan Nehrəm kəndində yaşayan şairə Sona xanım bir şerində qəhrəmanları tərif edərək belə yazmışdır.

*Ermənilər gəldi tahar düzünə,*
*Nehrəmlilər ölümü aldı gözünə,*
*Qırıb tökdü İmamzadə düzünə,*
*Yeri hay, yeri hay köpək Andrey,*
*Nehrəmlilər quşu göydən endirər,*

*Müslüm yatdı haii əli bağında,*
*Müseyib sağında, Sadiq solunda,*
*Qırıb tökdük imamzadə yolunda,*
*Yeri hay, yeri hay köpək Andrey,*
*Nehrəmlilər quşu göydən endirər. (3, s.28-29).*

Qeyd edək ki, erməni quldurlarının Nehrəm kəndinə hücumu haqqında o vaxt Naxçıvanda müsəlman Milli Komitəsinin katibi işləmiş və hadisələrin canlı şahidi olmuş Mirzə Bağır Əliyevin əsərində (2, s.67-68) də məlumatlar verilmişdir. Xatırladaq ki, sonralar Naxçıvanda müəllim və vəkil işləmiş M.B.Əliyev Naxçıvanın erməni və beynəlxalq təcavüzdən azad olması yolunda yorulmadan çalışmışdır.

Sonra Andranikin quldur dəstələri Naxçıvanın kəndləri olan Qoşadizə, Şəkərabad, Qahab, Zeynəddin, Sirab, Qara-qala və b. kəndlərinə hücum edib əhalini qıraraq kəndləri talan edir, evləri yandırırlar. Əlacsız qalan kənd əhalisi Sirab dağına pənah gətirir. Ora toplaşmış 1000 nəfər kişi, qadın, uşaq daşnaklar tərəfindən öldürülür. Əhalinin bir hissəsini məscidə toplayıb məscidi yandırmaq fikrində olarkən vəziyyət dəyişir, geri çəkilməli olurlar (8, v.98-105).

1918-ci il dekabr ayının 19-da erməni daşnakları Şərur bölgəsinə hücum edirlər. Ermənilərin qarşısını almaq üçün Bəhram xan Naxçıvanskinin komandanlıq etdiyi Naxçıvan taboru Dəmirçi tərəfdən hücum edib, külli miqdarda hərbi sursat, top, ərzaq və bir pulemyot qənimət almış, 20-30 nəfərə kimi erməni əsgərini məhv etmişlər. Ermənilər tab gətirməyərək geri çəkilmişlər (9, v.42).

Bundan az sonra fəallaşan erməni qəsbkarları rus zabiti polkovnik Doluxanovun rəhbərliyi altında güclü silahlı dəstə təşkil edərək Vedibasar bölgəsinin kəndlərində insanlığa sığmayan və görünməmiş vəhşiliklər törədirlər. Cəfərqulu xan Naxçıvanski erməni quldur dəstələrinin bu hücumlarının müdafiəsiz dinc kəndliləri qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri aldığını bildirərək yazırdı: "...türklər getdilər, yenə bizdə müsəlman kəndlərinin məhv edilməsi, heç bir günahı olmayan müsəlman qadın və uşaqlarının döyülməsi və öldürülməsi qanlı səhnələri təkrar olunmuşdur. Yenə də İrəvan quberniyasında ermənilər tərəfindən qəddarcasına ölümə məhkum edilmiş on minlərlə müsəlmanın ürək parçalayan qışqırıq və nalələri göyə yüksəldi" (10, v.2).

1919-cu ilin əvvəllərində bölgəyə edilən aramsız hücumlar daha təhlükəli xarakter almış və vəziyyəti xeyli ağırlaşdırmışdır. Ermənilər 1919-cu ilin yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdə hücumlar etmiş və böyük qırğınlar törətmişlər (11, v.3).

Azərbaycanın Ermənistandakı nümayəndəsi Məmmədəli xan Təkinski 16 may 1919-cu ildə Azərbaycan Demokratik Respublikasının Baş nazirinə göndərdiyi teleqramında yazırdı: "Mayın 2-də Naxçıvana erməni polkları hücum edib. Ona görə də Ermənistana təzyiq göstərmək lazımdır. Bizim polklarımızın dərhal Ermənistan sərhədində yerləşdirmələrini məqsədəuyğun hesab edirəm. Naxçıvan rayonunun əhalisi müqavimət göstərməyə hazırdır. Mayın 2-də Devi Yerevandan Naxçıvana yola düşüb. Dilicanda natamam tərkibli 4-cü alay dayanıb. Diplomatik nümayəndə Təkinski" (12, v. 88).

Naxçıvanı "bitərəf zona" elan edib Ermənistanın hakimiyyətinə vermək məqsədilə Naxçıvana gələn ingilis imperialistləri öz hərbi hissələrini Noraşen (indiki Şərur-Y.R.), Şahtaxtı, Naxçıvan, Culfa dəmiryol stansiyasında və Şərur-Dərələyəz şose yolunda yerləşdirmişlər. 1919-cu il may ayının 5-də Naxçıvan şəhərinə gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzalarında yaşayan müsəlmanları yığıb mitinq keçirir və bildirir ki, müsəlmanlar Ermənistan hökumətinin rəhbərliyinə tabe olmalıdırlar (13, v.154).

Ermənilərin Vedibasar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrində törətdikləri qanlı cinayətlərlə bağlı bu bölgələr üzrə "müsəlman yerli cəmiyyətlərinin" keçirdikləri iclasın rəyasət heyəti tərəfindən Azərbaycan parlamentinə 16 iyul 1919-cu il tarixdə göndərdikləri məktublarında yazırdılar: "Bu rayonların əhalisinin xahişini və Müsəlman Milli Şurasının müsəlmanların soyqırımına etirazını nəzərə alaraq, Vedibasar, Şərur, Naxçıvan və Ordubad rayonlarının müsəlmanlarının birliyi erməni banditlərinin bu rayonlara soxulmasına qəti etirazını bildirir və oradan çıxmasını tələb edir. Biz həddindən artıq inanırıq ki, ingilis komandanlığı buna yol verməyəcək və hüququmuzu özümüzə qaytaracaq. Vedibasar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad rayonları müsəlman yerlilərinin rəyasət heyəti" (14, v.20-21).

1920-ci ilin mart ayından başlayaraq erməni qoşunları Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib, intensiv surətdə hərbi hazırlıq işləri aparmışlar. Bu vaxt sərhəd sahələrə 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplanmışdır. Dro, Nijde və başqa daşnak liderləri Zəngəzurun müdafiəsinə böyük əhəmiyyət verirdilər (15, v.74).

1918-1920-ci illərdə erməni daşnakları Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi, Əlincəçay və Gilançay boyunca 80-dən artıq kəndi yerləyeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar (16, v.74). Bu hücumlar 1921-ci ildə daha da intensivləşmiş və təhlükəli xarakter almışdır.

Beləliklə, 1918-1920-ci illərdə ermənilərin Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinə hücumları müdafiəsiz dinc əhalini qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır. 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73727 nəfər azərbaycanlı ən vəhşi formada öldürülmüşdür. Özgə əraziləri və torpaqlarında yerləşdirilən və tarix boyu xalqımıza qarşı məkrli siyasət yeridən ermənilər "Böyük Ermənistan" yaratmaq yolunda son vaxtlarda öz fəaliyyətlərini daha artırmışlar. Güclü maliyyə qaynaqlarına malik olan diasporla əlbir fəaliyyət göstərən erməni qurumları tarixi fakt və həqiqətləri saxtalaşdırmaqla ərazi iddialarını əsaslandırmağa çalışırlar. Müasir dünyada separatçılığa üstünlük verən ermənilər Naxçıvanın Ermənistana birləşdirilməsi üçün müxtəlif fitnəyə və saxtakarlığa əl atır, imzalar toplayaraq mitinq və nümayişlər keçirirlər. Lakin bir həqiqət aydındır ki, Naxçıvan xülyaları ilə yaşayan erməni millətçilərinin bu arzuları gözlərində qalacaqdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920) Türkiyə Cümhuriyyəti Baş Dövlət Arxivləri Müdirliyinin Nəşriyyat mətbəəsi. Ankara, 2001, 682 s.
2. Əliyev M.B. Qanlı günlərimiz (1918-1920. Naxçıvan). Bakı: Azərnəşr, 1993, 142 s.
3. Hüseynzadə L. Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir Naxçıvanda (1918-1920). Bakı, 2005, 78 s.
4. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (bundan sonra Nax.MRDA): f.314, siy.5a, iş 84, v.753.
5. Naxçıvan MRDA: f.314, siy.5a, iş 74, v.103-105.
6. Naxçıvan MRDA: f.314, siy.5a, iş 72, v.49.
7. Naxçıvan MRDA: f.582, siy.1, iş 40, v.205.
8. Naxçıvan MRDA: f.582, siy.1, iş 40, v.98-105.
9. Naxçıvan MRDA: f.314, siy.5a, iş 74, v.42.
10. Naxçıvan MRDA: f.314, siy.5a, iş 73, v.2.
11. Naxçıvan MRDA: f.314, siy.5a, iş 73, v.3.
12. Naxçıvan MRDA: f.314, siy.5a, iş 71, v.88.
13. Naxçıvan MRDA: : f.314, siy.5a, iş 74, v.154.
14. Naxçıvan MRDA: f.314, siy.5a, iş 71, v.20-21.
15. Naxçıvan MRDA: f.314, siy.5a, iş 72, v.74.
16. Naxçıvan MRDA: f.582, siy.1, iş 40, v.74.
17. Nərimanoğlu H. Zəngəzur və Qarabağda ermənilərin törətdikləri qətliamlar Osmanlı-Türkiyə mənbələrində. Bakı: QHT nəşriyyatı, 2014, 88 s.

## THE GENOCIDE COMMITTED BY ARMENIANS IN NAKHCHIVAN AT THE WITNESS EXPRESSIONS AND ARCHIVAL DOCUMENTS (IN 1917$^{TH}$-1921$^{ST}$ -YEARS)
## SUMMARY

İn the article it had been investigated the massacres committed by Armenians in Nakhchivan in 1918-1920 on the basis of witness statements and archive documents. At the beginning Armenians had selected target Nakhchivan, for becoming true of the "Great Armenian States". In the Nakhchivan region 73,727 persons of Azerbaijanis had killed by Armenians the most brutal form in 1918-1921$^{th}$ years.

## ГЕНОЦИД, СОВЕРШЕННЫЙ АРМЯНАМИ В НАХЧЫВАНЕ, В СВИДЕТЕЛЬСКИХ ПОКАЗАНИЯХ И АРХИВНЫХ ДОКУМЕНТАХ (1917-1921ГГ.)
## РЕЗЮМЕ

В статье на основе свидетельских показаний и архивных документов исследован геноцид, совершенный армянами в Нахчыване в 1917-1921 гг. В качестве отправной точки для реализации идеи пресловутой «Великой Армении» армянские националисты выбрали Нахчыван. В 1918-1921 гг. армянами самыми жестокими методами были убиты 73.727 жителей Нахчыванского региона Азербайджана.

*T.ü.f.d.* **Sahibə BUDAQOVA**
*AMEA «Azərbaycan tarixi coğrafiyası» şöbəsinin aparıcı elmi işçisi*

# XX ƏSRDƏ AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIM CİNAYƏTLƏRİNİN TARİXİ COĞRAFİYASI

**Açar sözlər:** Vəhşicəsinə, qətl, amansızlıq, qırğınlar, işğal, daşnak, siyasi qiymət, təhrif, soyqırım, ekstremist
**Keywords**: savagely, murder, cruelty, massacres, occupation, Dashnak political assessment, distortion, genocide, extremist
**Ключевые слова:** жестокость, беспощадность, резня, оккупация, дашнак, политическая оценка, фальсификация, геноцид, экстремизм.

Azərbaycan Respublikası öz istiqlaliyyətinə qovuşduqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanları ortaya çıxmışdır. Yaxın keçmişdə gizlədilmiş, yaxud da yasaqlanmış mövzu olan faktlar gün işığına çıxır, əvvəllər təhrif olunmuş hadisələr öz gerçək qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilən və uzun illər boyu öz siyasi-hüquqi qiymətini almayan soyqırım tariximizin kifayət qədər tədqiq edilməmiş səhifələrindəndir.

1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının torpaqlarının işğalı bu milli faciəsinin davamı idi. Ən qısa zaman kəsiyində bu siyasət reallığa çevrildi, ermənilərin Azərbaycan torpaqlarına kütləvi köçürülməsi həyata keçirildi. Azərbaycan xalqına qarşı soyqırım cinayətləri Azərbaycan torpaqlarının işğalı siyasətinin tərkib hissəsinə çevrildi.

Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılmış ermənilərin sayca orada yaşayan azərbaycanlılarla müqayisədə az olmalarına baxmayaraq, onlar öz qəyyumlarının himayədarlığı altında «Erməni vilayəti» adlanan qondarma inzibati vahidin təşkilinə nail oldular. Belə bir süni ərazi bölgüsü ilə faktiki olaraq azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin təməli qoyuldu. «Böyük Ermənistan» ideyasının təbliğinə başlanıldı. Azərbaycan torpaqlarında bu uydurma «dövlətin» təşkilinə haqq qazandırmaqdan ötrü erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar gerçəkləşdirildi. Azərbaycanın və bütövlükdə Qafqazın tarixinin təhrifi bu proqramların mühüm tərkib hissəsini təşkil edirdi. «Böyük Ermənistan» yaratmaq kimi xam xəyallarla ilhamlanmış erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı genişmiqyaslı açıq qanlı aksiyalar gerçəkləşdirdilər. Bakıda başlanılmış erməni vəhşilikləri Azərbaycanı və bugünkü Ermənistan ərazisindəki Azərbaycan kəndlərini bürüdü. Yüzlərlə yaşayış məskəni yerləyeksan edildi, dağıdıldı, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu qətliamların mahiyyətinin açılmasına, onlara doğru-düzgün hüquqi-siyasi qiymət verilməsinə müxtəlif maneələr törədən sözügedən cinayətlərin təşkilatçıları azərbaycanlıların mənfi obrazını yaradaraq, özlərinin ərazilərə olan avantürist iddialarını məharətlə ört-basdır edirdilər.

I Dünya müharibəsindən və Rusiyada baş verən Fevral inqilabı və Oktyabr çevrilişindən məharətlə faydalanan erməni millətçiləri 1918-ci ildə öz mənfur iddialarının bolşevizm bayrağı altında gerçəkləşməsinə nail oldular. 1918-ci ilin martından etibarən əks-inqilabi ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən bütövlükdə Bakı quberniyasının azərbaycanlılardan təmizlənməsi məqsədini güdən iyrənc planın həyata keçirilməsinə başlanıldı. On minlərlə azərbaycanlı sadəcə öz milli mənsubluğu üzündən məhv edildi. Ermənilər evləri yandırır, diri-diri insanları oda verir, milli memarlığın incilərini, məktəbləri, xəstəxanaları, məscidləri, abidələri uçurdurdular. Onlar Bakının böyük bir hissəsini xarabazara çevirmişdilər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Şimali və Cənubi Azərbaycanın digər bölgələrində xüsusi amansızlıqla həyata keçirilmişdi. Bu ərazilərdə dinc sakinlər kütləvi qaydada qətlə yetirilmiş, kəndlər yandırılmış, milli abidələr dağıdılmış, məhv edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra 1918-ci il mart soyqırımına xüsusi diqqət yetirilməyə başlanıldı. Nazirlər Kabineti 1918-ci ilin iyulun 15-də bu faciənin təhqiqi məqsədi ilə

Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya Mart soyqırımını, Şamaxıda vəhşətin başlanğıc mərhələsini, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdı. Bu gerçəkləri dünya ictimaiyyətinə çatdırmaq üçün Xarici İşlər Nazirliyi xüsusi struktur yaratmışdı. Azərbaycan Xalq Cümhuriyyətində 1919 və 1920-ci illərdə martın 31-i matəm günü elan olunmuşdu. Bu, azərbaycanlılara qarşı soyqırım siyasətinə və yüz ildən artıq davam edən torpaqlarımızın işğalına tarixdə ilk dəfə olaraq qiymət verilməsi cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi axıra çatdırmağa imkan vermədi.

Martın 31-i – azərbaycanlıların soyqırımı günüdür. 1998-ci ildən etibarən Azərbaycan Respublikasında 31 mart azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Azərbaycanlıların kütləvi soyqırımı, repressiyalar, öz doğma torpaqlarından qovulmasına dair cinayət faktları ümumən XX əsr dünya tarixinin ən faciəli səhifələrindən hesab oluna bilər [1, 20-28].

Qeyd etmək lazımdır ki, XIX əsrin sonlarında Şimali Azərbaycanın İrəvan Bakı və Yelizavetpol (Gəncə) quberniyalarından sonra azərbaycanlı əhalinin sayına görə Cənubi Qafqazda üçüncü yeri tuturdu. Rusiya imperiyasında keçirilmiş əhalinin birinci siyahıyaalınmasının məlumatlarına əsasən 1897-ci ildə İrəvan quberniyasında 313178 azərbaycanlı yaşayırdı. XX əsrin əvvəllərinin sonrakı hadisələri göstərdi ki, belə bir vəziyyət Azərbaycan xalqının tarixində faciələrin davam etməsinin səbəbi oldu.

Rusiyada 1905-1907-ci illərdə inqilabi proseslərdən istifadə edən ermənilər Bakıda, Şuşada, Zəngəzurda, İrəvanda, Gəncədə, Naxçıvanda, Ordubadda, Üçkilsədə (Eçmiədzində), Cavanşirdə, Qazaxda azərbaycanlıların kütləvi qırğını və didərgin salınması hərəkətləri planauyğun şəkildə həyata keçirilmişdir. 1905-1906-cı illərdə İrəvan və Gəncə quberniyalarında 200, Şuşa, Cəbrayıl, Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi ermənilər tərəfindən dağıdılmış və talan edilmişdi.

Çox təəssüflər olsun ki, tarixi qaynaqlar o illərin hadisələri haqqında olduqca az sənəd saxlamışdır, fəqət həmin hadisələr M.S. Ordubadinin «Qanlı sənələr», M.M. Nəvvabın «1905-1906-cı illər erməni-müsəlman davası» adlı kitablarında özünün sənədli inikasını tapmışdır. Bu kitablar sözügedən dövrdə işıq üzü görən nəşrlərin materialları, qanlı hadisələrdə zərərçəkmişlərin şahid ifadələri əsasında hazırlanmışdır [4, 40-45].

1905-1907-ci illərdən sonrakı illərdə azərbaycanlılara qarşı kütləvi repressiv proseslər gizli formada davam etmişdi ki, buna statistik bilgilər də dəlalət edir. 1916-cı ilə dair bilgilər göstərir ki, İrəvan quberniyasının 5 qəzasında əhalinin sayı 1831-ci illə müqayisədə 1916-cı ildə 40 dəfə, yəni 14300 nəfərdən 570000 nəfərədək artmışdır, halbuki azərbaycanlıların sayı yalnız 4,6 dəfə artaraq, 246600 nəfərə çatmışdı. Və yaxud bir başqa misal. Əgər 1886-1897-ci illərdə əhalinin mütləq artımı 40 min nəfər təşkil etmişdisə, 1905-1916-cı illərdə bu rəqəm 17 min nəfərə çatmışdı, hərçənd 1905-ci ildə əhali 1886-cı ilə nisbətən 61 min nəfər çox olmuşdu. Bu biabırçı rəqəmlər çar Rusiyasının hökmranlığı dönəmində erməni millətçilərinin yürütdükləri şovinist siyasətdən xəbər verməklə, azərbaycanlıların qovulmasına və «türklərsiz Ermənistan» yaradılmasına dair erməni millətçi dairələrinin planının konkret gerçəkləşdirilməsinə şahidlik edir.

Rusiyada I Dünya müharibəsindən, 1917-ci ildə Fevral inqilabi və Oktyabr çevrilişindən sonra yaranmış vəziyyətdən istifadə edən erməni millətçiləri öz cinayətkar planlarının bolşevizm bayrağı altında reallaşdırılmasına nail olmağa başladılar. 1918-ci ilin martından etibarən əks-inqilabi ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası bütövlükdə Bakı quberniyasında azərbaycanlıların ləğv edilməsi məqsədini güdən iyrənc planın həyata keçirilməsinə girişdi. O günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi həkk olunmuşdur. On minlərlə azərbaycanlı sadəcə öz milli mənsubluğu üzündən məhv edilmişdi. Ermənilər evləri yandırır, diri-diri insanları oda verir, milli memarlığın incilərini, məktəbləri, xəstəxanaları, məscidləri, abidələri dağıdırdılar. Onlar Bakının böyük bir hissəsini xarabazara çevirmişdilər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın digər bölgələrində xüsusi amansızlıqla həyata keçirilmişdi. Bu ərazilərdə dinc sakinlər kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli abidələr dağıdılmış, məhv edilmişdi [4, 50-52]. 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən artıq azərbaycanlını öldürmüş, onların evlərini yağmalamış, on minlərlə insanı öz doğma ocaqlarından didərgin salmışdılar. Təkcə Bakıda 30 min azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirilmişdi. Şamaxı qəzasında 58

kənd dağıdılmış, 7 min insan, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüşdü. Quba qəzasında 122 müsəlman kəndi yerləyeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 150-dən artıq, Zəngəzurda 115 Azərbaycan kəndi barbarcasına dağıdılmışdı. Bu zaman cins və yaş fərqi qoymadan əhaliyə amansız divan tutulurdu. İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və viran qoyulmuşdu. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa müddət ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131970 nəfər öldürülmüşdür [5, 20-25].

1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması da qurbansız ötüşmədi – ərazilərimizin bir hissəsi itirildi. Nazirlər Şurasının sədri F.X. Xoyskinin Xarici İşlər naziri M.H. Hacınskiyə məktubu da bu barədə xəbər verir. Orada deyilirdi: «Ermənilərlə biz bütün mübahisələri bitirmişik, onlar ultimatumu qəbul edəcəklər və müharibəyə son verəcəklər. Biz İrəvanı onlara güzəştə getmişik». Cənubi Qafqazda üç suveren respublikanın meydana gəlməsindən sonra müttəfiqlərin əməlləri sayəsində Ermənistanın ərazisi 17500 ingilis kv. mili əhatə etməklə, əhalisi 1510000 nəfər (onlardan 795000-i erməni, 575000-i müsəlman, 140000-i digər millətlərin mənsubları idi) olmuşdu. Bununla kifayətlənməyən daşnaklar beynəlxalq təşkilatlarda mübahisəli ərazi məsələlərinin, dövlətlərarası sərhədlərin dəqiqləşdirilməsi barədə müzakirələrə məhəl qoymayaraq, Azərbaycan və Gürcüstan torpaqları hesabına «Böyük Ermənistan» yaradılması kimi köhnə millətçi ideyalara mübtəla olaraq, Gürcüstan tərkibinə daxil olmuş Axalkələk və Borçalı ərazilərinə, eləcə də Azərbaycan tərkibində bulunan Qarabağa, Naxçıvana və Gəncə quberniyasının cənub hissəsinə iddialar irəli sürmüşdülər [2, 18-23].

Bu əraziləri güc yolu ilə özünə birləşdirmək cəhdləri Gürcüstanla müharibəyə (1918-ci ilin dekabrı) və Azərbaycan Xalq Cümhuriyyəti ilə sürəkli qanlı mübarizəyə gətirib çıxardı ki, nəticədə «mübahisəli ərazilərin» əhalisi 10-30 faiz azaldı və bir sıra yaşayış məskənləri sözün hərfi mənasında yer üzündən silindi [3, 75-78]. 1918-1920-ci illərdə kütləvi qırğınlar gedişində bugünkü Ermənistan ərazisində yaşayan 575000 azərbaycanlıdan 565000-i öldürülmüş, yaxud da yurd-yuvalarından didərgin salınmışdı. Bu məlumatlar erməni müəllifləri tərəfindən də təsdiqlənir: «1920-ci ildə daşnaklardan sonra Sovet Ermənistanında türk (azərbaycanlı) əhali 10000 nəfərdən bir qədər çox idi. 1922-ci ildə 60000 qaçqının geri dönməsindən sonra azərbaycanlıların burada sayı 72596 nəfərə çatmışdı» [6, 300-306].

1920-ci ilin aprelin əvvəllərində Cənubi Qafqaz dövlətləri təmsilçilərinin sovetləşmə təhlükəsi qarşısında birgə müdafiə ilə əlaqədar Tiflisdə keçirilmiş konfransında ermənilər bildirmişdilər ki, onlar heç vaxt İrəvan quberniyası ərazisi ilə kifayətlənməyəcəklər və deməli, əməkdaşlıqdan imtina edirlər. Bu faktdan çıxış edərək, 1920-ci ilin yazında ermənilərin Qarabağda, Zəngəzurda, Qazaxda çıxışlarını, azərbaycanlıların Novruzu – Bahar bayramını qeyd etdikləri martın 22-də Şuşaya, daha sonra isə Əsgərana, Xankəndiyə hücumlarını, Zəngəzurda fəal əməliyyatlarını milli hökuməti devirmək və sovet hakimiyyətini qurmaq üçün İrəvanın və Moskvanın Azərbaycana və azərbaycanlılara qarşı sui-qəsdinin həlqələri hesab etmək olar.

Gətirilən faktlardan da göründüyü kimi, ermənilər öz şovinist məqsədlərinə çatmaqdan ötrü bütün mümkün vasitə və metodlara əl atmış, bu zaman beynəlxalq hüququn ümumi qəbul edilmiş normalarını pozmaqdan belə çəkinməmişdilər.

XX əsrin 40-90-cı illərində Ermənistanın Azərbaycan xalqına qarşı yeritdiyi deportasiya, etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinin ağır nəticələri hələ davam edəcəkdi.

1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı «Xarici ölkələrdən vətənləri Sovet Ermənistanına qayıdan milliyətcə erməni olan şəxslərin SSRİ vətəndaşlığı almaq qaydaları haqqında» adlı qərarın verilməsinə nail oldular [8, s.72-80; 637-656].

Azərbaycanlıların Ermənistan SSR ərazisindəki öz tarixi-etnik torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» adlı 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» adlı daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret

tədbirlər planı müəyyən olundu. Bu qərara görə 100 min nəfəri azərbaycanlı 1948-1950-ci illərdə: 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər «könüllülük prinsipinə əsasən» Azərbaycan SSR ərazilərinə köçürülməsi idi. Qeyd etmək lazımdır ki, o zaman Ermənistan SSR-də 400 mindən artıq azərbaycanlı yaşayırdı. SSRİ hökumətinin qərarı ilə 1948-ci ildə Ermənistan SSR-dən deportasiya edilənlərin sayı 10504, 1949-cu ildə 15713 nəfər, 1950-ci ildə 12332 nəfər, 1952-1953-cü illərdə 13760 nəfər, 1954-1956-cı illərdə isə 5876 nəfər olmuşdur. Ümumiyyətlə, Ermənistan SSR ərazisindən deportasiya və etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdi. Deportasiya tədbirləri Ermənistan SSR-in 22 rayonunu əhatə etmiş və əsasən, azərbaycanlıların ən qədim zamanlardan yaşadıqları ərazilərdə həyata keçirilmişdi [7, s.151-162].

1988-1989-cu illərdə Ermənistanın hərbi-ideoloji təcavüzünün güclənməsi nəticəsində deportasiya, etnik təmizləmə və soyqırıma məruz qalan azərbaycanlı əhali Azərbaycan SSR-ə pənah gətirdi və bu da öz növbəsində respublikada ictimai-siyasi sabitliyin gərginləşməsinə səbəb oldu. Mərkəzi hökumətin Azərbaycan xalqına qarşı yeritdiyi düşmən siyasəti nəticəsində genişlənən Ermənistanın hərbi təcavüzü onu milli azadlıq mübarizəsinə qaldırdı. 1990-cı il yanvarın 20-də SSRİ Prezidenti M.S.Qorbaçov ermənilərin ərazi iddialarına qarşı etiraz edən Azərbaycan xalqını cəzalandırmaq üçün Bakı şəhərinə SSRİ və Azərbaycan SSR-in Konstitusiyaları və respublikanın suveren hüquqları pozularaq qoşun yeridilməsi haqqında fərman verdi və Azərbaycan xalqına qarşı qanlı soyqırım cinayəti törədildi. SSRİ dövlətinin bu cinayətinə qarşı öz ilk etiraz səsini qaldıran görkəmli dövlət xadimi Heydər Əliyev oldu. O, 1990-cı il yanvarın 21-də Azərbaycan SSR-in Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gələrək SSRİ dövlətinin M.S.Qorbaçovu Azərbaycan xalqına qarşı törətdiyi soyqırım cinayətində ittiham etdi və onun bu etirazı bütün dünyada böyük əks-sədaya səbəb oldu. SSRİ dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətə etiraz olaraq Heydər Əliyev 1990-cı ilin iyulunda Sov.İKP sıralarını tərk etdiyini bəyan edərək Vətəni Azərbaycana qayıtdı. Respublika rəhbərliyi Heydər Əliyevin ölkənin siyasi mərkəzi olan Bakıda qalmaması üçün hər cür təxribatlara əl atdı və o terror aktı ilə hədələdi. Həyatı üçün real təhlükənin mövcud olduğunu hiss edən Heydər Əliyev Naxçıvan MR-na getməyə məcbur oldu. O, 1990-1993-cü illərdə ağır blokada şəraitində olan Azərbaycan Respublikası Naxçıvan MR-nın yaşaması, onun sərhədlərinin qorunması üçün mümkün olmayanı mümkün etdi. Heydər Əliyev 1991-ci ilin fevralında Azərbaycan Ali Sovetinin sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox sərt məzmunda məruzə ilə çıxış etdi və o zaman Azərbaycan dövlətinin problemin həlli ilə bağlı konkret tədbirlər proqramı olmadığını söylədi. Lakin onun irəli sürdüyü tədbirlər respublika rəhbərliyi tərəfindən qəbul edilmədiyi üçün çox qısa bir zaman ərzində Azərbaycan xalqına düşmən tərəfindən çox ağır zərbələr vuruldu. 1992-ci il fevralın ortalarında Ermənistanın hərbi quldur dəstələri növbəti dəfə Xocavənd rayonunun Qaradağlı kəndinə güclü hücuma keçdilər. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra erməni quldurları Qaradağlı kəndini ələ keçirərək onun 92 müdafiəçisini və 54 sakinini vəhşicəsinə qətlə yetirərək onları silos quyularına atdılar. Qalan əhali isə əsir alındı. Təcavüzkar Ermənistan «dövləti» Azərbaycan Respublikasına qarşı qanlı terror aksiyalarını daha da genişləndirdi. 1992-ci il yanvarın 8-də «Krasnovodsk-Bakı» dəniz sərnişin bərəsində belə bir terror aktı nəticəsində 25 nəfər həlak oldu. 88 nəfər ağır yaralandı. Həmin il fevralın 28-də Qudermes stansiyası yaxınlığında «Kislovodsk-Bakı» sərnişin qatarının partladılması zamanı 11 nəfər həlak oldu, 18 nəfər yaralandı. Təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ermənilər tərəfindən Azərbaycan Respublikasına məxsus dəmir yolunəqliyyatı sistemində 1989-cu il iyulun 14-dən 1994-cü il mayın 7-dək 206 terror aktı həyata keçirilmişdi [7, s.151-162].

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Abışov V.Ş. 1917-1918-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqırım siyasəti. Tarix üzrə fəlsəfə doktoru. Bakı, 2007.
2. Babayev L.S. Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd mühafizəsi tarixi (1918-1920-ci illər ). Tarix üzrə fəlsəfə doktoru. Bakı, 2007.
3. Əlizadə M.C. Azərbaycanda türk-müsəlman soyqırımını öyrənmək üçün mənbələr (1918-1920-ci illər ). Tarix üzrə fəlsəfə doktoru. Bakı, 2007.
4. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 408 s.

5. «Aşxadavor» («Əməkçi»), 1919, 2 noyabr, №231.
6. Коркодян З. Население Советской Армении. 1831-1931 гг.
7. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları // AMEA A.A.Bakıxanov adına tarix İnstitutu və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun birgə layihəsi. Bakı, 2016. Xəritələr, s. 393-394.
8. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Bakı, 2013.

## THE 1918 YEAR'S GENOCIDE AGAINST THE AZERBAIJANI PEOPLE IS ONE OF THE GREATEST CRIMES IN THE HISTORY OF MANKIND
## SUMMARY

Genocide of Azerbaijanis was carried out in a number of regions and cities were destroyed by Armenian armed detachments. The genocide and deportation committed by Armenians against Azerbaijanis which has begun in the past century and continues to this day manifests itself with regard to the settlement of the Nagorno-Karabakh conflict. After gaining independence, the Republic of Azerbaijan have the opportunity to create an objective picture of the past history of our nation that has been kept secret for many years, the banned truths is being revealed, the distorted events get their real assessment. As the result of adventurous actions began by nationalists and separatists Armenians in Nagorno-Karabakh today more than one million Azerbaijanis have been driven out.

## ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ ГЕНОЦИДА ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В XX ВЕКЕ
## РЕЗЮМЕ

Статья посвященная изучению вопроса исторической географии геноцида против азербайджанского народа в XX веке.

Этническая чистка и депортация против азербайджанцев, совершенные армянами в XX веке являются актуальной проблемой для исторической науки Азербайджана. После восстановления Азербайджаном государственной независимости, стало возможным создание объективной картины исторического прошлого нашего народа. В статье впервые освещается историческая география преступления армян-геноцид против азербайджанского народа.

*Д.ф.п.и.* **Ламия КАФАР-ЗАДЕ**
*Старший научный сотрудник*
*Института Истории НАНА.*

# МЕМОРИАЛЬНЫЙ МУЗЕЙ ГЕНОЦИДА КАК НАГЛЯДНОЕ ДОКАЗАТЕЛЬСТВО ЦЕЛЕНАПРАВЛЕННОГО ИСТРЕБЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА АРМЯНСКИМИ НАЦИОНАЛИСТАМИ

**Açar sözlər:** Soyqırım Muzeyi, Azərbaycan, Azərbaycan xalqının soyqırımı, kütləvi qırğın, Xocalı soyqırımı, erməni cəlladları.

**Keywords:** Genocide Museum, Azerbaijan, genocide of Azerbaijani people, Khojaly genocide, mass massacre, Armenian butchers.

**Ключевые слова:** Музей геноцида, Азербайджан, геноцид азербайджанского народа, Ходжалинский геноцид, массовая резня, армянские палачи.

На протяжении последних 200 лет азербайджанский народ целенаправленно подвергался насильственным депортациям, этническим чисткам, геноцидам, совершаемым армянскими националистами с неимоверной жестокостью. Кровавые события 1905-1906 гг., мартовский геноцид 1918 г., депортация азербайджанцев в 1948-1953 гг. из исконно азербайджанских земель, на которых была создана Армянская ССР, массовая этническая чистка 80-х гг. XX в. с целью создания моноэтнического армянского государства, Ходжалинский геноцид 26 февраля 1992 г., неразрешенный армяно-азербайджанский нагорно-гарабагский конфликт и оккупация 20% азербайджанских земель как результат необоснованных территориальных претензий армян – всё это лишь та небольшая часть ужаса и страданий, через которые, к сожалению, пришлось пройти азербайджанскому народу [подробнее об этом см.: 1; 2; 3; 4].

За последние десятки лет отечественные исследователи проделали кропотливую работу, предоставив гласности ценные архивные материалы, а также материалы периодической печати, доступ к которым ранее, при советской власти, был закрыт. Сегодня одним из приоритетных направлений исторической науки Азербайджана является воссоздание объективной исторической картины произошедших событий.

Сегодня Азербайджан является сильным независимым государством с большим экономическим потенциалом, который оказывает влияние на ход и развитие событий не только регионального, но и мирового уровня. Как известно, с целью доведения до мировой общественности всей правды о зверствах армян в отношении азербайджанского народа правительством Азербайджанской Республики был претворен в жизнь ряд мероприятий. Среди основных из них можно указать:

- Постановление Милли Меджлиса «О дне Ходжалинского геноцида», принятого по инициативе общенационального лидера Гейдара Алиева 24 февраля 1994 г., согласно которому каждый год 26 февраля отмечается как День Ходжалинского геноцида;
- Распоряжение общенационального лидера Гейдара Алиева «Об объявлении минуты молчания в память о жертвах Ходжалинского геноцида», подписанное 25 февраля 1997 г., согласно которому ежегодно в нашей стране 26 февраля в 17.00 минутой молчания чтут память жертв Ходжалинского геноцида;
- Указ общенационального лидера Гейдара Алиева «О геноциде азербайджанцев» от 26 марта 1998 г., по которому 31 марта был объявлен Днем геноцида азербайджанцев;
- Распоряжение Ильхама Алиева от 30 декабря 2009 г. о создании «Мемориального комплекса геноцида» в Губе, где было найдено массовое захоронение жертв армянской агрессии начала XX века;
- Агитационная деятельность азербайджанских диаспор за рубежом по доведению до мировой общественности правды о нагорно-карабахском конфликте, в особенности о геноциде в Ходжалы, политике этнической чистки армянских националистов;
- Общенародное шествие в Баку по случаю 20-летия Ходжалинского геноцида, организованного 26 февраля 2012 г. по инициативе Президента АР Ильхама Алиева;

- Международная кампания «Справедливость Ходжалам», начатая по инициативе вице-президента Фонда Гейдара Алиева Лейлы Алиевой и направленная на признание трагедии в Ходжалы как акта геноцида против азербайджанского народа;
- Распоряжение Президента Азербайджанской Республики Ильхама Алиева от 24 января 2017 г. о двадцать пятой годовщине Ходжалинского геноцида.

Создание Музея геноцида было потребностью времени. 19 июля 2013 г. генеральный прокурор АР Закир Гаралов подписал указ о создании Музея геноцида в Военной Прокуратуре Азербайджанской Республики. С этой целью была создана специальная рабочая группа, благодаря усилиям которой за короткое время были собраны важные исторические документы, ценные факты и материалы следствия, которые и стали основой для создания данного музея. Музей посвящен памяти десятков тысяч азербайджанцев, погибших в результате массовой резни и геноцидов, совершенных армяно-большевистскими вооруженными отрядами на территории Азербайджана начиная с начала XX в. Открытие музея состоялось 24 февраля 2017 г. в административном здании Военной Прокуратуры. Закир Гаралов открытие данного музея охарактеризовал как историческое событие [6].

Как указал Военный Прокурор Азербайджанской Республики заслуженный юрист Ханлар Велиев, основной целью создания Музея геноцида является не только наглядно донести до будущего поколения историческую правду совершенного армянами в XX в. геноцида азербайджанского народа, но и усилить его пропаганду в обществе [5].

В качестве основных задач деятельности данного музея выдвинуты:

- Доведение до общественности всей правды о геноциде посредством идеологического воздействия комплекса изобразительных, эмоциональных и психологических средств на мышление и чувства человека;
- Охрана и передача молодому поколению важных документов расследования, фото и видеоматериалов и личных предметов жертв геноцида, являющегося одной из кровавых страниц истории Азербайджана [7, с. 15].

Музей геноцида планирует построить свою научную деятельность по нижеприведенным концептуальным направлениям:

- Активно участвовать в формировании музейной политики государства;
- Применение новых принципов и технологий в музейном деле;
- Формирование у музея имиджа информационного центра;
- Формирование государственной и общественной поддержки для реализации концепции;
- Организация экспозиций и выставок в музее;
- Построение отношений со средними и высшими учебными заведениями, молодежными организациями с целью пропаганды истории геноцида в образовательных учреждениях;
- Проведение научных конференций, симпозиумов, семинаров на тему музейного дела, государственных символов, культуры;
- Проведение научно-исследовательских и издательских дел на основе материалов расследования геноцида;
- Изучение охраняемых в фонде музея материалов в качестве источника для научных исследований [7, с. 15].

Музей, площадь которого составляет 320 кв.м., состоит из 4 отделов: исторический отдел, отдел депортаций-репрессий, отдел геноцида и отдел террора.

Уже в фойе музея царит атмосфера скорби и печали от пережитого горя. При входе в музей на стенах размещены картины художника Станислава Штатикова. Особое внимание привлекает картина «Крик Ходжалы», наглядно демонстрирующая весь ужас пережитых азербайджанским народом дней. Напротив также размещена большая фотокартина, иллюстрирующая общенародное шествие более 100 тысяч человек во главе с Президентом Азербайджанской Республики Ильхамом Алиевым по направлению к памятнику жертвам Ходжалинского

геноцида в центре города Баку «Крик матери», организованное 26 февраля 2012 г. по случаю 20-летия Ходжалинского геноцида. Данная композиция картин показывает, что, несмотря на то, что прошло 25 лет, народ не забыл и никогда не забудет ужас тех кровавых дней [7, с. 10].

Кроме того, в музее представлены неопровержимые доказательства зверств, учиненных армянами в Губинском, Джавадском, Гейчайском, Шемахинском и Бакинском уездах. Демонстрируются материалы Чрезвычайной Следственной Комиссии, созданной правительством АДР с целью расследования резни, совершенной армянскими палачами, и определения масштаба нанесенного населению ущерба, копии рукописей Гюлистанского и Тюркманчайского договоров, заключенные между Российской империей и Каджарским Ираном, в результате которых Азербайджан был поделен на две части и впоследствии сюда были переселены армяне, композиция «Этап депортации и выселения политики этнической чистки и геноцида в отношении азербайджанского народа», фотографии и материалы уголовных дел, возбужденных в отношении представителей азербайджанской интеллигенции, государственных деятелей, ставших жертвами советских репрессии 1930-х гг., таких как, к примеру, Ахмед Джавад, Микаил Мушвиг, Салман Мумтаз, Гусейн Джавид и др., а также официальные документы и фотографии, на которых запечатлены моменты депортации азербайджанцев из своих же исторических земель в Армении в 1948-1953, 1980-х годах.

В отделе геноцида и террора музея размещен макет масштабом 1:7500, фотографии и другие экспонаты, свидетельствующие о совместном нападении армянских вооруженных соединений и 366-й дивизии бывшей советской армии в ночь на 26 февраля 1992 г. на Ходжалы и прилегающие территории. Причем, на макете в соответствии с материалами первичного расследования, проведенного Военной Прокуратурой Азербайджанской Республики в Ходжалы, указаны места дислокации армянских вооруженных соединений и 366-й дивизии советской армии, а также места расположения трупов убитых ими с особой жестокостью мирных азербайджанцев. Также в этом отделе размещены и копии томов уголовного дела, начатого Военной Прокуратурой АР, протоколов осмотра мест происшествий, различные предметы, подтверждающие зверства армянских насильников, копии отзывов экспертов и свидетельства очевидцев, фотографии изувеченных трупов жертв тех событий, а также отдельные предметы, свидетельствующие о зверствах, учиненных в Ходжалы, Мешели, Гарадаглы, Баганис Айрым и других населенных пунктах. Среди экспонатов также имеются личные вещи и фотографии азербайджанских семей, полностью истреблённых армянскими палачами. Особое внимание привлекает экспозиция из фотографий, верхней одежды, недотканного ковра и других личных вещей семьи Новрузовых, все пять членов которой были зверски убиты во время резни, устроенной армянами в селе Мешели [7, с. 11]. А фотографии изуродованного армянскими фашистами тела 5-летней девочки из Ходжалы наводят ужас на смотрящего. Результаты судебно-медицинской экспертизы выявили, что на теле девочки имелись травматические ампутации конечностей, череп был вдребезги разбит и были получены 17 сквозных огнестрельных ранений, причем, выстрелы были сделаны с очень близкого расстояния, что в свою очередь доказывает намеренное убийство ни в чем неповинного и безоружного ребенка. Фотографии же убитых армянами с особой жестокостью в селе Баллыгая Горанбойского района пастухов вместе с их семьями (24 чел.) в очередной раз подтверждает кровожадность армянских националистов.

В музее хранятся взятые с мест происшествия остатки, экземпляры взрывных устройств и гильзы пуль, использованных армянскими террористами против мирного населения Азербайджана.

Фотографии разрушенных культурно-исторических мест Гарабага, древней мечети в Шемахе, здания Исмаилиййе и минарета Тазапира в Баку, обстрелянного из пушек в 1918 г., и т.д. свидетельствуют не только о кровопролитии, но и вандализме армян, желающих полностью стереть с лица земли азербайджанский народ.

В музее геноцида также имеется фонд, состоящий из большого количества книг на различных языках мира, авторами которых являются как отечественные, так и зарубежные исследователи, освещающие историю террора, репрессий, геноцидов, политики этнической чистки, целенаправленно и планомерно проводимых в отношении азербайджанцев.

Кроме того, в музее установлены сенсорные мониторы, предоставляющие посетителям информацию о совершенных в отношении азербайджанцев геноцидах на нескольких языках мира.

К тому же, в музее создан специальный уголок, демонстрирующий все проделанные дела и указы, подписанные общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым и Президентом Азербайджанской Республики Ильхамом Алиевым по доведению до внимания мировой общественности всей правды о политике геноцида азербайджанцев, учиненного армянами.

16 и 21 февраля 2017 г. в Президентской библиотеке Управления Делами Президента Азербайджанской Республики и Национальной Библиотеке Азербайджана имени М.Ф.Ахундова соответственно с участием видных ученых, сотрудников Военной Прокуратуры и депутатов Милли Меджлиса Азербайджана были проведены презентации книги-альбома «Музей геноцида» («Soyqırım Muzeyi»), а также показан документальный фильм «Трагедия века» («Əsrin faciəsi»). Отметим, что книга-альбом «Музей геноцида» является результатом совместного труда Военной Прокуратуры Азербайджанской Республики и Института Истории имени А.А.Бакиханова НАНА. Напомним, что это не первый совместный проект Института Истории и Военной Прокуратуры: в 2016 г. в результате совместных усилий была издана книга «Геноциды 1918 года против азербайджанского народа» ("Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları"). В книге «Музей геноцида» не только говорится об основных целях, задачах, направлениях работы музея, приведены многочисленные фотографии-доказательства геноцида азербайджанского народа, но и, что наиболее принципиально, подробно дана история всех зверств, этнических чисток, депортаций и геноцидов в отношении мирного азербайджанского населения, совершенных армяно-большевистскими силами.

К слову, директор Института Истории член-корреспондент НАНА Я.М.Махмудов, говоря об основных направлениях научно-исследовательской деятельности института, отметил, что геноциды тюрко-мусульманского населения Азербайджана и Восточной Анатолии в 1914-1918 гг., совершенные террористическо-экстремистскими организациями армян при активной помощи великих держав, являются самыми ужасными геноцидами в мировой истории [5].

Создание и деятельность Мемориального музея геноцида не только преследует цель добиться должной объективной политико-правовой оценки Мартовского и Ходжалинского геноцидов и оккупации Арменией исконно азербайджанских земель на международном уровне, восстановления исторической и правовой справедливости, но, что немаловажно – внести тем самым вклад в борьбу с подобными зверствами и в отношении других народов.

Итак, экспонаты, хранящиеся сегодня в Музее геноцида, не только показывают всю масштабность бесчеловечия, зверств армяно-дашнакских формирований в отношении азербайджанского мирного населения, актов вандализма, но и доказывают, что геноцид азербайджанского народа действительно имел место быть, и вовсе не является, как утверждают некоторые «ученые» и политики, выдвинутой Гейдаром Алиевым политически эффективной концепцией «геноцида азербайджанцев» и результатом азербайджанской этнонационалистической историографии, представляющей азербайджанцев в качестве «жертвы» перед общественным мнением Европы и США. Создание Музея геноцида было продиктовано необходимостью довести до мировой общественности того, что азербайджанский народ подвергался геноциду, террору, депортациям именно из-за желания армян захватить азербайджанские земли и создать здесь свое государство «Великую Армению».

## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА


1. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları / Elmi redaktor: Y.Mahmudov. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 408 s.
2. Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи / Научный ред.: Я.Махмудов. Баку: Турхан, 2013, 272 с.
3. Исторические факты о деяниях армян на азербайджанской земле / Научный редактор: Я.Махмудов. Баку: Təhsil, 2009, 429 с.
4. Mahmudov Y.M. Real tarix və "Böyük Ermənistan" uydurması. Bakı: Turxan NPB, 2014, 144 s.

5. Prezident Kitabxanasında "Soyqırım Muzeyi" kitabı təqdim edilib // URL: http://www.azerbaijan-news.az/index.php?mod=3&id=116023
6. Respublika Hərbi Prokurorluğunda Memorial Soyqırım Muzeyi açılmışdır // URL: http://azertag.az/xeber/Respublika_Herbi_Prokurorlugunda_Memorial_Soyqirimi_Muzeyi_achilmisdir-55271
7. Soyqırım Muzeyi / Layihə müəllifləri: Vəliyev X., Mahmudov Y. Bakı: Hərbi Nəşriyyatın Mətbəəsi, 2017, 152 s.

## MEMORİAL SOYQIRIM MUZEYİ ERMƏNİ MİLLƏTÇİLƏRİNİN AZƏRBAYCAN XALQININ MƏQSƏDYÖNLÜ MƏHVETMƏSİNİN ƏYANİ SÜBUTU KİMİ
## XÜLASƏ

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun nəzdində Memorial Soyqırım Muzeyinin yaradılması və fəaliyyətinin əsas məqsədi son iki əsr ərzində "Böyük Ermənistan" yaratmaq məqsədi ilə erməni millətçiləri tərəfindən törədilmiş Azərbaycan xalqının soyqırımları, deportasiyaları, etnik təmizləmələrinin obyekti olduğunu yalnız sübut etmək yox, həmçinin bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaqdır.

## THE MEMORIAL MUSEUM OF GENOCIDE AS THE OBVIOUS PROOF OF THE PURPOSEFUL EXTERMINATION OF AZERBAIJANI PEOPLE BY ARMENIAN NATIONALISTS
## SUMMARY

The main aim of the creation and function of the Memorial Museum of Genocide in the Military Prosecutor's Office of the Republic of Azerbaijan is not only to prove but at the same time to inform the world community that within last two centuries Azerbaijani people became the object of genocide, deportations, ethnic cleansing committed by Armenian nationalists in order to create their "Greater Armenia".

*T.ü.f.d., dos.* **Sara HACIYEVA**
*AMEA Naxçıvan Bölməsi*

# ORTA ƏSR AT, QOÇ VƏ QOYUN HEYKƏLLİ QƏBİRÜSTÜ ABİDƏLƏRƏ ERMƏNİ İDDİALARI

**Açar sözlər:** Qəbir daşları, at, qoç, qoyun, erməni iddiaları
**Keywords:** Grave stones, horse, ram, sheep, Armenian claimы
**Ключевые слова:** Могильные камни, конь, баран, овца, армянские претензии

Qədim zamanlardan türk xalqları dünyasını dəyişən insanların ruhunun əbədi yaşayacağına inanmış, dəfn olunan bəzi insanların məzarlarının üstünə onların bu dünyada istifadə etdikləri əşyaları qoymuş və məzarlarını simvolik məna daşıyan motiflərlə bəzəmişlər. Bu abidələr qədim dövrlərdə daşdan yonulmuş insan formasında, daha sonra isə at, qoç, qoyun fiqurları, başdaşılar, sənduqələr şəklində qarşımıza çıxmaqdadır.

Naxçıvan MR ərazisində bu tip məzarüstü abidələrə çox sayda rast gəlmək mümkündür. At, qoç və qoyun heykəlli məzar daşlarına Azərbaycan torpaqlarından başqa, Türkiyə, Cənubi Azərbaycan (İran), Gürcüstan (Azərbaycanlılar yaşayan bölgələrdə), tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan bölgəsində də rast gəlinir. Lakin ermənilər keçən əsrin ortalarından bölgəmizdəki orta əsr qəbirüstü xatirə abidələrini, xüsusilə daşdan yonulmuş qoç və qoyun fiqurlarını özününküləşdirməyə çalışaraq, üzərlərindəki azərbaycanlılara aid yazı və təsvirləri pozaraq, yerinə özlərinə məxsus yazı və təsvirlər çəkmişlər.

Tarixi mənbələr və aparılan tədqiqat işlərindən aydın olur ki, qədim dövrlərdən bəri türklər ölən şəxslərin ruhunun əbədi yaşayacağına inanmış və dəfn olunan rütbəli şəxslərin, ailələrinin, sərkərdələrin və b. məzarları üstünə daşdan xatirə abidəsi qoydurmuşlar. Bu adət uzunmüddətli inkişaf mərhələsi keçərək orta əsrlərdə də davam etmiş, hətta bu dövrdə geniş yayılmışdır.

Abidələr ilk dövrlərdə insan silueti formasında, daha sonra isə at, qoç, qoyun fiqurları, başdaşılar, sənduqələr formasında düzəldilmişdir. Tədqiqatçıların verdiyi məlumata görə qəbirüstü xatirə abidələrinin ən qədimi Menhir adlanır. Menhir tipli daşlar ilk insan heykəlləri hesab edilir. Menhirlər ilə digər qədim türk heykəllərinin ideoloji əsası eynidir. Hər ikisi animistik təsəvvürə görə, insan öləndən sonra onun ruhunun əbədi yaşayacağı təsəvvürünə əsaslanır. Menhirlər və daş heykəllər xalqımızın ən qədim memorial abidələrindəndir (11, s. 12)

Aparılan tədqiqatlardan və əldə olunan ədəbiyyat materiallarından aydınlaşdırmaq olur ki, məzarüstü abidələr insan tipli heykəlciklərdən sonra at, qoç və qoyun heykəlləri formasında düzəldilmişdir. Lakin at heykəli formasında məzar daşı bu ərazidə tarixən mövcud olsa da, günümüzədək gəlib çatmamışdır. Naxçıvan bölgəsindən fərqli olaraq Azərbaycan Respublikasının Kəlbəcər, Laçın, Qazax, Gəncə və b. ərazilərində qəbirlərin üstünə qoyulmuş at heykəlləri çoxlu sayda qeydə alınmışdır (3, s. 16-19). Akademik R.Əfəndininin tədqiqatlarında bu haqda fotoşəkillərlə birlikdə məlumatlar verilmişdir (2, s. 71, 93).

At heykəli formasında qəbirüstü daşlardan fərqli olaraq Naxçıvan MR ərazisində qoç və qoyun heykəlli məzarüstü abidələrə daha çox sayda rast gəlinir. Bu tip məzar daşlarına demək olar ki, Türklər yaşayan bütün bölgələrdə rast gəlmək mümkündür. Türkiyə, Cənubi Azərbaycan, Gürcüstan (Azərbaycanlılar yaşayan ərazilərdə), tarixi Azərbaycan ərazisi olan İrəvan mahalında və s. bölgələrdə bu tip qəbirüstü abidələr mövcuddur. Ermənilər tarixən Azərbaycan ərazisi olan İrəvan şəhəri və Qərbi Azərbaycanın digər yerlərindəki bu tip abidələri özlərininki kimi qələmə verirlər. Lakin onlar bu torpaqların tarixi Azərbaycan ərazisi olduğunu unutmamalıdırlar.

Qədim türklərin qəbirlər üzərinə daşdan yonulmuş at fiqurunun qoydurulması bir çox mənalarla izah edilə bilər. Belə ki, hələ ən qədim dövrlərdən ilk əhliləşdirilən heyvanlardan biri hesab edilən at xalqımız arasında həmişə insanın şərəfi, qəhrəmanlığı və qələbəsinin rəmzi olduğu halda, atsızlıq zəifliyin məğlubiyyətin ifadəsi olmuşdur. Eyni zamanda qədim türklər ata xüsusi mülkiyyət rəmzi kimi baxmış, onu həm bu dünyada, həm də axirət dünyasında özlərinin sadiq xidmətçisi hesab etmişlər. At fiqurları ilə yanaşı qəbirüstü məzar daşları üzərində at rəsmlərinə də tez-tez rast gəlinir. Bu təsvirlər yəhərli, yüyənli, tam təchizatlı təsvir olunmuşdur.

Qədim dövr insanları dəfn olunan yaxınlarının qəbirləri üzərinə ilk əvvəllər at fiqurlu heykəllər qoydurmağa üstünlük vermişlərsə də, daha sonralar bu adət qoç fiqurlarının qoydurulması adəti ilə davam etdirilmişdir.

Mənbələrin verdiyi məlumata görə, məzarların üstünə qoç və qoyun formalı abidələrin qoyulması türk tayfalarının təsərrüfat həyatı, məşğuliyyətilə də bağlı olmuşdur. Bu səbəbdən də islam dini belə heykəllərin son orta əsrlərdə düzəldilməsinə o qədər də mane olmamışdır. Azərbaycanda, o cümlədən də digər türk xalqları yaşayan ərazilərdə son orta əsrlər dövründə at, qoç, qoyun formalı qəbirüstü abidələrin qoyulması adəti yenidən davam etdirilmişdir.

Toplanmış materiallardan məlum olur ki, at və qoç bütün türk xalqlarının, o cümlədən azərbaycanlıların dini dünyagörüşündə müqəddəs hesab edilmişdir. Müxtəlif formada hazırlanan bu tip məzar daşları üzərində çoxlu təsvirlər və yazılar da həkk edilirdi.

Müşahidələr və ədəbiyyat materialları göstərir ki, bu fiqurlara xalqımız arasında böyüк inam vardır. Bu cür inam tərzlərinin izlərinə arxeoloji qazıntılarda da rast gəlinmişdir. Ordubad rayonu ərazisində tədqiq edilmiş Muncuqlutəpə nekropolundakı bir qəbirdə gildən düzəldilmiş qoyun fiquru tapılmışdır (7, s. 90-93). Naxçıvan ərazisində Erkən Tunc dövrünə aid gil heyvan fiqurları I Kültəpədən (6, s. 7) və I Maxta yaşayış yerindən (1, s. 71) aşkar edilmişdir. Tunc dövründə qoç simvoluna təkcə gil fiqurlarda deyil, eyni zamanda naxışlarda və daş zoomorf fiqurlarda, ocaq qurğularında da rast gəlinir. Bu cür faktlar sübut edir ki, Erkən Tunc dövründə qoç inamı insanların ideoloji dünyagörüşündə xüsusi yer tutmuşdur. Təsadüfi deyildir ki, Erkən Tunc dövründə Azərbaycan ərazisində ev heyvanlarının qurban verilməsi faktı da məlumdur (8. s, 34

Qoç fiqurlarının nişan daşları kimi istifadə olunmasını qoçun igidlik, mərdlik, qoçaqlıq simvolu ilə əlaqələndirmək də olar. Bundan əlavə qoyunun, qoçun müqəddəsləşdirilməsinin əsas səbəblərindən biri də onun təsərrüfatda tutduğu mövqe ilə bağlıdır. Bununla yanaşı, qoyun həm də qurbanlıq heyvan hesab olunur. Qurban kəsmə adətinin Azərbaycanda və digər türk tayfaları arasında geniş yayıldığı məlumdur. Qurban kəsmə ilə yanaşı atın, qoyunun, qoçun ayrıca qəbirdə dəfn olunduğu faktları da vardır (4, s. 130-134). Qaynaqların verdiyi məlumata görə, islamdan öncə bir çox qəbilələr həyatlarında mühüm rol oynayan bəzi heyvanları müqəddəsləşdirmiş, totem kimi qəbul etmiş və onun simvolik heykəlini düzəldərək məzarlar üstünə qoymuşlar. Ən qədim dövrlərdə qəbilələr müqəddəs saydıqları müxtəlif heyvanların himayəsinə sığınır, çətinliyə düşəndə onlardan nicat diləyirdirlər. Odur ki, heyvan təsvirlərinin çoxu belə müqəddəs totemlərin rəsmlərindən ibarət olmuşdur (10, s. 7).

İslam dini meydana gəldikdən sonra bu cür heykəllərin qoyulmasına qadağalar qoyulmuşdur. Lakin müəyyən zaman keçdikdən sonra insanlar islami etiqadlara böyük hörmətlə yanaşmaları ilə bərabər tarixi keçmişlərini özündə əks etdirən sənət əsərlərini də yaratmağa başlamışlar.

Məlum olduğu kimi tarixdə belə bir yazılmamış qanun vardır ki, sonradan meydana gələn hər hansı bir mədəniyyət insanların düşüncəsində minilliklərlə kök salıb yaşayan adət-ənənələri birdən-birə silib ata bilmir. Əksinə, əvvəlki mədəni irslə sonradan qazanılan nailiyyətlər birləşir və böyük bir mədəniyyətin yaranmasına səbəb olur. Məhz elə bu cür qanunauyğunluqlardan irəli gələrək ən qədim dövrlərdən başlayaraq davam edən və daha sonrakı dövrlərdə isə demək olar ki, dövrün tələblərinə uyğun olaraq qadağan edilən məzarüstü daşların qoyulması adəti yenidən dirçəlmiş və geniş ərazilərə yayılmışdır. Qədim türk adətləri ilə əlaqəli olan məzarüstü qoç, qoyun heykəlli məzar daşlarının düzəldilməsi, əsasən, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri zamanı daha da geniş miqyas almışdır. Anadoludakı məzarüstü qoç və qoyun heykəllərinin qoyulması adətini, əsasən, Azərbaycan Qaraqoyunlularla Ağqoyunlulara aid abidələr kimi qəbul edirlər. Lakin burada diqqəti cəlb edən məsələlərdən biri də budur ki, qoyun və at şəklindəki məzar heykəllərinin qoydurulması adəti, istər Anadoluda, istərsə də Qafqazda Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən sonrakı dövrlərdə davam etdirilmişdir (9, s. 29) Yəni bu adət hələ ən qədim dövrlərdən türklərin mədəniyyət nümunələrində görünmüş və son orta əsrlər dövrünə qədər davam etmiş və geniş bir ərazini əhatə etmişdir.

Bu abidələr üzərində orta əsrlər dövründə xalqın əsas dini ideologiyası olan islam dini ilə bağlı yazı və təsvirlərə də xüsusi yer ayrılmışdır. Belə ki, xatirə tipli bu heykəllər və onlar üzərindəki təsvirlər türk mədəniyyətindən qaynaqlansada, abidələr üzərində həkk olunan yazıların bir hissəsi islam dininin müqqəddəs kitabı olan «Qurani-Kərim»dən götürülmüş bəzi ayələrdən və başqa dini xarakterli kəlamlardan ibarətdir. Deməli, orta əsr xatirə abidələri və onlar üzərindəki təsvirlər böyük türk mədəniyyəti ilə islam fəlsəfi düşüncəsinin sintezindən yaranmış sənət əsərləridir.

Lakin bir çox islam alimlərinin bu abidələrin düzəldilməsində kəskin mövqe tutması, abidələrə ikili münasibətin yaranmasına gətirib çıxarmışdır. Bu baxımdan tarixin bəzi dönəmlərində xatirə abidələri heç də həmişə bir mənalı qəbul edilməmişdir. Ehtimal etmək olar ki, xalq arasında islam alimlərinin təfsirlərinə və şəriət qanunlarına daha ciddi əməl edən insanlar bu abidələrin düzəldilməsinə mənfi münasibət göstərmiş və bu cür münasibətlərin məntiqi davamı olaraq abidələrə qarşı müəyyən laqeydliklər olmuşdur. Belə soyuq münasibətdən məharətlə istifadə edən mənfur erməni millətçiləri isə onları özününküləşdirməyə çalışmış və tarix-mədəniyyət abidələrimizin gözəl nümunələri olan qoç və qoyun heykəllərini oğurlayaraq indiki Ermənistan ərazisinə aparmış və ya apara bilmədikləri halda isə xalq arasında belə bir şayiyənin yayılmasına nail olmuşlar ki, qəbir daşları içərisində dəfinə gizlədilmişdir. Bu isə bir sıra məzar daşlarının bəzi insanlar tərəfindən dağıdılmasına səbəb olmuşdur.

Lakin ermənilər bu abidələri özününküləşdirmək istəsələr də, onların bu iddiasının heç bir əsası yoxdur. Çünki, tarixi mənbə kimi böyük əhəmiyyətə malik olan mədəni abidələrimiz, onlar üzərindəki yazı və bədii təsvirlərin əsaslı tədqiqi saxtakar erməni alimlərinə bu abidələrin onlara məxsus olmadığını göstərir. (5, s. 158).

Qədim qayaüstü təsvirlər, orta əsr xatirə abidələri onlar üzərindəki kitabələr və təsvirlər tədqiq edilib aşkarlandıqca hiyləgər erməni alimlərinin torpaqlarımızı və mədəniyyət abidələrimizi mənimsəmək iddiası da puça çıxır.

Erməni alimləri heç bir qaynağa söykənmədən dünya ictimaiyyətini XX yüzilliyin əvvəllərində Naxçıvanda 27-30 min erməni abidəsi olmasına inandırmağa çalışırlar və bu abidələrin böyük bir hissəsinin qəbirüstü xatirə abidələri olduğunu iddia edirlər. Ona görə də Naxçıvan bölgəsindəki tarix-mədəniyyət abidələrinin, o cümlədən qəbirüstü xatirə abidələrinin (başdaşıların, sənduqələrin, daş qoç fiqurlarının və s.) tamamilə öyrənilərək xalqa çatdırılması çox vacibdir (5, s. 4).

Qeyd etmək lazımdır ki, qəbirüstü xatirə abidələri onların üzərində həkk olunmuş müxtəlif xarakterli təsvirlər hər bir xalqın torpağa vurduğu möhürdür. Bu abidələr tarix və mədəniyyətimizin təhrif olunmamış, obyektiv mənbələri kimi yerləşdikləri ərazinin hansı xalqa, başqa sözlə desək Azərbaycan türklərinə məxsus olduğunu təkzib olunmaz şəkildə sübut edən qaynaqlardır. Ona görə ermənilər keçən yüzilliyin ortalarında bölgəmizdəki orta əsr qəbirüstü xatirə abidələrini, xüsusilə daşdan hazırlanmış qoç və qoyun fiqurlarını oğurlayaraq indiki Ermənistana aparıb şəhərlərin küçə və meydanlarına düzərək nümayiş etdirməzdən əvvəl onların üzərindəki azərbaycanlılara məxsus kitabə və təsvirləri pozmuş, yerinə özlərinə məxsus kitabə və təsvirlər həkk etmişlər.

Artıq bu sahədə dövlət səviyyəsində bir sıra addımlar atılmışdır. Material toplanarkən Muxtar Respublika ərazisində bir ədəd də olsun erməni mənşəli abidəyə təsadüf olunmamışdır. Əməkdaşlarımız həmin vaxt bölgənin toponimik vahidləri ilə də maraqlanmış, heç bir erməni mənşəli yer adına rast gəlməmişlər. Ölkəmizə erməni iddalarının əsassızlığını sübuta yetirmək üçün aparılan elmi-tədqiqat işlərinin, nəşr olunan elmi nəşrlərin əhəmiyyəti çox böyükdür.

Ermənilərin saxta niyyətlərinin qarşısını almaq və ifşa etmək üçün ərazimizdə olan bütün abidələrin, o cümlədən də məzarüstü xatirə abidələrinin, onlar üzərindəki müxtəlif xarakterli təsvirlərin yubanmadan, hərtərəfli, dərindən və obyektiv araşdırılması, onların ermənilərlə heç bir əlaqəsinin olmamasının sübut edilməsi və beynəlxalq ictimaiyyətə çatdırılması tarixi bir zərurətə çevrilmişdir.

Nəticə olaraq qeyd etmək olar ki, məzarüstü abidələrdə heyvan şəkilli heykəllərin qoyulması və həmin abidələr üzərində bəzi heyvan təsvirlərin işlənməsi qədimdən türk xalqlarına məxsus olan bir adət olmuşdur. Türklər İslam dinini qəbul etdikdən sonra təssərrüfat və məişət həyatlarında eləcə də mifoloji düşüncə tərzlərində önəmli rol oynayan bir sıra heyvan tipli mədəniyyət nümunələrini unutmamış, əksinə düzəltdikləri sənət əsərlərində, o cümlədən də məzarüstü abidələrdə bunu davam etdirmişlər. Ermənilərin bu abidələri özününküləşdirmək iddiası isə boş cəfəngiyyatdan başqa bir şey deyildir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Aşurov S. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı: Nafta-Press, 2002, 158 s.
2. Əfəndiyev R. Azərbaycan dekorativ tətbiqi sənəti. Bakı: İşıq, 1976, 190 s.
3. Əliyeva K. Qəbirüstü daş at və qoç nümunələrimiz // Elm və həyat, 1977, № 7, s. 16-19.
4. Ələkbərov A. Qoyun-qoç fiqurlu qəbir daşları və onların yayılma arealı // Azərbaycan arxeologiyası və etnoqrafiyası, № 2, Bakı: Nafta-Press, 2006, № 2, s. 130-134.).

5. Hacıyeva S. Naxçıvan bölgəsinin xatirə abidələri üzərindəki təsvirlər tarix-mədəniyyət abidəsi kimi. Səfərli F. Ön söz. s. 4. 232 s.
6. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: 1959, Azərbaycan SSR EA nəşriyyatı, 133 s
7. İbrahimli B., Aşurov S. Azərbaycan arxeoloji abidələrində qoç simvolu // Azərbaycan arxeologiyası və etnoqrafiyası, № 1, 2007, s. 90-93.).
8. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm, 1981, 64 s.
9. Karamağaralı B. Ahlat Mezartaşları. Ankara: Güven matbaası, 1972, 286 s.
10. Rüstəmov C. Qobustan dünyası. Bakı: Azərnəşr, 1984, 176 s.
11. Salamzadə Ə., Rzayev N., Kərimov K., Əfəndiyev R., Həbibov N. Azərbaycan incəsənəti. Bakı: Maarif, 1977, 212 s.

## THE ARMENIAN CLAIMS TO THE MIDDLE AGE GRAVE MONUMENTS WITH THE STATUES OF HORSE, RAM AND SHEEP

## SUMMARY

From the ancient times Turks have believed that a person's spirit is eternal. Therefore they put some things of the dead persons on their graves which they used in this world, and decorated these graves with symbolical motives. We have been meeting these monuments, which shaved stone in the form of a man concerning to the first period, then in the form of the figures of horse, ram, sheep and tombstones, sandugas (protective envelope).

We come across many this type of grave monuments in the territory of Nakhchivan Autonomous Republic. Besides Azerbaijan, the grave stone monuments with the statue of the horse, ram and sheep is met in the territory of South Azerbaijan (Iran), Georgia (in the territories where Azerbaijanis live), in the territories of historical Azerbaijani regions, which are at present in the territory of Western Armenia. However, from the mid of the last century the Armenians try to privatize the Middle Age grave stone monuments in the region, especially figures of rams and sheep. Blotting out the inscriptions and drawings, belonging to the Azerbaijani Turks, instead of them they scraped inscriptions and drawings belonging themselves.

## АРМЯНСКАЯ ПРЕТЕНЗИЯ НА СРЕДНЕВЕКОВЫЕ НАДГРОБИЯ СО СТАТУЯМИ КОНЯ, БАРАНА И ОВЦЫ

## РЕЗЮМЕ

С древних времен турки считали, что духи людей живут вечно. Поэтому они положили на их могилы некоторые из предметов, которые использовали в мире. И украшали их могилы символическими мотивами. В начальном периоде эти памятники были каменные в человеческой форме, а потом они появляются перед нами как каменные фигуры, в форме могильные камней, саркофагов.

На территории Нахчыванской АР встречается большое количество памятников такого типа. Статуи надгробия коня, барана и овцы кроме Азербайджана, встречается в Турции, Южном Азербайджане (Иран), Грузии (в регионах, в которых живут азербайджанцы), исторических азербайджанских землях которые находятся в современной Армении. Но с середины прошлого века армяне хотят присвоить себе средневековые надгробные памятники, высеченные из камня-фигуры овцы и барана, находящиеся в нашем регионе. Они стирают принадлежащие азербайджанским туркам надписи и рисунки, заменяя их своими.

*T.ü.f.d. dos.* **Mayıl ALICANOV**
*ADPU-nun Şamaxı filialı, «Humanitar və xüsusi fənlər» kafedrasının müdiri.*

**Fəxrəddin MƏMMƏDOV**
*ADPU-nun Şamaxı filialı, «Humanitar və xüsusi fənlər» kafedrasının baş müəllimi.*

## 1948-1953-cü İLLƏRDƏ AZƏRBAYCANLILARIN ÖZ TARİXİ TORPAQLARINDAN - ERMƏNİSTAN SSR-in ƏRAZİSİNDƏN DEPORTASİYASI

**Açar sözlər:** Tarixi Azərbaycan torpaqları, köçürmə, soyqırım, deportasiya, Ermənistan SSR
**Keywords:** Historical Azerbaijan lands, moving, massacre, deportation, Armenian SSR
**Ключевые слова:** Исторически азербайджанские земли, переселение, геноцид, депортация, Армянская ССР

Ulu Öndər Heydər Əliyevin göstərdiyi kimi, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulmuş həqiqətlər açılmış, təhrif edilmiş hadisələr özünün əsl qiymətini almışdır. Bununla da, Azərbaycan xalqına qarşı çevrilmiş erməni millətçilərinin soyqırım siyasəti nəticəsində iki milyondan artıq yerli əhalinin faciəsi ilə bəşəriyyətin tanış olmasına imkan yaranmış oldu. Ermənilər tərəfindən xalqımıza qarşı həyata keçirilən bu məkrli siyasətin başlıca məqsədi azərbaycanlıları tarixi-etnik torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin ərazilərdə «Böyük Ermənistan» dövləti yaratmaq olmuşdur. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq ideoloji, hərbi, təşkilati xarakterli tədbirlər həyata keçirilmiş və onun gerçəkləşməsi istiqamətində xüsusi tədbirlər planı işləyib hazırlamışlar. Ermənilər hansı ərazilərdə məskunlaşmasından və yaşamasından asılı olmayaraq özlərini həmin torpağın sahibi kimi aparmış, milli zəmində fitnə, fəsadlar törətmişlər. Rus tarixçisi V.L.Veliçko ermənilərin bu xarakterini obyektiv qiymətləndirərək «erməni gəldi və özü ilə bədbəxtlik gətirdi» fikri ilə razılaşmamaq qeyri-mümkündür.

Sovet dövründə Azərbaycan SSR-in Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan erməni icması bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz ərazi iddialarını bir neçə dəfə ortaya atmışdır. Sovet dövlətinin fitvası və havadarlığı ilə Azərbaycanın tarixi torpaqlarında yaradılan Ermənistan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Q.Y.Hartunyan 1941-1945-ci illər müharibəsindən sonrakı illərdə Azərbaycan SSR-ə qarşı yeni ərazi iddiası və Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Sovet hökuməti qarşısında məsələ qaldırdı. Mir Cəfər Bağırov ermənilərin bu təklifinə çox kəskin cavab verdi: «Azərbaycan etiraz etmir, bu şərtlə ki, Ermənistan, Gürcüstan və Dağıstanda olan Azərbaycanın tarixi torpaqları Azərbaycana qaytarılsın». Bununla da, həmin vaxt Ermənistanın iddiasına son qoyuldu. Öz məqsədlərinə nail ola bilməyən erməni daşnakları müharibədən sonrakı illərdə azərbaycanlıların öz doğma torpaqlarından zorla deportasiya olunmasına nail oldular. Azərbaycanlıların Ermənistan SSR-dən növbəti deportasiyasının üçüncü mərhələsinin başlanğıcı Böyük Vətən müharibəsi illərində üç dövlət başçılarının - Stalinin, Ruzvelt və Çörçilin iştirakı ilə keçirilən Tehran konfransı zamanı qoyulmuşdur. Həmin konfransda Sovet-İran münasibətləri müzakirə olunan zaman erməni diasporunun nümayəndələri yaranmış əlverişli vəziyyətdən istifadə edərək SSRİ Xarici İşlər naziri V.Molotovdan İran və digər 60 xarici ölkədə yaşayan ermənilərin SSRİ-yə köçməsinə icazə verilməsini xahiş etmişlər. Tehran konfransı keçirilən zaman V.Molotov bu məsələ haqqında Stalinə məlumat verir və onların Ermənistan SSR-yə köçürülməsinin razılığını alır. Beləliklə, azərbaycanlıların Ermənistandan zorla köçürülməsinin üçüncü mərhələsinin əsası qoyulur.

1945-ci ilin noyabr ayında SSRİ hökuməti Ermənistan SSR hökumətinin vəsatəti əsasında xaricdə yaşayan 100 min nəfər erməninin köçürülüb Ermənistanda yerləşdirilməsi haqqında qərar verdi. 1946-1948-ci illərdə xarici ölkələrdən köçürülən bu əhalinin əksəriyyəti İrəvan şəhərində yerləşdirildi. Ermənistan hökuməti xaricdən köçürülən ermənilərin yerləşdirilməsində çətinliklərin olmasını bəhanə gətirərək SSRİ Nazirlər Sovetinin 1947-ci il 27 dekabr tarixli qərarı ilə 1948-1953-cü illər-

də 200 min nəfərə yaxın azərbaycanlının zorla Ermənistandan Azərbaycana köçürülməsinə nail oldular. Bununla da, azərbaycanlıların öz doğma torpaqlarından zorla deportasiyasının üçüncü mərhələsi başlandı.

XIX-XX əsrlərdə erməni canilərinin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklər öz tarixi qiymətini tapmamışdı. Bu hadisələrə ilk dəfə olaraq Ümummilli Liderimiz Heydər Əliyev vermişdir. Onun 1997-ci il dekabrın 18-də «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Fərmanı ilə siyasi qiymət verilmişdir.

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il 4083 saylı və 10 mart 1948-ci il 754 saylı verilmiş qərarları əsasında Ermənistan SSR-də yaşayan 200 min kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında qərar verdi. Həmin qərara əsasən bütövlükdə 1948-1953-ci illərdə 200 minə yaxın azərbaycanlı öz ata - baba yurdlarından zorla köçürülərək Azərbaycanın Aran yerlərində yerləşdirildi və nəticədə onların çoxu malyariyadan və digər xəstəliklərdən məhv oldular. Azərbaycanlıların deportasiyasında məqsəd guya xaricdən gələn ermənilərin Ermənistanda yerləşdirilməsi idi. Əslində xaricdən Ermənistana gələn bir neçə min ermənilər sonradan geri qayıtdılar. Aydın oldu ki, bu sıxışdırmalar, deportasiyalar heç də xaricdən gələn erməniləri yerləşdirmək üçün deyil – təkmillətli "Böyük Ermənistan" dövləti yaratmaq uğrunda həyata keçirilən fitnəkarlıq tədbiridir.

İ.Stalinin ölümündən sonra köçürülmə qəti surətdə dayandırıldı. Bundan sonra əks proses başladı. Axta, Qarabağlar, Yevaqnadzor, Əzizbəyov və digər dağ rayonlarından zorla Kür-Araz ovalığına köçürülən 10 minlərlə azərbaycanlı əhalinin aqibəti daha kədərli oldu. İqlimə uyğunlaşma bilmədikləri üçün, adi məişət şəraiti olmağından deportasiya olunanların üçdən bir hissəsi aclıq və xəstəlik nəticəsində həlak oldu. Sənədlərdən aydın olur ki, əhalinin bir qismi tövlələrdə, bəzən isə hətta heyvanlarla bir yerdə yaşamışdılar. Deportasiya edilənlər üçün dövlət tərəfindən ayrılmış vəsaitin yalnız 45-47 faizindən istifadə edilib, yaşayış evləri tikilmişdir. Ermənistandan deportasiya edilənlərin bir qismi DQMV-nin Martuni rayonunun Qişi və Xunuşnax kəndlərində məskunlaşdırılmışdılar. Lakin vilayətin erməni rəhbərliyi onları Martuni rayonundan müxtəlif bəhanələrlə qovmuşlar. Beləliklə, 1948-1953-cü illərdə Ermənistandan qovulmuş azərbaycanlılardan bir nəfəri də Dağlıq Qarabağda məskunlaşmamışdı.

Tarixin sonrakı gedişində də Ermənistanda yaşayan azərbaycanlılara qarşı deportasiya siyasəti davam etdirildi. Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi siyasi qiymət verilməmişdir.

Tarixi sənədlər əlli ildən sonra Ümummilli Liderimiz Heydər Əliyevin əli ilə açıldı. Həqiqət üzə çıxdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında»18 dekabr 1997-ci il tarixdə imzaladığı 656 saylı Sərəncamda həqiqətən Azərbaycan xalqına qarşı tarixi cinayət törədildiyi aşkar oldu. Aydın oldu ki, SSRİ-Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları erməni daşnaklarının havadarları tərəfindən azərbaycanlılara qarşı törədilmiş cinayəti qanuniləşdirmək idi. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə əvvəl qeyd edildiyi kimi erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı o dövrün Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı az olmamışdır.

**MƏNBƏ VƏ ƏDƏBİYYAT**

1. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 26 mart, 1998-ci il.
2. İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992-ci il.
3. V.L.Veliçko. Qafqaz. Rus işi və tayfalararası məsələlər. Bakı, 1995-ci il.

4. Ə.M.Həsənov. Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və çin dillərində). Bakı, 2017-ci il.
5. «1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 18 dekabr, 1997-ci il.

## AZERBAIJANIS FROM THEIR HISTORICAL LANDS IN 1948-1953 – THE TERRITORY OF THE DEPORTATION OF THE ARMENIAN SSR
## SUMMARY

It is discussed the article, in 1948-1953 by the government of the Soviet Union the crime was committed against the Azerbaijani people. 200 thousand Azerbaijanis from their native lands in Armenia and the Soviet Union were deported masse did and violence. Thousands of people were killed, could not withstand the physical and moral genocide. Our national leader Heydar Aliyev these events decreed as political price on 18 December 1997, «1948-1953 mass deportation of Azerbaijanis from their historical lands in Armenia on».

## О МАССОВОЙ ДЕПОРТАЦИИ АЗЕРБАЙДЖАНЦЕВ С ИСКОННЫХ ЗЕМЕЛЬ НА ТЕРРИТОРИИ АРМЯНСКОЙ ССР В 1948-1953 ГОДАХ
## РЕЗЮМЕ

В статъе повествуется о том, что в 1948-1953-х годах против азербайджанского народа был совершен очередной преступный акт со стороны правительства СССР. Более 200 тысяч азербайджанцев в массовом порядке были насильственно депортированы со своих исконно проживаемых земель на территории Армянской ССР. Тысячи людей не перенеся насильственных физических и моральных ущербов в следствии геноцида погибли. 18 декабря 1997 года всенародный лидер азербайджанского народа Гейдар Алиев своим указом «О массовой депортаций азербайджанского нарда с этнических земель на территории Армянской ССР в 1948-1953 годах» дал политическую оценку этим событиям.

*Д.ф.п.и.* **Нигяр АХУНДОВА**
*ведущий научный сотрудник Института истории*
*Академии наук Азербайджанской Республики*

# АРМЯНСКИЙ ГЕНОЦИД ПРОТИВ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

**Açar sözlər**: Mədəniyyət, Azərbaycan, ermənilərin türk xalqına qarşı soyqırımı
**Keywords:** Culture, Azerbaijan, Armenian genocide against the Turkish people
**Ключевые слова:** Культура, Азербайджан, геноцид учинённый армянами

Современное общество давно осознало необходимость объединения международных усилий в сфере сохранения и развития культуры, культурных ценностей, что очень важно в становлении и самоутверждении нации.

Целью нашего исследования является показать роль азербайджанской культуры в становлении, развитии и самоутверждении нации, совершенствование культуры, сохранения культурных ценностей. А также показать, как армянские фашисты уничтожают памятники культуры, совершали геноцид по отношению ко всему азербайджанскому.

Подлинные культурные ценности – это особые уникальные объекты, которые необходимо охранять. Ведь это предмет конкуренции национальных государств, не менее важные, чем территория или природные ресурсы, необходимые для самоутверждения народа на современном этапе.

Культурные ценности оказываются первыми «на линии огня» и падают жертвами в войнах. Во время нагорно-карабахского конфликта Армения оккупировала 20% нашей территории, разгромив уникальную пещеру Азых, расположенную в Карабахе. Пещера относится к эпохе нижнего палеолита и является четвертой находкой в мире, где обнаружены следы очага горевшего 700 тыс. лет назад. На обширной территории, оккупированной армянскими захватчиками, остались 22 музея, в которых были собраны десятки тысяч экспонатов и 4 картинные галереи. В них демонстрировались произведения таких известных художников Азербайджана, как Саттар Бахлулзаде, Микаил Абдуллаева, Тогрул Нариманбеков, Салам Саламзаде, Марал Рахманзаде, Беюгага Мирзазаде и многих других [IV, 175].

Вопрос их возвращения, в целом охраны памятников истории и культуры во время вооруженных конфликтов, представляет для нас очень большую проблему [IV]. 14 ноября 2002 года было опубликовано распоряжение Президента Азербайджанской Республики (№189) о назначении уполномоченного от Азербайджана – в созданный 24 июля 1995 года Особый Юридический Международный Унификационный Институт, который принял конвенцию «Об украденных или незаконно вывезенных культурных ценностях» [I, 2002, с. 13].

Армения сегодня осуществляет действия, направленные на уничтожение и фальсификацию культурного наследия, что является преступлением против Азербайджана.

Исторические, культурные памятники уничтожаются, что является актом вандализма, бессмысленного и жестокого разрушения всего азербайджанского на оккупированных землях Азербайджана. Разрушаются памятники, культурные ценности, музеи, дома выдающихся представителей художественной интеллигенции. До оккупации там было зарегистрировано 8 памятников мирового, 166 государственного и 588 местного значения [XIV].

Богатая творческими связями, культура Азербайджана играла и играет важную роль в данном процессе. Азербайджан всегда имел культурные, экономические связи с различными странами мира. В настоящее время усиление этих контактов с новыми партнёрами, привлечение новых связей, подписание двухсторонних и многосторонних договоров является неотъемлемой частью культурной политики страны, экономического и социального прогресса Азербайджанской Республики, а также является важной частью национального самоутверждения азербайджанского народа.

Без диалога культур, без взаимных связей: политических, экономических, социальных, культурных – не будет ни эффективности производства, ни экономической самостоятельности.

Ведь культурные ценности сегодня – это нравственные и эстетические идеалы, нормы и образ поведения, традиции и обычаи, произведения культуры и искусства, результаты и методы научных исследований культурной политики, имеющие важное значение для самоутверждения народа.

Сегодня в мире действует развитая система мер, направленная на сохранение, защиту, охрану культурных ценностей, сочетающая в себе правовые, административные и организационные аспекты, которые совершенствуются с учётом международного опыта. В этом аспекте проведение международных симпозиумов, конференций, встреч интеллигенции нескольких стран, диалог культур, круглые столы с представителями министерств культур различных стран имели особую значимость.

В апреле 2003 года прошли дни Азербайджанской культуры в Федеративной Республике Германии, в городе Майнце [I, 2003, 3].

В том же году в июне в Баку прошли дни австрийской культуры [I, 2003, 11], в ходе которой в зале камерной и органной музыки выступил венский ансамбль имени И.Штрауса [I, 2003, 11].

Такие мероприятия являются большим шагом в национальном самоутверждении азербайджанского народа на современном этапе.

В 1998 году 22 сентября в Париже по линии ЮНЕСКО прошёл концерт и выставка, посвященная 80-летию выдающегося азербайджанского композитора Кара Караева [I, 20, с. 105].

Азербайджанская сторона при содействии Министерства Культуры Азербайджанской Республики участвовала в симпозиумах, конгрессах, конференциях, семинарах и других мероприятиях, проведенных со стороны ЮНЕСКО и организациях при ней, таких как «Унима», «Киофф», «Иком», «Ифла» [I, 1997, с. 12].

В 1999 году в Париже в штаб-квартире ЮНЕСКО прошли торжества по случаю 1300-летнего юбилея создания эпоса «Китаби-Деде Коркуд». Среди мероприятий были проведены-международный симпозиум, выставка азербайджанских ковров, а также выставка книг, связанная с публикацией «Китаби-Деде Коркуда» в Азербайджане и за рубежом. Эти мероприятия проводились по указу Президента Азербайджанской Республики от 20 апреля 1997 года о проведении 1300-летия «Китаби-Деде Коркуда».

«Китаби-Деде Коркуд» является одним из самых древних эпосов устного народного творчества. В связи с решением ЮНЕСКО эти торжества прошли по всему миру [I, 2000, с. 1].

По линии ЮНЕСКО были отмечены в феврале 2007 года 100-летие известного азербайджанского художника по коврам Лятифа Керимова [I, 2006, с. 65]. 100-летие выдающего учёного-химика, создателя новой технологии изготовления высокооктанового бензина для авиации Юсифа Мамедалиева, 10 ноября 2008 года 100-летие известного азербайджанского писателя, учёного педагога Мир Джалала Пашаева [I, 2008, с. 14] и др.

Такие мероприятия играли и играют значимую роль в пропаганде Азербайджанской культуры за рубежом.

Впервые в истории Азербайджана «Дворец Ширваншахов», «Девичья башня» и «Ичери шехер» – историко-архитектурный комплекс попали в перечень ЮНЕСКО «Всемирное культурное наследие». Это событие азербайджанская сторона ждала долгий период. И это была победой азербайджанской науки и культуры [I, 2000, с. 123/22].

В 2003 году азербайджанской стороной были подготовлены документы о значимости исторического заповедника «Гобустан». В Азербайджанскую Республику в связи с этим прибыла эксперт ЮНЕСКО по «Всемирному культурному наследие», специалист из Франции Карола Фритс [I, 2003, 62].

Сегодня заповедник «Гобустан» также вошёл в перечень ЮНЕСКО.

По инициативе и поддержке фонда Гейдара Алиева и ее президента, Первого Вице-президента Азербайджанской Республике Мехрибан ханум Алиевой расширяются и углубляются международные культурные связи, проводятся многочисленные мероприятия, играющие важную роль в самоутверждении азербайджанского народа.

6 апреля 2005 года Президент республики Ильхам Алиев подписал указ о создании в Баку Международного Центра мугам. 27 декабря 2008 года было открытие данного центра (VIII). А уже в августе 2009 году в Баку под эгидой фонда Гейдара Алиева прошел Международный фестиваль мугама, в августе 2010 года международный конкурс пианистов в Габале (Азербайджан). Весной 2009 года был открыт Музей современного искусства Азербайджанской Республики. Здесь представлены работы ведущих художников и скульпторов Азербайджана.

10 сентября 2009 года первые посетители музея наряду с произведениями искусства Азербайджана увидели работы бессмертных Дали, Пикассо, Шагала.

Большое место в деятельности фонда Гейдара Алиева уделяется культуре (22%) [XIII, 5]. В этой связи был опубликован альбом «Гарабах хананделяры», создан международный «Мугам» центр (XIII, 24). В 2005 году прошли – телевизионный конкурс мугам – 2005, международные фестивали, посвященные юбилеям корифеев музыки – М.Ростроповича, Д.Шостаковича и Бюль-Бюля.

В связи с 60-ти юбилеем ЮНЕСКО в Париже прошли Дни культуры. В ходе этих дней была организована выставка и концерт [XIII, 27].

Армянские варвары разграбили и уничтожили музей памяти тариста Гурбана Пиримова, дома-музей Узеира Гаджибекова, полностью уничтожены дома – музеи Натаван, Бюльбюля, Абдуррахим бека Хаквердиева картинные галереи, Шушинский и Ханкендинский краеведческие музеи [XIV].

Памятники Узеирбеку Гаджибекову, Бюльбюлю, Хуршудбану Натаван были вывезены из Карабаха в Армению и нарушая все нормы морали расстреляны [XIV]. Сегодня они в Баку в Национальном музеи искусств Азербайджана. Их с трудом удалось вывести и привезти на Родину.

В условиях развития Азербайджанской Республики, демократического общества роль культуры в национальном самоутверждении народа растет с каждым днем. На современном этапе проблемы, связанные с ролью культуры в данном процессе с одной стороны связаны с дальнейшим развитием и углублением культуры (конкретно – литературы, музыки, живописи и т.д.), с другой стороны самоутверждения азербайджанского народа как личности и гражданина. Прогрессивные тенденции в самоутверждении азербайджанского народа неразрывно связаны также с совершенствованием процесса развития культуры – увеличением в государственном масштабе капиталовложений в культуру, улучшением состояния развития культуры, разработкой новых проектов и т.д. Это неотъемлемые части в процессе дальнейшего самоутверждения азербайджанского народа и борьбы против армянского геноцида, который уничтожает лучшие образцы культуры азербайджанского народа. Сегодня сохранение древнейшей культуры Азербайджана для будущего, борьба с вандализмом армянам продолжавшуюся веками (пример тому монументальный храм «Гек мечеть» (1764 года), Дворец Сардара, Гюзгюлю салон (Зеркальный салон) и летняя резиденция, многие другие памятники ставшее жертвой армянского геноцида 1913-1918, 1988, … годов)[1] является важнейшей задачей художественной интеллигенции Азербайджана для дальнейшего национального самоутверждения азербайджанского народа.

Мировую общественность также беспокоит вопрос сохранения исторических памятников. «Идея создания особого правового документа, направленного на сохранение исторического наследия стран СНГ, родилась восемь лет назад, тогда во всём мире участились случаи разрушения архитектурных памятников» [XV].

Несколько дней назад Россия и Азербайджан договорились вместе беречь культурное наследие. Этот вопрос является очень важным в развитии двухсторонних и многосторонних отношений между различными странами. На межпарламентской ассамблеи СНГ выступавшая от Азербайджана депутат Э.Ахундова сказала, что за время оккупации 20% территории Азербайджана было разрушено 877 городов, деревень и посёлков, в том числе более 500 исторических и 100 археологических памятников, 22 музея, 4 картинных галлереи, 9 дворцов, осквернена 44 святилища и 9 мечетей. Уничтожено почти 5 миллионов книг и бесценных рукописей [XV].

Принятие международных конвенций – важный шаг на пути решения задачи сохранение культурных ценностей во всём мире.

## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА

1. Архив Министерства культуры и туризма Азербайджанской Республики (Годовые отчёты 1991-2008 годы).
2. 1991 г. (с. 1-12)

[1] Смотри подробно: Ireванское ханство, 2010. Баку, Азербайджан (научный редактор заслуженный деятель науки, член-корреспондент НАНА, д.и.н., проф. Ягуб Махмудов, с. 187-247.)

3. 1992 г. (с. 1-14)
4. 1993 г. (с. 1-12)
5. 1994 г. (с. 1-15)
6. 1995 г. (с. 1-16)
7. 1996 г. (с. 1-15)
8. 1997 г. (с. 1-38)
9. 1998 г. (с. 1-17)
10. 1999 г. (с. 1-23)
11. 2000 г. (с. 102-129)
12. 2001 г. (с. 1-58)
13. 2002 г. (с. 1-42)
14. 2003 г. (с. 1-76)
15. 2004 г. (с. 1-75)
16. 2005 г. (с. 1-74)
17. 2006 г. (с. 1-173)
18. 2007 г. (с. 1-103)
19. 2008 г. (с. 1-88)
20. Текущий архив Министерства Азербайджанской Республики, документ 8/PR от 03.12.2002, с. 1-4.
21. Документ сотрудничества Азербайджанской республики и ЮНЕСКО (108 с.).
22. Velkommen til Aserbodsjan, September, 1997. Oslo.
23. Varf Land, September, 2003, Oslo, (newspaper).
24. Нигяр Алекперова «Культура и политика». Баку, 2000, с. 175.
25. Саядов С.А. Азербайджан: международные связи и взаимопонимание. Баку, 1992, 223 с.
26. Саядов О.С. XX век: Азербайджан в системе международных отношений СССР. Баку, Елм, 2005, 320 с.
27. Муса Гасымлы «Азербайджан в международных культурных связях» (1946-1990 гг.). Тбилиси, 2005, 297 с.
28. «Xalg gazeti» газета, 28 декабря 2008 год (на азербайджанском языке). Статья «Мугам национальное достояние азербайджанского народа».
29. fednews.ru
30. www.delphic.ru
31. http: //www.usembassy.ru /bilateral/ bilatesalp php? record id=p a exchanges
32. http: // www.hehdar-aliyev-foundation.org / s. 36 culture / a html
33. Heydər Əliyev fondu 2004-2007.
34. garabagh.net/content_340_ru.html
35. neus.day.az./culture/874190/htm/


## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ QARŞI ERMƏNİLƏRİN TÖRƏTDİYİ SOYQIRIM XÜLASƏ


Məqalədə Azərbaycan xalqının zəngin mədəniyyəti, milli özünü təsdiq prosesi və ermənilərin türk xalqına, Azərbaycana, bədii-yaradıcı ziyalılarına, mədəniyyətimizə qarşı genosid haqqında məlumat verilir.

Müəllif Azərbaycan torpaqlarında-Qarabağda olan ermənilərin törətdiyi soyğunçuluq və genosid siyasəti açıqlanır.

Müəllif Azıx mağarasını, 22 muzey, görkəmli mədəniyyət xadimlərin ev-muzeylərini, heykəllərini – Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natavanın və başqalarının vəhşicəsinə məhv edilməsi haqqında məlumat verilir.


## ARMENIAN GENOCIDE COMMITTED AGAINST THE AZERBAIJANI CULTURE SUMMARY


The present article is devoted about ancient culture of Azerbaijan people, the national self-affirmation of the Azerbaijani people and the Armenian genocide against cultural artistic intelligentsia.

The author tells about the atrocities of the Armenians in the Azerbaijani land – Karabakh, about genocide.

The author tells about the brutal destruction of the Armenians in the Azerbaijan lands - Azykh cave, 22 museums, house- museums and monuments by Uzeyir bey Hajibeyov, Bulbul, Khurshidbanu Natavan and other.

*T.ü.f.d., dos.* **İhami ƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*

## 1918-1920-ci İLLƏRDƏ ERMƏNİLƏRIN NAXÇIVANDA TÖRƏTDİKLƏRİ SOYQIRIMLAR MİRZƏ BAĞIR ƏLİYEVİN "QANLI GÜNLƏRİMİZ" ADLI GÜNDƏLİYİNDƏ

**Açar sözlər:** Türkiyə hərbi hissəsi, Naxçıvan xanları, terrorizm, soyqırım, erməni təcavüzü
**Keywords:** Turkish military forces, the khans of Nakhchivan, terrorism, genocide, the Armenian aggression
**Ключевые слова:** Турецкие воинские части, Нахичеванские ханы, терроризм, геноцид, армянская агрессия

XX əsrdə ermənilər tərəfindən azərbaycanlılara qarşı dəfələrlə törədilən etnik təmizləmə, soyqırım və deportasiya aktlarından biri də 1918-1920-ci illərdə törədilən qanlı cinayətlərdir. Bu əsrin sonlarında ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasəti əsrin əvvəllərində törədilənlərdən onunla fərqlənir ki, bu hadisələr müstəqillik illərində Azərbaycan tərəfindən dünya ictimaiyyətinə çatdırılmışdır. Amma yenicə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin hələ kifayət qədər dünya ölkələri tərəfindən tanınmaması, məlumatın çatdırılması üçün texnoloji imkanların zəif olması, 1920-ci ilin aprelindən bolşevik hakimiyyətinin qurulması və s. bunlar həmin hadisələrin işıqlandırılmasını çətinləşdirmişdir. Ən əsası isə Sovet dövləti bu hadisələri xalqa unutdurmuş və əks şəkildə təbliğ etmişdir. Bolşevik hakimiyyətinə qədər bu qırğınlar mətbuat səhifələrində, ayrı-ayrı adamların yazılarında müəyyən qədər işıqlandırılmışdır. Bu illərdə Naxçıvanda ermənilər tərəfindən törədilən soyqırımlar haqqında bəhs edən tarixi mənbələrdən biri də 1918-1920-ci illərdə Naxçıvanda Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyevin "Qanlı günlərimiz (1918-1920, Naxçıvan)" salnaməsidir. Başlanğıcında müəllifin qeydlərindən aydın olur ki, hər iki tərəf üçün obyektiv yazılan bu əsər gələcək nəsillərə çatdırılacaq bir tarixdir. Əsərin müqəddiməsindən aydın olur ki, 1917-ci ilin fevralında çar hakimiyyəti devrildikdən sonra bölgədə hökm sürən hakimiyyətsizlik, özbaşınalıq burada yaşayan ermənilərin əl-qolunu açmış, onlar silahlanmağa başlamışlar. Bolşeviklərin Oktyabr çevrilişindən sonra ermənilərin bu fitnə-fəsadı daha da genişlənmişdir.

Belə ki, 1917-ci il Fevral burjua-demokratik inqilabının və Oktyabr çevrilişinin qələbəsindən istifadə edən erməni millətçiləri Cənubi Qafqazda siyasi hakimiyyətə yiyələnmək, tarixi Azərbaycan torpaqlarında "erməni dövləti" yaratmaq xülyasını reallaşdırmaq üçün 1918-1920-ci illərdə Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəfələrlə soyqırımlar, etnik təmizləmə siyasəti, dağıntılar, milli mədəniyyətin məhv edilməsi və s. terror cinayətlərini həyata keçirmişlər. Bu məqsədlə onlar, illərdən bəri hazırladıqları planlarını 1918-ci ilin əvvəllərində gerçəkləşdirməyə başladılar. 1918-ci ilin mart ayının sonunda daşnak-bolşevik birləşmələrinin Bakıda başladıqları soyqırım digər bölgələrdə də, Quba, Şamaxı, Lənkəran, Naxçıvan, Zəngəzur, Qarabağ və s. Azərbaycan torpaqlarında sentyabrın ortalarınadək davam etdirilmişdir.

Nəticədə, 6 ay müddətində 50 mindən artıq günahsız azərbaycanlı – qoca, uşaq, qadın daxil olmaqla erməni vəhşiliyinin qurbanına çevrilmişdir. Bu zaman ermənilər Qarabağda 157, İrəvan quberniyasında 211, Şamaxıda 58, Qubada 122, Qarsda 92, İqdır və Üçkilsədə 60, Göyçədə 22, Dərələyəzdə 74, Vedibasarda 118, Yeni Bəyaziddə 84 kəndi dağıtmışdılar (5, s. 177). 1918-1920-ci illərdə Azərbaycanın ayrı-ayrı bölgələrində 250 min, Qərbi Azərbaycanda isə 132 min azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir (11, s. 91).

Naxçıvana erməni təcavüzü hələ 1917-ci ilin payızından başladı və 1921-ci ilədək davam etdi. İlk olaraq 1917-ci ilin oktyabrında Yamxana, Qaraxanbəyli və Tumbul kəndlərində yaşayan ermənilər bu yaşayış məntəqələrinin xüsusi kənd cəmiyyətləri kimi ayrılmaları haqqında icma qərarları çıxarması (2, s. 186-187) təxribatın başlanmasına səbəb oldu. M.B.Əliyevin gündəliyindən aydın olur ki, dekabr ayında Naxçıvan dəmiryolunda xidməd edən rus kazakına məxsus silahın özünü azərbaycanlı kimi göstərən bir erməni tərəfindən oğurlanması rus əsgərləri ilə türk-müsəlman əhali arasında nifaq salınmasına gətirib çıxardı (7, s. 7-8). Bununla da, münaqişənin yaranması üçün ilkin zəmin

hazırlandı. Həm də bu dəfə də ermənilər günahkar tərəfin azərbaycanlılar olması və məsuliyyətin öz üzərlərindən atılmasına nail oldular. Dekabr ayının 22-23-də rus-erməni silalı dəstələri Naxçıvan şəhərində azərbaycanlılar yaşayan məhəllələri atəşə tutdular (2, s. 188). Bu zaman kütləvi qırğınlar baş verməsə də, bu terror hadisəsi ilə münaqişənin başlanmasına start verildi.

Qeyd etmək lazımdır ki, arxiv sənədləri, tarixi mənbələr və bir çox tədqiqatçı alimlərin əsərlərindən məlum olduğu kimi, 1918-1920-ci illərdə Naxçıvanda yaşayan ermənilər XIX əsrin birinci yarısında çar hökuməti tərəfindən məqsədli şəkildə köçürülmüşdür. Ona görə də bu zaman Naxçıvanda müsəlman Milli Komitəsi ilə yanaşı erməni milli komitəsi də fəaliyyət göstərirdi (2, s. 188; 10, s. 56). Bu komitələr əvvəl "qarışıq milli komitələr" kimi yaradılsalar da, 1918-ci ilin fevralında Cənubi Qafqaz Seymi təşkil edildikdən sonra ayrılmışdılar (1, s. 3-5). Hər iki milli komitənin hərbi qüvvələri var idi. Lakin erməni təcavüzü başlayan vaxt müsəlman-türk hərbi heyətinin rəhbərliyi Tiflisə gedib, sonra qayıtmadığından bu hərbi müdafiə qüvvələri dağılmış və onların döyüş sursatını erməni tərəfi ələ keçirmişdir. Üstəlik, 1917-ci il dekabrın 5-də bağlanan Ərzincan sülhündən sonra rus hərbçiləri silahlarını ermənilərə vermişdilər. Bununla da, ermənilər böyük qardaşlarının dəstəyi ilə türk-müsəlman əhalini qırmaq, sürgünə məruz qoymaq, onların yaşayış yerlərini dağıtmaq və ələ keçirmək üçün lazımi şəraiti əldə etmişdilər.

1918-ci ilin əvvəllərindən başlayaraq Tiflis daşnak şurası tərəfindən Naxçıvana göndərilmiş Y.Xarazyan başda olmaqla yerli erməni daşnakları həm şəhərdə, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhaliyə hücum edərək onları qətlə yetirirdilər (3, s. 11).

Belə ki, 1918-ci il yanvarın 17-də ermənilər Əznəbürd kəndinə hücum edib 22 nəfər uşaq və qadını qətlə yetirdilər (7, s. 10). M.B.Əliyevin gündəliyindən aydın olur ki, mart ayının 18-dən 21-nə kimi Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltax, Noraşen, Xoşkeşin və s. kəndlərə hücum edən ermənilər bu yerləri qarət etmiş, dağıtmış, əhalisini müxtəlif vəhşi üsullarla qətlə yetirmişdilər. Canlarını qurtaranlar qonşu kəndlərə və Naxçıvan şəhərinə qaçmışdılar. 1918-ci il martın 31-də Qaraxanbəyli kəndində yaşayan ermənilər azərbaycanlıları atəşə tutdular. Bu zaman Nehrəm kənd sakinləri ermənilərə qarşı mübarizəyə qalxdılar. Vuruşmada 25 azərbaycanlı öldürüldü, onların meyitlərini döyüş meydanından çıxarmaq mümkün olmadığından, yalnız aparılan danışıqlar nəticəsində həmin cəsədlərin 6-nı almaq mümkün olmuşdu (7, s. 22; 3, s. 11-12). Göründüyü kimi, Bakıda kütləvi qırğınlar başlayan ərəfədə Naxçıvanda erməni vəhşiliyi artıq davam edirdi.

1918-ci ilin aprelində Naxçıvanda Müsəlman Milli Komitəsinin rəhbərliyi ilə buradakı erməni qarnizonunun rəisi Y.Xarazyan arasında sülh təşəbbüsü ilə danışıqlar aparıldı (2, s. 190). Əvvəl erməni tərəfinin irəli sürdüyü şərtlər müsəlman əhali tərəfindən etirazla qarşılandığından bir nəticə əldə olunmadı. M.B.Əliyev göstərirdi ki, erməni tərəfi sülhü bərqərar etmək üçün bir neçə şərt irəli sürmüşdür. Topların müsəlmanlar tərəfindən alınmasına yerli əhali etiraz etmiş, bu müraciət nəticəsiz qalmışdır (7, s. 25). İkinci dəfə başlanan danışıqlarda isə ermənilər sülhün bərpa edilməsinə daha çox can atırdılar. Çünki I Qafqaz ordusunun komandiri Kazım Qarabəkir paşanın imzası ilə Naxçıvana, Müsəlman Milli Komitəsinin sədrinə göndərilən məktubda tezliklə türk ordusunun köməyə gələcəyi bildirilirdi (9, s. 25-26). Gündəlikdən aydın olur ki, aprelin ortalarından müvəqqəti olsa da, Naxçıvan şəhərində və kəndlərdə sülh bərqərar edilmişdi.

Ancaq Osmanlı ordusunun köməyə gələcəyi xəbərindən sonra Naxçıvana gətirilən 1800 nəfərlik erməni hərbi qüvvələri, 6 top və digər döyüş sursatları, başda Y.Xarazyan olmaqla, erməniləri daha da quduzlaşdırdı. May ayında Y.Xarazyan öz dəstəsilə Qaraxanbəyli kəndinə, buradan isə Culfaya, Vənənd və onunla qonşu kəndlərə hücum edərək qırğınlar həyata keçirmişdir (7, s. 34). Mayın 28-də Azərbaycanın dövlətçilik tarixində mühüm səhifə, Azərbaycan Xalq Cumhuriyyəti yaradıldı. Yeni qurulan milli hökumət 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsini imzalamışdır ki, həmin müqavilənin şərtlərinə uyğun olaraq, birləşmiş Qafqaz İslam Ordusu (Türkiyənin Qafqaz ordusu və əlahiddə Azərbaycan korpusunun birləşməsi) Azərbaycan torpaqlarının daşnak-bolşevik birləşmələrindən təmizlənməsində böyük rol oynamışdır. Hələ bu müqavilədən əvvəl Naxçıvan nümayəndə heyətinin müraciətinə əsasən bölgənin erməni təcavüzündən qorunması üçün mayın 17-də Xəlil bəyin başçılığı ilə bir qrup Osmanlı hərbçisi Naxçıvana gələrək, Şaxtaxtında yerləşmiş, topçu Hüsni Əfəndi azərbaycanlılardan ibarət hərbi dəstələr təşkil edilməsi və topçular hazırlanması ilə məşğul olmağa başlamışdı (2, s. 194). Türklərin bu gəlişi erməni daşnaklarını öz bədnam

əməllərində daha da fəallaşdırdı. 1918-ci ilin iyun-iyul aylarında ermənilər Naxçıvanda misli görünməmiş vəhşiliklər törətdilər. Çünki bu zaman Türkiyə və Azərbaycanın müxtəlif bölgələrində saysız-hesabsız və ən qəddar üsullarla qırğınlar törədən Andranik Ozanyan Naxçıvan ərazisinə daxil oldu və bir-birinin ardınca bir çox kəndlərin əhalisini qıraraq onları xarabalığa çevirdi. Onun quldur dəstəsi təkcə Gilançay və Əlincəçay vadilərində 80-dən artıq kəndi dağıtdı və əhalisinin əksər hissəsini qırdı. İlk olaraq bu erməni quldurları Yaycı və Aşağı Aza kəndlərini dağıtdılar. Tək Yaycı kəndində 4 min nəfər müsəlman erməni vəhşiliyinin qurbanına çevrildi. Bu haqda M.Ə.Əliyev yazır ki, iyulun ortalarında Yaycıya daxil olan erməni quldurları kəndi dağıtmış, tar-mar etmiş, əhalisini qırmışdır (7, s. 56).

Lakin bütün bunlarla yanaşı, igid Naxçıvan oğullarının qəhrəmanlıqları sayəsində bir sıra yaşayış məntəqələri daşnaqlardan cəsarətlə müdafiə olunmuşdu. Belə ki, sonrakı hücumunu Naxçıvan qəzasının daha çox əhali yaşayan Nehrəm kəndinə etmiş Andranik, lakin burada sərt müqavimətlə qarşılaşdı. Daşnaklar kəndi mühasirəyə alsalar da, cəsur Nehrəm əhalisi Hacı Mehdi və Kərbəlayi Muxtar Cəfərzadənin rəhbərliyi altında qanlı döyüşlərə girərək, erməniləri geri oturtdular. Kəndi tutmağın mümkün olmadığını görən Andranik öz dəstəsilə oradan uzaqlaşdı. Bu kəndin müdafiəsində iştirak etmiş Nehrəm taborunun üzvü Heydərqulu Həsənov öz xatirələrində yazırdı ki, Andranik Nehrəm kəndinin kənarından keçib Təzəkənddəki 300 nəfərlik daşnaq silahlıları ilə birləşmək istəyirdi, lakin nehrəmlilər ona imkan vermədilər (3, s. 15-16). Bundan sonra Andranik Əlincəçay boyunca yerləşən bir çox kəndin əhalisini qıraraq, bu yerləri yandırdı və oradan Naxçıvan şəhərinə hücum etdi. Lakin şəhər özünü müdafiə dəstələri və bütün polis məmurları daşnaqların hücumunun qarşısını kəsdilər. Şəhəri mühasirəyə alan Andranik iyulun 2-də Müsəlman Milli Komitəsinə 24 saat müddətində təslim olmaq haqqında ultimatum göndərdi (3, s. 17). Müdafiə qüvvələrinin tabe olmadıqlarını görən daşnaklar hücuma başladılar. Döyüşlər "Cıdırlı bağ"ı istiqamətində - indiki Şərur şosesindən Xətai kəndi də daxil olmaqla olan ərazidə gedirdi. Kalbali xan Cəfərqulu xan oğlu Naxçıvanskinin rəhbərliyi ilə rəşadətlə vuruşan yerli özünümüdafiə qüvvələri Andranikin şəhərə daxil olmasına imkan vermədilər. Yeri gəlmişkən, bir məsələni qeyd etmək lazımdır ki, 1918-1920-ci illərdə Naxçıvanın erməni təcavüzündən müdafiəsində Naxçıvan xanları və onların qohumu olan İrəvan xanlarının nəslindən olan igid oğulların böyük rolu olmuşdur. 5 iyul tarixində mübarizənin qızğın vaxtında Duzdağ tərəfdən, Osmanlı toplarından atılan mərmilər erməni qərargahının yanına düşdü. Türklərin yaxınlaşdığını görən daşnaklar tələsik qaçmağa başladılar. İyulun 8-də türklər Naxçıvan şəhərinə daxil oldular. Onların gəlişini yerli əhali çox böyük sevinclə qarşıladı. Bu zaman şəhər və ətraf kəndlər daşnaklardan təmizləndi. Həmin vaxt türklər Naxçıvan qəzasının erməni hücumlarından müdafiəsi üçün yerli müsəlmanlardan ibarət qoşun hissələri yaratmağa başladılar. Bu işin təşkili Məhəmməd Əli xan Naxçıvanskiyə həvalə edildi (4, s. 74). Tezliklə təkcə Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən ordu üçün 200-ə qədər əsgər toplandı (3, s. 71-72). Bundan sonra Ordubadda Xəlil bəyin rəhbərliyi ilə nizami hissələr yaradılmağa başladı (10, s. 64-65). Çünki bu zaman Ordubadın müdafiəsi daha vacib sayılırdı. Belə ki, Naxçıvandan geriyə çəkilən Andranik əvvəlcə Sirab, Qahab və s. kəndlərin əhalisini qıraraq bu yerləri dağıtmış, sonra Ordubad istiqamətində hərəkət etmişdi. Onun məqsədi daşnakların nəzarəti altında olan Zəngəzura qaçmaq idi. Buna görə də onun quldur dəstəsi Ordubad qəzasının Tivi, Bist, Parağa, Nəsirvaz, Der və s. kəndlərinə toplaşırdı ki, tezliklə bu yerlərdən çıxsınlar (3, s. 19). Həmçinin həmin vaxt türk hərbi komandanlığı Zəngəzura giriş qapısı olan Ordubadı nəzarət altına almağı özünün əsas vəzifələrindən biri sayırdı. Ordubad qəzasında nizami hissələr təşkil olunduqdan sonra ətrafda yerləşən və əvvəllər üsyan vəziyyətində olan bütün erməni kəndləri itaət altına salındı. Bu hərbi qüvvələr Zəngəzurun ermənilərdən müdafiəsində də iştirak etmişdilər (10, s. 64).

1918-ci il avqustun 5-də Türkiyənin I Qafqaz ordusu iki gün sonra XI ordu komandanı Kazım Qarabəkir paşa Naxçıvana gəldi (10, s. 61-62). M.B.Əliyevin qeydlərindən aydın olur ki, Kazım Qarabəkir paşanın gəlişinə Rəhim xan geniş ziyafət təşkil etmişdi (7, s. 73). Onun gəlişi ilə bölgədə erməni təcavüzündən müdafiə məqsədilə ciddi tədbirlər görüldü. Müsəlman əhali əmin-amanlıq əldə etdi. Kazım Qarabəkir paşanın ilk məqsədi Naxçıvan-Zəngəzur-Azərbaycan əlaqəsini yaratmaq idi (10, s. 68). Lakin onun bu planı Şərq orduları qrupu komandanlığı tərəfindən qəbul olunmadı və türk ordusu Təbrizə göndərildi. Ən acınacaqlısı isə o idi ki, 1918-ci ilin noyabrında türklərin bölgəni tamamilə tərk etməsindən sonra Naxçıvanda erməni təcavüzü yenidən baş qaldırdı. Noyabrın 5-də Araz-Türk Respublikası yaradıldı (7, s. 82). Osmanlı hərbi dairələrinin yaxından köməyi ilə yaradı-

lan bu hökumət Naxçıvanın Azərbaycan torpağı kimi qorunub saxlanmasında mühüm rol oynamışdı. Qısamüddətli idarəçiliyi zamanı Araz-Türk Respublikasının hərbi naziri İ.Cahangiroğlu tərəfindən silahlı qüvvələr – könüllü xalq dəstələrindən ibarət taborlar yaradıldı. Bu taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, digərləri isə Vedibasar, Qəmərli və Zəngibasarda yerləşdirilmişdi (2, s. 199). Sonrakı daşnak hücumlarindan bölgənin müdafiə olunmasında bu taborçular böyük qəhrəmanlıqlar göstərdilər.

1918-ci ilin dekabrında daşnaklar Şərura hücum etdilər. Bu zaman Bəhram xan Naxçıvanskinin başçılıq etdiyi Naxçıvan taboru Dəmirçi kəndi tərəfdən erməni quldurlarının üzərinə hücuma keçdi. Döyüşdə 25-30 erməni öldürüldü, xeyli hərbi sursat və ərzaq ələ keşirildi (3, s. 20). Daşnaklar geri çəkilməyə məcbur oldular.

1919-cu ildə də daşnaklar tez-tez Naxçıvan ərazisinə hücumlar edərək qırğın və dağıntılar törətmişlər. Təkcə yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdə hücumlar etmiş və böyük qırğınlar törətmişlər. 1919-cu il yanvarın axırlarında Şərura hücum edən daşnaklara qarşı Araz-Türk Respublikası Kalbalı xan Naxçıvanskinin başçılığı ilə yerli müdafiə dəstələri göndərdi. "Qurd qapısı" adlı yerdə erməni quldurlarının qarşısı kəsildi. Qanlı döyüşlərdən sonra onlar geri oturduldu.

1918-ci ildə olduğu kimi 1919-cu ilin də may-iyul ayları Naxçıvanda erməni təcavüzü şiddətli olmuşdur. İngilislərin yaxından köməyi ilə bölgədə qurulan qondarma erməni idarəçiliyi zamanı ermənilər Naxçıvanda çoxlu qırğınlar törətmişdilər. Bu zaman qəhrəman Naxçıvan oğulları iyulun 18-dən 25-dək igidliklə mübarizə apararaq erməni rejimini dağıtmış və onları qovmuşdular. Bir həftə ərzində yerli müdafiə qüvvələri və Xəlil bəyin rəhbərliyi ilə türklər erməni qarnizonunu və daşnak Yaponun quldur dəstələrini məğlub edərək, 8 zabit və 800 əsgəri əsir götürmüş, xeyli silah-sursat – zirehli qatar, 4 top, 42 pulemyot və s. ələ keçirmişdilər (6, s. 67).

Qondarma erməni idarəçiliyi ləğv edildikdən sonra Naxçıvanda 1919-cu il oktyabrın 24-də polkovnik Edmund Dellin rəhbərliyi ilə yeni Amerika general-qubernatorluğu fəaliyyətə başlasa da, o da bölgədəki erməni-daşnak təcavüzünü dayandıra bilmədi. Çox keçmədi ki, Amerika dövlətinin də əsl niyyəti – Naxçıvanı ermənilərə vermək planı üzə çıxdı. Buna görə də yerli türk-müsəlman əhalinin təkidli tələbi ilə amerikalılar bölgəni tərk etdi və 1920-ci ilin yanvarında Amerika general-qubernatorluğunun fəaliyyəti dayandırıldı. Lakin elə bu ayda Azərbaycan hökumətinin hərbi qüvvələrini Zəngəzurdan çıxarması Naxçıvana qarşı erməni təhlükəsini daha da artırdı. Bundan sonra martın 8-də 2 min nəfərlik erməni hərbi qüvvəsi Ordubad üzərinə hücuma keçsə də, Kalbalı xanın Naxçıvandan göndərdiyi müdafiə qüvvələrinin köməyi ilə düşmən geri oturduldu. Bu dəfə ermənilər 300 nəfər, 12 qatır və 7 pulemyot itirdilər (2, s. 219-220). Martın 21-də daşnaklar daha böyük qüvvə ilə - 10 min nəfərlik hərbi heyətlə Ordubad qəzasının Vənənd, Vələver, Düylün, Dizə, Ağrı, Əylis, Unus, Xanağa, Kilit, Gənzə və s. kəndlərinə hücum etdərək, bu yerləri yandırmış, əhalinin çox hissəsini qırmış və Ordubad şəhərini mühasirəyə almışdılar (3, s. 28). Lakin yenə də Kalbalı xan və Ədib bəyin birləşmiş qüvvələri düşmənin öhdəsindən igidliklə gələrək bu yerləri azad etdilər.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet rejiminin qurulması ilə erməni-daşnak birləşmələrinin amansız dağıntı və qətlləri daha da artdı. İyulun 11-də ermənilər Vedi tərəfdən hücuma keçdilər (12, s. 34). Onlar bu dəfə Şərur qəzasının bir neçə kəndini işğal etdilər. Bu zaman general Veysəl Ünüvarın başçılığı ilə türk hərbi dəstələri və polis rəisi Həbib Səlimovun rəbərliyi ilə yerli polis qüvvələri ermənilərin bölgədən çıxarılmasına çalışsalar da, bu mümkün olmadı. Daşnaklar Şərur qəzasını və Şaxtaxtı stansiyasını ələ keçirdilər. Məcbur qalan Şərur əhalisi Cənubi Azərbaycana və Naxçıvan ətrafındakı kəndlərə qaçdılar. Arazın o tayına keçmək üçün ən axırda gələn 500 nəfər dinc sakin (artıq bu yerlər ermənilərin əlində olduğundan) son nəfərinədək ermənilər tərəfindən öldürülmüşdür. İyulun sonlarında Naxçıvan ərazisində də sovet rejimi quruldu. Bolşeviklərin gəlişi erməni təcavüzünə müəyyən qədər təsir etsə də, amma o hələ 1921-ci ilin yayınadək davam etmişdir.

Beləliklə, bu dövrə aid mənbələrdən, xüsusilə üzərində daha çox dayandığımız M.B.Əliyevin günbəgün yazdığı salnamədən aydın olur ki, 1918-1920-ci illərdə Naxçıvanda sonradan məskunlaşan ermənilər və bura tez-tez hücumlar edən erməni-daşnak quldurları bölgə ərazisində bu illərin əksər günlərində insan itkisi ilə nəticələnən qırğınlar törətmiş, dəfələrlə isə geniş şəkildə dəhşətli soyqırımlar həyata keçirmişlər. Nəticədə onlar Naxçıvanda 73727 nəfər azərbaycanlını ən qəddar üsul-

larla öldürmüşlər (2, s. 223). 1918-1920-ci illərdə Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd tamamilə və ya qismən dağıdılmışdı (8, s. 103). Bu illərdə Naxçıvanın erməni təcavüzündən müdafiəsində iştirak etmiş Naxçıvanın igid oğullarının, Naxçıvan və İrəvan xanlarının, taborçuların, A.Şadlınski başda olmaqla qəhrəman Vedi camaatının, Osmanlı ordusunun cəsur komandirlərinin – Kazım Qarabəkir paşa, Xəlil bəy, general Veysəl Ünüvar, Ədib bəy və s. və əsgərlərinin adlarını fəxrlə çəkə bilərik. Bu qəhrəman oğullar Naxçıvan bölgəsinin ən çətin illərində onu erməni qəsbkarlarından qorumuş, işğal edilməsinə yol verməmişlər.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 384 s.
2. Cəfərli E.Y. Naxçıvanda erməni Azərbaycan-münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.
3. Cəfərov F. Erməni vəhşiliyi. Bakı: Nurlan, 2009, 186 s.
4. Cəfərov F. XX əsrdə ermənilərin azərbaycanlılara qarşı soyqırımı /Naxçıvan. Naxçıvan: Əcəmi, 2005, s. 66-83.
5. Erməni vəhşiliyi fakt və rəqəmlərdə / Naxçıvan. Naxçıvan: Əcəmi, 2005, s. 175-179.
6. Əliyev Ə. Əlincə yaddaşı. Bakı: Gənclik, 1997, 304 s.
7. Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, 143 s.
8. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində: Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1999, 335 s.
9. Hüseyinzade L. Aras şahittir. Hatıralarım (1918-1920. yıllar). Bakü: Nurlan, 2001, 80 s.
10. İbrahim A. Muxtariyyat ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, 442 s.
11. Kazımov İ. 1828-1920-ci illərdə Naxçıvan və çevrəsində erməni zülmünün doğurduğu demoqrafik fəlakət / Naxçıvan. Naxçıvan: Əcəmi, 2005, s. 84-94.
12. Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: Əcəmi, 2006, 104 s.


## THE SLAUGHTERS COMMITTED BY ARMENIANS IN 1918$^{TH}$-1920$^{TH}$ YEARS AT THE "OUR BLOODY DAYS" DIARY OF MIRZA BAGIR ALIYEV
## SUMMARY

In the article it has been dealt with the slaughters, destructions, genocides and so on., that had been committed by Armenians in 1918$^{th}$-1920$^{th}$ years, in Nakhchivan, which is one of the historical lands of Azerbaijan. From the conducted investigations it has been cleared that in that years the local population and Turkish troops had fought heroically in the prevention of repeated attacks by Armenian terrorists and they had prevented to occupy the region by enemies.

## СОВЕРШЕННАЯ АРМЯНАМИ В НАХЧЫВАНЕ В 1918-1920 ГОДАХ РЕЗНЯ В ДНЕВНИКОВЫХ ЗАПИСЯХ «НАШИ КРОВАВЫЕ ДНИ» МИРЗЫ БАГИРА АЛИЕВА
## РЕЗЮМЕ

В статье описываются убийства, грабежи, геноцид, творившиеся армянами против азербайджанцев на исторических землях Азербайджана, в том числе в Нахчыванском регионе, в 1918-1921 годах. В проведенном исследовании было установлено, что героическая борьба жителей Нахчывана и турецких войск против неоднократных нападений армянских банд, предотвратили попытки последних захватить регион.

*T.ü.f.d.* **Emin MƏLİKOV**
*AMEA-nın Tarix İnstitutunun*
*elmlər doktoru üzrə doktorantı*

# LƏNKƏRAN QƏZASININ ŞAĞLAKÜÇƏ KƏNDİ 1918-ci İL MART SOYQIRIMI DÖVRÜNDƏ

**Açar sözlər:** etnik təmizləmə, türk-müsəlman soyqırımı, siyasət, daşnaklar, türksüz Ermənistan
**Keywords:** ethnic cleansing, Turkic-Muslim genocide, colonial policy, dashnaks, Armenia without Turks
**Ключевые слова:** этническая чистка, тюрко-мусульманский геноцид, политика, дашнаки, Армения без тюрков

XX əsrin əvvəllərindən başlayaraq ermənilərin xalqımızın başına gətirdikləri müsibətlər Azərbaycan tarixində ən qanlı hadisələrdən biri kimi yaddaşımızda silinməz izlər buraxmışdır. Bu dövrdə baş vermiş hadisələr nəticəsində on minlərlə dinc soydaşımız bolşeviklərin havadarlığı ilə erməni daşnak quldur dəstələri tərəfindən soyqırıma məruz qalmışdır. Azərbaycanın digər qəzalarında olduğu kimi, bolşevik-erməni daşnak quldur dəstələri Lənkəran qəzasında da dinc əhaliyə qarşı soyqırımlar törətmişlər.

Cənubi Qafqazda hakimiyyəti ələ almağı qarşılarına məqsəd qoyan Bakıdakı bolşevik-erməni hökuməti Lənkəranın mühüm strateji və ərzaq rayonunu əlində saxlamağa çalışırdılar. Lənkəran qəzasını ələ keçirməyə çalışan Şaumyanın əsas məqsədlərindən biri də, milli qüvvələrin - Sultan bəy Qulubəyov, Aslan Talışinskinin 1917-ci ildə təşkil etdiyi milli alayı və Lənkəranda olan "Dikaya diviziya"nı tərk-silah etməklə, bölgəni tam şəkildə ələ keçirmək idi. 1918-ci il mart soyqırımı ilə bağlı yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının məlumatında yazılır: "Lənkəran qəzası polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsi isə polkovnik İllarinoviç başda olmaqla başqa bir dəstə tərəfindən, böyük dağıntı törədilərək, azərbaycanlı əhali ucdantutma məhv edilib. Erməni Milli Şurasının göstərişi ilə Lənkəranda olan "Dikaya Diviziya"nı tərk-silah etmək üçün dəniz vasitəsilə bolşevik dəstələri göndərib. Bu dəstələr yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayıblar. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndləri "Aleksandr Jandar" gəmisi tərəfindən top atəşinə tutulub. 1918-ci ilin yanvarında başlanan bu qırğınlar martda daha da şiddətlənir"(1). Ümumilikdə, ermənilər 1918-ci ilin mart ayına qədər Lənkəranın 40 kəndində dinc sakinləri vəhşiliklə qətlə yetiriblər. Bu hadisələrin şahidləri olan yerli sakinlər qeyd edirlər ki, 1917-ci ilin oktyabrından 1918-ci ilin may ayına qədərki bir müddət ərzində denikinçi komandan Şevkunovun quldur dəstəsinə rəhbərlik edən daşnak Akopyan və ermənipərəst eser Sinayev bölgədə qırğınlar törədiblər. Bu qırğınlar 1919-cu ilin avqustuna "Molokan qiyamı" yatırılana qədər davam etmiş, yüzlərlə ev dağıdılmış, 2 min insanın həyatına son qoyulmuşdu(1).

Bolşevik-erməni qüvvələri Lənkəran şəhərini ələ keçirdikdən sonra ətraf kəndlərə qarşı hücumlara başladılar. Onlar Gərmətük, Kərgəlan kəndlərindən sonra Şağlaküçədə dinc əhaliyə qarşı qırğınlar törədirlər. Bu zaman ermənilərin kəndə yaxınlaşmasını görən Şağlaküçə kəndinin əhalisi Zənqələkəş və İncəçola adlı yerlərə qaçdılar. Erməni daşnak dəstələri indiki Gərmətük kəndində qırğınlar törətdikdən sonra Şağlaküçə kəndinin "Nadiroba" məhəlləsinə daxil oldular. Hadisənin şahidlərindən Qərib Hətəmovun(1876-1986) dediklərindən aydın olur ki, ermənilər məhəllədə 40 nəfərədək insanı güllələyiblər.[3] "Nadiroba məhəlləsi" kəndin əsas hissəsindən uzaq olduğu üçün burada əhaliyə divan tutuldu. Yaşayış evləri yandırıldı, su quyuları dağıdıldı. Qiymətli əşyalar qarət edilərək ələ keçirildi. Bu dövrdən sonra məhəllə xarabalığa çevrilərək bu günə kimi yaşayış olmamışdır. Kənd ağsaqqalı Hacı Əlihəsən Kərimov qeyd edir ki, erməni dəstələri burada uşağa, böyüyə məhəl qoymayaraq hər kəsi süngüyə keçirmişdir. Qaça bilən qaçaraq canını qurtarmışdır. Xəstə həyat yoldaşını qoyub qaçmayan bir qadına qarşı ermənilər zor tətbiq etmişlər. Sonralar sağ qalan əhali buraya köçüb yaşamaqdan çəkinmişlər. Bu gün də həmin ərazi xarabalığı xatırladır(3).

Kənd işğal edildikdən sonra, Kərbəlayi Zülfüqarın, Kərbəlayi Xanibəyin və Məşədi Məhəmmədin evlərini əsgər qərargahına çeviriblər. Bu evlər geniş olduğu üçün əsgərlər burada qalırdılar.

Bu zaman ermənilər tərəfindən Şağlaküçə kəndində qarət və talanlar amansızcasına həyata keçirilir. Kənd sakini Səməd Kərimovun (1870-1935) dediklərinə görə kəndə Soltan paşanın başçılığı ilə türk silahlı dəstəsi gəldikdən sonra qırğınların qarşısı alınır. Kənddən qaçan əhali yenidən kəndə qayıdır(2).

Bakı Sovetinin antiazərbaycan siyasətini xalqa nümayiş etdirən Mart soyqırımına qədər Azərbaycanın milli demokratik qüvvələri Rusiya tərkibində milli-məhəlli muxtariyyət tələbi ilə çıxış edirdilərsə, artıq qırğınlardan sonra bu ümidlər boşa çıxdı. Mart soyqırımı nəticəsində Azərbaycan xalqına yabançı olan sovetləşmə ideyasına güclü zərbə vuruldu, xalqın milli birliyini və qədim ənənələrə malik müstəqil dövlətçiliyini bərpa etmək əzmi daha da gücləndi.

Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımların siyasi baxımdan qiymətləndirilməsinə Azərbaycanda milli azadlıq hərəkatının genişləndiyi ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərininin əvvəllərində başlasa da, ona əsl və tam siyasi qiymət həmin illərin sonunda verilmişdir. Bu qiymət Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanında bütün dolğunluğu ilə öz əksini tapmışdır. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarımızın zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin hamısına, yaxud birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir". Həmin fərmanla martın 31-i azərbaycanlıların soyqırımı günü elan edilmişdir(3).

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Kərimov B. B. 1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törədikləri soyqırım. // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2012, №2, s. 151-160.
2. Kənd ağsaqqalı Hacı Əlihəsən Kərimovun qeydlərindən.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: Lider, 2005, s. 358-359.

## THE COUNTY OF LENKERAN SAGLAKUCE" VILLAGE DURING THE MARCH GENOCIDE IN 1918
## SUMMARY

In 1918, between March and April in the county of Lenkeran in " Sagalkuce" village the genocide perpetrated by gangs of Armenians Bolsheviks. Durimg the genocide slaughter Armenians destroyed " Nadroba" city and murdered forty peacefull Azerbaijanis.

## СЕЛО ШАГЛАКЮЧА ЛЯНКЯРАНСКОГО УЕЗДА В ПЕРИОД МАРТСКОГО ГЕНОЦИДА 1918-ГО ГОДА
## РЕЗЮМЕ

В 1918-ом году в март-апреле было произведено массовое убийство большевикскими отрядами армян на территории села Шаглакюча Лянкяранского уезда. В результате массового убийства было истреблено местность села под названием «Надироба» и 40 человек мирного населения.

*t.ü.f.d.* **Cavid BAĞIRZADƏ**
*Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti.*

# AZƏRBAYCANIN AĞDƏRƏ BÖLGƏSİNİN UMUDLU KƏNDİNDƏ ERMƏNİLƏRİN 1905-ci İLDƏ TÖRƏTDİYİ KÜTLƏVİ QIRĞINLAR

**Açar sözlər:** Cavanşir qəzası, Umudlu kəndi, Heyvalı kəndi, Kolanı camaatı, Tərtərçay hövzəsi.
**Keywords:** Javanshir uyezd, Umudlu village, Heyvali village, Kolani dwellers, Tartarchay basin.
**Ключевые слова:** Джаванширский уезд, село Умудлу, село Хейвалы, жители Коланы, бассейн реки Тертер.

Azərbaycanda 1905-1906-cı illərdə baş vermiş qətliamlar, dağıntılar, qarət və soyğunçuluq, soyqırım hadisələri ənənəvi olaraq Rusiyanın dövlət siyasətinin nəticəsində baş vermişdir. Bu siyasət Rusiyanın dövlət formalarının dəyişməsindən asılı olmayaraq heç bir vaxt dəyişməmişdir. İstər çar Rusiyası, istər bolşevik Rusiyası, istərsə də Rusiya Federasiyası dövlət səviyyəsində həmişə erməniləri dəstəkləmiş, onlara hər cür yardım etmiş, Azərbaycan xalqının soyqırıma məruz qalmasında bilavasitə iştirak etmişdir. Bunu 1905-1906-cı illərdəki qətliamlarda, Birinci Dünya müharibəsi dövrü və 1918-1920-ci illərdəki soyqırım hadisələrində, 1948-1953-cü illər deportasiyasında, 1988-ci ildən başlayan deportasiya və məlum Qarabağ hadisələrində də aydın şəkildə görürük. O da gizlin deyil ki, Xocalı soyqırımı, dəhşətləri rus alayının hərbçilərinin və silahının bilavasitə iştirakı ilə törədilmişdir. Qafqazın yerli əhalisi olmayan erməniləri XIX əsr boyunca Azərbaycan torpaqlarına köçürən Rusiyanın dövlət siyasətinin nəticəsində XX əsrdə "Ermənistan dövləti" yaradılmış, yarandığı vaxtdan bu günə kimi Azərbaycan torpaqlarına iddiaçı olmuşdur.

1905-1906-cı illərdə çar Rusiyasının müstəmləkəsi altında olan Azərbaycanın əksər bölgələrində – Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Gəncədə və başqa yerlərdə Qafqaz canişinliyinin yüksəkrütbəli məmurları vasitəsilə silahlandırılan erməni silahlı dəstələri azərbaycanlılara qarşı silahlı hücumlar edib, həmin ərazilərdə azərbaycanlıları kütləvi şəkildə qətlə yetirməklə etnik təmizləmə həyata keçirmişlər. Bu dövrün ən ağrılı hadisələri Tərtərçay və Xaçınçay hövzəsindəki Kolanı camaatının kəndlərində baş vermişdir. Bu ərazi inzibati baxımdan Gəncə quberniyasının Cavanşir qəzasının hüdudlarına daxil idi.

1905-ci ildə Azərbaycanın Tərtərçay və Xaçınçay hövzəsində baş vermiş soyqırım dəhşətləri haqqında məlumatlar M.S.Ordubadinin "Qanlı illər" əsərində yer almışdır [1, 77-88]. Eyni zamanda bu bölgənin kəndlərinin yaşlı insanları şahidi olduqları və ata-babalarından eşitdikləri dəhşətləri keçən əsrin 70-80-ci illərində ürək ağrısı ilə danışırdılar. 1905-1906-cı illərdə baş vermiş qırğınlar nəticəsində Tərtərçay hövzəsinin Kolanı elinin kəndlərindən Dəmirli, Çıraqlı, Hacıqərvənd, Buruc, Umudlu, İmarət Qərvənd kimi kəndləri dağıdılmış, onların sağ qalmış əhalisi isə Tərtərçayın aşağı axarları boyuna – Tərtər və Bərdə ərazisinə köçmüşlər. Umudlu və İmarət Qərvənd kəndlərinin əhalisinin bir hissəsi sonralar darmadağın edilmiş doğma kəndlərinə geri qayıtmış, kəndlərini yenidən bərpa etmişlər.

1905-1906-cı illər qırğınları zamanı ən dəhşətli, ən faciəvi hadisələr Azərbaycanın Tərtər rayonunun Umudlu kəndində baş vermişdir. Gəncə quberniyasının Cavanşir qəzasının Tərtərçay hövzəsindəki Kolanı elinin Umudlu kəndi 1930-1992-ci illər inzibati bölgüsünə görə Ağdərə rayonun, 1992-ci ilin oktyabrından isə Ağdərə rayonunun inzibati statusu ləğv edildikdən sonra Tərtər rayonun inzibati ərazisinə daxil olmuşdur.

Umudlu kəndində baş vermiş qətliamların, işgəncələrin, qarətlərin və məhrumiyyətlərin törədilməsi baxımından 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımını xatırladır. Əslində, Xocalı soyqırımından 87 il əvvəl Umudluda eyni soyqırım hadisələri törədilmişdir. Eynilik ondadır ki, ermənilər Xocalı soyqırımından hələ 87 il əvvəl eyni qətl üslubları ilə müraciət olunmasına baxmayaraq dövlət orqanları tərəfindən kömək olunmayan, mühasirədə köməksiz qalmış əhalini, uşaqları, qocaları xüsusi amansızlıqla qətlə yetirmiş, meyitləri eybəcər hala salmış, qız-gəlinlərə olmazın işgəncələr etmişlər. Umudlu soyqırımı 1905-ci il dekabrın 26-da baş vermişdir [1, 85; 2, 55]. Faciənin 1905-ci ilin noyabr ayında törədilməsi də göstərilmişdir [3, 59].

Qərb tərəfdən Murovdağla, şərqdən Tərtərçayı ilə əhatələnən Umudlu kəndi bütün tərəflərdən XIX əsrdə Rusiya tərəfindən bura köçürülmüş erməni kəndləri ilə əhatələnmişdir. Umudlu soyqırımı törədilənə qədər bölgədə Çıraqlı və Hacıqərvənd kəndləri artıq yandırılıb yerləyeksan edilmişdir. Bu kəndlərin qaçıb sağ qalmış əhalisi isə yuxarıda qeyd etdiyimiz kimi, Tərtərə köçmüşdür. Bölgədə sağ-salamat qalmış yeganə azərbaycanlı kəndi olan Umudlunun kəndxudası İsmayıl Umudlunun da aqibətinin digər kəndlər kimi olmaması üçün Tərtərə Cavanşir qəzasının rəisi Pivovarovun yanına gələrək mühafizə üçün kazak dəstəsi istəsə də, Pivovarov müxtəlif bəhanələrlə mühafizə dəstəsi verməkdən imtina edir. İsmayıl kəndxuda belə olan halda əhalinin Umudluda sağ-salamat qalacağının mümkün olmadığını desə də, qəza rəisi Pivovarov heç bir cavab vermir. İsmayıl kəndxuda məyus halda Umudlu kəndinə qayıdaraq kənd camaatı ilə məşvərət edib belə qərara gəlir ki, kənd qırğınlara məruz qalmadan camaatı mühasirədən çıxarsın [1, 85; 2, 55].

Beləliklə, Kolanı elinin Umudlu kənd əhalisinin faciəsi dəhşət doğurur. Mühasirəyə düşmüş kəndlilər çətinliklə də olsa, kənddən çıxmağa imkan tapıb qəza rəisi Pivovarovdan özlərini müdafiə etmək üçün kömək istəsələr də, qəza rəisi müxtəlif bəhanələrlə umudluların xahişini rədd edir [3, 59].

Umudlu camaatı 1905-ci il dekabrın 26-da götürə biləcəkləri qiymətli əşyalarını arabalara yükləyib, mal-qaralarını da götürüb Tərtərçayını keçib getmək istəyəndə Heyvalı kəndinin (sonralar ermənilər toponimi dəyişərək bu kəndi Drımbon adlandırmışlar. – C.B.) yaxınlığında pusquya düşürlər. Bu hadisənin əvvəlini Məmməd Səid Ordubadi "Qanlı illər" əsərində başqa cür təsvir etmişdir [1, 85-86]. Əslində hadisə belə baş vermişdir: İsmayıl kəndxudadan və Umudlu camaatından çoxlu yaxşılıqlar görmüş Heyvalı kəndinə vaxtilə Rusiya tərəfindən köçürülmüş ermənilər və Heyvalının kəndxudası Abram Həsən Calalov söz verirlər ki, Umudlu kəndinin camaatının sağ-salamat köçüb getmələrinə yardım edəcəklər. Köçə hazır olan camaat Heyvalı kəndi yaxınlığında bir dərədə əvvəlcədən hazırlanmış plana əsasən erməni silahlı dəstələri tərəfindən pusquya salınaraq qətliama məruz qalır. Bu qətliamın baş verməsində Heyvalı kəndxudası Abram Həsən Calalov silahlı quldur dəstələri bura dəvət etməklə və plan hazırlamaqla xüsusi rol oynayır. Umudlu qətliamı insan ağlının dərk etməkdə belə aciz qaldığı, bəşər tarixində bənzəri olmadığı xüsusi bir üsulla həyata keçirilmişdir ki, belə qətliam bir də çox sonralar Xocalıda gerçəkləşdirilmişdir.

Pusquya düşürülmüş silahsız və müdafiəsiz əhali hər tərəfdən hücum və atəşə məruz qalır. Camaatın sağ qalan hissəsini əsir edən erməni silahlı dəstəsi kişiləri qadınlardan ayıraraq arvad-uşaqlarının, ana-bacılarının gözü qarşısında başlarını kəsirlər. Sonra qadınları, uşaqları müxtəlif üsullarla işgəncə verə-verə qətl edirlər. Hamilə qadınların qarınlarını süngü və xəncərlərlə deşib doğulmamış körpələri can verən ananın gözləri qarşısında doğrayırlar. On iki yaşından yuxarı qızların, gəlinlərin, qadınların başlarına olmazın müsibətlər gətirildikdən sonra qətl edirlər. Qətllər bir qayda olaraq xəncərlə doğramaqla həyata keçirilmişdir, güllələrə qənaət etmişlər.

Bu hadisələri, ermənilərin törətdikləri dəhşətləri Məmməd Səid Ordubadi ürək ağrısı ilə, fəryadla qələmə almışdır: "Umudlu kəndinin faciəsi bütün kəndlərin faciəsindən ağrılı və yandırıcıdır. Umudlu kəndi camaatına ermənilərdən olunan indiyə qədər bir xalqa, bir millətə edilməmişdir. Heç bir tarixdə insandan insana bir belə zülm-sitəmin rəva göründüyü yazılmamışdır, umudlular məzlum oldular. Umudlular kimi dağılan, mal, canı tələf olan Qafqazda görünməmişdir" [1, 85]. Müəllif göstərir ki, müxbirin Umudlu soyqırımının dəhşətləri haqqında göndərdiyi məlumatları ətraflı oxuyub qələmə ala bilməmişdi. Çünki yazılmış məlumatların üzərinə müxbirin göz yaşaları töküldüyündən sətirlərin mürəkkəbi qarışmışdır. Buna görə də Umudlu faciəsini müxtəsər yazmışdır [1, 86]. Məmməd Səid Ordubadi haradan biləydi ki, eyni hadisələr, eyni qətliamlar əsrin sonlarında Xocalıda baş verəcəkdir, Umudlu yenə də şəhidlər verəcək, işğala məruz qalacaqdır...

Heyvalı kəndi yaxınlığındakı dərəni ermənilər bəşər tarixində bənzəri olmayan "insan sallaqxanası"na çevirirlər. Əli-qolu bağlanmış anaların gözləri qarşısında uşaqları xəncərlə doğradıqdan sonra, bəzi uşaqların da can verərkən çabaladığı halda qanlı göz yaşları içərisində olan qadınların başlarına olmazın oyunlar gətirmişlər. Bu hadisədən sonra ermənilər soyqırım törədilmiş dərəyə "Türk qırılan dərə" deyirdilər [2, 56].

Məmməd Səid Ordubadi yazır ki, Umudlu faciəsində 150-yə qədər insanı qətlə yetirib bir-biri üstə qalaqlayıb yandırmışlar [1, 86]. Umudlu soyqırımında, bu haqda hələ keçən əsrin 70-80-ci illərində ağrılı-acılı xatirələrindən bəhs edən yerli əhalinin yaşlı nümayəndələrinin verdiyi məlumatlara

görə yüzlərlə insan qətl edilmişdir. Qətliamlar zamanı yalnız otuz adam qaçmaqla canını qurtara bilmişdir. Umudlu soyqırımı günü köçdə olmayan və qətliamlara məruz qalmamış əhali kəndi tərk etməyə məcbur olmuşdur. Çox keçməmiş geri qayıdaraq soyqırım zamanı dağıntılara və qarətə məruz qalmış kəndi bərpa edən umudlular 83 ildən sonra növbəti dəfə, 1988-ci ilin fevralından başlayan məlum Dağlıq Qarabağ hadisələri ilə bağlı olaraq 1992-ci ilin fevralına kimi mühasirədə qalmış, dörd bir tərəfdən əhatə olunmuş erməni kəndlərinə qarşı əzmkarlıqla mübarizə aparmış, şəhidlər vermişlər. Umudlu kəndi tarixdə ikinci dəfə, Xocalı soyqırımından iki gün sonra, 1992-ci il fevralın 28-də darmadağın edilmiş, əhalisi doğma yurdlarından didərgin düşmüşdür.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Məmməd Səid Ordubadi. Qanlı illər. Bakı, Qarabağa Xalq Yardım Komitəsi, 1991, 144 s.
2. Bağırzadə C.V. XX əsrin əvvəllərində Azərbaycanda soyqırım. Bakı: Agah, 2001, 120 s.
3. XX əsr Azərbaycan tarixi. II cild. ( Prof. T.T.Vəliyevin ümumi redaktəsilə). Bakı: Təhsil, 2009, 560 s.
4. Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
5. Sultanov Z.K. Qarabağ müharibəsi: faktlar... hadisələr... düşüncələr..., Bakı: Maarif, 2003, 772 s.


## THE 1905 YEARS MASSACRE GENERATED BY ARMENIANS IN UMUDLU VILLAGE OF AGHDARA DISTRICT OF AZERBAIJAN
## SUMMARY


During the massacres that took place in 1905-1906 the most terrible and tragic events took place in the village of Umudlu. According to the next administrative division the Umudlu village of Javanshir region of Ganja province has been included to the administrative borders of Aghdara district and since 1992, to the administrative borders of Tartar district.

On December 26, in 1905, while the population of the besieged village of Umudlu trying to move in order to escape from the massacre, treacherously ambushed by the Armenians near the village of Heyvali. During the genocide that took place, more than 150 people of the village population were killed with special cruelty. Children were slashed cruelly with dagger before the eyes of their mothers. They ripped stomach of pregnant women with dagger and thrust them with bayonet. Firstly, they cut off the heads of men before the eyes of women and children. Then, they slashed the children before the eyes of their mothers. In the end, after having tortured women to extreme degree killed them. Then, they piled and burned the people whom they killed. Since then, Armenians themselves called this valley as "Turkish fragile valley" where the massacre happened. 87 years later the Umudlu Genocide Armenians committed massacre in Khojaly in the same method.


## МАССОВОЕ ИСТРЕБЛЕНИЕ ЖИТЕЛЕЙ СЕЛА УМУДЛУ АГДЕРИНСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА СО СТОРОНЫ АРМЯН В 1905 ГОДУ
## РЕЗЮМЕ


Самые трагические события 1905-1906 годов произошли в селении Умудлу. Село Умудлу Джаваншурского уезда Гянджинской губернии по административному делению впоследствии было включено в состав Агдеринского района, а с 1992 года в состав Тертерского района.

26 декабря 1905 года жители села Умудлу, которое находилось в окружении, пытаясь спастись от неминуемой гибели, попали в засаду к армянам неподалеку от села Хейвалы. В результате произошедшей резни более 150 человек местных жителей были зверски убиты. Армяне вырывали детей из рук матерей и резали их на куски. Кинжалами вспарывали животы беременным женщинам, вытаскивали из их утроб еще не родившихся младенцев и насаживали на штыки. Сначала перед женщинами и детьми убивали мужчин, а потом безжалостно резали детей. Армяне издевались и подвергали зверским пыткам женщин, только после этого их убивали. Трупы убитых, собрав в ущелье, сжигали. С тех пор даже армяне это место называли «ущельем убиенных турок». Спустя 87 лет после учиненного армянами геноцида в Умудлу, теми же бесчеловечными, зверскими методами, армяне 1992 году совершили Ходжалинский геноцид.

*Fil.ü.e.d.* **Salidə ŞƏRİFOVA**
*AMEA Ədəbiyyat İnstitutu, baş elmi işçi*

# MÜASİR AZƏRBAYCAN ROMANLARINDA SOYQIRIMIN TƏSVİRİ

**Açar sözlər:** Azərbaycan tarixi, soyqırım, Qarabağ müharibəsi, azərbaycan romanı
**Keywords:** History of Azerbaijan, the genocide, Karabakh war, Azerbaijani novel
**Ключевые слова:** История Азербайджана, геноцид, Карабахская война, Азербайджанский роман

Erməni cəmiyyətində azərbaycanlı və türklərə qarşı nifrətin dalğavarı şəkildə bir neçə dəfə artması, soydaşlarımıza qarşı genosid aktlarının törədilməsi tarixin silinməz qanlı səhifələridir. Qeyd etmək lazımdır ki, erməni faşizminin vaxtaşırı fəallaşmasının kökləri və nəticələri müasir Azərbaycan romanlarında geniş təhlil obyektinə çevrilmişdir. Yazarların diqqətini sosial varlığın müxtəlif tərəfləri və nöqsanları maraqlandırır: sosial ədalətsizlik və bərabərsizlik, Azərbaycanın tarixi keçmişi və perspektivləri, milli şüurun durumu, torpaqlarımızın ermənilər tərəfindən işğalı, Qarabağ müharibəsinin əzabları, qaçqınlıq həyatı və onun problemləri və sair. İctimai varlığın ayrı-ayrı tərəflərinin epik janra aid olan, həyat hadisələrinin inkişafı, mürəkkəb sosial ziddiyyətləri, xalqın tarix və gələcəyi barədə yazarların düşüncələri və cəmiyyətdə olan ideyaları dialektik əks etdirmək üçün əlverişli şərait yaratmağa qadir olan romanlarda təsvirinin müfəssəl təhlili ədəbi-tənqidi maraq kəsb edir. Qələm sahibləri həyat hadisələrini əhatəli planda və böyük lövhələrdə əks etdirmək gücündə olan romanlardan soydaşlarını tarixi hadisələrdən dərs götürməyə sövq edirlər. XX əsrin əvvəlləri və ortalarında ermənilər tərəfindən Azərbaycan torpaqlarının zəbt edilməsi məqsədi ilə törədilən cinayətkar əməlləri təsvir edən qələm sahibləri bizləri gələcəkdə bu cür qanlı tarixi hadisələri unutmamağa çağırır.

«Qara qan» [6] romanında Fazil Günay tərəfindən tarixi faktların xatırlandığını müşahidə edirik: «…bizim əsrin əvvəllərində dünyada təbəddülat başlayanda dediyiniz o əclaflar nələr etmişlər? 1915-ci ildə Türkiyənin şimalında etnik təmizləmə apararaq qadınları, uşaqları tonqallarda yandırmışlar. 1905-1907-ci illərdə elə bu Qarabağda, Zəngəzurda, 1918-ci ilin martında Bakıda, yenə Zəngəzurda, Şamaxı və Qubada dinc əhalini kəsib doğramışlar, məscidə yığıb yandırmışlar» [6].

Əlibala Hacızadənin «Möcüzə» [5] romanında qısaca da olsa tarixi hadisələrin nəzərdən keçirilməsi və erməni millətçilərinin tarix boyu törətdikləri faciələrin xatırlanması da diqqətəlayiqdır. Əsərdə erməni millətçilərinin tarixi keçmişdə azərbaycanlılara qarşı törətdikləri soyqırımlar ürəkağrısı ilə xatırlanır. Müəllif baş vermiş olayları əsərin qəhrəmanı azərbaycanlı qızı Leylanın dili ilə verməyə nail olur: «Beşinci ildə, on səkkizinci ildə, nə bilim daha sonralar, bizim yurdumuza su calayanlar, torpaqlarımızı qarış-qarış alanlar, günahsız körpələrimizi süngüyə keçirənlər, adamların kürəyinə yanar samovar bağlayanlar kim idilər? Onlar erməni deyildilərmi. Yoxsa yenə deyəcəksən ki, o ermənilərin bu ermənilərə nə dəxli var?» [5] Maraqlıdır ki, yazıçı erməni millətçilərinin tarix boyu dəfələrlə azərbaycanlılara qarşı vəhşi və cinayətkar hərəkətlərə yol verməsinin səbəbini, belə tendensiyanın uzun illər ərzində qorunub saxlanılmasının səbəblərinin işıqlandırılmasına cəhd edir. Müəllif bunu ermənilər arasında mövcud tərbiyə sistemi ilə əlaqələndirir. Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ mübaribəsi və erməni təcavüzü mövzusunda qələmə alınmış əsərlərdə erməni işğalçısı surətinin verilməsi, həmçinin bu surətə xas səciyyələrin təhlil edilməsi xüsusi maraq doğurur. Müxtəlif ədəbi nümunələrdə erməni işğalçısının surətinin açıqlanmasının səciyyəvi xüsusiyyətləri özünü biruzə vermişdir ki, onları da nisbi olaraq aşağıdakı qaydada qruplaşdırmaq mümkündür:

- erməni işğalıçısının Azərbaycandan və azərbaycanlılarla əlaqəli olması;
- erməni işğalçısının neofaşist ideoloji dəyərlərə riayət etməsi;
- erməni işğalçısının daxili aləminin insanlıq və humanistlik böhranına məruz qalması;
- erməni işğalçısının kəskin mənəvi-psixoloji sindroma məruz qalması;
- erməni işğalçısının məhv edilməsi.

Müasir Azərbaycan ədəbiyyatında romanların əksər qismində təsvir olunan erməni işğalçılarının millətimiz arasında böyüdüyü, bizim adət-ənənələr və mentalitetimiz ilə tanış olması diqqəti cəlb edir. Qələmə alınmış əsərlərdə həmin ermənilər məharətlə maskalanmış «mehriban», «şirindil», «ya-

zıq görkəmli» və tipik surətlərdə təsvir olunur. Məsələn, Nüşabə Məmmədlinin «Zəngulə» [9] romanında Aşot Qulamyan vaxtilə azərbaycanlılar arasında yaşamış və azərbaycanlılarla «dostluq» əlaqələri saxlamışdır. Nigar Qarayevanın «Daş hasar» [8] romanındakı Xpes Xristofor, Elçin Mehrəliyevin «Doxsanıncı illər» [2] romanındakı Samvel, Əli Əmirlinin «Ölü doğan şəhər» [4] romanındakı Aşot və digər əsərlərdə təsvir olunan erməni obrazlarının da Azərbaycan və ya ayrı-ayrı azərbaycanlı ilə əlaqəli olduğunu görürük.

Anarın «Ağ qoç, qara qoç» [1] romanında XX əsrin sonunda Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və digər rayonlarının zəbt edilməsi ilə yanaşı 1918-ci il hadisələri işıqlandırılmış, bu tarixdə baş vermiş qanlı qırğına münasibət də əksini tapmışdır. Müəllif 1918-ci il mart bağı haqqında məlumat verərək qələmə alır: «Haçansa 26-lar bağı adlanan bu yerdə 1918-ci ilin mart günlərində minlərlə Azərbaycanlı qırmışdılar» [1]. Müstəqilliyini bərpa etmiş Azərbaycanın Ermənistan Respublikasının təcavüzünə məruz qalması kimi tarixi fakt Anarın «Ağ qoç, qara qoç» [1] əsərinin sujet xəttindən yan keçmir.

Elçin Mehrəliyevin «Doxsanıncı illər» [2] romanında XX əsrin əvvəllərində ermənilərin Bakıda törətdikləri fitnə-fəsad, azərbaycanlılara qarşı törətdikləri soyqırım da əsərin süjet xəttində ətraflı şəkildə əksini tapır: «Və elə indiki kimi ara birdən-birə qarışdı, elə bil hökumət-zad yox idi, bir tərəfdən ermənilər, o biri tərəfdən qaçaq-quldur adamları qırıb-çatmağa, var-dövlətlərini ələ keçirməyə başladılar. Kim kimi öldürürdü qanı batırdı. Deyirdilər ki, Bakıda qan su yerinə axır, Qubada, Şamaxıda, Hacıqabulda kəndlər dağıdılır, adamlar məhv edilir. Amma Qəmzəgil tərəflərdə hələ sakitlik idi, Əziz bəy silahlı dəstə düzəltdiyindən gücündən qorxub çəkinirdilər. Andranikin Gorusdan Şuşaya keçəcəyi barədəki xəbər yayılanda bu tərəflərdəki əlaltıları da fəallaşdılar, baş qatmaq üçün əl-qol açıb orda-burda təxribatlar törətməyə başladılar. Məqsəd düşmən ordusunun Zəngəzurdan Qarabağa yeriməsinə əlverişli şərait yaratmaq idi» [2]. Müəllif tərəfindən Qəmzə Abbas qızının vasitəsilə tarixi faktların xatırlanması, ermənilərin tarix boyu törətdikləri vəhşiliklərin yaddan çıxmaması da əsərdə diqqətimizə çatdırılır: «Qəmzə Abbas qızı belə fikirləşdikcə uzaq keçmişin dumanlı xatirələri başında dolaşır, quduz Andranikin quldur dəstəsinin yandırıb külə döndərdiyi kəndlər, törətdiyi insan qırğınları-görünməmiş işgəncələrlə qətlə yetirilmiş uşaq, qoca, qız, gəlinin təhqir edilərək müdhiş görkəmə salınmış cəsədləri təkrar-təkrar gözləri qarşısında canlanırdı…» [2]

Unutqanlığımızın nəticəsində XX əsrin əvvəllərindən başlayan ermənilərin ərazi iddiaları on minlərlə azərbaycanlıların qətlə yetirilməsinə, öz doğma vətənlərində yüz minlərlə məcburi qaçqın və köçkün dəstəsinin yaranmasına, tarixi el-obalarından ayrı düşmələrinə gətirib çıxartdı. Əsərdə qaniçən erməni Samvel qisas gücü ilə alışıb yanaraq olmuş hadisələri, keçmiş tarixi xatırlayır. Bu ona dəlalət edir ki, ermənilər məğlubiyyətləri ilə barışa bilməmiş, azərbaycanlıların apardıqları mübarizələr, göstərdikləri qəhrəmanlıqlar erməni millətinin yaddından çıxmamışdır. Ermənilərin törətdikləri bəşəri cinayətlər, onların bir məxluq kimi daxili aləmlərinin boşluğu çılpaqlığı və reallığı ilə onların öz dilləri ilə açıqlanır: «Türkləri yaxalayıb qulaqlarını kəsəndə hər şeyi unudacağıq» və ya «əsil türk tayfasıdı, hamısını qırmaq lazımdır!» [2] Müəllif ermənilərin qisas hisslərini dinclik dövrlərində gizlədərək ürəklərində bəslədikləri kin-küdurəti onların, yəni «qoyun dərisi geymiş canavarın» Samvelin dili ilə açıb göstərir: «Ara, eşidirsən məni? Hamınızı gəbərdəcəm!…Kökünüzü kəsəcəm!… Eşidirsən?…Bax o dağda, Qəmzə Abbas qızı mənimkiləri vurub öldürüb…Babam hələ də onun qurğuşununu gəzdirir qulağının dibində…Bilirsən bunları? Mən də onun törəmələrini qıracam» [2]. Samvel azərbaycanlılara qarşı öz kin və küdurəti ilə oxucuya çatdırılır.

Nüşabə Məmmədli «Zəngulə» [9] romanında erməni millətçilərinin müxtəlif tarixi dövrlərdə törətmiş əməlləri arasında «varislik» amilinə toxunmağa çalışır. Bu məqsədlə Nüşabə Məmmədli romanında XX əsrin əvvəllərində ermənilər tərəfindən törədilmiş fəlakətlərin işıqlandırılmasına xüsusi diqqət yetirir. Əsərdə Qiyamət nənənin xatirələri əsasında olmuş hadisələrin nəqli maraq doğurur. Belə ki, unutqanlığımızın nəticəsi kimi tarixdə baş vermiş olayların yaddaşlardan bilərəkdən silinməsinin nəticəsidir ki, millətimizin başına gətirilmiş haqsızlıqlar və zülmlər yaddan çıxarılmışdır.

Elza Mollayeva «Əsir ürəklərin fəryadı» [3] romanında erməni cəmiyyətində qatı millətçiliyin dərin köklər buraxmasını, onların milli şüurunda şovinist dəyərlərin hökmranlıq etməsini qana susamış və insanlıqdan uzaqlaşmış sadə erməni qadınının hərəkətləri ilə açıqlayır: «Əlindəki daşı qəzəblə yerə çırpan erməni gəlini əsirlərə tərəf tüpürdü: «Ananız vayınıza otursun, sizi görüm qan qusasınız,

türk köpək uşaqları!»…Samvel, ver onlardan birini mənə, qanını içim…» [3] Şovinist millətçiliyin mənəviyyatsızlığını açıqlayan müəllif erməni cəmiyyətində uzun illər ərzində dərin mənəvi böhranın yayılması probleminə diqqət yetirir.

Ermənilərin XX əsrin əvvəllərində azərbaycanlılara qarşı apardıqları müharibədə uğradıqları məğlubiyyətlə barışmadıqları və azərbaycanlılara qarşı kinlə böyüdükləri, qisas hissi ilə yaşadıqları Mahirə Abdullanın «Əvvəl axır» [7] əsərində qələmə alınaraq oxucuya çatdırılır. Əsərdə Aronun dili ilə ermənilərin milli şüurunda türklər və azərbaycanlılara qarşı nifrətin artıq dərin kök buraxması açıqlanır: «Keçmişdə türklər ana babamın alnını yabayla deşib, içinə torpaq doldurublar ki, gözü torpaqdan doysun. O vaxt gəlib, babam bir türk kəndinin adamlarının əl-ayaqlarını bir-birlərinə çataqlatdırıb diri-diri çaya tökdürübmüş. Babamın acığını çıxıram» [7].

Təqdirəlayıq haldır ki, müasir romançılar erməni millətçiliyinin «varisliyi» faktını qeyd etməsi ilə yanaşı bu sindromun dərin köklərini işıqlandırırlar. Müasir Azərbaycan romanlarında erməni millətçiliyinin aqressiv xarakter alması erməni millətinin tarixi ilə əlaqələndirilir. Belə ki, tarixi Azərbaycan torpaqlarında məskunlaşmış ermənilərin milli şüurunda qorxu kompleksi kök buraxmışdır. Ermənistanın rəsmi sənədlərini və dövlət xadimlərinin çıxışlarını nəzərdən keçirsək görmək olar ki, ermənilər azərbaycanlılar və türklərdən vahimələnirlər. Ermənilərin Cənubi Qafqaza gəlmə olması onlarda daimi qorxu hissi törədir, zəbt etdikləri torpaqların əsl sahiblərinə qarşı nifrət hissi yaradır. Ermənilərin nifrəti Əli Əmirlinin «Ölü doğan şəhər» [4] romanındakı Aşotun dili ilə yığcam və aydın təsvir edilmişdir: «Ara, türk köpəy oğlu, sən bizi hərif bilmisən? Yəni sən axmaq musurman bizim torpağımızı, evimizi bizə satıb gedib kep eləmək istəyirsən? Sora deyəsən ki, erməni Aşotun anasını belə…bizdə türk öldürmək şərəf işidi. Təmizləməliyik bu torpaqları onlardan, nə qədər ki, yayılmayıblar qovmalıyıq hamısını» [4].

Əli Əmirlinin «Ölü doğan şəhər» [4] əsərində Rus imperiyası hesabına özlərinə başqa xalqların torpaqlarından Respublika yaratmalarının dadı damaqlarından getmədiyindən, başqa millətlərin torpaqları hesabına ərazilərini genişləndirib «böyük hayastan» xülyaları ilə yaşadıqları qabarıq şəkildə açıqlanır. Ərazilərin azərbaycanlılardan təmizlənilməsi – Yerevanın və ermənilərin əlində olan Xankəndinin qarşısında duran əsas məqsəddir. Müəllif erməni millətçiliyinin «milli-azadlıq» hərəkatı olmadığını aydın göstərmiş olur. Elza Mollayevanın qələmə aldığı «Əsir ürəklərin fəryadı» [3] romanında erməni millətçiliyinin əsas məqsədləri qatillərin dili ilə açıqlanır: «Dənizdən-dənizə, Qara dənizdən, Xəzərə qədər olan yerləri ələ keçirsək, bizim qarşımızda heç kim duruş gətirə bilməyəcək. Qoy hələ bu cənnət Qarabağı alaq, sonra da keçərik yavaş-yavaş o biri rayonlara» [3].

Nüşabə Məmmədli «Zəngulə [9] əsərində ermənilərin Qarabağa gəlmə olması amilinin ermənilərin sözügedən mənəvi böhranına təsir göstərdiyinə xüsusi diqqət yetirmişdir. Dünyaya körpə gətirən əsir qadının qətlə yetirilməsi zamanı erməni dığaları öz xislətlərini, bununla yanaşı yerli Qarabağlı olmamalarını biruzə verirlər: «Deyirlər qarabağlıların səsi ağlamağından bilinir ki, muzikalnıdır. Guya Qarabağın suyundandır. Bəs erməni uşaqlarının səsi niyə muzikalnı olmur? Yoxsa, qarabağlı təkcə türklərdir? İndi yoxlayarıq, görək necə ağlayırlar ki, doğulanda muzika səsi çıxarır» [9].

Qeyd etmək istərdim ki, Azərbaycan xalqına qarşı soyqırımları əks etdirən yazarlar əsirlik problemindən yan keçməmişlər. Erməni əsirliyinə düşmüş azərbaycanlılara qarşı qeyri-insani münasibətlər və törədilən qəddar əməllər, əsirlərin bədən hissələrinin donor qismində satılması Azərbaycan yazıçılarını düşündürməyə bilməzdi. Qeyd etmək lazımdır ki, erməni əsirliyi ilə əlaqəli romanlarda işıqlandırılmış faktların əksər hissəsi real faktlara əsaslanır. Məsələn, Nüşabə Məmmədlinin qələmə almış olduğu «Zəngulə» [9] əsərində Qarabağ münaqişəsi zamanı erməni əsirliyinə düşmüş azərbaycanlıların əsirlikdə saxlanılmasının real təsvir edilməsi diqqəti cəlb edir. Erməni millətçilərinə əsir düşmüş azərbaycanlıların Xankəndi yaxınlığında bir tövlədə yerləşdirilmələri, qız-gəlinlərimizin onların əllərində oyuncağa çevrilmələri ürək ağrısı ilə əsərdə öz əksini tapmışdır. Mahirə Abdullanın «Əvvəl axır» [7] əsərində əsir düşmüş azərbaycanlıların əsir düşmələrinin təsviri maraqlıdır. Belə ki, alman nasistləri kimi erməni millətçiləri işə qadir olmasından asılı olaraq əsirləri iki hissəyə bölürlər. İşə qadir olmayan soydaşlarımız əziyyətlə qətlə yetirilir, digərləri isə qul qismində Ermənistana aparılır.

Müasir Azərbaycan romanlarında Azərbaycan xalqına qarşı törədilmiş soyqırımları təsvir edən müəlliflər qaşçınlıq probleminə biganə qala bilməmişdilər. Məhz ermənilərin ərazi iddiaları öz doğ-

ma torpaqlarından yüz minlərlə azərbaycanlıların məcburi qaçqın və köçkün düşməsi ilə nəticələnməsi, qaçqınlığın Azərbaycanın ictimai-siyasi durumuna təsiri müasir milli romançılığımızda geniş əks etdirilmişdir. Məsələn, Əlibala Hacızadənin «Möcüzə» [5] romanında Ermənistanda etnik təmizliklərin törədilməsinin olayları təsvir edilir. Əsərin qəhrəmanı Leylanın taleyinin göstərilməsi ilə yazıçı yüz minlərlə qaçqın düşmüş soydaşlarımızın problemlərinə oxucunun diqqətini cəlb edir. Əsərdə azərbaycanlı qızı Leylanın dedikləri bunları tam çılpaqlığı ilə açıqlamaqla yanaşı, onun keçdiyi əzablı və ağrılı həyatı haqqında təəssürat oyadır: «Elə birinci dalğada. Səksən səkkizin fevralında. Ayaqyalın, başıaçıq. Qarlı dağların üstündən adlayıb gəlmişəm. Qoca və xəstə atam elə aşırımda, meşədəcə gözümün qabağındaca donub öldü. Balaca qardaşımla kişini bir ağacın dibində qoyub gəldik. O boyda kişini çiynimizə alıb gətirəmi bilərdik? Hər kəs öz hayındaydı. Kərbəla müsibəti idi: qoca-qarı o çovğunlu-boranlı yollarda tut kimi tökülüb qaldı, qurd-quşa yem oldu» [5].

Elza Mollayevanın «Əsir ürəklərin fəryadı» [3] əsərində qaçqın düşmüş soydaşlarımızın adından Azərbaycan cəmiyyətinə və dünya ictimaiyyətinə danlaq eşidilir. Qaçqın düşmüş soydaşımızın jurnalistə verdiyi, lakin əslində bütün dünyaya ünvanladığı suallarında erməni millətçilərinin törətdikləri vəhşiliklərinin unudulmamasına və onlardan əziyyət çəkmiş soydaşlarımızın problemlərinə biganə yanaşmamasına çağırış səsləndirilir: «Bizim kəndlərimizi erməni gülləyə basanda, oğlanlarımızı gözlərimizin qabağında asanda, qızlarımızı əsir götürəndə siz jurnalistlər, dördüncü hakimiyyət nümayəndələri harada idiniz?» [3]

Azərbaycan xalqına qarşı törədilmiş soyqırımların təsviri zamanı yazarlar qlobal problemə çevrilmiş terrorçuluğun təsvirinə də geniş yer vermişdilər. Müasir cəmiyyətdə zorakılığın ən dəhşətli təzahürlərindən biri məhz terrorçuluqdur. Azərbaycan terrorçuluğun ağırlığını artıq öz üzərində hiss etmişdir. Erməni terrorçuluğunun Azərbaycan və Türkiyəni hədəf seçməsi danılmaz, dəhşətli tarixi faktlardan biridir. Regionda erməni terrorçuluğunun geniş yayılmasını nəzərə alan yazıçı Anar «Ağ qoç, qara qoç» [1] əsərində mövcud terrorçu və ekstremist təşkilatların mahiyyətini açıqlamağa cəhd edir. Terrorçuluğa münasibətini açıqlamaq üçün müəllif «Ağ qoç, qara qoç» əsərində Məlik Məmmədli və oğlu Beyrək arasındakı dialoqdan maraqlı bir bədii priyom kimi istifadə edir. Bu dialoqda müəllif iki vacib fikrini oxuculara çatdırır. Birinci fikir, terrorçuluğun mənəviyyatsızlığıdır. Azərbaycana zərbə vurmaq məqsədi ilə terrorçular Ermənistandakı atom elektrik stansiyasını partladaraq azərbaycanlılarla yanaşı öz erməni millətini də dəhşətli faciə qarşısında qoyurlar. «Məlik:– Bilirəm– dedi– Bakıda, rayonlarda toqquşmalar, vətəndaş müharibəsi…Ceyhan borusunun partladılması. Orda yazırdılar ki, bunu ASALA ya da PKK edib.

–ASALA ya PKK, nə fərqi var? Hər halda üç gün sonra Ermənistan Atom stansiyasında partlayış oldu. Ermənistan ərazisi də, Qarabağ da indi azı üç yüz il insanlarçün yaşanılmaz hala gəldi.– Beyrək acı-acı güldü.– Qarabağ məsələsi də bir dəfəlik belə həll olundu» [1].

Anarın əsas tezisi terrorçuluğun milli mənsubiyyətinin olmamasından ibarətdır. Terrorçuluğun mənəviyyatsızlığı onların hər hansı bir milli ənənələrə və dəyərlərə arxalanmasına imkan vermir. Terrorçular, üzv olduqları təşkilatdan fərqli olmayaraq cinayətkardılar.

Sonda qeyd etmək olar ki, müasir Azərbaycan romanlarında Azərbaycan xalqına qarşı törədilmiş soyqırımların təsvirində ədiblər qarşılarına qoyduqları ədəbi məqsədlərə nail olmuşdular – janr inkişafı və məzmun baxımından əhəmiyyət kəsb edən, hadisələrin gedişatı, obrazların hərəkətləri və düşüncələri vasitəsilə öz dövrünün gerçəkliyini bədii dillə əks etdirən əsərlər yaradılmış və oxuculara çatdırılmışdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Anar. Ağ qoç, qara qoç. Seçilmiş əsərləri. Bakı: Lider, 2004;
2. Elçin Mehrəliyev. Doxsanıncı illər. Bakı: Nurlan, 2004;
3. Elza Mollayeva. Əsir ürəklərin fəryadı. Bakı: Adiloğlu, 2006;
4. Əli Əmirli. Ölü doğan şəhər. Bakı: Gənclik, 1999;
5. Əlibala Hacızadə. Möcüzə. Əsərləri. X cilddə. YII cild. Bakı: Nafta-Press, 2005;
6. Fazil Günay (Abbasov). «Qara qan». Bakı, «Elm və həyat», 2002;
7. Mahirə Abdulla. Əvvəl axır. Bakı: Qapp-Poliqraf, 2004;
8. Nigar (Qarayeva). Daş hasar. Bakı: Gənclik, 1997;
9. Nüşabə Məmmədli. Zəngulə. Bakı: Qapp-Poliqraf 2004.

**DESCRIPTION OF GENOCIDE IN AZERBAIJAN NOVELS**
**SUMMARY**

Anar «White ram, black ram», Alibaba Hajizadeh «Miracle», Elchin Mehraliyev «Ninetieth the Years», Fazil Gunay «Black blood», Nushaba Mammadli «Warbling», Nigar Garayeva «Stone fence», Elsa Mollayev «Captured of the crying hearts», Mahira Abdulla's «Before the end» criminal acts committed for the purpose of the occupation of Azerbaijani lands novels are described.

The genocide against our compatriots, which became an unforgettable bloody page in our history, often becomes the object of profound analysis in the Azerbaijani novel. The historical past and prospects of Azerbaijan, the state of national consciousness, the occupation of lands by enemy , the calamities of the Karabakh war, the life and suffering of refugees constantly attract the attention of writers. In the novels such as "The white ram, the black ram" by Anar, "Miracle" by Alibaba Hajizade, "The 90s years" by Elchin Mehraliyev, "The black blood" by Fazil Gunay, "The trile" by Nushaba Mammadli, "The stone fence" by Nigar Garayeva, "The scream of captive hearts" by Elza Mollayeva, "In the end" by Mahira Abdullah reflected crimes committed during the seizure of the Azerbaijani territories.



**ОПИСАНИЕ ГЕНОЦИДА В СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ РОМАНАХ**
**РЕЗЮМЕ**

Геноцид против наших соотечественников, который стал незабываемой кровавой страницей в нашей истории, нередко становится объектом глубокого анализа в азербайджанском романе. Историческое прошлое и перспективы Азербайджана, состояние национального сознания, вражеская оккупация земель, бедствия Карабахской войны, быт и страдания беженцев постоянно привлекают внимание писателей. В романах «Белый овен, черный овен» Анара, «Чудо» Алибабы Гаджизаде, «Девяностые годы» Эльчина Мехралиева, «Черная кровь» Фазиля Гюнайа, «Трели» Нушабы Мамедли, «Каменный забор» Нигяр Гараевой, «Крик пленных сердец» Эльзы Моллаевой, «В конце концов» Махиры Абдуллы отражены преступления совершенные в ходе захвата территорий Азербайджана.

*Fil.ü.f.d., dos.* **Mərziyyə NƏCƏFOVA**
*AMEA Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi.*

# MÜASİR AZƏRBAYCAN POEZİYASINDA YURD İTKİSİ MÖVZUSU

**Açar sözlər:** Azərbaycan, müasir, poeziya, yurd.
**Keywords:** Azerbaijan, modern poetry, country
**Ключевые слова:** Азербайджан, современная поэзия, страна

Erməni faşistlərinin törətdiyi qanlı hadisələr, fitnəkarlıq əməlləri, insanların kütləvi deportasiyası Azərbaycan xalqının səbir kasasını daşdırdı. Təcavüz, zorakılıq hər yerində etirazla qarşılandı, ölkəni mitinqlər, nümayişlər dalğası bürüdü. 1988-ci ildə Azərbaycanda milli-azadlıq hərəkatının bünövrəsi qoyuldu. Bu hərəkatın başlanmasına səbəb qondarma Dağlıq Qarabağ problemi olsa da, istiqlaliyyət uğrunda təşkilatlanmanın əlamətləri görünməkdə idi. Milli-azadlıq hərəkatının əhatə dairəsi böyüdükcə, onun məna və məzmunu da genişlənməyə, dərinləşməyə başladı.

1988-ci ildən isə Qarabağ mövzusu artıq fərqli keyfiyyətdə və fərqli biçimdə poeziyamızda təcəssüm olundu. Bu dəfə Qarabağ yalnız gözəlliklər diyarı, mədəniyyət beşiyi, görkəmli şəxsiyyətlərin boya-başa çatdığı məkan, ərazi vahidi kimi deyil, həm də təcavüzə məruz qalmış, işğal olunmuş, üzərində aborigen xalqa qarşı soyqırım, vəhşiliklər törədilmiş torpaq, vətən, yurd yeri kimi şeirimizin aparıcı təsvir və təhlil predmetinə çevrildi.

1988-ci illərin sonunda Dağlıq Qarabağ problemi közərməyə, qanamağa başlayanda Azərbaycan poeziyası öz mövqeyini, istiqamətini müəyyənləşdirməkdə gecikmədi. Bədii ədəbiyyatımızın Qarabağ uğrunda çarpışmanı, müharibəni əks etdirməsi əslində xalqımızın milli azadlıq uğrunda mübarizəsi, milli dövlət quruculuğu prosesi ilə eyni vaxta düşsə də, poeziyamızda Vətən harayı, torpaqlarımızın bütövlüyü, milli suverenlik ilə bağlı narahatçılıq, həyəcan öz ifadəsini tapmaqda idi. Hətta Qarabağ hadisələrindən əvvəl də tarixin keçdiyi dərsləri xatırladaraq «erməni probleminin», «torpaq münaqişəsinin» mövcudluğuna intuitiv bir hisslə diqqət yönəldən şairlərimiz vardı. Məsələn, hələ 1987-ci ildə şair Hüseyn Arif «Göyçəlilər, dağılmayın Göyçədən» adlı şeir yazaraq bu problem ilə bağlı yalnız şair həyəcanını deyil, həm də uzaqgörənliklə müdrik düşüncələrini ifadə etmiş, bir yanlış addımın hansı fəlakətlərə yol açacağını, səbəb olacağını qələmə almışdı:

*El çəkilər, yaxın köçər, yad itər,*
*Yurd dağılar, ocaq sönər, od itər,*
*Nəsil kəsər, tarix batar, ad itər*
*Göyçəlilər, dağılmayın Göyçədən [1, 28].*

Xatırlatmaq lazımdır ki, bu şeir yazılanda hələ Qarabağ hadisələri başlanmamışdır. Amma şair vətən övladlarını səfərbər olmağa, qədim yurd yerlərimizi tərk etməməyə, ocaqlarımızı söndürməməyə, vətənin qədrini-qiymətini bilməyə, dərk etməyə çağırırdı.

Hüseyn Arif sözə münasibətdə ustaddır, bu şeirdə "dağılmayın" sözünün yerinə daha yumşaq kəlmə də işlədə bilərdi. Lakin şair dağıdıcı daşnak qüvvələrinin zora, terrora köklənmiş niyyətini qeyri-adi fəhm ilə öncədən duyurdu. Dağıdıcı qüvvələr qarşısında duruş gətirib dayanmaq, "dağılma"maq üçün yurd-ocaq sevgisi yetərli deyil, vətən naminə gücə, qüdrətə çevrilmək gərəkdir. Hüseyn Arif göyçəlilərə "dağılmayın Göyçədən" deməklə bir tərəfdən onları çox ciddi sınağın, təhlükənin gözlənilməsindən xəbərdar edir, digər tərəfdən isə Azərbaycan cəmiyyətinə açıq mesaj ünvanlayır, şair qəlbinə dammış Göyçə nigarançılığını ictimai auditoriyaya bəyan edir.

Hüseyn Kürdoğlu öz poeziyasında şairliyi, şeiriyyəti ilə bərabər, özünün vətəndaşlıq mövqeyini də göz önünə gətirir. Doğma yurdu düşmən caynağında olan şair yalnız öz dərd-qəminin, iztirablarının izharı ilə kifayətlənmir, vətən torpağını yağılardan azad etmək üçün can nisar etməyi belə vacib sayır. Şairə görə:

*İşıqlısız, Dəlidağsız, Kəlbəcərsiz nə vətən,*
*Qırxqız hanı, Turşsu hanı, Ağbulaqsız nə vətən,*
*Qaradağsız ah çəkirdik, Qarabağsız nə vətən,*
*O gözəllik səltənəti tapdanırsa,*
*Neynirik bu canı biz?! [2, 107].*

İşğal altında qalmış ana yurdun xarabazara çevrilməsi, hər yaz uçub gələn qaranquşların öz yuvasını tapa bilməməsi və bütün bunlara uzaqdan seyriçi kimi baxılması şairi düşündürür, narahat edir. Heyvanların da öz ərazisi, yurd-yuvası uğrunda mübarizəsini misal gətirməklə şair həmvətənlərini aktiv mübarizəyə, döyüşə səsləyərək "Yuxuda kəndimizdəyəm" şeirində yazır.

*Meşədə xəyalım çaşır,*
*Qara kölgələr dolaşır.*
*Yer üstə ayı savaşır,*
*Bu savaşdan utanıram [2, 16].*

H.Kürdoğlu Vətənə sədaqət hisslərini o qədər güclü məzmun çalarında oxucuya təqdim edir ki, Vətən onun sahibi olmaq istəyən insanın nəzərində müqəddəsləşir, mötəbərləşir, ilahiləşir. Hüseyn Kürdoğlu şeirlərinin məzmun dəyəri vətənə sədaqəti, Vətən üçün döyünən ürəyinin harayı ilə hayqırır. Onun poetik qəhrəmanının düşüncəsinə görə Vətən üçün döyünən ürək Vətənin dar günündə fədakarlığa hazır olmalıdır.

Poetik gərginlik elektrik cərəyanı kimi ilk növbədə şairlərin qəlbinin tellərindən, şeirlərin misralarından oxucu ürəyinə ötürülür. Düşüncələr gərginliyində yaşayan və gərginliyi poetik düşüncələrə çevirən sənətkarlarımızdan biri də xalq şairi Bəxtiyar Vahabzadədir. Onun Qarabağ mövzusunda yazdığı şeirlərində Şuşa, Cıdır düzü yada salınır, bədxahlıq ittiham edilir. Xalq şairinin 1994-cü ildə yazdığı «Oxuma, bülbül» şeirində nəğmələrin tərənnümçüsü statusunda bülbül əsas obraz kimi səciyyələndirilmiş, Qarabağ həsrətini, intizarını onun timsalında dilə gətirmişdir. Şair bülbülə bu bahar da oxumamağı, Şuşanın qara günlərini duymağı yada salır. Deyir ki, bu dağların övladları pərən-pərən düşüblər, didərgindirlər. Hətta bülbüllər də elsiz-obasız nəğmə oxumazlar...

*Sən Cıdır düzündə cəh-cəh vuranda,*
*Qədir hay verərdi sənə bir anda*
*İndi bu dağlardan didərgin olduq.*
*İndi bu dağların Qədirləri yox.*
*Elsiz dağ da susar, bulaq da dinməz.*
*Qədirsiz Şuşada qədrin bilinməz [3, 135].*

Ümumiyyətlə, işğal olunmuş torpaqların, itirilmiş o yerlərin həsrətinin bədii ifadəsində bülbül və quş obrazına müraciət edilməsi 1990-cı illər şeirində tez-tez müşahidə olunan xarakterik hal idi.

İşğal altında qalmış Qarabağın, onun müxtəlif kəndlərinin xarabazara çevrilməsi, sərt qayalar üzərində ucalan Şuşanın satqınlıq önündə aciz qaldığının təsirli bədii əksi Nəbi Xəzrinin «Şuşa» şerində də yer almışdır:

*Ah çəkir, hay salır dərdli meşələr,*
*Millətin görəcək günləri varmış.*
*Mərdlik üzərində ucalan şəhər,*
*Satqınlıq önündə gücsüz qalarmış [4, I c. 314-315].*

İçdən gələn səmimiyyəti, sadəliyi və xalq dilinə yaxınlığı ilə bu lirika oxucuların ruhuna çox doğmadır. Bu doğmalıq N.Həsənzadə yaradıcılığını asanlıqla dildən-dilə, eldən-elə, yaddaşdan-yaddaşa ötürə bilir. N.Həsənzadə Qarabağ problemini sadəcə ağrı-acı, kədər və şikayət notları üzərində təhlilə çəkməklə deyil, fikirlərə, düşüncələrə siyasi çalarlar verməklə, problemin siyasi köklərini meydana çıxarmaqla da şeirin təhlil obyektinə çevirməyi bacarır. Və bu xüsusiyyət, çox az şairlərə məxsus olan xüsusiyyətlərdəndir. Məsələn, o, 1992-ci ildə «Şuşa» şeirində həmkarı Sabir Rüstəmxanlıya ürək ağrısı ilə müraciət edərək deyir:

*Qayıt, Şuşa getdi, Sabir, hardasan? –*
*Vaqif haray çəkir Cıdır düzündə*
*Yenə xilaf çıxdı əhdinə İran,*
*Uduzduq Arazın biz bu üzündə [5, 488].*

Adətən insan doğulduğu, boya-başa, ərsəyə çatdığı torpağın yurdun havasını, suyunu, bütövlükdə təbiətini özünə hopdurur, yaşadır. Xalq şairi Söhrab Tahirin Təbrizə, Səraba vurğunluğu və həmin hisslərin, duyğuların Qarabağ dərdləri ilə vəhdətdə verilməsi, bütöv Azərbaycan obrazının yaradılması onun əsl şair-vətəndaş olmasından, özünəməxsusluğundan irəli gəlir. Bu tərz özünəməxsusluq hisslərinin tələbi ilə yüzilliklərin genetik yaddaşından süzülüb gələn, vətənə məhəbbət Söhrab Tahirin "Qarabağ" şeirinin lirik mətnində dinamikləşir və həzin bir nəğməyə çevrilir:

*Bu Təbrizin hədiyyəsi,*
*Bu Sərabın sovqatı.*
*Şorqoğala anam özü*
*Göz yaşından duz qatıb.*
*Xankəndində hava qatı,*
*Çiskin qatı, sis qatı.*
*Qarabağım, Qarabağ [6, 360].*

Azərbaycan poeziyasında keçmişə qayıdış, cəsur insanların igidliyinin, qəhrəmanlığının yenidən poeziyaya gətirilməsi və eyni zamanda tarixdə baş vermiş mühüm hadisələrin poeziyada örnək, nümunə kimi verilməsi, bu günün vətən övladlarının mübariz ruhunda tərbiyə edilməsi şeirimizin tarixi ənənəsindən irəli gəlir. Hökumə Billuri bu ənənəyə sadiq qalan istedadlı şairlərimizdəndir. O, «Tarixə qayıdış» mövzusunda öz poetik düşüncə və hisslərini "İgidlərim, sıra-sıra səf bağlayın" adlı sərbəst şeirində ürəklərə yol tapan isti bir ovqatla ifadə edir:

*Vuruş kənd-kənd,*
*Şəhər-şəhər,*
*Oba-oba, mahal-mahal*
*Xəbər çatdır*
*Quşçuların uçub getmiş quşlarına*
*Görən gözlər, vuran əllər*
*Qalır hələ!*
*Dünya belə qalmamışdır,*
*Qalmaz belə!*
*Sən yadlardan, əlini üz,*
*Bir az da döz!*
*Haqq yerini alacaqdır! (7, 354).*

İstedadlı şair Hüseyn Kürdoğlu Qarabağla bağlı silsilə şeirlərində qaniçən, qəddar, amansız düşmənlərin cavabını qana-qanla verməyi tələb edir, Qarabağda hər gül-çiçəyin üstündə bir düşmən başı kəsilməsini tövsiyə edir. Şair 1994-cü ildə «Şəhid oldum Qarabağın üstündə» şeirində yazırdı:

*Madar deyib çox yanmayın oduma,*
*Məzarda da Şuşam düşər yadıma.*
*Zəfər günü məclis qurun adıma.*
*Qarabağda bir bulağın üstündə,*
*Şəhid oldum Qarabağın üstündə (8, 597).*

Şair Qarabağda erməni barbarlarının törətdikləri vəhşiliklərə, hətta "hər çiçəyə, hər yarpağa" vurduqları ziyana görə cavab verəcəklərini güclü bir daxili inamla bəyan etmişdir.

Şair Ənvər Əhməd uzun illər Xankəndində, Qarabağ hadisələri başladıqdan sonra isə Şuşada pedaqoji fəaliyyətlə məşğul olan milli ruhlu qələm əhlidir. Qanlı hadisələr sadədən mürəkkəbə, etirazdan qırğınlara doğru yüksələn dövrdə bütün ictimai, siyasi, hərbi proseslər onun gözləri qarşısında baş vermişdir. Ə.Əhməd Qarabağ mövzusuna çoxsaylı şeirlər və poemalar həsr etmişdir. Onun indiyədək nəşr olunan iyirmidən çox kitabından, ədəbi-bədii irsindən seçib klassik ənənəni bərpa – növbəti Qarabağnaməni tərtib etmək olar. Şairin "Bu qılınc qınında pas ata bilməz" şeirində işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda müqəddəs mübarizəyə alovlu bir çağırış var:

*Qardaş, Qarabağsız ruhumuz yandı,*
*İçək Göyçə andı, Zəngəzur andı,*
*Qələbə tarixin yazılmayıbsa,*
*Düşmənin məzarı qazılmayıbsa,*
*Bu qılınc qınında pas ata bilməz! [9, 108].*

Misralar qəvi düşmənə qarşı yandırıcı qəzəb, nifrət oxlarını andırmaqla yanaşı yurdundan, elindən-obasından didərgin düşən insanların hiss və duyğularını ovxarlayır, onları qələbə əzmi ilə yaşadır.

Milli etnoqrafiyamızın bilicisi, müdrik ağsaqqal Teymur Bünyadov hələ 1992-ci ilin mayında alim məntiqi, şair fəhmi ilə «Laçın da gedər...» şeirində yazırdı:

*Qəlbimi bürüyür belə bir kədər,*
*Şuşa əldən getsə, Laçın da gedər.*
*İlahi, belə bir dərdə dözməsin,*
*Bəs nə günə düşər onda Kəlbəcər? [10, 440].*

Şair Yaqub Məğrur uzun illər çadırda yaşadığından, onun ağrı-acılarını dərindən duyduğundan lirikasında unudulmaz çadır obrazı yaradıb. «Hamı bir-biriylə təndi çadırda» - deyən şair çadır düşərgəsinin mənzərəsini belə təsvir edir:

*Ömür dəftərini varaqlayırıq,*
*Cırıq çadırları sırıqlayırıq,*
*İnləyən vətəni soraqlayırıq,*
*Həsrətdən qəlbimiz sındı çadırda... [11, 5].*

Əlbəttə, şair təkcə öz taleyini yazmır. Öz səadət və gələcəyini axtaran təkcə o deyil, minlərlə soydaşımız «doxsandan bu yana» Vətən həsrəti ilə alışıb yanır və bir nəsil var ki, məhz çadırlarda dünyaya gəldi, bu çadırlarda böyüdü, çadırların övladı kimi özünü tanıdı. Çadır həm də vətən həsrəti ilə qovurulan bir çox insanların ünvanına çevrilmiş bir məkan kimi də poeziyamızda yaşam haqqı qazandı.

Mahirə Abdullanın Qarabağa həsr edilən lirik şeirlərində tənqidi pafos, tələb, ittiham ünsürləri daha güclüdür və torpağı qorumalı olan, amma onu bacarmayan zümrəni – kişiləri qınaq obyektinə çevirmə ümumiyyətlə qadın sənətkarlarımızın yaradıcılığında müşahidə olunan əlamətlərdəndir. M.Abdulla uşaqlığının, gəncliyinin keçdiyi yerlərin xiffətini çəkir, dözülməz duruma barışmaz münasibətini bəyan edir:

*Yaylaq yerlərimiz çoxdan tutulub,*
*Gorgah yerlərimiz satılır indi.*
*Kişmiş torpağımız, bal torpağımız*
*Erməni aşına qatılır indi –*
*Özgə qazanlarda çoxalar dəmi,*
*Burda komalaşdıq koramal kimi... [12, 51].*

Mahirə Abdullanın içdən gələn sızıltını, ağrını çox sərt tonda ifadə etməsini "yaylaq", "gorgah" yerlərini itirərək gözləmə mövqeyində dayanan xalqın ana fəryadı kimi də qəbul etmək olar.

Beləliklə, əsərlərinə istinad edilən, adlarının sadalanması yığcamlıq nöqteyi-nəzərindən mümkün olmayan yüzlərlə şairin yaradıcılığına əsaslanaraq əminliklə söyləmək olar ki, müharibə poeziyası termin və yaradıcılıq sahəsi olaraq təşəkkül mərhələsini keçməkdədir. Ədəbiyyatda Qarabağ müharibəsi, yurd yerlərinin işğalı mövzusu cəmiyyətdə vətənpərvərlik ovqatının ovxarlanmasına, düşmənə nifrətin aşılanmasına, mübarizə əhval-ruhiyyəsinin yüksəlməsinə xidmət etmiş, azadlıq, müstəqillik uğrunda savaşın müvəffəqiyyətlə sonuclanmasında ideoloji-təbliğat funksiyasını ləyaqətlə və məharətlə yerinə yetirmişdir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Arif Hüseyn. Seçilmiş əsərləri. Bakı: Xalqbank, 2011, 618 s.
2. Kürdoğlu Hüseyn. Yurduma qurbandır sözüm, Bakı: Sabah, 2005, 508 s
3. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004, 328 s.
4. Xəzri Nəbi. Şuşa nəğmələri. I cild, Bakı: Şuşa, 2001, 800 s.
5. Həsənzadə Nəriman. Şuşa nəğmələri. I cild, Bakı: Şuşa, 2001, 800 s.
6. Tahir Söhrab. Şuşa nəğmələri. I cild, Bakı: Şuşa, 2001, 800 s.
7. Hökümə B. Şuşa nəğmələri. I cild, Bakı: Şuşa, 2001, 800 s.
8. Kürdoğlu Hüseyn. Şuşa nəğmələri. I cild, Bakı: Şuşa, 2001, 800 s.
9. Əhməd Ənvər. Salam, ay anası ölmüş oğullar, Bakı: Vektor, 2008, 236 s.
10. Bünyadov Teymur. Şuşa nəğmələri. I cild, Bakı: Şuşa, 2001, 800 s
11. Məğrur Yaqub. Səni axtarıram, Bakı: Araz, 174 s.
12. Abdullayeva Mahirə. İlğım cənnətlər, Bakı: Adiloğlu, 2004, 178 s.

**THE THEME OF THE LOSS OF THE COUNTRY IN MODERN POETRY**
**SUMMARY**

As in all areas was reflected in the events in the field of literature. In particular, timely comments on events in Azerbaijan poetry. Since the majority of the 90 was the subject of poetry. The loss of the country, refugees, martyrdom, heroism and so on. has become the leading theme of poetry. The article B.Vahabzadeh, H.Billuri, Sohrab Tahir, N.Həsanzadeh and others. poems are analyzed.

**ТЕМА ПОТЕРИ СТРАНЫ В СОВРЕМЕННОЙ ПОЭЗИИ**
**РЕЗЮМЕ**

Как и во всех областях, нашло свое отражение в событиях в области литературы. В частности, своевременные комментарии о событиях в азербайджанской поэзии. Поскольку большинство 90 был предметом поэзии. Потеря страны, беженцев, мученичества, героизма и так далее, стала ведущей темой поэзии. В статье Б. Вагабзаде, Х. Биллури, Сохраб Тахир, Н. Гасанзаде и другие. стихи анализируются.

*Fil.ü.f.d.* **Səba NAMAZOVA**
*Gəncə Dövlət Universitetinin baş müəllimi*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏDİLMİŞ QIRĞINLARA "MOLLA NƏSRƏDDİN" JURNALININ MÜNASİBƏTİ

**Açar sözlər:** "Molla Nəsrəddin" jurnalı, satirik üslub, kütləvi qırğın, çarizmin mürtəce siyasəti, qanlı hadisələr
**Keywords:** "Molla Nasreddin" journal, satirical style, massacres, reactionary policy of Tsarism, bloody incident
**Ключевые слова:** журнал «Молла Насреддин», сатирический стиль, массовые убийства, реакционная политика царизма, кровавые события

XX əsrin əvvəllərində Şimali Azərbaycanda milli azadlıq hərəkatının yüksəlişi artıq qüvvələri durmadan zəifləməkdə olan imperiyanı təşvişə salmışdı. Buna görə də get-gedə güclənən azadlıq hərəkatı dalğasının qarşısını almaq məqsədi ilə ölkədə yaşayan ayrı-ayrı xalqlar arasında fitnəkarlıqla milli qırğın törədilirdi. Belə qırğınlardan biri də Azərbaycan xalqı ilə ermənilərin arasına salınmışdı. Həmin kütləvi qırğın, ilk növbədə, Qafqaz xalqlarının azadlıq və istiqlaliyyət mübarizəsinin qarşısının alınmasına hesablanmışdı.

Satirik "Molla Nəsrəddin" jurnalı da elə ilk sayındakı "Bilməli xəbərlər" bölümündə haqqında bəhs olunan mövzuya aid düşüncələrini sual formasında ünvanlamaqla əslində məkrli siyasətin hədəfinə çevrilmiş xalqın durumu ilə bağlı narahatlığını nəzərə çatdırmışdı:

"Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olundular ki, təbiblər onların çölə çıxmağını rəva görmürdülər" [4].

"Molla Nəsrəddin" jurnalı xalqı öz siyasi azadlığından və hüquq bərabərliyindən məhrum etməyə cəhd göstərən çarizmin mürtəce siyasətinə qarşı kəskin münasibətini proqram xarakterli birinci nömrəsində karikaturanın dili ilə canlı və parlaq şəkildə açıb göstərmişdi. Jurnalın sonrakı nömrələrində də o məsələyə müxtəlif istiqamətli materiallar və karikaturalar həsr edilmişdi. Cəlil Məmmədquluzadə "Xatiratım" memuarında həmin təsvirlərdən irəli gələn mövzunu belə şərh etmişdi:

"İçəri səhifələrin birində də qoşa şəkil çəkilib: üst şəkildə bir tüfəngli kişiyə bir müsəlman kəndlisi öz qaramallarını nişan verir və deyir: "Mən ölüm götür bu heyvanları, ver mənə o tüfəngi". Altdakı şəkildə bir erməni kişisi əli tüfəngli bir rus saldatına bir yüz manatlıq kağız uzadır, rus dilində belə deyir: "Pajalusta, vazmi denqi, davay rujyo"; yəni xahiş edirəm, bu pulu alasan və o tüfəngi mənə verəsən.

Məlumdur ki, hər bir şəkillər o əsrin aynası olan kimi, bu iki şəkil də erməni-müsəlman davasının övzanını (vəziyyətini – S. N.) göstərirdi" [1, 90].

"Molla Nəsrəddin" məcmuəsinin 25-ci sayındakı "Aclar" sərlövhəli yazıda isə ermənilərin bir daha cəld tərpənərək fürsət düşən kimi əlverişli şəraitdən və vaxtdan hiyləgərcəsinə faydalanmaları əks olunmuşdu:

"Bildir murdar ermənilər Armavir şəhərində iyun ayında ac qardaşlarından ötrü yüz min put un aldılar və sentyabr ayında onu Gəncə quberniyasında hazır elədilər və başladılar ac ermənilərə paylamağa" [8].

Bu sətirlərdə "Molla Nəsrəddin"in ermənilərə, onların xislətinə, hiyləgər və məkrli, ikiüzlü olmalarına bəslədiyi münasibət aydın duyulmaqdadır.

Müşahidə və araşdırmalar göstərir ki, o zamandan etibarən xain niyyətli ermənilərin hiyləgər manevrləri, ələlxüsus da bütünlüklə şəhər həyatına maneəsiz nüfuz etmələri Gəncədə də gələcək təhlükələr üçün stimul olmuşdu.

Digər bir məqam isə ondan ibarətdir ki, mənfur ermənilər o dövrdə müsəlmanların zəif cəhətlərini yaxşı bilir və yeri gəldikcə bu çatışmazlıqlardan məharətlə istifadə edirdilər. "Molla Nəsrəddin" məcmuəsinin 25 oktyabr 1909-cu ildə nəşr olunmuş 43-cü sayında yer alan "Erməni-müsəlman davası" adlı yazıda da həmin məsələyə yetərincə diqqət ayrılmış və göstərilmişdi ki, əsas etibarilə müsəlmanların o zamanlar maarifə az meyil etmələri erməni hökmranlığının Gəncədə davam etməsinə şərait yaradırdı. Buna görə də Gəncə quberniyasının maarif inspektorunun dili ilə "Molla Nəsrəddin" məcmuəsində həmin müddətdə baş verənlərə münasibət satirik üslubda ifadə edilmişdi:

"Gəncə quberniyasında erməni-müsəlman davası köhnə sayaq ilə davam etməkdədir. ... Ermənilər Rusiyadan partiya ilə "ruçka" adında yaxşı tüfənglər gətirtdirirlər və hətta mürəkkəb adlanan barıtı da özünəməxsus karxanalarında əmələ gətirirlər. Müsəlmanların bu cür cəbbəxanaları ermənilərə nisbət çox azdır və məşq edən müəllimləri tənbəl və bihissdirlər. Həftədə altı dəfə erməni zabitləri şagirdlərin əlinə "ruçka" tüfənglərini verib və qabaqlarına "dəftər" adlı nişangahlar qoyub nişanə vurdururlar" [11].

Burada müəllifin öz düşüncələrinə satirik jurnalın ümumi ruhuna uyğun forma verməklə əslində problemin çoxlarına tamamən bəlli olmayan tərəflərindən oxucunu agah etməyə çalışdığı da sezilir. Ən əsası, eyhamlı təsvir üsuluna müraciət bu dəfə də "Molla Nəsrəddin" yazarının qələmində aparıcı xətt kimi nəzərdən yayınmır.

Məmməd Səid Ordubadi 1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni-müsəlman davasının tarixini müfəssəl əks etdirən "Qanlı illər" adlı əsərində ermənilərlə müsəlmanlar arasında yaranmış güclü iğtişaşların səbəblərini açıqlayarkən son dərəcə önəmli bir məqam üzərində ətraflı dayanaraq yazırdı:

"Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və ermənilərin o əqidədən necə istifadə etmələrini düşünmədilər. Bakı faciəsindən sonra erməni-müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir cəhət var isə, o da müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir" [3, 9].

Doğrudan da, o dövrün reallığa söykənən hadisələrinə istinadən demək olar ki, erməni-müsəlman davası ilə əlaqədar gərginlik yerlərdə səngimir, bu cür vəziyyət nəinki Gəncədə, həmçinin Bakıda, İrəvanda və digər ərazilərdə hökm sürürdü. Şübhə yoxdur ki, belə "uzaqgörənliklə" icra edilmiş siyasətdə bəzi "müsəlmanların" hələ ötən əsrin əvvəllərində təhsilə, elmə qarşı etinasızlığı mühüm rol oynamışdır.

Filologiya üzrə elmlər doktoru, professor Məmməd Məmmədov "Molla Nəsrəddin" jurnalının lap ilk nömrəsindən başlayaraq Cəlil Məmmədquluzadə çar hökumətinin murdar siyasəti nəticəsində Qafqazda qızışan erməni-müsəlman qırğınını özünəməxsus acı kinayə ilə satira atəşinə tutmuşdur" [2, 41], – deyə məhz bu cəhətlərə işarə etmişdi. O öz tədqiqatında, həmçinin jurnalın ("Molla Nəsrəddin" jurnalının) əsl məramını ətraflı şərh edərək onu da bildirmişdi ki, "ilk nömrədə dərc etdiyi ədəbi-bədii və illüstrativ materiallarda ədibin dönə-dönə həmin məsələyə qayıtması məhz bununla əlaqədar idi" [2, 56].

Gəncə də daxil olmaqla Şimali Azərbaycanın əksər bölgələrində ermənilər tərəfindən törədilmiş qanlı hadisələrə o dövrdə hakimiyyətdə olan qüvvələrin laqeydcəsinə yanaşmasını "Molla Nəsrəddin" jurnalı öz səhifələrində açıq-aydın ifadə etmişdi: "Bizim adil urus hakimlərimiz ermənilərin qorxusundan və həm mənfəətlərinin xatirinə müsəmanların haqq sözlərin gizlədib, qanların həlal edirlər" [5]. Buna görə də "Molla Nəsrəddin" jurnalı qərarlaşdırır ki, "xalqı gərək yazmaqnan və kinayə sözlər ilən xabi-qəflətdən oyadıb başa salam" [6].

"Molla Nəsrəddin" jurnalı ayrı-ayrı nömrələrində erməni-müsəlman davası ilə bağlı məsələyə dəfələrlə toxunmuş, hansı vasitə ilə olursa-olsun, ifşa hədəfini qətiyyən nəzərdən yayındırmamışdı. Jurnalın "Ticarət və ekonomi xəbərləri" bu baxımdan maraqlıdır. Həmin xəbərin birində deyilirdi:

"Şüurlu və təcrübəli adamlar var-yoxlarını cəm eləyib verirlər tüfəngə və patrona və bir xəlvət yer tapıb gizləyirlər və bunu da bilirlər ki, indi tüfəngə və patrona hörmət qoyan yoxdu, ondan ötrü ki, indi sakitlikdir, dava-zad yoxdu və bunu da yəqin bilirlər ki, əgər birdən erməni-müsəlman davası düşsə, tüfəngin biri qalxacaq dörd yüz-beş yüz manata, patronun biri gedəcək yarım manata" [9].

Dava xofu sonrakı müddətdə də əhalini tərk etməmişdi. Bu vəziyyətlə bağlı "Molla Nəsrəddin" jurnalı 49-cu sayında onunla əlaqədar məsələyə (erməni-müsəlman davası) eyhamla belə toxunmuşdu:

"… Gəncədə həmin ilin axırıncı ayında (1907-ci ilin dekabr ayında – S.N.) bir qəribə həngamə üz verdi. Bir gün müsəlman məhəlləsində "qoyma ha, qoyma" düşdü. Çoxusu elə xəyal elədi ki, erməni-müsəlman davası düşdü" [10].

"Molla Nəsrəddin"in 24 mart 1907-ci il tarixli 12-ci sayında yer alan karikaturada isə müsəlmanla ermənininin vuruş səhnəsi təsvir edilmişdi. Burada çarizmin qırğın siyasəti şeytanın görünüşündə ümumiləşdirilərək göstərilirdi ki, onun təhriki ilə müsəlmanla erməni bir-biri ilə savaşa çıxır. Tərəf-

lər vuruşarkən şadlanan şeytan, onlar arasında sülh yaranarkən tələşla qaçmağa üz tutur [7]. Həmin təsvirdən də göründüyü kimi, çar Rusiyasının hakim dairələrinin hələ o zamandan – XX əsrin əvvəllərindən erməni-müsəlman davasına rəvac verən fitnəkar hərəkətləri, iblisanə davranışları ümumilikdə ölkədə olduqca acı nəticələrə gətirib çıxarır, vəziyyəti daha da mürəkkəbləşdirirdi. O siyasətin, ümumən ölkədə baş verən sosial-siyasi, milli-mədəni proseslərin ağrıları, əldə edilən uğurlar, nəzərə çarpan çatışmazlıqlar həm də Gəncənin simasında "Molla Nəsrəddin"in diqqətindən yayınmamışdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Məmmədquluzadə C. Əsərləri. Tərtib edəni və izahların müəllifi: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli. Dörd cilddə, IV cild. Bakı: Öndər, 2004
2. Məmmədov M. M.Ə.Sabir: mübahisələr, həqiqətlər. Bakı: Yazıçı, 1990
3. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi (çapa hazırlayan Ə.Bağırov). Bakı, Qarabağa Xalq Yardımı Komitəsi, 1991
4. "Molla Nəsrəddin" jurnalı. 7 aprel 1906, № 1
5. "Molla Nəsrəddin" jurnalı. 14 iyul 1906, № 15
6. "Molla Nəsrəddin" jurnalı. 18 avqust 1906, № 20
7. "Molla Nəsrəddin" jurnalı. 24 mart 1907, № 12
8. "Molla Nəsrəddin" jurnalı. 8 iyul 1907, № 25
9. "Molla Nəsrəddin" jurnalı. 18 noyabr 1907, № 43
10. "Molla Nəsrəddin" jurnalı. 30 dekabr 1907, № 49
11. "Molla Nəsrəddin" jurnalı. 25 oktyabr 1909, № 43


## RESPONSE OF "MOLLA NASREDDIN" JOURNAL TO THE MASSACRES COMMITTED BY THE EARLY XX CENTURY AGAINST AZERBAIJANI PEOPLE

## SUMMARY


The political struggle and national liberation movement of the early twentieth century in Azerbaijan have alarmed gradually flagging empire. For this reason, there have been made attempts of provocation intended to incite ethnic massacres amid different nations living in the country. Such massacres were committed against Azerbaijani people systematically and with particular brutality. Naturally, this kind of mass murders were intended first and foremost to prevent the peoples' struggle for freedom and independence. The satirical journal "Molla Nasreddin" started to be published in 1906, placed on own pages articles expressing abrupt attitude towards the provocative policy of Tsarism aimed at denying political freedom and legal equality of people, at the same time emphasized the indifference of the government forces concerning bloody incidents committed by Armenians in most regions of Azerbaijan.


## РЕАКЦИЯ ЖУРНАЛА «МОЛЛА НАСРЕДДИН» НА МАССОВЫЕ УБИЙСТВА, УЧИНЕННЫЕ В НАЧАЛЕ XX ВЕКА ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

## РЕЗЮМЕ


Политическая борьба и национально-освободительное движение начала XX века в Азербайджане встревожили постепенно слабеющую империю. По этой причине были предприняты попытки провокации с целью разжигания национальной резни среди проживающих в стране разных народов. Такие погромы против азербайджанского народа совершались планомерно и с особой жестокостью. Естественно, массовые убийства такого рода были направлены в первую очередь на предотвращение борьбы народов за свободу и независимость. Сатирический журнал «Молла Насреддин», который начал издаваться в 1906 году, на своих страницах особое место вуделял статьям, выражавшие резкое отношение к провокационной политике царизма, направленной на лишение политической свободы и правового равенства народа, при этом подчеркивал равнодушие правительственных сил по отношению к кровавым событиям, совершенным армянами в большинстве регионов Азербайджана.

**Təranə ŞİRVANOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, baş müəllim*

# ÇAR HÖKUMƏTİNIN AZƏRBAYCANLILARIN ERMƏNİLƏR TƏRƏFİNDƏN TÖRƏDİLƏN SOYQIRIMLARINA HİMAYƏSİ: ƏSAS MARAQLAR, VASİTƏLƏR, FORMALAR

**Açar sözlər:** etnik təmizləmə, türk-müsəlman soyqırımı, müstəmləkə siyasəti, daşnaklar, türksüz Ermənistan
**Keywords:** ethnic cleansing, Turkic-Muslim genocide, colonial policy, Dashnaks, Armenia without Turks
**Ключевые слова:** этническая чистка, тюрко-мусульманский геноцид, колониальная политика, дашнаки, Армения без тюрков

Rusiyanın Cənub-Qərbi Azərbaycanı işğal etdikdən sonra onun əhalisinə münasibətdəki "ikili siyasət"i, yəni ermənilərin yüksək səviyyədə himayəsi və türk-müsəlmanlarınsa hədsiz sıxışdırılması ikinciləri tezliklə çox böyük və təhlükəli milli-siyasi problemlərlə qarşılaşdırdı. İqtisadiyyat-ticarət, təhsil-mədəniyyət sahələrindəki mühüm irəliləyişlər və idarəçilikdə geniş şəkildə təmsilolunma ermənilərin "türk-müsəlman düşmənçiliyi" yönündəki planlarına, təbliğat və fəaliyyətlərinə təkan verdi. Tiflisdə çıxan erməni qəzeti "Mşak"ın redaktoru hələ 1885-ci ildə müsəlmanlara torpaqları azad edərək "Ərəbistan səhralarına köçməyi" təklif etmişdi [14, s.14].

Bütün bunlar isə çarlıq-ermənilər cütlüyünün "etnik təmizləmə-yandırılmış torpaq" taktikasının gerçəkləşdirilməsinə gətirib çıxardı. Bütün Cənubi Qafqazda, o cümlədən də Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində, artıq yüz ildən çox davam edən türk-müsəlman soyqırımları, deportasiyalar prosesinə başlanıldı. Azərbaycanlıların kütləvi şəkildə məhv edilməsini və deportasiyalarını Böyük Ermənistanın bərpası strategiyasının həyata keçirilməsinin əsas vasitələrindən biri sayan ermənilər bu işdə çox mənfur rol oynadılar.

Çar hökuməti Cənubi Qafqazın işğalının ilk çağlarından etibarən erməniləri regionun digər xalqlarına qarşı bir alətə–zərbə qüvvəsinə çevirməyə başlamışdı. Bu kontekstdə Cənub-Qərbi Azərbaycanda da ermənilərdən yerli türk-müsəlman əhaliyə qarşı istifadə olunmuşdu. Bütün "tarixləri" boyu istifadə edilmə xəstəliyinə düçar olan ermənilər həm də öz strateji maraqlarını əsas tutaraq türk-müsəlman düşmənçiliyi siyasətini yeridirdilər.

Çarlığın ermənilərin iqtisadi mövqelərini qüvvətləndirməsi və təhsil-mədəniyyət sahələrində onlara xüsusi qayğı göstərməsi, təbii olaraq, Cənub-Qərbi Azərbaycan mahallarında da etnik münasibətlərdəki gərginliyi artırırdı. İqtisadi-maliyyə cəhətdən güclənən ermənilərin, ilk vaxtlarda mütəşəkkil qaydada və geniş şəkildə olmasa belə, altdan-altdan silahlanmaları da hökumət tərəfindən yönləndirilirdi.

İmperiya siyasətinin himayəsi ilə ermənilər tərəfindən törədilən türk-müsəlman soyqırımlarına hazırlıq işlərinə isə bilavasitə XIX əsrin sonlarından etibarən start verildi. Bunu şərtləndirənsə aşağıdakı amillər oldu:

1. Rusiya imperiyası daxilində siyasi vəziyyətin kəskinləşməsi və mütləqiyyət rejimi əleyhinə mübarizənin güclənməsi. Bunlardan da xeyli rahatsız olan çar hökuməti xalqlararası ədavət yaradaraq onu qızışdırdı və bu kontekstdə ermənilərin "türk-müsəlman düşmənçiliyi" təbliğatına, fəaliyyətinə rəvac verdi.

Erməniləri İrəvan, Naxçıvan, Qarabağ və s. ərazilərimizdə mütəşəkkil toplum, əslində müəyyən "zərbə qüvvəsi" halına gətirən Rusiya həm də türkçülük və islamçılığın çarlıqda yayılmasını nəzərə alaraq türk-müsəlmanları qorxu altında saxlamaq xəttini tutdu. Bu niyyətlə də ermənilərin Cənub-Qərbi Azərbaycanda və digər ərazilərimizdə türk-müsəlmanları qırmalarının təşkilinə və bu işin hərtərəfli dəstəklənməsinə üstünlük verildi.

2. XIX əsrin sonu üçün artıq xeyli zəifləməsinə baxmayaraq, Osmanlı dövləti ermənilərin Şərqi Anadoluda torpaq ələ keçirmək səylərini, bu məqsədə yönəlmiş hər cür pozuculuq fəaliyyətlərini (üsyanlar, terror hərəkətləri və s.) dəf edə bildi. Osmanlı dövləti ərazisində - Şərqi Anadoludakı uğursuzluqlarının əvəzini Qafqazda çıxmağa çalışan ermənilər bu dəfə "öz dövlətçiliklərini bərpa"

etmək işinin əsas ağırlıq mərkəzi olaraq Cənub-Qərbi Azərbaycan torpaqlarında fəaliyyəti önə çəkdilər. Və buna müvafiq olaraq da, İrəvan-Naxçıvan-Qarabağ mahallarında türksüz-müsəlmansız Ermənistan naminə milli qırğınlar törədildi.

3. Böyük Ermənistanın bərpası missiyasını öz üzərinə götürən Daşnaksütyun partiyası (əslində orta əsrlər nümunəli hərbi orden) çarlığın antitürk siyasətindən və onun himayəsindən faydalanaraq XX yüzillikdə müsəlman soyqırımlarının əsas təşkilatçılarından oldu. Həmin əsrin lap əvvəlindəki Daşnaksütyun - çar mütləqiyyəti, Eçmiədzin katalikosluğu-imperatorluq ziddiyyətləri, qarşıdurmasına baxmayaraq, Rusiya-ermənilər cütlüyü türk-müsəlman soyqırımlarında aparıcı rol oynadı.

**Ermənilərin törətdiyi türk-müsəlman soyqırımlarına çarizmin himayəsi:** Beləliklə, bütün bu terror-təxribat-toqquşmalar bir axara yönəldilərək ermənilərin azərbaycanlılara qarşı ilk soyqırım təcrübəsini meydana gətirdi. Onlar 1905-1906-cı illərdə Bakı ilə yanaşı İrəvan, Naxçıvan, Qarabağ mahallarında türk-müsəlman qırğınları törətdilər. Bu qırğınlar - imperiyanın müstəmləkə siyasətinə uyğun olaraq və Birinci rus inqilabının hədəflərini yayındırmaq məqsədilə - çar hökuməti tərəfindən əsla əngəllənmədi, əksinə, stimullaşdırıldı.

Çarlığın 1905-1906-cı illərdə ermənilərin Azərbaycanda türk-müsəlman soyqırımlarının törədilməsinə mane olmaması məsələlərinə dair tarixi mənbələrdə və ədəbiyyatda çoxlu şərh və baxışlar mövcuddur. Onların təhlili göstərir ki, 1903-1904-cü illərdəki "çarlıq-erməni ixtilafları"na baxmayaraq, rus imperiyası "erməni-müsəlman davası"nın qızışdırılmasında və bu prosesdə birinci tərəfin dəstəklənməsində maraqlı olmuşdu.

Qafqaz jandarmeriyasının şefi Şirinkin Rusiyanın Daxili İşlər nazirinə yazırdı ki, özlərinin təşkil etdikləri erməni-tatar qırğını ilə xalqların diqqətini inqilabdan yayındırmaq mümkün oldu [9, s.63]. Azərbaycanın tanınmış siyasət və elm adamlarından Mirzə Bala Məmmədzadənin fikrincə, "...rusların Qafqazda arxalana biləcəkləri bir qüvvə vardısa, o da ermənilər idi..."" [3, s.37].

M.Məmmədzadənin bu fikrini canişin İ.Voronsov-Daşkovun çara yazdıqları da təsdiqləyir: ...bütün tarix boyu Qafqaz ərazisində bizim Türkiyə ilə əlaqələrimiz və bu sahədəki siyasətimiz hələ Pyotr zamanından başlayaraq ermənilərin xeyirxahlığına əsaslanıb, onlar müharibə yollarında həmişə bizə yardım göstəriblər" [13, s.118]. Ermənilərin Rusiyaya göstərdiyi xidməti vurğulayan canişin eyni zamanda onların müsəlmanlarla davasını imperiyada yaranmış ağır vəziyyətdən çıxmaq üçün göydən düşmüş fürsət kimi qiymətləndirmişdi.

XX əsrdəki ilk erməni-müsəlman davasına aid yanaşmalar arasında onun səbəbiylə bağlı çar hökuməti ilə ermənilərin (Daşnaksütyunun) qarşılıqlı ittihamlarını əks etdirən fikir və mülahizələr də mühüm yer tutur[12]. Əsas baiskarın Daşnaksütyunun olmasına dair mövqelər sırasında həm bir sıra rus məmurlarını, həm də bəzi erməni tədqiqatçılarını qeyd etmək olar.

Digər bir sənəd - Bakı polismeysterinin Müvəqqəti Bakı general-qubernatoruna yazdığı 1905-ci il 28 avqust tarixli, 825 saylı raportdan da hökumətin baş verənlərdə (qırğın, iğtişaş və s.) erməniləri - daşnakları suçladığı ortaya çıxır. 1905-ci il Şuşa hadisələrini-silahlı toqquşmalar, hərc-mərclik və b.- diqqətə yetirən polismeyster bu məqamları qabartmışdı:

Gəlmələr-ermənilər yerli müsəlmanları kənarlaşdıraraq sənaye və ticarəti əllərinə almışlar və neft sənayesi onların asılılığındadır, bu iki millət arasında, əsasən, iqtisadi zəmində (?!-T.Ş.) düşmənçilik vardır; həqiqətən ermənilər hədsiz şəkildə öz məhdud milli separatçı ideyalarına - erməni xalqının müstəqilliyinə çalışırlar; özlərini daha varlı və mədəni sayan ermənilər müsəlmanlara yuxarıdan aşağı baxır, xeyirxah münasibət bəsləmirlər və axırıncılar da bunu gözəl başa düşürlər; azərbaycanlıların tərksilah olunması; əsgərlərə və hökumət adamlarına atəş açanların çoxunu ermənilərin təşkil etmələri və onların yaxalanmalarının çətinliyi və s.

Bu sənəddə sadalanan fikirlərlə və ümumiyyətlə, Qafqazda - İrəvan, Naxçıvan, Qarabağ mahallarında baş verən hadisələrlə bağlı bunu izləmək olur: hökumət məmurları və polis departamenti Qafqazı qan çanağına döndərən həmin hadisələrə sadəcə küçə iğtişaşları və iqtisadi maraqların toqquşması zəminində baş verən silahlı qarşıdurmalar donu geyindirməyə çalışır, habelə ermənilərin törətdiklərinin qarşısını almaqdan, onların yaxşı təşkil olunmuş bu hərəkatına qarşı ciddi tədbir görməkdən ya çəkinir ya da bizcə, ən dəqiqi, müvafiq tədbirlər görmək istəmirdilər.

Rusiyanın Baş naziri P.Stolıpinin canişin İ.Voronsov-Daşkovla yazışmalarına [9, s.63-64] da önəm vermək lazımdır. Vaxtilə SSRİ-də - Moskvada çıxan "Krasnıy arxiv" jurnalının 34-cü cildində

nəşr edilən bu yazışmalardan, habelə digər mənbələrdən, hətta Baş nazirin canişini erməni inqilabçılarına (yəni daşnaklara və digərlərinə) həddən artıq mülayim münasibət bəsləməkdə məzəmmətlədiyi aydın olur [1, s.155].

Az öncə qeyd etdiyimiz kimi, Daşnaksütyunu 1905-1906-cı illər erməni-müsəlman davasının başlıca baiskarı sayan baxışlara erməni tədqiqatçılarının arasında da rast gəlinir. Doğrudur, onlardan bəziləri (Q.Qaloyan, T.Ağayan, A.Arutyunyan və b.) həm sovet dövründəki ab-havaya uyğun olaraq, həm də erməniliyi sığortalamaq məqsədilə türk-müsəlmanlara qarşı törədilən soyqırımlarını daşnakların ayağına yazır, bunun yalnız onların işi ola biləcəyini söyləyirlər.

Digər yandan erməni müəlliflərindən – "Daşnaklar çarlığın sadiq qullarıdır" yazan – A.Lalayan [13, s.98] və daşnaklar gəldilər-milli nifrət gətirdilər... bu zəmində isə erməni-tatar qırğınından... başqa bir şey böyüyə bilməzdi deyən Karibi [13, s.159] və b. reallığa dayanan mövqedən çıxış etmişdilər. Onların ümumi qənaətinə görə isə daşnakların Cənubi Qafqazdakı fəaliyyəti - əhalisi sülh və anlaşma şəraitində yaşayan bu ölkənin tarixində ən bədbəxt an hesab olunmalıdır [13, s.159].

XX əsrin ilk erməni-müsəlman davasının, yəni İrəvan, Naxçıvan, Qarabağ bölgələrində 1905-ci ildə törədilən türk qırğınlarının səbəbkarı olaraq daşnakları görən yanaşmalardan biri də O.Apresyan adlı erməninin, amerikalı L.Hartvill tərəfindən qələmə alınan xatirələrində ifadə olunmuşdur. 1928-ci ildə ABŞ-da İnsanlar belədir. 1918-1922-ci illər Azərbaycan hadisələri bir erməninin xatirələrində adı ilə kitab kimi çap olunan həmin xatirələri sərf-nəzər edərkən nələrə rast gəlinir?

Bir müddət (1922-1926-cı illərdə) özü də Transqafqazın müxtəlif milli bölgələrindəki əkinçilik təsərrüfatlarında mütəxəssis olaraq çalışan amerikalı L.Hartvillə öz xatirələrini anladan O.Apresyan Xankəndində doğulan və Şuşada təhsil alan bir Qarabağlı erməni idi. O da bu, məlum və önəmli bir tarixi faktı etiraf etmişdi ki, ermənilər Qarabağa gəlmə idilər və türk yurdu olan bu diyarda sayca çoxluğu təşkil edən müsəlman türklər arasında bir xristian azlığı halında yaşayırdılar [1, s.38].

Hadisə və proseslərin canlı şahidi olan O.Apresyanın xatirələrində - L.Hartvillin kitabında, apardığımız tədqiqatla bağlı, diqqətimizi çəkən başlıca fikirləri tezisvari ifadə etmək istərdik;

- Qarabağda 1905-ci ilə qədər türklərlə ermənilər arasında heç bir ixtilafın olmaması və onların sülh, qarşılıqlı anlaşma şəraitində yaşamaları;
- hədəfi olmayan bir yürüşə çıxmış erməni millətinin özünə Qafqazda muxtar dövlət qurmaq yönündəki təbliğatı;
- türk-müsəlman düşmənçiliyinin qızışdırılması və ilk müharibə və soyqırım təcrübəsinin 1905-ci ildə əldə edilməsi;
- Daşnaksütyunun 1905-ci ildən etibarən Qarabağda geniş fəaliyyətə başlaması və Şuşada həmin ildə törədilən türk qırğınlarında mənfur rol oynaması.

Daşnaksütyun partiyasının bir sənədinin ifadəsi olan arxiv materialında yazılır ki, hökumətlə müharibəni Tiflisə və ya hətta Peterburqa keçirə bilərik, tatarlarla müharibəni isə başqa yerə keçirmək olmaz.

Difai partiyasının 1912-ci il 16 mart tarixli, A/59 saylı bəyannaməsində yazılmışdı ki, daşnaklar silah gücü ilə Qafqaz hökumətini özünə tabe edib ən ümdə məqsədlərinə nail olmağa çalışır; onların əsas məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir; ermənilərin məqsədi özlərinə Qafqazda milli, müstəqil dövlət yaratmaqdır [4, s.121].

Çoxsaylı arxiv sənədlərinə dayanaraq, ermənilərin 1905-1906-cı illərdə Azərbaycan türklərinə qarşı Rusiyanın himayəsi ilə qırğın törətdikləri qənaətinə gəlirik. [7, s.268]. Erməni-azərbaycanlı münaqişəsinin Qafqazdakı rəsmi hakimiyyətin xəbəri olmadan başladığını düşünmək qeyri-mümkündür [10, s.134].

M.S.Ordubadi çarlığın 1905-ci il türk-müsəlman qırğınlarındakı rolunu bir qədər yumşaq tərzdə şərh etmişdir. Onun fikrincə, erməni-müsəlman davasına 2-ci səbəb, məhəlli hökumət məmurlarının müharibə zamanlarındakı etinasızlığıdır [5, s.8]. Qanlı illərdə habelə yazılır ki, Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər" [5, s.8].

Karibinin [13, s.l60], Q.Qaloyanın [11, s.360] əsərlərində başqa səpgilərdən izah olunan bəzi faktlar da əslində erməni-müsəlman qarşıdurmasında çarlığın birinci tərəfi dəstəklədiyini söyləməyə əsas verir. İ.Voronsov-Daşkovun "Qafqazda hakimiyyətin erməni xalqına tamamilə xeyirxah münasibət yaratmasına müyəssər olması" fikrinin (Karibi), bizcə, əlavə şərhə ehtiyacı yoxdur. II Nikolayın 1905-ci il avqustun 1-də hökumət senatına verdiyi Ali fərmanda 1903-cü il 12 iyun tarixli məlum qanun dövlət səhvi olaraq etiraf edilir və erməni-qriqoriyan kilsəsinin müsadirə olunan əmlakının qaytarılması və kilsə-prixod məktəblərinin hüquqlarının bərpası nəzərdə tutulurdu [10, s.36].

Bir qrup erməni tarixçisi (Q.Qaloyan və b.) çarlığın "erməni-müsəlman davası"nın təşkilində mühüm rol oynadığını əsaslandırmağa çalışarkən - l918-ci ildə Şimali Azərbaycanda törədilən dəhşətli türk-müsəlman soyqırımlarının ideoloqu və təşkilatçısı olan S.Şaumyana da istinad edirlər. 1918-ci ildə özü türk-müsəlman soyqırımlarını təşkil edən S.Şaumyan 1905-ci ildəki "qardaş qırğınının həqiqi baiskarı kimi çar mütləqiyyətini görürdü.

V.İşxanyan XX əsrin əvvəllərində Cənubi Qafqazda törədilən erməni-müsəlman toqquşmalarından bəhs edərkən bunu çar hakimiyyətinin mürtəce siyasətinin nəticəsi kimi qiymətləndirmişdi [2, s.119]. Bu kimi məsələlərdə arxiv sənədlərinə üstünlük verilməsini əsas tutaraq İrəvan quberniya jandarma idarəsi rəisinin polis departamentinə raportunda [8, s.l06], Şuşa qəza rəisinin fəaliyyətində özünə yer alan fikir-faktların da diqqətdən kənarda saxlanmamasını lazım bilirik. Həmin sənədlər məmurların millətlərarası ədavətin qızışdırılmasına yönəlik cəhd və tədbirlərini açıqlayır.

1905-1906-cı illərin erməni-müsəlman davasında çarlığın ermənilərin tərəfini tutması, onlara üstünlük verməsi və Qarabağda, digər yerlərdə türk əhalisinin qırılmasının qarşısını almaması L.Hartvillin kitabında - ən başlıcası da O.Apresyanın xatirələrində də qeydə alınmışdır. Qarabağda-Şuşada törədilən erməni vəhşiliklərinin şahidi bunları söyləmişdi: 1905-ci il türk-erməni savaşında biz ermənilər daha yaxşı döyüşdük (döyüşdük yox, çar məmurlarının himayəsi ilə dinc müsəlman əhalini qırdıq - T.Ş.). Bizimkilərin çoxu rus ordusunda xidmət etmiş və hərbi təlim görmüş insanlardı. Üstəlik də biz zəngin idik və daha yaxşı silahlanmışdıq. Türkləri isə Rusiyada əsgərliyə çağırmır və onlara hərbi təlim keçmirdilər. Onlar əksərən fağır insanlardı və bıçaqlarından başqa bir silahları yoxdu... [1, s.l69]. Əslində əlavə şərhə əsla ehtiyacı olmayan bu deyilənlər ortaya bəzi sualları çıxarır: erməni - gəlmələrin zəngin və türk - yerlilərin isə fağır olmaları kimin və hansı siyasətin nəticəsi idi? Daha yaxşı silahlanmış ermənilər və bıçaqlarından başqa bir silahları olmayan türklər şəraitini, nisbətini yenə də kim, niyə və necə yaratmışdı? Tarixi faktların və arxiv sənədlərinin yetərincə aydın cavablandırdıqları bu sualların izahını elə O.Apresyan özü də xatirələrində vermişdi: Rusiyanın yardımı olmasaydı, biz ermənilər hətta öz aramızda son dərəcə vahid və birləşmiş bir halda yaşasaydıq belə, məqsəd və hədəflərimizə çata bilməzdik [1, s.42].

Azərbaycanın 1905-1920-ci illər tarixinə aid sanballı tədqiqatının mühüm bir bölümünü (Erməni-tatar davası) XX əsrin başlanğıcındakı qanlı hadisələrin təhlilinə həsr edən amerikalı araşdırmaçı T.Svyatoxovski də çarlığın erməniyönümlü mövqedə dayandığını təsdiqləmişdir. Amerikalı tarixçiyə görə, çoxcəhətli bir problemə çevrilən erməni-müsəlman antoqonizmi uzun illər ərzində yetişdirilmişdi.

T.Svyatoxovski erməni-müsəlman qarşıdurmasının ilk partlayışı sayılan 1905-ci ilin fevralındakı Bakı qırğınlarına toxunarkən yazır ki, "...polis və qoşunlar toqquşan tərəfləri ayırmaq imkanları olsa da, tam fəaliyyətsiz dayandılar" [6, s. 23]. Yəni əslində türk-müsəlman əhalinin qırılmasını təmin etdilər.

Çarlığın erməni-müsəlman münaqişəsi yaradaraq onu qızışdırması və bu zaman da birinci tərəfi dəstəkləməsinə dair fikirlər Rusiyanın ali hakimiyyət orqanlarının toplantılarında da dəfələrlə səsləndirilmişdi. Birinci Dövlət Dumasının üzvü İ.Ziyadxanovun İrəvan və digər quberniyalarda millətlərarası toqquşmalarla bağlı Daxili İşlər nazirinə verilən sorğu ilə əlaqədar çıxışı bu cəhətdən olduqca maraqlıdır. Konkret məsələ ilə bağlı isə deputat bunu soruşmuşdu: hökumət hal-hazırda İrəvan və b. vilayətlərdəki talanlara və soyğunçuluğa qarşı nə kimi tədbirlər görmüşdür?

Sualının, şübhəsiz, cavabsız qalacağını söyləyən İ.Ziyadxanov İrəvan və s. ərazilərimizin yanğın yerlərinə döndüyünü, hadisələrin Şuşaya keçdiyini vurğulamaqla çıxışına belə bir xülasə vermişdi: ...bu qanlı qırğın hökumət tərəfindən törədilmiş, sonra isə qarşısı alınmamışdı...hər dəqiqə ölkəmdən qorxulu xəbərlər alıram... iki ildən bəri qan içində üzən ölkəmizdə cəsədlərin üstündən keçirik. Artıq səbrimiz tükənib. Bizə də acıyın!".

**Nəticə:** Ümumiyyətlə isə, çarlığın Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ mahallarında törədilən türk-müsəlman qırğınlarındakı yeri və rolu məsələlərinə dair mövqe və yanaşmalarla bağlı bunları nəzərə almaq lazımdır:

- Azərbaycanda türk-müsəlman soyqırımları Rusiyanın imperiya siyasəti və erməni maraqları naminə həyata keçirilmişdi;
- türk genosidi çar hakimiyyəti yerli qurumlarının himayəsi ilə ermənilər tərəfindən törədilmişdi;
- problemə dair baxış və mövqelərin müqayisəli təhlili türk-müsəlman soyqırımları məsələsində də çarlığın erməniyönümlü mövqe tutmasına dair yanaşmaların üstünlük təşkil etdiyini təsdiqləyir.

Bu gün də davam etməkdə olan Rusiya tərəfindən Ermənistanın dəstəklənməsi hələ imperiya dövründən gələn bir siyasətin - Şərq siyasətinin məntiqi davamıdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Quliyev V. Azərbaycanda erməni zülmü. Bakı, Ağrıdağ, 1998. - 228 s. 2. Məmmədov X. M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları -XX yüzilliyin əvvəlləri). -Bakı: Elm, 2005. - 249 s.
2. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. – Bakı: Nicat, 1992.- 371 s.
3. Nəcəfli G. Qarabağ xanlığı ərazisində Rusiyanın erməni dövləti yaratmaq cəhdlərinə dair.- "Qarabağ dünən, bu gün və sabah" 6-cı elmi-əməli konfransının materialları. Bakı: Qanun, 2007, s. 113-123
4. Ordubadi M.S. Qanlı illər: 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi.- Bakı, QXYK-nin nəşri, 1991.- 144 s.
5. Svyatoxovski T. Rusiya Azərbaycanı: 1905-1920-ci illər. "Azərbaycan" jurnalı, Bakı, 1989, № 11
6. Şükürov K. Ermənilərin Azərbaycanda və Osmanlı imperiyasındakı türk genosidi tarixinin öyrənilməsi: metodoloji problemlər.- Azərbaycan tarixinin çağdaş problemləri. Məcmuə. Bakı: Xəzər Universitesi nəşriyyatı, 2000, s. 206-275
7. Арутюнян А.М. Революционное движение в Армении 1905-1907 гг. – Ереван, Айастан, 1970.- 541 с.
8. Арутюнян А.М. Народы Закавказья в борьбе против царизма в годы первой русской революции. Ереван, 1957.- 345 с.
9. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджана (XIX-начало XX вв.) – Баку: Алтай, 1999.- 298 с.
10. Галоян Г.А. Россия и народы Закавказья. Москва, 1976.- 421 с.
11. Дашнаки (Из материалов департамента полиции) – Баку: Коммунист, 1990.- 40 с.
12. История Азербайджана по документам и публикациям. – Баку: , 1990.- 384 с.
13. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XX вв.). Краткая хронологическая энциклопедия. – Баку: , 2002.-394 с.


## THE GENOCIDE OF AZERBAIJANIS COMMITTED BY ARMENIANS UNDER THE AUSPICES OF THE TSARIST GOVERNMENT: MAIN INTERESTS, MEANS, FORMS
## SUMMARY


After the occupation of the South-West Azerbaijan, the "dual policy" of Russia toward Azerbaijani people, namely the high-level protection of Armenians and extreme pressure on Turk-Muslims, put the seconds soon face to face with very expansive and dangerous national-political problems. Important improvements in economy-trade, education-culture sectors and widely representation in government gave an impetus to the plans, propaganda and activities of Armenians on the "Turkish-Muslim hostility". The editor of "Mshak" newspaper which was published in Tbilisi offered Muslims to liberate the lands and to "move to Arabian deserts" yet in 1885. All of these led to the implementation of "ethnic cleansing-burned land" tactics of the empery-armenians duo. In all the South Caucasus, including in Irevan, Nakhichevan and Karabakh regions of Azerbaijan, the process of deportations, Turk-Muslim genocide ongoing more than a hundred years, was started. Armenians who considered the mass destruction and deportations of Azerbaijanis as one of the main means in the implementation of the strategy of the restoration of "Great Armenia" played a very offensive role in this.

# ПОКРОВИТЕЛЬСТВО ЦАРСКОЙ РОССИИ СОВЕРШАВШИМ ГЕНОЦИД АЗЕРБАЙДЖАНЦЕВ АРМЯНАМ: ОСНОВНЫЕ ИНТЕРЕСЫ, СРЕДСТВА, ФОРМЫ

## РЕЗЮМЕ

После оккупации Юго-Западного Азербайджана Россией «двойственная политика» в отношении его населения, а именно, защита армян в высшем уровне и необоснованные преследования азербайджанцев очень скоро поставили последних в тяжелое положение перед опасными национально-политическими проблемами. Важные достижения в области экономики и торговли, широкое представительство в управлении дали толчок к антитюркской пропаганде и враждебной деятельности армян. Еще в 1885 году в Тбилиси редактор армянской газеты «Мшак» предложил мусульманам освободить земли и переместиться в арабские пустыни.

Все это привело к реализации тактики «этнических чисток - выжженной земли» со стороны дуэта армяне - царизм. Начался процесс тюрко-мусульманских погромов и депортаций по всему Южному Кавказу, включая Нахчыван, Карабах, Иреван и другие регионы Азербайджана, который длится уже более ста лет. Армянские националисты использовали массовое уничтожение и депортации азербайджанцев в качестве одного из основных средств реализации «великоармянской» стратегии.

*Ped.ü.f.d.* **Nazilə ABDULLAZADƏ**

# M.M.NƏVVABIN "1905-1906-cı İLLƏRDƏ ERMƏNİ-MÜSƏLMAN DAVASI" ƏSƏRİNDƏ TÜRK SOYQIRIMININ DƏHŞƏTLƏRİ

**Açar sözlər:** tarix, soyqırım, milli mənəviyyat, erməni-müsəlman davası, tarixin saxtalaşdırılması
**Keywords:** history, genocide, national morality, armenian-muslim clashes, falsification of history
**Ключевые слова:** история, геноцид, национальный дух, армяно-мусульманский конфликт, фальсификация истории.

Dünyanın hər yerinə səpələnmiş ermənilərin tarixən ən çox məskunlaşdıqları ərazi türk dövlətləri, ən çox qaynayıb qarışdığı xalqlardan birincisi türk xalqı olmuşdur. Lakin qəbir və ocaq qonşuları olan, öz kökü üstündə dayanıb dünyaya əzəmətlə boylanan türklərlə ermənilər arasında erməni nankorluğu və yersiz iddiası nəticəsində dönə-dönə törədilən silahlı toqquşmalar, qanlı vuruşmalar, amansız qırğınlar, irəliləyişə, inkişafa mane olan münaqişələr, qarşıdurmalar milli ədavətə gətirib çıxarmış, türk xalqının tarixində qanlı iz qoymuşdur.

XVIII əsrdən etibarən Azərbaycan torpaqlarında məskunlaşan ermənilər azlıq təşkil etmələrinə baxmayaraq, "Böyük Ermənistan"ın yaradılmasına, erməni ideyalarının hər vəchlə təbliğinə can atmış, XIX əsrin əvvəllərindən isə ermənilərin azərbaycanlılara qarşı açıq soyqırım və deportasiya siyasəti başlamışdır. Bədnam Gülüstan və Türkmənçay müqavilələri təkcə xalqın deyil, tarixi torpaqlarımızın da bölünməsinin əsasını qoymuşdu, ermənilərin kütləvi şəkildə Azərbaycana köçürülməsi isə bu faciəni daha da dərinləşdirdi, torpaqlarımızın işğalı başlandı. Soyqırım bu işğalın ayrılmaz hissəsi, "böyük Ermənistan" ideyasının gerçək həlli oldu.

Soyqırım azərbaycanlıların yalnız kütləvi qırğını və yurd-yuvalarından didərgin düşmələri ilə tamamlanmırdı, evlər dağıdılıb yerləyeksan edilir, mədəniyyət abidələri məhv edilir, məscidlər dağıdılır, ermənilərin ayaq basdıqları hər bir yer xarabalığa çevrilir, bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmağa cəhd edirdilər. Soyqırım törədənlər özlərini soyqırım qurbanları kimi qələmə verirdi. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Türkün soyqırımı erməni tərəfindən millətin, irqin, tayfanın, nəslin, şəcərənin kökünü yer üzündən silmək, azərbaycanlılar, xüsusilə, Ermənistanda yaşayan azərbaycanlılar üçün isə ata-baba yurdundan qopub düşmək, kökündən, soyundan mənəvi kəsilmək demək idi.

Tarix boyu Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş soyqırım uzun illər gizli saxlanılmış, öz siyasi-hüquqi qiymətini almamış, xalqın tarixi keçmişi ilə bağlı həqiqətlərə qadağa qoyulmuşdur

Tarixin saxtalaşdırılmasına yönəlmiş proqram xarakterli tədbirlərin reallığını qanlı aksiyalarla həyata keçirən ermənilərin XX əsrin ilk onilliklərində törətdikləri cinayətlər xalqın yaddaşına əbədi həkk olundu. Milli mənsubiyyəti azərbaycanlı olan hər bir kəs – uşaq, qoca, qadın fərq qoyulmadan öldürülür, evlərə od vurulur, mədəniyyət abidələri məhv edilirdi. Erməni vandalizminin qarətçilik, saxtakarlıq, işgəncə, əzab, rəzalət, təhqir və ikiüzlülüyü baş alıb getdiyi halda, erməni millət-çiləri özlərini yazıq, məzlum, soyqırım qurbanı kimi qələmə verir, tarixi faktları təhrif edirdilər. Lakin Azərbaycan xalqının mənəviyyatına, milli mənliyinə və qüruruna yönəlmiş erməni böhtanının avantürist iddiaları nə qədər pərdələnməyə çalışsa da, xalqın yaddaşı ilə bərabər tarixi mənbə və məxəzlərdə qorunub saxlanılmışdır. XIX əsr şairi və rəssamı, xəttat və musiqişünas Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri o qanlı-qadalı illərin ən dəyərli abidəsidir.

Şuşada dünyaya göz açan Mir Möhsün Nəvvab Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində şeirləri ilə mənəvi-əxlaqi gözəlliyi tərənnüm edən, insanları elm və mədəniyyətə çağıran, zülmkar hakimləri, riyakar din xadimlərini tənqid edən şair kimi tanınır. Yaradıcılığı boyu o, "Məclisi-fəramuşan" adlı ədəbi məclisə başçılıq etmiş, yeni üsullu məktəb, mətbəə və cildxana açmışdır. Hərtərəfli bir şəxsiyyət olan Nəvvab dəqiq elmləri də gözəl bilmiş, yaratdığı ornamental divar rəsmləri, quş və çiçək təsvirləri, portretlərlə hələ sağlığında təsviri sənətin inkişafında əhəmiyyətli rol oynamışdır. Onun Azərbaycanda musiqiyə dair nəşr olunmuş ilk əsər sayılan "Musiqi elmin-

də rəqəmlərin aydınlaşdırılması" əsərində orta əsrlər müsəlman Şərqinin görkəmli filosof və musiqişünaslarının tədqiqatları təhlil edilir, musiqinin mənşəyi, musiqi estetikası, ifaçılıq problemləri, musiqinin dinləyicilərə emosional təsiri, onun şəfaverici xüsusiyyətləri haqqında biliklərlə yanaşı, XIX əsrin sonu XX əsrin əvvəllləri Azərbaycan musiqi ifaçılığı, muğamların təsnifatı orijinal bir sistemdə verilir.

Bədii yaradıcılığı boyu zülmkar hakimləri, riyakar din xadimlərini tənqid edən, insanları elm və mədəniyyətə, mənəvi-əxlaqi gözəlliyə çağıran M.M.Nəvvab şahidi olduğu hadisələrdən kənarda qalmamış, rus imperiyasının fitnə-fəsadı və onun qəsbkar ordusunun köməyi ilə erməni millətçilərinin qırğınlarını qələmə almaqdan çəkinməmiş, 1903-cü ildən Şuşa, Qarabağ, Gəncə, Bakı, Təbrizdə ermənilərin törətdikləri cinayətlər haqqında geniş məlumat verən "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərini tarixin qanlı səhifəsi kimi miras qoymuşdur.

Əsərin giriş hissəsində yazıçı hələ xanlıqlar dövründə ermənilərlə müsəlmanların birgə yaşadıqlarını, bir-biri ilə alış-veriş etdiklərini, hətta İbrahim xanın (Qarabağ xanı – N.A.) erməni məliklərindən Məlik Şahnəzərin qızı Hurizad xanımı özünə kəbinli arvad etdiyini təəssüflə xatırlayır. "Zahirləri ilə batinləri bir olmayan", "zahirən özlərini dost kimi göstərsələr də batinləri ədavətli olan" ermənilərin həmişə zərər çəkdiklərini xislətlərindəki ədavətlə, kinlə bağlayır.

1905-1906-cı illərdə baş verən erməni-müsəlman münaqişəsinin köklərinin çox illər əvvələ getdiyini bilən Nəvvab erməni tayfasının törətdiyi dəhşətli əhvalatların bir qismini qələmə almaqla özündən sonrakı nəsillərə çatdırır. Qarabağda, Şuşa qalasının şərq tərəfində Avan Koxa adlı erməninin müsəlmanlara tutduğu divanla bağlı qayaya "Bağırqan dağı" adı verilməsi hadisəsini, Naxçıvan, İrəvan, Şuşa, Gəncə, Tiflis şəhərlərində, Malıbəyli, Qaybalı, Əsgəran, Qacar kəndlərində baş verən erməni-müsəlman münaqişələrini qələmə alan yazıçı bu münaqişənin səbəblərini də çəkinmədən açıqlayır, mənfur ermənilərin insanlığa yad ikiüzlü siyasətlərini kəskin şəkildə tənqid edir.

M.M.Nəvvab tarixi həqiqətləri acı da olsa, yazmağı özünün borcu bilir. Ermənilərin min bir hiylə ilə azərbaycanlıları yurd-yuvalarından didərgin salmaq cəhdləri, silahsız insanlara hücum edərək ağlagəlməz vəhşiliklər törətdiyini yazıçı ayrı-ayrı epizodlarda qələmə alır: "...Mərhum İbrahim xanın hökmranlığı zamanında Pənahabad, yəni Şuşa qalasının şərq tərəfində "Bağırqan dağı" deyilən yerdə bir uca qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. Avan Koxa öz təbəələrinə buyurmuşdu ki, harda əllərinə müsəlman düşsə, tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmrilə tutulmuş müsəlmanı çılpaqlayıb üzü üstə yerə yıxardılar. Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla boynundan qom ətinəcən iki tərəfdən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxırdılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı" [1, 11].

Müəllif erməni millətçiləri və onların havadarlarının niyyətlərini öz əməlləri ilə ifşa edir, "müasir saqqallı erməni quldurlarının əcdadlarını türklərə qarşı birləşdirmiş mərkəzlərin–qımdatxanaların Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğat, təxribat, sui-qəsd, silahlı toqqquşmalarda lazımi hərbi sursatın, çar məmur və zabitlərinin ələ keçirilməsini, bu məqsədlə erməni təbəqələrindən pul toplamaqla məşğul olduqlarını göstərir. "Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbi sursatın, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədilə varlı erməni təbəqələrindən pul toplamaq qımdatların əsas vəzifəsi idi" [2, 3].

Ermənilərin öz tayfalarını mənəvi baxımdan iğtişaşa hazırlamaları, bütün küçə və səngərlərdə hazırlıq işləri aparmaları yazıçının şahidi olduğu hadisələrdən idi. Ermənilər özləri də bilirdilər ki, düşmənçilik və fitnə-fəsadla qan töküb evlər yıxsalar, məzlum müsəlmanları isti yuvalarından dərbədər salsalar da, türkə qarşı mübarizədə acizdirlər. Qımdatların hünərdə, namusda, igidlikdə müsəlmanlarla müqayisə edilə bilməyəcəyini yazıçı bir erməni qadınının dili ilə ifşa edir: "Bizim qımdatların ... böyük səhvləri var. Bundan ötrü ki, mən bir kasıb övrətəm, dörd uşağım var. Bir toyuğum neçə gündür azıb, orda-burda yumurtlayır. Artıq üç gündür ki, mən və dörd uşağım bircə toyuğun öhdəsindən gəlib onu tuta bilmirik. Bir halda ki, beş nəfər bir toyuğun öhdəsindən gələ bilmir, bəs bizim bu qımdatlarımız bu qədər yığılmış erməni ilə milyon-milyon müsəlmanların öhdəsindən necə gələcək?" [2.30].

M.M.Nəvvab ermənilərin törətdikləri qırğınların təkcə Qarabağda deyil, Təbriz, Tiflis, İrəvan, Gəncə, Bakıda da baş verdiyini təkzibedilməz faktlarla qələmə alır. Bu cinayətlər və qırğınlar haqqında rus dövlət orqanlarına hər gün xəbər çatdırılsa da, nəticəsiz qalır, ermənini cəzalandırmaq əvəzinə kazaklar dinc əhalini güllələbaran edir, evlərində olan-qalanı talan edib aparırdılar. Üstəlik ermənilərin kəndin yaxud şəhərin həmişə yuxarı hissəsində yerləşmələri döyüş zamanı onların mövqeyini daha əlverişli edirdi: "Otuz ildən bəri ermənilər tədarük etdikləri və evlərdə, məxfi yerlərdə, qəbiristanlıqda, kilsələrdə, qayalıqlarda gizlətdikləri müxtəlif növ silahları bu gün aşkara çıxararaq müsəlmanlara tərəf yönəltmişdilər. Həmin silahlara sarılaraq müxtəlif səngərlərdən, evlərin pəncərələrindən və gizli yerlərdən küçə ilə gəlib-gedən, evlərin balkonlarında dayanan və görünən böyük-kiçiyi gülləyə tuturdular. Erməni məhəlləsi şəhərin hündür yerində olduğundan və müsəlman məhəllələri aşağı yerində yerləşdiyindən onların mövqeyi daha əlverişli idi" [2, 34].

O qanlı illərin və faciələrin canlı şahidi olan Mir Möhsün Nəvvab Şuşada erməni xəlifəsinin bütün keşişlərilə birgə barış üçün dəfələrlə məscidə gəlməsini, özünün də bu barışların iştirakçısı olduğunu xatırlayır. Müəllif nəzərə çatdırır ki, ermənilər dəfələrlə barışıq üçün əllərində xaç, İncil və bayraqlarla məscidə gəlir, əslində türklərin onlardan əvəz çıxacağını bildiklərinə və bundan çəkindiklərinə görə hadisələri qabaqlayırdılar. Hətta bayraqlardan birini iki ay məsciddə saxlayır, keşişlər həmin bayrağı geri istədikdə onlardan qəbz alır və sonradan ermənilərin böhtan atmaması üçün şəklini də çəkirlər. Bununla belə, ermənilərin siyasət və hiyləsi, "sülh" məramı bir pərdə rolunu oynayırdı. Bir qrup erməni "ağsaqqalı" bütün fitnə-fəsadlara son qoymaq "arzusunda" ikən, din xadimləri bu iki tayfa (müsəlman və erməni–N.A.) arasında sülh yaratmağa çalışdığı vaxt başqa bir yerdə ermənilər toplaşıb müsəlman köçərilərinin yolunu kəsirlər.

"1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərinin hər fəslində erməni rəzalətinin ən dəhşətli səhnələri oxucunun gözü önündə canlanır. M.M.Nəvvab hadisələrin təsvirində tarixi olayları olduğu kimi verməklə ermənilərin namərdliklərini, erməni kilsəsinin dinə deyil, qondarma erməni dövlətinə və siyasətinə xidmət etdiyini bir daha diqqətə çatdırır. Ermənilərin din-məzhəb üstə, yaxud böyük mülklərdən ötrü deyil, əlsiz-ayaqsız, günahsız insanlara qarşı da insafsızlıq və namərdlikləri barədə o yazır: "Xaspolad adlı bir müsəlman Qalanın ətrafında yerləşən bir dəyirmanı icarəyə götürmüş və onu bir kişi ilə övrətinə tapşırmışdı. Qarət və qan tökməklə məşğul olan erməni dəstələrinin biri həmin dəyirmana gələrək böyük bir facıə törətmişdilər. Onlar kişini güllə ilə öldürdükdən sonra qucağında dörd aylıq uşaq olan qadına yaxınlaşdılar. Erməni cəlladları onları da öldürmək istəyəndə övrət dedi ki, allah xatirinə məni öldürün, ancaq uşağa əl vurmayın. Ermənilərdən ikisi irəli çıxıb dedilər ki, qorxma, uşağı öldürməyəcəyik. Onlar uşağı qadından açıb bələyini açdılar. Ermənilərin hərəsi uşağın bir ayağından tutub qüvvətlə hərəsi bir tərəfə çəkdilər. Uşaq iki para oldu. İki yerə bölünmüş uşağın parçalarını ananın üstünə atdılar. Ana bu vəhşiliyə dözə bilməyib huşunu itirdi. Cəlladlar bu qadını da bir nüçə güllə ilə qətlə yetirdikdən sonra dəyirmanda olan taxılı və unu, eləcə də malı qarət edib apardılar" [2, 51].

M.M.Nəvvab şahidi olduğu hadisələri qələmə alıb gələcək nəsillərə ötürməklə yanaşı, tarixi yerlərin – dağ, qala, çay, kənd, el-oba adlarının toponimik təhlilini vermiş, Qara-bağın əsası qoyulandan ermənilərin xəyanətkarlıqlarını, rusun fitnəsi ilə xalqımızın üzərinə qaldırılmasını orijinal bir üslubda qələmə almışdır.

M.M.Nəvvabın "1905-1906-ci illərdə erməni-müsəlman davası" əsəri bu gün türk soyqırımının tarixi köklərinin öyrənilməsi ilə yanaşı erməni xislətinin iç üzünün açılması baxımından da dəyərli məlumatlarla zəngindir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Nəvvab M.M. 1905-1906-ci illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993, 123 səh.
2. Şərifli K. Qanlı-qadalı illərin dəyərli abidəsi. M.M. Nəvvabın "1905-1906-ci illərdə erməni-müsəlman davası" əsərinə ön söz. Bakı: Azərbaycan, 1993, 123 səh.

**HORRORS OF THE GENOCIDE OF TURKS IN MIR MOHSUN NEVVAB'S WORK "ARMENIAN-MUSLIM CONFLICT IN 1905-19060 s"**
**SUMMARY**

Over the years, the genocide of Azerbaijanis of 1918 was hiden from the Azerbaijani people. After the Gulistan Treaty of 1813, the Azerbaijani lands were divided into two parts. As a result of the Turkmenchay Treaty of 1828, hundreds of thousands of Armenians from Gajar Iran and Ottoman Turkey were resettled to the territory of Northern Azerbaijan. Thus, the origins of the tragedies of the Azerbaijani people were laid. The genocide of Azerbaijanis of 1918 is an integral part of the Armenians' plan for the creation of the "Greater Armenia". These and other problems are researched in this article on the basis of the work of M.M. Nevvab "Armenian-Muslim conflict in 1905-1906".

**УЖАСЫ ГЕНОЦИДА ТЮРКОВ В РАБОТЕ М. М.НАВВАБА «АРМЯНО-МУСУЛЬМАНСКАЯ ВОЙНА В 1905-1906 ГГ.»**
**АННОТАЦИЯ**

На протяжении долгих лет геноцид азербайджанцев 1918 года скрывался от азербайджанского народа. После Гюлистанского договора 1813 года азербайджанские земли были разделены на две части. В результате Туркменчайского договора 1828 года на территорию Северного Азербайджана было переселено сотни тысяч армян из Каджарского Ирана и Османской Турции. Тем самым были заложены истоки трагедий азербайджанского народа. Геноцид азербайджанцев 1918 года является неотъемлемой частью плана армян по созданию «Великой Армении». Эти и другие проблемы исследуются в данной статье на основе работы М.М.Навваба «Армяно-мусульманская война в 1905-1906 гг.»

*T.ü.f.d.* **Vasif QAFAROV**

# İRƏVANIN ERMƏNİLƏRƏ VERİLMƏSİ VƏ ERMƏNİ DÖVLƏTİNİN YARADILMASI PROSESİ

**Açar sözlər:** Batum konfransı, Zaqafqaziya Seymi, Azərbaycan Cümhuriyyəti, İrəvan məsələsi, Erməni dövləti.
**Keywords:** Batumi conference, Transcaucasian Seim, The Republic of Azerbaijan, İrevan question, Armenian state.
**Ключевые слова:** Батумская конференция, Закавказский Сейм, Азербайджанская Республика, Эриванский вопрос, Армянское государство.

Osmanlı imperatorluğu Trabzon konfransında (14 mart-14 aprel 1918) Brest-Litovsk sülh müqaviləsinin Qafqaza aid maddələrini Zaqafqaziya Seyminə qəbul etdirib, onun əsasında sülh bağlamaq istəsə də, Seymin Brest müqaviləsini qəbul etməməsi səbəbindən bir aya qədər davam edən danışıqlar uğursuzluqla nəticələnmişdi və Tiflis hökuməti türk tələbləri qarşısına silahla çıxmışdı. 8 günlük (14-21 aprel 1918) müharibədə məğlub olan Zaqafqaziya Seymi Osmanlı imperatorluğunun tələblərini qəbul etdiyini bəyan etsə də, Zaqafqaziya hökumətinin türk tələbləri qarşısına silahla çıxması və Osmanlı imperatorluğunun Brest-Litovsk sülhü ilə əldə etdiyi ərazilərə (Qars, Ərdəhan və Batum) silah gücünə yiyələnməsi tərəflər arasında keçirilən Batum konfransında (11 may-4 iyun 1918) Türkiyənin mövqeyinin daha da sərtləşməsinə səbəb oldu.

Batum konfransının 1918-ci il may ayının 11-də keçirilən ilk iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə Brest müqaviləsinin şərtlərini indiki danışıqlar üçün əsas kimi qəbul etmədiyini bildirib, Türkiyənin hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq Qars, Ərdəhan və Batum vilayətlərindən başqa bir sıra yeni ərazilər və imtiyazlar tələb etdi. Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmiryolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Zaqafqaziyanın bütün dəmiryol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi [5; 4;13].

Qeyd edək ki, Osmanlı dövlətinin bu tələbləri nəinki Brest müqaviləsinin Türkiyə üçün müəyyən etdiyi 1877-1878-ci illər müharibəsinə qədərki türk-rus sərhəd xəttini, hətta 1828-ci ildəki türk-rus sərhədini də aşırdı. Bu tələblərə münasibətdə ümumi bir mövqeyə gələ bilməyən Zaqafqaziya heyətində fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşdi. Bu da öz növbəsində heyətdə təmsil olunan azərbaycanlı, gürcü və erməni nümayəndələrinin ayrı-ayrılıqda Türkiyə və Almaniya ilə danışıqlar aparmasına gətirib çıxartdı. Gürcülər türk tələbləri qarşısında çıxış yolu kimi Almaniyaya sığınmaq qərarına gəldilər. Gizli aparılan gürcü-alman danışıqları "Poti razılaşması" ilə nəticələndi ki, bu razılaşma ilə Gürcüstan Federasiyadan çıxıb öz müstəqilliyini elan edir və Almaniyanın qəyyumluğunu qəbul edirdi [22, s. 150-151].

Türk tarixçisi A.N.Kurat yazır ki, "…gürcü, erməni və azərbaycanlıların bir dövlət halında yaşamaları imkansız idi. Bu durum qarşısında Türkiyə ilə imzalanacaq qəti sülhün davamlı və əsaslı olmasını təmin etmək üçün "konfederasiya" təşkil edən hər üç zümrənin ayrı-ayrılıqda müstəqil dövlət halına gəlmələri vacib idi. Bu görüş Osmanlı hökuməti tərəfindən irəli sürüldü və ancaq bu reallaşdığı təqdirdə qəti bir sülhün imzalana biləcəyi "Qafqaz nümayəndə heyəti"nə bəyan edildi" [21, s. 476].

Batumda və Tiflisdə cərəyan edən hadisələr haqqında məlumatlı olan sədr-əzəm Tələt paşa Xəlil bəy Menteşəyə göndərdiyi 25 may tarixli teleqramında bildirirdi: "Son şifrənizi Məclis-i Umumidə oxuduq və uzun-uzadı müzakirə etdik. Son ərz etdiyim şəkildə ittifaq hasil oldu. Yəni dərhal ultimatum vermək və qəbul etmədikləri təkliflərimizi qüvvə ilə qəbul etdirmək.

Əgər gürcülər ayrı və müstəqil bir hökumət təşkil edərlərsə, ayrıca müzakirə edərik. Şimali və Cənubi Qafqaz müsəlmanlarının ayrıca müstəqil bir hökumət təşkil etməsi, dərəcə-yi istiqlal və irtibatları-

nın təyini sonradan düşünülür. Gürcülərlə müsəlmanların erməni məsələsi həll edildikdən sonra birləşmələri imkanı vardır. Zat-ı dövlətləri indidən bu cəhətə çalışa bilərsiniz… " [11, v. 77]. Elə həmin gün Tələt paşa tərəfindən Xəlil bəyə göndərilən növbəti teleqramda deyilirdi: "Zeyldir. Müfəssəl şifrə teleqrafnamələri dahi mutalaa edildi. Gürcülərlə və müsəlmanlarla ayrı-ayrı dostluq müqavilələri bağlamaq daha üstün tutulur. Sonradan ordumuz intizamı təmin və hökuməti təşkil etmək üçün gedər. Və hökumət təşəkkül etdikdən sonra Dövlət-i Aliyyə ilə münasibətini təyin edərik" [11, v. 75].

Osmanlı dövlətinin tələbləri əks olunan 11 may tarixli ultimatumun verilməsindən iki həftədən artıq bir vaxt keçməsinə baxmayaraq, Zaqafqaziya heyətindən bu ultimatuma heç bir rəsmi cavab verilməmişdi. Ona görə də Osmanlı nümayəndə heyətinin rəhbəri X.Menteşə 26 may 1918-ci il tarixində Zaqafqaziya heyətinə yeni və son ultimatumunu təqdim etdi. Ultimatumda deyilirdi: "Təəssüflə qeyd edirəm ki, Batum konfransının may ayının 11-də keçirilən ilk toplantısında Osmanlı imperator hökuməti adından Zaqafqaziya Federativ Respublikasının nümayəndə heyətinə təqdim etdiyim ultimatuma, iki həftədən artıq bir vaxt keçməsinə baxmayaraq, cavab almamışam. Zati-alilərinə məlum olduğu kimi, Qafqazın vəziyyəti çox kritik və qarışıqdır və çözülməyə möhtacdır. Bakı və ətrafında yüz minlərcə türk və müsəlman özlərinə inqilabçı deyən vicdansız quldurların qanlı pəncəsində inləyir. Bu zavallıları təhdid edən dözülməsi imkansız fəlakət gündən-günə artmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrin təcavüzünə məruz qalan Qafqazın digər bölgələrindəki türk və müsəlman xalqın vəziyyəti də heç cür ümidverici deyildir.

Rəis həzrətləri, qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət, qonşu olduğu bir ərazidə belə cinayətlərin cəzasız olaraq qalmasına dözə bilməz və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən bu anarxiya münasibətilə Osmanlı imperator hökumətinin vəziyyəti çox nazikdir. Çünki bu anarxiyanın Osmanlı imperiyasının əhalisi ilə eyni irq və dinə mənsub bir əhalinin asayişi ilə əlaqəsi vardır. Digər tərəfdən, ümumi hərbin gərəyi olaraq Osmanlı imperator hökuməti öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da indiki qeyri-müəyyən vəziyyətə son qoymağı tələb edir…" [20, s. 309-310]. Bu ultimatumda Türkiyənin 11 may tarixli əsas tələbləri ilə yanaşı bir sıra yeni tələblər də yer almışdı və bunların qəbul edilib-edilməməsi ilə bağlı 72 saat ərzində cavab verilməsi tələb edilirdi. Ultimatum saat 20-də verilmişdi və bundan beş saat əvvəl Zaqafqaziya Federasiyası artıq mövcud deyildi, dağılmışdı [20, s. 331]. Elə həmin gün Gürcüstan, mayın 28-də isə Azərbaycan və Ermənistan öz müstəqilliyini elan etdi. Bu səbəbdən Zaqafqaziya hökumətinin Türkiyə ilə başladığı Batum danışıqlarını yeni elan edilmiş milli respublikalar davam etdirməli oldular.

Zaqafqaziya Federasiyasının dağılmasından sonra da Osmanlı iperatorluğunun tələblərində elə bir dəyişiklik olmadı, əksinə bu tələblər daha da sərtləşdi. Hələ Zaqafqaziya Seyminin dağılması ərəfəsində, mayın 24-də Osmanlı dövlətinin sədr-əzəmi Tələt paşa Batum konfransındakı türk nümayəndə heyətinin rəhbəri Xəlil bəyə göndərdiyi teleqramında yazırdı: "…Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən tərəfdar deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcəkdir. İran və Amerikada olan bütün ermənilər orada toplanacaq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla əcəmlərlə birlikdə bizim əleyhimizə hərəkət edəcəklər. Bu səbəbdən mümkün olsa, çibanı kökündən təmizləmək ən xeyirli iş olacaqdır. Bu mümkün olmadığı təqdirdə Ermənistanın çox zəif və yaşamayacaq şəkildə təşəkkül etməsi zəruridir…" [16, v. 113-115; 14, v. 73 a-b]. Göründüyü kimi, Tələt paşa erməni dövlətinin yaradılmasının gələcəkdə Türkiyə üçün yarada biləcəyi problemləri öncədən görürdü və elə buna görə də erməni dövlətinin yaradılmasına imkan vermək istəmirdi.

Türkiyənin 26 may tarixli ultimatumundan sonra Batumdakı gürcü və erməni nümayəndələri Tiflisə qayıtdılar və may ayının son günlərində yeni təlimatnamələrlə yenidən Batuma döndülər. Azərbaycan nümayəndələri – M.Ə.Rəsulzadə və M.H.Hacınski isə Tiflisə qayıtmaqdansa Batumda qalıb Türkiyə ilə bir sıra məsələlərlə bağlı danışıqlar aparmağı üstün tutdular. Türkiyə tərəfindən təqdim olunan ultimatumda Azərbaycan torpaqları ilə bağlı ərazi tələbləri də var idi. Bu ərazi tələblərinə Naxçıvan qəzası (Ordubad istisna olmaqla), Şərur-Dərələyəz qəzasının Şərur hissəsi, İrəvan qəzasının Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri daxil idi [5; 4; 13]. Bundan əlavə, türklər yeni yaranmış erməni dövləti üçün Qarsdan sonra siyasi mərkəz ola biləcək Aleksan-

dropolu (Gümrünü) da tələb edirdilər ki, bu da öz növbəsində, Azərbaycanı yeni ərazi itkiləri faktı qarşısında qoymaq demək idi.

Bu dövrdə Bakı Sovet Rusiyasının əlində idi. 1918-ci ilin Mart qırğınını törətməklə Bakıda hakimiyyəti ələ keçirən bolşevik-daşnak alyansı Azərbaycanın digər qəzalarında da türk-müsəlman əhalisinə qarşı bu qırğın əməllərini davam etdirməkdə idilər. Bununla paralel olaraq, Azərbaycanın Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrində də erməni quldur dəstələrinin müsəlmanlara qarşı törətdikləri qırğınlar, vəhşiliklər davam etməkdə idi. Çıxılmaz vəziyyətdə qalan müsəlman əhalisi erməni-bolşevik birləşmələrinin törətdikləri vəhşiliklərin qarşısını almaqda nicat yolunu Osmanlı dövlətinə kömək üçün müraciət etməkdə görürdü. Çünki Zaqafqaziya hökuməti bu qırğınların qarşısını almaqda acizlik göstərirdi, daha dəqiq desək, bunda maraqlı deyildi. Seymdəki azərbaycanlı nümayəndələr də hələ Seymin dağılmasından xeyli əvvəl Azərbaycanda tüğyan edən anarxiyanın qarşısını almaq məqsədilə Osmanlı dövlətinə hərbi yardım üçün müraciət etmək qərarına gəlmişdilər. Mövcud şərtlər daxilində Osmanlı dövlətindən başqa hər hansı bir dövlətin Azərbaycana yardım göstərməsi real deyildi. Osmanlı yardımı olmadan Azərbaycandakı anarxiyanın qarşısını almaq, xüsusilə də Bakını Sovet Rusiyasının qoruduğu Şaumyan rejimindən xilas etmək qeyri-mümkün idi. Bu səbəbdən Azərbaycan bütün ümidini Osmanlı yardımına bağlamışdı və Batumdakı Azərbaycan nümayəndələri də Türkiyənin ərazi və digər tələblərini qəbul etməyə bir növ məhkum idilər. Aleksandropol türklər tərəfindən tutulduqdan sonra ermənilərə siyasi mərkəz olaraq İrəvanın verilməsi məsələsi gündəmə gəlmişdi. Osmanlı siyasi dairələri İrəvanı güzəştə getmək istəməsələr də, ermənilər bu məsələ üzərində israrla dayanmışdılar. İndi türklər yeni yaradılmaqda olan erməni dövləti üçün siyasi mərkəz olaraq ya Aleksandropolu ermənilərə verməli və bu şəhərlə bağlı irəli sürdüyü tələbindən geri çəkilməli, ya da İrəvanı müsəlmanlardan alıb onlara verməli idilər. Bu iki seçim qarşısında Aleksandropoldan imtina etmək fikrini belə qəbul etməyən türklər ikinci varianta üstünlük verdilər.

Qeyd edək ki, bu dövrdə "erməni məsələsi" ilə bağlı Osmanlı siyasi dairələrində müəyyən fikir ayrılıqları var idi. Tələt və Ənvər paşalar "erməni məsələsi"ndə "çibanı kökündən təmizləməyi" ən xeyirli iş hesab edib, bölgədə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu mümkün olmadığı təqdirdə yaşamayacaq dərəcədə çox zəif bir Ermənistanın təşəkkül etməsini zəruri hesab etsələr də [8], Xəlil bəy və Vehib paşa kimi siyasilər ən azından beynəlxalq aləm qarşısında ermənilərə bir mövcudiyyət və müəyyən güzəştlər verilməsinin vacib olduğunu bildirirdilər [6; 12, v. 88-90].

Onu da qeyd etmək lazımdır ki, Tələt və Ənvər paşaların mövcud vəziyyətdə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu məsələdə "çibanı kökündən təmizləmək" istəyinə Azərbaycan nümayəndələri heç də müsbət yanaşmırdılar. Onlar öz mövqeyini əsaslandıraraq bildirirdilər ki, əgər bölgədə üç – gürcü, müsəlman və erməni kantonları yerinə yalnız iki – gürcü və müsəlman dövlətləri yaradılarsa, o zaman Cənubi Qafqazda və xüsusilə də ultimatumda tələb edilən, Osmanlı dövlətinə birləşdiriləcək ərazilərdə olan böyük erməni kütləsi Azərbaycana axışacaq. Bu da Azərbaycana faktiki olaraq daha böyük qırğınlar, müsibətlər və dağıntılar gətirəcək. Buna yol verməmək üçün kiçik bir ərazidə ermənilərin milli dövlətlərini yaratmaq və onları ora cəm etmək lazımdır. Bu məsələ ilə bağlı Azərbaycan nümayəndələri 1918-ci il mayın 23-də Batumdan Ənvər paşaya yazılı bir müraciət də göndərdilər. Bu müraciət Azərbaycan nümayəndələrinin erməni dövlətinin yaradılması məsələsi ilə bağlı mövqeyi və ortaya qoyduqları arqumentləri öyrənmək baxımından əhəmiyyətli olduğu üçün onun mətnini tam şəkildə vermək istəyirik. Müraciətdə deyilirdi: "Paşa Həzrətləri! …Osmanlı hökumətinin tashih-i hüdud haqqındakı təklifi ilə müttəhid Qafqaz fikri məhv olur. Üç – gürcü, müsəlman və erməni kantonu əvəzinə yalnız iki kanton qalır. Çünki Axalkələk, Aleksandropol, Eçmiədzin, Sürməli sancaqları ilə İrəvan sancağının bir qisminin ilhaqından sonra Ermənistan kantonunun qism-i küllisi Türkiyəyə keçmiş olur. Qeyd edilən kantonun Cənubi Qafqaz daxilində qalan qismi isə o qədər məhdud və az bir şeydir ki, həmin hüdud daxilində bir kanton təşkilindən qətiyyən bəhs oluna bilməz. Sayca ermənilər Cənubi Qafqazda çox bulunuyorsalar da onlar ufak-ufak kıtalarla müsəlman ərazi meyanına səpilmiş bir halda olub, bu ayrı-ayrı parçalardan bir erməni kantonu biçmək nə coğrafiyaca mümkün, nə də felən təsəvvür olunur, müsəlman əhali belə bir təklifi dinləmək belə istəməz. İki kantonlu müttəhid Qafqaz hökumətinə gəlincə, buna da gürcülər qətiyyən razı deyildirlər. Onlar işin belə müşkül bir şəklə müncər olacağı ilə hasil olacaq ihtilalat-ı daxiliyəyi kamilən təqdirlə kəndi yüklərini sudan çıxarmaq üçün ika olunucağını təxmin eylədikləri yanğına iştirak etməmək, erməni-

lərlə əlaqəni pisləşdirməmək və eyni zamanda da kəndi ərazilərini bir sel kimi gələcək olan erməni mühacirətinə qarşı müdafiə eyləmək üzrə kəndi istiqlallarını elan ilə Qafqaz vahdaniyətindən xaric müstəqil bir siyasət ittihazına qərar vermişlərdir. İş bu dərəcəyə gəlincə, təbiidir ki, biz də Şimali Qafqaz ilə birlikdə Qafqaz müsəlmanlarının istiqlalını elan etməliyik. Fəqət indiki halda məsələnin belə bir şəkil alması müvafiqdirmi?

Bizə elə gəlir ki, bu, Trabzonda irae olunub da Batumda bir daha tevezzuh edən mulahazat ilə pek də müvafiq olamaz. Acaba Türkiyə, kiçik qardaş bulunan Azərbaycan və ümumiyyətlə böyük türk siyasətindən ötrü bakalım hansı yol müvafiqdir. Kəndi daxilində hüsn-i intiqamla meşyu, daima fırsat ardından koşan və ilk imkan bulunca arxamızdan xəncəri vurmaq zeyniyətində qalan erməni arzu-yı millisi münker və hər zaman türk siyasəti əleyhində mudahelat-ı əcnəbiyəyi ihtar edən intriqalara vasitə olacaq bir buçuk milyonluq bir erməni kütləsi bulundurmaqmı, yoxsa türk akvamı ilə muhat, sevkül-ceyş nokta-yı nazarınca zararsız və amal-ı milliyesince təmin olunmuş kiçik bir erməni kantonumu? Siyasət-i milliyemiz nokta-yı nazarından bizcə ikinci şəkil daha faydalı və münasib olsa gərək… Biz daha erməni kantonu təsisindən bəhs etdikdə məqsədimiz erməniləri müdafiə deyil, kəndi siyasətimiz, türk siyasət-i umumiyesi nokta-yı nəzərindən baxır və məsələni bu siyasət kaidəsinə həll etmək istəyirik…" [15, v. 12 a, b, c, d.]. Müraciətnamənin sonuna Azərbaycanın Batum sülh konfransındakı nümayəndələri olan M.H.Hacınski və M.Ə.Rəsulzadədən başqa Əhməd bəy (Can Baba), A.Səfikürdski, Ə.C.Pepinov, M.Y.Cəfərov, F.X.Xoyski, N.Yusifbəyli və X.Xasməmmədov imza atmışdılar. Bu müraciətnamənin göndərilməsindən bir gün əvvəl – mayın 22-də Ə.Hüseynzadə və Ə.Ağaoğlu da Tələt paşaya və Ənvər paşaya eyni məzmunlu bir müraciətnamə göndərmişdilər [15, v. 19 a-b].

Bütün bunlara baxmayaraq, Osmanlı dövləti Batum konfransında irəli sürdüyü ərazi tələbləri üzərində israrla durmuşdu və heç bir güzəştə getmək fikrində deyildi. Belə olan təqdirdə Xəlil bəy üçüncü bir yol seçdi ki, bu da Türkiyənin ermənilərdən aldığı torpaqların əvəzində azərbaycanlılara məxsus ərazilərin bir qismini onlardan alıb ermənilərə verməkdən ibarət idi. Bu təklif ilk əvvəl ermənilər tərəfindən irəli sürülmüşdü. Trabzon konfransı uğursuzluqla nəticələndikdən sonra Osmanlı dövlətinin tələbləri qarşısına silahla çıxmağın əsas tərəfdarı olan ermənilər indi daha da sərtləşən türk tələbləri qarşısında əlacsız bir vəziyyətə düşmüşdülər. Onlar "erməni məsələsi"nin beynəlxalq bir problem olduğunu önə çəkərək, Osmanlı dövlətinin ermənilərə ayırdığı ərazilərin erməni xalqının yaşaması üçün həddindən çox az olmasından şikayətlənir və bildirirdilər ki, Türkiyənin təklif etdiyi sərhədlər iki xalq arasında daimi bir düşmənçiliyə yol açacaqdır. Erməni nümayəndələri sərt türk tələbləri qarşısında çıxış yolu kimi təklif edirdilər ki, heç olmasa Azərbaycan torpaqlarından müəyyən bir ərazi ermənilərə verilsin. Bunun qarşılığında ermənilərlə müsəlmanlar arasında olan düşmənçilik də aradan qalxacaq və ermənilər Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməyi öz üzərlərinə götürəcəklər [6]. Xəlil bəy bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə bir sıra danışıqlar apardı və nəticədə Osmanlı yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələrinin razılığını ala bildi [17, v. 56]. Xəlil bəy dərhal bu barədə İstanbula məlumat verdi, amma adı keçən təklifin guya Azərbaycan nümayəndələrindən ona gəldiyini önə çəkdi və bunu xüsusi vurğuladı. O, Tələt paşaya göndərdiyi 26 may tarixli teleqramında yazırdı: "…Müsəlman nümayəndələr bu gün səhər yanıma gəldilər. Bakıdakı vəziyyətlə bağlı çox qayğılıdırlar. Zira, bu şəhər ermənilərin əlindədir. Bunun üçün bizə tərk ediləcək ərazinin ötəsində erməniləri qismən təmin edəcək bir kanun (ocaq, yurd - V.Q.) kəndilərinə ayırmaq istədilər. Sonradan daşnaksütyunların xaricində olub da bu gün Tiflisdə kəsb-i əhəmiyyət edən nümayəndələr, bir erməni fırkasının rəisi gəldi. O da bu şəkildə yekunun tərəfdarı göründü. Bizə əvvəlcə vukubulan işar-ı dövlətlərinə istinad edərək Osmanlı hökumətinin böylə bir kanunun ayrılmasına qarşı olmadığını bildirdim. Bunun üçün bir neçə gün müddət istədi. Və ultimatum veriləcəksə bunun heç olmasa üç gün müddət ilə verilməsini rica etdi. Bu, böylə bir anlaşma gerçəkləşərsə, adı keçən (erməni nümayəndəsi – V.Q.) İstanbula bir heyət göndərilərək Hökumət-i Səniyyəyə sədaqət ərz ediləcəyini də əlavə edərək bir az da bizim tərəfə lütf və xoş münasibət göstərilməsini rica etdi. Ermənilər tarafına bu surətlə vukubulacaq təzahürün Avropa və Amerikada yapacağı təsir çox yaxşı olacaqdır" [12, v. 82-83].

Lakin Ənvər paşa çox sərt bir şəkildə bu təklifə qarşı çıxdı. O, 27 may 1918-ci il tarixində Vehib paşaya göndərdiyi teleqramında yazırdı: "Xəlil bəyin teleqramından anlaşıldığına görə, ermənilər

bizdən kaybetdikləri ərazilərə müqabil Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna muvafakat edəcəklərmiş. Məncə bu tamamilə yanlışdır. Əgər bu gün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə bu hökumət milyonlarla əhaliyə sahib olacaqdır. Və bizim üçün şərqdə bir Bolqarıstan daha yaranar ki, bu da bizim üçün Rusiyadan daha zərərli bir düşmən olar. Çünki ermənilərin bütün mənafe və əməlləri bizim məmləkətimizdədir. Dolayısıyla, bu təhlükəni indidən ortadan qaldırmaq üçün ermənilərin kiçik bir hökumət halında belə təşəkkül etməməsini və müsəlmanlarla gürcülər arasında, bizim qüvvətlərimizin yardımı və təsirinin ən çox olduğu bu dövrdə bölüşdürülməsini, müsəlmanların ermənilərə heç bir haqq və ərazi verməmələrini təmin etməyi və bununla yanaşı bu gün ermənilərin əlində olan müsəlmanların yaşadıqları İrəvan kimi məntəqənin belə müsəlmanlar tərəfindən işğal edilərək, bu surətlə müsəlmanlar yaşayan yerlərin ermənilərin əlindən qurtarılmasına xüsusilə cəhd göstərilməsini üstün tuturam. Mənafeyimizə ən çox uyğun olan bu şəkil gerçəkləşməzsə, onda ermənilərə də bir mövcudiyyət verilməsi qaçılmaz olar. Belə olan təqdirdə, ermənilərin gələcəkdə vücud bularaq yaşamayacaq surətdə olduqca çox zəif bir halda bırakılmalarına çalışmaq lazımdır. Həm hökumətimizin, həm də Qafqazdakı müsəlmanların indiki və gələcəkdəki mənafeləri ancaq bu surətlə təhlükədən qurtarıla bilər…" [7].

Buradan da açıq-aydın göründüyü kimi, Ənvər paşa da Tələt paşa ilə eyni mövqedən çıxış edərək, Qafqazda erməni dövlətinin yaranmasına imkan verməmək, ermənilərin yaşadığı əraziləri Azərbaycanla Gürcüstan arasında bölüşdürmək və müsəlmanların məskunlaşdığı əraziləri ermənilərdən təmizləmək istəyirdi. Bu mümkün olmadığı təqdirdə, Ənvər paşa yaranacaq erməni dövlətinin yaşamayacaq dərəcədə olduqca zəif bir şəkildə təşkil edilməsini vacib sayırdı və qətiyyətlə İrəvanın ermənilərə verilməsinə qarşı çıxırdı.

Amma Xəlil bəy də Azərbaycan nümayəndələri kimi reallıqdan çıxış edərək bildirirdi ki, kiçik bir ərazidə də olursa olsun erməni dövləti yaradılmalıdır və bölgədə səpələnmiş halda olan ermənilər bu dövlətdə yerləşdirilməlidir. O, Tələt paşaya göndərdiyi 28 may 1918-ci il tarixli şifrəli teleqramında yazırdı: "…Vehib paşa həzrətləri … Gümrüdə beş min evdən yalnız iki yüz evin müsəlman olduğunu və Aleksandropol sancağında iki yüz əlli min erməni bulunduğunu və bizə ilhaqdan sonra nə yolda idarə edilə biləcəyində çaşqın bulunduğunu söylədi. Yüzdə səksən beşi erməni olan Axalkələk qəzasıyla digər yerlərlə bərabər olduqca dağlıq və sarb bir məmləkətdə dörd yüz minə yaxın erməni başımıza alıyoruz deməkdir. İnşaallah sonunu xeyirli etsin. Rus ermənilərinin bizimkilərin tərbiyəçisi və müəllimi olduğunu da nəzəri-diqqətə alıram. Hərhalda çox xətalı bir yolu təqib etməkdə olduğumuzda israr edirəm. Ermənilərin Bolqarıstana bənzədilməsi fərqli müqayisədir. Bolqarıstan Avropada və İstanbul yolunun üzərindədir. Böyük Slavyan ailəsinin cüzi və böyük bir siyasət pişdarıdır və bizi İstanbula doğru sıxışdıraraq arxasını böyük xristian dövlətlərinə istinad etdirmişdir. Asiyada və böyük türk dövlət və millətlərin əhatəsində qalacaq olan ermənilərin qonşularına tabe olmaqdan başqa çarəsi yoxdur. Bu günkü yarım tədbir həm bizi, həm də Qafqazı yakacakdır və bəlkə məsələni daha da çətinliyə yuvarlayacaqdır…" [12, v. 89-90].

Tələt və Ənvər paşalardan fərqli olaraq, Vehib paşa da mövcud reallığı dəyərləndirən Xəlil bəylə eyni mövqedən çıxış edirdi. O, Ənvər paşanın teleqramına 29 may 1918-ci il tarixində verdiyi cavabda "verilən əmrləri yerinə yetirmək üçün çalışdıqlarını" bildirməklə yanaşı onu da qeyd edirdi ki, "erməniləri büsbütün qeyri-mövcud edə bilmərik. Hər halda onlara bir vücud vermək zərurət və məcburiyyətindəyik" [6]. Batumdakı türk heyətinin mövqeyinə görə yaradılacaq erməni dövləti Eçmiədzin və Yeni Bəyazid qəzalarından ibarət olmalı idi.

Bu durum qarşısında Ənvər paşa Batuma göndərdiyi 29 may tarixli təlimatında Osmanlı dövlətinin mərkəzi Gəncə olan hökumətlə (Azərbaycanla) birbaşa sərhədinin olmasının vacibliyini bildirirdi [9]. Ənvər paşanın mövqeyinə görə, Qarakilsənin şimalından da Osmanlı dövlətinin Azərbaycanla birbaşa sərhədi olmalı idi. Belə olan təqdirdə Osmanlı dövlətinin bir tərəfdən Naxçıvandan, digər tərəfdən də Qarakilsədən Azərbaycanla sərhədi olurdu [18, v. 14]. Ermənistanın isə Gürcüstanla birbaşa əlaqəsi kəsilirdi və o, Osmanlı dövləti ilə Azərbaycan arasında bir ada şəklində qalırdı.

Batumdakı Azərbaycan və Ermənistan nümayəndələri arasında, eyni zamanda Osmanlı-Azərbaycan-Erməni üçtərəfli danışıqlarında ərazi-sərhəd məsələləri ilə bağlı müzakirələr aparıldı və razılıq

əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır [14, v. 98]. İrəvanı siyasi mərkəz kimi Ermənistana güzəştə getmək məcburiyyətində olan Azərbaycan nümayəndələri şəhəri bu şərtlə güzəştə getməyə razı oldular ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina etsinlər [3, v. 47]. Bundan başqa, ermənilərin türk-müsəlmanlara qarşı törətməkdə olduqları soyqırım aktlarının dayandırılması və yeni yaradılan erməni dövlətinin nəzarətində olacaq ərazilərdə yaşayan türk-müsəlmanların taleyi ilə bağlı Azərbaycan tərəfinin ortaya qoyduğu mövqe Osmanlı nümayəndəliyi tərəfindən dəstəkləndi. Bakıdakı daşnak silahlı qüvvələrinin şəhərdən çıxarılması və erməni daşnak hökumətinin Bakıdakı S.Şaumyanla əlaqəyə girib şəhərdəki müsəlman əhalisinin təhlükəsizliyinin təmin edilməsini öz üzərinə götürməsi də X.Menteşə-A.Xatisyan-M.Ə.Rəsulzadə arasında aparılan danışıqlarda əsas mövzulardan idi.

Nəticeyi-kəlam, sərt və ultimativ şəkildə aparılan danışıqların yekununda İrəvan mərkəz olmaqla ətraf Azərbaycan ərazilərində erməni dövlətinin yaradılması müqavilində erməni tərəfi Azərbaycan və Osmanlı imperatorluğu qarşısında bir sıra öhdəliklər yerinə yetirməyi öz üzərinə götürdü və bunlar Osmanlı imperatorluğu ilə yeni yaradılan Ermənistan Respublikası arasında imzalanan 30-31 may və 4 iyun 1918-ci il tarixli protokol və müqavilələrdə təsbit edildi. Həmin öhdəliklər aşağıdakılar idi:

1. Ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi Stepan Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsizliyini təmin edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır (Osmanlı-Ermənistan "Sülh və Dostluq" müqaviləsinin 5 və 11-ci maddələri) [10, v. 11-19; 7].

2. Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır [19; 3, v. 1-2].

3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində yaşayan müsəlmanların sərbəst dini ibadət, azan oxunması, mədəniyyət, ictimai və siyasi fəaliyyət və ana dilində təhsil almaq hüquqlarını təmin edəcək və müsəlmanlar erməni əhalinin sahib olduğu bütün hüquqlara sahib olacaqlar (Osmanlı-Ermənistan "Sülh və Dostluq" müqaviləsinin 6-cı maddəsi və III əlavəsi) [10, v. 11-19, 28-32].

4. Ermənistan hökuməti Azərbaycana qarşı ərazi iddialarından, xüsusən də Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina edəcəkdir [3, v. 47].

5. Ermənistan Respublikası Azərbaycanla vahid konfederativ dövlətdə birləşmək üçün çalışacaqdır.

Nəticə etibarilə, baş komandan vəkili və hərbi nazir Ənvər paşanın bütün xəbərdarlıqlarına baxmayaraq, Xəlil bəyin rəhbərlik etdiyi Batumdakı türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək, İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi [19; 8].

Batumdan göndərilən direktiv əsasında Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olundu. Baş nazir F.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Şuranın üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verdi. Fətəli xan öz məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün Aleksandropol türklər tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Daha sonra bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd etdilər. Nəticədə 28 nəfər Şura üzvündən 16 nəfəri bu təklifin lehinə səs verdi [1, v. 51-52]. Bununla da İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu. Qeyd etdiyimiz kimi, Bakının Sovet Rusiyasının qoruduğu Şaumyan rejiminin əlində olması, bolşevik-daşnak alyansı tərəfindən Azərbaycanın bir çox qəzalarında müsəlman əhaliyə qarşı törədilən qırğın və talanlar və bununla bağlı ölkədə tüğyan edən anarxiya qarşısında Osmanlı dövlətinin hərbi yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələri bu yardımı təmin etmək üçün türklərin bütün tələblərini qəbul etməyə məcbur oldular.

4 iyun 1918-ci il tarixində imzalanmış Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 9 min $km^2$ ərazisi olan bir dövlət oldu. Ermənistan Respublikası Göyçə gölü

ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi. Bu ərazilər aşağıdakılardır: Yeni Bayazit qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası (qəza mərkəzi Aleksandropol istisna olmaqla) [16, v. 146; 14, v. 98, 13, v. 4, 69].

Yeni yaradılan Ermənistan Respublikası ərazisində cəmi 321000 nəfər əhali yaşayırdı ki, onun da 230 mini erməni, 80 mini türk-müsəlman, 11 mini isə digər xalqların nümayəndələri idi [13, v. 69]. Ermənilər onlara ayrılan ərazinin azlığından yenidən şikayətləndikdə, Batum konfransındakı Osmanlı hərbi nümayəndəsi Mehmed Vehib paşa bildirdi ki, ermənilərə daha çox ərazinin qalması üçün Ermənistan daxilindəki bütün müsəlmanları böyük məmnuniyyətlə Türkiyəyə köçürə bilərik [22, s. 168-169].

Beləliklə, Batum konfransındakı türk heyəti kiçik bir ərazidə öz nəzarəti altında olacaq bir erməni dövləti yaratdı və Osmanlı dövləti onu de-fakto tanıyan ilk dövlət oldu. Bununla da osmanlı dövləti bir tərəfdən "erməni məsələsi" ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan "qınağ"ı aradan qaldırmış olur, digər tərəfdən də İngiltərə, Fransa və Rusiya kimi dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətini Cənubi Qafqazda yaratmaqla problemi bir növ özündən uzaqlaşdırmış olurdu.

Lakin ermənilər erməni dövlətinin yaradılması müqabilində üzərlərinə götürdükləri öhdəliklərin heç birini yerinə yetirmədilər. Belə ki, erməni daşnak hökuməti Bakıdakı Şaumyan rejimi ilə əlaqəyə girib şəhərdəki müsəlman əhalisinin təhlükəsizliyinin təmin olunması istiqamətində heç bir iş görmədi; Azərbaycan Cümhuriyyəti hökumətinin hələ ki, tam nəzarət edə bilmədiyi qəzalarda türk-müsəlman əhalisinə qarşı diskriminasiya və soyqırım siyasətini davam etdirdi; Ermənistan Respublikası ərazisində qalan türk-müsəlmanların siyasi, ictimai, dini və mədəni hüquqları təmin olunmadı, mərhələli şəkildə həyata keçirilən soyqırım və diskriminasiya siyasəti nəticəsində bu əhalinin bir qismi məhv edildi, qalanları da ölkəni tərk etmək məcburiyyətində qalaraq qaçqına, Ermənistan isə monoetnik dövlətə çevrildi; Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədi; Azərbaycan Cümhuriyyəti ilə konfederativ dövlətlə birləşmək fikrini belə qəbul etmədi.

Batum razılaşmalarına və müqavilələrinə görə cəmi 9 min kv. km ərazidə yaranmış Ermənistan dövləti Mudros sülhündən sonrakı dövrdə və daha sonra Sovet hakimiyyəti illərində öz ərazisini əsasən Azərbaycan torpaqları hesabına olmaqla 20,8 min kv. km genişləndirərək 29,8 min kv. km-ə çatdırdı. Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycan özünün bir hissəsi olan Naxçıvandan ayrı salındı. Bütün bunlarla kifayətlənməyən Ermənistan Respublikası 1991-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ və ətraf 7 rayonundan ibarət 17 min kv. km ərazisini işğal etdi, 1 milyondan artıq azərbaycanlını qaçqın və məcburi köçkünə çevirdi, dünyanın gözü qarşısında Xocalı soyqırımını törətdi.

Hazırda Ermənistan Respublikası özünü 1918-1921-ci illərdə mövcud olmuş Ermənistan Respublikasının varisi elan etdiyindən həmin respublikanın İrəvanın ermənilərə verilməsi və erməni dövlətinin yaradılması müqabilində imzaladığı müqavilə və öhdəliklərə sadiq qalmasını və onları yerinə yetirməyə borclu olmasını anlamalıdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond (f.) 970, siyahı (siy. 1), iş 1.
2. ARDA, f. 970, siy. 1, iş 4.
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 276, siy. 9, iş 1.
4. Türkiye Cumhuriyeti Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE), A. 4/3671, K. 2917, D. 493-302, F. 1-136, 1-137.
5. ATASE, A. 4/3671, K. 2919, D. 61-499, F. 3-1, 3-2.
6. ATASE, A. 4/3671, K. 2919, D. 61-499, F. 3-26.
7. ATASE, A. 4/3671, K. 2919, D. 61-499, F. 3-31.
8. ATASE, A. 4/3671, K. 2920, D. 16-507, F. 1-18.
9. ATASE, A. 4/3671, K. 2930, D. 553, F. 4.
10. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), HMŞ.İŞO, D. 107, G. 11.
11. BOA, HR. SYS, D. 2371, G. 3.

12. BOA, HR. SYS, D. 2371, G. 6.
13. BOA, HR. SYS, D. 2372, G. 1.
14. BOA, HR. SYS, D. 2372, G. 3.
15. BOA, HR. SYS, D. 2398, G. 4.
16. BOA, HR.SYS, D. 2398, G. 5.
17. BOA, HR. SYS, D. 2398, G. 7.
18. BOA, HR. SYS, D. 2399, G. 1.
19. BOA, HSD.AFT, D. 6, G. 61.
20. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, Типография правительства Грузинской Республики, 1919.
21. Kurat A.N. Türkiye ve Rusya. Ankara, Kültür Bakanlığı Yayınları, 1990.
22. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011.

## GIVING OF IREVAN TO ARMENIANS AND PROCESS FOR CREATION OF ARMENIAN STATE

## SUMMARY

Process of "Giving of İrevan to the armenians and creation of Armenian state" has been researched in Batumi conference which is continued among national republics created after collapse of Seim with Ottoman empire aftermath continued between Ottoman empire and Transcaucasian Seim has been studied in the article.

Why Armenian state was established in 1918? Why Armenian state was established only around İrevan? How and by whom İrevan and surrounding areas were given to the Armenians? What was position of Azerbaijan side to this question? Under what conditions issue on giving of İrevan and surrounding areas and establishment of Armenian state in these areas has been implemented? Under what conditions İrevan was given to the Armenians? What was result of these terms?

All these questions are clarified under primary archive document and materials of that period.

## ПЕРЕДАЧА ЭРИВАНА АРМЯНАМ И ПРОЦЕСС СОЗДАНИЯ АРМЯНСКОГО ГОСУДАРСТВА

## РЕЗЮМЕ

В статье исследовано передача Эривана армянам и процесс образования армянского государства в Батумской конференции, которая проводилась между Османской империей и Закавказским Сеймом и продолжалась между национальными республиками созданными после распада Сейма.

Почему в 1918-м году было создано армянское государство? Почему армянское государство было создано именно на основе Эривана? Кем и как были переданы армянам Эриван и близлежащие территории? Какова была позиция Азербайджанской стороны по этому вопросу? При каких условиях внедрялась в жизнь передача Эривана и близлежащих территорий и создание армянского государства на этих территориях? На каких условиях Эриван была передана армянам? Каковы были последствия и дальнейшая судьба этих условий?

В статье внесена ясность всем этим вопросам в свете архивных документов и материалов.

*T.ü.f.d.* **Rəhilə ŞÜKÜROVA**
*Gazi Üniversitesi öyrətim üyesi, Ankara şəhəri*

# LƏNKƏRAN QƏZASINDA DAŞNAKLARIN VƏ BOLŞEVİKLƏRİN TÖRƏTDİYİ SOYQIRIMIN TARİXŞÜNASLIĞI

**Açar sözlər:** soyqırımı; Azərbaycan, Lənkəran qəzası, daşnaklar, bolşeviklər
**Keywords:** genocide; Azerbaijan, Lankaran uyezd, dashnaks, bolsheviks
**Ключевые слова:** геноцид, Азербайджан, Ленкоранский уезд, дашнаки, большевики

*1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda və Qubada daşnak-bolşevik rəhbərliyinin fəal iştirakı ilə törədilmiş dəhşətli qırğın nəticəsində dilindən, dinindən, cinsindən, mənşəyindən asılı olmayaraq minlərlə dinc əhali öldürülmüş, təhqir və işgəncələrə məruz qalmışdı. Azərbaycanın digər bölgələri kimi Lənkəran qəzası da erməni daşnaklarının rus bolşevikləri ilə birgə həyata keçirdiyi soyqırım cinayətindən kənarda qalmamış və bu ərazidə 1918-1919-cu illərdə kütləvi soyqırımlar həyata keçirilmişdir. Məqalədə bu soyqırımları sübut edən mənbələr və dövrü mətbuatın əsasında yazılmış mühüm əsərlər işıqlandırılmışdır.*

I Dünya müharibəsinin yaratdığı mürəkkəb şəraitdən istifadə edərək ermənilər qonşu xalqların hesabına milli dövlət yaratmaq iddialarını gerçəkləşdirməyə başladılar. Bu sərsəm ideyanın həyata keçirilməsi üçün isə yeganə yol bu ərazilərdə yaşayan yerli əhalinin məhv edilməsi idi. Böyük dövlətlərdən, xüsusilə Rusiyadan hərtərəfli kömək alan erməni cəlladları Azərbaycan və Şərqi Anadolu torpaqlarını aborigen əhalidən təmizləyərək "Böyük Ermənistan" dövləti yaratmağa cəhd göstərmişlər. 1918-1920-ci illərdə şimallı-cənublu Azərbaycanın əksər bölgələri – Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, İrəvan, Naxçıvan, Salmas, Xoy, Qaradağ, Təbriz, ən əsası Urmiya bölgəsi ermənilər tərəfindən qanlı soyqırıma məruz qalmışdır, bu ərazidə yaşayan azərbaycanlılar, o cümlədən bütün türk-müsəlman əhali ermənilərin dünyada analoqu olmayan soyqırıma məruz qalmışdır. Daşnak-bolşevik rəhbərliyinin fəal iştirakı ilə törədilmiş dəhşətli qırğın nəticəsində dilindən, dinindən, cinsindən, mənşəyindən asılı olmayaraq minlərlə dinc əhali öldürülmüş, təhqir və işgəncələrə məruz qalmışdı. Bu qanlı hadisə tezliklə Bakı hüdudlarından kənara çıxmış, bolşevik-daşnak hərbi dəstələri bir sıra Azərbaycan qəzalarında olduğu kimi Lənkəran qəzasını da talan etmiş, dinc əhali qətlə yetirilmişdi.

Təəssüflə qeyd etməliyik ki, qeyd olunan problemlə bağlı ölkəmizin arxivlərində saxlanılan bir çox qiymətli sənədlər sovet hakimiyyəti illərində xalqdan gizlədilmiş, Azərbaycan tarixinin ayrı-ayrı dövrləri və problemləri barədə saxta tarix "yaradılmışdır". Bu gün tarix elmi qarşısında duran ən mühüm vəzifələrdən biri də zaman-zaman azərbaycanlıların məruz qaldığı soyqırım və deportasiyalar, itirdiyimiz torpaqlar haqqında vaxtı ilə təhrif olunmuş tarixi həqiqətlərin üzə çıxarılaraq ölkə və dünya ictimaiyyətinin diqqətinə çatdırılmasıdır. Bu baxımdan Ümummilli Liderimiz Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı" haqqında fərmanı tariximizin bu qaranlıq səhifələrinə uzun illərdən sonra işıq salan ilk rəsmi hüquqi sənəd kimi böyük əhəmiyyətə malikdir. Ümummili Liderin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə göstərdiyi yüksək qayğını əsas götürən Tarix İnstitutu bu gün nəinki ölkəmizdə, hətta Böyük Britaniya, Fransa, Almaniya, Rusiya, Türkiyə, Hindistan və Gürcüstanın arxiv və kitabxanalarında saxlanılan ilk mənbələri, o cümlədən soyqırımla bağlı sənədlərin Azərbaycana gətirilərək nəşr olunması kimi çox mühüm bir layihəni həyata keçirir.

Azərbaycanın digər bölgələrindən fərqli olaraq Lənkəran qəzasında türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırımlarda ermənilər daha çox bolşeviklərlə əlbir hərəkət etmişlər.

İngilislərin ağalıq etdikləri Qacarlar İranı ilə həmsərhəd olan Lənkəran həmin dövrdə Bakının arxası sayılan mühüm strateji bir məntəqə olmaqla yanaşı həm də əhəmiyyətli yüngül-yeyinti sənayesi bölgəsi idi. Lənkəran vasitəsilə Orta Asiya və Həştərxanla əlaqə saxlamaq, Sovet Rusiyasından məsləhət və kömək almaq mümkün idi. Bu baxımdan Lənkəranın əldə saxlanması istər bolşeviklər, istərsə də onların hamilik etdiyi erməni daşnakları üçün vacib idi. Həmin dövrdə Lənkəran bölgəsi milli qüvvələrin - Sultan bəy Qulubəyov, Aslan Talışinski və baron Osten-Sakerin 1917-ci ildə təşkil

etdiyi milli alayı və I Dünya müharibəsindən qayıdaraq Lənkəranda terləşən "Dikaya diviziya"nın nəzarəti altında idi.

Bolşevik şnelinə bürünmüş daşnak Stepan Şaumyan milli qüvvələri tərksilah etməklə, bölgəni tamamilə ələ keçirməyi və burada etnik təmizləmə siyasəti həyata keçirməyi planlaşdırırdı.

Lənkəran qəzasında baş verən soyqırımlar dövrün mənbələrində və dövrü mətbuatda öz əksini tapmışdır. Dövrün hadisələrini əks etdirən mənbələr sırasında Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin yanında Siyasi Sənədlər Arxivinin 277 [2] və Azərbaycan Respublikası Dövlət Arxivinin 100 [3] saylı fondlarına məxsus sənədlər xüsusilə fərqlənir. Bundan əlavə, "Azərbaycan" qəzetinin 1918-ci il 18 noyabr [5], 1919-cu il 29 yanvar [6], 14 mart [7] və "Açıq söz" qəzetinin 1918-ci il 18 may və 23 yanvar [8] tarixli saylarında da Lənkəran qəzasında baş verən qanlı soyqırımlar haqqında məlumatlar öz əksini tapmışdır. Bu mənbələrin araşdırılması nəticəsində bir sıra mühüm tədqiqatlar [9], elmi araşdırmalar A.İsgəndərov [12;13], B.Kərimov [14], V.Abışov [1] və məqalələr toplusu [10] ortaya qoyulmuşdur.

Lənkəran qəzasında ermənilərin türk-müsəlman əhaliyə qarşı soyqırımı 1918-ci ilin yanvarında başlamış və mart ayında daha da şiddətlənmişdir. Fövqəladə Təhqiqat Komissiyanın sənədlərində, komissiyanın sədri Ələkbər bəy Xasməmmədov Xarici İşlər Nazirinə göndərdiyi yazılarında polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən Lənkəran qəzasında böyük dağıntılar törədildiyi, azərbaycanlı əhalinin ucdantutma məhv edilməsi, Astaranın bolşevik əsgərləri tərəfindən topa tutularaq xarabazarla çevrilməsi, Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndlərinin "Aleksandr Jandar" gəmisi tərəfindən top atəşinə tutulması, Lənkəran bölgəsi əhalisinin əksəriyyətinin yaşayış yerlərini tərk etməyə məcbur olması haqqında kifayət qədər məlumatlar verilmişdir [3, 100, siy. 2, iş 791, vər. 2].

Qeyd edilən araşdırmalarda daşnakların Lənkəranın müxtəlif bölgələrində evlərə soxularaq bəzi ailələri bütünlüklə məhv etdikləri, hamilə qadınlara, qocalara belə rəhm etmədikləri, Gərmətük, Mamusta, Kərgəlan, Sütəmurdov, Girdəni kəndlərində onlarca günahsız insanları soyqırıma məruz qoyduğu sübut edilmişdir [Bax: 12;13;14;1].

Lənkəran qəzasında erməni hərbi birləşmələrinin dinc müsəlman əhaliyə qarşı törətdiyi soyqırım faktları həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin parlamentdə də gündəmə gətirilmişdir. Bütün bu materiallar Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Stenoqrafik hesabatları şəklində 1998-ci ildə Bakıda işıq üzü görmüşdur. Beləki, 1919-cu ilin yanvarında Məmməd Əmin Rəsulzadə parlamentdəki çıxışında qeyd edirdi ki, "...burada yenə imdad naləsi eşidiriz. Binaən-ileyh Azərbaycan hökuməti məsələnin sülh konfransı tərəfindən həllinə və Qafqaziya millətləri bir yerə yığışıb ixtilafi bitirməsinədək millətdaşımızın və irqdaşımızın düçar olduqları ələmlərini yüngülləşdirməlidir. Yalnız ora (İrəvanda) deyil, Lənkəran müsəlmanları da bu haldadırlar. Azərbaycan parlamenti bu dərəcə zülm və qəddarlara düçar olan qardaşlarımıza müavinətini əsirgəməz: Vətənin ayrılmaz bir cüzini təşkil edən və paytaxtımızın böyründə bulunan Lənkəran uyezdinin bir takım özübaşına şəbilər əlində hər növ zülm və cəbrlərə məruz qaldığı, bura müsəlman əhalisinin min dürlü təcavüzlərə, işgəncələrə, haqsızlıqlara giriftar olduqları, Muğan Cumhuriyyəti adı ilə tuğyan edən şəbilərin kəndlilərini Muğan hökumətini tanımağa icbar eylədikləri hökumətə məlum olmaya bilməz. Hökumətin bu zavallı uyezdi, bu qəddar şəbilər təsəllüətindən qurtarmaq üçün nə kimi tədbirlərə müraciət eylədiyini bilmək istəriz" [4, s.121-122]

Bu qırğınlar nəticəsində ermənilər bölgədə yüzlərlə ev dağıtmış və minlərlə günahsız insanın həyatına son qoymuşdur. Nəticədə 1919-cu ilin avqustuna, "Molokan qiyamı" yatırılana qədər qəzada erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu [9, s.86].

1918-1919-cu illərdə Lənkəran bölgəsində həyata keçirilən soyqırımlar yerli əhalinin yaşlı nəslinin qanlı xatirələri Hacı Mirhaşım Talışlının müəllifi olduğu "1918-ci il Lənkəran faciəsi" [15;16] adlı məqalədə geniş şəkildə öz əksini tapmışdır. Məqalədə bu qanlı cinayətlərin canlı şahidlərindən Lənkəranda ilk ali təhsilli ədəbiyyat müəllimi Teymur Şahverdiyevin, müəllim Əbülqasım Qasımovun və başqalarının tükürpədici xatirələri qələmə alınmışdır [15;16].

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Abışov V. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, 2007.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin yanında Siyasi Sənədlər Arxivi, f. 277, siy. 2, iş 16.
3. Azərbaycan Respublikası Dövlət Arxivi, f.100, siy. 2, iş 791.
4. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı, 1998.
5. "Azərbaycan" qəzeti, 1918-ci il, 18 noyabr, №39.
6. "Azərbaycan" qəzeti, 1919-cu il, 29 yanvar, № 100.
7. "Azərbaycan" qəzeti, 1919-cu il, 14 mart, № 101.
8. "Azərbaycan" qəzeti, 1919-cu il, 18 may, № 103.
9. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008.
10. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. /AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun birgə layihəsi. Bakı, 2016.
11. Cavadova E. O, həm də görkəmli etnoqraf idi (Teymur bəy Bayraməlibəyovun həyat və yaradıcılığından səhifələr). Bakı, 2009.
12. İsgəndərov A. 1918-1920-ci illərdə türk-müsəlman soyqırımları. "Azərbaycan" qəzeti, 2005, 1-2 aprel.
13. İsgəndərov A. Azərbaycan türk-müsəlman soyqırımı problemlərinin tarixşünaslığı: 1918-1920. Bakı, 2006.
14. Kərimov B.B. 1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım // Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, Bakı, 2012, № 2, s. 151-160.
15. Lənkəran-Astara bölgəsində 1918-ci il qırğınları. "Zaman" qəzeti, 2014, 1 iyul, s. 6.
16. Talışlı M., Əhədov E. 1918-ci il Lənkəran faciəsi. "Respublika" qəzeti., 2015, 13 mart, № 57


## THE HISTORIOGRAPHY OF THE GENOCIDE COMMITTED DASHNAKS AND BOLSHEVIKS IN LENKORAN UYEZD
## SUMMARY


As a result of terrible massacre perpetrated with the active participation of the Dasnak-Bolshevik leadership in March-April of 1918 in Baku, Shamakhy, Guba thousands of civilians were killed, insulted and tortured regardless of their language, religion, sex and origin. Like other regions of Azerbaijan, Lankaran uyezd did not avoid the genocide carried out by Armenians together with Russian Bolsheviks, and mass genocide was carried out in 1918-1919.

In the article is highlighted important works written on the sources and press materials which has proven this genocide.


## ИСТОРИОГРАФИЯ ИСТОРИИ ГЕНОЦИДА, УЧИНЕННОГО ДАШНАКАМИ И БОЛЬШЕВИКАМИ В ЛЯНКЯРАНСКОМ УЕЗДЕ
## РЕЗЮМЕ


В результате геноцида, учиненного в марте-апреле 1918 года дашнако-большевистским руководством Бакинского Совета в Баку, Шамахе и Губе, были уничтожены и подвергнуты истязаниям десятки тысяч мирных людей – представителей тюрко-мусульманского населения. Армянские дашнаки, совместно с русскими большевиками, совершили также акции массового истребления населения Лянкяранского уезда.

В статье освещены труды, в которых на основе источников и материалов периодической печати приводятся неопровержимые научные доказательства осуществления этих акций геноцида.

*Fil.ü.f.d.* **Zakirə ƏLİYEVA**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu,*
*Elmi informasiya şöbəsinin müdiri*

## AZƏRBAYCANLILARIN SOYQIRIM MƏSƏLƏLƏRİNİN BİBLİOQRAFİK İCMALI

**Açar sözlər:** Tarix İnstitutu, soyqırım, terror, tarixşünaslıq, biblioqrafiya, Azərbaycan tarixi, erməni cinayəti
**Keywords:** Institute of History, genocide, terrorism, historiography, bibliography, the history of Azerbaijan, the crime of Armenians
**Ключевые слова:** Институт истории, геноцид, терроризм, историография, библиография, история Азербайджана, преступление армян

Elm və elmi-tədqiqat fəaliyyətinin özü bir növ informasiya prosesidir. Biblioqrafik tədqiqat dedikdə elmşünaslıq və elm tarixində məlum olan elmi-texniki tərəqqiyə informativ yanaşma nəzərdə tutulur. Biblioqrafiyaşünaslıq elminin tədqiqat funksiyasının reallaşdırılması nəinki bu elmin öz daxili nəzəriyyə və təcrübəsində baş verən təkmilləşdirmələrlə, eyni zamanda bütün elm sahələrində, o cümlədən ictimai elmlərdə də əldə edilən nailiyyətlərlə şərtlənir. Hər bir elm sahəsinin inkişafı isə onun nailiyyətlərinin qeydə alınmasını, yaşadılmasını və gələcəkdə istifadəsini təmin edilməsini tələb edir. Bu mənada Azərbaycan tarixinin biblioqrafik araşdırılması əslində toplanmış informasiya resursları əsasında biblioqrafik metodlardan istifadə etməklə yeni biliklərin əldə edilməsi prosesidir. Müasir dövrümüzdə Azərbaycan tarixi və tarixşünaslıq elmimizin inkişaf perspektivləri biblioqrafiyaşünaslıq elmimizin qarşısında da mühüm vəzifələr qoyur.

Azərbaycan tarixi və tarixşünaslıq elmimizə həsr olunmuş biblioqrafik nəşrlər əhatə etdiyi resursların xarakteristikasının təhlili və təsviri metodları əsasında ciddi faktiki elmi keyfiyyət göstəriciləri təqdim etməyə qadirdir. Tətbiq edilən informasiya texnologiyaları tarixin müxtəlif dövrləri, mərhələləri, ictimai-siyasi prosesləri, ideoloji cərəyanları, işğal, təcavüz, saxtalaşdırma faktları və s. haqqında dəqiq və optimal bibliometrik təhlillər aparmağa imkan verir.

A.A. Bakıxanov adına Tarix İnstitutunda ənənəvi və elektron resurslarla tarixi həqiqətləri üzə çıxarmaq, saxtalaşdırılmış səhifələrin öz rəngini bərpa etmək, faktiki elmi mahiyyətini açmaq, araşdırmalar üçün daim inkişafda olan, zənginləşən, yeni tədqiqat perspektivlərinə istiqamət verən tarixşünaslıq biblioqrafiyası məktəbi mövcuddur. Tarix İnstitutunun nəşr etdiyi biblioqrafik araşdırmalar ilk növbədə Azərbaycan tarixinin zəngin elmi məlumat bazası olmaqla yanaşı bu mötəbər elm ocağının özünün tarixi fəaliyyət salnaməsi kimi mühüm əhəmiyyət kəsb edir. AMEA-nın müxbir üzvü, A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudovun təşəbbüsü və rəhbərliyi ilə təşəkkül tapmış tarixşünaslıq biblioqrafiyası məktəbi İnstitut əməkdaşlarının müəllifi olduğu Azərbaycan tarixinin ən müxtəlif dövrlərinə və məsələlərinə həsr olunmuş nəşr materiallarının - kitab, monoqrafiya, tədqiqat işləri, məqalələrlə yanaşı, arxiv sənədlərinin, foto və video materialların, İnternet resurslarının elmi-sahəvi əsaslarda toplanılmasını, beynəlxalq aləmdə qəbul edilmiş biblioqrafik standartlar əsasında təsnifləşdirilməsini, işlənilməsini, nəşrini və təbliğini həyata keçirir.

Təkcə İnstitut əməkdaşlarının əsərlərindən ibarət olan «Azərbaycan tarixiçiləri» 2 cildlik biblioqrafik nəşr (1-ci cild. Kitablar, 384 s., II cild Məqalələr, 984 s.) 10 000-ə yaxın elmi mənbəni əhatə edir. Son illərin əhəmiyyətli elmi biblioqrafik nəşrlərindən olan «Azərbaycan Respublikasının tarixi (1991-2016): tarixi-biblioqrafik araşdırma» (372 s.) kimi 4000-dən artıq mənbəni əhatə edir. Azərbaycan tarixinin Müstəqillik illərinin səhifələrini işıqlandıran bu biblioqrafik araşdırma elmi-sahəvi, şəxsi, ölkəşünaslıq, retrospektiv, tövsiyə biblioqrafiyasının bir neçə metodunu özündə birləşdirir və universal elmi-biblioqrafik yaradıcılıq nümunəsidir.

Yuxarıda qeyd etdiyimiz hər iki biblioqrafik araşdırmada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlıların soyqırımı, deportasiyası məsələlərinə həsr olunmuş xeyli miqdarda materiallar öz əksini tapmışdır. Biblioqrafik təsvirlər tədqiqatçılara, oxuculara hər bir mənbənin dəqiq ünvanını və məzmununu təqdim edir.

İnstitutun 2014-cü ildə ən uğurlu layihələrindən biri tarix elmləri doktoru Y.Mahmudovun müəllifi olduğu «İlham Əliyev və Azərbaycan tarix elmi» kitabı olmuşdur. Kitabda, dövlət başçı-sının Azərbaycan tarix elminin saxtalaşdırmalardan, zərərli konsepsiyalardan təmizlənməsi, soyqırımlar ilə bağlı elmi araşdırmaların aparılması istiqamətində Tarix İnstitutuna verdiyi böyük dəstək, tövsiyə, qayğı və diqqət, çağırış və tapşırıqları, müstəqil Azərbaycan Respublikasında tarix elminin konseptual problemləri, bu problemlərin araşdırılması istiqamətində aparılan dövlət siyasəti və strategiyası öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr edilmiş ümumi yığıncaqdakı nitqində İnstitutun fəaliyyətini yüksək dəyərləndirərkən bu fikirləri söyləmişdir: «Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi demək olar bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır». (1)

Azərbaycan Prezidentinin çağırışları, tövsiyə və tapşırıqlarını nəzərə alan Tarix İnstitutunun kollektivi xeyli miqdarda elmi nəşrləri - «Kürəkçay-200» (2005), «Vandalizm: tarixi adlara qarşı soyqırımı» (2006), «Qarabağ: real tarix, faktlar və sənədlər» (2005), «Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər)» (2005), «Quba xanlığı» (2005), «Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920)» (2006), «Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)» (2007), «Azərbaycanlılar» (2008), «Dağlıq Qarabağ gerçəkliləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik)» (2009), «Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgələrində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar (1918-1920)» (2014), «İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi» (2016) və s.-oxuculara, dünya ictimaiyyətinə təqdim etmişdir.

İnstitutun nəşrləri sırasında ölkənin hər bir bölgəsində ermənilərin törətdiyi soyqırımlarından bəhs edən sənəd topluları, üçcildlik «İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi», Azərbaycan Respublikası Milli Atlasının tərtibi üçün hazırlanmış xəritələr xüsusi qeyd edilməlidir.

İnstitutun direktoru, görkəmli tarixçi alim Y.Mahmudov başda olmaqla, Tarix İnstitutunun əməkdaşlarının elmi əsərləri, çıxışları, məruzələri, müsahibələri həm ölkəmizdə, həm onun sərhədlərindən uzaqlarda, elektron informasiya mühitinin interaktiv kanallarında tarix yaddaşımızı, torpaqlarımız uğrunda haqq-ədalət savaşımızı dönə-dönə dünyanın gözü önünə qoyur: «Dünya tarixində ən vəhşi soyqırım Azərbaycan xalqına qarşı edilib», «Ermənilərin pafoslu uydurmaları və havadarları, bizim isə əlimizdə konkret sənədlər var», «Mart soyqırımında öldürülənlərin sayı 1 milyondan çoxdur», «Мы должны превратить могильные захоронения в музеи под открытым небом, и продемонстрировать миру армянский вандализм», «Soyqırımı haqqında bütün tarixi həqiqətlər üzə çıxarılmalı və dünya ictimaiyyətinə çatdırılmalıdır», «Геноцида армян никогда не было», «Как у турецкой , так и у азербайджанской сторон, имеются в руках серьезные факты в данной области» və s.(5)

A.A. Bakıxanov adına Tarix İnstitutunda aparılan elmi tədqiqatların mühüm istiqamətlərindən biri də xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımlar tarixinin tədqiqidir və bu sahədə də xeyli sayda tədqiqat əsərləri, monoqrafik nəşrlər, elmi məqalələr, sənədlər toplusu və s. çap edilmişdir. Tarix boyu türk-müsəlman əhaliyə qarşı soyqırım faktlarının araşdırılması üçün son dərəcə qiymətli məlumatlarla zəngin olan nəşrlər - «Qarabağ: Real tarix, faktlar, sənədlər» (2009), üç cildlik «Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı» sənədlər toplusu (2010), «Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər)», «Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri (2010), «Osmanlı sənədlərində Qarabağ: sənədlər və xəritələr» (2011), «Azərbaycan tarixi arxiv sənədlərində. I cild. XIX əsrin sonu – XX əsrin əvvəlləri. Britaniyanın arxiv sənədləri» (2012), «Azərbaycan tarixi arxiv sənədlərində. II cild. XVIII əsrin sonu – XX əsrin əvvəlləri. Rusiya Dövlət Arxivinin sənədləri» (2012), «Azərbaycan tarixi arxiv sənədlərində. III cild. XVIII əsrin sonu – XX əsrin əvvəlləri. Rusiya Dövlət Arxivinin sənədləri» (2012), «Azərbaycan tarixi arxiv sənədlərində.

Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arxivinin Sənədləri». I cild (2012), «Azərbaycan tarixi arxiv sənədlərində. Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arxivinin Sənədləri». II cild (2012), «Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. (Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri)» (2012), «Azərbaycan tarixi arxiv sənədlərində. May-oktyabr 1918-ci il. I Cild. Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Siyasi Arxivinin Sənədləri» (2013), «Azərbaycan tarixi arxiv sənədlərində. I cild. XIX-XX əsrlər. Gürcüstan Mərkəzi Dövlət Arxivi və Gürcüstanın Mərkəzi Ən Yeni Tarix Arxivinin Sənədləri» (2013), «Azərbaycan türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində» (2014), «Avropa diplomatiyasında «erməni məsələsi» və ya Türkiyəni bölüşdürmək planı (Rusdilli sənədlər əsasında)» (2015), «Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları» (2016) və s. işıq üzü görmüşdür.

Son onillikdə azərbaycanlıların soyqırımı faktlarına dair toplanmış külli miqdarda arxiv sənədləri əsasında tədqiqat işləri aparılmış, Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Zəngəzurda, Qarabağda, Naxçıvanda, İrəvanda yerli əhaliyə qarşı soyqırım faktları təhlil və təsdiq edilmişdir. Paralel olaraq, Tarix İnstitutunun bu nəşrlərinin və nəşrlərdə istinad edilən mənbələrin biblioqrafiyasının nəşri sahəsində işlərə də start verilmişdir. Tarixşünaslıq biblioqrafiyası sahəsində görülən işlər tarix elminin multidissiplinar əlaqələrini də əhatə etməklə operativ və dəqiq informasiyalaşdırılma proseslərinin təşəkkülünə yardım edir. (8) Müxtəlif elmi biliklərin – coğrafiya, təbabət, etnoqrafiya, fəlsəfə, hüquq, psixologiya və s. - qovşağında toplanmış mənbələr formatlarına görə də müxtəlifdir. Digər tərəfdən, biblioqrafiyada tətbiq edilən tarixi metodlar materialların məqsədyönlü, müfəssəl, səmərəli, tədqiqat xarakterli olmasını təmin edirsə, tarixi materiallara tətbiq edilən biblioqrafik metodlar mənbələrin bütün əlamətlərini, elementlərini, mahiyyətini təhlil və təbliğ etməyə imkan verir. (7)

Ümumiyyətlə, mənbələrin – sənədlərin, kitabların, foto-video materiallarının elmi dəyərinin nəzərə alınaraq, hədəfə aldığı mövzu istiqamətində səmərəli elmi sistemləşdirilməsi vacibdir. Hədəf dedikdə burada toplanmış resursların mövzu istiqaməti, istifadəçi kateqoriyası, ictimai-siyasi, ədəbi-mədəni, peşəkar və elmi-kütləvi mühit seçilə bilər. Hər bir halda Azərbaycanın tarixi ilə bağlı biblioqrafik araşdırmalar mütəxəssislərdən yüksək səviyyədə elmi və biblioqrafik məsuliyyət tələb edir. Çünki söhbət Azərbaycan xalqının dünya tarixində yerindən, ərazi iddialarına qarşı haqlı mövqeyindən, təcavüz və terrorizmə qarşı mübarizəsindən, soyqırımlara məruz qalmasından gedir.

Dünyanın bir sıra ölkələrində soyqırımla bağlı elmi maraq doğuran, müsbət və mənfi dəyərləndirilə biləcək, ənənəvi və elektron biblioqrafik nəşr nümunələri mövcuddur. Bu qəbildən biblioqrafik nəşrlərin, bazaların tədqiqat obyekti seçilərək alimlər və biblioqraflarımız tərəfindən müqayisəli təhlili və elmi dəyərinin və ya dəyərsizliyinin müəyyən olunması zəruridir. Fikrimizi təsdiq etmək üçün onlardan bir neçəsinə nəzər salaq.

Kaliforniya Universitetinin professoru Eddi Yegianyanın qlobal şəbəkə çıxardığı Ermənilərin soyqırımı biblioqrafiyasının («Обширная библиография Геноцида армян»- http://www.centerar.org/bibliography) ABŞ, Avropa və Yaxın Şərqin arxivlərindən əldə edilmiş və XX əsrdə humanizmin böhranına həsr olunmuş materiallardan ibarət olması iddia edilir. (10) Əsasən, Birinci Dünya müharibəsi dövründə Osmanlı Türkiyəsində yaşayan erməni əhalinin soyqırımı ilə bağlı materiallardan ibarət olan biblioqrafik bazanın mahiyyəti və mənbələrin seçiminə yanaşma mövqeyi, baxış bucağı aydındır. Əlbəttə, bu bazanın elmi etibarlılığı haqda söz demək həm qardaş Türkiyənin, həm də Azərbaycanın ziyalılarının, tarixçi alimlərinin öhdəsinə düşür.

Qeyd edək ki, biblioqrafik bazanın ana səhifəsində müəllif, həyatları yarımçıq qalmış qohumlarının adlarını sadalayır və yazır ki, onlar Türkiyədə erməni olduqları üçün soyqırıma məruz qaldılar. Mənbələri toplayarkən erməni terrorçularının tarix boyu törətdiyi vəhşiliklərin minlərlə insanın həyatını əlindən alması faktlarına göz yuman Yegianyanların bu gün «cavabını» verməyə qadir olan tarixçilər ordumuz və bu ordunu onu haqq savaşına səsləyən dövlət rəhbərimiz var: «1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırım törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırım törədilmişdir... Burada həlak olmuş insanlar müxtəlif dinlərin, müxtəlif millətlərin nümayəndələridir. Onların ermənilər üçün bir

günahı var idi ki, onlar erməni millətindən deyildilər» – bu fikirlər Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Quba Soyqırımı Memorial Kompleksinin açılışındakı nitqindəndir.(2)

Qeyd edək ki, bu qəbildən həm çap, həm də elektron variantda «Геноцид армян 1915-1916 гг. Библиография (1995), «Армянский вопрос, геноцид армян: библиография литературы на русском языке (1877-1997) (1998), «Армянский вопрос и Геноцид армян». Библиография на русском языке (1998-2007 гг.) (2009) və s. kimi nəşrlər internet mühitində erməni soyqırımının geniş təbliğinə xidmət edir.

Erməni soyqırımı tərəfdarları, «professional» tarixçilər əldə etdikləri mənbələri necə deyərlər «öz xeyirlərinə» təbliğ edirlər. İstinad edilən mənbələrin seçimində də qərəzlilik mövcuddur. Halbuki bu mənbələrə idrakın və məntiqin dərk etdiyi səbəb və nəticə müstəvisində tənqidi yanaşılarsa əsl həqiqət üzə çıxar. O həqiqət ki, tarix elmləri doktoru Yaqub Mahmudov da, onun rəhbərlik etdiyi Tarix institutunun alimləri də öz əsərləri ilə onu dəfələrlə öz tədqiqatlarıyla təsdiq ediblər: «Bu gün Ermənistan dövlətinin, erməni diasporunun, lobbisinin illərdir tətbiq etməyə çalışdığı hədəflərin necə saxta olduğunu elə təkcə 1918-ci ildə Azərbaycanın müxtəlif bölgələrində baş verən mart soyqırımının saysız qurbanları ilə puç etmək olar. Özünün Osmanlı dövləti tərəfindən soyqırımına məruz qaldığını iddia edən ermənilər hələ də anlamırlar ki, vətəndaşı olduğu dövləti içdən dağıdanda, ona arxa çevirəndə, onun dinc sakinlərini süngüdən keçirəndə dövlət əgər dövlətdirsə, mütləq bunun cavabını verməlidir və günahkarlar cəzalandırılmalıdır. Quldur erməni terror təşkilatlarının Osmanlı dövləti tərəfindən cəzalandırılmasına, onların üstünə qoşun göndərilməsinə, dinc ermənilərin münaqişə bölgəsindən rəsmi şəkildə köçürülməsinə soyqırım yarlığı vuran erməni paranoik düşüncəsi hələ də anlamır ki, Şərqi Anadoluda onlar tərəfindən öldürülən türklərin sayı ölmüş ermənilərdən iki dəfə çox olmuşdur. Azərbaycanın şimalında və cənubunda isə üst-üstə yüz minlərlə insan qətliama məruz qalmışdır. Bəs bunlar soyqırım deyil, nədir ?» (6)

Görkəmli tarixçi alimin bu fikirləri dünya elmi mühitində soyqırımla bağlı tədqiqatlar üzrə mütəxəssis kimi tanınmış Günter Levinin məsələ ilə bağlı mövqeyi ilə üst-üstə düşür. Dünya elmi mühitində soyqırımla bağlı tədqiqatlar üzrə mütəxəssis kimi tanınmış Günter Levinin mənbələrə qərəzli yanaşma faktlarını tədqiq və təsdiq edən «Osmanlı imperiyasında erməni məsələsi: miflər və reallıq» kitabı (2005) tarixçilərlə yanaşı, bu sahədə material toplayan biblioqraflar üçün də maraqlıdır.(9) Çünki bu qəbildən nəşrlərin biblioqrafik istinadları (eləcə də, Stiven Kats, Bernard Lyuis və b. əsərləri ) saxtalaşdırma faktlarını aşkar etməyə yardımçı olmaqla bərabər həqiqəti əks etdirən mənbələrin təbliğini də asanlaşdırar.

Qardaş Türkiyədə də məsələ ilə bağlı nəşr edilmiş biblioqrafik mənbələrlə də işləmək məqsədəuyğundur. Məsələn, Türkiyədə Sabancı Üniversitetinin doktoru Candan Bademin hazırladığı «Türk-Ermeni Sorunu Bibliyografyası» 1878-1923-cü illərə aid ingilis, rus, erməni, fransız, alman və b. dillərdə əsas sənədli mənbələri, monoqrafiyaları, məqalələri xeyli materialı əhatə edir. 5000-dən çox mənbəni təqdim edən bu nəşrə biblioqrafiyalar, elmi tədqiqat işləri, internet resursları da daxil edilmişdir. (3)

M.F. Axundzadə adına Milli Kitabxanasının hazırladığı «Xocalı Soyqırımı - 20: biblioqrafiya» (2012) nəşri 2500-ə yaxın mənbəni əhatə edir və göstəricinin sonunda Xocalı şəhidlərinin siyahısı da əlavə olunmuşdur.

Azərbaycan mühitində son illər internet şəbəkəsinə çıxarılmış Prezident Kitabxanasının təqdim etdiyi «Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror» elektron biblioqrafik bazası arxiv sənədlərini, dövri mətbuat materiallarını, ayrı-ayrı tədqiqatçıların elmi əsərlərini və s. əhatə edir. Yeddi fəsildən ibarət elektron nəşrin «Soyqırım» bölməsi 1905-1906-cı illərdə azərbaycanlılara qarşı törətdikləri qırğınlardan bəhs dən materialları təqdim edir. «1915-1920-ci illərdə ermənilərin Şərqi Anadoluda və Cənubi Qafqazda, Cənubi Azərbaycanda törətdikləri soyqırımlar», «Ermənistanın 1991-1994-cü illərdə işğal etdiyi Azərbaycan ərazilərində törətdikləri soyqırım cinayətləri» bölmələri zəngin informasiya yükünə malikdir. «Deportasiya» bölməsi azərbaycanlıların indiki Ermənistan ərazisindən 1948-1953-cü illər və 1988-1989-cu illər deportasiyasına aid araşdırma materiallardan ibarətdir. «Sənədlər», «Terror», «Video-arxiv» bölmələrində ermənilərin törətdikləri qırğınlara və deportasiyalara aid arxiv sənədləri, fərmanlar, sərəncamlar, tarixi gerçəklikləri ortaya qoyan materiallar toplanmışdır.

«Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror» elektron bazası arxiv sənədləri, dövri mətbuat materialları, ayrı-ayrı tədqiqatçıların məqalələri əsasında tam dolğunluğu ilə sübut edir ki, «əsl soyqırım 1905-1906-cı illərdə, I Dünya müharibəsi zamanı və 1918-1920-ci illərdə Şərqi Anadoluda və Azərbaycan ərazilərində türk-müsəlman əhalisinə qarşı törədilmişdir. 1991-1994-cü illərdə dünyanın gözü qarşısında Ermənistan ordusu tərəfindən Azərbaycanın 20% ərazisi işğal edilmiş və həmin ərazidə xalqımıza qarşı soyqırım törədilmişdir. Son 30-40 il ərzində ermənilərin törətdikləri terror aktları nəticəsində minlərlə günahsız insan tələf olmuş və yaralanmışdır. Bu elektron nəşr özlərini dünyaya sivil və soyqırıma məruz qoyulan millət kimi təqdim edən ermənilərin əsl simasını üzə çıxarır». (4)

Qeyd edək ki, bazanın adı qeyd edilən bölmələrində A.A. Bakıxanov adına Tarix İnstitutunun alimlərinin xeyli miqdarda elmi əsərləri də öz əksini tapmışdır. Son illər A.A. Bakıxanov adına Tarix İnstitutunda nəşr edilən elmi tədqiqat əsərləri, o cümlədən, tarixdə və müasir dövrümüzdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırım faktları ilə bağlı «Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı: Sənədlər toplusu (3 clddə) (2010), «Bakıda 1918-ci il mart soyqırımı» (2014), «Quba qəzasında türk-müsəlman soyqırımı» (2014), «Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı» (2014), «1918-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində erməniləri türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı»(2014), Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımlar: 1914-1920-ci illər: II Beynəlxalq elmi konfransın materialları (2015), «Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları» (2016) və s. kimi Azərbaycan və digər xarici dillərdə nəşrlər işıq üzü görmüşdür. Bu əsərlərin və onların təməlində duran sənədlərin, materialların regional, sahəvi, retrospektiv, cari və s. olmaqla biblioqrafik bazalarının yaradılması, nəşri və dünya ictimaiyyətinə çatdırılması kitabxana-informasiya mütəxəssislərimizin də qarşısında duran mühüm vəzifələrdəndir. Əsərlərdə tarixçi alimlərimiz xalqımızın tarixi, soykökü, ərazi bütövlüyünə qarşı yönəlmiş iddialara qarşı cəsarətlə, ciddi təkzibolunmaz faktlarla silahlanaraq çıxır. Müsəlləh əsgər timsalında səfərbər olmuş tarixçi alimlərimizin gərgin axtarışları, araşdırmaları, əməyi sayəsində yaranan bu əsərlər informasiya cəbhəsində hücumları dəf edir, ermənilərin saxta ərazi iddialarını heçə endirir, xalqımızın haqq səsini dünyanın informasiya meridianlarına çıxarır.

Prezident Kitabxanasının hazırladığı «Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror» kimi çoxfunksiyalı, müxtəlif formatlarda və dillərdə elektron bazanın yaradılması Azərbaycan tarixşünaslıq biblioqrafiyasının inkişafına böyük xidmət nümunəsi, kitabxana-informasiya mütəxəssislərimizin uğuru sayıla bilər.

Azərbaycan-Türkiyə tarixi həqiqətlərinin dünyaya çatdırılması, Azərbaycan və Şərqi Anadolunun türk-müsəlman əhalisinə qarşı ermənilərin törətdikləri soyqırımların araşdırılması, Ortaq Türk tarixinin yazılması prosesləri Azərbaycanın və Türkiyənin tarixçi alim və mütəxəssislərinin birgə səyi ilə mümkündür. Bu mənada xüsusilə müxtəlif dillərdə müsəlman-türk əhaliyə qarşı soyqırım məsələlərinə həsr olunmuş, annotasiyalı-biblioqrafik, tarixi-xronoloji axarda sırf elmi-sənədli elektron məlumat bazalarının - tarixşünaslıq resurslarının daha geniş məcrada yaradılmasına ehtiyac duyulur. Unutmayaq ki, bu bazaya daxil ediləcək hər bir elmi əsər, sənəd, faktoqrafik məlumat «hədəfə açılan sərrast atəş»dir. Və bu atəş dini, irqi, milli zəmində insanlığa, humanizmə, varlığımıza, maddi-mənəvi dəyərlərimizə qarşı törədilmiş hər cür cinayətləri, vəhşilikləri, vandallığı susdurmağa yönəlmişdir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT:


1. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. AMEA-nın 70 illiyinə həsr olunmuş ümumi yığıncaqda nitqi... http://files.preslib.az/site/ialiyev/2015.pdf
2. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti. Quba Soyqırımı Memorial Kompleksinin açılışında çıxışı… http://www.president.az/articles/9346
3. Candan Badem. Türk Ermeni Sorunu Bibliyografyası. T.C. İstanbul: Aras Yayıncılık, 2007. https://www.academia.edu/643113/T%C3%BCrk-Ermeni_Sorunu_Bibliyografyası
4. Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror... http://genocide.preslib.az/
5. Yaqub Mahmudov. Biblioqrafiya. Bakı: Təhsil, 2012.
6. Yaqub Mahmudov: Ermənilərin pafoslu uydurmaları və havadarları, bizim isə əlimizdə konkret sənədlər var // Xalq qəzeti. 2015. 2 aprel.

7. Здобнов Николай. Библиография как историческая наука // Наука и Жизнь, 1989, № 2.
8. Казаков Р.Б. Всторическая библиография как вспомогательная историческая дисциплина: исследовательские практики и перспективы развития. http://ivid.ucoz.ru/publ/obsuzhdenija/kazakov2014/12-1-0-178
9. О книге Гюнтера Леви "Армянский вопрос в Османской империи: мифы и реальность" на портале "Вестник Кавказа"... http://www.rosspen.su/ru/news/.vie-w/id/623/
10. Обширная библиография Геноцида армян доктора философии Эдди Егиаяна стала доступна во всемироной сети … http://www.yerkramas.org/article/38796/obshirnaya-bibliografiya-genocida-armyan-doktora-filosofii-eddi-egiayana-stala-dostupna-vo-vsemironoj-seti

## BIBLIOGRAPHICAL REVIEW OF THE AZERBAIJANIS GENOCIDE
## SUMMARY

In recent years, A.A.Bakikhanov Institute of History has published a considerable number of works devoted to the genocide committed against the Azerbaijani people. The Institute also has a school of historiographical bibliography that presents the facts of the genocide of Azerbaijanis and reveals the truth in relation to the false "Armenian genocide." The article is about the importance of bibliographic publications devoted to the problem of genocide and ways to solve the mentioned problems.

## БИБЛИОГРАФИЧЕСКИЙ ОБЗОР ПО ПРОБЛЕМЕ ГЕНОЦИДА АЗЕРБАЙДЖАНЦЕВ
## РЕЗЮМЕ

В последние годы в Институте Истории им. А.А.Бакиханова опубликовано значительное количество исследований о геноциде против азербайджанского народа. В Институте действует школа историографической библиографии, обличающая "армянский геноцид". В статье говорится о важности библиографических изданий, посвященных проблеме геноцида.

*T.ü.f.d.* **Fəridə ƏLİYEVA**
*Aparıcı elmi işçi*

# 1918-1920-ci İLLƏRDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI TÖRƏTDİKLƏRİ SOYQIRIMIN İRƏVAN BÖLGƏSİNDƏ DEMOQRAFİK DURUMA TƏSİRİ

**Açar sözlər:** İrəvan xanlığı, əhali, erməni təcavüzü, soyqırım, qaçqınlar
**Keywords:** Iravan khanate, population, Armenian aggression, genocides, refuges
**Ключевые слова:** Ireванское ханство, население, армянская агрессия, геноцид, беженцы

Ermənilərin XIX əsrin II yarısından başlayaraq yaşadıqları ərazilərdə çox böyük cinayətlərə imza atdıqları danılmaz həqiqət olsa da, artıq 100 ildir ki, erməni siyasətbazları həyasızcasına tarixi faktları saxtalaşdıraraq guya 1915-ci ildə Türkiyədə ermənilərin soyqırıma məruz qaldıqlarını «sübuta yetirməyə» çalışırlar. Bu da bir danılmaz həqiqətdir ki, indi Ermənistanın mövcud olduğu ərazi tarixi Azərbaycan ərazisidir və azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Lakin XIX əsrin əvvəllərindən başlayaraq Rusiyadan rusların və digər millətlərin, İran və Türkiyədən ermənilərin bu ərazilərə köçürülməsi ilə əlaqədar əhalinin etnik tərkibini dəyişmişdir.

1826-1828-ci illər Rusiya-İran və 1828-1829, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibələri , Türkmənçay (1828) və Ədirnə (1829), San-Stefano (1878) müqavilələrindən sonra ermənilər kütləvi surətdə Qafqaza, xüsusilə Azərbaycan torpaqlarına köçürülmüşlər [21, 375]. İ.Şopenin [33, 635-642] məlumatlarına görə işğal ərəfəsində İrəvan xanlığında 49875 nəfər müsəlman (Azərbaycan türkü), 324 nəfər kürd, 20073 nəfər erməni yaşayırdı. İrəvan xanlığında 521 kənddən yalnız 153-də müsəlman (azərbaycanlı) əhalinin yaşadığı qeydə alınmamışdır, qalanları isə sırf azərbaycanlı kəndi olmuşdur [33, 509-507].

Ruslar regionda möhkəmlənmək, Türkiyə və İrana qarşı mübarizə üçün ermənilərdən maşa kimi istifadə etmək, ermənilər isə rusların köməyindən istifadə edib türk-azərbaycanlı əhalini qıraraq torpaq əldə etmək istəyirdilər.

Ermənilərin həm İran, həm də Osmanlı imperiyasından İrəvan vilayətinə köçürülmələri nəticəsində 1823-1827-ci illərdə türk-müsəlmanlar əhalinin 70 %-dən çoxunu təşkil etdiyi halda, 1828-1830-cu illərdə 46%-ə enmişdi [16, 148]. 1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvan qəzasında azəbaycanlılar təxminən 74175 nəfər (48,1%), ermənilər isə 69710 (45,2%) nəfər təşkil edirdi. İrəvan şəhərində isə cəmi 51548 nəfər əhali qeydə alınmışdı [24].

Qərbi Azərbaycan əhalisinə qarşı soyqırım və öz tarixi dədə-baba yurdlarından deportasiyası elmi ədəbiyyatda 4 mərhələyə bölünür:

- 1-ci mərhələ 1905-1907-ci illərdə erməni daşnakları İrəvan quberniyasında yaşayan türk-müsəlman əhaliyə məqsədli şəkildə amansız işgəncələr verir: yaşadıqları evləri qarət edərək dağıdır, əhalini qaçmağa məcbur edir, qalanlarını isə öldürürdülər. Onlar İrəvan quberniyasında 1905-ci il iyun ayının 10-da Üçkilsə qəzasında 9 kəndi yandırmışdılar. Ermənilər İrəvan quberniyası ilə yanaşı Azərbaycanın digər bölgələrində də qırğınlar törətmişlər.
- 2-ci mərhələ 1917-1920-ci illər. 1917-ci ilin fevralından 1918-ci ilin mart ayına qədərki dövrdə İrəvan quberniyasında azərbaycanlı kəndləri qarət edilmiş, dağıdılmış və yandırılmış, 100 min nəfərədək azərbaycanlı Sürməli, İrəvan Üçkilsə, Şərur və s. qəzalarını tərk etməli olmuşdur [25]. Tarixi ədəbiyyatda 1918-1920-ci illərdə erməni daşnaklar tərəfindən öldürülənlərin sayının 100-120 min nəfərə çatdığı, 50 min insanın isə Azərbaycan Cümhuriyyətinə, bəzilərinin isə Türkiyəyə və İrana qaçdığı göstərilir [30, 52].
- 3-cü mərhələ 1948-1953-cü illər. Azərbaycan SSR-də Kür-Araz ovalığını məskunlaşdırmaq adı ilə Ermənistan SSR-də yaşayan yüz mindən çox azərbaycanlının deportasiyaları.
- 4-cü mərhələ 1988-1991-ci illər. XX əsrin axırlarında Qərbi Azəbaycanda yaşayan azərbaycanlıların öz vətənlərindən kütləvi zorakılıqla qovulmasının son mərhələsi.

Biz məqaləmizin xronoloji çərçivəsinə uyğun olaraq 1918-1920-ci illəri əhatə edən mərhələ haqqında bir qədər ətraflı məlumat veririk.

İrəvan quberniyasında yerləşən erməni hərbi hissələri gələcək müstəqil Ermənistan üçün ərazi təmizləməkdən ötrü azərbaycanlıların kütləvi qırğınını gerçəkləşdirirdilər. 80 min nəfərə kimi azərbaycanlı daimi yaşayış yerini tərk etməli oldu [30, 89].

1918-ci ilin martına kimi İrəvan quberniyasının İrəvan qəzasında cəmi 3015 təsərrüfatı olan 32 azərbaycanlı kəndi dağıdılmış və sakinləri tərəfindən tərk olunmuşdu. 1908-ci ilin məlumatına görə bu kəndlərdə 10298 kişi, 8707 qadın, cəmi 19005 nəfər sakin olmuşdur. Quberniyanın Sürməli qəzasında 5493 təsərrüfatı olan kənd dağıdılmış və sakinləri tərəfindən tərk olunmuşdur. Yenə 1908-ci il məlumatına görə bu kəndlərdə 42347 nəfər/21889 kişi, 19458 qadın/yaşamışdır. Eçmiədzin qəzasında 5979 təsərrüfatı olan 84 kənd dağıdılmışdı. 1908-ci il məlumatına görə bu kəndlərdə 35784 nəfər/18967 kişi, 16658 qadın/yaşamışdır. İrəvan quberniyasının Novobayazid qəzasında 668 təsərrüfatı olan 7 kənd dağılmışdı. Beləliklə, bütövlükdə quberniya üzrə 15155 təsərrüfatı olan 199 kənd dağıdılmış və işgəncələrə məruz qalmış sakinləri tərəfindən tərk edilmişdi. 1908-ci il məlumatına görə bu kəndlərdə 100626/53581 kişi, 47045 qadın/yaşamışdır. 10 il ərzində əhalinin 30 faiz artdığını nəzərə alsaq bu rəqəm 135000-ə çatır [1, 49-56; 11, 216-220].

Qeyd edək ki, tarixi fürsətdən yararlanan ermənilər 1918-ci ilin mayında tarixi etnik Azərbaycan torpaqlarında Ermənistan adlı dövlət yaradıldığını elan etmişlər, lakin bu dövlətin paytaxtı yox idi. 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının Tiflisdə keçirilən iclasında İrəvanın ermənilərə güzəşt edilməsi qərara alınmışdı (protokol №3). Bu məsələ üzrə səsvermədə 28 Şura üzvündən 20-si iştirak edirdi və onlardan 16-sı İrəvanın güzəşt edilməsinin lehinə, 1 nəfər əleyhinə səs vermiş, 3 nəfər bitərəf qalmışdı [14]. Qərbi Azərbaycan torpaqlarında dövlət quran ermənilər dövlət səviyyəsində azərbaycanlılara qarşı soyqırım həyata keçirməyə başladılar.

Azərbaycana qarşı erməni təcavüzü 1918-ci ilin ortalarından başlayaraq geniş vüsət almışdır. 9-cu tümənin komandanı Rüştü paşa I Qafqaz Ordusu komandanlığına göndərdiyi 20 iyun 1918-ci il tarixli raportunda İrəvanın 10 km şərqindəki Ağcaqala kəndindən Şorbulaq yolu ilə İrəvana köç edən iyirmi müsəlman köçünün ermənilər tərəfindən məhv edildiyini xəbər verirdi [20]. 9-cu türk ordusunun komandanı Şövqü paşa Baş komandanlığa göndərdiyi 29 dekabr 1918-ci il tarixli teleqramda Yanun adlı ermənin tabeçiliyindəki 1200 nəfərlik bir silahlı qüvvə ilə Naxşıvanın 40 km şimalındakı Almalı mahalında 688 və bu kəndin 12 km şimal-qərbindəki Ağuş adlı yerdə 516 nəfəri qətlə yetirdiyi bildirilirdi [20, 120].

Fövqəladə Təhqiqat Komissiyasının məlumatına görə ancaq 1918-ci ilin yayı və payızı ərzində Zəngəzur qəzasında 105 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış və məhv edilmişdi [2; 3; 4]. Hesablamalara görə bu dövr ərzində 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 794 qadın və uşaq yaralanmışdı. Cəmi 10068 adam öldürülmüş və şikəst edilmişdi. 50 min azərbaycanlı xilas olmaq üçün Zəngəzuru tərk etməli olmuşdu [5; 11; 13].

İrəvan quberniyasının müsəlman əhalisi amansız terrora məruz qalmışdı. Bir daha qeyd edək ki, azərbaycanlılar yeni yaradılmış Ermənistan Respublikası əhalisinin əhəmiyyətli hissəsini təşkil edirdilər. İrəvan qəzasının özündə 1914-cü il məlumatına görə azərbaycanlılar ermənilərdən demək olar ki, iki dəfə artıq idilər [14; 31].

Yalnız 1919-cu ilin avqust-sentyabr aylarında İrəvan quberniyasının Eçmiədzin qəzasında 62 kənd, Sürməli qəzasında 34 kənd dağıdılmışdı. Quberniyadan qaçan azərbaycanlıların sayı 100 min nəfəri aşırdı [6; 7; 12].

Erməni quldurlarının azərbaycanlı kəndlərinə basqınları sonrakı aylarda və illərdə də davam etmişdir. Təkcə 1920-ci il yanvarın 15-19-u arasında Zəngəzur qəzasında əhaliyə zülm edilmiş və daha 51 azərbaycanlı kəndi dağıdılmışdı [8; 9; 10].

AXC dövrününün ilk qaçqınları 1918-ci ilin oktyabrında İrəvan quberniyasının Eçmiədzin qəzasında, 1919-cu ildə Zəngəzurun dağlıq hissəsindən və digər qonşu ərazilərdən 40 min nəfərədək əhali Cəbrayıl, Şuşa, Cavanşir qəzalarına və digər rayonlarda yerləşdirilmişdir. Qaçqınların kütləvi axınlarından biri Yeni Bəyazid, Üçkilsə və İrəvan qəzalarından olmuşdur.

«Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası» kitabında erməni müəllifinə istinadən yazılır: «1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı dövründə Ermənistanın indiki ərazisində yaşayan 575000 nəfər azərbaycanlının 565 mini qırılmış və qovulmuşdur [17, 35]. Bu rəqəmi Z.Korkodyan özünün «Sovet Ermənistanın əhalisi. 1831-1931» kitabında təsdiq edir: «1920-ci ildə sovet hökumə-

tinə daşnaklardan cəmi 10000 nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60000 qaçqın qayıtdıqdan sonra azərbaycanlılar burada 72596 nəfər təşkil etmişdir».

XIX-XX əsrlərdə İrəvan quberniyası əhalisinin etnik tərkibinin dəyişməsinə dair tədqiqatda yazıldığına görə 1918-1921-ci illərdə Ermənistan Respublikasının həyata keçirdiyi siyasət nəticəsində 1918-ci ildəki 418 min azərbaycanlı və kürddən 1922-ci ilə 170 min nəfər qalmışdı [22; 23].

1926-cı il Ümümittifaq siyahıyaalınmalarına görə Ermənistan SSR əhalisini 878929 nəfər təşkil edirdi.. Əhalinin etnik tərkibi: ermənilər 743571 nəfər 85%, türklər və qaraqlar: azərbaycanlılar 83181-nəfər 10% olmuşdur [34]. Ermənilərin bu qədər artımı heç də təbii artım nəticəsində yox, ermənilərin kütləvi surətdə Osmanlı imperiyasından köçüb gəlməsi nəticəsində olmuşdur.

Burada adətən diqqətdən kənarda qalan bir faktı da qeyd etmək istərdik. Ermənistan Respublikasının Gürcüstanla 1918-ci ildə Borçalı uğrunda apardığı müharibə də orada yaşayan azərbaycanlı əhaliyə böyük itki vermişdi [32; 27].

XX yüzilliyin 20-ci illərində yeni qurulmuş sovet hakimiyyətinin hər yerində federasiyalaşdırma siyasəti həyata keçirildi. Ermənistanı müttəfiq respublikalardan biri etmək üçün Azərbaycan torpaqları hesabına Ermənistana yeni ərazilər bəxş edilmişdi. Sovet hakimiyyəti illərində ermənipərəst yönüm, xristian təəssübkeşliyi müsəlman-türk xalqlarına qarşı ayrı-seçkilik siyasəti ögey münasibətlə səciyyələnirdi.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra (1920-ci ilin noyabrı) vəziyyətin dəyişəcəyinə olan ümidlər özünü doğrultmadı. Ermənistan SSR hökuməti də azərbaycanlılara münasibətdə daşnak hökumətinin siyasətini davam etdirməyə başladı.

Ermənistan SSR-in azərbaycanlılara qarşı ilk düşmənçilik addımlarından biri qaçqınlara münasibətdə özünü göstərdi. Erməni-daşnak hökumətinin soyqırım siyasəti nəticəsində oradan təxminən bir milyondan çox azərbaycanlı İranın sərhəd rayonlarına – Maku xanlığı və Culfaya, digər qismi isə Azərbaycan SSR-ə qaçmışdı. Qaçqın azərbaycanlılar, xüsusilə İrana pənah aparanlar ağır məhrumiyyətlərə düçar olmuşdu. Ermənistan SSR hökuməti zahirən azərbaycanlı qaçqınların doğma yerlərinə qayıtması üçün müəyyən tədbirlər görsə də, əslində bu işdə maraqlı deyildi. Təsadüfi deyil ki, İrandan və Türkiyədən köçürülən ermənilər boşaldılmış azərbaycanlı kəndlərində yerləşdirilirdi. Ermənistanın müdafiə nazirliyi hökumətə Zəngibasarda 25 min, Vedibasarda 60 min, Kərkibasarda 25 min, Dilican dairəsində 25 min, Qarakilsə dairəsində 25 min, Yeni Bayaziddə 10 min nəfər Türkiyədən gələn ermənini yerləşdirməyi təklif edirdi. Bu təklifin həyata keçirilməsinin nəticəsi idi ki, bilavasitə azərbaycanlılara məxsus olan kəndlərin əsasında 80 qarışıq azərbaycanlı – erməni məskəni yaranmışdı. Bu da azərbaycanlıların gələcəkdə də sıxışdırılması üçün şərait yaradılması demək idi [29].

Ermənistan hökuməti müxtəlif bəhanələr gətirərək Azərbaycan hökumətindən qaçqın azərbaycanlıların geri qayıtmasının qarşısını almaq üçün müraciətlər də ünvanlayırdı. Təbii ki, Azərbaycan hökumətində özünə yer etmiş ermənilər bu müraciətlərin reallaşdırılmasına çalışırdı. Yaxın Şərqə kömək Amerika komitəsinin nümayəndəsinə göndərilmiş 1921-ci il üçün məruzədə göstərilirdi ki, bu dövrdə Azərbaycan Respublikasının ərazisində 60000 nəfər İrəvan quberniyasından, 15000 nəfər Qars vilayətindən, 65000 nəfər Zəngəzur və digər yerlərdən olmaqla 140000 qaçqın var. Onlardan 40000 nəfər Azərbaycan SSR hüdudlarında yerləşdirilmiş, 25 %, yaxud 35000 nəfər aclıq və xəstəlikdən ölmüşdü. Ermənistan SSR qaçqın azərbaycanlıların geri qaytarılmasına mane olmaqla bərabər, orada qalmaqda davam edən azərbaycanlı kəndlərinin əhalisinin deportasiyasına da cəhd edirdi. 1927-ci ildə Ermənistanın Əştərək rayonundan 90, Sisiandan 190, Leninakandan 40 təsərrüfat Azərbaycana köçürülmüşdü. 1929-cu ildə Azərbaycan SSR-in qəzalarında və Naxçıvan MSSR-də Ermənistandan 1443 qaçqın var idi [28, 213-214].

Sovetlər İttifaqı tədricən möhkəmləndikcə respublikalararası münasibətlərdə qaçqınlıq problemi aradan qalxır. Belə halda Ermənistan SSR hökuməti azərbaycanlılara münasibətdə daha məkrli siyasətə əl atır.

Ermənistanın azərbaycanlı əhalisi qəsdən sovet hökumətinə qarşı çıxışlara təhrik edilir, yaxud Türkiyənin xeyrinə fəaliyyətdə ittiham olunur, «qolçomaq» elan olunaraq məhv edilirdi [18].

Ermənistan SSR rəhbərliyi Stalin repressiyasının istiqamətini azərbaycanlılara qarşı yönəltməklə də onlara ağır itki verməyə nail ola bildi. Yalnız 1936-1937-ci illərdə Ermənistan SSR-də 50 min azərbaycanlının repressiya olunduğu bildirilir. 1920-1930-cu illərdə isə yüz mindən çox insan təqiblərə məruz qalmışdı [29].

Ermənistan SSR-də azərbaycanlıların fiziki cəhətdən məhv edilməsi, sıxışdırılması, təqib və deportasiya olunması ilə birgə yaşayış məskənlərinin adları da dəyişdirilir, onların erməniləşdirilməsi prosesi həyata keçirilirdi [15]. Tarixi faktlardan aydın olur ki, məhz 1920-1930-cu illərdə Ermənistandakı azərbaycanlı yaşayış məskənlərinin adlarının dəyişdirilməsinin bünövrəsi qoyulmuş [19], 1980-cı illərin sonlarında bu iş, əsasən, başa çatdırılmışdır.

Beləliklə, 1918-1920-ci illərdə ermənilər İrəvan bölgəsində azərbaycanlı əhaliyə qarşı ağlasığmaz soyqırım cinayətləri törətmişdir. Bu dövrdə əhalinin demoqrafik durumu kəskin surətdə dəyişmişdir. Azərbaycanlıların sayı dəfələrlə azalmış, ermənilərin sayı xeyli artmışdır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. ARDA, f.394, siy.10, iş 80, v. 49-56.
2. ARDA, fond 970, siy.1, iş 166, v. 7.
3. ARDA, fond 970, siy.10, iş 161, v. 1-9.
4. ARDA, fond 970, siy.10, iş 80, v. 39-44.
5. ARDA, fond 970, siy.10, iş 810, v. 39-40.
6. ARDA, fond 894, siy.10, iş 80, v. 20-21.
7. ARDA, fond 894, siy.10, iş 81, v. 8.
8. ARDA, fond 2898, siy.1, iş 6, v. 34.
9. ARDA, fond 894, siy. 4, iş 119, v. 14-15.
10. ARDA, fond 897, siy. 1, iş 112, v. 27-28.
11. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1999, səh. 216-220.
12. Azərbaycan EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası 1989, №4, s.416.
13. Azərbaycan EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası 1989,№ 3, s.140-144.
14. Азербайджанская Республика. Документи и материалы 1918-1920 гг. Баку: , 1998, 616с.; Адрес-календарь Азербайджанской Республики 1920 г. Баку-1919, с.88.
15. Bayramov A.Ə. Qədim Oğuz ellərinin – Ağbaba, Şorayel və Pəmbək bölgələrinin yer-yurd adları. Bakı, 1996, 295 s.
16. Dünya Azərbaycanlıları: Tarix və müasirlik. III buraxılış, BDU, Bakı, 2009, s. 148.
17. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası.Bakı: Gənclik,1995, 464 s.
18. Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski. Bakı: Sabah, 1996, 320 s.
19. Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar. Bakı:Azərnəşr,1997,260 s.
20. Husamettin Yıldırım.Rus-türk-ermәni münasebetleri (1914-1918). Ankara, 1990, s.116.
21. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Çaşıoğlu, 2009, s.375.
22. Исторические факты о деяниях армян на азербайджанской земле. Баку: Нурлан, 2003, 353 с.
23. История Азербайджана по документам и материалом. Под ред. Акад. З.М.Бунятова. Баку: , 1990, 384 с.
24. Кавказский календарь на 1917 г., Тифлис. 1916.
25. Məmmədov İ.S., Əsədov S.C. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, 72 s.; Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2002, 700 s.
26. Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 2002, 700 s.
27. Məmmədov S. Parçalanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi. Bakı: Azərnəşr, 1991, 66 s.
28. Мамедова Ш.П. Интерпретация тоталитаризма. Сталинизм в Аззербайджане 1920-1930 гг. Баку: Адильоглы, 2004, 320 с.
29. Назим Мустафа. Репрессии против азербайджанцев на территории нынешний Армении в 1920-1930 гг. // Азербайджан и азербаджанцы. 2001, №7-8, с. 101-111; Yaddaşın bərpası. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin «Sərhəd» qəzetinin xüsusi buraxılışı. № 1 (il göstərilmir).
30. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавьказье конце XIX-начале XX века. ч. II, Баку: Шарг-Гарб, 1994, 336с., с. 89.
31. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавьказье конце XIX-начале XX века. ч. III, Баку: Шарг-Гарб, 1994, 336с., с. 89.
32. Сафаров Р.Ф. Изменение этнического состава населения Ираванской губернии в XIX начало – XX века. (етнодемографические и етнографическое исследование). Баку: Сада, 2009, 254 с.
33. Шопен И.И. Исторический памятник состояня Армянской области в эпоху ее присоединения к Российской империи. СПб.. 1852 г., с. 635-642.

34. Всесоюзная перепись населения 1926 г. Отдель I. народность, родной язык, возраст, громотност. Т. XIV. Закавказская СФСР. М., 1929.

**THE GENOCIDE COMMITTED BY ARMENIANS AGAINST AZERBAIJANIS IN 1918-1920, THE IMPACT OF DEMOGRAPHIC SITUATION IN ARMENIA**
**SUMMARY**

The article highlights the genocide committed by Armenians against Azerbaijanis in 1918-1920. Describes targeted barbarism of the Armenian executioners, available goal bulding a future Armenian state on Azerbaijani lands.

**ВЛИЯНИЕ ГЕНОЦИДА, СОВЕРШЕННОГО АРМЯНАМИ ПРОТИВ АЗЕРБАДЖАНСКОГО НАСЕЛЕНИЯ В 1918-1920 гг. НА ДЕМОГРАИФЧЕСКУЮ СИТУАЦИЮ В ИРЕВАНСКОМ РЕГИОНЕ**
**РЕЗЮМЕ**

В статье освещается геноцид совершенный армянами против азербайджанцев в 1918-1920-х годах, описиваеться целенаправленное варварство армянских палачей, имеиюшиемся целью создание будущего Армянского государства на азербайджанских землях.

*T.ü.f.d.* **Rəşad RÜSTƏMOV**

## BAKI ŞƏHƏR DUMASI AZƏRBAYCANLILARIN SOYQIRIMINA QARŞI MÜQAVİMƏT MƏRKƏZİ KİMİ

**Açar sözlər**: tarix, soyqırım, siyasət, əhali, Azərbaycan.
**Keywords**: history, genocide, policy, population, Azerbaijan
**Ключевые слова:** история, геноцид, палитика, население, Азербайджан

1917-ci ilin Oktyabr çevrilişindən sonra Cənubi Qafqaz ərazisində fəaliyyət göstərən milli siyasi partiyalar Lenin başda olmaqla Xalq Komissarları Sovetinin hakimiyyətini tanımaqdan imtina etdi. Noyabrın 15-də Tiflisdə Cənubi Qafqazda ilk müstəqil hökumət Zaqafqaziya komissarlığı təşəkkül tapdı.

1918-ci ilin mart soyqırımı ərəfəsində Bakı qəzasında ikihakimiyyətlilik hökm sürürdü. 1917-ci il noyabrın 22-də İctimai Təşkilatları Komitəsinin buraxılması ilə Bakı Soveti yeganə siyasi hakimiyyət orqanına çevrildi. Şəhər Dumasına və onun icra orqanına yalnız şəhərin təsərrüfat həyatına rəhbərlik həvalə edildi.

1917-ci il oktyabrın 31-də Bakı Soveti özünü Bakı quberniyası və Dağıstan ərazisində qanunverici və inqilabi hakimiyyət elan etdi (1.s.51).

Bu dövrdə azərbaycanlıların ümummilli siyasi təşkilatı olan Türk-Ədəmi-Mərkəziyyət Müsavat partiyasının ümummilli siyasi təşkilat kimi təşəkkülü başa çatdı. Müsavat partiyası bu dövrdə Azərbaycanın ən iri partiyasına çevrildi. Demək olar ki, Azərbaycanın bütün qəzalarında Müsavat partiyası öz təşkilatlarına malik idi.

Bolşeviklər iqtisadi və siyasi cəhətdən hələ də ciddi qüvvə olan Dumanın dərhal ləğvinə cürət etmirdilər. Digər tərəfdən mövcud iqtisadi və ərzaq böhranı şəraitində bolşeviklərin bütün məsuliyyəti öz üzərlərinə götürməkdən imtina etmələri onları Dumaya loyal münasibət göstərməyə vadar edirdi. Eyni zamanda bolşeviklər Şəhər Dumasının fəaliyyətini yalnız təsərrüfat məsələləri ilə məhdudlaşdırmağa çalışaraq onun siyasi məsələlərə müdaxilə etməsinin qarşısını almağa çalışırdılar.

Erməni və rus əhalisinin böyük bir hissəsi Bakı hərbi və fəhlə deputatları sovetinin ətrafında, azərbaycanlılar isə Şəhər Dumasının ətrafında sıx birləşmişdilər.

Bakı quberniyasını Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmiş Bakı Sovetinin bolşevik rəhbərliyi milli qüvvələrlə toqquşmanın labüd olduğunu başa düşərək qüvvələr toplayırdı.

Bakı şəhər duması isə özünümüstəqil Cənubi Qafqaz hökumətinin yerli orqanı elan etdi. Bu Cənubi Qafqaz hökuməti tərəfindən diyarda yaşayan xalqların müstəqil dövlət qurmaq ideyalarının dəstdəkləməsi ilə bağlı idi.

1917-ci il dekabrın 12-də Bakı Sovetinin İcraiyyə Komitəsinin iclasında "inqilabi intizamı bərpa etmək üçün ən geniş səlahiyyətlərə malik olan" Hərbi-İnqilab Komitəsi yaradıldı. Bunun ardınca hərbi-inqilab məhkəmələrinin təşkili Mərkəzi Rusiyada olduğu kimi burada da hərbi diktatura rejiminin yaradılması istiqamətində atılan addım oldu. 1917-ci ilin dekabrında V.Lenin S.Şaumyanı Qafqaz üzrə xüsusi komissar təyin etdi. P.Caparidze isə onu Bakı Sovetinin sədri vəzifəsində əvəz etdi.

Milli Azərbaycan liderləri hakimiyyətin bir siyasi qüvvə əlində cəmləşməsinə mümkün qədər müqavimət göstərirdilər. Bu məqsədlə Müsavat Şəhər Duması, Bakı Soveti, kəndli ittifaqının, milli şuraların və demokratik partiyaların iştirakı ilə şəhərdə koalisiya hakimiyyətinin formalaşdırmaq ideyasının (2.1917, dekabr) həyata keçirilməsinə çalışırdı.

1917-ci ilin oktyabrda Bakı Dumasına Sovetinə keçirilən seçkilərdə Azərbaycan milli qüvvələrin lideri Fətəli xan Xoyski dumanın sədri seçildi.

Şəhər duması ilə Bakı Soveti arasında münasibətlər tədricən qarşıdurma xarakteri alırdı.

Rus Qafqaz ordusundan fərarilik tədricən kütləvi xaraktar alırdı. Əsgərlər cəbhəni bütöv hərbi hissələr şəklində tərk edirdilər. Bu hərbi hissələrin əsas istiqaməti Bakı idi. Bakıdan bu hərbi hissələr Həştərxana yollanmağa çalışırdılar. Bu əsgərlərin bir qismi Bakıda qalaraq bolşeviklərin təsiri altında olan Bakı qarnizonun əsgərlərinə qoşulurdular.

Bakı Sovetində bolşeviklərlə birlikdə həmçinin daşnaklar, sağ və sol eserlər də təmsil edilmişdilər. Sağ eserlər bir mənalı şəkildə bolşevikləri dəstdəkləyirdilər. Rus şovinizmi mövqeyindən çıxış edən sağ eserlər isə Bakı sovetini azərbaycanlıların getdikcə artan siyasi fəallığının qarşısını ala bilən yeganə qüvvə hesab edirdilər. Daşnaklar da həmçinin bir mənalı şəkildə Bakı sovetinin hakimiyyətini dəsdəkləyirdilər. Daşnakların Bakı sovetinin dəsdəkləməsinin əsas səbəbi bu orqanın bolşevik rəhbərliyinin, əsasən, erməni millətinin nümayəndələrindən ibarət olması və Xalq Komissarları Şurasının ilk dekretlərindən birinin Türkiyə Ermənistanı haqqında dekretinin verməsi olmuşdur. Bu dekretə əsasən Türkiyə ərazisində Ermənistan dövlətinin yaradılması nəzərdə tutulurdu.

Sağ eserlərin nüfuzu Bakı limanında lövbər salmış Xəzər donanmasında xüsusilə qüvvətli idi. sağ eserlərin Bakı sovetinin hakimiyyətinin dəstdəkləməsi Xəzər donanmasını bu orqanın nəzarəti altına keçməsinə səbəb oldu.

Müvəqqəti hökumətin keçirtdiyi milliləşdirmə siyasəti rus Qafqaz ordusu tərkibində erməni və gürcü hərbi hissələrinin təşəkkülünə gətirib çıxartdı.

Bu, 1917-ci ilin Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda erməni və gürcü milli qoşunlarının yaradılmasını asanlaşdırdı.

Bakı erməni milli şurasına rəhbərlik edən daşnaklar cəbhəni tərk edən erməni əsilli əsgərlərdən və Bakı ermənilərindən hərbi hissələr yaradaraq onlardan azərbaycanlılara qarşı istifadə etməyə çalışırdılar.

Daşnakların nəzarəti altında olan hərbi hissələr 4 min döyüşçüdən ibarət idi.

Tiflisdən Bakıya köçmüş Qafqaz Ordusu Diyar Sovetinin Hərbi-İnqilab Komitəsi Bakı Sovetinin hərbi qərargahına çevrildi. Qısa müddət ərzində Hərbi-İnqilab Komitəsi tərəfindən Bakıda Qırmızı Ordunun ilk hissələri - beynəlmiləl alay, bolşevik drujinası və süvari dəstə təşkil edildi. Xəzər donanmasına Bakı Sovetinin komissarı təyin edildi (3. s.54).

Bolşevik təbliğatı Bakı qarnizonu əsgərlərinin arasında böyük müvəffəqiyyət qazandı. Bakı qarnizonunun 6 min əsgəri Bakı hərbi və fəhlə deputatları sovetini dəstdəklədi. Erməni Avakov Bakı qarnizonun rəisi təyin edildi.

Bakı Şəhər duması azərbaycanlı əhalinin müdafiəsini təşkil etmək məqsədi ilə öz hərbi hissələrini yaranmaqa çalışırdı. Lakin azərbaycanlılardan ibarət hərbi hissələrin təşkili bir sıra çətinliklərlə üzləşirdi. Belə ki, Rusiya dövləti tərkibində azərbaycanlılar hərbi xidmətdən azad olduqları üçün onların hərbi təcrübəsi yox idi. Bundan başqa erməni və gürcülərdən fərqli olaraq Rusiya ordusu tərkibində azərbaycanlılardan ibarət hərbi hissələr yox idi.

Toqquşmanın başlaması üçün kiçik bir bəhanə lazım idi. "Evelina" gəmisi ilə əlaqədar hadisə belə bir bəhanə oldu. Məşhur Azərbaycan milyonçusu və ictimai xadimi H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyev Lənkəranda xidmət edərkən odlu silahla ehtiyatsız hərəkət etdiyinə görə həlak olmuşdu. Lənkəranda yerləşən müsəlman divizionunun zabitləri onun yasında iştirak etmək üçün Bakıya gəlmişdilər. Zabitlər Lənkərana "Evelina" gəmisində qayıtmalı idilər. Bu vaxt erməni və rus milli şuraları, Xəzər dənizçiləri, eser və menşevik partiyaları arasında belə bir şayiə yayılmışdı ki, guya bu zabitlər Lənkəranda yerləşən azərbaycanlı hərbi dəstələrlə birlikdə Muğanın rus-malakan kəndlilərini məhv etmək əmri almışlar.

Azərbaycanlıların azadlıq hərəkatını yatırtmaq məqsədilə Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı (4. s.68). Bu komitənin tərkibinə S.Şaumyan, P.Caparidze, Q.Korqanov, N.Nərimanov, sol eser Suxartsev, sağ eser S.Saakyan və Məlik-Yolçiyan daxil idilər. Komitə Bakı şəhəri ərazisində özünü ali hərbi-siyasi hakimiyyət orqanı elan etdi.

Bakıda döyüşlər 3 gün – mart ayının 30, 31 və aprelin 1-dək davam etdi. Bu döyüşlər nəticəsində 12 min azərbaycanlı öldürüldü (5.s.71).

1918-ci ilin mart ayının 31-də Bakı Soveti Bakı Müsəlman Şurasına ultimatum verdi. Ultimatumun şərtləri bunlardan ibarət idi:

1. Bakı fəhlə və əsgər deputatları Sovetinin hakimiyyətinin tanınması.
2. Vəhşi diviziya hissələrinin Bakıdan çıxarılması.
3. Bakı - Port-Petrovsk dəmiryolunun azad edilməsi (6, s.72).

Bütün bu şərtlər Bakı Müsəlman Şurası tərəfindən qəbul edildi.

1918-ci il mart ayının 30, 31 və aprelin 1-də Bakıda Sovet hakimiyyətinin qələbəsi üçün real təhlükə olan azərbaycanlı əhalinin milli-azadlıq hərəkatı yatırıldı. Zaqafqaziya Seyminin yerli hakimiyyət orqanı olan Şəhər Duması buraxıldı (7.s.66).

Mart hadisələri haqqında S. Şaumyan Rusiya Xalq Komissarları Şurasına göndərdiyi məruzəsində qeyd edirdi ki, Cənubi Qafqazda Sovet hakimiyyəti uğrunda silahlı mübarizə özünün əsas dövrünə daxil olmuşdur. "Üç gün ərzində-martın 30, 31 və aprelin 1-də Bakıda ağır döyüşlər getmişdir. Bir tərəfdən Qırmızı Sovet Qvardiyası, bizim tərəfimizdən yaradılmış Qırmızı Beynəlxalq Ordu, Qırmızı donanma, erməni millətçi dəstələri vuruşurdu. Digər tərəfdən bir neçə rus zabitinin daxil olduğu müsəlman vəhşi diviziyası, Müsavat partiyasının rəhbərlik etdiyi silahlı müsəlmanlar vuruşurdular. Döyüşün nəticəsi bizim üçün çox gözəl oldu. Düşmənin məhvi tam idi. Biz onlara öz şərtlərimizi diktə etdik və bu şərtlər qəbul edildi (8. s.245-247).

1918-ci ilin mart hadisələri nəticəsində Bakıda hakimiyyət bolşevik-daşnak-sol eserlər Sovetinin əlində toplandı.

1918-ci il aprelin 19-da hakimiyyətin təşkilinə həsr edilmiş Bakı Sovetinin iclasında Şaumyan mart hadisələrini Sovet hakimiyyətinin qələbəsi kimi qələmə verdi. Şaumyan öz çıxışında qeyd edirdi: "Türkiyə protektoratı altında Azərbaycan muxtariyyətinə tərəfdar çıxan bəylər və xanlar nə qədərki, gec deyil, Bakı Sovetini darmadağın etməyə tələsirdilər". İclasda çıxış edən Bakı Sovetinin eser, menşevik və daşnaklardan ibarət olan deputatları bolşeviklərə tərəfdar çıxırdılar.

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının ümumiləşdirici hesabatına əsasən 3 gün ərzində (30-31 mart, 1 aprel) Bakıda 12 min azərbaycanlı məhv edilmişdi (9. s.71).

Bakı qəzası ərazisində Sovet Rusiyasının qanunları fəaliyyət göstərməyə başladı.

1918-ci il aprelin sonunda banklar milliləşdirildi. 1918-ci ilin mayında balıq vətəgələri, iyun ayında neft sənayesi milliləşdirildi. Şəhər milisi Bakı Sovetinə tabe edildi. 1918-ci il iyunun 4-də Xəzər donanması milliləşdirildi (10. s.78).

Mart hadisələrindən sonrakı dövr Sovet hakimiyyətinin Azərbaycanda möhkəmlənməsi dövrü oldu. Sovet qoşunları aprelin 14-də Lənkəranı, aprelin 21-də Salyanı, aprelin 23-də Qubanı ələ keçirdi. Şamaxı şəhərində ermənilərdən ibarət cəza dəstəsi talanlar törədərək Şamaxını yandırdılar (11. s.75).

Sovet hakimiyyəti 1918-ci ildə bütün Bakı quberniyasına yayıldı.

1918-ci il aprel ayının 25-də Bakı Soveti Xalq Komissarları Şurası təşkil edildi. S.Şaumyan Xalq Komissarları Şurasının sədri və xarici işlər komissarı vəzifələrini tutdu (12. s.79).

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı: Elm, 1998, 335 səh.
2. "Каспий" (газета),
3. İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957, s.585.
4. Azərbaycan Respublikası DSPİHA 268-ci fond, Siyahı №10, iş 20.
5. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı: Elm, 1998, 335 səh.
6. Yenə orada.
7. İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957, s.585.
8. Шаумян С.Г. Избранные произведения в двух томах, Том 2, М., Политиздат, 1978, 463 с.
9. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı: Elm, 1998, 335 səh.
10. İbrahimov Z.İ. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). Bakı: Azərnəşr, 1957, s.585.
11. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı: Elm, 1998, 335 səh.
12. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XXв. Баку: Шарг-Гярб, II часть, 1994, 335 с.

## BAKU CITY DUMA AS THE CENTER OF FIGHTING AGAINST THE GENOCIDE AZERBAIJANI PEOPLE
## SUMMARY

The article written by Rashad Rüstəmov said about the confrontation between the Baku Soviet Workers and soldier deputies as a defender of the armenian community in Baku and Baku City Duman as the defender the interests of the Azerbaijani people.

The article also contain information about union between Dashnacs and Bolsheviks on the eve of March 1918.

## БАКИНСКАЯ ГОРОДСКАЯ ДУМА КАК ЦЕНТР СОПРОТИВЛЕНИЯ ГЕНОЦИДУ АЗЕРБАЙДЖАНЦЕВ
## РЕЗЮМЕ

В статье Рашада Рустамова рассмотрен процесс противостояния Бакинского совета рабочих и военных депутатов, который выступал выразителем интересов армянского населения Баку, с одной стороны, и Бакинской городской думы, отстаивавшей интересы азербайджанского населения.

В статье рассказывается также о формировании союза между дашнаками и большевиками в преддверии марта 1918 года.

*T.ü.f.d.* **Aypara RÜSTƏMOVA**
*AMEA Tarix İnstitutunun "Azərbaycan-Rusiya əlaqələri tarixi" şöbəsinin böyük elmi işçisi*

# ДУХОВНЫЙ ГЕНОЦИД АРМЯН ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

**Açar sözlər:** genosid, mədəniyyət abidələri, kitabxana, erməni işğalı
**Keywords:** genocide, cultural monuments, libraries, Armenian occupation
**Ключевые слова:** геноцид, культурные памятники, библиотека, армянская оккупация

Обеспечение сохранности культурного наследия – долг народа, государства, человека. Культурное наследие каждого народа - это национальное богатство, часть материальной и духовной культуры, сформированное и сохраненное прошлыми поколениями, почитаемое и охраняемое потомками. В Азербайджанской Республике делается все возможное для сохранения уникальной национальной культуры.

В статье 77 Конституции Азербайджанской Республики указывается обязанность каждого гражданина охранять памятники истории и культуры – национальное богатство народа[1] Государство, зафиксировано в Конституции АР, гарантирует охрану памятников истории и культуры, обеспечивает создание, деятельность и развитие структур, необходимых для их научного изучения и пропаганды, создает условия для рационального использования памятников истории и культуры азербайджанского народа.

В Азербайджанской Республике принят ряд Законов, обеспечивающих охрану памятников истории и культуры: Закон «О культуре» (1998), «Об охране памятников истории и культуры» (1998), «О музеях» (2000), «О библиотечном деле» (1998), «Об основах градостроения» (2003), «Об архитектурной деятельности» (1998), «О национальном архивном фонде» (1999), «О правовой охране выражений азербайджанского фольклора» (2003), «О сохранении и развитии азербайджанского коврового искусства» (2004) и др. [2] Собрание законодательства Азербайджанской Республики от 30 апреля 1998 года, № 4, ст. 223; Сборник законодательства Азербайджанской Республики от 30 июня 1998 года, № 6, ст. 365; Сборник законодательства Азербайджанской Республики от 31 июля 1999 года, № 7, ст. 404; Собрание законодательства Азербайджанской Республики. 2000 год, № 6, ст. 396; Собрание законодательства Азербайджанской Республики от 28 февраля 2005 года, № 2, ст. 60.

В Азербайджанской Республике выработана стратегия пропаганды и охраны азербайджанской культуры и ценностей, что является залогом обеспечения национальной культурной безопасности.

В 1993 году Азербайджанская Республика ратифицировала Конвенцию ЮНЕСКО «Об охране всемирного культурного и природного наследия» (1972), в 1997 году - Европейскую культурную конвенцию (1954), в 1999 году - Конвенцию ЮНЕСКО «О мерах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи права собственности на культурные ценности» (1970), в 2000 году - Конвенцию ЮНЕСКО «О защите культурных ценностей в случае вооруженного конфликта» (1954), в 2007 году - Конвенцию ЮНЕСКО «Об охране нематериального культурного наследия» (2003) [ 3].

Под государственную охрану взято 6308 исторических и культурных памятников [4].

Важно подчеркнуть, что в Баку по-прежнему действует Армянская церковь Святого Григория Просветителя, сохраненная, отреставрированная и охраняемая государством как архитектурный памятник [5].

Однако, армянские агрессоры, оккупировав 20% территории Азербайджанской Республики - Нагорный Карабах и прилегающие 7 районов, уничтожили сотни культурных учреждений, в том числе 927 библиотек, 808 дворцов, домов и клубов культуры, 85 музыкальных и художественных школ, 22 музея и музейных филиалов, 4 картинные галереи, 13 памятников истории и культуры мирового значения, 242 - национального и 434 - местного значения. В этом списке археологические памятники мирового значения:

1) 11-ти и 15-ти пролётные Худаферинские мосты (VII-XII вв.) в Джебраильском районе,
2) Гянджасарский и Худавендский храмы (XIII в.) в Кельбаджарском районе,
3) Усыпальница (XV в.) в селе Хачын Турбетли Агдамского района,
4) Азыхская пещера, расположенная на территории Физулинского района и представляющая собой одно из древнейших мест обитания человека,
5) Государственный историко-архитектурный заповедник Шуша.

Нанесен огромный ущерб нашей культуре. На оккупированных землях планомерно уничтожаются и увозятся в зарубежные страны памятники культуры, отражающие историю страны.

На оккупированных армянскими сепаратистами азербайджанских районах было разрушено и уничтожено 547 архитектурных памятников, 927 библиотек, 85 музыкальных школ, 12 монументальных памятников, 22 музея,4 картинные галереи, 10 культурных парков, 4 государственных театра и т.д. [6].

Вместе с тем пострадали архивы и библиотеки при этих учреждениях, безвозвратно утеряны и уничтожены редкие музейные экспонаты, рукописи, археологические памятники.

В Нагорном Карабахе разрушены многие города и населенные пункты, в т.ч. древний азербайджанский город Шуша, культурные, исторические и религиозные памятники которого подверглись варварскому разрушению и надругательству со стороны армянского населения. Историческая часть города Шуши еще в 1977 году была объявлена ЮНЕСКО международным историко-архитектурным заповедником [7]. Установленные в советское время в этом городе бронзовые бюсты композитору Узеиру Гаджибекову, поэтессе Хуршидбану Натаван и певцу Бюль-Бюлю были искорежены и выброшены на свалку. Во время поездки в 2010 году посла Азербайджанской республики в России Полада Бюльбюль оглу, известных представителей творческой интеллигенции Фархада Бадалбейли и Камала Абдуллы в Шушу посол позже в своем интервью рассказал об этом так: «Я навсегда запомнил миг, когда пришел в Шуше в дом своих предков. От Дома-музея Бюльбюля осталось, пожалуй, только название. Живущая поблизости соседка-армянка, узнав меня, подошла. Она старалась утешить меня. Как бы извиняясь, она спешила уверить в том, что будет заботиться о нашем доме» [8].

На видео-кадрах, запечатленных и продемонстрированных на азербайджанском телевидении было четко видно, как бюсты азербайджанских деятелей культуры, родом из Карабаха, были исковерканы пулями. Армянские агрессоры не ограничились бесчинствами против мирного азербайджанского населения, вандалы уничтожили сами свидетельства многовековой азербайджанской культуры.

В дальнейшем памятники азербайджанским деятелям культуры были проданы на металлолом в Грузию, азербайджанские граждане выкупили их. В настоящее время они выставлены во дворе Музея искусств в Баку. Оккупанты снесли также мавзолей визира Карабахского ханства, поэта XVIII века Молла Панах Вагифа, построенный в 1970-е годы, разрушен дом-музей Узеира Гаджибекова и оперного певца Азербайджана Бюль-Бюля (XIX в.) [9].

Огромный ущерб нанесен библиотекам. И это неспроста, ведь именно они являются хранителями истории, важным звеном в деле передачи культурного наследия будущим потомкам. На оккупированных территориях уничтожено 927 библиотек с 4,6 миллионным фондом книг и рукописей [10]. Приведём конкретные факты об этих библиотеках.

В 1992 году в Шушинском районе в централизованной системе библиотек функционировало 21 библиотеки, в которых работало 103 сотрудника. Общий книжный фонд составлял 200 тыс экземпляров книг. По официальным данным число читателей достигало 10 тыс человек. После оккупации Шуши армянскими агрессорами, редкие и представляющие исторический интерес книги были уничтожены. Среди них личные фонды и библиотеки Панах Али хана, Мир Мовсум Наввабa, а также библиотеки древних и средневековых мечетей селений Верхний и Нижний Гевхарага, Кочерли, Мердинли и др., книжные фонды из домов-музеев азербайджанских культурных деятелей.

В Лачинском районе в библиотеках на 1991 год числилось 843 тыс экземпляров книг, в т.ч. редких рукописей. Число читателей равнялось 20 тыс чел, в библиотечной системе

работало 199 человек. В 115 селах действовали новопостроенные или отремонтированные библиотеки. После оккупации Лачина 18 мая 1992 года армянскими оккупантами все 123 здания, отведенные на библиотеки были уничтожены вместе с книжным фондом.

В Кельбаджарском районе на 1992 год действовало 119 библиотек с фондом 600 тыс книг. Число читателей достигало 35 тыс чел. Число работников – 175 чел. После оккупации Кельбаджарского района армянскими агрессорами 2 апреля 1993 года все было уничтожены.

В Агдамском районе после армянской оккупации 23 июля 1993 года 107 библиотек с фондом 970 тыс экз были полностью уничтожены. В Джебраильском районе после оккупации армянскими агрессорами 23 августа 1993 года ими было уничтожено 78 библиотек с фондом 552400 экз книг.

Аналогичная ситуация произошла и после оккупации Физулинского района 23 августа 1993 года, в результате которого было уничтожено 89 библиотек с фондом 659 тыс книг.

В Губадлинском районе после армянской оккупации 31 августа 1993 года было уничтожено 84 библиотеки с фондом 600 тыс экз.

В Зангиланском районе после оккупации 29 октября 1993 года было уничтожено более 67 библиотек с фондом в 490 тыс экз книг. В Хаджалинском районе от рук армянских вандалов пострадало 89 библиотек с фондом в 400 тыс книг. После оккупации Хаджавендского района 2 октября 1992 года армянские боевики уничтожили 81 библиотеку с фондом 463 тыс книг. После оккупации Агдеринского района 7 июля 1993 года было разрушено 65 библиотек с фондом более 400 тыс книг.

Армянские боевики неоднократно нападали и на Газахский район, после оккупации в апреле 1990 года сел Верхний Эскипара, Нижний Эскипара, Бархударлы, Гызылхаджлы, Хейримли они уничтожили 8 библиотек с фондом 178 285 книг [11]. Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar/Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Bakı: 2012, s. 27.

Нанесение ущерба библиотекам Азербайджана со стороны Армении началось ещё с 1920-30 годов. Переход с арабской графики на латинскую стал большим ударом для библиотек Нагорного Карабаха. Все печатные издания на арабском алфавите как «панисламистская» литература были изъяты со стороны армян из фондов библиотек и сожжены. Не довольствуясь этим, армяне «хоронили» книги, закапывая их в землю. В течении 1920-30 годов из библиотек Нагорного Карабаха, из личных библиотек, из библиотеки мечети города Шуши было собрано и уничтожено свыше 30 тысяч экземпляров книг, относящиеся к разным областям науки и культуры, написанные на основании арабской графики [12].

Та же участь постигла библиотеки и в 40-е годы, когда в Азербайджане латинская графика была заменена кириллицей. Армяне обрели широкую возможность изъятия из библиотек Нагорного Карабаха книг, написанных на азербайджанском языке.

Одновременно были изъяты из библиотек произведения известных писателей, деятелей науки и культуры, которые были обвинены в «национализме», «пантюркизме», «панисламизме». Армянские националисты не отступили от своей идеологической диверсии и в последующие годы. Устраиваясь на работу в библиотеки, музеи и архивы республики армяне пытались изъять и присвоить себе или вообще вывести литературу и архивные документы об истории, этнографии и культуре Азербайджана, которые свидетельствовали о том, что Карабах и Зангезур были азербайджанскими землями. [13]

Духовному геноциду подверглась и Центральная Научная Библиотека Национальной Академии Наук Азербайджана (ЦНБ НАНА). Во время событий 1988 года руководитель отдела международного книгообмена ЦНБ НАНА, ярая шовинистка Лида Агаджанова в целях пропаганды событий вокруг Нагорно-Карабахской Автономной области посылала армянской диаспоре во Францию, США и Великобританию и другие страны экземпляры газеты «Коммунист» на армянском языке, «Советакан Карабах» и листовки националистической организации «Миацум» [14].

Очень жаль, что партийно-советское руководство в то время расценило должностное преступление с ее стороны как безалаберность, замяло это дело и ограничилось выговором. Другая работница, Валя Саркисян, являясь руководителем сектора межбиблиотечного кни-

гообмена, занималась распространением этих же материалов по библиотекам и организациям Советского Союза.

В 1989-90-х годах, продавая свои дома, армяне, покидающие Азербайджан, увезли с собой тысячи ценных книг. В 1989 году сотни читателей ЦНБ, армяне по национальности, вывезли из фондов библиотеки несколько сот книг. Научная значимость этих книг была гораздо дороже, чем стоимость, указанная на обложке. Например, сотрудница НПО Космических Исследований Раиса Андреевна Григорян вынесла из библиотеки 8 книг. Это «Ракетостроение», «Космос», «Космос. Океан» и др. книги. Другая читательница Института истории Нана Юрьевна Симонян взяла из библиотеки и не вернула книгу «Азербайджан в XIX веке». Лаборантка того же самого Института Алла Антоновна Арзуманян вывезла из республики книгу «Экономическое строительство в Азербайджане». Сотрудница Института Философии и Права Р.Н.Айрапетова вынесла из библиотек почти все учебники по педагогике и праву.

Сотрудники БГУ Зоя Гургеновна Ализаян не вернула в библиотеку книгу «Азербайджанская нефть», Анжела Григорьевна Акопян –«Колчеданные месторождения Большого Кавказа», сотрудник Института Языкознания В.Л.Гукасян вынес из фондов библиотеки книги об истории народов Закавказья, о хазарах, о зороастризме, тем самым нанеся большой урон фонду ЦНБ НАНА.

Нельзя умолчать ещё об одном вопиющем факте. Когда-то в фонде нашей библиотеки хранился полный комплект 46-томного «Сборника материалов для описания местностей и племен Кавказа (изд.1881-1929 гг.) Из фондов научных библиотек республики были изъяты целые тома и отдельные страницы из некоторых томов, касающиеся истории и культуры нашего народа, статистические данные о населении Азербайджана и т.д. Так, например из 11 выпуска были вырезаны страницы 161-181 – статья – «Бакинская губерния» [15 ] из 32 выпуска- страницы 16-63.- «Сведения арабских писателей о Кавказе, Армении, Азербайджане» [16] из 34 выпуска страницы 182- 217 – «Зангезурский уезд Елизаветполской губернии». [17] и пр.

Обнародование этих данных вызвало гнев и осуждение у многих читателей в мире. Так, белорусский читатель в библиотеке Белорусской Академии наук также подтвердил факт уничтожения страниц в некоторых книгах и обвинил в этом армян [18]. Все это свидетельствует о том, что армяне продолжают проводить духовный геноцид, уничтожая неприглядные для них свидетельства в библиотеках мира.

Как видно из выше отмеченного, армянские агрессоры и сепаратисты нанесли огромный урон азербайджанскому культурному наследию, не пощадив даже памятники материальной культуры и библиотеки, что является истинным духовным геноцидом против азербайджанского народа.

## ЛИТЕРАТУРА И ИСТОЧНИКИ


1. Конституция Азербайджанской Республики http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_r.pdf.
2. Собрание законодательства Азербайджанской Республики от 30 апреля 1998 года, № 4, ст. 223; 1998 года, № 6, ст. 365; 1999 года, № 7, ст. 404; 2000 год, № 6, ст. 396; 2005 года, № 2, ст. 60.
3. Мартыненко И.Э. Международная и национальные правовые системы охраны историко-культурного наследия государств-участников СНГ. М.: Зерцало, 2012, с. 6-7;
4. Распоряжение Кабинета Министров АР от 2 августа 2001 года// Сайт Кабинета Министров АР. Постановления и распоряжения Кабинета Министров Азербайджанской Республики.http://new.zakon.az/site/index/?item=1359612182&parent=0923656209&curtree=cnt%20(%200923656209%20)
5. Гарегин II рассказал о годах, когда был священником Армянской церкви в Баку// http://www.1news.az/society/din/20100430022637055.html
6. Ermәni vandalizmi: Әsirlikdә olan Azәrbaycan abidәlәri http://www.armenianvandalism.az/
7. Ризван Гусейнов. Город Шуша - политический и исторический центр Карабаха. http://archive.li/mfAnM.
8. Полад Бюльбюль оглы ответил на вопросы армянской газеты// http://www.1news.az/politics/20100925011032169.html
9. Гусейнов Р.Н. «Город Шуша – политический и культурно исторический центр карабаха» //

Провинциальный город XVIII-XXI вв. (история, экология, экономика, культура и гостеприимство), Всероссийская научно-практическая конференция, посвященная 273-летней годовщине г. Кизляра. Дербент: 2008,стр.64-74.
10. Алекперова Н. Культура и политика. Баку: Азернешр, 2000, 288 с. с.53.
11. Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar/Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Bakı: 2012, s. 27.
12. Наджафов А. Из истории библиотечного дела Нагорно-Карабахской Автономной области Азербайджанской Республики (1923-1990 гг.). Баку: Сада, 2000, с. 207.
13. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V sammitində İlham Əliyevin çıxışı.Azərbaycan qəzeti, 11 sentyabr, 2015-ci il.
14. А.С.Рустамова Библиотеки Азербайджана – объекты идеологической диверсии армян / Исторические факты о деяниях армян на азербайджанской земле. Баку: Елм, 2003, 208 с.= Historical facts of Armenian' crimes in Azerbaijan. Baku: Elm, 2003, 208 c.
15. Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Изд.Упр.Кавказского учебного округа, 1891. вып.11.
16. Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Изд.Упр.Кавказского учебного округа, 1903. Вып. 32.
17. Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Изд. Упр. Кавказского учебного округа, 1904. Вып.34.
18. http://lehire.livejournal.com/

## AZƏRBAYCAN XALQINA QARŞI MƏNƏVİ SOYQIRIM
## XÜLASƏ

Məqalədə işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonların tarixi- mədəniyyət abidələrininin Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən mənəvi soyqırıma məruz qalması haqqında məlumatlar verilir. Eyni zamanda kitabxana binalarının məhv edilməsi, kitab fondlarının talan edilməsi ayrı-ayrı rayonlar üzrə konkret faktlarla məqalədə öz əksini tapmışdır.

## MORAL GENOCIDE AGAINST THE AZERBAIJANI PEOPLE
## SUMMARY

The article informs about moral genocide of historical and cultural monuments in occupied Daghlig Garabagh (Nagorno-Karabakh) and surrounding regions by the Republic of Armenia. At the same time, based on the specific facts for the individual regions the destruction of the libraries, plunder of book funds are reflected in the article.

*S.e.ü.f.d.* **Aynur BƏŞİROVA**
*AMEA Tarix İnstitutunun "Ümumi tarix" şöbəsinin Amerikaşünaslıq bölməsinin rəhbəri*

# XARİCİ ÖLKƏLƏRDƏ MƏTBUATDA AZƏRBAYCAN XALQININ MƏNFİ OBRAZININ FORMALAŞDIRILMASINDA ERMƏNİ TƏBLİĞATININ ROLU (NYU YORK TAYMS: 1989-1991-ci İLLƏR)

**Açar sözlər:** Dağlıq Qarabağ münaqişəsi, Nyu York Tayms, Amerika mətbuatı, tarix
**Keywords**: Nagorno-Karabakh conflict, the New York Times, the American press, history
**Ключевые слова**: Нагорно-карабахский конфликт, Нью-Йорк Таймс, американская пресса, история

1988-ci ilin fevralında Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin separatçı hərəkatının başlanması ilə bölgənin tədricən gərginlik ocaqlarından birinə çevrilməsi ilə respublika "*Nyu York Tayms"ın* xəbərlərində ilkin yerlərdən birini tutmağa başladı. Əgər 1985-88-cu illərdə "*Nyu York Tayms"da* Azərbaycanın adı çəkilən materiallarının sayı 42 idisə, 1998-1991-ci illərdə bu yazıların sayı 500-dən çox olmuşdur.

1988-ci il 24 fevral sayında qəzet Dağlıq Qarabağda baş vermiş hadisələr ilə bağlı iki xəbər dərc etmişdir. Moskva bürosunun müxbirləri Filip Taubmanın və Felisiti Barringerin eyni mövzuya həsr edilən yazılarının eyni sayda işıq üzü görməsi bir sıra suallar doğurmuşdu: "*Nyu York Tayms"ın* ilk xəbər günündən hadisəyə ciddi maraq göstərməsinin səbəbi nədir? Qəzet hansı siyasi mesajları ötürür? O, hadisəni necə çərçivələyir?

Birinci səhifədəki "Sovetlər cənubdakı erməni ərazilərində (?-AB) böyük narahatlıqlar olduqlarını yazırlar" sərlövhəli xəbərdə "Azərbaycan Respublikasında yerləşən, İranla sərhədə yaxın olan uzaq dağlıq zonada – Dağlıq Qarabağ Muxtar Vilayətində" "fevralın 11-də regionu Ermənistanla birləşməyə çağıran vərəqələr meydana çıxdığı vaxtdan etibarən ictimai asayişin pozulduğu" xəbər verilirdi [1]. Qeyd etmək ki, xəbərin 13 gündən sonra açıqlanması Sovet KİV-in hadisə barədə gec informasiya verməsi, xarici müxbirlərin münaqişə zonasına getməsinə qadağan qoyulması ilə bağlı idi [2]. Xəbərin mənbəyi *SİTA* və "*İzvestiya"* qəzetləri olsalar da, diqqəti cəlb edən cəhət müxbirin hadisənin baş verdiyi yerin coğrafiyasını cızmaq, bu zaman uzaq xaricə zəif maraq göstərən, Sovet İttifaqını vahid bir ərazi kimi qəbul edən ABŞ oxucusu üçün daha yaxın olan assosiasiyalara müraciət etməsidir. Ərazinin İran İslam Respublikası ilə həmsərhəd olması vacib bir amil kimi vurğulandığı halda, onun Azərbaycan Respublikası ərazisində olması faktı istisna edilməklə, Azərbaycan və azərbaycanlılar barədə heç bir məlumat verilmir. Əksinə, ermənilərin "digər Sovet etnik qruplarından fərqli olaraq, yəhudilər və almanlar kimi" Qərbə daha çox mühacirət etdikləri, son il ərzində 1000-dən artıq erməninin mühacirət üçün icazə alması, onların böyük qisminin ermənilərin sayının çox olduğu Los Ancelesə köçdüyü xəbər verilir [3]. Burada da müəllif oxucu üçün daha yaxın sayılan və başa düşülən fakta müraciət edir: ermənilər digər Sovet xalqları ilə deyil, yəhudilər və almanlarla assosiasiya olunaraq Amerikaya can atan xalq kimi çərçivələnir. Digər diqqət yetiriləsi cəhət "cənubdakı erməni əraziləri" söz birləşməsinin xəbərin sərlövhəsinə çıxarılması, münaqişə barədə xəbər verildiyi ilk gündən bu ərazilərin erməni əraziləri olması barədə mesajın oxucuya ünvanlanması idi. Bu xəbərdə Dağlıq Qarabağın "cənubdakı erməni əraziləri" kimi təqdim edilməsi faktın təhrif edilməsini və beləliklə də, xəbərə verilən üç mühüm tələbdən birincisinin – dəqiqliyin pozulmasını göstərir.

Qaynar xəbərdə ilk dəfə olaraq Dağlıq Qarabağ regionu aşağıdakı kimi çərçivələnir: "Bu quru, dağlıq ərazi sakinlərinin uzunömürlüyü, həmçinin qoyunçuluq, donuzçuluq, üzümçülük və tütünçülüyün istehsalı ilə tanınır. Onun əhalisinin 126 minini əsasən xristian ermənilər, 37 minini isə əsasən müsəlman azərbaycanlılar təşkil edir" [4].

"Dini notlarla müşayiət olan mübahisə" adlanan ikinci materialın sərlövhəsi, eləcə də "Ərazidə islam-xristian qarşıdurması yayılmağa başlayır" adlı yarımsərlövhə və ilk cümlə oxucuya münaqişənin dini xarakter daşıması barədə birmənalı mesajlar çatdırır: "Dağlıq Qarabağ regionu ortodoks xristianlığın mərkəzi sayılan Ermənistan (?-A.B.)və onunla sərhəd bölən, əsasən, müsəlmanlardan ibarət olan Azərbaycan Respublikası arasında uzun illər boyu gərginlik ocağı olmuşdur" [5].

Bu xəbərdə dini amilin qabardılaraq hadisənin təqdimatı üçün vacib istinad nöqtələrindən birinə çevrilməsi müəllifin müraciət etdiyi mənbə ilə birbaşa bağlıdır. Belə bir mənbə rolunu Kaliforniya Universitetinin Ermənistan və Yaxın Şərq tarixi üzrə professoru R.Hovanisyan oynayır. Onun təkcə dini deyil, həm də hadisənin tarixi kökləri barədə ilkin informasiya ötürməsi ictimai rəyin aşağıdakı kimi yanlış şəkildə formalaşmasına təkan verir: "Ermənistan 1920-ci ilin dekabrında Sovet İttifaqının tərkibinə daxil olanda Dağlıq Qarabağ digər iki ərazi: Naxçıvanski (?-A.B.) və Zəngəzur ilə birlikdə Azərbaycan tərəfindən Ermənistana verilmişdi. Lakin Ermənistanın qərbindəki islamçı türklər şərqdəki islamçı Azərbaycanın hesabına Ermənistanın ərazi genişlənməsinin əleyhinə çıxdılar"... "Stalin və digər sovet liderləri müsəlman Mərkəzi Asiya regionunu Sovet nəzarətinə keçirmək üçün Türkiyənin təsirindən asılı olduqlarından son nəticədə Türkiyə Transqafqaziyada üstünlük qazandı" [6]. Bu materialda Azərbaycan Respublikası ilk dəfə "islamçı" kimi təqdim edilir, onun təkcə Dağlıq Qarabağ regionunu deyil, həm də Naxçıvan diyarının da bir zamanlar Ermənistan SSR tərkibinə verməsi faktı vurğulanır. Bu xəbər birmənbəli xəbər olduğundan qeyd olunan informasiya nə təkzib edilir, nə də təsdiq olunur. Müəllifin mənbənin verdiyi məlumatları yoxlamaq üçün başqa bir mənbəyə müraciət etməməsi səbəbindən xəbərə verilən digər vacib tələb – balanslılıq pozulur.

Xəbər dəyərlərinin pozulmasının səbəbi informasiya mənbələrinin qeyri-proporsional iştirakı idi. "*Nyu York Tayms"ın* informasiya qıtlığı çəkən Moskva Bürosunun müxbirləri hadisələrin başlanğıcından Bakıya deyil, İrəvana və yaxud (Stepanakertə - A.B.) Xankəndinə zəng vururlar. Bu zaman onların informasiya mənbələri ilk günlər turistlər [7], daha sonra isə dissidentlər idi: "İnformasiyanın böyük bir qismi dissidentlər vasitəsilə dolayısı yolla Moskvadan İrəvana zənglər vasitəsilə alınır. Dissidentlər o qədər də etibarlı informasiya mənbələri sayılmırlar" [8].

Azərbaycandan fərqli olaraq, erməni mənbələri "*Nyu York Tayms"ın* Moskva bürosu ilə daim əlaqə saxlayır, onu xəbərlə təchiz edirdilər. Paytaxt Bakıdan Moskvaya heç bir xəbər ötürülmədiyi günlərdə "*Nyu York Tayms"* "Stepanakert sakinləri ilə əlaqə yarada bilmiş bir moskvalıdan" [9], "erməni nümayəndələrindən, Stepanakert sakinlərindən" [10] informasiya alır. Maraqlı cəhət informasiya mənbələrinin özlərinin yalnız "*Nyu York Tayms"ın* deyil, digər xarici KİV-in Moskva bürolarının əməkdaşları ilə əlaqə saxlamalarıdır. Müxbirlər yazırlar ki, İrəvandakı etiraz aksiyaları barədə videokaseti Moskvaya gətirən dissident jurnalist bu kasetin jurnalistlər arasında yayılması üçün onu ABŞ-ın "*ABC Nyus*" telekanalının Moskva bürosuna vermişdir [11].

1988-ci ildə təhlil olunan 140 materialın kontent analizi göstərir ki, qəzetin erməni və Azərbaycan mənbələrinə istinadı dördün birə nisbətindədir. Erməni mənbələri (Stepanakert – A.B.), İrəvan və ABŞ ermənilərinin geniş spektrini əhatə etdiyi halda, Azərbaycan mənbələrinin 90 faizini agentliklər və dövlət rəsmiləri təşkil edir. '*Nyu York Tayms'da* bu müddət ərzində yalnız iki ziyalıya: Ədəbiyyat İnstitutunun direktor müavini V. Quliyevə [12] və akademik Z. Bünyadova [13] istinad edilir.

Qeyd edək ki, informasiya mənbəyinin kimliyi, mənbənin təqdimatı həmin mənbənin mənsub olduğu xalq haqqında oxucuya təqdimatlar verərək xalqın ümumi simasının formalaşması prosesində mühüm rol oynayır. Bu baxımdan 3 şaxəyə bölünmüş erməni informasiya mənbələrinin pozitiv təqdimatı xüsusi qeyd edilməlidir. Xankəndi və İrəvan erməniləri "millətçi," "milli lider" kimi təqdim olunaraq [14], [15], Dağlıq Qarabağ münaqişəsinin genişlənməsinə xidmət edərək oxucunun təfəkküründə Dağlıq Qarabağın birbaşa ermənilərlə assosiasiya olunmasına zəmin yaradır. ABŞ ermənilərinin təqdim olunması isə iki rakursdan verilərək oxucuya belə təqdim olunur: 1) ermənilər ABŞ vətəndaşları kimi; 2) ermənilər tarixi Ermənistanın vətəndaşları kimi.

"*Nyu York Tayms"ın* müxbirləri "məlumatların bir çox mənasız şayiələr kimi təsdiq olunmadığını" qeyd etsələr də [16], elə bu məlumatlar informasiya qıtlığı və qarşı tərəfin - Azərbaycan Respublikasının informasiya fəaliyyətsizliyi şəraitində qəzet səhifəsinə asanlıqla yol tapırdı. Bu isə öz növbəsində erməni təbliğatının "*Nyu York Tayms"ın* səhifələrində geniş yer alması ilə yanaşı, təbliğat kimi mühüm siyasi alətdən istifadə vasitəsilə informasiya müharibəsində ermənilərin bir sıra siyasi texnologiyaları uğurla həyata keçirmələri ilə nəticələnirdi. 1988-ci ilin materiallarının təhlili bu qəbildən olan 3 siyasi texnologiyanı üzə çıxarır:

1. Dini mənsubiyyətlə bağlı ikili standart tətbiq edərək dini qarşıdurmanın təbliği;
2. Baş verəcək hadisələrin zəminini əvvəlcədən hazırlayaraq onun gerçəkləşməsinə təkan vermək;
3. Xəbərin hadisəyə çevrilməsi və əksinə, xəbərin fakt olaraq tarixin arxivinə verilməsinə nail olaraq tarixin saxtalaşdırılması.

Bu prosesləri ayrı-ayrılıqda təhlil etdikdə aşağıdakı nəticələrə gəlmək olur:

***1. Dini mənsubiyyətə görə ikili standart tətbiq edərək dini qarşıdurmanın təşviqi;***

Qeyd olunduğu kimi, din təkcə münaqişənin deyil, həm də ayrı-ayrılıqda hər iki xalqın təqdim olunmasında mühüm parametrlərdən biri kimi çıxış edir. Bir qədər əvvəl araşdırılan dini mənsubiyyətə yenidən müraciət edərək "xristian-müsəlman qarşıdurması" daxilində azərbaycanlıların təqdim olunması genişlənərək dəyişməsi tendensiyasını izləmək mümkündür. Bu genişlənmənin məqsədi oxucuya azərbaycanlıların təkcə müsəlman deyil, həm də *"şiə müsəlman"* olması faktını təlqin etməkdir: "Azərbaycan Sovet Sosialist Respublikasında yaşayan 6.7 milyonluq xalq şiə müsəlmandır"[17]. "Xristianlar və müsəlmanlar. Bu iki qrup dini cəhətdən bölünmüşdür: ermənilər əsasən xristianlar, azərbaycanlılar isə şiə müsəlmanlardır. Münaqişənin tarixi Sovet İttifaqının yarandığı dövrə təsadüf edir"[18]. "İki millət dini cəhətdən bölünmüşlər: ermənilər əsasən xristianlar, azərbaycanlılar isə şiə müsəlmanlardır. Münaqişənin tarixi Sovet İttifaqının yarandığı dövrə təsadüf edir" [19].

Qəzet İslam dininə məxsus şiəliklə sünnilik arasında fərqləri açıqlayaraq azərbaycanlıların məhz şiə müsəlman olduqları üçün təhlükə törədə biləcəkləri fikrini önə çəkir. "Sovet müsəlmanlarının böyük qismi sünni təriqətinə aiddirlər ki, bu təriqət də əsasən, fundamentalist hərəkata qarşı çıxır. Moskva onilliklər boyu müəyyən uğurla cənub respublikalarını mümkün qədər dünyəviləşdirməyə çalışmışdır" [20]. Lakin: "Müsəlman dünyasında Azərbaycan İranda hakimiyyətdə olan şiə təriqətinin bir hissəsidir. Sovet rəsmiləri uzun illər islam fundamentalizminin İran azərbaycanlılarının dini və etnik qardaşlarına yayılacağından qorxmuşdur" [21]. Elə buna görə də: "Moskva üçün narahatlıq doğuran cəhətlərdən biri də islam fundamentalizmi üçün açıq olan şiə təriqətinə malik azərbaycanlıların münaqişəyə cəlb edilməsidir. Sovet rəsmiləri uzun illər fundamentalizmin sərhəddən yayılacağından qorxurdular" [22].

Qəzet din amilinin Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynadığını bildirərək belə bir ehtimal irəli sürür: "Azərbaycana Dağlıq Qarabağı güzəştə getməyi əmr etmək əsasən islamçı Azərbaycanda ehtirasları qızışdıracaq və digər respublikalarda millətçi etirazları gücləndirəcəkdir" [23]. "Azərbaycanlılar şiə müsəlmanlardır və belə bir ümumi inam var ki, Kommunist Partiyasının dinə qarşı apardığı kampaniyaya baxmayaraq, onların dini hissləri çox yüksəkdir" [24]. Dini mənsubiyyət amilin təqdimatında qəzetin ikili standarta əsaslandığını bu təqdimatda yalnız ermənilərin sadəcə xristian ermənilər kimi, azərbaycanlıların isə qatı fanatik şiə müsəlman kimi təqdim edilməsi faktı deyil, həm də erməni kilsəsi barədə dərc olunan materialların təhlili deməyə imkan verir. Əgər din azərbaycanlıların siyasi baxışlarına təsir edən mənfi bir amil kimi qiymətləndirilirsə, ermənilərin həyatında kilsənin rolu, onların ortodoks xristianlığa aid olmaları hər zaman pozitiv fakt kimi ön plana çəkir. "Erməni ortodoks kilsəsi hər yerdə erməniləri birləşdirən sosial şirənin əsas tərkib hissəsi" [25] kimi qeyd olunaraq onun Los Anceles [26], Nyu York [27] və Moskvadakı fəaliyyətindən, Dağlıq Qarabağ məsələsində tutduğu mövqedən söhbət açılır: "Kilsə Los Ancelesdəki erməni icmaları tərəfindən təşkil edilmiş nümayişlərin mərkəzində durur. Nyu York və başqa şəhərlərdə etirazçılar inanırdılar ki, onlar katolikosun xeyir-duasını alıblar". "Rus ortodoks, baptist və digər təriqətlərin kilsələri kimi erməni kilsəsi də dövlətin nəzarəti altında fəaliyyət göstərir. Qərb mütəxəssisləri və bir çox dindarlar belə hesab edirlər ki, kilsənin ali ruhaniləri DTK tərəfindən təyin edilir. Buna baxmayaraq, erməni dindarlarının böyük əksəriyyəti, hətta qərbdəkilər belə Eçmiədzində yerləşən erməni patriarxının və katolikosunun aliliyini qəbul edirlər. Erməni kilsəsi digər kilsələrdən fərqli olaraq, daha böyük maliyyə müstəqilliyinə malikdir"[28]. Erməni kilsəsinin belə bir müsbət imici yaradılandan sonra oxucuya məlumat verilir: "Dağlıq Qarabağdakı azərbaycanlı rəhbərlər əhalinin dörddə birinin ermənilər olmasına baxmayaraq, onlara kilsə tikməyə icazə verməyiblər" [29].

Dini təqdimatın möhkəmlənməsində xüsusi rol oynayan ABŞ erməniləri informasiya mənbəyi olaraq "*Nyu York Tayms"ın* müxbirlərinin onlara nə vaxt müraciət edəcəklərini gözləmir əksinə, özləri qəzetin məktublar və elanlar səhifələrinin imkanlarından bəhrələnirdilər. 1988-ci ildə "*Nyu York Tayms"da* Dağlıq Qarabağ problemi ilə bağlı dərc olunan hər iki oxucu məktubunun müəllifi ABŞ erməniləridir. Məktub müəllifi bildirir ki, "İslam fundamentalizminin gündən-günə artmasını nəzərə alsaq, Kremlin ölkə sakinlərinin əksəriyyətinin rəhbərlik üçün Moskvaya deyil, Məkkəyə baxacaqları günlə üzləşəcəyi an uzaqda deyil" [30]. Dağlıq Qarabağ bölgəsinin Ermənistanla birləşməsi komitəsi qəzetin 1988-ci il 11 mart sayının elanlar səhifəsini alaraq onu "Qarabağ ermənilərin-

dir" başlığı ilə çıxarmış, ABŞ ermənilərini əvvəl erməni kilsəsində dini mərasimə, sonra isə BMT-dəki Sovet İttifaqı missiyasının binası qarşısında dinc nümayiş keçirməyə çağırmışdı [31]. Elanlar səhifəsindən istifadə cavabsız qalmadı, qəzet növbəti nömrəsində bu nümayişdən fotoreportaj verdi, ermənilərin Dağlıq Qarabağla bağlı iddialarını bir daha oxucuya çatdırdı [32].

Yuxarıdakı misalları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, "*Nyu York Tayms"* dini təqdimatında ikili standartlardan çıxış edərək Dağlıq Qarabağ münaqişəsinin "dini amilə söykəndiyini" bir daha qabardır, onu xristian həmrəyliyi məsələsi kimi oxucuya çatdıraraq dini qarşıdurmanı təşviq edir.

***2. Baş verəcək hadisələrin zəminini əvvəlcədən hazırlayaraq onun gerçəkləşməsinə təkan vermək;***

Bu texnologiyanın mahiyyəti oxucuda hələ baş verməmiş, amma verilməsi planlaşdırılan və ehtimal olunan hadisələr barədə əvvəlcədən rəy yaratmaq, bununla da hadisələrin təxmin edilən və arzu olunan çərçivəsini quraraq sonradan hadisə baş verdiyi təqdirdə onun çərçivələnməsini hazır çərçivə daxilində inkişaf etdirməkdir. Sumqayıt və Gəncə (keçmiş Kirovabad – A.B.) hadisələri bu siyasi texnologiyanın həyata keçirilməsinə bariz misaldır.

Sumqayıt hadisələri ərəfəsində dərc olunan materialları izləyərək iki tendensiyanı aşkara çıxarmaq olar: bunlardan birincisi İrəvan mitinqlərinin, digəri isə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində keçirilən mitinqlərin təqdim olunması ilə bağlıdır. İrəvandakı mitinqlər hər zaman sakit və dinc nümayiş kimi təqdim olunur və bu təqdimat dəyişmir: "Kaliforniyaya zəng edənlər paytaxtda geniş, lakin sakit nümayişlərin keçdiyini, polisin də bəzən nümayişçilərə qoşulduğunu xəbər verirdilər"[33]. "Videokaset ötən həftəki mitinqlərin sakit keçdiyini təsdiq edir" [34]. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki mitinqlərin isə xarakteri barədə informasiya Sumqayıt hadisələrindən bir qədər əvvəl dəyişməyə başlayır: "SİTA-nın xəbərində deyilir ki, milis nəfəri Xankəndi sakininin maşınına hücum edib və 60 erməni öldürülmüşdür. SİTA bunu da xəbər verir ki, rəsmi A. Katusev bütün bunların həqiqətə uyğun olmadığını bildirir" [35]. Şayiələr təsdiq olunmasa da, itkilər haqqında qeyri-səhih informasiya təchizatı məqsədyönlü şəkildə davam etdirilir. Fevralın 27-dən etibarən bu şayiələr daha da genişlənərək hadisələrin zorakılıq kimi çərçivələnməsinə təkan verir. "Erməni Milli komitəsinin Qərb Sahilinin verdiyi məlumata görə, bu həftə Dağlıq Qarabağdakı mitinqlərdə ən azından 70 erməni öldürülmüş və uyğun olaraq çoxları yaralanmışdır" [36]. "Erməni apostol kilsəsinin dini lideri Arçibişop Torkom Manogian deyir ki, zorakılıq, dava, ölüm və Sovet tanklarının müsəlman Azərbaycana birləşdirilmiş Dağlıq Qarabağın erməni ərazisinə hərəkət etməsi barədə məlumatlar var. O demişdir ki, vəziyyət barədə Ermənistan kilsələrindəki mənbələrdən dünən telefon vasitəsilə məlumat almışdır" [37].

Əsasən, ABŞ ermənilərinin siyasi və dini qurumlarından qaynaqlanan informasiyaların heç biri təsdiq olunmasa da, onlar qarşıya qoyulmuş məqsədə xidmət edərək oxucuya ermənilərin Azərbaycan Respublikası ərazisində öldürüləcəyi barədə ilkin mesajlar ötürürdü. Məqsəd isə Azərbaycan Respublikası ərazisində ermənilərin gec-tez öldürüləcəyinə oxucunu hazırlamaq, baş verəcək istənilən qarşıdurmanın və ya çaxnaşmanın zorakılıq və itki çərçivəsində təqdim edilməsinə zəmin yaratmaqdır. Bu mesajlar bir neçə gündən sonra Sumqayıt hadisələrinin baş verməsi və bu hadisənin ermənilərə qarşı edilən zorakılıq və vəhşilik kimi çərçivələnməsi ilə gerçəkləşir.

Eyni siyasi texnologiya Gəncə hadisələri ərəfəsində tətbiq olunur. Bu dəfə də rəsmi olaraq heç bir zorakılıq barədə informasiya verilmədiyi, hadisələrin hələ başlanmadığı təqdirdə akademik A.D.Saxarov ABŞ-da bu ölkəyə səfəri zamanı bəyanat verərək Gəncədə 130 adamın öldürüldüyünü bildirir: "Saxarov bildirir ki, hökumətin göz yumması ilə artıq beş gündür ki, qətllər, zorlama davam edir, evlər yandırılır. Bu hadisə Azərbaycan SSR-in digər şəhərlərinə keçir. Gəncədə 130 adam öldürülmüşdür" [38]. Saxarovun bu bəyanatındakı məlumat təsdiq olunmasa da, təkrar olunaraq təbliğatın əsas qaydalarından birinin həyata keçirilməsinə kömək edir: yalan nə qədər çox təkrarlanarsa, bir o qədər tez həqiqət kimi qəbul edilməyə başlayar. "Təsdiq olunmamış məlumatlar itkilərin daha çox olduğunu, azından 130 erməninin azərbaycanlılarla qarşıdurmada Azərbaycan şəhəri Gəncədə öldürüldüyünü bildirir. Bu rəqəm bu gün Sovet insan hüquqları müdafiəçisi, hazırda ABŞ-da səfərdə olan A. Saxarovun bəyanatında səslənmişdir" [39].

Bu misallardan belə bir nəticə çıxarmaq olar ki, baş verməsi planlaşdırılan hadisələr əvvəlcə mətbuata erməni mənbələrindən qaynaqlanan və təsdiq olunmayan şayiələr şəklində yol tapır və beləliklə,

gələcək hadisələrin, konkret olaraq zorakılığın və itkilərin obrazı çərçivələnir. Bu ilkin mesajlar sonradan hadisə baş verən zaman oxucunun hadisəni artıq hazır çərçivədə qəbul etməsinə zəmin yaradır.

Qeyd edək ki, S.Luryenin "Erməni siyasi mifologiyası və onun Ermənistanın və Dağlıq Qarabağın xarici siyasətinə təsiri" əsərində bu texnologiyanın qaynağını təşkil edən erməni siyasi mifologiyası dərindən təhlil olunaraq tutarlı misallarla sübuta yetirilir. 1980-90-cı illərdə Ermənistanın siyasi həyatının tamamilə virtuallaşdığı və reallıqla heç bir əlaqəsi olmadığı qərarına gələn müəllif Ermənistanın "iqtisadi blokadası" barədə yalan informasiyaların bu blokada başlamazdan hələ bir neçə il əvvəl KİV-də mütəmadi olaraq yayıldığını, ağ yalanların dəhşət doğurduğunu yazır. Müəllif qeyd edir ki, KİV olmayan hadisələr barədə acı gerçəklik kimi yazdığı günlərdə - 1988-ci ilin noyabrında azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası baş versə də, bu fakt mətbuatdan tamamilə gizlədildi. S. Luryenin araşdırmaları ümumiləşdirmə apararaq belə bir nəticəyə gəlməyə imkan verir: qeyd olunan siyasi texnologiya təkcə ABŞ mətbuatında deyil, həm də SSRİ KİV-də eyni uğurla tətbiq olunurdu (40).

3. ***Xəbərin hadisəyə çevrilməsi və əksinə, xəbərin fakt olaraq tarixin arxivinə verilməsinə nail olaraq tarixin saxtalaşdırılması.***

Sumqayıt və Gəncədə hadisələrinin çərçivələnməsinin təhlili tədqiqat üçün bir sıra suallar doğuraraq üçüncü siyasi texnologiyanın açıqlanmasında əhəmiyyətli rol oynayır. Bu suallar aşağıdakılardır: doğrudan da mı, *"Nyu York Tayms"* bütövlükdə erməni mənbələrinin və təbliğatının təsiri altında idi və hadisələr yalnız birtərəfli qaydada təqdim olunurdu? Azərbaycanlıların itkiləri və Sumqayıt hadisələrinə təkan verən digər faktlar tamamilə unudulur, yoxsa ara-sıra xatırlanır?

Materialların təhlili göstərir ki, *"Nyu York Tayms"da* ilk itkilərin hansı tərəfdən olduğu dəfələrlə qeyd olunmuşdur: "Sovet prokurorluğu bu gün narazılıqlar başlayan ilk günlərdən etibarən iki azərbaycanlının ölümünü təsdiq etmişdir. BBC-nin Sovet radiosuna istinadən verdiyi xəbərə görə, prokuror A. Katusev demişdir ki, ölüm Azərbaycan Respublikasının Ağdam rayonunda olmuşdur. Bu, itkilər barədə ilk rəsmi təsdiq olunmuş məlumatdır". "Muradyan Dağlıq Qarabağda bu ayın əvvəllərində iki azərbaycanlının öldürüldüyünü və 19 nəfərin yaralandığını deyir" [41]. "Narazılıqların nəticəsi kimi Azərbaycanın Ağdam rayonunun iki sakini: 16 yaşlı Bəxtiyar Əliyev və 23 yaşlı Əli Hacıyev öldürülmüşdür" [42]. *"Nyu York Tayms"* belə bir fərziyyə irəli sürür ki, Sumqayıt hadisələrinin başlaması üçün "fevralın 28-də iki azərbaycanlının Ağdamda öldürülməsi xəbəri qığılcım" olmuşdur: "Bakıdan olan qeyri-rəsmi informasiyaya görə, Sumqayıtdakı çaxnaşmalar bu ayın əvvəlində ermənilərlə toqquşmada iki azərbaycanlının öldürülməsi və digərlərinin yaralanması xəbəri bazar günü açıqlandıqdan sonra baş vermişdir" [43]. "Sumqayıtda çaxnaşmalar başlamazdan bir neçə saat əvvəl rəsmi Azərbaycan radiosu Dağlıq Qarabağ yaxınlığında etnik qarşıdurmada iki azərbaycanlının öldürüldüyü barədə məlumat vermişdir. Belə hesab olunur ki, iki azərbaycanlının ölümü faktının açıqlanması Sumqayıt və Gəncədə zorakılığa səbəb olmuşdur [44]. "Ermənilərin tələbləri ilə alovlanan nümayişlər Ermənistan və Dağlıq Qarabağın böyük şəhər və qəsəbələrində nəhəng və dinc nümayişlərə gətirib çıxarsa da, Azərbaycandakı çaxnaşmalarda iki azərbaycanlı öldürüldü. Bu xəbər ictimaiyyətə açıqlananda Azərbaycan şəhəri Sumqayıtda ermənilərə qarşı qətl, zorlama və qarmaqarışıqlıq başlandı" [45]. "İki azərbaycanlının ermənilər tərəfindən Dağlıq Qarabağda öldürülməsi xəbəri Azərbaycanın sənaye şəhəri Sumqayıtda çaxnaşmalara səbəb oldu. Sovet rəsmiləri 32 nəfərin öldüyünü bildirirlər. Onlardan 26-ı ermənidir. Ermənilər deyirlər ki, ölənlərin sayı qat-qat çoxdur" [46].

Yuxarıdakı misallardan göründüyü kimi, iyuna qədər Sumqayıt hadisələrindən yazarkən qəzet hadisələrin başvermə ardıcıllığını pozmur. Bu zaman fakt zənciri aşağıdakı ardıcıllıqla inkişaf etdirilir: Dağlıq Qarabağ və İrəvanda etiraz nümayişləri, Ağdamda iki azərbaycanlı gəncin ölümü və Sumqayıt hadisələri. Yuxarıdakı misallara əsasən, hər üç faktın neytrallıq, pozitivlik və neqativlik baxımından necə təqdim olunduğuna diqqət yetirək. İrəvandakı etiraz nümayişlərinin "dinc" keçməsi pozitiv, iki azərbaycanlının Ağdamda öldürülməsi faktı neytral, Sumqayıtda baş verən hadisələr isə zorakılıq kimi təqdim edilərək neqativ çalar daşıyır. Bu çərçivənin 3 aydan sonra tamamilə dəyişilməsi və fakt zənciri sırasından Ağdamdakı itkilərin çıxarılmasının səbəbini də məhz təqdimatın fərqli çalarlarının sonrakı inkişaf dinamikasında axtarmaq lazımdır. Belə ki erməni mənbələri Sumqayıtda baş verənləri erməni talanları kimi çərçivələyərək, onun tarixə "Sumqayıt poqromu" kimi düşməsinə nail olduqları bir zaman, Azərbaycan mənbələri münaqişənin ilk itkilərinin azərbaycanlı gənclər

olması faktını hadisəyə çevirə bilmirlər. Nəticədə bir qədər əvvəl qeyd olunan üç faktdan ikisi hadisəyə çevrilir, biri isə hadisəyə çevrilə bilməyərək fakt olaraq qalır, bir müddətdən sonra isə tarixin arxivinə verilir. Beləliklə, aşağıdakı xəbər mənzərəsi alınır: "Martdakı görüşdə Saxarov indi Azərbaycan Respublikasının bir hissəsi olan Dağlıq Qarabağın Ermənistana verilməsinə çağırırdı. Fevralda bu məsələ 100 minlərlə *dinc* ermənini paytaxt İrəvanın küçələrinə çıxarmış və Azərbaycan şəhəri Sumqayıtda ermənilərinin *kütləvi qətlinə* səbəb olmuşdu" [47]. "Ərazi mübahisəsi üzrə qarışıqlıq fevralda 100 minlərlə ermənin *dinc* küçə nümayişlərinə çıxması ilə başlandı. Çaxnaşmalar həmin ay Azərbaycan şəhəri Sumqayıtda başlandı, 32 adam öldürüldü. Onların əksəriyyəti ermənilərdir" [48]. "Narazılıqların yeni dalğası iki cənub respublikasında fevraldan sonra daha da ciddiləşmişdir. Fevralda Azərbaycan şəhəri Sumqayıtda etnik çaxnaşma zamanı 36 nəfər öldürülmüşdür ki, onların da çoxu ermənilərdir" [49]. "Dağlıq Qarabağın Ermənistana verilməsi azərbaycanlıları qəzəbləndirə bilər. Narazılıqların kulminasiya nöqtəsində azərbaycanlı kütləsi Sumqayıt şəhərində qiyam etmiş, 32 nəfəri öldürmüşdür. Onların əksəriyyəti ermənilərdir" [50]. "Erməni millətçiliyinin qəfil püskürməsi Dağlıq Qarabağ üzərində nəzarətə sahib olmaq iddiası ilə üzə çıxaraq Azərbaycan şəhəri Sumqayıtda antierməni çaxnaşmalara səbəb oldu. Nəticədə 32 nəfər öldürüldü" [51]. "Fevralda anklavın qanunvericiliyi Ermənistanla birləşmək barədə müraciət etdi ki, bu da İrəvanda böyük nümayişlərə və Azərbaycan şəhəri Sumqayıtda dəhşətli partlayışa gətirib çıxartdı. Nəticədə 32 adam öldürüldü, onların əksəriyyəti küçədə və öz evlərində qətlə yetirilən etnik ermənilərdir" [52]. "Fevralda İrəvandakı dinc nümayişlər dayandırılan kimi erməni ehtirasları Azərbaycan şəhəri Sumqayıtda antierməni qətlləri alovlandırdı. Ümumən 36 adam öldürülmüşdür ki, onların da əksəriyyəti ermənilərdir" [53]. "Bir həftədən sonra gərginlik zorakılıqla əvəz olundu. Erməni vəhşilikləri barədə şayiələrlə ayağa qalxan Sumqayıt azərbaycanlıları erməniləri öz evlərində öldürdülər" [54]. İyundan etibarən dərc olunan bütün yazılarda ilk itkilərin azərbaycanlılar olması, onların ermənilər tərəfindən öldürülməsi faktı "unudulur" və təkrarlanmır. Xəbər zəncirində yalnız "dinc Yerevan nümayişləri" və azərbaycanlıların buna cavab olaraq Sumqayıtda "talan" törətməsi faktı qalır. Xəbərin inkişafının iki tendensiyası – onun hadisəyə çevrilməsi və ya fakt kimi qalması siyasi texnologiya olaraq təbliğat amili üzərində qurularaq son nəticədə tarixin saxtalaşdırılmasına gətirib çıxarır. Bu texnologiyanın həyata keçirilməsinin səbəbini təkcə "*Nyu York Tayms"ın* qərəzli münasibətində deyil, həm də daha çox dərəcədə Ermənistanın belə bir münasibətə təkan verən, fəal və məqsədyönlü informasiya təşviqatında axtarmaq lazımdır. Bu təşviqat Sovet informasiya agentliklərinin verdiyi bütün informasiyaları ilk gündən təkzib edərək, əvvəlcədən hazırlanmış çərçivəyə uyğun olaraq itkilərin qat-qat çox olduğunu bildirirdi. Bu zaman "ümumən etibarlı informasiya mənbəyi kimi qəbul edilən jurnalist S. Qriqoryants" [55], "Moskvadakı erməni kilsəsinə gəlmiş kimliyini açıqlamayan Sumqayıt ermənisi" [56] informasiya mənbəyi kimi çıxış edirdi. Hətta rəsmi olaraq Sumqayıtda ölənlərin sayının 32, onların 26-nın erməni olduğu bildiriləndə belə erməni mənbələri bu rəqəmin də həqiqətə uyğun olmadığını iddia edirdilər. "Rəsmi olaraq Sumqayıtda ölənlərin sayı 32, yaralananlarınsa 197-dir. Lakin ermənilər rəqəmlərin qat-qat çox olduğuna inanırlar" [57].

Qeyd edək ki, faktın özü yox, ermənilərin özlərinin tələfatın rəsmi rəqəmlərdən çox olmasına inanmaları faktı təkcə "*Nyu York Tayms"ın* xəbərlərində deyil, 1988-ci il boyu Reuters, AP kimi agentliklərin informasiyalarında da tez-tez təkrarlanır [58, 59, 60, 61] və heç bir mənbə ilə təkzib və ya təsdiq olunmayaraq informasiyanın dəqiqlik, balanslılıq kimi prinsiplərinin pozulmasına və Azərbaycan Respublikasının mənfi imicinin formalaşdırılmasına gətirib çıxarır. *"Nyu York Tayms"* Ermənistanın Ararat və Quqark rayonlarında azərbaycanlılara qarşı törədilmiş zorakılıqdan, Topxanada ermənilərin zavod tikmək niyyətlərinin Azərbaycan Respublikasında geniş nümayişlərə gətirib çıxardığından yazsa da [62], Azərbaycan mənbələrinin fəaliyyətsizliyi nəinki xəbərin hadisəyə çevrilməyərək fakt olaraq qalmasına, hətta noyabrda Bakıda başlanan çoxminlik nümayişlərin çərçivələnməsində də din amilinin qabardılmasına gətirib çıxarır. "*Nyu York Tayms" "İzvestiya"ya* istinadən bu nümayişlərdə "islamın yaşıl bayraqlarının" və Xomeyninin şəklinin qaldırıldığı barədə məlumat verir [63].

Beləliklə, 1988-ci il hadisələrlə zəngin olsa da, yuxarıda qeyd olunan siyasi texnologiyaların uğurlu tətbiqi son nəticədə Azərbaycanın mövzu kontekstində xatırlandığı materiallarda "*Nyu York Tayms"ın* hadisələri ermənipərəst mövqedən çərçivələməsinə gətirib çıxarır. Bir qədər əvvəl qeyd

olunduğu kimi, bu texnologiyaların əsas elementi təbliğat idi. Qərb müxbirlərinin hadisə baş verən regiona özlərinin vaxtında gedə bilməməsi, operativ reportaj hazırlamaq imkanlarından məhrum olmaları onları belə bir təbliğata həssas edirdi.

**MƏNBƏ VƏ ƏDƏBİYYAT**


1. A Dispute With Religious Overtones. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 24, 1988. p. A15 (1 page)
2. News Cut Off as Armenian Protests Continue. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 26, 1988. p. A6 (1 page)
3. Soviet Reports Major Unrest In Armenian Areas in South; Soviet Reports Major Unrest In Armenian Areas in South . *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 24, 1988. p. A1 (2 pages)
4. News Cut Off as Armenian Protests Continue. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 26, 1988. p. A6 (1 page)
5. İbid.
6. A Dispute With Religious Overtones. *By FELICITY BARRINGERSpecial to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 24, 1988. p. A15 (1 page)
7. Soviet Trying to Quell Ethnic Unrest. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 25, 1988. p. A6 (1 page)
8. News Cut Off as Armenian Protests Continue. *By PHILIP TAUBMANSpecial to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 26, 1988. p. A6 (1 page)
9. Soviet Trying to Quell Ethnic Unrest. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 25, 1988. p. A6 (1 page)
10. PROTEST LEADERS AGREE TO SUSPEND ARMENIAN UNREST; GORBACHEV GIVES PLEDGE Soviet Leader Is Said to Vow to Look at Grievances -Demonstrations Ease Armenian Nationalists Call Off Protests After Pledge by Gorbachev
11. Armenian Protests Reportedly Subside; Some nationalists doubt the Soviet leader's vow. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 29, 1988. p. A8 (1 page)
12. Behind the Armenian crisis, rising expectations and old enmities.; For Gorbachev, a Major Test of Change Explodes . *By FELICITY BARRINGER with BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 11, 1988. p. A1 (2 pages)
13. Armenian Capital Residents Are Said to Ignore Strike Call. New York Times (1857-Current file). New York, N.Y.: Jul 22, 1988. p. A5 (1 page)
14. Armenian Protests Reportedly Subside; Some nationalists doubt the Soviet leader's vow. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 29, 1988. p. A8 (1 page)
15. Soviet Reports Deaths of 31 in Azerbaijan Rioting. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 5, 1988. p. 28 (1 page)
16. Soviet Armenians Mourn Their Dead; The unrest has raised questions about glasnost. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 9, 1988. p. A8 (1 page)
17. Azerbaijan AT A GLANCE. New York Times (1857-Current file). New York, N.Y.: Mar 3, 1988. p. A6 (1 page)
18. Unrest Appears Linked to Recent Nationalist Protests in the Region; Key Soviet Oil Center Is Reported Shaken by Riots The nationalist unrest has been the most serious since the 1920's. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 1, 1988. p. A1 (2 pages)
19. Soviet Reports Deaths in Rioting; Unofficial Toll in Azerbaijan Is 17. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 3, 1988. p. A6 (1 page)
20. Gorbachev Is Feeling the Heat From the South. *By PHILIP TAUBMAN.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 6, 1988. p. E3 (1 page)
21. Unrest Appears Linked to Recent Nationalist Protests in the Region; Key Soviet Oil Center Is Reported Shaken by Riots The nationalist unrest has been the most serious since the 1920's. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 1, 1988. p. A1 (2 pages)
22. Gorbachev Is Feeling the Heat From the South. *By PHILIP TAUBMAN.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 6, 1988. p. E3 (1 page)

23. Strike Ends in Armenia as Unrest Slows. *By BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jun 15, 1988. p. A3 (1 page)
24. Armenia and Its Neighbors Only Diverge. *By BILL KELLERYEREVAN. U.S.S.R..* New York Times (1857-Current file). New York, N.Y.: Sep 11, 1988. p. E3 (1 page)
25. Armenian Forsakes the Liturgy to Tend His Flock. *By BILL KELLERSpecial to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 17, 1988. p. A4 (1 page)
26. For Armenians in U.S., an Issue of Solidarity. *Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 27, 1988. p. 6 (1 page)
27. Armenians Recall Republic at Parade. *By DENNIS HEVESI.* New York Times (1857-Current file). New York, N.Y.: Jun 5, 1988. p. 34 (1 page)
28. Armenian Forsakes the Liturgy to Tend His Flock. *By BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 17, 1988. p. A4 (1 page)
29. İbid.
30. Rise of Islam in Soviet Union Tests Gorbachev. *ROBERT H. TEMBECKJIAN.* New York Times (1857-Current file). New York, N.Y.: Jul 5, 1988. p. A16 (1 page)
31. Display Ad 67 -- No Title. New York Times (1857-Current file). New York, N.Y.: Mar 11, 1988. p. D19 (1 page)
32. Armenian Unity Rally in New York. New York Times (1857-Current file). New York, N.Y.: Mar 14, 1988. p. A3
33. For Armenians in U.S., an Issue of Solidarity. *Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 27, 1988. p. 6 (1 page)
34. Armenian Protests Reportedly Subside; Some nationalists doubt the Soviet leader's vow. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 29, 1988. p. A8 (1 page)
35. News Cut Off as Armenian Protests Continue. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 26, 1988. p. A6 (1 page)
36. For Armenians in U.S., an Issue of Solidarity. *Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 27, 1988. p. 6 (1 page)
37. İbid.
38. 130 Died, Sakharov Says. New York Times (1857-Current file). New York, N.Y.: Nov 26, 1988. p. 6 (1 page)
39. SOVIET ARMY PUTS ARMENIAN CAPITAL UNDER ITS CONTROL; CURBS ON ETHNIC RIVALS Patrols, Curfews and Ban on Protests Imposed in Two Republics in the South MILITARY CONTROLS ARMENIAN CAPITAL .*By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Nov 26, 1988. p. 1 (2 pages)
40. Svetlana Lurye. Армянская политическая мифология и ее влияние на формирование внешней политики Армении и Нагорного Карабаха. www.ethnopsyhology.narod.ru/svlourie/articles/arm-geopolit.htm.
41. Armenian Protests Reportedly Subside; Some nationalists doubt the Soviet leader's vow. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Feb 29, 1988. p. A8 (1 page)
42. Behind the Armenian crisis, rising expectations and old enmities.; For Gorbachev, a Major Test of Change Explodes . *By FELICITY BARRINGER with BILL KELLERSpecial to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 11, 1988. p. A1 (2 pages)
43. Soviet Says It Used Troops to Quell Riots in South. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 2, 1988. p. A10 (1 page)
44. Soviet Armenians Mourn Their Dead; The unrest has raised questions about glasnost. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 9, 1988. p. A8 (1 page)
45. Pravda Writer Disavows Article on Armenia; Pravda Writer Disavows Article Criticizing Armenian Nationalists Such protests are almost never made public. . *By FELICITY BARRINGERSpecial to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 23, 1988. p. A1 (2 pages)
46. Months of Unrest Led to Leaders' Ousters. New York Times (1857-Current file). New York, N.Y.: May 22, 1988. p. 13 (1 page)
47. Sakharov, in New Forum, Still Dissents; Sakharov, Given a Government Forum, Still Dissents The image of the official appearance is breathtaking. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jun 4, 1988. p. 1 (2 pages)
48. Pravda Reports Further Strikes By Armenians; Armenian Strikes Paralyze Disputed Soviet Region *By BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jun 11, 1988. p. 1 (2 pages)

49. STRIFE AGAIN GRIPS SOVIET ARMENIANS AND AZERBAIJANIS; STRIKE CRIPPLES YEREVAN Policeman Is Slain as Dispute Is Rekindled Over Status of Autonomous Region Unrest Again Grips Armenia and Azerbaijan *By BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jun 14, 1988. p. A1 (2 pages)
50. Armenian Legislature Backs Calls For Annexing Disputed Territory; ARMENIA ASSEMBLY BACKS PROTESTERS . *By BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jun 16, 1988. p. A1 (2 pages)
51. Armenians, Irate at Party Conference Results, Resume Wide Unrest. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jul 6, 1988. p. A6 (1 page)
52. Anger Alters the Chemistry of Armenian Protest. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jul 11, 1988. p. A2 (1 page)
53. Legislature in Armenian Enclave Votes to Secede From Azerbaijan. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Jul 13, 1988. p. A2 (1 page)
54. SOVIET DISMISSES TWO PARTY CHIEFS IN TENSE REPUBLICS; ETHNIC UNREST A FACTOR Gorbachev Opportunity Seen in the New Armenian and Azerbaijani Protests Soviet Ousts Party Chiefs in 2 Republics . *By BILL KELLER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: May 22, 1988. p. 2 (2 pages)
55. Soviet Reports Deaths in Rioting; Unofficial Toll in Azerbaijan Is 17. *By PHILIP TAUBMAN Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 3, 1988. p. A6 (1 page)
56. Soviet Armenians Mourn Their Dead; The unrest has raised questions about glasnost. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 9, 1988. p. A8 (1 page)
57. Pravda Writer Disavows Article on Armenia; Pravda Writer Disavows Article Criticizing Armenian Nationalists Such protests are almost never made public. *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Mar 23, 1988. p. A1 (2 pages)
58. Armenian Strike Continues. New York Times (1857-Current file). New York, N.Y.: Mar 30, 1988. p. A10 (1 page)
59. Azerbaijani City Shut By Armenian Strikers.New York Times (1857-Current file). New York, N.Y.: Jun 1, 1988. p. A15 (1 page)
60. Azerbaijan Violence Reported. New York Times (1857-Current file). New York, N.Y.: Jun 12, 1988. p. 13 (1 page)
61. Soviet Court Sentences Man To Death in Armenian Riots. New York Times (1857-Current file). New York, N.Y.: Nov 20, 1988. p. 16 (1 page)
62. İbid.
63. Tension Called High In Armenia Capital, With 1,400 Arrests; 1,400 Are Reportedly Arrested For Curfew Violations in Armenia *By FELICITY BARRINGER Special to The New York Times.* New York Times (1857-Current file). New York, N.Y.: Nov 29, 1988. p. A1 (2 pages)

## FORMING A NEGATIVE IMAGE OF AZERBAIJAN IN THE ARMENIAN PROPAGANDA IN THE FOREIGN PRESS (THE NEW YORK TIMES: IN 1989-1991 YEARS)

## SUMMARY

A new wave of covering Azerbaijan in the US newspapers started in 1988 within the unrests in the Nagorno Karabakh region. This could be considered also as a starting point for imagemaking of Azerbaijan in the eve of significant political catakhlysms prior to the gaining of independence. The article studies the role of media in the formulation of the country's negative image, which was predominantly under the influence of armenians sources.

## ФОРМИРОВАНИЕ НЕГАТИВНОГО ИМИДЖА АЗЕРБАЙДЖАНА В АРМЯНСКОЙ ПРОПАГАНДЫ В ЗАРУБЕЖНОЙ ПРЕССЕ (THE NEW YORK TIMES: В 1989-1991 ГОДАХ)

## РЕЗЮМЕ

В 1988 году, с началом Нагорно-Карабахского конфликта, освещение Азербайджана в Американской печати заняло заметное место. В статьи изучается роль медиа в формировании негативного имиджа страны, когда первая, находясь под влиянием армянских, источников нарушала баланс и в последствие превращалась в платформу для применения политических технологий.

**Elnur NƏCİYEV**
*AMEA-nın Tarix İnstitutunun doktorantı*

# DENİKİNÇİLƏRİN VƏ ERMƏNİ DAŞNAKLARININ LƏNKƏRAN QƏZASINDA TÖRƏTDİYİ SOYQIRIM

**Açar sözlər:** Azərbaycan, Lənkəran, soyqırım, denikinçi, erməni daşnakları
**Keywords:** Azerbaijan, Lankaran, genocide, denikinites, armenian dashnaks
**Ключевые слова:** Азербайджан, Ленкорань, геноцид, деникинцы, армянские дашнаки

Böyük dövlətlərdən, xüsusilə Rusiyadan hərtərəfli kömək alan erməni cəlladları Azərbaycan və Şərqi Anadolu torpaqlarını aborigen əhalidən təmizləyərək "Böyük Ermənistan" dövləti yaratmağa cəhd göstərmişlər. Bu məqsədlə həyata keçirilən soyqırımlar 1914-1919-cu illərdə bütün Azərbaycan torpaqlarını və Şərqi Anadolunu əhatə etmiş, yüz minlərlə dinc azərbaycanlı əhali xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Azərbaycanın və Şərqi Anadolunun türk-müsəlman əhalisinin məhv edilməsi qabaqcadan düşünülmüş ümumi plan əsasında, həm də vahid mərkəzdən idarə olunaraq həyata keçirilirdi [10, 7]. Bu baxımdan Azərbaycanın Lənkəran qəzası da erməni daşnaklarının denikinçilərlə birgə həyata keçirdiyi soyqırım aktından kənarda qalmamış və bu ərazidə də 1918-1919-cu illərdə kütləvi qətl və qarətlər həyata keçirilmişdir.

Həmin dövrdə Lənkəran mühüm strateji və yeyinti məhsulları istehsal edən bölgə idi. Bakının arxası və ingilislərin ağalıq etdikləri Qacar İranı ilə həmsərhəd idi. Lənkəran vasitəsilə Orta Asiya və Həştərxanla əlaqə saxlamaq, Sovet Rusiyasından məsləhət və kömək almaq mümkün idi. Bu baxımdan Lənkəranın əldə saxlanması istər bolşeviklər, istərsə də onların hamilik etdiyi erməni daşnakları üçün vacib idi. Bu məqsədlə Stepan Şaumyan milli qüvvələrin - Sultan bəy Qulubəyov, Aslan Talışinski və baron Osten-Sakerin 1917-ci ildə təşkil etdiyi milli alayı və Lənkəranda olan Dikaya diviziyanı tərk-silah etməklə, bölgəni tam şəkildə ələ keçirməyi planlaşdırırdı. Tam şəkildə ələ keçirmək isə etnik təmizləmə siyasəti kimi başa düşülməlidir. 1917-ci il dekabrın 20-də Lənkəran qəzası üzrə Müəssislər Məclisinə seçkilərin nəticələrinə görə Müsavat partiyasının 53910 səs topladığını [15, 237] nəzərə alsaq, bu, başa düşüləndir. Soyqırımın həyata keçirildiyi bütün Azərbaycan torpaqlarında olduğu kimi məqsəd həm də Azərbaycan xalqının milli-azadlıq mübarizəsini önləmək, onun mərkəzdə və əyalətlərdəki dayaqlarını zəiflətmək idi. Bu niyyətin reallaşdırılması üçün soyqırıma məruz qalan insanların etnik mənsubiyyətinə görə də fərq qoyulmadı, məhv edilməsi üçün müsəlman olması yetərli idi.

Lənkəran qəzasında erməni daşnakların vəhşiliyi 1917-ci ilin iyun ayının 19-da ilk dəfə olaraq özünü biruzə vermişdi. Həmin vaxtdan başlayaraq 1918-ci ilin may ayına qədərki bir müddət ərzində denikinçi komandan Şevkunovun quldur dəstəsinə rəhbərlik edən daşnak Akopyan və ermənipərəst eser Sinayev Lənkəranda Mir Əhməd xanının birmərtəbəli evini özlərinə qərargah etmişdilər. Onlar törətdikləri vəhşiliklərə belə haqq qazandırırlar ki, guya Lənkəran qəzasını qaçaq-quldurlardan qoruyurlar. Bu məqsədlə onlar dəfələrlə şəhər və kəndləri dənizdən top atəşinə tutmuşlar. O dövrü yerli camaat qaçhaqaç dövrü kimi yadda saxlayıb. Sakinlər əliyalın olduğundan, atışma başlayan kimi meşələrə üz tutub [12, 153]. Bunun qarşısını almaq üçün hərbçilərlə danışığa gedən Sütəmurdov kəndinin 13 ağsaqqalı hərbçilərlə belə bir şərt kəsiblər ki, dinc əhaliyə toxunmayacağı tədqirdə, əvəzində onlara lazım olan ərzaq veriləcəklər. Lakin bu təkliflərinə baxmayaraq, quldur dəstəsi iyun ayının 19-da həmin günahsız Sütəmurdov ağsaqqallarını qolları bağlı çayın dəhnəsinə apararaq, qılıncla başlarını kəsir, bədənlərini tikə - tikə etdirirlər. Onların hamısını dəhnədə basdırırlar. Bir neçə gündən sonra bir dəstə itin meyidlər ətrafında ulaşmasını eşidən camaat gəlib yoxlayır, bu qanlı faciəni görür. Sütəmurdovlular onların meyitlərini çıxarıb yeşiklərə dolduraraq gətirib kəndin məscidi qabağında dəfn edirlər. Həmin ağsaqqalların adlarını Sütəmurdov mollası 88 yaşlı Mir Cavadın Quranı içərisindəki qeydlərə istinadən İshaq Axundov öz əsərində qeyd etmişdir: 1. Alim Fazil axund – molla Həmid usta Məmmədəli oğlu, 2. Hacı baba Kərbəlayi Məhəmmədqulu oğlu, 3. Əli Nağı Məşədi Əbdül Hüseyn oğlu, 4. Xəlil Məşədiəliqulu oğlu, 5. İbrahimpaşa Məşədi Mikayıl bəy oğlu Kələntərov, 6. Kərbəlayi Əkbər Məhəmməd oğlu, 7. Kərbəlayi Hüseyn Əhməd oğlu, 8.Kər-

bəlayi Məlik Məşədi Bağır oğlu, 9. Mirsadığ Kərbəlayi Mir Tahir oğlu, 10. Xəlil Məhəmməd Hüseyn oğlu, 11. Abdulla Məhəmməd oğlu, 12. Səfər Baba oğlu, 13. Məhəmməd Rza Məşədi Əhməd oğlu [2, 8]. Denikinçilərin ermənilərin quldur dəstələri ilə birlikdə gördüyü işlər bununla yekunlaşmadı və 1918-ci ilə qədər geniş xarakter almağa başladı. Bu barədə Lənkəran əhalisinin yaşlı nəslinin qanlı xatirələri Hacı Mirhaşım Talışlının müəllifi olduğu "1918-ci il Lənkəran faciəsi" [14] adlı məqalədə geniş şəkildə öz əksini tapmışdır. Hadisə şahidlərindən Lənkəranda ilk ali təhsilli ədəbiyyat müəllimi Teymur Şahverdiyev xatirələrini belə bölüşürdü: "1918-ci ilin mart ayı idi. "Kolaz"da Sütəmurdova gedirdim. Körpü hələ çəkilməmişdi. Su qırmızıya çalırdı. Diqqət verib gördüm ki, insan qanıdır. Suda xeyli cəsəd vardı" [14]. O illərin bir digər şahidi "Lenin" ordenli müəllim Əbülqasım Qasımov belə bir əhvalat danışırdı: "Heyva gül açan vaxtları (aprel-may ayları) idi. Şevkunovun quldur dəstəsi erməni daşnakları ilə birləşərək xeyli adamı qanına qəltan etmişdi. Hərbi paraxoddan şəhər top atəşinə tutulmuşdu. Lənkərana ticarət işinə gedən Məşədi Qasım, Məşədi Şirəli, Kərbəlayi Nurulla və Hacı Axund dava-qırğını görüb geri qayıtmışdılar. Bu vaxt mərmi məscidin bir tərəfini aparır. Abuzər Ağababa oğlu uşağı ilə həlak olmuşdular. Kərbəlayi Səfərəli Cabbar oğlunu buğda və düyü tayaları üstündə vurmuşdular. O, qışqırıb deyirmiş ki, məni öldürməyin, nə istəyirsinizsə, verim. Kərbəlayi Səfərəlinin yalvarışlarına əhəmiyyət verməyib evini də yandırmışdılar. Köməyinə gələn Kərbəlayi Güləliyə də aman verilməmiş, amansızcasına qətlə yetirmişdilər. Dərzi Musanın evinin ətrafında 8 nəfəri güllə ilə vurmuşdular. Uşaqlara, qadınlara belə rəhm edilməmişdi. Qaynar samavarı adamların belinə bağlayır, yeriməyə məcbur edirdilər. İki gün ərzində Gərmətükdə 7 nəfər öldürülmüşdü" [14]. Xəzər donanmasındakı rus matrosları da qırğına cəlb olundular. Onların sərəncamında olan "Aleksandr Jander" gəmisindən Qızılağacdan Astaraya qədər sahilə yaxın yaşayış məntəqələri top atəşinə tutuldu [4]. Mirhaşım Talışlı həmin anları belə xatırlayır: "Gərmətük camaatı kənd ağsaqqalı Hacı Ağabalanı matroslarla danışığa göndərirlər ki, qırğını dayandırsınlar. Rus dilini yaxşı bilən Hacı Ağabala ağ parçadan bayraq qaldırıb, dənizin sahilinə gəlir. Onlar rusların məqsədlərinin nə olmasını öyrənmək istəyirdilər. Onlar öyrənmək istəyirdilər ki, niyə bu camaatı qırırlar? Onların, yəni rus-erməni birləşmələrinin rəhbəri Şevkunov deyib ki, sizin hamınız bizim düşmənimizsiniz. Biz istəyirik ki, bu yerlərdən köçəsiniz" [13, 6].

Lənkəran qəzasında soyqırımların daha sistemli və ardıcıl olaraq aparılması üçün bəhanə 1918-ci ilin martın 24-də şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərkisilah edilməsi oldu. Belə ki, 1918-ci il martın 17-də silahla davranışdan həlak olmuş Məhəmməd Tağıyevin (Azərbaycan milyonçusu H.Z.Tağıyevin oğlu) cənazəsini Lənkərandan Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri, erməniləri təşvişə salmışdı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə rus Milli-Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında guya "Evelina" ilə gedən zabitlərin Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv etmək tapşırığı almaları barədə şayiə yaydılar [17, 104]. Bakıda olan bütün qeyri-müsəlman siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsi fikrini dəstəklədilər. Gəminin körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərk-silah olunmasını tələb etdi. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu [11]. Bununla kifayətlənməyərək Şaumyanın sərəncamı və erməni milli şurasının göstərişi ilə Lənkəranda olan "Dikaya diviziya"nı tərksilah etmək üçün erməni fəhlələrindən təşkil olunan 280 nəfərlik silahlı dəstənin mövcud olduğu bolşevik-erməni ordusunu quru yol ilə Muğana, bir qismini də dəniz yolu ilə Lənkərana göndərildi [1, 73]. 1918-ci ilin aprelin 12-dən başlayaraq Lənkəran qəzasına basqın edən bu quldur dəstə yolboyu azğınlıq etməklə müsəlman kəndlərini talayaraq dağıdaraq yandırmış və Lənkəran əhalisinə divan tutmuşdur. Lənkəran qəzasında 40-dan çox kənd yandırılmış, yüzlərlə günahsız insan qətlə yetirilmişdi. Erməni daşnakları evlərə girib bəzən bütün ailəni məhv edirdilər. Hamilə qadınlara, qocalara belə rəhm edilmirdi. Bir gün ərzində Gərmətük kəndində 70-dək, Mamusta kəndində 30-dək, Kərgəlan kəndində 30-dək, Sütəmurdov kəndində 20-dən çox, Girdəni kəndində 20-dək günahsız insan soyqırımın qurbanı oldu [12, 153].

Bu qanlı hadisələrlə bağlı Mirhaşım Talışlı qeyd edir ki, erməni-rus əsgərləri Lənkəran qəzasında ən hörmətli və el arasında sayılıb seçilən ağsaqqalları ya öldürür, ya da ələ keçirib, işgəncələr

verirdilər. Lənkəranda tanınan Məşədi Qasımın, Məşədi Şirəlinin, Kərbəlayi Nurullanın, Hacı Axundun, Verevullu Mirməhəmməd xan Mirfərəculla bəy oğlu Talışxanov və yüzlərlə başqalarının taleyi belə, acınacaqlı olmuşdu. Şıxəkəran kəndinə hücum edən rus və erməni əsgərləri kəndi talan edərək, camaatın mal-qarasını və qiymətli ev əşyalarını ələ keçiriblər. Atışmada öldürülmüş ermənінin heyfini çıxan əsgərlər bir neçə kənd sakinini diri-diri yandırıblar. Bəzilərinin qulaq və burunlarını kəsir və gözlərini çıxarıblar. Kənd camaatı Mamusta ilə Xolmili arasındakı meşəyə çəkilib, bir neçə gün burada gizləniblər. Mamusta kəndində cavanları evlərə yığıb, od vurub yandırıblar. Hətta bir neçə mamustalı qılıncla doğranılaraq öldürülüb. Ermənilər Mamusta kəndinə od vurub yandırıblar. Qadınlar və uşaqlar isə Qoçasələ meşəsinə sığınıblar. Lənkəran şəhəri və ətraf kəndlərin əhalisi Osaküçə meşələrinə çəkilərək özlərini qorumaq üçün sığınacaq tapmışdılar. Ara sakitləşəndən sonra ev-eşiklərinə qayıtmış şəhər camaatı erməni vəhşiliyinin bir daha şahidi olmuşlar. Evlər top mərmisi ilə dağıdılmış, dükanlar qarət və talan edilmişdi. Öldürülmüş və dənizə atılmış insan cəsədləri üzərində erməni vəhşiliyinin və qəddarlığının bütün əlamətlərini görmək mümkün idi [13, 6].

Arxiv mənbələrinin birində qeyd edilir ki, "Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Onlar müsəlman yeməkxanalarına girib oradakıları təhqir edir, yediklərinin pulunu vermir, özlərini Osmanlı türklərindən qorumaq üçün onları səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyyələrini keçirməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdı və minlərlə günahsız insanın həyatına son qoydular". 1919-cu ilin avqustunda "Molokan qiyamı" yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu [3]. Lənkəran qəzasında noyabrın 1-də müsəlman cəmiyyətinin səlahiyyətli nümayəndəsi Teymur bəy Bayraməlibəyov Bakıda olan türk ordusunun baş komandanı Nuru paşanın qəbulunda olub. O, Avetisovun (Türk ordusunun hücumu qarşısında duruş gətirə bilməyərək ordunu başsız qoyub qaçan, türklərin qatı düşməni, Bakı cəbhəsinin keçmiş komandanı Avetisov sonralar Prişibdə öldürülmüşdü) quldur dəstəsinin özbaşınalığı haqqında ona məlumat vermiş və lənkəranlıların bu ağır vəziyyətdən qurtarmasını ondan xahiş etdilər. Görüşdə Nuru paşa lənkəranlıların səlahiyyətli nümayəndəsinə bildirmişdi ki, türklər sizə hərtərəfli köməklik göstərəcək və adıçəkilən dəstənin bütün özbaşınalığının qarşısı alınacaqdır. Sonda Nuru paşa bildirmişdi ki, müsəlmanlara çatdırın ki, onlar çox da gözləməyəcəklər [19, 59].

Lənkəranda soyqırımların qarşısının alınması üçün 1918-ci il noyabrın 14-də görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyov, Axund Molla Əli Tağızadə və Yusif Qəribzadə ilə birlikdə İrandakı Böyük Britaniya konsulu Hevelke ilə görüşdülər. Nümayəndələr Avetisovun başçılığı altında erməni silahlı dəstələrinin Muğanda və Lənkəranda dinc əhaliyə divan tutduğuna dair sənədləri Hevelkeyə təqdim etməklə, onlar konsula ingilis ordularının Azərbaycana gəlişi ilə erməni silahlı dəstələrinin qəddarlığının arta biləcəyi ehtimalını söylədilər. Nümayəndələr ingilis konsulundan erməni silahlı dəstələrinin hərəkətlərinin qarşısını almağa diqqət yetirməyi xahiş etdilər [9, 215-216]. Lakin bütün bunlara baxmayaraq, qəzada ermənilərin dinc əhaliyə qarşı qırğınları hələ də davam edirdi. Lənkəranda ermənilərin və denikinçi qüvvələrin törətdikləri qarətlərin, qırğınların qarşısını almaq məqsədilə 1918-ci il dekabrın 28-də Teymur bəy Bayraməlibəyovun başçılıq etdiyi nümayəndə heyəti Bakıda general Tomsonla görüşərək ermənilərin, "denikinçilərin qəzanı bərbad hala saldıqlarını, xüsusən azərbaycanlılara divan tutmaları haqqında ona məlumat verərək, qəzanın bu qüvvələrdən təmizlənməsini və onun Azərbaycanla yenidən birləşdirilməsi haqqında tədbirlər görülməsini xahiş etdilər" [9, 73-74]. T.Bayraməlibəyov "Azərbaycan" qəzetinin 18 noyabr 1918-ci il tarixli 39-cu sayında yazırdı: "Dəhşətlər, biabırçılıqlar törədən və cəzasız qalan Avetisovun hər gün qan tökən quldur dəstəsi buradan getməsə, yerli əhali, xüsusilə müsəlmanlar bundan sonra öz halal dədə-baba torpaqlarında rahat yaşaya bilməzlər" [5]. "Azərbaycan" qəzetinin "Lənkəran" sərlövhələri altında gedən məqalədə Teymur bəy Bayraməlibəyov dinc əhaliyə işgəncə verən və soyğunçuluqla məşğul olan ermənilərin simasızlığından danışaraq belə qeyd edirdi: "Yanvar ayının 22-də Hüseynəli Rzaəli oğlu bazarda Şəhab molla İsgəndər oğlunun dükanında əyləşərkən erməni əsgərləri dükanı əhatəyə alıb güllə atmağa başlamışlar. Bazarda güllə səsi eşidən ürəyi vahiməli, müsəlman

camaatı dükanlarını açıq qoyub qaçmağa üz qoydular. Fürsətdən istifadə edən silahlı erməni əsgərləri isə dükanları soyub aparmışlar. Erməni əsgərlərinin bu cür facianə işləri və gecələr müsəlman məhəllələrində oğurluq etmələri hələ də davam etməkdədir" [6].

"Azərbaycan" qəzetinin 14 mart 1919-cu il tarixli nömrəsində bu dövrdəki Lənkəran qəzasının ümumi vəziyyəti şərh edilərək qeyd olunur ki, "Mart hadisələrindən sonra (1918-ci il mart soyqırımı nəzərdə tutulur – red.) Lənkərana bolşeviklərlə bərabər erməni daşnakları da gəldilər. Bundan sonra erməni Avetisovun başçılığı ilə daşnak hərbi hissələri müsəlman kəndlərinin axırına çıxdılar. Olmazın zülmlər, əziyyətlər verdilər. Yollar kəsildi. Əhali şikayət etməyə bir yer tapmadı. Türklər Bakıya gəldikləri zaman Muğan ətrafının bolşevikləri ilə əlaqələri kəsildi. Buradakı sərsərilər "Muğan hökuməti" adı ilə dağıdıcı bir qurum düzəltməklə, müsəlmanları soymağa və qırmağa başladılar" [7]. "Azərbaycan" qəzetinin 18 may 1919-cu il tarixli 103-cü sayında "Lənkəranlıların fəryadı" adlı məqalədə qeyd edilir ki, "Artıq bir ildən çoxdur ki, Lənkəranın əsasən müsəlmanlardan ibarət olan əhalisi hakimiyyət uğrunda mübarizə aparanların əlində yanır. Son günlərdə hakimiyyət bolşeviklərin əlinə keçmişdir. Ərazidə həbslər və Denikinin havadarlarına qarşı təqiblər başlanmışdır. Lənkəranda bolşeviklər partiyası ilə denikinçilər arasında böyük toqquşmalar baş verdiyindən, bazarda alış-veriş dayandırılmış, yerli tacirlərin – müsəlmanların malları yandırılmışdır" [8]. Beləliklə, iki ilə yaxın bir müddət ərzində Lənkəran qəzasında ermənilərin törətdikləri qırğınlara 1919-cu ilin yayında - Camal Paşanın komandanlığı ilə türk ordusunun və Azərbaycan Milli Ordusunun Lənkəran qəzasına daxil olduğu vaxtdan son qoyuldu. Nəticədə, qəzanın milli qüvvələrin əlinə keçməsi ilə, əhali qırğından, talanlardan xilas olmuş və Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir.

Lənkəran qəzasında soyqırıma məruz qalan əhalinin sayı ilə bağlı dəqiq rəqəm olmasa da, müqayisə aparmaq üçün Lənkəran şəhərində müxtəlif illərə görə əhali sayına nəzər salmaq olar. "Qafqaz təqviminin 1916-cı il 1 yanvar tarixinə olan məlumatına görə Lənkəran şəhərinin 17801 nəfər əhalisi vardı. Şəhər əhalisinin əksəriyyətini də müsəlmanlar təşkil edirdi. 8700 nəfəri kişi, 6529 nəfəri qadın olmaqla şəhərdə 15229 nəfər müsəlman əhali yaşayırdı. Şəhərdə qeyri-müsəlmanlardan başqa 1874 nəfər rus, 550 nəfər erməni, 99 nəfər yəhudi, 49 nəfər digər avropalı xalqlardan olan əhali vardı [18]. 1926-cı il ümumittifaq siyahıyaalınmasına görə Lənkəran qəzasının şəhər əhalisinin sayının azalmasında azalma qeydə alınmışdır [16]. Şəhər əhalisinin sayında ötən 9 il ərzində 4966 nəfər azalma qeydə alınmışdı. Halbuki 1908-ci ildə şəhər əhalisinin sayı 10463 nəfərdən 1917-ci ilə qədər 17801 nəfərə qədər çatmışdı [2, 8]. Hətta Birinci Dünya müharibəsi illərində əhali sayı 7338 nəfərə qədər artım qeydə alınmışdı.

Məqalədə nəzərdən keçirilən faktlar ümumilikdə, 1918-1919-cu illərdə daşnak-bolşevik-denikinçi qüvvələrin Lənkəran qəzasında, xüsusilə də Lənkəran şəhərində qanlı soyqırım cinayətləri həyata keçirdiyini bir daha təsdiq edir. Bu soyqırımlar nəticəsində bölgənin əhalisi kütləvi şəkildə məhv edilmişdir. Bunu Lənkəran şəhərinin nümunəsində əsrin əvvəlində və 1926-cı il əhalinin kameral siyahıyaalınmasındakı ciddi say fərqinin olmasında müşayiət etmək mümkündür.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


17. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan, 2007, 163 s.
18. Axundov İ. S. Xatirələrimdə yaşayan Lənkəran. Bakı: İşıq, 1989, 108 s.
19. AR Prezidentinin İşlər İdarəsinin yanında Siyasi Sənədlər Arxivi, f. 277, siy. 2, iş 16, v. 18
20. ARDA, f.100, siy. 2, iş 791, v.2
21. "Azərbaycan" qəzeti, 1918-ci il, 18 noyabr, №39.
22. "Azərbaycan" qəzeti, 1919-cu il, 29 yanvar, № 100
23. "Azərbaycan" qəzeti, 1919-cu il, 14 mart, № 101
24. "Azərbaycan" qəzeti, 1919-cu il, 18 may, № 103
25. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Nurlan, 2008, 696 s.
26. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. /AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun birgə layihəsi. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 408 s.
27. İsgəndərov A.C. 1918-1920-ci illərdə türk-müsəlman soyqırımları. "Azərbaycan" qəzeti, 2005, 1-2 aprel.
28. Kərimov B.B. 1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım //Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, Bakı, 2012, № 2, s. 151-160.
29. Lənkəran-Astara bölgəsində 1918-ci il qırğınları. "Zaman" qəzeti, 2014, 1 iyul, s. 6.

30. Talışlı M., Əhədov E. 1918-ci il Lənkəran faciəsi. "Respublika" qəzeti, 2015, 13 mart, № 57
31. Беленький С. и Манвелов А. Революция 1917 года в Азербайджане (хроники событий). Баку: АЗГИЗ «а»,1927, 253 с.
32. Всесоюзная перепись населения 1926 года. М.: Издание ЦСУ Союза ССР, 1928-29. Том 10. стр. 2-3. Том 11. стр. 2-3. Том 14. стр.5. Том 15. стр.6. Том 16. стр.4.
33. Гасанлы Дж.П. Русская революция и Азербайджан: Трудный путь к независимости (1917–1920). М. : Флинта, 2011, 664 с.
34. Кавказский календарь на 1917. 1231 с., 868 стб. разд. паг., 1 карт.
35. Раевский А. Английская интервенция и Мусаватское правительство (к истории интервенции и контрреволюции в Азербайджане). Баку: Красный Восток, 1927, 191 с.


## GENOCIDE COMMITTED IN LENKORAN DISTRICT BY DENIKINITES AND ARMENIAN DASHNAKS

## SUMMARY


The slaughters intentionally committed against our nation by Armenians in the beginning of the last century, left in our memory an indelible mark as one of the most bloody events in the history of Azerbaijan. Lankaran, as well as other districts of Azerbaijan were completely plundered by the Armenian gangster detached forces, and the innocent civilians were ruthlessly killed. During this purposeful robbery and slaughter people were brutally killed, with no mercy for the old and children. From the beginning of 1918 till august, 1919, as a result of this genocide, the Armenian and Russian formations killed more than two thousand people only in the territory of Lankaran.


## ГЕНОЦИД СОВЕРШЕННЫЙ В ЛЕНКОРАНСКОМ УЕЗДЕ ДЕНИКИНЦАМИ И АРМЯНСКИМИ ДАШНАКАМИ

## РЕЗЮМЕ


Бедствия, причиненные нашему народу армянами в начале прошлого столетия, оставили у нас в памяти неизгладимый след, как одно из самых кровавых событий в истории Азербайджана. Ленкорань, как и другие уезды Азербайджана, был полностью разграблен армянскими бандитскими отрядами, а мирное население беспощадно уничтожено. Во время этого целенаправленного грабежа и геноцида людей зверски убивали, не жалея ни стариков, ни молодых, ни детей. В результате этого геноцида с начала 1918 года по август 1919-го только на территории Ленкоранского уезда армянские и русские формирования лишили жизни более 2 тыс. человек.

**Şöhrət MUSTAFAYEV**
*AMEA Tarix İnstitutunun dissertantı*

# XIX-XX ƏSRLƏRDƏ ERMƏNİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAĞI - İRƏVAN XANLIĞI ƏRAZİSİNƏ KÖÇÜRÜLMƏSİ SİYASƏTİ VƏ NƏTİCƏLƏRİ

**Açar sözlər:** İrəvan xanlığı, Azərbaycanın tarixi torpaqları, etnik təmizləmə, miqrasiya siyasəti, kütləvi təmizləmə
**Keywords:** The Irevan khanate, historical lands of Azerbaijan, ethnic cleansing, immigration policy, mass destruction.
**Ключевые слова:** Иреванское ханство, исторические земли Азербайджана, этнические чистки, переселенческая политика, массовое уничтожение.

Bu məqalə tarixi Azərbaycan torpaqlarında ermənilərə aid dövlətin yaradılmasına qədər keçən tarixi prosesin araşdırılması məqsədi daşıyır. Bu çərçivədə son 200 ildə tarixi Azərbaycan torpaqlarına mərhələli olaraq ermənilərin köçürülməsi siyasətini və qədim Türk torpaqlarında xristian-ermənilərə aid dövlətin yaradılması ilə əlaqədar önəmli tarixi hadisələrə diqqət yetiriləcəkdir.

Son iki yüz il ərzində istər xarici, istərsə də Sovet tarixşünaslığında Azərbaycanın tarixi torpaqlarında müxtəlif etnik qruplara-xüsusilə, ermənilərə məxsus xəyali "dövlətlərin" varlığı sübut olunmağa çalışılmış və tarixin kökündən saxtalaşdırılmasına cəhd göstərilmişdir. Lakin bir şeyi unutmuşlar ki, nə qədər yazılı mənbələrdə tarixi saxtalaşdırmağa çalışsalarda, heç bir zaman həqiqiliyi şübhə doğurmayan daş salnamələrin saxtalaşdırılması mümkün olmayacaqdır. Belə ki, tarixdə silinməsi mümkün olmayan mənbələrlə tanış olduqda görərik ki, son iki yüz il öncəsinə qədər Cənubi Qafqazda, qədim Azərbaycan torpaqlarında ermənilərə məxsus dövlət və ya toplu şəkildə varlığını sürdürən idarəçilik üsulu olmamışdır. Qeyd olunan tarixi faktları zaman-zaman erməni tarixçiləri də etiraf etmək məcburiyyətində qalmışlar. XX əsrin əvvəlində erməni tarixçisi B. İşhanıyan yuxarıda söylənənləri təsdiq edərək yazır: "Ermənilərin əsas vətəni Kiçik Asiyadır, yəni Rusiya sərhədlərinin (XIX əsrin əvvəllərində çar Rusiyasının sərhədlərinə daxil edilən Azərbaycan torpaqları - Ş. M) xaricində və Cənubi Qafqazın bir neçə erməni kəndi xaricində son yüz ildə Qafqazın müxtəlif bölgələrinə gəlmişlər" [ 16,http://garabagh.net]. Digər bir erməni elm adamı A.M.Agopyan "Samvel" adlı əsərində ermənilərin tarixi haqqında aşağıdakıları deməkdədir: "Bizim tariximizdə xalq tamamən unudulmuşdur. Biz erməni kəndlisinin necə yaşadığını bilmirik. "Ağaları" ilə necə əlaqədə olduğunu, nə yeyib nə içdiklərini, nə cür paltar geyindiklərini bilmirik. Biz erməni sənətkarlarının nə ilə məşğul olduqlarını, erməni tacirlərin hansı ölkələrlə ticarət əlaqələri qurduqlarını da bilmirik. Bizim tariximiz bütün bunlar haqqında susur. Bizim tariximizdə, hətta xalqımızın ən əzəmətli gücü olan qadınlarımız haqqında da heç bir məlumat yoxdur. Beləliklə bizim quru tariximiz tarixçiyə çox az məlumat verməkdədir. Evangeliyadan (kilsə yazılarından) başqa bizim qədim ədəbiyyatımız yoxdur. Bizim qədim ədəbiyyatda yaşayış tərzlərimiz, adətlərimiz, ənənələrimiz, ailə və ictimai ələqələrin təsviri yoxdur" [ 14, 15-16].

Erməni tarixçilərinin belə öz əsərlərində etiraf etdiyi kimi XIX əsrin əvvəlində çar Rusiyasının Azərbaycan torpaqlarını ilhaq etmə prosesinin başladığı dövrə qədər Azərbaycanın qədim əraziləri olan İrəvan, Qarabağ və Naxçıvan torpaqlarında ermənilərin toplu halda yaşamalarına rast gəlinməmişdir. A.M. Agopyanın əsərində də qeyd olunduğu kimi Qafqazda erməni tarixi evangeliyadan ibarət olmuşdur ki, bu da erməni katolikosluğunun 1441-ci ildə Klikiya Sisdən Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisi olan, XVIII əsrdə isə İrəvan xanlığının sərhədləri içərisində yerləşən Üçkilsəyə (Eçmiədzin) köçürülməsindən sonra başlamışdır. Erməni katolikosluğunun Qaraqoyunlu ərazisinə köçürülməsindən sonra qriqoriyan kilsəsinin müxtəlif vasitələrlə Azərbaycan türklərinə məxsus torpaqları ələ keçirməsinə və zaman-zaman erməniləri burada yerləşdirməsinə baxmayaraq, ermənilər Çuxursəd (İrəvan) bölgəsində say etibarilə həmişə azlıq təşkil etmişlər. XVI-XVII əsr mənbələrinə əsaslanaraq aparılan tədqiqatlardan məlum olur ki, Səfəvi-Osmanlı müharibələri zamanı İrəvan bölgəsində yaşayan azərbaycanlılar öz doğma yurdlarını kütləvi şəkildə tərk edərək qonşu məmləkətlərə sığınmışlar. Bu cür vəziyyətdə fürsətdən istifadə edən erməni kilsəsi boşalan torpaqları əlverişli qiymətlərə alaraq Osmanlı torpaqlarından kütləvi surətdə bu ərazilərə axışan erməniləri yerləşdirmişlər.

1590-cı ildə Osmanlı sərhədlərinə daxil olan İrəvan əyalətinin əhalisinin siyahıyaalınması zamanı tərtib olunan "Müfəssəl dəftər"də məlum olur ki, ermənilərin bölgəyə süni surətdə yerləşdirilməsi siyasəti ilə əlaqədar olaraq regionun demoqrafik vəziyyəti ermənilərin xeyrinə az da olsa dəyişmiş və müsəlman-türk əhalinin sayı azalaraq 67,5%-enmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, azərbaycanlıların öz tarixi yurdlarından didərgin salınması və ermənilərlə əvəz olunması siyasəti XVII-XVIII əsrlərdə daha da surətlə aparılmış və 1728-ci il tarixli "İcmal dəftəri"nin məlumatına əsasən isə Azərbaycan türklərinin sayı 61,2%-ə qədər geriləmişdir [ 1, 71- 73 ].

Tarixdən məlum olduğu kimi, 1682-ci ildə çar Rusiyasında hakimiyyətə gələn I Pyotrun hakimiyyəti dövründə, ölkədə ərazilərin genişləndirilməsi və isti dənizlərə çıxış siyasəti daha da geniş vüsət almışdır. Belə ki, çar I Pyotr bu məqsədlərinə nail olmaq üçün ilk növbədə cənuba doğru irəliləmə siyasətini həyata keçirib etnik tərkibinin 70%-nin Azərbaycan türkləri olan ərazilərin demoqrafik vəziyyətinin dəyişdirilməsini zəruri hesab etmişdir. Regionda bu siyasəti gerçəkləşdirməyin ən optimal yolunun 800 il türklərlə bərabər yaşayan lakin xristian olan ermənilərin "köməyindən" istifadə etmək olduğunu I Pyotr və onun ətrafındakılar çox yaxşı analiz etmişlər. XVIII əsrdə çar Rusiyası bu siyasəti həyata keçirmək üçün iki istiqamətli siyasi xətt götürmüşdür: Birincisi, Qafqazda müsəlman türkləri öz doğma yurdlarından müxtəlif vasitələrlə başqa yerlərə köçürtmək idi; İkincisi isə erməniləri müxtəlif şirnikləndirici vədlərlə Cənubi Qafqazın müsəlman türklərindən boşaldılan tarixi Azərbaycan torpaqlarına İrəvana, Qarabağa və Naxçıvana köçürülməsi idi. XVIII əsrin əvvəllərində çar Rusiyasının genişlənmə siyasəti 1738-ci ildə ilk dəfə çap olunan I Pyotrun vəsiyyətnaməsində də qeyd olunmuşdur. Bəhs olunan genişlənmə planına erməni silahlı qüvvələri də daxil olunmuş və onların imkanlarından maksimum istifadə olunmuşdur. Çar Rusiyasının ermənilərin böyük bir intizuyazımla dəstək verməsinin səbəbi isə bu gün olduğu kimi, qədim türk torpaqlarında "Böyük Ermənistan" xəyallarını gerçəkləşdirməkdən ibarət olmuşdur. Lakin unutduqları bir şey var idi ki, böyük dövlətlər heç bir zaman öz tabeliyində əlavə bir güclü dövlət təşkilatlanmasına imkan verməzlər. Belə olduğunu da tarixi proseslərin sonrakı gedişi də sübut etmişdir. Belə ki, Çar Rusiyası erməniləri öz planlarına daxil edərək onlardan maksimum səviyyədə istifadə etmiş və lakin nəticədə "Böyük Ermənistan" xəyallarının həyata keçməsinə imkan verməmişdir. Bununla bərabər ermənilər Çar Rusiyasının dəstəyi ilə Türk dünyasını iki hissəyə parçalayaraq Naxçıvan və İrəvan xanlıqlarının ərazisində bufer "erməni vilayəti"nin yaradılmasına nail olmuşlar. Azərbaycanın tarixi torpaqlarında "erməni vilayəti"nin yaradılmasından sonra 2 milyondan çox Azərbaycan türkü öz yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmış, xeyli hissəsi erməni çətələri tərəfindən öldürülmüş və qaçıb canlarını qurtaranlar isə Osmanlı dövlətinə sığınmışlar [5, 11]

I Pyotrun ölümündən sonra çar Rusiyasının cənuba doğru genişlənmə planı müvəqqəti olaraq zəifləmiş və 1762-ci ildə hakimiyyətə gələn II Yekaterina (1762-1796) ilə bərabər yenidən güclənmişdir. Təbii olaraq II Yekaterina öz işğalçılıq planları çərçivəsində erməniləri unutmamışdı və sələflərinin etdiyi kimi onları hər zaman genişlənmə planlarının mərkəzində saxlamışdır. 1768-1774-cü il Rusiya-Osmanlı müharibəsi zamanı general Suvorova "ermənilərin istiqlaliyyəti" haqqında layihə hazırlamasını əmr etmişdir. II Yekaterinanın ermənilərlə bağlı düşüncələrini dəstəkləyən generallar isə müxtəlif fikirlərlə genişlənmə siyasətində ermənilərin mövqeyinin möhkəmlənməsinə öz töhfələrini verməkdən çəkinməmişlər. Belə ki, 1783-cü ildə Prins Grigori Potyomkin II Yekaterinaya məktub yazaraq bildirmişdir ki: "Fürsət tapdığımızda Qarabağı dərhal ermənilərin nəzarətinə verərək Asiyada bir xristian dövləti qurmaq üçün lazım olanları edəcəyik".

XIX əsrin 30-cu illərindən əvvəl əhalisinin ən azı 65-70 %-ni Azərbaycan türklərinin təşkil etdiyi Qərbi Azərbaycan torpaqlarının (bugünkü Ermənistan) Çar Rusiyasına ilhaqından sonra demoqrafik vəziyyət surətlə ermənilərin xeyrinə dəyişdirilməyə başlanmışdır. Tarixi dövrün arxiv materialları, səyyahların xatirələri, xristian missionerlərin və erməni din adamlarının yazıları bizə bəhs olunan dövrə aid tarixi prosesləri obyektiv əsaslarla təhlil etməyə imkan verir.

II Yekaterinanın vəfatından sonra çar Rusiyasının Cənubi Qafqazı (çar I Pavelin dövrü 1796-1801) sərhədlərinə daxil etməsi ilə bağlı fəaliyyətləri müvəqqəti olaraq səngidi. Lakin 1801-ci ildə çar I Aleksandr (1801-1825) hakimiyyətə gəldikdən sonra çar Rusiyasının cənuba doğru genişlənmə fəaliyyəti yenidən canlanmağa başladı. Çar Rusiyasının genişlənmə planlarının mərkəzində iki əsas qayə dayanırdı: 1. İsti dənizlərə enmə; 2. Müsəlman dövlətləri olan Qacarlar İranı ilə Osmanlı dövləti

arasına xristian-erməni əhalinin köçürülməsi və bufer zonanın yaradılması idi. Çar I Aleksandr iqtidara gəldikdən sonra genişlənmə planını surətlə həyata keçirmək üçün ciddi hazırlıqlara başladı və 1802-ci ildə Cənubi Qafqazda rus ordusunun baş komandanı K. F. Konrinqi gürcü əsilli P.D.Sisianovla əvəzlədi [ 1, 291]. Bu əvəzləmə tezliklə "öz bəhrəsini" verdi və 1801-ci ildə Gürcüstan, 1803-cü ildə Car-Balakən və 1804-cü ildə isə Gəncə xanlığı çar Rusiyası tərəfindən işğal edildi. Təəssüflə qeyd etmək lazımdır ki, böyük güclərin Azərbaycan torpaqları uğrunda apardıqları savaş 12 oktyabr 1813-cü ildə Qarabağın Gülüstan kəndində qədim Azərbaycan torpaqlarının 2 hissəyə parçalanması ilə nəticələndi. İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayının şimal hissəsi çar Rusiyasına, cənub hissəsi isə İrana birləşdirildi. Azərbaycanın tarixi torpaqlarının bölüşdürülməsinin 1-ci mərhələsi başa çatdı.

Tarix hər zaman sübut etmişdir ki, böyük güclər əldə etdiklərindən daha çoxuna nail olmağa çalışmışlar. Bununla əlaqədar olaraq istər çar Rusiyası, istərsə də İran 1813-cü il Gülüstan müqaviləsinin şərtlərindən razı qalmamışlar. Belə ki, onlar fürsət düşdükcə yeni ərazilər əldə etmək planlarını həyata keçirmək məqsədilə zaman-zaman İrəvan və Naxçıvan xanlıqlarına hücumlar təşkil etmişlər. 1826-cı ildə İran Cənubi Qafqazda çar Rusiyasının hərbi qüvvələrinin baş komandanı general Aleksey Yermolovun Gürcüstan tərəfindən İrəvan xanlığına qarşı başlatdığı hərbi müdaxilə planından ciddi dərəcədə narahat olmuş və əks-hücuma başlamaq üçün hazırlıqlara başlamışdı. 1825-ci ildə çar I Aleksandrın ölümündən və Dekabristlər üsyanın başlamasından istifadə edən İran şahzadəsi Abbas Mirzə 1826-cı ildə əks hücuma başlamışdır. Hərbi əməliyyatların nəticəsində Gülüstan müqaviləsi ilə Çar Rusiyasına ilhaq edilən şimali Azərbaycan torpaqları yenidən İranın nəzarətinə keçmişdir. Lakin general Yermolovun Paskeviçlə əvəzlənməsi və İranda nizami hərbi komandanlığın olmaması hadisələrin sonrakı gedişini rusların xeyrinə dəyişdirmişdir. Nəticədə tarixi Azərbaycan torpaqları ikinci dəfə parçalanma ilə üz-üzə qalmışdır. Belə ki, 1828-ci ilin 10 fevral tarixində Azərbaycan xalqının iradəsi növbəti dəfə nəzərə alınmadan qədim Azərbaycan torpaqları Araz çayı sərhəd olmaqla iki hissəyə parçalanmış oldu: İrəvan və Naxçıvan Xanlıqlarının ərazisi də daxil olmaqla Şimali Azərbaycan Çar Rusiyasına, Cənubi Azərbaycan isə İrana birləşdirildi. Azərbaycan xalqının tarixində min illər keçsə də, xatırlanacaq olan Türkmənçay müqaviləsindən sonra regionda bu gün də sönməyən münaqişə ocaqlarının əsasını qoyan kütləvi köçlər başladı. Belə ki, Şimal-qərbi Azərbaycanın aborigen əhalisi olan Azərbaycan türkləri müxtəlif vasitələrlə öz yurd yuvalarını tərk etməyə məcbur buraxılmış, yerlərinə isə ilk öncə Arazın cənubundan İrandan və sonra isə Osmanlı Türkiyəsindən ermənilər köçürülmüşdür. Türkmənçay müqaviləsindən sonra Azərbaycanın tarixi torpaqlarına ermənilərin köçürülməsi günümüzə qədər heç sönməyən münaqişə ocağının əsasını qoymuşdur.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, istər Gülüstan müqaviləsi, istərsə də Türkmənçay müqaviləsi imzalandığı zaman bölgənin yerli əhalisi olan Azərbaycan türklərinə heç bir söz haqqı verilməmişdir.

Türkmənçay müqaviləsi bağlandıqdan dərhal sonra ermənilərin tarixi Azərbaycan torpaqlarına-İrəvana, Qarabağa və Naxçıvana köçürülməsi siyasəti başladıldı. Köçürmə siyasətinə Türkmənçay müqaviləsinin 15-ci maddəsi ilə hüquqi çərçivə qazandırılmağa çalışıldı. Müqavilənin 15-ci maddəsində deyilirdi: "Cənubi Azərbaycanda yerləşən əhali (ermənilər nəzərdə tutulur Ş.M) istədikləri təqdirdə Rusiyaya köçə biləcəklər və bunlara şərait yaradılacaq" [ 17, ].

Qeyd etmək lazımdır ki, bəhs olunan maddənin müqaviləyə qoyulmasında Rusiyanın ən zəngin erməni ailələrindən biri olan Lazaryanlar (Elazaryanlar) ailəsinin üzvü olan, 1815-ci ildə adına Moskvada erməni kolleci açılan [ 8, 92] Q.D. Lazaryev (Lazaryan) və Rusiyanın İrandakı səfiri olan A.S. Qriboyedovun böyük rolu olmuşdur. Bu maddənin müqavilədə öz əksini tapması sübut edir ki, erməni tarixçilərinin söylədiklərinin əksinə olaraq ermənilər Cənubi Qafqaza xüsusilə tarixi Azərbaycan torpaqlarına 1828-ci ildə məqsədli şəkildə köçürülüb.

Köçürülmə siyasəti, Türkmənçay müqaviləsinin qarşılıqlı olaraq təsdiq edilməsindən 1 gün sonra, Çar I Nikolayın fərmanı ilə 21 mart 1828-ci ildə xalqımızın tarixi bayramı olan Novruz bayramı günündə İrəvan və Naxçıvan xanlıqları ərazisində "erməni vilayəti"nin yaradılması zamanı başlamışdır. Bəhs olunan dövrlə bağlı baş vermiş hadisələri təhlil edən Rusiyalı elm adamı Nikolay Şavrov öz əsərində aşağıdakıları yazır: "Biz koloniyalaşmağa, Zaqafqaziyaya rusları deyil, digərlərini yerləşdi-

rərək başladıq. 1826-1828-ci il müharibələrindən sonra, 1828-1830-cu illər arasında iki ildə 40000 İran ermənisini və 84000 Türkiyə ermənisini, Gəncə və İrəvan vilayətləri ilə Tiflis vilayətinin Borçalı, Axaltsike və Axalkələki bölgələrində ən yaxşı dövlət ərazilərinin olduğu torpaqlara yerləşdidik. Yerləşmələr üçün 200000 desyatin dövlət ərazisi ayrılmış və 2 milyon rubl dəyərindəki şəxsi ərazi müsəlmanlardan satın alınmışdır. Gəncənin dağlıq ərazisi və Göyçə gölü sahilinə ermənilər yerləşdirildi. Qəbul etmək lazımdır ki, rəsmi olaraq yerləşdirilən 124000 ermənin xaricində qeyri-rəsmi yerləşdirilənlərlə bərabər 200000-ni keçməkdədir. Bu yüz ilin başında Zaqafqaziyada 1,3 milyon olan ermənilərin 1 milyondan çoxu müəyyən olunmuş rəsmi mənbələrlə təsdiq olunaraq bu ərazinin yerli xalqı olmayıb bizim tərəfimizdən köçürülərək yerləşdirilənlərdir" [ 15, 63"].

Müasir erməni tarixçisi G. A. Bournoutian isə Türkmənçay müqaviləsindən öncə ermənilərin İrəvan bölgəsində azınlıq olaraq yaşadıqlarını təsdiq edərək yazır: "Tələbin (ermənilərin köçürülməsinin Ş.M) yerinə gətirilməsi Türkmənçay müqaviləsinin 15-ci maddəsinə daxil edilməsi ilə, Araz çayı boyunca həyata keçirilən bir əhali mübadiləsi başladı. Nəhayətində 30.000-dən çox ermənin böyük əksəriyyəti İrəvan və Naxçıvan xanlıqlarının birləşdirilməsi ilə rəsmən 1828-ci ildə qurulan Rus "erməni vilayəti"nə yerləşdirildi" [ 7, 193].

Yuxarıda qeyd olunduğu kimi, ermənilərin Cənubi Qafqaza köçürülməsi siyasətinin layihəsi hələ 1827-ci ildə A.S. Qriboyedovun rəhbərliyi ilə hazırlanmışdı. Bu hazırlıq prosesi çərçivəsində həmin ilin may ayında general Paskeviç siyasətin uğurla başa çatdırılması üçün ermənilər arasında nüfuz sahibi olan Lazaryevi (Qazros Lazaryanı) öz sərəncamına götürərək hazırlıq işlərinə başlamışdı [ 1, 380]. O, 1827-ci ilin oktyabr 19-da Cənubi Azərbaycanın müxtəlif yerlərində dağınıq halda yaşayan ermənilər arasında köçürmə siyasəti ilə bağlı təbliğat işini aparmaq üçün 13 oktyabrda çar Rusiyasının hərbi hissələri tərəfindən zəbt olunan Təbriz şəhərinin komendantı təyin olunmuşdu [ 1, 381]. Ümumiyyətlə, köçürmə siyasətinə Lazaryevin xaricində, digər nüfuzlu ermənilər də rəhbərlik etmişlər. Bunların içərisində ən fəallardan biri də katolikos Nerses Aşderegli olmuşdur. O, 1 oktyabr 1827-ci il tarixində İrəvan xanlığının işğalından sonra özünü kral kimi aparmış "Böyük Ermənistan" xəyallarının gerçəkləşdiyi zamanın gəldiyini düşünmüşdür. Lakin, çar Rusiyasının regionla bağlı planları onun düşündüklərindən tam fərqli idi. Belə ki, Çar Rusiyasının planında "Böyük Ermənistan" dövlətinin qurulması yox, bufer bir erməni vilayətinin yaradılması var idi. Planlanan bu siyasəti başa düşən katolikos Nerses Aşderegli general Paskeviçin əmrlərinə qarşı çıxmağa başlamış və özünə bağlı xüsusi təyinatlı hərbi hissələr yaratmışdır. Təbii olaraq, Nersesin bu fəaliyyətləri çar Rusiyasının planları ilə üst-üstə düşməmişdi və 1828-ci ildə I Nikolayın əmri ilə o, sürgün edilmişdi. Katolikos Nersesin sürgünə göndərilməsi "Böyük Ermənistan" dövləti xəyalları ilə yaşayan ermənilərin ümidlərini söndürmüşdür [ 10, 30]. Cənubi Qafqaza ermənilərin köçürülmə siyasətinin 1-ci mərhələsi 1828-ci il 26 fevral-11 iyun tarixləri arasında həyata keçirilmişdir. Boş vədlərlə erməniləri inandıraraq öz yaşadıqları yerlərdən, xüsusilə Urmiya, Xoy, Salmas xanlıqlarından və kürdlərin çoxluq təşkil etdiyi Qərbi İran ərazisindən köçürülməsini təmin etməyə çalışan Lazaryev 30 mart 1828-ci ildə ermənilərə müraciətində deyirdi: "orada (Şimali Azərbaycanda) siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz. İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqısınız, özü də həmişəlik" [1,. 386].

Lazaryev, üç ay yarım ərzində ermənilərin köçürülməsi ilə bağlı hazırlamış olduğu statistik hesabatında göstərir ki, 8249 xristian – erməni ailəsi İrandan tarixi Azərbaycan torpaqları olan İrəvana, Naxçıvana və Qarabağa köçürülmüşdür, bu da ən azı 40 min nəfər deməkdir. O, köçürülmə işlərinə çar Rusiyasının xəzinəsindən 14000 manat qızıl, 400 manat gümüş pul xərcləndiyini öz hesabatında qeyd edir [ 3, ].

Türkmənçay müqaviləsinin imzalanması ilə Azərbaycanın şimal torpaqlarını tamamilə nəzarəti altına alan çar Rusiyasının növbəti hədəfində Osmanlı dövləti var idi. Təbii olaraq, Osmanlı dövləti də çar Rusiyasının Cənubi Qafqazda möhkəmlənməsindən narahat idi. Belə olduğu təqdirdə çar Rusiyası zaman itirmədən, yəni ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsinin 1-ci mərhələsinin başa çatmasından 3 gün sonra 1828-ci ilin iyunun 14-də Osmanlı dövlətinə qarşı hərbi əməliyyat-

lara başlamışdı. Çar Rusiyasının hərbi hissələri Balkan və Qafqaz cəbhələrindən irəliləyərək bir çox Osmanlı şəhərlərini işğal etdi. Ruslar Şərqi Anadoluda ermənilərin dəstəyi ilə Qars qalasını ələ keçirərək Ərzuruma qədər irəliləmişdi. Qeyd etmək lazımdır ki, müharibə başlamadan əvvəl ruslar ermənilərə xüsusi imtiyazlar və muxtariyyət vədləri verərək onlara köməklik göstərmələrini təklif etmişlər. Şərqi Anadoluda yaşayan ermənilər isə bu təklifi böyük bir sevinclə qəbul etmiş və rus hərbi hissələrinə köməklikləri sayəsində Qars, Axısxa, Bəyazid və Ərzurum qalaları işğal olunmuşdur [ 26, 12]. Müharibənin nəticəsində çar Rusiyası qalib çıxaraq öz iradələrinə uyğun 2 /14 sentyabr 1829-cu il Ədirnə müqaviləsinin imzalanmasına nail olmuşlar. Ədirnə müqaviləsinin maddələri dolayısı ilə Azərbaycan xalqının tarixindən də təsirsiz ötüşməmişdir. Belə ki, bəhs olunan müqavilənin 13-cü maddəsində yazılır: "İki dövlət müharibə sırasında, davranış və hərəkətləri ilə digər tərəfə qatılmış olan vətəndaşlarını tamamən əfv edir və bunlardan, istədikləri yerlərə köçmək istəyənlərə 18 ay müddət verir" [18,http://www.edirnetarihi.com]. Bu maddəni açıqlasaq görərik ki, maddənin müqavilədə öz əksini tapmasının bir neçə səbəbi var idi. Bunlardan birincisi, Qafqazda müsəlman dünyası ilə həmsərhəd olan yeni bir xristian dövlətinin yaradılması üçün demoqrafik vəziyyətin xristianların xeyrinə dəyişdirməsi siyasəti idi. İkincisi isə, 1827-ci ilin 1 oktyabr tarixində İrəvan xanlığının çar Rusiyasına ilhaqından sonra çar Rusiyası Üçkilsə (Eçmiədzin) katolikosluğu vasitəsilə nəinki Osmanlı torpaqlarında yaşayan ermənilərin eyni zamanda İngiltərənin təsiri altında olan İraqdan İrana, oradan da Hindistana qədər və nəticədə bütün dünya ermənilərinin üzərində təsirini artırması idi [ 6, 407].

Osmanlı torpaqlarında yaşayan ermənilərin Cənubi Qafqaza, xüsusilə Azərbaycan xalqının tarixi yurdları İrəvana, Naxçıvana və Qarabağa köçürülməsi siyasətinin 2-ci mərhələsinin başlanğıcını general Paskeviçin 10 oktyabr 1829-cu ildə çar I Nikolaya yazmış olduğu raportun tarixi ilə qəbul etmək olar. Paskeviç öz raportunda Ərzurum və Qarsda yaşayan 10 min ermənінin Gürcüstan və "erməni vilayəti"nə köçürdülərək yerləşdirilməsinə dair icazə istəyir. Çox keçmir ki, çar Rusiyasının hərbi naziri Çernişev Paskeviçə bildirir ki, imperator onun təklifini bəyənmişdir. Bundan xəbər tutan general Paskeviç dərhal fəaliyyətə başlayaraq ermənilərin köçürülməsi və köçürülən erməni ailələrinin məskunlaşdırılması işinə rəhbərlik etmək üçün xüsusi komitə yaratmışdır. Həmin komitənin fəaliyyətini tənzimləmək üçün 12 maddədən ibarət ümumi qaydalar müəyyənləşdirmişdir [1, 392]. Təbii olaraq qeyd etmək lazımdır ki, Osmanlı dövləti öz torpaqlarında dağınıq halda yaşayan ermənilərin toplanaraq sərhədlərinə bitişik ərazilərdə yığcam halda yerləşdirilməsindən narahat idi. Bununla əlaqədar olaraq Osmanlı Sultanı II Mahmud (1808-1839) ermənilərin köçürülməsinin qarşısını almaq üçün onların bütün xəyanətlərini bağışladı və 17 fevral 1830-cu ildə əfv fərmanı yayınladı [ 6,cilt. 13].

Ədirnə müqaviləsinin 13-cü maddəsində nəzərdə tutulan köçürmə siyasətinin başa çatdığı günə, yəni 3 aprel 1831-ci ilə qədər rəsmi mənbələrə görə 84000 erməni Osmanlı torpaqlarından köçürülərək İrəvan, Naxçıvan, Axılkələk və Axısxa bölgələrinə yerləşdirilmişlər [10, 29]. Müqavilənin digər şərtlərinə görə isə Osmanlı dövləti İrəvan və Naxçıvan xanlıqlarının Çar Rusiyasına ilhaqını rəsmən tanımışdır [ 9, 57].

Həm İran, həm də Osmanlı torpaqlarından ermənilərin Qərbi Azərbaycan torpaqlarına köçürülməsi prosesi zamanı general Paskeviçin göstərişi ilə alman mənşəli İvan İvanoviç Şopen tərəfindən 1829-1832-ci illər ərzində bölgənin kameral siyahıyaalınması tərtib olunmuşdur. Siyahıyaalmanın aparıldığı tarixlərin regionun çar Rusiyasına ilhaq olunması tarixi ilə eyni zamanda olması bizə belə qənaətə gəlməyə əsas verir ki, bölgədə azınlıq olaraq yaşayan xristian-ermənilərin sayının şişirdilməsi şübhəsizdir. Lakin Şopenin tərtib etdiyi statistik hesablamanı diqqətlə araşdırdıqda müəyyən olur ki, o, siyahıyaalma zamanı köçürülmə prosesindən əvvəl bölgədə dağınıq halda yaşayan ermənilərin sayı ilə bağlı təhriflərə yol versə də, nəticədə ermənilərin azınlıq olaraq regionda yaşadıqlarını təsdiq edir. Belə ki, Şopenin kameral siyahıyaalmasının nəticələrinə görə köçürülmə siyasətinin başlamasına qədər vilayətdə 81749 nəfər müsəlman-türk, 25151 nəfər isə erməni qeydə alınmışdır. Əlavə olaraq Şopen siyahıyaalmada ayrı-ayrı yaşayış məntəqələri üzrə İrandan 35.560 nəfər, Türkiyədən isə 21666 nəfər və ümumilikdə 10631 erməni ailəsinin Azərbaycanın qərb torpaqlarına yaşayış məntəqələri üzrə yerləşdirildiyini qeyd edir [ 1, 399].

Tarixi dövrü araşdırdıqda xüsusilə diqqət edilməsi vacib olan məsələ ondan ibarət olmalıdır ki, ermənilərin İrəvana, Naxçıvana və Qarabağa köçürülməsi zamanı bölgənin aborigen əhalisi olan Azərbaycan türkləri öz yurd-yuvalarını tərk etməyə məcbur edilmişlər. Qeyd etmək lazımdır ki, 1828-ci ildən əvvəl bölgə əhalisinin 20%-ə qədərinin ermənilərdən ibarət olduğu halda 1832-ci ildə 55,5%-yüksəlmişdir. Bunun müqabilində silahlı erməni çətələri tərəfindən həyata keçirilən amansız qətliam və təqib siyasətindən canlarını qurtarmağa çalışan Azərbaycan türkləri isə öz yurdlarını tərk edərək qonşu Osmanlı və İran dövlətlərinə sığınmışlar.

Təəssüflə qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi siyasəti müxtəlif dövrlərdə də mərhələ-mərhələ həyata keçirilmişdir. Belə ki, son iki əsrdə bəhs olunan coğrafiyada erməni çətələri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş (1905, 1918, 1948-1953, 1988-1994) etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan xalqı ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Bölgənin demoqrafik tərkibinin xristian-ermənilərinin xeyrinə zorla dəyişdirilməsi prosesi gah gizli və açıq təxribatlarla, gah da süni yaradılan milli qırğınlar və müharibələr vasitəsilə aparılmışdır. Belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları yurd-yuvalarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məntəqələri dağıdılmışdır [4,117]**.** Erməni çətələrinin vandalizm hərəkətləri ilə bağlı tarixi həqiqətlər istər keçmişdə, istərsə də günümüzdə bəzən ermənilərin özləri tərəfindən də etiraf edilməkdədir. Belə ki, Erməni bolşeviklərinin liderlərindən olan O.A.Arutyunyan öz xatirələrində 1905 hadisələri haqqında yazır: "1905-ci ilin əvvəllərində daşnakların silahlı əsgərləri mavzeristlər "Azərbaycanlıları öldürə bildiyin qədər öldür, yağmala" şüarları ilə yoxetmə kampaniyası başlatmışdılar. Daşnaklar erməni kəndlərinə dağılaraq qətliam çıxışları etdilər. Kəndliləri əllərində silah ermənilərin "qürurunu və həyatını" qorumağa çağırdılar, erməniləri azərbaycanlılara qarşı silahlandırmaya çalışdılar. Daşnak çətələri azərbaycanlıları yağmaladılar, silahsız insanları öldürdülər və kəndlərini yandırdılar. Daşnakların silah məsələsində heç bir sıxıntıları yox idi. Erməni din adamları Xoren və Suren tərəfindən göndərilən nümayəndə heyəti Çar Rusiyasının Qafqaz canişini Voronsov-Daşkovun xüsusi icazəsi ilə silahlandırılmışdı. Daşnak mavzeristlərinin humbapeti (komandiri) Sumbat azərbaycanlıları necə qəddarlıqla öldürdüyünü fəxrlə ermənilərə danışdığının şahidi oldum" [11, 47]. Digər bir erməni A.A.Lalayan isə 1918-1920-ci illərdə daşnak erməni çətələrinin xalqımıza qarşı həyata keçirdikləri kütləvi qırğınlardan bəhs edərək öz məqaləsində yazır: "Daşnaklar 1918-1920-ci illərdə azərbaycanlı əhalini yox etməyə çalışırdı. İki illik hakimiyyətləri dövründə daşnaklar Ermənistanda (tarixi Azərbaycan torpaqlarında Ş.M) yaşayan azərbaycanlıları öldürürdü, yağmalayırdı və kəndlərini, qəsəbələrini yandırırdı. 1920-ci ilin may ayında "müsəlmanlar bizim düşmənimizdir" şüarı ilə azərbaycanlıların məskunlaşdığı kəndləri bombaladı və silahsız xalqı qətl etdi" [12, 101]. Arxiv materiallarından da göründüyü kimi, ermənilərin özləri belə azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərinin miqyasının getdikcə genişləndiyini etiraf etmək məcburiyyətində qalmışlar. Danılmaz faktdır ki, 29 may 1918-ci ildə qədim Azərbaycan torpağı olan İrəvan şəhəri daxil omaqla 9,5 kv.km-lik ərazidə xarici güclərin dəstəyi ilə Ermənistan Respublikası yaradıldıqdan sonra "Türksüz Ermənistan" siyasəti daha geniş miqyas almışdır. Belə ki, 1918-1920-ci illərdə erməni çətələri tərəfindən xalqımıza qarşı gerçəkləşdirilən kütləvi qırğınlar nəticəsində 1916-cı ildə İrəvan quberniyasında 373582 azərbaycanlı yaşadığı halda, 1920-ci ilin sonlarında isə bu rəqəm 20 mindən aşağı olmuşdur [ 4, 117 ]. Həmin dövrdə indiki Ermənistan ərazisində yaşayan 575000 azərbaycanlı əhalinin 565000 nəfəri qətl edilmiş və ya didərgin salınmışdı [ 2, 85].

28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və bolşeviklərin qələbəsindən sonra Sovet Ermənistanının azərbaycanlılara qarşı deportasiya siyasəti "dostluq" və "beynəlmiləlçilik" pərdəsi altında davam etdirilmişdir. 1930-1937-ci illərdə müxtəlif bəhanələrlə, əslində isə milli və dini mənsubiyyətinə görə 50 minə yaxın azərbaycanlı indiki Ermənistanın sərhəd rayonlarından, ata yurdlarından Sibirə və Qazaxıstana sürgün edilmişlər [ 13, 127-138]. Xüsusilə qeyd etmək lazımdır ki, ermənilər bu cür etnik təmizləmə və bölgənin demoqrafik vəziyyətinin dəyişdirilməsi siyasətinə hüquqi çərçivə qazandırmağı da unutmurdular. Belə ki, Sovet Ermənistanı rəhbərliyi öz sələflərinin davamı olaraq totalitar rejimin "xalqlar dostluğu" şüarının pərdəsi altında anti-Azərbaycan siyasətini davam etdirməkdən əl çəkməmişlər. II Dünya müharibəsindən sonra yaranmış vəziy-

yətdən istifadə edən ermənilər A.İ Mikoyanın dəstəyi ilə SSRİ Nazirlər Sovetinin 10 mart 1948-ci ildə 754 saylı, "Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı qəbul etdirməyə nail olmuşlar. İ.V. Stalinin imzaladığı bu qərar azərbaycanlılar üçün gözlənilməz zərbə, açıq repressiya idi. Hər hansı bir səbəb göstərilmədən, tələsik verilən bu qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlı əhali Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün. Qərarla tanış olduqda məlum olur ki, "könüllülük" ifadəsi qərara məqsədli şəkildə salınıb və ermənilərin üstünlük təşkil etdiyi SSRİ Nazirlər Sovetinin vermiş olduğu etnik təmizləmə haqqında siyasi qərardır. Qərarın əsl məqsədi isə tarixi Azərbaycan torpaqlarının, indiki Ermənistan ərazisinin Azərbaycan türklərindən təmizləmək və erməni əhalinin üstünlüyünü təmin etmək idi. Qərara görə 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər, 1950-ci ildə isə 50 min nəfər azərbaycanlının köçürülməsi nəzərdə tutulurdu. Qəbul olunan qərarın 11-ci maddəsində aydın yazılır ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər. İstər tariximizin yaxın keçmişinə aid olan bu hadisələrin canlı şahidlərindən, istərsə də arxiv sənədlərindən əldə etdiyimiz məlumatlardan məlum olur ki, 1948-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-yə 34382 nəfər köçürülmüşdür. Ümumilikdə isə 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 min nəfərdən çox azərbaycanlı tarixi torpaqlarımızdan zorla deportasiya edilmişdir. İ.V. Stalinin ölümündən sonra köçürmə siyasəti dayandırılmışdır. Qeyd etmək lazımdır ki, 1948-1953-cü illərdə tarixi yurdlarından Kür-Araz ovalığına zorla köçürülməyə məruz qalan on minlərlə azərbaycanlının taleyi acınacaqlı olmuşdur. Belə ki, köçürülənlərin 1/3-i iqlim şəraitinə uyğunlaşa bilmədiyindən və eyni zamanda adi məişət şəraiti olmadığından aclıq və xəstəliklərdən həlak olmuşdurlar.

Azərbaycanlıların öz doğma torpaqlarından zorla köçürülməsi xaricdən gələn ermənilərin o torpaqlarda yerləşdirilməsi məqsədi daşımamış, əksinə daşnakların əzəli arzuları olan tək millətli Ermənistan dövləti yaratmaq siyasətinin nəticəsi olmuşdur. Lakin tam olaraq 1948-1953-cü illərdə buna nail ola bilmədilər. 50-ci illərin əvvəllərində öz məkrli niyyətlərinə nail ola bilməyən ermənilər yenə həmin illərin axırlarında çirkin niyyətli maşınlarını yenə işə saldılar. Bu mərhələnin xarakterik cəhəti ondan ibarətdir ki, üzdə "beynəlmiləlçilik" və "xalqlar dostluğu" şüarını irəli sürərək azərbaycanlıların Ermənistanda yaşayış və inkişaf imkanları əl altından məhdudlaşdırılırdı.

İntellektual qüvvələrə, ziyalılara qarşı törədilən mənəvi terror özünü birinci növbədə respublikada o dövrə qədər mövcud olan ali məktəblərin, texnikumların, mətbu orqanların kütləvi surətdə ləğv edilməsində açıq göstərdi. 30-cu illərdə X. Abovyan adına Yerevan Pedaqoji İnstitutunun dörd fakültəsində (Azərbaycan dili və ədəbiyyatı, tarix, coğrafiya, fizika və riyaziyyat) ibarət azərbaycanlı bölməsinin əyani və qiyabi şöbələri bağlandı. Onun yerində yalnız 1955-ci ildə 25 nəfərdən ibarət bir azərbaycanlı qrupu təşkil edildi. Ermənistanda müəllim kadrların hazırlanmasında mühüm rol oynayan, 1925-ci ildən təşkil edilmiş Yerevan Azərbaycan Pedaqoji Texnikumu buna böyük ehtiyac olduğu halda ləğv edilib Azərbaycan SSR-nin Xanlar rayonuna köçürüldü.

Mənəvi terrorun konkret nəticələri bunlar olmuşdur: hər il Ermənistanda Azərbaycan dilində olan məktəblərin orta hesabla buraxdığı 500 məzun öz təhsillərini davam etdirmək üçün respublikada imkan olmadığından başqa respublikalara, xüsusilə Azərbaycanın ali məktəblərinə getmişlər. Sonrakı nəticəsi ondan ibarət olmuşdur ki, başqa ali məktəblərdə təhsil alan gənc mütəxəssislər öz doğma yerlərində işlə təmin edilmədiklərinə görə, yenidən Azərbaycana qayıtmalı və yaxud ümumiyyətlə Azərbaycanda qalmağa məcbur olmuşlar. Beləliklə, Qərbi Azərbaycandan (indiki Ermənistandan) Azərbaycanın müxtəlif yerlərinə azərbaycanlıların yeni axını, köçü başlamışdır.

60-cı illərdə xalqımız yenidən tarixin sınağına çəkilmişdir. Erməni daşnaklarının dənizdən-dənizə "Böyük Ermənistan" niyyəti sönmək bilmirdi. Lakin bu zaman tanrı Azərbaycan xalqına yardımçı oldu. Daima mübarizələr alovundan alnıaçıq, üzüağ çıxan, o zamankı erməni əsilli rəhbərlərə qarşı ağlı, siyasi çevikliyi və intellekti ilə mübarizə apara biləcək böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan SSR-nin rəhbərliyinə keçməsi erməni çətələrinin Azərbaycan xalqına qarşı həyata keçirmək üçün hazırladıqları planları alt-üst etdi. Heydər Əliyev zəkası ermənilərin təxribat xarakterli planlarını ifşa

etdi. 60-cı illərdə gizli fəaliyyət göstərən ermənilərin "Qarabağ hərəkatı"nın iç üzü açıldı. O, zaman SSRİ Prokurorluğunun Baş İstintaq İdarəsi rəisinin birinci müavini V.İ.İlyuxin müsahibəsində Qarabağ hərəkatının tarixi haqqında olduqca dəqiq məlumat vermişdir: "Biz Qarabağ hərəkatının istintaqı ilə çox dərindən məşğul olmuşuq. Bu məlum hərəkatın fəaliyyəti çoxlarının başa düşdüyü kimi heç də günahsız deyildir". Heydər Əliyevin uzaqgörənliyi nəticəsində xalqımız üçün hər zaman təhlükəli olan belə bir qurum ifşa olunaraq Sovet başbilənlərini "dostluq", "beynəlmiləlçilik" pərdəsi altında Azərbaycan xalqına qarşı həyata keçirdikləri çirkin niyyətlərdən çəkinməyə çağırmışdır. Təbii ki, bu da rəhbərlikdə təmsil olunan ermənipərəst Qorbaçov və ona dəstək verənlər tərəfindən müsbət qarşılana bilməzdi. 1985-ci ildə xarici ölkələrdə fəaliyyət göstərən erməni lobbi təşkilatlarının köməkliyi ilə SSRİ rəhbərliyinə gələn Qorbaçov "yenidənqurma" pərdəsi altında İttifaq daxilində etnik problemlər yaratmaq məqsədi ilə onun maraqlarına cavab verməyən insanları sıxışdırırdı. Təbii ki, proseslərin içərisində olan Azərbaycan övladı Heydər Əliyev rəhbərlikdə təmsil olunan ermənilərin təsiri altına düşən Qorbaçovun Qarabağda azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasətini qəbul etməyərək ona qarşı mübarizəyə qalxmış və buna görə də güclü təzyiqlərə məruz qalmışdır. Məhz buna görə 1988-ci ildə Heydər Əliyev bir neçə dəfə ölüm təhlükəsi qarşısında qalaraq tutduğu vəzifələrindən kənarlaşdırıldı və həmin ilin fevral ayından ermənilərin xroniki torpaq "xəstəliyi" yenidən baş qaldırdı. Fürsətdən istifadə edən DQMV-nin erməni deputatları Qorbaçovun "xeyir-duası" ilə növbədənkənar çağırılmış sessiyada Qarabağın Ermənistan SSR-yə birləşdirilməsinə dair bədnam qərar verdilər.

Hələ 1987-ci ilin noyabrında erməni akademiki Aqambekiyan Parisdə olarkən Fransanın "Humanite" qəzetinə verdiyi müsahibədə Dağlıq Qarabağın Ermənistana verilməsi barədə Qorbaçova bir məruzə təqdim etdiyini bildirmişdir. Onun bu müsahibəsindən məlum olmuşdur ki, SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsindən artıq xəbəri var idi. Aqambekiyan bilərəkdən bu sirri açıqlamaqla erməni diasporunu növbəti addım atmağa hazır olmalarını xəbərdar etmiş və eyni zamanda rəsmi Azərbaycanın da bu məsələyə münasibətini öyrənmək istəmişdir. Hadisələrin sonrakı gedişi təsdiq edir ki, Ermənistan tarixi torpaqlarımızın işğalı üçün himayədarlarının köməyi ilə hər bir şəraitə uyğun fəaliyyət planı hazırlamışdı. Hazırlanan fəaliyyət planının bir parçası olaraq qeyd etmək lazımdır ki, SSRİ və Ermənistan SSR rəhbərliyi öz yurd-yuvalarından didərgin salınan azərbaycanlıların başına gətirilən insanlığa sığmayan vəhşiliklər hər vəchlə dünya ictimaiyyətindən gizlədilirdi. Törədilən vəhşiliklərə və ədalətsizliklərə dözə bilməyən Azərbaycan xalqı qətiyyətsiz respublika rəhbərliyinin və Moskva havadarlarının köməyi ilə öz qeyri-insani niyyətlərini həyata keçirmək istəyən erməni millətçilərinə qarşı mübarizə aparırdı. Haqq-ədalət axtaran xalq haqlı olaraq tələb edirdi ki, Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyi təmin edilsin, onlara muxtariyyət verilsin, əgər bu həyata keçməsə DQMV-ləğv edilsin. Bundan qorxuya düşən ermənilər 1988-ci ilin noyabrında azərbaycanlı əhalini sovet rəhbərlərinin gözü qarşısında Ermənistan hüquq-mühafizə orqanlarının, rayon rəhbərlərinin fəal iştirakı və köməyi ilə öz dədə-baba yurdlarından zorla qovdular, yüzlərlə yurddaşımız amansızlıqla qətlə yetirildilər. Dekabrın 1-də isə demək olar ki, bütün azərbaycanlılar min illər boyu yaşadıqları torpaqlardan, indiki Ermənistandan çıxarıldılar [19, http://www.karabakh.org ].

Bu dövrdə baş verən hadisələrdən istifadə edən ermənilər müxtəlif üsullarla surətlə silahlanmaya doğru gedirdi. Lakin dövrün ermənipərəst və səriştəsiz rəhbərləri isə şəxsi maraqları naminə öz doğma yurdlarının müdafiəsinə qalxan azərbaycanlılara yalan vədlər verməklə məşğul olurdular. Məhz səriştəsiz siyasətin nəticəsi idi ki, erməni çətələri 1992-ci il 26 fevral tarixində Xocalı soyqırımını törətdilər, 20 % torpaqlarımızı işğal etdilər, yüz minlərlə azərbaycanlını yurd-yuvalarından didərgin saldılar, minlərlə qadını, qocanı, uşağı amansız qətlə yetirdilər. Nəticədə 1 milyondan artıq azərbaycanlı öz yurd-yuvalarını məcburi tərk edərək XX əsrdə dünyanın gözləri önündə qaçqına çevrildilər. Bu gün olduğu kimi, 20 il əvvəl də dünyada insan hüquq və azadlıqlarından danışan dövlətlər və beynəlxalq təşkilatlar isə heç bir təsir qüvvəsinə malik olmayan bəyanatların xaricində real addımlar atmadılar.

Son olaraq yuxarıda qeyd olunanları ümumiləşdirib demək istərdim ki, tarix boyu yalnız etnik mənsubiyyətinə görə kütləvi qırğın və təqiblərə məruz qalan Azərbaycan xalqı digər xalqların arasında assimilyasiyaya məruz qalmamış və bu günə qədər öz dilini, dinini, mədəniyyətini və milli mənsu-

biyyətini itirməmişdir. Tarixin ağır sınaqlarından alnıaçıq çıxmağı bacaran Azərbaycan xalqı özünə əmindir ki, Ali baş komandan cənab İlham Əliyevin rəhbərliyi ilə gec-tez ermənilər tərəfindən işğal olunmuş tarixi torpaqlarımızı işğaldan azad edəcək və tarixi ədalətsizliyə son qoyacaqdır.

### MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. AMEA "İrəvan xanlığı" s. 399
2. Korkodyan Z. Sovet Ermənistanı əhalisi 1831-1931 s. 85. Bakı, 1985.
3. Mahmudov Y , Mustafa N. Tarixi adlara qarşı soyqırım" Bakı, 2006.
4. Mustafayev Ş. XX əsrdə ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti "Diplomatiya aləmi jurnalı No7, 2004, s. 117

**Türk dilində:**

5. Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi 1906-1908, s. 12
6. Beydilli K. "1828-1829 Osmanlı Rus savaşında Doğu Anadoludan Rusiyaya göçürülen ermeniler" cilt 13
7. G. A. Bournoutian G.A. "Ermeni tarihi" s. 193
8. Halil Ersin Avcı, "erməni məsələsinə objektif bakış" s. 92
9. A. N. Kurat A.N. Türkiyə və Rusiya s. 57
10. Toksoy N. Revanda son günlər s. 29

**Rus dilində:**

1. O. Arutyunyan O. Vospominaniya, s.47
2. Lalayan A.A. "Контрреволюционная Роль Партии Дашнакцутюн, Исторические
11. Записки, No 2, с. 101, 1928"
12. Преступления Армяниских террористических и бандитических формирований против человечество (XIX-XIX vv). Bakı 2002. s. 127-138
13. Raffi, "Samvel" s. 15-16
14. Şavrov N. "Novaya Uqroza Russkomu Delu u Zakavkazye:Predstavşaya Rasporyadka Mugani İnarodtsam, s. 63"

**İnternet resursları:**

1. http://garabagh.net
2. http://son.altayli.net
3. http://www.edirnetarihi.com
4. http://www.karabakh.org


### THE POLICY OF RESETTLEMENT OF ARMENIANS ON THE HISTORICAL LANDS OF AZERBAIJAN - THE TERRITORY OF THE IRAVAN KHANATE IN THE XIX-XX CENTURIES AND ITS CONSEQUENCES
### SUMMARY


The article deals with the policy of Armenians's resettlement to the historical lands of Azerbaijan - the territory of the Iravan Khanate in the XIX-XX centuries, as well as its consequences. After conquering the territory of Northern Azerbaijan, tsarist Russia embarked on the implementation of resettlement policy, in particular, the resettlement of Armenians from the Ottoman Empire and the Gajar State to historical Azerbaijani lands. The article analyzes on the basis of sources the consequences of this process, including the creation of an Armenian state in the primordial Azerbaijani territory, mass destruction and ethnic cleansing against Azerbaijanis.


### ПОЛИТИКА ПЕРЕСЕЛЕНИЯ АРМЯН НА ИСТОРИЧЕСКИЕ ЗЕМЛИ АЗЕРБАЙДЖАНА – ТЕРРИТОРИЮ ИРЕВАНСКОГО ХАНСТВА – В XIX-XX ВЕКАХ И ЕЕ ПОСЛЕДСТВИЯ
### РЕЗЮМЕ


В статье рассказывается о политике переселения армян на исторические земли Азербайджана – территорию Иреванского ханства – в XIX-XX веках, а также ее последствиях. После завоевания территории Северного Азербайджана царская Россия приступила к осуществлению переселенческой политики, в частности переселению армян из Османской империи и Гаджарского государства на исторические азербайджанские земли. В статье на основе источников анализируются последствия данного процесса, включая создание армянского государства на исконной азербайджанской территории, акции массового уничтожения и этнические чистки против азербайджанцев.

**Zöhrə FƏRƏCOVA**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı*

# 1905-1906-cı İLLƏRDƏ AZƏRBAYCAN XALQINA QARŞI KÜTLƏVİ QIRĞINLAR ("İRŞAD" QƏZETİNİN MATERİALLARI ƏSASINDA)

**Açar sözlər:** soyqırım, Daşnaksütyun, çarizm, türk, mətbuat
**Keywords:** genocide, Dashnaktsyutyun, tsarism, Turk, press
**Ключевые слова:** геноцид, дашнакцутюн, турецкий, царизм, пресса

1905-ci ildə Rusiyada və onun istila etdiyi ölkələrdə baş verən gərgin siyasi hadisələr xalqımız üçün xüsusilə ağır oldu. Türk-müsəlman əhalisinin oyanışından, öz haqq və hüquqlarını tələb edəcəyindən ehtiyat edən çarizm Zaqafqaziyada hakimiyyətini qorumaq üçün milli münaqişəni alovlandırdı. Fürsətdən istifadə edən erməni millətçiləri, quldur Daşnaksütun partiyasının üzvləri məkrli planlarını qəddarlıqla həyata keçirməyə başladılar. Onlar qarşılarına çıxan türk, müsəlman olan hər kəsi – qocaları, cavanları, uşaqları, qadınları amansızlıqla qətlə yetirir, obalarını talan edir, evlərinə od vururdular. Sağ qalanlar doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalırdılar.

Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri, ictimai-siyasi xadim, publisist Əhməd bəy Ağaoğlunun böyük zəhmətinin və ümidlərinin bəhrəsi olan "İrşad" qəzeti məhz belə vaxtlarda mətbuat meydanında göründü. 1905-ci ilin 17 dekabrında nəşrə başlayan qəzet ilk saylarından doğma millət üçün əhəmiyyətli məsələləri daimi mövzularına çevirdi.

Erməni-türk münaqişəsi haqqında yazılara "İrşad"ın səhifələrində geniş yer verən irşadçılar bu məsələyə böyük həssaslıqla yanaşırdılar. Onlar hadisələrin səbəblərini və səbəbkarlarını o günlərin oxucularına tanıdarkən həm də tarix yazdıqlarını yaddan çıxarmırdılar. "İrşad"ın baş redaktoru Əhməd bəy Ağaoğlunun, Üzeyir Hacıbəylinin, Məhəmməd Əmin Rəsulzadənin, Nəriman Nərimanovun, Abdulla Surun, Ömər Faiq Nemanzadənin, Firudin bəy Köçərlinin və başqalarının bu qəzetdə dərc olunmuş yazılarında 1905-ci ilin martından başlayan, həmin ilin sonuna qədər artıq ağır faciələri göz önündə olan və səngimək bilməyən erməni-türk münaqişəsi barədə həqiqətlərə yer verməklə bərabər, problemdən çıxış yollarını da göstərməyə çalışırdılar.

XX əsrin əvvəllərində ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdikləri soyqırımda çarizmin müstəsna "xidmətləri" olduğunu da irşadçılar real faktlarla diqqətə çatdırırdılar. Hökumətdən hər cür yardım alan erməni qaniçənləri, Daşnaksütun partiyasının üzvləri heç nədən çəkinmirdilər. Ü.Hacıbəyli yazırdı: "Biz hökumətin ermənilər ilə bir yerdə müsəlmanları qırdığını görüb də belə güman ediyoruz ki, ermənilər hökuməti aldadıblar. Halbuki, ermənilərə aldanan biz özümüzük. Hökumət isə öz politikasını işlədir. Fəqət bizim yuxarıda zikr edilən gümanımıza səbəb əvvəla ermənilərin hiyləkarlıqlarının bizə yəqinliyi və saniyən hökumətin açıq-açıqdan tərəfdarlığıdır.

Çünki bizim xəyalımıza gəlmiyibdir ki, hökumət bizə xəyanət edə bilər... Sadədil müsəlmanlar!... İştə məlum olur ki, hökumət biz müsəlmanların sədaqətinə qarşı hər gunə xəyanət etməkdə heç bir şeydən çəkinmiyor. Buna dəlil odur ki, Şuşada olan zülm xüsusunda bizi danışmağa qoymuyorlar, dilimizi bağlıyorlar. Buna dəlil odur ki, Qafqazın bir guşəsi olan Qarabağın yepiskopu Aşot nam keşişin sözü ilə Qoloşçapovu Şuşaya göndərib də bütün Qafqazın Şeyxülislamının iltimasına qulaq verməyib, o zalımı geri çağırmıyorlar və müsəlman tərəfindən olan etiraz və protestləri biəncam qoyurlar... Dəlil çoxdur..." [11].

Ü.Hacıbəylinin "Şuşa qırğınına dair" adlı həmin məqaləsində təsvir edilən o dövr Qarabağının tarixi mənzərəsi olduqca acınacaqlıdır: "Görünür ki, Qarabağın müsəlmanları qətliama məhkum olubdurlar. Onları öldürürlər, yandırırlar, qarət edirlər. Bir dəm nəfəs almağa aman vermirlər.

Bu qətliamı icra etməyə göndərilmiş general Qoloşçapov vəzifeyi-zülmkaranəsini ifa etməkdə heç bir qüsur göstərmiyor. "Mədəniyyətli" ermənilər öz fikri-səqimlərini əmələ gətirməkdən ötrü yaxşı fürsət tapıbdırlar. Onlar iş görürlər. Gah provakatoru əldə alət ediyorlar, gah özləri provakatorun əlində alət olurlar və əksəriyyən provakator ilə bir yerdə iş görürlər" [11].

1906-cı ilin yanvarında artıq on bir aydır davam edən erməni-türk münaqişəsindən yazdığı "Kənddə müsibət" adlı məqaləsində M.Ə.Rəsulzadə çarizmin 1905-ci ilin Oktyabr manifestinin

ümidləri doğrultmadığını diqqətə çatdırırdı: "Oktyabrın 17-sindən sonra bu qırğınların təkrarına hərgiz inanmıyordunuz. Lakin Gəncə və Tiflis hadiseyi-ələməngizləri bizim fikrimizə müğayir olaraq müsibətlər üstünə təzədən ğəm və ələm artırdılar. Xarabaların, füqəraların ədədi dəxi artdı" [7].

Ü.Hacıbəyli haqlı olaraq yazırdı ki, erməni-türk münaqişəsi, onun dəhşətli nəticələri ümumilikdə Qafqaz regionu üçün böyük bəlaya çevrilmişdir: "Ağır bir daş olub Qafqazın başına düşmüş bu erməni-müsəlman qırğını böylə davam edəcəkdirsə, görünür ki, gözəl vətənimiz ölüm, itim, qan ocağı olub balaxir inqirazə üz qoyacaqdır. Qafqazda bu iğtişaş heç bir kəsi gərək şad etməsin. Bunun nəticələri bilaistisna hamıdan ötrü təhlükəlidir. Bu qanlı vuruşmaların son həlakətli günləri hamının diriligini zəhərliyəcəkdir. Bunu hər kəs özünə gərək yəqin etsin və yəqin edib də görsün ki, bütün Qafqaz əhlinin bu erməni-müsəlman qırğınına qarşı ümumiyyət etibarı ilə göstərdigi qeydsizlik nə fəlakətli nəticələrə səbəb oldu və olacaqdır" [12].

1906-cı ilin fevralında Tiflisdə erməni-müsəlman sülh məclisi toplandı. "İrşad" qəzetində dərc olunmuş yazılardan oxuyuruq ki, bundan sonra da qırğınlara son qoyulmadı, ermənilər yeni faciələr törətdilər. Həmin ilin mayında M.Ə.Rəsulzadə böyük təəssüflə bildirirdi: "Vətəni-məlufumuzu qara günlərə qoyan, ataları oğulsuz, balaları anasız, qardaşları bacısız, bacıları qardaşsız, arvadları dul, biçarə ailələri pərəsdarsız, abadanlıqları xarab qoyan, gözəl, münbit çöllərimizi xərabazara döndərən müfəttinlər ətraf və əknafda vüqu bulan hadisati-ittifaqiyyələrdən istifadə edib, yeni sakit, rahat olmuş vətənimizi dübarə bəlayi-əzimə giriftar etmək istəyirlər. ...Vaxtdır ki, Rusiyanın indiki, övzaini bilib, müttəfiqən, müttəhidən, cümlə millətləri bir əndazədə, bir mizanda, təhti-zülm və təzyiqdə saxlayan, kökü çürümüş istibdad hökumətinin əleyhinə durub, naili-məram olaq" [8].

"Sevindilərmi?" adlı məqaləsində Ü.Hacıbəyli bildirirdi: "O vaxt ki, bədbəxtlik üz verib Tiflis erməni-müsəlman "sülh və səlah" komisyonu məclisi açıldı və o vəqtlə öz tərəfgirlik və qərəzlərini bir yandan və cəbunluqlarını digər tərəfdən apaçıq bildirmək üçün Aşot kibi bir keşişin səlah dililə general Qoloşçapovu Qarabağa təyin etdilər - Qarabağın bütün müsəlmanları əndişəyə düşüb böylə bir möhlik binagüzarlığa qarşı hamısı bir adam kimi etiraz və protest etdilər" [13]. Müəllif Qarabağ müsəlmanlarının nümayəndələrini toplayıb Tiflisə yüyürdüklərini, canişin hüzuruna ərizələr göndərdiklərini, yalvarıb-yaxardıqlarını, lakin yarım milyona qədər əhlinin dad və fəryadına qulaq asan tapılmadığını yada salırdı. Nəticənin gözlənildiyi kimi, acınacaqlı olduğunu millətçilik gözlərini kor və qulaqlarını kar etmiş keşiş Aşot istəyinə çatdı. Qoloşçapov top və tüfəng ilə Qarabağa yollandı və oradakı müsəlmanların, onsuz da qara günlərini bir az da zülmətə qərq etməyə çalışdı. Ü.Hacıbəyli yazırdı: "Şuşadan çəkilmiş teleqramlar şəhərin müdhiş və təhlükəli halını bildirirlər agentstvonun müsəlman ziddinə yazan və müsəlman başına gələn zülmləri həmişə gizlətməgə çalışan Tiflis agenti dəxi insaf məqamına gəlməyə bilmiyib yazıyor ki, şəhərin müsəlman hissəsi topa tutulubdur. Xüsusi müxbirimiz Ağdamdan yazıyor ki, şəhərdən əvvəlcə on iki və sonra da igirmi top səsi eşidildi. Şəhər dörd tərəfdən yanmaqdadır!..." [13].

Görkəmli publisist erməni-müsəlman komissiyasının millətimiz üçün faydasız olduğunu diqqətə çatdırırdı: "O "vəkillər" bizə nə yaxşılıq etdilər, hansı ehtiyacatımıza çarə tapdılar, hansı dərdimizə dərman aradılar? General Livinski öz kazak "banda"silə erməni vəkillərinin əlilə bütün Qazax uyezdini çalıb-çapıb kor qoydular. Kişilərini qırıb, arvadlarına əl uzatdılar. İrəvan uyezdində müsəlmanlara olan çövri-cəfanın intəhası yox idi. Qonşuların həyasızlığı o yanda dursun, məmurlar dilsiz, bombasız müsəlmanları ayaq altına salıb insaf və ədaləti qoymuşdular palas altına. Gəncə uyezdində ikiüzlü məmurların rəftarı əhalini cana gətirmişdi. Qarabağda Xankəndi pristavı, Zəngəzur uçastoklarının qulluqçuları erməni provakatorların əli ilə müsəlmanın başına minlərcə pislik gətirirdilər. "Vəkillərimiz" isə bunun hamısını bilə-bilə, görə-görə, eşidə-eşidə kar və kor qalıb erməni vəkil ağalarının əmrinə müntəzir idilər ki, görək onlar nə buyuracaqlar, biz də bəli-bəli deyək! Əcəba, bu bizdən ötrü ağır bir rişxənd, bir istehza degilmi ki, öz müsəlman "vəkil"lərimizin rizalığı ilə bizə hər bir nagüvarlığı rəva görürlər?". Müəllif bir il qabaq, 1905-ci ilin may ayının 2-də İrəvanda bulvarda gəzən müsəlmanları atəşə tutub dörd-beşini öldürüldüyünü xatırladırdı. Həmin vaxt da "Sülh və islah" komisyonu bu cinayətə qarşı bir tədbir gördümü? Bəli, gördü: müsəlmanlara xəbər veriniz ki, sülh və müsalimət ilə dolansınlar!" [14].

Ümumiyyətlə, XX əsrin əvvəllərində erməni terrorunun Azərbaycanın əksər ərazilərini əhatə etdiyini "İrşad"ın səhifələrində yer alan yazılar da təsdiq edir. Şuşanın faciəli günlərini Ü.Hacıbəyli

belə təsvir edirdi: "Qarabağda, Şuşa şəhərində "sülh" olubdur. Hər kəs öz "işinə" məşğuldur. Məsələ: hakimin "işi" odur kimə hökm edib camaəti qırdırsın. Şuşa hakimi haman bu "işə" məşğuldur. Qoşunun "işi" odur ki, top və tüfəng atıb evləri darbadağın etsin. Şuşa qoşunu haman bu "işə" məşğuldur. Şəhər kişilərinin "işi" odur ki, evi-eşigi darbadağın olanda, qovm-qardaşı qırılanda əlini qoynuna qoyub naəlaclıqdan məzlum-məzlum durub baxsınlar. Şuşa şəhərinin kişiləri haman bu "işə" məşğuldurlar. Şəhərin arvadlarının "işi" odur ki, əri, qardaşı, oğlu öldürüləndə başını açıb, saçını yolub, şaxsey təpib ağız desinlər. Şuşa şəhərinin arvadları haman bu "işə" məşğuldurlar" [15].

Həmin günlərdə İrəvanda da vəziyyətin olduqca gərgin olduğunu öyrənirik: "İrəvanda dəxi "sülh və məsalət" bərqərardır, belə ki, hərçəndi müsəlmanlardan hər gün, günün günorta çağı bir-ikisini durduğu yerdə öldürürlərsə də, yenə də arada ədavət və düşmənçilik yoxdur. Buna da səbəb İrəvanın "sülh və saziş" komisyonu olubdur. Belə ki, bu komisyon bir gün keyfinin duru vaxtında söhbət üçün yığışıb deyibdir ki, gəliniz "barış oyunu" çıxaraq. Müsəlman camaəti bu "oyun"a uşaq kimi sevinib haman da bir "barışıq oyunu" çıxardıbdırlar və bir qədər zarafat və lətifə sözlərdən sonra dağılıb bunu qərar qoyubdurlar ki, əgər o tərəfin adamı bu tərəfin adamından birisini öldürsə, heç işiniz yoxdur. Qatili tapıb tənbihə etmək lazım degil, qoyun özü bilsin! Ona görə "barış oyunu"nun sabahı günü ermənilər də "atəşbazlıq oyunu" çıxardıb, bu "oyun"a bir qədər rəng vermək üçün o saət bir-iki müsəlmanı da vurub öldürdülər ki, hamının xoşuna gəlsin və hamı da oyundan razı qalsın... Əlbəttə, hamı razı qalıb "oyunbaz"lara afərin oxuyubdurlar... [15].

Azərbaycanın daha bir bölgəsində - Gəncədə baş verən hadisələri isə Ə.Ağaoğlu belə qələmə almışdır: "Biçarə Gəncə! Bu keçən ildə vaqe olan erməni-müsəlman iğtişaşı şəhər əhalisində əsla halət qoymayıb!" [1].

"Kömək məqamidir, qardaşlar!!" başlıqlı yazısında Ə.Ağaoğlu Qarabağ müsəlmanlarına zülm edildiyini bildirərək yazırdı: "Lakin ən böyük müsibət, ən yuzun yandırıcı cəfa və zülm Zəngəzur uyezdinin camaətinə oldu.

...Zəngəzur uyezdi dağıstan olduğundan dağlar arasında vaqe müsəlman kəndləri hər tərəfdən ermənilər ilə əhatə olunan şuriş əsnasında daşnaksütyunların və kazakların güllə və toplarından nə kömək gələcək yerləri oldu və nə qaçacaq bir məkanları" [2**]**. Zəngəzurda kəndlərin yerləyeksan olduğunu, bacaranların ailəsini götürüb İrəvan quberniyasına qaçdığını, bacarmayanların - qadın, uşaq, qoca, cavan - hər kəsin xəncərdən keçirildiyini, güllə qurbanı olduğunu qeyd edən Ə.Ağaoğlu qaçıb canlarını qurtaranların ölənlərə həsrət çəkdiklərini yazırdı. Çünki onlar birdəfəlik xilas olmuşdular, qalanlar isə hər dəqiqə, hər saniyə ölürdülər.Yurdlarını, evlərini, qohumlarının çoxunu itirən bu biçarələrin "daha ziraət etməgə də çarələri yoxdur" deyə bildirən Ə.Ağaoğlu haray çəkirdi: "...İştə bu gün, qardaşlar, kömək vəqtidir!! Və ən əvvəlinci kömək gərək Zəngəzur əhalisinə olsun" [2**]**. Ə.Ağaoğlu soydaşlarını bir-birinin dərdinə yanan, yardım göstərən ermənilərdən nümunə götürməyə səsləyirdi.

İrşadda "Nəql yazan" imzası ilə verilmiş "Nəql" adlı felyetonda da ermənilərin yerli əhalinin başına gətirdikləri bəlalardan bəhs olunur. Müəllif yazır ki, iki ilin ərzində lazımınca əkib-biçə bilməyən iki tayfaya da aclıq düşür, hər ikisi acından tələf olmamaq üçün qeyri vilayətlərdə yaşayan qohum-əqrabalarından yardım istəyirlər. Erməni tayfasının qohumları çox, həm də müftə göndərirlər. Amma müsəlmanların qohumları müxtəlif bəhanələrlə öz darda qalan qardaşlarına yardım göstərməkdən imtina edirlər. Camaatın seçdiyi başçılar naxələf çıxırlar. Məlum olur ki, "qara gün" üçün yığılıb onlara verilmiş pulları mənimsəyiblər. Başçılardan biri deyir ki, o puldan bir az özünə xərcləyib yanan evinin əvəzinə yenisini tikdirib, yerdə qalanı isə ev rütubət olduğundan çürüyüb, külə dönüb. Camaat bilir ki, Zəngəzurda yığılan pullar da çürüyüb. Çünki ora da çöl yeridir, rütubət ola bilər. Üzlərini Qəbələ şəhərinə tuturlar ki, oraya cəm olan pulları, ya da həmin pullara un alıb göndərsinlər. Oradan da heç bir cavab çıxmır. Amma onu da bilirlər ki, oradakı pul çürüməyib. Necə ola bilər ki, ali imarətlərdə saxlanan pul çürüsün. Bu əhvalatları eşidən türk-müsəlman qadın ümidini hər yerdən kəsir, əvvəl uşaqlarını, sonra da özünü çaya atıb, boğub öldürür [9].

1905-1906-cı illərdə ermənilərin həyata keçirdikləri kütləvi qırğından sağ çıxan türk-müsəlman əhalisinin aclıqdan, yoxsulluqdan məhv olması "İrşad"da dərc olunan bir sıra poeziya nümunələrində də əksini tapmışdır. Onların bir çoxunda özlərini millətin başbilənləri kimi göstərənlərin millətin bu ağır günlərində ortalıqda görünməmələrindən şikayətlənilir. Şair Hüseyn Tahirzadə Sisyani kədərlə yazırdı:

*Başsız füqəra hər biri bir yanda şəramman*
*Yox mənzili-mavası, tamam hali-pərişan.*
*Aclıq ğəminə tab eyləsin, neyləsin əlan*
*Yox sanır edə əgninə, ya üstünə yorğan*
*Əlan buraxıbdır bizi bu dövlət, a Molla,*
*Millət balası çox çəkəcək zillət, a Molla*

*...Pərvanə-sifət şəmimə yanıb bir alışan yox,*
*Bu Zəngəzurun halını heç bir danışan yox,*
*Bəy-xanlarımız itkin olub, bircə nişan yox,*
*Dövlətlilərin sağlığına çünki güman yox.*
*Lənət belə əsrə, belə dünyaya, a Molla*
*Adət eləyib qəndiylə həm çaya, a Molla [5].*

Milli birliyin olmamasının düşmənə məkrli planlarını asanlıqla həyata keçirməyə imkan verdiyini şair İbrahim Tahir Musayev də kədərlə bildirirdi:

*Bilməm bu nə ğəflətdi müsəlman arasında*
*Dindaşları qalmış böylə tufan arasında*
*Övzae fələkdən bizi bir faciə aldı*
*Şimdi üzürük biz necə gör qan arasında*
*...Əhli-vətənə bitməz idi bunca cəfalar*
*Olsaydı məhəbbət bəy ilə xan arasında [6]*

Ə.Ağaoğlunun "Qarabağın övza və əhvalı" məqaləsində XX əsrin əvvəllərində ermənilərin millətimizə necə dağlar çəkildiyi, böyük faciələr yaşatdıqları göstərilir. O, 1906-cı ilin sentyabrında doğulub böyüdüyü Şuşa şəhərinə gedən yolları erməni yaraqlılarının bağladığını kədərlə bildirirdi: "On yeddi gün Ağdamda qalıb Qarabağda olan əhvalatı və general Qoloşçapovun rəftar və əmalinə dürüst xəbərdarlıq hasil edib azim olduq.

O günədək Ağdam ilə şəhərin əlaqəsi bağlı idi demək olar. Fəqət sahib-mənsəblər və qoşun böyügləri gəlib-gedirdilər. Qeyrilər isə cürət edib Əsgərandan keçə bilmiyordular.

Şəhərə azim olmadan qəbaq general Qoloşçapova teleqraf ilə xəbər verdik və təhlükəni gözümüz qabağına alıb yola düşdük" [3].

Ə.Ağaoğlunun bu məqaləsində bir fakt da diqqətimizi cəlb edir: ermənilər Xocalını XX əsrin əvvəllərində də yerləyeksan etmişdilər. Müəllif yazırdı: "Yetişdik Xocalı deyilən postxanəyə. Bu postxanənin adı yovuqluqda bir il bundan əqdəm mövcud olan müsəlman kəndinin adından əxz olunub. Lakin bu gün həman kənddən bir əsər də qalmıyıb, yurtları böylə itmiş. Kəndi ermənilər talan etmişlər.

Yol ilə yaylaqdan enən müsəlman əyaləti gediyordular. Bunlar hər qədəmdə bizə ermənilərdən və kazaklardan şikayət ediyordular. Birisinin qoyununu əlindən almışlar, birisinin atını, birisinin dəvəsini. Hər qədəmdə min əziyyət görmüş. Və hər yerdə ermənilər kazaklar ilə iş görüyordular. Ermənilərin xəncər və bombalarından tənha sahib-mənsəblər və hökumət kişiləri degil, qoşun əhalisi də vahimə edib onlar ilə həmkar olmuşlar!" [3].

Ermənilərin tərəfində dayanan, yerli əhaliyə - türklərə zülm edən kazaklar Qarabağa necə gəlib çıxdıqları haqqında tarixi həqiqətləri də Ə.Ağaoğlu həmin məqaləsindən oxuyuruq: "...Şişə yolu dağların sağ tərəfilə keçir və keçidin də boğazı sağdan sola dutan bir uzun divarın arasından mürur ediyor. Bu divarı mərhum Qarabağ xanı Pənah xan təmir etmiş və məqsədi Şişəni düşmənlər tərəfindən mühafizət etmək imiş. Çünki boğazın iki tərəfində on-igirmi adam əgləşdigdə təmam bir qoşunun yolunu kəsə bilirlər.

İştə dəva əsnasında ermənilər buraya dəstələr göndərib yolu müsəlmanlara bağlamış idilər. General Qoloşçapov buna da kifayət edəməyib həman bu Əsgərana ermənilərə kömək və müsəlmanları Şişəyə müavinət etmək qəsdilə ...yüz kazak da göndərmişdi!" [3].

Ü.Hacıbəyli ermənilərin əsl simasını belə təsvir edirdi: "Əşi, ermənilərə nə var, onların politikası bax böylədir:

Bu gün lap insaniyyətdən dəm vuran "sosialistdir", sabah millətini mühafizə edən "nasyonalist"dir, birisi gün lap alçaq və dəni xuliqandır, o biri gün şeytan kimi provakatordur. Qərəz bu taifə-

nin işi böylədir ki, bu saət heç özləri də özlərindən baş açmıyorlar. Lakin əməllərinin hamısında ittifaqları vardır!" [16].

Ö.F.Nemanzadə "İrşad"da "Ümid" imzası ilə dərc olunan "Belədirmi?" adlı məqaləsində ermənilərin Daşnaksütun partiyasının məkrli məqsədlərini diqqətə çatdırırdı. Ü.Hacıbəyli felyetonunda həmin məqalədə irəli sürülən fikirlərə münasibətini bildirirdi: "Dünənki nömrəmizdə "Ümid" cənabları (Allah onun ümidini hasil eləyə!) "Belədirmi?" adında bir məqalə yazıb diyor ki, ay canım, ermənilər müəyyən və məlum bir niyyət ilə "daşnaksakan" kimi bir orqanizasiya qayırıb muradlarına çatmaq üçün iş görür. Bizim yazıçılarımız da onlara diyor ki, ay ermənilər, gəlin Allaha baxın, bu işdən əl çəkin, tüğyan eləmiyin... Heç görün dəxli varmı! Belədir, cənab "Ümid" doğru diyor. Misaliməşhurdur ki, "Quran oxumaqla donquz darıdan çıxmaz"..." [17].

1905-1906-cı ildə Zaqafqaziyada baş verənlərin əsl mahiyyətini Ü.Hacıbəyli belə ifadə edirdi: "Bu şuriş degil. Buna iğtişaş adı qoymaq olmaz. Bu davadır şərr baqaidə icra olunan bir müharibədir ki, burada bir tərəfin məqsədi digər tərəfi məhv və nabud, digər tərəf isə özünü axırıncı qan damcısını qalanadək müdafiə etməkdir" [11].

Hər cür hiyləyə əl atan ermənilər Azərbaycanın müxtəlif bölgələrində şayiə yayırdılar ki, guya onların sünnilərlə işləri yoxdur, bununla da müsəlmanlar arasında qarışıqlıq yaratmağa, onları bu yolla zəiflətməyə çalışırdılar. Bu cür yalanların ağır nəticələrini gözləri ilə görən görkəmli publisist Ömər Faiq Nemanzadə 1906-cı ildə "İrşad" qəzetində yazırdı: "Məəttələm ki, ermənilərin "bizim sünnülərlə işimiz yoxdur" deyən yalan və fitnələrinə inananlar nə cür camaat arasında qalırlar. Nə üçün "məcnunxanalara" getmirlər? Kimdir deyən ki, ermənilərin sünnülərlə işi yoxdur. Zəngəzur, Qazax mahalında ermənilərin viran etdikləri kəndlərin, şəhid etdikləri canların çoxu sünnü deyilmiydilər?" [10]. Ermənilərin yalanına inanan müsəlmanların sadəlöhlüyündən şikayətlənən görkəmli publisist yazırdı: "Mən qanmıram ki, erməni bir müsəlman öldürərkən deyir ki, sən şiəsən, ya sünnüsən? Noyabr vüqudatında bir erməni bir silahsız sünnünü öldürmək istəyəndə, sünnü canını qurtarmaq üçün erməniyə deyib ki, bəs sizin sünnilərlə işiniz yoxdur, axı... Bil ki, mən sünnüyəm, mənə dəymə! Erməni cavabında... biz sünnü-şiə bilmirik, müsəlmanların Qafqazda kökünü qazıyacağıq" [10]. Müəllif ermənilərin riyakarlığını, öz məkrli niyyətlərini həyata keçirmək üçün müsəlmanlar arasında təfriqə salmağa çalışdıqlarını və çox zaman buna müvəffəq olduqlarını təəssüflə diqqətə çatdırırdı.

Ə.Ağaoğlu iki ildir davam edən milli münaqişəni hansı tərəfin başlamasından asılı olmayaraq, həm türklərin, həm də ermənilərin bəlalara düçür olduqlarını görərək "Eşidin, müsəlmanlar və ermənilər!" adlı müraciət-məqaləsində yazmışdır: "...Burasını düşünməliyiz ki, hər bir müsəlman və erməni vilayəti xərabə olduqda həman Papa Denisovlar və Tirisovlar şad olub əl-ələ vurub diyorlar: "Haydı, qoçaqlar! Qırınız, öldürünüz, yandırınız! Bəlkə bu sayədə həm siz məhv olasınız və həm də Rusiyə üçün hürriyyət və azadəlik yolu bağlansın!!".

Rəvadırmı ki, bundan sonra biz bu gunə bədəfkar, şeytansifət adamların əlində əsbab və alət olaq!?

...Ayılın, ey Qafqaz övladları! Müsəlmanlar və ermənilər!" [4].

Dövrün acı həqiqətləri "İrşad" qəzetinin istər publisistik, istərsə də ədəbi-bədii nümunələrə geniş yer verilirdi. Qeyd etdiyimiz kimi, bu mətbuat orqanının əsas məqsədi, ən müqəddəs vəzifəsi yalnız müxtəlif janrda yazılmış əsərlər vasitəsi ilə millətin başına gətirilən faciələr, erməni daşnaklarının qəddarlığı, çarizmin siyasi oyunları və digər problemlər haqqında oxucuları məlumatlandırmaq deyildi. "İrşad"ın baş redaktoru və onun məsləkdaşları ermənilərin türklərə qarşı törətdikləri soyqırımın qarşısının alınması, sülh bağlanılması istiqamətində böyük işlər görürdülər. Ə.Ağaoğlu təkcə kəsərli sözü, qələmi ilə mübarizə aparmırdı. O, millətinin ağır günlərində "Difai" özünümüdafiə təşkilatı yaratdı. Bu təşkilat ermənilərin və çarizmin zülmlərindən cana doyan müsəlmanların haqqı uğrunda mübarizəyə qalxanları öz sıralarında birləşdirdi.

XX əsrin əvvəllərində baş verən faciələr elə həmin əsrdə dönə-dönə təkrar olundu. Hər dəfə soydaşlarımız ermənilər tərəfindən qətlə yetirildi, əsr götürüldü, torpaqlarımız işğal olundu. Tariximizdən dərs almamağımız XX əsrin sonlarında bizi növbəti faciələrlə üzləşdirdi. 1990-cı illərdə torpaqlarımızın 20 faizi işğal olundu. Həmin əsrin ilk illərində olduğu kimi, son illərində də günahsız insanlara qarşı ermənilər soyqırım törətdilər. Sağ qalanlar ata-baba yurdlarını tərk etmək məcburiyyətində qaldılar.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Ə.Ağaoğlu: Mədrəsə və ruhaniyyə, İrşad qəzeti, 23 may 1906, № 120.
2. Ə.Ağaoğlu: Kömək məqamıdır, qardaşlar!!, İrşad qəzeti, 3 oktyabr 1906, № 232.
3. Ə.Ağaoğlu: Qarabağın övza və əhvalı, İrşad qəzeti, 25 sentyabr 1906, № 225.
4. Ə.Ağaoğlu: Eşidin müsəlmanlar və ermənilər!, İrşad qəzeti, 16 iyun 1906, № 141.
5. Hüseyn Tahirzadə Sisyani: Əşar, İrşad qəzeti, 1907, 31 may, №102.
6. İbrahim Tahir Musayev: Milli bir təranə, İrşad qəzeti, 10 may 1907, №86.
7. M.Ə.Rəsulzadə: Kənddə müsibət, İrşad qəzeti, 5 yanvar 1906, №15.
8. M.Ə.Rəsulzadə: Yenə də müsibət, İrşad" qəzeti, 31may 1906, №127.
9. Nəql yazan, Nəql, İrşad qəzeti, 6 may 1908, №63
10. Ö.F.Nemanzadə: Ümidvaram ki..., İrşad qəzeti, 14 fevral 1906, № 46.
11. Ü.Hacıbəyli: Şuşa qırğınına dair, İrşad qəzeti, 23 iyul 1906, № 172.
12. Ü.Hacıbəyli: Qeydsizliyin nəticəsi, İrşad" qəzeti, 19 iyul 1906, № 169.
13. Ü.Hacıbəyli: Sevindilərmi, İrşad qəzeti, 16 iyul 1906, № 166.
14. Ü.Hacıbəyli: Ordan burdan: Halımıza dair", "İrşad" qəzeti, 4 iyun 1906, № 130.
15. Ü.Hacıbəyli: Ordan burdan, İrşad qəzeti, 18 iyul 1906, № 168.
16. Ü.Hacıbəyli: Ordan burdan, İrşad qəzeti, 8 avqust 1906, № 186.
17. Ü.Hacıbəyli: Ordan-burdan, İrşad, 7 sentyabr 1906, № 210.


## THE RESULTS OF ARMENIAN GENOCIDE OF 1905-1906 YEARS (ON THE BASE OF MATERIALS OF THE NEWSPAPER "IRSHAD"). SUMMARY


In 1905-1906 years Armenians committed genocide against Turkish-Muslim population. Armed Armenian troops committed murder of innocent people, burnt houses. Tragedies were not over with this. Those who survived after massacre were displaced from the places of living and faced torments and hunger.

There is wide information about these big tragedies – Armenian genocide and its results committed at the beginning of XX century both in publicistic articles and literary-art works published in the newspaper "Irshad".


## РЕЗУЛЬТАТЫ ГЕНОЦИДА АРМЯН 1905-1906 ГОДОВ (НА ОСНОВЕ МАТЕРИАЛОВ ГАЗЕТЫ «ИРШАД») РЕЗЮМЕ


В 1905-1906 годах армяне совершили геноцид против тюркско-усульманского населения. Вооруженные армянские отряды совершили убийство невинных людей, сожгли дома. Трагедии не завершились этим. Выжившие после резни, были вытеснены со своих мест проживания и сталкивались с мучениями и голодом.

Об этих больших трагедиях – армянском геноциде и его результатах, совершившихся в начале XX века, имеется обширная информация, как в публицистических статьях, так и в литературно-художественных произведениях, опубликованных в газете «Иршад».

**Həlimə KAZIMOVA**
*AMEA Tarix İnstitutu "Qarabağ tarixi" şöbəsinin elmi işçisi*

# XOCALI SOYQIRIMI: RUSİYA TARİXŞÜNASLIĞININ TƏHLİLİ KONTEKSTİNDƏ

**Açar sözlər:** Xocalı soyqırımı, ermənilər, separatizm, Rusiya tarixşünaslığında, 366-cı alay, təcavüz
**Keywords:** Khojaly genocide, the Armenians, separatism, in Russian historiography, 366th regiment, aggression
**Ключевые слова:** Ходжалинский геноцид, армяне, сепаратизм, Российская историография, 366-й полк, агрессия

Xocalı soyqırımı bəşəriyyətin utancverici faciələrindən olmaqla azərbaycanlıların başına gətirilən ən qəddar tarixi mərhələdir. Müharibədə Azərbaycanın daha çox itki verən tərəf olmasına baxmayaraq, rusdilli tədqiqatçılar çox təhriflərə yol veriblər. Acınacaqlı hal bundan ibarətdir ki, dünya birliyi bu faciəni soyqırım kimi tanımamaqda israrlıdır. Türk-müsəlman birliyinə qarşı planlar böyük dövlətlər tərəfindən hazırlanıb, icra olunmaq üçün estafeti ermənilərə verilirdi. Cənubi Qafqazda əhali və etnik qruplar arasında təfriqə və qarışıqlıq salan erməni separatçıları daim öz havadarları tərəfindən böyük maliyyə, mənəvi və ən əsası hərbi dəstək alaraq terror, təcavüz və işğalçı planlarını həyata keçirmişlər.

Bəşəriyyət tarixində zəngin dövlətçilik və maddi-mədəniyyət nümunələri qoyan türk-müsəlman xalqları tarix boyu ətraf xalqların təcavüzünə məruz qalmışdırlar. Bu təcavüzlər nəticəsində zaman-zaman torpaqları istila olunmaqla qalmayaraq, öz vətənlərindən qovularaq soyqırıma məruz qalmışdırlar. Xalqlar arasında nifaq toxumu səpən SSRİ-nin Cənubi Qafqazda cərəyan edən hadisələrdə ikitərəfli mövqeyi, onların öz siyasi, ərazi və milli müqəddəratlarını həll etmək üçün real vəziyyətin yetişdiyini göstərirdi. SSRİ-nin əlaltıları olan ermənilər mərkəzi hökumətdəki dayaqlarına arxalanaraq Cənubi Qafqaza köçürüldüklərindən indiyə qədər tutduqları mövqedən uzaqlaşmamışdırlar. Belə ki onlar öz ərazilərini qonşu xalqların torpaqlarını işğal etməklə genişləndirməyə başlayırdılar. Ermənistanın qərəzli mövqeyinin nəticəsi idi ki, 80-ci illərdə qarışıq siyasi mərhələdə olan Azərbaycan xarici müdaxilələr səbəbindən dözülməz xaosla üz-üzə dayanmışdır. Azərbaycanın Dağlıq Qarabağ, Qərbi Azərbaycan və digər bölgələrinə XIX əsrdən köçürülən ermənilər məskunlaşdıqları bölgələrdə etnik təmizləmə və separatçılıqla məşğul olaraq qərəzli və məqsədli siyasət yeritməyə başlamışdılar. Cənubi Qafqaz böyük dövlətlərin siyasi məqsədlərinin çarpışdığı bölgə olduğundan ermənilər onlar üçün gizli planlarını reallaşdırmaq üçün daima əlverişli vasitə olmuşdurlar.

Əsrin sonlarında Ermənistanda, həmçinin Qarabağda gedən siyasi proseslər soyqırım və qırğınlara gətirib çıxardı. Beynəlxalq güclərdən hərbi və siyasi dəstək alan erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarına əsassız ərazi iddiaları nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı ərazilər işğala məruz qaldı. İşğala məruz qalmış növbəti ərazilərimizdən biri Xocalı idi. Xocalı soyqırımına qədər ermənilər Dağlıq Qarabağda bir sıra kütləvi qətllər törətmiş olsalar da, dünyada insan hüquqlarını qoruyan "beynəlxalq təşkilatların" təzyiqi ilə qarşılaşmamış, əksinə həmin virtual güclərin müxtəlif istiqamətlərdə seyrçi mövqeyini müşahidə edərək daha da aqressivləşərək bəşəri cinayətlər törətməkdə maraqlı olmuşlar. 1992- ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş vermiş insanlığa qarşı törədilən hərbi cinayətin qəddarlıq səviyyəsi XX əsrin sonlarında bəşəri dəyərlərin məhvinə aparan bir soyqırım aktıdır. Birləşmiş hərbi qüvvələrin silahsız vətəndaşlara qarşı törədilmiş bu cinayəti nəticəsində rəsmi məlumatlara əsasən 613 nəfər qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür, 25 uşaq hər iki valideyinini itirmiş, 130 uşaq hər iki valideyinindən birini itirmiş, 8 ailə isə tamamilə məhv edilmişdi.[1] Xocalı soyqırımı zamanı yerli əhaliyə edilən işgəncələrin səviyyəsi heç nə ilə ölçülə bilməz.

Xocalı soyqırımı ilə əlaqəli yerli və dünya miqyasında bir sıra kitablar, məqalələr və jurnallar çap olunmuşdur. Əsas bu nəşrlərin kəmiyyəti deyil, reallığa əsaslanan keyfiyyət göstəricisidir. Ermə-

[1] Хавва Мамедова. Ходжалы: Шехиды и Шахиды. Дом сказки, Баку., 2005, с. 20

ni faşistlərinin burada törətdikləri vəhşiliklər Xocalı qırğınını dünya tarixində faciəli qırğınlar siyahısına salmış, Azərbaycanın tarixinə qara mərhələ kimi düşmüşdü. Xocalı faciəsinin tədqiqi rusdilli tədqiqatçıların əsərlərində öz əksini hansı prizmada tapması məqalənin hədəfidir. Rus müəlliflərinin əksəriyyəti Xocalıda dinc əhalinin başına gətirilən vəhşiliklər barədə ya ümumiyyətlə danışmır, biganə yanaşır, yada dezinformasiya yayırlar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı rus tarixçiləri, siyasətçi və yazarları obyektiv və subyektiv mövqeləri ilə iki qrupa ayrılmışdılar. Birinci qrupa aid olan kəmiyyət etibarı ilə çoxluq təşkil edənlər Dağlıq Qarabağ münaqişəsi və onun fonunda baş verən siyasi hadisələri araşdırmadan, erməni ədəbiyyatında olduğu kimi yazıblar. İkinci qrupda olanlar isə bəzən obyektivliyə yaxın mövqedə yer almışdırlar. Ancaq onların bəzilərinin Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı haqqında dedikləri obyektiv faktları sonrakı fikirlərində təkzib etmələri elmi-ictimai sahədə ikrah və hiddət yaratmışdır.

Xocalı soyqırımı Dağlıq Qarabağ münaqişəsinin tərkib hissəsi olduğundan, bu münaqişəyə toxunan Aleksandr Qoryanin, Aleksandr Sevastyanov bununla bağlı mövqelərini bildirmişlər. Adları çəkilən müəlliflərin 2009-cu ildə Moskvada nəşr olunan "Ruslar-Azərbaycan və azərbaycanlılar" haqqında adlı müxtəsər kitabında erməni separatistlərinin qəddarlığa sığmayan cinayət və təxribatlarına kiçik şərhlər verməklə qənaətlənmişlər. Ancaq azərbaycanlıların erməni təxribatlarına qarşı hər hansı bir lakonik etirazını şərh etmiş olanda tarixçi yox-qərəzli şəxs qismində çıxış etmişdirlər. "*Biz bilirik ki, bütün müharibələr tarixində qəddarlıq olub. Lakin hər müharibədə təsadüf olmayan elə yırtıcılıq var ki, onun üzərindən sükutla keçmək mümkün deyil. Biz Dağlıq Qarabağın Xocalı şəhərində dinc əhaliyə qarşı qanlı divanı nəzərdə tuturuq* " [1]. Müəlliflər ölənlərin sayı haqqında məlumat verir. Göründüyü kimi, qəddarlıqla törədilən bu soyqırım haqqında çox qısa məlumat verilərək geniş şərhdən yan keçilmişdir. Üzərində ciddi zərbə izləri olan cəsədlərin əyani görüntüləri yerli və xarici müxbirlərin kameralarına düşməsəydi bu faciənin izləri bəşəriyyətə gizli qalardı.

Sankt-Peterburqda yaşayan milliyyətcə rus olan yazıçı Y. Pompeyev Dağlıq Qarabağla bağlı 1992-ci ildə Bakıda nəşr edilmiş "Qarabağın qan girdabı" və 2010-cu ildə Moskvada çap olunmuş "Qarabağ gündəliyi" adlı kitablarında bu hadisələr geniş əks olunub. Müəllif "Karabaxskiy dnevnik" adlı kitabının birinci səhifəsində "*1992-ci ilin əvəllində 366-cı sovet alayının Xocalının tutulmasında və əhaliyə divan tutulmasında rüsvayçı iştirakının,"*[2] xalq faciəsində rolunun bir tarixə çevrildiyini təəssüf hissi ilə qeyd edir. Yuri Pompeyev Xocalıda silahsız, adi vətəndaşların başına (1992-ci il fevral 25-26) gətirilən qırğınları Xatın və Sonqmi[3] faciələri ilə eyniləşdirir. Rusiyanın himayəsi ilə Qarabağda qanlı qırğına planlar düşünülmüş səpgidə hazırlanırmış. Bu qırğınlar Xankəndində Rusiyanın 366-cı alayının oradan çıxarılması ilə başlandı.[4] Onu da qeyd edim ki, bu polk 1985-ci ildə Stepanakertə yerləşdirilib. Bu alayda ştat üzrə 1800 hərbi qulluqçu, 100-ə yaxın hərbi texnika var idi.[5] Bu alayın sərəncamında olan ağır texnika vasitəsi ilə nəinki, Xocalı həm də Şuşa vaxtaşırı top və mərmi hücumuna məruz qalırdı. Müəllifin araşdırmasına əsasən canlı qüvvənin 80%-i ermənilərdən təşkil edilən bu alayın motoatıcı hissəsinin Qarabağda qalıb ermənilərə xidmət etməsi üçün İosif Ohanyan 1 milyon rubl gətirmişdi. Müəllif qeyd edir ki, Xocalı şəhəri başlarında general Ohanyan olmakla ermənilər və Rusiyanın 366 alayı tərəfindən tamamilə yandırılaraq, əhalisi vəhşicəsinə məhv edildi. [6] Bu qüvvələr və silahlar vasitəsi ilə yüzlərlə həmyerlimiz öldürülmüşdür. Müəllif Xocalıda öldürülənlərin tək günahının türk olmaları əlaqələndirir[7]. Azərbaycanda tarix boyu ermənilərin apardıqları bütün təxribat və təcavüzdən nəinki hər bir tədqiqatçı və siyasətçilərin, həmçinin sadə vətəndaşların məlumatı var. Ancaq baş verənlərə obyektiv münasibət hər tədqiqatçıda özünü biruzə vermir. Pompeyevin geniş oxucu kütləsi üçün nəzərdə tutub nəşr etdirdiyi yuxarıda adlarını çəkdiyimiz kitabları dediklərimizə əyani sübutdür. O, "Qarabağın qan girdabından kitabını yazmaq istəyinin

---

[1] Александр Горянин, Александр Севастьянов. Русскому об Азербайджане и Азербайджанцах. М.,2009,стр. 45 http: vugar-seidov.azeris.co wp-content uploads/2010/07/

[2] Юрий Помпеев. **Карабахский дневник**. Канон+РООИ "Реабилитация" М., 2010, с. 5

[3] Юрий Помпеев. **Кровавый омут Карабаха. "** Азербайджан", Баку, 1992, с . 8

[4] Юрий Помпеев. **Карабахский дневник**. Канон+РООИ "Реабилитация" М., 2010, с 19

[5] Ziyyəddin Sultanov**. Xocalı faciəsi**, Bakı, 1993, s. 12

[6] Юрий Помпеев. **Карабахский дневник**. Канон+РООИ "Реабилитация" М., 2010, с 221

[7] Юрий Помпеев. "Хроника обьявленного. Уроки Ходжалы." Москва // **İRS**, с 10-15, №1 (43), 2010

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının dinc əhalisinin başına gətirilən vəhşiliklərindən təsirləndiyindən əmələ gəldiyini qeyd edir. Burada Xocalı soyqırımından sonra yaralı və əsirləri götürməyə gedən ekipajın tərkibində olan jurnalistlər, həmçinin 366-cı alayın hərbçilərinin ifadələri də yer alıb. "Moskovskie novosti" qəzetinin müxbiri Viktoriya İvleva bildirir: "Xocalıda yalnız ölülər qalıb. Viktoriya İvleva Xocalıya hücum edən ikinci eşalonun tərkibində Xocalının yaxınlığında olarkən onlara buludu xatırladan nə isə bir qaraltının yaxınlaşdığını gördü. Həqiqətdə bu yarımçılpaq insan kütləsi idi. Rusiya Federasiyasının baş kəşfiyyat idarəsinin polkovniki V.R.Savalyevin (nəzərə çatdırmaq istəyirəm ki, o, Xocalı soyqırımı zamanı 366-cı motoatıcı alayın xüsusi şöbəsinin rəisi vəzifəsində olmuşdur) məlumatları ermənilərin cinayətlərini pərdələmək istəyənlərə adekvat cavabdır. V.R.Savalyev Xocalıda baş verən ağlasığmaz cinayətlərlə bağlı Kremlə, Müdafiə Nazirliyinə, Baş kəşfiyyat idarəsinə və digər aidiyatı qurumlara on doqquz səhifədən ibarət məxfi məlumat göndərmişdir. Buradakı ermənilərin bəşər humanizmliyinin əleyhinə törətdikləri qəddarlıq və vəhşiliklərdən təəccüblənərək qeyd edir. "Qoy azərbaycanlılar qanlı və amansız nəticələrin olmaması üçün bir tədbir görmədiyimə görə məni bağışlasınlar.[1] Erməni millətçilərinin yalan və riyakarlıqları, qəddarlıqları kimi heç bir çərçivəyə sığmırdıq. General İosif Ohanyanın əmri ilə "Sovet əsgəri" qəzetinin jurnalistlərinin şahidliyi ilə minlərlə silahsız dinc Xocalı sakinlərinin güllələbaran edilməsi, kiçik yaşlı uşaqların vəhşicəsinə zorlanaraq süngüyə keçirilməsi, meyitlərin gözlərinin çıxarılması haqqında verdiyi əmrləri sonradan doğruların bəyan edilməməsi üçün bu qəzetin bütün tirajlarının məhv edilməsinə səbəb olmuşdur. Lakin qəzetin bir nömrəsini bərpa edib kopyasını çıxartmaq mümkün olmuşdur. Qarabağda azərbaycanlılara qarşı aparılan zorakılık və təmizləmə siyasətində 366-cı polkun ermənilərlə birgə iştirakını təsdiqləyən faktlardan biri də "Sovet əsgəri" qəzetinin bərpa edilmiş nömrəsində görmək mümkündür. Qvardiyanın baş leytenantı Viktor Şefçenko Xocalının qəhrəmanlarının birbaşa tankın kapotunun üstündə onlara kabab və içki qonaqlığı verməsindən, ermənilərin alayda insanlığa sığmayan özbaşınalığından danışır. 366-cı alayın komandir köməkçisinin "Mən bilirəm Rusiyada bizim üçün türmə kameraları çoxdan hazırdır. Siz burda yaşamırsınız, çox hadisələri bilmirsiniz və anlamırsınız[2] fikirləri həmin dövrdə bütün qanun və qaydaların ermənilərə tabe olduğunu və edilən yüzlərlə qanunsuz hadisələrdən xəbər verir. Soyqırım hadisəsindən sonra ruslara qarşı ermənilərin mövqeyi bunu deməyə imkan verir ki, "şanlı" 366-cı motoatıcı alay Qarabağdan çıxdığı vaxta kimi ermənilərə hər cür köməyin qarşılığında kef edib. 366-cı alayın zabitlərinin böyük əksəriyyəti ermənilər idi. İosif Ohanyan öz hərbiçiləri ilə əllərində Xankəndindən çıxarılan 366-cı alayın qalmış silahları ilə qələbələrini qeyd edirdilər. Onun etdiyi cinayətləri Ermənistan rəhbərliyi cavabsız qoymamışdır. Bu xaosa qarşı çıxan hərbçilər qaçmaqla xilas olublar.

Dağlıq Qarabağ münaqişəsi haqqında təhlil aparan müəlliflərdən biri Aleksandr Karavayevdir. Onun digər təhlil aparan müəlliflərdən fərqi Xocalı soyqırımının hazırki siyasi və elmi nöqteyi-nəzərdən dünyada və Rusiyada yeri və elmi-ictimai mühitə hansı səpkidə əks olunmasını analiz etməsidir. Müəllif bu barədə yazır: "Xocalı hadisəsi baş verən zaman Rusiyanın media məkanında erməni siyasətçiləri tərəfindən anti Azərbaycan fikirlər səslənmişdi".[3] Bu hadisələrin kökündə sosial, etnik, sözdə erməni kadrlarının sıxışdırılması hətta dini ayrıseçkilik səbəbinin olmasını uydururdular. Təbii ki, belə mühitdə hətta Xocalı kimi rezonans doğuran istisna hadisə öz müvafiq qiymətini ala bilməzdi. Rusiyanın istər elmi, istər media aləmində Azərbaycana qarşı fikir və münasibətdə müsbət mövqedə olanlar azlıq təşkil ediblər. Xocalı hadisəsinə siyasi gündəmdə müxtəlif prizmalarda yanaşılıb. Birincisi 25 il keçdiyi müddətdə Xocalı soyqırımı daim ermənilər tərəfindən informasiya müharibəsində əks-təbliğata məruz qalıb. İkincisi, bu barədə Azərbaycan Respublikasının rəsmi mövqeyi və yerli azərbaycanlılara qarşı törədilmiş Xocalı soyqırımını hərbi cinayət tərkibli olmasını bir çox dövlətlər və beynəlxalq təşkilatların qəbul etmələri. Üçüncüsü, bu faciə geosiyasi kompleksdə Qarabağ probleminin tənzimlənməsini çətinləşdirir. Dağlıq Qarabağ münaqişəsi və onun gərgin mərhələsi olan Xocalıya siyasi nöqteyi-nəzərdən yanaşanlar, ilk növbədə bu problemin gündəmdə daha çox hansı konteksdə yer tutmasını nəzərə alırlar.

---

[1] Həvva Məmmədova. **Xocalı: şəhidlər, şahidlər.** Bakı, 2003,s. 142-145

[2] Юрий Помпеев. **Карабахский дневник**. Канон+РООИ "Реабилитация" М., 2010, с. 223

[3] Караваев А. Трагедия Ходжалы: анализ в контексте современной политики // «*İRS-Наследие*». Международный азербайджанский журнал, № 1(55), М.: 2012, с. 4-9, с .

Aleksandr Karavayev Xocalı soyqırımında birbaşa səbəbkar və günahkar kimi erməniləri və onların hazırkı prezidentlərini (Serj Sarkisyan), həmçinin SSRİ MK göstərir. Buna baxmayaraq, Azərbaycanın Qərbi Avropadakı tərəfdaşları və Rusiya bu məsələni (təqsirkarları) beynəlxalq hüquq müstəvisinə çıxartmağa hazır deyillər. Bu dövlətlər Xocalı soyqırımına görə ərazilərində fəaliyyət göstərən erməni diasporası və Ermənistanla münasibətləri gərginləşdirmək istəmirlər.[1] Aleksandr Karayev münasibətlərin bu səviyyədə olmasını belə açıqlayır: Xocalı faciəsinin Rusiya cəmiyyətində və media mühitində layiqincə qiymətləndirilməməsi siyasi cəhətdən ört-basdır edilməsi problemlərdən biridir. Bu birbaşa azərbaycanlı təbəqənin yenidənqurma illərində Moskvanın siyasi kübar cəmiyyətində tutduğu status və nüfuzu ilə əlaqəlidir. Ermənilərin daim rusların rəğbətini qazanmaları təkcə özlərinin "bacarıqlarından" irəli gəlmir. Həmdə SSRİ və RF rəhbərlərinin havadarlarının ermənilərin istənilən sahədə özbaşınalıqlarına göz yummasından və etdikləri cinayətlərdən məmnun qalmalarından yaranır.

Myalo Kseniya adlı müəllif "XX əsrin sonuncu müharibələri və Rusiya" adlı kitabında Xocalıda azərbaycanlıların başına gətirilən hadisələrdə özlərini təqsirkar hesab etməyən ermənilərin bu faciə ilə bağlı ağlasığmaz utopiyalarına təzadlı fikirlər bildirmişdir. Müəllif Qarabağda erməni separatçılarının birbaşa Ermənistandan hərbi yardım alması faktını yazdığı halda, 15 fevral 1992-ci ildə kəndin qərb hissəsindəki mövqedə yerləşən ermənilərin azərbaycanlıların çıxmağını tələb etdikdən sonra bu faciənin baş verməsində hansı qaranlıq məqamlardan danışır?[2] Daim xalqlar arasında nifaq və qərəz toxumu səpən bu toplum Xocalıdakı törədilən soyqırımı başqalarının üzərinə atacaq səviyyədədirlər. Onları müdafiə edən rusların himayəçiliyi tarix boyu özünü bu və ya digər səpkidə biruzə verib və verir. Qarabağ müharibəsi və onun ən faciəvi pilləsi olan Xocalı soyqırımı haqqında Rusiyanın müxtəlif şəhərlərində, erməni-rus əməkdaşlığının nəticəsində çıxan kitab və jurnallarda həqiqətə uyğun olmayan məlumatlara tez-tez rast gəlirik.

Digər bir müəllif Oleq Kuznetsov "Qarabağ münaqişəsinin mifləri haqqında həqiqət" və XX əsrdə transmilli erməni terrorçuluğunun tarixi" sərlövhəli kitablarında digər rus müəlliflərindən irəli gedərək Dağlıq Qarabağ münaqişəsinin bəzi qaranlıq məqamlarını "açmağa" çalışmışdır. Müəllif qeyd edir: Ermənilər 1992- ci il 25-26 fevralda silahlı erməni terror birlikləri olan "Arabo", "Aramo" və Müstəqil Dövlətlər Birliyinin birləşmiş silahlı qüvvələrinin " Vətənpərvər dəstə" adlanan 23-cü dviziya qvardiyasının 366-cı motoatıcı alayının üzvlərinin köməklikləri ilə Xocalıda olan sadə müsəlman əhaliyə qarşı hücumda iştirak etmişdilər.[3] Müəllif bu hücum aktı zamanı Azərbaycanın ərazi bütövlüyünün pozulmasını, burada soyqırıma məruz qalan əhalinin sayı haqqında, eyni zamanda erməni terror birlikləri, erməni separat qrupların özbaşınalığı haqqında obyektiv məlumat verir. Lakin bəzi məsələlərdəki fikirləri ilə razılaşmaq olmaz. Birinci, Kuznetsov 23 –cü qvardiyanın 366-cı alayının Rusiya Federasiyasına deyil MDB-nin birləşmiş silahlı qüvvəllərinə aid olduğunu ciddi cəhdlə vurğulayır.[4] İkinci, bu alayın Xocalıda ermənilərlə birlikdə törətdiyi aktı qiyam kimi qiymətləndirərək sanki bu alayın qanunsuzluqlarını ört-basdır etməyə çalışır. SSRİ süqut etdikdən sonra onun qanuni varisi olan RF həmin zaman bu soyqırımda iştirak edənləri cinayət məsuliyyətinə cəlb etməmişdi. Müəllif bunu hadisənin SSRİ- nin parçalandığı bir dövrdə olduğu üçün, 366-cı alayın komandanlığının və baş zabitlərinin cinayət məsuliyyətinə cəlb olunması üçün Rusiya Federasiyasının heç bir ciddi cəhd göstərməməsini hüquqi cəhətdən buna səlahiyyəti olmadığından irəli gəldiyini deyir.[5] Kuznetsovun bu mülahizələrindən bu nəticəyə gəlirik ki, Rusiya de-yure olmasada, de-fakto Dağlıq Qarabağ bölgəsində rus qvardiyalarının Azərbaycanda qanunazidd hərbi fəaliyyətinə görə birbaşa məsuliyyət daşıyır. 1992- ci ilin martında bu cinayəti gizləmək üçün MDB-nin birləşmiş silahlı qüvvələri bu alayı buraxaraq, zabit, gizir və əsgərləri xidmətdən uzaqlaşdırıldı. Rusiya Zaqafqaziyaya ermənilərin köçürülməsindən sonra burada olan hadisələrə tam nəzarəti ələ almaq

---

[1] Yenə orada

[2] Мяло Ксения. **Россия и последние войны XX века (1989-2000). К истории падения сверхдержавы.** "Вече" М., 2002, с 70

[3] Кузнетсов.О.Ю. История транснационального армянского терроризма в XX столетии. Москва: "Şarq Qarb", 2015, 65 с.

[4] Yenə orada, 65-66 c.

[5] Yenə orada, 65 c.

üçün ermənilərdən istifadə etmişdilər. Öz növbəsində də ermənilərin Azərbaycanda atdıqları istənilən addım ilk növbədə Rusiya ilə müzakirə olunurdu. Rusiya Cənubi Qafqazda heç bir dövlətin siyasi, iqtisadi, sosial və digər istiqamətlərdə inkişafını qəbul etməyib, etməyəcək də. Rusiyanın iqtisadi və coğrafi arenada nüfuzunun düşmə qorxusu onu bölgədəki bütün münaqişələrin səbəbkarı və dəstəkçisinə çevirir. Buna baxmayaraq Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmak üçün danışıqlar və təbliğatlar aparmaqdadır. "Xocalıya ədalət" devizi altında indiyə kimi, dünyaya təhrif olunmuş şəkildə çatdırılan Xocalı və Dağlıq Qarabağ gerçəklikləri yeni istiqamət almışdır. Erməni lobbisi dünyadakı ictimai rəyi özlərinin xeyrinə dəyişdirmək istəsələrdə, Azərbaycan torpaqlarının işğalı bir milyona yaxın məcburi köçkünün öz doğma vətənlərindən qovulması və bu müharibədə azərbaycanlıların həddən artıq zərər çəkməsi faktı dünyaya bəllidir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


3. Александр Горянин, Александр Севастьянов. Русскому об Азербайджане и Азербайджанцах. М.,2009, стр. 45 http: vugar-seidov.azeris.co wp-content uploads/2010/07/
4. Həvva Məmmədova. Xocalı: şəhidlər, şahidlər. Yeni nəşrlər evi, Bakı, 2003, 197 s.
5. Кузнетсов О.Ю. История транснационального армянского терроризма в XX столетии. Москва: Şarq Qarb, 2015,412 с.
6. Ксения Мяло. Россия и последние войны XX века (1989-2000). К истории падения сверхдержавы “Вече” М., 2002, 480,с.
7. Караваев А. Трагедия Ходжалы: анализ в контексте современной политики // «*İRS-Наследие*». Международный азербайджанский журнал, № 1(55), М.: 2012, с. 4-9, с .
8. Мамедова Хавва. Ходжалы: Шехиды и Шахиды. Дом сказки, Баку., 2005, 248 с.
9. Помпеев Юрий. Карабахский дневник. Канон+РООИ "Реабилитация" М., 2010, 416 с.
10. Помпеев Юрий. “Хроника обьявленного. Уроки Ходжалы.” Москва // İRS, с 10-15, №1 (43), 2010
11. Помпеев Юрий. Кровавый омут Карабаха. ” Азербайджан”, Баку, 1992, 208 с.
12. Sultanov Ziyyəddin. Xocalı faciəsi. Bakı: “İşık”, 1993, 54 s.


## KHOJALY GENOCIDE: IN THE CONTEXT OF RUSSIAN HISTORIOGRAPHY ANALYSIS
## SUMMARY

Khojaly genocide, the shameful tragedy of humanity is also one of the bitterest historical period in the life of Azerbaijanis. Despite the fact that Azerbaijan was a side which had more casualties of war the Russian-speaking researchers have misrepresented the fact. It is annoying that the international community insists not to recognize this tragedy as genocide. The plans against Turkish and Muslim unities were prepared by the Superpowers and the estafet was given to the Armenians to be carried out. The Armenian separatists always carried out their terrorist, aggressive plans with the financial, spiritual and mainly military supports by the superpowers to throw dissents into confusion between the population and the ethnic groups in the South Caucasus.

## ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД В КОНТЕКСТЕ АНАЛИЗА РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ
## РЕЗЮМЕ

Ходжалинский геноцид, будучи одной из самых позорных трагедий всего человечества, является жесточайшим испытанием, выпавшим на долю азербайджанского народа. Факт, что Азербайджан являлся стороной, понесшей наибольшие потери, часто игнорировался или подвергался искажениям некоторыми русскоязычными авторами. Вызывает глубокое сожаление и то обстоятельство, что мировое сообщество не собирается признать указанную трагедию как геноцид против азербайджанцев. Планы, составленные великими государствами и направленные против единения тюрко-мусульманского мира, осуществлялись и продолжают осуществляться армянскими шовинистическими кругами. Армянские сепаратисты, сеющие раскол и смуту между народами и этническими группами Южного Кавказа, получив в огромных размерах финансовую, нравственную и военную помощь, осуществили свои террористические, агрессивные и оккупационные планы.

*S.ü.f.d., dos.* **Fəridə QULİYEVA**
*AMEA Memarlıq və İncəsənət*
*İnstitutu böyük elmi işçi*

# MİLLİ AKADEMİK TEATRIN SƏHNƏSİNDƏ QARABAĞ MÜNAQİŞƏSİNİN VİZUAL HƏLLİ

**Açar sözlər**: Qarabağ, teatr, rəssam, səhnəqrafiya, tamaşa.
**Keywords:** Garabagh, theatre, artist, scenography, spectacle
**Ключевые слова**: Карабах, театр, художник, сценография, спектакль

Teatr tamaşalarının qonağı olan gənc nəsil Azərbaycan ərazisində yaranmış xanlıqların XVIII əsrin II yarısında hansı qarşılıqlı münasibətlərdə olduğundan, Vətənimizdə o zamandan meydana gələn parçalanma və birləşmə meyillərindən xəbər tutur və nəhayət bu gün yaşadığımız faciələrin kök səbəblərini təhlil etmək üçün kifayət qədər məlumat almaq imkanı tapır. AMDT-da nümayiş etdirilən "Qarabağnamə" (İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında) və "Xəcalət" (Hüseynbala Mirələmovun eyni adlı əsəri üzrə) tamaşaları bu vəzifənin öhdəsindən uğurla gəlir.

Bu gün gənclərimizə vətənpərvərlik və milli qeyrət hisslərini aşılamaqda Qarabağ problemi mövzusunda yazılan dram əsərlərinə böyük ehtiyac duyulduğu kimi, bu əsərlərin səhnələşdirilməsi də eyni dərəcədə əhəmiyyətlidir. Bu vacib işin ərsəyə gəlməsində ciddi zəhmət və məsuliyyətli yanaşma tələb edən hər iki yaradıcılıq mərhələsi olduqca qiymətli və təqdirəlayiqdir.

Qarabağ ruhlu bu tamaşaların gedişində tamaşaçılar tərəfindən əsas ideyanın düzgün qavranılmasında, əsərdə cərəyan edən hadisələrin təsir gücünün artırılmasında səhnəqrafiyanın rolu da, demək olar ki, diqqətəlayiq və dəyərlidir.

Hələ 1996-cı ildə səhnələşdirilmiş olan "Qarabağnamə" tamaşası bu gün də mövzusunun aktuallığı səbəbindən AMDT-nın səhnəsində alqışlarla qarşılanır. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov səhnələşdirdiyi əsəri qısa, lakin dolğun bir ifadə ilə şərh edir: "*Bu tamaşa yeni nəslə "güc birlikdədir" prinsipini anladır*". Təcrübəli rejissor onu da xatırlayır ki, tamaşa elə ilk dəfə göstərildiyi vaxtdan bəri böyük əks-sədaya səbəb oldu: "*Heydər Əliyev bu tamaşaya baxandan sonra dedi:- "Nə qədər ki Qarabağ problemi var, "Qarabağnamə" əsəri milli teatrda getməlidir*" [3].

Tamaşa XVIII əsrin Qarabağ xanlığının mərkəzi Şuşa (Pənahabad) şəhərində cərəyan etmiş tarixi hadisələrdən, tariximizin düşündürücü həqiqətlərindən və Qarabağ hakimi İbrahim Xəlilxanın ictimai-siyasi fəaliyyətindən, onun ailə-məişət həyatından bəhs edir. Həmin dövrdə əksərən Azərbaycan xanlıqları kimi tanınan inzibati vahidlərdən ibarət olan Cənubi Qafqaz ərazisini öz hakimiyyəti altında görmək istəyən güclənmiş Rusiya imperiyası və zəifləmiş qədim metropoliya - İran şahənşahlığı ilə məqbul münasibətlər qurmağa cəhd edən sadəlövh və tədbirsiz İbrahim xan digər tərəfdən də erməni fitnəkarlığının qurbanı olur.

Tamaşa Qarabağ xanlığının çal-çağırlı, zövq-səfalı vaxtlarının təsviri ilə başlayır. İbrahim xanın (*Kazım Abdullayev*) qızı Ağabəyimağa (*Məsmə Aslan qızı*) yaşanmaqda olan bu xoşbəxtliyi qoruyub saxlamaq qayəsi ilə, doğma Vətənin, ana torpağın firavanlığı və əmin-amanlığı naminə öz şəxsi sevgisindən keçir. Amma bu fədakarlığın qarşısında onun atası yerli iqtidar sahibi İbrahim xan heç də qızının bu fədakarlığından faydalana bilmir, nəticədə Qarabağın xoş gününü, xalqının dinc həyatını hifz edib saxlamağı bacarmır. Xoşbəxt xanlığı süquta çatdırmaqda tarixin labüd axarının şimaldan Qafqaza güclü bir imperiyanı gətirməsi ilə birgə xalqımızın əzəmət kölgəsinə sığınaraq ona "quyu qazmaqdan" çəkinməyən erməni işbazlarının "ənənəvi" xəyanəti öz işini görür. Əsərin diqqət mərkəzində saxladığı bu cərəyanlar tariximizə və bugünümüzə yığcam, lakin geniş əhatəli bir baxışla araşdırıcı bir nəzər salmağa sövq edir.

Qeyd olunan ideyanın və əsərdəki müstəqil hadisələrin tamaşaçılar tərəfindən düzgün qavranılmasında, təqdimatdakı mücərrəd həyat səhnələrinin təsirinin gücləndirilməsində səhnəqrafiyanın rolu böyük olmuşdur. Maraqlı səhnə tərtibatı, gözəl rəssam işi, zəngin Qarabağ mühiti üçün səciyyəvi olan əlvan geyimlər, aktyorların mükəmməl ifası, zövqlü musiqi tərtibatı – bütün bunların vəhdəti tamaşanın uğurunu artırmışdır. Tamaşanın quruluşçu rəssamı *İsmayıl Məmmədov*, geyim rəssamı *Ay-*

*gün Mahmudova*, işıq üzrə rəssam *Rafael Həsənov*, musiqi tərtibatçısı *Həmid Kazımzadədir*. Tamaşada 25-ə yaxın aktyor iştirak edir.

Müasir Azərbaycan səhnəqrafiyası üçün adiləşən fırlanan səhnə qurğusu, hadisələrə uyğunlaşdırılmış simvolik təsvirlərin əks olunduğu aşağı-yuxarı enib-qalxan planşet-lövhələrin tətbiqi, hadisələr zamanı xüsusi işıqlanma effektlərindən istifadə edilməsi tamaşa üçün xarakterikdir. Səhnə quruluşunda mizan tələblərinin rejissor tərəfindən səmərəli və harmonik şəkildə həll edilməsi və bu mizanın aktyorlar tərəfindən rahat həyata keçirilməsi, bir-birini əvəz edən süjet hadisələri üçün uyğun səhnə şəraitinin yaradılması münasib nizam üzrə aparılmışdır. Yaradıcı heyət əsas etibarı ilə müəllifin əsərdə qoyduğu ideyanı mümkün qədər doğru-düzgün çatdırmağa çalışmışdır. Burada səhnə mizanı təkcə aktyorların biri digəri ilə qarşılıqda deyil, səhnə dekorasiyasının elementlərini də öz ararlarında hansı nisbətdə yerləşməsini nizamlamışdır. "*Dekorasiya sözün əsl mənasında aktyor üçün plastik, tamaşaçı üçün isə obrazlı mühit yaradır*." [2, s. 132]. Bu baxımdan uğurla işlənilmiş səhnənin kompozisiyası həm tamaşanın ifası üçün, həm də tamaşaçıların tamaşa etmələri üçün kompleks qaydada hazır edilmiş − onun bütün tərkib elementləri və hissələrinin tamaşaçı tərəfindən bütöv tək bir vahid olaraq qəbul edilən, əsərin ana xəttini və vizual mənzərəsini maksimal dərəcədə reallıqla əks etdirən bir sistem halına salmışdır. Bu cür səhnə quruluşu pyesin, obrazlı şəkildə ifadə etsək, özəyini təşkil edən əsas məna yüklü momentlərini aşkar edib, onu ikinci dərəcəli əhəmiyyətə malik hissədən (epizod və detallardan) ayıraraq müəllif ideyasının geniş şəkildə və tam dolğunluğuyla tamaşaçıya çatdırmasına xidmət edir. Zalın hansı tərəfindən və ya nöqtəsindən baxılarsa baxılsın, pyesin əhəmiyyətli olan komponentləri diqqəti cəlb etmişdir. Səhnə tərtibatı tamaşaçı üçün şəffaf, aydın, yorucu olmayan bir mühit kimi təqdim olunmuşdur.

Ümumiyyətlə, XX əsrin sonlarından başlayaraq Azərbaycanın səhnəqrafiya tarixində pyesin batini mənasının açılması məqsədi qarşıya qoyulmuş, tamaşanın ideyasına əsasən pyesin bir mücərrəd "ümumi obraz"ı tapılaraq təqdim edilmiş və beləliklə, səhnəqrafiyanın artıq təşkilati-estetik deyil, eyni zamanda ideya-fəlsəfi xarakter daşıması da müşahidə olunmuşdur. Bu prinsip "Qarabağnamə" tamaşasının səhnəqrafiyasında da özünü büruzə verib.

Quruluşçu rəssam yüksək ustalıqla, pyesin struktur etibarı ilə nə qədər mürəkkəb olmasına baxmayaraq, verdiyi bədii tərtibatda tamaşanın əsl ideyasının anlaşılmasına maksimal dərəcədə yaxınlaşmışdır. Məhz ...yaxınlaşmışdır! Çünki təkcə dekorasiyada ideyanı pyesdə olduğu kimi, daha dəqiq desək "müəllifin düşündüyü kimi" tam ifadə etmək, demək olar ki, qeyri-mümkündür. Teatr sintetik bir sənət növü olduğu üçün ideyanın tam açılmasında həm aktyor ifası, həm musiqi müşayiəti, həm də dekorasiya tərtibatının vəhdəti ciddi surətdə tələb olunur. Quruluşçu rəssam tamaşanın "ümumi obraz"ında yekunlaşmış olan əsər ideyasının təccəssümünü sanki dekorasiyanın bütün element və hissələrinin vahid kontekstində tapıb canlandıra bilmişdir. Tamaşa ideyasının qavranılması da kompleks xarakter daşıyır, çünki ideyanın mahiyyətini anlamaqdan ötrü rəssam-dekorator tamaşaçılarla birgə təfəkkür və elm, mənəviyyat və mədəniyyətin müxtəlif (fəlsəfi, siyasi, etik, estetik və s.) sahələrində çoxşaxəli məlumata, özünəməxsus dünyagörüşünə malik olmalıdır. Tamaşadan göründüyü kimi rəssamın əsərdəki olayların baş verdiyi dövr və məkan haqqında hərtərəfli tarixi məlumata malik olması nəticəsində "ümumi obraz" vizual baxımdan mükəmməl şəkildə təqdim edilmişdir. Quruluşçu rəssam səhnənin mərkəzi hissəsinin yuxarısında qızılı-qəhvəyi rəngli xəncər təsvirini təqdim edir. Bu təsvir tamaşanın sonuna kimi səhnədə iştirak edərək, məhz gərgin anlarda aşağı endirilərək konkret hadisələrin gərginliyini sanki semiotik bir kodla tamaşaçıya işarə edərək üst-üstə vurğulayır. "Qorxmazlıq və hünər" rəmzi olan, digər tərəfdən də "faciə və qan"a işarə edən, eyni zamanda müəyyən kəskin situasiyaları alleqorik tərzdə əks etdirən "xəncər" təsviri simvolik mənada çox düzgün və effektiv təqdim olunmuşdur.

Səhnədə fırlanan xüsusi qurğu hesabına, cərəyan edən hadisələr olduqca təsirli bir zövqlə dəyişir. Pərdə açılarkən arxa planda səhnənin yuxarı hissəsində 3 tağlı qapılar və onların yan tərəflərində mərkəzi səltənətin – Qədim İran şahənşahlığının simvolu olan qədim Persepolis sarayında (e.ə. 515-ci ildə Dara şah tərəfindən tikdirilmiş Təxti-Cəmşid sarayı) ornamental haşiyə rolunda çıxış edən əlisilahlı keşikçiləri əks etdirən relyef təsvirləri təqdim olunur. Əsərin ideyasına uyğun olaraq süjet boyu cərəyan edən İran dövlətinin tarixi əzəməti məhz bu təqdimat vasitəsi ilə çatdırılıb.

Səhnənin arxa planında yuxarıda tağlı qapıların sayının da üç olması simvolik xarakter daşıyır. Əvvəla "üç" rəqəmi – azlıqda ifadə olunmuş çoxluğu, mükəmməllik və optimallığı, sonsuzluq və İlahi qüdrəti bildirir. ...Zəifləyən İranla güclənən Rusiya qüdrətləri arasında baş vermiş hərbi-siyasi qarşıdurmada üçüncü məkanın, bu ikisinin ortasında qalmış məntəqənin – Cənubi Qafqazın müqəddəratı dəyişilmək məcburiyyətindədir ki, bu da tamaşanın əsas aparıcı süjet xəttini təşkil edir. Bu təlatümlü dəyişmələr vətəndaş üçün nə qədər ağrı-acı gətirmiş olsa da, bunu taleyin qisməti və tarixin ibrət dərsi kimi qarşılamaqdan savayı yol qalmır.

Tamaşada simvolik mənaların istiqamətləndirici əhəmiyyətə malik olması baxımından belə bir təqdimat təqdirəlayiqdir. Qeyd etməliyik ki, klassik tərifə görə simvollar yalnız xalqların, sosial qrupların və yaxud ictimai zümrələrin tarixi inkişafı prosesində formalaşmış qanunauyğun, ya da təsadüfi şərti düsturlardır. Lakin bu tamaşada simvol daha sərbəst şəkildə insanın müəyyən biliklər əsasında yaratdığı həndəsi və yaxud digər şərti forma ilə konkret mənanı ifadə edən, onları assosiativ qaydada əlaqələndirən abstrakt təsvirlər kimi izah edilməlidir.

Fırlanan qurğu üzərində də tamaşanın sonuna kimi 4 tağlı qapılar təqdim olunur. Burada da qapıların sayı simvolik məna kəsb edir. Belə ki, tamaşada dörd Azərbaycan xanının: İbrahim xan (*Qarabağ*), Kəlbəli xan (*Naxçıvan*), Məhəmməd xan (*İrəvan*) və Cavad xanın (*Gəncə*) birgə məşvərəti onu göstərir ki, ağır vəziyyətə düşmüş Cənubi Qafqazın tarixi taleyinin həlli, əsasən, bu dörd yerli əsilzadə hakimin boynuna düşür. Bunların arasında məhz Qarabağ xanının siyasi səhvinin ucbatından Rus imperiyasının mahir tələsinə düşməyinə etiraz edən digər xanlıqlar, xüsusən də Gəncə xanı Cavad xanın buna kəskin müxalifliyi, nəticədə mübarizəyə tək qoşulması, yenə də rəssam tərəfindən maraqlı bir təqdimatla ifadə olunur. Cavad xanın etiraz edib Qarabağ xanının iqamətgahından getməsindən sonra qapıların biri arxa plana çəkilir. Artıq xanlıqlar arasına pərakəndəlik düşməsi səhnə tərtibatı vasitəsi ilə də əyani şəkildə əks olunur.

Sözü gedən məşvərət zamanı üzərində Azərbaycan xanlıqlarını əks etdirən xəritə tədricən səhnəyə endirilir. Bu, tamaşaçıda bəhs edilən ərazilər haqqında tam təsəvvür yaradılmasına kömək edərək, tamaşanın ideyasının rahat qavranılmasına kömək edir.

General Sisianovun qərargahında cərəyan edən hadisə zamanı yuxarıdan enən planşet-lövhə üzərində Rus ordusuna xas hərbi geyimli təsvirin aşağı enməsi, Rusiya siyasətinin Azərbaycan torpaqlarını müstəmləkəyə çevirmək niyyətinin bir simvolu kimi təqdim edilib.

İşıqlanma effektinin sayəsində Qarabağ xanı İbrahim xanın xəyallarının pərdə arxasında canlanması səhnəsi tamaşaya xüsusi effekt vermişdir.

Səhnənin rəng həlli də uğurla təqdim olunub. Belə ki, qara rəngdən daha çox istifadə olunması baş verən hadisələrin gərginliyini, xəritədə xanlıqların qırmızı rəngdə təqdim olunması, qanlı döyüşlərin, qəhvəyi-qızılı, gümüşü rənglərdən istifadə torpaqlar uğrunda gedən silahlı mübarizəni ifadə etdirir.

Azərbaycan torpaqlarının əks olunduğu xəritə və üzərinə taxılmış xəncər təsvirinin tamaşanın afişası və dəvətnaməsində də istifadə edilməsi təqdirəlayiqdir.

Obrazların geyim tərtibatı da uğurlu hesab edilə bilər. XVIII əsrə məxsus milli geyimlərimiz tarixi-etnoqrafik nümunələrə uyğun olaraq düzgün biçimdə təqdim edilmişdir.

AMDT-da səhnələşdirilmiş "Xəcalət" (*Hüseynbala Mirələmov*un eyni adlı əsəri üzrə) tamaşasının quruluşçu rejissoru *Bəhram Osmanov*, quruluşçu rəssamı *İsmayıl Məmmədov*, bəstəkarı *Səyavuş Kərimi*dir. Tamaşada altı aktyor iştirak edir. İlk dəfə 2006-cı ildə səhnələşdirilmiş bu tamaşa bu gün də uğurla qarşılanır.

Tamaşada uşaqlıqdan bir yerdə böyümüş iki dost: Murad və Vətən Qarabağ savaşına da birgə getmiş, lakin sonradan onların həyat yolları gözəçarpan dərəcədə ayrılmışdır. Atəşkəs haqqında müqavilə imzalandıqdan təxminən 10 il sonra dostlar yenidən görüşürlər. Bu 10 il müddətində Vətən torpaq həsrəti ilə yanıb yaxılır, Murad isə Qarabağ döyüşləri dövründə müəmmalı üsulla əldə etdiyi sərmayə hesabına var-dövlət qazana bilib. İndi iki dost arasında doğma vətənin taleyinə, yolunda savaşdıqları torpağa münasibət mövzusunda fikir ayrılığı yaranıb.

Hadisə əvvəldən sona kimi eyni məkanda - ailəsi ilə birgə inşası yarımçıq qalmış xəstəxana binasına yığışmış Vətənin sığınacağında cərəyan edir.

"Qarabağnamə" tamaşasının quruluşçu rəssamı İsmayıl Məmmədov "Xəcalət" tamaşasında da səhnəqrafiyanın təcəssümü üçün səhnənin fırlanma üsulundan istifadə etmişdir. Lakin burada hadisə

eyni məkanda baş verdiyi üçün, məkan dəyişmir, sadəcə fırlanan səhnə bir qədər səmtini dəyişməklə cərəyan edən hadisələrə sanki müxtəlif bucaqlar altında baxmağa şərait yaradır.

Səhnənin tərtibatında inşası yarımçıq qalmış xəstəxananın uçuq-sökük, ala-yarımçıq suvanmış divarlarını xatırladan lövhələrdən istifadə edilib. Arxa planda yuxarıda – lövhələrin arxasında nərdivan, divara suvaq çəkmək üçün istifadə edilən taxta qurğular və s. görünməkdədir.

Ağır həyat şəraiti təəssüratı yaratmaq üçün səhnənin ön planının sağ və sol küncləri̇ndə zivədən (ipdən) qurudulmağa asılmış paltarlar təqdim olunur; ailəyə lazım olan bütün məişət şəraiti bir məkandadır – masa və oturacaqlar, çarpayı və s. Bütün bunlar yalnız pərdələr, şirma (üzərinə parça çəkilmiş çərçivələrdən ibarət bükülən arakəsmə) vasitəsi ilə bir-birindən ayrılır. Sıxıntılı çətin şəraitin içində divardan tar aləti və xəritə asılıb. Səhnəyə tətbiq edilmiş bu butaforiyalar doğma Vətən həsrəti ilə yanan sədaqətli və ləyaqətli vətəndaş olan Vətənlə onun sadə ailəsinin əhval-ruhiyyəsini artıq dərəcədə üzə çıxardır.

Səhnədə işıqlanma effektində sarı tonlardan istifadə edilməsi tamaşanın ruhuna tamamilə uyğundur. Sarı rəng tonları qəhrəmanların daima intizarda, ayrılıqda olmalarının, hicran dərdi çəkmələrinin ifadəsidir. Divar təsəvvürü yaradan lövhələrin üzərində qəhvəyi rəngin üstünlük təşkil etməsi isə yenə də məna açılışına yardımçı təsir göstərir. Belə ki, qəhvəyi rəng bilavasitə torpaq rəngi ilə uyğunlaşdırıla bilər və çox ehtimal ki, torpaq işğalının, ərazi bütövlüyü uğrunda gah şiddətlə, gah aramla davam edən müharibənin rəmzi mənasını çatdırır.

Səhnə tərtibatında vacib şərtlərdən və əsas məna daşıyıcı qüvvələrdən olan rəng, bu tamaşada insan xarakterlərinin, müxtəlif insan talelərinin tarixi hadisələr cərəyanında çarpazlaşdığı nöqtədə üzə çıxan ziddiyyətlər düyününün, pyes daxili dramatik dinamikanın təqdimində olduqca elastik və effektiv vasitə sayılaraq, hazırkı tamaşada da mürəkkəb psixoloji vəziyyətlərin açılmasında əvəzsiz rol oynamışdır.

Tamaşanın sonunda səhnə duman içində tam dərəcədə fırlanaraq yenə də əvvəlki vəziyyətində qərar tutur. Deməli, bütün çətinliklərə, əzab-iztiraba baxmadan baş qəhrəman Vətən öz əqidəsindən dönmür, Qarabağ diyarını Ulu Vətənə qaytarmaq savaşının əzmi ilə və yenidən onun səfalı ağuşunda yuva qurmaq arzusu ilə yaşayır. Bu kimi təqdimatlar quruluşçu rəssamın uğurlu tapıntısı hesab edilə bilər.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Quliyeva F.İ. Səhnəqrafiya resurslarının metodoloji təhlili. Bakı: Kövsər, 2015, 162 s.
2. Лотман Ю.М. Стихотворение раннего Пастернака и некоторые вопросы структурного изучения текста. «Труды по знаковым системам», т. 4, Тарту, ТГУ, 1969, 236 с.
1. 3.Мочалов Ю. Композиция сценического пространства (поэтика мизансцены). М., Просвещение, 1981, 239 с.
2. 4.http://musavat.com/news/olke/azdrama-qarabagname-ile-ne-deyir_96603.
3. 5. https://az.wikipedia.org/wiki/Qarab
4. 6. http://www.meclis.gov.az/?/az/qarabakh_content/2
5. 7. http://www.anl.az/down/meqale/olaylar/2016/noyabr/514546.htm

## VISUAL SOLVING OF KARABAKH CONFLICT ON THE SCENE OF THE NATIONAL ACADEMIC THEATER
## SUMMER

Today as there is great need of dramatic works written on theme of Garabagh problem to foster patriotism and national honour to our youths, also staging of these works is important equally. Both two creative stages are valuable and estimable, which require serious efforts and responsible approach on bringing up of this important work. Spectacles "Garabaghname" (on the basis of Ilyas Efendiyev's play "Lord and his daughter") and "Shame" (on Huseynbala Miralamov's same titled work), which are staged at ANDTH, cope with this task successfully.

Almost the role of scenography is also remarkable and valuable in perceiving the main idea properly by spectators during these spectacles about Garabagh and increasing influence of events happened during the work. Skill and achievements of incarnation of these spectacles by scenography means are analysed in the article.

## ВИЗУАЛЬНАЯ РЕШЕНИЕ КАРАБАХСКОГО КОНФЛИКТА НА СЦЕНЕ НАЦИОНАЛЬНОГО АКАДЕМИЧЕСКОГО ТЕАТРА
## РЕЗЮМЕ

Насколько остро ощущается для воспитания у сегодняшней молодёжи чувства патриотизма и национального достоинства большая нужда в написании драматических произведений, посвященных карабахской проблеме, в такой же мере имеет серьёзнейшее значение успешная постановка этих произведений. Реализация этой общественно важной работы требует серьезных усилий и ответственного подхода в каждом из указанных двух этапов литературно-сценического творчества заслуживает высокой оценки и признательности. Успешно поставленные и продемонстрированные на сцене Азерб. Нац. Драм. Театра спектакли «Карабах-наме» (по мотивам пьесы Ильяса Эфендиева «Правитель и его дочь») и «Стыд» (по одноименной пьесы Гусейнбала Мираламова) можно сказать достойно справляются с поставленной задачей.В правильном понимании театральными зрителями основной идеи сценических произведений, пронизанных духом Карабаха, в осмыслении событий, о которых повествуется в спектаклях, знаменательная и тончайшая роль принадлежит искусству сценографии, оптимальный подход к которому значительно повышает уровень визуально-смыслового восприятия произведений.

В статье анализируются конкретный опыт и достижения мастерства сценографического воплощения в ходе постановки указанных представлений.

**Məhəbbət MƏMMƏDOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı*

# AZƏRBAYCANLILARA QARŞI DEPORTASİYA VƏ SOYQIRIM MƏSƏLƏLƏRİ: RƏSMİ SƏNƏDLƏRDƏ VƏ TARİX İNSTİTUTUNUN NƏŞRLƏRİNDƏ

**Açar sözlər:** Azərbaycan Respublikası, fərman, 1918-ci il, soyqırım, 1948-1953-cü illər, deportasiya
**Keywords:** Azerbaijan Republic, decree, 1918 year, genocide, 1948-1953 years, deportation
**Ключевые слова:** Азербайджанская Республика, указ, 1918-й год, геноцид, 1948-1953-е годы, депортация

Son iki əsrdə Azərbaycan türklərinə qarşı ermənilər və onların himayədarları tərəfindən dəfələrlə soyqırım və deportasiya siyasəti həyata keçirilmişdir. Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalından (1828) sonra ermənilərin çar hökuməti tərəfindən məqsədli şəkildə Cənubi Qafqaza – Şimali Azərbaycan ərazilərinə köçürülməsi, 1918-1920, 1921-1994-cü illərdə yerli azərbaycanlı əhali etnik təmizləmə və deportasiya siyasətinin qurbanı oldu. Çar Rusiyasının, Qərbin və Sovet imperiyasının Şimali Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planları azərbaycanlıların öz tarixi torpaqlarından köçürülməsi və soyqırıma məruz qalması ilə nəticələnirdi.

1905-1906, 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində erməni millətçilərinin çar Rusiyası, ABŞ, İngiltərə, Fransa və Sovet Rusiyasının hərbi-siyasi yardımları nəticəsində bu bölgədə yerli azərbaycanlı əhaliyə qarşı soyqırım siyasəti həyata keçirilmiş, yüzlərlə kənd dağıdılmş, yüz minlərlə insan öldürülmüş və doğma torpaqlarından sürgün edilmişdir. Bu qırğınlar nəticəsində onlarla kənd və yüzlərlə ailə yer üzündən silinmişdir.

1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur. Təkcə Bakı şəhəri və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb, Şamaxıda 110 kənd dağıdılmış, 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerləyeksan olunmuş; əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilmişdir (4, 53-55; Bax: 5).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1918-ci il 31 mart soyqırımı ilə bağlı çıxışında qeyd etmişdir ki, "1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırım törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırım törədilmişdir" (4, 3).

Azərbaycan xalqına qarşı etnik təmizləmə və deportasiya siyasəti 1948-1953-cü illərdə də davam etmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı oldu. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla sürgün olundu.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpası – Respublika günü münasibətilə söylədiyi nitqində demişdir: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci illərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik." (3, 4).

Sovet imperiyasının süqutu ərəfəsində mərkəzi hakimiyyətin zəifliyindən və ermənipərəst siyasətindən yararlanan erməni daşnakları 1988-1993-cü illərdə Azərbaycan əhalisini etnik təmizləmə və soyqırım siyasətinə məruz qoydu. 1988-1993-cü illərdə indiki Ermənistan ərazisindən və işğal olunmuş Azərbaycanın Qarabağ bölgəsindən bir milyona yaxın azərbaycanlı öz dədə-baba torpaqlarından zorla qovuldu.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə bəşəriyyət tarixində ən böyük cinayət hadisəsi baş verdi. Azərbaycan Respublikasının Xocalı şəhərində erməni faşistləri və onların havadarı 366-cı rus motoatıcı alayının əsgərlərinin birbaşa iştirakı ilə azərbaycanlılara qarşı kütləvi soyqırım aktı törədildi. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil (9, 136-137; Bax: 6).

XX əsrdə Azərbaycan türklərinin başına gətirilən bu faciələr Sovet imperiyası dövründə ört-basdır edilmiş və gerçək həqiqətlər gizlədilmişdir. Yalnız Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra, xüsusilə H.Ə.Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra bu qərarların gizli mahiyyəti açıqlanmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" (1) və 27 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı (2) ilə həmin hadisələrə doğru tarixi-siyasi qiymət verilmiş və o zamankı SSRİ rəhbərlərinin cinayətkar siyasəti göstərilmişdir və həmin qərarların hüquqi-siyasi mahiyyəti beynəlxalq ictimaiyyətə çatdırılmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci il "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında deyilir: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır...

...Böyük Ermənistan yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerləyeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanlıların soyqırımı və deportasiya tarixinin öyrənilməsi ilə bağlı fərman və sərəncamlarını nəzərə alan A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun rəhbərliyi ilə bu səpkidə bir çox kitab və toplular nəşr etdirildi. Bu kitab və toplularda Azərbaycan Xalq Cumhuriyyəti, Böyük Britaniyanın arxiv sənədləri, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu: 3 cilddə, I cild., Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu: 3 cilddə, Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, I kitab., və s. Azərbaycanlılara qarşı soyqırım və deportasiya məsələləri arxiv sənədləri əsasında araşdırılaraq, bir neçə xarici dillərə tərcümə edilmiş və xarici oxuculara çatdırılmışdır. Bu toplu və əsərlərdə ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklər, soyqırım, tarixi torpaqlarımızın işğal edilməsi, mədəni irsimizin vandalcasına ermənilər tərəfindən məhv edilməsi və s. məsələlər öz əksini tapmışdır.

XX əsrin əvvəllərində yaranmış Azərbaycan Xalq Cumhuriyyəti 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi

soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il Mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, Azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın (2).

"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası" haqqında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 18 dekabr 1997-ci il Fərmanının böyük əhəmiyyəti vardır. Bu fərmanda deyilir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən -min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir. Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə Dövlət Komissiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin (1).

Bəşəriyyətin ən qanlı cinayətlərindən biri olan Xocalı soyqırımına siyasi və hüquqi qiymətin verilməsinə ilk növbədə Azərbaycan Milli Məclisində həyata keçirilmişdir.

1994-cü il 24 fevral tarixində Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımı (genosid) günü haqqında Qərarında Xocalı soyqırımını, soyqırım aktı kimi rəsmi olaraq qəbul etmişdir. Qərarda deyilir: "Azərbaycan Respublikasının Milli Məclisi erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının təklifini müzakirə edərək qərara alır:

1. 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da "Xocalı soyqırımı günü" elan olunsun və bu barədə beynəlxalq təşkilatlara məlumat verilsin.

2. Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və "Xocalı soyqırımı günü"nün beynəlxalq miqyasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət edilsin (8, 40; Bax:10).

AR MM bu qərarı əsasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli fərmanı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azəbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edildi (7, 167).

Rus hərbi qüvvələrinin köməyi ilə ermənilərin törətdiyi Xocalı Soyqırımının cinayət və soyqırım faktı olduğunun təsdiqi olaraq Azərbaycan Respublikasının Milli Məclisi 24 fevral 2017-ci il tarixində Xocalı soyqırımının 25-ci illiyi ilə əlaqədar olaraq Qərar qəbul etmişdir. Qərarda deyilir: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində törədilmiş soyqırım aktının 25 ili tamam olur. Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Ermənistan Respublikasının Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin, eləcə də Xocalı faciəsindən təqribən ay yarım sonra Kəlbəcər rayonunun Ağdaban kəndinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdir. Təkcə bunu qeyd etmək kifayətdir ki, Qaradağlı kəndində 80 nəfərdən çox, Ağdaban kəndində 67 nəfər dinc azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar və qocalar işgəncə verilərək qəddarcasına öldürülmüş, onlarca adam girov götürülmüş, itkin düşmüş, kəndlər isə yandırılaraq yer üzündən silinmişdir.

Xocalı şəhərində əhalinin vəhşicəsinə kütləvi qırğını Dağlıq Qarabağ bölgəsinin işğalı üçün həyata keçirilən hərbi təcavüz zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq və onun mübarizə əzmini qırmaq niyyəti ilə törədilmişdir. Dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər şikəst edilmiş, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Xocalı şəhərində törədilmiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Məlum olduğu kimi, məhdud coğrafi zonada oxşar əməllərin törədilməsi keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı tərəfindən soyqırımı aktı kimi tövsif edilmişdir. Azərbaycan Respublikasının Milli Məclisi yuxarıda şərh edilənləri nəzərə alaraq, qərara alır:

1. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınının Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsi bir daha təsdiq edilsin.

2. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına bir vəzifə olaraq tapşırılsın ki, xarici ölkələrə səfərlər zamanı, o cümlədən beynəlxalq təşkilatların tədbirlərində iştirak edərkən son yüz ildən artıq dövrdə azərbaycanlıların məruz qaldıqları soyqırımı aktları, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin daha geniş yayılmasını təmin etsinlər, bu məqsədlə Milli Məclisin xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə etsinlər.

3. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarına tövsiyə edilsin ki, Xocalı şəhərində soyqırım aktının törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilməsi və cinayət məsuliyyətinə cəlb olunması üçün görülən tədbirləri davam etdirsinlər.

4. Azərbaycan Respublikasının müvafiq dövlət və qeyri-dövlət qurumlarına, o cümlədən qeyri-hökumət təşkilatlarına tövsiyə edilsin ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların geniş yayılması, yalançı erməni təbliğatının ifşa edilməsi üçün səylərini birləşdirsinlər.

5. Xarici ölkələrin parlamentlərinə, beynəlxalq parlament təşkilatlarına müraciət edilsin ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınını soyqırım cinayəti kimi tanısınlar (12).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev azərbaycanlıların soyqırımı ilə əlaqədar dəfələrlə xalqa müraciət etmiş, Xocalı faciəsini insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri kimi qiymətləndirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökumətlərindən XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırım cinayətlərini tanımağı, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırım cinayətlərinə yol verilməməsi üçün Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir.

Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırım aktı olduğu təsdiq edilmişdir. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər.

Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdür. Bakı şəhərində, ölkəmizin digər şəhər və rayonlarında Xocalı qurbanlarına abidələr ucaldılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə 6 fevral 2008-ci ildə Bakının Xətai rayonunda Xocalı faciəsinin qurbanlarının xatirəsinə heykəltəraşlar Aslan Rüstəmov, Mahmud Rüstəmov, Teymur Rüstəmov tərfindən abidə ucaldılmışdır.

Elə həmin ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kompaniyası təşkil edildi.

Leyla xanım Əliyeva təşkil edilmiş bu beynəlxalq tədbirin əsas məqsədi ilə bağlı yazır: "Xocalıda törədilmiş soyqırım Azərbaycan tarixinin ən dəhşətli qara səhifələrindən biri kimi həmişəlik yazılmış faciədir. Bu qəsdən törədilmiş aksiya Azərbaycan xalqına qarşı soyqırım aksiyası idi... Biz, sağ qalanlar bu faciə haqqında həqiqəti dünyaya çatdırmalı, baş vermiş hadisəyə beynəlxalq siyasi və hüquqi qiymət verilməsinə nail olmalıyıq..." (8, 77).

Leyla xanım Əliyevanın təşəbbüsü il yaradılan «Xocalıya ədalət» kampaniyasının keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il fevralın 13-də «Xocalıya ədalət» kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdır (11).

Bundan əlavə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı il XX əsrdə erməni-daşnak quldur dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində soyqırım cinayətinin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Quba şəhərində «Soyqırım memorial kompleksi»nin yaradılması qərara alındı (7, 167).

Xocalı soyqırımı müasir dövrdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm yer tutur. Ermənilərin azərbaycanlılara qarşı törətdiyi bu soyqırımı aktı azərbaycanlıların sosial-siyasi həyatında dərin mənəvi və psixoloji iz buraxmışdır. Ermənilərin bu cinayətinin beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar tərəfindən soyqırım aktı kimi qəbul edilməsində istər dövlət səviyyəsində, istərsə də hər bir azərbaycan vətəndaşı tərəfindən lazımi addımlar atılmış və atılmaqdadır.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


5. Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublİkası Prezidentinin Fərmanı. Xalq qəzeti Bakı: 1997, 18 dekabr.
6. Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı: Xalq qəzeti, 1998, 27 mart, № 80.
7. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Müqəddimənin müəllifi və məsul redaktor A.Ə.Paşayev, Bakı: Zərdabi LTD, 2013.
8. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Elmi redaktor və ön sözün müəllifi Yaqub Mahmudov. Bakı, 2016.
9. Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Tarixi araşdırmalar. Bakı: Öyrətmən, 1995.
10. Azerıs mark the khojaly massacre. foreignpolicynews.org
11. Bəhramov C., Hacıyev Q. Xocalı soyqırımı Azərbaycan xalqına qarşı törədilmiş 1918-ci il mart soyqırımının davamıdır. Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Toplu. Bakı. 2016.
12. Əliyeva L. "Xocalıya ədalət" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model). I cild. Bakı, 2014.
13. Əliyeva L. "Xocalıya ədalət" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model). III cild. Bakı, 2014.
14. Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı, 24 fevral 1994. (http://www.e-qanun.az/framework/
15. "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 13 fevral 2014. http://www.president.az/articles/11014.
16. Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar Azərbaycan Respublikasi Milli Məclisinin Qərari. 24 fevral 2017. http://azertag.az/
17. Xocalı soyqırımı. http://files.preslib.az/projects/khojali
18. Махмудов Я.М. Геноцид тюрко-мусульманского населении Азербайджана в 1918-1920 годах. Баку: ИПО Турхан, 2015, 100 с.


## DEPORTATION AND GENOCIDE AGAINST AZERBAIJANIS: IN OFFICIAL DOCUMENTS AND PUBLICATIONS OF THE INSTITUTE OF HISTORY
## SUMMARY

Such issues as the plans of tsarist Russia and the Soviet empire on creation of an Armenian state on the Azerbaijani lands, the move of Azerbaijanis from their historical lands and genocide against the Azerbaijanis has been illuminated in the article. Also the essense of such inhuman policy against Azerbaijanis carried out in stages has been elucidated and based on historical facts has been stated the expulsion from their native lands where they lived for thousands of years. The data about the works done by A.A.Bakikhanov Institute of History in relation with the afore-mentioned issues is reflected in the article as well.

## ВОПРОСЫ ДЕПОРТАЦИИ И ГЕНОЦИДА ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА: В ОФИЦИАЛЬНЫХ ДОКУМЕНТАХ И ПУБЛИКАЦИЯХ ИНСТИТУТА ИСТОРИИ
## РЕЗЮМЕ

В статье отслежены планы создания Царской Россией и Советским Союзом на Азербайджанских землях армянского государства, а также освещены вопросы выселения азербайджанцев из своих исторических земель и совершенных против них актов геноцида. Также исследована сущность античеловеческой политики, периодически осуществляемой против азербайджанцев и показана история изгнания азербайджанцев из родных этно-исторических земель, на которых они проживали в течение тысячелетий. В статье дается подробная информация и о проделанной Институтом Истории имени А.А. Бакиханова работе по данной тематике.

**Hacı ABDULLA**
*AMEA Tarix İnstitutunun dissertantı*

# XIX–XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN ZƏNGƏZUR BÖLGƏSİNİN DEMOQRAFİK DURUMUNDA DƏYİŞİKLİKLƏR

**Açar sözlər:** Zəngəzurun demoqrafiyası, ermənilərin köçürülməsi, çarizmin müstəmləkə siyasəti, Zəngəzurda soyqırım və deportasiya
**Keywords:** demography of Zangazur, relocation of Armenians, colonial policy of tsar regime, genocide and deportation in Zangazur
**Ключевые слова:** демография Зангезура, переселение армян, колониальная политика царского режима, геноцид и депортация в Зангезуре

XIX əsrin ilk otuzilliyində çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalından sonra onun ayrı-ayrı bölgələrinin, o cümlədən Zəngəzurun demoqrafik durumunda köklü dəyişikliklərin əsası qoyulmuşdu.

Xatırladaq ki, tarixi Zəngəzur mahalı 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qəzalarından biri olmuş, indiki Ermənistan Respublikasının Gorus, Sisyan, Qafan, Mehri və Azərbaycan Respublikasının isə Laçın, Qubadlı, Zəngilan rayonlarını - təxminən 7.892 kv. km ərazini əhatə etmişdi.

Çar Rusiyasının işğalları ərəfəsində və onun gedişində Qarabağ xanlığının, daha sonra isə əsasən Qarabağ əyalətinin tərkibində olmuş Zəngəzur bölgəsinin əhalisi haqqında XIX əsrin əvvəllərinə aid məlumatlar son dərəcə kasaddır. Bu barədə məlumat verən ilk sistemli qaynaqlardan biri sayılan "Qarabağ əyalətinin təsviri"nə görə 1823-cü ildə Zəngəzur bölgəsinin əsas hissəsini özündə birləşdirmiş Sisyan mahalının xəzinə torpaqlarında 203, Bərgüşad mahalının belə torpaqlarında 146, Püsyan mahalında isə 887 ailə qeydə alınmışdı[14,412].

Bu qaynağın məlumatlarının səhihliyinə inanmaq bir qədər çətindir. Çünki xanlığın ləğvindən sonra sonuncu Qarabağ xanı Mehdiqulu 1822-ci ildə müstəmləkəçi rejim tərəfindən Şuşadan, Qarabağdan qaçmağa vadar edilmiş, Qacarlar İranına qaçarkən yerli əhalinin bir hissəsini də özü ilə aparmışdı. Digər tərəfdən isə cəmisi 2 nəfər tərəfindən bütün Qarabağda bircə ildə əhali sayımının keyfiyyətli şəkildə keçirilməsinə inanmaq çox çətindir.

1828-1829-cu illərdə Qarabağ əyalətinə köçürülüb gətirilmiş 16-17 min nəfərlik erməni köçkünlərinin müəyyən hissəsinin Zəngəzurda yerləşdirilməsi ilə burada köklü demoqrafik dəyişikliklərin əsası qoyuldu. Doğrudur, Qacarlar səltənətinin Qaradağ, Gərməli, Xoy və Salmas bölgələrindən ermənilərin köçürülməsinədək də Zəngəzurun Mehri, Sisyan, Əhlətyan, Pirnəkan, Şinətağ və s. kəndlərində yerli xristian əhalisi yaşayırdı. Yeni gətirilən köçkünlər isə Zəngəzur bölgəsinin Bələk, Məzrə, Şələk, Qarakilsə, Əlili, Əngəlyurd, Quşçutəzəkənd, Qafan, Uz və b. kəndlərində məskunlaşdırıldı.

Bir qədər sonra bölgəyə az sayda rus əhalisi də köçürüldü. Onlar Sisyanın Bazarçay kəndində yerləşdi.

Erməni köçləri sonralar da davam etmişdir. Belə ki, 1874-cü ilin kameral siyahıyaalmalarına görə Zəngəzur qəzasının 168 xəzinə kəndindən artıq 42-i sırf erməni, 1-i rus, 5-i isə əhalinin qarışıq yaşadığı kəndlər idi. Yeni qəza xəzinə kəndlərinin az qala ⅓ hissəsinə yaxını qeyri-müsəlman kəndlərinin payına düşürdü. Həmin il qəzada qeydə alınmış 8563 həyətdə cəmi 20516 nəfər yaşayırdı.

1874-cü ilin məlumatına görə qəzadakı 138 sahibkar kəndindən 28-i erməni, 4-ü isə qarışıq əhalili kənd idi. 1884-1885-ci illərdə Cənubi Qafqaz xəzinə kəndlilərinin iqtisadi məişətinin öyrənilməsi üçün aparılmış tədqiqatların nəticəsinə görə isə Yelizavetpol quberniyasının Zəngəzur mahalının dörd sahəsində – Mehri, Qafan, Zəngəzur və Sisyan sahələrində 293 yaşayış məntəqəsi qeydə alınmışdır ki, bunlardan da 49-u (16%-i) erməni, 1-i rus, 7-si (3%-i) isə qarışıq əhalili kəndlər idi[13,24-27].

XIX əsrin 80-ci illərinin ortalarında qəzada qeydə alınmış 10828 həyətdə birləşmiş 70015 nəfər əhalinin artıq 36%-ni ermənilər, 63%-ni isə müsəlmanlar təşkil edirdilər.

1886-cı il ailə siyahıyaalmalarına görə Zəngəzur qəzasında 123997 nəfər yaşayırdı. Onlardan 68560 nəfəri kişi, 55437 nəfəri isə qadın idi.

1890-cı ildə Zəngəzur qəzasında 75 kənd cəmiyyətində birləşmiş 326 kənddə 19447 həyət, 123997 nəfər əhali qeydə alınmışdır [10, 10-11].

Romanovlar səltənətinin bütün mövcudluğu dövründə aparılmış çoxsaylı və çoxçeşidli əhali və b. sayımlar içərisində ən mükəmməli, sistemlisi və daha çox məlumatvericiliyi ilə seçilən 1897-ci il əhali sayımının nəşr edilmiş nəticələrində də Zəngəzur qəzasının demoqrafik durumu haqqında maraqlı məlumatlar vardır [15].

Həmin qaynağın məlumatına görə, 1897-ci ildə ümumi ərazisi 38 782,5 kv. verst olan Yelizavetpol quberniyası 8 qəzaya bölünürdü. Quberniyanın üç qəzasının mərkəzi şəhər (Yelizavetpol, Nuxa və Şuşa), qalan qəzalarınınkı isə iri yaşayış məskənləri – "mesteçko" idi. Zəngəzur qəzasının mərkəzi Gorus kəndi idi. Bu qəzanın ərazisi 6 829,7 kv. verst idi. Quberniyada qeydə alınmış 878 415 nəfər əhalidən 137 871 nəfəri Zəngəzur qəzasında yaşayırdı[15,1]. Hətta nisbətən az-çox sabit sayılan 1897-ci ildə bu qəzada qeydə alınmış əhali içərisində 1783 nəfər xarici dövlət təbəəsi və 1623 nəfər müvəqqəti məskunlaşmış əhali olmuşdur [15,1].

1897-ci ilin məlumatına görə qəza əhalisinin 73 013 nəfəri müsəlman, 63 622 nəfəri erməni, 1 006 nəfəri rus və ukraynalı, 9 nəfəri alman, 7 nəfəri dağıstanlı, 214 nəfəri isə digər xalqlar və etnik qrupların payına düşürdü [15, 2]. Düzdür, 1897-ci ildə ermənilərin də çox böyük əksəriyyəti artıq "yerli əhali" qrupuna aid edilirdi. Belə əhalinin ümumi sayı qəza üçün 134,6 min nəfərə bərabər idi.

Lakin bu qəzada diqqəti çəkən həm də odur ki, burada digər qəza, quberniya və dövlətlərdən olanların sayı xeyli çox idi. Beləki, Zəngəzur qəzasında Yelizavetpol quberniyasının digər qəzalarından olan 1 114 nəfər, imperiyanın digər quberniyalarından olan 933 nəfər və digər dövlətlərdən olan 1 239 nəfər qeydə alınmışdır. Sonuncu göstəriciyə görə Zəngəzur qəzası ancaq quberniya mərkəzinin yerləşdiyi Yelizavetpol qəzasından (3496 nəfər) geri qalırdı [15,2].

Deməli romanovlar Rusiyasının yürütdüyü milli-müstəmləkəçilik siyasətinə, kütləvi xristian köçürmələrinə baxmayaraq, qəza əhalisinin hələ də yarısından çoxunu – 52,96 %-ni yenə də müsəlmanlar təşkil edirdi. Çarizmin sevimlisi olan ermənilərin xüsusi çəkisi isə hələ də yarıdan az idi – 46,15 %.

1897-ci ilə aid başqa bir qaynağın, bir o qədər də etibarlı mənbə hesab olunmayan "Qafqaz təqvimi"nin məlumatına görə 1897-ci ildə bu qəzada yaşamış əhalinin ümumi sayı 142 064 nəfər olmuşdur [11, 30-31].

XIX əsrin 90-cı illərinin ortalarında xarici havadarlarının muşquruğu ilə Anadoluda qaldırılmış erməni qiyamları Osmanlı hakimiyyəti tərəfindən qətiyyətlə yatırıldıqda Cənubi Qafqaza yeni erməni qaçqın kütlələri yönəlmiş və onların da əksər hissəsi yenə də Azərbaycan torpaqlarında – İrəvanda, Naxçıvanda, Qarabağda, habelə Zəngəzurda yerləşmişdi.

XX əsrin əvvəllərində xristian imperiyasının hərtərəfli dəstəyi şəraitində Şimali Azərbaycanda kök salmış ermənilər "Qoy özümə yer eləyim, gör sənə neylərəm!" – prinsipini rəhbər tutaraq hakimiyyət orqanlarının cinayətkar fəaliyyətsizliyi, bəzi hallarda isə açıq-aşkar xristian təəssübkeşliyindən faydalanaraq, Quzey Azərbaycanın İrəvan, Naxçıvan, Bakı, Gəncə, Qarabağ və b. bölgələri kimi Zəngəzurda da bu torpaqların tarixi sahibləri, aborigen sakinləri olan türk-müsəlman əhalisinə qarşı görünməmiş vəhşiliklər törətdilər. 1905-1907-ci illərdə daşnak erməni quldurları Zəngəzurun Mollalar, Batman, Qalaboynu, Zurul, Pirdavud və s. onlarla kəndi xarabazara çevirib yüzlərlə dinc sakini qətlə yetirdilər.

Bu qanlı-qadalı illərdən sonra Zəngəzur qəzasının əhalisi təbii artım, inzibati-ərazi dəyişiklikləri və mexaniki artım hesabına artmaqda davam edərək, 1910-cu ildə 187 851 nəfərə, Birinci Cahan savaşı ərəfəsində isə 220 186 nəfərə çatmışdı [12, 118-120]. Bu dövrdə müsəlman əhalisi Zəngəzur qəzasında başlıca demoqrafik toplum olaraq qalmaqda idi. Beləki, onların sayı təxminən 132 min nəfər olduğu halda, ermənilərin sayı 87 min nəfər, rusların sayı isə cəmisi 1,7 min nəfər təşkil edirdi [12, 118-120].

1917-ci ildə Zəngəzur qəzasında yaşayan əhali içərisində ermənilərin (99 308 nəfər) xüsusi çəkisi artıq 44 %-ə çatmış, azərbaycanlıların (1141 52 nəfər) xüsusi çəkisi isə 51 %-ə enmişdi [6, 265].

Amerika, Fransa, İngiltərə, Yunanıstan, Rusiyanın çox böyük səxavətlə silahlandırdığı general Andranik Ozanyanın komandanlığı altında erməni hərbi hissələri 1918-ci ilin yayında Zəngəzura daxil oldu, illərlə ermənilərlə qonşuluqda, bir çox halda eyni kənddə çəpər-çəpərə qonşuluqda yaşayan, hər cür hücuma tam hazırlıqsız olan günahsız müsəlman əhalinin qətl-qarətinə, dədə-baba yurdlarından zorla, silah gücünə çıxarılmasına başladı.

Gorus şəhərini mərkəz seçib özünü "Zəngəzur qubernatoru" elan etmiş Andranik Ozanyan qoşunlarının hücumları nəticəsində 115-dən çox türk-kürd kəndi yağmalayaraq dağıdıldı, 10 mindən çox dinc insan qətlə yetirildi[6, 268].

Plana görə Naxçıvandan Gəncəyə qədər bütün müsəlman əhali qırılıb, köçürülüb təmizlənməli, Tiflisdən köçüb Gəncədə yerləşmiş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Hökuməti beşikdəcə boğulmalı, Bakıda Şaumyanın rəhbərlik etdiyi bolşevik-daşnak ordusu ilə birləşib bütün Şimali Azərbaycanı işğal etməli idi.

Andranik qoşunlarının Zəngəzurda törətdiyi qırğınların miqyasını o dövrün mətbuatından, yerli hakimiyyət nümayəndələrinin, ictimai xadimlərin teleqram və məktublarında, Azərbaycan hökumətinin 1918-ci il iyulun 15-də Fövqəladə İstintaq Komissiyasının hesabatından və AXC dövrünün arxiv sənədlərindən müəyyən etmək olar. Fövqəladə İstintaq Komissiyası 1918-1920-ci illərdə müsəlmanlara qarşı edilən zorakılıqlara dair 36 cildlik (3.500 səhifəlik) hesabat hazırlamışdır. Həmin hesabatın 80 səhifədən ibarət 2 cildi bilavasitə ermənilərin Zəngəzurda törətdikləri qırğınlardan bəhs edir.

Bu qanlı qırğınlar nəticəsində, əsasən, qəzanın şərq bölgələrində yaşayan müsəlman əhalisinin xüsusi çəkisi xeyli azalıb 1918-1919-cu illərdə daşnak Ermənistanın təcavüzü nəticəsində qəzada 10 min nəfərədək müsəlman qətlə yetirildi.

Erməni vəhşiliyinin insan ağlına sığmayan nümunələrindən biri Qafana bitişik kəndlərdə törədildi. 1919-cu il dekabrın 1-də sübh çağı ermənilərin aldadıcı "Allahü əkbər" nidaları ilə üç istiqamətdə başlayan hücumlarında Oxçuda əvvəlcə kəndin ortasına toplaşan hər şeydən xəbərsiz əli silah tutan kişilər gülləyə qənaət etməkdən ötrü xəncərlə doğrandı, gürzlərlə başları əzildi, ardınca da məscidin içinə 400-dən çox qadın və uşaq doldurulub içəri qumbaralar atılıb sonra od vurub yandırıldı. Bu kəndin 1400 sakinindən yalnız 10-12 nəfər sağ qurtuldu, öldürülənlərin yalnız 133-nün kimliyini tanımaq mümkün oldu. Şabadindən cəmi 8 kişi, 7 qadın sağ çıxdı, Atqız kəndinin 4000 sakinindən yalnız 261 nəfəri mühasirədən sağ çıxa bildi, onların da 167-si Gığı dərəsindən Ordubada keçən qarlı, şaxtalı yollarda donub öldü. Çaylıda 900 müsəlman öldürüldü, tamamən mühasirəyə alınmış Mədən, Şəhərcik, Buğacıq, Mollalı, Həkəri, Keçi Sofulu, Kurud, Keçili, Əsgərli, Pirçevan, Zəngəzur qəzasının 3-cü sahəsinin (Qubadlı rayonu) Xocahandan Qaladərəsinə qədər ərazidəki 48 kəndin əhalisi amansızlıqla qətlə yetirildi, evləri tamamən yandırılıb, talan, qarət edildi. Qubadlının 1993-cü ilin 31 avqust işğalına qədər o kəndlərin bir çoxunun xarabalıqları dururdu, heç kəs oralarda yenidən məskən salmağa ürək etmirdi, insanlar o yerlərə gizli bir qorxu hissi ilə baxırdılar ki, qırılan insanların ruhları hələ də o kəndlərin xarabalıqları üzərində gecə-gündüz qorxunc inilti ilə haray çəkir. Bir çox kəndin isə yalnız adları arxiv sənədlərində qalıb.

General Andranikin davamçısı olan Qaregin Njde bu qanlı qırğın əmrini verəndən cəmi 1 həftə əvvəl-23 noyabrda Tiflisdə Ermənistan və Azərbaycanın baş nazirləri A.Xatisovla N.Usubbəyov arasında Amerika ordusunun baş qərargah polkovnikinin, Gürcüstan Xarici İşlər nazirinin iştirakı ilə sülh sazişi imzalanmışdı və dekabrın sonlarına ABŞ, Böyük Britaniya, Fransa, İtaliya hökumətlərinin Qafqazdakı missiya başçılarının iştirakı ilə birgə sülh konfransının keçirilməsi barədə razılıq əldə olunmuşdu[1].

Zəngəzurda tökülən çox sayda günahsız qanın bir səbəbi də heç şübhəsiz, AXC Hökuməti və Parlamenti rəhbərliyinin dişsiz, tez aldanan, iradəsiz, çevik olmayan, cəsarətsiz hərəkətlərinin, qətiyyətsizliyinin, xalqın göylərə bülənd olan ah-naləsinin qulaqardına vurulmasının nəticəsi idi.

Arxivlərdə, son illər nəşr edilmiş kitablarda, o cümlədən AXC Parlamentinin iclas stenoqramlarında həmin qanlı günlərdə onlarla ziyalının, el-oba ağsaqqalının, Hökumət tərəfindən vəkil edilmiş Zəngəzur qaçqınlarına yardım komitəsi üzvlərinin imzaları ilə 1919-cu ilin noyabrından göndərilən xəbərdarlıq teleqramlarından, dekabrın ilk günlərindən - Njdenin hücumları başlanmazdan əvvəl və sonra birbaşa qırğın yerlərindən, erməni qətliamlarının tükürpədən gerçəkliklərinin əks olunduğu teleqramlar bunun sübutudur.

"Biz Oxçu-Şabadin və Gığı dərəsi sakinləri hər tərəfdən ermənilərlə əhatə olunmuşuq, onların bütün əməlləri və rəftarları bizə hücum etməyə hazırlaşdıqlarını açıq şəkildə sübut edir, onların köməyinə nizami qüvvələr gəlib. Onların top və pulemyotları var. Biz çıxılmaz vəziyyətdəyik, biz qorxuruq. Sizin ayaqlarınıza düşüb mərhəmət diləyirik və bizi xilas etməyinizi xahiş edirik. Bizə güllə və pulemyotu olan bir neçə zabit göndərin. Əgər göndərməsəniz, xəbər verin ki, biz vaxtında öz kəndlərimizi tərk edək, yoxsa biz bilirik ki, xilas ola bilməyəcəyik"[2, 18; 22;26].

"Silahının gücünü Zəngəzurun həmişə təqiblərə məruz qalmış, məzlum, bədbəxt müsəlman əhalisi üzərində sınayaraq cəzasız qalan ermənilərin təcavüzkar hərəkətləri barədə hökumətə dəfələrlə xəbər verilmişdir. Zəngəzur müsəlmanlarının müdafiəsi üçün hökumət tərəfindən indiyədək heç bir real tədbir görülməmişdir. Hökumətin fəaliyyətsizliyindən əl-qolu açılan Zəngəzur erməniləri nizami hissələrin köməyi ilə birləşmiş Qarabağ qüvvələri kimi hərəkət edib bütün yolüstü müsəlman kəndlərini məhv etmək, Qarabağa daxil olaraq Əsgəranı tutmaq, Şuşanı almaq qərarına gəliblər. Bu qərar indi icra edilir….Xankəndində əhalinin müdafiəsi tapşırılan qarnizon əmr verilmədən müdafiəyə başlamağa cəsarət etmir…Cinayətkar ermənilərin hökmranlığına və belə biabırçı hadisələrə son qoymağı, Qarabağ və Zəngəzurun mühüm ehtiyaclarının həlli üçün bir dəqiqə vaxt ayırmağa sizdən sonuncu dəfə xahiş və tələb edirik, əks təqdirdə, hökumətin köməyini və icazəsini gözləmədən özünümüdafiə tədbirləri görməli olacağıq."

"Həlak olmuş Zəngəzur müsəlmanları sizə cansağlığı diləyirlər. Zəngəzurlular nə qədər ağlasalar da, onların iniltisi cavabsız qaldı, heç kəs onların köməyinə gəlmədi. Qadınların döşləri kəsilib, uşaqların başları kəsilib, bədənləri qan içindədir. Ermənilərin əllərinə düşən gözəl qızlar zorlanır. Zəngəzurda düşmənə müqavimət göstərmək üçün kişilər həddindən artıq azdır və onların kənardan köməyə bütün ümidlərini itiriblər" [3, 48].

Azərbaycan Xarici İşlər Nazirliyi isə 3 dekabrdan başlayaraq sağa-sola nota dalınca nota göndərməkdə idi.

Artıq Zəngəzur qəzası erməni nizami ordu hissələri tərəfindən xarabazara çevrilib 10 mindən çox müsəlman əhalisi məhv ediləndən, saysız teleqramlardan sonra nəhayət ki, 1920-ci il yanvarın 6-da keçirilən iclasda Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi "Zəngəzurun müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasının davam etməsinə qarşı tədbirlər görülməsinin zəruriliyi haqqında" Daxili İşlər Nazirliyinin məlumatını müzakirə edir. Qərara alınır ki, dinc əhaliyə qarşı ermənilərin bu hərəkətlərinin qarşısını almaq üçün müəyyən tədbirlər görülsün və bu haqda müttəfiq qoşunlarının bölgədəki nümayəndəsinə məlumat verilsin. 12 yanvar 1920-ci ildə erməni daşnak generalı Dro 600 nəfərlik silahlı dəstə ilə Qubadlının Alyanlı obalarını mühasirəyə alıb bütün əhalini körpəsinə qədər məhv etməyi əmr etmişdi. 5 kənddən ibarət Alyanlı camaatı ətraf kəndlərdən kömək gələnə qədər ermənilərin qarşısını kəsmiş, xeyli erməni qırmışdılar. Burada uğur qazanmağın nəticəsiz olduğunu görən Dro yanvarın 22-də Dondarlıya hücum edib kəndi tamamən yandırdı, 19-25 yanvarda Qubadlının 48 kəndi tamamən məhv edildi, əhalisinin dağlarda gizlənə bilməyənləri amansızlıqla qətlə yetirildi, həmin kəndlərin bir çoxunun işğala qədər yalnız adı, insan sümükləri ilə dolu xarabalığı dururdu. Zəngəzur qəzasının rəisi Şəkinski raportlarında az qala hər gün tar-mar edilib tamamən yandırılan kəndləri adbaad Bakıya xəbər verirdi. Azərbaycanın Tiflisdəki diplomatik təmsilçisi Vəkilov isə erməni ordu hissələrinin bütün hücumları barədə raportları Müttəfiq Dövlətlərin Tiflisdəki Ali Komissarı albay Gaskelə təqdim edirdi. Hələ müsəlman qırğınları başlanmadan bir neçə ay qabaq Şuşa, Zəngəzurdan ermənilərin ciddi hazırlıq gördükləri barədə məlumatlar Gəncə və Bakıya, Tiflisə göndərilirdi. Ancaq nə fayda?!

Və Cəlil Sultanovun yanvarın 24-də Parlamentin sədrinə ünvanladığı teleqramda "Zəngəzur sarıdan başınız sağ olsun, heç olmazsa Qarabağı xilas edin" sözlərini hansı ümidsizlik, xəyalqırıqlığı, qüssə, kədərlə yazdığını anlamaq çətin deyil. Həyəcanlı xəbərlər gəlməkdə, AXC Hökuməti isə sərəncamındakı sayca ermənilərdən az olmayan hərbi qüvvələri səfərbər etməklə vətəndaşlarını və torpaqlarını qorumaqdansa, diplomatik yazışmalara, bu hərbi-siyasi planların başında duran əcnəbilərə Ermənistan hökumətinin "yolverilməz hərəkətləri" barədə şikayətlər göndərməkdə davam edirdi. Əldə edilən "uğur" isə qan tökməkdən bezmiş, doymuş kimi görünən generallar Njde və Hamazaspın yerinə onlardan daha qəddar, döyüşkən generallar Dro, Qazaryan ilə əvəzlənməsi olmuşdu.

Artıq çox gec idi, daha əvvəlki Zəngəzur yox idi, olmayacaqdı. Bu qərar da hələ söz idi, ortada qətiyyət, birlik, siyasi iradə yox idi, ona görə də hərəkətə keçmək də xeyli vaxt apardı, artıq ruslar Qafqaza doğru hərəkətə keçmişdilər, 28 aprelə sayılı günlər qalırdı. N.Nərimanov başda olmaqla, Azərbaycan bolşeviklərinə Zəngəzur və Qarabağdan ağır miras buraxılmışdı, mövcud vəziyyət Zəngəzurun böyük bir hissəsinin Azərbaycandan qoparılmasına, Qarabağda erməni muxtariyyətinin yaradılmasına, əsrin sonlarında Azərbaycanın həmin faciələri bir daha yenidən daha ağır şəkildə yaşamasına təməl zəmin hazırladı

AXC –nin Baş naziri Fətəli xan Xoyskinin 4 fevral 1920-ci il tarixdə Ermənistanın Baş naziri Xatisova ünvanladığı teleqramda yazırdı ki, "Zəngəzur müsəlmanlarının tamamən yox edilməməsi üçün" Azərbaycan Ordusundan bir miqdar əsgəri qüvvə o bölgəyə göndərilmişdir və bu, 23 noyabr 1919-cu il anlaşmasına zidd deyildir. Nə qədər müti, qorxaq, qətiyyətsiz yanaşma!

Həmin sözügedən anlaşmadan sonra Ermənistan Respublikasının Hökumət qoşunları Dro komandanlığında qanlı qırğınları daha böyük vəhşiliklə davam etdirirdi. Öhdəsində 25 minlik silahlı qüvvəsi, xeyli top-tüfəngi, silah sursatı olan, 1-ci vəzifəsi vətəndaşlarının can, mal sağlığının qorunması, ərazilərinin mühafizəsi olan, 18 ay idi mövcud olan AXC rəhbərliyinin belə cəsarətsizliyi ürək ağrıdır, məyusluq doğurur... Axı may 1918-dən 28 aprel 1920-ci ilə qədər Ermənistana kənardan silah sursat yardımı, siyasi, diplomatik dəstək olsa da (Osmanlının AXC-yə yardımı daha böyük idi!), rus, ingilis, amerikan, fransız canlı qüvvəsi onların əvəzinə vuruşmurdu..

1918-ci ilə mayın 28-dən 1919-cu ilin mart ayına qədər düz dörd dəfə AXC - də hökumətin tərkibi dəyişdi. Amma ermənilər hələ 1918-ci ildə vaxt tapıb ABŞ-da "Ermənistanın müstəqilliyi uğrunda mübarizə komitəsi" də yaratmışdılar.[4,126].

Acı təəssüflər olsun ki, 70 il sonra yenə də Qarabağ münaqişəsinin yeni mərhələsi başlarkən eyni proses cüzi fərqlərlə təkrar olundu və biz bir xalq olaraq bu tarixi imtahandan da üzüağ çıxa bilmədik. Tarixi hadisələrdən, başımıza gələn düşmən hiylə və fəsadlarından vaxtında və lazımi nəticə çıxarmadığımız üçündür ki, bu gün erməni təcavüzü qarşısında aciz qalmışıq, dünya ictimaiyyəti hələ də Ermənistanı təcavüzkar kimi tanımır. 1918-1920-ci illərdə ermənilərin Zəngəzur və Qarabağı zorla Ermənistana birləşdirmək təşəbbüsləri ilə 1988-ci ildən başlanan "miatsum" hərəkatının - Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri arasında çox böyük oxşarlıq vardır.

AXC-nin mübahisəsiz ərazisi 97297,67 kv.km, Azərbaycanla Ermənistan və Gürcüstan arasında mübahisəli ərazisi 16598,30 kv.km olmuşdur. AXC dövründə mübahisəli ərazilərlə birlikdə ölkə ərazisi 113895,97 kv.km idi. Zaqafqaziyada Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Sovet Sosialist Respublikası, hətta öz mübahisəsiz ərazilərindən belə Moskvanın təzyiqi ilə müxtəlif dövrlərdə təqribən 10 min kv.km ərazisini Ermənistan və Gürcüstana verməyə məcbur edilmişdir [9, 50].

Eynilə, Zəngəzur torpaqlarının xeyli hissəsinin Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi 1920-1921-ci illərdə sovet Rusiyasının əli ilə reallaşdırıldı, Zəngəzurdan Azərbaycan-türk əhalisinin sonuncu nəfərədək qırılıb-qovulması və Ermənistan tərəfindən işğalı isə 1988-1993-cü illərdə çağdaş Rusiyanın hərtərəfli şəkildə dəstəklədiyi müasir daşnak quldurları tərəfindən həyata keçirildi [7].

Ermənilərin Zəngəzurda törətdikləri qanlı qırğınlar, soyqırım və deportasiya erməni müəlliflərinin əsərlərində də faktlarla təsdiq və etiraf olunmuşdur.

Erməni tarixçilərinin özləri dəfələrlə mənsub olduqları xalqın etdiyi vəhşiliklərdən dəhşətə gəlmiş, bunu ikrahla ifadə etmişlər. O.Q.Adamyan yazırdı : "...Bizim tarixdə sivil millət kimi yaşamağa haqqımız yoxdur. Biz özgə torpaqlarını işğal etmişik..." Yaxud: "Ermənistanın müsəlman və rus kəndlərini onlar odla, qılıncla məhv etdilər... Daşnak ordusunun başında duran kimlər idi? Aram və Rubendən, Martiros və Pilosadək nadan, talançı, quldur xmbapetlər. Bu ordu silahsız müsəlmanlara divan tutmaqda, dinc əhalini çapıb talamaqda məharətli və cəsarətli idi..."[18] A.Lalayan: "Ermənistanda daşnak hökuməti özünün 30 aylıq hakimiyyətidövründə (may 1918 - noyabr 1920) azərbaycanlı əhalinin 60 faizini qırıb...Andranikin, Amazaspın və başqalarının başçılığı altında daşnak dəstələri türk (azərbaycan) qadınlarının, uşaqlarının, qoca və cavanların məhv edilməsi işində maksimum cəsurluq göstərmişlər. Daşnak dəstələri tərəfindən tutulmuş kəndlər canlı adamlardan təmizlənib azad edilmiş və eybəcər hala salınmış meyitlərlə dolu xarabalığa çevrilmişdir"[16, 36-37].

Bu siyasət XXI əsrin əvvəlində yenə də ən yüksək səviyyədə davam etməkdədir. Bu qeyri-insani "səmimi mədəni etiraf"ın müəllifi isə Ermənistanın indiki prezidenti Serj Sarkisyandır:- "biz azərbaycanlıların inanmadığı bir işi gördük, biz stereotipi dağıtdıq, dinc xalqa əl qaldırdıq."

Sovet Rusiyası tərəfindən xalqın iradəsi ziddinə Zəngəzurun ərazisinin yarıdan çoxunun zorla qoparılıb Ermənistana verilməsi rəsmən elan olunsa da, Azərbaycan rəhbərliyində narazılıqlar olduğundan qəzanın Ermənistan idarəçiliyinə keçməsi dərhal baş vermədi. AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında "Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili" haqqında qərar çıxarıldı. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi - əhalisinin guya kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Kürdüstan qəzasının təşkili də növbəti bir səhv oldu. 1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonradan digər ərazilərin işğalına başladı: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405000 desyatin (4414,5 kv.km), Qazax qəzasından 535096 desyatin (5832,82 kv.km) , Naxçıvan MSSR-dən 657 kv.km, Cəbrayıl qəzasından Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 kv. km-ə çatdırıldı.

1917-ci ildə Zəngəzur qəzasında yaşayan 123085 azərbaycanlıdan yarısı deportasiyaya məruz qaldı. 1926-cı il siyahıyaalınma göstəricilərinə görə bölgədə müsəlmanların sayı heç 5 minə də çatmamışdı, yəni 1918-1920-ci illərdə Zəngəzurdan qovulmuş azərbaycanlı qaçqının yalnız 5 min nəfəri öz vətəninə dönmüşdü[8].

Ötən əsrin əvvəllərində böyük güclərin cızdığı ssenari əsrin sonunda reallaşdırıldı; tarixi Zəngəzurun Laçın, Qubadlı, Zəngilan rayonları Dağlıq Qarabağ və ətraf rayonlarla birlikdə Azərbaycandan qoparıldı, Vətən torpaqlarının itkiləri bu dəfə daha çox oldu.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində də Ermənistanın işğalı tanınır və nəticələrinin aradan qaldırılmasının vacibliyi tələb edilir. Azərbaycan xalqı və onun hökuməti dünya güclərinin, böyük xristian dövlətlərinin hərbi - siyasi havadarlığı, fəal dəstəyi ilə reallaşdırılan bu təcavüz aktı ilə heç zaman barışmamışdır və barışmayacaqdır. Xalqımızın müvəqqəti itirilmiş torpaqlarımıza qayıdış ruhu güclüdür. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən ilki aprel döyüşlərində erməni qəsbkarlarına sübut etdi ki, işğalçılar məğlub ediləcək və böyük qələbəmiz uzaqda deyil. Prezidentin Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Sərəncamının da mahiyyətində bu durur və əhəmiyyəti ondan ibarətdir ki, işğaldan azad olunmuş torpaqlarımızda bərpa işlərinə və beləliklə, xalqımızın doğma yurd-yuvalarına böyük qayıdışı başlanacaq. Biz tarixçilər inanırıq ki, bu müdrik, qətiyyətli və cəsarətli siyasətin zəfər çalması nəticəsində xalqımız nəinki Qarabağdakı yurd yerlərinə, həmçinin gələcəkdə İrəvan, Zəngəzur və Göyçə ellərinə də qayıdacaq. Dövlətimizin başçısının ətrafında sıx birləşməklə biz bu qələbələrə hökmən nail olacağıq" [5].

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti, Erməni xisləti, 31 mart 2012-ci il
2. ARDA: f. 895, siy. 1, iş 299
3. ARDA. f. 897, siy. 1, iş 112
4. Arzumanlı V, Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. - Bakı: Qartal, 1998.
5. Mahmudov Yaqub: «Biz tarixçilər inanırıq ki, gün gələcək İrəvan, Zəngəzur, Göyçə ellərinə də qayıdacağıq», AZERTAG.AZ, 28.01.2017
6. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). (Yenidən işlənmiş təkrar – 2-ci nəşri). – Bakı: Bakı Universiteti nəşriyyatı, 1998
7. Nərimanoğlu H. Tarix təkrar olunur, www.qafqazinfo.az siyaset-2/tarix-tekrar-olunur-yaxuddeyisen. 03.04.2012
8. http://www.meclis.gov.az/?/az/stenoqram/301, Azərbaycan Respublikası Milli Məclisinin V sessiyası iclasının protokolu № 34, 2012-ci il 24 fevral tarixli iclasın stenoqramı
9. Адрес-календаръ Азербайджанской Республики на 1920 г, Бакı 1920, 1-я ч.
10. Кавказский календарь на 1891 год. – Тифлис, 1890, отд. статистики
11. Кавказский календарь на 1900 год. – Тифлис, 1899, отд. III
12. Кавказский календарь на 1914 год. – Тифлис, 1913, отд. стат. IV
13. МИЭБГКЗК, т. IV, ч. I

14. Описание Карабахской провинции, составленное на 1823 г. по распоряжению главноуправляющего в Грузии Ермолова действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис: 1866
15. Первая всеобщая перепись населения Российской империи, 1897 г. Изд. ЦСК МВД под редакцией Н.А.Тройницкого LXIII. Елисаветпольская губерния. – СПб, 1904.
16. "Revolyusionnıy Vostok" jurnalı, 1936, № 2-3

## DEMOGRAPHIC CHANGES IN ZANGAZUR- NORTH AZERBAIJAN REGION IN THE XIX AND THE BEGINNING OF XX CENTURIES
## SUMMARY

This article analyzes the demographic changes in Zangazur, which was a part of Azerbaijan in the XIX and the beginning of XX centuries. It also comparatively and analytically discusses the changes that occurred in the ethnic composition of the region in accordance with colonial policy of tsar Russia, which tried to relocate Armenians from Turkey and Iran to Caucasus to establish here Christian community.

Besides, tragic situation followed by planned genocide against Muslim Azerbaijanis and tsar deportation policy have been justified with facts and specific documents in the study. Finally, the historical and military-political situation that gave rise to the massacres committed in the provinces of Karabakh and Zangazur at the beginning of the XX century has been studied in the research paper.

## ДЕМОГРАФИЧЕСКИЕ ИЗМЕНЕНИЯ В ЗАНГЕЗУРЕ – ТЕРРИТОРИИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В 19 И В НАЧАЛЕ 20 ВЕКОВ
## РЕЗЮМЕ

Статья анализирует демографические изменения в Зангезуре, который являлся частью Азербайджана в 19 и в начале 20 веков. Также в статье проводится сравнительное и аналитическое исследование изменений, происходящих в этническом составе региона в соответствии с колониальной политикой царской России, которая склонялась к переселению армян из Турции и Ирана на Кавказ с целью создания здесь христианской диаспоры. Более того, трагическая ситуация, последовавщая за планированным геноцидом против мусульман-азербайджанцев и депортационная политика отмечены в статье на основе фактов и конкретных документов. Помимо вышесказанного, в данной работе обсуждаются исторические и военно-политические ситуации, вызванные массовыми истреблениями в провинции Карабах и в Зангезуре в 19 и в начале 20 веков.

Ədalət MUSTAFAYEV

# ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ VƏ SOYQIRIM SİYASƏTİ

**Açar sözlər:** Dağlıq Qarabağ münaqişəsi, ərazi iddiaları, hərbi müdaxilə, silahlı birləşmələr, geosiyasi maraqlar

**Keywords:** The Nagorno-Karabakh conflict, territorial claims, military intervention, military and geopolitical interests

**Ключевые слова:** Конфликт по Нагорному Карабаху, территориальное претензия, военные нападения, вооруженные силы, геополитические интересы

XX əsrin sonlarına doğru geosiyasi dəyişikliklər zəminində baş verən siyasi proseslərdən məharətlə istifadə edən dünya erməni lobbisi və onların himayədarlarının sayəsində kriminallaşan Ermənistan cəmiyyətində Azərbaycan xalqına qarşı zorakı metodlardan istifadə edərək ən ağır cinayətləri həyata keçirməyi planlaşdırdılar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirən SSRİ Müdafiə nazirinin sabiq müavini A.Çernavin SSRİ hakimiyyətinin yeritdiyi ikili siyasətə irad olaraq bildirirdi ki, "fövqəladə vəziyyətin, Azərbaycan SSR-in ərazisində olduğu kimi, Ermənistan SSR-də də tətbiqi vacibdir" [22]. Ermənistanda bir sıra hərbi hissələrin formalaşdırılması haqqında 1990-cı ildən etibarən məlumatlar açıqlanmağa başladı. Bunlardan EMO (Erməni Milli Ordusu), "Davud Sasunlu" silahlı birləşməsi, "Aydat" (Erməni məhkəməsi), Muş (Milli İttifaq) və digər silahlı birləşmələr hərbi qaydalara uyğun formalaşdırılmışdır. Onların tərkibindəki silahlı birləşmələr 50-700 nəfərlik dəstələri əhatə edirdi.Hərbi birləşmələr hər cür ağır zirehli texnikalarla silahlanmış, hətta 20-dən çox Mi-4 döyüş vertolyotuna malik idilər. Gümrüdə yerləşdirilmiş 127-ci diviziyanın müxtəlif təyinatlı xüsusi dəstələrinin və onların hərbi texnikasının, həmçinin Don və Kuban kazaklarından təşkil olunmuş dəstələrin ermənilər tərəfindən Azərbaycana qarşı hərbi müdaxilə etməsi daha çox diqqət çəkir. 1990-cı il yanvarın 24-də Fransa mətbuatında Ermənistana Livandan təyyarələrlə ağır silahlar, minaatanlar və avtomatlar daşınması haqqında məlumat verilirdi. Eyni zamanda qeyd olunur ki, hərbi texnikanın daşınma prosesi ermənilərin nəzarətində olmuş, həmin ərəfədə Ermənistan gömrük məntəqəsində bir nəfər də olsun rus əsgəri qalmamışdır[21, 463-464]. Belə ki, onlar xidmətdən məqsədli şəkildə, müvəqqəti olaraq uzaqlaşdırılmışdılar.

1991-ci ilin yanvarından etibarən SSRİ-də siyasi və iqtisadi sahələrdə vəziyyətin mürəkkəbləşməsi, siyasilərin hadisələrə münasibətində qeyri-müəyyənlik hökm sürürdü. M.S.Qorbaçovun tez-tez müxtəlif şəxslərlə, o cümlədən Tizyakov, Kryuçkov, Baklanov, Yazovla görüşməsi və onların bəzi məsələlərdə fikirlərinə münasibət, iqtisadiyyatın çökməsi, dövlətin uçuruma getməsi, yeni ittifaq müqaviləsinin imzalanması kimi məsələlərə münasibətinin öyrənilməsi heç bir effekt vermirdi [15, 9]. Yaranmış siyasi şəraitdən lazımınca yararlanan Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı mənfi təbliğatın aparılmasında bütün vasitələrdən istifadə edirdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Rusiya Federasiyasının deputatlarından bir qismi də ermənilər tərəfindən müdafiə xarakterli çıxışlar ilə açıq şəkildə hadisələrə müdaxilə etməyə başlamışdılar. Rusiya Federasiyasının deputatları yalnız SSRİ ərazisində antiazərbaycan təbliğatla kifayətlənməyərək ABŞ və Qərb dövlətlərində də fəal iş aparırdılar. 1991-ci il oktyabrın 23-də Amerika konqresinin Helsinki komissiyasında DQMV ilə bağlı keçirilən görüşdə Yelena Bonner, Baronessa Kokk, RSFSR deputatlarından Kaqudayev, Şabad və Ermənistanın Amerikadakı daimi nümayəndəsi A.Arzumanyan iştirak edirdi[3]. Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağın statusu barədə ermənilərin mövqeyinə uyğun müxtəlif təkliflər irəli sürən həmin deputatlar ermənilər tərəfindən maliyyələşdirilirdi. Üç dəfə Azərbaycanda - DQMV-də olmuş Baronessa Kokk problemin həlli üçün irəli sürdüyü 7 maddədən ibarət təklifin maddələrinin əksəriyyəti Azərbaycanın suverenliyinə müdaxilə xarakteri daşıyırdı. O, DQMV-yə BMT qüvvələrinin göndərilməsini və münaqişəyə beynəlxalq müdaxiləni artıraraq məsələnin BMT Təhlükəsizlik Şurasına çıxarılmasını tələb etməklə sözügedən ərazidə ermənilərin müstəqilləşməsinə doğru cəhdlər edirdi[3]. Ermənistanda antiazərbaycan-antitürk siyasətin yeridilməsi və müxtəlif istiqamətlərdən "vətənpərvərlik" hissinin müəyyən siyasi qüvvələr tərəfindən aşılanması haqqında kifayət qədər nümunələr göstərmək mümkündür. Hələ 1985-ci ilin noyabrında

Ermənistan universitetlərinin birində partiya təşkilat katibinin dediyi "erməni vətənpərvərliyi Rusiyanın sevgisi ilə bağlıdır və türk düşmənçiliyinə hesablanmışdır"[21, 463].

Qeyd etmək lazmdır ki, Azərbaycan Respublikası-Rusiya Federasiyası, Ermənistan Respublikası-Rusiya Federasiyası arasında müxtəlif səviyyəli danışıqların aparılması mütəmadi olsa da, münaqişədə hərbi qarşıdurma passiv mərhələdən aktiv mərhələyə keçməsi aydın hiss olunurdu. Dağlıq Qarabağı tamamilə azərbaycanlılardan təmizləmək siyasətini qarşılarına məqsəd qoyan supergüclərin hərbi və siyasi dəstəyinə arxayın olan ermənilər 1991-ci il sentyabrın 24-də Ağdərə rayonunun İmarət Qərvənd kəndini işğalından sonra, ərazilərin mütəmadi xarakter alan zəbtinə başladılar [16]. Onlardan bəziləri haqqında məlumat verməklə törədilən cinayətin ağırlığını qeyd etmək yerinə düşər: erməni hərbi təcavüzünün davamı olaraq Xocavəndin Qaradağlı kəndi 1992-ci ilin fevralın 17-də işğala məruz qaldı. Azərbaycanlıların azlıq təşkil etdiyi qeyri - bərabər döyüşdə ermənilər Qaradağlıda soyqırım törətdilər, 104 nəfəri əsir götürüb vəhşicəsinə qətlə yetirdilər. Əsir alınanlardan 68 nəfəri amansızlıqla öldürülmüş, böyük çətinliklə əsirlikdən azad olunanlardan bir qismi onlara verilmiş işgəncələrə dözməyərək vəfat etmişlər [8, 93].

Erməni hərbi birləşmələri tərəfindən işğala məruz qalan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan ərazilərində törədilmiş cinayətin ağırlığına görə aşağıdakı məntəqələr xüsusilə fərqlənirdi. 1991-ci il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli, dekabrın 21-də Meşəli kəndi, 1992-ci il fevralın 11-də Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin əhalisinə qarşı amansız divan tutmuş, ağlagəlməz cinayətlər törətmişlər [13, 147].

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rusiya Federasiyasının 366-cı alayının köməkliyi ilə Xocalı qətliamı həyata keçirildi. Əslində, bu Azərbaycan xalqının əzmini qırmaq üçün həyata keçirilən soyqırım siyasəti idi, yəni Ermənistan Respublikasının imkanı çatsaydı bu qayda ilə bütün Azərbaycan xalqını məhv edəcəkdi. Məhz elə buna görə də, bu qətliam soyqırımdır. "Xocalı faciəsi dünya soyqırımları ilə bir sırada dayanan, erməni terrorizminin mahiyyətini bütövlükdə ortaya qoyan beynəlxalq cinayət faktıdır. Bu faktın dünyaya və Azərbaycanın taleyi olan gələcək nəsillərə çatdırılması üçün çox işlər görülməlidir. Dünya Xocalı soyqırımını bu qəbildən olan Xatun, Naqasaki kimi faciələrlə bir sırada qəbul etməlidir" [2, 9]. Eyni zamanda ermənilər Fərqanə hadisələrindən zərər çəkib, əzab-əziyyətlərə düçar olaraq Azərbaycanın Xocalı şəhərinə pənah gətirmiş Məhsəti türklərinə qarşı da ağır işgəncələr verməklə soyqırım törətmişlər [17, 387].

1992-ci ilin mayın 8-də qədim tarixə malik Şuşa şəhəri çox güclü silahlanmış erməni hərbi birləşmələri tərəfindən işğal olunaraq bütün mənəvi dəyərlər məhv edildi. Bütün muzeylər "...1992-ci ilin mayında Şuşanı işğal edən erməni vandalları tərəfindən dağıdılaraq yerlə yeksan edilmiş, onların eksponatları qarət olunub aparılmışdır" [12, 108]. Mövcud şəraitdə Respublikada ictimai-siyasi vəziyyətin gərginliyi, yaranmış xaosdan istifadə edən böyük dövlətlərin himayəçiliyilə Ermənistan hərbi birləşmələrinin fürsətdən istifadə etməsi İran İslam Respublikasının "vasitəçilik missiyası" dövrünə təsadüf etməsi diqqət çəkir. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Yaqub Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində İran İslam Respublikasının vasitəçiliyi ilə Ermənistanla Tehranda baş tutmuş danışıqlar haqqında fikir bildirərkən deyir: "İran bizi inandırmışdır ki, ermənilərlə danışmışıq, hücum etməyəcəklər. Bir də İran bizə hərbi kömək edəcəyini bildirirdi" [4]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində balanslı mövqe nümayiş etdirən İran İslam Respublikasının geosiyasi maraqlarına önəm verən bəzi müəlliflər Azərbaycandan fərqli olaraq, Ermənistanla geosiyasi müttəfiqlik, Dağlıq Qarabağın xüsusi statusunda Tehranın maraqlı olmasını vuğulayırlar [20, 436]. Məhz, bu baxımdan, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində fəal "siyasət yeritməyə" cəhd edən İİR-in qeyri-müəyyən mövqeyi danılmazdır.

1992-ci il may ayının 15-də Azərbaycanda dövlət çevrilişinin baş verməsi, ictimai-siyasi vəziyyətin gərginləşməsi mayın 17-18-də Laçın rayonunun itirilməsi ilə davam etdi. Laçının işğalında ermənilər Qarabağ özünümüdafiə qüvvələrinin fəaliyyəti ilə əlaqələndirən erməni mətbuatı cəfəng fikirlər səsləndirirlər [19, 672]. İyun ayında Azərbaycan ordusu əks-hücuma keçərək ermənilər üzərində üstünlüyü ələ ala bildilər. Əsasən, Dağlıq Qarabağın şimal ərazilərinə nəzarəti öz üzərinə götürən Azərbaycan ordusu, strateji cəhətdən əlverişli olan Ağdərə rayonunu az bir hissəsi istisna olmaqla, ermənilərdən təmizlədilər. Cəbhədə ermənilərin məğlubiyyətinə münasibət bildirən Mixail

Jiroxov yazır ki, "erməni komandanlığında elə vəziyyət yaranmışdır ki, nəticədə onlar pərakəndə halda qaçır və heç bir əmrə tabe olmurdular. Onları dayandırmaq və Stepanakertin (Xankəndi - Ə.M.) müdafiəsini təşkil etmək üçün heç bir imkan yox idi. Belə bir şəraitdə erməni rəhbərliyi Rusiya Federasiyası Prezidentinə hərbi cəhətdən kömək üçün müraciət etdi. Onların döyüş vertolyotları havaya qalxan zaman artıq onlara bir neçə zərbə vuruldu və bu əməliyyat Azərbaycanın əks- hücumu sayəsində faktik olaraq dəf edildi..." [18, 110]. Rusiya Federasiyasının ermənilərin revanş götürməsinə şərait yaratması və hərbi cəhətdən açıq müdaxiləsini təhlil edən müəllif münaqişənin gedişini belə şərh edir: "Yeri gəlmişkən qeyd edək ki, bu praktik olaraq yeganə hadisədir ki, Rusiya tərəfi Qarabağda hərbi əməliyyatların gedişinə açıq şəkildə müdaxilə edir" [18, 110]. Qeyd etmək yerinə düşər ki, Rusiyanın münaqişədə, ilk dəfə olaraq, açıq şəkildə qoşulması fikri ilə razılaşmaq düzgün olmazdı. Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kəndlərin boşaldılmasında, Xocalı şəhərinin məhv edilməsində əsas texnika və hərbi qüvvə Rusiyaya məxsus 366-cı alayın hərbi birləşmələri idi.

Rusiya Federasiyasının təzyiqləri artırması və hərbi müdaxiləsinin dərinləşəcəyini ehtimal edən Azərbaycan Respublikası rəsmiləri məcburiyyət qarşısında qalaraq danışıqlara başladılar. 1992-ci il iyulun 9-da "...Azərbaycan tərəfi münaqişənin siyasi yolla həllinə dair danışıqlara, əsasən, cəbhənin cənub xəttində Mardakert (Ağdərə-Ə.M) - Sərsəng xətti boyu hücumu dayandırdı" [18, 111]. Bununla da, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Rusiya Federasiyasının müdaxiləsi ilə cəbhədə dönüş yarandı.

1993-cü il iyulun 23-də Ermənistan hərbi birləşmələrinin Ağdam rayonunun işğalından sonra BMT TŞ tərəfindən 853 saylı qətnamə qəbul edilərək hərbi əməlliyyatların dayandırılması və ermənilərin çıxarılması tələb olundu [9]. 14 maddədən ibarət 853 saylı qətnamə əvvəlki 822 saylı qətnamənin davamı kimi qiymətləndirilir [7]. Azərbaycan Müdafiə Nazirliyinin o zamankı Baş qərargah rəisinin müavini polkovnik Aleksandr Vasyak Respublikanın Qazax-Gədəbəy istiqamətində cəbhə boyu Ermənistan tərəfinin "5,5 min nəfərlik canlı qüvvə, o cümlədən polkovnik Arakelyanın Armavirdən muzdla tutduğu 1000 kazak, bu müharibədə hələ tətbiq edilməyən "Uraqan" tipli reaktiv sistem,T-80 tipli 20 ədəd tank, çoxlu digər hərbi texnika" toplaması haqqında məlumat vermişdir. Digər tərəfdən, "düşmən, müvafiq olaraq, Goranboy, Tərtər və Beyləqan rayonları üzərinə hücum hazırlayır". Polkovnik A.Vasyak bildirirdi ki, "erməni tərəfinin bu cür hərəkətləri düzəldilməsi qeyrimümkün olan nəticələrə gətirib çıxara bilər, qonşu dövlətləri də bu münaqişəyə cəlb edə bilər" [1].

A.Vasyak tərəflərin malik olduqları qüvvələr nisbəti haqqında verdiyi məlumat göstərilirdi ki, Ermənistan silahlı qüvvələrində tankların sayına görə Azərbaycan silahlı birləşmələrindən 5,1 dəfə, top və minaatanların sayına görə 2,5 dəfə, PDM-lərin sayına görə isə 1,7 dəfə üstün idi. "Sırf hücum silahı olan tankların çoxluğu bir daha onu sübut edir ki, Ermənistan ordusu hərbi əməliyyatları qabaqcadan hazırlamışdır...." [1].

BMT TŞ-nin ardıcıl qəbul etdiyi qətnamələri "nəzərə almayan" Ermənistan hərbi hücumları davam etdirərək Qubadlı rayonunun işğalına başladı. 1993-cü il avqustun 31-də rayon bütünlüklə işğal olundu. "Bu təcavüzkar hücumda RF hərbi hissələrinin texnikası və əsgərləri də iştirak edirdi" [11, 278]. Bundan sonra, Təhlükəsizlik Şurasının 14 oktyabr 1993-cü il tarixli 874 saylı qətnaməsi qəbul olundu. Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixli 822 saylı və 29 iyul 1993-cü il tarixli 853 saylı qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq, Təhlükəsizlik Şurası sədrinin adına ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri və digər əsaslandırılmış faktlar gətirərək 3292 saylı iclasda yekdilliklə 874 saylı qətnaməni qəbul etdi [5, 8-9].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirən İran rəhbərliyi Ayətulla Cənnəti bildirir: "...dünya ictimaiyyəti Azərbaycan Respublikasında bir milyon insanın acınacaqlı taleyinə laqeyiddir"[10]. Eyni zamanda İran İslam Respublikasının Bakıdakı səfiri Ermənistanın Azərbaycan Respublikası ərazilərinin işğalına münasibət bildirərkən deyir: "Ermənilər bilməlidirlər ki, hərbdə qalib çıxan heç də həmişə belə müzəffər qalmır və məğlub olan da düşdüyü vəziyyətlə həmişəlik qane olmur ... Azərbaycan Respublikasının iqtisadi, ictimai və siyasi potensialını, həm də əhalisinin çoxluğunu neft və bu kimi digər yeraltı sərvət bolluğuna malik olduğunu nəzərə alsaq və çox güman, Azərbaycan xalqı yeni bir təkanverici hərəkətə gəlsə, Ermənistanın qazanaca-

ğı təkcə bu olacaqdır ki, öz qonşuları ilə sülh və sabitlik şəraitində yaşasın. Çox da böyük olmayan ötən vaxt ərzində neçə-neçə prezident, Ali Sovet sədri, baş nazir, müdafiə naziri dəyişmələrinin şahidi olmuşuq. Təkcə bir ildə Azərbaycan Respublikasında dörd müdafiə naziri dəyişib. Təbiidir ki, belə tez - tez baş verən hakimiyyət dəyişmələri və digər siyasi hadisələr uzunmüddətli bir iş üçün fərdlər hazırlanmasını istənilən nəticələrdən məhrum edir" [14]. Geosiyasi maraqlar baxımından İranın münaqişənin həlli yollarına müdaxiləsini böyük güclər heçə endirsə də, ağır vəziyyətdə olan Azərbaycan Respublikasından çox Ermənistan Respublikası ilə strateji əməkdaşlığa üstünlük verilməsi danılmaz faktlardır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə hücumlarını davam etdirməsinin qarşısını almaq və ölkənin bütün təşkilatlarının gücünü səfərbər etmək üçün Prezident H.Əliyevin 2 noyabr 1993-cü il milli televiziya və radio ilə xalqa müraciəti, 4 noyabr 1993-cü il keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşü, 5 noyabr 1993-cü il Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı, 17 noyabr 1993-cü il siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə görüşü xalqda böyük inam yaradaraq yenidən toparlamaq üçün bir stimul verdi[6, 227-256].

Beləliklə, Azərbaycan Respublikası ərazisinə erməni hərbi müdaxiləsi və təcavüzkarlığı, həmçinin, beynəlxalq hüququn fəaliyyətsizliyi, dini dözümsüzlük, imperialist və geosiyasi maraqlar kontekstində müşayiət olunurdu. Hərbi müdaxiləni dayandıraraq strateji hədəflərə çatmaq, Respublikanın beynəlxalq nüfuzunu qaldıraraq işğal olunmuş ərazilərin bərpası prioritet məsələ kimi qarşıda durur.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Arifoğlu F. Ermənistan geniş miqyaslı yeni hücumlar hazırlayır. "Azərbaycan" qəz., 1993, 13 noyabr, № 221
2. Aşırlı A.A. Türkün Xocalı soyqırımı. Bakı: Nurlan, 2005, 152 s.
3. Beynəlxalq səviyyədə "təmsilçi". "Azadlıq" qəz., 1991, 1 noyabr, № 53
4. Bahadır X. Düyün açılacaqmı? "Azadlıq" qəz., 1995, 7 fevral
5. Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2011 ). Bakı, 2012. 221 s.
6. Əliyev Heydər. Müstəqiliyimiz əbədidir /Buraxılışına məsul: Ramiz Mehdiyev, Hidayət Orucov. Bakı: Azərnəşr, 1997, 608 s.
7. Həsənli M. Təhlükəsizlik Şurası yeni qətnamə qəbul etmişdir. "Azərbaycan" qəz., 1993, 31 iyul, № 145
8. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Bakı: Letterpress, 2012, 912 s.
9. İyulun 29-da BMT Təhlükəsizlik Şurası Ermənistanın Azrbaycan barəsində təcavüzkar siyasətini kəskin şəkildə pisləyən 853 nömrəli qətnamə qəbul etmişdir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik şurasının 853 nömrəli qətnaməsi. "Azərbaycan" qəz., 1993, 31 iyul,. № 145
10. Kazimirov Azərbaycanı günahlandırmır. "Səhər" qəz., 1993, 23 noyabr, № 218
11. Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı. Bakı: Turxan NPB, 2013, 424 s.
12. Mahmudov Y, Mustafayev C. Şuşa-Pənahabad. Bakı: Təhsil, 2012, 152 s.
13. Soyqırım muzeyi / Red. hey.: h.ü.f.d. Vəliyev X., AMEA-nın müxbir üzvü, Mahmudov Y.M. Bakı:Hərbi Nəşriyyatın mətbəəsi, 2017, 152 s.
14. "Vesti" yenə təxribatla məşğuldur. "Azərbaycan" qəz., 1993, 3 dekabr, № 234
15. Болдин. И.В. Крушение пьедестала. Штрихи к портрету М.С.Горбачева. М.: Республика, 1995, 447 с.
16. ГаджиевШ. Коммюнике-новое секретное оружие? Газ «Свобода», 1991,3 октября. № 4
17. Газыев Ю. Кто кого подвергал геноциду?. Баку, издательство Университет Хазар, 2011, 600 с.
18. Жирохов М.А. Меч и огонь Карабаха. Хроника незнаменитой войны. 1988-1994 / Москва, «Центрполиграф», 2012, 285 с.
19. Мелик-Шахназаров. А.А. Нагорный Карабах: факты против лжи. М.; Волшебный фонерь, 2009, 768с.
20. Нартов Н.А., Нартов В.Н. Геополитика. М.;Юнити-Дана: «Единство», 2007. 527 с.
21. Султанов Ч.А. Последний удар Империи. Баку, 20 января 1990 г. Баку: Нафта-Пресс,2004, 765 с.
22. Чернавин В.Н.: «Главное в жизни-правда и справедливост» Беседа с народным депутатом СССР, заместителем министр обороны СССР, главнокомондуюшим ВМФ, адмиралом флота, Героем Советского Союза. В. Самедов. Azərbaycan qəz., 1990, 18 may, № 17

## THE POLICY OF MILITARY AGGRESSION AND GENOCIDE AGAINST THE REPUBLIC OF ARMENIA
## SUMMARY

The article is unfounded territorial claims of Armenia against Azerbaijan, as well as large scale expansionist policy has been analyzed in terms of geopolitical interests. Armenia's aggressive military and political support of the great powers as a fact reflected in the realization of plans, carried out a policy of genocide against the Azerbaijani people. Despite the gravity of war crimes brought to the attention of the world's most influential organizations in the fulfillment of the decisions and resolutions.

## ВОЕННАЯ АГРЕССИЯ И ПОЛИТИКА ГЕНОЦИДА АРМЕНИЯ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
## РЕЗЮМЕ

В статье рассматриваются наряду с безосновательными территориальными претензиями широкомасштабная оккупационная политика Армении против Азербайджанской Республики с точки зрения геополитических интересов. В результате военно-политической поддержки великих держав, реализация оккупационных планов армян фактически нашла свое отражение. Несмотря на всю тяжесть военных преступлений, было доведено до внимания мировой общественности невыполнение решений и резолюций авторитетных международных организаций.

**Aynurə PAŞAYEVA**
*AMEA Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin doktorantı, elmi işçi*

# XOCALI SOYQIRIMININ 1992-ci İLDƏ NƏŞR OLUNAN AZƏRBAYCAN VƏ XARİCİ MƏTBUAT ORQANLARINDA İŞIQLANDIRILMASI

**Açar sözlər:** Xocalı, Azərbaycan, mətbuat, Tayms, Qarabağ, Tomas Qolts
**Keywords:** Khojaly, Azerbaijan, press, Times, Karabakh, Thomas Goltz
**Ключевые слова:** Ходжалы, Азербайджан, пресс,Таймс, Карабах, Томас Гольц

Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş Azərbaycan milli mətbuatı həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur. Azərbaycan xalqının milli dirçəliş yoluna qədəm qoyması, dövlət və dövlətçilik ideyalarının formalaşması, ictimai münasibətlərə hazırlanmasında milli mətbuatın rolu əvəzolunmazdır. Mətbuat yalnız informasiya yaymaq missiyasını həyata keçirmir, eyni zamanda o xalqı maarifləndirmək yolu ilə ictimai rəy yaradan orqandır. Lakin tarixin müəyyən dövrlərində Azərbaycan mətbuatının inkişafında ləngimələr müşahidə olunmuş, baş verən prosesləri obyektiv şəkildə işıqlandırmaqda çətinlik çəkmişdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Seyran Ohanyanın başçılığı ilə erməni silahlı dəstələri 366-cı motoatıcı alayla birlikdə Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki yalnız azərbaycanlıların yaşadığı 57 yaşayış məntəqəsindən biri olan Xocalı şəhərini və yaxınlığında yerləşən hava limanını zəbt edərək yerli əhaliyə qarşı dəhşətli soyqırım törətdilər. Xocalı soyqırımı ilə bağlı mətbuatda informasiyaların hansı səviyyədə, nə cür işıqlandırılması, tarixi faktoqrafiya baxımından əhəmiyyətlilik dərəcəsini araşdırmaq məqalənin əsas qayəsini təşkil edir. Xocalı soyqırımı mövzusu 1992-ci ildə çap olunan yerli ("Azərbaycan", "Xalq", "Səhər" qəzetləri, "Azərbaycan" jurnalı), xarici (Krua l'Eveneman jurnalı (Paris), "The Sunday Times" (London), "Faynenşl Times" (London), "Times" (London), "İzvestiya" (Moskva), "Le Mond" (Paris), "İzvestiya" (Moskva) qəzetləri) və digər mətbuat orqanlarında öz əksini tapmışdır. 1992-ci ilin xarici və yerli mətbuatında yer alan məqalələrə istinad olunaraq Xocalı soyqırımı ilə bağlı statistik məlumatlar, ermənilərin soyqırımı həyata keçirməsi ilə bağlı gizli planları, erməni lobbisinin dəstəyi, jurnalistlərin verdiyi informasiyalarda yol verilən nöqsanlar, analoji faktlar, absurd erməni məlumatlarına qarşı cavablar tədqiqatın əsas araşdırma istiqamətlərini təşkil edir.

Əhalinin informasiyaya böyük ehtiyac duyduğu zamanda dövrün ən böyük xəbər agentliklərindən olan Azərinform hadisə ilə bağlı məlumat verməkdə çətinlik çəkirdi: "Xocalı ilə əlaqə 25 fevrala keçən gecə kəsildiyindən Xocalıda baş verən hadisələrin tam şəkli və soyqırımın həcmi dəqiq müəyyən olunmayıb. Azərinformun jurnalisti Z. Rüstəmov böyük möcüzə ilə canlarını qurtarıb qaçaraq Ağdama çatmış Xocalıdan olan məcburi köçkünlərlə danışıb. Onların dediklərinə görə Xocalıda çoxlu insan öldürülüb" (1, s. 41). Azərinformun 1992-ci il 26 fevral tarixli məlumatında konkret statistik məlumatlar yoxdur, ilkin rəy xarakterlidir, şahid dindirmələrinə əsaslanır. Digər tərəfdən dünyada sensasiyalı xəbər kimi qarşılanan Xocalı faciəsinin dolğun işıqlandırılmamasında, verilən statistik məlumatlarda jurnalistlərin qeyri-peşəkarlığı da özünü göstərirdi.

Ümumiyyətlə, son dövrlər Xocalı soyqırımının statistik göstəricilərinə görə "63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil" (12). Mətbuatda Xocalı faciəsi haqqında məlumat ilk dəfə "Səhər" qəzetində işıqlandırılmışdır. "Səhər" qəzeti Xocalıda ölənlərin sayının 1000-dən çox, itkin düşənlərin sayının isə 15 nəfər olması ilə bağlı məlumat verirdi, bu da təbii ki hadisənin tam faciəsini əks etdirmirdi. "Səhər" qəzetinin 1992-ci il 27 fevral tarixli sayında Süleyman Qaradağlı "Xocalı işğal olundu" başlıqlı məqaləsində faciə ilə bağlı ilk məlumatı Azərbaycan Milli Ordusunun döyüşçüsü Şamil Sabiroğlunun telefon zəngi ilə bildirdiyini qeyd edir (13). Münaqişə zonasına ezam olunmuş repartyor Şamil Ələkbərov və Səriyyə Müslümovanın saya-

sində hadisə ilə bağlı xəbər bütün yerli ictimaiyyətə yayıldı. İlk dəfə jurnalistlər Çingiz Mustafayevin müşayiəti ilə faciəvi video çəkilişləri dünyaya yayımlamışdılar. Yerli qəzetlər içərisində publisist, şair Sabir Rüstəmxanlının baş redaktorluğu ilə çap olunan Qarabağa Xalq Yardımı Komitəsinin mətbu orqanı olan "Azərbaycan" qəzeti Xocalı faciəsinin işıqlandırılmasında aktivlik göstərmişdir.

Əlbəttə ki, hadisənin baş verdiyi zaman konkret statistik məlumat vermək mümkünsüzdür, ancaq dünyada sensasiyalı xəbər kimi qarşılanan Xocalı faciəsinin dolğun işıqlandırılmaması ölkədə Sovet xofunu yaşayan senzura nəzarəti idi. Verilən statistik məlumatlar, jurnalist qeyri-peşəkarlığı fakt xəbərlərdə özünü göstərir. Yaralının sayı 120 (Azərinform "Bakinskiy raboçi" 28 fevral 1992 (1), 100 ölü və 200 adam yaralı (Aydın Mehdiyev "Nezavisimaya Qazeta" 27 fevral, 1992 (19), 150 yaralı ("Azadlıq" 28 fevral 1992 (6), və s. kimi yalnız statistik məlumatlar və düşmən tərəfin hücumu haqqında informasiya, azərbaycanlıların döyüş taktikasındakı zəiflik, xəyanət, rəhbər başçıların spekulyativ fəaliyyəti pərdələnirdi. Həmin dövrdə dünya mətbuatında 2000 adamın itkin düşməsi ("Tayms", 2 mart 1992, (18), 1000 ölü, 4000 yaralı ("Vaşinqton post", 3 mart 1992 (5), qadın və uşaqların dərisinin soyulması, kişilərin başlarının kəsilməsi ("Tayms" qəzeti 3 mart 1992 (19), 1000-dən çox insanın vəhşicəsinə öldürülməsi ("Vaşinqton Tayms", 3 mart 1992 (3), Qarabağ müharibəsində ölkəni qorumağı bacarmayan ölkə prezidenti Ayaz Mütəllibovun günahlandırılması ("Nyu York Tayms", 3 mart 1992 (19), və s. kimi faktiki məlumatlar qəzetlərdə yer almışdı. Əlbəttə, bu ziddiyyətli xəbərlər zamanın konyunkturasının tələblərindən irəli gəlirdi.

Fransada nəşr olunan "Valer aktuel" jurnalı 14 mart 1992-ci il sayında hadisə haqqında məlumat verərək baş verən qırğınları təsdiq edir, ermənilərin işğal səbəblərini zirehli texnikanın üstün keyfiyyətləri ilə bağlayır: "Bu "muxtar regionda" erməni hərbi birləşmələri Yaxın Şərqdən gələnlərlə ən müasir hərbi texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Livanda və Suriyada hərbi düşərgələri və silah-sursat anbarları var. Ermənilər Qarabağ azərbaycanlılarını məhv etmiş, 100-dən çox müsəlman kəndində qırğın törətmişlər" (7, s.187) . Bundan əlavə, Fransanın Le Mond qəzeti 1992-ci il 14 mart tarixli sayında ermənilərin törətdikləri vəhşiliklərini işıqlandırmaqla yanaşı erməni yönümlü mətbu orqanların yalanlarına arqumentlərlə cavab vermişdi: "Ağdamda olan xarici jurnalistlər Xocalıda qətlə yetirilmiş qadınlar və uşaqlar arasında başının dərisi soyulmuş, dırnaqları çıxarılmış üç meyit görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, reallıqdır" (7, s. 213).

1992-ci ilin bəzi məqalələrin headlaynları (xronika sərlövhəsi) cəlbedici görünsə də, məzmun baxımından daha çox müəllifin emosional mövqeyi, səbəbkarları təqsirləndirməkdə bir çəkingənliyi özünü biruzə verir. Tahir Aydınoğlunun 1992-ci ilin "Xalq" qəzetində çap olunan "Xocalı faciəsi, qatillər kimlərdir?" (14) adlı məqaləsində qatillər rus-erməni kimi səsləndirsə də, konkret olaraq göstərilmir. 1992-ci ilin fevral-mart aylarında çap olunan "Azərbaycan", "Xalq" və s. qəzetlərdə Xocalıya edilən maddi yardımlar barədə məlumatlar, bu yardımlara görə minnətdarlıq məktubları çap olunurdu.

Əvvəldə qeyd olunduğu kimi, 1992-ci ildə Azərbaycan mətbuatının konkretlik və birbaşa ünvanlılıq funksiyasını tam formada yerinə yetirməməsi senzura qorxusu ilə bağlı idi. Bu proses 1998-ci ilə qədər davam etdi. Çünki Ümumilli Lider Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu.

70 il avtoritar Sovet rejiminin Qərb jurnalistika praktikasından uzaq düşmüş Azərbaycan mətbuatı ermənilərə qarşı "xalqlar dostluğu" tendensiyası təbliğatı ilə məşğul olan zaman erməni mətbuatı azərbaycanlılara qarşı özünküləşdirmə siyasəti haqqında artıq zəngin təcrübə qazanmışdı. Həmin dövrün mətbuatında erməni qüvvələrinin arxasında dayanan səbəblər aydınlaşdırılırdı. El Messanyan Qriqoriyan Beyrutda çıxan "Zartunk" ("Oyanma") qəzetində (1992-ci il 24 mart) "Bir erməni yardımı" yazısında dünyanın 24 ölkəsində zəngin erməni iş adamının hesabına maliyyələşən "Arsax yardım fondu"nu Xocalıda döyüşən qəhrəmanları üçün ayrıldığını qeyd edir: "Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları "Artsax yardım fondu" təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür... Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Süleyman öz ticarət mərkəzindən gələn illik gəlir-

ləri... Parisdə "Erməni ana dili" cəmiyyətinin üzvləri topladıqları ianələri... Xocalı qəhrəmanları üçün ayırdılar..." (4, s. 51).

"Azərbaycan" jurnalında (1992, №1-2) çap olunan Türkiyənin Ərzurum vilayətində səfirlik etmiş M.S. Mayevskinin "Erməni lobbisi ingilis barmağında" xatirələrində ermənilərin hələ XIX əsrin sonu qarətçilik, quldurluq əməlləri ilə Londonda ingilis konsulluğunda çalınan kapitallar hesabına güclənməsi erməni qüvvələrinin Vanda soyqırım planlarını aşkar edir: "Varlı adamların müəyyən məbləğdə pul verməsi, yazılı şəkildə tələb olunurdu, əgər həmin məbləğ ödənilməzsə, həmin şəxslər ölümlə hədələnirdilər. Həmin vaxt ərzində (1895-1896 – A.P.) bir neçə siyasi qətl edildi" (9, s.146). Hətta məqalədə Daşnaksütyun partiyası onlara maliyyə dəstəyi göstərməyən Jamharyanı Moskvada, İzmirdə yaşayan Türkiyə ermənisi "Haydad"ın təhdid məktubları ilə istədikləri pulu verməyən Balyozman Novorossiysk şəhərində öldürüldüyü qeyd etmişdi.

Azərbaycan və erməni mətbuatında yayılmış informasiyalar, absurd və doğru xəbər arasında analitik təhlillər "Nyu York Tayms" qəzetinin 3 mart 1992-ci il tarixli sayında öz əksini tapmışdır: "Dağlıq Qarabağın ikinci böyük Azərbaycan şəhəri olan Xocalının təpədən dırnağadək silahlanmış erməni hərbçiləri tərəfindən ötən çərşənbə axşamı işğal olunmasından sonra ermənilər azərbaycanlıların soyqırımını inkar etdilər. Azərbaycan 1000 nəfərin öldürüldüyünü deyir" (18, s. 3).

"Haydad", "Asala" erməni terror təşkilatlarının maliyyə dəstəyi ilə qurmaq istədikləri "Böyük Ermənistan"a xidmət üçün Xocalıya Avropadan gəlmiş erməni jurnalistləri ermənilərin öldürüldüyü barədə absurd xəbərlər yaymışdır. 1992-ci il fevral ayında Xocalı faciəsindən az sonra Xankəndinə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti reportaj hazırlamaq üçün gəlir. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: "... Azərbaycanlılar günahsız qırırlar..." kimi dilletant çıxışlarla dünya mətbuatı üçün informasiyalar yaymışdılar.

Dünya mətbuatında erməni jurnalistləri nə qədər absurd fikirlərə meyil etsələr də, bizim hadisələrlə bağlı ictimaiyyətdə obyektiv məlumatlar yayan mətbuat orqanları az deyildi. "Krua l'Eveneman" jurnalı (Paris) 25 fevral 1992-ci il, "Sandi Tayms" qəzeti (London) 1 mart 1992-ci il (16), "Faynenşl Tayms" qəzeti (London) 9 mart 1992-ci il, "Tayms qəzeti" (London) 4 mart 1992-ci il, "İzvestiya" (Moskva) 4 mart 1992-ci il, 13 mart 1992-ci il, "Faynenşl Tayms" qəzeti (London) 14 mart 1992-ci il, "Le Mond" qəzeti (Paris) 14 mart 1992-ci il, "Valer aktuel" jurnalı (Paris) 14 mart 1992-ci il sayları və s. (7).

Bu qəzetlərdə gedən yazılar janr etibari ilə xəbər, xəbər korrespondensiya, qısa reportajdır. 1992-ci il yerli mətbuatda "Xocalı" faciəsi ilə bağlı fakt xəbər üstünlük təşkil etsə də, sonrakı illərdə hadisə ilə bağlı analitik şərh önə keçdi. "Azərbaycan gəncləri" qəzetinin müxbiri Salatın Əsgərovanın "Unudulmaz cinayət" adlı məqaləsində erməni qaniçənlərinin Xocalıda törətdiyi cinayətdən bəhs olunur. Yazıda "erməni qatillərin südəmər uşaqların gözlərinin sərnizə (süngü) ilə çıxardıqları, kişiləri tikə-tikə doğradıqları, qız-gəlinlərə təcavüz etdikləri, onların qulaq və burunlarını kəsdikləri" qəzəb və nifrətlə qeyd edilir. Məqalə müəllifi Xocalı qurbanlarına yas tutduqlarını, bu cinayətin cəzasız qalmayacağına inandıqlarını yazır (11, s. 50).

Jurnalistlər analitik şərhlərində – yaralı, ölənlərlə bağlı statistik məlumatlarda üstünlük təşkil edir, hətta bəzən emosional dramatizm də müşahidə olunmaqdadır. "Sandi Tayms" qəzetindəki məlumat buna əyani misal ola bilər: "Tomas Qolts erməni əsgərlərinin törətdikləri qırğınlar barədə məlumat verən ilk reportyordur. Xocalı sadə Azərbaycan şəhəri olub. Lakin dinc dövrdə əkinçiliklə məşğul olan minlərlə azərbaycanlının evi olub. Ötən həftə şəhər yer üzündən silinib" (16, s.4).

Xocalı faciəsinin törədilmə səbəbləri də jurnalistləri 1992-ci il mətbuatında daha çox düşündürürdü. Əlbəttə ki, dövlətdə məsul vəzifə tutmuş şəxslərin biganəliyi də mətbuatda tənqid olunmuşdu. "Azərbaycan" qəzetinin 5 mart 1992-ci il sayında Teylor Fətişoğlu "Qanlı gecə" və ya Xocalı necə viran edildi" adlı məqaləsində yazırdı: "Alınan məlumatlar hər 15 dəqiqədən bir DİN növbətçisinə və gecə saat ikidə hökumət telefonu ilə Bakı İcra hakimiyyətinin başçısı Rüfət Ağayevin dövlət müşaviri Abbas Abbasovun, baş nazir, müavini Matvey Radayevə və başqa rəhbər işçilərin evlərinə çatdırıldı. Lakin nəticə olmadı" (15, s.1).

Xocalı faciəsinin törədilməsinə səbəb olan amil kimi bəzən jurnalistlər hadisənin mətbuatdan gizli qalmasını hesab edirdilər. R.Atayevanın "Laqeydlik, susmaq, genosid.." məqaləsində "əgər

Daşaltıda, Malıbəylidə və Azərbaycanın digər rayonlarında baş verən faciəni dünya xalqlarına vaxtında çatdırsaydıq, Xocalıda belə bir fəlakət olmazdı" (10, s.1).

Güclü silahlarla təmin edilmiş ermənilər, öz cəbhəmizdə rabitə, kəşfiyyat, döyüş texnikasının zəifliyi jurnalistlərin nəzərində məğlubiyyətin səbəbləri kimi göstərilir. "Xalq" qəzetində çap olunan "Uğursuzluqlar nədən doğur?" məqaləsində XTMD-nin üzvü, milis kiçik serjantı İlqar Cəfərov məğlubiyyətin səbəbini döyüş iştirakçısı kimi belə aydınlaşdırır: "Ən başlıcası XTMD milli Ordu, yerli milis, kəndin özünümüdafiə qüvvələrini idarə edən vahid komandanlıq yoxdur. Hamı özü üçün əməliyyat keçirir" (14, s. 4).

1992-ci ildə xarici KİV-lərdə yer alan informasiyalar bəşər tarixinin ən qanlı səhifələrindən olan Xocalı soyqırımı dəhşətlərini tam dolğunluğu ilə əks etdirməsə də, hər halda, dünya ictimaiyyətində faciənin miqyası haqqında müəyyən təsəvvür yaratmaq baxımından əhəmiyyətli idi. Çox təəssüflər olsun ki, "ATƏT çərçivəsində fəaliyyətlərini hələ davam etdirən Minsk Qrupu, 1994-ci ilin içində bir neçə mərhələdə elan edilən və rəsmi razılaşmaqla təmin olunmuş atəşkəs xaricində bu günə qədər problemin həllində konkret bir irəliləmə təmin edə bilməmişdir" (2, s.191). Beynəlxalq hüquq normalarına görə soyqırım anlayışına uyğun gələn bu faciə hələ də dünya mətbuatında "Xocalı qətliamı", bəzən "insanlıq əleyhinə cinayət" hadisəsi kimi qələmə verilir. Xarici mətbuatın reportyorları – Tomas Qolts (erməni əsgərlərinin törətdikləri qırğınlar barədə məlumat verən ilk reportyor, Sandi Tayms qəzeti), Violetta Parvanova (Nie qəzeti, Bolqarıstan), Mayor Leonid Kravest (İzvestiya qəzeti) faciənin törədildiyi zamanda informasiyanın tirajlanmasında aktivlik göstərmələrinə baxmayaraq, sonralar xarici mətbuatın bu faciəni xatırlamağa həvəsi olmamışdır. Ancaq həmin materialların araşdırılması, həqiqətlərimizin dünya miqyasında tanıdılması elmi tarixşünaslığımız üçün böyük əhəmiyyət kəsb edir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azİnform. Ходжалинский геноцид. "Бакинский рабочий" газета, 28 февраль 1992, s.1.
2. Bahadır Bumin Özarslan. Soykırım Suçunun Önlenmesi ve Cezalandırılması Sözleşmesi Açısından Hocalı Katliamı // Hacettepe HFD, 4(1) 2014, 187–214.
3. Brian Killen. Attrocity Reports Horrify Azerbaijan. "The Washington Times" newspaper, 3 march 1992.
4. El Messanyan Qriqoryan. Bir erməni yardımı. "Zartunk" qəzeti (Beyrut), 24 mart 1992, http://files.preslib.az/projects/khojali/azkhojali/gl1.pdf, s.51.
5. HIATT Fred. Killings Rife in Nagorno-Karabakh. "The Washington Post" newspaper, 3 march 1992.
6. Xaliq Bahadur. Doğrudanmı Xocalı işğal olunmuşdu?. "Azadlıq" qəzeti, 28 fevral 1992, s. 2.
7. Xocalı Soyqırımı. Bakı, Prezident kitabxanası. http://files.preslib.az/projects/khojali/azkhojali/gl1.pdf, 2012.
8. İlqar Cəfərov. Uğursuzluqlar nədən doğur? "Azərbaycan"qəzeti, 5 mart 1992, s.4.
9. M.S. Mayevski. Erməni lobbisi ingilis barmağında// "Azərbaycan" jurnalı, 1992, №1-2, s.142-150.
10. R. Atayeva. Laqeydlik, susmaq, genosid.. "Azərbaycan" qəzeti, 12 mart 1992, s.1.
11. R.R. Məmmədov Müstəqillik dövründə Avropada Azərbaycan diaspor mətbuatı və milli ideologiya məsələləri (Almaniya, Fransa, Türkiyə, İngiltərə). Fil.elm.dok..dis. Bakı: 2016.
12. Shahin Abbasov. Azerbaijan: Baku Presses Genocide Recognition Campaign for Khojaly. http://www.eurasianet.org/node/65060, 28 feburary 2012.
13. Süleyman Qaradağlı. Xocalıda işğal olundu. "Səhər" qəzeti, 27 fevral 1992, s.1.
14. Tahir Aydınoğlu. Xocalı faciəsi, qatillər kimlərdir? "Xalq" qəzeti, 3 mart, 1992, s. 1-3.
15. Teylor Fətişoğlu. "Qanlı gecə" və ya Xocalı necə viran edildi. "Azərbaycan"qəzeti, 5 mart 1992, s.1.
16. Thomas Goltz. Armenian Soldiers Massacre Hundreds of Fleeing Families. "The Sunday Times" newspaper, 1 march 1992.
17. Thomas Goltz. Corpses Litter Hills in Karabakh. "The Times" newspaper, 2 march 1992.
18. Thomas Goltz. Massacreby Armenians Being Reported. "The New York Times" newspaper, 3 march 1992.
19. Айдын Мехтиев. Нагорный Карабах: много крови и пушки. "Независимая газета", 27 февраль 1992, s. 3.

## ELUCIDATION OF KHOJALY GENOCIDE IN AZERBAIJAN AND FOREIGN MEDIA OUTLETS PUBLISHED IN 1992

### SUMMARY

Over the night from 25 to 26 February 1992 the Armenian armed forces committed Khojaly genocide against Khojaly population. Local ("Azerbaijan", "Khalq", "Sahar" newspapers, "Azerbaijan" journal) and international (Krua l'Eveneman journal (Paris), "Sunday Times" (London), "Financial Times" (London), the "Times" (London), "Izvestia" (Moscow), "Le Monde" (Paris), "Izvestia" (Moscow) newspapers) media outlets which published 1992 were about Khojaly tragedy. In 1992, the foreign and local press articles were about statistical information of Khojaly genocide, the secret plans of carrying out the genocide of the Armenian lobby, the shortcomings of journalists information, the analogical facts, the answers to the Armenian absurd information were main review directions in research. According to international law meets the definition of genocide in the world media this tragedy was known as "Khojaly massacre", sometimes as "crime against humanity". However, the investigation of the media materials, the promotion of our truth in the world is very great importance for our scientific history.

## ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД В ИНОСТРАННОЙ И АЗЕРБАЙДЖАНСКОЙ ПЕРИОДИЧЕСКОЙ ПЕЧАТИ 1992 ГОДА

### РЕЗЮМЕ

В ночь с 25 по 26 февраля 1992 года армянские бандитские группировки напали на азербайджанский город Ходжалы и зверски расправились с населением города. Об этом геноциде было написано как в местной азербайджанской периодической печати (в газетах "Азербайджан", "Халг", "Сехер", в журнале "Азербайджан"), так и в таких иностранных публикациях как журнал "Krua l'Eveneman" (Париж), в газетах "Sandi Tayms" (Лондон), "Faynenşl Tayms" (Лондон), "Tayms" (Лондон), "Известия" (Москва), "LeMond" (Париж) и др. В этих статьях были даны статистические сведения о геноциде, информация о секретных планах армян планировавших геноцид, о поддержке со стороны армянского лобби, о не точностях в информациях направленных мировому сообществу, были приведены аналогичные факты, а также проводилось опровержение абсурдных фактов представленных со стороны армян мировому сообществу. Хотя согласно мировым юридическим конвенциям это трагедия должна именноваться геноцидом, но до сих пор упоминается в мировом сообществе как "Ходжалинская резня" а иногда как "зверство против людей". Исследование этих материалов, и предоставление правды об этих событиях мировому сообществу является очень важным для нашей истории.

**Фируза ХАЯТОВА**
*Диссертант Института Истории НАНА*
*Азербайджанский университет иностранных языков*

# ВТОРОЙ ОККУПАЦИОННЫЙ РЕЖИМ ВЕЛИКОБРИТАНИИ НА ЮЖНОМ КАВКАЗЕ И КРАХ НАДЕЖД АРМЯН В ОТНОШЕНИИ БАКУ

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, İngiltərə, Xəzər dənizi, Bakı, ermənilər
**Keywords:** Azerbaijan Democratic Republic, the United Kingdom, the Caspian Sea, Baku, armenians
**Ключевые слова**: Азербайджанская Демократическая Республика, Великобритания, Каспий, Баку, армяне

4 (17) ноября 1918 года по Мудросскому соглашению британские оккупационные войска заняли Баку, 10 (23) декабря - Батум. В Тифлисе разместился штаб командующего британскими войсками на Южном Кавказе.

В.Томсон потребовал от азербайджанского правительства «очищения Баку к десяти часам утра» 17 ноября 1918 года, как от турецких, так и от азербайджанских войск. В документе говорилось: «Будет оккупирован только Баку с промыслами. Азербайджанские войска остаются везде, кроме района Баку. Азербайджан официально не признается, но представители Англии, Франции, Америки будут в сношении с фактическим его правительством. Все организации, правительственные, государственные, общественные учреждения продолжают функционировать на прежних основаниях, за исключением следующих: генерал Томсон объявляется генерал-губернатором города. Во главе городской милиции ставится англичанин. Городская Дума, Совет съездов могут быть реорганизованы... Принцип самоопределения народностей решается на мирной конференции, причем Азербайджан не будет исключен. В отряде будет Бичерахов с казаками, относительно действий которых генерал дает заверение, вооруженных армян не будет впущено в город».[1]

Томсон объявил город на военном положении и провозгласил себя генерал-губернатором Баку. Вскоре британские войска, численность которых достигала 30 тыс. человек, оккупировали весь Южный Кавказ.

В первом воззвании генерала В.М.Томсона после его прибытия в Баку к населению города слово «Азербайджан» даже не упоминалось. Из воззвания следовало, что англичане рассматривают Кавказ и Азербайджан как часть России, которую они считали своей союзницей. В нем подчеркивалось, что английские войска заняли Баку «с ведома и полного согласия нового русского правительства». М.Э.Расулзаде, характеризуя ситуацию в стране, указывал на «враждебность» и «упрямство» армянских организаций, сильно рассчитывавших на приход британцев.[2]

По оценке газеты «Азербайджан», союзники принимали необходимые меры по искоренению анархии и произвола, творимыми над мусульманами в «Шаумяно-большевистскую эпоху».[3]

По условиям договора, заключенного между азербайджанской делегацией и генералом В.И.Томсоном в Энзели, командование союзных войск обязывалось распространить свою власть только на Бакинскую губернию и не допустить в город Баку армянские вооруженные формирования. Через Баку Антанта намеревалась оказывать помощь белогвардейской армии Деникина в борьбе против большевиков. Томсон обещал возвратить всех беженцев, предварительно разоружив их, на свои места».[4]

---

[1] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: «ЕЛМ», 1998, с. 230-232.
[2] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: «ЕЛМ», 1998, с. 238-239.
[3] Азербайджан, 19 (6) ноября 1918.
[4]Азербайджан, 18 (5) ноября 1918 года.

Итак, 17 ноября в Баку вошли британские военные части.

Газета «Азербайджан» писала: «В воскресенье, 17 ноября. В 1 ч.дня прибыли в Баку союзные войска во главе с генералом Томсоном. К пассажирской пристани о-ва «Камво» первым подошел пароход «Президент Крюгер», на котором находился штаб союзных войск. За ним шел пароход «Орел». С пришедшего к пристани парохода «Президент Крюгер» сделана была сигнализация и спустя некоторое время показались выстроенные в ряд пароходы... Генерала Томсона со свитой встречали со стороны Азербайджанского правительства министр внутренних дел Б.хДжеваншир и и.о. министра иностранных дел А.х.Зиатханов, были также представители город. самоуправления, совета съезда нефтепромышленников, русского национального совета, проживающего в Азербайджане русского офицерства и пр. «Поздравляю вас с окончанием мировой войны. Заявляю вам, как командующий союзными англо-франко-американскими войсками, что мы прибыли сюда, чтобы согласно заключенному с Турцией условию, заменить турецкие войска, охранявшие до сего времени вашу территорию. Никакого намерения вмешиваться в ваши внутренние дела мы не имеем ни в настоящем, ни в будущем. Я надеюсь, что при нашей совместной работе все устроится, как нельзя лучше».[1] В ответ на все приветствия, Томсон заявил, что он очень доволен существующим в городе порядком и если так будет продолжаться и впредь, то едва ли потребуется от него какая-нибудь помощь.[2]

Британское оккупационное командование отказалось признать Азербайджанскую Республику, но представители Великобритании, Франции, США не отказывались от переговоров с правительством АДР. Все правительственные, государственные, общественные учреждения сохранялись и продолжали свою деятельность. Полковник Ф.П.Коккерель был назначен комиссаром полиции союзных держав в Баку. Общая численность английских войск в Баку составила 5 тыс. солдат. Представители Великобритании предложили реорганизовать Городскую Думу и др. организации. На счет независимости республики, отмечалось, что принцип самоопределения народностей решается на Мирной конференции, где будет решена и судьба Азербайджана. На счет Бичерахова и вооруженных армян азербайджанцев заверили, что их в город не пустят. Однако генерал Томсон в первую очередь освободил из тюрьмы армян, арестованных османскими войсками 15-17 сентября 1919 года и приступил в изучению размера материального ущерба, нанесенного армянам.[3]

Газета «Азербайджан» писала об этом так: «Согласно достигнутому соглашению между Азербайджанским правительством и представителем союзных войск в Энзели генералом Томсоном, союзные войска вступили в столицу Азербайджана; английские, французские и американские войска будут занимать только г. Баку временно, причем сосредотачивает в своих руках военную власть города сам генерал Томсон, не вмешиваясь в другие внутренние дела Азербайджана и его столицы; все правительственные и общественные учреждения, оставаясь на существующих началах будут функционировать по-прежнему; при этом было заявлено, что вопрос о самоопределении народов будет решен на всемирном конгрессе по одному принципу для всех областей и народов России. Во все периоды своей политической жизни и при всяких соотношениях сил воюющих держав мусульманские страны проявляли удивительную искренность и лояльность к победителям и побежденным, с которыми им приходилось сталкиваться. Великобритания, имеющая в составе своего государства более ста миллионов, деливших горе и радость одинаково со всеми гражданами Великобританской империи и не раз решавших боевое счастье на фронте сумеет сохранить за собой и симпатии Азербайджанских мусульман.

По тому же пути лояльности и честной политики шли азербайджанские тюрки, вступившие так недавно на путь самостоятельной политической жизни; за короткий период своего политического существования при самых неблагоприятных условиях государственного ус-

---

[1] Азербайджан, 18 (5) ноября 1918 года.

[2] Азербайджан, 18 (5) ноября 1918 года.

[3] Зограбян Э.А. Шарур-Нахичеван в 1918-1919 гг. (История геноцида нахичеванских армян). Ереван: Издательство ЕГУ, 2012, с. 140; Раевский А. Английская интервенция и мусаватское правительство. Из истории интервенции и контрреволюции в Закавказье. Баку, 1927, с. 31-33.

троения Азербайджан проявил все данные, необходимые для устройства самостоятельной жизни и дух государственности пустил широкие корни во всех слоях азербайджанского населения. Мы еще не знаем, какова будет окончательная воля азербайджанского учредительного собрания в решении его политической судьбы, но существующие условия политической конюктуры настоятельно требуют от политических руководителей Азербайджана сохранить существующий порядок в стране. Теперь, представители Англии, Франции и Америки, этих демократических стран, выступивших в защиту угнетенных народов, вступают впервые в пределы молодого Азербайджанского государства. Мы полагаем, что пребывание их в нашей столице не нарушит суверенных прав народов нашего, при дружном сотрудничестве генер. Томсона с Азербайджанским правительством. гарантией этому является испытанный такт английского солдата и доброжелательное отношение к ним азербайджанских граждан и правительства нашего».[1]

Британцы как противовес туркам в регионе поначалу проявили негативное отношение к азербайджанскому национальному движению как к союзнице Османской империи. Так, в начале ноября 1918 года на встрече азербайджанской делегации в составе Н. Усуббекова, А. Агаева и М. Рафиева с главнокомандующим британскими войсками в Иране генералом В. М. Томсоном в Энзели, последний категорически отказался признать азербайджанскую независимость: «не существует республики, родившейся согласно всеобщему желанию азербайджанского народа; имеется только правительство, организованное интригой турецкого командования». Выслушав возражения азербайджанских представителей, Томсон обещал по прибытии в Баку лично разобраться.[2]

Приказом генерала Томсона в городе Баку вводилось военное положение до того момента, когда «гражданская власть окажется настолько сильной, чтобы освободить войска от ответственности за поддержание общественного порядка». 19 ноября 1918 года генерал Томсон издал приказ о наказаниях за нарушение законов военного времени. [3]

Несмотря на все происки врагов, азербайджанские лидеры во главе с Ф.Х.Хойским продемонстрировали реализм в оценке политической ситуации и твердость в защите идеи национальной независимости. Азербайджанская сторона, проявив мудрость и рационализм, выразила готовность к созданию коалиционного правительства в стране. Так, 19 ноября 1918 года Национальный Совет принял «Закон об образовании азербайджанского парламента». Согласному этому закону всем национальным группам страны, в том числе армянам, были выделены специальные квоты в новом парламенте. Предлагался расчет: 1 депутат на каждые 25 тыс. населения. Таким образом, 120 депутатских мест в парламенте распределили следующим образом: мусульманское население получило – 80 мест, армяне - 21, русские - 10 и немцы, евреи, грузины и поляки - по одному.[4] Томсон старался уменьшить национальные трения, которые могли помешать британским планам в регионе.[5]

Армяне резко отрицательно относились к открытию Национального Парламента Азербайджанской Демократической Республики и всячески пытались воздействовать на Томсона.

Вместо 3 декабря, Парламент, не смотря на происки армян, все же открылся 7 декабря.[6] Томсон заявил: «В виду образования коалиционного Азербайджанского Правительства под председательством Ф.Х.Хойского, сим объявляю, что Союзное Командование будет оказывать полную поддержку этому Правительству, как единственной местной законной власти в пределах Азербайджана».[7]

---

[1]Азербайджан, 18 (5) ноября 1918 года.
[2] Балаев А, с. 230-231
[3] Azərbaycan Məclisi-məbusani təsisi haqqinda qanun// Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar).I cild.—Bakı, "Azərbaycan" nəşriyyatı, 1998.(976 səh.), s. 24..
[4] Azərbaycan Məclisi-məbusani təsisi haqqinda qanun// Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar).I cild.—Bakı, "Azərbaycan" nəşriyyatı, 1998.(976 səh.), s. 24.
[5] Раевский А. с .43-44.
[6] Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar).I cild.Bakı, «Azərbaycan» nəşriyyatı, 1998.(976 səh.), s.10.
[7] РаевскийА. с. 47.

М.Э.Расулзаде на втором заседании Парламента 10 декабря 1918 года в своем выступлении подчеркнул: «В Азербайджане не должно быть сынов и пасынков; армяне, русские, евреи, грузины, немцы, поляки и другие народы, оставаясь гражданами Азербайджанской Республики, должны пользоваться правами национально-культурной автономии».[1]

Английское командование арестовало и выслало за пределы Азербайджана пятерых руководителей «Кавказско-каспийского правительства» эсеров С.Саакяна, Я.Штерина, А.Валунца, дашнака А.Аракеляна и беспартийного А.Витоля. Арест армянских деятелей вызвал негодование армян. В отместку, с 24 декабря 1918 года была объявлена всеобщая забастовка в Баку, носящая сугубо политический, антиазербайджанский характер. В печатном органе стачечного комитета утверждалось, что «у Бакинского пролетариата три врага: голод, Азербайджан и сила, прибывшая извне». Однако, благодаря усилиям азербайджанского правительства главнокомандующий союзными войсками в Закавказье генерал Дж. Мильтон 22 января 1919 года в Баку во время встречи с премьер-министром Ф. Х. Хойским еще раз подтвердил, что «английское правительство признает правительство Азербайджана, как единственную легальную власть на территории Азербайджана, что эта власть будет поддержана союзным командованием всеми способами».[2]

С 29 ноября 1918 года все торговые суда Каспийского флота перешли в распоряжение британского командования. Для управления торговым флотом была учреждена компания «Английский морской транспорт» во главе с майором Брауном. Помимо Баку, по условиям Мудросского перемирия, британцы заняли Батум и установили контроль над Закавказской железной дорогой. Таким образом, реализовались планы Великобритании захватить важный стратегический плацдарм от Черного до Каспийского моря. Великобритании удалось осуществить еще одну мечту - взять под свой контроль Бакинскую нефтяную промышленность. С декабря 1918 по август 1919 года англичане вывезли из Баку без всяких акцизных сборов до 30 млн. пудов нефти на сумму 113,5 млн. рублей.[3]

Таким образом, в конце декабря 1918 года Азербайджанское правительство было признано английским командованием. С одной стороны это означало также крах планов армян и демонстрацию позиции Великобритании к «армянскому вопросу».

В декабре 1918 года на Южный Кавказ через Батумский порт из Салоник было переброшено 30-35 тыс. британских солдат. [4] Генерал Уоккер представил генералу Эрдели проект будущего устройства Южного Кавказа, который заключался в трех пунктах:

«1. Присоединение его к России в границах 1914 года с автономным управление в различных областях.

2. Признание самостоятельности образовавшихся республик с полным отделением их от России.

3. Образование соединенных штатов на Кавказе – с отделением от России или в конфедерации с ней».[5]

6 января 1919 года генерал Дж.Уоккер на встрече с министром иностранных дел Армении С.Тиграняном, дипломатическим представителем Армении в Грузии А.Джамаляном и представителем военного министра республики Гамазовым, вручил Тиграняну официальное письмо на имя премьер-министра республики Армения. В документе говорилось: «он прибыл в Закавказье как военный представитель Великобритании, подчиняющийся главе союзных государств и английскому главному командованию в Константинополе, и поддерживает непосредственную связь со следующими странами: Армянская…Грузинская республики, Батумская и Карская губернии. Подобные функции в отношении Азербайджанской и Северо-Кавказской республик имеет генерал-майор Томсон, командир английских войск в Баку».[6]

---

[1] Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). Icild.Bakı, «Azərbaycan» nəşriyyatı, 1998. (976 səh.), s. 39.

[2] БалаевА., с. 245-246.

[3] Азербайджанская Демократическая Республика. Баку: «Елм», 1998, с. 49-51.

[4] Деникин, Деникин А.И. Очерки русской смуты: Белое движение и борьба Добровольческой армии. май-октябрь 1918 (Воспоминания. Мемуары), Минск, с. 254-257.

[5] Революция и гражданская война в описаниях белогвардейцев. М. 1991, с. 90; Деникин, с. 256-257.

[6] Петросян Г. Отношения Республики Армения с Россией (1918 – 1920 гг.). Ереван: Издательство ЕГУ, 2012, с.174.

В.Томсон дал прямой приказ о выводе Армянского отдельного ударного отряда Андраника из Зангезура и затем о его роспуске. Надо отметить, что Андраник был командиром отряда армянских добровольцев в составе русских войск Кавказского фронта. Был смещен русским командованием из-за отсутствия дисциплина и агрессивного поведения в марте 1916 года. В январе 1918 года был назначен командиром дивизии Армянского армейского корпуса, провалил Эрзерумскую операцию, в апреле 1919 года окончательно распустил свой отряд. Надо отметить, что на все протесты и ноты Азербайджанского правительства в отношении бесчинств отрядов Андраника, Армянская республика официально отказывалось от какой-либо связи с ним.[1]

Кроме того, британское командование не разрешило Андранику Озаняну участвовать в возвращении беженцев, направиться в Алашкерт, Нахичеван или Карс.[2] В телеграмме, направленной Томсоном армянским лидерам в Гянджинском, Газахском и Джеванширском округах, указывалось немедленно прекратить бесчинства и мародерства в отношении азербайджанского населения: «Оповестить всех армян, чтобы тихо сидели по своим домам. В случае неподчинения вы будете непосредственно отвечать за пролитую кровь».[3]

Об отношении Великобритании к армянам свидетельствует множество фактов. Например, армяне не были признаны воюющей стороной в годы Первой мировой войны и не получили официального права на участие в конференции.[4]

Кроме того, когда подразделения Великобритании сошли на берег в Батуми 15 декабря 1918 года, они не предприняли жизненно важных мер для армян. Движение по железной дороге было налажено только к середине июля 1919 года. Более того, англичане ослабили армян, вывезя оружие из арсеналов Карса, потребовали от армян не увеличивать вооруженные силы Армении, а напротив, заменить их «хорошей жандармерией».

В начале декабря 1918 года генерал Томсон послал телеграмму лидерам армян, проживающим в Гянджинском, Казахском и Джаванширском уездах, с требованием прекратить противоправные дела и грабежи. Он приказал: «Уведомить всех армян: сидеть тихо по своим домам. Если они не подчинятся этому приказу, то будут отвечать за пролитую кровь и творимые беззакония».[5]

Мусульманское население Карабаха, находясь в собственной стране, терроризировалось «вооруженными до зубов регулярными войсками армянской республики!».[6]

Hələ 1917-ci ilin noyabrın 2-dən Bakıda Sovetin ali hakimiyyətini elan edən bolşeviklər tamamilə buna nail olmaq istiqamətində iş görməyə başlamışdılar. Bakı şəhəri daxilində hakimiyyət səlahiyyətlərini artırmaqla yanaşı bolşevik rəhbərlik Bakı quberniyasında da ziddiyyətlərin "həlli"nə də nail olmağa çalışır.

Bolşeviklər üçün Lənkəran qəzası mühüm əhəmiyyət kəsb edirdi. O Azərbaycanın ən mühüm ərzaq rayonlarından biri, Bakının arxası və İranla həmsərhəd rayon idi. Lənkəran vasitəsi ilə Orta Asiya və Həştərxanla əlaqə yaratmaq, Sovet Rusiyasından rəhbərlik və kömək almaq mümkün idi. Buna görə də Lənkəranda sovet hakimiyyətinin qurulması onlar üçün mühüm siyasi və hərbi vəzifə idi [1, s.45].

Məhz bu vaxt da həm Şamaxı, həm Lənkəran qəzalarından rusların sıxışdırılması xəbərləri antiazərbaycan və antimüsəlman təbliğat vasitəsinə çevrilir. Rus əhalisinin millətçi qrupları Bakı Sovetinin hakimiyyətini alternativ rus hakimiyyəti hesab edir və bu səbəbdən də öz nümayəndələrini Bakıya göndərib əlavə hərbi qüvvə və silah tələb edirdilər. 1917-ci il dekabr ayının 12-də Bakı Sovetinin İcraiyyə Komitəsinin və Bakı qarnizonu nümayəndələrinin təcili iclasında silahlı dəstə yaradılaraq Muğana göndərilməsi qərara alınmışdı [1, s.45].

Belə bir dəstək aldıqdan sonra Muğandakı rus əhalinin Bakıdan kömək almaq ümidləri daha da artır. Fevral ayında həm Bakı komitəsinə, həm Bakı Sovetinə bir neçə dəfə ardıcıl olaraq nümayəndə heyəti göndərilir [17]. Bunlar nəticəsiz qalmır.

Martın 14-də (köhnə stillə- 1 mart ) Bakıdan Lənkərana gəmi ilə hərbi dəstə göndərilir. Gəmi birbaşa sahilə yan almır. Şəhərdən gəmiyə gələn nümayəndələr Cavad qəzasında müsəlmanların rusları qırdıqları həyacanlı və təxribatçı məlumat verirlər. Gələn hərbi qüvvələr Nikalayevka kəndində yerləşərək hücuma hazır vəziyyət alırlar. Martın 21-də (köhnə stillə-8 mart) isə İlyaşeviçin başçılıq etdiyi dəstə kəndə gələrək onlara qoşulur[16]. Bundan sonra qüvvələr ikiyə bölünərək bir hissəsinin Prişib kəndinə aparılması razılaşdırılır. Nikalayevkadan Prişibə doğru müsəlman kəndləri olduğundan, müsəlman əhali silahlı dəstəni oraya buraxmaq istəmir. Baş verən toqquşmadan istifadə edən rus əhali hücum edərək müsəlman kəndlərini yandırmağa başlayırlar. Privolnı kəndindən olan bolşevik Ponomaryov xatirələrində bunları təsvir edərək bildirirdi: Bakıda "vətəndaş müharibəsi olanda Muğanda siyasi deyil, ruslar və türklər arasında qatı milli xarakter daşıyan mübarizə gedirdi" [10, s.42].

Bu zaman rus əhali təcili olaraq Bakıya nümayəndə göndərir və Bakı Sovetindən kömək istəyir. Martın 25-də rus əhalinin nümayəndələri kimi Qrankin, İlyin, Çirkin, Suxorukov bir daha rus Muğandakı vəziyyəti diqqətə çatdırmaq üçün Bakıya göndərilir. Onlar burada Şaumyan və Caparidze ilə görüşə bilirlər[7, v.9].

Bakı Soveti rəhbərliyi lazımi dəstəni dərhal hazırlasa da, Bakıda mart hadisələrinə görə Lənkərana hücumu hələlik ləngiyir. Məhz sözügedən nümayəndə heyətinin qaldırdığı hay-küy bolşevik-daşnak rəhbərliyinə "Vəhşi diviziya"nın Lənkərana rusları qırmaq üçün getməsi barədə təxribatçı xəbəri yaymağa imkan vermişdi.

Martın 26-da Bakı Sovetinin mətbuat orqanında Lənkəranda vəziyyəti göstərən bir neçə məlumat yer alır. Bu məlumatlarda Muğanın rus kəndlərinin Rusiyada bolşevik hakimiyyəti tanıması və Bakı bolşevik komitəsinə nümayəndələr göndərərək yerli müsəlmanların zorakılığından müdafiə edilmələri üçün kömək xahiş etmələri qeyd olunurdu [17].

Lənkərana hücumdan əvvəl Bakı Soveti azərbaycanlı kəndlilər arasında təbliğat və təşviqatın gücləndirilməsi haqqında xüsusi qərar qəbul etmişdi [1, s.47]. Lakin göründüyü kimi, bu qərar əslində gözdən pərdə asmağa xidmət edirdi.

Lənkərana göndərilən dəstələr ora faktiki olaraq cəza dəstələri kimi gedirdilər. Lənkəran tutulduqdan sonra, "Bakinski raboçi" qəzetində Lənkərana göndərilən həmin dəstədən göndərilən məlumat yer almışdı. Məlumatda şəhərə hücum özünəməxsus şəkildə"əsaslandırılır"dı. Dəstənin yolda ikən, Lənkəranda erməni qırğını və rus əhaliyə qarşı təhlükənin olduğunu eşitdiyi və bu səbəbdən də "şəhərdə qırğının qarşısını almaq üçün" oraya getdiyi qeyd edirdi [15]. Əlbəttə, Lənkəranda erməni qırğınından söhbət gedə bilməzdi və bu yalnız təxribata haqq qazandırmaq cəhdi idi.

Lənkəran nümayəndə heyətinin istəyinə cavab olaraq, erməni-bolşevik hakimiyyətinin siyasi planlarına uyğun olaraq təqribən 300 nəfərə yaxın bir dəstəni "Aleksandr Jandr" gəmisi ilə Lənkərana göndərilir.Bununla yanaşı, Xəzər Hərbi Donanmasına aid bir hidroplan da göndərilmişdi. Bəzi xatirələrdə dəstə üzvlərinin 600 nəfər olduğu qeyd olunur [8,v.55] . Aprelin 25 və 26-da edilən hücumlar nəticəsində Lənkəran zəbt olunmuşdu[7, v.9]. Gəmidəki hərbi dəstə milli qüvvələrə mənəvi təsir etmək üçün, sınanmış vasitədən istifadə edərək Lənkəranı top atəşinə məruz qoymuşdu. Həmin vaxt digər istiqamətdən, Nikolayevka kəndi yaxınlığından rus qüvvələri də Lənkəran şəhərinə toplar atmağa başladılar [14]. Şəhər hər tərəfdən hücuma məruz qalmışdı.

Aleksandr Jandr gəmisi ilə göndərilən müxtəlif növdə kiçik hərbi qruplaşmaların daxil olduğu Xüsusi Birləşmiş Dəstə adlanan bu dəstənin komandiri Kaqramanov (kitablarda Qəhrəmanov kimi də qeyd olunur - A.Ə) adlı erməni hərbiçisi, komissarı isə Saratikov adlı bolşevik idi. Dəstə böyük əksə-

riyyətlə erməni qvardiyaçısı və əsgərlərindən ibarət idi. 28-30 nəfərlik pulemyotçunun daxil olduğu hissəyə Qriqori Arustamov rəhbərlik edirdi [10, v.138]. Bolşevik xatirələrində həmin dəstənin daşnaklardan təşkil olunduğu qeyd edilir [10, v. 73]. Q. Arustamovun pulemyotçu dəstəsi Mart qırğınında iştirak etmişdi [9, v.12]. Hadisələrin iştirakçıları olmuş bolşeviklərin demək olar ki, hər biri məhz Kaqramanovun daşnak olması və onun zorakılıq əməlləri barədə danışırdılar. Bolşeviklərin öz ifadələrindən aydın olur ki, Qırmızı qvardiya tərkibində gələn daşnak Kaqramanov açıq millətçilik xətti yeridir və bununla da, digərlərindən fərqlənirdi. Bu o qədər bariz idi ki, erməni bolşeviki Q.Arustamov bunu nəzərdə tutaraq qeyd edirdi: "Kaqramanov türk və ermənilər arasında ədavəti qızışdırıb ən yüksək həddə çatdırmaq məqsədi güdürdü" [10, v.138]. Digər tərəfdən bu sözlərlə o, həm də özünü təmizə çıxarmağa çalışırdı. Məlum olur ki, hələ Bakıda Mart hadisələri zamanı Kaqramanov öz zorakılığını kifayət qədər nümayiş etdirmişdi. Arustamov mart günlərində çox yerlərdə Kaqramanovun "izləri"nə rast gəldiyini,"həyətlərdəki quyularda doğranmış türk meyitlərini" gördüyünü bildirirdi[10, v.148]. Kaqramanovun özbaşınalıqları barədə Şaumyan və Caparidzeyə məlumat verilsə də, "o, geri çağırılacağı təqdirdə, düşmən sizi əzər" cavabını alınır. [33v.60]

Qeyd edək ki, Kaqramanov Bakıda təşkil olunan "beynəlmiləl" Qırmızı qvardiyanın xüsusi dəstəsinin rəisi idi [11, v.3]. Əlbəttə ki, bu xidmətlərinin nəticəsi idi ki, Kaqramanov sonradan Qafqaz Qırmızı Ordusunun kəşfiyyat komandasının rəisi vəzifəsinə təyin edilmişdi [11, v.1].

Lənkəranda bolşevik-daşnak qüvvələrinə və millətçi rus hərbi birləşmələrinə ciddi müqavimət göstərilsə də, milli qüvvələr məğlub olmuşdu. Dərhal şəhərdə yeni, bolşevik sovet hakimiyyət orqanları yaradılmışdı. Lakin bu orqanlarda yalnız bolşeviklər deyil, eserlər də yer almşdı. Bolşeviklər sırasında isə Bakıda olduğu kimi ermənilər yenə də mühüm yer tuturdular. Əvvəlcə, özünü kifayət qədər göstərmiş eser Suxorukov, Matveev (sol eser), Kropotov (kadet)dan ibarət Müvəqqəti Lənkəran İnqilabi hökuməti adlı qurum yaradılır [9, v.15]. Aprelin 27-də Bakıda XKS yaradıldıqdan 2 gün sonra artıq Lənkəran qəzasında da Xalq Komissarları Soveti təşkil edilmişdi.

Uzun müddət qəzada milli qüvvələrin müqavimətini təşkil edən, qəza sədri Sultan bəy Qulubəyov, o cümlədən milli qüvvələrin bəzi zabitləri həbs edilərək Bakıya aparılmışdı [19]. Dərhal Müsavatın yerli şöbəsi və digər milli əhvali ruhiyyəli təşkilatlar ləğv edilmişdi [1, s.52].

Bundan sonra daşnak-bolşevik və onlara qoşulan rus millətçi hərbi dəstələri yaxınlıqdakı kəndlərin dinc əhalisinə divan tutulmağa başladılar. Kəndin 70 nəfərə yaxın sakini qətl edilmişdi. Canlı şahidlərin məlumatlarında yer alan Kərmətuk kəndindəki qırğın hadisəsi barədə bolşevik xatirələrində də az da olsa məlumat verilir. Bolşeviklərin özlərinin etirafına görə onlar kəndi heç bir əsas olmadan, yəni kənd əhalisinin müqavimət göstərmədiyi halda güclü top atəşinə tutmuşdular. Eləcə də onlar, məhz burada baş verənlərin bolşeviklərlə yerli əhali arasında münasibətlərdə uçuruma səbəb olduğunu göstərirdilər [10, v.141].

Qeyd edildiyi kimi, cəza dəstəsi gələn vaxt artıq İlyaşeviç müsəlmanlarla "mübarizə" aparırdı. Milli alayla onlar arasında döyüşlərdə rus kəndliləri sovetə kömək edirdilər. İlyaşeviçin dəstəsinin onlarla müsəlman kəndini məhv etdiyini bolşevik Ponomoryov qeyd edirdi [10, v.221].

Bir qədər sonra, aprelin sonu və may aylarında Bakıdan Lənkərana yenə də əlavə hərbi dəstələr göndərildi. Bolşeviklərin xatirələrində onlar I və II batalyonlar adlandırılır. Bu batalyonların hərəkətlərini təsvir edən bolşeviklərdən biri söyləyirdi ki, "onlar kimə gəldi atəş açırdılar, sanki dünyanın axırı idi" [9, v.16].

Bolşeviklər həmin dəstələrin birbaşa ermənilərdən təşkil edilməsini açıq qeyd etməsələr də, onların da xüsusən millətçilik əhval ruhiyyəsində olduğunu göstərir və qeyd edirdilər ki, "bu dəstələr inqilabi xətt yürütmürdülər və sonradan da Makarovun və Biçeraxovun dəstəsinə qoşuldular" [10, v.139]. Məlum olduğu kimi, Qafqaz Qırmızı Ordusunun erməni əsgərləri Bakıda məğlub olaraq kütləvi şəkildə Biçeraxova qoşulmuşdular.

Bolşevik-daşnak qüvvələri günahsız müsəlmanları öldürməklə yanaşı qəzada kütləvi qarətçilik həyata keçirmişdilər. Bu barədə az da olsa FTK-ya ifadə verən lənkəranlı şahidlərin məlumatları qalmışdır [6,s.484]. Həmin vaxt qəzada Hərbi istintaq işinə baxan bolşevik Faykovski bildirir ki, həbsxanalar dolu idi və əksəriyyəti də yoxsul adamlar idi [10,v.73]. Sonradan İsrafilbəyov buraya gələrkən, həbsxanada 300 nəfər günahsız müsəlmanın olması barədə məlumat almış və onların yalnız 200-nü buraxdıra bilmişdi [8, v.37].

Bolşevik xatirə gecəsinin iştirakçı olan S.Zaxaryan Lənkəranda olan vəziyyəti xarakterizə edərək, söyləyirdi ki,"burada sovet hakimiyyəti qurmaq adı altında talanlar aparılırdı, quldurluqla mübarizə adı altında isə banditizm gücləndirilirdi [8, v.57].

Bu dəstələrdən əlavə olaraq qəzada dinc müsəlmanlara divan tutan digər bir birləşmə millətçi rus zabiti Şevkunovun dəstəsi idi. Hadisə şahidlərindən olan yerli sakinlərin sözlərinə görə həmin dəstə rəhbərləri sırasında erməni Akopyan və ermənipərəst eser Sinayev var idi[3, s153]. Şevkunov bolşeviklər gəldikdən sonra şəhər mühafizəsi üzrə komissar təyin edilmişdi [8, v.30] Onun dəstəsi Bakıdan göndərilən qüvvələrin əsasında burada yaşayan rus əhalidən də könüllülər daxil olmaqla təşkil olunmuşdu. Xatirələrdən aydın olur ki, Lənkəranda qırğınlar törətməkdə Şevkunov heç də erməni hərbçilərindən geri qalmırdı. Dəstənin quldurluq hərəkətlərini bolşeviklər öz xatirələrində göstərirdilər [8, v.53]. Bolşeviklərdən biri dəstənin üzvü Semyonu "cəllad" adlandırır [9,v.16]. Şevkunovun müsəlman qadınlara qarşı onların milli və insani hissiyyatlarının tapdanılması ilə müşayiət olunan münasibətini göstərən bolşeviklər, Şevkunovun onların başlarından ipək yaylıqlarını, üzərlərindən zinət əşyalarını çəkərək qarət etdiyini təsvir edirlər. Hətta dəstə üzvləri tərəfindən müsəlman qadınların oğurlanması kimi halları qeyd edirlər[5,s.156].

Şevkunovun dəstəsinin qəzanın Sütəmurdov kəndindəki azğınlığını da xüsusi olaraq qeyd etmək lazımdır. Makarov adlı bolşevikin söylədiklərinə görə, Şevkunovun dəstəsi Sütəmurdov kəndinə yaxınlaşanda onun qarşısına kənd ağsaqqallarından ibarət 16 nəfərlik nümayəndə heyəti çıxmışdı[10,v.109]. Onlar kənddə silahlı dəstənin olmadığını bildirərək "aman" istəyirlər. Şevkunov öz adamlarını kənddəki vəziyyəti öyrənməyə göndərmişdi. Qorxuya düşən kənd camaatından kiminsə açdığı atəşdən qəzəblənən Şevkunov danışığa gələn kəndliləri güllələmək əmri vermişdi. Makarov soyuqqanlılıqla "biz onları qılınc ilə doğradıq" deyə etiraf edir [10, v.110].

Ümumiyyətlə, Şevkunovun özbaşınalığı o dərəcədə həddini aşmışdı ki, Bakı Soveti tərəfindən Lənkərana fövqəladə komissar kimi göndərilən M.İsrafilbəyov onun güllələnməsini tələb etmişdi [10,v.83]. Bəzi məlumatlarda Şevkunovun dəstə rəhbərliyindən kənarlaşdırılaraq onun yerinə erməni bolşeviki Arzumanovun təyin edildiyi, Tatyan familiyalı digər erməni bolşeviki isə sonuncuya köməkçi göndərildiyi qeyd edilir [8,v.77]. Bu həm də o demək idi ki, Şevkunovun dəstəsində kifayət qədər erməni əsgərləri olmalı idi ki, onlar bu təyinatlarla razılaşsınlar.

Qəzada aparılan cəza tədbirlərindən sonra, artıq müsəlman əhalinin "gözünün qorxduğunu" və sovet hakimiyyətini qəbul etməyə hazır vəziyyətdə olduğunu düşünən bolşevik hökuməti Hümmət partiyasının üzvü M.İsrafilbəylini Lənkərana fövqəladə komissar kimi göndərmişdi. Lakin burada əsas qərarları qəza komissarı F.Matfeyev və Lənkəran İMK-nın üzvü S.Zaxaryan qəbul edirdilər [1, s.49]. İsrafilbəyova qəzanın müsəlman əhalisini necə deyərlər, itaətə gətirmək tapşırığı verilmişdi. Onunla birlikdə Şəfi Əliyev, Baba Əlimanov, Əhməd Həşimov, Məmmədxan Məmmədov və. s bolşeviklər də qəzaya ezam edilmişdi [8, v.33]. Bakıda hakimiyyəti saxlamaq üçün orada ərzaq, ilk növbədə çörək problemi həll edilməli idi. Bu isə qəzanın müsəlman kəndlərinin taxılı hesabına ola bilərdı. Yaxınlaşan məhsul yığımına və Bakının bu yolla təminatına çalışan bolşevik-erməni hökuməti Lənkəran qəzasında sabitliyə nail olmalı idi. İsrafilbəylinin "missiyasının" əsl səbəbi də bu idi.

İsrafilbəyov qəzada acınacaqlı vəziyyətlə qarşılaşmışdı və vəziyyəti öz xatirələrində qeyd edirdi [8, v.11]. O, Lənkəran kəndlərini gəzərkən, hər yanda aclıqdan yollarda yıxılıb qalan, ot-alaqla qidalanan çoxsaylı kəndliləri görmüşdü. Məhz qəzadakı belə vəziyyət yerli milli özünümüdafiə dəstələrindən bəzilərinin rəhbərlərinin qaçqın camaatın öz yurd-yuvalarına qayıtması şərti ilə silahı yerə qoymağa razılıq verməsinə səbəb olmuşdu[8, s.14]. May ayı boyunca İsrafilbəyli qəza kəndlərində təbliğatla məşğul olur. Kəndli yığıncaqlarında onların sovet hakimiyyətini qəbul etmələri barədə razılıqlar da əldə olunur. Bu zaman isə məhz malakanlar müsəlmanlara hücumlar edərək bəzi qətillər törətməklə təxribatçılıq edirdilər [8, v.21]. Ümumiyyətlə, ermənilərdə olduğu kimi, həmin vaxt qəzadakı rus əhalidə də "türkdən, müsəlmandan bolşevik olmaz" kimi fikir mövcud idi. Hətta bu səbəbdən İsrafilbəyli onlar tərəfindən öldürülmək təhlükəsi ilə də qarşılaşmışdı [9, v.61].

Qəzadakı bolşevik-eser rəhbərlik İsrafilbəyovu çox da yaxına buraxmaq istəməmişdi. İsrafilbəyovun dediyi qəbul edilərsə, Bakıdan göndərilən dəstəsinin komissarı Saratikov onu həmin dəstənin "sovet əhval-ruhiyyəli olmaması" səbəbindən yaxına buraxmırdı [8, v.45]. Bu ifadə bir daha "beynəlmiləl" bolşevik dəstəsinin əsl simasını göstərirdi.

1918-ci ilin aprelindən avqustuna kimi Lənkəran bölgəsi Bakı Sovetinin hakimiyyəti altında qaldı [1, s.51]. Lakin qəzanın əksəriyyət təşkil edən müsəlman əhalisi, nə qədər kağız üzərində sovetlər yaradılsa da, bolşevik hakimiyyətinə dəstək vermədi. Bakıda bolşeviklərin uğursuz siyasəti isə qəzanın rus əhalisinin güclü və alternativ rus hakimiyyəti yaratmaq ümidi ilə eserlərə dəstək verməkdə davam etməsinə səbəb oldu. Son nəticədə Lənkəran qəzası AXC-nin burada hakimiyyəti qurulanadək antiazərbaycan qüvvələrlə yanaşı bir müddət antibolşeviklər üçün də meydan oldu.

1918-ci ilin sentyabrından sonra Lənkəran qəzasının müsəlman əhalisi yenidən erməni-daşnak hərbi qüvvələrinin zorakılığına məruz qalmışdı. Bakının azad edilməsindən sonra buradan qaçan, daşnak polkovniki Avetisovun rəhbərlik etdiyi həmin qüvvələrin törətdiyi cinayətkarlıq əməlləri isə Lənkəran ziyalısı T.Bayraməlibəyovun sayəsində mətbuat səhifələrinə çıxarılaraq tarixdə qaldı.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Əliyeva V. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin Lənkəran bölgəsində bərqərar edilməsi. Bakı, 2012.
2. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı, 1963.
3. Kərimov B. 1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım // Bakı Universitetinin xəbərləri.Humanitar elmlər seriyası. 2012, №2.
4. Кавказский календарь на 1917 г., вып.1, Тифлис, 1916 г.
5. Morozova M.O. Mugan region in 1918-1919/ Russkaya Starina 2015, vol(13) Is1 pfd www/ejurnal15.com
6. Рустамова-Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку, 2009.
7. Воспоминания И. Гранкина о гражданской войны на Мугане и Ленкоране. 1917-1918 г. ARPİİSSA f,268, siy.23, iş 163.
8. Стенограмма вечера воспоминаний участников гражданской войны на Мугане и Ленкоране. 1932 г. ARPİİSSA f,456, siy.18, iş 29.
9. Стенограмма вечера воспоминаний участников гражданской войны на Мугане и Ленкоране. 1931 г. ARPİİSSA f. 456, siy.18, iş 30.
10. Стенограмма вечера воспоминаний участников гражданской войны на Мугане и Ленкоране. 1932 г. ARPİİSSA f,456, siy.18, iş 33.
11. Личные документы Каграманова Анастаса Осиповича…..ARPİİSSA f,276, siy.5, iş 24.
12. Açıq söz, 1918, 23 yanvar, №662.
13. Hümmət, 1918, 23 yanvar, №28.
14. Бакинский рабочий, 1918, 20 февраля, № 29.
15. Бакинский рабочий, 1918, 21 апреля, №71.
16. Баку, 1918, 17 февраля, №38.
17. Известия Совета рабочих и военных депутатов Бакинского района, 1918, 2 марта №56.
18. Наш голос 1918, 6 февраля, №25.
19. Знамя труда, 1918, 11 мая, № 4.
20. Знамя труда, 1918, 30 мая, № 56.


## CRIMINAL ACTS OF THE BOLSHEVIK-DASHNAK REGIME (BAKU SOVIET) IN LANKARAN UYEZD IN THE MEMOIRS OF THE BOLSHEVIKS

## SUMMARY


One of the regions of Azerbaijan where implemented the genocide of the Azerbaijani people was Lankaran uyezd. Unfortunately, due to the fact that this district remained for some time beyond the control of the government of the Azerbaijan Democratic Republic, the Extraordinary Investigation Commission, established to investigate the mass extermination of the Azerbaijani people was unable to gather enough information about the events in this region.

At the same time, the prohibition of the national press by the Bolshevik authorities prevented the reflection of materials concerning crimes against the Azerbaijani people on the pages of newspapers and magazines. However, the facts of the genocide of Azerbaijanis were reflected in the memories of eyewitnesses of those events. In the memoirs of the Bolsheviks, the bloody events in the villages of Karmyatyuk, Sutumuradov, and others survived in the memory of the people. In particular, in the memoirs of Bolshevik figures filled with appropriate "confessions" about criminal acts against Azerbaijanis. A comparative and critical analysis of these memories provides an opportunity to obtain significant information on the violent actions of the

Dashnak-Bolshevik military formations against the Muslim population of the Lankaran uyezd. In the memoirs of the Bolsheviks, the bloody events in the villages of Karmatyuk, Sutumuradov, and others survived in the memory of the people have been reflected. These memories are evidence of cruel punitive measures against the Muslim population of the Lankaran uyezd, committed by the Dashnak-Bolshevik armed formations, as well as nationalist-minded soldiers of the Russian army and detachments of Russian colonists.

## ПРЕСТУПНЫЕ ДЕЯНИЯ ДАШНАКО-БОЛЬШЕВИСТСКОГО РЕЖИМА (БАКИНСКОГО СОВЕТА) В ЛЯНКЯРАНСКОМ УЕЗДЕ В ВОСПОМИНАНИЯХ БОЛЬШЕВИКОВ

## РЕЗЮМЕ

Одним из регионов Азербайджана, где был осуществлен геноцид азербайджанского народа, являлся Лянкяранский уезд. К сожалению, вследствие того, что данный уезд определенное время оставался вне контроля со стороны правительства Азербайджанской Демократической Республики, Чрезвычайная Следственная Комиссия, созданная в целях расследования фактов массового истребления азербайджанского народа, не смогла собрать достаточно сведений о событиях в этом регионе. В то же время запрет национальной печати со стороны большевистской власти предотвратил отражение на страницах газет и журналов материалов относительно преступлений против азербайджанского народа.

Однако факты геноцида азербайджанцев нашли свое отражение в воспоминаниях очевидцев тех событий. В частности, в наполненных соответствующими «признаниями» воспоминаниях большевистских деятелей о преступных деяниях против азербайджанцев. Сравнительный и критический анализ этих воспоминаний дает возможность получить значительную информацию относительно насильственных действий дашнако-большевистских военных формирований в отношении мусульманского населения Лянкяранского уезда. В воспоминаниях большевиков нашли свое подтверждение сохранившиеся в народной памяти кровавые события в селениях Кярмятюк, Сутумурадов и др. Эти воспоминания являются свидетельствами жестоких карательных мер в отношении мусульманского населения Лянкяранского уезда, учиненных дашнако-большевистскими вооруженными формированиями, а также националистически настроенными солдатами русской армии и отрядами русских колонистов.

**Nərmin XANMƏMMƏDOVA**
*AMEA Tarix İnstitutunun Azərbaycanın*
*Tarixi-demoqrafiyası şöbəsinin doktorantı*

# RUSİYA İMPERİYASININ QAFQAZ CƏBHƏSİ QAÇQINLARINA MÜNASİBƏTDƏ ETNO-KONFESSİONAL AYRI-SEÇKİLİK SİYASƏTİ (1914-1917-ci İLLƏR)

**Açar sözlər:** Rusiya imperiyası, Birinci dünya müharibəsi, Qafqaz cəbhəsi, Tatyana komitəsi, qaçqınlar
**Keywords:** The Russian Empire, the First world war, Caucasian front, Tatiana Committee, refugees
**Ключевые слова:** Российская империя, Первая мировая война, Кавказский фронт, Комитет Татьяны, беженцы

Qaçqınların XX əsrdə ilk kütləvi axını Birinci Dünya müharibəsi dövrünə təsadüf edir. Buna baxmayaraq bu problemin öyrənilməsinə maraq son dövrlərdə yaranmışdır. Qaçqınlıq tarixinə dair qaynaqlara gəldikdə bu sahə qismən əhatəlidir. Bu qəbil qaynaqlar arasında ilk növbədə "Qaçqınların təşkili üzrə xüsusi müşavirə"nin 1915-1917-ci illərə dair sənədləri, Tatyana komitəsinin arxivləri [8; 9; 11] mühüm əhəmiyyət kəsb edir. Məqalənin yazılmasında həmin sənədlərdən əlavə, eyni zamanda Azərbaycan Respublikası Milli Arxivinin fondlarından [1] da istifadə edilmişdir. Əsas məqsəd isə Birinci Dünya müharibəsi qaçqınlarına dair Rusiya imperiyasının siyasətində Qafqaz cəbhəsi qaçqınlarına, xüsusən müsəlman qaçqınlara qarşı yeritdiyi etnik ayrı-seçkiliyi aşkar etməkdir.

Birinci Dünya müharibəsi Rusiya dövlətinin taleyində xüsusi mərhələdir. Belə ki, bu savaş 3 milyondan artıq insanın həyatına son qoymuş, sosial ziddiyyətləri kəskinləşdirmiş, ölkəni inqilabi sarsıntılara və vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Bu zaman Birinci Dünya müharibəsinin qurbanları, nəinki cəbhələrdə həlak olmuş əsgərlər, eləcə də minlərlə dinc sakinlər olmuş, onlara taleyin hökmü ilə qaçqınlıq nəsibi ilə barışmaq qalmışdı.

Birinci dünya müharibəsi qaçqınlarının ilk dalğası müharibə başlanar-başlanmaz dərhal hərbi əməliyyatların Qərb cəbhəsindən – Polşanın Suvalk quberniyasının müxtəlif yerlərindən gəldi. Qaçqınlar epizodik səciyyəli yardımları artıq 1914-cü ilin payızından etibarən almağa başlamışdılar. Onlar bu yardımları "Hərbi fəlakətlərdən zərər çəkənlərə müvəqqəti yardım göstərilməsi üzrə böyük knyaz qızı Tatyana Nikolayevna Komitəsi" haqqında 1914-cü il sentyabrın 14-də təsdiqlənmiş Əsasnaməyə görə alırdılar. Bu, Rusiyada "qaçqın işinin" təşkilinə dair ilk qanunverici akt idi. Təşkilindən 1915-ci ilin avqustuna kimi Tatyana komitəsinə onun sədri Aleksey Borisoviç Neydqart rəhbərlik etmişdi. Tatyana komitəsi Rusiyada qaçqınların müdafiəsi üzrə mərkəzi orqan olub, hökumət dəstəyindən və geniş dövlət subsidiyalarından yararlanır, özü də mədaxilin kiçik bir hissəsindən Ümumrusiya bağışlamaları və özəl ianələr verirdi. Komitə qaçqınlara yardım göstərilməsinə yerli inzibati idarəçiliyi və özünüidarə orqanlarını, Qırmızı Xaçı və Hərbi Nazirliyi, çoxsaylı xeyriyyə təşkilatlarını cəlb edirdi [8, 7-8].

Türkiyə ilə Rusiya arasındakı müharibənin gedişində Qafqaz cəbhəsində Sarıqamış məğlubiyyəti dönüş nöqtəsi oldu. Şərqi Anadolu və Qaradəniz sahili rus işğalçılarına açılarkən, bu bölgədə yaşayan türklər üçün təhlükəli günlər başladı. Müsəlman-türk əhali rusların və könüllü erməni dəstələrinin təcavüz və hücumlarına məruz qalmış, Qars, Ərdahan, Kağızman, Oltu, Artvin və s. bölgələrdə yüzlərlə kəndlər dağıdılmışdı. 1914-cü ilin noyabr ayının sonlarında, o cümlədən dekabr ayında getdikcə artan müsəlman-türk qaçqınlar fürsət olduqca bir tərəfdən Anadolunun içlərinə, digər tərəfdən də Qafqaza doğru qaçmağa səy göstərmişdilər. Dekabr ayının sonlarına doğru Qafqazda qaçqınların sayı daha da artmışdı və vəziyyətləri olduqca ağır idi.

Anadoluda türklərin yaşadığı bu fəlakətlər çar Rusiyasının müqavimətinə baxmayaraq çox keçmədən Azərbaycanda çıxan qəzetlər vasitəsilə xalqa çatdırıldı. Azərbaycan türkləri bir tərəfdən bu qətliamların qarşısını almağa çalışır, digər tərəfdən isə "Qardaş köməyi" şüarı ilə böyük bir yardım kampaniyasına başlamışdır. Bu yardımın ən böyük hissəsini isə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti öz üzərinə götürmüşdür. Yardım fəaliyyəti 2 mərhələdə həyata keçirilirdi. Birinci mərhələdə Azərbaycan və bütün Qafqazda fəaliyyət göstərmək nəzərdə tutulurdu. İkinci mərhələdə

isə döyüş bölgələrinə gedərək Rusiya işğalına məruz qalan Anadolunun şəhər və qəsəbələrinə yardım edilməli idi. Qeyd etmək lazımdır ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti qaçqınlara yardım etmək üçün 3 dəfə Rus çarından icazə istəmiş, hər dəfə rədd cavabı almışdır. Yalnız Rusiya Dövlət Dumasında Azərbaycan təmsilçisi Məhəmməd Yusif Cəfərovun köməkliyi ilə icazə alınmışdır [3].

1914-cü ilin dekabrında Peterburqda bütün Rusiya Müsəlman İctimai Cəmiyyətlərinin iclasında bu məsələ gündəmə gətirildi. Bu toplantıya Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti adından qatılan Mirzə Şəmsi Əsədullayev müsəlmanların yaşadığı fəlakəti dilə gətirərək, onların vəziyyətinin çox ağır olduğunu bildirmişdi. Günlər keçdikcə Qafqaza gələn müsəlman qaçqınların sayı daha da artırdı. Artıq Azərbaycan ictimaiyyəti bu məsələ ilə daha yaxından maraqlanmağa başlayarkən, digər tərəfdən Azərbaycan türk qəzetləri də xalqı yardıma çağırırdı [4, 80].

Qaçqınlara və müharibədən zərər çəkmişlərin hamısına yardım Bakı Müsəlman Xeyriyyə Cəmiyyətində Cəmləşmişdi; o Ərzurum müsəlman qaçqın komitəsini təşkil etmişdi. Komitənin himayəsi altında olanların sayı 100 min nəfəri keçmişdi ki, onlardan təxminən 40 min nəfəri başlıca olaraq uşaqlardan, qadınlardan və qocalardan ibarət olan qaçqın idi. Bütün əmək qabiliyyətlilər dövlətə məxsus icbari işlərdə çalışırdılar. Onlar Qafqaz cəbhəsi qaçqınlarının yerbəyer edilməsi üzrə Şura tərəfindən müəyyənləşdirilmiş təqaüd alır, camaşır və geyimlə təmin olunurdular. Ehtiyac həddən artıq çox olduğundan, daha böyük həcmdə və bütün Qafqaz müsəlmanlarının qatıla biləcəyi şəkildə, sistemli çalışmaq lazım idi. Bunun üçün də hökumətdən rəsmi olaraq icazə alınmalı idi. Kömək etmək üçün hökumətdən rəsmi icazə alınmasından dərhal sonra, 26 yanvar 1915-ci ildə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətində bir toplantı keçirildi. Mirzə Əsədullayevin başçılığı ilə 9 nəfərdən ibarət yardım komitəsi seçildi. Yardım işini daha yaxşı təşkil etmək üçün İrəvan, Quba, Gəncə, Şamaxıda müsəlman qaçqınlara yardım komitələri təşkil edildi [5].

Yalnız qaçqınlar problemi açıq-aşkar kütləvi xarakter kəsb etməsindən sonra dövlət öz əvvəlki yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmış insanların hüquq və mənafelərini müdafiə etməyə dair sistemli tədbirləri nəzərdə tutan işə başladı. Vəziyyətin mürəkkəbliyini və gerçək mühüm tələbatları nəzərə almaqla Nazirlər Şurasının 1915-ci il 24 iyul tarixli qərarı ilə cəbhələrdə qaçqınların təşkili üzrə baş müvəkkil institutu yaradılır. Daxili İşlər Nazirliyi nəzdində qaçqınların təşkili üzrə xüsusi şöbənin və quberniyalarda yerli komitələrin formalaşması elan olunur [10].

Ümumdövlət miqyasında "qaçqın işinin" nizamlanmasına dair işlərə 1915-ci il avqustun 30-da "Qaçqınların ehtiyaclarının təminatı haqqında" qanunun dərcindən sonra başlanıldı. Qanun qaçqın statusunu və onun hüquqlarını müəyyənləşdirirdi. Qanuna müvafiq olaraq qaçqın işlərinə rəhbərlik Daxili İşlər nazirinə və onun nəzdində yaradılmış Qaçqınların təşkili üzrə xüsusi müşavirəyə tapşırılırdı. 1915-ci ilin payızında qubernatorların (Fevral inqilabından sonra – Müvəqqəti hökumətin quberniya komissarlarının) şəxsi rəhbərliyi altında qaçqınların təşkili üzrə quberniya müşavirələri də yaradıldı. Petroqradda və Moskvada yuxarıda bəhs edilən müşavirələrə bənzər şəhər müşavirələri işinə başlamışdı [10].

Birgə kömək etmənin tədbirlərini aparmaq üçün Daxili İşlər naziri tərəfindən xüsusi iclas çağırılmışdır. Xüsusi iclasın üzvləri hökumət şurasından yeddi nəfər, dövlət dumasından da yeddi nəfər və bir o qədər adam Hərbi, Xarici İşlər, Daxili İşlər, Maliyyə, Maarif, Rabitə, Sənaye və Ticarət nazirliklərindən, torpaq baş idarəsindən, Tatyana komitəsindən, Rusiyanın qırmızı xaç komitəsindən, Qafqaz təmsilçilərindən, Ümumrusiya torpaq ittifaqı və şəhərlər ittifaqından daxil olmuşdur. Xüsusi iclasın müzakirəsinə daxil olan məsələlər: qaçqınların tələbatlarını ödəmək üçün kreditlərin ayrılması, onların qeydiyyatı, əvvəlki yerlərinə qaytarılması, mal-mülklərinin qaytarılması və eləcə də gələcək talelərini həll etməkdir. Eləcə də xüsusi iclas daşınan və daşınmaz əmlakın qiymətləndirilməsi həyata keçirilməli idi. Qaçqınların məskunlaşması və onların gələcək taleyi şəhər ictimai cəmiyyətlərinin və torpaq müəssisələrinin üzərinə qoyulmuşdur. Şəhərlərdə və digər yerlərdə hansındakı vəziyyət torpaq komitələrinin üzərinə qoyulmayıb, yerli əhali quberniya, qəza və şəhər, lazım olduqda isə sahə yerli komitələri kömək edirdilər [7, 119].

Qanunla Rusiyaya gələn bütün qaçqınların ehtiyaclarını ödəmək üçün dövlət xəzinəsindən 25 milyon rubl ayrılması qərara alındı, "Qaçqınları yerləşdirmək üzrə Xüsusi Komitə" yaradıldı. Komitəyə xeyriyyə təşkilatlarından bir nəfər təmsilçi seçildi. "Qaçqınları yerləşdirmək üzrə Xüsusi Komitə"yə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndəsinin daxil olması ilə, Qafqaz cəbhəsi

döyüşlərində zərər görən müsəlmanlara yardım etmək və qaçqın düşənləri yerləşdirmək üçün dövlət xəzinəsindən yardım almaq hüququ əldə edilmişdi. Ümumi işlər bölməsi üzrə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri adına Hesab bölməsindən qaçqınlara və Qafqaz cəbhəsində müharibədən zərər çəkmişlərə yardım etmək üçün Mirzə Şəmsi Əsədullayevə 60000 rubl göndərilir.

1915-ci ilin 7 oktyabrında Bakı Polismeysterinə qaçqın və ölənlərin sayı haqqında məlumat verilmişdir. Qafqaz cəbhəsində qaçqınlar və hərbi hərəkətlərdən zərər çəkmiş Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin məlumatına əsasən 1 apreldən-20 sentyabra qədər Qars sahəsində qaçqınların sayı 33141; 10 yaşdan yuxarı böyüklər-21641; 10 yaşdan kiçik uşaqlar-11500-ə qədər Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qars dəstəsi tərəfindən qeydə alınmışdır [2, 2].

Həmin sahənin müxtəlif dairələrində 14870 qaçqın qeydə alınmışdır. İrəvan quberniyasında 1100 nəfər, onlardan 100 nəfəri tam yetim uşaqlar, Tiflis quberniyasında 580 nəfər-onlardan 87 nəfəri yetim uşaqlar, Yelizavetpol quberniyasında 243 nəfər, onlardan 116 nəfəri yetim uşaqlar, Bakı şəhərində 58 nəfər, onlardan 50-si yetim uşaqlar qeydə alınmışdır. Həmçinin cəmiyyət tərəfindən müxtəlif növ işə düzəldilmiş qaçqınlar cəmiyyətin qeydiyyatına düşməmişdilər. Batumi sahəsinə gəlincə, Batumi hakimiyyətindən icazə olmadığı üçün Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Komitəsi həmin vaxta qədər qeydiyyata almaq imkanından məhrum edilmişdir. Batumi sahəsində qaçqınların və zərər çəkmiş müsəlmanların Tbilisi Gürcü Xeyriyyə Cəmiyyətinin məlumatlarından istifadə edərək 25000 insana qədər hesablanır. Beləliklə, bütün qaçqın və zərərçəkmiş müsəlmanların sayı 74999 nəfər müəyyən edilir [2,3].

Beləliklə, yalnız 1915-ci ilin sonundan etibarən Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti "Qafqaz cəbhəsi qaçqınlarını yerləşdirmək üzrə baş təmsilçilik" vasitəsilə dövlət xəzinəsindən ayrılmış vəsaitdən pay almağa başlamışdır. Ancaq alınan bu yardımlar ehtiyacı ödəyəcək dərəcədə deyildi. Xeyriyyə Cəmiyyətinin müsəlman qaçqınlarına 1917-ci il yanvarın 1-dək xərclədiyi 2 milyon 100 min rubldan yalnız müsəlman qaçqınlar üçün 125 min rublu dövlət xəzinəsindən almışdır.

Erməni qaçqınlarına gəlincə isə, müharibənin başladığı ilk günlərdən etibarən, Qafqazda dərc edilən qəzetlərdə, keçirilən toplantılarda onlar haqqında danışılır, erməni və rus cəmiyyətləri onlara yardımlar toplayırdılar.

Erməni qaçqınlarına kömək edən Bakı komitəsi öz işini Sarıqamış məğlubiyyətindən sonra qaçqınların Qafqaza üz tutması ilə başladı. Hələ qaçqın axını Bakıya çatmamış komitə Sarıqamış, Qars, Aleksandropol, İrəvan, Eçmiədzin, Naxçıvan bölgələrində fəaliyyətə başladı. Maddi yardımdan əlavə qeyd olunan ərazilərə qaçqınlara yardım üçün 10 vaqon un, 5 vaqon isti geyimlər, çay, şəkər və s. göndərilmişdi. Naxçıvan və Eçmiədzin rayonlarında 2 tibbi məntəqə də fəaliyyətə başladı. Komitə bu yardımı 1915-ci il iyulun ortalarına-qaçqınların yeni axınına-iyul böhranından sonra Vandan Bakıya gəlmələrinə kimi yerinə yetirdi. Gələn qaçqınlar Bakı şəhəri ətrafında "erməni qəsəbələri" adlandırdıqları ərazilərdə məskunlaşdırıldılar. Qaçqınlara gündəlik ehtiyacı ödəmək üçün 5-10 qəpik verilirdi. Eyni zamanda, onlar üçün xəstəxanalar, uşaq sığınacaqları açılır, mənzil və isti əşyalarla təmin edilirdilər [1, 10-11].

Şərqi Anadoluda ümumi qaçqın sayı 200000 nəfərə çatmışdır. Onlar Zaqafqaziyada, əsasən də Qars vilayətində, eləcə də Yelizavetpol və İrəvan quberniyasında yerləşirdilər. Qars vilayətində 1 avqust 1915-ci il tarixdə 52484 qaçqın qeydə alınıb, onlardan 26811 nəfər türk əsillidir [7,120-121].

1915-ci il 30 avqustda qəbul olunmuş qərardan sonra 1915-ci il noyabrda Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə səlahiyyətli nümayəndənin dəftərxanası müəyyən olundu. Qafqaz vilayətinin qaçqınların təmini üzrə 5 noyabr 1915-ci il Qafqazda canişin tərəfindən təsdiq olunmuş qərarla səlahiyyətli nümayəndənin fəaliyyətinə-qaçqınların yerlə təminatı, tibbi-sanitar və təsərrüfat təminatını təşkil etmək daxil idi. Məsul nümayəndənin səlahiyyətlərinə bütün quberniyalar, Qafqaz canişinliyinin vilayət və nahiyələri, Türkiyə və İranın rus əsgərləri ilə tutulmuş rayonları tabe idi. Rus əsgərlərinin tutduğu hər bir quberniya, vilayət hətta, Türkiyə və İran ərazisinə belə səlahiyyətli nümayəndə öz nümayəndəsini göndərirdi.

Bütün imperiya çərçivəsində qaçqınlara və müharibədən zərərçəkmişlərə kömək həvalə olunmuş Rus Liberal Cəmiyyəti Zaqafqaziyada olan qaçqınların da qayğılarını öz üzərinə götürmüşdü. Artıq 1915-ci ilin əvvəllərində Petroqradda Rus erməni komitəsi yaradılmışdı və onun məqsədi rus cəmiyyətini erməni millətinin hazırki vəziyyəti ilə tanış etmək idi. Petroqrad şəhər duması Tolstoyun

təşəbbüsü ilə erməni qaçqınlara kömək məqsədilə 50000 rubl vəsaitin ayrılması və bir günlük müharibədən zərərçəkmiş ermənilərə yardım yığılmasını qəbul etdi[7, 124].

Erməni qaçqınlarına kömək eyni zamanda, Petroqradda Azad İqtisadi Cəmiyyət və Rus Texniki Cəmiyyət tərəfindən göstərilmişdir. Ən çox əhəmiyyətli kömək qaçqınlara Ümumrusiya Şəhərlər İtifaqından olunmuşdur. Bir çox erməni komitələrinin hesabatında qaçqınlara köməyin rus cəmiyyətləri tərəfindən edildiyi göstərilmişdir. Belə ki, Erməni Moskva komitəsinin 1 noyabr 1914-cü ildən 1 iyul 1915-ci ilədək olan hesabatında ayrı-ayrılıqda 40000 rublluq vəsaitlərin daxil olması göstərilir [6]. Daha sonra qubernator yazırdı ki, "mən müsəlman kəndlərinin işçi qüvvələrinin və mal-qaralarının rus və erməni kəndlərinin möhtac sakinlərinə yardım məqsədilə istifadə edilməsi vəzifəsinin uğurlu həllinə olduqca vacib əhəmiyyət verirəm" [6].

Çarizmin qaçqınlara dair siyasəti işğal olunmuş rayonların gələcək taleyinin müəyyənləşdirilməsi zamanı çarizm tərəfindən güdülən məqsədlərdən irəli gəlirdi. Çarizm Şərqi Anadoluda erməni torpaqlarının ilhaqını nəzərdə tuturdu. Buna uyğun olaraq "Müharibə hüququna görə Türkiyənin tutulmuş vilayətlərində hərbi-inzibati idarəçiliyin təşkili" təsbit edilmişdi [7, 130].

1916-cı ilin iyunun 5-də təsdiqlənmiş Müvəqqəti əsasnamə işğal edilmiş rayonlarda hərbi general-qubernatorun idarəsinin təşkilini nəzərdə tuturdu. Onun idarəetməsi altında olan ərazi Türkiyə ilə dövlət sərhədindən döyüşlər gedən bölgələrə kimi uzanan məkanı əhatə edirdi. General-qubernatorun sərəncamındakı bütün ərazi vilayətlərə, dairələrə və nahiyələrə bölünürdü ki, onların da idarə olunması müvafiq olaraq vilayət qubernatorlarına, dairə və nahiyə rəislərinə həvalə edilirdi. Şəhərlərdə və digər iri yaşayış məntəqələrində polis idarələri təsis olunurdu. [7, 131]

1915-ci ilin sentyabrında Tatyana komitəsi nəzdində Qaçqınların Qeydiyyatı üzrə Xüsusi Şöbə təsis olundu. Başda V.İ. Komarnitski olmaqla, Qaçqınların Qeydiyyatı üzrə Mərkəzi Ümumrusiya Bürosu Xüsusi şöbənin İcraiyyə komitəsinə çevrildi.

Qaçqınların birinci geniş sayımı (Cənubi Qafqazsız və digər yerlər üzrə natamam məlumatlarla) 1915-ci ilin dekabrın 20-də 2,7 milyon qaçqının olduğunu göstərdi; dəqiqləşdirilmiş qeydiyyat (yenə də Cənubi Qafqaz istisna olmaqla) 1916-cı ilin əvvəllərində 3 milyon, həmin ilin sonlarında isə 3,6 milyon nəfər qaçqın (buradan etibarən Cənubi Qafqaz da nəzərə alınır; orada sözügedən dövrdə 464 min qaçqın cəmləşmişdi ki, onlardan 145 min nəfər bilavasitə Türkiyə və İran ərazisində olmaqda idi), 1917-ci ilin yayında isə 3,8 milyondan artıq qaçqını aşkara çıxarmışdı [11, 47].

Qaçqınların yerləşdiyi rayonlarda onların qeydiyyat kartoçkalarını işləyən Tatyana komitəsinin statistika şöbəsinin bilgilərinə əsasən 1916-cı ilin sonunda Rusiyada himayədə olan 3,2 milyon qaçqının (Cənubi Qafqaz olmadan) milli tərkibi aşağıdakı qaydada idi: ruslar – 58,8%, polyaklar – 15,0%, latışlar – 10,0%, yəhudilər – 6,4%, litvalılar – 2,8%, digərləri (estonlar və başqaları) – 7,0%. Lakin Cənubi Qafqaz qaçqınları nəzərə alınmaqla (onlar 3,6 milyonluq ümumi qaçqın sayının demək olar 13%-ni təşkil edirdilər) rusların göstərilən payı 50%-dək enirdi. Beləliklə, çoxmillətli qaçqın kütləsi arasında qeyri-müsəlman əhalisi üstünlüyə malik idi. Büronun məlumatlarına əsasən 1917-ci ilin fevralın 1-i üçün bütün cəbhələrdə qaçqınların sayı 3200512 nəfər təşkil edirdi [11, 48].

Göründüyü kimi istər, "Qaçqınların ehtiyaclarının təmin edilməsi" haqqında qanun əsasında yaradılmış dövlət strukturlarının, istərsə də Tatyana komitəsinin fəaliyyəti Rusiya imperiyasının müstəmləkə siyasətinə tabe idi. Tatyana komitəsi müharibə gedən digər bölgələrdə dərhal yerli komitələrini açdığı halda, 1915-ci ilin sonlarına qədər Qafqazda olan müsəlman qaçqınları dövlət yardımından kənarda qalmışdı. Müsəlman qaçqınlara kömək yalnız müsəlman xeyriyyə cəmiyyətləri tərəfindən olmuşdu.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi (ARDTA). fond 1, siy. 1, iş 1495, vərəq 10-11.
2. ARDTA. fond 1, siy. 1, iş 1497, vərəq 2-3.
3. Aran M.S. Qardaş köməyi //"Ergenekon yolu" jurnalı. 1951, №1
4. Aslan B. 1. Dünya Savaşı Esnasında "Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriyesi". Ankara: Atatürk Kültür Merkezi Başkanlığı, 2000, 395 s.
5. Газета "Баку", 30 января, 1915.
6. Газета "Баку", 20 июня, 1915.

7. Басилая Ш.И. Закавказье в годы первой мировой войны. Сухуми: Алашара, 1968, 362 с.
8. Комитет Е. И. В. Великой княжны Татьяны Николаевны для оказания временной помощи пострадавшим от военных бедствий. 14 сентября 1914г. – январь 1916 г. Т. 1, Пг., 1916, 509 с.
9. Комитет Е. И. В. Великой княжны Татьяны Николаевны для оказания временной помощи пострадавшим от военных бедствий. 14 сентября 1914г. – январь 1916 г. Т. 2, Пг., 1916, 309 с.
10. Курцев А.Н. Беженцы первой мировой войны в России (1914-1917)// Вопросы истории, 1999, №8, с. 98-113.
11. Отчеть о деятельности особого отдела комитета Ей Императорского Высочества Великой Княжны Татианы Николаевны по регистрации беженцев в 1915г. Пг., 1916, 103 с.

## THE ETHNO-CONFESSIONAL DISCRIMINATION POLICY OF RUSSIAN EMPIRE IN RELATION TO REFUGEES OF CAUCASIAN FRONT (1914-1917)

### SUMMARY

During the First World War from the fronts refugees began to arrive in Russia. First aid to refugees in the state level began in 1914, but nevertheless, the Muslim refugees of the Caucasian front began to receive assistance from the end of 1915 and is not a significant amount. In this situation, the Muslim refugees received assistance only from the Muslim Charitable Society.

## ЭТНО-КОНФЕССИОНАЛЬНАЯ ДИСКРИМИНАЦИОННАЯ ПОЛИТИКА РОССИЙСКОЙ ИМПЕРИИ В ОТНОШЕНИИ БЕЖЕНЦЕВ КАВКАЗСКОГО ФРОНТА (1914-1917 ГГ.)

### РЕЗЮМЕ

Во время Первой мировой войны из фронтов беженцы начали прибывать в Россию. Первая помощь беженцам на государственном уровне началась в 1914 г., но, тем не менее, мусульманские беженцы Кавказского фронта начали получать помощь только с конца 1915 года и то в незначительном количестве. Мусульманские беженцы получали помощь только от мусульманских благотворительных обществ.

**Fərahilə BABAYEVA-ŞÜKÜROVA**
*AMEA Qafqazşünaslıq İnstitutu*
*"Qafqaz siyasəti" şöbəsinin elmi işçi*

# 1991-1994-cü İLLƏRDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI HƏYATA KEÇİRDİYİ TERROR VƏ SOYQIRIMLARI

**Açar sözlər:** soyqırım, terror, münaqişə, işğal
**Keywords:** Genocide, terror, conflict, occupation
**Ключевые слова:** геноцид, террор, конфликт, оккупация

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu Milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı.Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsidir. Ona görə də ermənilər "ənənələrinə" sadiq qalaraq, həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə başlamışlar. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. Azərbaycanın XIX-XXəsrlərdə baş verən bütün faciələri torpaqlarımızın zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.(1) Azərbaycanın bölüşdürülməsindən sonra tarixi torpaqlarımızda ermənilərin kütləvi şəkildə məskunlaşdırılması, 1905-1906-cı və 1918-1920-ci illərdə çar Rusiyası və bolşeviklərin köməyi ilə erməni daşnaklarının törətdiyi qırğınlar, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistandan deportasiyası, bütün bunların ardından 1980-ci ildə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni millətçilərinin ədavətə rəvac verən çıxışları, Topxana meşəsinin baltalanması, baltanın sonradan ermənilərin əllərində silaha çevrilərək Azərbaycan torpaqlarına və xalqına qarşı yönəlməsi və bunun nəticəsində 20 faiz torpaqlarımızın işğal edilməsi, işğal nəticəsində bir milyondan yuxarı vətəndaşlarımızın qaçqın vəziyyətinə salınması "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin planlı və məkrli siyasətinin ardıcıl surətdə inkişafı idi.

Erməni millətçilərinin qarşılarına qoyduqları birinci vəzifə - Ermənistan ərazisində yaşayan azərbaycanlıları öz ata-baba torpaqlarından çıxartmaq idi və buna nail oldular. İkinci vəzifə Dağlıq Qarabağı Ermənistanla birləşdirmək idi və bunun üçün Azərbaycana qarşı açıq təcavüzə başladılar. Blokada bəhanəsi altında 1991-ci ilin yanvarında erməni hərbi birləşmələri yenidən Dağlıq Qarabağ ərazisində fəallaşdılar. Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı hərbi təcavüzü nəticəsində xalqımızın 20 minə yaxın övladı həlak oldu, 50 min adam yaralandı. 363 qadın erməni işğalçılarının əsirliyində qaldı. Bu illər ərzində ermənilər xalqımıza qarşı 32 terror aktı həyata keçirmişlər. Hələ 1989-cu ildə Tbilisi-Bakı, 1990-cı ildə Tbilisi-Ağdam-Şəmkir avtobusunda, 1991-ci ildə Moskva-Bakı sərnişin qatarında, 1992-ci ildə Türkmənistan-Bakı bərəsində, 1993-cü ildə dəmiryol vağzalında, 1994-cü ildə Bakı metrosunun "20 yanvar" stansiyasında terror aktlarını törətmişdilər (2, s. 236). 1991-ci il yanvarın 8-də Laçın-Şuşa yolunda "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı Salatın Əsgərova amansızcasına qətlə yetirildi (4). 1991-ci il mayın 30-da Mahaçqala dəmiryol şöbəsinin sahəsində Moskva-Bakı sərnişin qatarının axırıncı vaqonunda partlayış törətdilər. 15 nəfər sərnişin həlak oldu, 7 nəfər isə yaralandı. 1991-ci il iyulun 31-də 6 nömrəli Moskva- Bakı sürət sərnişin qatarında ermənilər yenidən güclü partlayış törətdilər. Hadisə nəticəsində 15 nəfər sərnişin həlak oldu, 19 nəfər ağır yaralandı (10, s.114). 1991-ci il sentyabrın 25-də Əsgəran rayonunun Ağbulaq kəndi ermənilər tərəfindən atəşə tutuldu. Nəticədə 2 milis işçisi, vilayət prokrorluğunun müstəntiqi, bir avtobus sürücüsü həlak oldu, bir sürücü isə yaralandı (5). 1991-ci ilin sonuna yaxın hələ də Azərbaycanda la-

zımi dərəcədə özünü müdafiə etmək üçün mütəşəkkil ordu yox idi. Bu fürsətdən ermənilər daha çox yararlanmağa başladılar. Belə ki, 1991-ci il sentyabrın 25-dən 26-a keçən gecə Kərkicahana hücum etdilər. Milis işçisi Ş. Cəfərov yaralandı. Həmin gecə "Alazan" tipli raketdən Şuşa atəşə tutuldu. Evlər, idarələr dağıdıldı. 1991-ci il avqustun 8-də Ermənistandakı axırıncı azərbaycanlı kəndi Nüvədi kəndinin sakinləri öz torpaqlarından qovuldular. Beləliklə 1988-1991-ci illər ərzində ermənilər tərəfindən 225 nəfər azərbaycanlı öldürüldü, 1154 nəfər yaralandı (6). 1992-ci il yanvarın 8-də ermənilər Bakı limanında dəhşətli partlayış törətdilər. 86 nəfər bu partlayışın qurbanı oldu. Meyitlər o dərəcədə güclü yanmışdı ki, onlardan yalnız ikisini tanımaq mümkün olmuşdu. Gəmi hərəkət cədvəlindən 2 saat əvvəl limana gəlmişdi. Erməni terrorçularının hesablamalarına görə gəmi açıq dənizdə partlamalı və bütün gəmidəki adamlar məhv olmalı idilər (11,s.242). Ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar artıq müntəzəm xarakter almışdı. Azğınlaşan ermənilər növbəti hədəflərini Xocalıya yönəltmişdilər. Xocalı ermənilər üçün ən mühüm yer idi. Buranı onlar özləri üçün böyük bir maneə hesab edirdilər. Çünki Xocalı Dağlıq Qarabağda şose yolunun üstündə yerləşirdi. Hava yolu burada olmaqla bərabər, həm də dəmiryolu buranın içindən keçirdi. Buna görə də ermənilər Xocalını məhv etməyə çalışırdılar. 1992-ci il fevralın 26-da erməni quldurları 366 saylı rus alayının köməyi ilə Xocalı şəhərində misli görünməmiş qırğın törətdilər. Qaraqaya adlı yerdə meşədən çıxarkən pusquda durmuş erməni quldurları tərəfindən gülləbaran edildi. Beləliklə, 613 nəfər qətlə yetirildi. Onlardan 106-sı qadın, 83-ü azyaşlı uşaq, 70-dən çoxu ahıl, qoca olub. 56 nəfər xüsusi amansızlıqla diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi (3, s.324).

Bu cinayəti ermənilər özləri belə təsdiq etmişlər. Erməni hakimiyyəti bu soyqırımı rədd etməyə çalışsa da, bunun dəhşətli bir cinayət olduğunu sübut edən, çoxsaylı və danılmaz faktlar mövcuddur. Xocalı soyqırımı ilə bağlı tarixi faktlardan danışan həmin dəhşətli günün canlı şahidi olan əslən erməni yazıçı-jurnalist Daud Xeyriyandır. O, erməni vəhşiliyini gözü ilə görən və bununla bağlı tarixi kitab yazan yazıçıdır. Erməni cinayətlərini özündə əks etdirən Xocalı soyqırımı dəhşətlərinin qeyd olunduğu, ən əsası müəllifi erməni olan "Во имя Креста" kitabından faktları təqdim edir. Həmin kitabın 19-cu səhifəsindən 76-cı səhifəsinə kimi ermənilərin Qarabağ müharibəsi illərində törətdiyi vəhşiliklərdən bəhs edilir. Kitabın daha çox əhəmiyyət kəsb edən hissəsindən biri də 62-ci və 63-cü səhifələrdə qeyd olunan Xocalı Soyqırımının törədilməsi və ermənilərin bir azyaşlı uşağı necə yandırmasından bəhs edən hissəsidir. Biz meyidləri daşıyıb, palçıqlı yola tökürdük ki, oradan keçə bilək. Ona görə mənim bütün paltarım, çəkmələrim və saçım belə qana bulaşmışdı. O zaman 1200 meyitdən körpü kimi istifadə edildi. Mən təxminən o qədər meyit gördüm. "…Mart ayının 2-də "Qaflan" adlı erməni qrupu ( onlar meyitlərin yandırılması ilə məşğul idi) alçaq monqollardan ( red- türkləri nəzərdə tutub) təxminən 2000-ə qədər meyit yığdı və onları ayrılıqda Xocalıdan bir neçə kilometr qərbdə yandırdı."

Kitabın ən dəhşətli və qan donduran hissələrindən biri də 10 yaşlı bir qızın başına gətirilən dəhşətli bir cinayətlə bağlı olan bölümdür.

Səhifə 63- də müəllif yazır: " Sonuncu yük maşınında təxminən 10 yaşlarında olan qız var idi. O, boynundan və əlindən yaralanmışdı. Yarası çox ağır idi. Amma o yavaş-yavaş nəfəs alırdı. Hava çox soyuq idi. Güclü şaxta var idi. Bu qədər yarasına baxmayaraq, uşaq hələ də yaşayırdı . Həyatımda heç vaxt unutmayacağım bir hadisə ilə rastlaşdım. Heç vaxt o uşağın ölümlə mübarizə aparan gözlərini unutmayacağam. Bir az keçdikdən sonra, Tiqranyan adlı əsgər onu qulağından tutaraq mazutlanmış leş yığınına tərəf sürüdü və daha sonra onları yandırdılar. Orada bir nəfər qışqıraraq kömək istəyirdi, yalvarırdı. O, qədər həyəcan keçirmişdim ki, yeriyə bilmirdim. Ancaq mən bütün müqəddəslər tərəfindən lənətlənmiş türkləri qırmaq və Şuşanı azad etmək istəyirdim. Ona görə də mən qayıtdım. Onlar isə özlərinin "Xaç naminə " yürüşlərini davam etdirdilər" (7).

## 1914-1920-ci İLLƏRDƏ ŞƏRQİ ANADOLU, URMİYA, SALMAS, XOY BÖLGƏLƏRİNDƏ TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLARI

*AMEA-nın müxbir üzvü* **Gövhər BAXŞƏLİYEVA**
*AMEA akad Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun direktoru*

# İRAN TARİXÇİSİ TOHİD MƏLİKZADƏ DİLMƏQANİNİN "GÜNEY AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ - SOYQIRIM" KİTABINDA DÖVRÜN MÜHÜM İCTİMAİ-SİYASİ HADİSƏLƏRİ FONUNDA AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA

**Açar sözləri:** Tohid Məlikzadə Dilməqani, Güney Azərbaycan, soyqırım
**Keywords:** Tohid Melikzadeh Dilmeqani, South Azerbaijan, genocide
**Ключевые слова:** Тофик Меликзаде Дилмягани, Южный Азербайджан, геноцид

Müasir İran tarixçisi Tohid Məlikzadə Dilməqaninin "Güney Azərbaycan birinci dünya müharibəsi illərində - soyqırım" adlı kitabında 1914-1919-cu illərdə erməni-aysor qüvvələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımdan bəhs olunur. Müəllif əsəri yazarkən əsasən Osmanlı arxivlərindən istifadə etmişdir. Bundan başqa xatirələrdən, rəsmi məktublardan və həmin dövrə aid olan qəzet materiallarından da istifadə olunmuşdur. Kitab AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları tərəfindən farscadan tərcümə edilərək çap edilmişdir (Bakı, 2010, 259 səh.). Kitabda XIX əsrin sonu – XX əsrin əvvəllərində Güney Azərbaycanın qərb bölgəsində baş vermiş mühüm ictimai-siyasi hadisələr tədqiq edilir. Müəllif kitabın yazılma səbəbini belə izah edir: "Mən doktorluq dərəcəsi almaq üçün təhsilimi xaricdə davam etdirməli oldum. Əlimə bir çox tarixçilərin xəbəri olmayan həm ruslara və osmanlılara, həm də ermənilərə və aysorlara aid çoxlu tutarlı mənbə keçdi. Buna görə də məsələnin müasir Azərbaycan tarixində əhəmiyyətini anlayaraq və bir qrup insanın avanturistliyi nəticəsində məzlumcasına şəhid olmuş yerlilərimin qarşısında borcumu yerinə yetirərək, gələcəkdə baş verə biləcək bu kimi hadisələrin təkrarlanmasının qarsısını almaq üçün, sağ qalanlara ibrət olsun deyə bu kitabı yazdım" (səh. 6).

Kitab ön söz və irili-xırdalı 151 bölmədən ibarətdir. Birinci dünya müharibəsi haqqında məlumatlarla oxucuları tanış edən müəllif onu bəşər tarixində dönüş nöqtəsi sayır. Belə ki, bu müharibə nəticəsində köhnə ictimai-siyasi quruluşlar yenisi ilə əvəz olundu, böyük imperiyalar dağıldı, yeni milli hökumətlər quruldu. Bu zaman Güney Azərbaycan əsas döyüş meydanından uzaq olsa da, mühüm geosiyasi mövqeyə malik olduğu üçün rus ordusunun tapdağı altında qaldı. Etnik azərbaycanlılardan ibarət əhali osmanlılara meyl etsə də, İranın xristian əhalisi-ermənilər və aysorlar ruslara və ingilislərə meyl edir, onlarla hərtərəfli tərəfdaşlıq edirdilər.

1909-cu ildə ruslar Təbrizdə Rusiyaya qarşı təhlükə yaranması bəhanəsi ilə Güney Azərbaycanı işğal etdilər. Osmanlı dövləti bununla razılaşa bilməzdi və rus qüvvələrinin çıxarılması haqda Qacar dövlətinə nota göndərdi. Lakin Rusiya qoşunların Güney Azərbaycandan çıxarmaqdan imtina etdi.

1915-ci ildə Güney Azərbaycanda rus və Osmanlı qüvvələri toqquşdu. Lakin Osmanlıların rusları bölgədən çıxarmaq cəhdləri uğursuzluqla nəticələndi.

Bölgədə yaranmış çox mürəkkəb şəraitdə Osmanlı dövlətindən gəlmiş çoxsaylı xristian aysorlar (cilovlar) quldur erməni dəstələri ilə birləşərək yerli əhaliyə – azərbaycanlılara qarşı hücuma keçdilər. 3 gün Urmiyada qırğınlar törədərək, onlar 1918-ci ilin fevralında Güney Azərbaycanın qərbini işğal etdilər. Təqribən bir aydan sonra birləşmiş erməni – cilov dəstələri yenidən Urmiyada, Dilman və Köhnəşəhərdə qətliam törətdilər. Müəllifin yazdığına görə, "bir neçə ay ərzində 100 mindən çox azərbaycanlı şəhid oldu" (səh.5). Bu zaman Andranik cilovlara, daha sonra ingilislərə qoşularaq 25 min erməni ilə Xoya hücum etdi. Bu hücum azərbaycanlı mücahidlər və onların köməyinə gəlmiş Osmanlı ordusu tərəfindən dəf edildi. Bütövlükdə isə müəllifin yazdığına görə, birinci dünya müharibəsi illərində Güney Azərbaycanın təqribən 150 min əhalisi soyqırıma məruz qalmışdır. Urmiya, Xoy və Salmasın dağlıq və düzənlik ərazilərində bütün kəndlər və yaşayış məntəqələri yerlə yeksan olmuş əhalinin əkin sahələri tamamilə məhv edilmişdir. Bölgənin iqtisadiyyatı tənəzzülə uğramışdır.

Qanlı-qadalı illərin faciəvi hadisələrini çoxsaylı arxiv materialları əsasında ətraflı tədqiq edən müəllif ürək ağrısı ilə yazır: "XX əsrin əvvəllərində Arazın hər iki tayında azərbaycanlıların soyqırı-

mı faciəsi Rza xanın hakimiyyətə gəlməsi ilə qaranlığa gömüldü, onun Azərbaycan turkləri ilə dərin düşmənçiliyi sayəsində unutduruldu. Şəhərlərin tarixi haqqında yazılan bir neçə kitab istisna olmaqla, heç bir müəllif tərəfindən heç bir kitabda bu mühüm mövzuya toxunulmadı. Beləliklə, sonrakı nəsillər cilovluq faciəsindən tamamilə xəbərsiz qaldı…".

Kitabın bir çox bölmələrində – "Cilovlar tərəfindən Urmiya əhalisinin qırdırılmasının başlanması", "Urmiya camaatının öldürülməsinə davam edilir", "Urmiyanın qorxunc gecələri", "Cilovların Köhnəşəhərə hücumu", "Cilovların Çəhriğə hücumu", "Urmiya əhalisinin soyqırıma uğradığı günlər", "Şəmsi 1298 (1918)-ci ilin yazında Azərbaycan əhalisinin soyqırıma uğraması haqqında bəzi sənədlər", "Cilovlar tərəfindən Salmasın yenidən işğal olunması və camaatın soyqırıma uğradılması", "Əsgərabad döyüşü – ermənilər və aysorlar tərəfindən müsəlmanların soyqırıma uğradılması", "Andranikin başçılığı ilə ermənilərin Xoya hücumu", "Urmiyada əhalinin qırğınının son həddi" və s. – Güney Azərbaycanın müxtəlif bölgələrində azərbaycanlıların soyqırımı konkret tarixi materiallar əsasında ətraflı təsvir edilir. Kitabda şahidlərin dili ilə dəhşətli hadisələr təsvir edilir. Məsələn, "Azərbaycanlı şəhidlərin torpağa tapşırılması" bölümündə Urmiyada baş verən hadisələr və onların nəticələri belə canlandırılır: "Cəmadi əl-əvvəl ayının 14-ü (25 fevral 1918-ci il) camaat meyidləri basdırmağa başladı. Bu iki, üç gün ərzində basdırılmamış cənazələr üçün bir arabalı adam ayrıldı ki, evləri gəzərək olan bütün meyidlər yığılıb dəfn edilsin. Bu meyidlərin sayı çox olduğu, bazarın isə olmadığı üçün kəfənə tutulmadılar. Cənazələri basdırmaq bir neçə gün çəkdi. Bir gündə 200-ə qədər meyid basdırıldı. İmkanı olan şəxslər özləri ölülərini basdırırdılar.

Fransız xəstəxanalarına aparılmış yaralıların böyük bir qrupu gündə 10 nəfərə qədər olmaqla vəfat edirdilər. Bunların dəfn xərcini xeyriyyə ianə idarəsi çəkirdi" (səh. 133).

"Cilovların Köhnəşəhərə hücumu" bölümündə baş vermiş talan və qətliam haqqında oxuyuruq: "Cilovlar şəhərə girdilər, şəhər əhalisinin evlərini çapıb-talamağa başladılar. Bu dəhşətli hadisə zamanı Köhnəşəhər əhalisindən bir neçə yüz nəfər öldürüldü" (səh. 157). "Urmiyanın Qəhrəmanlı kəndinin əhalisinin cilovların əli ilə soyqırıma uğraması" bölümündə faciəvi hadisələr bütün təfərrüatı ilə verilir: "Günorta vaxtı silahlı qüvvələr kəndi tutdular və 334 nəfər sakini bütünlüklə qırdılar. Belə ki, kənddə bir canlı belə qalmadı. İki-üç il bu kəndin şəhidlərinin sümükləri küçələrdə, həyətlərdə, evlərdə düşüb qaldı. Hər bir seyrçinin gözləri qarşısında dəhşətli bir mənzərə canlandı. Bu kənd iki-üç il beləcə boş qaldı. Yaralıların və ölülərin arasında çökək-çuxurda sağ qalmış bir-neçə nəfər uşaq və qadının kəndi dirçəltməyə gücləri çatmırdı. Qadın, kişi, uşaqların və yaşlıların bir çoxu qırılmışdı.

Çərşənbə axşamı günü 23 cəmadi əs-sani (5 aprel 1918-ci il) Qəhrəmanlı əhalisinə qarşı soyqırım törədən silahlı qüvvələr qalib kimi Urmiya şəhərinə daxil oldular" (səh. 174).

Salmas və ətraf kəndlərdə baş verənlər haqda yazılır: "Sonda xristian silahlı qüvvələri Salmasa qayıtdılar. Qayıdarkən onlara hücum etdilər. Ağır döyüşdən və 120 top atdıqdan sonra yuxarıda adı çəkilən kəndlər dağıdıldı, camaatın çoxu qırıldı. Bu kəndlər də soyğuna və talana məruz qaldılar" (səh. 181). Yaxud: "Ciloların ordusu hər tərəfdən qaçanları gülləyə tuturdu. Şəhər ətrafı meyidlə dolu idi. Bir çox qadınlar öz südəmər körpələrini arxlara ataraq qaçırdılar. Sözün qısası o qaranlıq gecədə Dilməqan şəhəri və onun ətrafında qadın və uşaqların harayı göyə yüksəlirdi. Qaçanlar qaçdıqdan sonra şəhərdə əhalinin üçdə ikisi, qocalar qaldılar. Evlərin qapısını bağlayaraq oturub ölümü gözlədilər. Cilovlar bir sutka şəhər əhalisini qırdılar. Bütün bağlı qapıları qıraraq bir yerdə yüz nəfərin meyidini salırdılar. Uşağı ananın gözləri qarşısında, qardaşı qardaşın önündə öldürürdülər. Bəzilərini öldürdükdən sonra bədən üzvlərini kəsirdilər. Bəzilərini isə yandırırdılar. Bir evdə quyudan suçəkən qadını bir cilov südəmər körpəsi ilə birlikdə quyuya atdı.

Salmas və Urmiyanın kəndlərindən cilovlar və ermənilər divarları deşərək azərbaycanlı qadın və kişilərin başlarını oradan keçirir, ipə salır və bu ipi öküzə bağlayaraq bir dəfəyə başlarını üzürdülər. Günü bu gün də Salmasın kəndlərində bu hadisədə şəhid olmuş şəxslərin sümüklərinə rast gəlinir.

Salmas əhalisinin bir hissəsi cilovların məscidə hörmət göstərəcəklərini düşünərək məscidə pənah apardılar. Cilovlar Dilməqanı tutan kimi məscidə pənah aparanların hamısını pulemyota tutdular. Seyhun çayı kimi qanla doldurdular. Bu hadisədən sonra həmin məscidin adı Qanlı məscid qaldı.

3-cü gün (15 ordubehişt/ 4 may) hər tərəfdən yığdıqları 40 min müsəlman toplayaraq bazardan keçirtməklə Həftvan kəndinə və Sər qalasına apardılar. Ayaq yalın, başıaçıq orada saxladılar. Bir həf-

tə sonra onları başqa bölgələrə göndərdilər. Bu zaman insanların çoxu yollarda acından öldü. Xoy, Təbriz, Güneyə çatanlar isə ağrı-acıdan və aclıqdan həlak olurdular. Xoy və Təbrizdən Salmasa gedən yolun hər ağaclıq məsafəsində yüz ölü düşürdü" (səh. 193-194). "Əsgərabad döyüşü. Ermənilər və aysorlar tərəfindən müsəlmanların soyqırıma uğradılması" bölümündə burada baş verən hadisələr haqda yazılıb: "Bütün Əsgərabad sakinlərindən yalnız iki-üç nəfər meyidlərin altında gizlənərək silahlı qüvvələr getdikdən sonra salamat qalmışdılar. Bu şəxslərin dediklərinə görə kənd məscidində ölənlərin sayı o qədər çox idi ki, qan məscidin içindən çölə axırdı. Bağlarda gizlənməyə çalışanlar isə gülləyə tutularaq küçə və meydanlarda, bağlarda bütünlüklə aradan götürüldülər. Əsgərabad məzarlığa çevrildikdən sonra meyidlər aylarla orada-burada atılmış, üst-üstə qalaqlanmış halda qaldılar. Kənd camaatı itlərin və quşların yeminə çevrildi" (səh. 201).

Analoji hadisələr Xoy və Güney azərbaycanlıların yaşadığı digər kənd və qəsəbələrdə də baş vermişdir.

Kitabın müəllifi tədqiqat boyunca dəfələrdə eyni fikri vurğulayır: "Təəccüblü burasıdır ki, imkan daxilində bütün bu ürəkağrıdıcı hadisələrin üstünü ört-basdır edərək açıqlanmasına yol verməməyə çalışırdılar" (səh. 176). Məhz aparılan bu siyasətin nəticəsidir ki, Güney Azərbaycanda yerli əhaliyə qarşı baş vermiş dəhşətli hadisələr gizlədilmiş, xalqın yaddaşından silinməyə çalışmışdır.

Bütün deyilənləri nəzərə alaraq bu nəticəyə gəlmək olar ki, T.Məlikzadə Dilməqaninin kitabı zaman-zaman xalqımıza qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırım aktları tarixinin öyrənilməsi üçün əvəzsiz mənbə və tədqiqat əsəridir.

## ABOUT THE GENOCIDE AGAINST THE BACKGROUND OF THE MAJOR SOCIAL AND POLITICAL EVENTS OF THE TIME IN IRANIAN HISTORIAN TOHID MELIKZADEH DILMEQANI'S BOOK "SOUTH AZERBAIJAN DURING THE FIRST WORLD WAR - GENOCIDE"

## SUMMARY

Based on modern Iranian historian Tohid Melikzadeh Dilmeqani's book "South Azerbaijan during the First World War – genocide", acts of genocide and mass plunders created in the years of the First World War in Urmia, Salmas, Khoy and other settlements of South Azerbaijan by bandit Armenian and Christian bands of Andranik and Petros against our people, are investigated in the article.

Tohid Melikzadeh Dilmeqani's book is appreciated as an indispensable source and research work in the studying history of the genocide acts created against Azerbaijanis from time to time and in the revealing of true facts.

## ГЕНОЦИД НА ФОНЕ ВАЖНЕЙШИХ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИХ СОБЫТИЙ ПО КНИГЕ ИРАНСКОГО ИСТОРИКА ТОХИДА МЕЛИКЗАДЕ ДИЛМЯГАНИ «ГЕНОЦИД В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

## РЕЗЮМЕ

В статье рассматривается о зверствах армянских и других христианских отрядов под командованием Андраника и Петроса в Урмии, Салмасе, Хое и других городах.

Книга Тохида Меликзаде Дилмягани «Геноцид в Южном Азербайджане в период Первой мировой войны» неоценимый источник в изучении геноцида против азербайджанцев, содержащий уникальные факты и свидетельства, изобличающие деяния армян.

*T.e.d., prof.* **Şahin FƏRZƏLİYEV**
*AMEA Tarix İnstitutu*
*«Mənbəşünaslıq və tarixşünaslıq» şöbəsinin müdiri*
*F.ü.f.d., dos.* **Eynulla MƏDƏTLİ**
*AMEA Fəlsəfə İnstitutunun elmi*
*işlər üzrə direktor müavini*

# I DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCANIN URMİYA BÖLGƏSİNDƏ AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI SOYQIRIMI İRAN MÜƏLLİFLƏRİNİN ƏSƏRLƏRİNDƏ

**Açar sözlər:** Güney Azərbaycan, Urmiya, türk – müsəlman əhali, soyqırım, farsdilli qaynaqlar, Rusiya, Qafqaz
**Keywords:** South Azerbaijan, Urmia, Turkish-Muslim peoples, genocide, Persian sources, Russian, Caucasus
**Ключевые слова:** Южный Азербайджан, тюрко-мусульманское население, геноцид, персоязычные источники, Россия, Кавказ

Biz bu məqaləmizin əsas hissəsinə – XX əsrin əvvəllərində Güney Azərbaycanda türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım hadisələrinin təsvirinə başlamazdan əvvəl olduqca müxtəsər şəkildə iki əsr əvvələ qayıtmaq istərdik.

Rusiya çarı I Pyotr (1672-1725) hakimiyyətə gəldikdən sonra öz işğalçılıq siyasətini həyata keçirməyə başladı. Osmanlı və İsveç dövlətlərini məğlubiyyətə uğradan çar ictimai durumu dəyişdirmək üçün təcili addımlar atmağa başladı. Rusiya dövləti I Pyotr hakimiyyətinin sonunda artıq böyük Avropa dövlətlərindən birinə çevrildikdən sonra öz gələcək siyasətini həyata keçirməkdən ötrü gözünü Cənubi Qafqaz ərazisindəki torpaqlara dikdi. Onun öz övladlarına yazdığı «Vəsiyyətnamə»də oxuyuruq: «Elə tədbirlər görmək lazımdır ki, İran ölkəsi gün-gündən yoxsullaşsın və onun ticarəti tənəzzülə uğrasın… İran həmişə viranlığa və məhvə doğru getsin… Rusiya dövləti istədiyi vaxt kiçik bir təzyiqlə onu asanlıqla aradan qaldıra bilsin. Lakin Osmanlı dövlətinin qəti süqutundan əvvəl İranın biryolluq nəfəsini kəsmək uyğun deyildir. Gürcüstan və bütün Qafqaz ərazisi İranın həssas damarı sayılır. Rusiyanın istila neştərinin ucu ona çatan kimi İranın ürəyindən zəiflik qanı fısqırmağa başlayacaq və elə gücsüz olacaq ki, heç bir təcrübəli həkim də onu sağalda bilməyəcəkdir. Bundan sonra Osmanlı dövləti noxtalanmış bir dəvə kimi Rusiya padşahlarının əlində olacaq… Vaxtı itirmədən Gürcüstanı və bütün Qafqaz ərazilərini ələ keçirib, İran padşahını öz əlaltı adamınıza çevirməlisiniz. Bütün bunlardan sonra Hindistana doğru irəlilmək lazımdır» [9, 7-8].

I Pyotr İrana, xüsusilə də Qafqaz ərazisinə əl uzatmaq istəyən üçüncü Rusiya hökmdarı olmuşdur. O, Azərbaycanı Orta Şərqin qapısı sayırdı [8, 8]. I Pyotrun təcavüzkar siyasəti II Yekaterinanın çarlığı dövründə də ermənilərin yardımı ilə davam etmişdi [9, 8].

XIX əsrin əvvəllərində Qacarlar İranı və Rusiya arasında baş vermiş iki müharibə – 1804-1813-cü və 1826-1828-ci illər müharibələri Azərbaycanın iki yerə parçalanması ilə nəticələndi. Bu parçalanmanı son olaraq rəsmiləşdirən Türkmənçay (Türkmançay olmalıdır! – Ş.F.) müqaviləsi nəticəsində «eyni tarixi köklərə malik, tarixən eyni ərazidə yaşayan, vahid bir dildə danışan, eyni mədəniyyətə və həyat tərzinə malik bir xalq iki hissəyə ayrılmış oldu [2, 6]. Azərbaycan ərazisində erməni vilayəti yaradan rus məmurları belə əmələ əl atmaqdan ötrü Çar Rusiyası Senatının 21 mart 1828-ci il fərmanını əldə rəhbər tutmuşdular. Fərmanda deyilirdi: «10 fevral 1828-ci ildə Fars dövləti (Persiya) ilə bağlanmış traktat əsasında Rusiyaya birləşən Naxçıvan xanlığı bundan sonra bütün məsələlərdə Erməni vilayəti adlansın». Cənubi Qafqazda «Erməni vilayəti» yaradan Rusiya əmin idi ki, ermənilər onun sadiq dayaqları olacaqlar [10, 343-344].

Həqiqətən də belə olan torpaqsız ermənilər məhz rusların köməyi sayəsində bütün Xəzəryanı vilayətlərdə, həmçinin Gürcüstanda geniş torpaqlara malik oldular, onlar dəfələrlə dəhşətli soyqırım siyasəti yürütməyə cəhd etdilər, bu məqsəd uğrunda müəyyən «uğurlara» çatdılar, 1918-ci ildə Azərbaycan Cümhuriyyəti əraziləri, habelə Şərqi Anadolu ilə yanaşı Güney Azərbaycanda da türk-müsəlman əhaliyə qarşı soyqırımlar icra olunmağa başladı. Əsas məqsəd Qərb dövlətləri tərəfindən müsəl-

man türklərin yaşadıqları ərazilərdə və xüsusilə güclü türk dövləti olan Osmanlı dövlətinin qonşuluğunda özlərinə dayaq nöqtəsi kimi süni şəkildə erməni dövləti yaratmaq idi. Lakin ermənilər Azərbaycan torpaqlarına köçürüldükləri üçün burada hələlik dağınıq şəkildə yaşayırdılar. Buna görə də onlar məqsədlərinə çatmaq üçün Şimali Azərbaycan və Şərqi Anadoluda olduğu kimi, Cənubi Azərbaycanın qərb bölgəsində də əhalinin əksəriyyətini soyqırıma məruz qoydular, türklərin yaşadıqları bütün bölgələrdə eyni taktika yeritdilər, yəni yerli türk əhalini soyqırıma məruz qoyaraq dənizdən-dənizə «Böyük Ermənistan» dövlətinin yaradılmasına şərait yaratmaq istiqamətində işlər aparmağa başladılar [8, 501].

I Dünya müharibəsinin (1914-1918) yaratdığı mürəkkəb şəraitdən istifadə edərək ermənilər qonşu xalqların hesabına özlərinə dövlət yaratmaq iddialarını gerçəkləşdirməyə başladılar. Bu sərsəm ideyanın həyata keçirilməsi üçün yeganə yol həmin ərazilərdə yaşayan yerli əhalinin məhv edilməsi idi [6, 97].

Ermənilərin Daşnaksütyun partiyası hələ əsrin başlanğıcında bu məqsəd uğrunda ciddi mübarizə zərurətini təlqin etməyə başladı. Səttarxanla düşmənçilik edən Davidyan 1908-ci il oktyabrın 22-də yazmışdır: «Bu gün hər dövrdən artıq mübariz olmalıyıq. Mübarizə meydanı geniş və inqilabi iş müqəddəsdir. Biz də inqilabi ruhun olduğunu əməldə göstərməliyik… Candan keçmək, candan keçmək və yenə də candan keçmək… Bu həmin şeydir ki, bugünkü şəraitdə hər bir digər amildən daha təsirlidir. Çox həssas bir şəraitdəyik və daşnak partiyasının üzərində böyük məsuliyyət vardır. Bizim sərhədimiz yoxdur. Harada inqilabi iş var, biz orada olmalıyıq» [7, 24].

Daşnaklar məhz inqilabi iş və fəaliyyət üçün o vaxtlar niyə Təbriz, Rəşt, Ənzəli, Qəzvin və Tehranı seçmişlər? «Ermənilər üçün sərhəd yoxdur» deyən erməni Yepremin üzv olduğu daşnak partiyasının xəyalı «Böyük Hayıstan» adlandırdığı Qara dəniz, Xəzər dənizi və Aralıq dənizi arası ərazilərə yönəlirdi. Yeprem qarşısına 3 məqsəd qoymuşdu:

1. Müsəlman Azərbaycan türklərini aradan qaldırmaq;
2. Cənubi Azərbaycanı və Gilanı, o cümlədən Xəzər dənizi sahili boyu Astara çayına qədər olan ərazini İrandan ayırıb Rusiya ərazisi tərkibinə qatmaq;
3. İranda ruspərəst adamı hakimiyyətə gətirmək [7, 24-25].

İndisə keçək mövzumuzun əsas hissəsinə:

XX əsrin əvvəllərində Güney Azərbaycanda türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım hadisələrini izləmək üçün əlimizdə bir neçə dəyərli məxəz vardır:

1. Əhməd Kəsrəvi: «Azərbaycanın on səkkiz illiyi tarixi, yaxud qorxmaz və igid adamların taleyi;
2. Tohid Məlikzadə Dilməqani: «Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində»;
3. Səməd Sərdariniya: «Arazın hər iki tayında müsəlmanların soyqırımı».
4. Rəhmətullah Tofiq. «Tarixi-Urmiyyə».

XX əsrin əvvəllərində, xüsusilə də Birinci Dünya müharibəsi illərində ərazisi 1907-ci il müqaviləsi ilə Rusiya və Britaniya imperatorluqları arasında təsir dairələrinə bölünmüş, müharibə illərində isə faktiki olaraq tərəflərin maraqlarının kəskin toqquşduğu Qacarlar dövlətində mərkəzi hakimiyyətin hədsiz zəifliyi və yerlərdəki baş verən proseslərə nüfuz edə bilməməsi, ölkədə baş alıb gedən hərc-mərclik şəraiti, xarici dövlətlərin qoşunlarının, cürbəcür missioner təşkilatlarının mövcudluğu, onların öz qurumları və dövlətlərinin maraqlarına uyğun fəaliyyətləri Azərbaycan əyalətlərinin əksər bölgələrdəki kimi, Urmiyada da erməni davakar millətçilərinin fəallaşmasına, onların öz himayədarlarına arxalanaraq, bölgədəki Azərbaycan türklərinə qarşı açıq-aşkar təcavüzkarlıq hərəkətlərinə yol açmışdı. Bu və ya buna bənzər hadisələr həm baş verdiyi zamanlarda, həm də ondan sonralar da İran tarixçilərinin diqqətindən kənarda qalmamışdı. İran tarixinin, bir sıra ümdə məsələlərinin ilk tədqiqatçılarından sayılan Əhməd Kəsəvi Təbrizinin tədqiqatlarında ilk dəfə həmin hadisələrdən bəhs edilmiş, təfsilatlı təhlil edilməsə də, hər halda Azərbaycanda, o cümlədən Təbriz, Xoy, Salmas, Zəncan, Urmiya, Maku və başqa məntəqələrdə Azərbaycan türklərinə qarşı törədilən qanlı hadisələrdən bəhs edilmişdir [4].

Həmin hadisələr barəsində bir şahid olaraq Rəhmətullah xan Tofiqin qeydlərində Birinci Dünya müharibəsi illərində və ondan sonrakı illərdə baş verən acı hadisələr ətraflı yer almışdır. Doğulduğu, yaşadığı və müxtəlif xidməti vəzifələrdə çalışdığı Urmiyanın qısa tarixini yazması və adı çəkilən məsələləri ətraflı qələmə alması onun yüksək vətənpərvərlik mövqeyinin göstəricisidir və təqdirəlayiqdir [4].

Təqdim olunan məruzədə Rəhmətullah Tofiqin «Urmiyanın tarixçəsi» əsəri üzərində incələmələr apararaq, yeri gəldikcə, digər mənbə və ədəbiyyatlara da müraciət edəcəyik. Adını çəkdiyimiz əsərə İranın tanınmış tarixçisi XX əsr İran tarixinə, eləcə də Azərbaycan Respublikası ilə əlaqədar mövzulara dair tədqiqatların müəllifi Kavə Bayatın yazdığı ön sözdə qeyd olunur ki, Rəhmətullah Tofiqin qələmə aldığı yaddaş qeydləri olduqca diqqətçəkicidir.

Qeyd olunur ki, I Dünya müharibəsi başlayanda artıq xeyli əvvəldən Urmiyada yerləşmiş rus qoşunları Urmiyadan Osmanlılar üzərinə yürüşə başladılar, tezliklə bu şəhər və ətrafı müharibə meydanına çevrildi, rus qoşunları üçün davamlı olaraq Qafqazdan qüvvə və təchizatlar gətirilməyə başlandı. Demək olar ki, bölgənin idarəçiliyində bütün ixtiyar rusların əlinə keçdi. Urmiya hakimi Etimad-üd dövlə də felən rusların hakimiyyətinə tabe edilmişdi.

Urmiyanın məsihiləri (xristianlar İranda belə adlandırılır və burada aysorlar da nəzərdə tutulsa da, lakin söhbət, əsasən, ermənilərdən gedir – E.M.) rusların bölgəyə sahib olmasından sonra onların dəstəkçilərinə çevrildilər və məsihilərin müsəlmanlara qarşı bəslədikləri kin-küdurət açıq zorakılıqlara, zülmə və amansızlığa çevrilməyə başladı. 1333-cü hicrinin qışında ruslar Sarıqamışda, osmanlılar tərəfindən məğlubiyyətə uğradılar və türklərin əks-hücum təhlükəsini nəzərə alıb, Urmiyadan Qafqaza doğru çəkilməyə məcbur oldular. Bu zaman müsəlmanların qisas alacağından qorxan bir çox xristianlar onlarla bərabər Urmiyanı tərk etməli oldular [4, s.4].

Hicri 1334-cü ilin yazında Osmanlı dövləti rusları Azərbaycandan (İran Azərbaycanı), vurub çıxarmaq üçün Xəlil paşanın komandanlığında qoşun göndərdi və Xəlil paşa Urmiyaya daxil oldu və Urmiya əhalisini, ətraf məntəqələrdə yaşayan əhalini, İslam İttihad Partiyasına qoşulmağa çağırdı. Urmiya müctəhidi Hacı Mirzə Fəzlullah Osmanlı komandanlığına dəstək verərək xalqı ruslara qarşı cihada çağırdı. Ruslar bu vaxt qüvvələrini Salmasda cəmləşdirmişdilər. Amma bu zaman baş verən Van hadisələri türklərin ruslar üzərinə hücumunu dayandırdı.

Müəllif bu məsələ ilə əlaqədar qeyd edir ki, ermənilər şəhər hakimiyyəti ilə qarşıdurma və toqquşmalardan sonra Van şəhərini ələ keçirib Rusiyadan kömək gözləyirdilər [4, s. 5].

Bu arada ruslar da Qafqazdan əlavə qüvvələr gətirib geri çəkilməmişdən əvvəlki mövqelərinə tezliklə qayıtmağı məqsəd qoymuşdular. Tezliklə süvari Draqun hissələri, Miyandobu keçərək Mahabada daxil oldular.

Mahabad əhalisinin bir qismi osmanlılarla bir olub, ruslara qarşı çıxmışdılar və qarşıdurmalarda Rusiyanın oradakı konsulu da öldürülmüşdü. Bunu bəhanə edən ruslar bir neçə saat müddətində bu şəhərdə şiddətli qətliam törətdilər. Rusların idarəsində olan Gömrük idarəsinə, Amerika xeyriyyə təşkilatının binasına və Rusiya təbəəsi olan, hörmətli şəxs sayılan Mirzə Hacının evində sığınacaq tapanlardan savayı kimsəyə aman verilmir, qılıncdan keçirirdilər. Savucbulaqda da qətliam davam etdi, qaçıb qurtaranların evləri qarət edilirdi. Bundan sonra rus qoşunları Urmiyaya girdilər. Lakin əhalinin qəzəbindən qorxaraq burada qətliama cəsarət etmədilər, bir neçə mötəbər şəxsi həbs etdilər, lakin bir neçə gündən sonra da azad etdilər.

R.Tofiq yazır ki, ruslar geri qayıdanda məsihilər də onlarla bərabər geri döndülər «bizim malımızdır» deyə müsəlmanların mallarını əllərindən almağa başladılar. Tehrandan ezam olunan hökumət məmurunun başçılığı ilə məsihilərin tələblərini təmin etmək üçün komissiya quruldu. Urmiyaya göndərilən yerli hakimiyyət başçısı İmənud-dövlə əslində rusların və ermənilərin tələbi ilə hərəkət edirdi. Bir müddət sonra ruslar onların zamanında Xoy hakimi olan Etimad-üd dövləni Urmiyaya hakim təyin etdirdilər [4, s. 9].

R.Tofiq yazır ki, hicri təqvimi ilə 1335-əvvəllərində Rusiyada inqilab oldu, rejim dəyişildi, İran dövləti Urmiyaya yeni hakim-Müəzəzüd-dövləni təyin etdi, bundan sonra da rusların vətənlərinə qayıtmaq niyyətləri ortaya çıxanda ermənilər aysorlarla bərabər yenə təcavüzkalığa əl atdılar.

Müəzzəz-üd dövlə zamanında türk-müsəlman əhalinin baş bəlası olan Marşimun öz zalım partizan dəstələri ilə vandan Salmasa və oradan Urmiyaya qaçıb gəldi və şəhər ətrafındakı kəndlərdə yerləşdi, əhaliyə, kəndlərə çox zərər vurdu. Hökumət bir qrup məsihini qarət və qətldə günahlandırıb həbs etdi, lakin məsihilər böyük kütlə ilə gəlib həbsxananı dağıdıb, onları azad etdilər. Ruslar da pullarının bazarda qiymətdən düşməsindən çox narahat idilər, şəhərdə özbaşına hərəkətlər edir, qayda-qanuna məhəl qoymurdular.

Müəllif yazır ki, 15 ramazan 1335 tarixində rus «soldatları» bazarda bir iranlı kazakı öldürdülər, atışma başlandı, ruslar bazarı qarət edib qiymətli nə varsa gətirdikləri arabalara yığıb apardılar, sonra

bazara od vurdular, hər yeri külə döndərdilər [4, s. 10]. Bu zaman Urmiyada «Məsihilər komitəsi» təşkil edildi. Burada başda amerikalı Mister Şot, Marşimun, ağa Petros və bir neçə Urmiya məsihisi təmsil olunurdu. Komitə Salmas və Urmiya ətrafından bütün silahlı erməniləri və digər məsihiləri Urmiyaya gətirib şəhərə hücum etmək üçün onlara şərait yaratdı. Şəhər hakimi İclalmülk öz evinə getdi, qapısını bağlayıb evində oturdu. Müsəlmanlar ailələrini, mallarını və canlarını qorumaq üçün pərakəndə şəkildə vuruşmağa başladılar. Səhərisi gün məsihilər şəhəri topa tutdular. Məsihilər tələb etdilər ki, şəhərin ixtiyarı onlara verilməli, müsəlmanlar tərkisilah olmalıdırlar. Bundan sonra Salmas şəhəri də məsihilər tərəfindən mühasirəyə alındı.

Kitabın müəllifi R.Tofiq də şəhər müctəhidi Mirzə Mahmudun çağırışı ilə qətlə yetirilənlərin cənazələrinin evlərdən, küçələrdən yığılıb dəfn edilməsində iştirak etmişdir. O, qeyd edir ki, yüzlərlə adamın köməyi ilə qadın, uşaq, qoca, cavan olmaqla 10 min nəfərdən çox adamın cəsədi toplandı [4, s. 23].

Müəllif yazır: «Evlərdəki bu qanlı cəsədləri görəndə, bir Allah bilir ki, mənim nə qədər ağır və qəmli halım var idi və yəqin ki, ömrüm boyu bu acı səhnələri unuda bilməyəcəyəm. Ələ keçən, gözə görünən heç kəs sağ buraxılmamış, onların ev-eşikləri isə qarət edilmişdi.

Xoy şəhəri də bombarduman edilmiş, əhaliyə divan tutulmuşdu. Ümumən, bütün Azərbaycanda həyəcanlar yaşanırdı. Təbriz erməniləri Urmiyadakı hadisələrə görə öz taleləri üçün narahat idilər. Ermənilərin böyük xəlifəsi (keşişi, kilsə rəhbəri) hakim İclalmülkün məiyyətində Urmiyaya gəlib məsihilərə öyüd-nəsihət verdi. Lakin bu səmərə vermədi, çünki məsihi dəstələri İran hökumətinə tabe olmaq niyyətində deyildilər. Xəlifə Təbrizə qayıtdı, amma İclalmülk şəhərdə qaldı [4, s. 48].

Tofiq yazır ki, Səlahəddin paşanın komandanlığı ilə osmanlı qoşunlarının İrana daxil olması ilə bölgədə vəziyyət dəyişdi. Salmas yaxınlığında Petrosun başçılığı ilə məsihilər osmanlı qoşunu ilə döyüşə girdilər. Lakin sıxışdırılıb geri çəkilməyə məcbur oldular. Şəvvalın 21-də Kərimabadda ağır döyüşdə məsihilər şəhərdən çıxıb geri çəkilməyə qərar verdilər, Savucbulağa çəkilərkən onlar qarşılarına çıxan müsəlmanları öldürürdülər. 25 min məsihi at-arabaları və götürə bildikləri əşyaları ilə hərəkət edirdilər [4, s. 57]. Bir qrup Fransa kilsəsində sığınacaq tapdı, osmanlıların gəlişi ilə məsihilərin də təqibi başlandı. 22 şəvval 1336-da osmanlı qüvvələri Urmiyaya daxil oldular. Bəzi məsihilər var idi ki, yaxın olduqları müsəlmanların canlarını qorumuşdular. Əksinə bəziləri də vardı ki, yaxın qonşu və dost olduğu müsəlmanlara qarşı qəddarlıqda cilovlardan (quldur aysor dəstələri) və qafqazlılardan da irəli getmişdilər [4, s. 6].

Yuxarıda qeyd olunduğu kimi, Güney Azərbaycanda xristian dövləti yaradılması məqsədilə əsas qüvvələri ermənilər və Azərbaycanın qərb hissəsində sığınacaq tapmış aysorlar olan bir xristian ordusu yaradılmışdı. Bu ordunun yaradılma səbəbləri haqqında Urmiyadakı rus konsulu Nikitin öz xatirlərində yazır: «Aysor atıcıları 4 batalyon, erməni atıcıları 2 batalyon, 4 dağ topu, 300 atlı, bir birləşmiş batalyon və 1 teleqraf xidmətinə malik idilər… Bu qoşundan başqa çoxlu sayda aysor piyada qoşunu, fərari ermənilər və Urmiya ilə Salmasın xristian məzhəbli əhalisi də bu qoşunda iştirak edirdilər. Ali komandanlıq Klonel Sardini rus zabiti Kuzminə tapşırılmışdı. Onlara 3 fransız zabiti və 30-a qədər kiçik rütbəli zabit kömək edir» [5, 95].

Əlbəttə, xristian ordusunun təşkili çətinliklə başa gəlirdi, çünki kifayət qədər kadr yox idi, çünki polkovnik Klonel Şardini rus-yapon müharibəsi zamanı ciddi yaralar almışdı. Döyüş aparmaqdan ötrü hərbi sursat və ehtiyat hissələri zəruri idi. Nəhayət, rus əsgərləri komitəsinin başçısı Saltıkov ermənilərin qorunması və onlara yardım üçün bir qədər silah və ehtiyat sursat verməyə hazır olduğunu bildirdi [5, 98].

Bu vaxt xristian ordusuna qoşulmaq üçün İrəvan və Naxçıvandan bir dəstə erməni qaçıb Urmiya və Salmasa gəldilər. 6000 nəfərə qədər olan bu ermənilər «qaçaq ermənilər», yaxud «qaçqın ermənilər» adı ilə tanındı ki, başçıları Artuş, Hartun, Yəqurt, Hambarsun, Petros, Diçaq, Sumbat idilər. Beləliklə, aysor ordusu və Osmanlı cilolarından (Osmanlı ərazisindəki aysorlar «cilo» adlanırdılar – Ş.F. və E.M.) təşkil olunmuş xristian ordusu Azərbaycanın və bölgənin siyasi hərbi səhnəsinə daxil oldu, Azərbaycanın qərbi, Osmanlı sərhədi, Urmiyadan Araz çayına qədərki ərazi bütünlüklə rus, ingilis, fransız birləşmiş xristian qoşununun işğalına məruz qaldı. Bu cidd-cəhdin iki əsas məqsədi vardı: Bölgəni Azərbaycan türklərindən boşaltmaq və Haydat (Böyük Ermənistan) nəzəriyyəsinə əsaslanan bir xristian dövləti yaratmaq; Ümumi diqqəti Avropada gedən müharibədən yayındırıb Osmanlı dövlətinə qarşı yönəltmək [5, 98].

Bu hadisədən bir neçə gün sonra fransız əsilli müsyö Küjel tərəfindən elan olundu ki, silahlanmaq istəyən hər bir müsəlman xristian ordusuna müraciət etsin, onlar yaxşı at, dəbdəbəli yəhər, gözəl geyimlə təmin olunacaqlar. Lakin müsəlmanlardan bir nəfər belə fransızların təklifini qəbul etmədi [5, 98].

Ciloların komandirlərindən biri olan Petros belə bir bəyanat yaydı:

«Mənim aysor qardaşlarım!.. Mal-mülkümüz dağıdılmış, kilsələrimiz kürdlərin və türklərin əlinə keçmişdir… Minlərlə aysorumuz isə türklərin və kürdlərin xəncərindən qurtulmuşlar… Bilirsinizmi ki, Rusiya sizə ana öz balasına göstərdiyi kimi qayğı göstərir? Buna görə də sizin borcunuzdur ki, ona (Rusiyaya - Ş.F. və E.M.) qarşı sədaqətli olasınız. Hər gün rus millətinə dua edin… o cümlədən 6 aya yaxın bir müddətdə onları yedizdirib-içizdirən Urmiyadakı Amerika səfirliyini də unutmaq olmaz. Allahdan istəyin ki, anamız Rusiya öz qüdrətini əldən verməsin… Hamılıqla rus hərbi qüvvələrinə dua edin… Heç vaxt qorxma, həmişə qorxut, özünü qorxaq göstərməklə düşməni öz üzərinə qaldıra bilərsən. Düşmənçilik asan iş deyil… Öl, lakin «türklərə təslim olma» [5, 105-106].

Gördünüzmü xristian aysor və ermənilərin türklərə qarşı hiddətini. Gördünüzmü onların ruslara yaltaqlanmalarını?

Vəziyyətin belə gərgin bir vaxtında bir qrup azadlıqsevər adam Azərbaycanda ictimai vəziyyətə hərtərəfli nəzarət etmək üçün Urmiyada Azərbaycan Demokrat firqəsinin Urmiya şöbəsini açdılar. Lakin şəhərdə bərk ərzaq qıtlığı vardı. Xristianlar əhalinin ev-eşiyini qarət edirdilər [5, 107-110].

Qarət hələ nədir ki? Tezliklə yerlərdə müsəlman qırğını başlandı. Aysorlar ev sahiblərini öldürür, evin əşyalarını qarət edir, sonra yandırırdılar. Faciəvi qırğınlar Salmasda da təkrar olundu. O ərəfədə «general» Andronik başda olmaqla səkkiz min silahlı erməni Arazın o tayından (şimaldan) Xoy şəhərinə hücum edərək daha böyük qırğınlar törətdilər [5, 16].

Çar II Nikolayın devrilməsindən sonra işğalçı rus ordusu Güney Azərbaycanını tərk edib öz vətənlərinə qayıtdılar. Onlar geri çəkilərkən bir çox şəhərlərdə qırğınlar törətdilər.

Qeyd olunmalıdır ki, ruslar Güney Azərbaycanda olarkən burada yaşayan xristianlar onların himayəsinə arxalanaraq yerli əhaliyə divan tuturdular. Əhməd Kəsrəvi yazır: «Ruslar əhali ilə amansız davranır, assurilər (aysorlar-Ş.F.) və ermənilər onların köməyinə bel bağlayaraq hədd-hüdudsuz zülmkarlıq edirdilər… Onlar şəhər xaricində də istədikləri əməlləri həyata keçirirdilər. Qafqazdan qaçan bir dəstə erməni cilolarla əlbir olub quldurluğa qurşanır, onlara müqavimət göstərən adamları dərhal öldürürdülər..» [3, 710].

Güney Azərbaycanın o vaxtkı polis rəisi Abdulla Bəhrami öz xatirələrində yazır: «Bütün bu baş verənlərin daha dəhşətlisi və daha təhlükəlisi assurilərin hücum məsələsi idi. Ruslar Urmiya və Salması, həmçinin ətraf əraziləri boşaldıb öz ölkələrinə qayıtdıqdan sonra ingilislər həmin ərazilərin müdafiəsini müharibə vaxtı İrana sığınmış assurilərə tapşırdı. İngilislər habelə bir çox yeni silahı və rusların Urmiya gölü ətrafında yığılıb qalmış hərbi sursatlarını da assurilərə verdilər. Bununla da, qaniçən və vəhşi tayfa sayılan assurilər yaranmış fürsətdən istifadə edərək… özləri üçün kiçik bir dövlət yaratmaq həvəsinə düşdülər. Onlar Urmiyada mərkəzdən gəlmə bütün məmurları işdən qovub, şəhərin idarəsini birbaşa öz əllərinə keçirdilər. Assurilərin rəhbəri Marşimon öz atlıları ilə Salmas şəhərinə hücum edərək, oranı da öz nəzarətləri altında olan ərazilərə daxil etmək istəyirdi» [9, 20-21].

Deməк rus işğalı iflasa uğradı, əvəzində isə İngiltərə və Fransa Güney Azərbaycanın qərb vilayətlərində xristianlardan ibarət bir qoşunu asanlıqla rus silahlı qüvvələrinin əvəzi olaraq meydana çıxardılar. Ə. Kəsrəvi yazır: «Almaniyaya qarşı müharibədə hamıdan artıq israrlı olan İngiltərə ilə Fransa, Almaniya və müttəfiqlərinin məğlub olacağı vaxta qədər müharibəni davam etdirmək istəyirdilər… Məhz buna görə də qərara gəlmişdilər ki, İran və Osmanlı dövləti erməni və assurilərdən ibarət bir ordu yaradıb, onlardan ingilis və fransızların əlaltıları kimi istifadə etsinlər. Bu məqsədlə də onlar erməni və assurilərin başçıları, xüsusən assurilərin dini rəhbəri Marşimonla danışıqlar aparmış və lazımi şəraiti ona və ermənilərə yaratmışdılar… Bu işdə amerikalılar da onlarla əməkdaşlıq edirdilər» [3, 712].

Məlum olduğu kimi, bəhs olunan illərdə Güney Azərbaycanda aysorların bədnam rəhbəri yuxarıda adı dəfələrlə çəkilən Marşimon, ermənilərin rəhbərləri Arşak, Artus və başqaları, kürdlərin başçısı isə Simitqo (İsmayıl ağa) idi. İndi biz bu iki şəxs barədə müxtəsər məlumat vermək istərdik.

Güney Azərbaycanın qərb hissəsində məskunlaşmış olan İsmayıl ağa Simitqo, qardaşının Azərbaycan valisi Nizamüssəltənənin əmri ilə Təbrizdə öldürülməsindən sonra özünün şəkkak adlı tayfası

ilə gah dövlətlə əməkdaşlıq edir, gah da dövlətə qarşı çıxırdı. O, ruslar gələrkən onlara yaxınlaşdı, daha sonra osmanlılara qoşuldu. Ruslar gedərkən, xeyli miqdarda silah və hərbi sursat əldə edərək, bölgədə qüvvətləndi. Sonra xristianlarla əməkdaşlıq etdi. Xristianlar bir neçə gün kütləvi qırğın nəticəsində Urmiyanı ələ keçirdikdən sonra Marşimon bir dəstə cilo ilə Salmasa doğru yola düşdü. Onun məqsədi Salması tutmaq, Simitqo ilə görüşüb danışmaq və onu öz tərəfinə çəkmək idi [9, 46].

Bəli, Azərbaycan türklərinə düşmən olan iki tayfa nümayəndəsi: Kürd Simitqo və aysor Marşimonun maraqları uyğun gələn kimi birləşirdilər.

Marşimon Xosrovabad adlı aysor kəndinə gəldi, Simitqo ilə Köhnə şəhərdə görüşmək qərara alındı. Bu haqda Ə.Kəsrəvinin məlumatı daha müfəssəldir: İki rəhbər bir otaqda görüşürlər. Marşimon Simitqoya yenidən birləşməyi və Kürdüstan ərazisini tutaraq birgə sülh şəraitində yaşamağı təklif edərək deyir: «Biz ordu yaratmışıq, lakin atlılarımızın sayı azdır. Əgər siz də bizə qoşulsanız qüvvələrimiz çoxalar və gedib Təbrizi də ələ keçirərik». Lakin birdən-birə Simitqo eşiyə çıxıb faytona minmək istəyən Marşimona tüfəng atəşi açır, hər iki tayfa döyüşçüləri arasında atışma başlayır, can üstə olan Marşimon Simitqonun qardaşı Əli ağanın gülləsi ilə öldürülür. Marşimonun qətlə yetirilməsi on min nəfərdən çox insanın, xüsusilə də günahsız qadınların qətli ilə nəticələndi [9, 46-50].

Xristianların əli kürdlərə çatmadığı üçün onlar bunun acığını Urmiya müsəlmanlarından almaq qərarına gəldilər. Cilolar Marşimonun intiqamını almaq üçün hər tərəfdən şəhərin müsəlman məntəqələrinə hücum edib «qan-qan» deyə bağırdılar [9, 54-70].

Tezliklə Simitqo da öldürüldü [9, 149].

Və yeni qırğınlar başlandı. Bu dəfə araya soyqırımın başqa bir fəal iştirakçısı erməni Andronik çıxdı. Onun Xoya hücumunu təsvir edən Tohid Dilməqani yazır:

«Azərbaycan əyaləti olan və tarixi cəhətdən Azərbaycanın bir hissəsi sayılan İrəvan əyalətində – kiçik bir ərazidə dövlət yaradılması ilə razılaşmayan Andronik «Xəzər dənizindən Qara dənizə qədər «Böyük Ermənistan» yaratmaq istəyən ifratçı ermənilərdən idi. O, Azərbaycan və Anadolu türklərini qırmaqda ruslara böyük kömək etmişdi. O, öz qüvvələri ilə birgə Urmiya gölünün cənubuna çatıb orada ingilis qüvvələri ilə birləşmək fikrində idi» [5, 216-217].

Xoyda vəziyyət çox gərgin idi. Bu vaxt Osmanlıların 12-ci briqadası bu şəhərə doğru irəliləməyə başladı. Azərbaycan şəhəri olan Xoyu tutmaqdan ötrü Osmanlılarla ermənilər vuruşur, arada həmyerlilərimiz qırılırdı, 2 min nəfər azərbaycanlı şəhid oldu [5, 222].

Başqa yandan erməni Petros Urmiyanın cənubuna tərəf irəlilədi, tezliklə şəhəri tutdu. Urmiyanı işğal etmiş erməni və aysorların üzərinə hücum etmək üçün 4-cü Osmanlı korpusu hazır vəziyyətə gətirildi, xristianlar gecə vaxtı qarət etdikləri mallarla birgə Urmiyadan çıxıb getdilər [5, 233].

Osmanlı qüvvələri Urmiyaya girən kimi onlar Urmiya və Salmas qırğınında iştirak etmiş erməni və aysor mənşəli cinayətkarları taparaq edam etdilər.

Beləliklə, Güney Azərbaycanda 200 min azərbaycanlı vəhşicəsinə soyqırıma məruz qaldı. Bəlkə Osmanlı qoşunu Güney Azərbaycana daxil olmasaydı, bu torpaqlara gəlmə erməni və aysorlardan ibarət xristian qoşunu Güney Azərbaycanın qərb bölgəsində yerli azərbaycanlıları tamamilə qırıb qurtarardı [8, 16].

XX əsrn əvvəllərində yazılmış və əllərində bayraq tutan əzabkeş həmvətən əsgərlərin xorla oxuduqları bir marşın aşağıdakı bəndi həmin illərdəki əhval-ruhiyyəni yaxşı əks etdirirdi:

«Ey vətənə bəzl eləyən nəqde-can,
Millətə dar üstdə verən imtahan,
Məhv ola müşkildi bu namü nişan,
Qanla şəfa tapdı bahare-vətən» [3, 682].

Sonda qeyd edilməlidir ki, bəhs edilən dövrdə Güney Azərbaycanda türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım siyasəti sistemli şəkildə araşdırılmalı, mövcud tarixi sənədlər və materiallarla yanaşı, o dövrdə baş verən hadisələrə dövrün şahidlərinin xatirələrinə və ayrı-ayrı tarixçilərin tədqiqatlarına müraciət etməklə qiymət verilməli, erməni zalımlığı və riyakarlığı ifşa edilməlidir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycanda, Şərqi Anadoluda və İranda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları yeni arxiv sənədlərində, Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər), II Beynəlxalq elmi konfransın materialları. Bakı, 2015.
2. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı, 1989.
3. Kəsrəvi Əhməd. Azərbaycanın on səkkiz illiyi tarixi, yaxud qorxmaz və igid adamların taleyi, II cild, Tehran, 2537.
4. Rəhmətullah Tofiq. Tarixçeye-Urmiyyə. (Bax: Məcmeye-tarixe moasere-İran, Tehran, hicri 1382.
5. Məlikzadə Tohid Dilməqani. Güney Azərbaycan Birinci dünya müharibəsi illərində. Bakı, 2010.
6. Nəcəfli Güntəkin. 1918-1920-ci illərdə Azərbaycanın Şərqi Anadolu və İranda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları yeni arxiv sənədlərində, Azərbaycan və Şərqi Anadoluda …
7. Onullahi S.M. Erməni millətçiləri və İran. Bakı, 2002.
8. Səfəri Həsən. 1918-ci ildə Urmiyada azərbaycanlıların soyqırımı, Azərbaycan və Şərqi Anadoluda …
9. Sərdarniya Səməd. Arazın hər iki tayında müsəlmanların soyqırımı. Bakı, 2006.
10. Мархулия Гурам. Переселение армян на Кавказ и их политика геноцида, Azərbaycan və Şərqi Anadoluda …


## GENOCIDE OF AZERBAIJAN TURKS IN THE URMIA REGION OF SOUTHERN AZERBAIJAN IN THE YEARS OF THE WORLD WAR I IN THE WORKS OF IRANIAN AUTHORS


### SUMMARY

During the First World War years, although the Qajar Iran had announced strict neutrality not to join any of the warring blocs, it actually turned into a bloody battleground soon after the war started. Iran which at the time was under the direct sphere of influence of empires of Great Britain and Russia was also right at the frontline with the neighboring Ottoman Empire. The local Armenians and Assyrians in the region of Urmiya used the support of Russians to inflict all kinds of massacres on Turkish-Muslim population of the country through ruthless killings and burning of residential places, as well as coercing many others to leave their homeland. These horrid atrocities have been clearly documented in works of many renowned Iranian historians including but not limted to A. Kasravi, S. Sardarniya, T. Malikzade, R.Tofig.


## ГЕНОЦИД АЗЕРБАЙДЖАНСКИХ ТЮРКОВ В ОБЛАСТИ УРМИЯ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ В ПРОИЗВЕДЕНИЯХ ИРАНСКИХ АВТОРОВ


### РЕЗЮМЕ

Хотя в годы Первой мировой войны Каджарское государство Ирана не присоединилось ни к одному из воюющих государств, в действительности же с началом войны она превратилось в театр военных действий. К тому же, Иран, разделенный на сферы влияния со стороны Британии и Российской империи, являлся прифронтовой зоной войны России и османов, и местные армяне и айсоры в области Урмии, пользуясь попечительством русских, устраивали резню тюрко-мусульманского населения, убивая их с особой жестокостью, разграбляли их имущество, сжигали их дома, а оставшихся в живых вынуждали покидать свои места жительства. В произведениях ряда выдающихся иранских историков, в том числе А.Кесреви, С.Сардаринии, Т.Меликзаде, Р.Тофига, была разоблачена сущность армянской жестокости.

*Prof.Dr.* **Selma YEL**
*Gazi Üniversitesi Gazi Eğitim Fakültesi Ankara*

# 20 YÜZYILIN BÜYÜK SOYKIRIM TEŞEBBÜSLERİNDEN AHISKA TÜRKLERİNİN STALİN TARAFINDAN SÜRGÜN EDİLMESİ VE DEVAM EDEN VATANSIZLIK TRAJEDİSİ

**Anahtar Kelimeler:** Ahıska, Rusya, Stalin, Sürgün, Türkiye, Azerbaycan, Kazakistan, Özbekistan, Amerika, soykırım, katliam, II. Dünya Savaşı, Fergana Olayları
**Keywords:** Ahiska, Russia, Stalin, Exile, Turkey, Azerbaijan, Kazakhstan, Uzbekistan, America, genocide, massacre, II. World War, Fergana Events

**Giriş**: Ahıska, günümüzde Gürcistan sınırları içinde Kafkasya'nın güneybatısında bulunmakta olup, Türkiye'ye Türkgözü Sınır Kapısı üzerinden ulaşılmaktadır. Ardahan iline bağlı Posof ile Ahıska, Samtshe-Cavaheti, Gürcistan arası 34 Km'dir. Bu mesafe maşınla yaklaşık olarak 33 dakika sürmektedir. Beş yerleşim biriminden oluşan Ahıska bölgesinin, güneydoğusunda Ermenistan, güneybatısında Türkiye ile sınırdaş durumundadır. Ayrıca batısında da Gürcistan özerk cumhuriyeti olan Acaristan'la komşudur (15, s. 22; 17, s. 395). Ahıska bölgesi Gürcistan sınırları dâhilinde Mesketiya ve Cavaketi bölgesi olarak tanınmaktadır. Ahıska şehri ise "Akhaltskhe" olarak isimlendirilmiştir (15, s.22). Ahıska[1], 1578 yılını müteakiben Osmanlı Devleti hâkimiyetinde yaklaşık 250 yıl kaldıktan sonra, 1828 yılında Çarlık Rusya'sı tarafından işgal edilmiş ve 1829 tarihli Edirne Antlaşması'yla Rusya'ya bırakılmıştır. 1917 yılı Rus Bolşevik ihtilalini müteakiben 5 Şubat 1918'de başlayan Osmanlı Kafkas askeri harekâtını müteakiben Ahıska halkı Lenin'in ilan etmiş olduğu dekretdeki self determination hakkından da faydalanarak Nisan 1918'de resmi olarak Osmanlı Devleti'ne bağlanma müracaatında bulunmuşlardır. Müteakiben de Halit Paşa kumandasındaki XXXVII.Kafkas ve III.Tümen birlikleri Ahıska ve Ozurgetti Kutayiş ve Poti'yi ele geçirmekle görevlendirilmiştir (2; bkz: 21, s. 48). 4 Nisan 1918'de bu birlikler Ahıska'yı azad etmişlerdir. 15 Mayıs 1918'de Gürcistan bunu durumu kabul etmiştir (8, s. 41, 42). Osmanlı askeri harekâtı sonucunda 6 Ekim 1918 tarihinde 1828′deki sınırlara kadar ulaşılmış olduğu gibi aynı zamanda Azerbaycan'da Bakü, Dağıstan'da Derbend'e kadar Türk askeri hâkimiyeti tesis edilmiş durumdadır (21, s. 68-69). Ancak başta Almanya olmak üzere müttefiklerinin mütareke isteyeceklerinin belli, olmasıyla birlikte Osmanlı Devleti için de Kafkaslardaki bu olumlu süreç kısa süre sonra sona ermiştir.

İttihatçıların ülke yönetiminden ayrılarak yurt dışına kaçmasından sonra iktidara gelen Ahmet İzzet Paşa Hükümeti, 21 Ekim 1918'de Brest-Litovski anlaşması haricinde işgal edilmiş bölgelerin tahliye edilmesini emretmiştir (21, s. 69-70). Bu şerait altında Ahıskalıların mücadelesi yeniden başlamış ve Ahıska Hükümet-i Muvakkat-i Millisi kurulmuştur (21, s. 91). Daha sonra bu geçici hükümet de 17 Ocak 1919'da Kars'ta 131 delege ile yapılan büyük bir kongre sonucunda kuruluşu ilan edilen Cenubi Garbi Kafkas Hükûmeti Muvakkat-i Milliye'ye katılma kararı almıştır (21, s. 131; 8, s. 43). Ancak bu durum da uzun sürmemiştir. İngiliz himayesindeki Ermeniler 12 Nisan 1919'da Kars'ta hükümet merkezini basarak hükümet başkanı Cihangiroğlu İbrahim Bey ile Harbiye ve dâhiliye nazırlarını tutuklamışlar ve bu hükümete son vermişlerdir (21, s. 135-136; 8, s. 46) .Yeniden devletsiz ve korumasız kalan Ahıskalılar, bu süreçte yoğun şekilde Gürcü ve Ermenilerin saldırı ve zulmüne maruz kalmışlardır (konuyla ilgili bkz: 21, s. 115, 118; 18, s. 506-516). Ahıska 1921 yılında Türkiye ile yapılmış olan Kars anlaşması ile bu defa da SSCB hâkimiyetine girmiştir (10, s. 3-4).

[1] Ahıska, günümüzde Türkiye'nin kuzeydoğusunda yer almakta olup, Gürcistan hâkimiyeti altındaki topraklarda yer alan, çok eski bir Türk yerleşim birimidir. Abastuban, Adigön, Aspinza, Ahılkelek, Azgur ve Hırtız adlı yerleşim birimleri ve bunlara bağlı 200 kadar köyü bulunmaktadır. Hali hazırda Ahıska, Türkiye sınırına 15 km. mesafede bulunmakta olup, Ardahan iline bağlı Posof ile sınır durumundadır. Posof Çayının iki yakasında yer alan Ahıska, karayolu ile Tiflis, Batum ve Türkiye'ye bağlıdır. Ahıska bölgesi, verimli toprakları ile sulak ve tarıma elverişlidir. Posof'ta olduğu gibi buralarda da yaylacılık geleneği devam ettirilmekte olup, ormanlık tepelerin aralarındaki yüksek ve bol otlu vadilerde hayvancılık yapılmaktadır. Çam ormanlarıyla kaplı dağlar arasındaki vadide bulunan Abastuban kaplıcaları sağlık sektörü için son derece önemlidir. Ayrıca Ahıska yakınındaki linyit yatakları da önemli bir gelir kaynağıdır. Bu hususta Bkz: Yunus Zeyrek, Ahıska'nın Tarihi, http://www.ahiska.org.tr/?page_id=1839, (01.03.2017'de erişildi)

Sovyet Rusya döneminde tüm diğer milletler de olduğu gibi Ahıskalılar da yoğun bir baskıya maruz kalmışlardır. Batum ve Acara bölgesine görünüşte de olsa bir muhtariyet hakkı tanınırken, Ahıska, Sovyet Gürcistan'ının insafına terkedilmiştir (22). Ahıska'da Stalin tarafından 1930'lu yıllarda başlatılan baskı ve şiddet döneminde binlerce aydın ve din adamı "Kemalist ve Pantürkist" oldukları suçlamasıyla tutuklanmışlardır. Akabinde bu Ahıskalılardan bir daha hiçbir haber alınamamıştır. Daha sonra Stalin'in de desteği ile Ahıska dâhilinde Gürcü şovenizmi daha da güçlenmeye başlamış ve Ahıska Türklerinin büyük bölümünün soyadları zorla ve baskıyla Gürcüce' ye çevrilmiştir. 1938'de Sovyet Anayasası'nın kabulünden sonra, Ahıska Türkleri daha çok Azerbaycan milleti, dilleri ise Azerice olarak resmi kayıt altında alınmaya başlamıştır Ancak uygulanan bu durumun pratikte, Ruslara bir fayda sağlamayacağı anlaşılmış olduğu için bu uygulamalardan vazgeçilmiştir. Ancak Ahıskalılara uygulanan zulüm bitmemiş, 1940 yılından itibaren bu defa da Ahıska Türklerinin resmi dili Gürcüceye çevrilmeye çalışılmıştır. Bu uygulamaların arkasındaki düşünce; Ahıskalılara ana dillerini unutturarak milli kimliklerinden uzaklaştırmaktır (11; bkz: 17, s. 399).II. Dünya Savaşı'nın başlamasıyla birlikte tüm Sovyet vatandaşı Türk ve Müslümanlar için hayat çok daha zorlaşmıştır. Eli silah tutan gençler silahaltına alınarak cephelerin en önüne, ölümcül mevzilere sevk edilmeye başlanmıştır.

Mayevski daşnakların 1896-cı ildə buraxdıqları bəyannamədən iqtibas gətirərək onları qeyri-normal, hipnoz altında hərəkət edən adamlar adlandırır. Bəyannamənin sonunda iddia olunurdu ki, "təkcə bir erməni qalsa belə erməni xalqını bürüyən inqilab ruhu sultan taxtını hədələyəcək" [Маевский В.Ф. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис: Типография штаба Кавк. военного округа, 1915 г. Перепечатка. – Баку, Шур, 1993, s.20].

Göründüyü kimi, həm Hnçak, həm də Daşnaksütyun terroru əsas hərəkət vasitələrindən biri kimi qəbul edirdilər. Gürcü müəllifi Karibinin yazdığı kimi, erməni terrorçuları heç vaxt adından istifadə etdikləri xalq kütlələrinin mənafeyi ilə hesablaşmamışlar. Onlar dinc əhali arasında peyda olur, onları qiyama hazırlayırdılar, bombalar atır, yüksək vəzifəli türk məmurlarını öldürür, atışmaya başlayır və həmişə bədbəxt soydaşlarını vəhşiləşmiş yalançı inqilabçıların hərəkətləri üçün qonşu ermənilərdən intiqam almağa hazır olan müsəlman əhalisinin pəncəsinə ataraq aradan çıxardılar. Erməni terrorçuları xalq kütlələrinin təşkilatçısı olmayıb, dinc əhalini hadisələrə cəlb edib, ən faciəli anda onu taleyin öhdəsinə atan sadəcə kortəbii iğtişaş fermentləri idi [Кариби (Голейшвили П.) Красная книга. (Выдержка) «История Азербайджана по документам и публикациям», s.156].

Erməni millətçilərinin terrora belə müstəsna əhəmiyyət vermələrinin səbəbi "Ermənistan" saydıqları Şərqi Anadolu ərazisində erməni əhalisinin cüzi azlıq təşkil etməsi idi.

Saray müşaviri polkovnik Qryaznov 1895-ci ildə Türkiyədən yazırdı ki, 8 vilayətin (Bitlis, Ərzurum, Van, Sasun, Trabzon, Diyarbəkir, Hələb və Adana) 5,947 785 nəfər əhalisindən yalnız 847 041 nəfəri-14 faizə yaxın ermənilər təşkil edir [Саркисян Е.К. Политика Османского правительства в Западной Армении и державы в последней четверти XIX в. и начала XX в. Ереван, Изд-во АН Арм. ССР. 1972, s.31-32].

General Kuropatkin 1915-ci ilin martında "1914-1915-ci illər müharibəsinin nəticəsində Rusiyanın sərhədləri" adlı qeydində deyilirdi ki, hərbi tədqiqatçıların hesablamalarını daha çox etibarlı saymaq olar. Onlar bütün Asiya Türkiyəsində ermənilərin ümumi sayını 1 milyon 150 min nəfərdən yuxarı hesab etmirlər. Ermənilər 5 vilayətdə: Ərzurum, Bitlis, Van, Harput və Diyarbəkirdə nisbətən sıx yaşayırlar. Ancaq burada da ermənilər bütün əhalinin yalnız dörddə bir hissəsini təşkil edirlər, şərq vilayətlərinin bütün erməni əhalisinin 2/3 hissəsinin bu 5 vilayətdə cəmləşməsinə baxmayaraq, burada da ermənilər bütün əhalinin yalnız dörddə bir hissəsini təşkil edirlər [Саркисян Е.К.Политика Османского правительства в Западной Армении и державы в последней четверти XIX в. и начала XX в. Ереван, Изд-во АН Арм. ССР. 1972, s.32].

**Erməni terroru və qiyamlarının qızışdırılması**

Terror taktikasının seçilməsi nəticəsində 1880-ci ildən başlayaraq Türkiyənin ermənilər yaşayan rayonlarında qiyamlar, banditizm, qanlı üsyanlar baş verir.

1896-cı ilin iyununda rus diplomatı Mayevskinin dəstəyi ilə Daşnaksütyun partiyası tərəfindən Vanda kütləvi iğtişaşlar törədildi. Avqustun 26-da isə İstanbulda erməni quldur dəstəsi Osmanlı bankının binasını tutaraq girovlar götürüb erməni əhalisinin xeyrinə təxirə salmadan islahat keçirilməsini tələb etmiş, əks halda bank binasını partlatmaqla hədələmişdilər [Мустафаев Дж. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX в.). Баку, «Элм», 1989, с.83].

Danışıqlardan sonra Osmanlı bankının direktoru ser Edqar Vinsent rus səfirliyinin tərcüməçisi Maksimovun müşayiət ilə binaya daxil oldu. Avropa dövlətləri nümayəndələrinin, ilk növbədə rus səfirliyinin tərcüməçisi Maksimovun vasitəçiliyi ilə quldurlar öz toxunulmazlıqları haqqında təminat alıb "Jironda" adlı fransız gəmisində Türkiyəni tərk edib Marselə qaçdılar [Necla Başpin. Türk-ermeni ilişkileri. Abdülhamidin culusundan zamanımıza kadar. İstanbul-1970 s.56]. Ancaq bu hadisə ilə bağlı bütün Türkiyəni etiraz dalğası bürüdü və baş verən münaqişələrdə çoxlu günahsız türk və erməni həlak oldu.

J.Malevilin qeyd etdiyinə görə Daşnaksütyunun terrorçu qrupu tərəfindən gerçəkləşdirilən bu əməliyyat müasir tarixdə mülki əhalidən girovlar götürülməsi ilə həyata keçirilən ilk basqın idi [Малевиль Жорж Ди. Армянская трагедия 1915 года: (Пер. А.Кязимовой), Баку, 1990, с.83].

J.Malevil yazır ki, bundan dərhal sonra Anadolunun gah bu, gah da digər yerlərində, ancaq konkret plan üzrə üsyanlar baş verdi [Малевиль Жорж Ди. Армянская трагедия 1915 года: (Пер. А.Кязимовой), Баку, 1990, с.83]. 1901-ci il qışın əvvəllərində Andranikin quldur dəstəsi Muş yaxınlığında Surp-Arakel monastrını tutdu və onu kiçik qalaya çevirdi. Uzun müddət Sasun dağlarında quldur basqınları ilə məşğul oldu. 1904-cü ildə hökumət dəstələri Muş bölgəsindəki erməni quldurlarını sıxışdırdılar. Ancaq komitəçilər xarici dövlətlərin konsulluqlarının himayədarlığı ilə azad buraxdılar [Маевский. Записки генерального консула в Эрзеруме (1893-1903). В сб.: «Новая угроза русскому делу в Закавказье». Предстоящая распродажа Мугани иногородцам. Н.Н.Шаврова. (Перепечатка), Баку –Элм-1990, с.117].

Qeyd etmək lazımdır ki, Rusiyanın "erməni məsələsi"ndə mövqeyi heç də həmişə sabit deyildi və siyasi konyunkturadan asılı olaraq dövlətin maraqlarına uyğun dəyişilirdi. XIX əsrin 90-cı illərində Rusiyanın ermənilər barədə siyasəti kəskin surətdə dəyişildi.

Hətta II Nikolayın (1894-1917) hakimiyyətinin ilk illərində Qafqazdakı qriqoriyan erməniləri zorla pravoslavlaşdırmaq siyasəti yürüdülürdü. Bununla bağlı çarizm ilə ermənilər arasında ziddiyyət yaranmışdı [Hüsamettin Yıldırım. Rus-türk-ermeni münasebetleri (1914-1918). Kök sosyal ve strateji araştırmalar serisi. Ankara,1990, s.34].

Ermənilərin ifrat tələbləri, Şimali Qafqaza qədər uzanan erməni dövləti qurmaq xülyaları artıq rus hakimiyyət orqanlarını qorxudurdu. 1904-cü ildə Rusiya Xarici İşlər naziri Labanov Rostovski deyirdi: «Biz ikinci Bolqarıstanı istəmirik». "Rusiyaya ermənilərsiz Ermənistan gərəkdir" [Борьян Б.А. Армения, международная дипломатия и СССР. ч.1, Госиздат, М.-Л., 1928, s.33; 344, s.36].

Təsadüfi deyil ki, bəzi hallarda rus hərbçiləri daşnakların terrorçu əməllərinin qarşısını almaqda türklərə yardım edirdilər. Məsələn, 1904-cü ilin iyulunda Tumanın başçılıq etdiyi başlıca olaraq Türkiyə ermənilərindən ibarət olan 60 nəfərlik daşnak quldur dəstəsi Rusiyadan Türkiyəyə keçdikdə rus sərhəd mühafizə dəstəsinin komandanı bir neçə yüz kazakı onların dalınca göndərmiş, kazaklar türk jandarmları ilə birləşərək daşnak quldurlarını məhv etmişdilər. Rus hərbçilərinin Türkiyə ərazisində əməliyyat keçirmələri etiraza səbəb olacağından rus hərbçiləri öldürülmüş quldurların cəsədlərinə ip bağlayaraq Rusiya tərəfə sürüyüb gətirmişdilər [ЦК армянского революционного союза Дрощакистов. Б.М. 1904, s.2-3].

Birinci Dünya müharibəsi başlayandan sonra Antanta dövlətləri ermənilərdən bir maşa kimi istifadə etməyə başladılar.

Osmanlı dövləti müharibəyə qoşulduqdan sonra Qafqaz cəbhəsindəki qoşunların vəziyyətini yoxlamaq, erməniləri və gürcüləri Türkiyəyə qarşı mübarizəyə ruhlandırmaq üçün II Nikolay Cənubi Qafqaza səfər edir. II Nikolay Tiflisdə olduğu zaman V Gevorku qəbul etmiş və 15 dəqiqə davam edən söhbətdə bildirmişdi ki, "erməniləri işıqlı gələcək gözləyir və gələcəkdə Ermənistanın da Bolqarıstan kimi hərəkət edəcəyinə inanır". Türkiyə ermənilərinin nicatı yalnız onların türk hakimiyyətindən qəti olaraq xilas edilməsində və Böyük Rusiya Dövlətinin qüdrətli himayəsi altında muxtar Ermənistan yaradılmasındadır [Чалхушьян Г. Красная книга. Ростов-на-Дону. 1918 г. (Периздание) Ростов-на-Дону, 2008, s.33-34]. Türkiyə ilə hərbi əməliyyatlar başlar-başlamaz rus hakim dairələri ermənilərdən düşmənə qarşı əməliyyatlarda istifadə etməyə başladılar.

Qeyd edək ki, hələ Türkiyə müharibəyə qoşulmamış Sazonov nazirlər şurasının sədri Qoremıkinə 1914-cü il avqustun 30-da məktubunda yazırdı ki, "ermənilərlə, eləcə də kürdlərlə ən sıx əlaqələr saxlamaq lazımdır ki, Türkiyə ilə münasibətlər kəsilərsə, onlardan istənilən anda istifadə

etmək olsun" [Министерство иностранных дел. Сборник дипломатических документов. // Переговоры от 19 июля до 19 октября 1914 г., предшествовавшие войны с Турцией. Петроград, 1914, s.184].1914-cü il avqustun axırlarında, artıq Türkiyənin müharibəyə qoşulacağını yəqin edən Rusiya erməniləri silahlandırmağı qət etdi. Avqustun 26-da Sazonov Voronsov-Daşkova bu barədə konkret göstərişlər verdi: "Siz həzrətlərin indi erməniləri, kürdləri və aysorları silahlandırmağın hələ tez olduğu barədə fikrinizə tamamilə şərik olmaqla bərabər hesab edirəm ki, artıq indi bu xalqların dəstələrini təşkil etmək, onlara rəhbərlik etməyi həvalə etmək üçün etibarlı şəxsləri müəyyənləşdirmək, bununla bərabər həm Qafqazda, həm də İrandakı dəstələrimizin yanında lazımi silahları toplamaq gərəkdir" [Арутюнян А.О. Кавказский фронт. 1914-1917 гг. Ереван, Изд. «Айастан», 1971, s.56].

Boryan yazır ki, Rusiya və İstanbul erməniləri rus diplomatiyasının müti alətinə çevrildilər; bu rəhbərlər öz millətlərini satdılar və çar imperialist diplomatiyasının casuslarına çevrildilər; müharibənin əvvəlində onlar erməni millətini və onun fiziki mövcudluğunu deyil, imperialist dövlətlərinin işğalçı maraqlarını müdafiə edirdilər və bu orgiyada, ermənilər üçün faciəli olan siyasətdə həlledici rolu Daşnaksütyun partiyasının liderləri oynayırdılar [Борьян Б.А. Армения, международная дипломатия и СССР. Ч.1, Госиздат, М.-Л., 1928, s.346].

Türkiyə ermənilərinin "azadlığı" məsələlərini rus silahı və rus çarizminin yardımı ilə əlaqələndirən və "sadəcə olaraq çarizmin agenturası" Daşnaksütyun olan [Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. // «Революционный Восток» (Орган научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем № 2 - 3 (36-37), М., 1936, сс. 76-99). См. «История Азербайджана по документам и публикациям…», Москва, s.89]. Daşnaksütyunun fikrincə İmperialist müharibəsi daşnakların fikrincə "erməni məsələsi"ni həll etmək, erməni kapitalı üçün "günəş altında yer" tutmaq vasitəsi olmalı idi. Daşnaklar erməniləri çarizmin mənafeləri və erməni kapitalı üçün top mərmisinə çevirməkdən ötrü əllərindən gələni edirdilər. Onlar müharibənin xarakterini və özlərinin bu müharibədə iştirak etmələrinin həqiqi məqsədini pərdələyərək "Türkiyədəki qardaşlarının azad edilməsi", "Türkiyə Ermənistanın müstəqilliyi" və başqa şüarlar irəli sürürdülər. Daşnaklar hər vasitə ilə türklər və ermənilər arasında nifaq salır, erməniləri türkləri qırmağa çağırırdılar. Türkiyəyə qarşı qiyam məsələsində hnçakçılar da geri qalmırdılar. "Daşnaksütyun"un İstanbul qarşıdakı hərbdə rusların yanında türklərə qarşı vuruşmaq qərara alınmışdı [Hüsamettin Yıldırım. Rus-türk-ermeni münasebetleri (1914-1918). Kök sosyal ve strateji araştırmalar serisi. Ankara, 1990, s.48].

Hnçak partiyası mərkəzinin 1914-cü ilin iyulun əvvəllərində Parisdə "Hnçak" qəzetində nəşr edilən bəyanatında deyilirdi ki, Hnçak komitəsi son siyasi durumdan istifadə edib cəng və ixtilal şeypuru çalaraq ixtilal qılıncını çəkib böyük savaşa qatılacaq rus qüvvələrinin bağlayışı olmaq etibarilə müttəfiqlərin zəfər qazanmalarına yardımçı olacaqdır [Ermeni komitelerinin ihtilal harketleri ve besledikleri emeller. Merkezi Yayımlar. Say.3. Hazırlayan Y.Parmaksızoğlu. İstanbul, 1987, s.68-69].

Daşnaksütyunun liderlərindən olmuş Ov. Kaçaznuni sonralar yazmışdı ki, 1914-cü ilin payızı ərzində Türkiyə hələ vuruşan dövlətlərin cərgəsinə daxil olmadığı bir zamanda Cənubi Qafqazda böyük hay-küylə və böyük səylə könüllü erməni drujinaları yaradılırdı, Daşnaksütyun partiyası da drujinaların təşkilində və onların keçirdikləri əməliyyatlarda fəal iştirak etdi [Качазнуни Ов. Дашнакцутюн. Больше нечего делать. Баку: Элм, 1990, с. 161. «Заккнига», 1927, s.10].

Rus çarının əmri ilə əvvəllər məhkum edilən və sürgünə göndərilən əfv edilib çarizmə xidmət üçün Cənubi Qafqaza dönürdülər. Sürgündən geri çağırılmış Osmanlı dövlətindən qaçmış bir çox erməni Qafqazda toplanan könüllü süvarilərə qatılmışdılar [Azmi Süslü, Fahrettin Kırzıoğlu ve Refet Yınanç, Yusif Hallaçoğlu. Türk tarihinde ermeniler (temel kitap).Levent ofset Matbaaçılık ve yayınçılık Ltd. Şti, Ankara 1995, s.165].

Katolikos V Gevork Rusiya ilə Türkiyə arasında müharibə başlayan kimi 1914-cü il noyabrın 8-də Voronsov-Daşkova müraciətlə bildirmişdi ki, indi ermənilərin Rusiya və qalibiyyətli rus qoşunları ilə birlikdə ümumi düşmənə qarşı birgə mübarizə üçün bütün qüvvələrini səfərbər edəcəkləri bir zamanda imperatorun adından Türkiyə ermənilərinə müraciət olunmalıdır. Müraciətdə erməni xalqına təlqin edilməlidir ki, Türkiyədəki ermənilərin vəziyyəti haqqındakı məsələni qəti həll etmək məqamı çatmışdır və Türkiyə Ermənistanının altı vilayəti (Van, Ərzurum, Bitlis, Sivas, Diyarbəkir və Harput) və onun ayrılmaz hissəsi Kilikiyada bir üzvü vahid halında birləşmiş erməni xalqına "böyük

Rusiya tərəfindən muxtariyyət hədiyyə olunacaqdır" [Католикос Геворк наместнику на Кавказе Воронцову-Дашкову. Из письма 8 ноября 1914 г. Эчмиадзин.// «Геноцид армян в Османской империи…» (2-е изд.), док. 139 s., 275-276; 76, s.350]. Katolikosun müraciətinə cavab olaraq Rusiya Nazirlər Sovetinin sədri Qoremıkin bildirdi ki, bu tələblərin yerinə yetirilməsi üçün ermənilər rus hökumətinin lazım biləcəyi tədbirləri, görməyə, yəni əlverişli məqamda, Türkiyədə üsyan qaldırmağa hazır olmalıdır [Борьян Б.А. Армения, международная дипломатия и СССР. Ч.1, Госиздат, М.-Л., 1928, s.352]. II Nikolay ermənilərə xüsusi müraciətlə xitab edərək "beş əsr zülm altında qalan ermənilər" üçün guya azadlıq saatını bəyan etdi və erməniləri Rusiya tərəfdən vuruşmağa dəvət etdi [Качазнуни Ов. Дашнакцутюн. Больше нечего делать. Баку–Элм, 1990, с. 161. «Заккнига», 1927, s.12].

Dünya müharibəsi başlayan kimi ermənilərin Osmanlı dövləti ərazisində quldur dəstələri təşkil edərək osmanlı ordusunda arxasında nəinki təxribat əməlləri törətməyə başladılar, eləcə də gəncləri cəbhələrdə vuruşan türk – müsəlman kəndlərinə basqınlar edərək dinc əhalini kütləvi surətdə qırmağa başladılar.

Müharibədə iştirak edən dövlətin ordusunun arxasında üsyan qaldırmaq isə nə demək idi? Təbii ki, qiyam etmiş ermənilər uğura ümid edə bilməzdilər və onlar Rusiyanın məqsədləri naminə ölümə gedirdilər. Boryan yazır ki, yalnız ağlını itirmiş adamlar bu əməlin ermənilər üçün fəlakətli nəticəsini anlaya bilməzdilər [Борьян Б.А. Армения, международная дипломатия и СССР. Ч.1, Госиздат, М.-Л., 1928, s.352]. Antanta, ilk növbədə Rusiya ermənilərindən iki cür istifadə etməyi planlaşdırırdı: "Türkiyə ermənilərinə "azadlıq" və hətta "muxtariyyət" vəd etməklə onların Türkiyənin özündə türk hakimiyyətinə qarşı çıxışlarına nail olmaq; 7 vilayət və Kilikiya barədə vədlərlə ağıldan çıxarılmış Rusiya ermənilərindən cəza ekspedisiyaları, avanqard, kəşfiyyat və s. kimi istifadə etmək [A. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. // «Революционный Восток» (Орган научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем № 2 - 3 (36-37), М., 1936, s.81].

Rusiya baş komandanlığının rəsmi məlumatına görə Birinci Dünya müharibəsinin lap əvvəlində rus ordusunun tərkibində 300 min erməni əsgər və zabit vuruşurdu [Ermeni komitelerinin ihtilal harketleri ve besledikleri emeller. Merkezi Yayımlar. Say.3. Hazırlayan Y.Parmaksızoğlu. İstanbul, 1987, s.74]. ABŞ-da nəşr olunan "Hayastan" qəzeti 1914-cü ilin payızında yazırdı: "Bu dəqiqə rus bayrağı altında 80000 erməni əsgəri Avstriya və Almaniya cəbhəsində, 40000 erməni əsgəri də türklərə qarşı vuruşurlar. Dünyanın hər yerindən gələn erməni könüllüləri müttəfiqlərin zəfəri üçün Türkiyə-İran hüdudunda qanlarını tökürlər. Türk əsgərinin ruhi durumunu yaxşı bilən erməni fədailəri oradadırlar. Bunlar məmləkətin strateji əhəmiyyətli mövqelərini tanıdığından rus ordusunun öncüllərinə çox dəyərli xidmət göstərirlər" [Арутюнян А.О. Кавказский фронт. 1914-1917 гг. Ереван, Изд. «Айастан», 1971, 415, s.94-95].

Eyni zamanda hələ müharibənin başlanğıcında erməni milli bürosu car hakimiyyəti ilə ermənilərin könüllü dəstələri yaradılması barədə razılığa gəldi. Tiflisdə Voronsov-Daşkovla doktor Zavriyev, yepiskop Mesrop, Samson Arutuyunov və A.Xatisov arasında danışıqlarda Türkiyə ilə müharibə təqdirində daşnak hmbapellərinin, yəni drujinaçılarının başçılığı altında hərəsində 400 nəfər olmaqla dörd könüllü drujinanın yaradılması razılaşdırıldı [Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. // «Революционный Восток» (Орган научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем № 2 - 3 (36-37), М., 1936, s.94-95]. I drujinaya Andranik, II drujinaya Dro, III drujinaya Hamazasp, IV drujinaya Keri başçılıq edirdi. 1918-ci ildə isə Türkiyə ermənilərinin liderlərindən biri olan Poqos Nübarın sözlərinə görə drujinalardakı yaraqlıların sayı 40 min nəfərə çatmışdı [Шутова Р.Е. Армянский вопрос в российско-турецких отношениях (1911-1921 гг.). Владимир. 2007, s.34]. Sonralar, V, VI, VII drujinalar da təşkil olundu. Eyni zamanda II, III, IV və V dəstələrdən Ararat dəstəsi təşkil olundu. Ona Vartan başçılıq edirdi [Чалхушьян Г. Красная книга. Ростов-на-Дону. 1918 г. (Периздание) Ростов-на-Дону, 2008, s.57].

Bu erməni çətələri 1915-ci ilin yazı və yayında hücum edən rus ordusunun önündə gedərək Şərqi Anadolunun müsəlman əhalisinə qarşı xüsusi amansızlıqları ilə fərqlənirdilər [Шутова Р.Е. Армянский вопрос в российско-турецких отношениях (1911-1921 гг.). Владимир. 2007, s.34].

1915-ci ilin yanvarında Vardanın və Avçaryanın başçılığı ilə iki yeni drujina təşkil olundu [Шутова Р.Е. Армянский вопрос в российско-турецких отношениях (1911-1921 гг.). Владимир. 2007, s.34].

Çar hökuməti isə üsyanın faydasını və nəticəsini yaxşı anlayırdı, tutmaq istədiyi ərazilərdən ermənilərin köçürməyində planlaşdırırdı və buna görə də ermənilərə səxavətlə islahat vədləri verirdi.

Cənubi Qafqazda Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatlar gah bir tərəfin, gah da digər tərəfin üstünlüyü ilə gedirdi. 800 min nəfərlik türk ordusu dərhal bir neçə cəbhədə mübarizə aparmalı oldu. Qafqaz cəbhəsində hərbi əməliyyatlar türklərin Batum bölgəsinə girməsi ilə başladı. Baş komandan vəkili Ənvər paşanın özünün komandanlıq etdiyi 90 minlik III ordu Həsənqalada yaxşı mövqe tutmuşdu [Liman fon Sanders. (Bandırma). Türk ordusunun bugünkü durumu. 13 aralık 1917 // "Birinci dünya savaşı sırasında Türkiyede bulunan alman generallarının raporları. Hazırlayanı Akdes Nimet Kurat. Türk Kültürünü Araştırma Enstitüsü, Yayınlar: 23, seri III, sayı B.3. Ankara-1966, s.18]. Köprüköydə rus ordusu ilə rastlaşan III türk ordusunun IX və X korpusları rusları noyabrın 11-də geri çəkilməyə məcbur etdi. Bu müvəffəqiyyət Ənvər paşanı böyük və cürətli bir hücum əməliyyatı təşkil etməyə ruhlandırdı. O, rusları Qars və Sarıqamış ətrafında darmadağın etmək istəyirdi. Döyüş dekabrın 22-də başlandı. Ərdəhan türklərin əlinə keçdi. Rus hökuməti təlaş keçirirdi və müttəfiqlərdən Qafqaz cəbhəsində rusların yükünü yüngülləşdirmək üçün Osmanlı qüvvələrinin diqqətini ayrı səmtə cəlb etməyi xahiş etdi.

Ancaq dağ keçidlərində osmanlı əsgərlərinin bir çoxu şaxtadan və aclıqdan həlak oldu. Bundan sonra Suriya valisi Camal paşa Misiri tutmaq üçün susuz Sinay səhrasından bir korpusu Süveyş kanalına doğru göndərdi. Əvvəlcədən xəbər tutan ingilislər osmanlıları durdurdular [Лорд Кинросс. Рассвет и упадок Османской империи. Москва, "Кроон-Пресс", 1999, s.659]. Türkiyənin belə ağır durumunda erməni xəyanəti daha da vüsət aldı. 1915-ci ilin martın əvvəllərində birinci erməni drujinası Vana, 1916-cı ilin aprelində isə Bitlisə daxil olmuşdur. İkinci drujina İqdır-Bəyazid-Berkri-Van marşrutu üzrə hərəkət edirdi. Üçüncü drujina Alaşkert vadisinə göndərilmişdi. Dördüncü drujina Sarıqamış rayonunda general İstominin göstərişlərini yerinə yetirirdi [Арутюнян А.О. Кавказский фронт. 1914-1917 гг. Ереван, Изд. «Айастан», 1971, s.300-302]. Osmanlı ordusuna çağırılmış ermənilər silah və hərbi sursatla fərar edir, ermənilər fəal gücü müharibədə olan kənd və qəsəbələrdə qətllər törədir, evləri, tarlaları yandırır, heyvanları öldürür, bu yolla türkləri cəbhəni tərk etməyə məcbur etmək, cəbhədən dönən yaralı, şikəst əsgərləri öldürmək, əsgəri nəqliyyat yollarını ələ keçirir, ermənilərdən və bəzi tayfalardan könüllü və ya zorla dəstələr təşkil edərək cəbhə arxasında Osmanlı ordusuna zərbə vurur, Antanta dövlətlərinin xeyrinə casusluq edir, tutacaqları kəndləri, hətta kilsələri və sairəni yandırıb günahı müsəlmanların üstünə yıxır, müsəlmanların əhval-ruhiyyəsini sarsıdacaq təbliğat aparır, ələ keçirdikləri yerlərdə erməni hakimiyyətini qurmağa çalışırdılar [Арутюнян А.О. Кавказский фронт. 1914-1917 гг. Ереван, Изд. «Айастан», 1971, s.70]. Beləcə drujinaçılar və komitəçilər Zeytunda (Süleyman–Maraş), Qeysəriyyədə, Bitlisdə, Sivasda, Trabzonda, Ankarada, Adanada, Urfada, İzmir-Adapazarında, Xudavəndigarda (Bursa), Musa dağında və başqa yerlərdə təsəvvürə gəlməz vəhşiliklər törətdilər. Drujinaçılar və komitəçilər onlara qoşulmayan erməniləri və digər qeyri-türk ünsürləri də öldürməkdən çəkinmirdilər. Erməni komitələri və drujinaları sonralar mühüm qüvvəyə çevrilərək Rusiyadan asılı olmayan hərbi və siyasi xətt yeritməyə çalışırdılar. Bu ona səbəb oldu ki, rus hökumətində "erməni məsələsi"nin həllində Rusiyanın rolunu daha ehtiyatla qiymətləndirməyə başladılar. Erməni xadimləri içərisində separatçılığa açıq meyil rus hakimiyyət dairələrini Rusiyanın qəyyumluğu altında ermənilər yaşayan torpaqların birləşdirilməsi perspektivinə şübhə ilə yanaşmağa vadar etdi.

Ancaq mərkəzi rus hakimiyyəti "erməni məsələsi"ndə nə qədər ehtiyatla mövqe tutsa da, Qafqazdakı hərbi və mülki administrasiya əvvəlki tək öz ermənipərəst mövqeyindən "qabağa gedərək" Şərqi Türkiyədə erməni dövlətinin yaradılması ideyasını müdafiə edirdi [Раздел Азиатской Турции (по секретным документам бывшего министерства иностранных дел). Под ред. Е.А.Адамова. М., 1924, s.36].

Qeyd edək ki, rus hökumətinin ermənipərəst siyasətindən bir çox Rusiya rəsmiləri də narazı idilər və bu siyasət 1915-ci il iyulun 30-da nazirlər şurasının iclasında şura üzvlərinin çoxu tərəfindən tənqid olundu. Onlar qeyd edirdilər ki, rus ordusunun Qafqaz cəbhəsindəki əməliyyatları Voronsov-

Daşkovun ermənilərə rəğbətinə əsaslanan siyasi mülahizələrə uyğun aparılır. İmperatorun dövlət katibi P.A.Xaritonov vurğuladı ki, xəritəyə hətta səthi baxışdan görmək olur ki, qoşunların hərəkətləri başlıca olaraq ermənilər yaşayan torpaqlara yönəlir. Vəziyyət onsuz da ağır olduğu bir zamanda Rusiya Ermənistanı yaratmaqdan ötrü risk edəcək. Xaritonov əlavə etdi ki, ordunun Qafqazda erməni əhalisinin mənafelərinə uyğun irəliləyişi Dövlət Dumasında da mənfi reaksiyaya səbəb olur. Nazirlər şurasının sədri İ.L.Qoremıkin söylədi ki, Ermənistanın yaradılması müharibədən sonrakı dövrdə Şərqdə müxtəlif mürəkkəbliklərin mənbəyinə çevriləcək. Dövlət şurasının üzvü, torpaq quruculuğu və əkinçilik naziri: Krivoşein isə bildirdi ki, "Qafqaz hakimiyyət" orqanları erməni maraqları naminə rus maraqlarını qurban verməyə hazırdırlar [Шутова Р.Е. Армянский вопрос в российско-турецких отношениях (1911-1921 гг.). Владимир. 2007, s.35-36].

Osmanlı hökuməti getdikcə artan erməni qiyamlarının qarşısını almaq üçün tədbirlər görməyə məcbur oldu. 1915-ci il aprelin 24-də Daxili İşlər naziri Tələt paşa vilayətlərə və mütəssərifliklərə erməni komitə mərkəzlərinin bağlanması, əmlaklarının müsadirə edilməsi, komitə liderləri və fəal iğtişaşçıların həbs olunması haqqında əmrlər göndərdi [Kamuran Gürün. Ermeni dosyası. Türk Tarih Kurumu Basımevi, Ankara-1983, s.34]. Bu əmrlərə uyğun olaraq 500-ü daşnak, 500-ü hnçakçı və qalanlar ramkavarçı olmaqla 1800 nəfərin həbs edildiyi məlumdur [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.35].

Üçüncü ordu komandanlığının 20 aprel 1915-ci il tarixdə verdiyi məlumatında rusların Rusiyadakı bir çox müsəlmanın pərişan halda Osmanlı hüdudlarına qovuşduğu bildirilir və buna görə də həm üsyanların qarşısını almaq, həm də ruslardan əvəzini çıxmaq üçün erməniləri və ailələrini ya Rusiyaya qovmaq, ya da Anadolunun müxtəlif yerlərinə dağıtmaq məsləhət görülürdü [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.37-38].

1915-ci il mayın 15-də osmanlı hökuməti deportasiya haqqında qanun ("Sevq ve iskan") qəbul etdi, dekabrın 1-də isə məclis bu qanunu təsdiq etdi [Марукян А.Ц. Проблема геноцида армян в современной геноцидологии. 2010. (Ереван) Изд. РАУ, s.35-37].

1915-ci il mayın 23-də Tələt paşa 4-cü ordu komandanlığına teleqram göndərərək Ərzurum, Van və Bitlisdən ermənilərin çıxarılıb Mosul vilayətinin cənubuna, Zor və Urfa sancağına sürgün edilmələrini, Adana, Hələb və Maraşdan sürgün edilən ermənilərin isə Suriyanın şərqinə, o cümlədən Hələb vilayətinin şərq və cənub-şərq bölgələrinə yerləşdirilməsini əmr etdi [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110 s.40]. Ancaq, bu ərəfədə Van şəhəri ruslar tərəfindən ələ keçirilmiş və təqribən 30 min müsəlman qətlə yetirilmişdi [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110s.39]. Buna görə də təbii ki, Van vilayətindəki erməniləri sürgün etmək mümkün olmadı.

Sürgün edilən ermənilər getdikləri yerlərdə şəraitə görə ya mövcud kənd və qəsəbələrdə tikiləcək evlərə, ya da hökumətin müəyyənləşdirdiyi yerlərdə yeni salınan kəndlərə yerləşdiriləcəkdi. Yerləşmə yerləri bir-birindən 25 km məsafədən yaxın olmamalı idi. Osmanlı hökuməti köç etdirilənlərin təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görməyə çalışırdı. Hər qafiləyə bir mühafizə dəstəsi təhkim olunurdu. Bildirilirdi ki, əgər səlahiyyətli şəxslərin məsuliyyətsizliyi üzündən hər hansı qafilə basqına məruz qalacaqsa, cavabdehlər məhkəmə məsuliyyətinə cəlb olunacaqlar [Kamuran Gürün. Ermeni dosyası. Türk Tarih Kurumu Basımevi, Ankara-1983, s.103]. Tələt paşanın 28 avqust 1915-ci il tarixli Ərzuruma göndərdiyi teleqramda deyilirdi ki, piyada yola çıxan ermənilər ən yaxındakı dəmir yol stansiyasına aparılmalı, baxımsız qadın və yetimlər stansiyaya yaxın yerlərdə yerləşdirilməli, kasıblara pulsuz ərzaq paylanmalı, yeni doğulmuş uşaqların ehtiyacları ödənilməli, köçkünlərdən rüşvət alanlar məsuliyyətə cəlb olunmalı, qafilədəki qadınlara təcavüz edənlər dərhal məhkəməyə verilməlidirlər [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.103].

Sürgün katolik və protestant ermənilərə şamil olunmadı. Eyni zamanda cəbhə bölgəsindən kənarda yaşayan ermənilər də köç etdirilməmişdir. Məsələn, İzmirdə 150 komitəçi istisna olmaqla heç bir erməni sürgün edilməmişdi [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110,s.71].

Xəstələr, missionerlərin təşkil etdikləri uşaq evlərində olan ermənilər də sürgün edilmirdi [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.79].

Orduya çağırılmış erməniləri sədaqəti şübhə doğurduğundan 2 iyul 1915-ci il tarixli sultan fərmanı ilə ermənilər döyüşən ordudan çıxarılıb işçi taborlarına göndərildilər [Корсун Н.Г. Первая мировая война на Кавказском фронте. М., 1946.(Оперативно-стратегический очерк), М., Военное издательство, 1946, s.14]. 1915-ci ildən 1917-ci ilə kimi davam edən köçürmə zamanı ermənilər öz əmlakları və heyvanlarını da aparırdılar.

Bir çox erməni və ermənipərəst yazarların köçürmə əsnasında 1 milyon və daha çox erməninin həlak olması haqqında iddiaları heç bir dəlilə söykənmir. Hətta rus hərbi tarixçisi Korsunun yazdığına görə 1 milyonadək adam köçürülmüş, kürdlərin məskunlaşdığı ərazilərdən keçərkən ermənilərə hücumlar olunmuşdu. Bunun və başlıcası da xəstəlik epidemiyalarının nəticəsində köçürülənlərin təxminən yarısı tələf olmuşdu [Корсун Н.Г. Первая мировая война на Кавказском фронте. М., 1946. (Оперативно-стратегический очерк), М., Военное издательство, 1946, s.14].

Köçürülənlər arasında tələfat olmuşdur, ancaq qat-qat az ölçüdə. Əvvəla unudulmamalıdır ki, dünya müharibəsi ərəfəsində Türkiyədəki ermənilərin sayı 1300 mini aşmırdı. Türkiyə ermənilərindən böyük bir hissəsi hələ sürgün qərarından əvvəl ruslarla əməkdaşlıq etdiklərinə görə türklərin haqlı cəzasına məruz qalacaqlarından qorxaraq Rusiya hüdudlarına Cənubi Qafqaza köçmüşdü. 1915-ci ilin oktyabr ayında İngiltərə lordlar palatasının iclasında Türkiyə ermənilərinin külli miqdarda Eçmiədzin və İrəvan qəzalarına gəldikləri, 160 minə qədərinin İqdir nə Eçmiədzin ətrafında yerləşdirildikləri söylənilmişdi [Hikmet Özdemir. Kemal Çiçek, Onur Turan, Ramazan Çalık, Yusif Hallaç oğlu. Ermeniler. Sürgün ve göç. Ankara, TTK Basımevi, 4. Baskı, 2010, s.93].

Erməni müəllifi Hovanisyan 1918-ci ilin sonunda Ermənistanda təqribən 500 min köçkünün olduğunu yazır [Hovhannisyan Nikolay. Ermeni soykırımı. Ermenikırım. (Nedenler, eylem, sonuclar). Çeviren Attilla Tuğyan. İstanbul. 2005, s.96]. Mötəbər mənbələrə görə sürgün Qərbi Anadoluda 27200, İstanbul və Ədirnədə 164000, Suriya, Fələstin və Bağdadda 204700 erməniyə şamil edilməmişdi [Hikmet Özdemir. Kemal Çiçek, Onur Turan, Ramazan Çalık, Yusif Hallaç oğlu. Ermeniler. Sürgün ve göç. Ankara, TTK Basımevi, 4. Baskı, 2010, s.96].

23 yanvar 1919-cu il tarixində A.Ahoronyanın imzası ilə Parisdəki Erməni Milli nümayəndə heyətinə göndərilən məktubda Türkiyə Ermənistanında müharibə ərəfəsində 900 min erməninin yaşadığı, onların bir qisminin hərb zaman həlak olduğu, 585 minin isə hələ də Qafqazda olub yardıma möhtac olduqları yazılmışdır [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110. 24, s.254-255]. 50-60 min erməni uşağı isə yetimxanalara və ya baxılmaq üçün müsəlman ailələrə verilmişdi [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.288]. Üstəlik İstanbulda və cəbhə bölgəsindən kənarda yaşayan ermənilərin köçürülməyi də nəzərə alınmalıdır.

Türkiyənin tanınmış tarixçiləri sürgün dövrünün mötəbər mənbələrinə (vilayət, şəhər və qəsəbələrdən köçürülənlər haqqında valilərin raportları) əsaslanaraq toplam 438758 erməninin köçürüldüyünü yazırlar [Hikmet Özdemir. Kemal Çiçek, Onur Turan, Ramazan Çalık, Yusif Hallaç oğlu. Ermeniler. Sürgün ve göç. Ankara, TTK Basımevi, 4.Baskı, 2010, s.90-92]. Bunların 382148-i təyin olunmuş yerə çatmışdı. 1916-cı ilin fevralında sürgünün icrası dayandırıldıqdan sonra yolda olan erməni qafilələri olduqları yerlərdə yerləşdirilmişdilər.

Göründüyü kimi Türkiyədə yaşayan təqribən 1300000 erməninin az qismi (438.758 nəfər) yaşadıqları yerlərdən sürgün edilmişdilər. Dünya müharibəsi illərində, xüsusən də Qara dəniz və Şərqi Anadoluda yaşayan ermənilər düşmənlə, yəni ruslarla əməkdaşlıq etdiklərindən türklər tərəfindən haqlı cəzaya məruz qalacaqlarından qorxaraq Osmanlı torpaqlarını tərk edib Rusiya hüdudlarına qaçmışdılar. Rus ordusu Şərqi Anadoludan geri çəkilərkən onun arxasınca gedən ermənilərdən 80 mini yol şərtlərindən və kürd basqınları nəticəsində həlak olmuşdur [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, 315].

Castin və Karolin Makkartilər haqlı olaraq yazırlar ki, əslində I dünya müharibəsi illərində Anadoluda 2,5 mln türk-müsəlman və cəmi 600 min erməni həlak olmuşdur [Джастин Маккарти. Каролин Маккарти. Тюрки. Армяне. Руководство по армянскому вопросу / пер. с англ.Баку,

1996, s.83]. Ancaq Avropa və Amerikaya "ya Petroqraddan, ya Afinadan, ya da müharibəyə qoşulmasını işləyən ABŞ səfirindən məlumatlar getdiyindən hər şeydə osmanlılar günahlandırılmış, türklərin itkiləri barədə susulmuşdur. Ermənilər arasında ən çox tələfat köçürüldükləri yerlərdə aclıqdan, xəstəliklərdən, başlıca olaraq o zaman geniş yayılmış epidemiyalardan olmuşdur. Bu isə təbiidir. Müqayisə üçün deyək ki, Osmanlı ordusu müharibə dövründə cəbhələrdə 325-500 min nəfər itirmişdisə, xəstəliklərdən 388 min nəfər itirmişdi [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110.s.305]. Köç əsnasında kürdlərlə toqquşmalarda və basqınlarda həlak olan aclıqdan, yorğunluqdan tələf olan ermənilərin sayı 10-15 min arasında olmuşdur [Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.313]. 350-500 min erməni isə hərb meydanından – Şərqi Anadoludan və Qara dəniz regionundan Qafqaza köç etmişdir. 400-500 min ermənin Osmanlı dövləti ərazilərində qaldığı nəzərə alınarsa I Dünya müharibəsi dövründə cəmi 200 minə yaxın ermənin tələf olduğunu söyləmək olar ki, bunun da çox böyük hissəsi xəstəliklərdən, epidemiyalardan, digər qismi cəbhələrdə türklərə qarşı vuruşaraq həlak olmuş, çox cüzi bir hissəsi isə köç əsnasında tələf olmuşdur [Hikmet Özdemir. Kemal Çiçek, Onur Turan, Ramazan Çalık, Yusif Hallaç oğlu. Ermeniler. Sürgün ve göç. Ankara, TTK Basımevi, 4.Baskı, 2010, 190].

## MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azmi Süslü, Fahrettin Kırzıoğlu ve Refet Yınanç, Yusif Hallaçoğlu. Türk tarihinde ermeniler (temel kitap). Levent ofset Matbaaçılık ve yayınçılık Ltd. Şti, Ankara 1995, s.165
2. Ermeni komitelerinin ihtilal harketleri ve besledikleri emeller. Merkezi Yayımlar. Say.3. Hazırlayan Y.Parmaksızoğlu. İstanbul, 1987, s.68-69
3. Hikmet Özdemir. Kemal Çiçek, Onur Turan, Ramazan Çalık, Yusif Hallaç oğlu.Ermeniler. Sürgün ve göç. Ankara, TTK Basımevi, 4.Baskı, 2010, s.93
4. Hovhannisyan Nikolay. Ermeni soykırımı. Ermenikırım (Nedenler, eylem, sonuclar). Çeviren Attilla Tuğyan. İstanbul, 2005, s.96
5. Hüsamettin Yıldırım. Rus-türk-ermeni münasebetleri (1914-1918). Kök sosyal ve strateji araştırmalar serisi. Ankara, 1990, s.34
6. Kamuran Gürün. Ermeni dosyası.Türk Tarih Kurumu Basımevi, Ankara 1983, s.34
7. Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Sarı yıldız ofset. TTK yayınları. XVI, Dizi-Sayı.110, s.35
8. Kemal M. Öke. Ermeni meselesi (1914-1923). İstanbul, 1986, s.98; Сборник договоров России, с.168-169
9. Necla Başpin. Türk-ermeni ilişkileri. Abdülhamidin culusundan zamanımıza kadar. İstanbul-1970, s.56
10. Арутюнян А.О. Кавказский фронт. 1914-1917 гг. Ереван, Изд. «Айастан», 1971, s.56
11. Виноградов В.И. Русско-турецкая война 1877-1878 гг. и освобождение Болгарии. Изд-во «Мысль», М., 1978, История дипломатии, т.II, М. 1965, s.112
12. Борьян Б.А. Армения, международная дипломатия и СССР. Т.I с.1, с.247].
13. Дашнаки (Из материалов департамента полиции). Военно-исторический журнал, 1990 г. №8,9 (Составитель и автор вступительной статьи Б.Гаибов). Перепечатка. Баку, 1990, s.9
14. Джастин Маккарти. Каролин Маккарти. Тюрки. Армяне. Руководство по армянскому вопросу / пер. с англ. Баку, 1996, s.83
15. Кариби (Голейшвили П.) Красная книга (Выдержка) «История Азербайджана по документам и публикациям», s.156
16. Качазнуни Ов. Дашнакцутюн. Больше нечего делать. Баку: Элм, 1990, с. 161. «Заккнига», 1927, s.10
17. Католикос Геворк наместнику на Кавказе Воронцову-Дашкову. Из письма 8 ноября 1914 г. Эчмиадзин // «Геноцид армян в Османской империи…» (2-е изд.), док. 139, s.275-276; 76, s.350
18. Корсун Н.Г. Первая мировая война на Кавказском фронте. М., 1946. (Оперативно-стратегический очерк), М., Военное издательство, 1946, s.14
19. Контрреволюционный А. «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. // «Революционный Восток» (Орган научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем № 2 - 3 (36-37), М., 1936, s.81].
20. Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. // «Революционный Восток» (Орган научно-исследовательской ассоциации по изучению национальных и колониальных проблем № 2 - 3 (36-37), М., 1936, сс. 76-99. См. «История Азербайджана по документам и публикациям…». Москва, s.89

21. Лорд Кинросс. Рассвет и упадок Османской империи. Москва, Кроон-Пресс,1999, s.659
22. Малевиль Жорж Ди. Армянская трагедия 1915 года: (Пер. А.Кязимовой), Баку, 1990, s.79
23. Маевский В.Ф. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис: Типография штаба Кавк. военного округа, 1915 г. Перепечатка. – Баку Шур, 1993, s.20
24. Марукян А.Ц. Проблема геноцида армян в современной геноцидологии. 2010. (Ереван) Изд. РАУ, s.35-37
25. Мустафаев Дж. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX в.). Баку: Элм, 1989, с.83
26. Наджафов Б. Лицо врага, ч.1. Баку: Элм, 1993, s.47.
27. Сборник договоров России, с.181-206].
28. Саркисян Е.К. Политика Османского правительства в Западной Армении и державы в последней четверти XIX в. и начала XX в. Ереван, Изд-во АН Арм. ССР. 1972, s.31-32
29. Раздел Азиатской Турции (по секретным документам бывшего министерства иностранных дел). Под ред. Е.А.Адамова. М., 1924, s.36
30. ЦК армянского революционного союза Дрощакистов. Б.М. 1904, s.2-3].
31. Чалхушьян Г. Красная книга. Ростов-на-Дону. 1918 г. (Периздание) Ростов-на-Дону, 2008, s.33-34
32. Шутова Р.Е. Армянский вопрос в российско-турецких отношениях (1911-1921 гг.). Владимир. 2007, s.34

## THE TERRORISM AND GENOCIDE COMMITTED BY ARMENIANS IN OTTOMAN EMPIRE IN THE END OF THE NINETEENTH CENTURY – THE BEGINNING OF THE TWENTIETH CENTURY

## SUMMARY

Being the most powerful state in the world in XV-XVI centuries Ottoman Empire because of a number of historical conditions, has entered a period of stagnation and decline. Taking advantage of this, European states, primarily Russia began to struggle for lands of this state and put forward the fiction issue "Eastern question". Russia in order to facilitate the aggressive goals promoted and supported the struggle of religious and national minorities against central power living in the Ottoman Empire. Many Greeks and Slavic peoples of the Balkans, with the assistance of foreign patrons set up their own state by the middle of the nineteenth century. Armenians were scattered in various areas. Therefore, Russia was trying to take advantage of them. Still, in 1885, "Armenakon", then "Hunchak" and "Dashnaktsutyun" party was established. The latter two parties since the 90s of the nineteenth century committed a series of terrorist acts in Turkey. After the beginning of World War I, thousands of Armenians who came to their senses on the promises of "Greater Armenia" joined the Russian army and began to take part in military operations against Turkey. At the same time they attacked the Turkish villages and killed civilians. Seeing that the situation is very tragical Ottoman government saw the way of salvation in arresting them, but when it did not give any benefit they transferred Armenians from the frontline regions to Mesopotamia.

## ПРЕСТУПЛЕНИЯ ТЕРРОРА И ГЕНОЦИДА, СОВЕРШЕННЫЕ АРМЯНАМИ В ОСМАНСКОЙ ИМПЕРИИ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВЕКА

## РЕЗЮМЕ

Европейские страны, включая и Россию, пользуясь тем, что Османская империя в начале XVIII века вступила в период застоя и отставания, развернули борьбу за овладение ее землями. Так в международных отношениях появился пресловутый «восточный вопрос». Россия использовала проживающие в Османской империи религиозные и национальные меньшинства, в том числе армян, в целях реализации своих захватнических планов. Она подстрекала их на борьбу против центральной власти и оказывала им всяческую поддержку. С помощью европейских держав армяне стали укрепляться организационно и создавать свои партии: в 1885 году - "Арменакан", позже "Гнчак" и "Дашнакцутюн". Начиная с 90-х годов XX века, последние две партии совершили в Турции серию террористических актов.

С началом Первой мировой войны сотни тысяч армян, вступив в ряды русской армии, стали участвовать в военных операциях против Османского государства. Дашнаки и гнчаковцы начали нападать на турецкие селения, боеспособные жители которых сражались на фронте, и истреблять мирное население. Спасительный выход из этого трагического положения Османское правительство видело сперва в арестах армянских комитетчиков, а затем, убедившись в том, что подобные шаги не возымели никакого действия, оно решило переселить армян из фронтовых областей в Месопотамию.

*Prof. Dr.* **Hasan Tahsin FENDOĞLU**
*Hacettepe Üniversitesi Hukuk*
*Fakültesi Dekan V. Ankara*

# ERMENİ PROJESİNİN ORTAYA KONULMASI VE ERMENİLERİN TÜRK VE MÜSLÜMANLARA KARŞI SOYKIRIMI

**Anahtar kelimeler:** Ermeni, soykırım, Anadolu, Doğu Anadolu, vatana ihanet, mezarlık, Güney Kafkasya, Azerbaycan, Bakü, Nahcivan.
**Keywords:** Armenian, genocide, Anatolia, Eastern Anatolia, treason, cemetery, South Caucasus, Azerbaijan, Baku, Nakhichevan.

**Giriş.** Günümüzde Ermenilerin Türkiye aleyhine faaliyetleri sonucunda güç devletleri tarafından Türkler hiç yapmadıkları bir şeyle suçlanmakta ve yapmadıkları bir şeyi kabule zorlanmaktadırlar. Oysa ki, Ermeniler 20. Yüzyılın başlarından Türk ve Müslüman ahaliye karşı soykırımlar yapmaktadırlar ve bu hâlen sürmektedir. Ama Ermenileri destekleyen güçler 1914-1918 yılları arasında Ermenilerin Türk ve Müslüman ahaliye karşı yaptığı soykırımlar sonucunda Doğu Anadolu ve Kafkasya'dan 1,200,000 Türk ve Müslümanın göçmen durumuna düşmesi, 1,000,000 Kafkasya Müslümanlarından Anadoluya gelen 130.000 sivilin hayatını kaybetmesi, yolda salgın hastalık, açlık, sefalet ve Ermeni çeteleri yüzünden kırılanlar tahmini olarak eklendiğinde ölü miktarının 2,5–3 milyon Müslüman Türkü arasında değişmekte[1] olduğu hakkında susmağı tercih ediyorlar. Ermenilerin Türk ve Müslüman ahaliye yaptıkları soykırımın hangi güçlerin desteği ile ve nasıl yapılmasının nedenlerinin araştırılması ve bunun hükuki acıdan değerlendirilmesi için ilk önce Ermeni projesinin ortaya konulmasında misyonerlerin rölünü, bir Anti-Türk imajının nasıl geliştiğini aydınlatmak gerekir.

Osmanlı İmparatorluğundaki millet sistemine göre, Müslüman olanlar millet-i hâkime adını taşırlardı; gayrimüslimler ise Ermeni Milleti, Yahudi Milleti gibi isimler altında toplanırlardı[2]. 19. yüzyılda Amerikan misyonerler, Ortodoks olan Ermenilerin, kendileri gibi Protestan yapmak yönündeki çabaları sonucunda İstanbul'da bulunan Ermeniler için, 1834 yılında, ilk kez Türkçe Protestan ayini yapmayı başardılar.

**Misyonerlerin faaliyeti.** 1810 yılında üç kilisenin temsilcileri tarafından **Massachussetts**'de kurulan[3] ve Amerikan Protestanlarının misyoner örgütü olan **American Board of Commissioners for Foreign Missions** (ABCFM)[4] 1818'deki yıllık toplantısında Osmanlı Devleti'nde misyon istasyonları kurulması için çalışmalar yapılmasını kararlaştırmış ve 5 Ocak 1820 tarihinde **Plinty Fisk ve Levi Parsons** adlı iki misyoner, bu istasyonların açılması için gerekli hazırlık çalışmalarını yapmak üzere Osmanlı topraklarına gönderilmişti.[5] Fisk, 1820'lerde Beyrut, Kudüs, Şam ve Antakya gibi bölgeleri gezerek Türkler, Araplar, Kürtler, Dürziler, Maruniler, Rumlar ve Ermeniler hakkında detaylı bilgi topladı. Board misyonerleri, Ermenilerin yaşadıkları bölgelerde Ermeni ulusal bilincinin oluşumunu teşvik ve tahrik etmişler, gelişmeleri ABD ve Avrupa kamuoyuna mübalağa ile aktarmışlardır.[6] Misyonerlerin görev yaptığı merkezler arasında planlama yapılır, Osmanlı coğrafyası iş bölümü için misyonlara ayrılırdı. Örneğin Anadolu toprakları Batı Türkiye misyonu, Doğu Türkiye misyonu, Orta Türkiye misyonu gibi bölümlere ayrılırdı. Batı Türkiye misyonunun merkezi İstanbul,

[1] Hüdavendigar Onur: Milleti Sadıkadan Hayk'ın Çocuklarına, İstanbul, 1999, s.126.
[2] Sonyel, Salahi R., "Tanzimat and its Effects on the non-muslim Subjects of the Ottoman Empire", Uluslararası sempozyum, Ankara 1989, TTKY, Ankara 1994, s. 373-378.
[3] Köprülü, Orhan, "Tarihte Türk Amerikan Münasebetleri", Belleten, C. LI, Ağustos, 1987, Sy. 200, ss. 927-945, s. 936.
[4] ABCFM konusunda detay için bkz. Moore, John Hammond, America Looks At Turkey, 1876-1909, Yayınlanmamış Doktora Tezi, (Doctorate Dissertation). Virginia University 1961, Boğaziçi Üniversitesi Kütüphanesi, s. 90-95.
[5] Roger Reed Trask, The Relations of the United States and Turkey 1927-1939, A Thesis in History, The Pennsylvania State University, Submitted For The Degree of Doctor of of Philosophy, 1959, 3; Köprülü, "Tarihte Türk Amerikan Münasebetleri", 939; detay için bk. Vahapoğlu, M. Hidayet, Osmanlı'dan Günümüze Azınlık ve Yabancı Okulları, (Yönetimleri Açısından), Ankara 1990, Türk Kültürünü Araştırma Enstitüsü Yayınları, No. 109, 21-25.
[6] Bkz. Hüseyin Nazım Paşa, Ermeni Olayları Tarihi, 5 Mayıs 1312/ 5 Zilhicce 1313, BOA, C.II, s. 254. Osmanlıyı asıl tahrip edenler Ermenilerdir; ibid, s. 313. 1890 sonrasında Ermeni isyanlarını Batıya misyonerler çarpıtarak anlatıyorlardı.

Orta Türkiye misyonunun merkezi Antep, Doğu Türkiye misyonunun merkezi ise Harput idi. Misyonların kuruluşunda Ermenilere olan ilginin dominantlığı devam ediyordu.[1] Protestan Misyonerler, Ermeni milliyetçiliği taleplerini bazen gizli bazen de açıkça teşvik ediyorlardı.[2] Misyonerlerin Ermenilere yönelik faaliyetlerine 1880'den sonra ivme verildi. Merkezi Türkiye Misyonu, önceleri Ayntab, Maraş, Adana ve Haçin'i kapsarken daha sonra görev alanı genişletilerek Halep, Antakya, Tarsus ve Urfa şehirleri de misyonun görev alanına dâhil edildi.

**Evangelistler.** Protestan (Evangelical) Hareketler Osmanlı'da, çalkantılı bir zaman olan 1831 yılında etkin olarak başladı.[3] Bu dönemde ABD, İstanbul'da elçilik ve bir misyon, 1834 yılında Trabzon ve Bursa misyonları açıldı.[4] 1857'de ABD misyonerlerine yardım için İngiliz Kilisesi harekete geçmiş ve Turkish Missions Aid Society isimli cemiyeti kurmuştu.[5] 1869 yılına gelindiğinde, İmparatorluğun 21 ayrı merkezinde misyonlar kurulmuştu ve bu misyonlarda görevli olan 41 misyoner ve bunlara yardımcı olan Ermeniler çalışıyordu. I. Dünya Savaşı'na girerken Protestan misyonerlerin doktorlarıyla birlikte dokuz hastane, 426 okul ve devam eden 25000 öğrencileri vardı.[6] Kanaatimize göre de görünürde bir sivil toplum örgütü olan Board'ın Amerikan ve İngiliz hükümetiyle çok yakın çalıştığı açıktır.[7]

**Ermeni ulusal bilincinin oluşumu.** Amerikan misyonerleri, Ermenilerin yaşadığı tüm bölgelerde açtıkları okullarda verdikleri eğitimle **Ermeni ulusal bilincinin** oluşumuna katkıda bulundular ve İmparatorluktan bağımsız kalmayı en çok hak ettiğine inandıkları bu halkla ilgili her türlü gelişmeyi ABD ve Avrupa kamuoyuna dezenformasyon yoluyla aktardılar. Böylece ABD ve İngiltere'de çok fazla kimsenin haberdar olmadığı Ermenilerle ilgili gelişmeler, kamuoyunda daha fazla yankı bulmaya başladı. 1890'ların başından itibaren ağırlık kazanan **Ermeni isyanları** ve Osmanlı devletinin bunlara tepkileri de yine misyonerler tarafından dünya kamuoyuna çarpıtılarak aktarıldı. 6 Ocak 1893'de **Ankara çevresinde oturan Ermeni isyancılar, daha sonra Merzifon ve Amasya'da isyan eden Ermeniler**, Osmanlı-ABD ilişkilerini de olumsuz yönde etkilediler.[8]

Osmanlı Hükümeti, Amerikan ve İngiliz konsoloslarının Orta ve Doğu Anadolu illerindeki bu tür faaliyetlerinden de haberdar idi ve kontrol edilmesi gerektiğini biliyordu.[9] Babıali, Protestan Misyonerlerinin asıl amaçlarının Din veya Mezhep olmayıp, Ermeni çocuklarını eğiterek Devletten bölmeye münhasır olduğunun farkındaydı[10].

**Müslümanların Hristiyanlaştırılması.** Protestanların gizli faaliyetleri aynı zamanda Müslüman unsurlar üzerinde yapılan hesaplara da yönelikti. Babıali gerçi bunları yakından izliyordu[11], ama fazla bir şey yapamıyordu. Misyonerlerin, Dersim (Tunceli) ve Osmanlı coğrafyasında bulunan bazı Müslümanlara Protestan Mezhebini kabul ettirmesi üzerine bu olayla ilgili olarak Nusret Paşa görevlendirilmişti[12]. Sivas civarındaki bazı İslam ve Bektaşi ahalisinin Protestanlık mezhebine geçmekte oldukları belirtilmektedir[13].

**II. Abdülhamit dönemi.** Ermenilerle Türkler arasında ilk kez ciddi bir kriz II. Abdülhamit döneminde başladı; 1894 ve 1895'de Türk-Ermeni iç sorunu yaşandı; bu durum, Batı literatürüne Ermeni katliamı olarak geçirildi. ABD Senatosu 3.12.1894'de Ermeni katliamı iddiası ile ilgili bir kararı

---

[1] Gordon, Leland James, Ph. D., Prof. Of Economics, Denison University, *American Relations with Turkey 1830-1930,* An Economic Interpretation, University of Pennsylvania Press, 1932, s. 224; Tozlu, Necmettin, "Osmanlı İmparatorluğunda Misyoner Okulları", Yeni Türkiye, Ankara 1999, 701 Osmanlı Özel Sayısı, s. 331.

[2] Gordon, American Relations with Turkey 1830-1930, 224; bkz. Tozlu, "Osmanlı İmparatorluğunda Misyoner Okulları", 764-776.

[3] Cyrus Hamlin, Among The Turks, New York, Robert Carter and Brothers Press, 1878, s. 30.

[4] Gordon, American Relations with Turkey 1830-1930, s. 221.

[5] Türk Misyonlarına Yardım Derneği için bkz. Kocabaşoğlu, Uygur, Kendi Belgeleriyle Anadolu'daki Amerika, 73. Anglikan Kilisesi ile tartışmalar için bkz. Abdülaziz Çaviş, Anglikan Kilisesine Cevap, Çeviren M. Akif Ersoy, DİBY, Ank. 1973; H.T. Fendoğlu, "Özel Hayatın Gizliliğinin Korunması", Türkiye Günlüğü Dergisi, S. XXIV, Güz, 1993, ss. 100-108.

[6] Trask, The Relations of the United States and Turkey 1927-1939, 9.

[7] Bkz. Kocabaşoğlu, U., Kendi Belgeleriyle Anadolu'daki Amerika, s. 8.

[8] Trask, The Relations of the United States and Turkey*, s.* 11.

[9] Bkz. BOA, Y.PRK.ASK., 24 Za 1313, D. No. 111, G. no. 30.

[10] BOA, Y.PRK.UM., 25 N 1311 h., D. No. 29, G. No. 58.

[11] Protestanların gizli faaliyetleri hakkında Abdurrahman Efendi'nin ihbarı ile ifadesini kapsayan zabıt için bkz. BOA, Y.PRK.BŞK., 12 Ca 1309, D. No. 24, G. No. 55.

[12] BOA, Y.PRK.BŞK., 27 M 1308, D. No. 19, G. No. 27.

[13] BOA, Y.PRK.ASK., 27 R 1305 h., D. No. 43, G. No. 104.

Urmiyada azərbaycanlılara qarşı aysorları da özlərinə birləşdirən ermənilərin törətdiyi soyqırımın canlı şahidlərindən biri də Rəhmətullah Tofiqdir. O öz qeydlərində Urmiyada azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımda gördüklərini qeydə alıb. R. Tofiq 1918-ci il fevral ayının 22-dən başlayaraq 3 gün davam edən soyqırımın birinci mərhələsində erməni silahlı dəstələri tərəfindən bütün ailə üzvlərinin hamısı bir yerdə öz evlərində öldürülən ailələrin basdırılmasını üzərinə götürənlərdən biri olduğunu yazır. R.Tofiq erməni-aysor silahlı dəsətələrinin girdiyi evlərdə bir nəfəri də sağ buraxmadığı öz gözləri ilə gördüyünü belə qələmə alıb: "Evlərdə gördüyüm bu qanlı cəsədlər mənə elə pis təsir etdi ki, ömrümün sonunadək yadımdan çıxmayacaq. Vəziyyətdən belə başa düşülürdü ki, xristianlar qapısını sındırdıqları hər bir evdə ilk öncə yalvarıb aman diləməyə həyətə çıxan ev sahibini öldürüb, bu səsə otaqdan çıxmağa çalışan ev qadını və evdə qorxudan kürsünün ətrafında yorğan altında gizlənən bütün uşaqları yerindəcə güllələyib öldürmüşlər. Hər kimsə o gün mənim kimi həmin evlərə daxil olsaydı bütün ailə üzvlərinin evin müəyyən yerlərində qətlə yetirildiyini gözləri ilə görərdi..." (4, s. 24).

R.Tofiq Urmiyada ilaxır çərşənbədə törədilən soyqırımı isə belə təsvir edir: "Birləşmiş erməni-aysor silahlı dəstələrin başçıları tərəfindən 12 saat müddətinə şəhərdə günahsız əhalinin qətliamına göstəriş verildi. Çərşənbə günü səhər tezdən 12 min nəfər xristian silahlısı müsəlmanların məhəllələrinə hücuma keçdilər. Bəhanə axtaran ermənilər də cilolarla birlikdə evlərə daxil olur, qapıları sındırır və damlara çıxaraq heç bir müqavimət göstərməyən günahsız uşaqları, qızları, qadınları və kişiləri otaqlarında, dəhlizlərində və qorxusundan çıxdıqları damlarda güllələyib öldürürdülər. Bu gün, həqiqətən, böyük faciə baş verib. Nə sığınacaq var, nə də qaçmaq imkanı. Əhali bu küçədən başqa küçəyə və ya bir damdan başqa dama qaçır. Xristianlar on dəqiqə sonra həmin küçəyə və ya dama çatıb günahsız əhalini qətliam edirlər. Sanki Urmiyada qiyamət baş verib. Uşaqlarını qan içində görən qadınların çığırtısı və naləsi bir-birinə qarışmışdı. Dəhşətli vəziyyəti təsvir etməyə söz qadir deyil". (4. s.36)

Urmiyada 1918-ci il ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımda 9 yaşı olan Əli Dehqan da gördüklərini canlı şahid kimi qələmə almışdı. O, bu barədə xatirələrindən ilaxır çərşənbədə törədilən soyqırımda başlarına gələnlər barədə yazır: "Çərşənbə axşamı günü səhər tezdən yuxudan durub gördük ki, atam evdə deyil. Anam səhər yeməyi hazırladı. Gördük qapı möhkəm döyülür. Evin qulluqçusu gəlib anama dedi ki, bir qrup qaçaq ermənilərdir. Deyirlər qapını tez açın, yoxsa sındıracağıq. Anam tez çadrasını örtdü və bizi də (dörd qardaş – böyüyü 10 yaşında, kiçiyi isə 4 yaşında) götürüb tez dama çıxdı. Qulluqçuya dedi ki, qapını aç, yoxsa sındıracaqlar. Dama çıxanda Günəş təzə çıxmışdı. Gördük ki, dam uşaqlarının əlindən tutub bir damdan o biri dama qaçaraq ağlayan qadınlarla doludur. Onlar çarəsiz halda hara qaçacaqlarını belə bilmirdilər. Biz öz evimizin damında bir tərəfdə dayanmışdıq və nə edəcəyimizi bilmirdik. Anamız qəti qərara gələ bilmirdi. Bu vaxt evin qapısı açıldı və bir neçə nəfər qaçaq erməni evə daxil oldu. Onlar evin bütün qiymətli əşyalarını evdən yığıb həyətə tökürdülər. Xüsusilə biz çıraqların sınma səsini eşidirdik. Az

müddətdə evin bütün əşyalarını qarət edib, evi xarabaya çevirdilər. Onlar gedəndən sonra cilolar evə daxil oldular. Evdə heç nə qalmadığını gördükdə xidmətçidən tövlənin yolunu soruşub dedilər ki, bilirik bunların yaxşı atları var. Tövləyə gedərkən onların biri damda bizim yanımızda olan böyük qardaşımı hədəfə alıb güllə ilə vurmaq istədi. Anam tez başa düşüb ağlayaraq özünü uşağın üstünə atdı. Nədənsə ancaq atları aparmaqla kifayətləndilər... Nahardan sonra şəhərdə bir az sakitlik yarandı. Xristianlar sanki müdafiəsiz əhalini qətliam edib talamaqdan yorulub bir az istirahətə başlamışdılar. Ona görə biz evimizə yollandıq. Damdan evə enəndə gördük ki, pəncərələrin şüşələri sınıb, evin hər şeyini talayıb aparıblar. Sanki heç burada yaşayış olmayıb. (5, 717-520)

Urmiyada 1918-ci il ermənilərin törətdiyi soyqırımla bağlı xatirələrini qələmə alan digər canlı şahidlərindən biri də Həbibullah Mədənidir. O xatirələrini Həqqu xatirələri adı ilə qələmə alıb. Xatirələrində o ermənilərin qanlı cinayətlərindən sonra Osmanlı ordusunun Cənubi Azərbaycana və Urmiyaya daxil olmasını və sağ qalan əhalinin ölümdən qurtardıqları üçün onları necə sevinc göz yaşları ilə qarşıladığını belə qələmə almışdır: "Sonrakı gün günün çıxmasından iki saat keçməmiş bir qrup Osmanlı əsgəri şəhərə daxil oldu. Əhali – böyük, kiçik, qadın, uşaq onları görən kimi tez evlərindən bayıra axışıb onların atlarının qarşısına qaçıb, onlarla əl verib görüşürdülər. Bu səhnə o qədər həyəcanlı idi ki, sanki adamın bir əzizi qəriblikdən səfərdən qayıdıb. Əhali bu mənzərəni görməkdən özlərindən asılı olmayaraq ağlayırdılar" (6, s. 95).

Cənubi Azərbaycanın qərb bölgəsində 1918-ci il ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımın canlı şahidi olan digər müəlliflərdən biri də Qulamxan Hişmətdir. O çalışıb gördüklərini xatirə formasından çox sistemli tarix əsəri kimi təqdim etsin. Ona görə də Urmiya, Salmas və Xoy bölgələrində baş verən hadisələri işıqlandırıb. Hadisələrə canlı şahid olan Qulamxan Hişmət törədilən soyqırımın mərhələlərində tələfatın təxmini sayını da qeyd edib. O təkcə 1918-ci il ilaxır çərşənbə günü Urmiyada başlayan iki günlük qətliamda on-on iki min nəfərin soyqırıma məruz qaldığını qeyd edib (7, s. 63).

Urmiya və Salmas bölgələrində azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalma məsələlərini canlı şahid kimi təsvir edənlərdən biri də adı məlum olmayan "Mənim qanlı keçmişin və ya Salmas dünyanı oda çəkən müharibədə" əsərinin müəllifidir. Bu canlı şahid Salmasın birləşmiş erməni-aysor silahlı dəstələrinin hücumu qarşısında necə müdafiəsiz qaldığını göndərilən yardımların da müdafiəyə yaramadığını bütün xırdalıqları ilə təsvir etmişdir. Müəllif Salmas bölgəsinin Köhnəşəhər şəhərinin erməni-aysor silahlı dəstəsinin hücumuna müqavimət göstərdiyi, lakin ermənilərin daha çox silahlanması ilə bağlı yenildiyini və sağ qalan az sayda əhalinin, eləcə də yaralıların qaçmağa məcbur olduğu belə təsvir edir: müqavimət göstərənlər əgər bir az da dayansa idilər hamısı öləcəkdi. Çarəsiz qalaraq bütün var-dövlətlərini buraxıb ailələrini götürərək Köhnəşəhəri gecə ilə boşaltdılar. Səhərə yaxın yarıcan insanlar çox ağır vəziyyətdə Dilmana daxil oldular. Şəhəri müdafiə zamanı yaralanan və son nəfəslərini çəkən gənclərin vəziyyəti isə ürəkağrıdıcı idi..." (8, s. 601).

Urmiya, Salmas və Xoy bölgələrində azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımın canlı şahidi olan, gördüyü və eşitdiyi hadisələri qeydə alan şəxslərdən biri də Mirzə Əbülqasım Əminəşşəri Xoyidir.

Əminəşşəri Xoyi Dilman şəhərində erməni və aysorların hücumu qarşısında çarəsiz qalan əhalinin məscidin onlar tərəfindən hücuma məruz qalmayacağını zənn edib ora pənah aparmışdılar. Lakin ermənilər və aysorlar məscidə sığınan əhalini kütləvi şəkildə hamısını güllələyib, uşaq, qadın, kişi bir nəfəri belə sağ buraxmadılar. Məsciddən qan arx kimi axırdı (9, s.12). Əminəşşəri Xoyi, həmçinin Urmiyanın imam cüməsi Hacı Möhsün ağanın başına gələnləri onun dilindən eşidərək qələmə alıb. O yazır: günahsız əhalinin evinə hücum hamısını öldürəndə bir çox qadın, uşaq və s. onun imam cümə olduğu ermənilərin onun evinə hücum etməyəcəyini düşünüb oraya pənah gətirmişdilər. Ermənilərlə aysorlar evə daxil olub, bütün insanları güllələyir, hətta imam cümənin yataq xəstəsi olan həyat yoldaşını da güllələyirlər. Özünü isə 3 nəfərlə birlikdə əsir götürüb Xosroabada aparırmışlar. Yolda gedəkən əsirlərin birini arxadan güllələdilər, daha sonra digərini isə öldürdülər. Növbə mənə çatanda onların qoşununda olan bir həkim məni tanıdı və onların əlindən alıb, məni qurtardı (9, s.12-13).

Hadisələrin digər canlı şahidi olan urmiyalı həkim və şair Məxfi Əfşarda bu bölgədə baş verən soyqırım hadisəsini gündəlik qeydlər şəklində qələmə almışdır. O 1918-ci cümə axşamı fevral ayının 20-də Urmiyada hələ kütləvi soyqırımın başlamasından 2 gün öncə Urmiya bölgəsinin kəndlərində

əhalinin qətl və qarətə məruz qaldığını gördüyünü qeyd edir. O yazır: "Şəhərin ətrafındakı kəndlərdən insanlar ağlaya-ağlaya şəhərə qaçmışdılar. Onlar deyirdilər ki, cilolar (aysorlar) və qaçaq ermənilər kəndlərdə əhalini talayır və onları qətliama məruz qoyurlar. Əksər kəndləri yandırıblar, kəndlilərin qalanı isə qadın və uşaqlarını götürüb, dağa və çölə qaçıblar. Gələn xəbərlərdən məlum oldu ki, vilayətin kəndlərində on mindən çox qadın, kişi və uşaq onlar tərəfindən qətliam edilib" (10, s.159).

Məxfi Əfşar Urmiyada 1918-ci il fevral ayının 22-dən başlanan soyqırımı isə belə təsvir edir: "Gecə yarısından 3 saat keçirdi, qəflətən atəş səsləri ilə yanaşı, əhalinin yalvarma və "ya Hüseyn" səsləri eşidildi. Deyirlər, Bazarbaşı məhəlləsində cilo silahlı dəstələri (birləşmiş erməni-aysor silahlı dəstələri – H.S.) misli görünməmiş qətl və qarət törədib, yüzlərlə insanı öldürüblər. Daha sonra top səsləri eşidildi. Topların səsindən evlər titrəyirdi. Pəncərə şüşələrinin əksəri isə sınırdı. Deyirlər, silahlı dəstələr Göytəpə kəndində yerləşdirdikləri toplarını şəhərətrafına gətirib, Hezaran və Bazarbaşı məhəlləsini davamlı atəşə tutublar. Neçə evin dağıldığı, neçə qadın, kişi və uşağın öldüyü məlum deyil. Qəflətən axşam vaxtından 4 saat keçmiş Gömrük sarayında toplaşan silahlı dəstələr (birləşmiş erməni-aysorlar silahlı dəstəsi – H.S) atəş açmağa başladı. Gecənin qaranlığında küçədə, yollarda və damda kimləri görürdülərsə dərhal atış açıb, öldürürdülər. Mən özüm evin yuxarı hissəsində kiçik pəncərədən baxıb görürdüm ki, onlar hətta it və pişiyə də atəş açırlar. Atəş açılan ikinci yer isə qəddar Petrosun evi istiqamətindən idi. Əsgərxan və Mehdiəlqədəm məhəllələrində dəhşətli vəziyyət hakim idi. Digər atəş mərkəzləri isə xristianlığı yayan şəxslərin (missionerlər nəzərdə tutulur – *H.S.*) evlərinin istiqaməti və Minarə məscidinin yaxınlığı idi. Əzazəddövlənin evini mərkəzə çevirmişdilər… (10, s. 161).

Məhəllənin əhalisi üç atəş mərkəzinin arasında qalmışdı və özümüzü müdafiə etmək üçün bir dənə də tüfəngimiz yox idi.

Nəhayət, bütün uşaqları zirzəmiyə toplayıb çarəsizlikdən və qorxularının azalması məqsədilə dua oxumağa vadar etdim. Şənbə günü səhər məlum oldu ki, xristianlar Petrosun göstərişi ilə bir neçə topu Cühudlar dağının başına çəkib və oradan şəhəri atəşə tutublar. Deyilənə görə, 2000-dən artıq günahsız insan öldürülüb, min nəfərə yaxın adam isə bu qarışıqlıqda ciddi xəsarət alıb. Mən nahara yaxın özümə cəsarət verib evin yuxarı hissəsindəki deşikdən Qarasandıq qəbiristanlığı və meydanına, eləcə də Gömrüyün qarşısına baxdım. Küçəyə hər addımdan bir təxminən 200-ə yaxın cəsəd səpələnmişdi" (10, s. 162).

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Nəcəfli G. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). (ATASE sənədləri əsasında), Bakı: "Azərbaycan Tarixçiləri" İB, 2015, 112 s.
2. رحمت الله خان معتمدالوزاره، ارومیه در محاربه عالم سوز، به کوشش کاوه بیات، نشر پژوه شیرازه، تهران 1379، 585 ص.
3. خاطرات و سفرنامه مسیو ب. نیکیتین کنسول سابق روس در ایران، ترجمه: ترجمه علیمحمد فره وشی، تهران، چاپ اوا 1326، چاپ دوم 2536، انتشارات کانون معرفت، 325 ص.
4. رحمت الله توفیق، تاریخچه ارومیه، یادداشتهایی از سالهای جنگ اول جهانی و آشوب بعد از آن، انتشارات شیرازه، چاپ اول 1382، 162 ص.
5. علی دهقان، سرزمین زرتشت رضائیه، انتشارات ابن سینا، تهران، چاپ اول 1348، 1017 ص
6. قاسم اشرفی، غارتگران- وقایع خونین اورمیه در جنگ جهانی اول، نشر اختر، تبریز 1387، 264 ص.
7. غلام خان حشمت، مویه های شهر غریب، انتشارات یاز، اورمیه، 1387، ص. 232
8. تحولات غرب آذربایجان به روایت اسناد مجلس شورای اسلامی، دوره های سوم تا پنجم، به کوشش علی ططری، رحیم نیکبخت، تهران،1390 ، کتابخانه موزه و مرکز اسناد مجلس شورای اسلامی، 735ص.
9. میرزه امین الشرع خویی، تاریخ تهاجمات و جنایات ارامنه، اسماعیل سیمیتقو و سردار ماکو در آذربایجان، به کوشش علی صدرایی خویی، 1385، 46 ص.
10. مجتبی آزادی، تاریخ قتل عام مسلمانان آذربایجان توسط جلوها، ارومیه، 1369، انتشارات حسام الدین چلبی، 254 ص.


## THE GENOCIDE COMMITTED BY ARMENIANS IN SOUTH AZERBAIJAN IN THE RECORDS OF WITNESSES

## SUMMARY


In 1918 Armeniana committed genocide againstthe Azerbaijanis in the Azerbaijani lands located in north of Aras river and the Eastern Anatolia, as well as in South Azerbaijan. Only in the western part of South

Azerbaijan, 200 thousand Azerbaijanis were victims of genocide. The fact of thegenocide is reflectedin the memories and records of those who witnessed prove the horrible genocide committed against Azerbaijanis.

**ГЕНОЦИД АЗЕРБАЙДЖАНЦЕВ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ, СОВЕРШЕННЫЙ АРМЯНАМИ, В ЗАПИСЯХ СВИДЕТЕЛЕЙ**

**РЕЗЮМЕ**

В 1918 году на территории к северу от реки Аракс, и в Северном Азербайджане и в Восточной Анатолии, а также в Южном Азербайджане армяне совершили геноцид против азербайджанцев. Только в западной части Южного Азербайджана 200 тысяч азербайджанцев стали жертвами геноцида, совершенный армянами. Данный факт геноцида отражаются в воспоминаниях и записях людей, которые были свидетелем кровавых событий тех времен. Записи живых свидетелей доказывают факт ужасного геносида против азербайджанцев, совершенный армянами.

*Д.с.н.* **Марина ИЗОРИЯ**
*Ассоциированый профессор*
*Еврорегионального университета (Грузия*)

# АРМЯНСКИЙ МЯТЕЖ В ОСМАНСКОЙ ИМПЕРИИ И ГЕНОЦИД ЛАЗОВ

**Açar sözlər:** soyqırım, qiyam, sərhəd, müttəfiq
**Keywords**: genocide, rebellion, border, ally, army, ordu
**Ключевые слова:** геноцид, мятеж, граница, союзник, армия

10 января должно стать трагической датой в истории грузинского народа. В этот день 100 лет назад русская армия начала Эрзерумскую наступательную операцию. По итогам Эрзерумской операции и начавшей немного позже Трабзонской операции линия фронта продвинулась примерно на 300-400 километров к югу и западу и русская армия заняла Эрзерум, Ризе, Трабзон, а также огромную полосу между этими городами.

Зимняя кампания 1915/1916 годов на Кавказском фронте началась в непростых условиях. Тревожные известия поступали от командования англо-французских войск, высадившихся в феврале 1915 г. на Галлиполийском полуострове (Дарданельская операция). Здесь союзники России, несмотря на все их усилия, не смогли добиться успеха и сломить сопротивление турок. Тогда британцы и французы принимают решение в течение декабря 1915 г. эвакуировать все войска с захваченных ими плацдармов, всего лишь предварительно уведомив об этом Петроград.

Эта информация не стала неожиданностью для главнокомандующего войсками Кавказского фронта великого князя Николая Николаевича и его штаба, так как армейская разведка с сентября 1915 г. начала фиксировать рост численности турецких резервов. Уже в конце 1915 г. русскому командованию стало понятно, что началась переброска войск из района черноморских проливов на восток, для проведения серии наступательных операций против главных сил Кавказской армии.

Учитывая возрастающую опасность, в Тифлисе было принято решение перейти в наступление и разбить противника прежде, чем он завершит перегруппировку.

Эрзерумская операция состояла из трёх этапов: 1) Кеприкейское сражение, 2) подготовка к штурму Эрзерума, 3) штурм Эрзерума.

Кеприкейское сражение [28 декабря 1915 г. (10 января 1916 г.) – 12(25) января 1916 г.). Главные силы 3-й турецкой армии (свыше 80 тыс. чел., 150 орудий; Махмуд Камиль-паша), прикрывавшие Эрзерум, оборонялись на 100-километровом приграничном горном укреплённом рубеже. Фланги ее опирались на труднодоступные зимой горные хребты, обеспечивавшие от обходов. Учитывая эти обстоятельства, командование русской Кавказской армией решило начать операцию в дни рождественских праздников, в конце декабря 1915 г., когда турки меньше всего ожидали наступления. Согласно разработанному плану, первым, 28 декабря 1915 г. перешел в наступление 2-й Туркестанский армейский корпус. Частям корпуса была поставлена задача: овладеть горным массивом Гей-даг. Выполнить эту задачу корпус смог только после осуществления прорыва на участке соседней армейской ударной группы, когда противостоявший ей 10-й турецкий корпус 4 января начал отход по всему фронту. Туркестанцы овладели позицией у селения Кизил-килиса на подступах к форту Кара-гюбек, преграждавшему доступ в проход Гурджи-богаз. Проход этот выводил в тыл основной эрзерумской укрепленной позиции на хребте Деве-бойну.

1-й Кавказский корпус и ударная армейская группа перешли в наступление 30 декабря (12 января 1916 г.). Последняя наступала двумя колоннами. Основная колонна генерал-лейтенанта Н.М. Воробьева (12 батальонов, 13 сотен и 50 орудий), сосредоточившаяся в районе селений Хошаб и Сонамер, наносила главный удар в направлении селений Маслагат и Кепри-кей с задачей сбить турок с южных отрогов горного хребта Чахир-баба и выйти в тыл

их главным силам, оборонявшимся в Пассинской долине и южнее против перешедшего в наступление 1-го Кавказского корпуса. Справа действия колонны Воробьева обеспечивались колонной генерал-майора Ф.М. Волошина-Петриченко (12 батальонов, 1 сотня, 18 орудий), которая, двигаясь по хребту Чахир-баба, должна была овладеть его вершинами.

Турки расценили упорство атак русских войск в Пассинской долине как доказательство того, что в ней наносится главный удар и для его парирования сосредоточили все свои свободные резервы. Установив, что турецкие резервы передвинуты на второстепенный участок, русское командование усилило из армейского резерва колонну Воробьева (8 батальонами) и 1-й Кавказский корпус (4 батальонами).

В ночь на 1(14) января 1916 г. колонна Воробьева и 1-й Кавказский корпус перешли в решительное наступление на ольтинском и эрзерумском направлениях. Наступление ударной группы, преодолевавшей горные высоты, проходило в тяжелейших условиях. Снежный буран дул наступающим войскам в лицо, солдаты пробивали себе путь в глубоком снегу, для чего приходилось отрывать траншеи, и местами тащили на себе артиллерию.

В ночь на 3(16) января в обозначавшийся на фронте колонны Воробьева прорыв была направлена Сибирская казачья бригада для взрыва моста на р. Араке у Кепри-кей, что разобщило бы турок, действовавших по обоим берегам этой реки, но начавшаяся ночью сильная метель и отсутствие проводников не позволили бригаде выполнить задачу.

Колонна Воробьева, прорвав фронт противника у Карабыих, направилась в тыл турецких войск, сражавшихся в Пассинской долине. Это заставило турок в ночь на 4 января начать поспешный отход к Эрзеруму, бросая и сжигая свои склады.

Сибирская казачья бригада преследовала турок. 5(18) января бригада нанесла им конными атаками большие потери и захватила до 1500 пленных четырнадцати различных полков, принадлежавших восьми различным пехотным дивизиям. Для русского командования, данный факт стал доказательством, что турки отступают в полном беспорядке.

В зоне русской оккупации оказались десятки сел населенных грузинами-мусульманами (преимущественно лазами). И если от регулярной российской армии мирное население, как правило, не страдало, то этого нельзя сказать об отношении к мирным жителям со стороны двигавшихся за фронтом русской армии отрядов армянских боевиков.

7(20) января русские авангарды подошли к Деве-бойну. Основам задача – нанести туркам короткий удар и выбить их с позиций, приспособленных к зимовке, – была блестяще выполнена. Главные силы противника без боя бросили сильно укреплённую тыловую позицию у Кепри-кей и склады с большими запасами топлива, фуража и продовольствия.

На этом этапе операции русские войска потеряли 1369 убитыми и 7380 ранеными и обмороженными, захватили в плен 4851 турецких солдат и офицеров и 12 орудий.

Командование русской Кавказской армии, учтя разгром турецких сил под Кепри-кей, приняло решение не дать 3-й турецкой армии оправиться и без промедления штурмовать Эрзерум.Начало штурма крепости было намечено в ночь на 30 января. Основные 11 крепостных фортов Эрзерума располагались на хребте Деве- бойну в две линии. Подступы к городу с севера через проход Гурджи-богаз обеспечивались двумя фортами, такое же число фортов обеспечивало крепость от обхода с юга через хребет Палантекен. Вся укреплённая позиция имела протяжение до 40 км. Наиболее слабо был укреплён промежуток в 10 км между фортами Тафта и Чобан-деде; перед этим участком находился труднопроходимый хребет Карга-базар, не занятый турками.

Оборона растянутой линий укреплений Эрзерума, вооружённых 300-ми устаревших орудий, требовала большого гарнизона. Турецкое командование полагало, что сил, отступивших 9, 10 и 11-го корпусов, достаточно для обороны Эрзерума.

Командование Кавказской армии во главе с генерал-лейтенантом Н.Н. Юденичем, руководствуясь произведёнными ещё в мирное время рекогносцировками Эрзерума, своевременно разработало детальный план штурма Эрзерумского укрепрайона.

Первым делом для штурма Эрзерума доставили из крепости Карс на автомобилях и фургонах 16 тяжёлых орудий и выдвинули (смотри схему) правое крыло 2-го Туркестанского

корпуса к р. Чорох, а 4-го Кавказского – к селению Хныс-кала, чем обеспечили фланги главных сил, готовившихся к штурму. Далее, 2-му Туркестанскому корпусу (29 батальонов, 17 сотен, 50 орудий), обеспечивая свой правый фланг и тыл силами 11 батальонов, 14 орудий и 13 сотен, надлежало наступать через хребет Думлу-даг, проход Гурджи-богаз в Эрзерумскую равнину, а Донской пешей бригаде генерала Волошина-Петриченко (4 батальона, 1 сотня и 2 орудия) атаковать от хребта Карга-базар долиной Кечксу правый фланг и тыл 10-го турецкого корпуса, одновременно связывая туркестанцев с действовавшей южнее 4-й Кавказской стрелковой дивизией генерала Воробьева (16 батальонов, 5 сотен и 36 орудий). Эта дивизия наступала тремя колоннами через хребет Карга-базар, занесённый глубоким снегом, в промежуток между фортами Тафта и Чобан-деде получила задачу выйти в тыл туркам, оборонявшим Гурджи-богаз и Деве-бойну.

1-й Кавказский корпус (24 батальона, 11 дружин, 15 сотен и 60 орудий), подготовивший штурмовые лестницы, атаковал турецкую позицию от форта Дала-гез до фортов на хребте Палантекен четырьмя колоннами. Армейский резерв – 66-я пехотная дивизия (16 батальонов) – сосредоточился в Гасан-кала; там же находился и штаб командующего армией. Армейская конница (30 сотен с 12 орудиями) группировалась в районе Кепри-кей. Артиллерийский участок (16 осадных орудий, 18 полевых гаубиц и 1 ополченческая дружина) в районе с. Гюльджас подготовлял атаку фортов Далан-гез н Чобан-Деде. Всего для штурма предназначалось 78 батальонов, 12 ополченческих дружин, 180 орудий (из них 16 осадных), 54 сотни, 4 роты саперов.

Русские войска перешли в наступление в 20 часов 29 января (11 февраля) и уже на следующий день после ожесточенного штыкового боя заняли форты Кара-гюбек и Далан-гез. Первый форт прикрывал вход в ущелье Гурджи-богаз, второй контролировал (в северном и южном направлениях) подступы к основной позиции Деве-бойну. Турки правильно оценили важное значение форта Далан-гез, прикрывавшего подступы к командующему над окружающей местностью форту Чобан-деде, и, чтобы возвратить Далан-гез, произвели восемь безрезультатных контратак.

1(14) февраля передовые армейские части овладели фортом Тафта, получив тем самым доступ в Эрзерумскую равнину с севера. Туда же в этот день спустились полки 4-й Кавказской стрелковой дивизии, прорвавшие фронт турок севернее форта Чобан-деде.

Несмотря на сопротивление 10-го турецкого корпуса, который пытался задержать наступление русских войск, противник начал оставлять позиции в районе Деве-бойну (под прикрытием арьергардов 9-го корпуса). Разгадав лишь на четвёртый день штурма план русских, турецкое командование начало с фронта Деве-бойну перебрасывать 34-ю пехотную дивизию 11-го корпуса для ликвидации прорыва фронта в северном секторе обороны. Однако русские войска, развивая успех и тесня турецкие части, вышли с севера на тыловые коммуникации 3-й турецкой армии, в которой после понесённых потерь оставалось не более 20 000 человек.

3(16) февраля русские войска ворвались в Эрзерум. Турки были отброшены к западу. Русская конница, выдвинутая для преследования, захватила позже в плен остатки 34-й пехотной дивизии 11-го турецкого корпуса. При штурме крепости и в ходе преследования противника взято 9 знамён, 311 орудий, большие запасы боеприпасов и продовольствия, а также свыше 8 000 пленных. Потери русских войск за этот период составили: 970 убитых, 7265 раненых и обмороженных.

Согласно официальным турецким данным общие потери 3-й турецкой армии составили почти 35 500 человек (почти 22 тыс. в ходе Кеприкейского сражении, свыше 9 тыс. в боях за Эрзерум и при отступлении свыше 4 тыс.).

По подсчетам русского командования в плен попали 235 офицеров и 12 753 солдат.

В результате операции турки потеряли важный узел коммуникаций и свою основную базу снабжения – крепость Эрзерум и были отброшены на 70–100 км к западу. Оперативное положение русских войск на Кавказском ТВД существенно улучшилось. Успех Эрзерумской операции в значительной мере определялся правильным выбором направления главного удара, тщательной подготовкой операции, а также широким манёвром силами и средствами.

После Эрзерумской и Трабзонской операций стремясь «расчистить выход к морю» для так называемой «великой Армении» армянские боевики-дашнаки бросились уничтожать расположенные между плоскогорьями Восточной Турции и Черноморским побережьем турецкие и грузинские села. При этом оправдывая свою дикую жестокость пред русскими и западными союзниками армяне переставляли уничтожение мирного мусульманского населения «возмездием» за якобы имевшие место до этого «зверства над армянами в Османской империи в 1915 г.».

Действительно, есть масса документов, которые свидетельствуют о том, что не Османская Империя виновата в том, что произошло с армянами, а в первую очередь армянские террористы. Отдельные эксцессы во время депортации армян из прифронтовой зоны в Сирию не идут ни в какое сравнение зверства армян по отношению к неармянскому населению после того, как «под защитой русских штыков» они получили такую возможность.

Сегодня открывается все больше страшных свидетельств армянских зверств на Востоке Турции в 1916-1918 гг., когда эту территорию заняла русская армия. При этом от армянского террора и массовых убийств, организованных армянскими боевиками страдало не только мирное турецкое население, но и представители других народов в частности курсы, черкесы, арабы и грузины-мусульмане (лазы, аджарцы, шавшы, имерхевцы и т.д.).

Последние желательно помнить всем грузинским патриотам, которые в последние время, почему-то начинаюn подыгрывать армянской антитурецкой пропаганде. По свидетельствам этнографов, грузинский язык и его диалекты (в частности лазский) на территории Турции 100-110 лет назад был гораздо больше распространены, чем сегодня. Однако, к сожалению многих сел грузин-мусульман уже нет как таковых. Их во время первой мировой войны уничтожили армянские боевики вместе с соседями - турками и курдами.

Но здесь было одно невыгодное для грузин обстоятельство. Если турецкое и курдское население в основном жило «на открытых местностях» предполагавших быстроту обнаружения опасности и имело больше шансов своевременно эвакуироваться от армянских боевиков вслед за уходящей турецкой армией, а также больше имели шансов рассчитывать на защиту русского командования, то лазам и другим грузинам-мусульманам, жившим в горно-лесистой труднодоступной местности эвакуироваться и найти защиту было намного труднее. Особенно если армянские боевики специально устраивали засады на горных дорогах «перехватывая» колонны с беженцами, а также нападали на затерянные в горных лесах села неожиданно, предварительно окружив их со всех сторон.

Аналогичную тактику армянские боевики предпринимали и до этого в 1915 г. против восставших аджарцев, уничтожая целые аджарские деревни. Напомним также, что в советский период факты уничтожения армянами аджарских деревень сознательно замалчивались, а соответствующие документы уничтожались, чтобы не противоречить официальному мифу «о дружбе армянского и грузинского народов». А ведь это был самый натуральный геноцид уникальной грузинской этнической общности.

Еще более страшной была судьба этнографических групп грузин, живших южнее и юго-западнее Аджарии, многие из которых просто не пережили геноцида со стороны армянских террористов. Ведь аджарцев хотя бы пусть плохо – но иногда защищало то, что они были подданными Российской империи и могли пожаловаться русским. Лазы в большинстве своем были подданными Османской империи и в своих зверствах по отношению к лазам армянские боевики, как правило, никаких ограничений не знали.

Позднее во время абхазкой войны 1992-1993 гг. армянские боевики повторили свой геноцид по отношению к самому близкому к лазам грузинскому этносу – мегрелам в Абхазии (последних не спасло то, что они в отличие от лазов являются христианами - «христиане» - армяне убивали их не с меньшими зверствами). Из-за армянского геноцида территория проживания лазо-мегрельского субэтноса грузинского народа в 20-м столетии сократилась примерно наполовину. Тысячи лазов и мегрелов погибли и сотни тысяч – стали беженцами.

## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА

[1] Г.Р. Мархулия. 100-летие геноцида лазов армянскими боевиками: сознательно забытые страницы истории. http://kavkazplus.com/news.php?id=2298#.WLhWSn20kdU
[2] Корсун Н. Г. Эрзерумская операция. — М.: Воениздат НКО СССР, 1938. — 170 с.
[3] Масловский Е.В. Мировая война на кавказском фронте, 1914—1917 г.: стратегический очерк. — М. :Вече, 2015. — 544 с.
[4] Г.Р.Мархулия В Грузии исследуют армянский терроризм против лазов». http://irevanaz.com/rus/index.php?newsid=3266

## ARMENIAN MUTINY AND GENOCIDE OF MANHOLES IN THE OTTOMAN EMPIRE
## SUMMARY

January 10 shall become tragic date in the history of the Georgian people. This day 100 years ago the Russian army began the Erzurum offensive transaction. On the basis of historical documents and materials.

## OSMANLI İMPERİYASINDA ERMƏNİ QİYAMI VƏ MANHOLES SOYQIRIMI
## XÜLASƏ

Məqalədə 10 Yanvar gürcü xalqının tarixində faciəvi tarix anılmağından bəhs olunur. Həmçinin məqalədə 100 il əvvəl Rusiya ordusunun Erzurum hücum əməliyyatından və nəticələrindən bəbs olunur. Məqalə tarixi sənədlər və arxiv materialları əsasında araşdırılmışdır.

*T.ü.f.d., dos.* **Ramilə DADAŞOVA**
*AMEA Qafqazşünaslıq İnstitutu Qafqaz siyasəti şöbəsinin müdiri*

# AZƏRBAYCANLILARIN VƏ TÜRKLƏRİN SOYQIRIMI İLƏ NƏTİCƏLƏNƏN QLOBAL TƏHLÜKƏLİ ERMƏNİ TERRORLARI

**Açar sözlər:** soyqırım, günahsız insanlar, erməni terror təşkilatları, kütləvi qırğınlar, deportasiyalar
**Keywords:** genocide, innocent people, armenian terrorist organizations, mass destruction, deportations
**Ключевые слова:** геноцид, невинные люди, армянские террористические организации, массового уничтожения, депортация

Təcavüz, hərbi cinayət, genosid, rasizm, insanlar üzərində qeyri-qanuni təcrübələrin həyata keçirilməsi, əzab, quletmə, quldurluq, gəmiçiliyə qarşı qeyri-qanuni hərəkətlər, hava gəmilərinin saxlanılması, onlara qarşı terror, diplomatik şəxslərin saxlanılması, mülki vətəndaşların girov götürülməsi, ətraf mühitə zərər vurulması, insan hüquqlarının pozulması – bunlar terror aktlarıdır(10, s.43). Bu göstərilənlərin hamısını ermənilər Azərbaycan torpaqlarında və kənarlarda azərbaycanlılara, Azərbaycanın Quba mahalında yaşayan dağ yəhudilərinə, Türkiyədə, Şərqi Anadoluda, Cənubi Azərbaycanın Urmiya, Salmas, Xoy, Qarabağ, Təbriz bölgələrində, Özbəkistanda, Şimali Qafqazda, Volqaboyunda və digər ölkələrdə türklərə və digər xalqlara qarşı dəfələrlə tətbiq etmişlər və etməkdədirlər. Adları sadalanan yerlərdə on minlərlə dinc insanlar, o cümlədən günahsız körpələr, qadınlar və yaşlı insanlar məhz etnik mənsubiyyətinə görə məhv edilmişlər.

Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəklənməsi və cəzasız qalmasının nəticəsi olaraq azərbaycanlılar, türklər tarixən erməni terrorizminə məruz qalmış, yüz minlərlə azərbaycanlı tarixi yurdlarından terror yolu ilə qovulmuşlar. 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1992-ci illərdə indiki Ermənistan torpaqlarında (indiki Ermənistanın ərazisinin 82 faizi terror yolu ilə Azərbaycandan qopardılmışdır) azərbaycanlılara qarşı terror və xüsusi qəddarlıqla etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Təkcə 1988-1992-ci illərdə indiki Ermənistan torpaqlarından 250 mindən çox azərbaycanlı öz əzəli torpaqlarından qaçqın düşdü. 1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal etməsi nəticəsində 700 minə yaxın azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüşdür. Alman araşdırmaçı E. Feyql ermənilərin məqsədlərinə çatmaq üçün həmişə bir metod olaraq terrordan istifadə etdiyini təsdiq edir(16). Yalnız XX əsrin son 90 ilində ermənilər terror yolu ilə azərbaycanlılara qarşı 86 soyqırım həyata keçirmişlər. Ermənilər 1991-ci il dekabrın 15-də Cəmilli, dekabrın 24-də Meşəli, dekabrın 28-də Kərkicahan, 1992-ci il yanvarın 18-19-da Nəbilər kəndini, fevralın 12-nə keçən gecə Malıbəyli və Quşçular kəndlərini yandırdılar. Fevralın 25-dən 26-na keçən gecə əsrin böyük faciəsi olan Xocalı soyqırımı baş verdi. Ermənilər Xankəndindəki Rusiyaya məxsus 366-cı motoatıcı alayının iştirakı ilə Xocalını işğal etdilər. 613 nəfər vəhşicəsinə işgəncələrlə qətlə yetirildi, 487 nəfər yaralandı, 1275 nəfər əsir alındı, 8 ailə məhv edildi, şəhər yandırıldı, 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirdi. Öldürülənlərdən 106 nəfəri qadın, 83 nəfəri uşaq idi.

Ermənilərin törətdikləri terror hadisələrinin genosidlə nəticələnməsinə tarixdə çox rast gəlinir.

1885-ci ildə Vanda Avetist Nazarbekyan və digər şovinist ermənilər tərəfindən marksizm prinsipləri adı altında yaradılan, simvolları zəng olan "Hnçak" (Zəng) partiyasının əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, Rus və İran Ermənistanları adlandırdıqları əraziləri birləşdirərək «Böyük Ermənistan» dövləti yaratmaq idi(12, s.13). Təkcə 1890-1892-ci illərdə "Hnçak" terror təşkilatı 65 min silahsız müsəlmanı, türkü və kürdü məhv etdi.

1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" partiyasının məqsədi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" qurmaq idi. 1980-1982-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirən "Erməni "soyqırımı"nın intiqamçılar"» qrupu, məxfi terror qrupu DRO və onun bölmələri: DRO-8, DRO-88, DRO-888, DRO-8888 yaradıldı. Daşnakların hazırda bu istiqamətdə fəaliyyəti davam edir. Qeyd etmək lazımdr ki, Daşnaksütyun partiyası hazırda Ermənistanda "Erməni İnqilab Federasiyası" adı altında fəaliyyət göstərir(7). Aqasi Enokyan yazır ki, Erməni İnqilab Federasiyası Daşnaksütyun

partiyasından olan millətçi-sosialistlər bütün erməni torpaqlarının birləşdirilməsi və erməni xalqının bütün tarixi düşmənlərini cəzalandırmağı nəzərdə tutur... Daşnaksütyunun xarici siyasətinin yeganə məqsədi tarixi ədaləti bərpa etmək və bütün erməni torpaqlarının qaytarılmasıdır. Danışıqlar güzəştlə yox, güc tətbiq etməklə ola bilər(11, s.116).

1975-ci ildə Beyrutda Akopyan tərəfindən yaradılan "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" - ASALA, "Erməni gizli azadlıq ordusu"- ASOA, 1973-cü ildə yaradılan "Erməni "soyqırımı"nın intiqamçıları" qrupu və başqa terrorçu təşkilatlar 1975-ci ildən başlayaraq 50-dən çox Türkiyə vətəndaşını, xüsusən də səfirləri, diplomatları, onların qohumlarını qətlə yetirmişlər(9, s.14). 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılan "Orli qrupu"1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirmişdir(15).

Erik Feyql 1984-cü ildə "Erməni gizli azadlıq ordusu" terror təşkilatı tərəfindən faciəli surətdə qətlə yetirilən dostu Erdoğan Özenin xatirəsinə ithaf etdiyi əsərdə 1973-1994-cü illərdə ermənilər tərəfindən qətlə yetirilmiş Avropa ölkələrində fəaliyyət göstərən 34 türk diplomatının adını çəkir(16, s.1-2). 1980-ci ildə ASALA birgə terror aksiyaları həyata keçirmək üçün PKK terror təşkilatı ilə razılığa gəlmiş, 1993-cü il avqustun 28-də açıqlanan bəyanatında "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdi(6, s.139; 16).

2001-ci ilin fevralında ASALA tərəfindən yaradılan "Geqaron"un məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir. 1991-ci ildə Fransada yaradılan "Erməni azadlıq hərəkatı"(AOD)terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir. 1979-cu ildə yaradılan ASALA-nın tərkib hissəsi sayılan "Erməni azadlıq cəbhəsi" Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır. 1972-ci ildə Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılan "Erməni soyqırımı ədalət komandosları"nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir(15).

Diplomatların oğurlanması ilə məşğul olan «Gənc ermənilər ittifaqı» 1990-cı ildə Fransada yaradılmışdır. 1991-ci ildə İsveçrədə həbsdə olan erməni terrorçularının azad olunmasına çalışan "9 iyun qrupu" yaradıldı. Avropanın bir çox ölkələrində fəaliyyət göstərən "İsveçrə qrupu" Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürdü. ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərən "Demokratik cəbhə"nin başlıca məqsədi - türk dövlətinin parçalanmasıdır. 1981-ci ildə Parisdə yaradılan "İntiharçılar eskadronu" həmin ildə Türkiyənin Fransadakı baş konsulluğunun zəbt edilməsində iştirak etmiş, nəticədə qrupun 4 nümayəndəsi, həmçinin keçmiş rəhbəri Yan Kaşkayan həbs edilmişdir. Hazırda qrupa rəhbərliyi Vaşqen Sakasaslenyan həyata keçirir. 1988-ci ildə Moskvada yaradılan "Erməni birliyi"nin ASALA ilə sıx əlaqələri vardır. Təşkilat keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir, Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir(15). 2001-ci il aprel ayının 29-da, əsasən, Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılan «Apostol»un məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktlarının keçirilməsidir(15).

Ermənistan prezidenti Levon Ter-Petrosyanın lideri olduğu "Qarabağ" antiazərbaycan komitəsi erməni mənşəli antiazərbaycan, antihökumət ruhlu vətəndaşlardan istifadə edərək, Azərbaycanın Dağlıq Qarabağ ərazisində erməni əhali arasında separatçı hərəkat yaratdı, terrorçu qruplaşmalar yaratmaqla Ermənistandan azərbaycanlı əhali terror yolu ilə deportasiya edildi, Dağlıq Qarabağda kütləvi terror aksiyaları həyata keçirildi. XX əsrin yalnız son 10 ilində Azərbaycanda erməni terrorçuları tərəfindən yalnız nəqliyyatda 4 terror aktı həyata keçirilmiş, bu zaman ölənlərin sayı 68 nəfər, yaralananların sayı 132 nəfər olmuşdur. Sərnişin və yük qatarlarında 8 terror aktı törədilmiş, nəticədə 14 nəfər ölmüş, 125 nəfər yaralanmışdır. Bakı metropolitenində 3 terror aktı qeydə alınmış, nəticədə onlarla insan ölmüş, yüzlərlə insan yaralanmışdır. Hava nəqliyyatında 3 terror aktı törədilmiş, nəticədə 104 nəfər həlak olmuşdur. Krasnovodsk-Bakı sərnişin daşıyan dəniz bərəsində törədilən terror aktı zamanı 25 nəfər həlak olmuş, 88 nəfər ağır yaralanmışdır. Ermənilər yaşayış məntəqələrində və mülki obyektlərdə 337 terror aktı törətmişlər, nəticədə 881 nəfər ölmüş, 1239 nəfər yaralanmışdır. Mülki və dövlət obyektlərinə qarşı 8 terror aktı törədilmişdir. Nəticədə 10 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır, Azərbaycanın iqtisadiyyatına külli miqdarda zərər dəymişdir. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin faktlar əsasında hazırladığı "Erməni

cinayətləri (Sənədlər əsasında)" adlı kitabda erməni terrorizminin acı nəticələri(5, s.128-159), Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin "Dağlıq Qarabağ: hadisələrin xronikası" (1988-1994-cü illər) adlı kitabda ermənilərin Azərbaycan xalqına və Konstitusiya quruluşuna qarşı törətdiyi terror aktları, təxribat, silahlı separatizm və hərbi təcavüz aktları təfsilatı ilə göstərilmişdir(3).

Azərbaycan Respublikası İnsan Hüquqları İnstitutunun Ekspert Şurasının apardığı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Azərbaycanın işğal olunmuş ərazilərində - Laçının Zabux kəndində "Kürd konqresi", "Xalq azadlıq cəbhəsi", Xocavəndin Qırmızı bazar ərazisində "Hizbullah", Zəngilanın Mincivan qəsəbəsində "Həmas" yerləşir, 1998-ci ildən Ermənistanın Razdan şəhərində "Nüvə bürosu" qeyri-rəsmi təşkilatı, 1997-ci ildən "Yak-mak metalis", 1998-ci ildən "Akopyan" nüvə məsələləri ilə məşğul olan şirkətləri, Dağlıq Qarabağ ərazisində məxfi elmi-tədqiqat laboratoriyaları təşkil edilmişdir. ASALA terror təşkilatının Xəlfəli (Şuşa), Kiş (Xocavənd), Əskəran yaşayış məntəqəsində təlim düşərgəsi yaradılmışdır. "Əl-Qaidə"nin "Vanquards" analitik qrupuna Levon Mikaelyan başçılıq edir(8, s.111-112). Dağlıq Qarabağda erməni terrorizmi dörd istiqamətdə fəaliyyət göstərir: nüvə terrorizmi (Həsənriz, Ağdaban, Kurapatkin, Xanabad), bioloji terrorizm (Kiş, Aşağı Veysəlli, İstisu), kimyəvi terrorizm (Havuslu, Vejnəli), kompüter terrorizmi (Şuşa və Xankəndi). 2000-ci il dekabrın 14-də qəbul edilən Ermənistanın nüvə proqramının 4-cü maddəsində Kəlbəcərin Başalıbel, Şuşanın Göytala, Laçının Mixidərə, Malxələf, Aşağı Fərəcan yaşayış məntəqələri Ermənistanın nüvə zonalarına aid edilmişdir(2, 7-ci c., s.356). A.Enokyan millətinin iç üzünü açaraq göstərir ki, Ermənistanda Dağlıq Qarabağ problemindən daxili siyasətdə məqsədlərinə çatmaq üçün istifadə edirlər. A.Enokyan hazırda Ermənistanda fəaliyyət göstərən "Daşnaksütyun" partiyasından olan millətçi-sosialistlərin əsas məqsədlərinin güc tətbiq etməklə "bütün erməni torpaqlarının qaytarılması", tarixi düşmənləri cəzalandırmaq olduğunu qeyd edir, R.Koçaryanın hakimiyyətdə olmasını onun Qarabağ vətəndaşı olması ilə əlaqədar qeyri-qanuni hesab edir(11).

Beynəlxalq sülh və təhlükəsizliyi müdafiə edən BMT-nin, Helsinki Yekun Aktının prinsiplərinə əsaslanaraq xarici siyasət həyata keçirən Azərbaycan demokratik, sülhsevər dövlət kimi, BMT-nin 1996-cı il Beynəlxalq terrorizmlə mübarizə tədbirləri haqqında konvensiyasına və bu barədə olan digər konvensiyalara qoşulmuşdur. Lakin Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olması onun bəzi öhdəlikləri həyata keçirməsinə imkan vermir. Belə öhdəliklərdən biri "Avropada adi silahlı qüvvələr barədə" müqavilədir. Ermənistan ATƏT və Şimali Atlantika Əməkdaşlıq Şurasının üzvü olan Azərbaycanın Dağlıq Qarabağ regionunda hökumət tərəfindən nəzarət altında olmayan ağır texnika ilə təchiz edilmiş hərbi qruplaşmalar saxlayır(14, s.341-343). Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ATƏT-in İstanbul zirvə toplantısında Avropada adi silahlı qüvvələr barədə müqavilənin səmərəliliyini yüksəltməyin vacibliyini, işğal edilmiş Azərbaycan torpaqlarında qeyri-qanuni xarici silahların yerləşdirilməsinin təhlükəsizliyi, həmçinin müqavilə iştirakçılarının təhlükəsizliyini pozduğunu dünya dövlətlərinin nəzərinə çatdırdı(1, 5-ci c., s.429).

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlirik ki, qlobal təhlükəli terrorçu təşkilatlar olan "Armenakan", "Hnçak", "Daşnaksütyun", "Daşnaksütyun" partiyasının fəaliyyətinə qərar verdiyi "Nemezis", "Erməni "soyqırımı"nın intiqamçıları" qrupu, Məxfi terror qrupu DRO və onun DRO-8, DRO-88, DRO-888, DRO-8888 adlı gizli bölmələri, "Erməni gizli azadlıq ordusu" (ASOA), "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA), ASALA tərəfindən yaradılan "Gereqon", "Erməni azadlıq hərəkatı" (AOD), "Erməni azadlıq cəbhəsi", "Erməni soyqırımı ədalət komandosları", "Erməni birliyi", "Demokratik cəbhə", "Apostol" türk dövlətlərini parçalamaq məqsədilə dünyanın müxtəlif yerlərində türk dövlət xadimlərinə, ziyalılarına, diplomatlara və digər günahsız insanlara qarşı terror aksiyaları həyata keçirmişlər. Azərbaycanın torpaqları hesabına Ermənistan Respublikası yaradıldıqdan sonra isə Dağlıq Qarabağda antihökumət, antiazərbaycan ruhlu təbliğatla eyni adlı problem ortaya atılmış və terrorçu Ermənistan dövləti bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirmiş və keçirməkdədir. Qondarma "Dağlıq Qarabağ Respublikası"nda rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən 1 milyondan çox azərbaycanlının kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulması və minlərlə insanın qətlə yetirilməsinə şərait yaradan, erməni quldur dəstələrini zəruri vəsaitlərlə təmin edən R.Koçaryan, indi isə S.Sarkisyan hökuməti azərbaycanlılara qarşı kütləvi terror aksiyalarını Ermənistanda dövlət səviyyəsində davam etdirir. Cəbrayıl, Zəngilan, Füzulinin işğalını erməni terrorçuları R.Koçaryan,

S.Sarkisyan, S.Ohanyan, S.Babayan, A.Qukosyan təşkil etmişlər(4, s.128-129). Lakin minlərlə insanın qətlində iştirak edən R.Koçaryanın (1999-2007-ci illər), indi isə S.Sarkisyanın Ermənistanın prezidenti olması Beynəlxalq Məhkəməni narahat etmir. S.Ohanyan isə hazırda Ermənistanın müdafiə naziridir. 2008-ci ilin fevralında Ermənistanın prezidenti seçilmiş Serj Sarkisyan öz karyerasına "DQR özünümüdafiə qüvvələri komitəsinin" sədri kimi başlamışdı. 1993-cü ildə Ermənistanın müdafiə naziri, sonra isə baş naziri olmuşdu. 1994-cü ildən 1997-ci ilə qədər "DQR-ın birinci prezidenti" olan Robert Koçaryan sonralar Ermənistanın baş naziri, 1998-ci ildən 2008-ci ilə qədər prezidenti olmuşdu. Buradan belə nəticəyə gəlmək olar ki, Ermənistanın indiki de-yure əsas orqanları "DQR-ın" bayrağı altında de-fakto orqanları olmuşdur(13, s.138). Bu terrorçular Ermənistan tərəfindən mükafatlanaraq vəzifəyə keçirilmişlər(13, s.139). Ermənistan dövlət aparatı öz ətrafında terrorçuları birləşdirir. 1996-cı ildə "Dro" adlı terrorçu təşkilatda fəaliyyətinə görə həbs edilən Vaqan Oqanesyan R.Koçaryanın təşəbbüsü ilə həbsdən azad edilərək Ermənistan prezidentinin müşaviri oldu. Bakı metrosunun "20 Yanvar", "28 May-Gənclik", "Ulduz-N.Nərimanov", stansiyalarında törədilən partlayışlarda fəal iştirak edən Ermənistan terrorçu təşkilatı "ASALA" terrorçularından Davidyan, Melkonyan R.Koçaryan tərəfindən Qarabağda səhra komandirləri vəzifəsinə təyin edildi, Xocavəndin işğalı zamanı erməni terrorçusu Melkonyana ölümündən sonra milli qəhrəman adı verilməklə yanaşı, Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə onun adı verildi. 1990-cı il iyulun 11-də Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobus və xalq təsərrüfatı malları daşıyan maşın karvanına qarşı terror aksiyası keçirmiş, dinc sakinləri qətlə yetirmiş Ayriyon Arkadi Abramoviç və Babayan Samvel həbs edilsə də, 1992-ci ilin iyulunda Samvel Babayan azərbaycanlı girov və əsirlərlə dəyişdirilmiş, 1993-1999-cu illərdə qondarma "DQR"-nın müdafiə naziri olmuşdu.

Ermənistan hökumət səviyyəsində terrorçuluğu həyata keçirən bir dövlətdir və deyilənlərdən də aydın oldu ki, erməni terrorizmi hər dəfə türklərin, azərbaycanlıların, yəhudilərin, özbəklərin kütləvi surətdə qırılması, soyqırımlarla nəticələnmişdir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, V c., Bakı: Göytürk, 1999, 492 s.
2. Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2003, 676 s.
3. Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. Bakı: Vətən, 2005, 108 s.
4. Erməni cinayətləri (sənədlər əsasında). Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi. I c., Bakı: Vətən, 2004, 164 s.
5. Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahıl qüvvələri tərəfindən Azərbayanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2005-ci illər). Bakı, iyul 2005, 153 s.
6. Erməni terroru-Armenian terror – Армянский террор. Bakı: Vətən, 2005, 168s.
7. Ermənistan Respublikası (məlumat-sorğu kitabçası). Qafqaz Etno-siyasi Araşdırmalar Mərkəzi, "Bölgə" silsiləsindən I buraxılış, Bakı, 2006, 77s.
8. Əliyev H.H. Dağlıq Qarabağ həqiqətləri. Bakı: Renessans, 2005, 140s.
9. Qaffarov T.B. Azərbaycan Respublikası 1991-2001. Bakı: Tural-Ə, 2001, 330 s.
10. Аль-Обейд А.С. Угрозы терроризма и борьба с ним // Азия и Африка, 2004, № 4, с.36-43
11. Енокян А. Армения: противоречивые подходы к урегулированию Карабахского конфликта // Центральная Азия и Кавказ, 2002, № 1, с.115-121
12. Преступления Армянских террористических и бандитских формирований против человечества (Х1Х-ХХ1 вв.). Краткая хронологическая энциклопедия. Институт по правам человека Национальной Академии Наук Азербайджана, Баку: Элм, 2002, 396 с.
13. Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, 368 с.
14. Выступление министра иностранных дел Азербайджана на заседании Совета Североатлантического сотрудничества в Брюселе 3 декабря 1993 года, Документ S/26852, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
15. Erməni terrorizmi. http://az.wikipedia.org/wiki/Erm%C9%99ni_terrorizmi"
16. Erich Feigl. Armenian Mythomania. Armenian Extremism: Its Causes and Historical Context, 2007, www.google.az

**ARMENIAN TERRORISM IS A GLOBAL THREAT THAT LED TO THE TURKISH AND AZERBAIJANI GENOCIDE**

**SUMMARY**

In Armenia Azerbaijanis and Turks have historically been subjected to Armenian terrorism as a result of the level of state support for terrorism and impunity in Armenia, hundreds of thousands Azerbaijanis driven from their homes by terror. The armenian terrorist organizations have repeatedly committed the genocide of Azerbaijanis in Azerbaijan and outside Azerbaijan, Mountain Jews in Guba region of Azerbaijan, Turks, Azerbaijanis, Kurds and other peoples in Turkey, Eastern Anatolia, Urmia, Salmas, Khoy, Karabakh, Tabriz, Uzbekistan, North Caucasus, the Volga region and in other regions. Tens of thousands of civilians, including innocent children, women and elderly people, were killed only because of their ethnicity. Armenia is the level of government responsible for terrorism, and each time the terror committed by Armenians led to genocide, mass killings of Turks, Azerbaijanis, Jews, Uzbeks, Kurds and other peoples.

**АРМЯНСКИЙ ТЕРРОРИЗМ ПРЕДСТАВЛЯЕТ СОБОЙ ГЛОБАЛЬНУЮ УГРОЗУ, КОТОРАЯ ПРИВЕЛА К ТУРЕЦКОГО И АЗЕРБАЙДЖАНСКОГО ГЕНОЦИДА**

**РЕЗЮМЕ**

В Армении азербайджанцы и турки исторически были подвергнуты армянского терроризма в результате уровень государственной поддержки терроризма и безнаказанности, сотен тысяч азербайджанцы изгнаны из своих домов с помощью террора. Армянские террористические организации неоднократно совершали геноцид азербайджанцы в территории Азербайджана и за пределами Азербайджана, горских евреев в Губинском районе Азербайджана, турки, азербайджанцы, курды и другие народы в Турции, Восточной Анатолии, Урмии, Салмасе, Хой, Карабахе, Тебризе, Узбекистане, Северном Кавказе, Поволжье и в других регионах. Десятки тысяч мирных жителей, в том числе невинных детей, женщин и стариков, были убиты только из-за их этнической принадлежности. Армения является уровень правительства ответственный за терроризм и каждый раз терроры, совершенных армянами привели к геноциду, массовые убийства турки, азербайджанцы, евреи, узбеки, курды и других народов.

*k.e.i.* **Sevinc MƏMMƏDOVA**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*

# 1917-ci İL URMİYA SOYQIRIMI AZƏRBAYCAN MƏTBUATINDA
## ("Beyrəqi-Ədalət" jurnalının məqalələri əsasında)

**Açar sözlər:** Azərbaycan, Urmiya, inqilab, jurnal, qarət, faciə
**Keywords:** Azerbaijan, Urmia, revolution, journal, robbery, tragedy
**Ключевые слова:** Азербайджан, Урмия, революция, журнал, грабеж, трагедия

XX əsrin əvvəllərində imperialist dövlətlərin nüfuz dairəsinə bölünmüş İranda ictimai-siyasi vəziyyət çox mürəkkəb idi. I Dünya müharibəsi zamanı İran bitərəfliyini elan etsə də, ərazisinin şimalı rus qoşunları, qərbi alman-türk, cənub hissəsi isə ingilis qoşunları tərəfindən zəbt edilmişdi. Müharibənin gedişində İranın ərazisi bu imperialist dövlətlərin maraqlarına uyğun toqquşma meydanına çevrilmişdi. Toqquşmaların çoxu xristian dövlətlərin bir-biri ilə münaqişəsindən yaranmışdı. Məsələn, Osmanlıların Xuzistanda Britaniya qüvvələri ilə apardığı müharibələri, Kürdüstan və Azərbaycanda Rusiya qüvvələrinin toqquşmaları, ölkənin cənubunda İngiltərənin hərbi əməliyyatları, qərbində Rusiya ordusunun İranın şimalına, mərkəzinə və qərbinə olan yürüşləri sadə iranlıları əsl qurbanlara çevirirdi. Bu illər ərzində İranda çox az yer tapılardı ki, baş verən müsibətlərdən kənarda qalsın.

Müharibənin sonuna yaxın 1917-ci ildə Rusiyada Fevral burjua inqilabı baş verdi, inqilab nəticəsində çar hakimiyyəti devrildi və Rusiyada 300 ildən artıq ağalıq etmiş Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Çar hakimiyyətinin devrilməsi ilə Rusiyada Müvəqqəti hökumət quruldu. "Demokratiya, qardaşlıq və dostluq" kimi şüarları irəli sürən yeni Müvəqqəti hökumətə qarşı İran xalqında böyük inam yarandı. Lakin bütün bu şüarların hamısı yazı üzərində qalırdı. 1917-ci il Fevral burjua inqilabından sonra nəzarətsiz qalan rus əsgərləri İranın şimalında Urmiya, Xoy, Salmasda özbaşınalıq edib, əhaliyə divan tuturdular. Zaman keçdikcə ermənilər də ruslarla birləşib öz mənfur əməllərini həyata keçirirdilər. Müharibənin ilk illərində Osmanlı dövlətində və Rusiyada yaşayan ermənilər ruslarla birləşib osmanlılara qarşı vuruşurdular. I Dünya müharibəsinin sonuna yaxın Osmanlı dövlətinin cəbhədəki uğursuz əməliyyatları ermənilərin daha da fəallaşmasına səbəb oldu. Ermənilər dinc müsəlmanlara qarşı Şərqi Anadoluda, Şimali və Cənubi Azərbaycanda kütləvi qırğınlar həyata keçirməyə başladılar.

1917-ci ilin yazında rus əsgərlərinin Urmiyada törətdiyi qırğınlar sonradan cənubi Azərbaycanda ermənilər və aysorlar tərəfindən dinc müsəlman əhalisinə qarşı törədiləcək soyqırımlara yol açdı. Cənubi Azərbaycan vilayətləri içərisində ruslar ən çox Urmiyaya üstünlük verirdilər. Çünki Urmiya vilayəti o dövrdə coğrafi mövqeyinə və strateji əhəmiyyətinə görə qonşu vilayətlərdən üstün idi. Bölgənin belə əhəmiyyətli olması xüsusilə rus-türk müharibəsindən məlum idi. Qafqaz cəbhəsində Rusiya qüvvələri osmanlıların hücumlarının qarşısını alıb yenidən Azərbaycanı ələ keçirməklə əvvəlki mövqelərini geri qaytardılar. Qafqaz regionuna yol tapmaq və Qafqazı əhatə edən ərazilərə sahib olmaq üçün Urmiyaya nəzarət vacib idi. Qeyd olunan bu mühüm xüsusiyyətlər Urmiyanı İranın başqa vilayətlərindən fərqləndirirdi.

Ruslar Urmiyada bütün hakimiyyəti rus hərbi komandanları və konsulu Vasili Nikitinin rəhbərliyi altında əllərində saxlayırdılar. 1917-ci ilin yazında Müvəqqəti hökumətin tam nəzarətindən çıxan rus əsgərləri Cənubi Azərbaycanda gözlənilmədən dinc əhaliyə qarşı qırğınlar törətdilər. İlk faciə Urmiya vilayətində başladığından Urmiyada və onun ətrafında baş verən hadisələr vəziyyəti daha da ağırlaşdırırdı. Urmiya faciəsi Xoy və Salmas hadisələrindən də dəhşətli və ağır olmuşdu.

Əsrin əvvəllərində İranda aclıq və ərzaq qıtlığı hökm sürürdü. Bu zaman özlərinə və atlarına yem tapa bilməyən rus əsgərləri sadə xalqı qarət edirdilər. Urmiyada rus əsgərlərinin dinc əhaliyə qarşı ilk təcavüzü 1917-ci ilin yazından başladı. Bir dəstə əsgər kəndlilərdən ərzaq almaq bəhanəsi ilə şəhərə daxil oldu. Əsgərlər əvvəlcə İran kazaklarından bir neçəsini, daha sonra 2-3 nəfər şəhər əhalisini qətlə yetirdilər. Get-gedə şəhərdə iğtişaş artır və əsgərlərin sayı çoxalırdı. Rusların zülmün-

dən qorxub camaatın gizləndiyindən istifadə edən əsgərlər dükanları zəbt etmiş, bazarlara od vurmuş, əhalinin buğda, arpa anbarlarını yandırmış, təqribən gecə saat 4-ə qədər şəhəri talan etmişdilər. Urmiyada baş verən dəhşətlər ətraf kəndlərə yayılırdı. Bu dəhşətli xəbərləri eşidən ətraf kəndlərin camaatı haraya pənah aparacaqlarını belə bilmirdilər. 3 gün gecə-gündüz baş verən qarət o zamankı hesablamalara görə 20 milyon tümən (400 milyon manat) miqdarında hesablanmışdır. Dəhşətli xəbər vəliəhdə çatan kimi Həşmətölsəltənə və Məcallulmülk vəliəhd tərəfindən general konsul Vasili Nikitinin yanına göndərildi. General konsul baş verən hadisəni pisləmiş və əsgərlərin cəzalanacağını bildirmişdir. (9, s.62) Urmiyada baş verən hadisələrə ilk münasibəti Azərbaycan Demokratik Partiyası bildirdi. Baş verən özbaşınalıqlara mərkəz Tehran biganə qalsa da, Azərbaycan Demokrat Firqəsi hadisələri nəzarətdə saxlayırdı. Firqənin Urmiya bölməsi nizam-intizam yaratmaq, asayişi, birliyi qorumaq və rusların pis əməllərinin qarşısını almaq üçün tədbirlər həyata keçirirdi. (2, s.85)

Urmiyada dinc əhalinin kütləvi surətdə qırılması xəbəri Şimali Azərbaycana çatdıqda İran hökumətindən fərqli olaraq Azərbaycan ziyalıları baş verən hadisələrə biganə qalmayıb əllərindən gələn köməkliyi Urmiya camaatına göstərmişlər. Faciə baş verdikdən bir müddət sonra vəziyyəti dəqiq öyrənmək üçün Bakı Müsəlman Xeyriyyə cəmiyyəti Urmiyaya komissiya ezam etdi. Əsası 1905-ci ildə qoyulmuş Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti 1916-1917-ci illərdə fəaliyyət istiqamətini dəyişərək Güney Qafqazdan Şərqi Anadoluya, daha sonra Urmiyaya yönəltdi. Kimsəsiz uşaqların Bakıya, Şəkiyə, Gəncəyə və Şuşaya gətirilməsi işini təşkil etdi. (9, s.72).

Azərbaycanda xeyriyyə cəmiyyətləri ilə yanaşı mətbuat da Urmiya faciəsinə biganə qalmırdı. ADP-nin mətbu orqanı olan "Təcəddüd" qəzetində Urmiya hadisələri haqqında məlumatlar tez-tez yazılırdı. Faciə ilə bağlı yazılan məlumatları Azərbaycan mətbuatında "Beyrəqi-Ədalət" jurnalı işıqlandırırdı. "Beyrəqi-Ədalət" jurnalı həftəlik ictimai-siyasi, iqtisadi və ədəbi jurnal olmaqla Bakıda azərbaycan və fars dillərində çap olunurdu. Jurnal Bakıda neft sənayesində çalışan iranlı mühacir fəhlələrin birliyindən yaranan İran "Ədalət" partiyasının mətbu orqanı idi. Jurnalın yay aylarında nəşr olunan saylarına nəzər saldıqda Urmiya faciəsinin nə qədər ağrılı olduğunun şahidi oluruq. Faciə mətbuatda işıqlandırılmaqla yanaşı "Ədalət" partiyasının iclaslarında da müzakirə olunan məsələlər içərisinə salınmışdı. 1917-ci il iyun ayının 12-də Urmiya faciəsi ilə bağlı partiyanın iclası keçirilmiş və rus əsgərlərinin törətdiyi qırğınlara etiraz olaraq Çorni qorodda firqənin 1 günlük tətil etməsi qərara alınmışdı. (1)

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məhəmməd Hadi də Urmiya hadisələrinə laqeyd qalmır və 1917-ci ilin iyul ayında "Beyrəqi-Ədalət" jurnalında faciə ilə bağlı qələmə aldığı məqaləni çap etdirir. Məqalədə əsas diqqəti çəkən məqam M.Hadinin məqalənin adını "Ayı dostluğu" adlandırmasıdır. İran və Rusiya dövlətləri arasında olan "dostluğun" görünməyən tərəfləri bu məqalədə geniş şərhlə verilmişdir. Məqalənin "Ayı dostluğu" başlığı ilə nəşr edilməsi təsadüfi deyildi. Rusları özlərinə dost-qardaş bilən sadə Urmiyalılar 1911-ci ildə inqilab yatırıldıqdan sonra da İranı tərk etməyən rus qoşunlarına həmişə diqqət-qayğı göstərmişlər. Onlar heç zaman belə fəlakətlə üzləşəcəklərini təsəvvür belə etmirdilər.

"Beyrəqi-Ədalət" jurnalında çap olunan məqalələr Təbriz qəzetlərinə istinad edirdi. Bu da təsadüfi deyildi. Mərkəz Tehran Cənubi Azərbaycanda baş verən hadisələrə laqeyd qalsa da, Təbriz mətbuatı faciəni daim nəzarətdə saxlayırdı. Məhəmməd Hadi Təbrizin "Kilide Necat" qəzetinə istinad edərək yazırdı: "Guya sadə dil və avam rus əsgərlərinin" bir qismi və bir neçə nəfər xuliqanlar qonaq olduqları gözəl və abad Urmiya şəhərinə vəhşiyanə hücum ediblər. Xalqın qorxudan evlərində gizlənmələrindən istifadə edib bazarları, mağazaları qarət edib, səhərdən ta gecəyədək təqribən 20 saat şəhəri talamışlar. Sonra od vurub yandırmış və bu yolla şəhərdə bədbəxtlik törətmişlər. İranın behişti olmağa layiq şəhəri dağıntıya düçar edərək oranı Qars və Ərdahan, Anadolu faciəsindən əziyyət çəkənlərin halına düçar etmişlər. Xəbəri eşidən ətraf kəndlərdə yaşayan xristianlar da öz "qardaşlarına" qoşulmuşlar. Bu saat Urmiya və ətrafda qətliam şiddət və hiddətlə hökmfərmandır. Amerika konsulunun təsdiqinə görə 3 gün gecə-gündüz talanlar nəticəsində ziyan 400 milyon manatı ötmüşdür.

Xəbər verildiyi kimi rus qoşunları geri çəkilib Kirmanşaha daxil olduqları zaman zülm və təzyiqlərini aşaraq əhaliyə təcavüz etmişlər. Biçarə əhali bu vaxta kimi bu qədər zülm görməmişdir. Bu barədə səfarət vasitəsilə dövlət işçilərinin tədbir görmələri lazımdır." (6)

Urmiyanın ardınca dinc əhaliyə qarşı böyük qırğınlar Həmədanda başladı. Rus əsgərlərinin Həmədanda törətdiyi faciə ətraf ərazilərə yayılırdı. Bu dəhşətli xəbəri eşidən Qəzvin camaatı böyük təşviş içində qalaraq Urmiya hadisəsinin təkrarlanmaması üçün rus siyasi xadimləri ilə danışıqlar aparmağa başladılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Həmədandan Qəzvinə gələn rus qoşunu Qəzvinin şimal-şərqindəki kəndləri dağıdıb viran qoydular. 1917-ci il Ramazan ayının 28-də 200 nəfərə yaxın rus əsgərləri qarətlərə başladı. 178 dükan qarət edildi və ələ keçirilən qənimətlər bir gecənin içində şəhərdən arabalar vasitəsilə çıxarıldı. Həmin gecə bir dənə də olsun erməni hücrələrinə əl dəyilməmişdir. Sabahı ayın 29-da bütün idarələrin rəisləri konsul ilə bərabər gəlib vəziyyəti yoxladılar. Günorta vaxtı konsul, qoşun rəisi, məhəlli komitə üzvləri və yerli idarələrin rəislərindən ibarət bir komitə və şəhərdə asayişi qorumaq üçün müvəqqəti dəstə yarandı.

Bütün camaat şah məscidinə yığılmış, xüsusən də şura edib idarə rəisləri vasitəsilə təhlükəsizliyin bərpa edilməsini dövlətdən rica etməyə qərar verdilər.(5) Urmiya hadisələrinin İrana və ətraf bölgələrə necə təsir etməsi Əhməd Əmirovun məqaləsində daha geniş şərhlə verilmişdir. Müəllif məqalədə təkcə Urmiya faciəsini deyil, həmçinin İranda baş verən qardaş qırğınlarını, dəhşətli yanğınları, İran daxilində baş verən faciələri qələmə almışdır. Müəllif oxucularına müraciətlə yazır: "Əziz oxucularım nəzərinizi İrandakı qanlı hadisələrə, qırğınlara və hələ də yanğını sönməyən şəhərlərə cəlb edirəm! Oraları görmək üçün Qafqaz dağlarının yuxarısına çıxıb, oradan lazımınca o müdhiş mənzərələri seyr edək. İlk əvvəl nəzərə çarpan bir aydan çox davam edən Urmiya yanğınıdır.

Görürsünüzmü nə qədər güclü yanğın? Qərb tərəfi tamam tüstü bürümüş, sanki gün qürub etmiş heç nə görünmür. Yalnız yanğının işığından bəzi şeylər görünür. Şərqi şimalda yanğına baxın! Ora Gilan səmtinin mərkəzi mötəbər Rəşt şəhəridir. Rəşt şəhəri ilə yanaşı Həmədan şəhəri də xarabazara dönmüşdür." (3)

Dövrün İran mətbuatı ilə tanış olduqda görürük ki, rus əsgərləri təkcə İranın şimalında deyil, mərkəz Tehranda və ətraf şəhərlərdə də qarətlər törədirdilər. Tehranın "Fars" qəzetində nəşr olunmuş "İranımız nə haldadır?" məqaləsi də o dövrdə İrandakı vəziyyətin nə qədər ağrılı, acılı olduğunu bizlərə çatdırırdı. "Fars" qəzetinə istinadən "Beyrəqi-Ədalət" jurnalında yazılırdı:"Rusiya Müvəqqəti hökuməti tərəfindən Tehrandakı rus əsgərlərinə komandan Beturski təyin olunmuşdur. Rus əsgərləri təkcə Urmiyada deyil, Kirmanşahda, Rəştdə və Tehranda da qarət, talan törədirlər. Bir qrup əsgər bazara daxil olmuş və mal almaq bəhanəsilə bazarda sakitliyi pozmuşlar. Dükanları dağıdıb, qarət edib xeyli qənimətlə geri çəkilmişlər. Camaatın narahatlığını görən polis məmurları baş verənlərə biganə qalmayıb bazarda sakitlik yaratmışlar." (4)

1917-ci ilin payızında Rusiyanın daxilində yenidən qarışıqlıq yarandı. 1917-ci ilin oktyabrında Rusiyada yenidən inqilab baş verdi və hakimiyyətə bolşeviklər gəldi. Oktyabr çevrilişi İran üçün sanki "siyasi möcüzə" oldu. Hakimiyyətə gələn bolşeviklərin xarici siyasətinin mühüm prinsipləri ilk dəfə 1917-ci il noyabrın 8-də II Ümumrusiya Sovetlər qurultayının qəbul etdiyi sülh haqqındakı dekretdə ifadə olunmuşdu. Yeni rejim "...müharibə edən bütün xalqlara və onların hökumətlərinə ədalətli, demokratik sülh bağlamaq üçün dərhal danışığa başlamağı..." təklif etdi. 1917-ci ilin dekabr ayının 23-də Sovet Rusiyası hərbi hissələrinin İrandan çıxarılması haqqında qərar qəbul edildi və qoşunların çıxarılma prosesi 1918-ci ilin yanvar ayından başlamış mart ayına qədər davam etdi. Rus qoşunları İranı tərk etdikdən sonra İranda rus hakimiyyətinin ağalığına son qoyuldu (7, s.124). Bu dəyişikliklər rus qoşunlarının geri çəkilməsi ilə xaricilərin müdaxilə dövrünün başa çatacağına ümid bəsləyən sadə İran xalqını ruhlandırdı. Lakin hadisələr tamam başqa inkişaf edirdi. Müvəqqəti hökumət çar Rusiyası zamanı bağlanmış müqavilələri ləğv edərək rus əsgərlərinin İranın şimalından geri çəkilməsinə qərar verdi.

1917-ci ildə rusların Urmiyada törətdiyi qırğınlar sonradan erməni, aysor qüvvələrinin bu ərazilərdə yeni faciələr törətməsinə yol açdı. Bir zülmdən qurtarmamış ikinci faciəyə düçar olan urmiyalılar nə qədər qurbanlar verdilər. Rusların özbaşınalığı zamanı minlərlə sadə, əliyalın, günahsız urmiyalı qətlə yetirildi.

Urmiya faciəsindən 1 əsr keçsə də, hər dəfə yeni sənədlər, arxiv materialları aşkarlanır və faciənin necə ağrılı olduğunun bir daha şahidi oluruq.

## MƏNBƏLƏR VƏ ƏDƏBIYYAT


1. Çorni qorodda fəalların mitinqi. // "Beyrəqi-Ədalət" jurnalı 31 iyul 1917 № 4.
2. Dilməqani T.M. Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində-soyqırım. Bakı: 2010.
3. Əhməd Əmirov. İran yanır.// "Beyrəqi-Ədalət" jurnalı 31 iyul 1917 №4.
4. İranımız nə haldadır? //"Beyrəqi-Ədalət" jurnalı 31 iyul 1917 № 4.
5. Qəzvində qarət. //"Beyrəqi-Ədalət" jurnalı 31 iyul 1917 №4.
6. Məhəmməd Hadi. Ayı dostluğu.// "Beyrəqi-Ədalət" jurnalı 14 iyul 1917 №3.
7. دکتر ایرج ذوقی. ایران و قدرتهای بزرگ 1900-1925. (تاریخ روابط سیاسی). تهران 1368
8. رحمت الله خان معتمد الوزاره. ارومیه در محاربه عالم سوز. به کوشش کاوه بیات. تهران-1389
9. محمد مجد. قحطی بزرگ. (1917-1919-ش/1296-1298). موسسه مطالعات وپژوهشهای سیاسی. تهران-1382.


## THE URMIA GENOCIDE OF 1917 IN THE AZERBAIJANI PRESS (BASED ON THE ARTICLES OF THE JOURNAL "BEYREGI-ADALAT")

## SUMMARY


During World War I, Iran was conquered by Russia. The Russian army, left unattended after the February Revolution, plundered the peaceful population of Urmia. As a result of the genocide of Urmia, a thousand civilians were killed. It was an atrocious and bloody extermination of innocent people. The Adalat Party did not remain indifferent to this event. Even this genocide is very often illuminated in the journal "Beyregi-Adalat")


## ГЕНОЦИД 1917 ГОДА В УРМИИ В АЗЕРБАЙДЖАНСКОЕ ПРЕССЕ (НА ОСНОВЕ СТАТЕЙ ЖУРНАЛА "БЕЙРЕГИ-АДАЛЯТ")

## РЕЗЮМЕ


Во время I Мировой войны северные районы Ирана были оккупированы Россией. После начала развала русской армии в результате Февральской революции солдаты начали совершать грабежи и разбои против мирного населения Урмии. В результате геноцида в Урмии погибло тысячи мирных жителей. Это было жестокое и кровавое истребление невинных людей. Партия "Адалят" не осталась безразличной к этим событием. Эти события подробно освещались на страницах журнала "Бейреги-Адалят"

**Şahin ƏHMƏDOV**
*Azərbaycan Respublikasi Xarici İşlər Nazirliyi*

# URMİYA BÖLGƏSİ VƏ ƏTRAFINDA AZƏRBAYCANLILARA QARŞI TÖRƏDİLƏN SOYQIRIMLAR ZAMANI AZƏRBAYCAN ERMƏNİLƏRİ YEPARXİYASININ FƏALİYYƏTİ VƏ HAZIRDA İRANDA HƏMİN DÖVR HADİSƏLƏRİNİN İNFORMASİYA MODELİ

**Açar sözlər:** soyqırım, Urmiya, ermənilər, missionerlər, yeparxiya, daşnak, informasiya modeli
**Keywords:** genocide, Urmiya, Armenian, missioner, yeparkhy, dashnak, information method
**Ключевые слова:** геноцид, Урмия, армян, миссионер, Епархия, дашнак, способ информации

İndiki inzibati ərazi bölgüləri ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətlərində 1914-1918-ci illərdə baş verən siyasi proseslər erməni və assurilərin Urmiya, Salmas, Dilməqan, Köhnəşəhr və Xoy şəhərləri, eləcə də ətraf digər bölgələrdə 150 mindən çox (bəzi mənbələrdə daha çox olduğu göstərilir) Azərbaycan türkünü soyqırıma uğratması ilə nəticələnmiş, bu qırğınlarda Osmanlı, Qafqaz və İran erməniləri əlbir olmuşlar. Mərkəzi hökumətin qarşısını ala bilmədiyi qırğınlar 1918-ci ildə Osmanlı qoşunun İrana girməsi ilə dayanmış, erməni və assurilər öz planlarını sonadək gerçəkləşdirə bilməmişlər.

Qeyd etdiyimiz hadisələrin gedişində rol oynayan Azərbaycan erməniləri Yeparxiyası mərkəzi Təbriz şəhərində yerləşməklə hadisələrin baş verdiyi bütün ərazilərdə fəaliyyət göstərirdi. Erməni mənbələrinə görə 1914-cü ildə Osmanlı ordusunun İrana girməsi ilə Qərbi Azərbaycandan böyük sayda erməni və assuri Naxçıvana və Dərələyəzin kəndlərinə qaçmış, həmin dövrdə Yeparxiya İran dövləti, Qafqaz erməniləri və Rusiyadan yardımlar alaraq bu ermənilərə kömək göstərmiş, Osmanlı ordusunun İrandan çıxması ilə onlar yenidən Qərbi Azərbaycana qayıtmasını təşkil etmiş, Osmanlı ərazisindən Salmasa gələn on minlərlə erməniyə yardım göstərərək yerləşməsini təmin etmişdir (5, səh. 98-99). 1915-ci ildə Təbrizdə Yeparxiyanın nəzdində fəaliyyət göstərən Müqəddəs Serkis kilsəsində daş kitabə qoyulmuş, bu kitabənin 1896, 1909 və 1912-ci illərdə Osmanlıda "ermənilərin azadlığı yolunda şəhid olmuş" şəxslərə aid olduğu qeyd olunmuşdur (5, səh. 130). Göründüyü kimi, artıq Yeparxiya türk-erməni düşmənçiliyinin təbliğində rol almağa başlamışdır. 1918-ci ildə bu hadisələri zamanı yaranmış fürsətdən istifadə edərək Mərəndin Sar və Mucəmar kəndləri erməniləri də bu kəndlərin müsəlman əhalisinə qarşı qırğınlar törətmiş, Qaradağın Hacəlili tayfası bu qırğının qarşısını alaraq erməniləri məğlub etmişdir. Bu hadisə həm Yeparxiya, həm də Rusiyanın konsulunun etiraz bildirməsi ilə müşayiət olunmuş, bu kəndlərin erməniləri aparılan danışıqlarla azərbaycanlılar tərəfindən bağışlanmış, Yeparxiya bu ermənilərin Təbrizə köçürülməsini təşkil etmiş, eyni zamanda ermənilərin həmin kəndlərdə əmlak iddialarını irəli sürmüş və dövlət bu iddiaların təmin olunacağını bildirmişdir (8, səh. 155-156). Bu məsələdə Yeparxiyanın azərbaycanlılara qarşı qırğınlar törədən erməniləri müdafiə etməsi onun oxşar hadisələrə rəvac verməsinin digər göstəricisidir. Nüfuzlu və ermənilərin bölgədəki rəsmi (dini) qurumu olan Yeparxiya rəhbərliyinin 1918-ci ildə Urmiyaya toplaşan erməni və assuri silahlıları ilə görüşləri olmuş (11, səh. 47-48), lakin Yeparxiyanın qırğınların qarşısını almaq üçün ciddi tələb etməsi yerinə, daim erməniləri müdafiə edən mövqe sərgiləməsi, daşnak ideologiyasına xidmət etməsi ermənilərə öz niyyətlərini gerçəkləşdirmək cəhdlərində kömək olmuşdur. Yeparxiya soyqırım törədildikdən sonra da dövlət qarşısında tələblər qaldıraraq Qərbi Azərbaycana geri qayıdan ermənilərin yerləşməsinə kömək etmiş, ermənilərə pulsuz buğda verilməsinə və s. nail olmuşdur (3, səh. 295-299; 5, səh. 101).

Azərbaycan türklərinə qarşı soyqırımlar dövründə Yeparxiyaya Nerses Məlik Tanqyan (Zəngəzur doğumlu, Eçmiədzin, Şuşa və Bakıda təhsil almış) rəhbərlik etmiş, Rusiya dövləti, Qafqaz və Osmanlı erməniləri ilə əlaqəli fəaliyyət göstərmiş, xidmətlərinə görə Eçmiədzin kilsəsi tərəfindən baş yepiskop dərəcəsi verilmiş, onun 40 ilə yaxın (1912-1948) fəaliyyəti dövründə, (5, səh. 97-99) həmçinin ingilis kəşfiyyatı ilə əlaqələri olmuş və İranın da bir hissəsini əhatə edən "Böyük Ermənistan"ın yaradılması yolunda daşnakları himayə etmiş, 1940-cı illərdə daşnaklara aid böyük sayda silah-sursatın Təbrizdəki erməni məktəbi və kilsəsində gizlədilməsinə yardım etmişdir. Bu

cəhətdən onun İranda böyük bir şəxsiyyət kimi tanıdılması (4, səh. 86) özlüyündə ziddiyətli bir məqamdır. Yuxarıdakı misallardan da göründüyü kimi Yeparxiya bu dövrdə nəinki neytral mövqe nümayiş etdirmiş, hətta gizli şəkildə ermənilərin yerli əhaliyə və Osmanlıya qarşı fəaliyyətini dəstəkləmişdir.

Bir müsəlman dövlətində yerli əhaliyə qarşı soyqırım törətmiş xristian dini azlığa qarşı heç bir cəza tədbiri görülməməsi, əksinə Yeparxiyanın ermənilərin müdafiəsi üçün dövlət qurumları qarşısında tələblər irəli sürə bilməsi, bu tələblərin bir hissəsinin yerinə yetirilməsinə nail olması, bölgədən qaçan erməni və asssurilərin qısa müddətdə geri qayıtması, Rza şah Pəhləvi hakimiyyətinin ilk illərində onların bütövlükdə əfv edilməsi (2, səh. 540) İranı öz aralarında şimal-cənub nüfuz dairələrinə bölən Rusiya və İngiltərə erməniləri açıq şəkildə müdafiə etməsindən irəli gəlirdi. Buna digər nümunə olaraq bir Urmiya sakininin qırğınlar dayandıqdan sonra ailəsinin başına gələnlər barədə şikayəti diqqəti çəkir. Belə ki, o, ermənilərin törətdiyi qırğınlar zamanı atası Məcidossəltənə Əfşarın onlara qarşı mübarizə apardığını, sülh əldə olunduqdan sonra ermənilərin ingilis komandanlığına şikayət edərək atasını həbs etdirdiyi və əmlaklarının müsadirə olunduğu, özlərinin Urmiyaya gəlməsinə icazə verilmədiyini bildirir (3, səh. 428-435). Bu səbəblərdən Qərbi Azərbaycanda mərkəzi dövlətin öz nəzarətini bərpa etməsindən sonra qırğınların qarşısı alınsa da, bu heç də əhalinin problemlərinin tam həlli demək deyildi. Soyqırım vaxtı Tehran, Təbriz və digər şəhərlərə səpələnən Qərbi Azərbaycan türkləri geri qayıtdığı zaman qaçqınlıq dövründə ermənilərin mənimsədiyi əmlaklarını geri almaq üçün illərlə dövlət qurumlarına ayaq döymüş, hətta bir sıra hallarda yerli dövlət qurumlarının onların şikayətlərini təmin etməməsi ilə üzləşmişlər (3, səh. 440-442).

Müasir dövrdə İranda Azərbaycan türklərinin soyqırımı barədə araşdırmalarda müxtəlif ziddiyətli yanaşma metodları görünməkdədir. İran ermənilərinin həmin hadisələri müasir dövrdə təqdimetmə modelində bütün bu hadisələrin tamamilə təhrif edilərək və ustalıqla İran mühitinə uyğunlaşdırılaraq Osmanlı ordusunun yerli əhaliyə köməyə gəlməsini işğalçı siyasət adlandırır, 1918-ci ildə osmanlıların Xoy, Maku və digər bölgələrdə ermənilərə və assurilərə qarşı guya "soyqırım" törətməsi (5, səh. 100-112; 9, səh. 493) və bölgəyə pantürkizm ideologiyası gətirməsi fikirləri təbliğ olunur. 2013-cü ildə Türkiyənin Urmiyadakı baş konsulunun 1918-ci ildə Salmasda şəhid olan Osmanlı əsgərləri üçün abidə ucaltmaq təklifi İranın erməni diasporası tərəfindən böyük etirazla qarşılanmış (13) və abidənin ucaldılması təklifi qəbul olunmamışdır. İrandakı erməni diasporası, kilsə və yeparxiyalarının müəyyən metodlarla bu təbliğatı indi də davam etdirir (Təbrizdə Müqəddəs Şuğaqat kilsəsi ətrafındakı qəbristanlıqda 1918-ci ildə Xoy şəhərində ermənilərin Osmanlı tərəfindən "soyqırım"a uğradılması iddiasını əks etdirən abidə qoyulmuş (14)), İran ermənilərinin və eləcə də onların hamilərinin KİV-lərində daim bu mövzuda təbliğat aparılmaqdadır (13,15, 16).

Bəzi tarixi araşdırmalarda yalnız ABŞ, Rusiya, Fransa və İngiltərənin siyasətinin səbəb olduğu qırğınlardan danışılaraq ermənilərin adının çəkilməməsi və ya onların rolunun arxa plana salınması müşahidə olunur. Əlbəttə ki, bu soyqırımda xarici güclərin təsiri çox olmuşdur. Xristianlıq amili səbəbindən Təbriz və Urmiyada fəaliyyət göstərən konsulluqlar və missioner təşkilatlar erməniləri və assuriləri öz məqsədlərini həyata keçirməkdə önə çıxarmış, Qərbi Azərbaycanda Almaniya, Fransa, ABŞ, Rusiya və İngiltərə missionerləri fəal iş aparmış, xristianlığın müxtəlif təriqətləri (ABŞ protetant, Fransa və Almaniya katolik, Rusiya provaslavlıq və s) yayılmış, Urmiyada erməni və assurilər üçün məktəblər, xəstəxanalar, əczaxanalar açılmış, qəzetlər və nəşriyyat evləri təsis edilmiş, Mahabadda xəstəxana tikilmiş, Salmasda isə bir mərkəz yaradılmışdı (2, səh. 476-477; 3, 6, səh. 76-77; 9, səh. 49-59; 10, səh. 371-391). Həmin dövrdə İranda ən çox missioner məktəbi və bu məktəblərə cəlb olunan şagirdlər Azərbaycan bölgəsində olmuş, bu şagirdlərin əksəriyyəti assurilər və ermənilər olmuşdur. 1839-cu ildə Urmiya şəhərində 12 xristian məktəbi olmuş, 1895-ci ildə bu say 117 məktəbə çatdırılmışdı ki, bu məktəblərdə 3 mindən çox şagird təhsil alırdı. Həmin vaxt ABŞ, Rusiya, İngiltərə və digərləri İranın Azərbaycan bölgəsində ermənilərin rəhbərliyi ilə ticari-iqtisadi müəssisələr yaratmış və ya ermənilərin rəhbər olduğu ticari-iqtisadi müəssisələri dəstəkləmişdir. Birinci dünya müharibəsinin gedişində Osmanlıya qarşı İngiltərə, Fransa və Rusiya tərəfindən silahlandırılan erməni və assurilər tezliklə bu silahları Azərbaycan türklərinə qarşı yönəldərək himayəsində olduqları dövlətlərin maraqları uğrunda bölgədə xristian dövləti və ya muxtariyyəti qurmağa cəhd göstərdilər (6, səh. 76-77, 166-178; 7, səh. 1-12; 10, səh. 390; 11, səh. 14). Bütün bunlar Qərbi Azərbaycan Vi-

layətin Azərbaycan türkləri olan əhalisi üçün böyük faciə ilə nəticələndi. Lakin bütün bunlarla yanaşı, tarixi mənbələrə görə həmin illərdə Urmiya şəhərində yaşayan 2 min nəfər ermənin hamısının daşnak olduğu, 1918-ci ildə bu bölgədə azərbaycanlılara qarşı qırğının əsasən onlar tərəfindən törədildiyi, Qafqazdan O.Andranikin başçılığı ilə daşnak qüvvələrinin Xoya hücumu, onların Urmiya və Osmanlı daşnakları ilə birləşmə cəhdləri məlumdur. Yəni həmin illərdə Şərqi Anadolu, Naxçıvan, İrəvan, Quba, Bakı, Şamaxı, Zəngəzur və digərlərində yüzminlərlə azərbaycanlıya qarşı törədilən soyqırımlarda türk düşmənçiliyi üstündə qurulan daşnak ideologiyasının xüsusi təsiri vardır.

İranda aparılan bir sıra elmi araşdırmalarda təbliğ olunan "Böyük Ermənistan" iddiaları, hadisələrin bilərəkdən və ya bilməyərəkdən təhrifli formada verilməsi halları ermənilərin törətdikləri soyqırımlar barədə tarixi gerçəklikləri ört-basdır etməyə kömək edir. İran tarixşünaslığında Qərbi Azərbaycanda bir sıra bölgələrin tarixinin qondarma faktlarla ermənilərlə bağlanması ermənilərin özlərini bölgənin qədim xalqı kimi təbliğ etməyə fürsət verir, bu isə öz növbəsində hadisələrə ayrı bir mahiyyət qazandırır. Halbuki, həmin vaxt Qərbi Azərbaycan bölgəsində ermənilərin əksəriyyətini Qafqaz və Osmanlıdan gəlmə ermənilər təşkil edirdi (2, səh. 495; 11, səh. 14). Buna digər nümunə Mərəndin Sar və Mucəmar kəndlərində baş verənlərin yalnış araşdırılmasıdır. Ətraf bölgə əhalisinə qarşı qırğınlar törədən Sar və Mucəmar kəndi ermənilərini məğlub etmiş Qaradağın Hacəlilu tayfası barədə məlumatlarda bu hadisələr düzgün işıqlandırılmadan həmin tayfanın sadəcə bu kəndlərə qarşı qarətçilik hücumlarında günahlandırılması görünür (1, səh. 310). Digər bir mənbədə bu hadisə Hacəlilu tayfasının Sar və Mucəmar kəndləri ermənilərini qarət etdiyi, bunun qarətçilik məqsədi və ya ermənilərin Məşrutə hərəkatına kömək etməsi ehtimalından irəli gəldiyini (8, səh. 155-156) bildirilməklə oxşar mövqe sərgilənir.

Soyqırımın hədəfi olan Azərbaycan türklərinin daha çox müsəlmanlar kimi ifadə edilməsi, hadisələrə islam-xristian qarşıdurması baxımından yanaşılması S.Sərdarinyanın "Arazın hər iki tayında müsəlmanların qətliamı", M.Azadinin "Azərbaycan müsəlmanlarının cilolar tərəfindən qətliamı" əsərləri və digərlərində özünü göstərir. Lakin hadisələrin gedişində İ.Smitkonun rəhbərlik etdiyi qüvvələrin də erməni və assurilərlə bir cəbhədə mövqe tutması, sonra isə özünün törətdiyi qırğınlar acı həqiqətləri ortaya çıxarır. Yalnız assurilərin rəhbəri Marşimunun İ.Smitko tərəfindən öldürülməsindən sonra assuri-erməni birliyi Smitkoya qarşı hücuma başladı. Şərqi Anadolu və Cənubi Qafqazda ermənilər tərəfindən həmin yerlərdə yaşayan digər etniklər də daxil olmaqla bütövlükdə azərbaycanlıların soyqırıma uğradılması baş vermiş, Qərbi Azərbaycanda isə soyqırımın əsas hədəfi Azərbaycan türkləri olmuşdur.

Erməni və assurilərin törətdikləri soyqırımların arxasında mərkəzi hökumətin zəifləməsi, I dünya müharibəsinin gedişində beynəlxalq siyasi durumdan yararlanan xarici güclərin Qərbi Azərbaycanda xristian dövləti və ya muxtariyyəti yaratmaq cəhdləri, bölgədəki ermənilərin xarici güclərin missionerlik fəaliyyətləri ilə 60 ildən artıq müddətdə siyasi-iqtisadi dəstəklənməsi və bölgədə azərbaycanlılara qarşı düşmənlik toxumu səpən daşnak ideologiyasının güclənməsi kimi bir sıra amillər vardı. Həmin dövrdə Azərbaycan erməniləri Yeparxiyası bu dövrdə daşnak ideologiyasına xidmət edərək düşmənçiliyin təbliğində yer almışdır. Müasir dövrdə İranda münaqişənin informasiya modelində bəzi yanaşmalar tarixi gerçəkliklərin düzgün əks olunmamasına səbəb olur, eləcə də İran ermənilərinin bu hadisələr barədə təbliğatları tarixi həqiqətlərin ört-basdır edilməsinə xidmət edir.

## MƏNBƏ VƏ ƏDƏBIYYAT

1. B.Xamaçi, "Şərqi Azərbaycanın coğrafi lüğəti", 1370-ci il, Tehran, "Suruş" nəşriyyatı, 532 s.
2. Ə.Dehqan, "Zərdüşt ölkəsi, Rzaiyyənin təbii, siyasi, mədəni, ictimai və tarixi vəziyyəti", 1348-ci il. "İbn Sina" nəşriyyatı, 1017 s.
3. Ə.Tətəri, R.Nikbəxt, "Azərbaycanın qərbində baş verənlər: Milli Şura Məclisi sənədlərinin dili ilə. III-V dövrlər", Tehran, 1390-cı il, 735 s.
4. J.Lazaryan, "İran erməniləri ensiklopediyası", 1388-ci il, Tehran, "Hirmənd" nəçriyyatı, 528 s.
5. L.Melkomyan, "Erməni soyqırımı", 1394-cü il, Tehran, "Aniş" nəşri, 516 s.
6. M.Azadi, "Urmiya (tarix, mədəniyyət, turizm məlumatları)", 1389-cu il, Urmiya, "Hüsaməddin Çələbi" nəşriyyatı, 302 s.
7. M.Azadi, "Azərbaycan müsəlmanlarının cilovlar tərəfindən qətliamı", 1389-cu il, Urmiya, "Hüsaməddin Çələbi" nəşriyyatı, 254 s.

8. N.Sedği, "Müasir dövrdə Arasbaran (Qaradağ), ictimai-siyasi tarixi", 1388-ci il, Təbriz, "Əxtər" nəşriyyatı, s. 220
9. P.Əğlmənd, "Qərbi Azərbaycanın elmi və mədəni şəxsiyyətləri", 1385-ci il, Urmiya
10. R.Nikbəxt, "İran milli kimliyinin möhkəmlənməsində Azərbaycanın rolu", 1387-ci il, Tehran, 1360 s.
11. R.Tofiq, "Urmiyanın tarixçəsi (I dünya müharibəsi illərindən və ondan sonrakı qarışıqlıqlardan qeydlər)", 1393-cü il, Tehran, "Pərdise Daneş" nəşri, 183 s.
12. T.M.Dilməqani "Türkiyə ordusunun gizli hesabatı, 1927-ci il" (türk dilindən tərcümə)

**İnternet saytları**

13.http://www.vank.ir/fa/2012-08-07-06-23-26/117-ارومیه-در-ترکیه-کنسول-حدناشناسی-و-سابقه-بی-گستاخی.html
14. http://www.paymanonline.com/article.aspx?id=0B6EBFC5-1A8E-4819-80EA-A7CB5813ECDD
15. http://www.paymanonline.com/article.aspx?id=DE7F8F8E-59C0-4E3E-8EDC-88BD996183F5
16.http://www.azariha.org/مقالات-بایگانی/item/1286-ترکی-پان-های-دروغ-و-جیلولوق

## THE ACTIVITIES OF THE AZERBAIJANI ARMENIANS YEPARKHY (PRELACY) DURING THE GENOCIDE COMMITTED TO AZERBAIJANIS IN AND AROUND THE URMIYA REGION, AS WELL AS THE INFORMATION METHOD OF THE EVENTS OF THAT PERIOD AT THE MOMENT IN IRAN

**SUMMARY**

In 1918 Armenians and assyrians have committed genocide acts against Azerbaijanis living in Urmiya, Salmas, Dilmegan, Kohnesehr, Xoy and other regions by the protection of the foreign forces and Azerbaijanian Armenians' Yeparkhy (Prelacy) also had an active role in the progress of these events. Presently the method of information on genocide of Azerbaijanians by Iranian Armenians serves for distortion of historical realities.

## ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКИХ АРМЯН «ЙЕПАРХИ» ВО ВРЕМЯ СОВЕРШЕНИЯ ГЕНОЦИДА АЗЕРБАЙДЖАНЦАМ В УРМИЙСКОМ КРАЕ И ВОКРУГ НЕГО, А ТАКЖЕ ИНФОРМАЦИОННЫЙ МЕТОД СОБЫТИЙ ТОГО ПЕРИОДА В НАСТОЯЩИЙ МОМЕНТ В ИРАНЕ

**РЕЗЮМЕ**

В 1918 армяни и ассирийцы совершили акт геноцида против азербайджанцев, проживающих в Урмии, Салмас, Дилмеган, Кохнешехр, Хой и других регионах под защитой иностранных сил и Епархия армян из Азербайджана также имели активную роль в ходе этих событий. В настоящее время метод информации о геноциде азербайджанцев со стороны иранских армян служит для искажения исторических реалий.

**Xaqani İSMAYIL**
*Xəzər Universitetinin doktorantı,*
*"Təhsil problemləri" qəzetinin əməkdaşı*

# ERMƏNİLƏRİN XRİSTİANLARA QARŞI TÖRƏTDİYİ SOYQIRIM VƏ SİYASİ TERROR AKTLARI

**Açar sözlər:** Qars, rus, yunan, gürcü, alman, xristian, erməni, daşnaklar, terror, soyqırım, Böyük Ermənistan
**Keywords:** Kars, Russian, Greek, Georgian, German, Christian, Armenian, Dashnaks, terror, genocide, The Greater Armenia
**Ключевые слова:** Карс, русский, грек, грузин, немец, христианин, армянин, дашнаки, террор, геноцид, Великая Армения

**Qarsda rus və yunanlara qarşı soyqırım olayları (1919-1920).**

Cənubi-Qərbi Qafqazın etnik mənzərəsi 1920-ci ilin birinci yarısında Azərbaycan Xalq Cümhuriyyəti XİN nümayəndəsi A.Şepotyevin hazırladığı rəsmi məruzəyə görə belə idi: "Cənubi-Qərbi Qafqazın ərazisində yaşayan cəmi 730000 nəfərdən, Cavahetiya istisna olmaqla, 56,3%-i müsəlman, qeyri-müsəlmanlar sırasında isə: ermənilər (əsasən şəhərlərdə) 26%, gürcülər 3%, ruslar, qaraçılar və yunanlar birgə 15% təşkil edir. Ayrı-ayrı vilayətlərə gəldikdə isə, Batum Vilayətində: müsəlmanlar 70%, ermənilər 12,5%, gürcülər 7%, yunanlar və başqaları 3,5%, ruslar 7%; Qars Vilayətində: müsəlmanlar 49,5%, ermənilər 29%, gürcülər 0,3%, ruslar 19,3%; Axalsıx qəzasında: müsəlmanlar 75%, ermənilər 14,1%, gürcülər 10,5%-dir" [1, s. 59].

30 oktyabr 1918-ci il təslimçi Mudros Barış andlaşması gərəyincə Osmanlı ordusu İran, Qafqaz və Doğu Anadoludan çəkilmək məcburiyyətində qaldığından Qars bölgəsində də hakimiyyətsizlik yarandı və yerli əhali tərəfindən Qars Vilayətində bu hakimiyyət boşluğunu aradan qaldırmaq üçün 17/18 Ocak (yanvar) 1919-cu ildə demokratik əsaslarla "Cənub-Qərbi Qafqaz Hökuməti" quruldu. Dərhal işə başlayan nazirlər kabineti Qars valisi vəzifəsinə İğdırlı Mehmet bəy (Araslı) Ali bəy oğlunu təyin etdi [2: s.41].

Bu seçimi tanımaq istəməyən "... İngilislər 12000 nəfərlik şotlandiyalı və yeni zelandiyalı əsgərlə parlamentə hücum etdilər. İki nəfəri öldürdülər. Ərzurumda bulunan Xarici İşlər naziri Fəxrəddin Ərdoğanla Batumdan qaçan daxili işlər naziri Ali Rza Atamandan başqa hamını Malta Adasına sürgün etdilər. Mehmet bəy Ali bəy oğlu da bunların içərisindəydi..." [2: s.42].

MALTA SÜRGÜNLƏRİ. İngilislər Qars Parlamentini basaraq tutduqları hökumət üzvlərindən 12 nəfəri silah gücü ilə Qayabaşı dəmiryolu stansiyasına qədər piyada olaraq aparıb Gümrüyə yollamaq üçün qatara mindirdilər. Tutduqlarını Ordu caddəsindən (prospekt –X.İ.) dəmiryolu stansiyasına qədər piyada aparmaqda ingilislərin niyyəti o bölgə əhalisinin öncüllərini gözdən salmaqla xalqa gözdağı vermək idi. Sonralar İstanbula, oradan da 28 aprel 1919-cu ildə Prenses Ena adlı bir vapurla (bərə –X.İ.) Maltaya göndərdilər..." [2: s.57].

Sürgün olunanlar sırasına ermənilərin donosları əsasında Qars yönətimində (Parlamentində) təmsil olunan bəzi digər xalqların nümayəndələri də salınmışdı:

Ad Sürgün dönəmi Sürgün № Vəzifəsi
Matvey Radjinski 2 iyun 1919 2725 Rus Şura üzvü
Pavlo Camusev 2 iyun 1919 2714 Rum (Yunan) Şura üzvü
Stefani Vafiades 2 iyun 1919 2726 Yunan Şura üzvü, Sosial
Yardım naziri [2: s.57].

Qarsda İngilis işğalçılarının hərbi-siyasi dəstəyi ilə qurulan erməni hökuməti isə yerli xalqlara (müsəlman və xristian) qarşı sözün əsl mənasında soyqırım, talanlar və deportasiya həyata keçirməyə başladı. Bu məsələlərlə ilgili aşağıdakı arxiv sənədlərindən bəzi məqamlara diqqət edək: "Daşnaklar qeyri-erməni əhalinin ermənilərdən azı 3 dəfə artıq olduğu Qars Vilayətində müvəffəqiyyətlə Erməni Respublikası yaratmaq üçün qanlı yol seçdilər...

Moskva hadisələrindən (Oktyabr Bolşevik Çevrilişi –X.İ.) sonra ruslar və yunanlar etibarsız ünsürlərə aid edildilər. Talanlar və zorakılıq başlandı. Çox adam öldürüldü və həbs edildi, qadınlar zorlandı..." [3, s.59].

Sənəddə daşnakların qətliam və zorakılığının tüğyan etdiyi Qars vilayətinin rus kəndləri olaraq Blaqodarnoye, Novoselim, Vladiqars, Novopetrovkanın adı çəkilir.

"Blaqodarnoye kəndində bir neçə adam öldürülmüş, hakimiyyət tərəfindən təqib olunanların çoxu qaçıb dağılmışdır; Novoselimdə 15 qadın zorlanmış və kəndxuda öldürülmüşdür; Novopetrovka kəndində günün günortaçağı 4 kişi öldürülmüş, bir qadın və onun 10 yaşlı qızı zorlandıqdan sonra döşləri və cinsi orqanları kəsilmişdir…" [3, s.60].

Yuxarıdakı sitat və məlumatlar Qars vilayəti Rus Milli Şurasının üzvü, Nümayəndə-müvəkkilin RSFSR-in Gürcüstandakı Səlahiyyətli Nümayəndəsinə ünvanladığı 9 iyul 1920-ci il tarixli müraciətindən götürülmüşdür. O, həmçinin xahiş edir ki, Qars vilayəti əhalisinin həyatını qurtarmaq üçün mümkün tədbirlər görülsün və tezliklə rusların bu faciəli durumdan xilas olaraq Şimali Qafqaza getməsində Rusiya hökuməti onlara kömək göstərsin [3, s.58-61].

{Qeyd edək ki, bu unikal arxiv sənədi haqda ilk bilgini tarix elmləri namizədi Vaqif Ağayev vermişdir. O, sənədin məzmunu iki dildə dərc etdirərkən ruscasını "9 iyul 1920-ci il" tarixi ilə təqdim etsə də, azərbaycancasının sonunda və ümumilikdə sənədə şərh verərkən sənədin yazılma tarixini səhvən "9 iyun 1920-ci il" olaraq göstərmişdir [3, s.58, s. 61]. Biz isə bu sənədi arxivdən əldə edərək, müəyyənləşdirdik ki, göstərilmiş tarixlərdən "9 iyul 1920-ci il" doğrudur və sənəd əslindən götürülmüş fotosurətdən ibarətdir, əsli, çox böyük ehtimalla aidiyyatı üzrə Rusiya XİN-in fondlarında saxlanılır və əyanilik üçün sənədin fotosurətini ilk dəfə öz kitabımızda yayınladıq [4, s.365-368]. Bundan başqa, yuxarıdakı sənəddəki faciəli hadisələr, Vaqif Ağayevin təqdimatına görə 1919-cu ildə baş vermiş kimi təqdim olunsa da [3, s.61], aşağıda diqqətə çatdıracağımız digər 3 arxiv sənədinin məzmunu təsdiq edir ki, həmin müdhiş hadisələr 1919-cu ildə başlasa da ən azı 1920-ci ilin ortalarınadək davam etmişdir.}

Qars vilayətindəki rusların və başqa xalqların erməni hökuməti tərəfindən qətliam, talan və deportasiyaya məruz qalmaları Rusiya Dövlət Sosial-Siyasi Arxivində saxlanan bir sənəddə də öz əksini tapmışdır. Dövrümüzdə türk araşdırmaçısı M.Pərinçək tərəfindən üzə çıxarılan [5, s.6] bu sənəd S. M. Kirovun Rusiya Xarici İşlər naziri Çiçerinə 29 iyun 1920-ci il tarixində göndərdiyi 94 saylı teleqramdır. Həmin teleqramda erməni daşnaklarının hakimiyyətdə olduqları Qars vilayətində və Aleksandropolda (Gümrü –X.İ.) müsəlmanlara və ruslara qarşı qətliam və köçə zorlama (deportasiyaya məruz qoyma) fəaliyyətlərindən bəhs olunur: " Qars vilayətinin otuz min rus əhalisindən yalnız on beş mini qalıb, qalanları canını qurtarmaq üçün Türkiyəyə və ya Rusiyaya qaçıb, ya da (erməni hökuməti tərəfindən) öldürülüb..." [6, s.196-197]. Sənəddə, həmçinin Tuxurtsk bölgəsindəki 15 müsəlman kəndinin də ermənilər tərəfindən qılıncdan keçirildiyi ifadə olunur [6, s.197].

Qarsda Erməni hökumətinin fəaliyyəti dönəmində müsəlmanlara və xristianlara qarşı soyqırım və köçə zorlama fəaliyyətlərini sübut edəcək növbəti arxiv sənədlərini isə Türkiyə arxivlərindən əldə etdiyimiz bəlgələri tədqiq edərkən bulduq. Bu sənədlərdən biri Qars və civarındakı müsəlman və rus (malakan) kəndlərinə ermənilərin hücumu [7, s.374], digəri isə yenə də həmin vilayətdəki Novoselim rus kəndi və civarındakı müsəlman kəndləri əhalisinin ermənilər tərəfindən silahlı təcavüzə, talanlara uğradılması [8, s.377-378] haqqındadır. Bu sənədlərdən biri – 25.05.1920-ci il tarixli bəlgədə top və makinalı tüfənglərlə (pulemyot) silahlanmış erməni dəstəsinin Qarsın müsəlman və malakan (rus) kəndlərinə hücum çəkərək onları zülmə və talanlara məruz qoyduğu və müsəlmanlardan başqa, hətta malakan kəndlərinin də sərhəddəki Türk komandanlığına müraciət edərək yardım istədikləri bildirilir. İkincisi – 9.06.1920-ci il tarixli bəlgədə isə ermənilər tərəfindən Novoselim rus kəndi və onun ətrafında yerləşən Karaçayır, İğdır, Kırkpınar və Cavlah müsəlman kəndlərinin yağmalanaraq 10 nəfərin öldürüldüyü, Yedikilise və Asbuğa sakinlərinin də kütləvi qırğınlara məruz qaldığı ifadə olunur.

Başqa sözlə, yuxarıda nəzərə çatdırdığımız 4 arxiv sənədindəki faktlar bir-biri ilə səsləşərək, Qars Vilayətində 1919-1920-ci illərdə mövcud olmuş Erməni hakimiyyətinin rəsmi hərbi birləşmələri tərəfindən orada yaşayan müsəlmanlardan başqa, xristianların (rus və yunanların) da, bugünkü beynəlxalq hüquq meyarları ilə desək, soyqırıma, etnik "təmizləməyə" məruz qaldıqlarını təsdiq edir.

**Gürcülərin soyqırımı.**

Ermənilərin xristianlara qarşı törətdikləri soyqırım aktlarının növbəti səhifəsi gürcülərlə bağlıdır.

Erməni terrorçu təşkilatı Daşnaksütyunun yaraqlı dəstələri hələ ötən əsrin əvvəllərindən başlayaraq gürcülərə qarşı silahlı təcavüz, terror və etnik "təmizləmə" siyasəti aparmaqda idi: 21 noyabr 1905-ci il tarixində Tiflisin dinc sakinləri erməni saqqallıları tərəfindən görünməmiş qanlı və amansız qırğınlara məruz qalmışdı. Gürcü kəndlilərini və Tiflisdəki məhəllələri qırıb-"təmizləyərək" burada erməni gəlmələrini yerləşdirmək istəyirdilər. Uşaq, qadın, qoca və əlillərə də aman vermirdilər. Rəsmi mənbələrə görə qətl edilən Tiflis sakinləri sırasında xeyli sayda azərbaycanlılar da var idi [9, s.42].

1918-ci ilin noyabrında isə ermənilər dövrün müasir silahları ilə, xüsusən də toplarla silahlanaraq Axalkələk və Axalsıx bölgələrinə hücuma keçib, oradakı gürcüləri "təmizləyərək" (Axalkələk və Borçalıya da iddia etməklə) yeni etnik sərhədlərlə 1919-cu ilin yazında açılmalı olan Paris Sülh Konfrasına hazırlaşırdılar [9, s.101-102].

XX yüzilliyin əvvəllərində Gürcüstanda nəşr olunan "Ertoba" qəzetində daşnakların Axalkələkdə törətdikləri vəhşiliklərə toxunan, "Cavaxeli" ləqəbli imza ilə yayınlanmış "Qana bulaşmış əllər" məqaləsində Xospiy kəndinin əhalisinin, həm də Poladaşvili soyadlı gürcü ailəsinin tamam qırılmasından bəhs edilirdi. Bu cinayət aktı 10 may 1918-ci ildə Gürcüstan Milli Şurasının iclasında da dartışıldı. Həmin məsələ ilə bağlı Ermənistan Milli Şurasına ünvanlanan müraciət isə cavabsız qaldı [10, s. 14-15].

Gürcüstan daxilində erməniləri silahlandırma [10, s. 24] və Tiflisdə, üstəlik Gürcüstanın başqa bölgələrində (bundan başqa, Ukraynada, Donda və b. yerlərdə) ermənilərin səfərbərliyini keçirmə (həm də bu səfərbərliklər Tiflisdən idarə olunurdu) kimi addımları daşnakların daha böyük iddialara malik olduqlarından xəbər verirdi [10, s. 27]...

Daşnakların ərazi iştahının mücəssəmələrindən olan "Qafqaz poçtu" adlı ingilisdilli erməni qəzeti o dönəmlərdə yazırdı: "... qabaqlar Tiflis ermənilərə məxsus idi və yalnız millətçilik tədbirlərindən sonra şəhər Gürcü hökumətinin əlinə keçdi" [10, s. 27]... Bu kimi iddiaların sonucunda Gürcüstan hökumətinin çarəsi tükənərək, öz ərazilərində Ermənistan (yəqin ki, Erməni –X.İ.) Milli Şurasının fəaliyyətinə qadağa qoydu [10, s. 28].

1918 və 1920-ci illərdə gürcülərə qarşı həm pərdələnmiş təcavüz, həm də aşkar işğalçı müharibə siyasəti yürüdən erməni millətçiləri XX yüzilliyin sonuna doğru öz "xaç qardaşları"na qarşı yeni bir xəyanət səhifəsi də yazdılar.

Tanınmış gürcü alimləri Bondo Arveladze və Teymuraz Mibçuaninin Gürcüstan Baş Prokurorluğunda saxlanan cildlərlə istintaq materiallarına əsaslanan araşdırmaları çağdaş dövrdə ermənilərin gürcülərə qarşı müdhiş hərbi cinayətlər törətdiyini hadisələrin bütün mənzərəsi ilə ortaya qoyur. "Marşal Baqramyan adına erməni batalyonu"nun Abxaziyada gürcülərə qarşı qanlı fəaliyyətləri [11, s.10] haqda zəruri məlumat üçün həmin hadisələrlə bağlı zərərçəkənlərin və ya şahidlərin dilindən bəzi epizodları diqqətə çatdırmaq istərdik: Şahid Kvaratsxeliya İndiko Teodorovnanın (1932-ci il doğumlu; Qulripşi bölgəsi, Pşavi kəndi) ifadəsindən: "...29 sentyabr 1993-cü ildə silahlı ermənilər bizim kəndə girdilər və həmin gün gürcü evlərini talayaraq yandırdılar. 29 sentyabrda, elə birinci gün, ermənilər bizim qonşu 41 yaşlı Kvaşilava Valerini, 70 yaşlı Gegeçkori Tsatanı, Gegeçkori Tsatanın qaynı, Qulripşi bölgəsinin Lata kəndindən olan 70 yaşlı Kvaratsxeliyanı, 80 yaşlı Çikovani Maşonu, Çikovani Maşonun gəlini 55 yaşlı Nanulini (ərinin basdırıldığı məzarlıqda doğradılar); 80 yaşlı Sxuluxiya Vladimiri; 60 yaşlı Latariya Biçikonu və onun qardaşı 55 yaşlı Latariya Givini; 65 yaşlı Samuşiya Valerini; qardaş və bacı –70 yaşlı Bebiya Ketonu və 68 yaşlı Bebiya Revazı (Suxumi bölgəsi, Şrom kəndi); Zemo Pşavidən olan Samuşiya Lidanı qardaşı – Samuşiya Mişikonun evində öldürdülər; 70 yaşlı Çemiya Tinanı və Çemiya Lyubanı öldürdülər; 40 yaşlı Q.J. və onun 14 yaşlı qızı L.Ş. , 13 yaşlı qızı L.Ş. ermənilər və çeçenlər tərəfindən zorlanmış, sonra isə Samuşiya Moqelinin ailəsində öldürülmüşlər. 29 sentyabrda bu ailədədə 15 nəfər öldürülmüşdü – 55 yaşlı Vladimir Samuşiya, onun bacısı 65 yaşlı Samuşiya, 38 yaşlı Leyla Samuşiya, 67 yaşlı Samuşiya Xuta və onun arvadı 60 yaşlı Samuşiya Raya. Bu ailədə soyadlarını bilmədiyim, Suxumidən olan iki qadın da öldürülmüşdü. Şoniya Joranın ailəsində Qulripşi ilçəsinin Maçara

kəndindən olan iki nəfəri – 80 yaşlı ərlə onun 70 yaşlı arvadını öldürmüşdülər. Kardava Şotanı isə öz həyətində öldürdülər. Onun 80 yaşı, oğlununsa 50 yaşı vardı, Darsaniya Taras 80 yaşında, Kvaratsxeliya 65 yaşında, Çxetiani Qedevan da 65 yaşındaydı. Çxetiani Qedevanın ailəsində 60-65 yaşlarında olan, Suxumi bölgəsinin Odişi kəndindən gəlmiş şəxs və Drandadan gəlmiş üçü birgə, biri də tək olan şəxslər də öldürülmüşdü..." [11, s.13-14].

Şahid Kvartsxava Qvadi Cemaloviçin (1967-cu il doğumlu; Qulripşi bölgəsi, Merxeuli kəndi) ifadəsindən: "...Mən çoxlu ölüm və talan faktları bilirəm, hansı ki onları Labrı kolxozunun sədri Avelyan Ardaş Arutyunovişin başçılığı ilə ermənilər törətmişdir. Avelyanın göstərişi ilə ermənilər 70-ə qədər gürcünü mənim babam Kvaratsxeliya Borisin evinə toplamışdılar ki, guya Zuqdidiyə köçürəcəklər. Camaat da ora əşyaları ilə toplaşmışdı. Ancaq ermənilər onların əşyalarını əllərindən aldılar, adını-soyadını bilmədiyim 16 yaşlı gürcü qızını isə 6 nəfər erməni zorladı. Bu qızı bir rus qadın müdafiə etdi. Ancaq ermənilər o rus qadını öldürdülər. Qrup Avelyan Ardaş tərəfindən göndərilmişdi. Mən həmçinin bilirəm ki, ermənilər Çxetiani Qedevanı, Kvaratsxeliya Şalikonu, Kvaratsxeliya Kikini və Suxumdan olan 50 yaşlı bir nəfəri də öldürdülər. Mən onu da bilirəm ki, ata-oğul Darsaliya Kukuri və Tarası da öldürdülər. Onları öz evlərində öldürdükdən sonra evi yandırdılar. Bundan başqa, 14 oktyabrda Myasnikov kəndindən olan Giorqadzeni erməni məktəbinin yanında öldürdülər. Ermənilər dedilər ki, Giorqadze abxazlara qarşı mübarizə aparırdı. Merxeuli kəndindəki gürcü evlərini abxazlar, Pşavi kəndindəkiləri isə ermənilər yandırırdı [11, s.17-18].

Şahid Siçinava Eter Aleksandrovnanın (1942-ci il doğumlu; Qulripşi bölgəsi, Pşavi kəndi) ifadəsindən: "...Adını yada sala bilmədiyim 7-ci sinif şagirdini öz evlərinin balkonundaca güllələdilər. Y.J. və onun 7-ci sinif şagirdi olan bacısını güllələməmişdən qabaq zorladılar. Qatil və zorlayanlar Oçamçir bölgəsinin Labrı kəndindən olan ermənilər idi. Onlara bizimlə üzbəüz qonşuluqda yaşayan ermənilər də kömək edirdilər, onların soyadı Qasparyan idi..." [11, s.18-19].

Şahid Samuşiya Domenti İoseboviçin (1931-ci il doğumlu; Qulripşi bölgəsi, Pşavi kəndi) ifadəsindən: "...30 sentyabr 1993-cü ildə silahlı ermənilər bizim kəndə girdilər, gürcüləri və onların ailələrini soydular, sonra da evlərini yandırdılar. Onlar daxil olan kimi 1930-cu il doğumlu Samuşiya Valerianı, Suxum bölgəsinin Şrom kəndindən gəlmiş 55 yaşlı Qadeliya Yurini, 75 yaşlı Zarandiya Çuçanı, 50 yaşlı Samuşiya Volodyanı, onun bacısı 65 yaşlı Samuşiya Lenanı, 65 yaşlı Samuşiya Xutanı, 30 yaşlı Samuşiya Lamaranı, onun bacısı 32 yaşlı Samuşiya Leylanı, 70 yaşlı Çemiya Tinanı... (şahid bundan sonra daha 33 nəfər öldürülmüş şəxsin adını çəkir: 32 gürcü, 1 nəfəri yunan qadın. Bu şəxslərin sırasında 45 yaşlı Tsutsumiya Murman və onun 8-9 yaşlarında oğlu da vardır – X.İ.) öldürdülər. Onların çoxu tabutsuz şəkildə həyətlərindəcə basdırılıblar. Bir çoxları isə öz evlərindəcə yandırılıblar. Məsələn, Darsaliya Kukuri və onun atası, Muşni Şeliya, Valeri Abşilava və onunla birgə iki nəfər –ancaq onları tanımırdım.

Bizim kənddə 50 ev vardı. Ancaq indi hamısı yandırılıb...

Ermənilər bizdən hər şeyimizi aldılar, kimdə nə vardısa. Bütün gənc qadınları zorladılar. Bütün qadınları lüt soyundurdular və onlarda qızıl əşyalar axtardılar. Zorladıqları gənc qadınların adlarını çəkmək istəmirəm –bu alçaldıcıdır..." [11, s.19-21].

Şahid Kobaliya Lyuda Şalvovnanın (1957-ci il doğumlu; Qulripşi bölgəsi) ifadəsindən: "Ermənilər abxazlardan pis idilər. Bizimlə savaşmaq məqsədilə öz batalyonlarını yaratdılar. Bütünlüklə bizim kəndi yandırdılar, mənim evimi də həmçinin" [11, s.23].

Şahid Dolidze Teymuraz Şalvoviçin (1955-ci il doğumlu; Qulripşi bölgəsi, Dranda kəndi) ifadəsindən: "Dranda kəndində bütün gürcülərin evləri yandırıldı... Məndə olan bilgiyə görə, bütün hərbi əməliyyatlarda Topalyanın əsasını qoyduğu Baqramyan adına batalyon fəal iştirak edirdi. Topalyan yaşayış yerlərini və qonşuları yaxşı tanıyırdı" [11, s.24].

Şahid Qulua Avtandil Mamantoviçin (1928-ci il doğumlu; Pşavi kəndi) ifadəsindən: "Ermənilərə təkqollu, avtomat silahlı, yaxasından iri gümüş xaç asılmış cavan bir şəxs başçılıq edirdi... Bəzilərinin şapqalarında yazılmışdı: "İ.X.Baqramyan adına batalyon"... [11, s.30].

Şahid Kvaratsxeliya Lindqar Nikolayeviçin (1937-ci il doğumlu; Qulripşi bölgəsi, Qanaxleba kəndi) ifadəsindən: "Daha çox ermənilər fəallıq edirdilər. Onların içərisində bizim kəndin erməniləri də var idi, hansı ki, gürcüləri öldürür və zorlayırdılar" [11, s.34].

Sayı-hesabı bilinməyən yuxarıdakı qəbildən olan hadisələr Suxumi şəhərini və Suxumi [11, s.46-55], Qali bölgələrini də əhatə etmişdir [11, s.55-65]. Bu olayların "qəhrəmanları"nın – Baqramyan adına batalyon üzvlərinin də tam olmayan siyahısı bəlli olmuşdur [11, s.66-69]...

1918-ci ildə İstanbulda "Böyük Ermənistan"ın bir fantastik xəritəsi nəşr olunmuşdu. Guya tarixi xəritə idi. O xəritədə "Böyük Ermənistan"ın sınırları Qara dənizdən Xəzər dənizinədək (Batum, Axalsıx, Msxeta, Tiflis də daxil olmaqla), Samsundan Aralıq dənizinə və Selevkiyanın quzey hissəsinədək çox böyük əraziləri əhatə edir. Həmin xəritədə Gürcüstana ensiz bir nahiyə ayrılmışdı [11, s.74]. Görəsən Baqramyan adına erməni batalyonunun {yeri gəlmişkən, bu, əslində diviziya idi, 2000-dək üzvü vardı – [11, s.69]} gürcüləri soyqırıma uğratmağa və etnik "təmizləməyə" yönələn fəaliyyəti "gələcək" "Böyük Ermənistan"ın ərazi parçalarını hazırlamaq məqsədindənmi qaynaqlanır?!.. –Təəssüf ki, bəli: 27 sentyabr 1993-cü il tarixində və gürcü qadınlarına, uşaqlarına qarşı hiyləgərcəsinə qırğın törətdikləri başqa günlərdə yaraqlı ermənilər qışqıraraq deyirmişlər: "Abxaziya sizin idi, indi oldu bizim –Abxaziya kiçik Ermənistandır, Böyük Ermənistanın qərb sahilləridir" [11, s.100].

Əlbəttə, Bondo Arveladzenin timsalında gürcü ziyalıları o hadisələr zamanı susmamış, hətta o dönəmdə Ermənistan Prezidenti vəzifəsini daşımış Robert Koçaryana və bütün ermənilərin katolikosu İkinci Qareginə məktubla müraciət edərək onların Ermənistan və erməni xalqı adından gürcü xalqından rəsmən üzr istəməsini tələb etmişlər [11, s.85-86].

Bu da təsadüfi deyil ki, Rusiyanın Gürcüstana və ümumilikdə Qafqaza yeni basqı dalğası fonunda ermənilərin təcavüzkarlıq ruhu daha da havalanmış və bir erməni keşişinin deyimində açıq, həyasızcasına ifadə olunduğu kimi ("İki erməni dövlətinin olmasından məmnunam, ancaq üçüncüsü də lazımdır – Cavahetiya".) – [12, s.13], hər cür beynəlxalq normaları və sərhəd bütünlüyü prinsiplərini pozmaqdan qürur duyma eyforiyasına qapılmaq durumundadır.

Ermənilərin Gürcüstanın indiki Samtsxe-Cavahetiya mahalında və başqa bölgələrində törətdikləri vəhşiliklər-təcavüz, terror və bölücülük fəaliyyətləri haqda müasir Gürcü mətbuatı saysız-hesabsız faktlar dolu məqalələr yayınlamaqdadır. Bu fəaliyyətləri və çağdaş erməni iddialarının yönlərinə aydınlıq gətirən Gürcüstanda dərc olunmuş faktiki məqalələrdən ibarət topluda günümüzdəki erməni-gürcü konfliktlərinə dair mənzərə daha gerçəkçi bir şəkildə üzə çıxır [13].

**Qafqaz almanlarına qarşı siyasi terror və onların deportasiyası.**

Erməni millətçilərinin xristianlara qarşı qanlı fəaliyyətləri sırasında almanlara qarşı həyata keçirdikləri siyasi terror səhifələri də mühüm yer tutur.

Ötən əsrin əvvəlində indiki Göygöl (keçmiş: Xanlar, daha öncə isə: Helenendorf) rayonu ərazisində yaşamış almanlara qarşı daşnakların həyata keçirdiyi siyasi terror yaxın illərədək ictimaiyyətə gizli qalan tarix səhifələrindən olub.

1907-ci ildə Yelizavetpol (Gəncə) şəhərində Daşnaksütyun partiyasının üzvlərinə qarşı açılmış cinayət işi barədə şəhər pristavının köməkçisinin imzaladığı sənəddə qeyd olunur ki, 1905-ci ildən 1907-ci ilin avqustunadək Daşnaksütyun partiyasının yerli təşkilatının rəhbəri Koryun silahdaşları Arutyunov qardaşları ilə birlikdə Helenendorf (Göygöl, keçmiş: Xanlar) almanlarını partiyanın xəzinəsinə xərac verməyə məcbur ediblər, o cümlədən şərab istehsalçıları olan Fohrer və Hurrdan hərəyə 30 min rubl pul tələb ediblər. Hurr bu məbləği ödəyə bilmədiyi üçün partiyanın yerli təşkilatının qərarı ilə qətlə yetirilib [14, s.27].

1920-ci ildə sovetləşmənin başlamasından sonra ermənilər yenə mərkəzdəki havadarlarının köməyi ilə almanları sıxışdırmağa başlayırlar. Bu dövrdə rayonda onlarla alman «antisovet fəaliyyəti»ndə günahlandırılaraq «NKVD»-dəki erməni cəlladların əli ilə güllələnir, digərləri (o cümlədən Helenendorfun əsasını qoymuş Hummellərin bir çoxu) Sibirə sürgün edilir [15, s.13]. Ermənilərin mənfur davranışı almanları o həddə çatdırır ki, 1934-cü il mayın 14-də onlar Helenendorf klubunun divarlarına «Ermənilər qaniçəndirlər, onlar kəndlilərin son damla qanına qədər sorurlar» şüarları yapışdırırlar [16, s.46].

Şəmkir rayonunda isə əhalinin təqribən 10%-ni təşkil etmələrinə baxmayaraq, ermənilər Kremldəki havadarlarının himayəsi ilə əksər rəhbər vəzifələri ələ keçirib Çar Rusiyası dönəmindən orada məskunlaşmış almanlara qarşı təzyiq göstərmələri haqda almanların 20 oktyabr 1940-cı il tarixində Azərbaycan KP MK-nın katibi M.C.Bağırova ünvanladığı şikayət məktubu Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanmaqdadır [16, s.78].

«Ermənilərə qarşı almanların münasibəti həbs olunmuş onlarla alman haqqında aparılmış istintaqa dair sənədlərdə də özünü büruzə verməkdədir. Bu sənədlərin çoxunda ictimai həyatın əksər sahələrində almanlar ermənilərin onları sıxışdırdığını bildirirdilər...» [16, s.81].

Nəhayət, İkinci Dünya müharibəsinin başlanması ilə 1941-ci ilin oktyabrın 8-də Stalinin imzaladığı qərara əsasən Qafqaz almanları Qazaxıstan çöllərinə sürgün edilərək Stalinin sağ əli olan Mikoyanın səyləri nəticəsində onların yerinə təkcə Ermənistandan deyil, İrandan da yüzlərlə erməni ailəsi köçürülür. Göygöldə almanların yerinə köçürülən ermənilər oradakı alman qəbiristanlığına da sahib çıxmağa çalışaraq bir sıra qəbirlərin baş daşlarını da «erməniləşdirmişdilər» [15, s.13].

Ermənilərin almanlara qarşı növbəti terrorçu fəaliyyəti Gürcüstan ərazisində baş vermişdir. Tarixi qaynaqlardan bəlli olduğu kimi, 1918-ci ilin yayından Gürcüstanın dəvəti ilə Tiflisdə general Fon Kressin komandanlığı altında alman hərbi missiyası yerləşirdi. Gürcüstan Almaniyanı öz müstəqilliyinə qarant hesab edir və o səbəbdən də alman qüvvələrinin bu bölgədən çıxıb getmələrini istəmirdi. Almanları təhdid yolu ilə bölgədən çıxmağa vadar etmək üçün ermənilər 1918-ci ilin dekabrın ortalarında terrora əl atdılar: onlar yalnız və yalnız alman zabitlərinin və rezidensiyalarının yerləşdiyi "Palas" otelini gizlicə atəşə verdilər [17, s.37]. Əsli Almaniyanın Göte İnstitutunda qorunan "Mənim Qafqaz missiyam" adlı kitabında bu faktları oxucuların diqqətinə çatdıran general Fon Kress daha sonra yazır: "Dekabrın 23-də alman qüvvələrinin Gürcüstanın paytaxtını sonuncu tərk edən Qafqaz Yeqer polku Tiflisdən çıxdığı günün sabahı güclü erməni ordu hissələri müharibə elan etmədən Gürcüstan sərhədlərini keçərək Tiflisin 40 kilometrliyinədək irəlilədilər.

Ermənilər Tiflisi tutmaq üçün öz uyğun saatlarını gözləyirdilər ki, ingilislərin köməyi ilə Qafqazda ağalığı öz əllərinə alsınlar..." [17, s.37].

Fon Kress və gürcü müəllifləri qeyd edirlər ki, ermənilər o hücum zamanı Tiflis yaxınlığındakı alman koloniyasının mövcud olduğu Katerinenfeldə (indiki: Bolnisi) soxuldular... Ancaq bu olaylarda almanların itkilərə uğrayıb-uğramadığı haqda bilgi verilməməsi təəssüf doğurur...

Yuxarıda təqdim olunan tarixi faktlar təsdiq edir ki, xüsusən də son iki yüz il ərzində erməni millətçiləri təkcə türklərə, müsəlmanlara deyil, həmçinin guya təəssüblərini çəkdikləri din qardaşları xristianlara qarşı da soyqırım, etnik "təmizləmə", siyasi terror aktlarına əl atmaqdan çəkinməmiş, bu vasitələrlə "Böyük Ermənistan" yaratmaq ənənəsinə sadiq qalaraq onun yeni-yeni ərazi parçalarını əldə etməyi qarşılarına ciddi şəkildə məqsəd qoymuşlar.

## MƏNBƏ VƏ ƏDƏBIYYAT


1. А. Щепотьев. О спорных кавказских территориях о которых претендуют Азербайджанские тюрки. Известия АН Азерб.ССР Серия Истории, Философии и Права, №2, Издательство Баку: «Элм», 1990.
2. Ziya Zakir Acar. Aras Türk Cumhuriyeti., 2013, ISBN: 978-605-89440-5-3,"İlkay Ofset", Ankara,78 s.
3. "Azərbaycan diplomatiyası" (müstəqil elmi-kütləvi jurnal), Bakı: Azərbaycan, 1993, 81 s.
4. Xaqani İsmayıl. "Erməni məsələsi" və türk-müsəlman soyqırımı, Bakı: Nərgiz, 2012, 508 s.
5. Ася Гаджизаде. Российские архивы доказывают, что «геноцид армян» – это международный обман. Баку, газ. «Бакинский рабочий», 16.04.2011,
6. «Армянский вопрос в 120 документах из Российских государственных архивов», I изд., Москва, 2011, 256 стр. – II изд., издательство Баку: Азернешр, 2012, (документ № 90: Из телеграммы одного из виднейших большевистских лидеров Кирова С.М. от 29 июня 1920 г.), 264 с.
7. T.C. BAŞBAKANLIK DEVLET ARŞİVLERI GENEL MÜDÜRLÜĞÜ, Osmanlı Arşivleri Daire Başkanlığı, Yayın Nu: 34. Arşiv belgelerine göre Kafkaslar'da ve Anadolu'da Ermeni mezalimi [Armenian violense and massacre in the Caucasus and Anatolia based on archives], III (1919-1920)., Ankara, 1997, (XXXI+475) s., [belge № 43: Ermenilerin Kars ve civarındakı İslam ve Malakan köylerine tecavüz ettikleri].
8. T.C. BAŞBAKANLIK DEVLET ARŞİVLERI GENEL MÜDÜRLÜĞÜ, Osmanlı Arşivleri Daire Başkanlığı, Yayın Nu: 34. Arşiv belgelerine göre Kafkaslar'da ve Anadolu'da Ermeni mezalimi [Armenian violense and massacre in the Caucasus and Anatolia based on archives], III (1919-1920)., Ankara, 1997, (XXXI+475) s., [belge №46: Novoselim civarındakı köylere Ermenilerce yapılan mezalim].
9. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX – XXI вв.), Баку: Элм, 2002, 396 с.
10. Şota Vadaçkoriya. "Gürcüstan siyasi fikrində gürcü-erməni münasibətləri məsələləri 1918-1920", gürcücədən tərcümə, ISBN 9952-29-042-X, Bakı: MBM MMC mətbəəsi, 2006, 80 s.

11. Бондо Арвеладзе, Теймураз Мибчуани. Армянский батальон имени Баграмяна и этночистка грузин в Абхазии. Перевод с грузинского. – Тбилиси. Универсал, 2009, 110 с.
12. Orxan Güneyli. Qarşıda Ermənistan-Gürcüstan qarşıdurması. Bakı: Türküstan qəzeti, 17-23 may 2009.
13. Armenian treason and Georgia, 1-st book, Baku, 2008, 72 pages. (Compiler and translator from Georgian language: Nariman Aliyev; translator into English: Afag İsmayilova; name of publishing house has not been shown).
14. Abbas Seyidov. Yelenendorf-Yeleneno-Xanlar/Helenendorf-Heleneno-Chanlar/Еленендорф-Еленено-Ханлар/Helenendorf-Heleneno-Khanlar, (Azərbaycan, alman, rus və ingilis dillərində), Bakı: Elm, 2007, 286 s.
15. Vüqar Orxan. Erməni terrorunun qatı açılmamış izləri. "525-ci qəzet", Bakı, 16.09.2006.
16. Джафарли Мамед Шамсаддин оглы. Политический террор и судьбы Азербайджанских немцев», код: 023; ISBN -5-7225-0074-7, Баку, (типография: "A4-Ofset", İstanbul), 1998, 316 с.+ 1 карта-схема.
17. General der Artillerie a. D Friedrich Freiherr Kress von Kressenstein. Meine Mission im Kaukasus. München 13, 12. Oktober 1943, 43 p. (Copyright © Goethe-Institut 2005).

## THE ACTS OF POLITICAL TERROR AND GENOCIDE COMMITTED BY ARMENIANS AGAINST CHRISTIANS

### SUMMARY

The author highlighted the tragic page of history of the Armenian political terror, ethnic "cleansing" and massacres committed by Armenians and directed against civilians (against the Russian, Georgian, German, Greek) relating to XX century. The author presents new facts to the attention of his readers and also highlights the bloody events occurred during the Armenian government established by military intervention of Great Britain in the province of Kars in 1919-1920.

Based on the materials found in the archives of Azerbaijan, Turkey and Russia, ably demonstrates all the basic details of dirty crimes, cases of mass executions and etc., other inhumane acts directed against the civilian population in the Russian and Greek villages of that time - Kars province. In the article are analyzed the facts of genocide and political terror against the Georgian people in 1918-1920 and 1993-1994, against the German people living in the Caucasus committed by Armenian nationalists in the first half of the XX century. Successfully proving the readiness of Armenians, who introduce themselves as the truest followers of Christianity in the world to trample all valuable qualities of Christians in the name of a mythical illusion called "Greater Armenia", author also using some historical facts effectively, professionally demonstrates the willingness of the Armenian nationalists to achieve their occupational goals at all costs.

## АКТЫ ПОЛИТИЧЕСКОГО ТЕРРОРА И ГЕНОЦИДА СОВЕРШЁННЫЕ АРМЯНАМИ ПРОТИВ ХРИСТИАН

### РЕЗЮМЕ

В статье автор осветил трагическую страницу истории армянского политического террора, этнической "чистки" и массовых убийств совершённых армянами и направленных против мирного населения (против русских, грузин, немцев, греков), относящуюся XX веку. Автор представляет новые факты к вниманию его читателей и также освещает кровавые события случившиеся во время армянского правительства созданного с помощью военной интервенции Великобритании в провинции Карс в 1919-1920 годах. Опираясь на материалы, находящиеся в архивах Азербайджана, Турции и России, умело демонстрирует все основные детали грязных злодеяний, случаи массовых уничтожений и т.д. других нечеловеческих поступков направленных против мирного населения в русских и грецких селах Карской провинции. В статье подвергаются анализу акты геноцида и факты политического террора против грузинского народа в 1918-1920 и 1993-1994 годах, против Кавказских немцев учинённые армянскими националистами в первой половине XX века. Автор, успешно доказывающий на самом деле готовность армян представляющих себя как верных приверженцев христианства в мире растоптать все ценные достоинства христиан во имя мифической иллюзии по имени "Великая Армения", также с помощью исторических свидетельств профессионально показывает готовность армянских националистов на всё ради достижения своих оккупационных целей.

**Nigar CAMALOVA**
*AMEA Tarix İnstitutu, kiçik elmi işçi*

## QARS REGİONUNDA SOYQIRIMI

**Açar sözlər:** Soyqırımı, Qars, Azərbaycan, türk-müsəlman, erməni
**Keywords:** Genocide, Kars, Azerbaijan, the Turkish-Muslim, Armenian
**Ключевые слова:** геноцид, Карс, Азербайджан, турецко-мусульманина, армянин

1918-1920 – ci illərdə ermənilər demək olar ki, bütün Cənubi Qafqazda, Cənubi Azərbaycanda olduğu kimi, Qars regionunda da azərbaycanlı-türk xalqına qarşı soyqırımları həyata keçirmişlər. Qars sözünün mənası "Qarsaq" adlı çöl tülküsünün adından götürülmüşdür. Qars e.ə.130-127-ci illər arasında Qafqaz dağlarının şimalından gələrək bu ərazidə yerləşən Bulqar türklərinin Velentur boyunun Qarsaq tayfalarından gəlməkdədir. Qarsaq tülküsü bu tayfanın totemi olduğundan tayfa da Qarsaq adını almışdır. Qars hazırda Türkiyə Respublikasının şərqində vilayətdir. (11) Birinci Dünya müharibəsi dövründə Qafqaz cəbhəsinin açılması Qars regionunu da müharibə meydanına çevirdi. Tarix boyu bu cür siyasi qarışıqlıqlardan istifadə edən ermənilər yenidən türk xalqına qarşı soyqırım-larına başladılar. Həmişə olduğu kimi, bu dəfə də ermənilərin məqsədi yerli xalqların (azərbaycanlıların) sayını azaltmaq və başqasının (Azərbaycanın) torpağında özlərinə dövlət qurmaq idi.

Beləliklə, Qars regionu da ermənilərin soyqırımı hədəfləri sırasına daxil oldu. Bəhs edilən dövrdə regionda azərbaycanlı-türk əhalisinin sayı ermənilərdən çox idi. "Kars vilayətinin əksəriyyəti müsəlmandır. Bu vilayətin təxminən - 364 min camaatı var. Hərbdən əvvəl mövcud statistika məcrübi ilə bu vilayət səkənəsinin 55 faizi türk və müsəlman, 20-30 faizi erməni, mütəbaqisi rus, rum və sairədir." (3, s. 620)

1918-ci ilin martından Qafqaz cəbhəsində vəziyyət Türkiyənin lehinə dəyişdi. Belə olduqda geri çəkilən rus ordusunun tərkibindəki ermənilər yol boyu qarşılarına çıxan azərbaycanlı-türk əhalini qırır, kəndləri yandırırdılar. Bu vaxt Qafqazda siyasi hakimiyyət Zaqafqaziya Seyminin əlində idi. Qarsdakı vəziyyət Seymin Müsəlman fraksiyasının 1918-ci il aprelin 15-də keçirilmiş iclasında müzakirə edildi. Yetərli say olmadığından məsələnin müzakirəsi növbəti iclaslardan birinə saxlanılır. İclasda Ə.Qantəmirov bildirirdi ki, yunan qaçqınlarının sözlərinə görə Türk ordusunun hücumu nəticəsində geri çəkilən erməni hərbi dəstələri qarşılarına çıxan bütün müsəlman kəndləri yer üzündən silirlər. Yunanlar bildirirlər ki, gərək qeyri-insani əsəblərin olsun ki, bu cəhənnəm əzablarına, ağıllarını itirmiş qadın və uşaqların ürəkparçalayan nalələrinə, köməksiz qocaların hönkürtülərinə dözə biləsən. Qars vilayətində erməni kapitan Movsesyanın və general Areşevin vəhşicəsinə qəddarlığı hökm sürür. Hazırda bütün Qars vilayəti nəhəng qəbiristanlığa çevrilmişdir. (5, s. 12; 61.)

Lakin Seymin növbəti iclaslarında Qarsdakı soyqırımı məsələsi müzakirə olunmur. 26 may 1918-ci ildə isə Seym dağılır.

Qarsdakı müsəlman əhalisinin soyqırımı xüsusi amansızlıqla davam edirdi. "25 aprel 1918-ci ildə Qarsın şərqindəki Subatan kəndində 570 gənc, yaşlı müsəlmanı balta və bıçaqla, odda yandıraraq öldürdülər. Maqasto və Alaca kəndlərindən 100-dən artıq qadın və uşaq da eyni şəkildə qətlə yetirildi. Təknəli, Hacıxəlil, Qalaköy, Xaraba, Daqor, Milanlı, Ketak kəndlərinin xalqı tamamilə yox edil-di." (4, s. 247)

1918-ci il Brest sülhünə görə, Batum vilayəti, Ərdəhan və Qars Türkiyəyə keçməli idi. (6, s. 270; 289) Bu müqaviləni əsas tutan Osmanlı dövləti əraziləri işğalçı erməni-rus dəstələrindən xilas etmək üçün hücuma keçdilər. Osmanlı dövlətinin hərbi hissələrinin Qafqaza doğru irəliləməsi Qarsdakı soyqırımın qarşısını ala bilərdi. 1918-ci il aprelin sonu, mayın əvvəlində türk qoşunları bütün Qars vilayətini erməni qoşun hissələrindən azad etdi. (8, s. 8)

1918-ci il mayın 15-də günün sonuna yaxın türk qoşunları Aleksandropolu tutdular. Qazandığı hərbi müvəffəqiyyətlər Batum danışıqlarında Türkyənin xeyrinə oldu. 1 iyun 1918-ci ildə erməni hərbi hissələri müqaviməti dayandırdılar, iyunun 4-də Batumda yeni yaranmış müstəqil Zaqafqaziya respublikaları sülh və dostluq haqqında Türkiyə ilə müqavilə imzaladılar. Beləliklə, daşnak Ermənistanın Qars vilayətinə olan iddiasından əl çəkməsi hüquqi cəhətdən rəsmiləşdirildi. Batum müqaviləsinə əsasən, Qars, Ərdəhan və Batumun, həmçinin Axalsıx və Axalkalakinin Türkiyəyə keçdiyi təsdiq edilirdi. (6, s. 269 )

Türklərin bölgədə olması Qarsdakı soyqırımların qarşısını nisbətən aldı. Lakin bu uzun çəkmədi. 1918-ci il oktyabrın 30-da Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyətini rəsmiləşdirən Mudros sülhü imzalandı. Sülhün şərtlərinə görə Türk qoşunları Qarsı tərk etməli idi. Müqavilənin şərtlərini yerinə yetirən Osmanlı öz qoşunlarını geri çəkdi. Beləliklə, Qarsın yerli müsəlman əhalisi müdafiəsiz qaldı. Bundan istifadə edən ermənilər yenidən Qarsda soyqırımlara başladılar. Bu dəfə Qars əhalisi çıxış yolu kimi Qars ərazisində dövlət yaradaraq Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə kömək üçün müraciət etdilər.

1918-ci il sentyabrın 27-də Qarsda Müsəlman Milli Komitəsi (Milli Şura) yaradıldı. Milli Şura 1918-ci il dekabrın 1-dəki iclasında " Cənub - Qərbi Qafqaz respublikasının yaradılması haqqında" qərar qəbul etdi. (8, s. 11; 13) Yeni yaradılmış dövlətin ərazisinə Qars və Batum vilayətləri, Axalsıx, Axalkələk, Şərur, Naxçıvan, Sürməli qəzaları və İrəvan qəzasının cənub-şərq hissəsi daxil edilmişdi. (8, s. 13)

Türklər bu ərazini tərk etdikdən sonra bölgəyə ingilis qoşunları yerləşdirildi. Rusiya-Türkiyə sərhədləri boyunca Qarsa gələn Harbord 1919-cu il sentyabrın 28-də İstanbula göndərdiyi məlumatda yol boyu türklərin onlara böyük xeyirxahlıq göstərdiyini və bu yerlərdə az miqdarda erməni əhalisi olduğunu yazırdı. O qeyd edirdi ki, sərhəd boyunca tez-tez ermənilər tərəfindən yurd-yuvalarından didərgin salınmış müsəlman köç karvanları ilə rastlaşır. (6, s. 447)

1919-cu ilin aprelinə olan məlumata görə Qars regionunda ermənilər tərəfindən iri və xırda buynuzlu mal-qaranın və atlarının böyük bir hissəsi talan edilmiş, onlarla kənd tamamilə məhv edilmiş, minlərlə dinc sakin qətlə yetirilmişdir. (Bax:1, s. 91-92)

Qars hökuməti kömək üçün Azərbaycan Xalq Cümhuriyyəti rəsmilərinə teleqramlar, məktublar göndərərək buradakı türk-müsəlman əhalisinə qarşı yönəldilmiş soyqırımların qarşısının alınmasını xahiş edirdilər. 1918-ci ilin noyabrında Cənub-Qərbi Qafqazın müsəlman əhalisi daşnak qırğınlarından xilas olmaq üçün kömək məqsədilə ilk dəfə olaraq ADR-ə üz tutdu. (8, s. 12)

Qars vilayəti nümayəndələrinin Azərbaycan Respublikası Xarici İşlər Nazirinə məktub yazaraq bildirirdilər ki, Qars vilayətindəki qanlı hadisələrlə əlaqədar on minlərlə insan öz yurdlarından didərgin salınmışlar və tezliklə kömək olmazsa onlar aclıqdan ölmək təhlükəsi ilə üzləşəcəklər. (1, s. 71)

1918-ci il aprelin 12-də Britaniya hərbçiləri Qars hökümətinin üzvlərinin, o cümlədən 35 parlament üzvünü həbs etdilər. Qars hökümətinin həbs olunmuş üzvləri əvvəlcə mühafizə ilə Batuma göndərildilər. Lakin çox keçmədən onlardan 11 nəfəri Britaniya hərbi idarəsi tərəfindən girov kimi Malta adasına sürgün edildi. Bunların sırasına baş nazir İbrahim bəy Cahangirov, hərbi nazir Həsən bəy Cahangirov, ərzaq naziri Yusif Yusifov, polis komissarı Musa Salam oğlu, Poçt-Teleqraf İdarəsinin müdiri Müxlis bəy Əlibəyzadə, hüquq işləri üzrə müşavir Kərbəlayı Əziz bəy Cahangirov, mühacirlər komissiyasının üzvləri Matvey Raçinski, Pavel Çamuşev, Stefan Vafiadi və Malileyev daxil idilər. (8, s. 26)

1919-cu ilin əvvəllərində Cənub-Qərbi Qafqaz hökuməti Azərbaycan Respublikasının İstanbuldakı diplomatik nümayəndəsinə məktub yazaraq onlara yardım edilməsini xahiş etdilər. "Türkiyənin Qars bölgəsindən qoşunlarını çıxarması ilə təhlükəsizliyimizi təmin etmək məqsədilə Cənub – Qərbi Qafqaz hökuməti yaratdıq. Lakin 12 may 1335-ci ildə bu dövləti İngilislər işğal etdilər və hökumət üzvülərini Maltaya apardılar. Biz 11 aydır ki, burdayıq. Heç kim bizimlə maraqlanmır və bizimlə əlaqə yaratmır. Buna görə də biz müstəqil Azərbaycan hökumətindən bizim vəziyyətimizə diqqət göstərmələrini və lazımı addımların atılmasını xahiş edirik." (1, s. 310)

Azərbaycan Respublikası hökuməti məsələyə dərhal reaksiya verir və 1919-cu ilin aprelində Qars vilayətinin hökumət üzvlərinin həbsi ilə bağlı Britaniyanın Bakıdakı baş qərargahına etiraz məktubu yazır: "Azərbaycan hökuməti bu ərazinin (Qars əyalətinin – A.N.) gürcülər və ermənilər arasında parçalanmasına və bölüşdürülməsinə etiraz etməkdə israrlıdır və Britaniya komandanlığından xahiş edir ki, Gürcüstan və Ermənistan respublikalarının işğalçı hərəkətlərini dayandırsın, xalqların öz müqəddəratını təyin etmə prinsipinə uyğun olaraq əhalinin azadlıq əldə etməsinə imkan yaratsın." (1, s.93)

AXC hökuməti yenə də bir neçə dəfə ingilislərə müraciət edərək Qars rəsmilərinin buraxılmasını tələb etdilər. Lakin bunun müsbət nəticəsi olmadı.

Ermənilər Qars vilayətinə daxil olraq orada qanlı qırğınlar törədirdilər. Qars Müsəlman Milli Şurası ermənilərin bu hərəkəti ilə bağlı Tiflisə teleqramlar göndərərək bu dəhşətli hadisələrin şahidi olmaq istəmədiklərini, əgər kömək gəlməzsə Qarsı tərk etməyə məcbur olacaqlarını söyləyirdilər. (1, s.125)

31 yanvar 1920-ci ildə erməni generalı Osepyan əmr verdi ki, Qars vilayətinin 46 müsəlman kəndində 22 saat müddətində erməni hakimiyyəti qəbul edilsin. (1, s.353)

Bu müddət çox az idi. 22 saat müddətində erməni hakimiyyətini qəbul etməyən müsəlmanlar ya öldürülməli, ya da öz yurd-yuvalarını tərk etməli idilər. Azərbaycan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsinin Britaniya hökumətinin Qafqazda ali komissarına məktubunda deyilirdi: "Qars vilayətinin Tiflisdəki nümayəndəsi Zeynalovun məlumatı Qars Milli Şurasının göndərdiyi teleqramlarla üst-üstə düşür. Bölgədəki erməni komandanı (generalı) Osepyan Zaruşad bölgəsinin 46 kəndinin əhalisinə odlu silahla öldürülməklə təhdid edərək erməni hakimiyyətinin qəbul etmək barədə əmr (göstəriş) verib. Əmri həyata keçirmək üçün 22 saat vaxt verilmişdi. Bu müddətdə heç əhali əmrlə tanış ola bilməzdilər. Əmri oxuyan əhali də erməni hakimiyyətini qəbul etmirdi və problemi sülh yolu ilə həll etmək istəyirdilər. Tərkibində Qars Milli Şurası, Amerika missiyası və Azərbaycan hökuməti üzvülərindən ibarət komissiya təşkil etmək istəyirdilər. Lakin Osepyan müharibəyə başladı. Keçaberq və Məscidli kəndləri yandırıldı. Hazırda erməni ordusu Çaldır və Zaruşad sahələrində, Ərdahan və Qars vilayətlərində hərbi əməliyyatlar aparır. Şoragəl və Ağbabin sahələri ermənilərin hücum təhlükəsi altındadır. Erməni hakimiyyətinin bu cür təcavüzkar hərəkəti Ermənistan və Azərbaycan hökumətləri arasında dinc əhaliyə qarşı güc tətbiq olunmaması haqqında razılaşmaya ziddir. Bütün bunları nəzərə alaraq siz qəti qərar qəbul edəsiniz ki, erməni ordusu tərəfindən heç bir səbəbsiz (günahı olmadan) müsəlman əhalisinin qırılması dayandırılsın." (1, s.360)

Osepyanın əmrindəki vaxt sona çatan kimi fevralın 1-də erməni ordusu Qars vilayətinə daxil olaraq əhalini qılıncdan keçirməyə başladılar. Qars vilayəti Müsəlman Milli Şurasının Şoragəl sahəsi sədrinin Azərbaycan Respublikasının Gürcüstanda diplomatik nümayəndəsinə göndərdiyi 3 fevral tarixli teleqramında deyilirdi: "Fevralın 1-də səhər tezdən general Osepyan Zaruşad bölgəsində müsəlman əhalisinə qarşı hərbi əməliyyata başlayıb. 2 müsəlman kəndi Keçaberk və Məscidli külə çevrilib. Bir neçə ailədən ibarət olan bu kəndlərin müsəlman əhalisi ağ bayraq qaldırmalarına baxmayaraq öldürüldülər. İndi Ərdəhan vilayətinin Çaldır sahəsində və Qars vilayətinin Zaruşad sahəsində dəhşətli qırğınlar gedir. Həmçinin, Qars vilayətinin Şoragəl və Ağbabin sahələri hücum təhlükəsi altındadır. Şura çox xahiş edir ki, Gürcüstan, Azərbaycan və Ermənistan hökumətini xəbərdar etsinlər, həmçinin Müttəfiq dövlətlərdən xahiş edir ki, Qars vilayətindəki müsəlmanların məhv edilməsinin qarşısını almaq barədə tədbir görsünlər." (1, s.355)

Qarsdakı soyqırımla bağlı Tiflisdəki Müttəfiq dövlətlərin nümayəndələri də xəbərdarlıq edilirdilər. Tiflisdəki Qars Müsəlman Milli Şurasının nümayəndəsi Zeynalov Qars vilayətində ermənilərin müsəlmanlara qarşı soyqırımı həyata keçirdiyini ingilis nümayəndəsi Uodropa teleqramla bildirirdi. (1, s.358)

Fransız hərbi missiyasının rəhbəri polkovnik de-Nonankara, italiyan hərbi missiyasının rəhbəri polkovnik Qabbaya və Britaniyanın Ali komissarı Uodropa Azərbaycan Respublikasının xarici işlər nazirinin 5 fevral 1920-ci il tarixli teleqramında deyilirdi: "Sizə Qars vilayətində erməni ordularının müsəlmanları qırması barədə 26 fevral notasının nüsxəsini göndərirəm. Ermənilərin etirazına və bugünədək xeyli azərbaycanlının qırılmasına baxmayaraq mənim hökumətim buna etiraz edir və azərbaycan xalqının tərəfindədir. Azərbaycan xalqı buna qəzəblənə, Azərbaycan hökuməti buna qarışa bilər və Qars vilayətindəki müsəlmanların qırılmasına biganə qala bilməz. Ona görə də xahiş edirəm ki, bütün lazımi tədbirlər görərək müsəlmanların ermənilər tərəfindən qırılmasını dayandırasınız. Azərbaycan hökuməti lazım bilir ki, Qars vilayətinə İngiltərə, Fransa, İtaliya və Azərbaycan hökumətinin nümayəndələrindən ibarət qarışıq komissiya göndərilsin. Ona görə ki, baş verənlər dəqiqliklə araşdırılsın, günahkarlar cəzalandırılsın, yerli əhalinin arzularını öyrənilsin." (1, s.359)

Azərbaycan hökumətinin İngiltərə, Fransa, İtaliya və Azərbaycan hökumətinin nümayəndələrindən ibarət qarışıq komissiya yaradılması haqqındakı təklifi qəbul edildi. Belə qərara gəlindi ki, Qafqaz məsələsi Sülh konfransında həll olunanadək Qars vilayəti bundan sonra erməni və müsəlman qarışıq komissiyası tərəfindən idarə olunacaq. 9 nəfərdən ibarət komissiya yaradıldı. Lakin bir həftə sonra 19 apreldə erməni ordusu Qars vilayətinə daxil oldu və bu komissiyanı dağıtdılar, Qars vilayətinin mərkəzi hakimiyyətini öz əllərinə aldı və ətraf əraziləri ələ keçirməyə başladılar. Növbəti gün 20 apreldə müsəlmanlar ilk qurbanlarını verdilər: Baş-Gədiklər stansiyasında 7 müsəlman qatar vaqonundan çıxarılaraq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. (1, s. 396)

Qarsdakı məsələlər AXC parlamentində də müzakirəyə çıxarıldı. Parlamentin 9 mart 1920-ci ildə keçirilmiş 132-ci iclasında Şəfi bəy Rüstəmbəyov çıxış edərək bildirirdi: "Biz görürük ki, erməni hökuməti özünün tutduğu məsləkdən ayrılmayır. Öz xaniman söndürən siyasətini təqibdə davam

edir. Şimdi də Kars vilayəti müsəlmanlarını qırmağa, onların köylərini dağıtmağa başlamışdır. Oradan hər gün alınmaqda olan xəbərlərdən anlaşılır ki, Ermənistan sistematik bir üsul ilə öz planını icra edir. O istədiyi yerləri müsəlmanlardan təmizləmək siyasətini güdür. Bunu İrəvan quberniyasında və Bayazid qəzasında icra etdi. Bu kimi planını hazırda Kars vilayətində icra etməkdədir. Bu saat Kars vilayəti müsəlmanları başsız qalmışlardır. Adamları yoxdur ki, fəryadlarını Avropaya bildirsinlər. Soyuğun altında, açıq havada, səhralarda qırılıb tələf olmaqdadırlar. Ermənistanda onların təşkilatsızlıqlarından istifadə edirlər. Biz, onlara qardaşlıq əlimizi uzatmalıyıq. Biz, buna görə, parlamentdə hökumətə bir sual verdik, hökumətin nə kimi kömək fikrində olduğunu bilmək istərik." (3, s. 619)

Nəsib bəy Yusifbəyli məlumat verirdi: "Ermənilər Karsı, Sarı Qamışı, Ərdahanı işğal edib, əksəriyyəti müsəlman olan yerlərə nüfuz yetirməyə başladılar. Oraya gələn məmurlar əksəriyyətlə özlərini dövlət nümayəndəsi kimi aparırdılar. Dövlət nümayəndəsi adını daşıyanlar dəxi həqiqətlər göstərmədilər. Əksəriyyəti müsəlman olan yerlərdən onları çıxmağa məcbur etdilər. Ermənilər Kars, Ərdahan və Kars ətrafı yerlərdə qaldılar. Kars vilayəti əhalisi adi həyatla yaşayırdılar onların üzərinə dəfələrlə hücum etmək istədilər. Bunlar 28 fevrala qədər böylə yaşadılar. Ermənilər Ağbaba və Karsın bəzi yerlərinə nüfuz yetirməyib, əhalini təhti-idarələrinə alamadılar. Böylə hərəkətlərlə erməni hökuməti bütün dünyaya bildirmək istəyirdi ki, Kars əhalisi Ermənistanı tanımışdır..... Fevralın əvvəllərində ilk teleqraf gəldi: Erməni hökuməti qərar vermişdir ki, o yerlər ki, erməniyə tabe olmayır, top ilə alsınlar. ...Erməni qoşunları 24 ədəd müsəlman kəndlərini yer ilə yeksan edib, orada əhalini təmamən kəsmişlərdir.Uşaqları belə tonqala basmışlardır. Övrətlər də tələf edilmişdir, yerdə qalanlar da, qaçan qaçmışdır. " (3, s. 620-621)

Erməni general Osipyan yerli əhaliyə əmr göndərir ki, tabe olsunlar. Camaat da cavab verir ki, etibarlı adamların gəlməsini və danışıqlar aparılaraq bir qərara gəlməsini istəmişlər. Lakin Osipyan onlara qulaq asmadı. Müsəlman yaşayan kəndlərə (Viyanovka, Nəbdəvan, Qızıl Kilsə, Köyərçin, Qazançı, Balıqlı, Qaranamaz və b.) basqınlar edərək ümumilikdə 24 kəndi dağıtmışdır. AXC hökuməti çıxış yolu kimi bir komissiya yaradılması və əminamanlığı təmin etmək üçün Qars bölgəsinə göndərilməsini lazım bildilər. Erməni tərəfinə və Londona bu haqda məlumat verilmişdir. Lakin rəsmi cavab alınmamışdır. (Bax: 3, s. 621-623)

Parlamentin 132-ci iclasında Məhəmməd Əmin Rəsulzadə haqlı olaraq Qarsdakı müsəlmanların soyqırımlara məruz qalmasında Ermənistan rəsmi dairələrini günahlandırırdı: "Bu günlərdə Parisdəki Poqos Nubar paşadan gələn məlumatı oxuduq. Bu məlumatdan anlaşılır ki, vahid Ermənistan məsələsi həll edilmək üzrədir. Bu barədə tədabir ittixaz edilməkdə olduğunu da xəbər verirlər. Fəqət, biz bilirik ki, Kars tərəfinə vahid Ermənistanın mərkəzi kimi baxırlar. Bu xəbərləri Karsdan gələn xəbərlərlə müqayisə etsək, anlaşılır ki, bu son hərəkət süni bir Ermənistan düzəltmək məqsədindən ibarətdir. Onlar, kağızlarda verilən diplomatik cəvablara müzakirə əsnasında Kars vilayətində erməni əksəriyyəti təşkil etmək istəyirlər. Bu mənanı buradan çıxarmaq məncə o qədər də müşkül deyildir." (3, s. 625)

Aşağıdakı sənəd Qarsdakı, elecə də Azərbaycanın digər regionlarında ermənilər tərəfindən törədilən soyqırımlarının Ermənistan rəsmi dairələri tərəfindən planlı şəkildə həyata keçirilirməsinə əsas verən faktlardandır. RSFSR Xalq Komissarları Sovetinin 29 dekabr 1917 -ci il tarixli "Türkiyə Ermənistanı haqqında" dekretində elan edilirdi ki, Rusiyanın Fəhlə və Kəndli hökuməti Rusiya tərəfindən işğal edilmiş "Türkiyə Ermənistanı" ermənilərinin tam müstəqilliyə qədər azad sürətdə öz müqəddəratını təyinetmə hüququnu müdafiə edir. Dekretin mühüm bəndlərinin həyata keçirilməsində "Türkiyə Ermənistanı" əhalisinə hər cür yardım etmək Qafqaz işləri üzrə müvəqqəti komissar S.Şaumyana tapşırılırdı. (8, s. 7) S.Şaumyan erməni idi. Deməli o hər addımında erməniləri dəstəkləyəcəkdi.

Qarsdan olan qaçqınlara xeyriyyə qurumları da yardım göstərirdilər. İrəvan quberniyası və Qars vilayətindən qaçqın düşmüş türk-müsəlman əhaliyə yardım məqsədilə 1919-cu ilin noyabrında Himayədarlıq Nazirliyinin nümayəndəsi yol boyu ağır vəziyyətdə olan qaçqınları yeməklə təmin etmək üçün Tiflisə ezam edildi. Azərbaycanlı qaçqınlar iki yerdə - Aşağı Seral stansiyasında və Tiflisdən 300 verst aralıda yaradılmış qaçqın düşərgələrində yeməklə təmin olunurdular. Himayədarlıq Nazirliyi qaçqınlarla bağlı fəaliyyətini 1920-ci il aprelin 27-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına və Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər davam etdirmişdir. (6, s. 459)

Himayədarıq Nazirliyi Müsəlman Xeyriyyə cəmiyyətinin vasitəçiliyi ilə Qars əyalətindən qaçqın düşərək Bakıda məskunlaşan 700 nəfərin gündəlik çörəklə təminatını öz üzərinə götürmüşdü. Höku-

mət 1919-cu ilin noyabrından 1920 il yanvarın 1-dək olan dövrdə buna 526.19 5 manat məbləğində pul xərcləmişdi. (7, s. 100)

Birinci dünya müharibəsi (1914-18) dövründə Azərbaycanın bir sıra yaşayış məntəqələrində fəaliyyət göstərmiş "Qardaş köməyi" təşkilatının toplusunda əsasən, Qars vilayəti ətrafında zərər çəkmiş müsəlman qaçqınlarının həyatına həsr olunmuş məqalələr dərc edilirdi. Toplunun əsas mühərrirləri Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad, Hüseyn Cavid, Firidun bəy Köçərli, Seyid Hüseyn, Abdulla Şaiq, Şəfiqə xanım Əfəndizadə idi. (7, s. 140)

Qarsdakı soyqırımlar 1921-ci ilədək davam etdi. Ermənilərin qırğınları nəticəsində Qars ərazisində 205 min müsəlmandan 50 mini qaldı. (1, s. 423)

Təkcə 1919-cu ilin əvvəlində Qarsda 9 millət vəkili qətl edildi. (10, s.28)

1921-ci il martın 16-da Moskvada Sovet Rusiyası ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında müqavilə imzalandı.... Müqavilə Türkiyənin şimal-şərq sərhədlərinin toxunulmazlığını təmin edirdi. Birinci maddəyə uyğun olaraq SSRİ ilə Türkiyə arasında şimal-şərqi sərhəd müəyyən edildi. Bu sərhəd Ərdahan və Qars sancaqlarının şimalındakı inzibati sərhəddən – Arpaçayın və Araz çayının Talveçi üzrə Aşağı Qarasuyun mənsəbinədək olan sahədən keçirdi. 1921-ci il sentyabrın 26-da Qarsda Zaqafqaziya – Türkiyə konfransı açıldı. Konfransın işi Zaqafqaziya respublikaları ilə Türkiyə arasında dostluq haqqında müqavilənin imzalanması ilə başa çatdı. Məzmununa görə Qars müqaviləsi Moskva müqaviləsi ilə eyni idi. (9)

Bu gün Ərzurum, Qars. Van, Bitlis, Muş, Sivas. Ankara bölgələrində ermənilər tərəfindən qətlə yetirilmiş türklərin 100-ə yaxın kütləvi məzarlığı mövcuddur. Bunların beşində minlərcə insanın skletləri tapılmışdır. (7, s. 379)

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə. II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı. Bakı 2011
2. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Parlament. Stenoqrafik hesabatlar. İki cilddə. I c. Bakı 1998
3. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Parlament. Stenoqrafik hesabatlar. İki cilddə. II c. Bakı 1998
4. Arşiv belgeleriyle ermeni faaliyetleri. 1914-1918. 8 ciltde. I c. Ankara 2005.
5. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasi və Azərbaycan Milli Şurası iclaslarının protokolları, 1918-ci il. Bakı 2006
6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I c. Bakı 2004
7. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II c. Bakı 2005
8. Haciyev Aydın. Qars ve Araz – Türk respublikalarının tarixində. Bakı 1994
9. Hacıyev İsmayıl. Qars müqaviləsi və Naxçıvanın taleyi. http://old.525.az/view.php?lang=az&menu=7&id=34078&type=1
10. Nəcəfli Güntəkin. Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgələrində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlar (1918-1920). Bakı, "Turxan", 2014
11. www.kars.gov.tr


## GENOCIDE IN THE REGION OF KARS
## SUMMARY


In the article genocide committed by Armenians in Kars region, the measures taken to prevent the genocide of the Azerbaijan Democratic Republic government and charitable societies, the negative impact of the World War I in the Caucasus front was widely elucidated. The document collections, in a number of scientific literature and articles have been used for writting of the article. A number of documents used in the article were brought to the scientific literature for the first time.


## ГЕНОЦИД В КАРСКОМ РЕГИОНЕ
## РЕЗЮМЕ


В статье широко освещен геноцид, совершенный армянами в Карском районе, меры, принятых правительством Азербайджанской Демократической Республики и благотворительных обществ для предотвращения геноцида, отрицательное влияние Первой мировой войны на Кавказском фронте. Для написания статьи были использованы сборники документов, ряд научных публикаций и статей. Ряд документов, использованных в статье, впервые были приведены в научной литературе.

# Üçüncü bölmə

# XX ƏSRDƏ QAFQAZ, VOLQABOYU VƏ MƏRKƏZİ ASİYA XALQLARINA QARŞI SOYQIRIMLARI VƏ DEPORTASİYALAR

*Д.и.н., проф.* **Иоганн РАУ**
*Научный форум по международной безопасности при Академии штабных офицеров Бундесвера (Гамбург) и Академии защиты Отечества (Вена)*

## РОССИЙСКИЕ НЕМЦЫ: НЕКОТОРЫЕ АСПЕКТЫ ИСТОРИИ, КОЛОНИЗАЦИИ И ДЕПОРТАЦИИ

**Açar sözlər:** müstəmləkəçilik, deportasiya, Rusiya almanları, yazıçılar, dövlət xadimləri
**Keywords:** colonization, deportation, history of Russian Germans, writers, state figures
**Ключевые слова:** колонизация, депортация, история Российских немцев, писатели, государственные деятели.

С конца восемнадцатого и до середины девятнадцатого возникло множество поселений немцев в Российской империи. Целый ряд их возник в среднем и южном Поволжье между 1763-67 годами. С 1787 года поселения немцев появляются при содействии Александра I (император 1804 - 1809) на Украине. Последующие властители России способствовали их появлению в Бессарабии, в Крыму и на Кавказе. (1)

С началом 1763 года по городам немецких микрогосударств ходили глашатаи, приглашавшие от имени императорского Дома желающих переселиться в Россию на свободные земли и на весьма выгодных условиях: дорога будет им оплачена российской казной, они въедут в уже готовые дома, получают бесплатно землю, беспроцентную ссуду, не будут призываться на воинскую службу, не платить налогов и торговать беспошлинно. Любой когда либо хозяйствовавший человек, да и не хозяйствовавший, понимал - условия сказочные, да и гарантирует сама императрица - Екатерина II. (2)

О внешнем виде типичного дома немца-колониста можно прочесть у Гоголя при описании дома Собакевича: "...посреди виднелся деревянный дом с мезонином, красной крышей и тёмно-серыми или лучше, дикими стенами, - дом вроде тех, как у нас строят для военных поселений и немецких колонистов" (3). Более подробно создание домов для переселяющихся немцев описано у Игоря Плеве: "С ранней весны 1764 в местах, определённых под первые пять колоний, работали бригады плотников из различных близлежащих русских сёл. Так, на строительстве домов в колонии Шиллинг (Сосновка) было задействовано 60 плотников из государственных крестьян села Новые Бураны. Дома в колонии Антон (Севостьяновка) строили 27 человек из Керенского уезда. ... К 1768 году было построено 3453 дома, и в течении того же года ещё 998 домов" (4)

Приглашённым предоставлялась свобода вероисповеданий, они могли из перечисленных местностей поселиться там, где пожелают, самостоятельно решать общие дела своих поселений, получали в полное владение на семью тридцать десятин земли бесплатно, с правом передачи по наследству, но без права продажи. Проезд колонистов до места проживания оплачивала русская казна. На время переезда семье переселенца предоставлялись так называемые "кормовые" деньги (около 20 рублей). Каждая семья получала крупную ссуду в 200 рублей, две лошади при стоимости каждой от 8 до 9 рублей и одну корову стоимостью от 5 до 6 рублей. Сточки зрения среднего русского крестьянина это были громадные суммы: ведь только за одни "кормовые" деньги можно было бы купить не менее 3 коров! Местные власти отвечали за обеспечение прибывших орудиями труда, семенами, предметами домашнего обихода и кухонную утварь, вплоть до ложек! (Немец, очевидно, такие списки составлял). Там, где климатические и почвенные условия позволяли разводить сады, переселенцам выдавались саженцы плодовых деревьев (5).

Исследователь Гурко отмечал:" В то время как русский крестьянин ежегодно десятками тысяч переселялся в далёкие тундры Сибири, наши западные окраины ... наводняются немецким пришельцем, мирно, но стойко и неуклонно отодвигающий наши этнографические границы к востоку" (6) В эти же времена десятки тысяч россиян вообще покидали Российскую империю (старообрядцы и др.). В годы Первой мировой войны Германия не оставляла вне

поля зрения немецких колонистов в России. Сотрудники министерства иностранных дел подготовили для министра доклад, в котором два миллиона немцев-колонистов были выделены как этническая группа с самым высоким уровнем рождаемости в Европе (7)

Невольно вспоминается озвученная примерно в 1906 году провидческая этническая стратегия египетских братьев-мусульман: они тогда утверждали, что можно исламизировать Европу безо всяких войн, а через "животы наших женщин", т.е. путем высокой деторождаемости у традиционных семей мусульман, а это в настоящее время и происходит во всей Западной Европе.

Не обижали немцев - переселенцев в Российской империи и сто лет спустя. При графе Михаиле Сперанском в 1839 году переселения немцев продолжались. И вот как описывает результаты их колонист Богдан Богданович Шульцвейн, имевший тридцать тысяч десятин земли: "Мой дет, видите ли, переселился при графе Сперанском, около сорока лет назад; мы пешком пришли сюда, с котомками, дед и отец мой несли старые саксонские сапоги за плечами ... на днях купил я землю ... съездил потом на Дон принанять степи для нагула овец ... места стало уж нам, колонистам, мало ... Так-то-с, не удивляйтесь! Наши кое-кто уже в Крыму ищут земель, на Амур послали депутатов присмотреться насчёт занятия земель под колонии ... У меня семьдесят пять тысяч голов овцы в разных местах ... У меня и свои корабли теперь тут есть. Два года уже как завёл. Сам на своих судах и шерсть с своих овец прямо в Бельгию отправляю" (8). В этих словах колониста не упоминается ни о государственной помощи, ни о выгодных кредитах. И получается, что эта крестьянская семья - финансовые гении, за сорок лет поднявшиеся от нуля к миллионному состоянию

Одно из первых автономных образований России - Немцев Поволжья трудовая коммуна /Автономная область немцев Поволжья, столица г. Маркс, ранее Баронск, Ектериненштадт/ была создана в 1918 году по личному указанию В. Ленина и просуществовала до 1924 года.

Немцев Поволжья Автономная Советская Социалистическая Республика (столица г. Энгельс /прежде - Покровск/) была создана 19.12.1924 в составе РСФСР и расформирована Сталиным 28.8.1941 г., а население (более 610 000 человек) депортировано в 24 часа в грузовых вагонах частично в Сибирь, частично в республики Средней Азии ( в основном - в Казахстан) и другие места. По ходу депортации и в первые месяцы по прибытию на новые места, чаще всего непригодные для проживания, около 300 000 депортированных погибло от голода, холода, болезней, связанных, как правило с истощением. Многие были просто убиты как "фрицы", как "враги народа", а многие девушки и женщины - изнасилованы (нередко за кусок хлеба).

Молодые мужчины, служившие в СА, были изъяты со службы, несмотря на их заслуги и отправлены в Трудовые армии на самые физически тяжёлые работы (шахты, лесоповал, строительство ж.д. и др.) так же приведших к гибели многих. До 1956 года советские немцы стояли под комендантским учётом, должны были каждые полмесяца отмечаться комендатуре и только с разрешения коменданта. До 1963 года немцев целенаправленно отсеивали при поступлении в московские, ленинградские и киевские вузы. Рождаемость у немцев была большой (крепкие традиционные семьи, большая религиозность), местами сравнимая с таковой у местного мусульманского населения, и к началу XXI века более полутора советских немцев вернулись на свою историческую родину. Примерно 250 000 остались в Казахстане и столько же в России. Часть немцев, в основном сель хозяйственные рабочие вернулись в Россию и Казахстан. По данным Радиокомитета Казахстана, в республику вернулось не менее 9. 000 человек в северные регионы страны.

Немецкие автономные районы и ныне имеются в Новосибирской и Омской областях, в Алтайском крае. В семидесятых годах прошлого века была предпринята попытка создания автономного образования немцев в весьма живописном Балкашинском районе на севере Целиногадской области, но протесты казахского населения области и страны были настолько интенсивны и широки, что партийное руководство республики и союза отказались от этого плана. Так что 1986 год не был первым годом массового протеста казахского населения.

*2. Русско-немецкие и русские писатели и историки о привилегированных немцах России.*

Первую заметную работу о положении привилегированных немцев в России, вышедшую в свет в 1844 году, написал российский немец, путешественник и литератор, друг А.С. Пушкина Филипп Вигель, от которого и идёт выражение "Россия захвачена немцами". У Александра Герцена (его мать - немка Луиза Гаак) в статье "Русские немцы и немецкие русские" у него есть слова "правительствующая у нас Германия". Это из отрывка: "Собственно немецкая часть правительствующей у нас Германии имеет чрезвычайное единство во всех семнадцати или восемнадцати степенях табели о рангах. Скромно начинаясь подмастерьями, мастерами, гезелями, аптекарями, немцами при детях, она быстро всползает по отлогой для неё лестнице - до немцах при России, до ручных Нессельроде, цепных Кляйнмихелей, ...Беккендорфов, ... Адлербергов". В "Былое и думы", в главе LVII : "Немцы в эмиграции" автор вспоминает и известного тогда немецкого политика Руге: "Руге писал мне, что Россия один грубый материал, дикий и неустроенный, которого сила, слава и красота только оттого и происходят, что германский гений ей придал свой образ и подобие". А Руге, считавший русскую "высокую" культуру привнесенной немцами, был прогрессивный, по тем временам, человек, бывший младогегельянец, политик и публицист, сотоварищ Маркса в издании "Немецко-французского ежегодника "/1844/, позднее -радикальный демократ и член Франкфуртского парламента /1848 - 1849/, после разгона парламента эигрировавший в Англию. В этой же работе (глава ХХУ1) Герцен даёт неприглядное описание немцев на государственной службе "нечто лемуровское, долговязое, нерасторопное, тянущееся. У них мозг действует медленно, не сразу схватывает и долго работает, чтоб дойти до какого-нибудь заключения".

Немцев-администраторов на русской государственной службе и дух немецкого чиновничества критикует и Ф.М. Достоевский. Вот описание одного из губернаторов-немцев: "Андрей Антонович фон Лемке относился к тому фаворизированному (породой) племени, которого числится по календарю несколько сот тысяч и которое, может и само не знает, что составляет в ней всею своей массой один строго организованный союз. И, уж разумеется, союз не предумышленный и не выдуманный, а существующий в целом племени сам по себе, без слов и без договору, как нечто нравственно обязательное, и состоящий во взаимной поддержке всех членов этого племени одного другим всегда, везде и при каких бы то ни было обстоятельствах. Андрей Антонович имел честь воспитываться в одном из тех высших русских учебных заведениях, которые пополняются юношеством из более одарённых связями или богатством семейств ...учился довольно туго ... карьера его устроилась. Он всё служил по видным местам, и всё под начальством соплеменников ... умел войти и показаться, умел глубокомысленно выслушать и замолчать, схватил несколько весьма приличных осанок, даже мог сказать речь, даже имел некоторые отрывки и кончики мыслей, схватил лоск новейшего необходимого либерализма" (Ф.М. Достоевский. "Бесы", часть вторая. Глава четвёртая.).

Изрядно досталось российским немцам и в книг не историка, немца Михаила Константиновича Лемке (9) Лемке указывает на то, что простой народ знал немцев, главным образом с "начальственной" стороны, как наполнявших управленческую административную и государственную прослойку. Немцев-колонистов он знал в меньшей степени, поскольку те жили отдельными селениями. Указывал Лемке и на то, что "Романовы-Гольштейн- Готторты "не одарены умом и сердцем".

Историк Евгений Тарле в своей монографии "Наполеон" прямо указывал на Россию как на "вотчину семьи Голдьштейн-Готторпов, присвоивших себе боярскую фамилию вымерших Романовых"(10).

## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА

1. См.: Dralle L. Die Deutschen in Ostmittelß und Osteuropf. Ein Jahrtausend europäischen Geschichte. Darmstadt 1991.
Danışıqlarda ermənilərin ərazi muxtariyyəti iddiası da müzakirə olunmuşdur. Gürcülər Batum limanının onlarda qalması şərtilə erməniləri ərazi muxtariyyəti iddiasından çəkindirməyə, ermənilər isə Osmanlı ərazisindən qaçmış ermənilərin öz yerlərinə qaytarılması və onlara muxtariyyət verilməsi şərtilə Batum məsələsində gürcülərə təzyiq göstərəcəklərini vəd edirdilər. İstər Trabzon, istərsə də Batum (11 may - 4 iyun 1918-ci il) konfransları gedişatında ermənilər iddialı ərazilərdə etnik təmizləmə siyasəti yürüdürdülər. Qars vilayətində erməni hərbi hissələri və silahlı qaçqınları irəliləyən türk qoşunları qarşısında geri çəkilərkən yollarında müsəlman kəndlərini yer üzündən silir, oddan-qılıncdan keçirirdilər. Seymin müsəlman fraksiyalarının aprelin 15-dəki birgə iclasında A.X.Qantəmirovun məlumatına görə 82-dən çox müsəlman kəndi təsvirəgəlməz talana məruz qalmış, bütün Qars vilayəti nəhəng qəbiristanlığı xatırladır (14, s.96).

Seymin müsəlman fraksiyasının 1 may tarixli iclası Trabzon sülh konfransının üzvü M.-H.Hacınskinin məruzəsinə həsr olunmuşdu (14, s.97-100). Cənubi Qafqazın siyasi quruluşu ilə bağlı Ənvər Paşanın mövqeyini aydınlaşdıran məruzəçi bildirmişdir ki, üç əsas hissələr: Azərbaycan, Gürcüstan və Ermənistanın ümumi federasiya təşkil edərək Türkiyə ilə sıx ittifaqda olması nəzərdə tutulmuşdur. Müştərək qurum baş tutmazsa, müstəqil Azərbaycan variantı da müzakirə olunmuşdur. Ermənistanın müstəqilliyinə münasibət bildirmiş Ənvər Paşa erməni xalqının ingilis-rus siyasəti naminə türklər əleyhinə fitnə-fəsadlarını dayandırarsa, Türkiyənin müstəqil erməni dövlətinin təşkili əleyhinə olmadığını söyləmişdir (14, s.100).

Sonrakı müzakirələr zamanı da Gürcüstan, Ermənistan və Azərbaycanın Şimali Qafqazla birlikdə konfederasiyası ideyası hərtərəfli dəstəklənmişdir (14, s.101).

Seymin müsəlman üzvləri son iclaslarında Gürcüstanın müstəqilliyi bəyan ediləcəyi təqdirdə Azərbaycanın da müvafiq addım atacağı qərarına gəlmişdilər (14, s.114).

Qafqazda erməni dövlətinin yaradılması beynəlxalq qarşıdurma münasibətləri müstəvisində gerçəkliyini tapan məsələ olmuşdur. Brest-Litovsk müqaviləsi ilə geri aldığı ərazilərə Cənubi Qafqaz Seymi ilə müharibədə hərb yolu ilə sahib olan Osmanlı dövlətinin Batum danışıqlarında mövqeyi daha da sərtləşdi. Batum konfransının ilk iclasında Osmanlı dövləti 14-21 aprel 1918-ci il tarixində Cənubi Qafqaz Seymi ilə aparılmış müharibənin nəticələrindən çıxış edərək yeni tələblər irəli sürmüşdü: Tiflis quberniyasının Ahısqa və Axalkələk qəzaları; İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, həmçinin Qars-Aleksandropol-Culfa dəmir yolu. Osmanlı dövlətinin bu tələbləri Seymin nümayəndə heyətində fikir ayrılığını dərinləşdirdi, "mövqelərin qütbləşməsi, xarici güclərə meyillənmənin qüvvətlənməsi baş verdi" (1, c.1, s.246). Elə bu səbəbdən, iki həftədən artıq vaxt keçməsinə baxmayaraq, Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə təqdim etdiyi ultimatuma cavab almamışdı. Seymin gürcü nümayəndələri Almaniyanın himayəsində ayrıca dövlət yaratmağı qərara aldılar. Gürcü fraksiyası Batumda Almaniya nümayəndəliyi ilə gizli danışıqlar aparırdı. Batumda və Tiflisdə cərəyan edən hadisələr haqqında məlumatlı olan sədr-əzəm Tələt paşa Xəlil bəy Menteşəyə göndərdiyi 25 may tarixli teleqramında bildirirdi: "Son şifrənizi Məclis-i Umumidə oxuduq və uzun-uzadı müzakirə etdik. Son ərz etdiyim şəkildə ittifaq hasil oldu. Yəni dərhal ultimatum vermək və qəbul etmədikləri təkliflərimizi qüvvə ilə qəbul etdirmək.

Əgər gürcülər ayrı və müstəqil bir hökumət təşkil edərlərsə, ayrıca müzakirə edərik. Şimali və Cənubi Qafqaz müsəlmanlarının ayrıca müstəqil bir hökumət təşkil etməsi, dərəcəyi-istiqlal və

irtibatlarının təyini sonradan düşünülür. Gürcülərlə müsəlmanların erməni məsələsi həll edildikdən sonra birləşmələri imkanı vardır. Zat-ı dövlətləri indidən bu cəhətə çalışa bilərsiniz…" Elə həmin gün Tələt paşa tərəfindən Xəlil bəyə göndərilən növbəti teleqramda deyilirdi: "Gürcülərlə və müsəlmanlarla ayrı-ayrı dostluq müqavilələri bağlamaq daha üstün tutulur. Sonradan ordumuz intizamı təmin və hökuməti təşkil etmək üçün gedər. Və hökumət təşəkkül etdikdən sonra Dövlət-i Aliyyə ilə münasibətini təyin edərik".(11) Tələt paşa erməni dövlətinin yaradılmasının gələcəkdə Türkiyə üçün yarada biləcəyi problemləri öncədən görürdü və elə buna görə də erməni dövlətinin yaradılmasına imkan vermək istəmirdi: "…Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən tərəfdar deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcəkdir. İran və Amerikada olan bütün ermənilər orada toplanacaq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla əcəmlərlə birlikdə bizim əleyhimizə hərəkət edəcəklər. Bu səbəbdən mümkün olsa, çibanı kökündən təmizləmək ən xeyirli iş olacaqdır. Bu mümkün olmadığı təqdirdə Ermənistanın çox zəif və yaşamayacaq şəkildə təşəkkül etməsi zəruridir…".(11)

Ənvər paşa da eyni mövqedən çıxış edirdi: "Xəlil bəyin teleqramından anlaşıldığına görə ermənilər bizdən kaybetdikləri ərazilərə müqabil Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna muvafakat edəcəklərmiş. Məncə bu tamamilə yanlışdır. Əgər bu gün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə əmrləri Amerikadan alaraq, o tərəfdən gələn ermənilərlə bu hökumət milyonlarla əhaliyə sahib olacaqdır. **Və bizim üçün şərqdə bir Bolqarıstan daha yaranar ki, bu da bizim üçün Rusiyadan daha zərərli bir düşmən olar. Çünki ermənilərin bütün mənafe və əməlləri bizim məmləkətimizdədir.** Dolayısıyla, bu təhlükəni indidən ortadan qaldırmaq üçün ermənilərin kiçik bir hökumət halında belə təşəkkül etməməsini və müsəlmanlarla gürcülər arasında, bizim qüvvətlərimizin yardımı və təsirinin ən çox olduğu bu dövrdə bölüşdürülməsini, müsəlmanların ermənilərə heç bir haqq və ərazi verməmələrini təmin etməyi və bununla yanaşı, bu gün ermənilərin əlində olan müsəlmanların yaşadıqları İrəvan kimi məntəqənin belə müsəlmanlar tərəfindən işğal edilərək, bu surətlə müsəlmanlar yaşayan yerlərin ermənilərin əlindən qurtarılmasına xüsusilə cəhd göstərilməsini üstün tuturam. Mənafeyimizə ən çox uyğun olan bu şəkil gerçəkləşməzsə, onda ermənilərə də bir mövcudiyyət verilməsi qaçılmaz olar. Belə olan təqdirdə, ermənilərin gələcəkdə vücud bularaq yaşamayacaq surətdə olduqca çox zəif bir halda bırakılmalarına çalışmaq lazımdır. Həm hökumətimizin, həm də Qafqazdakı müsəlmanların indiki və gələcəkdəki mənafeləri ancaq bu surətlə təhlükədən qurtarıla bilər…".(11)

Tələt və Ənvər paşalardan fərqli olaraq Xəlil bəy və Vehip paşa ermənilərin istəyini və real vəziyyəti nəzərə aldıqlarını bildirirdilər. Xəlil bəy Tələt paşaya göndərdiyi 28 may 1918-ci il tarixli şifrəli teleqramında yazırdı:

"…Vehib paşa həzrətləri … Gümrüdə beş min evdən yalnız iki yüz evin müsəlman olduğunu və Aleksandropol sancağında iki yüz əlli min erməni bulunduğunu və bizə ilhaqdan sonra nə yolda idarə edilə biləcəyində çaşqın bulunduğunu söylədi. Yüzdə səksən beşi erməni olan Axalkələk qəzasıyla digər yerlərlə bərabər olduqca dağlıq və sarb bir məmləkətdə dörd yüz minə yaxın erməni başımıza alıyoruz deməkdir. İnşaallah sonunu xeyirli etsin. Rus ermənilərinin bizimkilərin tərbiyəçisi və müəllimi olduğunu da nəzəri-diqqətə alıram. Hərhalda çox xətalı bir yolu təqib etməkdə olduğumuzda israr edirəm. Ermənilərin Bolqarıstana bənzədilməsi fərqli müqayisədir. Bolqarıstan Avropada və İstanbul yolunun üzərindədir. Böyük Slavyan ailəsinin cüzi və böyük bir siyasət pişdarıdır və bizi İstanbula doğru sıxışdıraraq arxasını böyük xristian dövlətlərinə istinad etdirmişdir. Asiyada və böyük türk dövlət və millətlərin əhatəsində qalacaq olan ermənilərin qonşularına tabe olmaqdan başqa çarəsi yoxdur. Bu günkü yarım tədbir həm bizi, həm də Qafqazı yakacakdır və bəlkə məsələni daha da çətinliyə yuvarlayacaqdır…"(11). 1918-ci il mayın 28-də ermənilər müstəqil dövlət yaratdıqlarını bəyan etdikdə belə, azərbaycanlıların hansı addımı atacaqlarından narahat idilər. Azərbaycanın müstəqil dövlət olacağı yaxud Osmanlı dövləti ilə ilhaqı seçimini güman edən ermənilər təşviş içində Azərbaycan Milli Şurasının qərarını gözləmiş və nəticədən daha artıq şadyanalıq keçirən onlar olmuşdur.

Zaqafqaziya Seyminin keçmiş müsəlman üzvlərinin fövqəladə 27 may tarixli iclasında Batumdan qayıdan Nəsib bəy Yusifbəyli məruzə edərək Türkiyə nümayəndə heyətinin mövqeyini bildir-

mişdir (14, s.117-118). Türkiyənin Cənubi Qafqazın müstəqilliyinin saxlanmasında qəti qərarlı olduğu və gənc dövlətin möhkəmlənməsi, güclənməsi işində öz köməyini göstərməyə hazır olduğu türk nümayəndə heyəti adından iclas iştirakçılarına çatdırıldı. Türkiyə nümayəndə heyətinin fikrincə, Cənubi Qafqazın güclənməsinin ən başlıca təminatının buradakı xalqların həmrəyliyi, birliyi olduğu, buna nail olmaq üçün *azərbaycanlılar tərəfindən ermənilərə bir sıra ərazi güzəşti edilməsinin zəruri olduğu göstərilmişdir.*

Beləliklə, 1918-ci il mayın sonunda Zaqafqaziya Seyminin üzvləri müştərək mövqe nümayiş etdirmək iqtidarında deyildilər. *Regionla maraqlı xarici qüvvələrin təzyiqləri qarşısında öz mənafelərini uzlaşdırmağa cəhd göstərən yerli, siyasi qüvvələrin hakimiyyət təmsilçilərinin tam sərbəst qərar vermək imkanları məhdud olduğu kimi, öz xalqlarının müqəddəratı baxımından real şəraitdə yetərli gücə (hərbi, siyasi, maliyyə-iqtisadi) malik ola bilməmələri, bu səbəbdən xarici himayəyə möhtac məcburiyyətində dayaq qüvvə seçimi, birgə fəaliyyəti çıxılmaz hala gətirmişdi.*

Rusiyanın bolşevik hakimiyyətinin Qafqazı, xüsusən də Bakını ciddi-cəhdlə əldə saxlamaq siyasəti, Böyük Britaniya hərbi qüvvələrinin regiona – Xəzər hövzəsinə israrlı müdaxilə səyləri, Almaniya-Osmanlı münasibətlərində gərginlik, Cənubi Qafqaz Seymi ilə Osmanlı dövləti arasında müharibə səviyyəsinə çatan siyasi-hərbi qarşıdurma, Gürcüstanda Almaniya təsirinin güclənməsi şəraitində Seymin Azərbaycandan olan təmsilçiləri bolşevik-daşnak qüvvələrinin Bakıda və digər qəzalarda müsəlmanlara qarşı törətdikləri kütləvi qırğınların qarşısını almaq zərurəti ilə Osmanlı dövlətini yeganə nicat yeri görürdülər. Ermənilərin vaxtilə köçürülərək yerləşdirildikləri bir sıra ərazilərin Osmanlı dövlətinə güzəştə gedilməsi nəticəsində mövqelərinin güclənəcəyi qənaətində idilər. Ermənilərin «ingilis-rus siyasəti naminə türklərə qarşı fitnə-fəsadlara son qoyacaqları» şərtilə müstəqil dövlət yaratmalarına Türkiyənin razılıq verməsi Azərbaycan təmsilçilərinin dəstəkləmək seçimini müəyyənləşdirdi.

Rusiya imperiyasının köçürmələri və himayəsi nəticəsində Cənubi Qafqazda erməni varlığı real, hesaba alınmalı faktora çevrildi. Cənubi Qafqazda marağı olan bütün xarici dövlətlər bu regionda onların nüfuzu altında sabit vahid idarəçilik formasına üstünlük verirdilər. Bu layihənin baş tutmasında başlıca əngələ çevrilən erməni separatizmi fərqli forma və məzmunda mütəmadi olaraq ümumi vəziyyəti çıxılmaz böhran həddinə çatdırırdı. Ermənilərin dağıdıcı mövqeyini təcrid etmək məqsədilə Osmanlı dövləti nəzarəti altına aldığı Eçmiədzin və Aleksandropol (Gümrü) ərazilərinin müqabilində İrəvanın siyasi mərkəz kimi yaradılacaq erməni dövlətinə keçməsini məqbul saydı. Bu addımı «tarixi zərurət, qaçılmaz bəla» kimi qəbul edən Azərbaycan Milli Şurası 1918-ci il mayın 29-da Tiflisdə, 19 nəfərin adı göstərilən sayca 3-cü iclasında İrəvanı ermənilərə güzəştə getdi (14, s.130). İclasın açılışında Şura üzvü F.Xoyski Şura nümayəndələrinin Erməni Milli Şurasının nümayəndələri ilə Azərbaycan və *Erməni federasiyası* ərazilərinin sərhədlərinə dair danışıqlarının nəticələri haqqında məruzə edir. Məruzəni bitirərkən F.Xoyski bildirir ki, Erməni federasiyasının yaradılması üçün onlara siyasi mərkəz lazımdır, Aleksandropolun Türkiyəyə keçməsindən sonra belə mərkəz yalnız İrəvan ola bilər, ona görə də İrəvanın ermənilərə güzəşt edilməsi qaçılmazdır.

Məsələ ilə bağlı Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxzülislamov, Məhəmməd Məhərrəmov çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsini tarixi zərurət, qaçılmaz bəla adlandırırlar. Məsələyə dair səsvermənin nəticələri protokolda belə qeyd olunmuşdur: 28 ümumi saydan 3 bitərəf olmaqla İrəvanın güzəşti lehinə 16 səs, əleyhinə 1 səs verilmişdir.

Protokolda təsbit olunmuş ifadəyə görə erməni dövlətinin Erməni federasiyası formasında yaradılacağının nəzərdə tutulduğu diqqətə alınmalıdır. İrəvanın güzəştə gedilməsinə dair səsvermədən dərhal sonra ermənilərlə konfederasiya təşkil etmək haqqında məsələnin müzakirəsinə keçilmişdir. Qısa fikir mübadiləsindən sonra bu məsələ də səsverməyə qoyulmuş və Azərbaycanla Ermənistanın gələcəkdə konfederasiya tipli quruluş qaydası yekdilliklə qəbul olunmuşdur (14, s.131).

Zaqafqaziya Seymi dağıldıqdan sonra erməni Milli Şurası Tiflisdə Ermənistan (Ararat) Respublikasının yaradıldığını elan etdi. Onun ərazisi Osmanlı dövləti ilə bağladığı müqaviləyə görə 10 min kv.km müəyyən edilirdi. Ermənilər tərəfindən O.R.Kaçaznuni, A.Xatisyan və M.Papacanovun imzaladıqları 14 maddədən ibarət Batum müqaviləsinə əsasən Eçmiədzin və Aleksandropol Türkiyəyə keçir, Türkiyə Aleksandropol-Culfa dəmiryolundan istifadə etmək hüququ alırdı. Ararat Respublikasının sərhədi İrəvan yaxınlığından keçirdi, ixtiyarında cəmi 6 km-lik dəmir yolu qalmışdı (1, c.1,

s.248). Erməni hökuməti də gürcü hökuməti kimi öz ərazisində yaşayan müsəlman əhalisinin təhlükəsizliyini, azad inkişafını təmin etmək, ana dilində təhsil almaq, dini ayinlərin sərbəst icrasına şərait yaratmaq haqqında təəhhüd götürürdü.

İrəvanın ermənilərə güzəşt edildiyi gün, mayın 29-da hökumət başçısı F.Xoyski Batumda olan Xarici İşlər naziri M.H.Hacınskiyə yazırdı: «Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəyə son verəcəklər. Biz İrəvanı onlara güzəştə getdik». İrəvan quberniyasının da daxil olması mütləq sayılan Azərbaycan muxtariyyəti artıq müstəqil dövlət kimi bəyan ediləndə İrəvandan məhrum olur. Bu məhrumiyyətlə barışmaq istəməyən əslən İrəvandan olan Şura üzvləri Mir Hidayət Seyidovun, Bağır Rzayevin və Nəriman bəy Nərimanbəyovun imzaladıqları İrəvan şəhərinin Erməni Respublikasına güzəştə gedilməsinə dair etirazı Milli Şuranın 1 iyun tarixli növbəti, 4-cü iclasında səsləndirildi (14, s.132). Milli Şura protesti müzakirə olunmadan iclas protokoluna əlavə etməyi qərara aldı. Elə həmin iclasda Şura üzvləri İrəvan şəhərinin Erməni Federasiyasına güzəşt edilməsi məsələsi və qaçqınlara yardımın təşkili ilə əlaqədar İrəvana nümayəndə heyətinin göndərilməsinin zəruriliyi məsələsini qaldırırlar. Təklif qəbul olunur və nümayəndə heyətinin tərkibinə M.H.Seyidov, M.Rzayev, M.Y.Cəfərov seçilirlər (14, s.133).

Müsəlman Milli Şurasının növbəti, 5-ci iclasında Şura sədrinin müavini M.H.Seyidov sədrlik edir. 7 iyun tarixli bu iclasda İrəvanla bağlı məsələ yenidən qızğın müzakirə doğurur. Hökumət başçısı F. Xoyski hökumət nümayəndələrinin Erməni Milli Şurasının nümayəndələri ilə İrəvana dəmiryolunun açılmasına, erməni və müsəlman Milli Şuralarının Bakı hadisələrinə, Bakının bolşeviklərdən azad olunmasına münasibətlərinə dair aparılan danışıqlar haqqında məlumat vermişdir. İrəvana dəmiryolunun açılması və dəmiryol xəttinin müsəlman əhalili ərazidən keçən hissəsində hərəkətin təhlükəsizliyini təmin etmək haqqında məsələnin həlli hökumətə həvalə olunmuşdur. Milli Şuranın 1 iyun tarixli qərarına əsasən İrəvana nümayəndələrin göndərilməsinə dair məsələ qızğın müzakirə doğurmuş, İrəvan quberniyasının nümayəndəsi Rzayev belə bəyan etmişdi ki, "Mən əminəm ki, İrəvan quberniyasına sizlərdən heç kim getməyəcəkdir, oraya biz, irəvanlılar, mən və Seyidov gedəcəyik, amma bir şeyi sizdən xahiş edirik: öz müstəqil Azərbaycanınızı yaradıb, bizi, Ermənistan Respublikası ərazisində qalanları yaddan çıxartmayın". Belə bəyanatın əsassız olmadığını İrəvandan alınan həyəcanlı məlumatlar bir daha təsdiqlədi. Bir həftə ötməmiş, iyunun 13-də, artıq Azərbaycan Milli Şurası kimi göstərilən Şuranın növbəti, 6-cı iclasında İbrahim ağa Vəkilov İrəvandakı vəziyyət barəsində məruzə edir, müsəlman qaçqınların halını Şura üzvlərinə çatdıraraq aclıq çəkənlərə 150000 rubl ayrılmasını təklif edir. Natiqin təsirli nitqindən bəlli olur ki, qəzalarda sərgərdan qaçqınların sayı 150000-ə çatmış, onların arasında müxtəlif epidemiyalar tüğyan edir, hər gün aclıqdan ölüm halları baş verir. Buna görə də natiq ərzaq, geyim və təsərrüfat malları ilə təcili yardım göstərmək lazım olduğunu söyləyib, zərərçəkənlərin sayını bildirmiş və 206 dağıdılmış kəndləri sadalamışdır. İclas 3 bənddən ibarət qərar qəbul etmişdir: 1) Qaçqınlara paylamaq üçün nəğd olan bütün pul vəsaitini dərhal nümayəndələr vasitəsilə İrəvan mahalına göndərmək; 2) Erməni Şurasından onun sərəncamında olan təchizat ehtiyatlarından imkan daxilində aclıq çəkən müsəlmanlara ayrılmasını xahiş etmək; 3) İrəvan qaçqınlarına, hətta borc olaraq ərzaq yardımı göstərilməsi xahişi ilə türk qoşunları komandanına müraciət etmək; müsəlmanları doğma kəndlərinə qaytarmaq üçün ciddi sərəncamlar verməsini xahiş etmək. Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçməklə yaranmış hakimiyyət gərginliyi şəraitində məsuliyyətli qərarlar qəbul etmək məcburiyyətində qalır. Azərbaycan Milli Şurası buraxılır və «bütün hüquq və səlahiyyətini» F. Xoyskinin sədrliyi altında təşkil edilən hökumətə həvalə edir.

İlk dövlətlərarası müqaviləni imzalamaq Cümhuriyyətin birinci hökumətinin fəaliyyəti dövrünə təsadüf edir. Zaqafqaziya Seyminin nümayəndələri ilə Osmanlı dövləti arasında Batumda gedən danışıqlar iyunun 4-də Osmanlı dövləti ilə yenicə müstəqilliyini bəyan etmiş üç Cənubi Qafqaz respublikaları arasında «sülh və dostluq» haqqında müqavilələrin imzalanması ilə nəticələndi. Erməni nümayəndələri tərəfindən imzalanmış müqavilə ilə keçmiş İrəvan quberniyasının 2 qəzası (Eçmiədzin aə Aleksandropol) Osmanlı dövlətinə keçdi. İrəvanın erməni idarəçiliyinə keçməsi isə sırf siyasi mərkəzə ehtiyac səbəbindən əsaslandırılırdı. Yəni Azərbaycan Cümhuriyyəti xadimləri – Azərbaycan Milli Şurasının üzvləri İrəvan quberniyasını, o cümlədən İrəvan şəhərini Azərbaycan dövlətinin ərazisi hesab edirdilər. Təbii ki, Azərbaycan xanlıqları olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış İrəvan quberniyası Rusiya imperiyası devrildikdən sonra öz müqəddəratını təyin edən

xalqların iradəsinə uyğun həllini tapmalı idi. Belə ki, bu xanlıqların yerli və əzəli əhalisi olan azərbaycanlılar mütləqiyyət rejiminin kütləvi köçürərək yerləşdirdiyi erməniləri öz ərazilərində vətəndaş kimi görürdülər və imperiyanın tətbiq etmiş olduğu inzibati ərazi bölgüsünü mütləq saymaq məcburiyyətində də deyildilər. Yalnız Cənubi Qafqazda kompakt yerləşdirilmiş və muxtariyyət əldə etmək israrı ilə yerlə əhalini kütləvi qırğına məruz qoyan ermənilərin zorakı siyasətinin qarşısını almaq üçün hərbi gücə malik olmadığı mövcud zaman və şəraitdə diplomatik manevr yolunu seçdilər. Faktiki olaraq erməni hərbi hissələrinin azğın əməllərinin cəngində olan İrəvanı (bax. Seymin bütün müsəlman fraksiyalarının birgə iclasının protokolu. 10 aprel 1918-ci il) «qaçılmaz bəla» kimi ermənilərə güzəştə getməklə digər Azərbaycan ərazilərini, o cümlədən Qarabağı əldə saxlamaq qərarına gəldilər. Erməni federasiyası kimi nəzərdə tutulan dövlətin – Ararat respublikasının hökuməti 1918-ci il iyunun 20-də Tiflisdən İrəvana köçdükdən sonra İrəvanda və Azərbaycanın digər tarixi torpaqlarında yerli əhaliyə qarşı qırğınların miqyası artdı.

Ermənilərin özləri üçün siyasi mərkəz kimi İrəvan şəhərini nəzərdə tutmadıqları 1918-ci il 21 iyun tarixli sənəddən ehtimal oluna bilər. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.-Y.Cəfərov Xarici İşlər naziri M.H.Hacinskiyə göndərdiyi məxfi məlumatında bildirirdi ki, Gürcüstan Respublikasının hökumət başçısı keçmiş ZFDR-nın (Zaqafqaziya Federativ Demokratik Respublikası) əmlakının bölüşdürülməsi məsələsinin Azərbaycanla separat həll edilməli olduğunu söyləmişdir. Mövqeyini belə əsaslandırmışdır ki, «ermənilər artıq öz hissələrini alıblar və elə yerlərdə cəmləşdiriblər ki, sonradan Türkiyənin əlinə keçmişdir və bu məsələdə Gürcüstanın Azərbaycana və Ermənistana münasibəti fərqlidir». ZFDR buraxılan kimi əmlak hissəsini əldə etməklə yerləşdirmək çevikliyi ilə erməni hökumətinin təşkili və İrəvana köçməsi prosesi arasında zaman uyğunsuzluğu təəssüratı yaranır. İyunun 22-də M.H.Hacinski M.Y.Cəfərova, təcili teleqram göndərib ərazi sərhədlərini təyin etmək üçün birgə komissiya təşkil etmək təklifini erməni hökumətinə, əgər hələ yaradılmayıbsa, erməni Milli Şurasına bildirməyi tapşırmışdı. Artıq 2 gün əvvəl erməni hökuməti İrəvana köçmüşdü. Nəzərdə tutulmuş İstanbul konfransında iştirak etmək üçün gürcü və erməni nümayəndələri azərbaycanlılardan bir həftə əvvəl İstanbula gəlmişdilər. M.Ə.Rəsulzadə İstanbuldan M.H.Hacınskiyə göndərdiyi məktubda yazırdı ki, ermənilər orada qızğın türkpərəst təbliğat aparırlar, Ənvər paşanın fikrincə almanlar da ermənilərin hakimiyyət sürmələri haqqında mənfi fikirdədirlər.

Xarici ölkələrdə özləri haqqında rəğbətli rəy yaratmaqla məşğul olan ermənilər Cənubi Qafqazda sahib olduqları ərazilərlə kifayətlənməyib müsəlman kəndlərini məhv edirdilər. Andranik qoşunlarını İrəvan və Yelizavetvol quberniyası sərhədlərinə cəmləşdirir və Zəngəzur qəzası tərəfdən Gorusa yaxınlaşırdı. Belə bir şəraitdə, iyulun 31-də Azərbaycan hökumətinin başçısı F.Xoyski İstanbuldakı Azərbaycan nümayəndə heyətinin sədri M.Ə.Rəsulzadəyə yazırdı: «Bütünlüklə Bakı məsələsi ilə məşğul olduğumuzdan hələlik qətiyyətli hərəkət edə bilmirik, amma elə ki, Allah qoysa, bu əməliyyat başa çatdı, onda, əminik ki, bu fitnəkar erməni hərəkatını da ləğv edərik». Azərbaycanın sərhədləri göstərilmiş xəritəni hər vasitə ilə müdafiə etməyi tapşıran F.Xoyski M.Ə.Rəsulzadəyə yazırdı ki, «əgər ermənilər Qarabağa iddia ilə çıxış etsələr, o zaman İrəvanı və Qazax qəzasının bir hissəsini onlara güzəştə getməkdən imtina edin». Bəlli olur ki, belə bir şərtlə edilmiş güzəşt şifahi razılaşma əsasında baş vermişdir. Amma real vəziyyət ondan ibarət idi ki, Batum müqaviləsindən düz iki ay sonra, avqustun 4-də M.Ə.Rəsulzadə İstanbuldan bildirirdi ki, ermənilər tələb etdikləri sərhədlər üzrə layihə və xəritəni Ənvər paşaya təqdim etmişlər. Türkiyədən Sürməli, Naxçıvan, Axalkələki, Eçmiədzin və İrəvan, gürcülərdən Borçalı, Azərbaycandan Qazax, Qarabağ, Zəngəzur, Ordubad qəzalarını tələb edirdilər.

Cənubi Qafqazın müstəqilliyini bəyan etmiş hər üç respublikasının nümayəndələri öz ərazi layihələri ilə Osmanlı dövlətinin rəsmiləri ilə danışıqlar aparırdı. Bu məsələlər ilə xüsusi olaraq Ənvər paşa məşğul olurdu. Arxiv sənədlərindən bəlli olur ki, Osmanlı dövlətinin maraqları təmin olunmaqla və Qafqazdakı müsəlman əhalinin mənafeyini nəzərə almaq şərtilə sərhəd ərazilərinin mübadilələri güzəşti əsasında Cənubi Qafqazda dinc, stabil siyasi şərait yaratmaq Ənvər paşanın aparıcı mövqeyi olubdur. Bu məqsədlə erməni və gürcülərlə sərhədlər məsələsini qaldırmayıb, onlarla mübahisə etməməyi azərbaycanlılara tövsiyə edən paşa Borçalı vasitəsilə Türkiyə üçün dəhliz açılmasını nəzərdə tutaraq Borçalı və Tiflis sancaqlarının mühüm hissəsini gürcülərə verib onlarla ittifaq bağlamağı daha sərfəli hesab edirdi. Qazax qəzasının bir hissəsinin ermənilərə keçməsini məqbul bilmirdi. Ermənilərə bir qədər yer verməyin onların iştahasını qızışdırmaq imkanını vermək olduğunu

söyləyən Ənvər paşa Borçalının cənub hissəsindən keçməklə erməni dövlətinin sərhədi ilə keçmiş İrəvan quberniyası sərhədinin uyğun gələcəyini qeyd edirdi. *Ənvər paşa və digər Osmanlı rəsmiləri ermənilərin saxta iddialarını qəbul etdirmək yönündə qızğın fəaliyyətləri qarşısında aciz olduqları üçün deyil, daha mühüm strateji məsələlər baxımından çıxış edirdilər.* Bu mənada **Cənubi Qafqazda erməni dövlətinin yaranmasına imkan vermək Osmanlı dövlətinin taktiki manevrlərindən sayıla bilər.** 1918-ci il sentyabrın ortalarında M.Ə.Rəsulzadə M.H.Hacınskiyə göndərdiyi məlumatında bildirirdi ki, «əgər Ənvər paşanın fikri qəbul olunarsa, onda Ermənistan haqqında tamamilə danışa bilməyəcəyik. Mümkündür ki, ermənilər müstəqillikdən imtina edərək Azərbaycanda qalmaq və başqa bir formanı qəbul etmək istəyəcəklər». M.Ə.Rəsulzadənin fikrincə, müsəlmanlardan ibarət Borçalını tərk edib, əvəzində ermənilərdən ibarət ərazi əldə etmək Azərbaycanda erməni elementini artırmaq, müsəlmanları isə azaltmaq demək olardı. Böyük hissəsi müsəlmanlardan ibarət olduğu üçün Dərələyəzi tərk etməyin qətiyyən mümkün olmadığını Ənvər paşanın diqqətinə çatdırmış, cavabında paşa «əgər belədirsə, onda Dərələyəzi də güzəştə getmək lazım deyildir» söyləmişdir. «Türkləri verib erməniləri almağı müvəffəqiyyət» saymayan M.Ə.Rəsulzadə Azərbaycan hökumətinə öz nöqteyi-nəzərində israr etməyi tövsiyə edirdi.

Paradoksal görünsə də, gerçəkləşən erməni dövləti bolşeviklərin deyil, Osmanlı hökumətinin həyata keçirdiyi, həm də Türkiyədə deyil, Cənubi Qafqazda baş tutan layihə oldu. Cənubi Qafqazın siyasi müqəddəratı ilə bağlı hələ I Dünya müharibəsi illərində müxtəlif layihələr hazırlanmış, təkliflər irəli sürülmüşdü. Gürcülərin təqdim etdiyi layihədə bir sıra ərazilər müqabilində İrəvanın bir hissəsinin də Osmanlı dövlətinə keçməsi nəzərdə tutulurdu. 1918-ci ilin yazında Osmanlı hökuməti həmin İrəvanın erməni dövlətinin paytaxtı olmasını və Qafqazda erməni dövlətinin yaranmasını reallığa çevirdi. Beləliklə, uzun əsrlər itirilmiş dövlətçiliyini, həm də Qafqazda olmayan dövlətçiliyini ermənilər tarixi düşmən adlandırdıqları türklərin, özü də Osmanlı türklərinin əli ilə əldə etdi. Hələ I Dünya savaşında Rusiya mütləqiyyətinə xidmətləri müqabilində Qafqazda «nəsə» əldə etməyə əmin olmayan ermənilər Osmanlı dövlətinin razılığı ilə 1918-ci ilin mayında arzularına çatdılar. «Türkiyə Ermənistanı» uğrunda canfəşanlıq edən mərkəzi sovet hakimiyyəti bu layihəni Qafqaz üçün heç də məqbul bilməmişdi. Hətta Moskva Erməni Milli Komitəsi bu xəbəri böyük təşvişlə qarşılamışdı. «Kiçik xalqın müstəqilliyini elan edərək Rusiyadan könüllü ayrılmasını quraşdırmağın yolverilməz olduğu» bildirilirdi**.** (13, f.71, s.33, iş.60, v.5-7) Bu hərəkət ümumrusiya işinə xəyanət kimi qiymətləndirilirdi. Mətbuatın verdiyi məlumata görə Moskva Erməni Milli Komitəsi digər dövlətlərin iradəsini nəzərə almadan erməni dövlətinin yaradılması cəhdinə qarşı etirazını bildirmişdir (13, f.71, s.33, iş.60, v.5-7). Mətndən bəlli olduğu kimi, «Fəhlə-kəndli Rusiya hökuməti» nəzərdə tutulurdu. Məlumatda diqqəti cəlb edən məsələ erməni dövlətinin ərazisi ilə bağlıdır: Zaqafqaziyanın dağlıq hissəsindəki ərazilər Ermənistan adlandırılaraq, Erməni Milli Şurasının Türkiyə ilə, Ermənistanın müstəqilliyini tanıyan sülh müqaviləsi bağladığı bildirilirdi (13, f.71, s.33, iş.60, v.5-7).

Cənubi Qafqazın bir hissəsinə «Ermənistan» adı verilərək qurulan bu dövlətin ilkin rəsmi sənədlərdə adı «Ararat Respublikası» kimi göstərilmişdir. «Erməni Federasiyası» ifadəsi də ilkin sənədlərdə yer almışdır (4, f.970, s.1, iş.1, v.51). Məsələnin belə formada həlli Rusiya erməniləri tərəfindən də birmənalı qarşılanmamışdı. Mətbuatın yazdığına görə Almaniya diplomatiyasının yetirməsi sayılan «Müstəqil Ermənistan» və onun müvəqqəti hökuməti ermənilər arasında çox tanınmış deyildi.

Ayrılıqda Ermənistanın heç cür yaşamaq qabiliyyətinin olmayacağına əmin olduqlarını söyləyən Erməni Milli Komitəsinin görkəmli üzvlərindən biri bildirmişdi ki, «geniş erməni kütlələri ayrılmaq tərəfdarı deyildir. Əksinə, onlarda istənilən rus hakimiyyəti tərəfə çox möhkəm meyil vardır». (13, f.71, s.33, iş.1724, v.63)

Rus mətbuatının yazdığına görə bütün iri rus şəhərlərində ermənilərin yığıncağı keçirilir və «hər yerdə erməni məsələsinin nəzərdə tutulan və Türkiyənin həyata keçirdiyi formada həllinə ermənilərin kəskin mənfi münasibətini ifadə edən qətnamələr çıxarılırdı». Böyük dövlətlərin dəstəyi ilə Türkiyədə «erməni məsələsi»nin belə həllini erməni xalqının böyük faciəsi sayaraq Daşnaksütyun partiyasını dönə-dönə lənətləyirdilər. Dağ massivlərindən, sərt iqlimə malik, olduqca yoxsul ərazidən ibarət Ermənistan dövlətinin fiksiya olduğunu deyir, «12400 kvadratverst»lik yeri «dövlət ərazisi» hesab etmirdilər. «Müstəqil Ermənistanın yaradılması» «erməni məsələsini beynəlxalq masştabdan məhrum etmək» sayılırdı. (13, f.71, s.33, iş.1724, v.33) «Ararat Respublikası»na ermənilər tərəfindən

belə münasibət məntiqi suallar doğurur və bir daha Qafqazın ermənilərin qədim vətəni olmadığını təsdiqləyir. Dövlət üçün verilmiş ərazinin əlverişsizliyi, qeyri-münbitliyi və s. vətən torpağını müəyyənləşdirə bilməz. Bütün halları, vəziyyəti ilə vətənində yaranmış milli dövlətinə münasibət seçim məzmunu daşımamalıdır. Qafqazda erməni muxtariyyətinə nail olmaq ümidi ilə və digər məqsədləri naminə dünya müharibəsində Rusiya hökumətinin xidmətində olan ermənilər artıq «Türkiyə Ermənistanı»ndan əlavə, Qafqazda da dövlətə malik olub, sonralar əraziləri birləşdirmək niyyətində idilər. Türkiyənin əli ilə alınmış «Ararat Respublikası» isə onların strateji planları ilə ziddiyyət təşkil edirdi. Sonralar Qafqazda özlərinə saxta tarix düzəldən ermənilər gürcülərlə ərazi davasında «real yerləşmə» prinsipini irəli sürdü. Gürcülər isə «tarixilik prinsipi»ndən çıxış edirdilər. Çarizmin köçürmə siyasəti nəticəsində Cənubi Qafqazın əksər strateji bölgələrinə yerləşdirilmiş ermənilər üçün «real yerləşmə» prinsipi sərfəli idi. Bu prinsipi qəbul edəcəkləri halda gürcü qəzeti «Ertoba»nın yazdığına görə paytaxtları Tiflis Gürcüstanın dövlət sərhədlərinin yaxınlığında qala bilərdi (13**,** f.71, s.33, iş.1724, v.50).

XX yüzilliyin əvvəllərində ərazi iddiasında «tarixilik» prinsipini məqbul bilməyən ermənilər elmi-ideoloji sahədə bir əsrlik hazırlıq işi aparaRaq saxtalaşdırılmış tarixi beynəlxalq ictimaiyyətə qəbul etdirmək yönündə «bütün cəbhə boyu» hücuma keçdilər.

«Türkiyə Ermənistanı» dekreti əvvəlcə Brest-Litovsk müqaviləsi, XX yüzilliyin 20-ci illərində Mustafa Kamalın başçılıq etdiyi milli-azadlıq mücadiləsinin qələbəsi və Sovet Rusiyası ilə yaratdığı əməkdaşlıq sayəsində tətbiqi məzmun ala bilmədi. Onu gerçəkləşdirmək tapşırılmış S.Şaumyan nəinki «Türkiyə Ermənistanı» muxtariyyətini, nəinki Qafqazda, heç Bakıda belə sovet hakimiyyətini təmin edə bilmədi. Bununla belə, xarici siyasətində, Türkiyəyə münasibətdə erməni xalqının müqəddəratına «biganə qalmayan» sovet dövləti ərazi iddiasını uzun müddət qüvvədə saxladı. Ermənilərin isə bu gün də dövlət səviyyəsində Türkiyə ərazilərinə iddiaları öz qüvvəsini açıq şəkildə atributiv məzmun kimi saxlamaqda davam edir.

**MƏNBƏ VƏ ƏDƏBİYYAT**

1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, iki cilddə, Bakı, 2004-2005
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabat), iki cilddə, Bakı, 1998
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi
4. Azərbaycan Respublikasının Dövlət Arxivi
5. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, Bakı, 1960
6. «Bakinskiy raboçiy» qəzeti
7. Bolşevistskoe rukovodstvo. Perepiska. 1912-1927. Sənədlər toplusu, Moskva, 1996
8. Dekretı Sovetskoy vlasti, Moskva, 1957, c.I
9. Dokumentı vneşney politiki SSSR, c.I, Moskva, 1957
10. Əhmədova F. Qafqazda "Azərbaycan" istilahına dair. Azərbaycan tarixi Muzeyi-2006, Bakı, s.72
11. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), Bakı: Azərnəşr, 2011, 474 s.
12. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996
13. Rusiya dövlət sosial-siyasi tarix arxivi (RDSSTA).
14. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları 1918-ci il, Bakı, 2006, 216s.

**THE ESTABLISHMENT OF THE ARMENIAN STATE IN THE CAUCASUS**
**SUMMARY**

Qafqazda erməni dövlətinin yaranmasını şərtləndirən amillər təhlil edilmişdir. Qafqazda ermənilərin əhali faktoruna çevrilməsi XIX əsrin başlanğıcında Rusiyanın regiona köçürmə siyasəti müstəvisində təqdim edilir. Erməni siyasi-ictimai qüvvələri ilə Rusiya hakimiyyətinin münasibətləri çərçivəsində regionda inzibati-ərazi dəyişikliyi şərh edilir. Birinci dünya müharibəsinin, Rusiyada mütləqiyyət rejiminin devrilməsinin təsiri ilə Qafqazda erməni siyasi-hərbi qüvvələrinin fəallaşmasından bəhs edilmişdir. Zaqafqaziya Seymi ilə Osmanlı dövləti arasında münasibətlər kontekstində Qafqazda ermənilərin siyasi müqəddəratının müəyyənləşdirilməsi məsələsi araşdırılmışdır. Müəllifin qənaətinə görə Qafqazda erməni dövlətinin yaradılması beynəlxalq qarşıdurma münasibətləri müstəvisində Osmanlı dövlətinin regionda hərbi üstünlüyü şəraitində gerçəkliyini tapan məsələ olmuşdur.

## СОЗДАНИЕ АРМЯНСКОГО ГОСУДАРСТВА НА КАВКАЗЕ
## РЕЗЮМЕ

Были проанализированы факторы, обусловливающие создание армянского государства на Кавказе. Превращение армян в кавказское население представлено как результат политики переселения России в начале XIX века. Административно-территориальные изменения в регионе комментируются в рамках отношений Российской власти с армянскими общественно-политическими силами.

Рассказывается об активизации армянских военно-политических сил на Кавказе под влиянием Первой мировой войны и свержения монархического режима в России. В контексте отношений Закавказского Сейма с Османским государством был изучена политическая история армян на Кавказе. По мнению автора, армянское государство на Кавказе было создано в условиях военного преимущества Османского государства в регионе в период международного противостояния.

*Д.и.н., проф.* **Кахабер ПИПИЯ**
*Сухумский Государственный Университет (Грузия)*

# АРМЯНСКИЙ ВОПРОС ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ РОССИЙСКОЙ ИМПЕРИИ

***Keywords:*** *Armenian issue, Russian Empire, Ottoman Empire, foreign policy, aggressive purposes*
***Açar sözlər:*** *erməni məsələsi, Rusiya imperiyası, Osmanlı imperiyası, xarici siyasət, işğalçı məqsədlər*
***Ключевые слова:*** *армянский вопрос, Российская империя, Османская империя,, внешняя политика, агрессивные намерения*

Во второй половине XVIII столетия Российская Империя планировала создать в Закавказье объединенное армяно-грузинское царство, на худой конец самостоятельное армянское образование. Поэтому Екатерина II , вслед за Петром, зазывала армян Османской Турции и Ирана в Россию, обещая за это различные грамоты. Тем самым, Российская империя стремилась создать сильное буферное христианское государство против Ирана и Османской Турции. Однако со временем Россия изменило свое отношение к этому вопросу, упразднив в 1801 году грузинскую государственность. Однако, армяне по-прежнему оставались большим козырем в руках Российской империи и их продолжали кормить обещаниями о создании государства на определенных территориях. Это было необходимо России в завоевательных целях против Османской империи. В последующем армяне стали привлекательны и для западных стран, так как и они имели свои планы по отношению к Османской Турции.

Так армяне стали геополитическим мячом, а армянские умы, поверив в обещания, стали усиленно заботится о своей истории, писали различные исторические опусы, где «доказывали» свои права на претендуемые территории. У них так разыгралась фантазия, что будущая Армения должна была омываться тремя морями. Так, возник «армянский вопрос», переросший впоследствии в армянскую угрозу. Начиная со второй половины XIX в. понятие «армянский вопрос» постепенно внедрилось в мировое общественное сознание. Главным содержанием данного вопроса были претензии на земли соседних народов и государств.

Так завоеванное Российской империей азербайджанское Иреванское ханство армяне сочли «Восточной Арменией», а территории Восточной Анатолии Османской Турции, где жили армяне, приняли за «Западную Армению». Таким образом, целью армян было объединение «Восточной Армении», т.е. земель азербайджанского Иреванского ханства, с землями Восточной Анатолии и создания Великого Армянского государства. Эта, сформулированная на фантазиях армянская цель, была на руку, как Российской империи, так и Западно-Европейским странам.

После Адрианопольского договора 1829 года османское правительство было занято подавлением восстания Мехмета Али. За время этой борьбы умер султан Махмуд II и на престол 1 июля 1839 г. взошел Абдул Гамид. 3 ноября того же года был зачитан манифест султана, объявивший начало реформ, получивших название танзимата. Суть манифеста заключалась в том, что для рационального управления великой державой требуется принятие некоторых новых законов. Главными из них станут законы, направленные на обеспечение защиты жизни, чести и имущества подданных, упорядочение налоговой системы, порядка отправления воинской повинности и установление сроков солдатской службы. Султан особо подчеркивал, что намеченные реформы в одинаковой мере касаются все подданных независимо от вероисповедания.

В 1853 г. католики получили разрешение на ремонт одной из церквей в Бейтлахиме. Это вызвало протесты православной церкви и ее покровительницы России. Стали настойчивее требования Франции восстановить ее прежние привилегии в отношении святынь.

Высокая Порта, поручив изучение вопроса специальной комиссии, пришла к решению возложить обязанности по уходу за христианскими святынями, которые никак не могли поделить между собой две церкви, на мусульман. Русский царь направил в Константинополь со специальной миссией своего министра морского флота, генерал губернатора Финляндии, командующего Балтийским флотом адмирала князя Меньшикова, который 28 февраля 1853 г.

предъявил султанскому двору ультимативное требование решить вопрос о святынях в пользу России и дать твердые гарантии соблюдения привилегий православной церкви в Турции.[1] Целью России являлся раздел территории «больного человека», как называли Османскую империю, что было согласовано с английским послом в Петербурге сэром Гамильтоном Сеймуром.[2]

Высокая Порта отвергла претензии России, считая, что признание ее покровительства над православной церковью означало бы узаконение и закрепление за нею этого права. Князь Меньшиков, объявив о прекращении политических отношений с Османской империей, 12 мая вместе совсем посольством покинул Стамбул. Это событие послужило поводом для начала Крымской войны.

Османская империя объявила войну России 4 октября 1853 г. Войска под командованием Абдулкерима паши начали действия в направлении Гюмрю и Ахыски. 14 октября они потерпели поражение и отошли за реку Арпачай. 1 декабря в битве при Башгедиклере турки также потерпели поражение и отошли в Карс. Русские окружили город. Война на Востоке свелась после этого к обороне Карса. Падение Севастополя 9 сентября 1855 года ускорило предпринятые Александром II (вступил на русский престол 2 марта 1855 г., после смерти Николая I) действия по скорейшему заключению мира. Желая как-то компенсировать поражение России, он приказал перейти к наступлению на Карс, которое началось 29 сентября. 15 тысяч защитников крепости успешно отразили приступ 40 тысяч русских, нанеся им потери в живой силе, исчисляющиеся более 7 тыс. человек. Но, начавшийся среди оборонявшихся голод, вынудил их 25 ноября 1885 г. сдать крепость.

1 февраля 1856 г. в Вене был подписан протокол, проложивший путь к мирным переговорам. 4-ый пункт документа оговаривал включение в грядущий мирный договор положения об уравнивании в правах христианских подданных Османской империи с мусульманами. Устанавливался срок и место созыва мирной конференции - в течение 3 недель в Париже. 18 февраля 1856 г. султанское правительство обнародовало манифест о реформе.

Опубликовав манифест о реформе до начала Парижской конференции, Турция стремилась показать, что это ее собственная инициатива. Более того, в подписанном 30 марта 1856 г. мирном договоре отмечалось, что державам вручен документ о реформах в Османской империи, что вовсе не означает вмешательство держав во внутренние дела Турции. Однако все это было лишь соблюдением внешних приличий. Истина заключалась в том, что право покровительства христианам признавалось теперь не только за Россией, но и за всеми другими державами. Вместе с тем, нельзя утверждать, что манифест о реформе встретил одобрение у немусульман, живших в Турции.

Основными уступками, даруемыми немусульманам в угоду Европе, были признание за ними прав занимать чиновничьи должности и поступать в гражданские и военные учебные заведения, разрешать наследственные споры в патриаршествах, издавать уголовные и торговые законы помимо официального на языке меньшинств, быть представленными в местных собраниях двумя депутатами от каждой общины и, наконец, признание за иностранцами права на собственность.

После подписания Парижского договора четыре великие державы (Россия, Англия, Франция, Австрия), под видом защиты интересов религиозных меньшинств, стали неприкрыто вмешиваться во внутренние дела Османской империи.

Развивавшиеся в то время процессы и сопровождавшие их события свидетельствуют о том, что ни Россия, никакая другая держава не проявляли ни малейшего интереса к армянской общине в Турции. Усилия России были направлены на то, чтобы стать признанной покровительницей греко-православной церкви в Турции и через это получить право вмешательства во внутренние дела Османской империи; Франция по тем же соображениям выступала в роли защитницы турецких католиков. На фоне происходивших событий стали проявляться некоторые изменения и вместе с тем какие-то волнения и в армянской общине, мирно проживавшей

[1] К у р г и н я н, Е. А. Борьба англо-австро-венгерской группировки против России в период между Сан-Стефанским миром и Берлинским конгрессом. - УЗМОПИ, т. 189, вып. 9, 1967.

[2]К. Гюрюн К. Армянское досье. Перевод с турецкого. Баку, 1993, с.44.

здесь с 1461 г.

«Эта община **(армянская)** обеспечивала функционирование повседневной турецкой жизни. С давних времен турки, привыкшие больше управлять, чем служить, уступили им все отрасли промышленности. В результате все банкиры, купцы и механики в Турции были армянами. Вместе с тем, между ними и мусульманами существовали психологическое сходство и единство интересов. Являясь испокон века соседями, они имели одинаковые чувства и обычаи, поэтому армяне легко уживались с турками и, обеспечив свою безопасность, заняли и продолжали занимать влиятельную позицию в обществе. Трудно было найти хотя бы одного пашу или высокопоставленного чиновника, не задолжавшего армянину. И самый неимущий крестьянин обращался за кредитами к армянам, чтобы приобрести семена для посева. Османец и дня не мог прожить без армянина. Это было настолько ясно, что русские, желавшие погубить Турцию, стали привлекать на свою сторону эту общину. В 1828 г., захватив Эрзерум, они вовлекли армян в свои репрессивные действия, и поэтому армяне были вынуждены покинуть родные места, когда русские отошли назад»[1].

Эти строки, подтверждающие благополучное положение и нормальную жизнь армян в Турции того времени, опубликованы, как видно из подстрочного примечания, в 1857 г. в Нью-Йорке. В таком случае, почему и откуда возникли упомянутые волнения в этой общине?

Так, следуя поставленной цели в феврале 1862 г. армянское население Вана выступило с оружием в руках против турецких властей. Бои между армянами и турецкой полицией приобрели широкий размах. На помощь повстанцам города поспешило армянское население окрестных сел. Повстанцы захватили Ванскую крепость и закрепились в ней. Только после вмешательства войсковых частей армяне подчинились властям.

Летом 1862 г. крупное восстание вспыхнуло в Зейтуне, который стал одним из центров армянских банд. Султанское правительство обратило на Зейтун особое внимание в середине XIX века. Опасаясь того, что эта провинция может стать одним из очагов армянского сепаратизма Султанское правительство сразу же подавило выступление армян, однако в многочисленных органах армянской периодической печати были опубликованы статьи, посвященные героическому Зейтунскому восстанию, так как эта пропаганда могла послужить примером для жителей других областей Турции. Так армяне ковали себе беду.

Спустя год после Зейтунских событий, в 1863 г., произошли выступления среди армянского крестьянства провинции Муш, а в 1865 г. - в провинции Чарсанджак. Поднявшиеся там против местных феодалов крестьяне направили делегации в Константинополь, прося Высокую Порту облегчить свое положение. Однако главной целью было создание самостоятельной Великой Армении, а не улучшение их положения, поэтому делегаты были арестованы, выступления крестьян подавлены.

Таким образом, в 1862 г., после введения принципов «танзимата», армянская община в Турции стала пользоваться еще большими правами: была создана собственная Ассамблея, которая управляла делами общины и выступала от имени нации ("миллет") в сношениях с государством. Как проницательно замечает Жорж де Малевил: "Эта система великодушного поощрения... была опасна для самих благодетелей, поскольку содержала в зародыше дискриминацию противоположного характера. В действительности отдельные "нации" (в данном случае – армяне), обладающие собственным частным правом, специальной налоговой системой, имеющие официальное представительство, поддерживаемое тайно или открыто посольствами зарубежных держав, к которым эти нации этнически относились, находились в привилегированном положении по сравнению с арабским или турецким населением империи, обязанным проходить военную службу и не имеющим иного "защитника", кроме ослабленного султана"[2].

В записках генерального консула России в Эрзеруме и Ване генерала Маевского недвусмысленно сказано: "...Все рассказы о бедственном положении армян в Турции до 1895

[1]C. Oscanyan.The Sultan and His People.N. Y., 1957, p. 353-354.
[2]В.Л.Величко. Кавказ Русское дело и междуплеменные вопросы. Баку, 1990,с.107-108.

года следует считать слишком преувеличенными и раздутыми. Им жилось здесь не хуже, чем в других местах. Грабежи и разбои, о которых столько кричали армянские агитаторы, практиковались здесь в гораздо меньших размерах, чем на Кавказе. Угон скота был таким же явлением, как конокрадство в различных районах России. А личная и имущественная безопасность в тех областях, где авторитет турецкой администрации был достаточно силен, была обеспечена даже в большей степени, чем хотя бы в соседней с Турцией Елизаветпольской губернии" [1].

Далее, касаясь более подробно положения различных слоев армян в Турции, он же указывает, что "жалобы на угнетенное положение армян в Турции никоим образом не могут быть отнесены на долю армян-горожан, всегда пользовавшихся достаточной степенью свободы, безопасности и благополучия. Общественное положение их, во всех отношениях, было больше, чем удовлетворительное" [2].

Что касается армянского крестьянства в Турции, то и оно было достаточно зажиточно и социально защищено. Была налажена система орошения полей, выращивание хлеба приносило неплохие доходы и обеспечивало крестьянам вполне безбедное существование. "Смело можно утверждать, что турецкие армяне-сельчане всегда были обеспечены значительным достатком продовольственных средств, и материальное их благосостояние было выше благосостояния хотя бы русских крестьян в средней полосе России". Приведем еще свидетельство на ту же тему прокурора Эчмиадзинского синода А.Френкеля, который так описывает положение турецких армян: "...Подавляющая масса армян, разделенных между Турцией и Персией, ничем не реагировали против мусульманского владычества, т.к. жалось армянам отнюдь не хуже, нежели другим подданным султана и шаха армяне быстро проникли в правящие и финансовые сферы своих завоевателей, захватив в свои руки почти всю торговлю и кредит... Ни турки, ни персы не вмешивались в армянское обычное право и порядок самоуправления мелкой земской единицы" [3].

Если какой-то антагонизм между турками и армянами и имел место в то время, то он был вызван отнюдь не притеснениями властей и не религиозным фанатизмом, а тем, что "по отношению к отсталым массам мусульманского населения армянская городская буржуазия выступала в виде представителей капитала, носящего в условиях Турции хищнический, преимущественно ростовщический характер" [4].

